**FARUQ SÜMƏR**

# OĞUZLAR

# (TÜRKMƏNLƏR)

**TARİXLƏRİ**
**BOY TƏŞKİLATI**
**DASTANLARI**

**Bakı – 2013**

**TÜRKSOY**
ULUSLARARASI TÜRK KÜLTÜRÜ TEŞKİLATI
İNTERNATİONAL ORGANİZATİON OF TURKİC CULTURE

**TÜRKSOY kitabxanası seriyası: 25**

AMEA Folklor İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Türkcədən çevirən,
ön söz, qeyd və şərhlərin müəllifi:
Prof. Dr. Ramiz ƏSKƏR

Redaktor:
Akad. İsa HƏBİBBƏYLİ

**Faruq Sümər. Oğuzlar (Türkmənlər). Tarixləri. Boy təşkilatı. Dastanları. Bakı, MBM, 2013, 448 səh.**

Oğuzlar türk xalqlarının təşəkkülündə, inkişafında böyük rol oynamış ən güclü qollardandır. Ötən əsrlər oğuz tayfalarının öz vətəni, xalqı, milli istiqlaliyyəti uğrunda mərdanə döyüşlərinin şahididir. Oğuzların ucaltdığı tarixi abidələr bütün dünyanı valeh etmişdir.

Oğuzlar həm də azərbaycanlıların əcdadıdır.

Məşhur türk tarixçisi Prof. Dr. Faruq Sümərin kitabı onun uzun axtarışlarının əvəzsiz bəhrəsidir. Oğuzların həyatı, məişəti, bir etnos kimi ən qədim zamanlardan təşəkkül tapması, dövlət qurma bacarığı monoqrafiyada öz əksini tapmışdır. «Oğuzlar» kitabının oxucularımız tərəfindən maraqla qarşılanacağı şübhəsizdir, bu əsər onları Azərbaycan xalqının təşəkkülü, varlığı ilə bağlı ilkin mənbələrlə tanış edəcəkdir.

İSBN 4703000000-26-

©Ramiz Əskər, 2013

## PROF. DR. FARUQ SÜMƏR: HƏYATI, ŞƏXSİYYƏTİ VƏ ƏSƏRLƏRİ

Türklərdə xronikaçılıq, salnaməçilik, vəqayenəvislik, münşilik, müvərrixlik, bir sözlə, tarixçilik ənənəsi, təəssüf ki, zəif inkişaf etmişdir. Bu da onunla bağlıdır ki, qəhrəman türk milləti tarix yazmaqdan çox tarix yaratmağa üstünlük vermiş, bu işi tarix yaratma bacarığı və qüdrəti olmayanlara həvalə etmişdir. Nəticədə türk tarixini salxım söyüd kölgəsində şərab içən, nargilə çəkən, bəng atan, gözəllərə qəzəl, sultanlara qəsidə qoşan, batman qılıncları qaldırmağa gücü çatmayan, misqal lələkləri xüsusi şövqlə oynadan qeyri-türklər yazmışlar. Türkiyədə (habelə digər türk ölkələrində) müasir mənada tarix elmi və tarixçilik son yüz ildə meydana çıxmışdır.

Cümhuriyyət dövründə qardaş Türkiyədə tarix üzrə bir-birindən istedadlı alimlər yetişmişdir. Onların arasında Məhmət Fuad Köprülü, Nəcati Luqal, Əhməd Rəfiq Altınay, İsmayıl Haqqı Uzunçarşılı, İbrahim Haqqı Konyalı, Ömər Lütfi Barkan, Mürkimin Xəlil Yinanç, Əqdəs Nemət Kurat, Zəki Vəlidi Toğan, Xəlil İnalcıq, Osman Turan, Məhmət Köymən, Kamal Karpat, İlbər Ortaylı kimi dünya miqyasında qəbul edilən şəxsiyyətləri göstərmək olar. Bu kitabın müəllifi Prof. Dr. Faruq Sümər də həmin cərgədə xüsusi və şərəfli yer tutan görkəmli alimlərdən biridir.

Faruq Sümər 1924-cü ildə Konyanın 120 kilometr cənubunda yerləşən Bozqır qəsəbəsində istiqlal savaşı qazisi Məhmət Zəki əfəndinin ailəsində doğulmuşdur. Anası Züleyxa xanım ibtidai məktəbin üçüncü sinifinə qədər oxusa da, türk törəsinə çox bağlı bir qadın idi. O, uşaqlarına ud çalmağı öyrətmiş, onları oxumağa həvəsləndirmişdir. 1931-ci ildə ailənin İstanbula köçməsi ilə uşaqların təhsili üçün daha yaxşı şərait yaranmışdır.

Faruk Sümər İstanbulun Ələmdar səmtində yerləşən 49 saylı ibtidai məktəbi bitirmiş, daha sonra təhsilini İstanbul litseyində davam etdirmişdir. 9-cu sinifdə ikən o, anasının köməyi ilə əski yazını öyrənmiş, bir mollanın sayəsində osmanlıca mətnləri rahat və sürətli oxumaq sahəsində yaxşı vərdişlər qazanmışdır. Elə həmin dövrdə də tarixçi olmağı qərara almışdır.

II dünya müharibəsi başlayanda almanların İstanbula hücum ehtimalı bir çox ailəni yaylalara və kəndlərə getməyə məcbur etmişdi. Faruq Sümərin ailəsi də Toros dağlarındakı yaylalara qalxmış, gənc Faruq burada neçə əsrdən bəri köçəri elat həyatı yaşayan əski oğuzların bir qolu olan müasir yörükləri yaxından görmək imkanı qazanmışdır.

F.Sümər 1942-ci ildə litseyi başa vuraraq İstanbul Universitetinin tarix fakültəsinə daxil olmuşdur. M.F.Köprülü, M.X.Yinanç, Z.V.Toğan, Ə.N. Kurat, O.Turan, C.Baysal, O.Ş.Gökyay, İ.Küçükömər, M.Turxan kimi ünlü xocalardan dərs almış, səlcuqlu və osmanlı dövrü üzrə ixtisaslaşmağa başlamışdır. Bakalavr dərəcəsini «XVI əsrdə Anadoluda türk oymaqları» mövzusunda yazdığı buraxılış işi ilə bitirmişdir. Sonra magistraturada oxuyan gənc alim «Anadolu türk boy və oymaqları (XVI və XVII əsrlərdə)» mövzusunda dissertasiya (68 səhifə) müdafiə edərək Prof. Dr. Mükrimin Xəlil Yinançın başçılıq etdiyi orta əsrlər tarixi kafedrasından 1948-ci ilin fevralında «əla» qiymətlə məzun olmuşdur.

Faruq Sümər daha sonra Ankara Universiteti dil və tarix-coğrafiya fakültəsinin doktoranturasına daxil olmuş, əvvəllər işlədiyi mövzunu məkan baxımından daha da genişləndirərək Prof. Dr. Osman Turanın rəhbərliyi altında «XVI və XVII əsrlərdə Anadolu, Suriya və əl-Cəzirədə oğuz boylarına mənsub təşəkküllər» adlı dissetrasiyasını (262 səhifə) «əla» qiymətlə müdafiə etmiş və 24 may 1950-ci ildə doktor ünvanına layiq görülmüşdür. Lakin doktoranturada təhsil nazirliyinin təqaüdü ilə oxuduğuna görə iki il yeddi ay iyirmi beş günlük məcburi xidmət dövrünü başa vurmaq üçün İstanbuldakı Süleymaniyyə kitabxanasında məmur olaraq işə başlamışdır.

Akademik çalışmalarını davam etdirmək üçün Faruq Sümər məmur vəzifəsindən istefa edərək 1953-cü ilin yanvarında doktorantı olduğu fakültədə assistent (Prof. köməkçisi) vəzifəsinə keçmişdir. 1955-ci ilin dekabrında «Qaraqoyunlular: qəbilə quruluşu və başlanğıcdan Cahan şaha qədər siyasi tarixləri» mövzusunda dissertasiyasını (169 səhifə) jüri qarşısında müdafiə edərək dosent adını almışdır.

Faruq Sümər 1 iyun 1956-ci ildə türk silahlı qüvvələrində həqiqi hərbi xidmətə çağrılmış, bir il altı ay ordu sıralarında olmuş, tərxis edildikdən sonra əvvəlki işinə qayıtmışdır.

1959-60-cı illərdə London Universitetinin Asiya və Afrika Araşdırmaları Məktəbində müsafir dosent kimi dərs demişdir.

Dosent adını almasından 5 il keçdiyinə görə «Oğuzlara aid dastani mahiyyətdə əsərlər» adlı araşdırmasını (həcmi 6 çap vərəqi, elmi jurnalda dərc olunmuşdur) növbəti akademik dərəcəyə, yəni professorluğa təqdim etmiş, bürokratik prosedurlar uzun sürdüyü üçün, nəhayət, 1963-cü ilin dekabrında universitetin professoru adını ala bilmişdir.

18 iyun 1974-cü ildə Prof. Dr. Əqdəs Nemət Kuratın vəfatı ilə əlaqədar Ankara Universiteti dil və tarix-coğrafiya fakültəsində orta əsrlər tarixi kafedrasının müdiri vəzifəsi boşalmış, Faruq Sümər müdir seçilmişdir. Bu vəzifədə 8 il çalışdıqdan sonra həmkarlarının və tələbələrinin təkid və israrlarına baxmayaraq, elmi tədqiqatlara daha çox vaxt ayırmaq məqsədilə 10 iyul 1982-ci ildə 58 yaşında ikən təqaüdə çıxmış və İstanbula köçmüşdür. Halbuki həmin vaxt onun rəsmi təqaüd yaşına tam 10 il qalırdı.

Faruq Sümər zahirən çox sağlam görünsə də, səhhətində bəzi problemlər yaşamışdır. Əski mətnləri zərrəbinlə oxumaqdan sağ gözü zəifləmiş və 1958-ci ildə baş verən iltihab nəticəsində tam tutulmuşdur. 1977-ci ildə isə mədəsindən əməliyyat olmuşdur. Üstəlik, ekiz uşaqlarından Əli Qutlunun 25 yaşında nəqliyyat qəzasında həlak olması onu hədsiz dərəcədə sarsıtmışdır. Bir müddət İstanbul Universiteti Cərrahpaşa tibb fakültəsi xəstəxanasında müalicə olunsa da, qara ciyər xərçəngindən 21 oktyabr 1995-ci ildə 71 yaşında haqqın rəhmətinə qovuşmuşdur. 26 oktyabr günü Türk Dünyası Araşdırmaları Vəqfində düzənlənən mərasimdən sonra Fateh camisində qılınan namazın ardından Qozludakı ailə məzarlığında dəfn edilmişdir.

Faruq Sümər dörd oğul atasıdır, iki dəfə ailə qurmuşdur. Özü kimi tarixçi olan birinci eşi Prof. Dr. Minə Ərol xanımdan Səlcuq adlı bir oğlu, ikinci eşi Cəmilə Nuray xanımdan Əli Qutlu, Cavad Mutlu və Zəki Gültəkin adlı üç oğlu olmuşdur.

Ərəb, fars, ingilis və fransız dillərini mükəmməl bilən Prof. Dr. Faruq Sümər təqribən 400 elmi əsər müəllifidir. Bunlardan bir qismi kitab və dissertasiya, bir qismi elmi məqalə və məruzə, bir qismi isə ensiklopediya maddəsi, rəy və tərcümədir. Onun qələmindən 22 kitab çıxmışdır ki, bunlardan 19-u nəşr olunmuş, 3-ü isə işıq üzü görməmişdir.

Müəllifi (daha doğrusu, həmmüəllifi) olduğu ilk kitab ingiliscə çıxan «Turkishe Archtecture» («Türk memarlığı») kitabıdır (1965, 190 səhifə). Özü ilə birlikdə altı professor tərəfindən yazılan bu kitab üç dəfə işıq üzü görmüş, xarici ölkələrdə mütəxəssislərin dərin marağına səbəb olmuşdur.

Ünlü tarixçinin şahəsəri «Oğuzlar (Türkmənlər). Tarixləri-Boy təşkilatı-Dastanları» kitabı cüzi əlavələrlə 5 dəfə (1967, 1972, 1980, 1992, 1999) nəşr edilmişdir. Bütün dünyada oğuzlar haqqında yazılmış bu ən gözəl kitabı 1988-ci ildə Sabir Rüstəmxanlının tövsiyəsi ilə çox qısa müddətə (iki aya) tərcümə edərək çapa hazırladım. 1989-cu ildə İstanbulda olarkən mərhum Turan Yazqanın rəhbərlik etdiyi Türk Dünyası Araşdırmaları Vəqfində Faruq Sümərlə tanış oldum və əsəri tərcümə etmək üçün ondan icazə istədim. Hələ SSRİ tərkibində olan Azərbaycanla Türkiyənin ayrı-ayrı müəllif hüquqları cəmiyyətlərinə üzv olduqları üçün ona honorar verilməyəcəyini bildirdim. O, honorar-filan istəmədiyini, nəşriyyatın onu bir neçə günlüyə Bakıya dəvət etməsinin yetərli olacağını söylədi. Sonra «Bunlar tamam da, siz

azəricə biliyormusunuz?» deyə soruşdu. «Nasıl bilməm, hocam, bən azəriyim» dedim. Tezliklə məsələnin məğzi bilindi. O məni ərzurumlu-filan sanmış, ədəbi Azərbaycan dilini bilib-bilmədiyimi anlamaq istəmişdi: «Türkçəniz o kadar güzəl ki, bəni şaşırttınız» dedi.

Kitab 1989-cu ildə Sabir Rüstəmxanlı tərəfindən «Yazıçı» nəşriyyatının planına salındı, 1992-ci ildə Kamil Vəliyevin ön sözü ilə 8.500 nüsxə tirajla nəşr edildi və bir-iki həftə ərzində satılıb qurtardı. Onun bəlkə də 500 nüsxəsini müxtəlif mağazalardan mən özüm alıb qohum-qardaşa, dost-tanışa bağışladım. O dövrdə şiddətli inflyasiya olduğu üçün mənə çatacaq 4.300 manat honorar artıq qəpik-quruşa çevrilmişdi. Nəşriyyat indeksasiya tətbiq etməkdən boyun qaçırdı, mən də onu almaqdan vaz keçdim (o vaxt Sabir Rüstəmxanlı «Yazıçı»dan getmişdi). Təbii ki, nəşriyyat Faruq Süməri Bakıya dəvət etmədi (onun elə bir səlahiyyəti də yox idi). Beləliklə, nə müəllif, nə də mütərcim bu kitabdan heç bir qazanc əldə etmədi. İrihəcmli bu əsərin tərcüməsinə sərf etdiyim zəhmət, korrekturanın oxunmasına itirdiyim vaxt, təxminən min səhifəlik mətnin makinada yazılmasına xərclədiyim pul, hər gün nəşriyyata ayaq döyməyim türklüyə halal olsun. Sonra Faruq Sümərlə görüşmək qismət olmadı. Mən tərcümədən (sanıram) 5 ədəd Turan Yazqana verdim ki, müəllifə çatdırsın. Kitablar xocaya çatmış və onu hədsiz dərəcədə sevindirmiş, hətta duyğulandırmışdı. Bunu sonra öyrəndim.

«Oğuzlar» 1999-cu ildə Məhəmməd Aydoğduyev tərəfindən türkmən dilinə çevrilmişdir. Türkmənistanın o vaxtkı rəhbəri Səfərmurad Türkmənbaşı Faruq Sümərə böyük iltifat göstərmiş, onu bir neçə dəfə Aşqabada dəvət etmiş, türkmən pasportu vermiş, ordenlə təltif etmişdi. Alim Türkmənistan Elmlər Akademiyasının fəxri üzvü seçilmişdi.

Kitabın azərbaycanca nəşrindən 21 il ötmüş, ölkəmiz latın əlifbasına keçmiş, kiril əlifbasını bilməyən yeni bir nəsil yetişmişdir. Milli dövlət quruculuğunda, milli şüurun inkişafında «Oğuzlar» kimi bir əsərin oynayacağı müsbət rolu nəzərə alaraq onu yenidən nəşr etməyi qərara aldım. Bu dəfə texniki səbəblər üzündən birinci nəşrdə nəşriyyatın ixtisara saldığı xəritələri və cədvəlləri də veririk. Kitaba digər və yeganə «düzəlişimiz» haşiyələrdə dahi Mahmud Kaşğarinin «Divanü lüğat-it-türk» kitabına dair iki istinada (Kilisli və Atalay) üçüncü istinadı əlavə etməkdir. Burada «Divan»ın Azərbaycan dilinə tərcüməsinin (2006-cı il) müvafiq yerləri göstərilir.

«Oğuzlar» haqqında geniş məlumata lüzum yoxdur. Oxucular onun necə dərin, əhatəli və milli əsər olduğunu görəcək, sevə-sevə oxuyacaqlar. Yalnız onun bir neçə özəlliyini qeyd etmək istərdim.

Kitab üç hissədən ibarətdir. İlk hissə oğuzların tarixindən bəhs edir. Müəllif burada «Oğuz» adının etimologiyası, qədim dövrdə Barlıq çayı sahilində, Tula boyunda, göytürklər və uyğurlar dövründə yaşayan oğuzlar haqqında bilgilər verdikdən sonra onların vətəni, həyat tərzi, iqtisadi həyatı, əski

dini inamları, islamı qəbul etmələri, adət-ənənələri barədə söz açır. Bundan əlli il əvvəl təqdim olunan bir çox maraqlı məlumatlar, ilk dəfə açıqlanan faktlar elm aləminə böyük bir alimin qədəm qoyduğunu göstərirdi.

Oğuzların qurmuş olduqları böyük və möhtəşəm Səlcuqlu imperiyasının Yaxın və Orta Şərq xalqlarının taleyində oynadığı misilsiz rol, eşsiz türk qəhrəmanı Alparslanın 1040-cı ildə Dandənəkan meydan müharibəsində İranı, 1071-ci il Malazgirt meydan müharibəsində isə Bizansı məğlub etməsi, oğuzların Orta Asiyada və Qafqazda, İranda və Anadoluda, İraqda və Suriyada gerçəkləşdirdikləri fütuhatlar, səlib yürüşlərinə və monqol istilasına son qoymaları, Osmanlı, Ağqoyunlu, Qaraqoyunlu dövlətlərini meydana gətirmələri, daha sonra Misiri, Hicazı, Əlcəzairi, Mərakeşi, Balkanları ələ keçirmələri, Vyana qapılarına qədər getmələri, bir sözlə, üç qitəyə hakim olmaları ilkin mənbələrin dili ilə inandırıcı bir şəkildə göstərilmişdir.

Kitabın “Boy təşkilatı və boylar” adlanan II hissəsində Kaşğari, Yazıçıoğlu və Rəşidəddinə görə oğuz boylarının adları, mənaları, hər boyun öz ət qismi və onqonu, başqa ifadə ilə, sümüyü və quşu, hiyerarxiya içində dəqiq mövqeyi tək-tək təsvir edilmişdir. Kayı, bayat, alka bölük, qara bölük, yazır, döyər, dodurğa, yaparlı, əfşar, kızık, bəydili, karkın, bayındır, peçeneq, çavuldur, çəpni, salur, eymür, ala-yundlu, yürəgir, iğdır, büğdüz, yıva və kınık olmaq üzrə 24 oğuz boyunun ucsuz-bucaqsız bir coğrafiyada yayılması, köçəri və ya oturaq şəkildə yaşaması, onların adını daşıyan yer adları və sair məsələlər sistemli bir şəkildə tədqiq edilmişdir.

Kitabın dastanlardan bəhs edən son hissəsində onların mövzusu, yazıldığı zaman və yer, dastan qəhrəmanları və onların müsəlmanlığı, iqtisadi həyatı, siyasi fəaliyyəti, ordaları, ailə həyatı maraqlı faktlar əsasında göstərilmiş, oğuzlarda ordu, minicilik, geyim, ovçuluq, əyləncələr ayrı başlıqlar altında araşdırılmışdır. Oğuzların davranışlarına xüsusi bölmə həsr edən Faruq Sümər onların psixologiyasını, şərəf, ləyaqət və heysiyyət duyğularını, ülvi ruhunu, daim zəiflərin və gücsüzlərin tərəfində olmalarını, oğuzlara xas olan dərin humanizmi, sonsuz mərdlik, cəsarət və cəngavərliyi, bir sözlə, saysız-hesabsız müsbət məziyyətləri dastanların özündən gətirdiyi faktlar əsasında çox böyük ustalıqla gözlər önünə sərmişdir.

F.Sümər bu kitabı yazarkən ərəb və fars dillərindəki qədim mənbələrə, o cümlədən Bəlazuri, ibn Dəvadari, ibn Tağrı-Birdi, ibn ül-Əsir, Məkrizi, Təbəri, Mərvəzi, Cüveyni, Beyhaki, Gərdizi, İstəxri, Biruni, Müqəddəsi, Hafiz Əbru, ibn Bibi, Həmdulla Müstövfi, Rəşidəddin, Mirxond, Ravəndi, türk müəlliflərindən Yazıçıoğlu, Ruhi, Şikari, Nəşri, Peçevi, qərb səyyahlarından Marko Polo, Rubruk, Nibur, Klavixo kimi şəxsiyyətlərin əsərlərinə, eləcə də çağdaş tarixçilərin bu dövr və mövzu ilə bağlı araşdırmalarına, təqribən 400 adda elmi ədəbiyyata müraciət etmişdir.

Müəllif kitabın sonuna dolğun və məzmunlu bir xülasə də əlavə etmişdir.

Faruq Sümərin kitablarından biri «Qaraqoyunlular: başlanğıcdan Cahan şaha qədər» adlanır (1967, 167 səhifə; 1984 və 1992-ci illərdə təkrar nəşr edilmişdir). Bu kitab bizə «Oğuzlar» qədər vacibdir, çünki 1387-1468-ci illərdə Şimali və Cənubi Azərbaycan ərazisində mövcud olmuş böyük və milli dövlətimizin tarixi haqqında ən yaxşı monoqrafiyadır.

Ünlü tarixçinin «Səfəvi dövlətinin quruluşu [qurulması] və gəlişməsində [inkişafında] Anadolu türklərinin rolu (Şah İsmayıl ilə xələfləri və Anadolu türkləri)» kitabının (1976, 265 səhifə, təkrar nəşri 1992) adı bizə çox şey deyir. Dərin ehtiyacı nəzərə alaraq alimin qaraqoyunlular və səfəvilər haqqındakı kitablarını tezliklə ana dilimizə tərcümə etmək lazımdır.

«Türklərdə atçılıq və minicilik» kitabı da (1983, 132 səhifə) çox dərin və gərgin axtarışların məhsuludur. Burada tarixi bilgilərlə yanaşı etnoqrafik məlumat, sərraclıq və qoşqu ləvazimatı ilə bağlı terminlər nəzərə çarpır.

Faruq Sümərin «Əski türklərdə şəhərçilik» kitabı (1994, 112 səhifə) qədim türklərdə şəhərsalma mədəniyyətinin tarixinə həsr olunmuş, burada bir çox qədim türk şəhəri haqqında maraqlı faktlar və xəritələr verilmişdir.

Qısa adı «Yabanlu bazarı» olan başqa bir kitabı (1985, 132 səhifə) türk iqtisad tarixinin unudulmuş bir dönəmini işıqlandırır. XIII əsrdə Zamantı qalası çevrəsində mövcud olan ilk beynəlxalq yarmarkadan bəhs edən bu əsərin mətni türk və ingilis dillərindədir.

«Əshabül-Kəhf» kitabı (1989, 92 səhifə) islam aləmində məşhur olan əfsanəvi bir mağara və onun əsrlərcə yuxuda olmuş sakinləri haqqındadır. Qədim tarixi qaynaqları araşdıran müəllif bu qənaətə gəlmişdir ki, həmin mağara Maraş vilayətinin Afşin rayonunda yerləşir. Kitab bizim üçün də maraq kəsb edir, çünkü Naxçıvanda da belə bir mağara vardır.

«Səlcuqlular dövründə Doğu Anadoluda türk bəylikləri» adlı həcmcə kiçik, lakin fakt baxımından çox zəngin kitabı (1990, 100 səhifə, təkrar nəşri 1998), adından da göründüyü kimi, Anadoludakı bəzi kiçik dövlətlərin (məngücəklilər, saltuqlular və axlatşahlar) tarixindən bəhs edir.

Faruq Sümərin ən gözəl kitablarından biri də «Çəpnilər» kitabıdır (1992, 144 səhifə). Burada oğuzların 24 boyundan biri olan, Anadolunun fəthində və türkləşməsində müstəsna rol oynayan çəpnilərin tarixi işlənmişdir. Alimin «Tirəbolu tarixi» bu kitabın davamı kimi yazılmışdır (1992, 255 səhifə). Bu əsərdə çəpnilərin Qara dəniz bölgəsində mövcud olmuş Trabzon yunan dövlətinə qarşı qəhrəmanlıq mübarizəsindən söz açılır.

«Türk cümhuriyyətlərini meydana gətirən ellər və türk dastanları» kitabı alimin ölümündən iki il sonra işıq üzü görmüşdür. Faruq Sümər bu əsərini həyatda ikən bitirmiş, lakin nəşrini görmək ona qismət olmamışdır.

«Türk dövlətləri tarixində şəxs adları» kitabı da müəllifin ölümündən sonra çap olunmuşdur. Kitabın birinci və ikinci (1999, 450 və 428 səhifə) cildlərinə ön sözü mərhum Turan Yazqan yazmışdır. Burada göytürklər

dövründən osmanlıya qədər türk dövlətlərində işlənmiş şəxs adları, ünvanlar, onların mənaları, etimologiyası göstərilmiş, son dərəcə maraqlı etnoqrafik məlumatlar verilmişdir. Bu kitabı da ana dilimizə qazandırmaq pis olmazdı.

Tanınmış alim «İslam qaynaqlarına görə Malazgird savaşı» kitabını (1971, 148 səhifə, ikinci nəşri 1989) həmkarı Prof. Dr. Əli Sevimlə birlikdə hazırlamışdır. Bu kitabda Malazgird savaşı haqqında ərəb və fars dillərindəki bütün mənbələr orijinalları və tərcümələri ilə birlikdə verilmişdir.

Faruq Sümər məşhur müvərrix Əbubəkr Tihraninin iki hissədən ibarət «Tarixi-Diyarbəkiriyyə» əsərini (1993, 309 və 369 səhifə) həmkarı Prof. Dr. Nəcati Luqal ilə birlikdə çapa hazırlamış və elmi dövriyyəyə daxil etmişdir.

Vətənpərvər alim «Kitabi-Dədə Qorqud»u A.E.Uysal və V.S.Valker ilə birlikdə ingilis dilinə tərcümə etmişdir: «The Book of Dede Korkut a Turkish Epik» (1972, 235 səhifə, Texas Universiteti, təkrar nəşri 1992). Faruk Sümər bu vətənsevər təşəbbüslə bağlı bu sətirləri yazmışdır: «Milli dastanımız olan Dədə Qorqud dastanlarının dünya dastanları arasında yer almamış olması məni davamlı bir şəkildə üzürdü. Bu qaçınılmaz görəvi yerinə gətirmək üçün iki arkadaşımla birlikdə dastanları ingiliscəyə çevirdikdən sonra ona giriş, notlar və biblioqrafiya əlavə etdik».

Faruq Sümərin bu günə qədər nəşr olunmamış üç kitabı da var: «İslam dövlətləri (tarixçələri, xronologiya və soy kötüyü cədvəlləri», «Koroğlunun tarixi şəxsiyyəti» və «Mənəmənçioğulları tarixi»dir. Bunlardan «Koroğlunun tarixi şəxsiyyəti» kitabını ana dilimizə çevirmək çox faydalı olardı.

Buraya qədər göstərdiklərimiz Faruq Sümərin kitablarıdır. Alimin zəngin elmi irsi bunlarla məhdudlaşmır. Biblioqrafiyalara baxaraq apardığımız təxmini hesablamalara görə, Faruq Sümərin qələmindən 164 jurnal məqaləsi, 28 məruzə, 104 ensiklopediya maddəsi, 4 nekroloq, bir neçə müsahibə çıxmışdır. Bu məqalələr arasında bizim üçün çox önəmli olanların bəzilərini göstərmək istərdim: «Azərbaycanın türkləşməsi tarixinə ümumi bir baxış», «Az tanınmış bir türk hökmdarı Uzun Həsən bəy», «Əfşarlar», «Ağqoyunlular», «Koroğlu, Giziroğlu Mustafa və Dəmirçioğlu haqqında vəsiqələr [sənədlər]» və s. və i.a. Faruq Sümərin əsərlərinin Azərbaycan elmi dövriyyəsinə daxil edilməsi milli tariximizin daha dərindən öyrənilməsinə mühüm töhfə verər, bilik və məlumatlarımızı xeyli zənginləşdirərdi.

Faruq Sümər bir çox yerli elmi məclislərə qatılmış, xaricdə keçirilən simpozium və konfranslarda Türkiyəni ləyaqətlə təmsil etmişdir. Alim müxtəlif illərdə Vyana, Münxen, Hamburq, Paris, London, Madrid, Budapeşt, Kembric, Oksford, Miçiqan, Tehran, Sarayevo, İslamabad və başqa şəhərlərdə toplanan nüfuzlu beynəlxalq forumlarda maraqlı məruzələr oxumuşdur.

Dərin və ciddi əsərləri Faruq Sümərə hər yerdə hörmət qazandırmışdır. 1971-ci ildə Kaliforniyadakı Berkli Universiteti onu ayda beş min dollar

maaşla türkoloji araşdırmalar mərkəzinə müdir vəzifəsinə dəvət etmiş, lakin xoca vətəndən uzaqda yaşaya bilməyəcəyi üçün bu təklifi rədd etmişdir.

1974-1975-ci illərdə Frankfurt Universitetində müsafir professor kimi dərs demiş, müxtəlif vaxtlarda İngiltərədə, Fransada, Almaniyada, İranda və ABŞ-da elmi ezamiyyətlərdə olmuşdur.

Prof. Dr. Faruq Sümər öz fakültəsində mühazirələr oxumaqla yanaşı İstanbul Türk Musiqisi Dövlət Konservatoriyasında, İstanbul Ali Müəllim məktəbində, Memar Sinan Universitetində, Ərzurum Atatürk Universitetində də dərs demiş, bir sıra elmi qurumların işində (məsələn, Türk Tarix Qurumu, Səlcuqlu Tarix və Mədəniyyəti İnstitutu, Osmanlı Öncəsi və Osmanlı Beynəlxalq Araşdırmalar Komitəsi, Bizans Araşdırmaları Cəmiyyəti və s.) yaxından iştirak etmiş, bəzi elmi jurnalların redaktoru olmuşdur.

Faruq Sümər əsil türk və gerçək tarixçi olaraq öz prinsiplərindən əsla vaz keçməmişdir. Tarixin ideologiyaya və bəzi məkrli mənafelərə alət edilməsinə qarşı çıxmış, tarixçinin neytral və tərəfsiz olması gərəkdiyini söyləmişdir. 1980-ci il çevrilişi zamanı hərbçilərin kürdlərin türk olması barədə məqalə yazmaq xahişini qətiyyətlə rədd etmiş, «Kürdlər türk deyildir, mən də əmr qulu deyiləm, mən tarixçiyəm» deyə kəskin etirazını dilə gətirmişdir.

1934-cü ildə soyadı islahatı ilə əlaqədar olaraq ailəsinin aldığı Dəmirtaş familiyasını daşıyan Faruq bəy daha sonra Sümər (yəni Şumer) familiyasını qəbul etmişdir. Ona görə də elmi əsərlərinin bir qismi Faruq Dəmirtaş imzası ilə nəşr olunmuşdur. Ancaq oğuzlar haqqında saysız-hesabsız tədqiqat və araşdırmalar apardığı üçün mən şüuraltı bir şəkildə Faruq Sümər adını nə üçünsə Faruq Oğuz kimi qavrayıram. Türkiyədə və Azərbaycanda bir çox adamın eynən mənim kimi düşündüyünü gördüm və duyğulandım.

Faruq Sümər araşdırmalarını daima şaquli və üfiqi parametrlər üzrə, təsdiq-təkzib, induksiya-deduksiya metodları üzrə, dərininə və eninə olmaqla yürütmüşdür. Bəzən kiçik bir fakt üçün həftələrlə, aylarla axtarış aparmışdır. O, heç bir qarşılıq və təmənna gözləmədən, yorulub-usanmadan, gecə-gündüz çalışmış, türklüyün gələcəyi naminə türklüyün keçmişini araşdırmışdır. O, maddi sərvət adına heç nə qazanmamışdır, onun qazandığı bütün sərvət mənəvidir. O sərvətin həcmi Turan qədər böyük və əngindir.

Faruq Sümər qəhrəman və nəcib türk millətinin böyüklüyünə və qədimliyinə qeyd-şərtsiz inanmışdır. Həyatının başlıca məqsədi türk millətinin şanlı keçmişini araşdırmaq və millətin bunu öyrənməsini təmin etmək idi. Buna böyük ölçüdə nail olmuşdur. Türk milləti var olduqca Faruq Sümərin adı onunla birlikdə yaşayacaq.

**Ramiz ƏSKƏR.**
**Bakı, 8 yanvar 2013-cü il.**

# ÖN SÖZ

XI əsrdən etibarən həm də türkmən adlandırılan oğuzların Türkiyə türkləri ilə Azərbaycan, İraq və Türkmənistan türklərinin əcdadları olduqlarını bilirik. Səlcuqlu və Osmanlı xanədanlarının da onlardan çıxdığını xatırlasaq, oğuzların dünya tarixində çox mühüm rol oynamış bir türk qövmü olduğu ortaya çıxar.

Oğuzlar Sır-Dərya sahillərində və onun şimalındakı bozqırlarda məskun olduqları vaxt onların ancaq bir qismi şəhərlərdə yaşayırdı. Savaşla məşğul olmadıqları və özlərini şəhər həyatının labüd qıldığı işlərə həsr etdikləri üçün oğuzların köçəri eldaşları onlara istehza ilə «yatuq», yəni «tənbəl» adı vermişdilər. Əslində, köçəri oğuzlar oturaq eldaşlarına istehza etməkdə öz anlayışları baxımından haqlı idilər. Çünki səlcuqlu imperiyasını oturaq oğuzlar deyil, məhz onlar yaratmışdılar. Ancaq köçəri oğuzlar da 1071-ci il Malazgird zəfəri ilə Anadolunu fəth edərək bu ölkədə oturaq həyata keçməyə başladılar. XIII əsrdə onların mühüm bir qisminin artıq şəhər və kəndlərdə yaşadığı müşahidə edilir.

Bununla bərabər, həmin əsrdə Anadoluda çoxunu yeni gələnlərin, yəni monqol istilasından qaçanların təşkil etdiyi böyük miqdarda köçəri türk ünsürü də vardı. Səlcuqlu dövləti bir daha qurtula bilməyəcəyi şəkildə monqol hakimiyyəti altına girdikdə oğuzların deyimi ilə «yatuqlar», yəni oturaq türk xalqı özünü taleyin hökmünə buraxdığı halda, köçəri türk ünsürü, yəni türkmənlər monqollara qarşı mübarizədən əl çəkmədilər. Nəticədə, köçəri türk ünsürü olan türkmənlər əvvəlcə Türkiyədə, sonra isə buradan gedərək İranda siyasi hakimiyyəti ələ keçirdilər. Beləliklə, onlar Türkiyə tarixinin ikinci dövrünün - bəyliklər dövrünün yaradıcıları olmaqla birlikdə İranda da XX əsrədək türk hakimiyyətini davam etdirdilər. Türkiyə tarixinin üçüncü dövrünü açan osmanlı xanədanına gəlincə, onun da köçəri türk ünsürünə mənsub olduğu məlumdur. Digər tərəfdən, osmanlı xanədanının həm Mərmərə ətrafının fəthində, həm də Rumelinin ələ keçirilməsində mənsub olduğu köçəri ünsürdən geniş ölçüdə istifadə etdiyi də faktdır. Ancaq XVI əsrin ikinci yarısından etibarən Türkiyədə köçəri ünsür keçmişdəkinə nisbətən öz siyasi əhəmiyyətini xeyli itirmişdi. Bu, başlıca olaraq, oturaq həyata keçmək və

İrana köçmək nəticəsində köçərilərin sayının azalması, osmanlı hərbi təşkilatının qüdrəti və «dəlikli dəmirin» kəşfi kimi amillərlə bağlıdır. Buna görə də Anadoludakı türk oymaqlarının osmanlı dövründəki rolu daha çox ictimai tariximiz baxımından əhəmiyyətlidir. Doğrudan da, onlar XVI əsrin sonlarından etibarən müxtəlif səbəblər üzündən ara-sıra oturaq türk xalqının bağrında yaranan geniş boşluqları dolduraraq ona daima güc və həyatilik qazandırmışlar. Bununla birlikdə, onu da qeyd etmək yerinə düşərdi ki, türk oymaqları lap son əsrlərdə belə öz siyasi əhəmiyyətlərini tamamilə itirməmişdilər. Məsələn, XVIII əsrdə Anadoluda meydana çıxan ailələrindən başda ən böyüyü çapanoğulları (çaparoğulları) olmaq üzrə bir çoxlarının yenə köçəri türk ünsürünə mənsub olduqlarını bilirik.

Bu qısaca izahat köçəri türk ünsürünün milli tariximizdə nə qədər mühüm bir yeri olduğunu göstərir. Bunu bir cümlə ilə ifadə etməyə çalışsaq, deyə bilərik ki, köçəri türk ünsürü Yaxın Şərqdə oğuzların səlcuqlulardan sonra da siyasi hakimiyyətlərini davam etdirmələrində başlıca rol oynadığı kimi, osmanlı dövründə də Anadoludakı oturaq türk cəmiyyətinin öz varlığını qorumasında çox mühüm bir amil olmuşdur.

Bundan 20 il əvvəl oğuzları və onların köçəriliyi davam etdirən nəsillərini öyrənməyə girişməyimiz etnoqrafik bir maraqdan deyil, onların milli tariximizdəki bu mühüm mövqeyindən irəli gəlmişdir. Bu mövzunun Qərb şərqşünaslıq aləmində olduğu kimi bizdə də uzun müddət heyrət ediləcək dərəcədə unudulduğu həqiqətdir. Bu səbəblə ziyalılarımız milli tariximizin başlıca nöqtələri üzərində belə doğru və aydın məlumata sahib olmamışlar. Hətta bu gün türk, oğuz, türkmən, yörük, səlcuqlu, osmanlı, qaraqoyunlu, uyğur, özbək adlarının dəlalət etdiyi mənaları yaxşı dərk etməmiş tarix müəllimlərinin olduğunu söyləsək, bu acı gerçəyi daha açıq şəkildə ifadə etmiş olarıq.

Əsər qısa bir giriş və üç hissədən ibarətdir. Birinci hissədə oğuzların qədim tarixi və səlcuqlu imperiyasını qurmaları gözdən keçirildikdən sonra imperiyanın yaranması nəticəsində müxtəlif ölkələrə dağılmış köçəri türk ünsürünun həyatı son əsrlərə qədər ayrı-ayrılıqda araşdırılmışdır. Yəni burada göytürklər dövründəki doqquzoğuzların tarixi qeyd edildiyi kimi, Dadaloğlunun türkmənlərindən də bəhs olunmuşdur.

İkinci hissədə oğuzların boy təşkilatı və oğuz boyları, üçüncü hissədə isə oğuzların milli dastanları (Dədə Qorqud dastanları) tədqiq edilmişdir. Həm oğuz boyları, həm də Dədə Qorqud dastanları fəsilləri əsərin planına uyğun olaraq yenidən yazılmışdır. Bundan başqa, əsərin sonuna XVI əsrdə Anadoludakı oğuz boylarına aid yer adlarını göstərən bir cədvəl də əlavə edilmişdir. Bu cədvəlin bəzi məsələlər üzərindəki çalışmalarımızda bizə çox fayda verəcəyi şübhəsizdir. Şübhəsiz ki, mövzusuna görə əsərə mütəxəssislərdən başqa ziyalılar və xalq da maraq göstərəcəkdir. Bu cəhət nəzərə alınaraq

əsər yazılarkən ondan hamının faydalanmasını asanlaşdırmaq xüsusuna imkan daxilində diqqət yetirilmişdir. Hətta səlcuqlu tarixi bəhsində həmkarlarımdan fərqli olaraq başqa cür düşündüyüm məsələlər üzərində bir neçə istisna ilə mübahisəyə girişməməyim də qismən həmin xüsusla əlaqədardır.

Sözlərimə son verməzdən əvvəl kitabın təshihinə kömək edənləri minnətdarlıqla anmaq istəyirəm. Hörmətli Nihal Atsız bəy əsəri başdan-ayağadək oxumuş və bir çox xüsuslarda faydalı tövsiyələrini əsirgəməmişdir. Tələbələrim və kafedramızın assistentləri Əfşar İsmayıl Aka ilə Kazım Yaşar Kopraman da kitabın təshihində və indeksin hazırlanmasında yorulmadan çalışmışlar. Həm hörmətli Nihal Atsız bəyə, həm də sevimli tələbələrimə kömək üçün təşəkkür edirəm.

**Faruq Sümər. 1965, aprel**

## GİRİŞ

Türkcə danışan kütlənin Orta Asiyadakı əsl ana yurdunun hara olduğu haqqında keçmişdən bəri bəzi fikirlər irəli sürülmüşdür. Bizim fikrimizcə, bu kütlənin vətəni əsasən 145-150° en dairələri arasındakı Abakan, Tuba ərazisinin də daxil olduğu Kəm irmağı, yəni Yenisey boyu və ona yaxın yerlər olmalıdır.

Türkcə danışan kütlənin qədimlərdən bəri bir-birindən siyasi səciyyələri, dilləri və ya ləhcələri, ictimai səviyyələri, hətta sifət və bədən quruluşları ilə ayrılan müxtəlif qövmlər kimi, bu qollar da budun, yəni qövm adlanır. Ancaq bu qolların ortaq bir ada sahib olduqları barədə əlimizdə heç bir dəlil yoxdur. VI əsrdə türkcə danışan ellərdən (qövmlərdən) ancaq biri türk adlanırdı. Bu elin adı türk (o zamanlar törük-türük) sözünün yörük (yürümək) kimi «törümək» məsdərindən olduğu həqiqətdir. Bu türk qövmü həmən əsərdə türk və monqol dünyasının hakimləri olan juan-juanları (aparlar-avarlar) məğlub edərək Çin səddindən Xəzər dənizinə qədər uzanan çox böyük bir ərazidə imperiya yaratmış və türkcə danışan bütün qövmləri öz idarəsi altına almışdı. Bu hadisə Yaxın Şərqdə türk adına bu dildə danışan bütün qövmləri əhatə edən ümumi bir məna qazandırdı. Lakin türk sözü məhz türkcə danışan qövmlər arasında bu cür geniş bir məna kəsb edə bilmədi. Türklər yalnız islamı qəbul etdikdən sonra Yaxın Şərqdəki dindaşlarından türk kəlməsinin bu geniş mənasını öyrəndilər. Oğuz türklərinə də türk adını verənlər Yaxın Şərq müsəlmanları olmuşlar.

Göytürk imperatorluğu dövründəki türk ellərindən biri də doqquz boydan ibarət olan oğuzlar idi. Onlar VII əsrin ikinci yarısı ilə VIII əsrin birinci yarısı arasında Tula çayı boyunda yaşayırdılar. Doqquzoğuzlar türk eli ilə birlikdə göytürk dövlətinin əsasını təşkil edən ikinci ünsürdür. Bunlar göytürklərin siyasi xələfləri olan uyğurlar dövründə də eyni mahiyyətdə bir rol oynamışlar.

Doqquzoğuzların aqibəti məchuldur. X əsrdə Sır-Dərya (Ceyhun) sahillərində yaşayan oğuzların birbaşa bu doqquzoğuzların törəmələri olması ehtimalı azdır. Bunun əvəzində Sır-Dərya oğuzlarının əvvəlcə Qərbi göytürk

birliyinə mənsub olduqlarını irəli sürmək daha ağlabatan bir ideya (fərziyyə) kimi görünür. Sır-Dərya oğuzları dünya tarixində heç bir türk eli ilə müqayisə edilə bilməyəcək dərəcədə çox mühüm rol oynamışlar. Ön sözdə buna işarə edildiyi kimi, Səlcuqlu və Osmanlı imperatorluqlarını məhz onların qurduğunu söyləmək kifayətdir. Oğuzlar monqol istilasından sonra qövmi varlığını, tarixi xatirələrini və mədəniyyətini qorumaq surətilə türk dünyasını təmsil edən yeganə qövm olmaq vəsfini də daşımışdır.

Uyğur, qıpçaq, karluq və onlar kimi digər türk qövmləri monqol istilasına uğrayaraq varlıqlarını davam etdirə bilməmişlər, monqol boyları ilə qaynayıb-qarışaraq yeni qövmlər meydana gətirmişlər. Bu yeni qövmlərin dili türk dili olsa da, tarixi xatirələri, əsgəri təşkilat və ənənələri monqol vəsfləri daşıyırdı. Bugünkü Şərqi Türküstan türkləri, Özbəkistan, Türkmənistan, qaraqalpaq xalqları ilə İdilboyu türkləri, qısacası, Orta Asiyadakı türklərin böyük əksəriyyəti bu türk-monqol qarışığından meydana gəlmiş yeni qövmlərin törəmələridir.

Xüsusilə ticarət münasibətləri səbəbi ilə X əsrdən etibarən aralarında yayılmağa başladığı məlum olan islam dininin XI əsrdə oğuzların böyük əksəriyyətinin dini olduğu müşahidə edilir. Bunun nəticəsində oğuzlara XI əsrdə türkmən adı verilmişdir ki, bu da təqribən iki əsr sonra hər yerdə oğuzun yerini tutmuşdur. Ancaq oğuz sözü dastanlarda xatirəsi yaşadılan əcdadlarının adı kimi türkmənlər arasında uzun müddət işlənmişdir. Oğuzlardan 15-20 min nəfərlik ordu çıxara biləcək bir elat 1035-ci ildə Xorasana keçmək məcburiyyətində qalmışdı. Bu sahə isə zənginliyi, hərbi və mülki təşkilatının mükəmməlliyi ilə yalnız islam aləminin deyil, dünyanın ən qüdrətli dövlətlərindən biri olan Qəznəvi imperiyasına aid idi. Bu oğuzlar səlcuqlu ailəsinin başçılığı ilə 5 il sürən fasiləsiz və ağır bir mübarizə sonunda Qəznəvi imperiyasına qalib gələrək Xorasanda öz dövlətlərini qurdular (1040-cı ildə 16 min atlı ilə).

Yalnız «fövqəladə» sözü ilə vəsflənə biləcək bu hadisənin baş qəhrəmanı, ilhamçısı və icraçısı Səlcuqun nəvəsi Çağrı bəy idi. Səlcuqlu dövlətinin hakimiyyəti çox qısa zamanda Bizans imperiyası hüdudlarına qədər uzandı. Bu müvəffəqiyyətin qazanılmasında Sır-Dərya boyundakı böyük ana oğuz küməsindən bir-birini izləyən dalğalar halındakı bölüklərin İrana gəlməsi çox mühüm bir amil olmuşdur. Oğuz türklərinin islam dünyasında görünmələri, doğrudan da, bu aləm üçün xoşbəxt hadisədir. Çünki həmin əsnada Yaxın Şərqin islam dünyası Bizans imperiyası qarşısında özünü müdafiə edə bilməyəcək bir vəziyyətdə idi. İslam aləmi mənən o qədər çürümüşdü ki, 3-4 minlik bir oğuz bölüyü Fələstinlə Suriyanın böyük bir qismini asanlıqla ələ keçirmişdi. Şərqi və Cənubi Anadoludakı müsəlmanları qovaraq Anini (Qarsın şərqində), Antakya və Urfanı, Lazistanı geri almış, Hələb ətrafını da nüfuz və hakimiyyətinə daxil etmiş Bizansın yeni bir həmlə ilə Suriyaya,

hətta Misirə də hakim olaraq islam dünyasının başına daha böyük fəlakətlər gətirməsi hər an gözlənilirdi. Ərəblərin özünü toplayıb Bizansın yeni hücumlarına sinə gərməsi ancaq bəlkə ikinci peyğəmbərin zühuru ilə mümkün ola bilərdi. Bu səbəblə islam aləmi oğuz türklərinin şəxsində özünü Bizansdan qoruya biləcək yeni və gücü tükənməyən bir ünsürə qovuşmuş oldu. Gerçəkdən də, islam dünyasının bu yeni müsəlman ünsürü yalnız Bizans təhlükəsini dəf etməklə qalmayaraq ərəblərin heç vəchlə bacara bilmədiyini də bacarıb Anadolunu fəth etmiş və Bizansı bir daha islam dünyasına təhlükə təşkil etməyəcək bir vəziyyətə salmışdır.

Oğuz türkləri ana yurdlarından gətirdikləri dövlət təşkilatına aid təsisat və ənənələrini islam dünyasında da davam etdirdilər. Səlcuqlu sultanları və atabəyləri Orta Asiya bozqırlarında olduğu kimi əsgərlərə və xalqa tez-tez yağmalı ziyafətlər verir, bəylərini şərəfləndirmək və təltif etmək üçün onlara şəxsən içki təqdim edir, yerli müsəlman ziyalılarını heyrət və təəccüb içində qoyan ağır yaslar tuturdular.

Onlar ələlxüsus hərbdə və idarəçilikdə özlərini digər qövmlərdən üstün hesab edirdilər, milli adət-ənənə, məcaz və səciyyələri ilə siyasi hökmranlıqlarından doğan qövmi bir şüura da sahib idilər. Səlcuqluların həm İranda, həm də Anadoluda milli təşkilatda yerli iranlılardan istifadə etmələri, rəsmi dilin ərəb və ya fars dili olması sadəcə əməli məqsədlərlə əlaqədardır. Çünki sultanlar öz qövmlərindən (hər yerdə və hər zaman bütün dövlətlər üçün həyati bir əhəmiyyəti olan maliyyə sahəsi başda olmaq üzrə) dövlətin mülki təşkilatında işləmək üçün kifayət miqdarda mütəxəssis tapa bilmirdilər. Dövlətlərini öz torpaqlarında qurub gəlmiş ərəblər və monqollar da hər yerdə yerlilərdən geniş şəkildə istifadə etmişdilər. Hətta əməvi təşkilatını ərəbləşdirən xəlifə Əbdülməlikin «İranlılar min il səltənət sürdülər, bir an bizə möhtac olmadılar, biz isə bir əsr dövlət idarə etdik, bir an olsun onlarsız keçinə bilmədik» dediyi söylənir.

Səlcuqlu xanədanı təbəələrini ədalət və şəfqətlə idarə etmək, ölkələrinin abadlığı xüsusunda böyük işlər görmək surətilə hər yerdə unudulmaz xatirələr buraxmışlar. Belə ki, onlar tarix səhnəsindən çəkildikdən sonra XIV əsrdə tanınmış iranlı bir ziyalı əməvilər və abbasilər də daxil olmaqla bütün islam sülalələinin bir neçə eybi olduğunu, səlcuqluların bu eyblərdən xali, imanlı, xeyirxah, xalqa qarşı səfqətli hökmdarlar olduqlarını söyləyərək onları nümunəvi bir xanədan kimi qiymətləndirmişdir.

Həqiqətən, bu gün Anadolunu gəzən, tarix və sənət əsərlərinə maraq göstərən adi bir türk və ya xarici də səlcuqlu sultanlarının xoş niyyətlə bərabər ağlın və elmin işığı altında Türkiyəni abad və xalqını rifahlı etmək üçün necə çalışmış olduqlarını asanlıqla anlaya bilər. Karvansaralar, xəstəxanalar və körpülər kimi dini səciyyə daşımayan çoxlu əsərlər tikdirənlər arasında səlcuqlu xanədanına mənsub xatunların olması da maraqlıdır. Hətta İranda

karvansaraların əsasən və ya daha çox səlcuqlu sultanlarının qızları tərəfindən inşa edildiyi sanılırdı.

Türk fütuhatı ərəfəsində Anadolunun çox böyük bir qismi, xüsusilə Orta, Cənubi və Qərbi Anadolu əhalisi seyrək, hərəkətsiz, bir sözlə, geri qalmış bir ölkə kimi görünürdü. Şərqi və Cənub-Şərqi Anadolu şəhərlərinə nəzərən Orta, Cənubi və Qərbi Anadoludakılar sönük qəsəbələr halında idi. Bunun başlıca səbəbi birinci dərəcəli beynəlxalq ticarət yollarının o vaxt buralardan keçməsidir. Digər tərəfdən sasani-Bizans və onun ardınca sürəkli və ağır ərəb-Bizans müharibələri Anadoludakı əhalinin mühüm bir qisminin məhv olmasına və Çuxurova kimi bir çox bölgələrin isə qorxunc bir şəkildə dağıdılmasına səbəb olmuşdu. Hətta əhalinin azlığı, yoxsulluğu və təşkilatsızlığı ilə Anadolunun qeyd olunan böyük qismindəki yerli əhali öz varlığını hiss etdirə bilməyəcək bir vəziyyətə düşmüşdü. Bundan dolayı, XI əsrdə Şərqi Anadoludan gələn ermənilər Orta Anadoluda və Çuxurova bölgəsində asanlıqla yerləşə bilmiş və hətta I səlib yürüşündən istifadə edərək bu sonuncu yerdə bir krallıq da qura bilmişdilər. Yenə eyni səbəblə, oğuz türkləri az bir qüvvə ilə Orta və Qərbi Anadolunu çox qısa bir zamanda, həm də ciddi bir müqavimət görmədən asanlıqla fəth etmişdilər. Yerli xalqın sayca çox az olmasını göstərən dəlillərdən biri də budur ki, türk sultanları və bəyləri təşkil etdikləri axınlar zamanı ələ keçirdikləri yerli xalqı köçürərək öz ölkələrində yerləşdirirdilər. Çünki onların hakim olduqları yerlərdə əhali seyrəkliyi üzündən əkilməmiş çoxlu torpaq vardı. Səlcuqlu hökmdarlarının Şərqi və Cənub-Şərqi Anadoluya qarşı fasiləsiz bir fütuhat siyasəti güdmələrinə baxmayaraq, ən əlverişli zamanlarda belə Qərbi Anadolu və Mərmərə ətrafını almaq xüsusunda maraqlı görünməmələri də ancaq oraların iqtisadi cəhətdən geri qalmış, əhalisi seyrək, abad olmayan yerlər olması ilə izah edilə bilər. Hətta Anadolunun göstərilən vəziyyətindən dolayı türk fəthinədək o qədər də cazib bir ölkə sayılmadığını da söyləmək mümkündür. Malazgirt müharibəsinin qalibi Alparslanın davranışına baxmaqla onun da eyni düşüncədə olduğuna hökm vermək olar. Ərəblərin həm əməvilər, həm də abbasilər dövründə dəfələrlə şəxsən xəlifələrin komandanlığı altında böyük ordularla gələrək heç cür ala bilmədikləri Anadolu 1071-ci il Malazgirt müharibəsindən keçən 8-10 il ərzində başdan-başa fəth edilmişdi. Halbuki fəth vahid komanda altında və müntəzəm bir plan daxilində həyata keçirilməmişdi. Fəthin ardınca ölkənin hər tərəfi oğuz elatları ilə doldu. Bunlar Türküstan və İranda yaşayan silahdaşları tərəfindən daim bəslənir və yeni gələnlər hesabına sayları müntəzəm artırdı. Fəthdən sonra Anadolu ilə Türküstan arasında bir köç kanalı meydana gəlmişdi. XIII əsrin birinci yarısının ortalarına doğru Türküstan, Xorasan və Azərbaycandan Anadoluya bir-birinin ardınca qələbəlik türkmən elatları gəlməyə başladı. Bunlar 1220-ci ildə başlayan monqol qasırğasından qaçırdılar. Beləliklə, oğuzların böyük əksəriyyəti Anado-

luda toplanmışdı. Osmanlı xanədanının mənsub olduğu oymağın da, rəvayət edildiyi kimi, monqolların önündən qaçıb Anadoluya gələn türkmən elatları arasında olması, bizcə, ən qüvvətli ehtimaldır. Bu arada Sır-Dərya boyundakı şəhərlərdə və kəndlərdə yaşayan oturaq oğuzların da monqol qılıncı altında can verməmək, onlara əsir düşməmək, monqol istilasının ardınca Türküstanda baş verən qorxunc aclıqdan ölməmək, nəhayət, eldaşlarının yaşadığı təhlükəsiz bir ölkə olması səbəbi ilə Anadoluya gəldikləri anlaşılır. Nəticədə, Anadolunun böyük bir qismi XI əsrdən başlayaraq XIV əsrə qədər davam edən böyük köçlər ilə hər baxımdan bir oğuz (türkmən) ölkəsi vəsfini aldı ki, XIV əsrdəki xarici müəlliflər də bunun fərqinə varmışdılar. Oğuzlar Anadoluya gələrkən maddi və mənəvi mədəniyyətlərini də özlərilə gətirdilər. Məzarı Sır-Dərya sahilində olan Dədə Qorqudun mənəvi şəxsiyyəti də dastanlarla birlikdə Anadoluya gəldi. Oğuz türkcəsi, bir çoxlarının sandığı kimi, Anadolu və ya İstanbulda deyil, hələ buraya gəlməzdən əvvəl Türküstanda ikən bugünkü xüsusiyyətlərini daşıyır, orada da türk ləhcələrinin ən incəsi, ən zərifi şəklində tərifələnirdi. Bu vəsilə ilə bir şeyi də qəti bir həqiqət olaraq deyim ki, oğuzların Anadoluya gətirdikləri mədəniyyətləri, eyni zamanda hər cür adət-ənənələri bütün xüsusiyyətləri ilə dövrümüzə qədər qüvvətlə davam edib qalmışdır. Müasir Anadolu türklərində əcdadları olan oğuzların mədəniyyətləri, ruhi davranışları və antropoloji vəsfləri hakimdir[1]. Bu gün istənilən adam Anadolunun türklər ilə məskun hər bir bölgəsində Kaşğarinin oğuzlara dair söylədiklərini bu bölgədəki türklərin dil və davranışlarında, adət və ənənələrində açıqca müşahidə edə bilər. Hətta həmin adam Dədə Qorqud dastanlarından bəzilərinin Anadoluda hələ də yaşadığını görməklə

[1] Bugünkü Anadolu türklərinin ruhi davranışları da oğuz türklərininkindən fərqlənmir. Anadolu türkləri sakit görünüşlü, soyuqqanlı, duyğularını çoxda üzə vurmayan insanlardır, qaşqabaqlı deyil, gülərüz və vüqarlıdırlar, tez hirslənməz, birdən parlayıb sönməzlər. Xalqın təbiri ilə, Anadolu türklərinin asanlıqla «damarı tutmaz», yəni dərhal əsəbiləşməz, ancaq «ayranı qabardımı» qasırğa kimi əsər, qabağında durmaq olmaz. Lap oğuz igidinin «acığı tutduqda qatı daşı kül elədiyi» kimi... Onların başlıca xasiyyətlərindən biri də kin saxlamamalarıdır. Qisas alma duyğuları da qarşısıalınmaz ölçüdə deyil, tez barışırlar, mərhəmət duyğuları güclüdür. Zarafat və lətifədən xoşlanırlar. Gerçəkci insanlardır, yəni ağılları hisslərinə hakim ola bilir. Öyünmə duyğularında da ifratçılıq yoxdur, ona görə başqalarının məziyyət və qabiliyyətlərini inkar etməzlər. Bütün bu vəsfləri ilə onlar Aralıq dənizi millətlərindən, bəzi Balkan millətlərindən, qafqazlılardan və ərəblərdən fərqlənirlər. Anadolu türkləri ruhən fərdiyyətçi deyil, cəmiyyətçidir, kompakt, yəni bir arada yaşamaqdan xoşlanırlar. Millətlərinə bağlı və vətənpərvər olduqları da bilinən faktdır.

Üz və bədən quruluşuna gəlincə, onlar ümumiyyətlə düz qara saçlı, ala gözlü, yuvarlaq üzlü, düz burunlu insanlardır. Aralarında mavi gözlər az və ya nadirdir. Belələrinə çox vaxt bu vəsflər sifət olaraq verilir (göy Məhmət - mavi gözlü Məhmət, göy qız - mavi gözlü qız). Böyük əksəriyyətinin sifəti ağdır, üzlərindəki və əllərindəki əsmərlik günəş yandırması ilə əlaqədardır. Boyları ortadan uzundur, gövdə qismi qurşaqdan aşağı tərəfə nəzərən qısa deyildir, ona görə at üstündə heybətli görünür, rahatlıqla ox atır və qılınc vururlar.

heyrətlər içində qala bilər. Halbuki Türküstandakı türkmənlər bunları çoxdan unutmuşdular. Bu sözlərdən də göründüyü kimi, oğuz türklərinin əsil və gerçək nümayəndələrini görmək üçün Türküstanı deyil, Anadolunu gəzib dolaşmaq lazımdır.

Fatehlər və onlardan sonra gələn oğuz elatları, ümumiyyətlə Sivas bölgəsindən qərbdə səlcuqlu hüduduna qədər olan geniş bir ərazidə yerləşmişdilər. Bu xüsus həmin bölgənın onların həyat tərzinə uyğun bir yer olması ilə, həm də qeyd edildiyi kimi, yerli əhalinin orada heyrətli dərəcədə az olması ilə əlaqədar idi. Monqol istilasından qaçan qələbəlik türkmən elatlarının mühüm bir qismi də məhz qərb hüdudlarına gəlmişdilər. Bir ərəb coğrafiyaşünası (XIII əsrin ikinci yarısında) qərb hüdudlarındakı türkmənlərdən yalnız Antalyanın şimalında, Dənizli ətrafında yaşayanların sayının 200 min çadıra yaxın olduğunu bildirir. Səlcuqluların fəth etməyə könülsüz yanaşdıqları Qərbi Anadolu və Mərmərə ətrafını qərb hüdudlarındakı türkmənlər asanlıqla aldılar. Türkmənlərin müharibə zamanı ələ keçirdikləri xristianlardan kölə kimi istifadə etdiklərini çox yaxşı bilən xristianlar onların hücuma keçdiyini görüncə Adalara və Rumeli sahilinə qaçırdılar. Türkmənlər aldıqları xristian əsirlərin çoxunu misirli, suriyalı və iranlı tacirlərə satırdılar. Beləliklə, Qərbi Anadolu və Mərmərə bölgələrinın XV əsrdə xristian əhalinin ən seyrək olduğu yerlər arasında olmasının digər bir səbəbi də budur. XIX əsrdə həmin bölgələrdə, əksinə, nisbət hesabı ilə xristian əhalinin daha çox olması Osmanlı dövründə başqa səbəblərdən irəli gəlmişdir. Cənubdakı Çuxurova bölgəsi də bir əsrdən artıq davam edən türk-məmlük axınları nəticəsində xristian əhalinin çox azaldığı bir bölgə vəziyyətinə düşdükdən sonra XVI əsrdə əksəriyyəti üç-ox qoluna mənsub türkmənlər tərəfindən məskunlaşdırıldı. XV-XVI əsrlərdə müşahidə olunan böyük türk əhalisi və yer adları bu gün də olduğu kimi Anadoludakı türk yerləşməsinin mahiyyətinə dair tarixi qaynaqlardan çıxarılan nəticələri tamamilə təsdiq edir. Digər tərəfdən Anadoluda min evlik də olsa kütlə halında hər hansı bir islamlaşmanın baş verməsi barədə türk, Bizans, erməni və ərəb qaynaqlarında hər hansı bir xəbərə təsadüf edilməmişdir. Ən əhəmiyyətsiz ictimai hadisələrdən də bəhs olunduğunu gördüyümüz Osmanlı arxiv sənədlərində də bu xüsusda bir qeyd əldə edilməmişdir. Müsəlman İspaniyasındakı müzərrəblər (müztəriblər) kimi qüdrətini və varlığını uzun müddət davam etdirən bir dönmə zümrəsi də Anadoluda mövcud olmamışdır. Əslində, buna təəccüb etməmək lazımdır. Çünki nə xalq, nə də dövlət çox açıq islam ənənəsinə riayət edərək xristianlara müsəlmanlığı qəbul etmələri üçün təlqin və təşviq etmirdi. Bundan əlavə, türk, daha doğru ifadə ilə islam dövlətlərində xristianların müsəlman olmaları halında dövlətin gəlirində mühüm yer tutan xərac və cizyənin ortadan qalxacağı qorxusu da vardı. Digər tərəfdən, əgər toplu halda dönmələr olsaydı, islamı qəbul etmiş bu yerli icmaları Bolqarıstandakı po-

maklar, Qritdəki müsəlmanlar, albanlar və bosniyalılar kimi öz ana dillərində danışan görəcəkdik. Şərqi və Cənub-Şərqi Anadoluya keçməzdən əvvəl belə bir ümumi qaydanı xatırlatmaq yerinə düşərdi. O qayda budur ki, bir qövmün bir yerdəki siyasi hakimiyyəti nə qədər uzun sürürsə-sürsün və o yerdəki yerli xalqın mədəni səviyyəsi nə qədər aşağı olursa-olsun, əgər həmin qövm lazımi qədər əhali çoxluğuna malik deyilsə, başda dili olmaq üzrə milli mədəniyyətinin o yerdə hakim mövqeyə yüksəlməsi mümkün deyil. Bu gün doqquz əsrlik çox uzun bir siyasi hakimiyyətə baxmayaraq Şərqi və Cənub-Şərqi Anadolu ərazisinin bəzi yerlərində xalqın türkcə danışmaması bununla əlaqədardır. Şərqi Anadolu ilə Cənubi Anadolu[1] öz coğrafi vəziyyəti və iqlim xüsusiyyətləri ilə Anadolunun orta və qərb bölgələrinə nəzərən türk oymaqlarının yerləşməsinə daha az əlverişli idi. Digər tərəfdən, bu bölgələrdə şəhər həyatının xeyli inkişaf etdiyini və vergi qayğısı ilə yerli xalq üstündə əsən dövlətin də qısa bir müddətdə möhkəm hakimiyyət qurduğunu bilirik. Bu səbəblər üzündən türk əhalisi adı çəkilən bölgələrin ancaq Ərzurum, Axlat və Harput kimi bəzi yerlərində və digər bəzi şəhər və qəsəbələrində öz güclü təsirini göstərə bilmişdir. Bununla bərabər, monqol istilası səbəbilə gələn türkmənlərin bir qismi də bu bölgələrdə yurd salmışdı. Bu türkmən elatını başlıca olaraq ağqoyunlular və qaraqoyunlular təmsil edirdi. Bundan başqa, yenə həmin bölgələrə oyratlar, sutaylar və bu kimi monqol tayfaları da gəlmişdilər. Bu türk və monqol əhalisi bölgələrin qövmi çöhrəsini dəyişdirəcək çoxluqda olub təsirini də göstərməyə başlamışdı. Lakin daxili çəkişmələr üzündən monqol ünsürünün çoxu buradan getdi. Çox keçmədən XV əsrdəki fütuhatları ilə əlaqədar qaraqoyunlulardan böyük bir hissə İrana köçdü. Ağqoyunlulara gəlincə, onlar Şərqi və Cənub-Şərqi Anadoludakı bütün yerli hakim və əmirlərin siyasi fəaliyyətinə son vermək qayəsini şüurlu bir şəkildə daşıyırdılar. Uzun Həsən bəy zamanında yorulmadan tətbiq edilən bu qayə həyata keçmişdi. Ancaq ağqoyunluların qaraqoyunluları ortadan qaldıraraq onların torpaqlarını ələ keçirmələri əhəmiyyətli dərəcədə ağqoyunlu türkünün də İrana getməsinə səbəb olmuşdur. Səfəvilərlə eyni məzhəbdən olan və ya onların xidmətinə girmək istəyən türk oymaqlarının gedişi də bunun ardınca baş verdi. Bölgələrin bugünkü qövmi vəziyyəti isə osmanlı hakimiyyətindən qalmışdır. Əgər bu bölgələr səfəvilərin əlində qalsaydı, türk dilinin oralarda rəqibsiz bir dil halına gəlməsi ehtimalı çox idi.

Səlcuqlu hakimiyyəti 1240-cı ildə özünün ən yüksək nöqtəsinə çatmışdı. Bu ərəfədə onların qərb hüdudu ümumiyyətlə Muğla vilayətindəki Dalaman çayından başlayaraq Dənizli və Kütahya önlərindən keçib Sakaryaya çatırdı. Cənubda Çuxurova ərazisi də səlcuqlu sərhədinin xaricində qalırdı. Ancaq buradakı erməni krallığı səlcuqlulara vergi verir, müharibə zamanı isə əsgər göndərirdi. Səlcuqlu hüdudu şərqdə Ərzrum və Diyarbəkir ətrafını öz içinə

[1] Cənub-Şərqi Anadolu sözü ilə Urfadan Hakkariyə qədər olan ərazini nəzərdə tuturuq.

alırdı. Trabzon bölgəsindəkı yunan dövləti də səlcuqluların vassalları arasında idi. Bundan başqa, Hələb və Şam əyyubilərinin də səlcuqlulardan asılı olduqlarını bilirik.

Yuxarıda göstərilən dövrdə Türkiyə abad və varlı bir ölkə vəziyyətində idi. Səlcuqlu xanədanı şüurlu bir iqtisadi siyasət güdərək birinci dərəcəli beynəlxalq ticarət yollarının Türkiyədən keçməsinə müvəffəq olmuşdu. Bu məqsədlə ölkəsini içində təbib, baytar, hamam, hətta çalğıçı dəstəsi olan karvansaralar şəbəkəsi ilə örtmüş, çaylar üstündən böyük daş körpülər salmışdı. Digər tərəfdən səhiyyə işlərinə də əhəmiyyət verərək əsas səlcuqlu şəhərlərində xəstəxanalar inşa edilmiş və çoxsayda mədrəsələr açılmışdı. Türk dilinin ədəbi üslubunu məhz bu mədrəsələrdə yetişənlər yaratmışlar. Əlbəttə, bunlardan bəhs edərkən səlcuqlu dövrünün təxminən 230 il sürdüyünü, bunun bir əsrinin Bizansla fasiləsiz mübarizədə, 50 ilinin isə monqol hakimiyyəti altında keçdiyini unutmamalıyıq. Beləliklə, səlcuqlular Türkiyənin qurucusu olduqları, ölkəsini abad, xalqını rifahlı qıldıqları və bir çox baxımlardan orijinal sayıla biləcək mədəniyyət yaratdıqları üçün türk millətinin heyranlıq və minnətdarlığını qazanmışlar. Tədqiqatlar dərinləşdikcə onların siyasi, iqtisadi və mədəni sahələrdə qazandıqları uğurların əhəmiyyəti, şübhəsiz, daha dolğun bilinəcəkdir.

Yuxarıda göstərilən dövrdə Anadoludakı xristianların əksəriyyəti şəhərlərdə yaşayırdı. Dövlət onları ən təhlükəsiz şəkildə şəhərlərdə qoruya bilirdi. Xristianların siyasi həyatda heç bir rolları yox idi, onların əhəmiyyəti yalnız dövlətə müntəzəm vergi verən müstəhsil adamlar olmalarında idi. İctimai həyatdakı mövqelərinə gəlincə, bu, İraq və Suriyadakı xristianların mövqeyindən fərqlənmirdi. Böyük səlcuqlu şəhərlərində iğdişlər adlanan, başlarında iğdişbaşılar duran zümrələr də vardı. Bu zümrələrin yaşadıqları şəhəri düşmən hücumlarından müdafiə etmək kimi xüsusi hərbi vəzifə daşıdıqları məlumdur, ancaq onların bu sahədə o qədər də əhəmiyyətləri yoxdu. Bu zümrələr XIII əsrin sonlarında tamamilə ortadan qalxmışdı. İğdişlərin milli mənşəyi yaxşı bilinmir. «İğdiş» türk sözü olub «mələz» deməkdir, yəni valideynlərindən biri türk olmayan adam mənasına gəlir və ərəb dilinə «müvəlləd» (anası ərəb olmayan) kəlməsilə tərcümə edilir. Doğrudan da, XII əsrdə yerli qadınlardan doğulmuş türklərə də ərəbdilli əsərlərdə «ətrak ül-müvəlladin» (yəni mələz türklər) deyilirdi. Əcəba, Anadoludakı iğdişlər də belə idilərmi? Ancaq belə bir ehtimalı təsdiq edən dəlillər hələ tapılmamıdır. Gerçək olan xüsus odur ki, onlar siyasi və hərbi sahədə olduğu kimi, digər baxımdan da əhəmiyyətli bir zümrə olmamışlar. Qaynaqlarda onlardan nadir hallarda və mübhəm bir şəkildə bəhs edilmələri də bu cəhətlə bağlıdır.

Bununla belə, iğdişlərin dönmə olmaları da mümkündür. Səlcuqlu şəhərlərində türklərdən başqa, əksərən İrandan gəlmiş sənətkar, tüccar və ziyalılardan ibarət digər müsəlmanların da yaşadıqları məlumdur. Kəndlərə gəlin-

cə, onların böyük əksəriyyətində türklər məskun idi. Kəndlilərə XIII əsrin ikinci yarısında türk də (ərəbcə cəmdə: ətrak) deyilirdi. İraq, Suriya və Misir şəhərlərində xalq ərəbcə danışdığı halda «ərəb» sözü ilə ancaq köçəri ərəblərin nəzərdə tutulduğunu xatırlasaq, bu ad türklərə dövlətin mülki təşkilatında vəzifə tutan iranlı məmurlar tərəfindən verilmiş kimi görünür. Bu minvalla «türk» sözü həm də «kəndli» mənasına gəldi ki, osmanlı dövründə, xüsusilə XVII əsrdən etibarən osmanlı məmur və ziyalıları tərəfindən də həmin mənada işlədilmişdir.

Səlcuqlular dövründə üçüncü ünsürü türkmənlər, yəni köçəri türk icması meydana gətirirdi. Onlar çox zaman öz qövmi adları ilə, yəni türkmən sözü ilə xatırlanırdı. Türkmənlər əhali baxımından olduğu qədər siyasi baxımdan da çox qüvvətli ünsür idilər.

Türkmənlər, yəni köçəri türk ünsürü Anadoluda monqol hakimiyyətinə qarşı hər yerdə qorxu bilmədən mübarizə aparmışlar. Çünki onlar oturaq türk ünsürünün əksinə mübarizə üçün lazımi təşkilata, inzibata və döyüş ruhuna sahib idilər. Oturaq türk xalqına gəlincə, onların öz aralarında birləşərək qüvvətli bir mübarizə cəbhəsi yaratmaları mümkün olmurdu. Əgər türkmənlər olmasaydı, Anadoluda monqol hakimiyyətinin daha uzun müddət davam edəcəyi mümkün olduğu kimi, ölkə xarici istila və fütuhatlara qarşı həmişə müdafiəsiz qalacaqdı.

Köçəri türk ünsürünün öz içindən çıxmış səlcuqlu xanədanı ilə münasibətləri dövlətin qurulmasından sonra pozulmuşdu. Bunun başlıca səbəbi səlcuqlu xanədanının digər islam sülalələri kimi muzdla tutulmuş, çoxusu da başqa türk qövmlərinə mənsub məmlüklərdən, yəni qullardan seçmə ordular təşkil etmələri və dövlətin yüksək hərbi vəzifələrini onlara verməleridir. Xanədan bu seçmə orduya sahib olduqdan sonra qövmdaşları olan türkmənlərə büsbütün deyilə biləcək bir şəkildə əhəmiyyət verməmiş, onları sanki unutmuşdur. Hadisəyə səlcuqluların, sonra isə osmanlıların qullardan ibarət seçmə ordulardan istifadə etmələrinə türk ünsürünün zəifləməsinin qarşısını alan amillərdən biri kimi baxmaq bəlkə də mümkündür. Ancaq bütün ali vəzifələrin bu seçmə orduya mənsub insanların əlində olması hərbçi bir qövm olan türklər arasında geniş etirazlar doğurmuşdur. Bu etirazlar səlcuqlu dövlətinin zəifləməsində və yıxılmasında mühüm bir amil təşkil etdiyi kimi, osmanlı imperiyasının gücunü itirməsinə, türk xalqının böyük fəlakətlərə uğramasına və Anadoluda böyük dağıntıların meydana çıxmasına da səbəb olmuşdur. Digər tərəfdən, səltənət varisliyi işinin dəyişməz bir qaydaya bağlanmamış olması da daxili müharibələrin baş verməsinə, türk dövlətlərinin zəifləməsinə və süqutuna səbəb olan başqa mühüm bir amil idi. Bunlarla yanaşı, əmirlərin və bəylərin öz hökmdarlarından inciyərək itaətsizlik göstərmələri və üsyan etmələri də tez-tez müşahidə edilən hadisələrdəndir. Bəs bütün bunlara baxmayaraq necə olmuşdur ki, türklər bu qədər uzun müddət

siyasi hakimiyyətlərini davam etdirə bilmişlər? Şübhəsiz ki, bu hal onların yalnız hərbi qabiliyyətləri və ana yurddan müntəzəm surətdə canlı qüvvə almaları ilə izah edilə bilməz. Monqol istilası qədim türk aləmini tamamilə ortadan qaldırmaqla, Türküstan və Orta Şərqdə qorxunc qırğınlar və dağıntılar törətməklə qalmamış, abad və varlı Anadolunun da iztirablı bir dövr keçirməsinə səbəb olmuşdur. Bununla bərabər, monqol istilasının və haknmiyyətinin Qərb türklüyü baxımından bir çox müsbət, mühüm nəticələri də olmuşdur. Əvvəlcə də göstərildiyi kimi, oğuz, yaxud türkmən qövmünün Türküstanda və İranda yaşayan elatlarının çoxusu bu istila nəticəsində Anadoluya gəlmişdi. Bu minvalla Anadolu maddən və mənən qüvvətli bir şəkildə oğuz türklüyünün yurdu vəsfini qazanmışdır. Digər tərəfdən, monqollar özləri ilə birlikdə başqa türk qövmlərinə mənsub çoxlu adam gətirmişdilər ki, onlar da Yaxın Şərq türklüyünü qüvvətləndirmişlər. Üçüncüsü, Yaxın Şərqdə türk mədəniyyətinin ərəb və fars mədəniyyətləri yanında üçüncü bir mədəniyyət olaraq qüvvətlə yer tutması monqol hakimiyyəti dövründə müşahidə edilir. Bu arada İrandakı monqol sarayında qüvvətli bir türklük şüuru doğmuş və bunun nəticəsində yaranan əsərlər Qərb türklərində, yəni türkmənlərdə də qövmi duyğuların daha şüurlu, daha yayğın səciyyə qazanmasında mühüm amil olmuşdur.

Səlcuqlular və osmanlılar arasındakı dövr bəyliklər dövrüdür. Bu dövrün başlıca məziyyəti səlcuqlular zamanında alınmamış torpaqların fəth edilməsi, türk əhalisinin və mədəniyyətinin şəhərlər başda olmaq üzrə çox qüvvətli bir mövqe qazanması, türkcənin ədəbi və rəsmi dil kimi fars dilinə qarşı rəqibsiz bir mərtəbəyə yüksələcək dərəcədə inkişaf etməsidir. Digər tərəfdən, Anadolunun böyük bir qismi əcnəbilərin qibtə edəcəyi bolluq içindəydi. Hər biri bir vilayətin sahibi olan bəylərin ölkələrini abad etmək üçün əllərindən gələni əsirgəmədikləri müşahidə olunur.

Xalis oğuz-türkmən olan osmanlı xanədanının Anadoluda gördüyü iş Bursadan Boğaziçinə qədər olan Mərmərə bölgəsini fəth etməsidir. Osmanlı xanədanı tarix səhnəsinə çıxdığı zaman Anadoludakı türk cəmiyyəti çoxdan formalaşmışdı. Bu xanədan türk cəmiyyətinin başçısı olanda hər şeyi hazır şəkildə qəbul etdi. Osmanlılar qərbdə, Rumeli tərəfdə fütuhatlarla məşğul ikən, qaraqoyunlular da şərqdə Teymurun istilası səbəbilə İran istiqamətində gecikən fəthlərini XV əsrin əvvəllərindən etibarən həyata keçirməyə başladılar. Beləliklə, Anadoluda hər iki tərəfdə fəth etmə yolu ilə yayılma hərəkatı başlandı. Qərb yönündəki yayılmanı Qərbi Anadolu, Mərmərə bölgəsi və qismən də Orta Anadoludakı türk oymaqları və oturaq türklər, İran istiqamətindəki yayılmanı isə Şərqi və Cənub-Şərqi Anadoludakı türk oymaqları canlı qüvvə ilə bəsləyirdi. Bu yayılmaların əhali artıqlığı və iqtisadi sıxıntılarla əlaqədar olmadığı aydındır. Çünki Anadolunun XVI əsrdəki əhalisinin 4-5 milyondan çox olmadığı məlumdur. İran istiqamətindəki köç hərəkatı

qaraqoyunlulardan sonra ağqoyunlular və səfəvilər zamanında da davam etdi. Hətta osmanlılar bütün Anadoluya hakim olduqdan sonra, XVI əsrin ikinci yarısında da Anadoludan İrana köçlər baş verdi.

Bunun nəticəsində Azərbaycan, daha doğru bir ifadə ilə şimal-qərbi İran Rumeli kimi qövmi baxımdan Anadolunun davamı halını aldı. Hərbi sahədə olduğu kimi mülki idarədə də mükəmməl bir təşkilata malik olan osmanlı dövləti Balkanlara sabit, düzənli və inkişaflı bir həyat gətirmişdi.

Bundan müsəlmanlar qədər xristianlar da xeyir gördülər. Türklər Rumelidə, xüsusən şimalda Varna, qərbdə Tatarbazarı və cənubda Kavala arasındakı bölgədə kompakt şəkildə yurd salmışdılar. Onlar, göstərdiyimiz kimi, Qərbi Anadolu, Mərmərə bölgəsi və Orta Anadoludan gələnlər idi. Köhnə yurdun xatirəsi Rumeli türkləri arasında unudulmayaraq bu günə qədər yaşayır. Qeyd olunan bölgə hər baxımdan Anadolunun davamı mahiyyətini almışdı. Anadoluda olduğu kimi burada da şəhər və kəndlərdəki türklərin yanında köçəri həyat tərzini davam etdirən böyük miqdarda türklər də vardı ki, onlara yörüklər deyilirdi. Rumelidəki yörüklər müxtəlif qollara ayrılır və yaşadıqları bölgələrin adı ilə adlanırdılar: Tanrı dağları yörükləri (Gümülçinə, Qarasu Yenicəsi, Drama və Kavalada), Naltökən yörükləri (bugünkü Bolqarıstanda), Səlanik yörükləri (Makedoniya və Tesaliyada), Vizə yörükləri (Vizə, Lüləburqaz, Çorlu və Xeyrəbolu), Qocacıq yörükləri (Ədirnə, Qırxlareli, Babaəski və müasir Bolqarıstanın bəzi yerlərində). Yörüklər osmanlı hərbi sisteminə müvafiq şəkildə dövlətin qüdrətli olduğu XVI və XVII əsrlərdə daha çox köməkçi birliklər kimi istifadə edilmişlər. Ancaq XVIII əsrdə əsgər çatışmazlığı hiss olunanda ruhlarını oxşamaq üçün övladi-fatehan (fatehlərin oğulları) adı verilərək silahlı qüvvələr arasına daxil edilmişlər. Balkanlardakı türk hakimiyyəti buradakı xristian xalqlara böyük mədəni təsir göstərmişdir. Bu gün də həmin xalqların dillərində və gündəlik həyatlarında bu təsirin izləri görünür. Bilindiyi kimi, Balkanlardakı türk hakimiyyəti nəticəsində bosniyalılar, albanların çoxu və bolqarlardan bir qismi (pomaklar) müsəlmanlığı qəbul etmişlər. Ancaq onların türkləşməmələrinin bir səbəbi vardır ki, o da aralarına kifayət qədər türk əhalisinin girməmiş olmasıdır.

Osmanlı dövlətinin Şimali Afrikadakı müsəlman ölkələrini avropalıların istilasından xilas etdiyi faktdır. Əgər Osmanlı dövləti bunu bacarmasaydı, çox ehtimal ki, indi onları xristian ölkələri kimi görəcəkdik. Nə ərəblər, nə də bərbərlər İspaniyanı qoruduqları kimi Şimali Afrikanı qoruya bilməmişlər. Şimali Afrikadakı üç ölkə, yəni Əlcəzair, Tunis və Trablisi türklər ocaq adı verilən bir hərbi təşkilatla idarə etmişlər. Bu ocağa qəbul edilməyin əsas şərti xalis Anadolu türkü olmaq idi. Ərəblər və bərbərlər ocağa qəbul edilmədikləri kimi, atası türk, anası yerli olanlara da yüksək vəzifələr verilmirdi. Ocaqlar ehtiyac duyulan türkləri Qərbi və Cənub-Qərbi Anadoludan dəvət edirdilər. Bu məqsədlə göndərilən heyətlər Qərbi Anadoludakı şəhər və qə-

səbələri gəzərək bazarlarda «yorulmadan axça qazanmaq, tərləmədən ölmək istəyənlər bayrağımızın altına toplaşsın» sözlərini car çəkdirib əsgər yığırdılar. Gedənlər arasında aşıqlar da olurdu ki, onların türkcə söylədikləri şeirlər zəmanəmizə qədər gəlib çatmışdır. Əlcəzair ocağının rəisinə verilən dayı titulu Anadolu türklərinin tanımadıqları adamlara analarının qardaşına olduğu kimi «dayı» deməlarindən irəli gəlirdi. Bu gün Qərbi Anadoluda Orta Anadoludan gəlmiş fəhlələrin başçısına «dayıbaşı» adı verilməsi də eyni anlayışla əlaqədardır. Beləliklə, Qərbi və Cənub-Qərbi Anadolu öz igid övladlarının bir qismini, əksərən geri qayıtmamaq üzrə uzun müddət Şimali Afrikaya göndərmişdir. Bu gün belə Anadoluda «Axşam Əlcəzairə gedən çox olar» şəklində bir atalar sözü vardır.

Osmanlı dövlətinin girişdiyi uzunmüddətli müharibələrdə məğlubiyyətə uğraması Anadoludakı hakimiyyətini son dərəcə zəiflətmiş, dərəbəyi də deyilən böyüklü-kiçikli əyanların meydana çıxmasına səbəb olmuşdur. Dərəbəyilərin dövrü təxminən bir əsrədək davam etmişdir[1]. Məhz bu əyanların dövründə Qərbi Anadoluda, Aydın, İzmir və Manisa vilayətlərində zeybəklərin də ortaya çıxdığı müşahidə olunur. Bunlar dövlətə qarşı çıxır, varlılardan qopardıqları pul ilə keçinirdilər. Zeybək sözünün mənşəyi hələlik qaranlıq qaldığı kimi, onların zühurunda o bölgədakı oymaqların bir rol oynayıb-oynamadıqları da yaxşı bilinmir. Zeybəklərin fəaliyyətinə heç cür son qoya bilməyən dövlət döyüşkən olduqları üçün onlardan muzdlu əsgər kimi orduda istifadə etmişdir.

XVI əsrin əvvəllərində hind ticarətini ələ keçirən portuqaliyalılar Cənubi və Şərqi Ərəbistan üçün ciddi təhlükəyə çevrilmişdilər. Osmanlı hakimiyyəti bu təhlükəni də uzaqlaşdırdı. XVI və XVII əsrlərdə Ərəbistanda türklərə ümumiyyətlə qaramani deyilirdi. Bu cəhət hər halda oraya göndərilən əsgərlərin çoxunun Qaraman əyalətindən olması ilə əlaqədardır. Anadolu türkləri Yəmən də daxil olmaqla Ərəbistanda öz igidlikləri ilə şöhrət qazanmışdılar. Ancaq Yəmənə göndərilən türklərin mühüm bir qismi vətənlərinə qayıda bilmirdi. Bu, həzrəti Öməri belə dəhşətə gətirən vəhşi görünüşlü və davranışlı yəmənli ərəb tayfaları ilə vuruşmaqdan ziyadə xəstəlikdən və baxımsızlıqdan irəli gəlirdi. Yəməndən qayıtmayan türk gənclərinin millətimizin

[1] Anadoludakı əyanlar və ya dərəbəylər dövrü ən az işlənmiş mövzulardan biridir. Belə ki, onlardan ən mühümü olan çapan oğullarının əsl adının nə olduğu da meydana çıxarılmamışdır. Çapan oğulları tərəfindən Yozqatda tikilmiş böyük bir caminin hazirəsində (qəbiristanlığında) gördüyüm kitabələrin ən əskiləri ailənin adının nə Çapan, nə də Cabbar deyil, məhz Çapar olduğunu göstərir: «Mərhum və məğfur ləh Çapar Ömər ağa ruhu üçün fatihə sənə 1118 – Çaparzadə mərhum və məğfur ləh Əhməd paşa ruhu üçün fatihə fi sənə 1187». Bunlar Çəpan, Çəpar, Cəbbar kəlməsinin səhv oxunmasından meydana gəlmiş və ailə bu yanlış adlarla tanınmışdır. Bu ailəyə aid kitabələr lazımi izahatla birlikdə yaxın vaxtlarda bizim tərəfimizdən nəşr ediləcəkdir.

bağrında açdığı yaraları ifadə edən hüznlü mahnıların hələ də oxunduğu məlumdur.

Osmanlı dövləti Türkiyəni bugünkü sərhədləri daxilində ancaq Qanuni dövründə idarəsi altına ala bilmişdi. Mahiyyətinə müvafiq şəkildə bu idarənin Anadolunun hər yerində, xüsusilə kəndlilər və köçərilər tərəfindən razılıqla qarşılandığını irəli sürmək çətindir. Bu səbəbdən XV və XVI əsrlərdə baş verən məzhəbi üsyanlarda belə Osmanlı idarə sisteminin mahiyyətinin və onun pis tətbiq edilməsinin böyük payı olduğu şübhəsizdir. XVI əsrin sonlarında İran və Avstriya ilə aparılan müharibələr, onlarla yaxından əlaqədar olan qorxunc cəlali üsyanları Anadoluda ümumi cizgilərini saxlayaraq davam edən köhnə ictimai düzəni tamamilə aradan qaldırdı. Məmləkət xarabazarlığa çevrildi, xalq isə müdhiş bir yoxsulluq içinə düşdü. Hər yerdə köklü ailələrin, yəni bəy sinfinin çox böyük bir qismi yox oldu, qalanları isə iqtisadi baxımdan ciddi zərərə uğramadısa da, həm dövlət qarşısında, həm də ətrafdakı camaat arasında siyasi etibarını itirdi. Hətta onlardan bir çoxu bəsit davranışlı, əyyaşlığa mail və yoxsullara yardım etməkdən uzaq adamlar vəziyyətinə düşdülər. Sonuncuların dövrümüzə qədər gələn törəmələrində də eyni hal müşahidə edilir. Halbuki «bəylik verilməklə, igidlik vuruşmaqla olar» atalar sözündə də ifadə edildiyi kimi, türk xalqı ən qədim zamanlardan bəri xan, sultan, bəy və ağalara özünə xidmət etmək və yardımda bulunmaq funksiyasını daşıyan insanlar kimi baxmışdır. Avropa əsilzadələrinin və krallarının saraylar və qəsrlər tikməsinə müqabil bizimkilərin ictimai obyektlər inşa etdirməsi ancaq bu anlayışdan doğmuşdur. Belə olmadığı təqdirdə «El yamandır, yoxsa bəy? Bəy yamandır» atalar sözünün də göstərdiyi kimi, ağalar və bəylər öz mövqelərini qorumaqda çətinliklərlə qarşılaşırdılar.

Şəhər camaatı həmin hadisələrdən ancaq iqtisadi zərər çəkmişdi. Anadolu şəhərlərində bəyliklər dövründəki əxilərin xələfləri olan əsnaf və sənətkarlar zümrəsinin bu hadisələrdən zərər çəkib-çəkmədiyi hələlik tədqiq edilməmişdir.

Kəndli sinfinə gəlincə, əsas zərbə ona dəymişdir. Bu hadisələr kəndli sinfinə yoxsulluq və əhalinin azalması kimi böyük fəlakətlər gətirmişdir ki, bu sinif həmin itkilərin yerini uzun əsrlər boyu doldura bilməmişdir. Kəndli sinfi arasında açılan bu dərin yaraları əhali baxımından ancaq türk oymaqları sağaltmağa çalışmışdır. Köçəri türk tayfalarına gəlincə, bu hadisələr onlara da təsir göstərmiş, istisnasız hamısının vəziyyəti pisləşmişdir, bəziləri dağılmış və ya dağılmaq həddinə çatmışdır, bəziləri isə çoxdan bəri yaşadıqları yerləri tərk etmək məcburiyyətində qalmışdır. Bununla belə, köçəri ünsür hərəkət qabiliyyəti sayəsində daxili qarışıqlıqlar, müharibələr, yoluxucu xəstəliklər, isitmə və qıtlıqların təsirinə kəndlilərə və şəhərlilərə nisbətən daha az məruz qalmışdır. Bu səbəbdən onlar əhali baxımından daha çox artmışlar. Bu hal isə oturaq türklər arasında meydana gələn boşluqların doldu-

rulmasında çox mühüm bir amil olmuşdur. Köçəri türklər osmanlı dövründə də Orta Asiyadan gətirdikləri qoyun və atları bəsləyir, eynən onlar kimi dəvədən nəqliyyat vasitəsi kimi istifadə edirdilər. Osmanlı dövlətinin də səfərlərdə hərbi azuqəni dəvələrlə daşıtdığını bilirik. Türklərin mühüm bir qisminin çadırları XIX əsrdə belə ana yurddan gətirilmiş olan ağ keçədən düzəldilmiş dəyirmi çadırlar idi. Bu türk çadırları Yaxın Şərqdə islamiyyətdən əvvəl də tanınırdı. Hətta həzrət peyğəmbərin də səfərlər zamanı türk çadırlarında oturduğu rəvayət olunur. Qıldan düzəldilmiş qara çadırlardan istifadə edilməsi yoxsulluqla əlaqədar idi. Qıl çadırları əksərən keçi saxlayan, yaşadıqları yerlər qayalıq, otlaqları geniş olmayan yörüklər işlədirdilər. Ancaq türklərin əsl milli çadırları, qeyd edildiyi kimi, ağ keçədən düzəldilmiş dəyirmi çadırlardır. Anadoludakı türk cəmiyyəti bir-birinin ardınca baş verən uzun və yorucu müharibələr, yoluxucu xəstəliklər və qıtlıqlar səbəbi ilə bir daha keçmiş qüdrətini bərpa edə bilmədi. Hətta XIX əsrdə avropalı səyyahlar xristianların əksinə, türklərin məhv olmağa doğru getdiyini müşahidə etmişdilər. XVI və XVII əsrlərdə çoxu türk mənşəli olmayan osmanlı müəllifləri Anadolu türklərinə, ələlxüsus kəndlilərə «ətraki-biidrak» demişlər. Ancaq bu müəlliflər və bütün osmanlı idarəçiləri Anadolu türklərinin dövlətin əsl dayağını təşkil etdiklərinin fərqinə vara bilməmişlər. Beləliklə, türk cəmiyyəti zəifləyincə, osmanlı dövləti də qüdrətini itirirdi. Osmanlı dövləti son əsrlərə qədər Anadolunun adamlarını və sərvətini görülməmiş bir israfçılıqla xərcləmiş, ancaq ona heç nə verməmişdir. Bu səbəbdən Anadolu türkləri yoxsul və geri qalmış bir cəmiyyət, Anadolu isə xarabazar bir ölkə halına düşmüşdür. Anadolu xalqı arasında idarəçilərə osmanlı adı verilmişdi. Bu adın verilməsində idarəçilərin saray və ocaqlarda yetişmələri və qövmi baxımdan türklərin içindən çıxmamalarının başlıca amillər olduğu şübhəsizdir. Anadolu türkləri onlara sanki əcnəbi və işğalçı kimi baxırdı. Osmanlı idarəçi sinfinə mənsub olanlar Anadolu xalqının, xüsusən kəndli və köçərilərin fikrincə, məğrur, qaba, hiyləgər, sözündə durmaz, vəfasız və ədalətsiz adamlar idi[1].

Doğrudan da, XIX əsrdə Anadolunu gəzən avropalı səyyahlar Anadolu türklərinin yoxsulluqlarına baxmayaraq əsl ruhlu, namuslu adamlar olduqlarını, pis idarəçilər əlində yoxsul və geri qalmış vəziyyətinə düşdüklərini yazırlar ki, bunun həqiqət olduğu şübhəsizdir.

---

[1] Bu gün Şərqi Anadoluda belə bir ifadə hələ də xatırlanır:

Şalvarı şaltaq Osmanlı,
Yəhəri qaltaq Osmanlı,
Əkəndə yox, biçəndə yox,
Yeyəndə ortaq Osmanlı.

# I HİSSƏ

# OĞUZLARIN TARİXİ

## A. OĞUZLAR HAQQINDA ƏN QƏDİM MƏLUMATLAR

### 1. OĞUZ ADININ ETİMOLOGİYASI

Oğuz adının etimologiyası haqqında bir çox fikirlər irəli sürülmüşdür. Məşhur macar alimi Y.Nemet oğuz sözünü ok-uz şəklində təhlil etmişdir. Onun fikrincə «ok» qəbilə, boy, «z» isə cəm ədatıdır[1]. Beləliklə, oğuz «boylar» deməkdir. Həqiqətən, oxun qədim zamanlarda boy mənasına gəldiyi məlumdur. Qərbi göytürk dövləti də on boydan ibarət idi və həmin on boya on ox deyilirdi.

«Ox»un boy mənası ifadə etdiyinin izi oğuz elinin boy təşkilatında[*] da görülür. Oğuz eli, bilindiyi kimi, iki qola ayrılır, bunlardan birinə boz-ox, digərinə üç-ox deyilirdi. İkinci adın üç oxdan meydana gəldiyi şəksizdir. Ancaq başda V.Banq olmaqla bəzi alimlər oğuzlarda «ğ» səsinin olması səbəbilə Nemetin bu fikrinə etiraz etmişlər[2]. Son illərdə isə oğuz adının əsli haqqında başqa izahlar ortaya çıxmışdır[3]. Biz Nemetin fikrinə daha çox haqq veririk[4].

Məlum olduğu kimi, Orta Asiyada ilk dəfə olaraq mütəşəkkil və böyuk bir imperiyanı çinlilərin Hiun-nu adlandırdıqları qövm qurmuşdur. Elm alə-

---

[1] Bu barədə bax: Hüseyn Namiq Orkun. Oğuzlara dair. Ankara, 1935, səh. 4-5.

[*] Boy təşkilatı, əslində, «qəbilə quruluşu» deməkdir. Lakin boy sözü daha geniş məna daşıyır. Üstəlik, «boy quruluşu» termini qəribə səslənməklə bərabər anatomik çalar kəsb edir. Ona görə kitabda «boy təşkilatı» terminini işlətməyi məqsədəuyğun hesab etdik (tərcüməçi).

[2] V. Banq və R. Rəhməti. Oğuz kağan dastanı. İstanbul, 1936, s. 6.

[3] Bax: D.Sinor. Oğuz kağan dastanı haqqında bəzi mülahizələr. İstanbul Universiteti ədəbiyyat fakültəsi “Türk dili və ədəbiyyatı” jurnalı, s. 1-14.

[4] Bu məsələ haqqında digər fikirlər üçün bax: Ceyms Hamilton. Tokuz-oğuz və on-uyğur. «Asia» jurnalı, 1962, s. 25-26.

mində bu qövmün türk mənşəli olduğu qəbul edilmişdir. Çin qaynaqlarının göytürklərin, uyğurların və qırğızların hiun-nuların nəslindən olduqlarını göstərmələri bu xüsusda ən mühüm dəlillərdən biridir. Türk dövlət təşkilatının həqiqi qurucuları olan hiun-nular e. ə. III əsrin sonlarında qonşuların çəkindiyi qüvvətli bir qövm halına gəldilər. E. ə. 209-cu ildə çinlilərin Mao-Tun (yəni Mətə) adlandırdıqları şəxs bu qövmün hökmdarı oldu.

Fəaliyyətindən də göründüyü kimi, Mao-Tun tarixdə türklərin məlum olan ilk hökmdarıdır. Çin qaynaqlarında belə rəvayət edilir ki, Mao-Tun gənc bir şahzadə ikən ögey anasının şiddətli təsiri altında olan atası tərəfindən hiun-nuların cənub-qərb qonşuları yüe-çilərə girov olaraq göndərilmiş, sonra isə Teoman həmin qövmə hücum etmişdir. Bundan məqsədi oğlunu öldürmək üçün düşmənlərə bəhanə vermək imiş. Həqiqətən, yüe-çilər Mao-Tunu öldürmək üçün axtarmış, ancaq tapa bilməmişlər. Çünki Mao-Tun uğrayacağı faciəli aqibəti anlayaraq qaçmış və atasının yanına gəlmişdi. Teoman oğlunun bu müvəffəqiyyətindən özünü sevinən kimi göstərmiş, ona diviziya komandirliyi vermişdir. Ancaq Mao-Tun atasının ona etmək istədiyi pisliyi unutmamış, fürsət taparaq Teomanı və yaxın adamlarını öldürmüşdür. Beləliklə, hiun-nuların taxtına sahib olan Mao-Tun hərbi səfərlərilə dövlətinin sərhədlərini genişləndirərək dövrünün ən qüdrətli hökmdarlarından biri olmuşdur[1].

Mao-Tunun və xələflərinin bir sıra qoşa sərkərdələri vardı. Onlar sağ və sol olmaq üzrə iki yerə ayrılırdılar. Buradan hiun-nu imperiyasını təşkil edən elin sağ və sol olmaq üzrə iki qola ayrılmış olduğu nəticəsi çıxır. Çin qaynaqları geniş hiun-nu imperiyasının 24 sərkərdə tərəfindən idarə olunduğunu göstərir[2]. Buradan da hiun-nu elinin 24 boydan yarandığını söyləmək mümkündür.

Bilindiyi kimi, XIV əsrin əvvəllərində yazılmış oğuzların dastani tarixlərində[3] türklərin ilk fateh hökmdarları olaraq Oğuz xandan bəhs edilir. Hətta burada da Oğuzun dini inamından dolayı atası Qara xan tərəfindən öldürülmək istənildiyi, ancaq onun döyüşdə qalib gələrək öz atasını öldürdüyü nəql edilir. Digər tərəfdən Oğuz elinin sağ və sol olmaq üzrə iki qola ayrıldığını, sağ qola boz-ox, sol qola isə üç-ox deyildiyini, oğuz elinin 24 boydan ibarət olduğunu bilirik.

Bir çox müəlliflər zikr edilən bu bənzərliklərə görə əfsanəvi Oğuz xanın tarixi Mao-Tun olması ehtimalını irəli sürmüşlər. Biz bu məsələdə diqqəti ancaq aşağıdakı hallara cəlb etmək istəyirik; oğuzların dastani tarixləri Mao-Tundan təxminən 1500 il sonra yazılmışdır və həmin dastani tarixin Oğuz

---

[1] De Qroot. Miladdan əvvəlki dövrdə hunlar. Berlin-Leypsiq, 1921, s 49-50; V.H.Makqovern. Mərkəzi Asiyanın ilk imperiyası, 1939, s. 16.
[2] De Qroot. Həmin əsər, s. 55-56; V.H.Makqovern. Həmin əsər, s.117-118.
[3] Bu əsər haqqında III fəslə bax.

xana aid hissəsi milli qayə güdən ziyalı bir türkün təxəyyülünün məhsuludur. Digər tərəfdən, oğuzların 24 boydan ibarət olduqları haqda məlumatlar da XI əsrdən qədimə getmir.

## 2. BARLIQ ÇAYI SAHİLİNDƏ YAŞAYAN OĞUZLAR

115-ci ilə yaxın Orxon bölgəsində Hiun-nuların yerini seinpilər tutdular. Onları isə juan-juanlar əvəz etdikdən sonra 552-ci ildə göytürk imperiyası yaradıldı. Bu imperiya o vaxtadək Orta Asiyada qurulmuş dövlətlərin ən böyüyü idi. Bugünkü məlumatlarımıza görə, türk dilinə aid xatirələr də göytürk imperiyası dövrünə aiddir. Bu xatirələri başlıca olaraq qəbirüstü kitabələr təşkil edir. Bunlar Orxon və Yenisey kitabələri olmaq üzrə iki qismə ayrılır. Orxon kitabələri VIII əsrin yadigarıdır, Yeniseydəkilərin isə daha əvvəl, qüvvətli ehtimala görə, VII əsrdə yazıldığı təxmin edilir. Oğuz adına da ilk dəfə elə bu Yenisey kitabələrinin birində rast gəlirik. Ulu Kəm çayına tökülən Barlıq çayı sahilindəki bu kitabə eynən bu cürdür:

1. Ər ərdəmi atım tabdım ərdəmi (üçün?)
2. Öz Yigən Alp Turan altı oğuz budunda üç yegirmi (yaşımka) adırıldım.
3. Bəg ərikimə sizimə adırıldım.

Müasir türk dilində:

1. Ər ərdəmi adımı tapdım ərdəmi (üçün)
2. Öz Yigən Alp Turan altı oğuz elindən on üç (yaşımda) ayrıldım.
3. Bəylik nüfuzumdan, sizlərdən ayrıldım[1].

Belə çıxır ki, bu kitabə -əgər düz oxunmuşsa- altı boy halında olan oğuzların kitabənin yazıldığı dövrdə Barlıq yörəsində yaşadıqlarını göstərir. Biz həmin dövrün VII əsrin (birinci yarısı və ya ortaları) olduğu qənaətindəyik. «Altı oğuz budunda» ibarəsi isə altı boydan ibarət oğuz eli (qövmü) deməkdir. Həmin əsrin ikinci yarısından sonra oğuzlar Tula çayı sahillərində ikən doqquz boydan ibarət idilər. Hətta Kül-Təgin və Bilgə kağana aid kitabələrdə rast gələn «Üç oğuz süsü» (Üç oğuz qoşunu) ifadəsindən oğuzların o zamanlar biri üç oğuz, digəri altı oğuz olmaqla iki qola ayrıldıqlarını təxmin etmək mümkündür. Bəlkə oğuzlar Barlıq çayı sahillərində yaşayarkən doqquz boydan ibarət olmuş və kitabədə bunlardan yalnız altı oğuz qolu ifadə edilmişdir? Zənnimizcə, kitabə yazılarkən (yəni VII əsrin birinci yarısında və ya ortalarında) oğuzların altı boydan ibarət olduqlarını düşünmək daha doğru olar. Kitabədəki «budun» sözü hər halda oğuzların hamısını əhatə edir. Oğuzların VII əsrdə altı boydan ibarət olmaları bizim üçün bu baxımdan əhəmiyyətlidir: «Cami ət-təvarix»də oğuzların mənşəyi fəslində yazılır ki,

---

[1] Hüseyn Namiq Orkun. Əski türk yazıtları (kitabələri). İstanbul, 1940, III, s. 61. (Bundan sonra əsərin adı ƏTY şəklində veriləcək - tərcüməçi).

24 boy bərabər sayda olmaq üzrə Oğuz xanın altı oğlundan törəmişdir. Ancaq daha diqqətəlayiq cəhət budur ki, damğaları ayrı-ayrı olduğu halda hər dörd boy bir müştərək onqona malikdir. Bu fakt 24 oğuz boyunun da qədim zamanlarda altı boy halında yaşadığını göstərir. Bu altı onqonun hamısı meşə bölgələrində yaşayan yırtıcı quşlardır[1].

Barlıq kitabəsinin altı oğuzlara mənsub bir bəyin qəbirüstu kitabəsi olduğu məlumdur. Öz Yigən Alp Turan adlı bu bəy 13 yaşında, dəliqanlılıq çağına çatmadan vəfat etmişdir. Turan adı (bugünkü tələffüzlə Duran) Türkiyədə qədimdə ən çox qoyulan adlardan biridir. O, indi daha çox qadınlara verilir və kəndlərdə qoyulur.

Barlıq bölgəsində bundan başqa daha üç kitabə də aşkar edilmişdir. Bunlar Köni Tirig, Bayna Sanqun oğlu Külüg Çur və üçüncüsü adı oxunmayan bir bəyə aiddir[2]. Onlarda heç bir qövmün adı göstərilməsə də, birinci kitabə kimi hər üçünün oğuz bəylərinə aid olması ehtimal edilir.

Aşağıda görəcəyiniz kimi, Kutluğ göytürk dövlətini qurmağa girişdiyi vaxt oğuzlar Tula ayı sahillərində yaşayırdılar. Onların bir kağanı vardı. Bu səbəblə oğuzların Tula boyuna gəlişinin 630-cu ildə göytürk dövlətinin süqutundan sonra baş verdiyi şübhəsizdir. Kəmçik çayına tökülən Çırğak çayı boyundakı ədizlər də[3] cənub-qərbə enərək eyni şəkildə oğuzların yanında yurd salmışlar.

### 3. TULA BOYUNDA OĞUZLAR

Göytürk şahzadələrindən Kutluğun öz dövlətini qurmasından sonra keçən 80 illik dövr barədə milli qaynaqlarımız var. Bu qaynaqlar Orxon kitabələridir. Bu kitabələrdə irqi mahiyyəti və siyasi səciyyəsi nə olursa-olsun, bütün siyasi və qövmi təşəkküllər budun gəlməsi ilə ifadə edilir: türk budunu, tabqaç budunu, kıtay budunu, oğuz budunu, qırğız budunu. Köçəri budunlar bir çox boylardan (kitabələrdəki bod?) meydana gəlmişdir. Boylar da hər halda obalara ayrılırdı.

Türkiyə türkcəsində «budun» və qövm qarşılığı olaraq qədimdən «el» sözü işlənir. Eli meydana gətirən təşəkküllərə boy, boyu meydana gətirənlərə isə oba deyilir.

İkinci göytürk dövləti qurulduğu əsnada Orta Asiyadakı siyasi və qövmi vəziyyəti belə idi:

---

[1] Ulu Kəm ilə Ana Kəmin (Yeniseyin) yuxarı yatağının türklərin ana yurdu olan bölgəyə daxil olduğu həqiqətdir. İssık-kul dolayları və Sır-Dəryanın şimalındakı bozqırlar, şübhəsiz ki, türklərin əsl ana yurdu olan bölgənin xaricində idi. Türklərin bozqır həyatından əvvəl meşə həyatı yaşayıb-yaşamadıqları bilinmir. Hər halda bu, xüsusi araşdırma tələb edir.

[2] ƏTY, III, s. 62-64.

[3] Yenə orada, s. 80.

**Türk budunu.** Abidələrdəki türk adı qövmi bir addır və bu adı türkcə danışan bütün qövmlərin deyil, onlardan yalnız birinin daşıdığı məlumdur. Xanədan bu qövmə mənsub idi, dövlət də başlıca olaraq bu qövmə əsaslanırdı.

«Türk» adının «törümək» (doğmaq-törətmək, dünyaya gəlmək) felindən yarandığı haqda A. Vamberinin fikri bizə daha doğru görünür. Bu fikrə görə «türk» (əslində: törük, türük-türk) doğulan, dünyaya gələn deməkdir (yörük sözünün «yörümək» (yürümək) kəlməsindən yarandığı kimi). «Türk» sözü qüvvət (güc) mənasında göytürklərdən çox-çox sonra, X-XIII əsrlərə aid uyğur kitabələrində müşahidə edilir, yəni türk adının meydana çıxmasından xeyli sonra, gec bir zamanda və yalnız türk qövmünə aid mətnlərdə rastlanır. Bu hal sözün güc-qüvvət mənasında qədim olduğuna şübhə yaradır. Üstəlik, türk sözünün uyğurlar arasında güc, qüvvət mənasında işlədilməsi göytürklərin şanlı xatirələrindən, böyük şöhrətlərindən doğa bilər.

**Oğuzlar.** Onların əsasən Tula boyunda yaşadıqları anlaşılır. Kutluğun işə başladığı əsnada, çox ehtimal ki, Ötükən yörəsi də oğuzların əlində idi. O dövrdə oğuzların başında bir xaqan dururdu. Abidələrdə zikr edilən «Boz kağanın» məhz bu xaqan olduğu anlaşılır. Onların dövlət təşkilatları və hakimiyyətləri altındakı torpaqlar barədə məlumatımız yoxdur. Abidələrdə onlardan bəzən doqquz oğuz, bəzən də sadəcə olaraq oğuz kimi bəhs olunur.

Bilgə Tonyukuk abidəsindən görünür ki, Kutluğun fəaliyyətindən qorxuya düşən oğuzlar göytürklər əleyhinə ittifaq bağlamaq üçün Kunı Səngünü Çinə, Tonra Səmi xıtayların yanına göndərmişdilər[1]. Bilgə kağan zamanında oğuzlarla müharibə dolayısı ilə Tonranın adı yenidən çəkilir[2]. Bu adın hər iki yerdə bir oğuz boyunu ifadə etdiyi təxmin olunur. Tonra Səm tonra boyundan olan Səm, Tonra Yılpağut isə tonra boyundan olan Yılpağut deməkdir[3]. Kitabələrdə bu cür missallar var. Kunı da bir boy adı ola bilər.

Aşağıda görəcəyimiz kimi, oğuzlar əsarət altına alındıqdan sonra, bir çox əsir türk qövmləri tək onlara da özlərindən və ya xanədandan bir hökmdar təyin edilməmiş, türk budun kimi birbaşa xanlar tərəfindən idarə olunmuşlar. Kağanlar nəzdində oğuz budunun türk budunundan çox az fərqlənən siyasi statusa sahib olduğu müşahidə edilir. Bu səbəblə Toyukuk «Türk Bil-

---

[1] Körüg sabı andağ: Tokuz oğuz budun üzə kağan olurtı tir, Tabğaçğaru Kunı Sənünig ıdmış, kıtayğaru Tonra Səmig ıdmış (Şahidin sözü belə idi: doqquz oğuzun taxtına bir kağan oturdu, deyir. Çinlilərin yanına Kunı Səngünü göndərmiş, xıtayların yanına (isə) Tonra Səmi göndərmiş(dir). ƏTY, III, s. 102. Çinlilərin yanına gedən elçi Kunı Səngünün adındakı Səngün sözü titul deyilsə, kunı da bir boy adı ola bilər.

[2] V.Tomsen. Orxon abidələrinin oxunuşu. Helsinqfors, 1896, s. 112, 125 (bundan sonra əsər Abidələr adlanacaq - tərcüməçi); ƏTY, I, s. 50, 62 və ardı.

[3] Kitabələrdə bu qəbildən çox misallar göstərmək olar: Tabğaç On Tukuk - çinli Onq Tutuk (Abidələr, s. 108; ƏTY, I, s. 44); Yir Bayırku Uluğ İrkən - Yir Bayırku başbuğu Uluğ Ərkin (Abidələr, s. 109; ƏTY, 1, s. 44).

gə kağan türk sir budunıq oğuz budunıq iyidü olurur» (Türk Bilgə xaqan vahid (?) türk budununu və oğuz budununu yaxşı idarə edir) deyir,[1] Bilgə kağan isə kitabəsində bəzən türk budunu ilə birlikdə oğuz budununa və bəylərinə xitab edir: «Türk, oğuz bəgləri, budun eşidin» (türk və oğuz budunu və bəyləri, eşidin)[2]. Hətta «Tokuz oğuz budun kəntü budunım ərti» (doqquz oğuz budunu öz budunum idi) cümləsini də[3] qövmi (etnik) bir qohumluq şəklində deyil, yuxarıda oğuzlar haqqında verilən məlumatı, türk və oğuzun da tabğaç, qırğız, xıtay kimi budun kəlməsilə ifadə edilməsini nəzərə alaraq hüquqi münasibət mənasında başa düşmək lazımdır. Bilgə kağan bu söz ilə doqquz oğuz budunu türk budunu kimi doğrudan-doğruya mənə bağlı, mənim idarəm altındakı bir qövmdür demək istəyir[4]. Bu fikri təsdiq edən digər qüvvətli bir dəlil də uyğur xaqanının eyni qövm, yəni doqquz oğuzlar üçün «budunım» (qövmüm) deməsidir.

Oğuzların göytürk xaqanlarına heç cür ürək qızdırmamaları isə pis idarə edilmələrindən daha çox ayrı bir qövmi təşəkkül olmaları və ayrı bir siyasi keçmişə sahib olmaları ilə bağlıdır. Aşağıda da bəhs ediləcəyi kimi, dövlətin yıxılması ilə türk budunu ortadan qalxdığı halda oğuzlara bir şey olmadı. Onlar uyğur dövlətində də türklərinkində olduğu kimi eyni xidmətdə oldular, bu dövlətin də istinad etdiyi ikinci ünsür sayıldılar, hətta uyğur xaqanına qarşı ara-sıra üsyan da etdilər.

**Tarduş.** Bu kiçik budunun Ötükən bölgəsinə yaxın bir yerdə yaşadığı anlaşılır. Tarduşlar göytürklərə sadiq qövmlərdən biri idi, daha sonra isə uyğurlara tabe oldular. Xaqanlar bu buduna «yabğu» titullu bir başbuğ təyin edirdilər.

Yabğunun xanədana mənsub olduğu məlumdur.

**Tölis.** Abidələrdə həmişə tarduşlarla birlikdə adı çəkilən və onların qardaşı kimi görünən bu qövm də hər halda Ötükən bölgəsinə yaxın yerdə yaşayırdı. Göytürk xaqanları bunların üzərinə xanədan üzvlərindən bir «şad» təyin edirdi. Bilgə kağan əmisi Kapağanın hökmranlığı dövründə tölislərin şadı idi. Bilgə kağan zamanında isə onların şadı Kül-Çur adlı bəy idi.

---

[1] ƏTY, s. 120.

[2] Abidələr, s 105, 115, 122; ƏTY, s 40, əlavə olaraq bax: s 22, 58.

[3] Abidələr, s. 124, əlavə bax: s. 112: ƏTY, s. 48, əlavə bax: s. 62.

[4] Bilgə kağan başqa bir yerdə «Basmıl idi-kut uğuşım ərti» (Abidələr, s.123; ƏTY, I, s. 601), yəni «Basmıl idi-qut mənim soyumdan (ailəmdən) idi» deyir. Doğrudan da, basmıl başbuğları göytürk xanədanından (A-se-na) sayılmışlar (Covannes. Sənədlər, s. 86, qeyd T). (Bundan sonra: Sənədlər. - tərcüməçi). Ancaq Bilgə kağanın «Türgiş kağan türkimiz budunım ərti» (Abidələr, s. 104; ƏTY, I, s. 38) sözləri nəyi ifadə edir? O zaman «türk» sözü türkcə danışan bütün qövmlərin adı şəklində geniş bir mənada işlənmədiyi üçün bunu qövm mənasında qəbul etmək olar. Abidələrdə «türk»ün göytürk xanədanı və ya dövləti mənasında işləndiyini qətiyyən sanmıram.

**Ədiz.** Bu budunun daha əvvəllər altı oğuzlarla qonşu olaraq Kəmçik çayı boyunda, əsasən Çırğak yörəsində yaşadığı məlum idi. Çox diqqətəlayiqdir ki, ədizləri İl-təriş və onun oğlu Bilgə kağan dövründə oğuzların qonşuları kimi görürük. Ədizlər iki boydan ibarət idilər.

**Uyğur.** Yurdları Selenqa boyunda idi. Göytürklərin hakimiyyəti altındakı bir çox digər türk qövmləri kimi onların da «il-təbir» titullu bir başbuğları və ya kralları olduğu görünür. Uyğurlar Şinə-Usu kitabəsində açıqca göstərildiyi kimi on boydan ibarət idilər.

**Basmıl.** Varlıqlarını göytürklərdən sonra da uzun müddət mühafizə edən basmılların Beşbalıq tərəflərində yaşadıqları bilinir. Hökmdarları idi-küt ünvanını daşıyırdı.

**Yer-bayırku.** Abidələrdə yer-bayırkuların yurdu şimal istiqamətində uzaq bir bölgə olaraq göstərilir. Bu bölgənin Baykalın şərq sahillərində olması ehtimal edilir. Abidələrdə bu qövmdən bir dəfə bəhs olunur. Bilgə kağan dövründə başçıları Uluğ İrkən (Ərkin) ünvanlı bir boy idi. Uluğ İrkən Bilgə kağanın üzünə ağ olduğu üçün (yağı boldı) hücuma məruz qalaraq Türki Yarğun gölündə baş verən vuruşmada məğlub edilmiş və az sayda bir dəstə ilə qaçıb qurtulmuşdu, Kül-Təginin qırğız səfərində mindiyi və vuruşmada budu sınan Bayırkunun ağ ayğırı Uluğ İrkənin döyüşdə ələ keçirilmiş atı olmalıdır.

Kaşğari[1] türk dünyasının şərqində yaşayan yabaku adlı bir qövmdən bəhs edir. Onların Bükə Burdaç titullu bir başbuğları da vardır. Bükə Burdaç qaraxani torpaqlarına böyük bir qüvvə ilə hücum etmiş, lakin qaraxanilərdən Bəkəç Arslan-Təkin tərəfindən məğlub edilərək əsir alınmışdır. Yabakuların adının yer-bayırku adının qısaldılmış variantı olduğu ağla gəlir.

**Kıtay.** Tatarlar kimi monqol mənşəli olan bu qövmün də adı əksər hallarda tatabı budunu ilə birlikdə çəkilir. Tatabı budununun çinlilərin həmişə kıtaylarla (kı-tan) zikr etdikləri hi qövmü olduğu anlaşılmışdır. Kıtaylar fateh bir qövm olaraq X əsrdə Şimali Çini ələ keçirmiş, oradan qovulduqdan sonra (XII əsrdə) Türküstana köçərək qüdrətli bir imperiya yaratmışlar. İslam tarixində onlara qaraxıtay deyilir. Bu da onlara Çindən qovulduqlarına görə verilmiş ola bilər.

**Tatar.** Bu gün monqolca danışan qövmün əcdadlarından olan tatarlardan abidələrdə bəzən oğuz-tatar kimi bəhs edilir. Tatarlar o vaxt (VII əsrdə) 30 boy halında olub onlardan ancaq doqquzu siyasi bir birlik təşkil edirmişlər. Tatarların oğuzlardan şərqdə onlara qonşu olaraq yaşadıqları anlaşılır. Çünki hər iki təşəkkülün (oğuzlarla tatarların) həm göytürklər, həm də uy-

---

[1] Divanü lüğat-it-türk. Kilisli Rüfət nəşri. İstanbul, 1333-1335, I, s. 30, 377; III, s. 27, 173; Divanü lüğat-it-türk. Bəsim Atalay tərcüməsi. İstanbul, 1936-1941, I, s. 30, 452; III, s. 36, 277; [Divanü lüğat-it-türk. Ramiz Əskər tərcüməsi. Bakı, 2006, I, s. 77, 367; III, 32, 214].

ğurlar dövründə birlikdə üsyan hərəkətlərində olduqları bilinir. Monqollar zühur edənə qədər tatar adı xüsusilə türklər və çinlilər tərəfindən monqolca danışan bütün qövmlər üçün ümumi ad kimi işlədilmişdir.

**Karluq.** Bu qövmün ana yurdu Qara İrtişın sağ sahilindəki Urunğu gölü ilə Zaysan gölü arasında idi. Onlar üç boydan ibarət idilər, başbuğları isə eltəbir titulu daşıyırdı. Onlar göytürklər dövründəki müharibələrdə uyğurlar qədər haldan düşmədikləri üçün göytürklərdən sonra çox mühüm rol oynamış və monqol dövrünə kimi varlıqlarını mühafizə etmişdilər.

**Qırğız.** Türk qövmləri arasında oğuzlar kimi varlığını son zamanlara qədər davam etdirən qırğızlar göytürklər dövründə Kögmən (bugünkü Tannu Ula) dağının arxasında Abakan çayı bölgəsində yaşayırdılar. Hökmdarları kağan ünvanını daşıyırdı. Gerçəkdən, qırğızların ikinci göytürk dövləti zamanında güclü bir vəziyyətdə olduqları müşahidə edilir. Onlar uyğurlar dövründə də öz qüdrətlərini qorumuş, hətta 840-cı ildə uyğurlara hücum edərək bir qismini öldürmüş, bir qismini isə qovaraq Orxon bölgəsini əllərinə keçirmişlər. Ancaq qırğızlar mədəniyyətcə geri qalmış bir qövm olduqlarından Orxon bölgəsindəki türk mədəniyyətini təxrib etməklə türk tarixində mənfi rol oynamışlar. Sonra qara-xıtayların hücumları qarşısında (X əsrin birinci yarısı) davam gətirə bilməmiş, gəldikləri yerə qayıtmışlar. Beləliklə, qırğızlar bu qədim türk yurdunun monqolca danışan qövmlərin əlinə keçməsinə səbəbkar olmuşlar.

**Az.** Bu qövm qırğızların qonşuluğunda yaşayır, başbuğları da el-təbir ünvanı daşıyırdı. Barthold hazırda Yeniseyin aşağı Turuxan bölgəsində yaşayan assinlərin (digər adı: kott) azların qalığı olmasının ehtimal edildiyini söyləyir[1].

**Çik.** Bu qövm Kəm çayının o üzündə yaşayırdı. Onlar azlara və qırğızlara yaxın idilər. Çiklər xüsusilə uyğurlar dövründə fəaliyyət göstərmişlər. Buna görə uyğur xaqanı Moyunçur bir neçə dəfə çiklərin üzərinə səfər edərək, onları özünə tabe etmiş, üstlərinə isə bir vali (tutuk) qoymuşdur. İslam qaynaqlarında çiklərin adına rastlanmır.

**İzgil.** Bu qövmün harada yaşadığı bilinmir. Özü də kitabələrdə tək bir dəfə adı çəkilir. Orada izgillər barədə belə deyilir: «Xaqan əmimin dövləti zəifləyəndə və qövm parçalananda izgil budunu ilə döyüşdük. Kül-Təgin Alp Salçı ağ atına minib hücuma keçdi. O at orada yıxıldı. İzgil budunu məhv oldu»[2].

**On-oxlar.** 552-ci ildə Göytürk dövlətinin banisi Bumın kağan qardaşı İstəminin məiyyətinə boyları ilə birlikdə on türk bəyini verərək ona qərb bölgələrini fəth etməyi tapşırmışdı. İstəmi qısa müddət ərzində mühüm qələbələr qazanaraq Ceyhuna qədər uzanan bütün torpaqları fəth etdi. O, yabğu

[1] Orta Asiya tarixi haqqında dərslər. İstanbul, 1927, s. 30.
[2] Abidələr, s. 112; ƏTY, I, s. 48.

titulunu daşıyır və Ötükəndə yaşayan xaqanlara tabe olurdu. Lakin İstəminin xələfi Tardu 582-ci ildə xaqan ünvanı alaraq öz müstəqilliyini elan etdi. Beləliklə, Mancuriyadan Ceyhuna qədər uzanan imperiya ikiyə bölündü. Böyük Altay dağları ilə Haminin qərbindəki dağlar şərq və qərb xaqanlığının torpaqlarını bir-birindən ayırırdı. Qərbi göytürk xaqanlığının yaylaqları Qaraşarın qərbindəki Yulduz irmağının yuxarı boyu, qışlaqları isə İssık-kul sahilləri ilə Talas vadisi idi. Göytürk imperiyasının iki xaqanlığa bölünməsi və onların bir-birinə qarşı dəfələrlə düşməncəsinə davranması hər ikisinin eyni aqibətə uğramasına səbəb oldu. Çünki onların hər biri qüdrətli olduqları zamanlarda da Çinə qarşı təkbaşına mübarizə aparacaq gücdə deyildi. Bu səbəblə şərqi göytürk xaqanlığı 630-cu ildə yıxılanda, qərbi göytürk dövləti də süquta uğradı. Həmən ildə karluqların üsyanı nəticəsində xaqan öldürüldü və çinlilərin tu-lu və nu-şe-pi şəklində adlandırdıqları on-oxların iki qolu arasında ardı-arası kəsilməyən bir mübarizə başlandı. Ancaq qərbi göytürklər üçün əsl fəlakət 657-ci ildə baş verdi, 651-ci ildə tu-lu qolunun başına keçən hu-lu nu-şe-pilərə hakimiyyətini tanıtmaq üçün qərb göytürkləri arasındakı siyasi birliyi bərpa etmişdi. Ancaq o, Çinə qarşı girişdiyi müharibədə uduzdu, 657-ci ildə çinlilərə məğlub olaraq, onlar tərəfindən öldürüldü.

Bu hadisədən sonra çinlilər tu-lu və nu-şe-pilərin üzərinə ayrı-ayrı xaqanlar təyin etdilər. Onlar Çin imperiyasını süzeren kimi tanıdılar. 678-ci ildə çinlilər Tou-çe adlandırdıqları xaqanı həbs etdikdən sonra on-oxlar daha gücsüz bir vəziyyətə düşdülər, aralarındakı bağlar üzüldü. Bu xaqanlar içində on-oxlar arasında köhnə siyasi birliyi qurmaq və Çin hakimiyyətindən qurtulmaq qayəsi ilə hərəkət edənlər olsa da, onlar öz məqsədlərinə çata bilmədilər. Xüsusilə 682-ci ildən sonra on-oxlar lap taqətdən düşdülər. Çinlilərin təyin etdikləri xaqanların hakimiyyəti formal səciyyə daşıyırdı, bəylər onları tanımırdı. Bu səbəbdən əsrin son illərində qərb türkləri arasında real hakimiyyət türgişlərin bəyi U-çe-lenin əlinə keçdi. Türgişlər on-oxların tu-lu qoluna mənsub bir boy idilər[1].

699-cu ildə şərqi göytürklər on-oxları öz hakimiyyəti altına aldılar. Beləliklə, qısa bir dövr üçün də olsa, əski türk birliyi yenidən qurulmuş oldu. U-çe-lenin oğlu və xələfi So-ko (706-711) şərqi göytürk xaqanının hakimiyyətini tanımayaraq üsyan etsə də, məğlub olaraq öldürüldü (713). Ancaq 716-cı ildə şərqi göytürk xaqanı Kapağanın öldürülməsi nəticəsində türgişlərdən Su-lu (717-738) qərbi göytürklər arasında birlik yarada bildi. Yeni şərqi göytürk hökmdarı Bilgə kağanla qız alıb-verərək quda olan Su-lu çin-

[1] Yeniseydə Tuba bölgəsində tapılan bir qəbirüstü kitabə (ƏTY, III, s. 170) türgişlərin bir zamanlar burada yaşadıqlarını göstərir. Bu kitabədə Əzgənə adlı bir türgiş bəyinin 26 yaşında öldüyü bildirilir. Bu kitabə türgişlərin on-oxların tərkibinə VII əsrdə girdiklərini ağla gətirir. Əks təqdirdə Tuba ətrafındakı türgişləri bu təşəkkülün ancaq bir qismi kimi qəbul etmək lazım gəlir.

lilər və ərəblərlə uğurlu müharibələr apardı. Hətta ərəblər vuruşmalardakı cəsarət və səbatlığına görə ona Əbu Mühazim (buğa) ləqəbi vermişdilər. Lakin Su-lu uğurlarını davam etdirə bilmədi. Bu səbəbdən öz boyunun bir hissəsi olan sarı türgişlər onun xaqanlığını tanımadılar.

Çinlilərin köməyini əldə edən çu-mu-koen boyunun kül-çuru Bağa Tarxan qərbi göytürklərin bu son bəsirətli xaqanını öldürdü (738). Lakin Bağa Tarxan da çinlilərin xaqan olaraq göndərdikləri göytürk xanadənanına mənsub bir şahzadəni öldürdüyü üçün onlar tərəfindən eyni aqibətə uğradıldı. Bunun nəticəsində İli vadisi ilə İssık-kul sahilləri Çin hakimiyyəti altına keçdi.

Çinlilərin 736-cı ildə Su-luya qələbə çalmalarında və sonra qərbi göytürkləri təkrar hakimiyyətləri altına ala bilmələrində Bilgə kağanın ölümü nəticəsində (734) şərqi göytürk imperiyasının zəif bir vəziyyətə düşməsi başlıca amil olmuşdur. Şərqdə mühüm bir siyasi qüvvə qalmayınca qərbin Çinə qarşı müdafiəsi o qədər də mümkün olmurdu. Şərq qərb üçün bir qala idi. 774-cü ildə şərqi göytürk dövləti süqut edərkən çinlilər Bağa Tarxanı yenərək qərbi göytürk yurdunu işğal etdilər.

751-ci ildə Çin sərkərdəsi Kao-Sien-Çi Talas boyunda islam sərkərdəsi Ziyab ibn Saleh tərəfindən məğlubiyyətə uğradıldı. Bu, qərbi göytürklər üzərində Çin hakimiyyətinə son qoydu. Ancaq qərbi göytürklər arasında siyasi birliyi yenidən bərpa edə biləcək qüvvətli bir şəxsiyyət çıxmadı. On-oxlar demək olar ki, tamamilə dağılmışdılar. Karluqlar bu vəziyyətdən istifadə etdilər. 742-ci ildən bəri uyğurlarla şərqi göytürk imperatorluğunun mirası üçün mübarizə aparan karluqlar bu işdə uğur qazana bilməyincə qərbi göytürk ölkəsinə yönələrək buranı fəth etməyə başladılar. 766-cı ilə doğru türgiş xaqanlarının yaşadıqları Tokmak və Talas şəhərlərini ələ keçirib qərbi göytürk yurdunun hakimi oldular[1].

Diqqətəşayan haldır ki, iki göytürk dövlətinə son qoyan uyğurlar ilə karluqlar Orxon abidələrində adları ən az çəkilən türk qövmlərindən idilər. Yuxarıda da deyildiyi kimi, qərbi göytürk dövləti başlıca olaraq on boya əsaslanırdı. Orxon abidələrində bu on boya on ox deyilirdi. Bu on boy iki qola ayrılmışdı ki, həm onların, həm də bu qolları təşkil edən boyların adlarının ancaq çincə şəkillərini bilirik. Çinlilər bu iki qoldan birinə tu-lu, digərinə isə nu-şe-pi deyirdilər. Tu-lu qolu İli çayının yuxarı və orta axarı ilə Yulduz irmağı və Tarbaqatay arasında, nu-şepilər isə Çu və Talas çayları arasındakı sahələrdə yaşayırdılar. Tu-lu qolunu təşkil edən beş boy bunlardır: çu-mu/ koen, hu-lu-u (hu-lu kiu), şe-şo-ti, tu-ki-şe (türgiş), şu-ni-şe. Nu-şe-pilər: a-si-kie kiane, ko-şu kiue, pa-san kan toen şa-po, asi-kie ni-şu, ko-şu, çu tu[2].

---

[1] Şavan. Sənədlər, s, 43, 86.
[2] Yenə orada, s. 34.

Göründüyü kimi, bu on boydan yalnız tu-ki-şelərin Orxon abidələri sayəsində türgiş şəklində adı bilinir. Tu-lu boylarının başında bulunan bəylər çur (çuo), nu-şe-pilərin, başbuğları isə ərkin (se-kin) titulunu daşıyırdılar. Bunlardan əlavə, qərbi göytürklər arasında on-oxlardan başqa bir çox boylar da vardı.

Bəs on-oxlar necə oldular? On-oxların soyqırımı və ya böyük miqyasda dağıdılma kimi hərəkətlərə məruz qaldıqlarını bilmirik. Buna görə onların nəsillərinin sonrakı əsrlərdə öz varlıqlarını davam etdirdiklərini düşünmək təbiidir. Yalnız karluq fəthinin on-oxları tamamilə tarmar etdiyi və hətta bəzi miqrasiya hadisələrinə səbəb olduğu şübhəsizdir.

On-oxlara mənsub boyların başında peçeneqləri saymaq mümkündür. Peçeneqlərin üç əsil boyunun (ərtim, çur və yula) müştərək adı olan kanqar kitabələrdə və qərbi göytürk ölkəsindəki hadisələr əsnasında rast gələn və bütün hallarda bir icmanı ifadə edən kəngərək ilə birləşdirilmişdir[1]. Lakin peçeneqlərin on-oxların bir boyunun deyil, bəlkə də bir neçə boyuna mənsub təşəkkülləri əhatə edən icma olduğuna şübhə yoxdur. Yəni onlar on-oxların iki qolundan birinin mühüm bir qismindən meydana gəlmişlər.

X əsrdə Talas vadisində türkmən adını daşıyan bir qövm vardı ki, bunun islamı qəbul edən ilk türk qövmü olduğu anlaşılır. Oğuzlardan fərqli bir qövm olan bu türkmənlər çox ehtimal ki, on-oxların qalıqları idi. Digər tərəfdən, Minorski[2] X-XI əsrlərdəki tuxsıların turgişlərin qalıqları olduğunu söyləyir. Çox ağlabatandır.

Qərbi göytürklər həm siyasi tarix, həm də mədəniyyət tarixi baxımından şərqi göytürklərlə müqayisə edilə bilməz. Onlar nə şərqi göytürklər kimi mühüm siyasi fəaliyyətdə olmuş, nə də onlar kimi türk dili, ədəbiyyatı və tarixi baxımından dəyərli kitabələr yadigar qoymuşlar. Bu, hər halda bir qədər də yaşadıqları bölgənin çoğrafi xüsusiyyətləri ilə əlaqədar olmalıdır. Çünki eyni əraziyə hakim olan qaraxanilərin rolu da bu baxımdan (islam dinini qəbul etdikləri halda) onlarınkından çox fərqli olmamışdır. Qaraxanilərdən bizə ancaq bir-iki əsər gəlib çatmışdır.

*Oğuzlar göytürklərin hakimiyyəti altında*

681-ci ildə göytürk şadlarından Kutluğ göytürk dövlətini qurmaq üçün yenidən fəaliyyətə başlamış və xaqan olunca il-təriş titulunu almışdı. Həmin dövrdə Kutluğ və onun müdrik vəziri Bilgə Tonyukuk geyik və dovşan əti

---

[1] S.Q.Klyaştornı. Orxon abidələrində Kengünün qövmi yer adı. Türkcə tərcüməsi İsmayıl Qaynağındır. Belleten, № 69, s. 89-104. XIII əsrdə Hələb ətrafında yaşayan türkmən bəylərindən birinə Kəngəroğlu deyilir, qızılbaş səfəvi boylarından ustacluların oymaqlarından biri isə kəngərlu adını daşıyırdı.

[2] Hüdud ül-aləm (ingiliscə). London, 1937. Şərhlər hissəsi, 300-303.

yeyərək Çuğay-Kuzda və Qaraqumda yaşayırdılar. Xaqanlığın paytaxtı Ötükən hələ ələ keçirilməmişdi. Ehtimal ki, bura oğuzların hakimiyyəti altında idi. Bu vaxt əsasən Tula çayı sahillərində yaşayan oğuzlar Kutluğun fəaliyyətindən möhkəm təlaşa düşdülər. Onların başçıları Baz kağan idi. Təklikdə türklərə hücum etməyi bacarmayacaqlarını görüb Kunı Səngünü Çinə, Tonra Səmi isə kıtaylara elçi göndərdilər. Türklərin onlar üçün də təhlükəli vəziyyət yarada iləcəklərinə işarə vurub birlikdə türklərə hücuma keçməyi təklif etdilər. Lakin göytürklər oğuzların bu təşəbbüsündən vaxtında xəbər tutdular. Bilgə Tonyukukun təklifi üzrə İl-təriş üç qüvvənin birgə hücumuna uğramadan oğuzların üzərinə yürüdü. Göytürklər və oğuzlar Tula (Tuğla) çayı sahilində qarşılaşdılar. Türk ordusunda 2 min, oğuz ordusunda 3 min adam vardı. Döyüşdə oğuzlar məğlub oldular, onların bir qismi çayda boğuldu, bir qismi isə qaçarkən öldürüldü. Məğlubiyyətdən sonra sağ qalan oğuzlar itaət etdilər[1].

Bu müvəffəqiyyətin ardınca imperiyanın mərkəzi Ötükən də fəth olundu və İl-təriş kağan orada yerləşdi (682). Oğuzların başçısı Baz kağanın bu vuruşma nəticəsində necə olduğu barədə heç bir məlumat yoxdur. Bu hadisədən sonra oğuzların hər hansı bir üsyanından və onlarla aparılan müharibədən də bəhs edilmir. Yalnız Tonyukuk kitabəsinin sonlarında İl-təriş kağan təriflənərkən onun oğuzlarla beş dəfə vuruşduğu yazılır. Bunlardan dördü haqqında danışılan vuruşdan əvvəl, yoxsa sonra baş vermişdir? Bizcə, bu xüsusda qəti bir şey söyləmək mümkün deyil. Bununla bərabər, Baz kağan Tula vuruşmasında öldürülmüş ola bilər. Bilgə kağan kitabəsində onun İl-təriş kağan üçün balbal tikdiyi bildirilir[2]. Bu xüsus nə olursa-olsun, oğuzlar İl-təriş kağan zamanında tamamilə itaət altına alınmış və birbaşa xaqanın hakimiyyətinə tabe edilmişdir. Beləliklə, oğuzlar türklərin yanında dövlətin əsaslandığı ikinci bir ünsür kimi yer tutmuşdular.

İl-təriş kağan Ötükəndə yerləşdikdən sonra müdrik «ayğuçusu» Bilgə Tonyukukun məsləhəti ilə Çinə qarşı səfərlər təşkil etməyə başladı ki, nəticədə Şantun ovalığında 23 şəhər alındı. Şübhəsiz, bu səfərlərdə göytürk imperiyasının ikinci sütunu olan oğuzlar da iştirak etdilər. İl-təriş kağan 691-ci ildə öldü və yerinə qardaşı Kapağan kağan keçdi. Onun dövründə təşkil olunan məşhur qırğız səfərində oğuzların iştirak etdiyi Bilgə Tonyukukun kitabəsində bildirilir. Bu səfərin səbəbi qırğızların göytürklərə qarşı çinlilər və on-oxlarla ittifaq bağlamaları idi.

Bu arada müttəfiqlər oğuzları da üsyana təşviq etmişdilər. 697-ci ildə təşkil edildiyi bilinən bu səfərdə Ak Tərməli keçdikdən sonra oğuzlar ön qüvvə kimi qabağa göndərildilər. Köymən meşəsinin nizə boyu qarlı yollarını və yamaclarını aşıb gecə-gündüz yel kimi gedən oğuzlar Sonqa meşəsin-

[1] ƏTY, I, s. 102-104.
[2] Yenə orada, s. 36.

də qırğız xaqanının ordusu ilə qarşılaşdılar. Vuruşmada qırğız ordusu məğlub edilmiş, qırğız xaqanı da döyüş meydanında həlak olmuşdu. Kitabələrdə xeyli, uzun müddət oğuzların üsyan hərəkatından bəhs edilməmişdir. Əgər belə bir şey baş versəydi, göytürklərin bütün istiqamətlərdə zəfərlər qazanmaları heç də mümkün olmazdı. Çünki Bilgə kağanın hakimiyyətinin ilk illərində oğuzların üsyanı göytürk dövlətinin zəifləməsində çox mühüm bir amil olmuşdur.

Kapağan kağan zamanında təşkil edilən səfərlər sayəsində göytürk imperiyasının hakimiyyəti təkrar uzaq yerlərə qədər yayıldı. Beləliklə, çox mühüm ehtimala görə, on-oxların itaət altına alınmasında (698), zəngin qənimətlər ələ keçirilən Mavəraünnəhr səfərində (700-701), Çin sərkərdəsi Çaça ilə aparılan və türklərin parlaq zəfəri ilə başa çatan vuruşmada (706) və digər səfərlərdə türk budunu ilə birlikdə oğuzlar da iştirak etmişlər. Lakin bu parlaq dövr, iki budun arasındakı bu qardaşlıq Kapağan kağanın 716-cı ildə bayırkular tərəfindən pusquya salınaraq öldürülməsilə sona çatdı. İl-tərişin oğulları Kapağan kağanın oğlu Bögünün hökmranlığını tanımadılar. Türklərdə səltənət varisliyinin sabit bir qayda ilə nizamlanmamasının nəticəsi özünü burada da göstərdi. Bu ixtilaf üzündən türklər iki hissəyə ayrılaraq bir-birilə mübarizəyə girişdilər. Mübarizədə şəxsən Kül-Təginin cəsarəti və vuruşqanlığı sayəsində İl-tərişin oğulları qalib gəldilər. Bökü xan və tərəfdarları zərərsizləşdirildilər. İl-tərişin böyük oğlu xaqan oldu (716). O, kitabələrdəki Türk Bilgə kağandır. Onun qardaşı Kül-Təgin isə göytürk ordusunun komandanlığını öz üzərinə götürdü. Belə anlaşılır ki, İl-tərişin oğulları ilə Bögü xan arasında xaqanlıq uğrunda mübarizə imperiyaya zəif şəkildə bağlanmiş budunların tabelik bağlarını qoparmasına səbəb oldu və hər tərəfdə qarışıqlıqlar (bolğak) baş verdi. Türgişlərdən sulu adlı bir başbuğ on-oxların rəhbəri olaraq kağan ünvanı aldı və qərb türklərini müstəqil surətdə idarə etməyə başladı. İzgillərin üsyan etməsilə eyni vaxtda oğuzların da üsyan bayrağını qaldırdıqları görünür. Kitabələrdə hər yanda baş verən qarışıqlıqlar və qısqanclıq oğuzların üsyanına səbəb olaraq göstərilir. Bu məlumatlar olduqca şübhəlidir.

Ancaq həqiqət budur ki, oğuzlar xaqanlara ürək qızdırmırdılar. Onların heç bir zaman tölis və tarduşların vəziyyətinə düşmək istəmədikləri məlumdur. Burada hər halda qövmi bir səbəb olduğu kimi, oğuzların ayrı bir siyasi keçmişə malik olmaları da bəhs mövzusudur. Yəni onların bu üsyanlarının siyasi səbəbi, şübhəsiz, müstəqilliyə qovuşmaq idi.

Bilgə kağan ilə Kül-Təgin izgillərə divan tutduqdan sonra oğuzların üzərinə yürüş etdilər. Ancaq onları izgillər kimi asanlıqla yola gətirmək mümkün olmadı və bir ildə beş dəfə vuruşmaq lazım gəldi. Oğuzlar ilə ilk vuruşma Toğu Balıkda oldu. Adına görə, ehtimal ki, bura şəhər imiş. Ancaq bu barədə heç bir məlumat yoxdur. Kül-Təkinin Azman adlı atına minərək dal-

badal yeddi nəfəri nizə ilə öldürməsinə, böyük bir igidlik gəstərməsinə baxmayaraq göytürklər qəti bir nəticə edə bilmədilər. Bunun əvəzində, Kuşlığakda ədizlərlə çarpışmalarda onları ağır məğlubiyyətə uğratdılar. Oğuzlar ilə ikinci vuruşma Urquda (müasir Urqa?) oldu, ancaq o da qəti nəticə vermədi. Bunun ardınca gələn Çuşbaşı müharibəsi isə həddən artıq çətin olmuş, göytürklər ciddi təhlükəyə məruz qalmışdılar. Bu müharibədə göytürk ordusu oğuzların qarşısında qorxunc bir vəziyyətə düşmüşdü. Xoşbəxtlikdən, Kül-Təgin hücuma keçən oğuzları geri oturtmağa, hətta tonqralardan Yılpaqut (Alpağut) ilə on nəfəri əsir almağa müvəffəq olmuşdu. Onlar həmin günlərdə döyüşdə həlak olan və ya öz əcəli ilə ölən göytürk Tonqa-Təginin yuğunda (cənazə mərasimində) o biri dünyada ona xidmət etmələri üçün öldürüldülər. Ancaq müharibə yenə də bir nəticə verməmişdi. Buna görə iki qardaş budun Əzgənti Qadazda yenidən qarşılaşdılar, lakin bu dəfə də qalib-məğlub bilinmədi. Artıq qiş girmişdi! Göytürklər Əmğa qalasında qişladılar. Bu qış göytürklər üçün xoş keçmədi, çünki «yut» olmuş, yəni heyvanlar tamamilə qırılmışdı. Bahar gəlincə (717-ci ilin baharı?) Bilgə kağan oğuzlara qarşı əsgər çıxartdı, ancaq oğuzların üç-oğuz qoluna mənsub bir ordusu onun ordugahına basqın etdi. Bu basqın o qədər bacarıqla həyata keçirilmişdi ki, oğuzlar görünməmiş bir zəfər çalmaq üzrə idilər. Hətta onlardan bir bölüyü ordugahı yağmalamağa başlamışdı. Lakin yenə Kül-Təginin igidliyi və Bilgə kağanın soyuqqanlılığı sayəsində bu təhlükənin qarşısı alındı[1]. Bununla bərabər, oğuzlarla müharibələrin sonu görünmürdü. Bilgə kağan yuxarıda göstərilən müharibədən sonra oğuzlar üzərinə təkrar yürüş edərək müvəffəqiyyət qazansa da, oğuzlar qoşunları doqquz-tatarlarla birləşərək Ağuda göytürklərin qabağına çıxdılar.

Məğlubiyyətə uğrayan oğuzlar Çinə getdilər, lakin sonra təkrarən vətənlərinə qayıtdılar. Onlar hələ boyun əyməmişdilər. Bu səbəblə Bilgə kağanın oğuzlar üzərinə daha bir yürüş təşkil etdiyi anlaşılır[2]. Həmən səfər zamanı uyğurlara da hücum olunmuş, onlar darmadağın edilmiş, uyğur il-təbiri yüzə yaxın adamla şərqə tərəf qaçmışdı[3]. Göytürk kitabələrində ilk və son dəfə olmaq üzrə uyğurlar barədə ancaq bu qədər bəhs edilmişdir. Buradan uyğurların bir çox digər türk qövmlərinin əksinə olaraq Selenqa boyunda hər halda göytürklərə vergi verərək sakit bir həyat sürdüklərinə hökm vermək mümkündür. Ertəsi il, Bilgə kağan 34 yaşında olanda (718-ci il), göytürklərə müqavimət göstərə bilməyən, onlara tabe olmaq da istəməyən oğuzlar Çinə köçərək çinlilərin idarəsi altına girdilər[4]. Artıq onlardan bir daha bəhs edil-

[1] Bu xüsusda Bilgə kağan kitabəsində geniş təfsilat var (Abidələr, s. 124-126, Kül-Təgin kitabəsi, s. 112-113; ƏTY, I, s. 62-66, Kül-Təgin kitabəsi, s. 48-50).
[2] Abidələr, s. 127; ƏTY, I, s. 66.
[3] Yenə orada.
[4] Yenə orada, s. 67.

məmişdir. Yalnız 720-ci ildə tikildiyi qəbul edilən Bilgə Tonyukuk kitabəsindəki «Türk Bilgə kağanın türk sir budununu və oğuz budununu yaxşı idarə etdiyi» sözləri[1], Bilgə kağanın öz kitabəsində oğuz bəylərinə və budununa xitab etməsi[2] oğuzların, nəhayət, yurdlarına qayıdaraq xaqana tabe olduqlarını göstərir.

732-ci ildə Kül-Təginin ölümü Bilgə kağanı və bütün göytürkləri dərin bir hüzn və ələmə qərq etdi. Çünki dövlətin yaşaya bilməsində Kül-Təginin igidliyi mühüm bir amil idi. Bütün göytürklər Kül-Təgin üçün qanlı göz yaşları axıtdılar. Ağır bir yas tutuldu. Bu matəm eyni zamanda türk budununun yaxın bir gələcəkdə qarşılaşacağı təhlükələrlə dolu qaranlıq günlərin ifadəsi idi. Doğrudan da, çox keçmədən Bilgə kağan da vəfat etdi (734). Yerinə əvvəlcə çinlilərin Yi-han dedikləri böyük oğlu keçdi, lakin qısa bir müddət sonra vəfat etdiyi üçün kiçik oğlu xaqan elan olundu. Tanrı kağan adlı bir hökmdar gənc və təcrübəsiz idi. Həmin vaxt Selenqa boyunda yaşayan uyğurlar, Tarbaqatayda yaşayan karluqlar və yurdları Beşbalıq bölgəsi olduğu sanılan basmıllar getdikcə qüvvətlənirdilər.

Oğuzlara gəlincə, bu xüsusda heç bir şey söyləmək ümkün deyil. Tanrı kağanın qərb və şərq şadları olan əmiləri onun buyruqlarına qulaq asmırdılar. Tanrı kağan bu iki şaddan qərb şadını məğlub etmişdisə də, şərq şadına məğlub olaraq öldürülmüşdü (741). Ancaq xanədan üzvləri arasında səltənət uğrunda mübarizə davam edirdi. Basmıllar, uyğurlar və kaluklar bu vəziyyətdən sui-istifadə edərək hərəkətə başladılar. Üç tuğlu[*] türk budununun başında Ozmış kağan dururdu.

Uyğurların başbuğu qoyun ilində[**] (743) Ozmış kağanı ağır bir məğlubiyyətə uğratdı. Üç tuğlu türk budunu böyük fəlakətə düçar oldu; bu arada xaqanın xatunu da əsir alındı. Son zərbəni basmıllar vurdular və öldürdükləri Ozmış kağanın başını Çin sarayına göndərdilər (744). Basmılların başbuğu özünü xaqan elan etdi, hətta göytürklərin sağ qalanları onun xaqanlığını tanıdılar. Lakin həmin ildə uyğurların başbuğu ehtimal ki, karluqların da köməyi ilə basmıl hökmdarını məğlub edib öldürərək Ötükənin hakimi oldu. Sağ qalan göytürklər Çinə köç edib onun idarəsi altına girdilər[3]. Bundan sonra göytürklər bir daha tarix səhnəsində görünməmişlər. Göytürklər Orta Asiyada əvvəlkilər ilə müqayisə edilməyəcək dərəcədə böyük və mütəşəkkil bir imperiya qurmuşlar. Göytürklərin sayəsində türk soyu tarixdə son dəfə olaraq bir bayraq altında toplanmışdı. «Türk» sözü, bilindiyi kimi, bu impe-

---

[1] ƏTY, I, s. 20.

[2] «Türk, oğuz bəgləri, budun, eşidin» (ƏTY, I, s. 38-40).

[*] Tuğ - bayraq, dövlət bayrağı. Dəstək hissəsində parçanın yanında püskülü və ya qotazı olurdu (tərcüməçi).

[**] Qədim türklərdə on iki heyvan adından ibarət təqvim işlənirdi. İllərdən biri qoyun ili adlanırdı (tərcüməçi).

[3] ƏTY, I, Şine-Usu abidəsi, s.166; Röne Qrosse. Bozqır imperiyası, Paris, 1948, s.161-162.

riyanı quran və onu idarə edən qövmün adı idi. Onların bütün türk qövmlərini əhatə edən bu böyük imperiyanı yaratmaları nəticəsində öz qövmi adları xüsusilə Orta Şərqdə türkcə danışan bütün qövmlərin ümumi adı mənasını qazandı. Halbuki türk budunu qövmi varlığını siyasi varlığı ilə birlikdə itirərək ortadan qalxmışdı. Göytürklərdən sonra heç bir türk qövmü digər türk təşəkküllərindən çoxunu əhatə edən bir dövlət qura bilməmişdir. Orta Asiya tarixinin başlıca üç əsas dövründən (digərləri huin-nu və monqol dövrləridir) biri olan göytürklər dövrünün eyni zamanda türk mədəniyyət tarixi baxımından necə əhəmiyyətli bir dövr olduğu məlumdur. Türklər ilk dəfə bu dövrdə milli bir əlifbaya sahib olmuşlar. Türk dilinə aid ən qədim milli qaynaqlar da bu dövrə aiddir. Bunlar yalnız türk dilinin deyil, türk ədəbiyyatının, türk tarixinin, geniş bir mənada türk mədəniyyətinin ən qədim qaynaqlarıdır.

Göytürklərdən sonra gələn türk qövmləri bu dövrə aid ədəbi ənənələri inkişaf etdirmək bir yana qalsın, hətta bəzən onu tamamilə unutmuşlar. Uyğurlar bir müddət göytürk əlifbasından istifadə etdikdən sonra yerinə türk dili üçün daha əlverişsiz başqa bir əlifba işlətmişlər. Göytürklərdən sonra türk qövmlərinin siyasi müqəddəratının ayrılması onların bir-birindən fərqlənən mədəniyyət mühitinə girməsinə səbəb olmuşdur. Yalnız monqol dövrü türklərin çox mühüm bir qismini və ya hamısını tək bir mədəniyyət aləmində birləşdirmişdir. Bu qədər mühüm rol oynamış bu türk qövmünün aqibəti bax belə olmuşdur.

*Oğuzlar uyğurlar dövründə*

Çin qaynaqlarının hşey-hu adlandırdıqları uyğurlar Selenqa boyunda yaşayırdılar. Uyğurlar XIV əsrin əvvəllərində də ən qədim yurdlarının bura olduğunu bilirdilər. Göytürk abidələrində uyğur adına tək bircə dəfə rastlanır. Buradan uyğurların digər türk qövmlərindən fərqli olaraq göytürk xaqanlığına itaət edib vergi verməklə sakitcə həyat sürdükləri nəticəsini çıxarmaq mümkündür.

Bilgə xaqan oğuzları itaət altına almaqla məşğul olarkən Selenqa boyundakı uyğurların üstünə də yürüş etmiş, tar-mar olan uyğur il-təbiri yüzə yaxın adamı ilə şərqə tərəf getmişdir. Uyğurların ələ keçirilən ilxıları yutdan (heyvan qırğını) xilas olmuş, oğuzlar ilə mübarizə dolayısı ilə türk budunu arasına düşən aclığın qarşısı alınmışdır. Bu səbəblə səfərin iqtisadi bir qayə ilə təşkil edilməsi fikri doğrudur[1].

Uyğurların siyasi baxımdan getdikcə daha çox əhəmiyyət qazanmalarında oğuzların öz hakimləri göytürklərlə mübarizə aparmaları hər halda bir amil olmuşdur. Bu mübarizə oğuzları taqətdən saldığı üçün onlar asanlıqla

[1] Rene Jirau. Qədim türk imperiyası. Paris, 1960, s. 53.

uyğurların hakimiyyəti altına düşmüşlər. Bunun 742-ci ildə Tanrı kağanın öldürülməsindən sonra baş verdiyi şübhəsizdir. Xaqan olan kimi Kül-Bilgə adını qəbul edən uyğur hökmdarı öz oğlunu oğuzlara hakim təyin elədi. Oğuzları özlərinə tabe etmək uyğurlar üçün həqiqətən böyük müvəffəqiyyət idi. Bu onların Orxon bölgəsinə hakim olmaq üzrə olduqlarını göstərirdi. Həqiqətən, qoyun ilində (743) uyğur başbuğu üç tuğlu türk budununun xaqanı Ozmış kağan üzərinə yürüş edərkən oğlu da doqquz-oğuz əsgərləri ilə ona qoşuldu. Oğuzlar yeni ağalarının yanında vaxtilə birlikdə parlaq zəfərlər qazandıqları köhnə silahdaşlarını məhv etməyə gedirdilər.

Həmin il baş verən müharibədə Ozmış kağan ağır məğlubiyyətə düçar oldu. Türk budunu o zaman doqquz-oğuzların başçısı Tanrıda Bolmış İl Etmiş Bilgə kağanın ifadəsilə «anda inağaru yok boldu» (Türk budunu orada tamamilə (?) yox oldu)[1].

Bu səfərdən sonra uyğur başbuğu Ötükən bölgəsinə yerləşdi, xaqan ünvanı aldı və Kül-Bilgə xan olaraq tanındı. Bundan sonra uç-karluq ilə vuruşan Kül-Bilgə xan onları on-oxların ölkəsinə çəkilməyə məcbur etdi. Ancaq çox keçmədi Kül-Bilgə xan öldü (donuz ilində-747)[2]. Yerinə doqquz-oğuzların başçısı olan oğlu keçdi və «Tanrıda Bolmuş İl Etmiş Bilgə kağan» ünvanı aldı. Bu uyğur hökmdarı Türk Bilgə kağan kimi doqquz-oğuzlar haqqında «doqquz oğuz budunum»[3] deməklə bərabər, xaqan olanda oğuzların böyük əksəriyyətinin özünə düşmən olduğunu gördü. Onlar şəxsən bu uyğur xaqanı ilə əlaqədar kitabədə «səkkiz-oğuz» kimi qeyd olunmuşlar. Buradan belə bir nəticə çıxır ki, ancaq bir oğuz boyu xaqana sadiq qalmış imiş. Göytürk xaqanlarına qarşı olduğu kimi, oğuzların uyğur hökmdarlarına qarşı da üsyan etmələrinin istiqlaliyyət qazanmaq qayəsi güddüyünə hökm vermək mümkündür. Oğuzlar bu məqsədlə göytürklər dövründə etdikləri kimi şərq qonşuları doqquz-tatarlar ilə birləşmişdilər.

İl Etmiş Bilgə kağan müttəfiqlərinə hücum edərək meşəlik bir yerdə gecə vaxtı onları məğlubiyyətə uğratdı. Lakin ertəsi gün onlar yenə xaqanın qabağına çıxdılar. İkinci vuruşmada da xaqan qalib gəldi. İl Etmiş Bilgə kağan oğuzların sadə xalq təbəqəsindən (qara igil budun) çoxlu adamı əsir almış, ancaq onların kibitkalarına, ailə üzvlərinə və davarlarına heç nə etməmiş, olsa-olsa başçılarına cəza (kıyın) vermişdi[4].

Oğuzlar xaqana tabe olmaq təklifini rədd etdikləri üçün Bilgə Kağan onların arxasınca düşərək Burğuda onları haxlamış və bu dəfə oğuzları ağır bir məğlubiyyətə uğratmışdır (dördüncü ayın-haziranın 9-da)*. Xaqan bu vuruş-

---

[1] ƏTY, I, s. 166.
[2] Yenə orada.
[3] Yenə orada, s. 164.
[4] ƏTY, I, s. 168.
* Müasir türk təqvimində haziran iyun ayına müvafiqdir. Lakin həmin dövrdə türklərdə il martın 21-də başlandığı üçün haziran dördüncü ay kimi göstərilir (tərcüməçi).

mada oğuzların kibitkalarını, heyvanlarını, qadın və uşaqlarını ələ keçirmişdir. Beşinci ayın-təmmuzun 29-da* Selenqa sahillərində təkrar vuruşma oldu. Oğuzlar və tatarlar darmadağın edildilər və çayı keçib qaçdılar. Xaqan onları təqib edərək Tay Bilgə Tutuk və başqa iki nəfərin pis əməlləri üzündən tar-mar olduqlarını və qırıldıqlarını söylədi, daha böyük fəlakətə uğramamaları üçün yenidən ona tabe olmağa çağırdı. Tay Bilgə Tutuğun oğuz başbuğu olduğu anlaşılır. O, xaqanın atası tərəfindən oğuzlara yabğu təyin olunmuşdu. Xaqan iki ay gözlədi, lakin oğuzlar qayıtmadılar.

Xaqan səkkizinci ayın (ekim) 2-də Çığıltır çölündə, sonra isə Keyrəbaşındakı Üç Bürküdə tatarlarla ağır bir vuruşmaya girişdi. Bu vuruşma nəticəsində tatarların bir hissəsi xaqana itaət etdi, ancaq qalanları tabe olmaqdan boyun qaçıraraq uzaq bir yerə çəkildilər. Bundan sonra xaqan Ötükənə qayıtdı[1]. Belə çıxır ki, o, istədiyinə müvəffəq ola bilməmişdi.

Tanrıda Bolmuş İl Etmiş Bilgə kağan Ötükənə qayıtdıqda iki oğlundan birinə yabğu, digərinə şad ünvanları verərək onları tarduş və tölis budunları üzərinə başçı təyin etdikdən sonra 750-ci ildə (qaplan ilində) Kəm çayı sahillərində yaşayan çiklərə qarşı səfərə çıxdı, dovşan ilində isə tatarların üstünə yürüş etdi[2]. Bunun ardınca kitabədə oğuzların adına təkrar rastlanır. Ancaq kitabənin bu hissəsi aşındığından doqquz-oğuzların nə münasibətlə zikr olunduqları aydın şəkildə başa düşülmür.

Bununla birlikdə təxmin etmək olar ki, doqquz-oğuzlar qırğızlara və çiklərə adam göndərərək onları uyğurlara qarşı birgə hərəkət etməyə çağırmışlar. İl Etmiş Bilgə kağan isə bununla əlaqədar çiklərə qarşı yenidən səfər təşkil edib onları itaət altına aldı. Onlara bir başçı (tutuk) təyin etdi. Bundan sonra xaqanın karluqlar və basmıllar ilə savaşları başlanır. Bu savaşlar zamanı Çində yaşayan oğuzlar və türklər qayıdaraq xaqanın düşmənlərinə (basmıllar və karluqlara) qoşulmuşlar[3]. Xaqan basmıllar və karluqlarla bir neçə dəfə döyüşmüş, nəhayət, onları ağır məğlubiyyətə uğratmışdı. Bu məğlubiyyət nəticəsində karluqlar qərbə doğru çəkilərək qısa müddət ərzində on-oxların ölkəsini ələ keçirdilər. Qazandığı müvəffəqiyyətlərdən sonra suğdak və çinlilərə Selenqada böyük bir şəhər saldıran[4] böyük uyğur hökmdarı Tanrıda Bolmuş İl Etmiş Bilgə kağan 759-cu ildə vəfat etdi. Uyğurlar 840-cı ilədək Orxon bölgəsinin hakimi oldular. Onların hakimiyyəti altındakı torpaqların qərbdə Altaya, şimalda Baykala, Cənubda Beşbalıq bölgəsinə qədər uzandığı məlumdur.

---

* Təmmuz indi iyula müvafiqdir (tərcüməçi).
[1] ƏTY, I, s. 168-170.
[2] Yenə orada, s. 172.
[3] ƏTY, I, s. 173-176.
[4] Yenə orada, s. 177-183.

Uyğur budunu on boydan ibarət idi. Bu xüsus Şine-Usu kitabəsində xatırlanır və onlar doqquz-oğuzlardan açıq şəkildə fərqləndirilir[1]. On-uyğur sözü Beşbalıq bölgəsində (Koçoda) tapılan manixey yazısı ilə yazılmış türkcə bir mətndə də vardır[2]. Bu mətn IX, yaxud X əsrə aid edilir. Deməli, doqquz-oğuzlar həm türk budunundan, həm də on-uyğurlardan qövmi baxımdan tamamilə ayrı təşəkküldür. Əvvəlcə göstərdiyimiz kimi, oğuzlar ikinci göytürk dövründə hansı mahiyyətdə bir rol oynamışlarsa, uyğur dövründə də həmin rolu davam etdirmişlər. Yəni bu dövlətlərin əsaslandığı ikinci ünsür olmuşlar. Yuxarıda göründüyü kimi, onlar həmçinin həm göytürk, həm də uyğur xaqanlıqlarına qarşı üsyanlar etmişlər, yəni onlar hər iki dövlət qarşısında tarduş və tölis boyları kimi dəyişməz bir vəziyyət və davranışa sahib idilər. Yeganə fərq odur ki, son iki budunun üsyanları barədə kitabələrdə məlumat yoxdur.

Uyğurlar təxminən yüz il Orxon bölgəsinin hakimi oldular, bu arada manixey dinini də qəbul etdilər. Onların böyük qonşuları çinlilərin dini olan buddizmi deyil, qərb mənşəli manixey dinini qəbul etmələri diqqəti cəlb edir.

Uyğurlardan bizə türk dilində bəzi kitabələr qalmışdır. Kitabələrdən başa düşülür ki, uyğurlar bir neçə şəhər də salmışlar. Bununla bərabər, Orxon bölgəsində qədimdən bəri davam edən mədəniyyətin uyğurlar zamanında daha da inkişaf etdirilməsi mümkün idi.

Qədim çağlardan Kəm (Yenisey) boyunda yaşayan və mədəni səviyyəcə geridə qalan qırğızlar 840-cı ildə uyğurlara hücum edərək xaqanın Orxon sahilindəki iqamətgahı Ordu Balığı dağıtdılar, xaqan isə həlak oldu. Buna görə dövlət mərkəzinə yaxın yerlərdə yaşayan 13 uyğur boyu Çin hüdudlarına doğru qaçdı. Onlar bir tərəfdən qırğızların, digər tərəfdən çinlilərin ardıarası kəsilməyən hücumlarına məruz qalaraq səfil bir həyat sürüb dağıldılar. Uyğurların bir hissəsi Çinin hakimiyyəti altına keçdi, qalanları isə qırğızlara əsir oldu. Uyğurların digər bir kütləsi isə qərbə tərəf qaçmışdı. Onlar karluqlara sığınmaq istəyirdilər. Belə anlaşılır ki, bu 15 boydan ibarət kütlə iki hissəyə ayrılmış, biri Tibetə getmiş, digəri isə sonra Qansu bölgəsində yurd salaraq kiçik bir krallıq qurmuşdur. Onlar Çin ilə həmişə dostluq münasibətləri içində yaşamışlar. Bu 15 boyun daha çoxsaylı qoluna gəlincə, onlar Tyan-Şanda yurd salaraq 848-ci ildən əvvəl Monli adlı başbuğlarını xaqan elan etmişlər. Çin sarayı ona «Uluğ Tanrıda Qut Bulmuş Alp Külüg Bilgə» kimi təntənəli bir ünvan verərək Tyan-Şan uyğurlarının kralı sifətilə tanıdı (856).

Çinlilərin Pukut-siun dedikləri şəxs xaqanın xələfi oldu (onun 874-cü ildə öldüyü təxmin edilir). Bundan sonra Çin mənbələrində uzun müddət Tyan-Şan uyğurları haqda heç bir qeydə rastlanmır. Lakin X əsrin ortaların-

[1] «...kalmış budun on-uyğur tokuz-oğuz üzə yüz olurun». ƏTY, I, s. 164.
[2] Bax: Ceyms Hamilton. Tokuz-oğuz və on-uyğur, s. 39-40.

da (951-ci ildə) həmin uyğurlardan bir elçi gəldiyi bildirilir. Bu xüsus Tyan-Şan uyğurlarının Qansu uyğurları kimi siyasi baxımdan nə qədər əhəmiyyətsiz bir vəziyyətdə olduqlarını göstərir[1].

Uyğur hökmdarları burada «xaqan» deyil, siyasi səciyyələrinə uyğun olaraq «idi-kut» kimi təvazökar bir ünvan daşıyırdılar. Uyğurlar təzə yurdda oturaq həyata keçərək daha mədəni bir qövm oldular. X əsrin ikinci yarısından etibarən əksəriyyəti buddizmi qəbul etdi. Onlar həm Orxon, həm də Beşbalıq bölgələrində özlərindən uyğur adı ilə bəhs etmişlər[2]. Açıqca görünür ki, doqquz-oğuz onlardan tamamən fərqli bir qövm idi. Bu belə olduğu halda islam coğrafiyaşünaslarının uyğurlardan «toğuz-ğuzz» (doqquz-oğuz) kimi bəhs etmələrini necə başa düşməli?

İslam coğrafiyaşünasları «toğuz-ğuzz» adı ilə həm Orxon, həm də Beşbalıq uyğurlarını nəzərdə tutmuşlar. Ehtimal ki, onlar 840-cı il fəlakətindən xəbərdar olmamış, ona görə də X əsrdə uyğurları qədimdəki kimi türk qövmlərinin ən qüvvətlisi olaraq mədh etmişlər. Halbuki, yuxarıda göstərdiyimiz kimi, bu uyğurlar siyasi baxımdan o qədər əhəmiyyətsiz idilər ki, adları Çin mənbələrində nadir hallarda çəkilirdi.

İslam müəlliflərinin uyğurları toğuz-ğuzz kimi qeyd etmələrinin səbəbi haqda hamını razı salacaq bir izahat vermək bəlkə də çətindir. Zənnimizcə, islam müəllifləri hər iki adı eyni, yəni bir sanmışlar. Hər iki qövmün bir xanədanın idarəsi altında olması və adlarının bir-birinə bənzəməsi (uyğur-ğuz-oğuz-ğuzz) buna səbəb ola bilər. Çinlilər uyğurları doqquz boydan ibarət bir qövm kimi tanımış, hətta bu boyların adlarını da göstərmişlər[3].

İslam müəlliflərinin hər iki adı eyni hesab etmələrində bəlkə bu da bir amil olmuşdur. Hər halda onlar bu iki eli eyni qövm sanmışlar. Diqqətəşayandır ki, XIV əsrdə uyğurlar Orxon və Selenqa bölgəsindəki yurdlarını, orada özlərinin on-uyğur adı altında doqquz-oğuzlarla birlikdə yaşadıqlarını unutmamışdılar[4].

Bəs doqquz-oğuzların aqibəti necə olmuşdur? Ağla gələn ilk cavab budur ki, onlar Orxon bölgəsindən qərbə doğru köçmüş və Sır-Dərya sahillərində sadəcə oğuz adı ilə üzə çıxmışlar. Həqiqətən, oğuzların türk ölkəsinin ən uzaq bölgəsindən Mavəraünnəhrə abbasi xəlifəsi Mehdinin hakimiyyəti dövründə (775-785) gəldiklərinə dair məlumat vardır[5]. Bundan başqa, Təbə-

---

[1] Bu barədə bax: Ceyms Hamilton. Çin sənədləri üzrə uyğurlar beş sülalə dövründə. Paris, 1955, s. 6-17, 142.

[2] Qara Balasağun kitabəsində «(B)u Tənrikən(in) Tənridə k(u)t bulmuş al(p) Bilgə Tən(ri) Uyğur ka(ğanın bitigi)» (ƏTY, I, s. 85). «Uyğur yirintə Yağlakar Kan Ata kəl(tim) kırkız oğlı mən Boyla Kutluğ Yarğan» (Süci kitabəsi, ƏTY, I, s. 156).

[3] Ceyms Hamilton. Həmən əsər, s. 3-4, qeyd; yenə onun: Tokuz-oğuz və on-uyğur, s.41-44.

[4] Rəşidəddin. Cami ət-təvarix. Berezin nəşri. Peterburq, 1858, s. 125. Mətndə «tuğuz-uyğuz»dur. Bunun «doqquz oğuz (uğuz)» olacağı aşkardır.

[5] İbn ül-Əsir, XI, s. 117, Qahirə, 1301, XI. s. 80.

ri də doqquz-oğuzların 205-ci ildə (miladi 820-821) Urşusanaya (Səmərqəndin şərqində Soqdiana ilə Sır-Dərya çayları arasındakı ərazi) hücum etdiklərini bildirir[1]. Oğuzların belə bir hücumu həyata keçirmələri onların ancaq şərqdə (ən əvvəl Talas bölgəsində) bir yerdə yaşayacaqları halda mümkün ola bilərdi. Yəni onların belə bir hücum üçün Orxon bölgəsindən qərbə köçmüş olmaları lazımdır. Digər tərəfdən, Sır-Dəryanın orta yatağı ilə Aral gölü sahilləri və onun şimalındakı torpaqlar peçeneqlərin yurdu idi, görünür, oğuzlar bu yerləri onların əlindən almışdılar[2]. Ancaq bu fikrə aşağıdakı şəkildə etiraz etmək mümkündür:

1. Kül-Təginin dəfn mərasiminə türgiş xaqanı da (şübhəsiz ki, Sulu) elçilər göndərmişdi. Bunlar Makaraç Tamğaçı ilə Oğuz Bilgə Tamğaçı idilər[3]. Buradakı oğuz sözü ehtimal ki, həmin abidədəki bir çox misallarda olduğu kimi[4], qövmi mənadadır, yəni oğuz boyuna mənsub Bilgə Tamğaçı deməkdir. Bu, Sır-Dərya oğuzlarının on-oxların tərkibində bir təşəkkül olduğunu da göstərə bilər. Ancaq bu xüsusda şübhəyə yer buraxmayacaq bir hökmə varmaq üçün bunu təsdiq edəcək başqa bir dəlilə də ehtiyac var. Çünki bu şəxs türgiş xaqanının yanında xidmətə girmiş doqquz-oğuzlardan biri də ola bilər[5].

2. Əvvəldə işarə edildiyi kimi, doqquz-oğuzların tonra adlı bir boyları olmuşdur. Hətta buraya kunı adlı bir boyu da əlavə etmək mümkündür[6]. Halbuki bizə məlum olan 24 boy arasında tonra adlı bir təşəkkül yoxdur.

3. Sır-Dərya ətrafındakı oğuz eli iki qola ayrılmışdı, qollardan biri üç-ox, digəri boz-ox adını daşıyırdı. Bu adların on-oxlardan qalma xatirələr olduğu da düşünülə bilər. Hətta Sır-Dərya oğuzlarının hökmdarlarının yabğu ünvanı daşımaları da bura əlavə oluna bilər. Bəlkə bu yabğu oğuzların yabğusudur.

4. Sır-Dərya oğuzlarının XI əsrdə danışdığı türk dilində bir sıra elə sözlər vardı ki, bunları Şərq türkləri bilmirdilər. Digər tərəfdən oğuzların ləhcəsi də türklərinkindən xeyli fərqlənirdi. Bu hal Sır-Dərya oğuzlarının qərbdə daha qədim zamanlardan bəri (VIII-IX əsrlərdən əvvəl) yaşamaqda olmaları ilə əlaqədar ola bilər.

Bu xüsusları göz önünə alsaq, Sır-Dərya oğuzlarının onlara mənsub olduqlarını söyləmək mümkündür. Əgər bu belədirsə, Sır-Dərya oğuzları ilə

---

[1] Təbəri, III, s. 1044.

[2] Aşağıdakı səhifələrə bax.

[3] «On-ok oğlım türgiş kağanda Makaraç Tamğaçı, Oğuz Bilgə Tamğaçı kəlti» (ƏTY, I, s. 52).

[4] Bax: Abidələr, s. 108-109; ƏTY, s. 44.

[5] Biz bu xüsusla əlaqədar uyğur xaqanının yanında xidmət edərək yüksək mənsəbə çatmış və sərvət toplamış bir qırğızı tanıyırıq: Boyla Qutluğ Yarğan (bax: ƏTY, I, s. 156).

[6] Bax: 6-cı səhifə Çin mənbələri ton-lo və houen adlı boylardan bəhs edir ki, bunlardan birincisi tonra, ikincisi hun (xun) olaraq qəbul edilmişdir (Sənədlər, s. 88, qeyd s. 3; Hamilton. Tokuz-oğuz və on-uyğur, s. 26).

doqquz-oğuzlar arasında eyni qövmün iki qolu olmaqla qədim bir qohumluq və ya bəlkə də sadəcə bir ad bənzərliyi məsələsi ortaya çıxır. Belə olduqda doqquz-oğuzların 840-cı ildə qırğızların hücumu nəticəsində dağılmaqla və ya uyğurlara qarışmaqla öz varlıqlarını itirdiklərini düşünməkdən başqa bir yol, deyəsən, yoxdur.

## B. OĞUZLAR IX-XI ƏSRLƏRDƏ

*(Sır-Dərya oğuzları)*

X əsrin birinci yarısında türk dünyası siyasi baxımdan parçalanmış və zəif bir vəziyyətə düşmüşdü. Göytürk dövlətinin süqutundan sonra türklər Orta Asiyada böyük və qüdrətli imperiya qura bilmədilər. VIII əsrin ikinci yarısı ilə IX əsrin birinci yarısında yeganə qüdrətli dövlət Orxon bölgəsindəki uyğur xaqanlığı idi. Ancaq uyğurlar qərb türkləri üzərində nüfuzlu bir hakimiyyət yarada bilmədilər və Çin ilə həmişə dostluq münasibətlərində yaşadılar.

Uyğurlar «toğuz-ğuzz» adı ilə islam ölkələrində böyük şöhrət qazanmışdılar. Siyasi qüvvələrin çoxdan itirmələrinə, parçalanmalarına və zəifləmələrinə baxmayaraq onların bu şöhrətləri hələ də davam edirdi. 840-cı ildə uyğurları qovaraq Orxon bölgəsində yerləşən qırğızlar və öz varlıqlarını güclü şəkildə göstərə bilmədilər, hətta Orxon mədəniyyətinin ortadan qalxmasına səbəb oldular. Gərək ki, onlardan bizə bu bölgədə yazılmış heç bir kitabə gəlib çatmamışdır. 924-cü ildə monqol irqindən olan kıtayların hücumlarına qarşı dura bilməyən qırğızlar köhnə yurdları Yenisey bölgəsinə çəkildilər və burada əvvəllər olduğu kimi, ibtidai bir halda yaşamağa davam etdilər. Beləliklə, qədim türk yurdu olan Orxon bölgəsi qəti olaraq monqolca danışan qövmlərin əlinə keçdi. XIII əsrdə Orta Asiyanın siyasi və etnik mənzərəsini dəyişdirəcək Çingizxan imperiyasının meydana gəlməsi bunun nəticəsidir.

X əsrin birinci yarısının ortalarında türk aləmi başlıca beş türk eli tərəfindən təmsil olunurdu. Bunlar oğuzlar (ərəbcə əsərlərdə əl-ğuzz), karluqlar (ərəbcə xarlux), uyğurlar (XI əsrədək toğuz-ğuzz), kiməklər və qırğızlar idi. Onların sırasına Qara dənizin şimalında yaşayan peçeneqlər də əlavə oluna bilər. Bunlardan karluqlar, daha əvvəl göstərildiyi kimi, göytürk dövründə üç boy halında[1] Urunğu, Zaysan və Alagöl üçbucağı arasında yaşayırdılar. Karluqlar uyğurlarla birlikdə göytürk imperiyasının süqutuna nail olduqdan

[1] Çin mənbələrinə görə bu karluq boylarının adları belədir: meu-lo, ta-şe-li, çe-şe, yaxud po-fu (Şavan, s. 78, haşiyə 4).

sonra uyğurlarla hakimiyyət uğrunda mübarizəyə girişərək məğlub olmuş, qərbə yönəlib qərb türklərini, yəni on-oxların ölkəsini ələ keçirmişdilər. Lakin karluqlar burada da qüvvətli bir varlıq göstərə bilmədilər, sönük və təsirsiz həyat sürdülər. Onların bu iqtidarsızlığı üzündən samani hökmdarı İsmayıl ibn Əhməd 893-cü ildə Talasa qədər uzanan bir səfərə çıxdı, oradakı böyük kilsəni məscidə çevirdikdən sonra karluq yabğusunun xatunu da daxil olmaqla 15 min əsir alıb geri qayıtdı. Qaraxani dövlətinin karluqlar tərəfindən deyil, yağma adlı başqa bir türk boyu tərəfindən qurulması ehtimalı çox qüvvətlidir. Karluqlar X əsrin birinci yarısının ortalarında İsficabdan İssık-kulun cənubuna qədər uzanan geniş bölgədə yaşayırdılar[1] .

«Hüdud ül-aləm»[2] və Gərdizi[3] kimi türk qövmləri haqqında təfsilatlı məlumatlar verən və bu xüsusda başda Ceyhani olmaqla qədim mənbələrə əsaslanan əsərlərdən belə anlaşılır ki, çigillər, əslində, karluqların bir boyudur. Uyğur hökmdarı Tanrıda Bolmuş İl Etmiş Bilgə kağanın kitabəsində rastlanan «Çigil tutuk»[4] ilə bu boy arasında bir münasibət olub-olmadığı bilinmir. «Hüdud ül-aləmə»ə görə[5] çigillər İssık-kulun şimal-qərbində yaşayırdılar. Onlar getdikcə güclənərək XI əsrdə müstəqil bir qövm sayılmışlar[6]. Kaşğari onlardan bir qisminin Taraz (Talas) şəhəri yaxınlığındakı bir qəsəbədə, bir qisminin Barsğan arxasındakı Kuyasda, üçüncü qisminin isə Kaşğar yörəsindəki bir sıra kəndlərdə yaşadığını bildirir. Bu, Gərdizinin 9 boya ayrılmış karluqların üç boyunun çigillərdən ibarət olduğu haqda sözlərinə uyğundur. Çigillər XI əsrdə o qədər mühüm bir təşəkkül halına gəlmişdilər, ki, oğuzlar Ceyhundan Çinə qədər uzanan yerlərdəki bütün türklərin hamısına birdən «çigil» deyirdilər[7]. Çigillərin eyni əsərdə Mavəraünnəhrdə yaşadıqlarını bilirik[8].

Bu gün Anadoluda Çigil adlı 4 kənd vardır[9]. Onlar bu türk oymağından bəzi zümrələrin Anadoluya gəlmiş olduğunu göstərir[10].

---

[1] İstəxri. Kitabü məsalik-il məmalik. De Qoj nəşri. II nəşr, Leyden, 1927, s. 290. Bu əsərdən nəqlən: İbn Hövkəl. Kitabi-surət-il-ərz. Kramer nəşri. Leyden, 1938, II, s. 467; Hüdud ül-aləm. Tehran, 1340, s. 81-83. V.Minorskinin tərcüməsi. Hüdud ül-aləm (ingiliscə). London, 1937, s. 97-98. İzahlar qismi, s. 286-297.
[2] S. 83. Minorskinin tərcüməsi, s. 98-99. İzahlar, s. 297-300.
[3] Zeyn-ül-əxbar. Barthold nəşri. Peterburq, 1874, s. 84.
[4] ƏTY, s. 178.
[5] Göstərilən yerlər.
[6] Divan. Kilisli, I, s. 329-330; Atalay, I, s. 393-394; [Ramiz Əskər, I, s. 392-393].
[7] Kilisli, I, s. 330; Atalay, I, s. 394; [Ramiz Əskər, I, s. 393].
[8] İbn-ül-Əsir. Qahirə, 1301, X, s. 70; Nizamülmülk. Siyasətnamə. Xalxali nəşri. Tehran, 1310 şəmsi.
[9] Bunlardan Çigil adlı bir nahiyə mərkəzi İlqında, bir kənd Karapınarın Hotamış nahiyəsində, digər biri isə Kastamonuda yerləşir. Manisada da Çigillər adlı bir kənd vardır. (Daxili İşlər Nazirliyi, Türkiyədə məskun yerlər qılavuzu, Ankara, 1946, s. 265).
[10] Təhrir dəftərlərində Çigil adlı yerə rast gəlmədik.

«Hüdudül-aləm»ə görə, İssık-kulun şimal-qərbində Çu çayının sol sahilində tuxsılar yaşayırdı. Çigillərlən daha az əhəmiyyəti olan bu qövm Mərvəziyə görə[1] karluqların bir qolu[2], Kaşğariyə görə[3] isə çigillərin bir qoludur ki, ikisi də təxminən eyni şey deməkdir. Çünki çigillərin əslində karluqların bir boyu olduğunu bir az yuxarıda göstərmişdik. Minorski[4] Gərdizinin bəzi ifadələrinə əsaslanaraq tuxsıların qədim türgişlərin qalığı olduğunu irəli sürmüşdür.

Müqəddəsinin məlumatından belə qənaət hasil olur ki, X əsrdə Balasağun (mətndə: Vəlasağun) ilə Tarazın təqribən yüz mil şərqindəki Mirki qəsəbəsi arasında türkmən adlı bir qövm yaşayırdı. Bu qövmün məliki (ilig?) Ordu adlı bir qəsəbədə yaşayırmış[5]. Kaşğarinin də təsdiq etdiyinə görə[6] bu qəsəbə Balasağun yaxınlığında (təbii ki, onun qərbində) yerləşirdi. Yenə Müqəddəsi tatar (Otrar) və kimək sərhədində Şəğəlcandan bəhs etdikdən sonra Bulaç və Burukət qəsəbələrini təsvir edir və bunların türkmənlərə qarşı uc (hüdud) qəsəbələri olduğunu yazır[7].

Bu qəsəbələrin İsfiçabın şimal-qərb və ya şimal-şərqində olduğu anlaşılır. Bu son qeyd türkmənlərin İsficabın şimal tərəflərinə qədər yayılmış olduğunu göstərir. Müqəddəsinin bildirdiyinə görə, bu türkmənlər qorxularından müsəlman olmuşdular və Ordu qəsəbəsində oturan məlikləri də İsficab hakiminə hədiyyələr göndərirdi. Müqəddəsinin əsərində türkmənlər islamı qəbul etmiş yeganə türk boyu kimi qeyd olunur. Həmən müəllif Sabran adlı sərhəd şəhərindən bəhs edərkən və ya başqa vəsilələrlə oğuzların (əl-ğuzz) adını çəkərkən onların müsəlman olduqlarını söyləmir[8]. Beləliklə, bu türkmənlərin oğuzlardan tamamilə ayrı bir təşəkkül olduqları görünür. Açıqca başa düşülür ki, Ordu qəsəbəsində oturan türkmən məliki İsficab hökmdarına tabe idi. İsficab bölgəsini idarə edən xanədan haqqında məlumat çox azdır. Barthold[9] bu xanədanın türk mənşəli olduğunu söyləyir. Böyük ehtimala görə, türkmənləri məhz İsficab hökmdarları müsəlman etmişdilər.

---

[1] S. 84-85. Minorski, s. 99, izahlar qismi, s. 300-304.

[2] Şərəf əz-Zaman Tahir Mərvəzi. Çin, türklər və Hindistan haqda. Minorski nəşri və ingilis dilinə tərcüməsi. London, 1942, mətn, s. 19, tərcümə s. 31.

[3] Kuyasda yaşayan bir türk eli, onlara tuxsı çigil də deyilir (Kilisli, I, s. 354; Atalay, I, s. 423; [Ramiz Əskər, I, s. 418]).

[4] Hüdud ül-aləm (ingiliscə). İzahlar qismi, s. 300.

[5] «Ordu: kiçik bir qəsəbədir, türkmən məliki burada yaşayır. O, İsficab hökmdarına hədiyyələr göndərir. Qəsəbənin su ilə dolu xəndəklə dövrələnən qalası var. Məlikin sarayı qaladadır» (s. 275).

[6] «Ordu: Balasağun yaxınlığında bir qəsəbədir. Bu sözdən alınaraq Balasağuna Kuz-Ordu deyilir» (Kilisli, I, s. 112; Atalay, I, s. 124; [Ramiz Əskər, I, s. 183]).

[7] «Burukət böyük bir qəsəbədir. Bura və Bulaç qorxudan müsəlman olmuş türkmənlərə qarşı zastavadır. Bunların qalası məhv edilmişdir» (s. 274).

[8] S. 274, 286, 289.

[9] Türküstanda monqol istilası. London, 1928, s. 172.

Bəs bu türkmənlərin qövmi mənşəyi nədir? Ağla gələn ilk cavab onların karluq mənşəli olmasıdır, çünki bu türkmənlər onların ölkəsində yaşayırdılar. Məsələn, yuxarıda adı çəkilən Mirki və onun qərbindəki Kulanın karluq ölkəsində olduğunu və karluqların Mirkidə də yaşadığını bilirik. Üstəlik, Kaşğari karluqlara da türkmən deyildiyini xəbər verir[1]. Bununla bərabər türkmənlərin karluqlardan da ayrı bir qövmi təşəkkül olması, onların türgişlərin, yaxud on-oxların qalıqları olması ehtimalı güclüdür[2]. Müsəlman oğuzlara türkmən adının verilməsi də bu qövm ilə əlaqədardır. Bu barədə sonra ayrıca danışılacaq.

Digər bir türk qövmü isə əzgişdir. Bu qövmün adı ibn Xordadbehin əsərində çəkilir[3]. Bununla bərabər, bu qövm Kaşğari zamanında da varlığını mühafizə etməkdə və Fərqanədəki Özcənddə (Özkənd) yaşamaqda idi[4].

X əsrdə əsas türk qövmlərindən biri də yağmalar idi. Onlar əksərən Kaşğar və onun şimal-qərbində yaşayırdılar[5]. Mənbələrin məlumatına görə, bu qövm doqquz-oğuzlardan (yəni uyğurlardan) idi.

«Hüdud-ül-aləm»də[6] yağmaların hökmdarlarının toğuz-ğuzz hökmdarları ailəsindən olduğu göstərilir. Ehtimal ki, yağmalar uyğurlara bağlı bir qövm olub uyğur dövlətinin süqutundan sonra (840) qərbə köçmüş, Kaşğar bölgəsinə gəlmiş və buranı karluqların əlindən alaraq yurd salmışlar. «Hüdud ül-aləm»də deyildiyi kimi, yağmaların başçıları toğuz-ğuzz (uyğur) xanədanına mənsub idi. Bu xanədan üzvləri Buğra xan ünvanını daşıyırdı[7]. Barthold[8] sırf bu ünvana baxaraq qaraxani dövlətinin yağmalar tərəfindən qurulduğunu söyləmiş, sonra bu xüsusda tərəddüdə düşmüşdür[9]. Zənnimizcə,

---

[1] «Karluk-köçəri türklərin bir boyunun adı. Oğuzlardan ayrıdırlar, oğuzlar kimi türkməndirlər» (Kilisli, I, s. 393; Atalay, I, s. 473; [Ramiz Əskər, I, s. 459]).

[2] 1158-ci ildə Mavəraünnəhrdə baş verən bir hadisə dolayısı ilə «İlig-kök-sağun ləqəbli Cəlaləddin Çağrı xan xarəzmşah İl-Arslanın hücumu səbəbilə vassalı qara-xıtay Gurxandan kömək istəmiş, o da İligi-Türkmanın komandası altında 10 min nəfərlik qoşun göndərmişdi. (Cüveyni. Tarixi-cahangüşa. Məhəmməd Qəzvini nəşri. Leyden, 1916, II, s. 15). Barthold (Türküstan, 233, qeyd 10) haqlı olaraq bu İligi-Türkmanın Balasağunda qara-xıtaylar tərəfindən taxtdan endirilən və özünə də İligi-Türkman ləqəbi verilən son qaraxani hökmdarı ola biləcəyini söyləyir. İligi-Türkman türkmən məliki deməkdir, bu da Müqəddəsidəki «Məlik üt-Tərakimin» sözünün tərcüməsidir. Yəqin ki, qara-xıtay hökmdarı Balasağundakı qaraxani hökmdarını taxtdan endirərək özü onun yerinə keçmiş, ona isə «İligi-Türkman» kimi təvazökar bir ünvan verərək türkmən məliki etmişdir (Cüveyni, II, s. 88, burada: İligi-Türkan).

[3] Kitab-ül-məsalik və əl-məmalik, De Qoj nəşri, Leyden, 1889, s. 31.

[4] Kilisli, I, s. 89; Atalay, I, s. 96; [Ramiz Əskər, I, s 161].

[5] Gərdizi, s. 84.

[6] S. 719, Minorski tərcüməsi, s. 95-96.

[7] Mücməl-üt-təvarix və I qisas, Tehran, 1318, ş., s. 421.

[8] Mərkəzi Asiya haqqında dörd dərs. Semireçye tarixi. V. və T. Minorskinin ingiliscəyə tərcüməsi, I, Leyden, 1956, s. 93.

[9] Orta Asiya türk tarixi haqqında dərslər. İstanbul, 1927, s. 66-76, 68.

Bartholdun ilk fikri doğrudur, çünki xanədanın Kaşğar şəhəri ilə sıx münasibətdə olduğu bilinir, hətta xanədanın ailə qəbristanlığı da bu şəhərdə idi. Qaraxani xanədanının asanlıqla xaqan ünvanı alması da, hər halda, bir məna daşıyırdı. Kaşğarinin «türkcə» və ya «xaqanlı türkcəsi» dediyi türk dili gərək ki, bu yağmaların ləhcəsidir[1]. Yağmalar bir çox boylardan meydana gəlmişlər. Bunlardan biri bulaq boyudur[2]. XI əsrdə də varlığını mühafizə edən bu boyu bir ara qıpçaqlar əsir edib özlərilə aparmışlarsa da, lakin sonra əsarətdən qurtulmuşlar[3]. Buradan bulaqların XI əsrdə Talas və ya Çu bölgəsində yaşadıqlarını söyləmək mümkündür.

Daha şərqdə, Beşbalıq bölgəsində uyğurlar yaşayırdı. Onlar ancaq 866-cı ildə burada yurd sala bilmişdilər, özlərinin də zəif bir dövlətləri vardı. O dövrdəki Çin mənbələri uyğurlardan 951-ci ildə gələn bir elçi haqqında dolayısı ilə qısaca bəhs etmişlər. İslam coğrafiyaşünaslığında isə onlardan toğuz-ğuzz olaraq bəhs edilir və onlar türklərin ən qüvvətli qolu kimi təriflənir. Əvvəlcə də işarə vurulduğu kimi, bu xüsus coğrafiyaçıların 840-cı il fəlakətindən xəbərdar olmamalarından irəli gəlmişdir. Uyğurların bir qismi isə Qansuda yurd salmışdı. Beşbalıq bölgəsindəki uyğurlar oturaq həyata sürətlə alışaraq mədəni səviyyələrini yüksəltdilər və qısa bir müddət sonra türkcə danışan aləmin ən mədəni qövmü halına gəldilər. X əsrin sonunda onların çox mühüm bir hissəsi buddizm dinini qəbul etmişdi.

Uyğurları 840-cı ildə Orxon bölgəsindən çıxaran qırğızlara gəlincə, onlar 924-cü ilədək burada qaldılar, ancaq nə qüvvətli dövlət yarada bildilər, nə də mədəniyyət tarixi ilə əlaqədar fəaliyyətdə buluna bildilər. Üstəlik, xıtayların hücumuna tab gətirməyərək bu qədim türk yurdunun monqoldilli qövmlərin əlinə keçməsinə bais oldular. Beləliklə, monqolca danışan qövmlər getdikcə türklər əleyhində torpaq qazancları əldə etdilər və bir müddət sonra Çindən qovulan xıtaylar Türküstana gələrək asanlıqla buranın ali hakimləri oldular. Qırğızlar bu vaxt yuxarı Yeniseydəki köhnə yurdlarına dönmüşdülər.

X əsrin əvvəllərində mühüm türk ellərindən biri də kiməklərdir. Orxon kitabələrdə onların adı çəkilmir. Bu səbəbdən kiməklərin VIII əsrdə başqa ad daşıyan bir qövmi birliyə daxil olduqlarını düşünmək olar. Görəsən, bu qövm çiklər deyil ki? Çiklər VIII əsrin ortalarında olduqca mühüm bir siyasi qüvvə halında Yuxarı Kəm ilə İrtış arasındakı sahədə yaşayırdılar. Uyğur xaqanı Tanrıda Bulmuş İl Etmiş Bilgə kağan (Moyunçur) iki dəfə səfər edərək çikləri hakimiyyəti altına almış, onlara tutuk təyin etmiş, işbaralar və

[1] Kaşğari ən zərif türkcənin yağmaların və toxsıların ləhcəsi olduğunu söyləyir (Kilisli, I, s. 30; Atalay, I, s. 30; [Ramiz Əskər, I, s. 104]).
[2] Hüdud ül-aləm, s. 79, Minorski tərcüməsi, s. 96. Halbuki Mərvəzi bulaqları karluqlardan hesab edir (s. 28, haşiyə 71).
[3] Kilisli, I, s. 116, 337; Atalay, I, s. 129, 379; [Ramiz Əskər, I, s. 187, 381].

tarxanlar[1] vermişdi. Kiməklərin başbularının da türk ünvanı daşıdığını bilirik[2]. Çiklərin adına daha heç harada təsadüf olunmur.

Kiməklər Yuxarı İrtiş boyunda yaşayırdılar. Markver hesab edir ki, kimək adı iki imək sözlərindən yaranmışdır (çox mümkündür). Bu türk eli 7 boydan ibarət idi: imi, imək, tatar, bayandur, kıfçaq, nilhaz (?) və əcləd (?)[3]. Buradakı tatar adı diqqəti cəlb edir. Digər tərəfdən yimək (buradakı imək) boyunun bayaud adlı mühüm oymağı da vardı[4]. Eyni adda bir monqol boyu olduğunu bilirik[5].

Bunlar kiməklərin bir qövmi birlikdən ziyadə bir siyasi birlik olduqları ehtimalını yada salır. Kiməklərin IX əsrdə tənəzzül etməyə başladıqları müşahidə edilir. Bu əsərdə qıpçaqlar belə müstəqil bir türk qövmü kimi zikr olunmuşlar[6]. XI əsrdə isə kimək adı ortadan qalxmış və bu el başlıca olaraq qıpçaqlar və yiməklər (imək) tərəfindən təmsil edilmişlər. Yiməklər həmin əsrdə də İrtış boyunda yaşayırdılar.

Qıpçaqlara gəlincə, IX əsrdə eldən ayrılmış bu boy qərbə doğru köçmüş, şimaldan oğuzlara qonşu olmuşdur. Hələ «Hüdud ül-aləm»də (mənbə: Ceyhani, X əsrin birinci rübü) qıpçaqların bəzi adətlərdə oğuzlara bənzədiyi göstərilir. Kaşğari də qıpçaqların ləhcəsinin bir çox baxımdan oğuzlarınkına uyğun olduğunu yazır[7].

Bu hal kiməklərin əsil qolunun da on-oxlara mənsub olması ilə bağlıdırmı? Qıpçaqlar bir tərəfdən əhali artımı, digər tərəfdən bəlkə də kiməklərə mənsub digər bəzi təşəkküllərin onlara qatılması ilə qüvvətlənərək X əsrin ikinci yarısından etibarən oğuzları sıxışdırmağa başlamış və onların köçməsində mühüm bir amilə çevrilmişlər ki, bu barədə aşağıda ayrıca danışılacaqdır. Qıpçaqların Kaşğarinin müasiri olan Kanlı (Qanlı) adlı bir bəyləri vardı[8]. Onun tabeliyindəki qıpçaqlar o biri əsrdə də bu adla (kanlı) tanındılar. Qıpçaqlar kiməklərdən necə ayrılıb müstəqil bir el olmuş, hətta qardaş yimək boyu ilə qohumluğu rədd etmişlərsə[9], kanlılar da daha sonralar müstəqil bir qövm sayılmış, «Oğuz» dastanında belə göstərilmişlər.

X əsrin birinci rübünə doğru Səm (Emba) ilə Yayık (Ural) çayları arasında peçeneqlər yaşayırdı. Bəhs edilən dövrdə onların əsil ana qolu Qara dənizin şimalındakı torpaqların hakimi idi. Qüvvətli ehtimala görə, peçeneq-

---

[1] ƏTY, Şine-Usu kitabəsi, I, s. 170-172, 174.
[2] Mücməl üt-təvarix, s.420.
[3] Gərdizi, s. 83-84; Minorski, «Hüdud ül-aləm», izahlar qismi, s. 304-305.
[4] Nəsəvi. Sıryet üs-sultan Cəlaləddin Mənquberti. O.Udanın fransızcaya tərcüməsi. Paris, 1891, 1895 s.44.
[5] Rəişdəddin. Berezin nəşri, s. 11.
[6] İbn Xordadbeh, s. 31.
[7] Atalay, I, s. 31, 33, 154; [Ramiz Əskər, I, 105, 107, 208].
[8] Kaşğari. Kilisli, III, s. 28; Atalay, III, s. 29; [Ramiz Əskər, III, s. 32].
[9] Kaşğari. Kilisli, III, s. 280; Atalay, III, s. 379; [Ramiz Əskər, III, s. 328].

lər on-oxlara mənsub boydurlar və onların oğuzlarla heç bir qövmi münasibətləri yoxdur. Yəni onlar 24 oğuz boyundan biri olan peçeneqlər ilə eyni təşəkkül deyildir[1]. XI əsrdəki türk qövmləri haqqındakı bu qısa xülasədən sonra[2] artıq əsil mövzumuza keçə bilərik.

## 1. OĞUZLARIN VƏTƏNİ

X əsrin birinci yarısında oğuzlar Xəzər dənizindən Sır-Dərya (Ceyhun, İnci) çayının orta yatağındakı Fərab (XI əsrdə türkcə adı Karaçuk idi) və İsficab yörələrinə qədər olan ərazi ilə bu irmağın şimalındakı bozqırlarda yaşayırdılar[3]. İstəxri və digər coğrafiyaşünasların əsərlərindən oğuz ölkəsinin qərb, cənub və şərq sərhədləri haqqında qəti bir fikir əldə etmək mümkündür. Həmin fikrə görə, oğuz ölkəsi qərbdə Xəzər dənizi ilə həmsərhəd idi. X əsrin əvvəllərində o vaxtadək qeyri-məskun olan və Xəzərin şərqində yerləşən Siyah Kuh (Qara dağ) yarımadası onlar tərəfindən işğal edilmiş, məskunlaşdırılmış, yarımada bundan dolayı türkcə Manqışlaq adını almışdı[4]. Cənubda islam ölkələrilə olan sərhədə gəlincə, qərbdə, yəni Xarəzm ölkəsində sərhəd Cürcaniyə (Gürgənc) və xüsusən bu şəhərin şimal-qərbindəki Cit (Jit) qəsəbəsindən başlanırdı. Aral gölünün cənubundakı Baratəkin də sərhəd qəsəbələrindən idi[5].

Mavəraünnəhrdə sərhəd Buxaranın şimalındakı çöldən başlayaraq İsficab bölgəsinə qədər uzanırdı. Sır-Dəryanın sol sahilində Karaçuk dağlarının ətəyində və Yeniseyə bir günlük mənzildə yerləşən möhkəmləndirilmiş Savran (Sabran) müsəlmanların oğuzlara qarşı sərhəd şəhəri idi. Sır-Dərya Sarvandan sonra oğuzlara aid bozqır bölgəsinə daxil olurdu. Ancaq oğuz ölkəsinin şimal sərhədləri haqqında əlimizdə dəqiq məlumat yoxdur. İstəxriyə görə, oğuz ölkəsinin hüdudları bu yöndə İdil çayına qədər uzanırdı[6]. Lakin ibn Fədlan 912-921-ci ildə Bulğara səyahət edərkən Embadan sonra oğuzları görməmiş, əvəzində Yayıkın qərbində peçeneqlərə rast gəlmişdir. Bu üzdən, bizcə, İstəxrinin məlumatı olduqca şübhəlidir. Xəzərin şərqindən Karaçuk dağlarına qədər uzanan çölü Bəlxiyə istinad edən müəlliflər[7] «Oğuz bozqırı»

---

[1] Oğuzların peçeneq boyu haqda bax: II hissə.
[2] Bu türk qövmləri haqda daha geniş məlumat üçün bax: «Hüdud ül-aləm». Minorski nəşri, s. 263-315 və Mərvəzi. İzahlar qismi, s. 92-110.
[3] İstəxri, s. 9, ayrıca s. 290.
[4] İstəxri, s. 219, ondan nəqlən: İbn Hövkəl, s. 389; «Hüdud ül-aləm», s 24, Minorski nəşri, s. 60. Oğuzların burada quruda və dənizdə yolkəsənlik etdiyi söylənir. «Hüdud ül-aləm» bu bəhsdə də İstəxri kimi Bəlxiyə əsaslanır (920).
[5] İstəxri, s. 303; Müqəddəsi, s. 289.
[6] İstəxri, s. 10, 222; «Hüdud ül-aləm», s. 86, Minorski nəşri, s. 100.
[7] İstəxri, s. 217-218; «Hüdud ül-aləm», s. 55, 86.

(məfazət-ül-ğuzziyyə) adlandırmışlar. XIII əsrdə türklər bu çölə Karakum (Qaraqum) demişlər.

Oğuz elinin toplu və kompakt yaşadığı yer Sır-Dəryanın mənbəyindən orta yatağına qədər olan sahə ilə çayın hər iki sahilindəki ərazi, xüsusilə şimala doğru uzanan torpaqlardır. Oğuz yabğusunun (kralının) qışlağı olan şəhər çayın mənbəyindən iki günlük mənzildə və çaya bir fərsəxlik məsafədə yerləşirdi. Bu şəhər ərəbcə əsərlərdə əl-Mədinət-ül-cədidə və ya əl-Qəryət-ül-hadisə[1], fars dilindəki «Hüdud-ül-aləm»də[2] Dihi-nou adlanır.

XIII əsrə aid əsərlərdə şəhərin Yengi kənt (Yeni kənd) şəklində türkcə adı çəkilir[3]. Bununla bərabər, şəhər, şübhəsiz ki, X əsrdə də türkcə belə adlana bilərdi. Həmən çayın sahilindəki Cənd və Xuvarə şəhərləri də yabğunun hakimiyyətində idi, burada müsəlmanlar da yaşayırdılar.

İsficabın şimalından başlayaraq Sır-Dəryaya paralel olaraq uzanan Karaçuk sıra dağları bölgəsi də oğuzların çox mühüm bir hissəsinin yaşadığı yer idi. Mahmud Kaşğari[4] Karaçukun oğuz ölkəsinin adı olduğunu söylədiyi kimi, öz xəritəsində də Karaçuk dağını oğuz yurdu olaraq göstərmişdir[5]. Əbülqazinin «Şəcəreyi-tərakimə»sində türkmən rəvayətləri arasında oğuzların yurdu kimi Kazğurd ilə birlikdə Karaçukdan da bəhs edilir[6]. Teymurun zəfərnamələrində də bu dağın adı çəkilir[7].

---

[1] Məsudi. Mürüc üz-zəhəb, s. 212; İbn Hövkəl, s. 512. ondan nəqlən: İdrisi. Nüzhət ül-müştaq, Köprülü kitabxanası, № 95, vərəq 419 b.

[2] S. 123, Minorski, s. 122.

[3] V.Rubrukun qeydləri, ingiliscə tərcüməsi, London, 1900, s. 14; Cüveynidə (Tarixi-cahangüşa. M.Qəzvini nəşri, I, s. 69, 72) Şəhri-Kənt kimi gedir, ancaq «Cami ət-təvarix»in təsdiq etdiyi kimi (haşiyələrə bax), bu söz Şəhri-Yengi olmalıdır.

[4] «Karaçuk-ism ül-Fərab və hiyə ismu-bilad ül-ğuziyyə» «Karaçuk-Fərabın və oğuz ölkəsinin adıdır» (Kilisli, I, s. 404). Bəsim Atalay bu cümlədəki «və hiyə ismu-bilad ül-ğuziyyə» ibarəsini yanlış sanaraq cümləni «bu, oğuz şəhərlərindən birinin adıdır» şəklində dəyişdirmişdir. Halbuki Kaşğari Karaçukun həm Fərab şəhərinin, həm də oğuz ölkəsinin adı olduğunu bildirir.

[5] Bu xəritə Kilisli nəşrində I cilddə, Atalay [və Ramiz Əskər] nəşrində II cilddədir.

[6] «Oğuz ilininq yurtlarınıq gün doğuşu İssiğ köl və Almalık və kıbləsi Sayram və Kazğurt Tağı və təmur kazığı Uluğ Tağ və Kiçik Tağ ki, misninq kani bolur və kün batışı Sır suyununq ayağı Yanqı Kənt və Karakum-işbu ayıtılğan yerlərininq içində ornıda tört min və beş min yıl olturdılar» (N.Kononov. M.-L., 1958, s. 40). Göründüyü kimi, Əbülqazini oğuzların vətəni ilə əlaqədar rəvayəti gerçəyə çox yaxındır. Yalnızca oğuz yurdunun şərqinin İssık kul və Almalık olduğu barədə ifadə X əsr üçün doğru deyildir.

[7] Şərafəddin Əli Yəzdi. Zəfərnamə. Kəlküttə, 1887, I, s. 272-273. Bu qeyd eyni zamanda Karaçuk dağının ucsuz-bucaqsız bozqıra nəzərən hakim bir mövqedə bulunduğunu və bozqırın oradan müşahidə edildiyini də göstərir. Teymur ikinci dəfə Toxtamış üzərinə gedəndə buradan keçmişdi (həmən əsər, I, s. 503); Nizam Şami. Zəfərnamə. Feliks Tauer nəşri, Praqa, 1937, I, s. 118. Burada verilən qısaca bir məlumatda Karaçuk adı çəkilir. Bu qeydlərdən Kaşğari və Əbülqazinin oğuz məntəqələri arasında göstərdikləri Karaçuk dağının yeri açıqca bilinir. Bu gün bu sıra dağlar Karatau adlanır (Z.V.Toğan. Türk eli xəritəsi və ona aid izahlar, İstanbul, 1945).

Oğuzlar bu yurdda lap qədimlərdən yaşayırdılar. İbn-Xordadbeh[1] Xorasan valisi Abdulla ibn Tahirin zamanında (828-814) oğuzlardan 1.000 dustağın 60.000 dirhəm qiymətinə alındığını bildirir. Bəlazurinin bir qeydindən anlaşılır ki,[2] bu dustaqlar Abdulla ibn Tahirin oğlu Tahirin sərkərdəliyi altında oğuzlara qarşı göndərdiyi ordu tərəfindən alınmışdır. Ancaq hər iki qeyddə oğuzların yurdu haqqında heç bir izahat verilmir.

İstər Orxon bölgəsindəki doqquz-oğuzlar, istərsə də on-oxlara mənsub oğuzlar buralara şərqdən gəlmişdilər. Əgər oğuzlar on-oxların qohumlarıdırsa (qüvvətli ehtimala görə, bu belədir), onların aşağı Sır-Dərya sahillərinə gəlmələri karluqların on-oxların ölkəsini fəth etmələrilə bağlı ola bilər. Aşağı Sır-Dərya ətrafının və Aral sahillərinin oğuzlardan əvvəlki sahilləri isə peçeneqlər olmuşlar. Daha əvvəl də dediyimiz kimi, peçeneqlərin üç əsas boyunun müştərək adı kəngər idi. Bunun göytürklərin 701-ci ildə Suğdak səfəri nəticəsində ələ keçən və Karaçuk dağları ilə onların şimalındakı bozqırlarda yaşadığı bilinən kəngəras təşəkkülünün adı ilə eyni olduğu qəbul edilmişdir[3]. Bundan əlavə, Biruninin bir qeydində peçeneqlərin Aral gölü ətrafında Xarəzmə qonşu olaraq yaşadıqları göstərilir[4]. Digər tərəfdən peçeneqlərin bir zamanlar karluqların qonşuluğunda yaşadıqlarını göstərən həmin müəllifin başqa bir əsərində bir qeyd də vardır[5]. Bu qonşuluq hər halda İsficab ilə Talas tərəflərdə olmalıdır[6].

Peçeneqlər Sır-Dərya boyunda və Aral gölü ətrafında yaşayarkən oğuzlar harada məskun idilər? Bu xüsusda qəti bir söz söyləmək mümkün deyil, Rəşidəddin türklərin dastani tarixində Talas bölgəsindən başqa şərqdəki Almalık bölgəsini də oğuzların yurdları hesab edir[7]. Əgər oğuzlar on-oxlara mənsubdurlarsa, onların Çu və Talas vadilərində yaşayan, çinlilərin nu-şepu dedikləri qoldan olmaları ən qüvvətli ehtimaldır. Belə anlaşılır ki, oğuzlar peçeneqlərə şərqdən hücum etmişlər. Hər halda iki qonşu qövm arasında ağır vuruşmalar baş vermiş və ən sonda oğuzlar peçeneqləri Əmba çayının arxasına qovmuşlar. Oğuzların peçeneq yurdunu nə vaxt ələ keçirdikləri də bilinmir.

---

[1] s. 37, 39.
[2] Fütuh ül-büldan, Qahirə, 1350, s. 420.
[3] Bax: Belleten, № 69, 89-104.
[4] Təhdidi-nihayət il-əmakin. Fateh kitabxanası, № 3386, s.205-206; bu mətn üçün ayrıca bax: Biruniyə ərməğan cildi, Kəlküttə, 1951, s. 250 və davamı.
[5] Kitab ül-cümahir. Heydərabad, 1355, s. 218.
[6] Məsud (Kitab ül-tənbih vəl-işraf. De Qoj nəşri. Leyden, 1894, s. 180-181) Aral gölü ətrafında peçeneq, bəcni, baçğərd və nukərdə qövmləri ilə oğuz, karluk və kiməklər arasında vuruşmalar olduğunu və bu dörd qövmün vuruşmalar nəticəsində yurdlarını tərk edərək Şimali Qafqaza köçdüklərini yazır.
[7] Oğuzlara aid dastani mahiyyətdə əsərlər. Dil və Tarix-Coğrafiya Fakültəsi jurnalı, V-VII, № 3-4, s. 360-361.

Yurdlarından qovulan peçeneqlər Emba ilə İdil arasına yerləşmişlər. Ancaq burada da 883-893-cü illərdə oğuzlarla xəzərlərin müştərək hücumlarına uğramışlar. Məğlub olan peçeneqlərin mühüm bir qismi İdili keçərək Qara dənizin şimalındakı torpaqlara getmişlər[1]. Peçeneqlərin bu yeni yurdlarında bəxtləri gətirdi. Onlar qısa müddətdə Don çayından Dunaya qədər yerləri işğal etdilər. Peçeneqlər Balkanlarda da mühüm bir siyasi qüvvə olaraq XI əsrin sonuna qədər qaldılar. Bizanslılarla ittifaqa girən qıpçaqlar bu dövlətin ortadan qalxmasında mühüm rol oynadılar[2]. Peçeneqlərin bir qismi ana boyun dalınca getməyərək Yayık çayının qərbində qalmışdı[3].

Əbülqazinin nəql etdiyi türkmən rəvayətlərində oğuz-peçeneq mübarizəsinə aid bəzi xatirələr yer tutur. Bu xatirələrin birində peçeneq elinin Toymadık adlı padşahının Salur Qazanın atası Enkişi məğlub edərək xatununu əsir aldığından danışılır. Üç il sonra Enkiş öz naibini hədiyyə ilə Toymadığın yanına göndərərək arvadını xilas etmişdir[4]. Yenə oradakı bir mənzumədə Salur Qazanın 30-40 minlik qoşunla bəcənə elinə yürüş edib onları qırdığı, bir neçəsinin çox yalvararaq qurtulduğu bildirilir[5]. Əbülqazi bu rəvayətləri türkmənlərin əllərindəki oğuznamələrdən nəql etmişdir. Əks təqdirdə, bu rəvayətlərin XVII əsrə qədər hafizələrdə qalması qeyri-mümkün idi. Lakin türkmənlərdəki bu oğuznamələrin heç biri, ehtimal ki, bizə çatmamışdır, nə vaxt yazıldığı da məchul qalmışdır.

## 2. OĞUZLARIN HƏYAT TƏRZİ

X əsrin əvvəllərində oğuzların əksəriyyəti köçəri həyat sürürdü. Oğuz elinin XI əsrdə 24 boydan ibarət olduğu məlumdur[6]. Hər boyun başında bəy ünvanlı əsilzadələr dururdu. Dastanlara əsaslanaraq söyləmək olar ki, bəylərin 40 nəfərdən ibarət silahdaşları var idi. Onlara «yoldaş» deyilirdi[7]. Hər qövmün əsilzadələri kimi, oğuz bəyləri də çox varlı idilər. İbn Fədlan[8] oğuzlar arasında yüz min qoyuna və on min ata malik adamları gördüyünü yazır.

Məsudiyə görə, oğuzlar yüksək (əl-əali), orta (əl-əvasit) və aşağı (əl-əsafil) olmaq üzrə üç sinifə bölünürdülər[9]. Bununla bərabər, Məsudinin bu qeydi olduqca şübhəlidir. Bu sözlər oğuz eli arasındakı ictimai səviyyə fərqini

---

[1] A.N.Kurat. Peçeneq tarixi, s. 33, 39-43.
[2] Bu barədə Ə.N.Kuratın əsərinə bax.
[3] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 17-18; Sami əd-Dehxan nəşri, s. 106; K.Parferogen. İmperiya hakimiyyəti (A.N.Kurat. Peçeneq tarixi, s. 258).
[4] III hissəyə bax.
[5] III hissəyə bax.
[6] II hissəyə bax.
[7] III hissəyə bax.
[8] Z.V.Toğan nəşri, s. 17; S. əd-Dehxan nəşri, s. 106.
[9] Müruc üz-zəhəb, I, s. 212.

bildirir, yəni əsilzadələri (bəy), azad adamları (el) və kölələri (kün?) qəsd edir[1], yoxsa sadəcə siyasi bir qruplaşmanı, yəni onların böyük, orta və kiçik olmaq üzrə üç qrup halında olduqlarını ifadə edir? Biz bəzi nəşrlərin əksinə olaraq, cümlənin əsil mənasından çıxış edib birinci fikri qəbul edirik, hərçənd ki, oğuzların siyasi baxımdan üç qrupa ayrılması da mümkündür.

X əsrin əvvəllərində yabğuların qış iqamətgahı olan Yeni Kənt ilə Cənd və Xuvarə şəhərlərində müsəlmanlar da yaşayırdı. Bu üç şəhərdən ən böyüyü yabğunun oturduğu Yeni Kənt idi. Son iki şəhərin də oğuzlara tabe olduğu məlumdur. Məsudinin yazdığına görə[2], bu şəhərlərdəki oturaq xalqın çoxu oğuzlar idi. Kaşğarinin zikr etdiyi oğuz şəhərləri bunlar deyil, o, bu şəhərlərin adını çəkmir. Kaşğarinin göstərdiyi oğuz şəhərləri bunlardır: Sərpən, Karaçuk, Suğnak, Karnak, Sitgün. Bunlardan Sərpən X əsr coğrafiyaşünaslarının əsərlərində Sabran (Savran) adlanır. Daha əvvəl də dediyimiz kimi, Sabran X əsrin ilk rübündə oğuz hüdudunda yerləşən bir müsəlman şəhəri idi. O möhkəmləndirilmiş şəhər olub yeddi qat qala divarı ilə çevrələnmişdi. Şəhərin xüsusi rabatı da vardı. Məscid isə qəbiristanda (içəri şəhərdə) yerləşirdi. Oğuzlar sülh bağlamaq və ya ticarət etmək üçün bu şəhərə gedirdilər[3]. Karaçuğa gəlincə, Kaşğari onun Fərab şəhəri olduğunu bildirir[4]. Fərab Aris çayının Sır-Dəryaya töküldüyü yerdə olan kiçik bir ərazidir. Ərazinin idarə mərkəzi Keder qəsəbəsi idi. Ərazinin digər mühüm qəsəbəsi Vəsiç adlanırdı, Fərabi bu şəhərdə doğulmuşdur[5]. Müqəddəsiyə görə[6], Fərab ən böyük şəhərin adını daşıyan bir rüstək, yəni ərazidir. Onun məlumatına görə, Fərab 70 min əhalisi (!) və bir məscidi olan şəhərdir. Şəhərdəki dükanların çoxu qaladan xaricdə, çox az qismi isə qalanın içində idi. Həmən müəllif Keder və Vəsiçi ayrıca qeyd edir[7]. Belə bir vəziyyətdə Bartholdun dediyi kimi[8], Fərabı yeni bir şəhər olaraq qəbul etmək yerinə düşəcək. Belə görünür ki, oğuzlar Fəraba Karaçuk adını vermişlər. Ancaq indiyədək şəhərin bu adı başqa heç bir əsərdə rastlanmamışdır.

Suğnaka gəlincə, Minorski[9] haqlı olaraq onu «Hüdud-ül-aləm»dəki Sunah ilə eyniləşdirmişdir. Sunah Fəraba tabe şəhər olub orada hər tərəfə ixrac edilən yaylar hazırlanırdı. Suğnak oğuzlardan sonra qıpçaqların Sır-Dərya

[1] Türkiyədə hələ də işlənən təbirlər: «elə-günə qarşı», «el-gün nə deyər».
[2] Müruc üz-zəhər, I, s. 212
[3] İstəxri, s. 340; ibn Hövkəl, s. 511; Hüdud ül-aləm, s. 118; Minorski, s. 119; Müqəddəsi, s. 274.
[4] Bax: Kilisli, I, s. 404.
[5] İstəxri, s. 346; İbn Hövkəl, s. 510-511.
[6] S. 273.
[7] Yenə orada.
[8] Fərab maddəsi. İslam Ensiklopediyası, IV, s. 451.
[9] Hüdud ül-aləm, s. 118; Minorski, s. 119, 358.

sahilindəki başlıca mərkəzlərindən biri olmuşdur. Şəhərin xərabələri bu gün də durur.

Oğuz şəhərlərindən biri olan Karnak haqqında başqa heç harada heç bir qeydə rast gəlmədik. Z.V.Toğan[1] türk eli xəritəsində Karnak şəhərini Yesidən azca şimal-qərbdə, ondan bir mənzil məsafədə göstərmişdir. Digər tərəfdən, Sabranın yaxınlığındakı Sadiq Ata Təpənin Karnak olduğu fikri irəli sürülmüşdür[2]. Hər halda Karnakı Sabran tərəflərdə axtarmaq lazımdır.

Sitgünə gəlincə, qüvvətli ehtimala görə, o, X əsr coğrafiyaşünaslarının Südkənt adlandırdıqları şəhərdir. Südkənt Fərab ərazisinə yaxın bir yerdə Sır-Dəryanın sol sahilində yerləşirdi, bu gün xərabələri qalır. Bu şəhərdə bir cümə məscidi vardı. Südkənt ətrafında hələ X əsrin ilk rübündə müsəlmanlığı qəbul etmiş çoxlu karluq və oğuzun yaşadığı bildirilir. Bu müsəlman oğuz və karluqlar ərazini öz qövmdaşları olan qeyri-müsəlman türklərdən qoruyurdular. Bundan başqa, Fərab, Gəncədə və Şaş arasındakı otlaqlarda müsəlman olmuş türklərdən 1.000 çadıra yaxın bir elat vardı[3]. Biruni gəncliyində hər il Xarəzmşaha şəxsən özü düzəltdiyi dərmanlar və mumiya gətirən südkəntli bir türkmən tanıyırdı[4].

Şübhə yox ki, oğuz şəhərləri yalnız Kaşğarinin saydıqlarından ibarət deyildi. Onların Sır-Dərya sahillərində yığcam olaraq yaşadıqları digər bəzi və ya çoxlu şəhər, qəsəbə və kəndlər vardı[5]. Digər tərəfdən, onların Kaşğarinin bəhs etdiyi dövrdən sonra da yeni şəhərlərə sahib olduqları bilinir. Bunlardan biri kimi Barçınlı-Kənt göstərilə bilər. Doğrudan da, bu şəhərin adına XII əsrdən əvvəl yazılmış əsərlərdə təsadüf olunmur. Barçınlı-Kənt Sır-Dərya boyunun monqollar tərəfindən fəthi əsnasında Sığnak və Öz-Kəntdən sonra adı çəkilən üçüncü şəhərdir. Ondan sonra sıra ilə Əşnas, Səid və Şəhər (Yeni) Kəntin işğalı göstərilir[6]. Hazırda Çirik qala xərabələrinin altında Yeni-Dərya ilə birləşən Barşın-Dərya adlı bir quru çay və ya köhnə bir kanal vardır. Quru çayın sahilində Uz-Kənt və Sirli-Tam şəhərlərinin xərabələri görünür[7]. Buradakı Uz-Kəntin Cüveyninin əsərindəki Sığnakdan sonra adı çəkilən şəhər olduğuna şübhə yoxdur. Bu quru çay və ya kanalın sahilində

---

[1] Türk eli xəritəsi və ona dair izahlar. İstanbul, 1943.

[2] B.Ögəl. Göstərilən əsər, s. 340.

[3] İbn Hövkəl, s. 510-511; Hüdud ül-aləm. s. 117; Minorski, s. 113-119; Südkəntdə aparılan qazıntıların nəticəsi haqqında: B.Ögəl, göstərilən əsər, s. 336-337.

[4] Kitab ül-cümahir, s. 205. Bu müəllif Südkənti bir türkmən şəhəri kimi göstərir (əl-Kanun ül-Məsudi. Heydərabad, 1374, II, s. 575).

[5] Belə görünür ki, «Sır-Dərya sahillərində çoxlu xərabə vardır. Bunların bəzilərində aparılmış qazıntıların nəticəsi barədə bax: S.P.Tolstov. Qoroda quzov. «Sovetskaya etnoqrafoya», 1947, № 3, s. 55-102 (Dr. İ.Kaynakın türkcə tərcümələrindən istifadə edilmişdir). Bundan başqa: B.Ögəl. Göstərilən əsəri, s. 333-341.

[6] Cüveyni, I, s. 64, 67, 72, 79.

[7] B.M.Jirmunski. Sır-Dərya boyunda oğuzlara dair izlər (İ.Kaynakın tərcüməsi). «Belleten», № 99, s. 480-481.

bəzi şəhər və qala xərabələri də var. Kök-Kəsənə və Barşın-Dərya haqqında 64 il əvvəl ilk dəfə müfəssəl məlumat verən arxeoloq V.A.Keller haqlı olaraq belə bir nəticəyə gəlmişdir ki, Barçınlı-Kənt də bu Barşın-Dərya üzərində olmalıdır[1]. Keller bu quru çay yatağının (Sır-Dəryanın qədim yatağı?) Çardardan Uz-Kəntə qədər olan hissəsinin isə Uğuz jilqası (Oğuz dərəsi) adını daşıdığını bildirir[2]. Sığnak şəhəri xərabələrindən 13 fərsəxlik bir məsafədə Kök-Kəsənə xərabələri vardır. Kök-Kəsənəni ilk dəfə ziyarət edən Keller burada kərpicdən tikilmiş və mavi (göy) rəngli bəzəkləri olan dağılmış bir gümbəz görmüşdü. Bu türbənin cənub-qərb tərəfində bəzi divarları hələ də ayaq üstə olan daha kiçik bir türbə aşkar edilmişdir. Keller bu türbənin ətrafında da çoxlu təpə və təpəciklər görmüş, bunların qədim qəbr qalıqları, yoxsa məskən yeri olduğunu başa düşə bilməmişdir. 1927-ci ildə buranı ziyarət edən Yakubovski türbənin çökmüş olduğunu görmüş, türbədə və onun ətrafında araşdırmalar apardıqdan sonra Kök-Kəsənənin çini işləmə baxımından şahəsər bir abidə olduğunu söyləmiş, burada vaxtilə yüksək mədəniyyətin mövcud olduğu hökmünə varmışdır[3].

Əbülqazi Bahadır xan türkmənlərin tarixə vaqif baxşılarından 7 qızın oğuz elini «ağızlarına baxdırıb» uzun illər bəylik etdiklərini eşitdiyini bildirir. Bunlardan biri Karmış bəyın qızı və Mamış bəyin arvadı Barçın salur (Salur Barçın) imiş. «Onun türbəsi Sır-Dəryanın sahilində olub xalq arasında məşhurdur və özbəklər ona «Barçının kök kaşanasi» dedilər»[4]. Əbülqazinin bu sözlərindən Kök-Kəsənə (göy kəşanə-göy çini) türbəsinin oğuzlardan Barçın xatuna ithaf olunduğu və bunun xalq tərəfindən bilindiyi anlaşılır.

Bütün bunlardan aşağıdakı hökmə varmaq mümkündür: XII əsrdə Sır-Dərya boyunda salur boyundan Barçın xatun oğuzların bir qismini öz nüfuzu və hakimiyyəti altına almışdı. Ağıllı olduğu qədər də varlı olan bu xatunun hökmdarlıq etdiyi Sır-Dərya bölgəsində «Barçınlı-Kənt» adlı (yəni Barçına aid) yeni bir şəhər salındı. Bu xatun özü üçün Mərvdəki Sultan Səncər və Ürgəncdəki xarəzmşah Təkişin türbələrinə bənzəyən qübbəsi göy çinilərlə işlənmiş möhtəşəm bir türbə tikdirdi. Ehtimal ki, şəhər bu türbə tikildikdən sonra salınmışdır. Barçınlı-Kəntlə birlikdə adı çəkilən Öz-Kənt və Əsnaşın da yeni şəhərlər olduğu bilinir, çünki daha əvvəlki dövrlərə aid əsərlərdə bu şəhərlərin adı çəkilmir. İndiki məlumatlarımıza görə, Barçınlı-Kəntin adına XII əsrin ikinci yarısından etibarən rastlanır.

---

[1] Göstərilən əsər, s. 482.
[2] Göstərilən əsər, s. 480-481.
[3] V.M.Jirmunski. Göstərilən əsəri, s. 477-478; Yakubovski bu türbənin xanlardan birinə aid ola biləcəyini söyləməklə bərabər (s. 477) türbənin Mərvdəki Sultan Səncər, Ürgəncdəki xarəzmşah Təkiş və yenə buradakı Fəxrəddin Razi türbələri ilə bəzi bənzərlikləri olduğunu da bildirmişdir (göstərilən əsəri, s. 478).
[4] Şəcəreyi-tərakimə, s. 79.

Oğuz şəhərlərində aparılan qazıntılar burada yüksək bir mədəni həyatın varlığına dəlalət edir. Keller, Yakubovski və Tolstov kimi arxeoloqlar bu cəhəti qayət açıq bir şəkildə bildirmişlər[1]. Oğuzların mühüm bir qisminin oturaq həyata keçmələrində ən mühüm amil onların müsəlmanlığı qəbul etməsidir. Onlar arasında islam dini yayıldıqca və qüvvətləndikcə oturaqlıq da inkişaf etmişdir.

Göründüyü kimi, bu şəhərlərin mühüm bir qismi X əsrin ilk rübündə oğuzların tabeliyində deyildi. Hər halda oğuzlar bu şəhərləri müsəlman olduqdan sonra ələ keçirmişlər. Kaşğaridən başqa oğuzların şəhərləri olduğunu bildirən digər bir müəllif də İdrisidir (əsərinin yazılma tarixi: 1154). İdrisi yazır: «Oğuzların şəhərləri çoxdur, onlar cənuba və qərbə doğru uzanır»[2]. Köçəri oğuzlar bu şəhərlərdə yaşayan oturaq eldaşlarına istehza ilə yatuq, yəni «tənbəl» deyirdilər. Onların fikrincə, bu oturaq eldaşları vuruşmadan, tənbəl-tənbəl şəhərlərdə yaşayırdılar[3]. Oğuz şəhərlərinin çoxunda Məvəraünnəhrin yerli ünsürləri də vardı, ki, oğuzlar onlara «sukak» deyirdilər[4].

Monqol istilası əsnasında köçəri türkmənlərdən bir hissəsinin aşağı Sır-Dərya boyunda yaşadıqları məlumdur[5]. Oturaq oğuzların köçəri eldaşlarının siyasi fəaliyyətində və köçlərində o qədər iştirak etməyərək monqol istilasına qədər bu şəhərlərdə ömür sürdüklərini söyləmək mümkündür. Monqol istilası nəticəsində bu şəhərlərin böyük əksəriyyəti və ya hamısı yaşamağa yaramayacaq dərəcədə dağıntıya uğramışdı[6]. Bu şəhər, kənd və qəsəbələrdə yaşayan oturaq oğuzlar necə oldular? Bu suala cavab vermək mümkündür: onların bir qismi tələf oldu, bir qismi əsir alındı, qalanları isə Xorasana qaçdı. Monqol istilasının İrana yayılması nəticəsində Xorasana pənah gətirənlər o vaxt təhlükəsiz ölkə olan Anadoluya gəldilər. Anadoluda köçərilər, şəhərlilər və kəndlilər arasında Xorasanla əlaqədar köç xatirələri əsrlərcə unudulmamış, dövrümüzə qədər gəlib çatmışdır. Şübhəsiz ki, buradakı Xorasan adı ilə Türküstan da ifadə olunurdu.

---

[1] Bax: Kitab ül-cümahir, s. 205; S.P.Tolstov. Qoroda quzov, s. 55-102.

[2] S.P.Tolstov. Qoroda quzov, s. 55 və ardı.

[3] Kilisli, III, s. II; Atalay, III, s. 14; [Ramiz Əskər, III, s. 21].

[4] Kilisli, II, s. 191; Atalay, II, s. 287; [Ramiz Əskər, II, s. 282]. Bu sözün mənşəyi nədir?

[5] Yenə orada.

[6] «Biz bu ölkədə (Sır-Dərya boyu) çoxlu dağılmış şəhərlər, yıxılmış kəndlər, tərk edilmiş qəsəbələr gördük. Bu ölkədə adını bilmədiyim bir çay (Sır-Dərya), onun sahilində Yeni Kənt, Barçin və Ornas (Əşnas) adlı şəhərlər ilə adlarını bilmədiyim başqa şəhərlər vardır". (F.Con. II Karpinin Kuyuk xanın sarayına səfəri, 1245-1247, s. 14. Rubrukun səyahətnaməsinin əvvəlində, Rokhill nəşri).

## 3. OĞUZLARIN İQTİSADİ HƏYATI

XI əsrin əvvəllərində əksəriyyəti köçəri həyat sürən oğuzların iqtisadi fəaliyyətləri də bu yaşayışa uyğun olaraq əsasən heyvandarlıqla məhdudlaşırdı. Bu səbəbdən onların sərvətləri qoyun sürülərindən, ilxılardan (at sürülərindən), dəvələrdən, hətta «Hüdud-ül-aləm»ə görə[1], sığırdan ibarət idi. Atdan minik, dəvədən isə nəqliyyat vasitəsi kimi istifadə olunurdu. İbn Fədlan[2] «türk dəvələri» sözü ilə bu gün Anadoluda «buxur» deyilən ikihürgüclü dəvələri nəzərdə tutmuş olmalıdır. Yenə həmin müəllif bulğarların at əti yediklərini qeyd edir, lakin oğuzlar haqqında belə bir söz demir. Oğuz sübaşısı[*] Ətrəb ibn Fədlana və onun yoldaşlarına olduğu kimi, öz qohumları üçün də qoyun kəsdirmişdi. Ancaq o, vəfat etmiş oğuzların atlarının yeyildiyini qeyd edir. Digər tərəfdən, oğuz dastanları da oğuzların digər türk boyları kimi at əti, hətta dəvə əti yediklərini göstərir. At ətini onlar bəlkə də adi vaxtlarda deyil, müstəsna günlərdə yeyirdilər. Oğuzlar müsəlman olduqdan sonra isə at əti yeməkdən ümumiyyətlə vaz keçmişlər. Çünki daxil olduqları hənəfi məzhəbi at əti yeməyi haram buyurmuşdu.

Oğuzlara qonşu müsəlman qövmləri arasında canlı bir ticarət fəaliyyətinin mövcud olduğu görünür. Oğuz yurdundan keçən ən mühüm ticarət yolu Xarəzmdən İdil bölgəsinə gedən yol idi. Coğrafiyaşünaslar yekdilliklə oğuz tacirlərinin çox olduğunu yazırlar[3]. İbn Fədlan[4] beş min nəfərlik böyük bir karvan içində oğuz yurdundan keçmişdi.

Oğuzlar sülh dövründə ticarət məqsədilə Xarəzmdəki Curcaniyə və Baratəgin şəhərlərində, Mavəraünəhrdə isə Sabran şəhərinə gedirdilər[5]. Oğuzların əsas ticarət malı qoyun idi. Xorasan və Mavəraünəhr camaatının ət ehtiyacını onlar və karluqlar ödəyirdilər[6]. Türk qoyunlarının Mavəraünnəhr və Xorasan qoyunlarından fərqli bir cins olduğu bilinsə də[7], onların əsas xüsusiyyətləri naməlumdur. Bundan başqa, oğuzların islam aləmində məşhur olan türk keçəsi[8] satdıqları da ehtimal edilir[1]. Oğuzlar isə islam ölkələrindən əsas etibarilə toxuculuq məmulatları satın alırdılar.

---

[1] S. 80, Minorski, s. 100.
[2] Z.V.Toğan nəşri, s. 8; S. əd-Dehxan nəşri, s. 86.
[*] Qədim türk dilində «sü» qoşun deməkdir. «Sübaşı» - sərkərdə mənasını verir (tərcüməçi).
[3] İstəxri, s. 299: Hüdud ül-aləm, s. 118: Minorski, s. 119; İbn Hövkəl, s. 511; Əbu Düləf oğuzların hind və Çinlə ticarət etdiyini bildirir ki, burada mübaliğə var (Yakut. Mücəm ül-büldan. F.Vustenfeld nəşri. Leypsiq, 1868, III, s. 44, «Sin» maddəsi).
[4] Z.V.Toğan nəşri, s. 14; S. əd-Dehxan nəşri, s. 98.
[5] İstəxri, s. 299; İbn Hövkəl, s. 511; Hüdud-ül-aləm, s. 118; Minorski, s. 119.
[6] İstəxri, s. 281, 288.
[7] İmaməddin əl-İsfahani (Bundarinin ixtisarı). Hutsma nəşri, Leyden, 1889, s. 5,282. Türkcəyə tərcümə edəni K.Burslan. TTK, İstanbul, 1945, s.3, 253.
[8] Yaqubi türklərin ən yaxşı keçə emal edən qövm olduğunu yazır (Kitab ül-buldan. Bağdad, s. 60, Leyden, 1892, s. 295).

## 4. OĞUZLARIN DİNİ İNAMLARI

X əsrin əvvəllərində uyğurlar müstəsna olmaqla digər türk elləri kimi oğuzlar da qövmi dini inamlarını davam etdirirdilər. İslam aləminə türklərin Allahı tanıdıqları və ona tanrı dedikləri məlum idi[2]. Türklərin yaradıcını Uluğ-Bayat adlandırdıqları da müsəlman alimləri tərəfindən bilinirdi[3]. Ancaq oğuz din xadimlərinin tanrının vəsfləri ilə bağlı təsəvvürləri haqqında dəqiq məlumat yoxdur. Hər halda sadə oğuzların bu xüsusda təsəvvürləri çox da zəngin deyildi və onlar tanrıya insani vəsflər verirdilər. Oğuzlardan biri ibn Fədlandan tanrının arvadı olub-olmamasını soruşmuş, müəllif bu sualı eşitcək bir xeyli tövbə və istiğfar etmiş, oğuz da onun kimi hərəkət eləmişdi[4].

Əbu Düləf səyahətnaməsində[5] oğuzların bir məbədi olduğunu söyləyir və məbədin içində büt olmadığını bildirir. İbn Fədlan isə nə məbəd gördüyü, nə də ruhani ilə söhbət etdiyi barədə açıq heç nə yazmır. Ancaq oğuzların hakimləri olduğu məlumdur. Oğuzlar bu mənəvi şəxsiyyətlərə böyük hörmət bəsləyirdilər[6]. Hətta onların oğuzların davaları və qanları üzərində hökm sahibi olduqları bildirilir ki, bu ifadədən mənəvi şəxsiyyətlərin el üzərində nə qədər əhəmiyyətli təsir və nüfuzları olduqları ortaya çıxır[7]. Elə bizim Qorqud Ata (Dədə Qorqud) da bu hakimlərdən biri idi. Təbiblik edən, gələcəkdən xəbərlər verən, hər hansı bir təşəbbüsün uğurlu olub-olmayacağını bildirən, dini mərasimləri idarə edən bu mənəvi şəxsiyyətlərə oğuzların qam, yoxsa başqa bir ad (məsələn, ata) verdikləri bilinmir. Ata sözü onlar haqda hörmət ifadə edən söz idi, yoxsa onlar üçün xüsusi bir ad idi? - Bu cəhət tam aydın deyil.

---

[1] İbn Fədlan (s. 8) soyuq günlərin birində Xarəzmdə bir evin içində qurulmuş türk keçəsindən bir çadırda oturduğunu yazır.

[2] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 10; S. əd-Dehxan nəşri, s. 92: Məqdisi. Kitab ül-bəd vət-tarix. K.Huartın nəşri və tərcüməsi. Paris, 1907, IV, mətn s. 63, tərcümə s. 57.

[3] Məqdisi. Göstərilən yer. Fəxrəddin Mübarəkşahın əsərində Bayat tanrının adı kimi göstərilir (Tarixi-Fəxrəddin Mübarək şah. E.D.Ross nəşri. London, 1927, s. 43).

[4] Z.V.Toğan nəşri, s. II; S. əd-Dehxan nəşri, s. 93.

[5] S. 44. Ancaq bu səyahətnamədəki məlumatların çoxunun inanılmağa dəyər mahiyyətdə olmadığı məlumdur.

[6] Hüdud ül-aləm, s. 87: Minorski, 100. Buradakı «nəmaz borənd» ibarəsi ilə onların başlarını və bədənlərini əyərək təzim etdikləri bildirilir.

[7] Göstərilən əsər. Göstərilən yerlər. Beyhakinin bildirdiyinə görə (Tarixi-Beyhaki. Qani və Fəyyaz nəşri. Tehran, 1324 ş., s. 627-628), səlcuqlu bəylərinin yanında ulduzlar elminin (elmi-nücum) bilən bir mövlanəzadə vardı. Onun söylədiyi bəzi sözlər doğru çıxmışdı. Bu mövlanəzadə Dəndənakan vuruşması zamanı səlcuqlulara tez-tez «bir az dözün, zəfər sizin olacaqdır» demiş, günorta qəznəvi ordusu tar-mar olanda Toğrul, Bəyğu, Musa və Cağrı bəylər atlarından düşərək ona səcdə, yəni təzim etmişlər.

Ölü basdırmaq adətlərinə gəlincə, onlar ölülərini göytürklər kimi, paltarlı, silahlı və yanlarında digər şəxsi əşyaları ilə birlikdə dəfn edirdilər. Ölü ev şəklində qazılmış məzarda oturdulur, əlinə içki dolu (hər halda qımız)[1] bir çamçax verilir, qabağına da içki dolu bir qab qoyulurdu. Məzar bir otaq biçimində qazılır, tavanı düzəldilir, sonra onun üstünə palçıqdan qübbəyəbənzər bir hissə əlavə edilirdi. Bu oğuz məzarları ilə Türkiyədə ələlxüsus səlcuqlu dövründə kütləvi şəkildə müşahidə edilən və mütəxəssislər tərəfindən türk çadırına bənzədilən günbəzlər[2] arasında yaxın bir oxşarlıq vardır. Xəzərarxası türkmənlərin də qəbrlər üzərinə dümsək kimi şəkillər çəkdiklərini və buna yozka dediklərini bilirik[3].

Dəfndən sonra ölünün atları kəsilərək yeyilirdi ki, bu da bütün türk qövmlərində görünən yuğ aşı və ya ölü aşı (ehsan) adəti idi[4]. Türkiyədə bu adət yüzilliklər boyunca davam etmiş, indi də mahiyyəti dəyişmədən kənd, qəsəbə, hətta şəhərlərdə yaşayır. Ölən adam sağlığında bəzi kimsələri öldürmüşdüsə, onların rəsmləri taxta üzərində oyulub məzara qoyulurdu. İnama görə, ölünün öldürdüyü adam və ya adamlar cənnətdə onun xidmətçiləri olacaqlar[5]. Bu isə, göründüyü kimi, göytürklərdəki balbal adətindən başqa bir şey deyildir[6].

Oğuzlar eyni zamanda əsas türk ellərində olduğu kimi, yuğ aşında yeyilən atların başlarını, ayaqlarını və dərilərini məzarın üstündəki payalardan asırdılar[7]. Onların inamına görə, ölü cənnətə ətləri yeyilən, dəriləri payalardan asılan bu atlarla gedəcəkdir. Belə olmadığı təqdirdə, ölü cənnət səfərini piyada başa vurmaq məcburiyyətində qalacaqdır[8]. Oğuzlar dini inamın təsiri altında suya girmir, əcnəbilərin suda çimməsinə mane olurdular. Çünki suya girməklə özlərinin tilsimə düşəcəyindən qorxur, bu qaydanı pozanlara pul cəriməsi kəsirdilər[9]. Bütün türklərin dərin inamına görə, su müqəddəs və arı idi, çimmək isə müqəddəs və arı olan suyu çirkləndirmək və beləliklə, böyük bir günah işləmək deməkdi. Bu, uğursuzluq və fəlakət gətirirdi. Yenə dini inamlarla əlaqədar olaraq onlar köhnəlməyənə qədər paltarlarını əyin-

---

[1] İbn Fədlanda bu içkiyə nəbiz (xurma və ya quru üzüm arağı) deyilir. (Z.V.Toğan nəşri, s. 14; S. əd-Dehxan nəşri, s. 90). İbn Fədlan qımızı hər halda bu mahiyyətdə bir içki hesab etmişdi.

[2] E.Dits. Türk sənəti. İstanbul, 1946, s. 84 (O.Arslanapa tərcüməsi).

[3] A.Vamberi. Mərkəzi Asiyaya səyahət, London, 1864, s. 56, 71, 324.

[4] Əbdülqadir İnan. Tarixdə və bu gün şamanizm. Ankara, 1954, s. 189 və davamı. Ayrıca olaraq III hissəyə bax.

[5] İbn Fədlan. Z.V.Toğan nəşri, s .14: s. əd-Dehxan nəşri, s. 100.

[6] Əbdülqadir İnan. Göstərilən əsər, s. 178, 180.

[7] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 14; S. əd-Dehxan nəşri, s. 99.

[8] Yenə orada.

[9] Göstərilən əsər. Z.V.Toğan nəşri, s. 10, 12; S. əd-Dehxan nəşri, s. 92-94.

lərindən çıxarmırdılar[1]. Oğuzlar müsəlmanların əksinə olaraq qoyunu başından vurmaqla öldürürdülər[2].

Oğuzlar xəstələrin yanına (hətta qohumları olsa da) yaxınlaşmırdılar. Xəstələrə qul və qarabaşlar (cariyələr) xidmət edirdi. Yoxsullar isə büsbütün taleyin hökmünə buraxılırdı[3]. 186 Bu xüsus, şübhəsiz ki, yoluxucu və epidemik xəstəliklərə tutulmaq qorxusundan doğurdu.

## 5. OĞUZLARIN DİGƏR ADƏT VƏ ƏNƏNƏLƏRİ

X əsrdə oğuz elində qadınlar digər türk ellərində və cahiliyyə dövrü ərəblərində olduğu kimi, kişilərdən uzaq gəzmir, üzlərini örtmürdülər. Bu hal Türkiyədə oymaq və kəndlərdə bu gün də davam edir. Hətta XIX əsrdə Cənubi Anadoluda səyahət edən V.Lanqlois bu münasibətlə türkmənləri Yaxın Şərqin ən mədəni insanları kimi təqdir etmişdi. Bununla bərabər, oğuzlarda fahişəlik və uşaqbazlıq halları yox idi[4].Türk qadınları islam dünyasında iffətli qadınlar kimi məşhur idilər[5].

Oğuzlarda öldürülənin qisasını almaq, yəni qan davası adəti də vardı[6]. Onlarda da cahiliyyə dövrü ərəblərində olduğu kimi, atası öləndə oğlu ögey anası ilə evlənirdi. İbn Fədlanın gördüyü oğuz sübaşısı Ətrək atası öldükdən sonra ögey anasını almışdı[7].

Evlənmə adətində kalım və ya başlıq vermək adəti geniş yayılmışdı[8]. Oğuzların toyları və oyunları haqqında əlimizdə məlumat yoxdur. Yalnız Toğrul bəyin 1063-cü ildə xəlifə əl-Qaim Biəmrullahın qızı ilə evləndiyi zaman bir otaqda kürsü üstündə oturan gəlinə baş çəkdikdən sonra həyətə çıxdığını, orada bəyləri ilə birlikdə sevinc içində rəqs etdiyini və bu əsnada türkcə mahnılar oxuduğunu bilirik[9]. Toy edərkən Toğrul bəyin 70 yaşı vardı.

---

[1] Göstərilən əsər, Z.V.Toğan nəşri, s.16; S. əd-Dehxan nəşri, s.103.
[2] Göstərilən əsər. Z.V.Toğan nəşri, s. 12; S. əd-Dehxan nəşri, s. 95.
[3] Göstərilən əsər. Z.V.Toğan nəşri, s. 14; S. əd-Dehxan nəşri, s. 99.
[4] Göstərilən əsər. Z.V.Toğan nəşri, s. 13, əd-Dehxan nəşri, s. 93-96.
[5] Gərdizi, s. 81; Z.V.Toğan. İzahlar qismi, s. 127-128.
[6] Onlar islam diyarında ölən bir qohum və ya eldaşlarının əvəzində bir müsəlman tapıb öldürürdülər (ibn Fədlan. Z.V.Toğan nəşri, s. 13; s. əd-Dehxan nəşri, s. 96).
[7] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 15; s. əd-Dehxan, nəşri, s. 102.
[8] Göstərilən əsər. Z.V.Toğan nəşri, s. 11; S. əd-Dehxan nəşri. s. 93-94.
[9] İbn ül-Cəzvi. əl-Müntəzəm. Heydərabad, 1359, VIII, s. 229. Sibt ibn-ül-Cəzvidə də (Mirat üz-zaman. Türk-islam əsərləri muzeyi kitabxanası, № 2134, vərəq 226 a-b) bu ifadə olduğu kimi verilməklə kiçik bir fərq və əlavə vardır. Əbülfərəcin (Tarix. O.R.Doğrulun türkcəyə tərcüməsi, Ankara, 1945, I, s. 315) sözləri eynən belədir: «Rəvayət edildiyinə görə, qız evinə göndərildiyi zaman sultan ilə türk bəyləri ayağa qalxaraq öz adətlərinə görə rəqs etmişlər, sonra diz üstə oturaraq qalxmışlar və türk mahnıları oxumuşlar. Gəlin üçün qızıldan bir taxt düzəldilmişdi. Sultan içəri girərək yerə doğru əyildi, arvadını salamladı və içəridə qalmayıb bayıra çıxdı. Sultan 7 gün bu şəkildə hərəkət etdi və qadının üzünü görmək üçün duvağını qaldırmadı».

Əbül Fərəc vasitəsilə bu məlumatdan xəbərdar olan Barthold[1] ruslarda «plyaska prisyadki» adlı rəqsin türklərdən alına biləcəyi ehtimalını irəli sürmüşdür. Zənnimizcə, Toğrul bəyin ifa etdiyi bu rəqs bu gün Anadoluda kollektiv şəkildə oynanan və adına halay deyilən rəqs olmalıdır.

Digər türk ellərində olduğu kimi, oğuzların da milli yeməkləri tutmac idi. Tutmac tarix boyu bir sıra mənbələrdə türklərin milli yeməyi kimi qeyd olunur. Toğrul bəyin Xorasanda bir dəvətdə yediyi badam haqqında «yaxşı tutmacdır, ancaq sarımsağı çatişmır»[2] dediyi söylənir[3]. Bu yeməyin Türkiyə səlcuqluları və osmanlı saraylarında da yeyildiyini bilirik. Tutmac türklərin hakimiyyət sürdükləri İran və ərəb ölkələrində də tanınmışdır[4].

X əsrdə oğuzların sifət quruluşunun digər türk qövmlərindən nə dərəcədə fərqli olduğu məlum deyil. Bildiyimizə görə, bu məsələ ilə əlaqədar ən qədim qeyd «Cami ət-təvarix»dədir. Bu əsərdə oğuzların üz şəkillərinin əvvəlcə digər türklərinki kimi olduğu, Mavəraünnəhrə gəldikdən sonra yerli iqlim və suyun təsiri altında sifətlərinin tədricən taciklərinkinə, yəni iranlılarınkına bənzədiyi yazılır[5]. Bu ifadədən türkmənlərin üz şəklinin XVI əsrdə əsas türk qövmləri və monqollarınkı kimi deyil, iranlılarınkı kimi düz olduğu, yəni monqoloid xüsusiyyətləri daşımadığı faktı meydana çıxır. Türkmənləri görən Avropa səyyahları onların qadınlarının xüsusilə gözəl olduqlarını bildirirlər.

Oğuzlar üzlərini təraş edir, yalnız bığ saxlayırdılar[6]. Bu adətin Türkiyədə də uzun müddət davam etdiyi, ruhanilərdən başqa xalqın və əsgərlərin üzlərini qırxdıqları, yəni təraş etdikləri məlumdur. Qızılbaş türklərin bu gün

---

[1] Orta Asiya türk tarixi haqqında dərslər, İstanbul, 1928, s. 97.

[2] İbn ül-Əsir. Misir, IX, 1301, s. 201.

[3] Bu rəvayətin açıq-aşkar uydurma olduğu şübhəsizdir. Rəvayətə görə, oğuzlar Mərvdə kafuru görərək ona «bu, Mərv duzudur» demişlər (ibn ül-Əsir, göstərilən yer). Halbuki həmən müəllif (II, s. 153) bunu İraqı fəth edən ərəblərə istinad edir. Guya ərəblər Mədaində gördükləri kafura «bu, Mədain duzudur» demişdilər. Bunlar fatehləri mədəniyyətsiz göstərmək və istehza etmək üçün uydurulmuş qəliblərdir.

[4] Tutmac haqda məlumat üçün III hissəyə bax.

[5] «Oğuz eli öz yurdundan çıxıb Mavəraünnəhr şəhərlərinə və İrana gələrək burada doğulub-böyüyəndə su və iqlim səbəbilə çöhrələri yavaş-yavaş taciklərinkinə bənzədi. Onlar xalis tacik olmadıqları üçün taciklər onlara «türkman», yəni «türkəbənzər» dedilər. Ona görə də bu ad bütün oğuz boylarına verilmiş, onlar bu adla tanınmışlar» (Cami ət-təvarix. Berezin nəşri. Ptb, 1861, s. 26). B.Brokye. Dəniz arxasına səyahət. Şefer nəşri. Paris, 1892, s. 92. Çuxurovada gördüyü türkmənlərə «gözəl insanlar» deyir. Babur (Xatirat. R.R.Arat tərcüməsi. Ankara, 1943, s.72). Sultan Mahmud oğlu Baysunqur Mirzə haqqında: «böyük gözlü, yuvarlaq üzlü, orta boylu, türkmən çöhrəli və gözəl bir igid» sözlərini işlədir. [Bax: Babur. Baburnamə. Ramiz Əskər tərcüməsi. Bakı, 2011, s. 86.]. Baburun bu sözləri türkmənlərin çağatay türklərindən fərqli üz quruluşuna malik olduqlarını bildirir. Baysunqur Mirzənin türkmən çöhrəli olması çox təbii idi, çünki həmin müəllifin məlumatına görə Baysunqurun anası məşhur qaraqoyunlu türkmən boyu baharluların başçısı Əli Şəkər bəyin qızı idi.

[6] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 15; S. əd-Dehxan nəşri, s. 100-101.

də saqqallarını istisnasız təraş etmələri bu qədim adətin davamıdır. Bunun əvəzində bütün türklər kimi oğuzlar da saçlarını uzadırdılar. XI əsrdə oğuzlarla qarşılaşan ermənilərin diqqətini ən çox onların uzun saçları və yayları cəlb etmişdi[1].

Oğuzların qiyafəsinə gəlincə, bu barədə demək olar ki, heç nə məlum deyil. 1038-ci ildə Nişapura gedən Toğrul bəyin qiyafəsinin təsviri bu xüsusda bəlkə də faydalı ola bilər; onun başında kətandan bir sarıq (əsabehituzi), əynində gözəl növ qumaşdan tikilmiş uzun qollu, uzun ətəkli və qabaqdan düymələri olan paltar (qəbayi-mülhəm), ayağında keçə çəkmələr, qolunda gərilmiş bir yay, kəmərində üç ox vardı[2].

Əbu Düləf öz səyahətnaməsində oğuzların kürk və kətan paltarlar geydiklərini yazsa da, ikincini qəbul etmək mümkün deyil. İslam ölkələrində emal edilən geyim əşyaları oğuzlarını rəğbətlə qarşıladığı ərməğanlar idi. Ancaq onlar ümumən yun və keçə paltarlar geymişlər. İrana hakim olduqdan sonra Toğrul bəyin ağ rəngli pambıq paltarlar geydiyi bildirilir[3].

Oğuzların xasiyyət və xarakterinə gəlincə, məlumat azlığı üzündən bu xüsusda tam və qəti hökmlər vermək o qədər də asan deyil, ancaq onu söyləmək mümkündür ki, oğuzlar sürdükləri həyat tərzi və yaşadıqları mühitin çətin şərtlərinin təsiri ilə olduqca tündməcaz idilər. Vuruşqan olmaq onların başlıca fəzilətlərindən biri idi. Bununla bərabər, onlar namuslu, doğrucul və qonaqpərvər insanlardı[4]. Türklər son zamanlaradək bu xüsusiyyətlərini mühafizə etmişlər. XIX əsrdə də səyyahlar Anadolu türklərini bu cəhətlərinə görə yüksək qiymətləndirmişlər. Oğuzlar öz başçılarına (dini və siyasi) son dərəcə bağlı və hörmət edən insanlardı. Xurafata inandıqları və hisslərinə əsir olduqları da məlumdur.

Oğuzların danışdığı türkcə hələ Anadoluya gəlməzdən əvvəl, Türküstanda ikən türk ləhcələrinin ən incəsi və kübarı (zərifi) sayılırdı. Kaşğari bu cəhəti xüsusi qeyd edir[5]. Yenə həmin müəllif ancaq oğuz ləhcəsində işlənən bir çox sözləri göstərmişdir[6]. Bunun nə üçün belə olduğunu ancaq həmin sözlərin etimologiyasını tədqiq etdikdən sonra bilmək olar.

Oğuzlar eyni zamanda Sır-Dərya sahillərindəki şəhərdə birlikdə yaşadıqları soğdlardan (sukak) da çoxlu kəlmələr almışdılar. Onlar bu sözlərin çoxunu Anadoluya gətirmişlər.

---

[1] Matyö d'Edesin xronikası. E.Düloryе tərcüməsi. Paris, 1958, s. 41.
[2] Tarixi-Beyhaki, s. 533.
[3] Əbül-Fərəc. Türkcə tərcümə, s. 229.
[4] İbn Fədlanın müsəlman tacirlərlə oğuzların münasibətlərinə dair sözləri. Z.V.Toğan nəşri, s. 12; s. əd-Dehxan nəşri, s. 95-96.
[5] Kilisli, I, s. 30, 361; Atalay, I, s. 30, 432; [Ramiz Əskər, I, s 104, 425].
[6] Bu kəlmələr haqqında: Təhsin Banquoğlu. Oğuz ləhcəsi haqqında. Türk dili araşdırmaları illiyi, 1960, s. 23-48.

## 6. OĞUZLARIN İSLAM DİNİNİ QƏBUL ETMƏSİ

X əsrin ilk rübündə Süd-Kəntdə müsəlmanlığı qəbul etmiş mühüm bir türk icmasının yaşadığı müşahidə edilir ki, onların oğuzlardan olmasına şübhə yoxdur[1]. Süd-Kəntin XI əsrin sonlarında bir oğuz şəhəri olduğu da məlumdur. Yenə X əsrin ilk rübündə Fərab-Kəncədə və Şaş (Daş-Kənd) arasında islam dinini qəbul etmiş oğuz və karluqlardan ibarət min çadıra yaxın bir elat yaşayırdı[2]. Bunlar müsəlman olmayan türklərin axınlarına qarşı müdafiə hərəkatlarında mühüm rol oynayırdılar. İbn Fədlanın 921-ci ildə Bulğara gedərkən görüşdüyü oğuz başçılarından Yınalın bir dəfə müsəlman olduğunu, lakin xalqın «Müsəlman olsan, bizim başçımız ola bilməzsən» şəklində etiraz etməsi üzündən təkrar köhnə dininə qayıtmaq məcburiyyətində qaldığını bilirik[3].

İslam hüdudları xüsusilə samanilərin cəhdi sayəsində Sır-Dərya arxasının şərqi istiqamətində genişlənmiş və Balasağuna qədər uzanmışdı. IX əsrdə samanilərdən Nuh ibn Əsəd İsfacab bölgəsini fəth etmiş, bu xanədanın ən böyük hökmdarı İsmayıl ibn Əhməd 893-cü ildə Talas şəhərini alaraq oradakı möhtəşəm kilsəni məscidə çevirmiş, Nəsr ibn Əhməd isə (913-943) Şavqar şəhərinə səfər etmişdi[4]. İsmayıl ibn Əhmədin Talas səfəri və İsficab bəylərinin fəaliyyəti nəticəsində Balasağunun qərbindəki Ordu şəhərində yaşayan türkmən məliki müsəlmanlığı qəbul etmiş və İsficab bəylərinə vergi ödəməyə başlamışdı.

Beləliklə, türk qövmləri arasında müsəlmanlığı hamıdan əvvəl əsasən Balasağunla Talasın şərqindəki Mirki qəsəbəsi arasında yaşayan türkmənlər qəbul etmişlər. Şübhəsiz ki, bu, X əsrin birinci yarısında baş vermişdir. Lakin, dediyimiz kimi, müsəlman şəhəri olan Balasağun 942-ci ildə müsəlman olmayan türklərin əlinə keçmişdir[5]. Onların qaraxanilər xanədanının başçılıq etdiyi yağmalar olduğu şübhəsizdir. Bu hadisə əsil yurdu Kaşğar bölgəsi olan qaraxanilər sülaləsinin Talas vadisini öz hakimiyyəti altına aldığı tarixi göstərir.

Salnaməçilər 349-cu ildə (miladi 960) 200.000 çadırlıq bir türk elatının müsəlmanlığı qəbul etdiyini bildirirlər[6]. Bu türklərin qaraxani xanədanının hökmranlıq etdiyi yerlərdəki türk qövmləri (yağma, karluq, çigil, tuxsı) olduğuna heç bir şübhə yoxdur. Həmin əsrin ikinci yarısında oğuzlar arasında da müsəlmanlığın xeyli yayıldığını söyləmək mümkündür. Son samani şahzadəsi Əbu İbrahim (Müntəsir) Mavəraünnəhri qaraxanilərin əlindən almaq

---

[1] İbn Hövkəl, s. 511; Hüdud ül-aləm, s. 117; Minorski, s. 118.
[2] İbn Hövkəl. Göstərilən yer; Hüdud ül-aləm; s. 118; Minorski, s. 119.
[3] Z.V.Toğan nəşri, s. 13; S. əd-Dehxan nəşri, s. 97-98.
[4] Barthold. Türkestan, s. 211, 224, 256.
[5] Yenə orada, s. 256.
[6] Yenə orada, s. 255.

üçün girişdiyi fəaliyyətlər əsasında bir ara oğuz yabğusunun yanına gedərək onunla ittifaq bağlamış, qudalıq qurmuş və nəticədə yabğu müsəlman olmuşdu[1] (391 - 1001-ci ildən sonra, hər halda 392-1002-ci ildə). Bu qeyddən də göründüyü kimi islam dini oğuzlar arasında ancaq XI əsrdə hakim din mövqeyi qazana bilmişdir.

Müsəlmanlığı qəbul etmiş oğuz zümrələrini qeyri-müsəlman qardaşlarından fərqləndirmək üçün Mavəraünnəhr müsəlmanları onlara türkmən adı verirdi. Daha əvvəl də dediyimiz kimi, Orta Asiyada müsəlmanlığı birinci qəbul edən türk qövmü Balasağun ilə Mirki arasında yaşayan türkmənlər olduğundan «türkmən» adı Mavəraünnəhr müsəlmanları içində «müsəlman türk» şəklində xüsusi bir məna da qazanmışdı. Oğuzların da islamı qəbul etmiş zümrələrinə müsəlman olduqlarını xatırlatmaq və onları qeyri-müsəlman qardaşlarından ayırd etmək üçün «türkmən» deyildi. Türkmən adının yalnız oğuz müsəlmanlarına verilməsi xüsusu Biruninin də sözlərindən göründüyü kimi, hər cür şübhədən uzaqdır[2].

Gərdizi və Beyhaki kimi Qəznə salnaməçiləri oğuzlardan müsəlman türk mənasında türkmən adı ilə bəhs etmişlər. Bunun əvəzində Yaxın Şərq müəllifləri onları əl-ğuzz, yəni oğuz adlandırmışlar. Çünki oğuzlar özlərinə türkmən demirdilər. Onlar müsəlmanlar tərəfindən hər yerdə özlərinə verilən bu adı uzun zaman mənimsəmədilər və oğuz sözünü atalarının adı kimi olsa da uzun müddət unutmadılar. XIII əsrin sonlarından etibarən artıq hər yerdə «türkmən» sözü «oğuz» sözünü əvəz etmişdir.

«Türkmən» adının mənşəyi müasir müəlliflər kimi qədim müəllifləri də xeyli məşğul etmişdir. Onlardan birinin fikrincə, «türkmən» «türk» sözü ilə farsca «man» (manənd) şəkilçisindən meydana gəlib «türkəbənzər» deməkdir. Bundan əvvəlki haşiyədə böyük alim Biruninin bu fikirdə olduğunu gördük. Kaşğari də öz növbəsində «türkmən» adının eyni şəkildə izahı ilə əlaqədar bir rəvayət[3] nəql etmişdir. Bu misallar XI əsrdə türkmən adının türk+-man (manənd)dən meydana gəldiyinin olduqca yayğın bir fikir olduğunu göstərir. XIV əsrdə İranda da «türkmən» sözünün eyni cür izah edildiyi məlumdur[4]. İkinci fikrə görə, «türkmən» «türki-iman» sözündən yaranmışdır. Bunu isə ibn Kəsir[5] və bizim salnaməçi Məhməd Nəşri[6] və ya onun istinad etdiyi qaynağın müəllifi irəli sürmüşdür. Müasir dövrdə isə «türkmən» sözünün sonundakı «mən»in türkcə mübaliğə şəkilçisi olduğu söylənərək (qocaman, azman, dəyirman və i. a.) bu adın öz türk (əsil türk, böyük türk) mə-

[1] Gərdizi. Tehran, 1327, s. 60.
[2] Kitab ül-cümahir, s. 205.
[3] Kilisli III, s 304-307; Atalay, III, s. 412-416; [Ramiz Əskər, III, s. 359-362].
[4] Rəşidəddin. Cami ət-təvarix. Berezin nəşri, s. 26.
[5] əl-Biladiyə vən-Nihayə. Qahirə, 1348, XP, s. 48.
[6] Məhməd Nəşri. Cahannüma. F.R.Unat-M.A.Köymən nəşri. I, Ankara, 1949, s. 16-17.

nasına gəldiyi bildirilir[1]. Oğuzların və ümumiyyətlə türklərin islam dinini qəbul etmələrində onlarla müsəlmanlar arasındakı ticarət münasibətlərinin yüksək səviyyəyə çatması ən mühüm amil olmuşdur. Yuxarıda da deyildiyi kimi, X əsrin əvvəllərində oğuzların əlindəki Yeni-Kənd, Xuvarə, Cənd və b. şəhərlərdə müsəlmanlar da yaşayırdı, karluqların hakim olduğu bəzi şəhərlərdə isə müsəlman icmaları vardı. Bu icmalar olduqları yerlərdə türklərdən ancaq dostluq münasibətləri görürdülər. Oğuzlar mədəni səviyyəsi yüksək olan bu müsəlmanlardan islam dininin əsaslarını öyrənirdilər. Digər tərəfdən, həm Məvəraünnəhrdən, həm də Xarəzmdən hərəsində minlərcə adam olan karvanlar ən uzaq türk ölkələrinə gedib-gəlirdi. Hər bir müsəlman tacirin türk ölkəsində səyahət edə bilməsi üçün bir türk ilə dostluq və ya şəriklik qurması lazım idi. Müsəlman dərviş və şeyxlərinin də türklər arasında apardıqları dini təbliğatı bunlara əlavə edə bilərik.

## 7. OĞUZ YABĞU DÖVLƏTİ

Oğuzların yabğular tərəfindən başçılıq edilən dövlətləri vardı. Ancaq tarixə bu yabğuların heç birinin adı dəqiq məlum deyil. Oğuzların «Cami ət-təvarix»də verilmiş əfsanəvi tarixlərində bu yabğulardan bir çoxlarının adı çəkilmişdir. Yabğular qışda Sır-Dəryanın mənbəyi yaxınlığında yerləşən Yeni-Kənddə yaşayırdılar. Yabğuların bizə məlum olan aşağıdakı məmurları vardı: sübaşı[2], yəni ordu komandanı. Sübaşının bir nəfər, yoxsa bir neçə nəfər olduğu bilinmir. Səlcuqlular bu vəzifəni və bu sözü Anadoluya da gətirdilər. Səlcuqlu dövründə sübaşı ünvanı bölgələrin hərbi valilərinə verilirdi. Osmanlı dövründə isə sübaşı şəhərlərdəki polis rəisləri mənası qazandı. Yabğuların digər yüksək məmuru kül-ərkin idi[3]. Külərkin yabğunun naibi və ya vəkili deməkdir[4]. Bu terminin Türkiyəyə gəldiyinə dair heç bir dəlil yoxdur. Ancaq vəzifənin gəlmiş olması ehtimalı var. Türkiyə səlcuqlularında bir səltənət naibliyi vəzifəsi mövcud idi[5]. Bundan əlavə, türkmən hökmdarlarının, bəylərinin də naibləri olduğunu bilirik.

---

[1] Jan Deni. Türk dilinin qrammatikası. Paris, 1921, s. 236; Minorski. Hüdud ül-aləm haşiyələri, s. 311.
[2] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 10, 16; S. əd-Dehxan nəşri, s. 91, 103. XVIII və XIX əsrlərdə sözün tərkibindəki sü kəlməsinin su olduğu sanılmış, hətta onun sərçeşmə şəkilində farsca qəribə bir tərcüməsi də verilmişdi.
[3] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 13, 15; S. əd-Dehxan nəşri, s. 97, 101. Mətndə: kuzərkin. Türklərdə bu şəkildə ünvana rast gəlinmir, əvəzində kül-ərkin ünvanı vardır. Rəşiddədində kul-ərki şəkli olduğu üçün ibn Fədlandakı kuzərkinin kul-ərkin olduğunu qənaətinə varılmışdır.
[4] Göstərilən yer.
[5] İ.H.Uzunçarşılı. Osmanlı dövlət təşkilatının əsaslarına giriş, s.97, 101-102.

Oğuz yabğu dövlətində tarxan və yınal ünvanları daşıyan şəxslər də vardı[1]. Lakin bunların sadəcə olaraq əsilzadə titulları, yoxsa məmur ünvanları kimi işləndiyi bilinmir[2]. Türkiyə səlcuqlularında mövcud olan bəylərbəyi vəzifəsinin yabğular dövlətində olub-olmadığı da məlum deyildir.

Yabğuların möhür və fərmanlarına tuğrağ (tuğra) deyilir. Bu söz digər türklərə tanış deyildi[3]. Oğuzlar bu sözü İrana və Anadoluya da gətirdilər. Səlcuqlu dövlətində tuğralıq (nişançılıq) adlı bir məmur vəzifəsi olmuşdur. Oğuzlar eyni zamanda digər türklərin bitimək (yazmaq) sözü yerinə yazmaq sözünü işlədirdilər[4]. Qohumlar arasında məktub daşıyan adama yazığçı deyilirdi[5]. Bütün bunlar oğuz yabğularının divanı (bürosu) olduğu fikrini yaradır. Bundan başqa, onların şəhərlərdən vergi yığan məmurları (təhsildar) olduğunu da bilirik. Ancaq bu divanda hansı əlifba ilə, hətta hansı dildə yazı yazıldığı barədə bir söz demək mümkün deyil. Yabğuların ordularında ovçubaşı, əmir-axur kimi məmurların, çavuşların (təşrifat məmurları)[*], bəkçilərin (mühafizələr) olduğu şübhəsizdir. Oğuzlar işlərini məclislər quraraq məsləhət (gənəşmə) yolu ilə həll edirdilər. Oğuz sübaşısı Ətrək tarxan, yınal kimi oğuz başçılarını çağıraraq xəlifənin nümayəndə heyətinə qarşı necə davranmaq barədə onlarla məsləhətləşmişdi[6].

Oğuz yabğu dövləti X əsrin birinci yarısında müstəqil və qüdrətli bir dövlət idi. O heç bir zaman bu və ya digər dövlətə, qövmə tabe olmamışdır. Oğuzlar çox igid və vuruşqan bir qövm idilər[7]. Məsudi[8] oğuzların ən vuruşqan türk eli olduğunu söyləyir. Oğuzların silah və sursatları mükəmməl idi[9].

Digər türk qövmlərində olduğu kimi, bu silahların başında ox dururdu. Oxu türklərin milli silahı kimi qəbul etmək əsla səhv olmaz. Yuxarıda da söylədiyimiz kimi, oğuzlar ermənilərin diqqətini bu silahları ilə cəlb etmişdilər. İbn Fədlan sübaşı Ətrəkin necə sərrast nişançı olduğunu bir misalla göstərmişdir[10]. Qarğı (süngü) və qılınc da əsas silahlardan idi. Oğuzların at-

[1] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 13, 16; S. əd-Dehxan nəşri, s. 97-103.
[2] İbn Fədlanda ləğləz (Z.V.Toğan nəşri, s. 16) və ya ilğəz (S. əd-Dehxan nəşri, s. 103) şəklində bir söz də vardı. Bunun ünvan, yoxsa ad olduğu bilinmir.
[3] Kaşğari, I, s. 385.
[4] Kaşğari, Kilisli, III, s. 45; Atalay, III, s. 59; [Ramiz Əskər, III, s. 59].
[5] Kaşğari, Kilisli, III, s. 41; Atalay, III, s. 55; [Ramiz Əskər, III, s. 54].
[*] Seremonmeyster (tərcüməçi).
[6] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 10, 16; S. əd-Dehxan nəşri, s. 97- 103.
[7] Hüdud-ül-aləm, s. 86; Minorski, s. 100. İdrisi (Jober tərcüməsi, 1840, II, s. 342) bu barədə deyir: «Bu qövmlər oğuz türklərindən olub həmişə silahlı, çox cəsur və digər türk qövmləri ilə daim vuruşa hazır vəziyyətdədirlər».
[8] Müruc üz-zəhəb, I, s 212.
[9] Hüdud ül-aləm. Göstərilən yer.
[10] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 16; S. əd-Dehxan nəşri, s. 103.

ları saysız-hesabsız idi. Erməni salnaməçisi Aristakes romantik bir ifadə ilə oğuzların atlarının qartallar kimi cürətli olduğunu yazır[1].

Oğuzların öz qonşuları ilə münasibətləri əsasən düşməncəsinə idi. Onların peçeneqlərə qarşı xəzərlərlə ittifaq bağladıqları məlumdur. Ancaq bu iki qövm (xəzərlər və oğuzlar) arasındakı münasibətlərin X əsrdə dostcasına olmadığı görünür. İbn Fədlan oğuzlardan bir çoxunun xəzərlərin əlində əsir olduğunu eşitmişdi[2]. Məsudi[3] oğuzların İdil çayının mənsəbinə yaxın yerlərə gələrək qışladıqlarını, çay donanda buzun üstündən keçərək xəzər ölkəsinə axınlar (hücumlar) etdiklərini, Xəzər qoşunlarının bu hücumların qarşısını ala bilmədiyi üçün xəzər kralının şəxsən oğuzların qarşısına çıxmaq məcburiyyətində qaldığını yazır. Oğuzların cənub qonşuları - müsəlmanlar bu zaman öz tarixlərinin ən xoşbəxt dövrünü yaşayırdılar. Mavəraünnəhr bərəkətli torpaqlara sahib bir ölkə olmaqla birlikdə müstəsna coğrafi mövqeyi dolayısı ilə orada ticarət və sənaye də çox inkişaf etmişdi. Bu ölkə samanilərin idarəsi altında siyasi sabitliyə qovuşduqda maddən və mənən islam dünyasının ən inkişaf etmiş bölgələrindən birinə çevrildi. Ticarət karvanları buradan türk aləminin ən uzaq yerlərinə qədər gedirdi. Xarəzmlilər də onlardan geri qalmırdılar. Hər iki ölkənin sənaye məhsulları üçün ən böyük bazar İdildən Çin səddinədək uzanan geniş türk aləmi idi. Hətta bu iki ölkə qədim zamanlardan bəri türk aləmində koloniyalar yaratmış, türk xaqanlarının xidmətinə girərək onların şəhər qurmalarında və digər mədəni fəaliyyətlərində köməkçisi olmuşlar. Bu ölkələrdə ticarət və sənayesinin inkişafı həmin ölkə xalqlarının mənəvi inkişafını da təmin etdi. İslam coğrafiyaşünasları Mavəraünnəhr xalqının əldə etdiyi mənəvi nemətləri bir-bir sadalayırdılar. Bütün bunların nəticəsidir ki, IX-XI əsrlərdə islamın ən böyük elm adamları bu iki ölkədə yetişmişdir.

Əməvi dövlətinin süqutundan sonra (750) çox keçmədi ki, onsuz da zəif olan qərbi göytürk xaqanlığı karluqların istilasına uğradı (766). Xeyli əvvəldə söylədiyimiz kimi, bu müvəffəqiyyətdən sonra karluqlar qərbi göytürk xaqanlığı torpaqları üzərində qüvvətli bir dövlət qura bilmədilər. Anlaşıldığına görə, onların yabğu adlanan hökmdarları Talas şəhərində oturdu və karluqların ancaq bir hissəsinə hakim ola bildi. Yəni karluqlar da siyasi baxımdan parçalanmış bir vəziyyətdə idilər. Onların, habelə qərb qonşuları oğuzların islam ölkələrinə qarşı davranışları ancaq talan səfərlərindən ibarət idi. Onlar bəzən də öz dövlətinə qarşı üsyan edənlərin köməyinə gəlirdilər. Müsəlmanlar bu talan səfərini dayandırmaq üçün Buxara ətrafında, Şaş ilə İsficab bölgələrində sədlər qurdular[4]. Sərhəd şəhərləri də qalalar və divarlarla

[1] J.Loran. Bizans və Səlcuqlu türkləri. Nansi, 1913, s. 17.
[2] İbn Fədlan. Z.V.Toğan nəşri, s. 17; S. əd-Dehxan nəşri, s. 104.
[3] Müruc üz-zəhəb, II, s. 17.
[4] Barthold. Türkestan, s. 201-211.

bərkidildi. Ancaq bölgə və yörələrini qorumaq üçün divar çəkmək tədbirindən bir müddət sonra vaz keçildi. Karluqlar o qədər zəif bir vəziyyətdə idilər ki, samanilərdən İsmayıl ibn Əhməd Sır-Dərya arxasına yürüş edərək Talas şəhərini aldı və karluq yabğusunun xatunu da daxil olmaq üzrə çoxlu əsir və böyük qənimətlə geri qayıtdı. Daha əvvəl dediyimiz kimi, Talasdan xeyli şərqdə, Balasağunun qərbindəki Ordu şəhərində oturan türkmən məliki qorxudan müsəlman olmuş, İsficab məlikinə vergi verməyə başlamışdı. Anlaşıldığına görə, İsficab bölgəsinin hakimi olan müsəlman türk sülaləsi Əhməd ibn İsmayıl fəth etdiyi bölgəni uzun zaman əlində saxlamağa müvəffəq olmaqla bərabər, işğal bölgəsinin sərhədlərini daha da genişləndirdi və hakimiyyətini türkmənlərə tanıtdı.

Bu dövrdə Sır-Dəryadakı müsəlman şəhərlərində çoxlu könüllü mücahid var idi. Mavərünnəhrdəki əsas şəhərin camaatı və ali komandanlar mücahidlərin sərhəd şəhərlərində yaşamaları üçün rabatlar tikdirir və onların başqa ehtiyaclarını ödəyirdilər. Mücahidlər üçün varlı vəqflər qurulmuşdu. Mücahidlərin ən çox yığıldıqları yer İsficab şəhəri adı. Müqəddəsiyə görə[1], burada 1.700 (!) rabat vardı. Bu, İsficab məlikinin gücünün haradan qaynaqlandığını göstərir. İsficabdakı türk xanədanının samanilərə qismən tabe olması da bununla bağlıdır. Bu mücahidlər arasında böyük miqdarda türklərin olduğunu da bilirik.

942-ci ildə İsficab məlikinə tabe olan müsəlman şəhəri Balasağun qeyri-müsəlman türklər tərəfindən fəth edildi[2]. Bu mühüm hadisə qaraxani dövlətinin yüksəldiyini göstərən faktdır. Daha əvvəl də xatırlandığı üzrə, bu qeyri-müsəlman türklərin başında qaraxani xanədanı dururdu və onlar əsasən Kaşğar bölgəsində yaşayan yağmalardan ibarət idi. Buna heç bir şübhə yoxdur. Balasağunun işğalının samani paytaxtında əks-səda yaratdığı məlumdur. Xaqanın oğlunun əsir alındığı faktına[3] istinadən şəhərin geri alınması üçün səfər təşkil olunduğunu ehtimal etmək mümkündür, lakin şəhərin geri alınmadığı həqiqətdir. Beləliklə, qaraxanilər yüksəlməyə başlarkən Nuh ibn Nəsrdən (934-954) etibarən samanilərin qüdrəti azalmağa doğru üz tutmuşdu. Samani taxtına bir-birindən zəif şəxsiyyətlər gəldiyi üçün seçmə türk ordusunun komandanlarının nüfuz və iqtidarı getdikcə artırdı. Bu komandanlarla hökmdarın mübarizəsi dövlətin süqutunda ən mühüm amil oldu.

Türk komandanlarından biri olan Alp Təgin 962-ci ildə Qəznəni fəth etdi, beləliklə, qəznəvilər dövləti quruldu. Qaraxani hökmdarı Buğra xan Harun ibn Musa bir neçə dəfə dəvət edildikdən sonra 992-ci ildə Mavəraünnəhri istila etdi və 999-cu ildə samanilər dövləti süquta uğradı. Mavəraün-

---

[1] S. 273; Barthold. Göstərilən əsər, s. 176.
[2] Barthold. Göstərilən əsər, s. 256.
[3] Yenə orada.

nəhrdə qaraxanilər hakimiyyəti başladı. Xorasana gəlincə, bura bir neçə il əvvəl qəznəvilərin əlinə keçmişdi.

Məvəraünnəhrin qərb qonşusu Xarəzmdə qədimdən bəri yerli bir xanədan hökm sürürdü. Afriğ oğulları adlanan bu xanədan samanilərə tabe idi. Onlar oğuzların şimaldan hücumlarına qarşı həmişə hazır dayanırdılar[1]. Bu xanədanın yerini 995-ci ildə Məmun oğulları (xarəzmşahlar) tutdular ki, onların da hakimiyyəti 1117-ci ilədək davam etdi. Həmin il (995) Xarəzm Mahmud Qəznəvinin əlinə keçdi və hökmdar oraya öz sərkərdəsi Altun-Taşı vali göndərdi. Altun-Taş və oğulları Xarəzmi 1040-cı ilədək idarə etdilər.

Oğuzlar şərq qoşunları karluqlarla da vuruşmuşdular. Hətta bu vuruşların birində oğuz yabğusu ölmüşdü[2]. Bu hadisə X əsrin əvvəllərində və ya ondan da qabaq baş vermiş ola bilər. Kaşğari[3] oğuzlarla çigillər arasında qədimdən bəri davam edən köklü bir düşmənliyin olduğunu xəbər verir.

Oğuzların şimal qonşularına gəlincə, bunlar kiməklər, əlalxüsus bu qövmün getdikcə qüvvətlənən qıpçaq boyu idi. Qıpçaqların hələ IX əsrdə kimək elindən ayrılaraq müstəqil surətdə hərəkət etdiyi anlaşılır. Kiməklər oğuzlar ilə sülh içində olanda çox soyuq fəsillərdə sürülərilə cənuba köçürdülər[4].

Oğuz yabğu dövlətinin necə və nə vaxt süqut etdiyi barədə heç bir tarixi məlumat yoxdur. «Cami ət-təvarix»dəki əfsanəvi mahiyyətli tarixlərində Əli xan adlı bir nəfər son oğuz yabğusu olaraq göstərilir. Əli xanın Qılınc Arslan adlı və Şah Məlik ləqəbli bir oğlu vardı. Şah Məlik tarixi bir şəxsiyyət olub XI əsrin birinci yarısının ortalarında Cənd hakimi idi. Hətta bir əsərdə onun atasının adı, dastandakı kimi, Əli olaraq göstərilmiş, «əl-Bərani» şəklində nisbəsi də verilmişdir[5]. Ancaq bu günə qədər həmin nisbəni izah etmək mümkün olmamışdır. Qaynaqlarda Şah Məlikin oğuz mənşəli olmasına dair də heç bir işarə yoxdur. Buna görə, təsdiq edici tarixi bir dəlil əldə edilməyənə qədər «Cami ət-tavarix»dəki rəvayətə bir şey əlavə etməyin doğru olmayacağı zənnindəyik[6]. Aşağıda bəhs ediləcəyi kimi, Səlcuqun oğullarından İsrail 392-ci (1002) ildə yabğu ünvanını daşıyırdı. Bu xüsus oğuz dövlətinin böyük ehtimala görə bu tarixdən əvvəl yıxılmış olduğunu göstərir.

İndi ən qüvvətli ehtimal kimi oğuz yabğu dövlətinə qıpçaqların son qoyduğu üzərində dururuq. 1030-cu ildən əvvəl xarəzmşah Altın-Taşın xidmətində bir qıpçaq zümrəsi vardı[7]. Bu qıpçaq zümrəsinin Xarəzmə gələ bilmə-

---

[1] Biruni. əl-Asar ül-Baqiyyə. E.Sachau nəşri, 1878. s. 236.
[2] Mücməl üt-təvarix s. 103; Gərdizi, s. 80.
[3] Kilisli, I, s. 330; Atalay, I, s. 394; [Ramiz Əskər, I, s. 393].
[4] Hüdud ül-aləm, s. 85; Minorski, s. 100.
[5] İbn Fındıq. Tarixi-Beyhaki. Əhməd Bəhmənyar nəşri. Tehran, 1317 şəmsi, s. 51.
[6] «Cami ət-təvarix»də oğuzların əfsanəvi tarixi və Şah Məlik haqqındakı rəvayətlər üçün bax: «Oğuzlara aid dastani mahiyyətdə əsərlər», s 378-879.
[7] Tarixi-Beyhaki, s. 86, 684. Sonuncu səhifədə cincaq şəklindədir, Mətni nəşr edənlərin (Qani-Fəyyaz) bu sözün hıfçax (yəni qıpçaq) olacağı barəsində tərəddüdləri yersizdir (s.

si ancaq Aralın şimal və şimal-qərb hissəsinin qıpçaqların əlinə keçməsilə mümkün ola bilərdi. F.Köprülünün də dediyi kimi[1], Altın-Taşın xidmətində olan və hıfçax ilə birlikdə xatırlanan küçət və cuğrakların da qıpçaqların yaxın qohumları olması ehtimalı güclüdür. Səlcuqlu Çağrı bəy Xorasan hökmdarı ikən (1040-1060) qıpçaq əmiri onun yanına gələrək müsəlman olmuş və aralarında qudalıq qurulmuşdur[2]. Rus salnamələri 1054-cü ildə ilk dəfə olaraq Qara dənizin şimalında torkların (uz-oğuz) və polovetslərin (qıpçaq) görünməsindən bəhs edir.

Bu torkların Bizans qaynaqlarının uz adlandırdıqları oğuzların bir elatı, sarışın mənasına gələn polovetslərin isə qıpçaqlar olduğu qəbul edilmişdir. Bu oğuzlar elatının qıpçaqların təzyiqi altında İdili keçərək Qara dənizin şimalına getdikləri bilinir[3]. Digər tərəfdən, Kaşğarinin xəritəsinin tədqiqindən görünür ki, qıpçaqlar oğuz çölünü, hətta Sır-Dəryanın aşağı yatağının demək olar ki, hamısını işğal etmişdilər[4]. Nasir Xosrovun (vəfatı 1060) bir şeirindən də qıpçaqların oğuzlarla yan-yana yaşadıqları anlaşılır[5]. Alparslanın Manqışlaq səfəri münasibətilə türkmənlərin qıpçaqlarla qarışıq halda yaşadıqları (şübhəsiz, Üst-Yurdda) və tacirləri soyduqları söylənir[6]. Bütün bu qeydlər qıpçaqların oğuzları sıxışdıraraq onların torpaqlarının mühüm bir hissəsini öz əllərinə keçirdiklərini açıqca göstərir.

Oğuz yabğu dövlətinin də bu qıpçaq hücumları nəticəsində yıxıldığını düşünmək qayət təbiidir. Qıpçaqların bu müvəffəqiyyətlərinin isə oğuzların daxili çəkişmələr nəticəsində parçalanaraq zəif bir vəziyyətə düşmələri ilə əlaqədar olduğu şübhəsizdir. Oğuzlar arasında köhnədən bəri çəkişmələr olduğunu və bunun köçlərə səbəb olduğunu bilirik. Bu hadisənin nə vaxt baş verdiyi məsələsinə gəlincə, bu xüsusda qəti hökm vermək mümkün deyil, ancaq bunun 392-1002-ci ildən əvvəl olduğunu ən güclü ehtimalla söyləyə bilərik. Çünki həmin tarixdə Səlcuqun oğullarından İsrail yabğu ünvanı daşıyırdı[7]. Səlcuqluların Cənd yörəsinə gəlmələri də daxili mübarizə və ya

684, indeks: s.729). Çünki 86-cı səhifədə hıfçax adının yanında necə küçət və cuğrak adları gəlirsə, cincağ sözünün yanında da həmən adlar görünür.

[1] Kay qəbiləsi haqda yeni notlar. Belleten, № 33, s. 442. Küçətlər və cuğraklar haqqında həmən yazıda ümumi məlumat var (s. 435-444).

[2] Əxbar üd-dövlət is-səlcuqiyyə. Məhəmməd İqbal nəşri. Lahor, 1933, s. 28.

[3] Minorski. Hüdud ül-aləm haşiyələri, s. 316-317.

[4] Kaşğarinin xəritəsi üçün bax: Kilisli, I; Atalay, II; [Ramiz Əskər, II].

[5] Divani-Nasir Xosrov. Tehran, 1304-1307, s. 329. Ancaq «Divan»da Bartholdun Brauna istinadən xatırladığı Dəşti-Qıpçaq sözünə rastlanmır.

[6] Səbt ibn ül-Cövzi. Mirat üz-zaman. Türk-islam əsərləri muzeyi kitabxanası, № 2134, vərəq 242 b, Topqapı sarayı, III Əhməd kitabxanası, № 2907, XII, vərəq 228 a. Anlaşıldığına görə, burada türkmənlərə qarışmış «küffar» (kafirlər) qıpçaqlardır. Türkmənlərin köçlərini, arvad-uşaqlarını və heyvanlarını qoyub qaçdıqları ada isə (cəzirə) Manqışlaq yarımadasıdır. Bu səfər barədə sonra danışılacaq.

[7] Bir az sonra bu məsələyə toxunulacaq.

yabğu dövlətinin süqutu ilə bağlı idi. Xülasə, daxili mübarizə və qıpçaq hücumları nəticəsində oğuz dövlətinin yıxılması oğuzların mühüm bir qisminin köçməsinə səbəb olmuşdur. Beləliklə, onlardan böyük bir qol əvvəlcə Cəndə, sonra oradan aşağıya-Buxara tərəfə köçmüş, digər mühüm bir elat isə Cənubi Rusiyaya getmişdi. XI əsrin ortalarında oğuzlar əsasən Sır-Dərya çayının orta hissəsində, yəni Karaçuk dağları bölgəsində və oradakı şəhərlərdə, bir də Manqışlaq yarımadasında kompakt halda yaşayırdılar. Bununla bərabər, monqol istilası zamanında Cənd və Qaraqumda türkmənlərin də yaşadığı bilinir.

## 8. UZLARIN BAŞINA GƏLƏNLƏR

Oğuzlardan mühüm bir elat XI əsrin ortalarında Qara dənizin şimalındakı torpaqlarda göründü. Rus salnaməçiləri bunları tork, Bizans qaynaqları isə uz adlandırmışdır. Rus salnamələri həmin oğuzlardan və sarışın mənasına gələn polovets dedikləri qıpçaqlardan ilk dəfə 1054-cü ildə bəhs etmişdir[1]. Rusların peçeneqləri və qıpçaqları daxil etməyərək yalnız uzlara tork (türk) deməsinin səbəbi bilinmir. Uzların Qara dənizin şimalına gəlmələrinə qıpçaqların onları sıxışdırması səbəb olmuşdur. Qıpçaqlar Qara dənizin şimalında da onları sıxışdırmaqda davam etmiş, oğuzların çoxunu Dunay boyuna, oradan da Balkanlara enməyə məcbur etmişlər. 1064-1065-ci illərdə Dunayı keçən oğuzlar qollara ayrılaraq Balkanlarda geniş bir istila hərəkatına başlamışlar. Trakiya, Makedoniya və Səlanik bölgələrini talan etmişlər. Ancaq birdən-birə düşən soyuqlar onların arasında epidemik bir xəstəliyin baş verməsinə səbəb olmuşdur. Onsuz da dağınıq halda olan oğuzları bu epidemiya daha da zəiflətmiş, onlar köhnə düşmənləri peçeneqlərin və yerli xalqın hücumuna uğrayaraq böyük təlafat vermiş, qüvvə və əhəmiyyətlərini itirmişlər. Uzların sağ qalanları Bizans tərəfindən Balkanların müxtəlif yerlərində, xüsusilə Makedoniyada yerləşdirildilər[2]. Bu uzların həyatı sürüdən ayrılan quzu kimi belə hüznlü bir şəkildə sona çatmışdır[3]. Bununla bərabər, Bizans xidmətinə daxil olan bu uzların bir qisminin 1071-ci il Malazgird müharibəsində öz qardaşları səlcuqlu oğuzlarının tərəfinə keçdiklərini bilirik.

---

[1] Minorski. «Hüdud ül-aləm» haşiyələri, s. 316-317. Yenə onun: Mərvəzi haşiyələri, s. 102. Ancaq A.N.Kurat rus knyazı St. Vladimirin uzlarla birlikdə Kama bulğarları üzərinə 985-ci ildə bir yürüş etdiyindən bəhs edir və uzların bu tarixdə (985) Don boyunda yaşadıqlarını söyləyir (Peçeneq tarixi. İstanbul, 1937, s. 128).

[2] Ə.N.Kurat. Peçeneq tarixi, s. 150-152, 187-188.

[3] Yenə orada, s. 154-155. Urfalı Matevos (Hrant Andreasyanın türkcəyə tərcüməsi, TTK, 1962, s. 143) Bizins ordusunun sağ cinahında olan uzlarla sol cinahındakı peçeneqlərin (padzunaq) müharibənin qızğın çağında səlcuqlular tərəfinə keçdiyini söyləyir, Malazgirt müharibəsində iştirak edən böyük Bizans sərkərdələrindən Tarxanın (Tarxaniat) oğuz başbuğlarından olduğunu yazır.

## C. SƏLCUQLU DÖVLƏTİNİN QURULMASI

Səlcuqlu* dövlətinin qurulması oğuz türklərinin tarixində çox mühüm dönüş nöqtəsidir. Onun qurulmasilə islam aləmində siyasi hakimiyyət oğuzların əlinə keçdi, həm də Anadolu və ona qonşu ölkələr oğuzların vətəni oldu. Oğuz türkləri Yaxın Şərq islam aləminin xüsusilə X əsrin əvvəllərindən etibarən zəifləməsindən istifadə edərək addım-addım irəliləyən Bizansı dayandırmaqla qalmamış, onun əsas dayağı olan Kiçik Asiyanı fəth etməklə bu dövlətin çökməsində və süqutunda mühüm amil olmuşlar.

Səlcuq oğuzların kınık boyuna, şübhəsiz ki, bu boyun bəy ailəsinə mənsubdur[1]. «Cami ət-təvarix»də oğuz boylarının siyasi və ictimai mövqelərinə görə tərtib edilmiş cədvəldə kınıklar 24-cü, yəni ən axırıncı yerdə göstərilir. Bu faktdan çıxış edərək hökm vermək lazım gəlsə, deməli, kınıklar oğuzların qədim tarixlərində çox da mühüm rol oynamamışlar[2]. «Məliknamə»yə görə[3] Səlcuq yabğunun sübaşısı, yəni ordu komandanı idi. Kaşğari də Səlcuğun sübaşı olduğunu təsdiq edir[4]. Yenə «Məliknamə»yə görə[5] Səlcuğun atası Dukak idi və Təmir-yalığ (Dəmir yaylı) ləqəbini daşıyırdı.

---

* Osmanın ardıcılları osmanlılar, qurduğu dövlət Osmanlı dövləti adlanır. Türk dilində Səlcuğun tərəfdarları səlcuqlular, dövləti Səlcuqlu adlarını daşıyır. Azərbaycan dilində tarixi ənənəyə görə ikinci halda «səlcuqlu» sözü ancaq adlıq halda işlənir: səlcuqlar, Səlcuq dövləti. Doğrusu səlcuqlu şəklidir. Ənənəni pozmaq məcburiyyətində qaldıq (tərcüməçi).

[1] Əxbar üd-dövlət is-səlcuqiyyə. s. 3, «Məliknamə»yə istinadən»; Kaşğari, Kilisli, I, s. 50; Atalay, I, s. 55; [Ramiz Əskər, I, s. 128]. Həmdullah Müstövfi Qəzvini. Tarixi-güzidə. Tehran, 1339 ş., s. 426; Rəşidəddin. Cami ət-təvarix. Berezin nəşri, s. 29.

[2] Kınıklar haqda ikinci hissəyə bax.

[3] Səlcuqluların ilk dövrlərindən bəhs edən bu əsərdə Kahen onlar haqda digər qaynaqları diqqətlə araşdırmışdır: K.Kahen. «Məliknamə» və səlcuqluların mənşəyinin tarixi». Orien, II, Səlcuqlu dövrü tarixşünaslığı, s. 59-78. Dövrümüzə gəlib çatmamış «Məliknamə»dən qədim müəlliflərin gətirdikləri iqtibaslar bir-birindən fərqlənir. Əsərin ərəb dilində tərcüməsi var. Bu əsərə istinad edən məlumatları ciddi surətdə süzgəcdən keçirərək, istifadə etmək lazımdır.

[4] Kilisli, I, s. 397; Atalay, I, s. 478; [Ramiz Əskər, I, s. 462].

[5] Mirxond (Rövzət üs-səfa. Luknov nəşri, 1332, IV, s. 84) yabğunun xəzər məliki olduğunu söyləyir, Tukakın isə xəzərlərdən olduğunu bildirir. Bu qeydə inansaq, Dukak oğlu Səlcuq və onun qohumları xəzərlərə mənsubdur. Z.V.Toğan (ibn Fədlan və Ümumi türk tarixinə

Yayın türklər arasında hakimiyyət rəmzi olduğunu bilirik. Şübhəsiz ki, Səlcuq və atası Dukak oğuzlar arasında həm nəcabət, həm də şəxsiyyətləri baxımından tanınmış adamlar idilər. Səlcuq və onun oğullarının ətraflarına mühüm bir oğuz elatını yığa bilmələrində və yabğu ünvanı almalarında, şəksiz, bu xüsuslar başlıca amil olmuşdur.

Göstərildiyi kimi, yabğunun sübaşısı, yəni ordu komandanı olan Səlcuq, «Məliknamə»yə görə, xatununun təhriki ilə yabğunun onu öldürəcəyindən qorxaraq əsgərləri və oymağı ilə qaçıb Cənd şəhəri yaxınlığına gəlmişdir[1]. Bu qaçmaq əhvalatı doğru ola bilər, çünki yuxarıda da deyildiyi kimi, oğuzların arasında bəzən hətta köçmələrə səbəb olacaq dərəcədə çəkişmələr baş verdiyi məlumdur. Elə Siyahkuh (Manqışlaq) yarımadasında yaşayan oğuzlar da bu cür daxili çəkişmə ilə əlaqədar olaraq buraya gəlmişdilər. Bununla bərabər, «Məliknamə» dördəlli yapışacağımız etibarlı bir qaynaq olmadığı kimi, Səlcuqun Cəndə gəlişinin yabğu dövlətinin süqutu ilə əlaqədar olması da mümkündür. Bu dövlətin tənəzzülündə ən qüvvətli ehtimalın qıpçaq hücumu olduğunu yuxarıda göstərmişik. Əslində də, Cənd şəhəri, əvvəl deyildiyi kimi, X əsrin əvvəllərində yabğuya tabe şəhərlərdən biri idi və o zaman orada müsəlmanlar yaşayırdılar.

Yabğunun qış vaxtı yaşadığı Yeni-Kənd də Cəndə çox yaxın məsafədə yerləşirdi. Bu səbəbdən Səlcuqun Cəndə qaçması axırıncı ehtimalla daha yaxşı izah edilə bilər. Səlcuqluların buraya X əsrin son rübündə gəldiyi təxmin edilir. Həmdullah Qəzvininin[2] Əbülülaya və Əhvala istinadən göstərdiyi tarix - 375-ci il (985) ağlabatandır.

Daha əvvəldə deyildiyi kimi, 999-cu ildə qaraxani İlig xan Nəsr ibn Əli (vəfatı 1012/13-cü il) tərəfindən samani dövləti dağıdılmış və xanədan üzvləri həbs edilmişdi[3]. Onlardan Nuh ibn Mənsurun oğullarından biri - Əbu İbrahim həbsdən qaçaraq Xarəzmə getmiş və ətrafına xeyli adam yığmışdı.

giriş. İstanbul, 1946, s.174-176) və onun ardınca Dunlop oğuzların və oğuzlardan bir qisminin (onları xəzər oğulları adlandırmışdır) xəzərlərə tabe olduqları nəticəsinə gəlmişlər. Halbuki mətnin səthi tədqiqi açıq bir təhrif qarşısında olduğumuzu göstərir. Əvvəla, diqqəti çəkən xüsus budur ki, mətndə oğuz və ya ğuzz adına rast gəlmirik. Bu sözün yerində həmişə xəzər kəlməsi durur (Mirxond. Göstərilən yer). Sadəcə bu xüsus mətnin ciddi qəbul edilməsinə mane olur. Digər tərəfdən xəzərlərə tabe olmaq bir yana, oğuzların tez-tez xəzər ölkəsinə hücum etdiklərini, xəzər kralının onların qarşısına çıxmaq məcburiyyətində qaldığını bilirik. Xəzərlərin İdilin şərqindəki torpaqlara hakim olmaları barədə heç bir qaynaqda qeyd yoxdur. Bundan başqa, "Məliknamə"ni nəql edənlərdən biri olan ibn ül-Əsirdə (IX, s. 190) və "Əxbar üd-dövlət-is-səlcuqiyyə"də (s. 1-2) Xəzər adına rast gəlmirik.

[1] Mirxond, IV, s. 85; Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 2; ibn ül-Əsir, IX, s. 96; Əbülfərəc, s. 293.

[2] Tarixi-güzidə, s. 426.

[3] O.Pritsak. Qaraxanilər, VI, s. 254-255.

Əbu İbrahim öz hacibi* Arslan Balunu Buxara üstünə göndərdi. Arslan Balunun qaraxani hökmdarları üzərində qazandığı mühüm qələbələr nəticəsində Əbu İbrahim Buxaraya gəldi və hökmdarlıq ünvanı olaraq Müntəsir adını aldı. Ancaq o, İlig xanın yürüşü üzündən Xorasana qayıtdı. Orada məğlubiyyətlə nəticələnən bəzi vuruşmalardan sonra 391-ci ildə (1001) oğuz türklərinin köməyini əldə etmək üçün onların yanına gedərək bir müddət orada qaldı. Bu əsnada oğuz yabğusu müsəlmanlığı qəbul etdi və Əbu İbrahim Müntəsir ilə quda oldu; yabğu hər halda qohumlarından birini ona verdi[1]. «Məliknamə»nin ifadəsindən belə anlaşılır ki, bu yabğu Səlcuqun oğlu İsrail imiş. Əgər bu ifadə olmasaydı belə hadisələrin gedişindən də biz bunu başa düşə bilərdik. Gərdizinin bu qeydi oğuzların xeyli hissəsini öz ətrafında toplayan səlcuqluların özlərini ğuzların başı saydıqlarını və içlərindən birini yabğu elan etmiş olduqlarını göstərir. Bu xüsus, daha əvvəl də göstərildiyi kimi, Yeni-Kənddəki oğuz yabğu dövlətinin ortadan qalxmış olması ilə əlaqədar olmalıdır. Beləliklə, səlcuqlular oğuz yabğu dövlətini davam etdirmişlər və onun son sülaləsi olmuşlar. Gərdizinin bu qeydi səlcuqluların həmin ildə islamı qəbul etdiklərini göstərir. «Məliknamə»yə görə, həmin tarixdə Səlcuq sağ idi.Onun deyil, məhz oğlunun yabğu ünvanı daşıması Səlcuqun xeyli yaşlı olması ilə izah edilə bilər. Həmin əsərə görə[2], Səlcuqun dörd oğlu var idi, lakin onlardan birinin yeniyetməlik çağında öldüyü söylənir və adı çəkilmir. Onun İbrahim Yınalın atası Yusif olduğu təxmin edilir[3]. Digər üç oğlunun adları İsrail, Mikayıl və Musa idi. İsrail hər halda qardaşların böyüyü olmalı idi[4]. Bir çox əsərlərdə İsrailin ikinci adının Arslan olduğu bildirilir ki, bu da onun yabğu olduqdan sonra aldığı tituldan başqa bir şey deyil. Türklərdə bunun yayğın bir adət olduğunu bilirik. Biz hətta Toğrul və Çağrı adlarının da ünvan olduğuna şübhə etmirik. Toğrul bəyin adının Məhəmməd, Çağrı bəyin isə Davud olduğu məlumdur[5].

Arslan samani şahzadəsi Əbu İbrahim Müntəsirə kömək etməyi boynuna alaraq onunla birlikdə Səmərqənd dolaylarına gəldi. Səmərqənddən 7 fərsəx (42 km) məsafədə yerləşən Kühəkdə onlar qaraxanilərin sübaşısı Təgin ilə qarşılaşdılar və onu məğlub etdilər[6]. Belə olduqda İlig xan iqamətgahı Öz-Kənddən Səmərqəndə gəldi. Oğuzlar onun ordusunu bir gecə basqını ilə tar-

---

* Hacib orta əsr türk saraylarında təşrifatçı, seremonmeyster, kamerger, baş dəftərdar, münşi vəzifələrini ifa edən məmur idi. Daha dolğun məlumat üçün bax: Ramiz Əskər. Qutadğu Bilig. Bakı, Elm, 2003, 320 s. (tərcüməçi).

1 Gərdizi. Zeyn ül-əxbar, Tehran, 1317, s. 50.

2 Mirxond, göstərilən yer.

3 İbrahim Kafesoğlu. Səlcuqun oğulları və nəvələri. Türkiyyat məcmuəsi, XIII, s. 121.

4 Cami ət-təvarix. Səlcuqlular qismi. Əhməd Ataş nəşri. Ankara, TTK, 1960, s. 5.

5 Səlcuqlu dövrünə aid bəzi kitabə və rəsmi sənədlərdə «Toğrul bəy»in bir ünvan olaraq işlədildiyini də bilirik.

6 Gərdizi. Göstərilən yer.

mar etdilər, sursatını talan edərək 18 komandir də daxil olmaqla bir çoxlarını əsir aldılar[1]. Oğuzların əlinə çoxlu qənimət keçmişdi. Bu hadisə 393-cü ilin şəvval ayında (avqust, 1003-cü il) olmuşdu. Ancaq geri qayıtdıqdan sonra oğuzların İlig xanla vuruşmadan peşman olacaqları, xandan üzr istəyəcəkləri və əsirləri azad etməklə onun könlünü alacaqları haqda şayiə yayıldı. Samani şahzadəsi bu şayiədən çox mütəəssir oldu, 600 atlı və 400 piyada ilə oğuzlardan ayrılaraq buz bağlamış Ceyhunu keçib təkrar Xorasana gəldi. Oğuzlar onu tutmaq üçün dalınca düşdülər, ancaq Ceyhunu keçə bilmədilər[2]. Görünür, oğuzların qayəsi ancaq qənimət əldə etmək imiş. İlig xanın axırda qüvvə toplayaraq onları darmadağın edəcəyindən qorxuya düşərək əsirləri buraxmaq və üzr istəmək surətilə barışmaq istəmişlər. Oğuzların qorxusundan Ceyhun sahilindəki Amulda çox qala bilməyən Əbu İbrahim Xorasanın orasında-burasında özünə yer etmək üçün bir müddət boş yerə uğraşdıqdan sonra təkrar Mavəraünnəhrə qayıtdı və Buxara valisini Debusiyədə məğlub etdi. Bu qələbə nəticəsində Əbu İbrahimin ətrafına böyük bir qüvvə yığıldı ki, onların arasında oğuzlar da az deyildi. Bu oğuzların səlcuqlular olduğuna dair şübhə yoxdur. Əbu İbrahim onların köməyilə qüvvətləndi. Qaraxani hökmdarı samani şahzadəsinin yenidən qüvvətləndiyini və ulduzunun parlamaqda olduğunu görərək hərəkətə gəldi. İki ordu Səmərqənd dolaylarında bir kənddə qarşılaşdılar (394-cü ilin şəvvalında - may, 1004). İlig xan yenə məğlubiyyətə uğrayaraq öz ölkəsinə qayıtdı. Oğuzların əlinə çoxlu qənimət və azuqə keçdi.

Döyüşdən sonra onlar Əbu İbrahimdən ayrılaraq öz yurdlarına döndülər və ələ keçirdikləri qəniməti bölüşdürməklə məşğul oldular. Ölkəsinə qayıtmaq məcburiyyətində qalan İlig xan yenidən əsgər yığaraq Əbu İbrahimin üstünə yürüdü. Məniniyə görə, Urşusanada, Dizək ilə Xavəs arasında vuruşma oldu və bu dəfə samani şahzadəsi məğlub oldu, çünki, deyildiyi kimi, bundan əvvəlki vuruşmada əllərinə saysız-hesabsız qənimət keçən oğuzlar öz yurdlarına qayıtmışdılar. Bu azmış kimi, döyüşün başlayacağı əsnada Əbu İbrahim ordusunda xidmət edən və səlcuqlulardan ayrı bir oğuz bölüyünün başbuğu olan Əbülhəsən Tak 5.000-ə qədər əsgəri ilə qaraxanilərin tərəfinə keçmişdi[3]. Döyüş meydanını tərk edən zavallı şahzadə bu dəfə Ceyhunu sal ilə keçib Xorasana gəldi. Bunu eşidən Mahmud Qəznəvi Əbu İbrahimə qüvvə toplamağa aman vermədən onun üstünə ordu göndərdi. Bu orduya qarşı dayanmağın müşkül olduğunu anlayan samani şahzadəsi əsgər toplaya bilmək ümidi ilə bəzi yerləri dolaşdıqdan sonra Mavəraünnəhrə də-

---

[1] Gərdizi. Göstərilən yer; əl-Ütbi. Tarix ül-Yəməni. əl-Mənini, əl-Fəth, ül-Vəhbi haşiyəsi, Qahirə, 1286, I, s. 336.

[2] Əl-Ütbi. Göstərilən yer. Gərdizi (göstərilən yer) çayı keçərkən buzun sınması nəticəsində oğuzların suda batdığını yazır.

[3] Əl-Ütbi, I, s. 341 (Carbadakaninin farscaya tərcüməsi). Tehran, 1272, s. 231-232. Gərdizi (s. 51) döyüşdə oğuzların iştirakı barədə heç nə demir.

vət olundu və oraya getdi, ancaq vuruşmalardan və daimi yürüşlərdən bezib-usanmış əsgərlərinin dağılması üzündən təkrar Xorasana qayıtdı və ərəb ibn Büheycin obasında qonaq düşdü. Burada Mahruy adlı bir amilin (maliyyə məmuru) təhriki ilə bu bədbəxt samani şahzadəsi ərəblərin əlində can verdi (395-ci ilin rəbiül-əvvəl ayı dekabr-yanvar 1004). Əbu İbrahimin əzab və iztirablarla dolu həyatı beləcə həzin bir şəkildə sona çatdı. Onun ölümü ilə şəksiz, həm Mahmud Qəznəvi, həm də İlig xan dərin bir nəfəs aldılar.

Yuxarıda nəql edilənlərdən belə anlaşılır ki, Əbu İbrahim Müntəsir qaraxanilərə qarşı mübarizədə ancaq oğuzların sayəsində müvəffəqiyyət qazana bilirdi. Ancaq oğuzların qayəsi sadəcə qənimət əldə etmək olduğundan davranışları da buna uyğun idi. Mavərünnəhrdəki Qaraxani hökmdarı İlig xan Əbu İbrahim adlı bəlanın ortadan qalxmasından sonra Xorasanı da öz ölkəsinə birləşdirməyi planlaşdırmışdı. O, Mahmud Qəznəvinin Hindistanda olmasından istifadə edərək 1006-cı ildə sübaşı Təginin başçılığı altında bir ordu göndərdi. Lakin Mahmud Qəznəvinin özünü yetirməsi ilə sübaşı Təgin heç nəyə müvəffəq ola bilmədi, Mavəraünnəhrə qayıtmaq üçün Səraxs yolunu seçdi. Ancaq oğuz əmiri Alhamas ibn Tak onun qabağını kəsdi. İki tərəf arasında çox şiddətli çarpışma oldu və hər iki tərəfdən çoxlu adam ölməklə bərabər nəticədə sübaşı Təgin qalib gəldi, oğuz əmiri əsir alındı və iki şaqqa edilmək surətilə öldürüldü[1]. Bu oğuz bəyinin adı əl-Ütbinin farscaya tərcüməsində Möhsün bin Tak şəklində çəkilir[2]. Onun Əbu İbrahimin İlig xanla son vuruşmasında 5.000-ə qədər əsgərlə qaraxani səflərinə keçən Əbülhəsən Tak ilə eyni şəxs olduğu, yoxsa onun oğlu olduğu bilinmir.

İki il sonra qəznəvilərlə qaraxanilər arasında baş verən və qəznəvilərin qələbəsi ilə nəticələnən Bəlx vuruşmasında Sultan Mahmudun ordusunda oğuzlardan bir zümrə vardı[3]. Bunlar, şübhəsiz, yuxarıda adı çəkilən oğuz bəyinin adamları idi. Bu qeydlərin bizim üçün mühüm olan cəhəti səlcuqlulardan əvvəl oğuzların (çox olmasa da) bir qisminin Xorasana köçməsi və orada yaşamasıdır. Mavəraünnəhr hökmdarı Qaraxani Nəsr ibn İlig 1013-cü ildə vəfat etdi. Yerinə keçən qardaşı Mənsur Arslan İlig ünvanı daşımağa başladı və sonralar xanədanın ən qüvvətli hökmdarı oldu. Onun hakimiyyəti Talas, Şaş (Daş-Kənd), Tünxas, Binxas, Fərqanə, Öz-Kənd, Xocənd, Uşrusana, Səmərqənd və Buxarada tanınırdı. Lakin 411-ci ildə (1020/1021) xanədana mənsub olan Əli Təgin Buxaraya hakim oldu və öz sərhədlərini genişləndirməyə başladı[4]. Bu tarixdə Səlcuqun oğlu Arslan yabğunun hakimiyyəti altındakı səlcuqluların Cənddən aşağı enərək Buxaranın 20 fərsəx şimalında yerləşən Nur yörəsində yaşadıqlarını görürük. Səlcuqluların Cən-

[1] əl-Ütbi, II, s. 79.
[2] Carbadakani, s. 294, ona istinadən Cami-ət-təvarix, II, cüz, 4 s. 150.
[3] Əl-Ütbi, II, s. 84; Carbadakani nəşri, s. 294.
[4] İbn ül-Əsir, IX, s. 197. O. Pritsak. Qaraxanilər, VI, s. 255-256.

di tərk edərək aşağıya - Buxara bölgəsinə gəlmələrinin Əli-Təgin ilə əməkdaşlıqla deyil, yeni bir təzyiqlə əlaqədar olduğu anlaşılır. Çünki 1030-cu illərdə Cənd ətrafının səlcuqluların düşməni Şah Məlikin əlində olduğu məlumdur. Qəti şəkildə söyləmək mümkündür ki, səlcuqluları Cənddən Nur bölgəsinə enməyə Şah Məlik məcbur etmişdir. Səlcuqluların Cənd ilə əlaqəsi yalnız ataları Səlcuqun qəbrinin orada olması kimi mənəvi bir bağdan ibarət oldu[1].

Səlcuqun nə vaxt öldüyü də məlum deyil[2]. Həmin əsərlərə görə, Mikayıl atası Səlcuqdan əvvəl bir döyüşdə vurularaq ölmüş (ehtimal ki, qıpçaqlarla vuruşmada), onun oğulları Toğrul bəyi və Çağrı bəyi Səlcuq özü saxlayıb böyütmüşdür.

Əli Təgin ilə Arslan yabğu arasında qüvvətli bir ittifaq mövcud idi. Hətta O.Pritsak[3] Əli Təginin Buxaranı Arslan yabğunun köməyilə ələ keçirdiyini qeydsiz-şərtsiz qəbul edir. Qaynaqlarda bu xüsusda heç bir dəlil yoxdursa da, bunu ehtimal etmək mümkündür. Çünki bir az sonra Əli Təginin Arslan xanın (Mənsur ibn Əli) qardaşı İliglə (Məhəmməd ibn Əli) qalib gəldiyi vuruşmada Arslan yabğu onun müttəfiqi olmuş və hər halda zəfərin qazanılmasında mühüm rol oynamışdır.

Qaraxanilərin böyük xaqanı Mənsur ibn Əli (Arslan İlig) 415-ci ildə (1024/1025) hökmdarlıqdan vaz keçərək yerini Yusif ibn Haruna verdi. O, Qadir xan ünvanını daşıyırdı. Qardaşları Əhməd və Əli Təgin ona qarşı birləşdilər. Əhməd özünü böyük xaqan elan etdi və Balasağun, Xocənd və Fərqanəyə hakim oldu. Buna görə Qadir xan Mahmud Qəznəvi ilə sazış bağladı. Mahmud Qəznəvi də tez-tez torpaqlarına təcavüz etdiyi üçün Əli Təginin qonşuluğundan narazı idi. Buna görə, Mahmud Qəznəvi 416-cı ildə (1025) Ceyhunu keçərək Mavəraünnəhrə girdiyi zaman Yusif Qadir xan da Kaşğardan gəldi. İki böyük hökmdarın gəlişi nəticəsində Əli Təgin bozqırlara qaçdı. Onun müttəfiqi Arslan da eyni cür hərəkət etmişdi. Sultan Mahmud Hacib Bilgə Təginin başçılığı altında Əli Təginin üstünə əsgər göndərdi. O, Əli Təkinin xatunu, qızları və kibitkalarını ələ keçirib geri döndü.

Arslan yabğuya gəlincə, sultap vədlərdə bulunaraq onu ordugahına gəlməyə dəvət etdi. Dövrün ən böyük hökmdarı ilə görüşmək sayəsində şöhrətinin artacağını və qüdrətinin çoxalacağını sanan Arslan yabğu təxminən 300 nəfərlik məiyyəti ilə Mahmud Qəznəvinin ordugahına gəldi. Burada Arslan yabğunun qüdrətinin səviyyəsini öyrənmək istəyən Sultan Mahmudun verdiyi sualla bağlı məşhur danışıq oldu. Bu müsahibəni təfsilatı ilə

[1] Kahen (Məliknamə, s. 45) onun ölüm tarixinin 400-cü il (1009/1010) olduğunu irəli sürür.
[2] Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 2: ibn ül-Əsir, IX, s. 197.
[3] Qaraxanilər, s. 256.

nəql edən Zahir Nişapurinin sözlərindən[1] bəlkə də təxmin etmək olar ki, Arslan yabğunun üstündə bir yay və üç ox vardı.

1038-ci ildə Nişapura girən Toğrul bəyin qolunda gərilmiş bir yay, belində isə üç ox olmuşdu ki[2], bunun yabğuluq əlaməti olduğu şübhəsizdir. Bu müsahibəyə görə, Xarəzmdə Xəzərə çox yaxın olan Balxan dağları yörəsində mühüm bir türkmən elatı yaşayır[3]. Halbuki X əsrdə bu bölgədə oğuzların yaşadığına dair heç bir qeydə rast gəlmirik.

Arslanın xeyli qüdrətli olduğunu görən Sultan Mahmud hər halda ondan öz ölkəsinə dəyə biləcək zərərin qarşısını almaq və Əli Təgini onun köməyindən məhrum etmək üçün yabğunu hiylə ilə tutdu. Arslan əvvəlcə Qəznəyə, oradan isə Hindistandakı Multan şəhəri yaxınlığındakı Kalincar qalasına göndərilib dustaq edildi. Beləliklə, heç gözləmədiyi bir hiylənin qurbanı olan Arslan yabğu həyatının sonuna qədər bu qalada qaldı. Bəzi müəlliflərə görə[4], Arslan yabğu qardaşı uşaqlarının Xorasanda qazandıqları ilk müvəffəqiyyətlərə qədər yaşamış, hətta dustaq olduğu qaladan gizlincə xəbərlər göndərərək onları qəznəvilərlə mübarizəni davam etdirmək xüsusunda təşviq etmişdir[5].

Arslan yabğu bizim üçün Türkiyə səlcuqlularının atası olması baxımından əlamətdardır. Onun iki oğlunu tanıyırıq: Qutalmış və Rəsul Təgin. Ehtimal ki, sonuncu ad qaraxanilərin bir şahzadəsindən iqtibas edilmişdir, çünki oğuzların təgin ünvanı daşıdıqları görülməmişdir. Zahir Nişapuri atasını xilas etmək üçün Qutalmışın Hindistana qədər getdiyini yazır[6].

Arslan yabğunun Mahmud Qəznəvi tərəfindən həbs edilməsinin səlcuqlular arasında feli bir etirazla qarşılandığına dair məlumat yoxdur. Bu xüsus Zahir Nişapurinin[7] dediyi kimi girişəcəkləri hər hansı təşəbbüsün aqibətindən qorxmalarından daha çox aralarında birlik olmaması ilə əlaqədardır. Hər halda Arslanın oğulları da bu əsnada yetişkin yaşda deyildilər. Çünki nə onlar, nə də əmisi uşaqları Arslan yabğunun buyruğundakı oğuz bölüyünə və ya bölüyün mühüm bir qisminə hakim ola bilməmişlər. Oğuzlardan Arslan yabğuya tabe 4.000 çadırlıq bir elatın başbilənləri onun dustaq edilməsindən sonra Mahmud Qəznəviyə öz bəylərindən, yəni səlcuqlulardan zülm gördüklərini və əziyyət çəkdiklərini söyləyərək Xorasana köçmək üçün icazə verməsini xahiş etdilər. Onlar Xorasanda yurd salacaqları təqdirdə özlərini orada rahat hiss edəcəkləri kimi, bunun sultan üçün də, Xorasan üçün də fayda

[1] Rəşidəddin. Cami ət-təvarix. Zikri-tarixi-aliyi-Səlcuq, s. 8-9. Bu barədə "Məliknamə"nin susması çox mənalıdır.
[2] Beyhaki, s. 553.
[3] S. 8.
[4] Gərdizi, s. 66; Rəşidəddin, II, cüz 5, s. 8-11; ibn-ül-Əsir, IX, s. 157, 197, 199.
[5] Rəşidəddin, II cüz, 5, s. 10-11; ibn-ül-Əsir, IX, s. 199.
[6] Rəşidəddin, II cüz, 5, s. 11.
[7] S. 10.

gətirəcəyini, ordusunun qüvvəsini artıracağını da söyləməyi unutmamışlar. Oturaq camaata və seçmə qoşuna əsaslanan islam dövlətlərində köçəri ünsürə zəngin bir gəlir mənbəyi kimi baxırdılar. Mahmud Qəznəvi də məhz bu məqsədlə vəzir və əmirlərin etirazlarına fikir verməyərək onların Xorasana köçmələrinə icazə verdi. 4.000 çadırdan ibarət bu oğuz elatı çoluq-çocuqları, davarları ilə Xorasana köçərək Səraxs, Fəravə və Abivərd çöllərində yurd saldılar. Onların başında Yağmur, Buka, Göktaş və Qızıl adlı bəylər vardı[1]. Bu oğuzların, qeyd olunduğu kimi, Xorasana öz arzuları ilə köçdükləri şəksizdir. Arslanın ölümündən sonra onların səlcuqlulara bağlı qalmaq istəmədikləri də bir gerçəkdir. Çünki onlardan mühüm bir qisminin, daha sonralar da səlcuqlulara tabe olmaqdan qaçındıqları görüləcəkdir. Bunun səbəbi nədir?

Gərdizinin yazdığı kimi onlar səlcuqlu ailəsindən əsla unuda bilməyəcəkləri dərəcədə zülm görmüşdülərmi? Bəlkə sadəcə müstəqil yaşamaq üçün belə hərəkət etmişlər? Bu barədə qəti bir hökm vermək mümkün deyil. 4.000 çadırlıq bir oğuz elatının Xorasana getməsi, şübhəsiz, səlcuqluların gücünü azaltdı, onları zəif vəziyyətə saldı. Onların tarixinə keçməzdən əvvəl bu 4.000 çadırlıq oğuz elatından bəhs etmək daha münasibdir.

Mahmud Qəznəvinin Arslan yabğuya bağlı 4.000 çadırlıq oğuz elatının Xorasana köçməsinə icazə verməsi başda vəzir olmaq üzrə dövlət ərkanı və komandanların etirazına səbəb olmuşdu[2]. Hətta onlardan Tus valisi Arslan Cazib ox ata bilməmələri üçün onların baş barmağını kəsdirməyi Mahmuda tövsiyə etmişdi. Sultan Tus valisinin bu sözlərinə heyrət edərək ona «sən mərhəmətsiz, daş ürəkli bir adamsanmış» cavabını vermişdi[3].

Mahmud Qəznəvi 418-ci ildə (1027) Hindistana səfərindən qayıdarkən (ilin sonunda) Nəsa, Bavərd (Abivərd) və İsfərayi camaatından bir çox adam ona türkmənlərin təcavüzündən şikayət etdi. Buna görə sultan Tus valisi Arslan Cazibə məktub yazaraq türkmənlərin təcavüzlərinin qabağını almağı əmr etdi. Tus valisi hərəkətə keçdisə də müvəffəqiyyət əldə edə bilmədi. Türkmənlər onun əsgərlərindən xeyli qırıb, çoxunu da yaraladılar. Arslan Cazib bir neçə dəfə onların üstünə getsə də, heç bir şey edə bilməmiş, bu səbəbdən xalqın şikayətlərinin arası kəsilməmişdi. Sultan məktub yazaraq onu danladı və acizlikdə ittiham etdi. Tus valisi isə türkmənlərin çox qüvvətləndiyini, onların öhdəsindən ancaq sultanın gələ biləcəyini, hökmdar gəlməsə fəsadlarının artacağını və qarşısını almağın daha çətin olacağını bildirdi.

---

[1] Gərdizi, s. 67; ibn ül-Əsir, s. 157, 197; Cüzcani (Beyhakidən nəqlən). Təbəqati-Nasiri. Əbdül Heyy Həbib Qəndəhari nəşri, I, s. 290-292.

[2] «O gün mən, Altın-Taş və Arslan Cazib və başqaları çox dedik, xeyri olmadı» (Beyhaki, s. 266).

[3] Gərdizi, s. 67. Arslan Cazibin bu təklifi o qədər məşhur olmuşdur ki, onu bütün əsərlərdə görmək mümkündür. Gərdizi və Beyhaki kimi Qəznə salnaməçiləri də həmin vaxtdan etibarən oğuzlardan artıq sadəcə türkmən deyə bəhs edirlər.

Mahmud Qəznəvinin valinin bu sözlərindən canı sıxılsa da əsgər toplayaraq 419-cu ildə (1028) Qəznədən yola çıxdı, Bust yolu ilə Tusa getdi və orada Arslan Cazibdən baş vermiş hadisələr və hazırkı vəziyyət haqda məlumat aldıqdan sonra məiyyətinə bir neçə sərkərdə verərək onu oğuzların (türkmənlərin) üstünə yolladı. Arslan bu dəfə Fəravə karvansarası (rabat) yaxınlığındakı vuruşmada onları darmadağın etdi. Mənbəyə görə (Gərdizi) oğuzlardan 4.000 adam öldürülmüş, bir çoxu əsir alınmış, qalanları isə Balxan və Dehistan tərəfə qaçmışdılar[1].

Bu hadisəni bir il sonra, yəni 420-ci ildə (1029) qələmə alan ibn ül-Əsir amillərin (vergi məmurlarının) oğuzlara (əl-ğuzz) zülm etdiklərini, onların mallarını, çoluq-çocuqlarını əllərindən aldıqlarını söyləməklə[2] oğuzların camaata qarşı təcavüzünün səbəblərini göstərir. Dövlətə itaət edib vergi verən köçəri ünsürün hər yerdə əksərən vergi məmurları və o bölgənin idarəçiləri tərəfindən sırf öz mənafeləri naminə təzyiqə məruz qaldığını bilirik. Bunun əvəzində köçərilərin əllərinə kiçicik bir fürsət düşən kimi oturaq xalqın əkinlərini mal-qaraya yedirtməsi, heyvanlarını qəsb etməsi, hətta onlara hücum etməsi də faktdır.

Bu hadisədən sonra oğuzların (türkmənlərin) hücumları xeyli azaldı[3]. Salnaməçilərin söylədiyi kimi, oğuzların böyük əksəriyyəti Balxan dağlarına getmişdilər[4]. Ertəsi il (420-1029) büveyhilərin zəif bir vəziyyətdə olduqlarını görən Mahmud Qəznəvi Rey şəhərini aldı və oranı idarə etməyi oğullarından Məsuda tapşırdı. Bir il sonra isə dövrün bu ən qüdrətli hökmdarı vəfat etdi (421-1030).

Mahmud Qəznəvinin ölümü oğuz türklərinin tarixi baxımından çox mühümdür. Çünki o, göründüyü kimi, oğuz türklərinin hərəkət və fəaliyyətinin qabağını ala biləcək və onlardan gələcək təhlükəni önləyə biləcək qüdrətdə bir hökmdar idi. Oğlu və xələfi Məsud isə eyni qüdrəti göstərə bilməmiş və oğuz türklərinin dünya miqyasında böyük bir dövlət qurmalarına mane ola bilməmişdir.

Mahmud Qəznəvinin ölümündən sonra oğlu Məhəmməd taxta çıxarıldı. İsfahanda olan Məsud qardaşının hökmdarlığını tanımadı və taxtı əldə etmək üçün Reydən Xorasana yürüş etdi. Ordusunun sayını artırmaq üçün Məsud oğuz bəylərindən Yağmuru da xidmətinə götürdü. Asanlıqla hökmdar olunca Yağmurun xahişi üzrə Balxandakı oğuzların Xorasana qayıtmalarına icazə verdi, onların bəyləri Qızılı, Gök-Taşı və Bukanı da öz xidmə-

[1] Gərdizi, s. 70-71; Beyhaki, s. 68.
[2] IX, s. 157, 197.
[3] Gərdizi, s. 71.
[4] İbn-ül-Əsir (IX, s. 157) oğuzlardan 2.000 çadırlıq bir elatın İsfahana getdiyini, Mahmud Qəznəvinin İsfahan hakimi deyləmli Kakuyə Əlaüddövlədən (1007-1041) oğuzları və ya onların başlarını ona göndərməyi tələb etdiyini, bunu öyrənən oğuzların oradan uzaqlaşaraq Azərbaycana getdiklərini yazır.

tinə qəbul etdi. Ancaq Qəznəvi hökmdarı bu bəylərin üstünə öz adamlarından Xumar-Taşı rəis təyin etməyi də unutmadı. Atasının ölkədən çıxardığı bu oğuzları Məsudun təkrar xidmətə qəbul eləməsi dövlət adamları tərəfindən xatalı bir hərəkət kimi qiymətləndirilmişdir[1].

Məsud taxta çıxar-çıxmaz Mərkan hakimi asi İsanın yerinə Əbül-Əsgəri keçirmək üçün oraya bir ordu göndərdi. Bu ordunun tərkibində Xumar-Taşın ümumi sərkərdəliyi, Qızıl Buka və Gök-Taşın komandanlığı altında oğuzlar (türkmənlər) də vardı. Qəznəvi ordusu İsanın qoşunlarını məğlub edərək özünü öldürdü və Əbül-Əsgər Mərkan hakimi oldu (421-ci ilin sonu - 1030)[2].

Gərdiziyə görə[3], ertəsi il (422-1031) oğuzların xalqa zülm etdiyi barədə Səraxs və Abivərddən şikayətlər gəlmişdi. Əbu Sə‘d Əbdüsün komandanlığı altında Məsud bir ordu yolladı. Oğuzlar (türkmənlər) Fəravədə bu ordu ilə vuruşdular. Çoxlu adam öldü. Oğuzlar (türkmənlər) arvad-uşağı Balxana göndərərək vuruşmaqda davam etdilər. Hər gün bölük-bölük gəlir və qəznəvi ordusu ilə döyüşürdülər. Gərdizi bu çarpışmaların nəticəsi barədə heç nə yazmır. Beyhaki isə bu hadisədən ümumiyyətlə söz açmır. Ehtimal ki, bu türkmənlər Yağmur bəyin adamları idilər. Çünki aşağıda bəhs ediləcəyi üzrə, Nişapurda adlarını bildiyimiz böyük bəylərdən yalnız o öldürülmüşdür. Üstəlik, Mərkana gedən bəylər arasında da Yağmurun adına rast gəlmirik.

Sultan Məsud 423-cü ildə (1031/1032) öz əmiri Taş-Fərraşı Rey valiliyinə təyin etmişdi. Ona verdiyi buyruqlar arasında oğuzların başçıları Yağmur, Qızıl, Buka və Gök-Taşın yaxalanması əmri də vardı. Oğuzları yenə Xumar-Taş idarə edəcək və onlar yenə Reydə dövlətə xidmət edəcəkdilər. Ancaq gerçəkdən çox ağıllı və dərrakəli bir vəzir olan Xacə Əbu ün-Nəsr Əhməd hökmdarın bu qərarına açıq şəkildə etiraz etsə də, Məsud ona qulaq asmadı və türkmənlərin də şəxsən öz bəyləri haqqında bu cür ölçü götürülməsini istədiklərini iddia etdi. Ancaq bu xüsusda ona qərar verdirən əsil səbəb həmin bəylərin beynində fəsad daşıdıqları fikrində olması idi[4].

Həm Beyhakinin, həm də ibn ül-Əsirin sözlərindən anlaşıldığına görə[5], bu bəylərdən ancaq Yağmur öldürülmüş, Qızıl, Buka və Gök-Taş haqqında əmr naməlum səbəbdən tətbiq edilməmişdir. Yağmur Nişapurda 50 nəfərə yaxın digər əsilzadə ilə birlikdə öldürülmüşdü (423-1031/1032). Onların Yağmurun məiyyəti, ikinci və üçüncü dərəcəli digər rəislər olduqları anlaşılır, öldürülmələrinə isə oğuzların 422-ci ildə (1031) Səraxs və Bavərd ca-

[1] Beyhaki, s. 68.
[2] Beyhaki, s. 69, 242-245.
[3] S. 78.
[4] Beyhaki, s. 266.
[5] Beyhaki, s. 372, 397; ibn ül-Əsir, IX, s. 158.

maatına hücumları və Əbu Səd Əbdüsün komandanlığındakı qəznəvi ordusuna qarşı döyüşmələri vəsilə olmuşdur.

Təxmin etmək olar ki, Məsud sonra vəzirinin də müxalifətini nəzərə alaraq öz qərarının Mərkan səfərində yaxşı xidmətlər göstərən Qızıl, Buka və Gök-Taş barədə tətbiq edilməsindən vaz keçmişdir. Yağmurun öldürülməsinin bu bəylərə ciddi təsir etmədiyi anlaşılır. Çünki onlardan bəziləri yenə Xumar-Taşın idarəsində və Taş-Fərraşın məiyyətində olmaq üzrə Reyə getdilər. Onların başında hər halda ayrılmaz dostlar olan Kök-Taş və Buka bəy dururdular. Öldürülən Yağmurun oğlu, hətta Qızıl da bərəkətsiz, ancaq oğuzlar üçün hələ də təhlükəsiz yurd vəzifəsini görən Balxan bölgəsində idilər. Bu əsnada bir bölük türkmən də qəznəvilərin Hindistan komandanı Yınal-Təginin ordusunda xidmət edirdi[1].

Taş ilə birlikdə Reyə gedən türkmənlərin sayı 3-4 min nəfər idi. Səlcuqlu oğuzlarından fərqləndirmək üçün Reyə gedən bu oğuzları İraq oğuzları (və ya türkmənləri) adlandırmışlar. İraq türkmənləri həmən ilin sonlarında[2] Qəzvinin geri alınmasında iştirak etmişlərsə də[3], Balxan dağında bulunan bu Yağmur oğlunun və digərlərinin öz atalarının qisasını almaq üçün hərəkətə gəldiklərinin öyrənincə tövrləri dəyişmiş və əndişə oyadacaq şəkildə itaətsizlik göstərməyə başlamışdılar. Gerçəkdən Sultan Məsuda Yağmurun oğlunun (qaynaqlarda adı heç göstərilmir) və öldürülən digər adamların oğullarının çoxlu türkmən ilə Balxan dağından çıxaraq Xorasanda camaata hücum edəcəkləri xəbəri gəlmişdi (424-mart, 1033). Ona görə qəznəvi hökmdarı sərhəd bölgələrini qorumaq üçün Əli Dayə və Hacib Bilgə Təginin komandanlığı altında qoşun göndərmişdir[4]. Bu qoşun Yağmur oğlunun hücumlarının qarşısını, deyəsən, almışdı.

Sultan Məsud İraq oğuzlarının rahat durmadıqlarını eşitcək Rey şəhrəmini Tahirə məktub yazaraq Amid Əbu Səhl Həmdəvi komandanlığında dərhal qoşun göndərəcəyini bildirmiş, yoxlama keçirmək bəhanəsilə türkmənləri yaxalamağı əmr etmişdi[5]. Lakin vəzir və sahib-divani-risalət Əbu Nəsr Zəvzəni Məsudun ciddi çaxnaşmalara səbəb olacaq yanlış tədbirə əl atdığı fikrində idilər. Bu fikir Əbu Nəsr Zəvzəninin beyninə o qədər qüvvətlə girmişdi ki, türkmənlər tərəfindən yağma ediləcəyi qorxusu ilə Cüzganda (Cüzcanda) saxlanan 10 min qoyununu dərhal satdırmışdı[6]. Ancaq Məsudun bu əmri də tətbiq edilmədi, çünki Balxan oğuzları bu əsnada (425-1034) Xorasanı işğal etdilər. Mərv, Səraxs və Bavərddəki qəznəvi sərkərdələri onlara heç nə edə bilmirdilər. Xorasanın divan rəisi Suri isə Buşt şəhə-

[1] Beyhaki, s. 402, 404, 433.
[2] Beyhaki, s. 361.
[3] Yenə orada, s. 397.
[4] Yenə orada, s. 372.
[5] Yenə orada, s. 398.
[6] Beyhaki, s. 399.

rindəki hökmdara təcili olaraq Xorasana gəlməyi məsləhət gördü. Suri türkmənlərə Mavəraünnəhr hökmdarı Əli Təginin kömək göstərdiyini, xarəzmşah Harunun isə onları qızışdırdığını bildirdi[1]. Məsud bu xəbərdən çox mütəəssir oldu. Herata varid olanda türkmənlərin əməlləri haqqında yeni xəbərlər eşidərək Səraxsa doğru hərəkət etdi. Məsudun Səraxsa gəlməsilə əlaqədar türkmənlərin çoxunun müvəqqəti olaraq Balxana doğru çəkildikləri bilinir. Ancaq Məsud oraya çatanda bu dəfə Mavəraünnəhr türkmənlərinin Termez və Qubadiyana hücum etdikləri və Termez valisi bəy Təgini öldürdükləri xəbərini eşitdi. Beləliklə, oğuzlar üç tərəfdən qəznəvi dövlətinin başına oyun açırdılar. Məsudun Səraxsa gəlməsi üzündən ürkmənlərin bir bölüyü Mərvə, bir bölüyü isə Fərqanə tərəflərə getmişdi. Mərv tərəfə gedənlər oranın valisi Anuş Təgin ilə vuruşdular, ancaq məğlub olaraq çölə qaçdılar. Döyüşdə oğuzlardan 200 nəfər öldü, 24 nəfər isə əsir düşdü. Bu zəfərdən çox sevinən Mahmud göndərilən əsirləri fillərə tapdatmaq vəhşətini göstərərək bayram etdi[2] (səfər, 426-dekabr, 1034). Fərqanədəki türkmənlərə gəlincə, onların üzərinə əmir-axur Piri, Əbdüs və digər bəzi əmirlərin komandanlığı altında böyük bir ordu göndərilmişdi. Bu ordunun vəzifəsi türkmənləri Balxana qədər qovmaq idi[3].

## SƏLCUQLULARIN XORASANA GƏLMƏSİ

Sultan Məsud 426-cı ilin rəcəb ayında (may, 1035) Cürcanda olduğu zaman onu hədsiz dərəcədə mütəəssir edən bir xəbər oldu. Bu xəbər səlcuqluların Xorasana gəldiklərini bildirirdi. Arslan yabğu Mahmud Qəznəvi tərəfindən 1025-ci ildə dustaq edildikdən sonra ona bağlı 4.000 çadırlıq oğuz elatı sultanın icazəsi ilə Xorasana gəlmişdi. Onlar Arslan yabğudan sonra səlcuqlu ailəsinə tabe olmaq istəməmiş, Balkan oğuzları ilə İraq oğuzlarının bir qismini təşkil etmişlər. Səlcuqlular onlara daim öz üsyankar təbəələri gözü ilə baxmışlar.

Mavəraünnəhrdə qalan səlcuqlu ailəsi Arslan yabğunun Mavəraünnəhr hökmdarı Əli Təginlə qurduğu dostluğu davam etdirdilər[4]. Olduqca ağıllı bir

---

[1] Yenə orada, s. 431, 433

[2] Yenə orada, s. 436-440

[3] Beyhaki, s. 441.

[4] "Məliknamə"də hələ Arslan yabğunun sağlığında Mavəraünnəhr hökmdarı İligin öz hakimiyyəti üçün təhlükə hesab etdiyi Çağrı və Toğrul bəylərin üstünə hücum etdiyi və onları öz qövm və qəbilələri ilə birlikdə Buğra xana sığınmağa məcbur etdiyi qeyd olunur (Mirxond, IV, s. 85-86; ibn ül-Əsir, IX, s. 187). Bəzi tədqiqatçılar bu münasibətlə Çağrı və Toğrul bəyin bir müddət Talas vadisində yaşadıqları fikrini irəli sürsələr də, bunu qəbul etmək qeyri-mümkündür. Çünki bəhs edilən bu hadisə bütün cəhətlərilə mədhiyyə mahiyyəti daşıyır. Eləcə də bu hadisədən sonra Çağrı bəyin Mavəraünnəhrdən 30 atlı ilə çıxaraq İranı bu başdan o başa keçib Bizans sərhəddində bir müddət vuruşduqdan sonra təkrar Mavəraünnəhrə qayıtması barədə əhvalatın doğruluğu Kahenin də dediyi kimi ("Məliknamə", s. 51)

hökmdar olan Əli Təgin, Beyhakinin açıqca yazdığı kimi[1], səlcuqluların özü üçün böyük dayaq olduğunu bilirdi. Məsələn, xarəzmşah Altun-Taş ilə Maveraünnəhrdəki Dəbusiyyə vuruşmasında (423-1032) Əli Təginin ordusunda səlcuqlular da var idi[2]. Səlcuqlulara gəlincə, onlar da öz düşmənlərinə qarşı mübarizədə qaraxani hökmdarlarının köməyinə güvənirdilər. Yabğuluğun, yəni oğuz dövləti rəisliyinin Arslandan sonra Səlcuq oğlu Musanın oğlu Yusifə keçdiyi bilinir. Bu xüsus, yəni atası Musa hələ sağ ikən yabğu olmaq şübhəsiz ki, Yusifin şəxsi məziyyətləri ilə bağlı idi. Yusif yabğuluq ünvanı olaraq İnanc adını daşıyırdı. Ancaq 426-cı ilin (1034/1035) qışında Əli Təginin ölümü ilə vəziyyət dəyişdi. Əli Təginin kiçik yaşlı iki oğlu qalmış, iqtidar isə onun sərkərdəsi Konuşun (yaxud Tonuşun) əlinə keçmişdi. Bu sərkərdə ilə səlcuqlular arasında düşmənçilik yarandı[3]. Səlcuqlular bu səbəbdən Nur yörəsində qala bilməyəcəklərini başa düşərək dostları xarəzmşah Harunun ölkəsinə getdilər. Əslində onlar Harunun atası Altun-Taş dövründən bəri qışlamaq üçün hər il Xarəzmə gedirdilər. Bu dəfə isə onlar geri qayıtmamaq üzrə gedirdilər. Sultan Məsudun tabeçiliyindən xilas olmuş xarəzmşah Harun Xorasanı ələ keçirmək üçün səlcuqlulardan istifadə etmək istəyirdi.

Səlcuqluların Mavəraünnəhrdən Xarəzmə köçmələrini Cənd hökmdarı Şah Məlik də eşitmişdi. Daha əvvəl də dediyimiz kimi, nə Beyhakidə, nə də digər əsərlərdə Şah Məlikin qövmi mənşəyi barədə heç bir məlumat yoxdur. Düzdür, «Cami ət-təvarix» Şah Məliki son oğuz yabğusunun oğlu kimi

---

xeyli şübhəlidir. Hətta bunun tamamilə əfsanə olduğunu söyləmək mümkündür. Çünki mədhiyyə, yaxud əfsanə xarakteri daşıyan bu hadisə digər mənbələr və əsərlər tərəfindən təsdiq olunmur. Hətta "Əxbar üd-dövlət is-səlcuqiyyə" və ibn ül-Əsir bu hadisədən bəhs etmirlər; ehtimal ki, bu hal həmin əsərlərin istifadə etdikləri "Məliknamə" nüsxəsində bu hadisənin olmamasilə bağlıdır. Digər tərəfdən, İraq türkmənlərindən əvvəl Bizans sərhəddində başqa türkmənlərin olması barədə əlimizdə qəti məlumat yoxdur və olması da ehtimal edilmir. Belə olduğu halda bəzi tədqiqatçılar bu hadisənin doğruluğuna şübhə etməmiş və bu barədə əsərlər yazmışlar (İbrahim Kafesoğlu. Şərqi Anadoluya ilk səlcuqlu axını və onun tarixi əhəmiyyəti. Körpülü ərmağanı. Ankara, 1953, s. 259-274) və ya araşdırmalarında ona mühüm yer vermişlər (M.Köymən. Böyük Səlcuqlu imperiyasının qurulması. I, s.170-178). Mədhiyyə mahiyyətində bir əsər olan "Məliknamə"nin XI əsr səlcuqlu tarixinin etibarlı bir qaynağı hesab olunmayacağı qənaətindəyik. Hətta bu vəsilə ilə "Məliknamə"nin bizə yanlış təlqinlər aşılamaqdan başqa bir şeyə yaramadığı fikrində olduğumuzu da əlavə edək. Əgər bu əsəri etibarlı mənbə saysaq, ondakı biabırçı xətaları təkrar etməkdən başqa heç nəyə nail ola bilmərik.

[1] S. 445.

[2] Beyhaki, s. 343.

[3] Beyhaki, s. 470, 682. Səlcuqlularla Əli Təginin oğulları arasında çarpışmalar olduğu haqda qaynaq heç nə demir. "Məliknamə"də adı çəkilən İnanc Bəyğu, yəni Yusif ibn Musa bu zaman artıq öldürülmüş olmalı idi. Həmin hadisə nəticəsində bu ünvan atası Musaya keçmişdir. Yəni orada səlcuqluların öldürdüyü iddia edilən Alp Qara Beyhakidə adı çəkilən Konuş (Tonuş) ola bilər. Alp Qara hər halda onun ünvanı idi.

göstərir, lakin biz bu xüsusda tərəddüd edirik. Şah Məliklə səlcuqlular arasında dərin bir düşmənçilik vardı. Hətta bir az əvvəl Cənddən səlcuqluları məhz onun uzaqlaşdırdığı fikrində olduğumuzu da bildirmişdik. Ancaq səlcuqluların da ona çox böhranlı günlər «bəxş etdiyi» anlaşılır. Buna görə səlcuqluların Xarəzm torpaqlarına gəldiyini eşidən Şah Məlik böyük bir ordu ilə çöl yolundan sürətlə Xarəzmə daxil oldu və dan yeri ağaranda səlcuqlulara basqın etdi (zilhiccə, 425 - oktyabr-noyabr, 1034). Səlcuqlular bu qəfil hücum nəticəsində ağır itkiyə məruz qaldılar. Qaynaq bu basqında 7-8 min adamın öldürüldüyünü, çoxlu qadın və uşağın əsir alındığını, xeyli atın ələ keçirildiyini yazır[1]. Səlcuqlular acınacaqlı bir vəziyyətdə Ceyhunun o biri sahilinə keçdilər və Rabati-Nəməkdə düşərgə saldılar[2]. Onların atlarının yəhəri belə yox idi, özləri də o qədər pərişan vəziyyətdə idilər ki, yaxınlıqdakı bir kəndin gəncləri onları az qala öldürəcəkdilər. Dostları xarəzmşah bu hadisədən çox mütəəssir oldu və onlara təsəlli verdi.

Səlcuqlular gerçəkdən böyük fəlakətə uğramışdılar. Şah Məlikin şiddətli basqını nəticəsində çoxlu adamları ölmüş, arvad-uşağın bir qismini, kibitkalarının və davarlarının çoxunu da düşmən alıb aparmışdı. Ancaq buna baxmayaraq onlar bu fəlakətin ağırlığı altında əzilmədilər, tez özlərini topladılar. Qısa bir zamanda başlarına çoxlu adam yığdılar. Bunlar oğuz yurdundan gəlmiş adamlardı. Bu cəhət şübhəsiz ki, səlcuqluların öz eldaşları arasında qədimdən bəri nüfuz və etibar sahibi bir ailə olmalarından doğurdu.

Səlcuqlular bir az sonra dostları xarəzmşah Harunu da itirdilər. Qəznəvi hakimiyyətindən xilas olan Harun eyni zamanda Xorasanı ələ keçirmək qayəsini güdürdü. Səlcuqlulara yaxınlıq göstərməsi də bu məqsədi həyata keçirmək üçün onlardan görəcəyi kömək ilə əlaqədar idi. Ancaq Harun qəznəvi dövlətinin vəziri tərəfindən hazırlanan sui-qəsdin qurbanı oldu və sui-qəsddən gözlənilən nəticə alınmadı. Harunun yerinə Xəndan ləqəbli qardaşı İsmayıl taxta çıxdı. Fəqət səlcuqlular da daha Xarəzmdə qalmayıb Xorasana köçdülər (rəcəb, 426 - may, 1035).

Səlcuqluların Xorasana köçmələri yalnız Harunun ölməsilə Xarəzmdə meydana çıxan qarışıqlıqlar və Şah Məlikin qorxusu ilə əlaqədar deyildi. Bu işdə Xarəzmdə yaşadıqları yerin əlverişsizliyi və cəzbedici ölkə olan Xorasanda daha asanlıqla yurd sala biləcəkləri düşüncəsi də mühüm amil ola bilərdi. Ceyhunu keçən səlcuqlular Mərv yolu ilə Nəsaya gəldilər. Onların 10

---

[1] Beyhaki, s. 683.

[2] M.Köymən (s. 19, qeyd 3-4) X əsr coğrafiyaşünaslarının əsərlərində göstərilən Seyhun (Sır-Dərya) sahilindəki Xuvarə ilə səlcuqluların Şah Məlik basqını səbəbilə qaçarkən Ceyhunu (Amu-Dərya) keçdikləri yeri eyniləşdirir. Ceyhunun o biri tərəfində oğuzların düşərgə saldıqları Rabati-Nəməkin isə Ceyhundan yüzlərcə kilometr uzaqda - Kumis əyalətindəki Dihi-Nəmək hesab etməsinin dəlilləri, məncə, məchuldur.

min atlısı vardı. Orada yaşayan türkmənləri[1] və xarəzmlilərdən bir qismini uzaqlaşdırdılar[2].

Səlcuqluların tabeliyindəki türkmənlərin bir hissəsi yınallılar[3] adını daşıyırdı. Lap əvvəldə oğuz yabğu dövlətini tədqiq edərkən dövlətin nüfuzlu şəxsiyyətlərindən birinin yınal titulunu daşıdığını görmüşdük. Səlcuqlular yabğu dövlətini davam etdirdikləri üçün onların dövlətində də yınal adlanan bir şəxs olmalı idi. Bu adam İbrahim Yınal idi. Yusif onun atasıdır. Bütün əsərlər İbrahim Yınalın Toğrul bəylə anabir qardaş olduğunu, bəziləri isə Yınalın Toğrul bəyin əmisi oğlu olduğunu göstərir[4]. Belə olduqda yınallar İbrahim Yınalın tabeliyində olan oğuz zümrəsi deməkdir.

Görürük ki, səlcuqlular öz dövlət quruluşlarını Xorasana gətirmişlər. Səlcuqun sağ olan yeganə oğlu Musa «bəyğu», yəni yabğu ünvanını daşıyırdı. Musanın oğlu Yusif də əvvəlcə səlcuqlu oğuzlarının başçısı kimi İnanç Bəyğu ünvanı ilə tanınırdı. «Bəyğu» yabğunun türk dilində dəfələrlə müşahidə edildiyi kimi hərflərin yer dəyişməsilə yaranmış şəklidir[5]. Ancaq Musanın formal da olsa səlcuqluların başçısı olduğuna dair heç bir dəlil yoxdur. Musa yabğu (və ya bəyğu), Məhəmməd Toğrul bəy və Davud (Çağrı bəy)[6] Xorasanın divan rəisi Suriyə müştərək bir məktub göndərdilər. Bu məktubda onlar özlərini xəlifənin mövlaları (əlaltıları) adlandırırlar ki, bu diqqətəşayandır. Bununla onlar özlərinin qüvvət və dövlət sahibi şəxslər olduqlarını göstərmək istəyirdilər. O dövrdə irili-xırdalı bütün hökmdarların özlərini bu cür adlandırdıqlarını bilirik. Səlcuqlular məktubda Xorasana gəlmələrinin səbəbini qısaca yazdıqdan sonra içlərindən biri daim sarayda olmaq üzrə sultanın xidmətinə girmək istədiklərini, bunun əvəzində Nəsa və Fəravə vilayətlərinin onlara bağışlanmasını, beləliklə, Balkan dağından, Dehistandan, Xarəzm sərhəddindən və Ceyhun tərəfdən gələcək axınların qabağını alacaqlarını, İraq və Xarəzm türkmənlərini də qovacaqlarını bildirdilər[7].

Səlcuqluların istədikləri Nəsa və Fəvarə (indiki Qızıl Arvat - Qızıl Rabat) vilayətləri köçəri həyata əlverişli olduğu kimi onların təhlükəsizliyi baxımından da çox uyğun yer idi. Çünki Nisa və Fəvarə şəhərləri çölün başladığı yerdə yerləşirdi. Onlar arvad-uşağı və mal-qaranı təhlükə anında çölə

[1] Bunlar ya əvvəllər Xorasana köçən Arslan yabğunun türkmənləri, ya da Balxandan gəlmiş türkmənlər idilər.

[2] Beyhaki, s. 470.

[3] Beyhaki, indeks.

[4] İmadəddin əl-İsfahani (Bundarinin ixtisarı), s. 6; ibn ül-Əsir, IX, s. 211. Səlcuqluların nəsəb-həsəblərinin ən nüfuzlu mütəxəssisi kimi təqdim edilən "Məliknamə" müəllifinin İbrahim Yınalın səlcuqlu ailəsinə mənsub olduğunu söyləməməsi mənalı deyilmi?

[5] Bu ünvan bütün müsəlman müəlliflərinin əsərlərində bəyğu şəklindədir. Bunun doğruluğuna şübhə yoxdur. Bu ünvan kitabələrdə də eyni imla ilə yazılmışdır. Bəyğunun quş adı olması da tamamilə mümkündür.

[6] Toğrul və Çağrı kəlmələrinin ünvan olduğundan əvvəldə bəhs etmişdik.

[7] Beyhaki, s. 470 - 471. Məktubun türkcə tərcüməsi üçün bax: M.Köymən, II, s. 50.

götürəcək, böhran zamanı özləri də oraya sığınacaqdılar. Çölün onları ən möhkəm qalalardan daha əmin şəkildə qoruduğunu aşağıda görəcəyik. Digər tərəfdən Balxandakı, Manqışlaqdakı və Sır-Dərya boyundakı oğuz elatları ilə də asanlıqla təmas və münasibət qura biləcəkdilər.

Səlcuqluların Xorasana gəlişi böyük həyəcan və qayğı yaratdı. Qəznəvi dövlət adamlarından biri bu xəbəri eşitcək «Xorasan əldən getdi» deyə qışqırmış, vəzir Əhməd ibn Əbdüs-Səməd isə İraq türkmənlərini qəsd edərək «Bu günədək işimiz çobanlarla idi, indi ölkə zəbt edən əmirlər gəldilər» demişdir[1]. Sultan Məsuda gəlincə, o da bu gəlişin zarafat olmadığını çox gözəl başa düşmüşdür. Tez-tez söylədiyi «10 min türk atlısı»[2] sözü ilə onlara nə baxımdan əhəmiyyət verdiyi görünür.

Vəzirin vəziyyətin aydınlaşması üçün bir qədər gözləmək təklifini Məsud həmişə olduğu kimi rədd etdi və sərkərdələrin də ona tərəfdar çıxdığını nəzərə alaraq Hacib Bəg-Doğdu komandanlığında 17 min nəfərlik qayət yaxşı təchizatlı bir ordunu səlcuqluların üstünə göndərdi. Bu ordu səlcuqluları Xorasandan çıxarmalıydı. Səlcuqlular qəznəvi ordusunun gəldiyini eşitdikdə heç bir həyəcan və təlaşa qapılmadılar. Çünki öz müraciətlərinə belə bir cavab ala biləcəklərini də hesablamışdılar, buna görə ehtiyatlı və hazırlıqlı idilər; silahları yaxşı olmasa da, mənəviyyatları yüksək idi. Hər baxımdan mükəmməl təchizatlı qəznəvi ordusunda fillər də var idi. Baş komandan Bəg-Doğdu da daxil olmaq üzrə bu orduya hamı Türküstanı fəth etməyə qadir ordu gözü ilə baxırdı. Ancaq Nəsa ətrafında baş verən çarpışmada tərifli qəznəvi ordusu ağır bir məğlubiyyətə uğradı və bütün sursatını itirdi (19 şaban 426-cı il-29 iyul 1038). Səlcuqlular qəznəvi ordusuna bozqırlarda çox tətbiq edilən pusqu qurmaq üsulu ilə qalib gəlmişdilər. Bu vuruşmada (sonra da olduğu kimi) ən mühüm rolu Çağrı bəy oynamışdı.

Nəsa döyüşü səlcuqlulara mühüm maddi və mənəvi qazanclar gətirdi. Qəznəvi dövləti Dehistanı Çağrı bəyə, Nəsanı Toğrul bəyə və Fəvarəni Musa Bəyğuya verirdi. Bunun əvəzində onlar sultana tabe olacaq, hətta onlardan biri daim sultanın yanında qalacaqdı. Ancaq səlcuqlular bu sülhə əhəmiyyət vermədilər və onu ciddi qarşılamadılar. Hətta sülh bağlamaqla əlaqədar səlcuqlulara xələt, mənşur, sancaq, küllah və türk adətinə görə yəhərli at və qızıl kəmər gətirən qəznəvi elçisi onların qəznəvi dövləti haqda istehzalı danışıqlarını, xələtləri yerə atdıqlarını eşitmişdi[3]. Doğrudan da, məğlubiyyətin qisasını almaq əvəzinə tələsik sülh bağlamaq qəznəvi dövlətinin şərəf və

---

[1] Beyhaki, s. 470-471. Beyhakiyə inansaq, Əli Təginin ölümündən sonra vəzir səlcuqluların Xorasana gəlmək məcburiyyətində qalacaqlarını söyləmişdi (s. 445). Bu sözlər doğrudan da o vaxt söylənmişsə, çox bəsirətlidir.

[2] Beyhaki, s. 472, 481.

[3] Bu vuruşma və onun nəticələri haqda bax: Beyhaki, s. 481-493. Gərdizi, s. 80-81; ibn ül-Əsir, IX, s. 198; M. Köymən, s. 59-70.

etibarını zədələmiş, Sultan Məsudun zəif bir şəxsiyyət olduğunu bütün açıqlığı ilə meydana qoymuşdu.

Səlcuqluların bu zəfərdən sonra idarələri altındakı oğuz elatının müxtəlif yerlərdən gələn oymaqlar hesabına artdığı şübhəsizdir. Hətta İraq oğuzlarından bir bölüyün onlara qatıldığı məlumdur[1]. Bunun əvəzində, yağmurlu və qızıllı oğuzları ilə Balxan türkmənlərindən bir bölük səlcuqlulara tabe olmamaq fikrində inad və israr edərək köçüb İsfahan hakimi Kakuyə oğlu Əlaüddövlənin xidmətinə girdilər[2], ancaq çox çəkmədən ondan ayrılaraq soydaşları İraq oğuzları ilə birləşdilər. Bu yolla maddi qüvvələri artan və səlcuqluların müvəffəqiyyətindən cəsarət alan İraq türkmənləri isə Rey bölgəsinə hakim oldular ki, bu barədə sonra danışılacaqdır. Səlcuqluların Xorasana gəlişi və bəzi sərhəd bölgələrini işğal etmələri ilə Balxan və Ceyhun yolları açılmış, buradan Xorasana türkmənlər gəlməyə başlamışdılar[3].

Sülh bağlandıqdan üç-dörd ay sonra türkmənlər yenidən yağma hərəkətlərinə başladılar. Yağmaya son verilmədiyi üçün sübaşının sərkərdəliyi altında 15 min nəfərlik bir ordu hazırlanıb onların üstünə göndərildi (rəbi ül-axır, 427- fevral, 1036). Bu ordunun vəzifəsi Xorasan vilayətini səlcuqlu hücumlarından qorumaq idi. Aradan 9 ay keçdi, ancaq mühüm bir hadisə baş vermədi. 428-ci ilin məhərrəm ayında (noyabr, 1036) səlcuqlular elçi göndərərək yeni bir tələbdə bulundular: Mərv, Səraxs və Bavərd şəhərlərinin onlara verilməsini istədilər. Onlar səbəb olaraq əvvəlcə verilmiş yerlərin darlığını, idarələri altındakı adamlara kafi olmadığını irəli sürürdülər[4]. Bunun doğruluğuna inanmaq olar, çünki arxadan gələn yeni oymaqlar hesabına səlcuqlu elatı getdikcə böyüyürdü.

Səlcuqlular bu istəklərinə müsbət cavab almadıqları üçün hücumlarını daha da şiddətlə davam etdirdilər. Sübaşı yalnız müdafiə olunur və bu məqsədlə vilayət-vilayət dolaşırdı. Məsud səlcuqlu axınlarının qarşısını tamamilə almaq üçün dövlət ərkanının tövsiyəsilə Xorasana getmək əvəzinə qazavat niyyətilə Hindistana yola düşdü (zilhiccə, 428 - oktyabr, 1037). Halbuki bu əsnada Reydə Xorasandakılardan daha mühüm bir hadisə cərəyan etmişdi. Daha əvvəldə deyildiyi kimi, Sultan Mahmud tərəfindən qəznəvi dövləti xidmətinə qəbul edilən Arslan yabğunun oğuzlarının mühüm bir qismi Rey valisi təyin olunan Taş-Fərraş ilə birlikdə oraya göndərilmişdi. Onları Reyə göndərməkdən başlıca məqsəd Rey bölgəsinin qorunmasında oğuzlardan istifadə etmək idi. Ancaq oğuzlara o qədər də etimad bəslənilmir, onlara ciddi göz qoyulurdu. Oğuzlar bir neçə dəfə itaətsizlik edib qarışıqlıq çıxarsalar da, bunlar çox böyümədən uzlaşma surətilə yatışdırılmışdı.

---

[1] Beyhaki, s. 497.
[2] Göstərilən əsər, s. 521.
[3] Yenə orada, s. 505.
[4] Yenə orada, s. 505.

Yuxarıda deyildiyi kimi, səlcuqluların Xorasanın bəzi vilayətlərinə gəlib orada yurd saldıqları üçün yağmurlu, qızıllı türkmənləri ilə Balxan türkmənlərindən bir bölük səlcuqlulara tabe olmaq istəməyərək köçüb İsfahan və Həmədan hakimi deyləmi Kakuyə oğlu Əlaüddövlənin xidmətinə girmişdi[1]. Sonra bu oğuzlar Əlaüddövlədən ayrılıb Reydəki oğuzlarla birləşdilər. İraq oğuzlarının 5.000 atlı qoşunu vardı. Bunların əksəriyyətinin səlcuqlu Arslan yabğuya bağlı oğuz zümrəsi olduğunu burada bir daha xatırladaq. Onların başçıları arasında 4 köhnə başbuğdan üçü - Gök-Taş, Buka və Qızıl, Qızoğlu, Mənsur, Dana və Anasıoğlu kimi bəylər də vardı.

İraq oğuzları 428-ci ildə (1037), şübhəsiz, səlcuqluların Xorasanda qazandıqları müvəffəqiyyətlərdən cəsarət alaraq hərəkətə gəldilər. Onların əvvəlcə Xorasan istiqamətinə yönəlib Damcan və Simnan şəhərlərini yağmaladıqları ehtimal olunur. Bunun ardınca təkrar Reyə tərəf yönələn oğuzlar Xuvarı yağmaladıqdan sonra Reyə bağlı Müşkuyə ətrafını da taladılar. Onların bu hərəkətlərini görən Reydəki qəznəvi valisi Taş-Fərraş ilə ona kömək üçün göndərilmiş Əbu Səhl Həmdəvi oğuzlarla döyüşə hazırlaşdılar. Onlar vəziyyəti Sultan Məsuda və onun vassallarından Cürcan və Təbəristan hakimlərinə bildirib kömək istəmişdilər. Taş 3.000 atlı və fillərlə oğuzların qarşısına çıxdı. Onun ordusunda Sultan Məsudun əsgər kimi o qədər də qiymətləndirmədiyi xeyli kürd vardı. Oğuzlar isə 5.000 atlı idilər. Vuruşmada Taş ağır məğlubiyyətə uğradı. Şəxsən Taş və altındakı fil tələf edilmiş, Taş yerə salınmış, Məsudun əmrinə görə öldürdüyü Yağmurun və başqalarının qisasını almaq üçün parça-parça edilmişdi.

Adından da göründüyü kimi, türk olduğu bilinən Məsudun Rey valisi Taşın aqibəti belə oldu. Bu döyüşdə bəzi sərkərdələr, xorasanlılardan çoxlu məmur ölmüş, sursat və fillər oğuzların əlinə keçmişdi. Oğuzlar Əbu Səhl Həmdəvini və reyliləri də məğlub edərək şəhərə girdilər, oranı heç nə qalmayacaq dərəcədə yağmaladılar.

Əbu Səhl bir bölük əsgərlə şəhərin yaxınlığındakı Tabərək qalasına sığındı. O, vuruşların birində Yağmurun bacısı oğlunu və yüksək rütbəli sərkərdələrindən birini də əsir almışdı. Oğuzlar həmin sərkərdənin buraxılacağı təqdirdə çox şey verəcəklərini vəd etsələr də, Əbu Səhl öz hökmdarı Sultan Məsudla məsləhətləşmədən heç nə edə bilməyəcəyini bildirmişdi. Bu əsnada Cürcan əsgərlərinin Əbu Səhlə köməyə gəldiyini eşidən oğuzlar Rey kənarında basqın edərək həmin ordunu tar-mar etdilər, sərkərdə də daxil olmaq

[1] Beyhaki, s. 521, 530. İbn ül-Əsir yazır ki, Mahmud Qəznəvi Arslan yabğunun oğuzlarını öz ölkəsindən qovduqdan sonra İsfahan hakimi Kakuyə oğlu Əlaüddövlənin yanına 2.000 çadırlıq bir oğuz bölüyü getmişdir. Onlar yağmurlu, qızıllı və balxanlı oğuzları olmalıdırlar. Ancaq onlar Əlaüddövlənin xidmətinə ibn ül-Əsirin dediyi kimi Sultan Mahmud zamanında deyil, səlcuqluların Xorasana yerləşməsi nəticəsində girmişlər.

üzrə 200 nəfəri əsir aldılar[1]. Bu müvəffəqiyyətlərə baxmayaraq oğuzların Reydən çıxıb Azərbaycana doğru yola düşdükləri məlumdur. Bunun səbəbləri barədə mənbədə heç bir qeyd yoxdur. Ola bilər ki, bu, Azərbaycan hakiminin oğuzları öz yanına dəvət etməsilə əlaqədardır.

O zaman Orta və Qərbi İranın bütün bölgələri ya deyləmi, ya da kürd xanədanının əlində idi. Bu deyləmi ailəsinin üzvü olan Kakuyə oğullarından Əlaüddövlə (İsfahan və Həmədan hakimi) oğuzların Reydən Azərbaycana getdiklərini eşidib Reyə gəlmişdi. Ancaq o, Əbu Səhl Həmdəviyə qarşı mübarizədə oğuzların köməyinə möhtac olduğunu başa düşərək oğuzlara xəbər göndərdi. Oğuz başbuğlarından ancaq Qızıl geri qayıtdı. Macəraçı ruhlu Gök-Taş, Buka və başqaları yollarına davam etdilər. Qızılın buyruğunda 1.500 adam vardı. Ancaq bir müddət sonra oğuzların Əlaüddövlə ilə araları dəydi və onlar təkrar talançılığa başladılar.

Azərbaycana gedənlərə gəlincə, buranın hakimi kürd rəvvadi xanədanından olan Vəhsudan oğuzları dostcasına qarşılamış, hətta onlardan bir qızla evlənmişdi. Oğuzların təmasda olduqları müsəlman əmirlərə qız verdikləri tez-tez müşahidə edilir. Bu işdə bir az da kalım və ya başlıq almaq adətinin rolu olmamış deyil. Vəhsudanın oğuzları dostcasına qarşılaması, bəlkə onları şəxsən özünün çağırması, düşmənlərə qarşı bu döyüşkən adamlardan istifadə etmək məqsədini güdürdü. Oğuzlara Buka, Gök-Taş, Mənsur və Dana rəhbərlik edirdi. Ancaq Vəhsudanın ümidləri boşa çıxdı; oğuzlar burada da yağmaçılığa başladılar, hətta Marağa şəhərinə girərək məscidi dağıtdılar, həzəbaniyyə kürdlərindən və camaatdan çoxunu qırdılar. Oğuzlar bəlkə də bunu Vəhsudanın xahişi ilə etmişlər. Çünki o, həzəbaniyyə kürdlərinin rəisi Əbülheyca ibn Rəbibüddövlə ilə düşmən idi. Təəssüf ki, onlar bu hadisədən sonra barışdılar və oğuzlara qarşı birləşdilər, camaatın da onlara qoşulmasıyla oğuzlarla döyüşə biləcək bir qüdrətə sahib oldular. Bunu görən oğuzlar artıq Azərbaycanda qala bilməyəcəklərini başa düşərək İraqa geri qayıtdılar.

Oğuzların Azərbaycana gəlişinin tək bir faydası oldu. Bu da onların gəldiyini eşidən gürcü (abxaz) məlikinin möhkəm surətdə mühasirəyə aldığı Tiflisdən çəkilməsidir. Oğuzların Azərbaycanda ikən ermənilərə də bəzi zərbələr endirdikləri anlaşılır[2].

Oğuzların heç də hamısı Azərbaycandan qayıtmamış, Dananın başçılığı altında bir qismi orada qalmışdı. Yəqin ki, Vəhsudanın evləndiyi qız onun

---

[1] ibn ül-Əsir, I, s. 158. Bu müəllif həmin hadisənin 427-ci ildə baş verdiyini (1035/1036) yazsa da, bunu qəbul etmək mümkün deyil. Beyhaki isə Reydəki bu hadisələr barədə məlumat vermir. Yalnız əsərindəki bəzi qeydlərdən hadisələrin 429-cu ilin (1037/1038) birinci yarısında baş verdiyi anlaşılır (s. 534, 535). İbn ül-Əsirin İraq oğuzları ilə əlaqədar göstərdiyi tarixlərin çoxu doğru çıxmır.

[2] İbn ül-Əsir. IX. s. 160.

yaxın qohumu idi. Vəhsudanın saray şairi Qətranın ehtimal ki, «oğuz padşahı» deyə bəhs etdiyi bəy odur[1]. Bu oğuzlar Urmiyada yerləşmişdilər.

Azərbaycandan İraqi-Əcəmə qayıdan oğuzlar iki qola ayrılmışdılar. Gök-Taş və Mənsurun başçılıq etdiyi oğuzlar Həmədana, Bukanın buyruğundakılar isə Reyə getdilər. Gök-Taş Həmədanı mühasirəyə aldı. Şəhərin valisi İsfahan hakimi Əlaüddövlənin oğlu Əbu Kalicar idi. Mühasirə uzun çəkdi. Əbu Kalicar davam gətirə bilməyəcəyini görüb Gök-Taş ilə saziş bağladı və onun yaxın bir qohumu ilə evləndi. Buka ilə Qızıl isə getdikləri Rey şəhərini mühasirəyə almışdılar. Əlaüddövlə özü şəhərdə idi. Büveyh oğullarından Fəna Xosrov Məcdüddövlə və deyləmi əmirlərindən Savə hakimi Kamruyə də oğuzlara qoşuldu. Ağır bir vəziyyətə düşdüyünü görən Əlaüddövlə gecə ikən Reydən çıxaraq İsfahana getdi.

Bunu eşidən oğuzlar Reyə gedib oranı görülməmiş dərəcədə yağma etdilər. Yağmadan sonra bəzi məhəllələrdə 50-yə qədər adam qalmışdı. Rey şəhəri Qızılın hakimiyyətinə keçdi[2]. Oğuzların bir dəstəsi Kərəc tərəflərini talan etdi, Anasıoğlu isə Qəzvinə getdi. Qəzvinlilər əvvəlcə onunla vuruşsalar da, sonra 7 min altun verərək, onun hakimiyyətini qəbul etmək şərtilə sülh bağladılar. Bu hadisə 430-cu ildə (1037/1038) baş vermişdi. Dananın rəisliyi ilə Azərbaycanda (Urmiyada) qalmış oğuzlar Urmiyadan çıxaraq həmin il ermənilərin üstünə yürüş edib onların çoxunu qırdılar, xeyli əsir və qənimət ələ keçirdilər. Ermənilər at üstündə böyük yaylarından sərrast ox atan və cürətlə manevr edən oğuzlarla vuruşmaqda aciz idilər. Urmiya ətrafında yaşayan və Əbülheycaya tabe olan Həzəbaniyyə kürdləri oğuzlarla qonşuluqdan cana doyduqları üçün onlarla vuruşmağa başladılar, çünki kürd kəndlərini yağma edən oğuzlar onlardan da xeyli adam qırmışdılar. Bu oğuzların Urmiyada yaşamaları Azərbaycan hakimi Vəhsudanın oğuzlar bəylərindən birinin (Dananın?) yaxın qohumu (qızı və ya bacısı) ilə evləndiyi üçün Urmiyanı ona bağışlaması ilə əlaqədar olmalıdır[3]. Çünki burada yaşayan kürd rəisi Əbülheyca əl-Həzəbani Vəhsudanın düşməni idi.

İndi oğuzlar böyük və varlı Həmədan şəhərinə göz dikmişdilər. Sonda üç böyük başbuğ, yəni Gök-Taş, Buka və Qızıl birləşərək şəhəri ələ keçirdilər. Məiyyətində deyləmilərin bulunduğu Büveyh oğullarından Məcdüddövlə oğlu Fəna Xosrov da onların yanında idi. Şəhərin valisi Əlaüddövlə oğlu Əbu Kalicar bu dəfə müqavimət göstərə bilməyəcəyini başa düşərək varlı tacirlərlə və şəhərin əyan-əşrəfi ilə Həmədandan çıxıb yaxınlıqdakı bir qalada gizləndi. Oğuzlar şəhəri aldılar və qorxunc şəkildə yağmaladılar. Dinəvər və Əsədabad kəndləri də eyni aqibətə uğradı. Bu yağmalarda deylə-

---

[1] Əhməd Kəsrəvi. Şəhriyarani-gümnam. Tehran, 1308, şəmsi, II s. 75.
[2] İbn ül-Əsir, IX, s. 160.
[3] Çünki Azərbaycandan qayıdan bəylər arasında onun adı çəkilmir.

milər xüsusilə mərhəmətsiz hərəkət etmişdilər. Bir müddət sonra oğuzlar hiylə ilə Əbu Kalicarı qaladan çıxarıb varını-yoxunu əlindən aldılar[1].

Bu dediklərimiz bizə oğuzların misilsiz döyüşçülər olduğunu göstərir. Di gəl ki, İraq oğuzlarının yeganə qayələri yağmaçılıq idi. Onlar bu işi o qədər norma halına salmışdılar ki, xəlifə yağmadan vaz keçmələri üçün onlara məktub yazmışdı. Bu oğuz elatının başçısı olan bəylərə zəbt etdikləri yerdə istər müstəqil, istərsə də vassal kimi dirlik-düzənlik qurub oranı idarə etmək fikri həmişə yad olmuşdur. Bu bəylərdən ancaq Rey hakimi Qızıl kiçik istisna təşkil edir. Gerçəkdən Qızılın səlcuqlularla əməkdaşlıq etdiyi bilinir. Onun Toğrul bəyin bacısı ilə evləndiyi və xəlifənin məktubuna onunla birlikdə cavab yazdığı məlumdur[2]. Atasının adı Yəhya olan Qızıl, ibn ül-Əsirin verdiyi məlumata görə, 432-ci ildə (1040/1041) vəfat edərək Rey kənarında dəfn edilmişdir[3]. Digər macəraçı bəylərin həyatlarının sonu barədə sonra danışacağıq.

Xorasana gəlincə, səlcuqlu axınlarının qarşısını kəsmək vəzifəsi tapşırılmış sübaşı mükəmməl təchizatlı bir ordu ilə üç ildən bəri bu işlə uğraşırdı. Səlcuqlular bir yeri işğal edən kimi oraya qaçır, ancaq həmin an onların başqa yerə girdiklərini eşidirdi. Nəhayət, Məsud səlcuqlularla meydan müharibəsinə girmək üçün qəti əmr verdi. Səraxs yaxınlığında Təlxab deyilən yerdə 429-cu ilin şaban ayında (may, 1038) baş verən vuruşmada sübaşı darmadağın edildi. Qəznəvi ordusunun böyük sursatı yenə səlcuqluların əlinə keçdi. Ancaq Səraxs zəfərinin ən mühüm nəticəsi odur ki, səlcuqlular Xorasanın bir hissəsini işğal etdilər. Toğrul və Çağrı bəylər bu zəfərdən sonra özlərinə əsil hökmdar gözü ilə baxmağa başladılar. Ancaq Toğrul bəy baş rəis kimi qəbul edilmişdi. Musa Bəyğu üçüncü dərəcəli başbuğ idi. Aralarındakı sazişə görə «öz yoldaşları içində baş» kimi tanınan Toğrul bəy Nişapur, Çağrı bəy Mərv, Musa Bəyğu isə Səraxs bölgəsini aldılar. Toğrul bəy anabir qardaşı İbrahim Yınalı Nişapura göndərdi[4].

Yınal 200-300 atlı ilə Nişapura gəldi. Nişapurlular cırıq və köhnə paltarlı, ancaq çox yaraşıqlı bir gənc olan İbrahim Yınalı və yoxsul geyimli əsgərlərini dostcasına qarşıladılar. Toğrul bəyin adına məlik ül-mülük (məliklər məliki) ünvanlı xütbə oxundu ki, bu o zamanlar hökmdarlıq əlamətlərindən biri idi. Bir neçə gün sonra çoxu zireh geymiş 3 min atlı ilə Toğrud bəy şəhərə gəldi. Onun qolunda gərilmiş bir yay, kəmərində üç ox var idi ki, bunun oğuzlarda bəlkə də bütün türk qövmlərində hökmdarlıq əlaməti olduğu anlaşılır. Ayağında dəri çəkmədən daha rahat olması ehtimal edilən keçə

---

[1] İbn ül-Əsir, IX, s. 160.
[2] Əbülfərəc tarixi. Türkcə tərcüməsi, s. 296.
[3] İbn ül-Əsir, IX, s. 206.
[4] Beyhaki, s. 553.

çəkmələr vardı. Toğrul bəy sultan Məsudun taxtında oturaraq şəhərin əyan-əşrəfi ilə görüşdü.

Şəhərin ən böyük mənəvi şəxsiyyəti qazı Səidin öyüdlərini dinləyərək «Biz əcnəbiyik, əcəmlərin (tacikan) adətlərini bilmirik, qoy qazı öz öyüdlərini məndən əsirgəməsin» deyə cavab vermişdi[1]. Nişapurda Toğrul bəyə olduğu kimi, Mərvdə də Davud Çağrı bəyin adına xütbə oxunmuşdu.

İki əmirinin dalbadal məğlub olduğunu görən Sultan Məsud nəhayət oğuzların üstünə özü yürüş etməyi qərara aldı və yaxşıca hazırlaşaraq Bəlxə gəldi. Səlcuqlu problemi onu ən çox məşğul edən məsələ idi. Onlardan çəkinir, hətta onlarla qarşılaşmağı o qədər də istəmirdi. Səlcuqlular məsələsi onu həmişə əsəbiləşdirmiş, xüsusilə bu səbəbdən onlara qarşı ağıllı tədbir tökə bilməmiş və doğrudan da çox ağıllı və müdrik vəzir olan Əbül Nəsr Əhməd ibn Əbdüs-Səmədin isabətli fikirlərini dəfələrlə rədd etmişdi. Əslində, Məsud səlcuqluların Xorasana ayaq basdıqlarını öyrənən andan təlaşa düşmüşdü. Çünki türk olduqlarından onların yüksək döyüş qabiliyyətinə yaxşı bələd idi. Əvəzində deyləmilərə və kürdlərə əsgər kimi heç qiymət vermirdi. Ələlxüsus türk sərkərdə və əsgərlərinin də səlcuqlularla döyüşə həvəssiz olduqları görünürdü. Bunun başlıca amilləri sultanın türklərdən ibarət seçmə ordu ilə yaxından maraqlanmaması, bəzi sərkərdələri işdən qovmaq və ya öldürtməklə türkləri rəncidə edən hərəkətlərdə bulunması və özünün zəif şəxsiyyəti idi. Hətta bu seçmə türk ordusundan bir neçə min adamın səlcuqlular tərəfinə keçdiyini bilirik. Bunların çoxunun və ya mühüm hissəsinin səlcuqlulara ikinci vuruşdan, yəni Səraxs döyüşündən sonra qoşulduqları ehtimal olunur.

Sultan Məsud 430-cu ilin cümadi-ülaxırında (mart, 1039) Bəlxdə olarkən 10 türkmən atlısı onun yaşadığı saraya qədər soxularaq oradakı fillərdən birini sürüb aparmışdı. Ertəsi gün türkmənlərin bu cəsarətindən xəbər tutan sultan çox mütəəssir oldu[2], ancaq bir ay sonra (rəcəb, 430 - aprel, 1039) Ülyaabad çölündə Çağrı bəylə qarşılaşaraq onu qaçmağa məcbur etməsi sultanın mənəvi qüvvəsini xeyli düzəltmiş və bu qələbə səlcuqlulara hücum xüsusda ona cəsarət vermişdi.

Səlcuqlular Məsudun Qəznəvi ordusunun 6.000 nəfərlik ən seçmə birləşməsi də daxil olmaq üzrə qüvvətli bir qoşun ilə gəldiyini eşitdikdə bütün qüvvələrini topladılar. Sultana səlcuqlu ordusunun 20.000 atlıdan ibarət olduğu xəbər verilmişdi. Qəznəvi casuslarının gətirdiyi başqa bir xəbərə görə, qurulan məşvərətdə Toğrul və yınallılar böyük orduya və qüvvəyə sahib Məsuda qalib gəlməyin çətinliyinə işarə edərək özlərinin İraqi-Əcəm (əsasən Rey, Qəzvin, Həmədan və İsfahan bölgələri) və Cürcana girəcəkləri təqdirdə bir ovuc deyləmi və kürd mütəqəllibəsinin əlindəki yerləri asanlıqla

[1] Göstərilən əsər, s. 554.
[2] Göstərilən əsər, s. 567.

alacaqlarını və Rum ölkəsinə də hücumların mümkünlüyü fikrini müdafiə etmişdilər. Ancaq Çağrı bəy Xorasandan çıxacaqları təqdirdə həm Məsudun, həm də onun təşviqi ilə digər düşmənlərin hücumlarından heç harda duruş gətirməyin mümkün olmayacağını söyləyərək bu fikrin çox yanlış olduğunu ifadə etmiş və qəznəvi ordusunun da zəif cəhətlərini sadalayaraq vuruşmaq təklifini irəli sürmüşdür. Nəticədə, Çağrı bəyin fikri daha doğru hesab edilərək vuruşmaq qərara alınmışdır.

Səraxs çölündə baş verən vuruşmada (ramazan- Şəvval, 430 - iyul, 1039) qəznəvilər qalib gəlsələr də bu, qəti qələbə deyildi. Məsud isə bu qələbəsinin qəti bir zəfər olduğuna inanır, səlcuqluların Balxan dağına və Ceyhunboyuna qaçdıqlarını sanırdı. Vuruşmadan qısa bir müddət sonra səlcuqluları yenidən qarşısında görüncə heyrətə düşmüş, onların mətanət və cəsarətini təqdir etmişdi. Əslində, səlcuqluların itkisi hədsiz dərəcədə az, sursatları təhlükəsiz yerdə idi. Hətta onların döyüş meydanını tərk etmələrini səflərinin pozulması deyil, geri çəkilmək kimi qiymətləndirmək daha doğru olar. Səlcuqlular qəznəvi ordusunun istifadə etdiyi çayın yatağını dəyişdirmək və quyular olan yerə hücum etmək surətilə onları susuz qoymağa çalışırdılar. Baş verən çarpışmalar isə əksərən səlcuqluların qələbəsilə sona çatırdı. Qəznəvi ordusu taqətsiz bir vəziyyətdə idi. Buna görə vəzirin məsləhətinə qulaq asaraq səlcuqlulara sülh təklif edildi. Beləcə qəznəvi ordusu sıxıntıdan qurtararaq sağ-salamat Herata qayıda biləcəkdi. Səlcuqlulara gəlincə, onlar sayca və təchizatca çox üstün olan Sultan Məsudla vuruşa bilmək üçün dincəlməyə və hazırlıq görməyə ehtiyac duyurdular. Buna görə də özləri üçün əlverişsiz sülh təklifini qəbul etdilər. Bununla bərabər onların əsil qayələrindən zərrəcə əl çəkmədiklərini qəznəvi elçisi açıqca müşahidə etmişdi. Sazişə uyğun olaraq sülh şərtlərinin təsbiti üçün Herata elçi göndərmək, Nişapuru, Səraxs və Mərvi boşaltmaq əvəzinə təkrar yağma hərəkətinə başlamışdılar. Əslində, Sultan Məsud və dövlət ərkanı da səlcuqluların sülhü səmimiyyətlə qəbul etmədiklərini bilirdilər.

Onların da məqsədi düşmüş olduqları bu sıxıntılı vəziyyətdən qurtararaq Heratda dincəlmək və hazırlıq görmək idi. Xülasə, bu müvəqqəti sülh və ya mütarikə hər iki tərəfə əl verirdi. Yayı Heratda keçirərək dincələn və yaxşıca hazırlıq görən Sultan Məsud səlcuqluların üstünə yürüdü və onları Fəvarə çölünə qədər təqib etdi. Səlcuqlular döyüşmədən mütəmadi geri çəkilirdilər. Bununla qəznəvi ordusunu tamamilə yormaq və onu taqətsiz vəziyyətə salmaq istədikləri görünürdü. Bu çəkilmə və təqib zamanı hər iki tərəf, xüsusilə ağır təchizatlı qəznəvi ordusu böyük zəhmət və məşəqqətə düçar olurdu. Bu münasibətlə Toğrul bəyin günlərcə zirehini və çəkməsini çıxarmadığı və yastıq yerinə qalxandan istifadə etdiyi göstərilir[1].

[1] Göstərilən əsər, s. 600.

Məsud Nişapura qayıdarkən (rəbiülaxır, 431-yanvar, 1040) elə bir ciddi müvəffəqiyyət qazanmamışdı. Ancaq səlcuqluları təqib etmək və onlarla qarşılaşmaq xüsusda əzmi də qırılmamışdı. O ərəfədə xəlifə yazdığı məktubda ona türkmənlərin fəsadı söndürülənə qədər Xorasanda qalmağı, sonra İraqi-Əcəm problemini həll etməyi məsləhət görürdü. Camaatın türkmənlərdən şikayəti xilafət mərkəzinə də çatmışdı. Hətta xəlifə xalqın malına və canına toxunmamaları, məmləkəti dağıtmamaları üçün səlcuqlulara və İraq türkmənlərinin başçısı bəylərə məktublar göndərmişdi.

Məsud səlcuqlulara hücum etmək məqsədilə Nişapurdan Səraxsa gəldi. Artıq xeyli müddət idi ki, Xorasanın bəzi bölgələrində qıtlıq baş vermişdi. Səraxsda da görülməmiş qıtlıq hökm sürürdü. Qəznəvi ordusu sıxıntılı vəziyyətə düşmüşdü. Bu üzdən dövlət ərkanı və hərbi rəhbərlik otu bol olan Herata qayıdaraq orada qalmağı və hazırlıq gördükdən sonra səlcuqluların üstünə getməyi israrla təklif etsə də, Məsud həmişə etdiyi kimi, yenə də qərarından dönmədi və Mərvə doğru hərəkət etdi. Yolda əsgərlərinin pərişan halını görüb «bu ordu məhv olmuşdur» dediyi halda yolundan dönmədi. Az sonra yemək və yem sıxıntısına, isti və susuzluğa səlcuqlu hücumları da əlavə olundu. Qəznəvi ordusu döyüş nizamında getdiyi halda səlcuqlular uzaqdan bölük-bölük gəlib hücum edir, sürüdən qoyun qapan qurdlar kimi əllərinə keçən dəvələri və qumaşları alıb aparırdılar. Bu vəziyyəti görən Məsud Mərv üzərinə yürüşün mənasızlığını başa düşdüsə də, artıq iş-işdən keçmişdi. Vəzir buraya qədər gəldikdən sonra əsla geri qayıtmağın mümkün olmadığı fikrini müdafiə edirdi. Ancaq orduda, xüsusilə seçmə türk birləşmələri arasında narazılıq və itaətsizlik görünürdü. Atları tələf olduqdan sonra dəvələrə minmiş bu əsgərlərin döyüşmək üçün ordudakı iranlıların (tacik) atlarını əllərindən alacaqları haqda şayiə gəzirdi. Elə bu əsnada səlcuqlulara dair xəbərlər gəldi. Həmin xəbərlərə görə, sultanın Səraxsdan hərəkət etdiyini eşidən səlcuqlular möhkəmcə qorxuya düşmüşdülər. Hərbi məşvərətdə ulu başçıları sayılan Toğrul bəy Xorasandan Cürcana keçmək, orada duruş gətirmək mümkün olmasa, Reyə getmək lazım gəldiyini (çünki Rey, Cəbəl (Həmədan bölgəsi) və İsfahan onlara məxsus idi), belə edilsə, Sultan Məsudun onların dalınca düşməyəcəyini söyləyərək əvvəlki fikrini təkrar irəli sürmüş və bu düşüncə məclislərdəkilərin əksəriyyəti tərəfindən qəbul olunmuşdu. Ancaq Çağrı bəy əvvəlki kimi bu dəfə də qardaşının fikrinə etiraz etmiş və başladıqları bu işdən geri çəkilməyin doğru olmayacağını bildirmişdir. Sözlərinə davam edən Çağrı bəy Xorasandan getsələr də Sultan Məsudun onlardan əl çəkməyəcəyini, başqalarını da üzərlərinə saldıracağını, halbuki Sultan Məsudu məğlub etsələr bütün dünyanı əllərinə keçəcəyini, özləri sıxıntı içində olsalar da, qəznəvilərin daha çox sıxıntı duyduqlarını, indi özlərinin və heyvanlarının gümrah olub yem dərdi çəkmədiklərini, halbuki qəznəvilərin çölü keçmək məcburiyyətində qaldıqlarını söylədikdən sonra qorxu-

lacaq bir xüsus olmadığını ifadə edərək nitqini bitirmişdir[1]. Çağrı bəyin bu fikri başda Toğrul bəy olmaqla Musa və yınallılar tərəfindən daha doğru fikir kimi bəyənilmişdir. Bundan onra göz bəbəyi kimi qoruduqları sursatı az yaşlı və atı arıq 2.000 süvarinin nəzarətində arxaya göndərdikdən sonra bir parad keçirmiş və 16 min süvariyə malik olduqlarını görmüşlər.

Səlcuqluların mühüm işlər ərəfəsində məşvərət qurmaları müəlliflərin oğuzların öz işlərini «kənəş» (gənəşmək) yolu ilə həll etdikləri barədə məlumatlarına uyğundur. Çağrı bəyin fikrinin nə qədər doğru olduğunu yalnız hadisələrin nəticəsi təsdiq etmir. Əgər səlcuqlular Toğrul bəyin fikrini qəbul edib İraqi-Əcəmə getsəydilər, Çağrı bəyin çox haqlı olaraq dediyi kimi Məsud onları orada da rahat buraxmayacaqdı. Çünki İraqi-Əcəm də onun torpağı idi. Toğrul bəyin «Rey, İsfahan və Həmədan bizimdir» deməsi oralarda İraq oğuzlarının hökmran olduqlarından irəli gəlir. Bu vəziyyətdə səlcuqluların rəvvadi və şəddadi kimi zəif ailələrin əlində olan Azərbaycanda və Aranda yerləşmələri mümkün ola bilərdi. Lakin belə olduqda Bizans və gürcülərlə döyüşə-döyüşə azalacaq, nəhayət, varlıqlarını qoruya bilməyərək yox olub gedəcəkdilər. Çünki ana yurdla təmas və münasibətləri olmayacaq, oradan fasiləsiz olaraq təzə qüvvələr ala bilməyəcəkdilər.

Səlcuqluların tərtib etdikləri qurultaylardakı çıxışlar, eyni zamanda onlara ağıllı rəy və fikirləri, cəsarəti, enerjisi ilə əslində kimin yön verdiyini, cahana hakim olmaq qayəsinin doğması, yaşadılması və nəhayət həyata keçirilməsində əsas rolu kimin oynadığını bizə göstərir. Bu böyük insan Davud Çağrı bəydir.

Səlcuq ailəsinin dirəyi və dövlətin qurulmasında ən mühüm xidməti olan şəxs odur. Sultan Məsud Mərvə getmək və səlcuqlularla qarşılaşmaq xüsusunda qərarının vaxt keçdikcə mənasızlığını daha yaxşı başa düşür və hərəkətindən böyük peşmançılıq duyurdu. O, Mərvə deyil, Herata getməyin və səlcuqlularla sülh bağlamağın ən doğru yol olduğunu ancaq indi dərk etmişdi. Tənbəl və namərd adlandırdığı ordusu ilə 16 min cəsur süvariyə qalib gələcəyinə özü də şübhə edir və işi tanrının hökmünə buraxırdı. 431-ci il ramazan ayının 7-də cümə günü (22 may, 1040) döyüş nizamında hücuma keçdiyi zaman səlcuqlular da hər tərəfdən hücuma başladılar. Qəznəvi ordusunun göstərdiyi zəif müdafiə hərəkəti onların cəsarətini artırırdı. Sultanın ordusundakı türk məmlük əsgəri tənbəl və ürəksiz döyüşür, üstəlik, onların səlcuqlulara qoşulmuş yoldaşları ilə görüşüb-danışdıqları da gözdən qaçmırdı. Halbuki qəznəvi ordusunun nüvəsini və ən etibarlı birləşmələrini onlar təşkil edirdilər. Qəznəvi ordusu döyüşə-döyüşə yavaş-yavaş irəliləyir, hər tərəfdən hücum edən türkmənlər dəvə və qumaş aparırdılar. Qəznəvilər o qədər acınacaqlı vəziyyətdə idilər ki, səlcuqlulardan 10 nəfərin hücumu 500 qəznəvi əsgərini qaçmağa məcbur edirdi. Ertəsi gün (8 ramazan, 431-ci il,

---

[1] Göstərilən əsər, s. 618; M. Köymən, s. 36-37.

cümə ertəsi - 23 may, 1040)[1] qəznəvi ordusu yaxınlıqdakı Dəndanəkan qalasına doğru irəliləyərkən səlcuqlular yenə dörd tərəfdən hücuma keçdilər. Buna baxmayaraq qəznəvi ordusu günorta üstü Dəndanəkan qalasına çatdı. Bu qala Mərvin cənub-qərbində olub ona bir mənzil məsafədə yerləşirdi. Burada iki ordu döyüş nizamında üz-üzə düzüldü. Qəznəvi ordusu susuzluqdan möhkəm əziyyət çəkirdi. Səlcuqlular öz milli döyüş üsullarına görə döyüşürdülər. Bu, ordunun qollara ayrılaraq döyüşməsi üsulu idi. Bəzən bir qol vuruşduqdan sonra çəkilir və yerini başqa qola verirdi. Əməvilər dövründə ərəblər bunu bizanslılardan öyrənərək tətbiq etmişdilər. Buna kurdus (cəmi: kəradis) deyilirdi.

Döyüş cərəyan edərkən qəznəvilərin seçmə türk ordusuna mənsub 370 nəfər səlcuqluların tərəfinə keçdi. Bunun ardınca təşkil olunan şiddətli bir hücum nəticəsində qəznəvi ordusunun səfləri pozuldu, hamı qaçmağa üz tutdu, döyüş meydanında Sultan Məsudla bir neçə sərkərdə və bir qədər də məmlük qalmışdı. Ancaq bir azdan o da yanındakılarla birlikdə meydanı tərk edib qaçmağa başladı. Qəznəvi ordusundakı hind, ərəb və kürd əsgərləri dağılıb hərəsi bir tərəfə getdi. Səlcuqlular bir tərəfdən qəznəvilərin sursatını yağmalayır, digər tərəfdən düşməni təqib edirdilər. Qəznəvilər isə başda Sultan Məsud olmaq üzrə dağınıq, pərişan bir halda və son sürətlə qaçırdılar. Səlcuqluların qazandıqları zəfər qəti və böyük idi, beş ildən bəri apardıqları yorucu mübarizəni başa çatdırmış və qayələrinə yetmişdilər. Çağrı bəyin dediyi kimi, artıq «cahan» onların idi.

Bayraqlara və divan qələmi ləvazimatına qədər qəznəvi ordusunun bütün sursatı döyüş meydanında qalmışdı. Səlcuqlular nəşə içində idilər. Toğrul bəy taxta oturmuş və Xorasan əmiri kimi salamlanmışdı[2]. Oğuz qövmünün tarixi müqəddaratını təyin edən Dəndanəkan döyüşü belə baş vermiş və səlcuqlulara ilk həmlədə Xorasanı qazandırmışdır.

[1] Gərdizi, s. 86.
[2] Beyhaki, s. 620-629; Köymən, III, s. 34-66

## Ç. SƏLCUQLULAR DÖVRÜNDƏ OĞUZLAR (TÜRKMƏNLƏR)

«Səlçuklılar türkmən bolub karıntaşımız
tegib ilgə və xalqğa faidəsi tikmədi».
*(Şəcəreyi-tərakimə, s. 64).*

Dəndanəkan vuruşmasından sonra Davud Çağrı bəy Mərvdə qalmış, qardaşı Məhəmməd Toğrul bəy Nişapura və onların əmisi Musa Bəyğu isə Herata getmişdi. Çağrı bəy qəznəvilərə qarşı müvəffəqiyyətli döyüşlər apararaq onların gözünü Xorasandan tamamilə kəsdi. Qaraxanilərə də qalib gəlib bu xanədanla əlverişli sülh bağladı. Üsyan etmiş Xarəzm hakimini cəzalandırdı, o tərəfdəki qıpçaq bəyinə müsəlmanlığı qəbul etdirdi və onunla düngür oldu. Toğrul bəyin Reyə getməsindən sonra bütün Xorasan Çağrı bəyə qaldı. Bundan başqa, Kirman Qara-Aslan ünvanlı oğlu Kavurt bəyin əlində idi. Göründüyü kimi, Çağrı bəy birinci dərəcəli komandan, siyasi məsələlərdə isabətli rəy və fikrə sahib ağıllı bir siyasət adamı olmasına baxmayaraq hökmdarlığı dövründə çox da qəsbkar olmamışdır. Halbuki nailiyyətlərini daha da artıra bilərdi. O, bozqırlardakı sıxıntılı həyatını daim xatırlayaraq yüksəldiyi mövqedən razı qaldığını bildirirdi. Dövlətin qurulmasından əvvəl xeyli yağma etdiyi Xorasanı yenidən qurmuş, təbəəsini ədalətlə idarə edərək özündən razı salmışdı, hətta qardaşı Toğrul bəyi idarə elədiyi yerləri dağıntı halında qoymaqda və xalqı mühacirətə məcbur qılmaqda ittiham etmişdi. Toğrul bəy ona verdiyi cavabda: «Ay qardaşım, sən Xorasan kimi abad bir ölkəyə sahib olduğun halda onu xarabazara çevirdin, indi hakimiyyətində olduğu üçün oranı abadlaşdırmalısan. Halbuki buralar məndən əvvəl başqaları tərəfindən təxrib olunmuş, xaraba qoyulmuşdur. Buna görə ölkəmi hələ abadlaşdıra bilməmişəm. Digər tərəfdən, bu ölkənin ətrafı düşmənlərlə dolu olduğundan yollara əsgər qoymaq zərurəti ortaya çıxır ki, onlardan dəyən zərərin qarşısını almaq da mümkün olmur» demişdi. Çağrı bəyin bu cavaba etirazını təsəvvür etmək çox çətindir. Yağma və qənimət ümidi olmadan oğuzları döyüşə sövq etməyin çətin bir iş olduğunu, şübhəsiz, o da çox gözəl bilirdi. Çünki Toğrul bəyin cavabında işarə vurulduğu kimi, Çağrı bəy

dövləti qurmazdan əvvəl əsgərlərini razı salmaq üçün yağma hərəkətlərinə girişən, Nişapurun yağmalanması üçün Toğrul bəyə israr edən o deyildimi?

Bu iki qardaş ömürlərinin əvvəlindən sonuna qədər bir-birinə bağlı qalmışlar. Dövlətin inkişafında, onun bir imperiya halını almasında bu bağlılığın çox mühüm rolu olmuşdur. Qardaşların hər ikisi uzun ömür yaşadılar. Çağrı bəy 70 yaşlarında vəfat etdiyi zaman başda Alp Arslan olmaqla bir neçə oğlu, xəlifə və hökmdarlarla evli bir neçə qızı vardı. Səlcuqun yaşayan yeganə oğlu Musa Bəyğuya gəlincə, Dəndanəkan vuruşmasından sonra Herata gedərək, oranı və Sistan bölgəsini idarə etmişdir. Dövlətin qurulmasında qardaşı uşaqlarından sonra gəlsə də xeyli xidməti vardı, lakin qüvvətli bir şəxsiyyət olmadığı şübhəsizdir. Toğrul bəy müdaxilə etməsə, Sistan da əlindən gedirdi. Salnaməçilər bizə onun ölüm tarixini bildirmirlər. 456-cı ildə (1064) Alp Arslana qarşı səltənət davasına qalxışan Fəxr ül-müluk Bəyğunun həmin şəxs olduğu sanılır[1].

Səlcuqlu ailəsi tərəfindən ulu başçı qəbul edilən Toğrul bəy Dəndanəkan vuruşmasından sonra Nişapura qayıtmışdı. Müharibə münasibətilə bu şəhərdə ortadan qalxmış nizam və asayışi bərpa etdikdən sonra 433-cü ildə (1041/1042) Cürcan və Təbəristanı fəth etdi və ertəsi il (434-1042/1043) Xarəzm üzərinə səfərə çıxdı. Xarəzmdə səlcuqluların barışmaz əski düşməni Şah Məlik vardı. Buranın hakimləri olan Altun-Taş oğullarının üsyanı nəticəsində Sultan Məsud vəzirinin tövsiyəsinə görə Xarəzmi 432-ci ildə (1041) özünü vassal hesab etməsi şərtilə Cənd məliki Şah Məlikə vermişdi. Şah Məlik Cənddən gələrək xarəzmşah Altun-Taş oğlu İsmayılı məğlub edib bu ölkəyə hakim oldu. İsmayıl səlcuqlulara sığındı və onlardan yardım istədi. Çağrı bəy və İsmayıl birlikdə Xarəzmə yürüş etsələr də, Şah Məlik onları məğlubiyyətə düçar etdi. Ancaq Toğrul bəy eyni talesizliyə uğramadı, ailəsinin bu güclü düşməninə zəfər çaldı. Şah Məlik ailəsi və sursatı ilə Dehistana qaçdı. Oradan Təbəsi, Kirman bölgəsindən əl-Tizi keçib 500 fərsəxlik yol gedərək (3000 km-dən çox) tənha bir bölgə olan Mərkan ətrafına gəldi. Buraya gəlincə, artıq xilas olduğuna inanmışdı. Şah Məlik bu uzun yolu süzereni yeni Qənzə hökmdarı Məsud oğlu Məvduda sığınmaq qayəsilə qət etmişdi. Onun köhnə ölkəsi Cəndə getməməsi orada vəziyyətin əlverişli olmaması ilə izah edilə bilər.

Ancaq Şah Məlikin Mərkanda səlcuqluların əlindən qurtulmaqdan duyduğu fərəh uzun sürmədi. Onun yerini öyrənən İbrahim Yınalın qardaşı Ər-Taş Yınal 4.000 atlı ilə basqın edərək Şah Məliki, arvad-uşağını tutdu və var-yoxunu ələ keçirdi. Ər-Taş Şah Məliki Çağrı bəyə təhvil verdi və o,

[1] Musa haqqında bax: İ.Kafesoğlu. Səlcuqun oğulları və nəvələri. Türkiyyat məcmuəsi, XIII, s. 119-120.

dərhal edam edildi (434-1042/1043)[1]. Az hadisə səlcuqluları bu qədər sevindirmiş ola bilərdi.

Həmin il Toğrul bəy İbrahim Yınalı Reyə göndərmiş, özü də sonra gələrək bu şəhəri qaydaya salıb hökumət mərkəzi eləmişdi. Bir-birinin arxasınca gələn oğuz elatlarına Xorasan artıq darlıq edirdi. Daha əvvəl də dediyimiz kimi, Toğrul bəy Sultan Məsudla mübarizəni dayandırıb bu bölgəyə getmək, bir ovuc kürd və deyləmi mütəqəllibəsinin hökmündəki bu bölgəni asanlıqla ələ keçirmək fikrini irəli sürmüşdü. Toğrul bəy İraqa gəldiyi zaman İraq oğuzları hələ orada idilər. Qızılı çıxmaq şərtilə başlarında Gök-Taş, Buka, Mənsur və Anasıoğlu dururdu. Toğrul bəyin kürəkəni olan Qızıl ibn ül-Əsirin verdiyi məlumata görə 432-ci ildə (1040/1041) ölmüşdü. Toğrul bəyin Reyə gəlişi onun vəfatı ilə əlaqədar ola bilər.

Toğrul bəy elçi göndərib adı çəkilən bəyləri hüzuruna dəvət etdi. Onlar elçini Zəncan çayına qədər ötürdükdən sonra onun vasitəsilə Toğrul bəyə bu xəbəri göndərdilər: «Çağırmaqdan məqsədinin bizi dustaq etmək olduğunu bilirik. Səndən qorxduğumuz üçün uşaqlaşdıq və burada yurd saldıq. Əgər bizim üstümüzə gəlsən Xorasana və ya Rum ölkəsinə gedəcəyik və səninlə heç bir zaman bir araya gəlməyəcəyik»[2]. Onların Toğrul bəy tərəfindən həbs ediləcəkləri barədə sözləri bəhanədən başqa heç nə deyildi. Onlar yenidən heç bir vəchlə səlcuqluların əmri altına girmək istəmir, əvəzində yağmaçılıqla keçən macəraçı yaşayışlarını davam etdirmək istəyirdilər. Buna görə onlar bir tərəfdən Azərbaycan xalqına əvvəllər etdikləri pisliklərdən, digər tərəfdən, İbrahim Yınalın arxalarında olmasından qorxaraq Cənub-Şərqi Anadoludakı müasir Cizrə (Cəzirə) dolaylarına gəldilər.

Bəylərdən Mənsur burda qaldı. Buka, Anasıoğlu və yəqin ki Gök-Taş Diyarbəkirə getdilər və orada yağmaçılığa başladılar. Bir vuruşmada Mosul hökmdarı Ükeyl oğlu Kırvaş və Diyarbəkir hökmdarı Mərvan oğlu Nəsrüddövlə Əhmədin qüvvələri ilə Beşnöviyyə kürdlərini dağıtdıqdan sonra yağma və təxrib fəaliyyətlərini artırdılar. Diyarbəkir hökmdarı Nəsrüddövlə Əhməd bir hiylə nəticəsində əsir alınmış Mənsur bəyi azad etmək və üstəlik xeyli mal vermək şərtilə buralardan uzaqlaşmalarını xahış etdi. Bəylər bu şərti qəbul etdilər, lakin sonra sözlərində durmadıqları bir yana, yağmaçılığı daha da genişləndirdilər. Oğuzlardan bir bölüyü Mosula hücum çəkib şəhər hakimi Kırvaşı məğlub edərək (435-1043) bir müddət buranı əllərində saxladılar. Göründüyü kimi, oğuzlar Toğrul bəyin hüzuruna getməsələr də, zəbt etdikləri Mosulda xütbəni onun adına oxudurdular. Az sonra mosulluların bir hərəkətini oğuzlar sərt bir şəkildə cəzalandırdılar. Belə olduqda Bağdadda oturan Büveyhi hökmdarı Cəlalüddövlə və Diyarbəkir hökmdarı Nəsrüddövlə oğuzlardan Toğrul bəyə şikayət etdilər. Toğrul bəy Cəlalüddövləyə

[1] Beyhaki, s. 687-691; ibn ül-Əsir, IX, s. 211, X, s. 3.
[2] İbn ül-Əsir, IX, s. 212.

verdiyi cavabda onların mütləq itaət altına alınacaqlarını vəd edir, Nəsrüddövləyə göndərdiyi məktubda isə onları Diyarbəkir bölgəsindən uzaqlaşdıracağını bildirirdi. Lakin bu ərəfədə Mosul hökmdarı Kırvaş Hillə hökmdarı Dübeys ibn Məzyəd ül-Əsədi ilə birləşdikdən, digər ərəblərdən və kürdlərdən kömək aldıqdan sonra oğuzların üstünə yürüş etmişdi. Bunu eşidən Mosuldakı oğuz bəyləri, yəni Gök-Taş və Mənsur Diyarbəkirdə olan Buka ilə Anasıoğlundan köməyə gəlməyi xahiş etdilər. Baş verən vuruşmada (ramazan, 435-aprel, 1044) oğuzlar əvvəlcə qalib gəlsələr də, sonra məğlub oldular və Diyarbəkir bölgəsinə getdilər. İraq oğuzları isə bu məğlubiyyətdən sonra Diyarbəkir bölgəsində qala ilməyəcəklərini başa düşüb Azərbaycana getməyi qərara aldılar. Van gölü ətrafına gəldikdə bu bölgənin Bizans valisi onlara keçmək üzrə icazə vermək bir yana, hətta oğuzlara hücum etdi, ancaq məğlub olaraq əsir düşdü. Oğuzlar Azərbaycana keçdilər və ehtimal ki, bu dəfə Toğrul bəyə itaət etdilər[1].

İbn ül-Əzrağın verdiyi məlumata[2] görə, Toğrul bəy Buka ilə Anasıoğlunu 10.000 atlı ilə Diyarbəkir bölgəsinə göndərib oranı onlara iqta kimi verdi. Onlar burada yenə yağmaçılığa başlamış, bir gecə sərxoş ikən döyüşərək bir-birini yaralamış və hər ikisi aldıqları yaralardan ölmüşlər. Digər iki bəyin (Gök-Taş ilə Mənsur) aqibəti barədə əlimizdə heç bir qeyd yoxdur. Beləliklə, Arslan yabğunun camaatına mənsub olan və sonra İraq oğuzları adlandırılan oğuzların tarixi burada sona çatmışdır.

Toğrul bəy Reyə gəldikdən (434-1042/1043) sonra üç-beş il ərzində ətrafdakı hökmdarlar tərəfindən süzeren kimi qəbul edilmişdi. Mavəraünnəhrdən gələn oğuzlar bir qayda olaraq Bizans hüdudlarına göndərilirdi. Onlar İbrahim Yınalın rəhbərliyi altında Pasin ovalığında Bizans üzərində parlaq bir zəfər qazandılar (1048). Bu qələbədən sonra Bizans imperatoru İstanbulda IX əsrdə inşa edilmiş camini təmir etdirərək orada Toğrul bəyin adına xütbə oxutdu, lakin vergi verməyə razı olmadığı üçün sülh bağlanmadı.

447-ci ildə (1055) Toğrul bəy xəlifənin israrlı dəvətinə görə Bağdada hərəkət etdi. Onun cazib vədlərdə bulunmasına baxmayaraq Bağdaddakı türk əsgərləri Toğrulun gəlişini narazılıqla qarşıladılar və bunu açıqca izhar etdilər. Bunun səbəbi öz varlıqlarının sona çatacağından qorxmaları idi. Bu türk əsgərlərinin başçısı Arslan ül-Bəsasiri özünün bəzi məziyyətləri ilə türk əsgərləri və Bağdadın sadə xalqı tərəfindən sevilən adamdı. Sadə xalq arasında əsnaflıqla məşğul olan türklər də vardı. Artıq xeyli müddət idi ki, Arslan ül-Bəsasirinin xəlifə ilə arası dəymişdi. Hətta onun xəlifəni tutaraq Bağdadda və İraqın digər yerlərində xütbəni Misirin fatimilər xəlifəsi adına oxudacağı barədə şayiələr dolaşırdı.

---

[1] İbn ül-Əsir, IX, s. 161-163.

[2] Tarixi-Meyyafariqin. Qahirə, 1959, s. 160; M.H.Yınanc. Türkiyə tarixi. Səlcuqlular dövrü. Anadolunun fəthi. İstanbul, 1944, s. 39-44.

Xəlifənin Toğrul bəyi dəvət etməsi də bu məsələ ilə əlaqədar idi. Toğrul bəy qələbəlik bir ordunun başında Bağdada daxil oldu. Ordusunda 8 fil vardı. Arslan ül-Bəsasiri türklərin çoxu ilə əvvəlcədən Bzğdaddan çıxaraq Rəhbəyə getmiş və Misirdəki fatimilər xəlifəsinin tərəfdarı kimi fəaliyyətə başlamışdı. Bağdadda qalan türklərlə deyləmilər və onların əlaltıları oğuzların gəlməsinə etiraz əlaməti olaraq böyük dava saldılar və oğuzlara silah çəkdilər. Belə olduqda oğuzlar atlanaraq onlara hücum etdilər və çoxunu qırdılar. Toğrul bəy büveyh hökmdarı əl-Məlik ür-Rəhimi tutaraq öz ölkəsindəki bir qalaya göndərdi. Beləliklə, iki əsrdən bəri davam edən deyləmi büveyhoğullarının dövləti süqut etdi.

Toğrul bəy Bağdadda ayrı bir yerdə bir saray, bəyləri üçün mənzillər, əsgərləri üçün kazarmalar və bir də məscid tikdirdi, özü, əmirləri və əsgərləri orada yaşamağa başladılar. Bəzi müəlliflər oranı bir şəhər kimi göstərirlər. Toğrul bəy xəlifənin bağışladığı taxt üzərində oturur, sərkərdələrini, dövlət adamlarını və ziyarətçilərini orada qəbul edirdi. Bu əsnada Toğrul bəyin Arslanın üstünə göndərdiyi əmisi oğlu Qutalmış Mosul ətrafında məğlub olmuşdu. Buna görə Toğrul bəy Nusaybinə qədər getdi və Sincarı dağıtdırdı, çünki buranın camaatı Qutalmışa və onun yanındakılara qarşı çox pis davranmışdılar. Toğrul bəy Mosulu İbrahim Yınala verib özü Bağdada qayıtdı.

Toğrul bəy bu dəfə xəlifə ilə görüşdü. Xəlifə səlcuqlu hökmdarına üst-üstə 7 xələt geydirdi ki, bu, 7 iqlimin ona bağışlanması demək idi. Xəlifə bundan başqa, Toğrul bəyə «Şərqin və Qərbin hökmdarı» (məlik ül-məşriq vəl-məğrib) ünvanı ilə xitab etdi və bunun ifadəsi olaraq onun belinə iki qılınc bağladı. Bu, islam aləminin cismani hakimiyyətinin rəsmən türk hökmdarına verilməsi idi ki, o vaxtadək kimsə buna layiq görülməmişdi. Lakin bu zaman üzücü və əndişəli bir xəbər gəldi: İbrahim Yınalın oğuzların mühüm bir hissəsini ətrafına yığaraq üsyan etdiyi bildirildi. Gerçəkdən, İbrahim Yınal daha əvvəl də (441-1049/1050) qardaşına qarşı üsyan eləmiş, ancaq Toğrul bəy onu danladıqdan sonra bağışlamışdı. İbrahimin bu dəfəki üsyanında müxtəlif yerlərdən təşviqlər rol oynamışdı. Əsas təşviqçilər elə oğuzlar idi. Onların bir qismi Toğrul bəyin yerinə İbrahim Yınalın hökmdar olmasını istəyirdi. Çünki onlar Toğrul bəyin son zamanlar onlara qarşı münasibətindən narazı idilər.

Doğrudan da, Toğrul bəy idarəsi altındakı el üçün qənimət təmin etmək vəzifəsini yerinə yetirən başbuğ funksiyasından getdikcə uzaqlaşır, qəznəvi sultanları kimi seçmə ordusu məmlüklərdən, mülki məmurları isə iranlılardan ibarət bir hökmdara çevrilirdi. Qəznəvi hökmdarlarının bu halı qayət təbii idi, çünki onlar türk olmayan bir xanədan tərəfindən pul ilə satın alınmış bir kölənin nəslindən idilər.

Misirdəki fatimilər xəlifəsinin vəziri də öz hökmdarının İbrahim Yınala sultan ünvanı bağışladığını söyləyərək onu üsyana təşviq edirdi. Təşviqçilər-

dən biri də Arslan ül-Bəsasiri idi. Toğrul bəy qardaşının üsyan etdiyini öyrənən kimi dərhal sürətlə İrana getdi. İbrahim Yınal onu Həmədanda mühasirəyə aldı. Toğrul bəy fürsət taparaq özünü dövlət mərkəzi Reyə çatdırdısa da, orada da möhkəm mühasirəyə düşdü. O, çox müşkül vəziyyətdə idi. Nəhayət, köməyə gəlmələri üçün Çağrı bəyin oğullarına - qardaşı uşaqlarına xəbər göndərdi. Başda Alp Arslan, Kirman məliki Qara-Arslan ünvanlı Kavurd bəy və Yakuti əsgərləri ilə köməyə çatdılar. Rey kənarında yerləşən Həftazə Bulandakı vuruşmada İbrahim Yınal məğlub olaraq əsir düşdü. Toğrul bəy bu dəfə anabir qardaşını bağışlamadı, çünki onun üzündən çox sıxıntılı və iztirablı günlər keçirmişdi. İbrahim Yınal türklərdə əsilzadə adamların qanının tökülməməsi adətinə uyğun olaraq yayının girişi ilə boğduruldu. İbrahimin qardaşı Ər-Qaşın oğullarının ikisi də öldürüldülər (9 cumadi-ülaxır, 451-23 iyun 1059). Səlcuqlu xanədanı üzvləri arasında mübarizələrə aid ilk həzin hadisə budur.

İbrahim Yınal «yınallı» adlanan oğuz bölüyünün başçısı kimi səlcuqlu dövlətinin qurulmasında və Toğrul bəyin qərbdə müvəffəqiyyətlər qazanmasında xidmətləri olan bir bəy idi. Oğuzların Toğrul bəyə bəslədikləri kin və səltənət davası İbrahim Yınalı əsla layiq olmadığı bir aqibətə düçar etdi. İki qardaş arasındakı bu mübarizə əsnasında Arslan ül-Bəsasiri yanındakı türklər və ərəblərlə Bağdada girmiş, sarayını yağmaladıqdan sonra xəlifəni tutaraq səhraya götürmüşdü. Bağdadda və İraqın bəzi yerlərində ilk və son dəfə olmaqla Misir xəlifəsi adına xütbə oxundu. Toğrul bəy qardaşı uşaqlarının işlərini yoluna qoyduqdan sonra böyük qardaşı Çağrı bəyin vəfatı ilə əlaqədar (rəcəb, 981-avqust-sentyabr, 1059) İraqa varid oldu. Xəlifə öz məqamına qaytarıldı, Arslan məhv edildi. İraqın işləri qaydaya salındı. Bundan sonra öz ölkəsinə qayıdan Toğrul bəyin xatunu öldü. O, ağıllı və Toğrul bəyə çox bağlı qadın idi. Buna görə Toğrul bəy çox kədərlənmiş və ona yas saxlamışdı (452-1060). Bir müddət sonra Toğrul bəy xəlifənin qızına elçi düşdü. Xəlifə əl-Qaim Biəmrüllah Toğrul bəyin istəyinə əvvəlcə razılıq versə də, sonra sözündən döndü. İki tərəf arasında soyuqluq əmələ gəldi. Səlcuqlu hökmdarı xəlifənin sərvətinə həbs qoydu. Xəlifə isə onu Bağdaddan çıxıb gedəcəyi ilə hədələdi. Xəlifənin öz sözündən qaçması abbasilərin peyğəmbər əqrəbası kimi özlərini müqəddəs hesab etmələrilə bağlı idi.

Doğrudan da, xəlifələr o vaxtadək başqa ailədən olan heç kimə qız verməmişdilər. Üstəlik, xəlifə öz qızını çox sevirdi. Toğrul bəyə gəlincə, o bu izdivacla sadəcə olaraq şərəflənmək istəyirdi. Peyğəmbər ailəsinin damadı olmaq ona şan-şərəf, bəxtiyarlıq bəxş edəcəkdi. Toğrul bəyin israrı nəticəsində xəlifə nəhayət naçar qalıb razılıq verdi. Toğrul bəy o zaman 70 yaşında idi.

Bağdadda möhtəşəm bir toy-düyün quruldu. Xəlifə qızı ilə ayrıldığı üçün kədər içində ikən səlcuqlu hökmdarının sarayının həyətində türkcə

mahnılar oxunur, 70 yaşında olmasına baxmayaraq Toğrul bəy türk adətinə görə bəylərilə birlikdə milli oyun oynayırdı. Salnaməçilərin təsvirinə görə onun bəylərlə oynadığı bu oyun halay və ya ona bənzər bir oyun olmalıdır. Məsud Qəznəvinin 25-30 il əvvəl bir çöl qəsəbəsini də çox gördüyü bu oğuz bəyi indi islam dünyasının ən böyük hökmdarı və xəlifənin kürəkəni olmuşdu. Ancaq Toğrul bəyin bu sevincli və xoşbəxt günləri uzun sürmədi. Toydan bir müddət sonra köhnə xəstəliyi təkrar özünü göstərdi.

Xəstə olduğu halda Bağdada gəlişindən təqribən iki ay sonra sağalmadan ölkəsinə qayıtdı. Onun xəstə-xəstə qayıtması, ehtimal ki, ölkəsindəki vəziyyətlə əlaqədar idi. Bu, Qutalmışın üsyanıdır. Toğrul bəyin vəziri Amidülmülk Kündürinin Qutalmışı Damğan yaxınlığındakı Gird-Kuy qalasında mühasirəyə aldığını bilirik. Bu zaman, toydan 7 ay sonra Toğrul bəy Reydə vəfat etdi (cümə, 8 ramazan 455 - 4 sentyabr 1063) və orada da dəfn olundu. Toğrul bəyin türbəsi indi də durur.

Toğrul bəy ağıllı, sözünə bütöv, gözəl qəlbli, yumşaq xasiyyətli insan idi. Bütün bu məziyyətlərilə o, ətrafındakı adamlar üzərində güclü təsir buraxırdı. Ailəsində ən çevik qabiliyyətə sahib adam Toğrul bəy idi. Nişapurun yağmalanmasına qarşı çıxdığı buna misaldır. Çağrı bəy ona şəhərin yağmalanmasını təklif edirdi, çünki bu bir adət idi. Belə edilmədiyi təqdirdə oğuzların onlardan üz çevirməsi başqa bir adamın ətrafında toplanması daim mümkün idi. Halbuki yeni şəraitdə dövlət qurmaq və idarə etmək belə hərəkətlərlə bir araya sığmırdı. Nəticədə, Toğrul bəyin xəncər çəkərək özünü öldürəcəyi ilə hədələməsi Çağrı bəyi öz təklifindən vaz keçməyə məcbur etdi. Toğrul bəyin fəaliyyəti bizə onun məqsədinin necə geniş olduğunu göstərir. Analitik ağla sahib olması, dəyərli insanları qiymətləndirməsi uğurlarının əsas amilləri hesab edilə bilər. Eyni zamanda comərd, dini ehkamlara riayətkar bir şəxsiyyət idi.

Toğrul bəy qardaşı Çağrı bəylə birlikdə oğuz türklərinin tarixinə yön vermiş böyük bir şəxsiyyət idi. Böyük qardaşı ilə birlikdə böyük enerji sərf edərək yad bir ölkədə dövlət qurmaları, bu dövlətin sərhədlərini Bizans imperiyasına qədər genişləndirmələri Anadolunun fəthini və oğuz türklərinin bu ölkədə yurd salmalarını təmin etmişdir. Qurulan bu böyük dövlət onun və böyük qardaşının əsəridir. Onlar olmasaydı, idarə etdikləri oğuz kütləsi uzlar, İraq oğuzları və Sultan Səncəri məğlub edən oğuzlar kimi dağılıb gedəcəkdi.

Toğrul bəyin uşağı yox idi. Vəziri onun vəsiyyətinə əməl edərək böyük qardaşının oğlu Süleymanı hökmdar taxtına oturtsa da, sərkərdə və əsgərlərin arzusuna görə Çağrı bəyin digər oğlu Xorasan hakimi Alparslan onun xələfi təyin edilmişdi. Ancaq Gird-Kuh qalasında olan Arslan yabğunun oğlu Qutalmış türkmənləri başına yığaraq (onların 50 min nəfər olduğu göstərilir) onun qarşısına çıxmışdı. Vuruşmada Qutalmış məğlub oldu və döyüş

meydanına yaxın bir yerdə ölüsü tapıldı. Alparslan Qutalmışın əsir alınmış qardaşı Rəsul Təgin və oğlu Mənsur ilə türkmən bəylərini öldürmək istədi, ancaq vəzir Nizamülmülk buna mane oldu. Alparslan Qutalmışın ölümünə ağlamış və ona yas tutmuşdu.

Alparslanın hökmdar olması ilə Toğrul və Çağrı bəylərin dövlətləri bir idarə altında birləşdi və səlcuqlu dövləti qüvvətli bir imperiyaya çevrildi. Alparslan əmisinin evləndiyi abbasi seyyidəsini hədiyyələrlə Bağdada göndərdi. Onun bu seyyidə ilə evlənməməsi və özündən sonra gələn səlcuqlu hökmdarlarının xəlifələrdən qız istəməmələrinin bir səbəbi olmalıdır. Bu səbəb ehtimal ki, Toğrul bəyin izdivacdan 6-7 ay qədər qısa müddət sonra ölməsilə, xəlifələrdən «Güclə qız almağın uğurlu olmadığı» şəklində qüvvətli bir inamın yaranması ilə əlaqədardır.

Məşhur Cəfər Bərməkinin aqibəti də bu xüsusda bir misal kimi xatirələrdə yaşayırdı. Maraqlıdır ki, əməvilər də öz ailələrindən olmayanlara qız verməmişlər. Alparslan 456-cı ildə (1064) Şərqi Anadoluya və Gürcüstana yürüşdən sonra 458-ci ildə (1056/1066) Üst-Yurd və Manqışlaq tərəflərə getdi. Anlaşıldığına görə, Manqışlaqla Aral gölü arasında Çarığ (?) adlı bəyin başçılığı altında qələbəlik bir türkmən kütləsi yaşayırdı. Onlar qıpçaqlarla qarışmış halda, yəni onlarla birlikdə yaşayırdılar. Türkmənlər Xarəzmlə İdilboyu arasındakı çox işlək ticarət yolundan keçən karvanları soyurdular. Alparslanın bu səfərdən məqsədi onların təcavüzünün qarşısını almaq, bu əhəmiyyətli ticarət yolunu təkrar açmaq idi. Alparslan Xarəzmin mərkəzi Gürgəncdən çıxaraq Çarığın olduğu yerə gəldi. Çarığ əsgərinin çoxluğuna güvənərək (30 min nəfər olduğu söylənir) ona qarşı çıxdısa da, tar-mar edildi. Türkmənlər arvad-uşaqlarını, mal-qaralarını qoyaraq Manqışlağa qaçdılar. Burada Kafşut adlı bir bəy vardı ki, o, türkmən olmalıdır, çünki Manqışlaq X əsrdən bəri oğuzların ən tanınmış yurdlarından biri idi. Kafşut Alparslanın elçisinə çox xoş üz göstərdiyi üçün onun ölkəsinə daxil olmadan Xarəzmə geri qayıtdı. Alparslan buradan Sır-Dərya sahilindəki Cənd şəhərinə gəldi. Bundan məqsədi sadəcə olaraq babası Səlcuqun qəbrini ziyarət etmək idi. Şəhərin hakimi (Cəndxan) anasını göndərərək Alparslana tabe olduğunu bildirdi. Babasının qəbrini ziyarət edən Alparslan buradan təkrar Xarəzmə, oradan da Xorasana qayıtdı[1]. Onun altı aya yaxın davam edən bu səfərləri ana yurddakı oğuzlarda səlcuqlu ölkəsinə köçmək arzusunu doğurmuş və ya qüvvətləndirmiş ola bilər. Məsələn, 1070/1071-ci illərdə Suriyaya gedərək burada fəthlərdə bulunan oğuz bəylərindən Atsızın ləqəbi Xarəzmi idi ki, bu, onun Xarəzmdən təzəlikcə gəldiyinə işarədir. Alparslanın babası Səlcuqun qəbrini ziyarət etmək üçün Cəndə qədər getməsi onun əcdadlarına qarşı duyduğu sevgi və bağlılığı göstərir.

[1] Sibt ibn ül-Cəvzi. Mirat üz-zaman. Türk-islam əsərləri muzeyi kitabxanası, № 2134, vərəq 242 b; Əxbər üd-dövlət is-səlcuqiyyə, s. 40; Mirxond. Rövzət üs-səfa, III, s. 98-99.

Alparslan dövründə Bizans torpaqlarına yürüşlər çoxalmış və şiddətlənmişdi. 462-ci ildə (1070) Alparslan fatimilər xəlifəsinin vəzirinin dəvətilə Diyarbəkir yoluyla Suriyaya getdi. Bunu eşidən Hələb hökmdarı Mirdasoğlu Mahmud Hələb qazısını sultanın pişvazına göndərdi. Hiyləgər ərəb Fəratı keçən əsnada Alparslanın xoşuna gələn bu sözləri söyləmişdi: «Ey ağamız, həqq-təalanın bu təvəccöhünə şükr edin, çünki bu çaydan bir türk hökmdarı kimi ilk dəfə siz keçirsiniz»[1].

Alparslan Hələb önündə düşərgə qurdu. Hələb hakimi Mirdasoğlu Mahmud qorxusundan sultanın hüzuruna gələ bilmədiyi üçün Hələb bir müddət mühasirə edildi. Ağır vəziyyətə düşən Mirdasoğlu axırda oğuzlar kimi geyinərək Alparslanın yanına gəldi, sultan onu bağışladı və Hələbi yenə ona verdi. Alparslan buradan Dəməşqə (Şam) doğru hərəkət etmiş və bir günlük yol gəlmişdi ki, Bizans imperatoru Roman Diogenesin böyük bir ordu ilə səfərə çıxdığını eşitdi. Buna görə Alparslan imperatoru qarşılamaq üçün sürətlə geri qayıtdı. İki hökmdar 26 avqust 1071-ci ildə Malazgirtdə, Rəhvə ovlağında qarşılaşdılar. Bizans ordusu sayca türk ordusundan çox böyük idi. Alparslan türk döyüş üsullarından birini tətbiq edərək Bizans ordusunu görünməmiş məğlubiyyətə uğratdı. Vuruşma zamanı Bizans ordusundakı peçeneqlərin və oğuzların (uz-ğuzz) bir qismi və ya hamısı soydaşlarının tərəfinə keçdilər. Bunda qövmiyyət duyğusu mühüm amil olmalıdır.

Malazgirt vuruşması[2] Anadolunun türklər tərəfindən fəthini təmin etmiş və bura oğuz türklərinin yurduna çevrilmişdir. Alparslan 1072-ci ildə şərqdə, Ceyhun tərəflərdə gözlənilməz bir ölümün qurbanı oldu. Müasirləri Alparslana tarixdə gəlib-getmiş ən böyük hökmdarlardan biri nəzərilə baxmışlar, onu qüdrət, həşəmət və dəbdəbənin ən böyük nümayəndəsi saymışlar. Onun əsil adı Məhəmməddir, ehtimal ki, Alparslan ünvanıdır. Qardaşı Kavrut bəyin «Qara-Arslan», xəlifə əl-Qaim Biəmrüllahın arvadı olan bacısı Xədicənin isə «Arslan-Xatun» ünvanını daşıdığı məlumdur. Alparslanda ali insanlara məxsus böyük məziyyətlərlə yanaşı mənsub olduğu qövmün psixologiyası vardı, o, qövmi şüura sahib bir hökmdar idi.

Alparslanın oğlu Məlik şah dövrü (1072-1092) səlcuqlu imperiyasının ən parlaq dövrüdür. Dövlətin sərhədləri bu dövrdə Adalar dənizi sahillərindən Ceyhuna qədər uzanırdı. Qaraxanilər və qəznəvilər də imperiyaya tabe idilər. Bu dövrdə xüsusilə Qutalmışın oğulları ilə (Mənsur və Süleyman) bir çox oğuz bəyləri Anadolunun fəthinə girişərək 10 il ərzində onun Adalar dənizi və Boğaziçinə qədər olan yerlərini ələ keçirmişdilər.

---

[1] Kəmaləddin ibn ül-Adim. Zübdəti-Hələb. Sami əd-Dehxan nəşri Dəməşq, 1954, II, s. 20, mətndə: «bu çayı ancaq məmluk olan türklər keçmişdir, sən isə onu hökmdar kimi keçirsən».

[2] Malazgirt vuruşması haqqında təfsilat üçün bax: M.H.Yınanc. Türkiyə tarixi. Anadolunun fəthi, s. 71; İ.Kafesoğlu. Malazgirt müharibəsi, VII, s. 242-248.

Məlik şah dövrü həm müsəlman, həm də qeyri-müsəlman müəlliflər tərəfindən bir ədalət dövrü kimi qiymətləndirilir. 1092-ci ildə Məlik şahın ölümü ilə bu dövr sona çatdı. Səlcuqlu ailəsi arasında uzun müddət davam edən taxt-tac uğrunda mübarizə dövləti zəiflətdi, səlibçilərin öz məqsədlərinə çatmalarına və Bizansın, gürcülərin və batinilərin güclənməsinə səbəb oldu. Səlcuqlu dövləti keçmiş qüdrətini bir daha bərpa edə bilmədi.

Müəlliflər tərəfindən çox yüksək epitetlərlə təriflənməsinə baxmayaraq Sultan Səncər imperiyaya nəinki atasının dövründəki qüdrətini qaytara bilmədi, hətta xətalı hərəkətilə onun dağılmasına səbəb oldu. Səlcuqlular öz dövlətlərinə bir çox islami təsisatları tətbiq etdikləri halda mühüm bir məsələdə, yəni vərasət məsələsində türk adətinə bağlı idilər. Bu adətə görə, sultan məmləkətin müxtəlif yerlərini öz qohumlarına verirdi. Beləliklə, səlcuqlu dövləti də bu baxımdan göytürk və qaraxani dövlətləri kimi feodal mahiyyət daşıyırdı. Taxt-tac uğrunda mübarizələr və zəif şəxsiyyətli hökmdarlar zamanı əksəriyyəti məmlük, yəni kölə mənşəli əmirlərin nüfuzu artmış və onlardan qüvvətli xanədanlar meydana gəlmişdir. Məsələn, bu məmlük xanədanlarından biri (eldənizlər) dövlətin iqtidarını əllərinə almış, digəri isə (xarəzmşahlar) öz ağalarının dövlətinə son qoymuşdur. İraq səlcuqlularının ilk hökmdarı kimi Toğrul ünvanını daşıyan son hökmdar da Rey yaxınlığında xarəzmşah Təkişlə vuruşmada qəhrəmancasına çarpışaraq ölmüşdür (590-1194). Çox gənc olan bu son səlcuqlu hökmdarının başını məmlük Eldənizin nəvəsi kəsmiş, Məlik şahın ibrikdarbaşısı məmlük Anuş-Təginin nəvəsi isə onu Bağdada göndərmişdir. Bu hərəkət Qərbi İranın məruz qalacağı qorxunc bir zülm və dağıntının işarəsi idi.

Səlcuqlular həm öz dövrlərində, həm də sonrakı nəsillər tərəfindən böyük, hətta gəlib-getmiş bütün sülalələrin ən böyüyü kimi təriflənmişlər. Bununla bağlı müxtəlif əsərlərdə bir çox hekayətlər və əhvalatlar nəql edilir. Müəlliflər səlcuqluların xalqa qarşı şəfqətli, adil və qurucu hökmdarlar olduqlarını göstərirlər.

Doğrudan da, səlcuqlular hakim olduqları hər yerdə, yəni İran, Anadolu və Suriyada dini və dünyəvi əsərlər meydana gətirmişlər ki, bunu səlcuqlular dövrünün başlıca xüsusiyyətlərindən biri kimi qəbul etmək lazımdır. Onlardakı bu ictimai xidmət anlayışının milli bir mənşəyi olduğu şübhəsizdir.

İran səlcuqlu dövlətinin mülki təşkilatında vəzirlikdən təhsildarlığa qədər bütün vəzifələrdə iranlılardan istifadə olunurdu. Çünki türk ünsürü yerli ünsürə nəzərən sayca az idi. Bu səbəbdən hökmdarlar farsca öyrənir və mülki dövlət məmurları ilə daha çox bu dildə danışırdılar. Bununla bərabər xanədan üzvlərinin öz ana dillərini unutmuş olduqlarını düşünmək mümkün deyildir, üstəlik, onlar türk adətlərini də davam etdirirdilər. Xanədan üzvlərinin bir çoxunun anası və onları böyüdüb tərbiyə edən atabəyləri də türk idilər. Orduları isə daxil olan təzə ünsürlərlə türklüyünü daima saxlayırdı.

Səlcuqlu dövrünün türkləri mənsub olduqları islam mədəniyyətinin təsiri altında qalmaqla birlikdə, göstərdiyimiz kimi, öz dillərini qoruyur, adətlərini yaşadırdılar. Onlar bu və digər bir çox xüsuslarda ərəblərdən və əcəmlərdən fərqlənirdilər. Türklərin bu ünsürlərlə birlikdə yaşamaları onlardakı milli şüuru zəiflətməmiş, bəlkə də qüvvətləndirmişdir.

Bağdaddakı türk əsgərləri Toğrul bəyin şəhərə girmək arzusundan narazı olduqları halda, milli hissləri dolayısı ilə oğuzlardan bəzilərinin Mosulun ərəb hökmdarı tərəfindən kəsilərək göndərilmiş başlarının şəhərdə nümayiş etdirilməsinin qarşısını almışdılar. Alparslanın türklük şüuruna malik olduğunu və türklüyü öydüyünü bilirik. Bəzi avropalı müəlliflərin əsərlərində yarı ərəbləşmiş bir hökmdar kimi göstərilən Suriya hökmdarı Nurəddin Mahmud Misirdəki fatimi xəlifəsinə göndərdiyi bir məktubda islamın səlibçilərdən ancaq türklərin oxları sayəsində xilas olduğunu yazmışdır. Bu böyük hökmdar eyni zamanda tez-tez yağmalı ziyafətlər verməklə bu türk adətini davam etdirirdi. Bütün cəhətlərilə keçmiş böyük səhabələrə* bənzədilən Nurəddin Mahmud həm də ölkəsində bir sıra ictimai təyinatlı əsərlər yaratmış hökmdarlardandır.

Səlcuqlu hökmdarı Sultan Məsud 1135-ci ildə xəlifə əl-Müstərşidlə vuruşarkən xəlifənin ordusundakı bütün türklər Məsudun tərəfinə keçmiş, xəlifə ərəblər və kürdlərlə qalmışdı. Bir salnaməçi türklərin Məsudun tərəfinə keçməsini onların qövmiyyət duyğusundan doğduğunu bildirir. Həmən hökmdar bundan sonra xidmətində türk məmlükü saxlamayacağına dair xəlifədən söz almışdı. Məlik şahın seçmə ordusundakı 7 min erməni əsgərinin vəzir Nizamülmülkün etirazlarına baxmayaraq ordudan qovulmasını türk qvardiyasının nailiyyəti kimi izah etmək lazımdır. Bu bəhsə son vermədən təkrar edək ki, səlcuqlular milli təşkilat, təsisat və ənənələrini, xülasə, nələri varsa hamısını özlərilə gətirmiş və onları dövlətlərinin süqutuna qədər davam etdirmişlər. Yağmalı ziyafətləri, yas adətlərini ana yurdda olduğu kimi davam etdirir, milli xörək olan tutmac yeyirdilər. Səlcuqlu hökmdarları da monqol xanları kimi bir adamı şərəfləndirmək üçün ona şərab təqdim edirdilər.

Qəznəli salnaməçilər Beyhaki və Gərdizi səlcuqlu oğuzlarını türkmən adilə yad edirlər. Bunun əvəzində Yaxın Şərq müəllifləri onları quz (oğuz) adlandırırlar. Toğrul bəyin ordusu da bu şəkildə, yəni oğuz adlandırıldığı kimi, 463-cü ildə (1070/ 1071) Suriyaya daxil olan oğuzlardan da eyni adla bəhs edilir. Məmik şah dövründən etibarən buradakı oğuzlara da türkmən deyilir. Bu tarixdən sonra oğuz adı ancaq bir dəfə - Səncəri məğlub edən və əsir alan oğuzlar üçün işlənmişdir. Ancaq oğuzlar öz adlarını uzun müddət

* İslamın yayılmasında Məhəmməd peyğəmbərə kömək etmiş silahdaşlara verilən addır, Azərbaycanca əshabə şəklində də işlənir (tərcüməçi).

unutmamış və türkmən adını mənimsəməmişlər. XIII əsrdən etibarən oğuzlara artıq hər yerdə türkmən deyilmişdir.

Səlcuqlu dövlətini quran da, onun sərhədlərini genişləndirən də oğuzlar olmuşlar. Dövlət qurulduqdan sonra ana yurddan bölük-bölük, elat-elat gələn oğuzlar dövlət tərəfindən Bizans hüdudlarına göndərilirdi. Bu, əsasən, onların qarışıqlıq salmalarının qabağını almaq üçün edilirdi. Bundan başqa, bu tədbirlər otlaq sıxıntısına yol verməmək üçün də nəzərdə tutulurdu. 440-cı ildə (1048) Mavəraünnəhrdən qələbəlik bir oğuz kütləsi İraqi-Əcəmə gəlmişdi. İbrahim Yınal onlara iqamətləri üzündən çətinlik çəkildiyini, cahad etmək üçün Rum hüdudlarına getmələrini, özünün də arxadan gələcəyini söyləmişdi. Doğrudan da, qısa bir müddət sonra İbrahim Yınal onların başına keçərək Bizansla vuruşmada mühüm bir zəfər qazanmışdı[1]. Toğrul bəy oğuzların sayəsində Qərbi İranda mühüm uğurlar əldə etmiş, Büveyh oğulları dövlətini aradan götürmüş, xəlifəliyə və İraqi-Ərəbə hakim olmuş, oğuzların fəaliyyəti nəticəsində qüdrətini Bizans imperiyasına tanıtmışdı. İbrahim Yınalın əmrindəki İshaq oğlu İbrahim və Səxt Kaman ünvanlı oğuz bəyləri Həmədan bölgəsi və Kürdüstanın fəthində mühüm xidmətlər göstərmişdilər[2]. Buna baxmayaraq Toğrul bəylə qövmdaşlarının arası dəyməyə başladı ki, bu da dövlətin inkişaf çağlarının əvvəlində mühüm böhranların yaranmasına səbəb oldu.

Anlaşıldığına görə, Toğrul bəy və Alparslan öz eldaşları oğuzların əmrlərə arzu olunan dərəcədə itaət etməmələri və xüsusən də yağmaçılıq adətindən vaz keçməmələri üzündən şikayətçi idi. Hətta onlara qəznəvilərdən və deyləmilərdən keçən, yaxşı təlim görmüş türk məmlüklərini öz eldaşlarından üstün tutmağa başladıqları da görülmüşdür. Oğuzların öz başbuğlarına hörmət və itaətləri isə sərhədli və qarşılıqlı idi. Başbuğ da adətə görə bəzi vəzifələri yerinə yetirməli idi.

Bunlar olmadıqda hörmət və itaət ortadan qalxır, hirslə atlarına minən oğuzlar həmin ailəyə mənsub bir başqasının başına toplaşırdılar. Oğuzlar Toğrul bəyin onlara ürəkləri istəyən şəkildə yağmaya icazə vermədiyi üçün (halbuki o özü tez-tez yağmalı ziyafət verirdi), iranlı vəzirin təsiri altında olduğu üçün və məmlük əmirlərinə ən yaxşı vəzifələr bəxş etdiyi üçün ona qarşı kin bəsləyirdilər.

Toğrul bəy, Alparslan və başqaları həmişə yanlarında əmrə müntəzir, sadiq və itaətkar bir qüvvəyə sahib ola bilmək üçün Türküstandan Əndəlisə qədər islam aləminii hər bir ölkəsində xanədanlar tərəfindən qəbul edilmiş məmlük üsulunu mənimsəmişdilər. Hələ qəznəvilərlə mübarizə zamanı bir çox türk məmlükünün səlcuqlular tərəfinə keçdiyini bilirik. Dövlətin qurul-

---

[1] İbn ül-Cəvzi. əl-Müntəzəm, VIII, s.137; ibn əl-Əsir, IX, s. 226-227.

[2] İbn ül-Əsir, IX, s. 224, 248. Səxt Kamanın ünvan olduğu bəllidir, ancaq o hansı türk sözünün tərcüməsidir? «Qatı Yaylı»nın?

masından sonra həm qəznəvilərdən, həm də deyləmilərdən böyük miqdarda türk məmlükünün səlcuqluların xidmətinə girdiyi şübhəsizdir. Toğrul bəy və Alparslan itaətli, tərbiyəli, mühitə alışmış bu məmlükləri tez hirslənən, sərt xarakterli eldaşlarından üstün hesab edərək onları bacarıqlılarını mühüm vəzifələrə qoyurdular. M.H.Yınancın dediyi kimi[1], Toğrul bəyin və Alparslanın məmlük sistemini mənimsəmələrində başda vəzirlər olmaq üzrə iranlı dövlət ərkanının mühüm rolu olmuşdur. 1058-ci ildə Toğrul bəyə qarşı üsyan edən İbrahim Yınalın başına çoxlu oğuz yığılmışdı.

İbrahim Yınal hökmdar olacağı təqdirdə onların aşağıdakı arzularını yerinə yetirməyi qəbul etmişdi:

1. İraqi-Ərəbə yürüş etməmək. Oğuzlar Toğrul bəyin komandanlığı altında İraq səfərlərində çox sıxıntı çəkmişdilər, əvəzində əllərinə heç nə keçməmişdi.

2. Sultanla, yəni Toğrul bəylə sülh bağlamamaq. Bu ikinci şərt oğuzların Toğrul bəyə qarşı necə hikkə bəslədiklərini göstərir. Toğrul bəy kimi müdrik bir hökmdarın bütün uğurlarının yeganə rəhni olan öz qövmünü özündən iyrəndirməsi doğrudan da çox təəccüblü haldır.

3. Məsləhətsiz heç kimi vəzir qoymamaq. Bu xüsus göstərir ki, Toğrul bəyin oğuzlara qarşı davranışında vəzirlər əhəmiyyətli rol oynamışlar. Xəlifə tərəfindən məğribin və məşriqin hökmdarı elan edilən Toğrul bəy İbrahim Yınalın qarşısında təhlükəli günlər keçirdi. Əvvəlcə Həmədanda, sonra isə hökumət mərkəzi Reydə ağır vəziyyətlərə düşdü. Qardaşı uşaqları Alparslan, Kavurd və Yakuti öz qoşunları ilə köməyə gəlməsəydilər, çox ehtimal ki, hökmdarlığını itirəcəkdi. Toğrul bəyin əsir alınan İbrahim Yınalı öldürtməsində məmlük əmirlərindən Xumar Təgin də mühüm rol oynamışdı. Bir müddət sonra Yınalın oğulları əmilərinn başqa bir məsələ üstündə hirsləndirən bu əmiri onun icazəsilə öldürdülər. Toğrul bəyin hakimiyyətinin son illərində onun başlıca əmirləri Ərdəm, Gövhər-Eyn, Xumar Təgin, Ay Təgin Süleymani idi. Onların hamısı məmlük mənşəli idilər. Onlardan Gövhər-Eyn səlcuqlular tərəfinə büveyhilərdən keçmişdi.

Belə çıxır ki, Toğrul bəy eldaşlarını məmnun edəcək əsaslı tədbirlər görmürdü, çünki türkmənlərin narazılığı davam edirdi. Hətta Arslan yabğunun oğlu Qutalmış da üsyan edərək 10.000 atlı ilə Gird-Kuh qalasına çəkilmişdi.

Toğrul bəy öldükdən sonra qaladan çıxan Qutalmışın başına türkmənlərdən çox qələbəlik bir ordu (deyilənə görə 50 min atlı) toplandı. Bu türkmənlərin çoxu Rey ilə Həmədan arasındakı bölgədə yaşayırdı. Qutalmış belə böyük orduya sahib olduğu halda Alparslanla vuruşmada qalib gələ bilmədi. 456-cı ilin məhərrəm ayında (dekabr, 1064) baş verən vuruşda məğlub oldu, özü isə döyüş meydanından qaçarkən öldü. Bir mənbənin məlumatına görə, Alparslan öz eldaşlarından, yəni türkmənlərdən çoxlu adam öldürmüşdür.

[1] Anadolunun fəthi, s. 99.

Bu vuruşmada Alparslanın yanında Kül-Sarığ, Pəhləvan, Altun Tağ, Sav-Təgin, Buldacı, Sundacı, Sunqurca, Ağacı kimi əmirlər vardı ki, onların hamısı və ya əksəriyyəti məmlük mənşəli idi. Həm Toğrul bəyin, həm də Alparslanın böyük əmirləri arasında bir neçə türkmən bəyinin görünməməsi, həqiqətən təəccüblü haldır. Bu adlar məmlük sisteminin hələ səlcuqlu dövlətinin qurucuları dövründə necə də qüvvətlə mənimsənilmiş olduğunu göstərir.

Alparslan türklüyü nə qədər öysə də, eldaşları olan türkmənləri məmnun edən əsaslı tədbir görməmişdir. Belə anlaşılır ki, nə Toğrul bəy, nə Alparslan, nə də onun xələfləri məsələnin əhəmiyyətini başa düşməmişlər. Onların fəaliyyətində iranlı vəzirlərlə məmlük əmirlərin fikirlərinin daha üstün rol oynadığı açıq bir həqiqətdir. Alparslan məmlük əmirlərə mühüm vəzifələr tapşırarkən öz qövmündən olan bəylər Suriyada ərəb hökmdarların xidmətinə girməyə başlamışdılar ki, belə bir hadisə heç bir xalqın tarixində görünməmişdir.

Türkmənlər ancaq Bizans hüduduna göndərilir, orada onlara bir səlcuqlu şahzadəsi başçı təyin olunur, yaxud da onlar bir məmlük əmirinin buyruğuna verilirdilər. Belə əmirlərdən biri olan Gümüş Təgin 1069-cu ildə türkmən bəylərindən Bəgçi oğlu Afşin tərəfindən öldürülmüşdü. O biri il səlcuqlu xanədanının üzvü və eyni zamanda Alparslanın kürəkəni Ər-Basğanın Azərbaycandakı hüdud bölgəsində yaşayan navəkiyyə türkmənlərinin bir qismi ilə Bizans imperiyasına sığındığını bilirik. Ər-Basğanın nə üçün Alparslana asi olduğu məlum deyil. Halbuki Ər-Basğan Toğrul bəy öldüyü zaman Alparslanın taxta çıxmasını istəyən ən hərarətli tərəfdarlarından biri idi. Bu xüsus nə olursa-olsun, göstərilən misallar həll edilə bilməyən türkmən probleminin doğurduğu yeni böhranlardır. Ər-Basğanla birlikdə Bizans torpaqlarına girən navəkiyyələr həmin il oradan Suriyaya getmiş və burada işğal hərəkətlərinə girişmişdilər. Malazgird zəfəri türkmən məsələsinin dövlət üçün qismən də olsa, yeni böhranlar yaratmasının qabağını aldı. Türkmənlər xüsusilə Qutalmış oğullarının idarəsində Anadoluya yayıldılar. Ana yurddan İrana gələn türkmən elatları sonra oradan Anadoluya keçirdilər.

Alparslan 1072-ci ildə öldükdə qardaşı, Kirman məliki Kavurd böyük sultan olmaq üçün təşəbbüsə başladı. Bundan xəbər tutan Məlik şah və vəziri Nizamülmülkün ilk işi Rey-Həmədan arasındakı böyük düzənlikdə yaşayan türkmənlərin yanına getmək olmuşdur. Bu surətlə onlar xeyli pul sərf edərək türkmənlərin Kavurdun ətrafında toplanmasının qarşısını aldılar. Bu tədbir Kavurdun məğlubiyyətində mühüm amil oldusa da, türkmənlər zəfərin nəticəsindən köklü bir qazanc əldə edə bilmədilər. Məlik şah dövründə dövlət xidmətində ancaq bir neçə türkmən bəyi vardı ki, onlara da mühüm vəzifələr verilmirdi. Bu bəylərin ən tanınmışları soylu bir ailəyə mənsub və eyni zamanda ağıllı komandan olan Artuq bəy ilə Çabuq (Çubuq) və An-

takya hakimi Alp oğlu Yağı Sıyan idi. Onlardan hətta Artuq bəyə də xidməti və dəyəri ilə mütənasib olan vəzifə verilməmiş, nəticədə o, Məlik şah xidmətindən çıxaraq Suriya məliki Tutuşun yanında xidmətə girmiş və son günlərini Qüds valisi kimi başa vurmuşdur[1].

Ələlxüsus Məlikşah dövründə dövlətə hakim olan iranlı vəzir Nizamülmülkün türkmən probleminə büsbütün biganə qalmadığı bilinir. Nizamülmülk əsərində dövlətin ürkmənlərdən sıxıntı çəkdiyini göstərdikdən sonra türkmənlərin sayca çox olduğunu, bu dövlətin ilk illərində çox xidmət etdiklərini, zəhmətə qatlandıqları dövlətdə haqları olduqlarını bildirir və buna görə də hökmdarların qohumlarından və digər türkmən gənclərindən min və ya daha çox adamın məmlüklər kimi tərbiyə edilərək dövlət xidmətinə qəbul olunmalarını tövsiyə edir. Beləliklə, onların dövlətə qarşı duyduqları nifrətin ortadan qalxacağını, lazım gəldikdə 5-10 min adamlıq bir qüvvə ilə istənilən işin öhdəsindən gələcəklərini və dövlətin nemətlərindən faydalanacaqlarını yazır[2]. Ancaq iranlı vəzirin bu çox ağıllı tədbiri heç vaxt tətbiq edilməmişdir. M.H.Yınanc[3] Nizamülmülkü türkmənləri imperiyanın ən fəsadçı ünsürü sayıb, onların bəylərini iş başından uzaqlaşdırmaqda ittiham edir.

Səlcuqluların oğuz olmayan karluq, qıpçaq kimi digər türk qövmlərinə mənsub məmlüklər, yəni qullardan ibarət seçmə ordularının nə qədər qüvvətli və dövlətə necə hakim olduğunu Məlikşahın ölümündən sonrakı hadisələr açıqca göstərir. Hələ Məlikşah zamanında seçmə ordudakı 7 min erməni məmlük əsgəri Nizamulmülkün etirazına baxmayaraq ordudan qovulmuşdu ki, bunun türk məmlük əsgərinin əməli olduğuna şübhə yoxdur. Türkmənlər də daxil olmaq üzrə bütün qövmi zümrələrin paxıllığını çəkən və onları xor görən bu türk məmlük əsgəri osmanlılardakı yeniçərilər kimi qüvvətli bir həmrəylik şüuruna və bunun verdiyi hədsiz qürura sahib idilər[4].

Türk məmlük əmirlərinin də sultanlar kimi özlərinə tabe böyük miqdarda əsgəri qüvvələri vardı. Bu əmirlər atabəyləri olduqları səlcuqlu şahzadələri adından hərəkət edirmiş kimi görünərək hakimiyyəti ələ keçirmək üçün tez-tez meydana atılırdılar. Hətta hələ Məlikşahın ölümündən sonra səltənət mübarizələri zamanı Məlikşahın çox sevdiyi əmirlərindən biri olan Bilgə bəy ünvanlı Önür vəzir Nizamülmülkün oğullarından birinin təşviqi ilə İsfahanda özünü şah elan etmişdi.

Məmlük sistemi yalnız İran səlcuqlularında deyil, Anadolu səlcuqlularında, çox qısa davam edən Suriya səlcuqlularında da qəbul edilmişdi. Əlcəzair və Suriya hakimləri olan zəngilər də türk məmlük ailəsindən idilər.

---

[1] Artuq haqqında: Əli Sevim. Artuqluların soyu və Artuq bəyin siyasi fəaliyyəti. Belleten, XXVI, s. 101.

[2] Siyasətnamə. Xalxali nəşri, 1311, s. 73.

[3] Türkiyə tarixi. Anadolunun fəthi, s. 99.

[4] M.H.Yınancın Osmanlı dövlət adamlarının əksəriyyətinin döşürmələrdən çıxdığı sözü (Anadolunun fəthi, s. 92), şübhəsiz, çox mübaliğəlidir.

Suriyada zəngiləri əvəz edən kürd mənşəli Əyyubilər də bu sistemi davam etdirmişlər. Əyyubilərin məmlükləri 1250-ci ildə ağalarının hakimiyyətinə son qoyaraq əvvəlcə Misirdə, sonra isə Suriyada öz ökmranlıqlarını qurdular. Qəznəvilərin yerinə keçən gurların da seçmə ordularının türklərdən ibarət olduğu məlumdur.

Gur xanədanına mənsub türk məmlükləri isə Hindistanda bir məmlük sultanlığı yaratdılar. Hətta Mavəraünnəhrdəki qaraxani xanədanı belə bu sistemi mənimsəmişdir. Məsələn, Sultan Səncərin müasirlərindən Əhməd xanın 12 min türk məmlükü olduğunu bilirik. Bu misallardan belə çıxır ki, xanədanlar varlıqlarını əmniyyət altına almaq və hakimiyyətlərini davam etdirə bilmək üçün bu sistemi qəbul etmək məcburiyyətində idilər. Bu sistem qarşısında hərbi qəbilə sisteminin müvəffətiyyət qazanması asan iş deyildi.

İslam xanədanlarının öz seçmə ordularını türk məmlüklərindən təşkil etmələri məsələlərinə gəlincə, bu, məmlükləri asanlıqla toplaya bilməkdən deyil, onların hərb sənətinin vacib qıldığı xüsusiyyətlərə malik olmalarından doğurdu. Məsələn, Misirdə ən yüksək muzdla tutulan məmlüklərin türklər olduğu məlumdur. Türklər mahir minicilər olub at üstündə ustalıqla ox atır, nizə işlədirdilər, bundan başqa, iqlim şərtlərinə dözümlü, intizamlı, cəsur və soyuqqanlı insanlar idilər. Yeganə qüsur kimi gecə döyüşlərində bəzi qövmlərə nisbətən daha bacarıqsız olduqları söylənilir.

Hansı xanədana xidmət etməsindən asılı olmayaraq türk məmlük əsgərinin qövmi şüurdan məhrum olmadığına dair əlimizdə çoxlu dəlil vardı. Əsasən yad ellərdə - ərəb və əcəmlər arasında yaşamaları onlardakı qövmi şüuru qüvvətləndirdi. Fatimi xəlifəsi Misirdəki türk əsgərlərinin çıxmasını Nurəddin Mahmuddan xahiş edəndə bu hökmdar ona firənglərin nizələrinə ancaq türklərin oxları qarşı dura bilər, firənglər yalnız türklərdən qorxurlar deyə cavab vermişdi. Məmlük sistemi xüsusilə İran və Suriyada türkmənləri yüksək dövlət xidmətlərindən məhrum etmişsə də, əvəzində onların ərəblər kimi tənəzzülə uğramalarının qarşısını almışdır.

Bütün bunlarla bərabər türkmənlər büsbütün təcrid olunmuş deyildilər. Əslində, qələbəlik və vuruşqan olan bu qövmə qarşı hər hansı bir şəkildə hərəkətdə bulunmaq imkan xaricində idi. Bu səbəbdən türkmənlər hər yerdə, hətta Mavəraünnəhrdə belə dövlətlərin hərbi birləşmələri arasında yer tutdular, göytürk dövlətində olduğu kimi Anadoluda, İranda və Suriyada dövlətin əsaslandığı ikinci mühüm bir ünsür, bitməz-tükənməz ehtiyat qüvvə rolunu oynadılar, ərəblərin, kürdlərin və digər xalqların baş qaldırmasına mane oldular.

Türkmənlər Yaxın Şərqdə əsasən hüdud bölgülərində yurd salmışdılar. Bundan həm özləri, həm də tabe olduqları sülalələr razı idi. Onlar düşmən ölkələrə axınlar (hücumlar) etmək və oralardan gələn təhlükələri dəf eləmək surətilə bağlı olduqları xanədanlara xidmətdə bulunur, özləri üçün də «do-

yumluq» qazanırdılar. Türkmənlər hüdudlar üçün o qədər lazımlı ünsür idilər ki, İmadəddin Zəngi Şəhrizor bölgəsindəki yıva türkmənlərindən bir qismini səlibçilərin Suriyadakı hüdudlarına gətirərək orada onlara yurd vermişdi. Hüdudlardakı türkmənlərin ən qələbəlik kütləsi Anadoluda, Bizans hüdudlarındakılar idi, onların şöhrəti hər yana yayılmışdı.

Türkmənlərdən bəzi zümrələr isə sərhəd vilayətlərdə və hücra guşələrdə yaşayırdı. Türkmən bəylərinin bir çoxu doğrudan-doğruya, bölgələrin hakimi olduqları kimi, bir çoxu da dirlik (iqta) sahibi idi. Bəzi türkmən zümrələri isə dövlətə vergi verən rəiyyət vəziyyətində idi. Türkmən bəyləri də məmlük valiləri kimi fürsət düşdükcə yaşadıqları bölgələrdə və ya şəxsən özlərinin fəth etdikləri yerlərdə bəyliklər qurmuşdular.

Nəticə olaraq onu göstərək ki, başda öz doğma qövmlərinə biganə qalmaları üzündən səlcuqlu xanədanları və onların məmlükləri tarix səhnəsindən silinib getdilər. Halbuki türkmənlər türklüyün əsil nümayəndələri kimi onun varlığını davam etdirdilər. Türkmənlərin səlcuqlular dövründəki vəziyyətlərinə dair bu müştərək xüsusları qeyd etdikdən sonra indi ana yurddakılar da daxil olmaq üzrə onları ayrı-ayrı tədqiq etməyə çalışaq.

## I. MAVƏRAÜNNƏHR

Oğuzlar və ya türkmənlər səlcuqlular dövründə və sonra dalğalar halında Yaxın Şərq ölkələrinə gəlməklə birlikdə XII əsrin ikinci yarısında və monqol istilası zamanı onların mühüm bir qismi Buxara yaxınlığından Cənd və Yeni Kəndə qədər uzanan sahədə yaşayırdı. Sır-Dəryanın sağ sahilindəki torpaqlar qanlı-qıpçaqların əlində idi. O tərəfdə türkmənlərin olub-olmadığı dəqiq bilinmir. XII əsrdə Mavəraünnəhrdə qələbəlik bir karluq kütləsi də vardı. Onlar Qaraxanilərə itaət etmirdilər, əvəzində türkmənlərlə münasibətlərinin yaxşı olduğu görünür.

1156-cı ildə karluqlar Tamğaç İbrahim xanı öldürdülər. Buna cavab olaraq yeni xan Cəlaləddin Çağrı (Kök Sağun) karluq başbuğu Bəyğu xanı öldürdü, digərlərini isə qırmağı planlaşdırdı. Belə olduqda Bəyğu xanın uşaqları və digər karluq bəyləri Xarəzmşah İl-Arslana pənah apardılar. Kök Sağun karluqlara kömək məqsədilə İl-Arslanın böyük bir ordu ilə gəldiyini eşitcək Qara göldən Cəndə qədər uzanan bölgədəki türkmənləri bir yerə yığaraq Səmərqənddə müdafiə hazırlıqlarına başlamış, digər tərəfdən də qaraxıtaylardan kömək istəmişdi[1]. 1220-ci ildə monqollar Cənd, Özkənt, Barçınlı Kənt və Yeni Kənti aldıqdan sonra bu bölgədə yaşayan türkmənlərdən 10 min nəfərlik qoşun təşkil edərək onu Taynal noyonun tabeliyinə verdilər. Taynal bu qoşun da daxil olmaqla komandası altındakı ordu ilə Xarəzmə yü-

[1] Cüveyni. Tarixi-Cahanguşa. Mirzə Məhəmməd Qəzvini nəşri. Leyden, 1916, II, s. 15; İbrahim Kafesoğlu. Xarəzmşahlar dövləti tarixi, 1956, s, 80-81.

rüş etdi. Ancaq türkmənlər yolda üsyan edərək onlara başçı təyin olunmuş monqolu öldürdülər. Avanqardda gedən Tanyal bunu eşidib geri döndü və türkmənlərin əksəriyyətini qırdı, qalanları isə Mərv və Amuya tərəflərə qaçdılar. Beləliklə, monqol istilası səbəbilə köhnə yurdda qalan türkmənlərin çoxu buraları tərk edərək Xorasana toplaşdılar[1]. Bununla bərabər, 1273-74-cü illərdə Barçınlı Kəntdə olmuş Camal Karşi bu şəhərdə tərakimə, yəni türkmənlərin yaşadığını bildirir[2]. XIV əsrdən etibarən artıq Sır-Dərya boyunda türkmənlərin yaşadıqları barədə mənbələrdə məlumat verilmir.

## 2. MANQIŞLAQ

Türkmənlərin mühüm bir kütləsi X əsrdən bəri bu bölgədə yaşayırdı. Manqışlağın coğrafi mövqeyi səbəbilə buradakı türkmənlərin monqol istilasından ziyan çəkmədikləri bilinir. Türkmənlər burada əvvəlcə Qızıl Orda xanlarına, sonra isə Xarəzm hökmdarlarına tabe olaraq XVII əsrə qədər yaşamışlar.

## 3. BALXAN

Bura türkmənlərin ən təhlükəsiz yurdlarından biri idi. Belə ki, onlar həmişə yalnız burada məskun ola bilmişlər. Səlcuqlular dövründə bu bölgədəki türkmənlərin Manqışlaqdakına nisbətən sayca daha az olduqları məlumdur.

## 4. XORASAN

Səlcuqluların öz dövlətlərini Xorasanda qurmalarına baxmayaraq bu bölgədə aşağıda haqlarında danışılacaq oğuzlardan əvvəl az və əhəmiyyətsiz bir türkmən ünsürünün yaşadığı bilinir. 553-cü ildə (1158) Kuhistan bölgəsində yaşayan türkmənlərdən bir hissə o dövrlərdə Xorasanda fəaliyyətdə olan oğuzlara daxil deyildi. Özləri başqa yerdə olduqları vaxt bu türkmənlərin obalarına ismaililər hücum edərək davarlarını yağmalamış, arvad-uşaqlarını əsir almışdılar. Ancaq türkmənlər ismaililərin dalınca düşərək onları haxlamış, mallarını və ailələrini xilas etmiş, 9 nəfər istisna olmaqla ismaililəri tamamilə qırmışlar[3].

---

[1] Cüveyni. Həmin əsər, 1911, I, s. 70.

[2] Barthold. Türküstan. Mətnlər, s. 151; Mərkəzi Asiya tarixinə dair dörd dərs. Leyden, 1962, III, s. 130. Plano Karpini 1246-cı ildə Barçınlı Kənti xarabazara çevrilmiş halda görmüşdü.

[3] İbn ül-Əsir, XI, s. 107.

## SƏNCƏRİ ƏSİR ALAN OĞUZLAR

Bu oğuzlar Xorasana gəlməzdən əvvəl Mavəraünnəhrdə yaşayırdılar və karluqlar kimi qaraxani hökmdarı Məhəmməd Arslan xana (1101-1132) xidmət edirdilər. Onların Sır-Dərya boyunda Mavəraünnəhrə enmələri yəqin ki, qanlı-qıpçaqların təzyiqi ilə bağlıdır. Bu oğuzlar boz-ox və üç-ox adı ilə iki qola ayrılırdılar. Üç-oxların başında Dad bəy ünvanlı İshaq oğlu Tuti (Dudu), boz-oxlarınkında isə Əbdülhəmid oğlu Qorqud bəy dururdu. Oğuzlar xidmətində olduqları Qaraxani hökmdarları ilə yaxşı münasibətdə idilər. Ancaq karluqlar sonralar da olduğu kimi üsyan edirdilər.

1122-ci ildə Çindən qovulan xıtaylar Monqolustana getmək əvəzinə ürəklərinə yatan türk ölkəsinə gəlib qısa bir müddətdə Balasağun mərkəz olmaq üzrə qüdrətli bir dövlət qurmuşdular. İslam salnamələrində onlara qara-xıtaylar deyilir ki, buradakı «qara» sifəti Çindən qovulduqları və etibarlarını itirdikləri səbəbilə verilmiş olmalıdır. Karluqlar bu qara-xıtayların şəxsində özlərinə qüvvətli bir hami tapdılar. 1141-ci ildə Səmərqənd yaxınlığındakı Katvan çölündə qara-xıtay hökmdarı ilə Sultan Səncər arasında vuruşma baş verdi. Sultan Səncərin ordusunun ağır şəkildə məğlubiyyətə uğramasında qara-xıtay ordusunda vuruşan karluqlar mühüm rol oynadılar. Bu vuruşma nəticəsində Mavəraünnəhrdəki qaraxani xanədanı qara-xıtayların hakimiyyəti altına girdi, karluqlar isə qara-xıtayların köməyi ilə oğuzları buradan qovdular. Oğuzlar Bəlx və Xüttəlan bölgəsinə gəlib burada yurd saldılar. Onların sayının 40 min çadıra yaxın olduğu söylənsə də[1], zənnimizcə, bu, olduqca mübaliğəli bir rəqəmdir. Oğuzlar səlcuqlu sultanı Səncər tərəfindən dövlət xidmətinə qəbul olunmayaraq rəiyyət (qara camaat) hesab edildilər, vergiləri qoyun idi. Bu rəqəm də oğuzların 40 min çadır olmadığını göstərir.

Yuxarıda dediyimiz kimi, oğuzlar üç-ox və boz-ox adlı iki qola ayrılırdılar. Üç-oxların başında Tuti (Dudu), boz-oxların başında isə Qorqud bəy dururdu. Tuti bəyin atası İshaqın Dad bəy ünvanını daşıması onun olduqca nüfuzlu və məşhur bir şəxsiyyət olduğunu göstərir. Bu qol bəylərindən sonra Dinar, Bəxtiyar, Arslan, Çakır və Mahmud kimi bəylər gəlirdi. Bunlardan başqa, Qorqudun qardaşı Məhəmməd, Səncər, Böyük Davud və Səlmənçi kimi bəylərin olduğunu da bilirik. Qaynaqlarda göstərildiyinə görə bəylər varlı adamlardı.

Səncərin Bəlxdəki valisi Kımaç öz hakimiyyəti altındakı bölgədən oğuzların çıxıb getməsini tələb etdi. Oğuzlar onun tələbinə məhəl qoymadılar. Kımaçın ani bir hücumu qarşısında qəfil ovlanmamaq üçün bir yerə yığışdılar, başqa yerlərdə yaşayanlar da onlara qoşuldular. Türk-Aslan Buğa da oğuzlara qoşulmuş adamlardan biri idi. Kımaç, şübhəsiz ki, Səncərin razılığını alaraq bu tələbi irəli sürmüşdü. Bunun səbəbi isə Kımaçın oğuzlardan

[1] Mirxond. Rövzət üs-səfa, IV, s. 113.

gördüyü və vəfasızlıq kimi qiymətləndiyi bir hərəkət idi. Həqiqətən, 547-ci ildə (1152) gur dövlətinin banisi Əlaəddin Hüseyn Cahansuz Bəlxi mühasirəyə almış, Kımaç isə yanında oğuzlardan bir bölük olduğu halda ona qarşı çıxmışdı. Ancaq oğuzlar gurların tərəfinə keçmişdilər. Buna görə şəhər təslim olmuşdu. Xoşbəxtlikdən, Səncər vaxtında çataraq Əlaəddin Cahansuzu məğlub edib əsir almış, vəziyyəti düzəltmişdi. Cüzcaninin[1] məlumatına görə, gur xanədanının məğlubiyyətində isə ordusunun sağ cinahındakı oğuz, türk və xalaçların vuruşma zamanı Səncərin tərəfinə keçmələri mühüm səbəb olmuşdur.

Oğuzların bu yaşayış bölgəsindən köçüb getməyi rədd etdikləri üçün Kımaç hər halda Səncərdən icazə alaraq 10 min atlı ilə onların üzərinə yürüdü. Bunu eşidən oğuz bəyləri onun yanına gedərək burada qalmalarına icazə versə, ev başına 200 dirhəm ödəyəcəklərini söyləsələr də, Kımaç buna razı olmadı, üstəlik, bəylərlə pis rəftar elədi. Hirslə geri qayıdan bəylər atlandılar və Kımaçın qabağına çıxdılar. Baş verən döyüşdə oğuzlar parlaq bir zəfər qazandılar. Kımaç və oğlu əsir alınaraq öldürüldülər[2]. Bu hadisədən sonra oğuzlar Bəlx ətrafını yağmaladılar.

Kımacın məğlubiyyət xəbəri Bəlxə çatanda[3] Sultan Səncər qələbəlik bir ordu toplayaraq (deyilənə görə, 100 minlik) oğuzların üstünə yürüdü. Oğuzlar bu dəfə daha böyük təlaşa qapıldılar və Səncərin yanına göndərdikləri elçilər ona bu sözləri çatdırdılar: «Biz həmişə sultanın sadiq qulu olmuşuq. Kımaç ocağımıza qəsd elədi, arvad-uşağımız naminə onunla vuruşmaq məcburiyyətində qaldıq. 100 min dinar və 100 türk yeniyetməsi[4] verək, qoy sultan bizi bağışlasın»[5]. Səncər bəzi əmirlərin təsiri altına düşərək oğuzların xahişini rədd etdi. Hətta onlara yaxınlaşdığı zaman oğuzlar arvad-uşaqlarını qabaqlarına qatıb əfv olunmalarını xahiş etdilər və əvvəlki təkliflərinə əlavə olaraq ev başına yeddi batman gümüş verməyi öhdələrinə götürdülər[6]. Ancaq əmirlərin israrı ilə Səncər bu təklifi də rədd etdi. Səncər nə etmək istəyirdi? Öz qövmünü yer üzündən silmək, onların sərvətlərini, qızlarını-oğlanlarını ələ keçirmək? Halbuki bir il əvvəl torpağına təcavüz edərək yağmalayan və Kımaçı məğlub edən gur hökmdarı Əlaəddin Cahansuzu dustaq alarkən ona xələt geydirib öz ölkəsinə geri göndərmişdi.

Arvad-uşaqları ilə yalvarmağın Sultan Səncərin mərhəmət duyğularına təsir etmədiyini görən oğuzların çox zaman olduğu kimi ruhlarındakı qorxu-

[1] Cüzcani, I, s. 408.
[2] İbn ül-Əsir, XI, s. 38, 74, 79-81.
[3] Mətnlərdə bu söz Kımaç şəklində yazılır. Biz bunun Şəcəreyi-tərakimədəki (s. 80) Kımac ilə eyni olduğunu təxmin edirik.
[4] Ravəndi yeniyetmə sayını 1.000 göstərir (Rahət üs-südura. Məhəmməd İqbal nəşri. Leyden, 1921, s. 1921, s. 178). Bu rəqəm şübhəlidir.
[5] Rəşidəddin. Cami ət-təvarix. Zikri-tarixi-ali-Səlcuq, s. 94.
[6] Buradakı «ev başına» sözü, şübhəsiz, bəylər və ikinci dərəcəli rəislər barədə deyilmişdir.

nun yerini qəzəb tutdu. Bu səbəbdən ancaq yüz atlının keçə biləcəyi bir keçiddə əzmlə döyüşə hazırlaşdılar, keçiddəki yol üstündə tarğan düzəltdilər[1]. Oğuzlar burada Səncərin ordusunu bir həmlədə dağıtdılar (məhərrəm, 548-mart-aprel, 1153). Səncər bir dəstə əsgəri ilə pərişan halda Bəlxə tərəf qaçdı. Oğuzlar arxadan gəlib çatdılar, bir də vuruşma oldu. Səncər yenə məğlub olaraq səfər ayında (aprel-may) Mərvə getdi. Oğuzlar Mərvə hücum elədilər. Onların yaxınlaşdığını eşidən Səncər və əsgərləri döyüşməyə cəsarət etmədən oradan uzaqlaşdılar. Oğuzlar Mərvə girib şəhəri görünməmiş şəkildə yağmaladılar (cümadül-əvvəl). Bir müddət sonra Sultan Səncəri ələ keçirən oğuzlar hökmdarı taxta oturdaraq ona təzim etdilər və itaət edəcəklərini söylədilər[2]. Əslində isə Səncər dustaqdan başqa bir şey deyildi.

Oğuzlar mövcud vəziyyəti qorumaq və xarici müdaxilələrin qabağını almaq üçün Səncəri qorumağı və onu hökmdar kimi göstərməyi öz siyasətlərinə uyğun hesab edirdilər. Oğuzlar Səncəri də yanlarına alıb rəcəb ayında Mərvə qayıtdılar və şəhəri əvvəlkindən də daha qorxunc bir şəkildə yağmaladılar. Bu yağmaya xalqın onları təhrik etmiş olması mümkündür. Deyildiyinə görə, birinci və ya ikinci dəfə şəhər üst-üstə üç gün yağmalanmışdı. Oğuzlar bu yağma zamanı birinci gün qızıl, gümüş və ipək əşyaları, ikinci gün düyü, mis, tunc və dəmir əşyaları, üçüncü gün isə yataq-yastıq içini, küp, çömçə, qapı və çərçivələri alıb aparmışdılar. Bu, əslində yağmalı toy adətinin geniş miqyasda tətbiqindən başqa bir şey deyildi. Oğuzlar bozqırlarda həmişə mövcud olan bu adətin oturaq əhali yaşayan yerdə də həyata keçirilməsini təbii sayırdılar. Bu əsnada Nişapura qaçmış Sultan Səncərin əyan-əşrəf və əmirləri orada Səncərin qardaşı oğlu Sultan Məhəmməd Tapar oğlu Süleyman şahı hökmdar elan etdilər. Süleyman şah Mərv üzərinə yürüş eləsə də, onun əsgərləri oğuzlardan o qədər qorxmuşdular ki, onları görər-görməz arxalarına baxmadan qaçdılar. Onları təqib edən oğuzlar yolları üstündəki Tusu yağmaladıqdan sonra Nişapura gəldilər (şəvval, 548-dekabr - yanvar, 1153/1154).

Bu şəhər də Mərv kimi qorxunc şəklində yağmalandı. Yağmalar zamanı xeyli adam da qırılırdı. İsfərayin və Cüveynə qədər hər yanı yağmalayan oğuzlar Nişapuru təkrarən yağmalayaraq oradan uzaqlaşdılar. Bütün bu yürüşlər zamanı Səncər də yanlarında idi. Qaçmaması üçün onu dəmir bir qəfəsin içində saxlayırdılar. O dövrdə islam aləmində belə vəziyyətlərdə adətən bu cür hərəkət edirdilər.

---

[1] Tarğan: oğuzların müdafiə zamanı düşmənin hərəkətini və hücumunu çətinləşdirmək üçün ancaq kötükləri və s. düzəltdikləri maneə, barrikada.

[2] İbn ül-Əsir, XI, s. 81. Zahir Nişapuri (Rəşidəddin. Cami ət-təvarix. Zikri-tarixi-ali-Səlcuq, s. 95) və ibn ül-Əsirin nəql etdiyi digər bir rəvayət (XI, s. 79-80) Səncərin ilk vuruşmada əsir alındığını bildirir. Lakin biz ibn ül-Əsirin ikinci rəvayətini doğru hesab edirik, çünki burada hadisələrin ayı və günü göstərilir. "Əxbar ül-dövlət is-səlcuqiyyə"dəki ifadələr də (s. 123) ikinci rəvayəti təsdiq edir.

Səncərin ora-bura dağılmış əmirləri Nişapurda yığışaraq qaraxani Məhəmməd xanın oğlu, Səncərin qardaşı oğlu Mahmudu hökmdar elan etdilər. Sultan Mahmud həmin günlərdə Heratı mühasirəyə alan oğuzların üzərinə səfər etdi. Tərəflər arasında dəfələrlə vuruşma oldu, əksəriyyəti də oğuzların qələbəsilə başa çatdı. 550-ci ilin cümadiyül - əvvəl ayında (iyul-avqust, 1155) oğuzlar Mərvə qayıdaraq oradan Mahmuda elçi göndərib sülh bağladılar. Mahmud da öz sələfi Süleyman şah kimi zəif şəxsiyyət idi, bütün qüvvə əmir Müəyyəd Ay-Abanın əlində cəmləşmişdi. Ay-Aba Nişapurdan əlavə Tus, Nəsa və Abivərdi də ələ keçirmişdi. Səncərin digər əmiri Aytak da Rey bölgəsinə hakim olmuş, başına 10 min atlı yığmışdı[1].

Oğuzların əlindəki yerlər Bəlx, Mərv və Səraxs bölgələri idi. Belə görünür ki, bu ərazi onlara kifayət edirdi. Oğuzların obaları isə əvvəlki kimi Bəlx ətrafında yerləşirdi. Mahmud xanla sülh bağlandıqdan sonra Səncərin əmirləri Mərvə gedib onunla görüşə bilirdilər. Ancaq görüşdə oğuz bəylərindən Tuti bəy, Qorqud, yaxud Səlmənəçi və Böyük Davud hökmən iştirak edirdilər. 551-ci ildə (ramazan-oktyabr-noyabr, 1156) Müəyyəd Ay-Aba keşik çəkən oğuzları aldadaraq Səncəri Bəlxdən Termezə qaçırtdı. Bir müddət orada qaldıqdan sonra Səncər Mərvə gəldi. Bəlx bölgəsindəki oğuzlar Səncərin nə edəcəyini maraq və təşvişlə gözlədilər. 72 yaşlı ruhən düşkün, xəzinəsi boş, ölkəsi xarabazar, əsgəri dağılmış bir insan nə edə bilərdi? Gerçəkdən, Səncər heç bir təşəbbüsdə bulunmadan xilas olduqdan 7 ay sonra kədər içində Mərvdə öldü (14 rəbiüləvvəl 551-7 may 1156) və göy kaşısının birgünlük məsafədən göründüyü söylənən möhtəşəm türbəsində dəfn edildi. Beləliklə, qüdrət və həşəməti şair və mühərrirlər tərəfindən göylərə çıxarılan Sultan Səncərin aqibəti bu cür gözlənilməyən şəkildə sona çatdı. Heç şübhə yox idi, bu, öz doğma qövmünə qarşı ətrafındakı iranlılardan fərqlənməyən davranışın qaçınılmaz nəticəsi idi. Səncərin yaşlılığı ona haqq qazandırmır. Oğuzların bütün yalvarışlarını və əlverişli təkliflərini rədd etməsi onun öz eldaşlarını məhv eləmək düşüncəsində olduğuna zərrəcə şübhə yeri buraxmır. Halbuki hətta Sultan Mahmud Qəznəvi belə Səncərin bu oğuzlardan heç də daha az yağmaçı və daha az təhlükəli olmayan babaları haqqında bu qədər rəhmsiz davranışda bulunmamışdı.

Səlcuqluların öz eldaşlarına qarşı biganə və diqqətsiz qalmaları, onları dövlət xəzinəsindən məhrum etmələri, özlərinə isə təxminən yad bir qövm nəzəri ilə baxmaları türkmənlərə o qədər təsir eləmişdi ki, bunun acı xatirələri XVII əsrdə Xarəzm türkmənləri arasında hələ də yaşayırdı. Nəticə etibarilə bu biganəlik və yanlış hərəkət, yəni səlcuqluların həm İranda, həm də Anadoluda öz qövmlərinə qarşı bu davranişları öz dövlətlərinin süqutunda mühüm bir amil olmuşdur.

[1] İbn ül-Əsir, XI, s. 81-83.

Sultan Səncərin ölümündən sonra oğuzlar rahat nəfəs aldılar. İndi onlar Bəlx ətrafında yurd salmış, hətta yağmaçılıqdan vaz keçərək Sultan Mahmuda itaət etmək qərarına gəlmişdilər. Oğuzlar 553-cü ilin şaban ayında (avqust-sentyabr, 1158) Mərvə gəldilər, Sultan Mahmud və iqtidarı əslində öz əlində saxlayan Ay-Aba Səraxsda idilər. Ay-Aba qoşunla oğuzların üstünə yürüyərək onların bir bölüyu ilə qarşılaşıb qalib gəldi, hətta onları Mərvə qədər qovdu. Bu qalibiyyət cürətini artırmış və ona oğuzları tamamən ortadan qaldıracağı ümidini vermişdi.

Buna görə Sultan Mahmud da yanındakı oğuzlara hücum etdi. Ancaq Ay-Abanın bu ümidi başa çıxdı. Üç gün davam edən döyüşdə oğuzlar üç dəfə geri çəkilsələr də, axırda Ay-Abanı ağır bir məğlubiyyətə uğratdılar (9 şəvval - 3 noyabr). Bu qalibiyyət oğuzların öz qüvvələrini itirmədiklərini göstərdi. Onlar bu dəfə mərvlilərə xoş münasibət göstərsələr də, Səraxs və Tus şəhərlərini yağmalamaqdan vaz keçmədilər. Oğuzlar məğlubiyyətdən sonra Cürcana gəlmiş Sultan Mahmudun yanına ertəsi il (554-1159) elçilər göndərərək hökmdarları olması üçün onu Mərvə dəvət etdilər. Ancaq Mahmud inanmadığı və qorxduğu üçün onlara müsbət cavab vermədi. Belə olduqda oğuzlar ondan oğlunu göndərməyi xahiş etdilər. Mahmud buna razı oldu. Oğuzlar hökmdarlarını Nişapurda qarşıladılar, ona hörmət və təzimdə bulundular. Oğuzların bir hökmdara ehtiyac duymaları və hakimiyyətlərini qanuniləşdirmək zərurətilə əlaqədardır. Digər tərəfdən, bu hökmdar bəylər arasındakı anlaşmazlıqları da aradan qaldıraraq birliyi davam etdirməli idi.

Oğuzlar məşhur Tus şəhərini bir dəfə də yağmaladılar. Çünki tuslular onların hakimiyyətini tanımağı rədd etmişdilər. Oğuzlar Tusdan Nəsa və Abivərd tərəflərə getdilər, burada Sultan Mahmudla görüşüb onun hökmdarlığı qəbul etməsi haqqında razılığa gəldilər, sonra Nişapur və Səraxs yolu ilə birlikdə Mərvə qayıtdılar. Onlara itaət etməyən Ay-Aba Nişapura döndü və həmin bölgəyə hakim oldu.

Nəsa bölgəsində yazır boyu yaşayırdı. 555-ci ildə (1160) onların başçısı Ödək xan oğlu Yağmur xan idi. Yazırlar oğuz kütləsinə mənsub deyildilər, buraya isə Balxan yolu ilə Manqışlaqdan gəlmişdilər. Həmin il Xarəzmşah İl-Arslanın əsgərlərindən bir bölüyü yazırların üzərinə hücuma keçib onları pərən-pərən saldı. Yağmur xan oğuzların yanına gedərək onlardan kömək istədi. Onun fikrincə, Xarəzm əsgərlərinin yazırlara hücumu Səncərin əmirlərindən olan və Rey bölgəsini ələ keçirmiş Aytakın təhriki nəticəsində baş vermişdi. Oğuzlar Yağmur xanın Aytaka qarşı mübarizəsinə kömək edəcəklərini bildirdilər. Bundan xəbər tutan Aytak isə Mazandaran əmirini köməyə çağırdı. Dehistan yaxınlığında baş verən vuruşmada Aytak və Mazandaran əmiri ağır məğlubiyyətə uğradılar. 556-cı ilin əvvəlində (1161) Dehistan və Cürcanı yağmalayan oğuzlar Xorasana qayıtdılar[1].

[1] İbn ül-Əsir, XI, s. 103-105, 116, 117.

Nişapur və onun ətrafına hakim olan Ay-Aba Sultan Mahmudun hakimiyyətini tanımırdı. Buna görə oğuzlar Sultan Mahmud da yanlarında olmaqla Ay-Abaya hücum etdilər. Ay-Aba Şadiyahda mühasirəyə alındı. Bu əsnada Sultan Mahmud oğuzların yanından qaçaraq Nişapurun qala divarına sığındı. Görünür, o, oğuzların hakimiyyətini qəbul edə bilmirdi. Ancaq onun qısa bir müddət sonra bu hərəkəti üçün möhkəm peşmançılıq duyduğuna şübhə yoxdur. Çünki Ay-Aba onu və oğlunu yaxalayaraq gözlərinə mil çəkdirdi və ata-oğul bir-birinin ardınca dərin iztirablar içində vəfat etdilər (557-1162).

Oğuzlara gəlincə, onlar Sultan Mahmudun qaçmasından sonra Mərvə qayıtmışdılar. Mərv, Bəlx və Səraxs bilavasitə onların hakimiyyəti altında idi. Herat hakimi Ay-Təgin oğuzlarla dostluq münasibəti saxlayırdı. Oğuzlar hakim olduqları yerlərdə Səncərin adına xütbə oxudurdular ki, belə bir adət heç bir yerdə və heç bir zaman görünməmişdi. Xütbədə Səncərdən sonra o yerin hakimi olan bəyin adı oxunurdu. Ay-Aba isə Nişapur bölgəsi ilə Tus, Nəsa və Kumisin hakimi idi, xütbəni də İraq səlcuqlu sultanı Arslan şahın adına oxudurdu. Dehistan və Cürcan isə Aytakın əlində idi. O buralarda xütbəni Xarəzmşah İl-Arslanın adına oxudurdu[1].

558-ci ildə (1162) gur hökmdarı Seyfəddin Məhəmməd oğuzlara hücum etdi, lakin məğlub olaraq öldürüldü. 559-cu ildə (1163) oğuzlar bu qələbədən istifadə edərək Qəznəni aldılar və şəhəri uzun müddət əllərində saxladılar. Beləliklə, oğuzların bilavasitə idarələri altındakı bölgələrə (Mərv, Səraxs, Bəlx, Nəsa və Abivərd) məşhur Qəznə şəhəri və bölgəsi də əlavə olunmuşdu[2]. Hər bölgə bir oğuz bəyi tərəfindən idarə olunurdu. Herat hakimi Ay-Təgin də oğuzlara tabe idi. 559-cu ildə Taliqan və Qarcistanı fəth etmiş Sunqur da (Səncərin əmirlərindən biri) onlara vergi verirdi[3].

560-cı ildə (1164/1165) oğuzlar Heratı mühasirəyə aldılar. Çünki buranın hakimi, onların vassalı olan Ay-Təgin bir il əvvəl gurlarla döyüşdə ölmüş və heratlılar şəhərin möhkəm qala divarlarına və getdikcə qüdrətlənən Ay-Abanın köməyinə arxalanaraq oğuzlara itaət etməməyə başlamışdılar. Ancaq oğuzlar Ay-Abanın Səraxs tərəflərə hücumları ilə əlaqədar mühasirədən əl çəkib geri qayıtmaq məcburiyyətində qaldılar.

Oğuzların 560-cı ildən (1164/1165) sonra yavaş-yavaş siyasi əhəmiyyətlərini itirdikləri müşahidə olunur. Bu xüsus, şübhəsiz onların müştərək bir rəhbərliyə malik olmamaları və bu səbəbdən süquta uğramaları ilə əlaqədardır.

---

[1] İbn ül-Əsir, XI, s. 130-131.
[2] İbn ül-Əsir, XI, s. 131.
[3] İbn ül-Əsir, XI, s. 140, 141, 142; Cüzcani. Təbəqəti-Nasiri. Əbdül-Hey Həbibi nəşri, I, s, 278, 415, 466.

568-ci ildə (1172/1173) Mərv və Səraxs keçmiş bəylərdən Dinarın əlində idi. Tuti və Qorqud bəyin bu tarixdən əvvəl öldüyü qənaəti hasil olur. Bu dövrdə Xorasana bitişik iki ölkədə iki dövlət sürətlə yüksəlirdi. Bunlardan biri Heratla Qəznə arasındakı dağlıq ərazidə qurulan gur dövləti, digəri isə Xarəzm ölkəsində xarəzmşahlar dövləti idi. 567-ci ildə (1172) xarəzmşah İl-Arslanın ölümü dolayısı ilə onun yerinə keçən Sultan şah qara-xıtayların köməyi ilə böyük qardaşı Təkiş tərəfindən taxtdan uzaqlaşdırılmışdı. Xorasana gələn Sultan şah, göründüyü kimi, bu bölgənin mühüm bir qisminə hakim olan Müəyyəd Ay-Abanın köməyi ilə Xarəzm taxtını ələ keçirmək istədi, ancaq buna müvəffəq ola bilmədi. Baş verən vuruşmada Ay-Aba məğlub olaraq öldürüldü (569-1174), Sultan şah isə gurlara pənah apardı. Ancaq çox keçmədən Təkiş ilə qara-xıtayların arası dəydi. Vəziyyəti diqqətlə seyr edən Sultan şah münasib fürsətin ələ düşdüyünü görərək qara-xıtayların yanına getdi. Qara-xıtay kraliçəsi öz ərinin komandanlığı altında qüvvətli bir ordunu Sultan şaha köməyə göndərdi. Ancaq xalqın və ordunun Təkişə sədaqəti, habelə görülən tədbirlər sayəsində misilsiz döyüş gücünə malik qara-xıtay ordusu heç nə edə bilmədən geri qayıtdı. Sultan şah bəzi təəhhüdlər götürməklə qara-xıtay ordusundan bir qədər əsgər alıb Səraxsda olan Dinarın üstünə basqın elədi. Bu basqın nəticəsində Dinarın adamlarının əksəriyyəti öldürüldü. Dinara gəlincə, o özünü qalanın xəndəyinə atmışdı. Xoşbəxtlikdən, onu oradan xilas etdilər. Dinar sağ qalan oğuzlarla qalada gizləndi. Sultan şah daha heç nə edə bilməyəcəyini başa düşərək Mərvə qayıtdı və orada yaşamağa başladı.

Sultan şah çox fəal və cəsur insan idi. Mərvdən Səraxs üzərinə arasıkəsilməz hücumlar edirdi. Dinar bu hücumlara cavab verə bilmirdi. Buna görə də buyruğundakı oğuzların çoxu ondan üz çevirərək dağılmağa başladılar. Səraxsı Sultan şahın hücumlarından daha qoruya bilməyəcəyini başa düşən Dinar başda Nişapur olmaqla Xorasanın mühüm bir qisminə hakim olan Ay-Aba oğlu Toğan şaha Səraxsı Bistan ilə dəyişməyi təklif etdi. Toğan şah bu təklifi qəbul etdi. Ancaq Toğan şah da şəhəri müdafiə edə bilmədi. 576-cı ildə baş verən vuruşmada Sultan şah Toğan şahı məğlubiyyətə uğratdı, Səraxsı, sonra isə Tusu tutdu[1].

Sultan şahın Mərvi ələ keçirərək Səraxsa hücumlar etməsi və bu şəhərin onun tərəfindən Toğan şaha verilməsi oğuzların tarixində mühüm dönüş nöqtəsidir. Tarixləri dəqiq bilinməyən (569-576-cı illər arası) bu hadisələr

---

[1] İbn ül-Əsir, XI, s. 169; Cüveyni, II, s. 20-21 (hər ikisi bu faktı Məşarib üt-təcarib əsərindən götürmüşdür). İbn ül-Əsir (XI, s. 170) başqa bir salnaməçinin sözlərini nəql edir: Təkiş tərəfindən Xarəzmdən qovulan Sultan şah Mərvi zəbt etmiş və oğuzları buradan uzaqlaşdırmışdır. Ancaq oğuzlar geri qayıdaraq Sultan şahı Mərvdən qaçırmışlar, xəzinəni yağmalamış, adamlarının çoxunu öldürmüşlər. Buna görə də Sultan şah vədlər verərək qara-xıtaylardan mühüm miqdarda qoşun alaraq geri dönmüş, oğuzları Mərv, Səraxs, Nəsa və Abivərddən qovmuşdur.

nəticəsində oğuzlar demək olar ki, tamamilə dağıldılar. Yenə həmin illərdə Qəznə şəhəri də onların əlindən çıxdı. Oğuzlar Qəznədə tarğan vasitəsilə gurlara qarşı şiddətli müqavimət göstərsələr də, hətta əvvəlcə qalib gəlsələr də, sonra məğlub olmuşlar[1]. Bəlxin oğuzların əlindən nə vaxt çıxdığı isə bilinmir. Bu xüsusda bilinən şey odur ki, gurlar bu şəhəri 594-cü ildə (1197/1198) Öz-Aba adlı bir türkün əlindən almışlar.

Öz-Aba qara-xıtayları öz süzereni kimi tanıyır və onlara vergi verirdi[2]. Mərv və Səraxsın təslimindən sonra dağılan və Xorasandakı siyasi tarixləri sona çatan oğuzlardan mühüm bir kütlə Kirmana, qismən daha kiçik bir kütlə Farsa öz eldaşları salğurluların yanına getdi. Onlardan bir çoxunun isə Anadoluya getdiyi ehtimal edilir. Bistamda yaşayan Dinara gəlincə, o, xarəzmşah Təkişin İraqa yürüşü zamanı buranı da tərk edərək Nişapura, Toğan şahın yanına gəldi və onun bacısı ilə evləndi. Dinar Toğanın ölümünə qədər (məhərrəm, 581- aprel, 1185) onun yanında qaldı və həmin il Kirmana gedərək buranı ələ keçirdi. Bu barədə aşağıda bəhs ediləcəkdir.

Xorasanın mühüm bir hissəsinə hakim olan oğuzların sadəcə cəsur döyüşçülər deyil, döyüş üsullarını bilən və onları məharətlə tətbiq edən insanlar olduqları görünür. Ancaq səlcuqlu ailəsi kimi bir enerjili başçıları olmadığı və ya aralarından dövlət adamı xüsusiyyətlərini daşıyan bir şəxs çıxmadığı üçün zəfərlərindən lazımi səviyyədə faydalana bilməmiş və dövlət qura bilməmişdilər. Oğuzların başçılarından biri - əsilzadə Xızır oğlu İshaq oğlu Şəmsəddin əbu Şüca Tuti bəy ən nüfuzlu bəy kimi görünür. Ancaq onun bütün bəylərin başçısı olduğuna dair heç bir dəlil yoxdur. Bu xüsusda bilinən fakt Tutinin qol bəyi olmasıdır.

Oğuzlar hakimiyyətlərini qanuni etmək üçün başlarında sadəcə olaraq formal şəkildə hökmdarlıq edəcək bir adamın durmasını lüzumlu görürdülər. Sultan Mahmud bu iş üçün münasib adam olsa da, onların təhəkkümünə dözə bilməmişdi. Geniş miqyaslı yağmalar üçün bəyləri məzəmmət etməyə haqqımız yoxdur. Çünki buyruqlarındakı oğuzların onlara bağlılığı məhz bu xüsusla əlaqədardır. Bəylərin başçı olduqları adamlar üzərində hakimiyyətləri hüdudsuz deyildi.

Sultan Mahmudun qaçmasından sonra oğuzların zəbt etdikləri yerləri öz aralarında bölərək idarə etdikləri görünür. Anlaşıldığına görə, nüfuzlu bəylərdən hər biri Mərv, Səraxs, Bəlx, Qəznə kimi bölgələrdən birini idarə etmiş, məlik ünvanını almışdır. Dinarın hələ Xorasanda ikən bu ünvanı daşıdığı, boz-oxların başçısı Qorqudun da həmin ünvana sahib olduğu məlum-

---

[1] Cüzcani (Təbəqati-Nasiri, I, s. 422) bu hadisənin 569-cu ildə (1173-1174) baş verdiyini söyləyir. Ancaq özü iki yerdə (s. 287, 466) oğuzların Qəznədə 12 il hakim olduqlarını yazır. İbn ül-Əsir bu müddəti 15 il olaraq göstərir (XI, s. 75). Bu rəqəmlərə görə, Qəznənin oğuzlar tərəfindən 558-ci ildən əvvəl fəth edilməsi və ya 569-cu ildən sonra əllərindən çıxmış olması lazımdır.

[2] İbn ül-Əsir, XII, s. 63.

dur. Qorqudun qızı xarəzmşah Təkişin xatunlarından idi, oğuzların bir hissəsi isə keçməyərək kiçik kütlələr halında Xorasanda qalmışdı[1].

Monqolların Mavəraünnəhri istila etmələri nəticəsində oradakı türkmənlərin əksəriyyəti başda Mərv olmaq üzrə Xorasana gəldilər. Onların yalnız Mərv və Nəsa bölgəsində yaşayanlarının 70 mindən artıq əsgəri olduğu söylənir[2]. Monqollar Xorasanı qəti olaraq tutduqda oradakı türkmənlərin çoxu nicatı qərbə qaçmaqda tapdı və Anadoluya gəldi. Osmanlı xanədanının monqol istilası səbəbilə Mərv bölgəsindəki Mahandan türkmənlərlə birlikdə Anadoluya gəlməsi haqqındakı rəvayət bu baxımdan tarixi bir qiymət daşıyır. Türkiyədə Xorasandan gəlməyin xatirəsi əsrlər boyu unudulmayaraq bugünədək çatmışdır. Bu xatirədəki Xorasan sözü, şübhəsiz, sadəcə bu bölgəni deyil, eyni zamanda Türküstan və Xarəzmi də ifadə edir.

## 5. KİRMAN

Kirman bölgəsində səlcuqlu nəslindən Çağrı bəyin oğlu Kavurd Qara Aslan bəyin övladları hökm sürürdülər. Xanədanın bu qolu da digər qollar kimi başlıca olaraq türk məmlüklərinə istinad edirdi. Oğuzlar gəlməzdən əvvəl bu bölgədə qeyd edilməyə dəyər mühüm bir türkmən kütləsi yox idi. Xarəzmşahlar xanədanından Sultan şahın Səraxsı fəth etməsi nəticəsində dağılan oğuzlardan bir elat 575-ci ildə (1179) Kirman torpaqlarına ayaq basdı. Bu elat 5 min atlıdan ibarət olub yanlarında arvad-uşaqları, davar və arabaları vardı, özləri də olduqca yoxsul və yorğun görünürdülər. Sərhəd şəhərlərindən olan Kobanı iki-üç gün mühasirəyə alan oğuzlar bu şəhərlə Kirman bölgəsinin paytaxtı (məlik burada iqamət edirdi) Bərdəsir arasında yerləşən Zərənd şəhərinə gəldilər. Nə məqsədlə gəldiklərini öyrənmək üçün Kirman məliki Sunqur adlı bir nəfəri onların yanına göndərdi. Sunqur oğuzlardan Qeysər bəy adlı bir elçi ilə geri qayıtdı. Qeysər bəy gələnlərin 10 min ev olduğunu, hökmdarın yanında xidmət etmək üçün gəldiklərini, 5 min nəfərlik digər bir elatın Fars tərəfə getdiyini söylədi. Nəticədə, elatın başında duran Bulak və Samsamın hökmdarın yanına gəlmələri və oğuzlara iqamət verilməsi qərara alındı. Ancaq hər iki tərəf bir-birinə etimad təlqin etməmişdi. Belə bir fikir hasil olur ki, oğuzlar iqamət bəhanəsilə özlərinin dağıdılmaq istənildiyi qənaətinə varmışdılar. Buna görə də onlar paytaxt Bərdəsirin bir qədər cənub-qərbindəki Bagin şəhərinə gəlsələr də, hər hansı bir yağma hərəkətində bulunmadılar. Oğuzların bu hərəkəti itaət etməyəcəkləri kimi təfsir edildi və məmləkətdən uzaqlaşdırılmaları üçün Fars hakimi Salğurlu Tiglədən yardım xahiş edildi. Ancaq oğuzlar Bagində Kirman-Fars qüvvələrini

---

[1] İkinci hissədəki «Yazır» boyu fəslinə bax.

[2] Və tərakimə ki, ədədi mərdi işan əz həftad həzar füzun bud (türkmənlərin sayı 70 min nəfərdən artıq idi - tərcüməçi). (Cüveyni. Cahangüşa, 1, s. 125).

ağır bir məğlubiyyətə uğratdılar (575-1179). Bu mühüm qalibiyyətə baxmayaraq onlar paytaxtın - Bərdəsirin üzərinə getməyərək cənuba endilər və Cirufi şəhərini yağmaladılar. O biri il Kirmanda görünməmiş qıtlıq baş verdi. İnsanlar it və pişikləri yeməyə başladılar. Ancaq itləri yemək üçün mübarizə aparmaq lazım gəlirdi. Bəzən bu çarpışmada itlər qalib gələrək insanları yeyirdi. Həmin il oğuzlar paytaxta yönəldilər. Məqsədləri sülh bağlamaqdı. Onlar Turan şahın onlara padşah olmasını, hətta gəlib oğuzlarla birlikdə yaşamağını istəyirdilər. Bu xahiş qəbul olundu, bəylərə xələt geydirildi, hətta padşah Turan şah şəhər önündəki düzə enərək camaat arasında göründü. Oğuzların Xorasanda olduğu kimi burada da başlarında bir hökmdar görmək arzuları səmimi idi. Buna şübhə yoxdur. Ancaq Turan şah zəif şəxsiyyət idi, buna görə də qövmdaşlarını razı salacaq heç nə edə bilmədi, bu işdə dövlət adamları da ona kömək etmədilər. Onlar bütün arzularını yerinə yetirən kölələrdən istifadə etməyə alışdıqları üçün sərt xarakterli oğuzlardan xoşlanmır, hətta onlara nifrət bəsləyirdilər. Bundan dolayı oğuzlar paytaxtdan narazı, bəlkə də əsəbi halda getdilər. Oğuzlar padşahın özlərinə başçı olmasını, onları idarə etməsini arzulayırdılar. Oğuzlar cənub-şərqdəki Nəsa və Nərimaşir tərəflərinə üz tutdular. Əvvəlcə buralarda yağmaçılığa başladılar. Bu arada Xorasandakı kimi, gizlətdikləri pulların yerini öyrənmək üçün varlı adamların ağzına torpaq doldurmaq şəklində məşhur üsullarını tətbiq edirdilər. Kirmanlılar ağızlara doldurulan torpağa «oğuz qovudu» adını vermişdilər[1]. Ancaq bu, müvəqqəti bir hal idi. Çünki onlar Kirmanın Cərmsir deyilən bu cənub-şərq bölgəsini abadlaşdırmağa, torpaqları əkdirməyə başladılar, ticarəti canlandırmaq üçün tədbirlər gördülər. 579-cu ildə (1183/1184) Turan şah öz adamlarından Məhəmməd Zafir adlı bir şəxs tərəfindən öldürüldü və yerinə Bəhram şah oğlu Məhəmməd şah keçdi. O, Kirman səlcuqlularının son hökmdarıdır.

Nişapur mərkəz olmaq üzrə Xorasanın bir qisminə hakim olan Ay-Aba oğlu Toğan şah 581-ci ildə (1185) ölmüşdü. Onun yerinə oğlu Səncər şah keçsə də, iqtidar əmirlərdən Mənli Təginin əlində idi. Bu əmirin ağılsız hərəkətləri üzündən əmirlərdən bir çoxu həqiqətən qabiliyyətli bir hökmdar olan Sultan şahın xidmətinə girdilər. Toğan şahın kürəkəni olan Dinara gəlincə, o da Nişapurdan çıxaraq Kirmana ayaq basdı (21 ramazan, 581 - 16 dekabr, 1185). Dinarın adı Sultan Səncəri məğlub edən oğuzların başçısı olan bəylərdən biri kimi çəkilir[2]. Bu hesabla həmin dövrdə Dinarın yaşı 50-

---

[1] «Qağut» (qovud) darıdan hazırlanan bir yeməkdir. Hazırlanma üsulu belədir: darı qaynadılır, qurudulur, sonra döyülür, un kimi çəkilir, yağ və qəndlə qarışdırılır. Beləliklə, zahı qadına verilən yemək olur» (Kaşğari, Atalay, I, s. 406, III, 163; [Ramiz Əskər, I, s. 404, III, s. 162]). Qovud bu gün də Anadoluda məşhurdur. Mənim gördüyüm qovud qovrulmuş arpa (və ya buğda) ilə armud qurusunun (qax) üyüdülməsindən hazırlanmışdı. Yeyərkən insan az qala boğulur. Bu baxımdan bənzətmə yerindədir.

[2] İbn ül-Əsir, XI, s. 79.

dən çox olmamalı idi. Dinarın atasının adı Məhəmməddir, bu adda boz-oxların başçısı məlik Qorqudun bir qardaşı olduğu məlumdur[1].

Dinarın Kirmana gəlməsinin bir dəvət ilə əlaqədar olması ehtimal edilir. Yəqin onu oradakı oğuzlar dəvət etmişlər. Bundan başqa, Kobnan valisi Mücahiddinin də bir neçə dəfə Gürgənə gedərək Dinarı Kirmana dəvət etdiyi söylənir. Üstəlik, Dinarın Kirmana 80 atlı ilə gəlməsi belə bir ehtimalı qüvvətləndirir. Dinar birbaşa oğuzların olduğu Nərmaşirə getdi. Orada oğuzlarla görüşən Dinar Bam valisini itaət altına aldıqdan sonra şimal-şərqə yönələrək Zərəndi zəbt etdi. Vəziyyət belə olduqda Kirman hökmdarı Məhəmməd şah kömək istəmək üçün İraqa getdi və bir daha geri qayıtmadı. Dinar ertəsi il Bərdəsiri də fəth edib orada oturdu. Beləliklə, məlik Dinar heç bir çətinlik çəkmədən Kirman hökmdarı oldu.

Dinar Kirmanı uzun müddətdən bəri məhrum olduğu əmin-amanlığa və sakitliyə qovuşdurdu, oranı ədalətlə idarə etdi, öz qövmünə qarşı da mehribanlıq göstərdi. Onlar yenə əvvəlki kimi Nərmaşir, Nəsa və Reyhanda yaşayırdılar. Buralar Kirmanın ən yaxşı taxıl yetişən bölgəsi idi. Dinar öz hakimiyyətini dənizə qədər genişləndirmiş, qədimdən bəri Hindistan, Afrika və Ərəbistanla ticarət sayəsində çoxlu gəlirə sahib olan Qeys adasının hökmdarını da vergiyə bağlamışdı. Bundan əlavə Mərkan da tabeliyində idi. Türkləri, ələlxüsus da oğuzları heç sevməyən salnaməçi Əfzal Kirmani (Dinarın divanında yüksək mövqe tuturdu) Dinarın tərifini göylərə çıxarır. İmadəddin Dinar 8 illik hökmranlıqdan sonra 591-ci il zülqədə ayının 9-da (15 oktyabr 1195) vəfat etdi və yerinə oğlu Fərrux şah keçdi. O, qabiliyyətsiz, eyni zamanda içkiyə mübtəla, əyləncəyə düşkün bir gənc idi. Salnaməçi Ə.Kirmaninin Fərrux şahda bəyəndiyi yeganə cəhət onun oğuzlara nifrət etməsidir. Halbuki məlik Dinar nizam və asayişi oğuzların hesabına bərpa etmişdi. Kirmani bir əsərində[2] bu oğuzlara «qara ğuzz» (qara oğuz) deyir ki, bu «qara» sifətinin onlara Xorasanda siyasi əhəmiyyətlərini itirərək qovulmaları nəticəsində verilmiş olduğu anlaşılır.

Fərrux şah taxta çıxdıqdan sonra ondan gözü su içməyən oğuz bəyləri Seyfəddin Alparslan və Məndək paytaxtdan çıxaraq Gərmsirdəki eldaşlarının yanına getdilər. Fərrux şah məmlük və ya məmlük oğlu zabitlərin təsiri altına düşdü. Oğuzlara gəlincə, onlar da Fərrux şahın nifrətinə qarşı nifrətlə cavab verməkdə gecikmədilər. Eldaşları ilə bacara bilməyəcəyini görən Fərrux şah xarəzmşah Təkişə tabe olduğunu bildirərək kömək istədi. Təkiş nəvəsi Arslan xanın komandanlığında bir ordu göndərdi. Arslan Kirman sər-

---

[1] Görəsən, Dinar Qorqudun qardaşı Məhəmmədin oğludur? Bunu xatirə gətirən digər bir ehtimal budur ki, Dinarın uşaqlarından Əcəm şah Kirmandan Xarəzmə götürülərkən onun tərbiyəsi ilə Qorqudun qızı - xarəzmşah Təkişin xatunu məşğul olmuşdu.

[2] İqdü-l üla fi-l-mövqif il-ə'la. Tehran, 1311, şəmsi, s. 13, 18.

hədinə çatanda Fərrux şahın öldüyünü eşitdi və oğuzları öz qarşısında gördü. Bu səbəbdən geri qayıtdı.

Əlaəddin Fərrux şah 592-ci ildə (1195-1196) öldü. Oğuzlar Bərdəsir yörələrini heç nə qalmayacaq şəkildə yağmaladıqdan sonra obalarının yerləşdiyi Cərmsir bölgəsinə döndülər. Fərrux şahın qardaşı Əcəm şah kiçikyaşlı olduğu üçün Xarəzmə, Təkişin sarayına aparılmışdı. Əcəm şah orada Təkişin vəfatına qədər qaldı. Oğuzlara gəlincə, hökmdarsız olduqları üçün gur ölkəsindən Zirək Bəlcək adlı birini gətirib özlərinə hökmdar elədilər. Ancaq Zirəklə nüfuzlu bəylərdən biri olan Alparslan yola getmədilər. Alparslan fürsət tapıb onu öldürdü, özü padşah seçilsə də müvəffəqiyyət qazana bilmədi. Əcəm şah Təkişin ölümündən sonra Kirmana gəldi və oğuzların başçısı oldu. Ancaq oğuzların əvvəlki qüdrəti qalmamışdı. Buna görə də Kirman salğurların hakimiyyəti altına keçdi. Əcəm şah oğuzların bir qismi ilə Sistana getdi (609-cu ilin sonu - 1213). Əcəm şahın aqibəti haqda heç bir qeyd qalmamışdır[1]. Monqol dövründə Kirmanda türkmənlərin yaşadığı görünür[2]. Bu türkmənlərin heç olmasa bir qismi, şübhəsiz, bu oğuzların nəvələridir.

## 6. FARS VƏ XUZİSTAN

Səlcuqlu hökmdarları ana yurddan köçüb gələn türkmən elatlarının hüdudlara getmələrini təşviq etdikləri kimi dövlət hakimiyyətinin zəif bərqərar olduğu, kürd, lur kimi döyüşkən ünsürlərin yaşadığı dağlıq, qapalı, sərhəd bölgələrdə yurd salmalarını da xoşnudluqla, bəlkə də məmnunluqla qarşılayırdılar.

XII əsrdə türkmənlər, ümumiyyətlə, ya uclarda (hüdud), ya da bu kimi yerlərdə görünürlər. 1135-ci illərdə salğurlar Fars ölkəsində, əfşarlar isə Xuzistanda məskun idilər. Onların buraya yaxınlarda Sır-Dərya sahillərindən qopan bir türkmən dalğası içində gəldikləri məlumdur[3]. Yenə həmin dövrdə yıva boyundan mühüm bir qismin də Şəhrizor tərəflərində yaşadığını bilirik

---

[1] Oğuzların Kirmanda həyatları haqda: Əfzal Kirmani. Bəda ül-əzman fi vəqai-Kirman. Mehdi Bəyani nəşri. Tehran 1326; yenə onun: İqd'a ül-üla fi-l-mövqif il-ə'la. Əli Məhəmməd Əmir Nəimi nəşri. Tehran, 1311; yenə onun: Əl-müzaf ila bəda ül-əzman fi vəqai-Kirman. Abbas İqbal nəşri. Tehran, 1331; Məhəmməd ibn İbrahim. Təvarixi-ali-Səlcuq. M.T.Hutsma nəşri, I, Leyden, 1886; əsərin yeni nəşri: Səlcuqiyan və ğuzz dər Kirman. Bastani Parizi nəşri. Tehran, 1964.

[2] Nəsirəddin Münşi Kirmani. Sımt ul-üla li-l-həzrət l-ülya. Abbas İqbal nəşri, 1328, s. 76, 82, 85-86.

[3] Zərğub Şirazi. Şiraznamə. Bəhmən Kərimi nəşri. Tehran, 1310, s 48; (Vəssaf, Bombey, 1269, II, s. 149), 530-cu ildə (1135) Xuzistanda qələbəlik bir türkməm kütləsi yaşayırdı (ibn ül-Əsir, XI, s. 20).

ki, bunların da həmin kütləyə mənsub olmaları ehtimalı var. Farsdakı salğurlar göstərilən tarixdən bir neçə il sonra bir atabəy dövləti qurdular[1].

Əfşarlara gəlincə, onlar da Arslan oğlu Yaqub ilə Şumla ləqəbilə tanınmış Güc-Toğan oğlu Aydoğdu və onun oğullarının başçılığı altında bir müddət Xuzistana hakim oldular[2].

## 7. KÜRDÜSTAN

Əsasən Şəhrizor, Hulvan, Kirmanşah, Dinəvər yörələrindən ibarət olan bu bölgədə qədimdən bəri qələbəlik türkmən camaatı yaşayırdı. Hulvan və ətrafı Məlikşah dövründə məşhur türkmən sərkərdəsi Artuq bəyin iqtası idi. 495-ci ildə (1101) burada sal(ğ)urlardan Qara-Beli adlı bir bəyin kürd Ənnazoğulları sülaləsindən Söhrab bin Bədr bin Müxəlhili məğlub etməsi nəticəsində Şəhrizor və Dakuk (Tauk) istisna olmaq üzrə türkmənlər bölgənin hər tərəfini öz əllərinə keçirmişdilər. Qara-Beli haqqında başqa bir məlumatımız yoxdur. Yalnız Bağdaddan Marağaya gedən ana yolda Dinəvər ilə Marağa arasındakı bir keçid monqol dövrünə qədər onun adını daşımışdır. Şəhrizor şəhəri də bir müddət sonra türkmənlərin hakimiyyəti altına keçdi. Bu şəhər və Şəhrizor bölgəsi 525-ci ildə (1130) türkmən bəylərindən Arslan-Taş oğlu Əmir Qıfçağın (Qıpçaq) əlində idi. Əmir Qıfçağın yaxında-uzaqda yaşayan bütün türkmənlərin üstündə böyük nüfuzu vardı, hər yandan axışıb gələn türkmənlər onun ətrafında toplaşırdılar. 525-ci ildə İraq səlcuqlularının sultanı Mahmudun ölümündən sonra 526-cı ildə (1131) qardaşı Məsud səltənəti ələ keçirmək məqsədilə əsgər toplamaq üçün Əmir Qıfçağın yanına gəlmişdi. Burada 10 min atlı yığan Məsud Bağdad üzərinə hücuma keçdi[3]. Daha əvvəllər - 516-cı ilin sonlarında (1123) Abbasi xəlifəsi əl-Müstərşid Hillənin ərəb əmiri Dübeys bin Sədəqənin təcavüzlərinin qarşısını almaq üçün ətrafdakı əmirlərdən kömək istəmiş, buna görə Bitlis əmiri Toğan-Arslan, saltuqoğulları, buğaoğulları, Qıfçaq və qardaşları Bağdada gəlmişdilər. Mosul hakimi Ağ Sunqur oğlu İmadəddin Zəngi qonşu əmirləri itaət altına almadan səlibçilərə qarşı müvəffəqiyyətlə mübarizə apara bilməyəcəyini başa düşmüşdü. Bu səbəblə 534-cü ildə (1139/1140) Zəngi Şəhrizoru Qıfçağın əlindən almış və onu özünə tabe etmişdi[4]. Bununla bərabər Şəhrizor ölkəsində mühüm bir yörə Qıfçağın əlində qalmış və uzun müddət onun adı ilə (vilayət ül-Qıfçaqiyyə) adlanmışdı.

Qıfçağın iki oğlunun adı məlumdur: Məsud və Yaqub. Məsudun Ziyaəddin, Yaqubun isə İzzəddin Həsən adlı oğulları vardı. Mosulun şimalındakı

---

[1] Bu haqda «Salur» bəhsinə bax.
[2] Xuzistandakı əfşarlar üçün «Əfşar» bəhsinə bax.
[3] İbn ül-Əsir. Ət-tarix ül-bahir fi dövlət il-atabəgiyyə. Qahirə, 1288, II, s. 60, 64, 138.
[4] Həmin əsər, s. 57; yenə onun: əl-Kamil, XI, s. 34-35.

Malatya qəsəbəsinin hakimi olan Ziyaəddin 569-cu ildə (1173) Suriya hökmdarı Nurəddin Mahmudun xidmətinə girmişdi. Səlahəddin Əyyubi 585-ci ildə (1189) böyük əmirlərindən Farisəddin Küş-Toğdını (Güc-Doğdu) Şəhrizor bölgəsinə vali təyin etdi. Küş-Toğdı Qıfçağın nəvəsi İzzəddin Həsənin bacısı ilə evli idi. Sultan Küş-Toğdını məhz bu qohumluq dolayısı ilə Şəhrizor valiliyinə göndərmişdi[1]. Axırıncı səlcuqlu sultanı Toğrulun atabəy Qızıl Arslanla arası dəymişdi və onunla mübarizə edə bilmək üçün İzzəddin Həsənin yanına gəlmişdi. İzzəddin Həsən çox gənc olan Sultan Toğrula əlindən gələn köməyi elədi. Toğrul onun bacısı ilə evlənmişdi. İkisi birlikdə Azərbaycana gedib oradakı türkmənlərdən mühüm bir qüvvə toplasalar da, Qızıl Arslanla mübarizədə uğur qazanmadılar[2].

İbn ül-Əsirin bir qeydindən[3] türkmən qıfçaqoğullarının XIII əsrin ilk illərinədək Şəhrizor bölgəsində öz varlıqlarını davam etdirdikləri anlaşılır. Kürdüstan bölgəsində qələbəlik bir yıva kütləsi də yaşayırdı. İmadəddin Zəngi bu yıvaların bir qismini Yaruq adlı bəylərilə bərabər Şimali Suriyaya gətirib səlibçilərin qonşuluğunda yerləşdirmişdi. Kürdüstan bölgəsində qalan yıvalar isə Bərcəm və onun oğullarının idarəsi altında siyasi bir qüvvə kimi öz varlıqlarını monqol dövrünə qədər qorumuşlar[4].

## 8. AZƏRBAYCAN VƏ ARAN

Səlcuqlu fəthindən etibarən bu bölgədə çox qələbəlik sayda oğuz (türkmən) kütlələri yaşayırdı. Anadolunu fəth edən və oradakı türklüyü uzun bir zaman bəsləyənlər xüsusilə buradakı oğuz kütlələri olmuşdur. Alparslan dövründə bu oğuzlar arasında navəkiyyə adlı mühüm bir kütlə vardı. Bu sözün mənşəyi bu günədək aydınlaşdırılmamışdır. Navəkiyyələr də oradakı oğuzlar kimi tez-tez Bizans torpaqlarına hücum edirdilər. Alparslanın qohumlarından olan (eyni zamanda kürəkəni) Ər-Barsğanın onunla arası dəydi və navəkiyyələrdən bir bölüyü ilə Bizansın himayəsinə keçdi (1069). Bu navəkiyyələr sonralar Ər-Barsğandan ayrılaraq Suriyaya endilər və orada özbaşlarına fütuhata girişdilər[5]. Onların Azərbaycanda qalanları əvvəlki kimi Bizansa hücumları davam etdirirdilər. Hətta Qılınc Arslan İrandan Anadoluya gedərkən məiyyətində navəkiyyə əsgərləri vardı. Qılınc Arslanın atası və Türkiyə səlcuqluları dövlətinin banisi Süleyman şahın da navəkiyyələrə mənsubluğu barədə rəvayət bu kütlənin adının əslinə olan marağımızı artırır.

---

[1] Əbu Şamə. Ər-rövzəteyi fi əxbar id-dövləteyn. Qahirə, 1288, II, s. 60, 64, 138.

[2] Rəşidəddin. Cami ət-təvarix. A. Ataş nəşri, s. 179, 187; Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 178-180; İmadəddin İsfahani. Nüsrət ül-fitrə (Bundarinin ixtisarının türkcə tərcüməsi), s. 268-269; yenə onun: Kitab ül-fəth il-küssi. Karlo Landberq nəşri. Leyden, s. 234-235.

[3] Bir qədər aşağıya - «Suriya türkmənləri» bəhsinə bax.

[4] Yıva boyu bəhsinə bax.

[5] Aşağıya bax.

Ancaq təəssüf ki, onlar barədə bundan artıq heç nə bilmirik. Bu kütlə haqqında verilə biləcək son hökm onun Suriyada olduğu kimi Anadolunun fəthində də çox mühüm rol oynamasıdır. Azərbaycana və Arana ilk dövrlərdə məlik ünvanı ilə səlcuqlu şahzadələri göndərilirdi. Azərbaycan Məlikləri Toğrul bəydən sonra Alparslanın qardaşı Yaquti, sonra onun oğlu İsmayıl və nəvəsi Qütbəddin Mövdud idi. Qütbəddin Mövdudun ölümündən sonra Azərbaycana başqa səlcuqlu şahzadələri göndərilsə də, buranın həqiqi sahibləri səlcuqlu valiləri olmuşlar.

Sərhəd rayonu Arana gəlincə, mərkəzi Gəncə olan bu bölgədə ilk zamanlar Məhəmməd Tapar, sonra isə oğulları Toğrul və Məsud məliklik etmişlər. Onlardan sonra bura da məmlük valilər tərəfindən idarə olunmuşdur. Bu valilər eyni zamanda Azərbaycanın bir qismini də idarələri altına almışdılar. Onlar geniş və zəngin bölgə sahibi, sərhəd valisi olduqları üçün böyük ordulara sahib idilər. Bu səbəbdən İraq səlcuqlu dövlətinin ən qüdrətli valiləri onlar idilər və sultanlara hər zaman sözlərini qəbul etdirmiş, hətta onlara hökm etmişdilər. Qara Sunqur (ölümü: 535-1140/1141), Çavlı Candar (ölümü: 541-1146) və Eldəniz (571-1175) bu valilərin ən məşhurları idi. Eldəniz və oğulları atabəy sifətilə səlcuqlu dövlətinə hakim olmuşdular.

Azərbaycanda və İrandakı türkmən bəylərinin çoxu iqta sahibi idi. Bunlar oraların valilərinə tabe idilər. Gürcülərlə aparılan müharibələrdə həmişə iştirak edirdilər. Azərbaycandakı türkmənlər ələlxüsus Ərdəbil, Xoy, Urmiya və Naxçıvan tərəflərdə yaşayırdılar. Sonuncu böyük İraq səlcuqlu hökmdarı Məsud (1134-1152) Azərbaycanda rast gəldiyi Bəy Arslan adlı çox yaraşıqlı bir gənci öz xidmətinə götürərək qısa bir zamanda yüksəltmiş və ona xas bəy ünvanı vermişdi. Xas bəy Azərbaycanda Sərab və Ərdəbil tərəflərində olan oğuz bəylərindən və ya əyanlarından birinin oğlu idi. Məmlük əmirlər hökmdarın xas bəyə göstərdiyi bu rəğbəti həzm edə bilməmiş, onu sultanın yanından uzaqlaşdırmaq üçün hər şeyə əl atmışlarsa da, buna müvəffəq olmamışlar. Xas bəy bütün əmirlərin başçısı, yəni hacib oldu. Sultan Məsud 547-ci ildə (1152) öldüyü zaman xas bəy yenə də haciblik mövqeyini mühafizə edirdi. Sevimli hökmdarının ölümündən sonra xas bəy Sultan Məsudun qardaşı oğlu Məlikşahı taxta çıxardı. Ancaq o, hökmdarlıq edəcək xarakterdə adam deyildi. Buna görə taxta çıxarmaq üzrə Məhəmmədi dəvət etdi. Lakin dəvət üçün göndərdiyi adamlar Məhəmmədi xas bəyin öldürülməsi xüsusunda dilə tutdular. Xas bəy yaxın dostu Əmir Zəngi Candar ilə birlikdə öldürüldü. Yaxın dostlarından olan Əmir Şumla isə qaçıb canını qurtardı[1]. Əlimizdəki bir mənbəyə görə, xas bəylə birlikdə öldürülən yaxın dostu əmir Zəngi Candar da türkməndir[2].

---

[1] İbn ül-Əsir, s. 73.

[2] ibn Həmdun. Təzkirə. Topqapı sarayı kitabxanası, № 2498, vərəq 180 a.

Zəngi Candar bəzi əmirlərlə birləşərək Sultan Məsuda tabe olmayan Toğa-Yürək oğlu Əbdürrəhmanın[1] ortadan qaldırılmasında mühüm rol oynamışdı. Əmir Şumlaya gəlincə, o, əfşardır, ondan ayrıca bəhs ediləcəkdir. Beləliklə, xas bəyin iki yaxın yoldaşının özü kimi türkmən olması hər halda bir təsadüf nəticəsi deyil. Bu hal onun məmlük əmirlərə qarşı mübarizə üçün öz qövmdaşları olan bəyləri ətrafına yığmaq siyasəti güddüyünü göstərir. Hətta xas bəyin məlik Məhəmmədi Xuzistandan gətirmək üçün göndərdiyi əmir Cəmaləddin Kafşut da başqa bir mənbənin verdiyi məlumata görə türkmən idi[2]. Xas bəyin öldürülməsində başlıca rol oynayan Kafşut Sultan Məhəmmədin hacibi (bəylərbəyi) olmuş və özündən sonra oğlanları bir müddət Zəncanı idarə etmişlər.

Sultan Məsudun ölümü və bir il sonra Sultan Səncərin öz qövmü olan oğuzlara əsir düşməsi səlcuqlu xanədanının qüdrət və şövkətinin dağılmasına səbəb olmuşdur. Son Səlcuqlu sultanı Toğrul 586-cı ildə (1190) Qızıl Arslan tərəfindən yaxalanaraq Azərbaycanın Beyləqan yaxınlığındakı Kehran adlı bir qalada həbs edilmişdi. İki il sonra Qızıl Arslanın öldürülməsindən sonra Azərbaycandakı türkmən bəylərindən Anasıoğlu bin Mahmud əmirlərdən Bədrəddin Dizmari ilə birləşərək Toğrulu azad etdi. Bədrəddin ordu komandanı Anasıoğlu isə əmirbar oldu. Bu iki əmir üç min nəfərlik bir ordu hazırlayıb İraqa yürüş etdilər. Qəzvin ətrafında Qızıl Arslanın qardaşı oğlu Qutluğ İnanç ilə vuruşdular. Qutluğ İnancın 12 minlik ordusu tar-mar oldu, özü isə qaçdı (588-1192). Bu zəfərdən sonra Sultan Toğrul Həmədana gəldi və təkrarən səlcuqlu taxtına əyləşdi. Salnaməçi Ravəndi Toğrulun o zaman bu rübaini söylədiyini yazır:

Sanma ki, kimsə mənə kömək etdi,
Qılınc zəfər qazandı, tale oyanmışdı.
Qullarımdan vəfanı ancaq
Anasıoğlu Mahmud və Dizmari göstərdi[3].

Əmir Anasıoğlu bin Mahmud haqqında başqa bir məlumat yoxdur. Onun İraqın oğuz bəylərindən Anasıoğlunun soyuna mənsub olmasına dair dəlilimiz də yoxdur.

Cəlaləddin Xarəzmşah Azərbaycana gələrkən (1225-ci il) Arandakı türkmənlərin sayı hədsiz-hesabsız idi. Belə ki, onların çox olduqlarını göstərmək

---

[1] Yəni Tonqa Ürək. Məlum olduğu kimi tonqa qaplan cinsindən bir heyvanın adıdır. Bu ad insanlara da verilir (Atalay, III, s. 368; [Ramiz Əskər, III, s. 319]): Tonqa Tigin, Alp Ər Tonqa. Bu ad mətnlərdə Toğa-Yürək şəklindədir. Bu burada «nğ»nin «ğ» şəklində tələffüzündən başqa bir şey deyil: Tanğrı-tağrı kimi.
[2] Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 182.
[3] Rahət üs-südur, s. 369, A.Atəşin türkcəyə tərcüməsi. II, s. 399; Rəşidəddin. Səlcuqlular fəsli. A.Atəş nəşri, s. 189; Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 182.

üçün «qarışqa sürüsü» və «çəyirtkə buludu» sözləri işlədilirdi[1]. Bu dövrdə Arandakı türkmənlərin mühüm bir qisminin başçısı əmir Hüsaməddin Qılınc Arslan idi[2]. Lakin bir qədər sonra gələn monqollar Muğan və Arandakı türkmənləri buradan çıxardılar[3]. Türkmənlər Anadoluya getdilər. Monqolların gəlişindən cəlayirilər dövrünədək olan müddətdə Azərbaycan və Aranda türkmənlərin yaşadığına dair heç bir məlumatın qeydə alınmaması buralardakı türkmənlərin əksəriyyətinin Türkiyəyə köçmüş olduğunu göstərir.

## 9. İRAQ VƏ CƏZİRƏ

Bu ölkədə türkmənlər əsasən Mosul bölgəsində yaşayırdılar. Sultan Məhəmməd Tapar və onun oğlu Sultan Mahmud dövründə Bəsrədə böyük əmir Ak-Sunqur əl-Buxarininköməkçisi olan Sunqur əl-Bayati adlı bir əmir vardı. Yüksək mənsəbli adamlardan fərqli olaraq bu əmirin etnik mənsubiyyəti naməlum olduğu üçün əl-Bayati nisbəsinin bizim bayat boyu ilə bağlılığı xüsusunda şübhəmiz var. Ancaq bu kəlmənin başqa bir şəkildə izahı da mümkün deyil.

Bağdadın cənub-şərqində Badaraya vilayətinə daxil olan Bayat qəsəbəsinin adı ancaq XIII əsrdən etibarən çəkilir. Əmir Sunqur əl-Bayati zamanında Bəsrədə ismailiyyə türkləri və bulduqiyyə türkləri kimi əsgəri zümrələr var idi. İsmailiyyə türklərinin başçısı Qızoğlu, bulduqiyyə türklərinin başçısı isə Sunqur-Alp adlı bir əmir idi. Bu dövrə aid mənbələrdə Qızoğlu adına tez-tez təsadüf olunur. Məsələn, Məhəmməd Taparın böyük əmirlərindən birinin adı Qızoğlu idi. O həm də Taparın oğlu Mahmudun atabəyi idi. Buraya Sultan Məsud dövrünün əmirlərindən başqa bir Qızoğlunu da əlavə edə bilərik. Bu kəlmənin Ğuzz oğlu, yəni Oğuz oğlu kimi izah edilməsi bir qədər şübhəli görünür. Həmin dövrdə Bağdadda bəkçiyyə əmirləri vardı. Böyük ehtimala görə bunlar şəhərdəki sultanlara və böyük əmirlərə aid sarayların, qəsrlərin, kazarmaların mühafizəsinə təyin edilən əsgərlərin (bəkçilərin – keşikçilərin) əmirləridir.

Mosul bölgəsində iqtası olan Kür-Yavı adlı türkmən bəylərindən biri haqda məlumatımız var. Onun Xorasan adlı bir əmirin oğlu olduğunu da bilirik. Sultan Məhəmməd Tapar və onun oğlu Sultan Mahmud dövründə Kür-Yavı aşağı Zab sahilindəki Bəvazic qalasının və qalanın ətrafının sahibi idi. Sultan Məsudun hakimiyyəti dövründə həmin yer Kür-Yavının oğlunun əlində idi, ancaq oğlunun adı bilinmir.

Zəngilər dövlətinin türkmən əmirlərindən biri də Zeynəddin Əli Küçük (Kiçik-tərcüməçi) idi. Zeynəddin Əli uzun illər Mosul atabəyləri dövlətinin

[1] Nəsəvi, s. 374.
[2] Göstərilən əsər, s. 375, 383.
[3] Zəkəriyyə Qəzvini. Asar ül-bilad. Beyrut, 1380, s. 564.

işlərini enerji ilə idarə etdikdən sonra 1167/1168-si ildə Ərbilə çəkilmişdi. Onun atası Bəg-Təgin[1], babası isə Məhəmməd adlı bir adam idi. Zeynəddin Əlinin böyük oğlu və ikinci xələfi məşhur Müzəffərəddin Gök-Börü (Bozqurd) idi. Səlahəddin Əyyubinin kürəkəni olan Gök-Börü o dövrdəki səlib vuruşmalarının ən igid əmirlərindən biri idi. Tikdirdiyi ictimai əsərlərlə və xalqa göstərdiyi şəfqət və yardımlarla onun adı-sanı hər tərəfə yayılmışdı[2].

Nəvakiyyə türkmənləri 463-cü ildə (1070-1071) Suriyaya gəldilər. Bunların Ər-Barsğan ilə Anadoluya gedən nəvakiyyələr olduğu məlumdur. Onların başbuğu Qızlı (?) idi. Qızlıdan sonra Uvak oğlu Atsız və Şöklü adlı bəyləri gəlirdi. Qızlı fatimilərin Əkka valisi Bədrəddin Camalın xahişi ilə Suriyada yağmaçılıq edən ərəbləri qovdu. Bu nəvakiyyələr öz davranışları ilə Səncəri məğlub edib əsir alan oğuzlardan olduqca fərqli görünürlər. Onlar yerli əhalidən əkinçilər tutaraq ərəblərin günahı üzündən xarab olan Rumelidəki torpaqları becərtdirmişlər. Satılan zeytun məhsulundan 300 min dinar əldə edən əkinçilər miri haqqı olaraq nəvakiyyələrə 30 min dinar verdilər. Digər tərəfdən nəvakiyyələr şəhərləri yağma etməkdən daha çox hakimiyyətləri altına almaq üçün tuturdular. Beləliklə, Qızlıdan sonra nəvakiyyələrin hakimi olan Atsız Qüdsü, Dəməşqi (Şamı) və digər yerləri fəth etdi. XII əsrin əvvəllərindən etibarən nəvakiyyələrdən daha bəhs edilmir.

## 10. SURİYA

Səlcuqlu hökmdarı Məlikşah 470-ci ildə (1077) qardaşı Tutuşu Suriya məlikliyinə təyin edərkən onun məiyyətinə Bəkçi oğlu Afşin, Sandaq, Dimlaç oğlu Məhəmməd, Tutu oğlu və Bərik oğlu kimi qüvvətli bəyləri daxil etmişdi. Bunlar eyni zamanda Anadolunun fəthində mühüm rol oynamış bəylər idi. Böyük əmir Afşinin aqibəti haqda heç bir qeydə təsadüf edilmir.

XII əsrdə İmadəddin Zəngi Hələb əmiri olduqdan sonra Şəhrizor-Ərbil bölgəsindəki yıvaların mühüm bir qismini Hələb bölgəsinə gətirmiş və onlara səlibçilərə yaxın yerdə iqta vermişdi. Bu Suriya yıvaları öz başçıları Yaruğa görə yaruqiyyə (yaruqlu) adını almışlar. Əmir Bahəddin Yaruq 564-cü ildə (1168) ölmüş, oğlu Bədrəddin Doldurum onun xələfi olmuşdur. Tell-Başir və Tell-Xalid əmiri olan Bədrəddin Doldurum Nurəddin Mahmudun və Səlahəddinin dövründəki ən qüvvətli əmirlərdən biri idi. O, 611-ci ildə (1218) ölmüş, Hələbdə ona yas mərasimi düzəldilmişdi. Ondan sonra isə oğlu Fəthüddin Tell-Başir əmiri olmuşdur. 615-ci ildə (1218) Tell-Başir səlcuqlu sultanı İzzəddin Keykavusun ordusu tərəfindən zəbt edilmişdir. Ancaq avanqard hissəsinin məğlub olması səbəbilə səlcuqlu ordusu geri dönərkən

[1] İbn Xəlliqan (Vəfayat ül-əyan. Qahirə, 1948, III, s. 277) bu adın Bük-Tigin kimi oxunmasının doğru olduğunu söyləyir.
[2] Gök-Börü haqqında bax: İ. Kafesoğlu, Gök-Böri. İ.A., VI, s. 885-892.

bura Məlikül-əşrəf tərəfindən alınmış, lakin yaruqlara deyil, Hələb hökmdarı əl-Əzizin adamlarına verilmişdir. Bundan sonra yaruqlar siyasi əhəmiyyətlərini itirmiş, Hələbdə yaşayaraq onlar üçün ayrılmış iqtalarla keçinmişlər.

XIII əsrin birinci yarısında Hələb bölgəsində yaşayan türkmənlərə Dudu oğlu və Konqur (Kanqar) adlı bəylər rəhbərlik edirdilər. Monqollar Anadolunu öz hakimiyyətləri altına aldıqdan sonra Suriyaya qələbəlik bir türkmən elatı köçdü ki, aşağıda bu elat haqqında məlumat veriləcəkdir.

## 11. ANADOLU

Malazgirt vuruşmasından keçən 10 il ərzində türklər Adalar dənizi və Mərmərəyə qədər olan yerləri fəth etdilər. Ancaq əsrin sonlarında başlayan səlib yürüşləri səbəbilə başda Qərbi Anadolu və Mərmərə bölgələri olmaq üzrə fəth etdikləri yerlərin mühüm bir qismini itirərək Orta Anadoluya çəkilmək məcburiyyətində qaldılar. Səlib yürüşləri dolayısı ilə qüvvətlənən Bizans türkləri Orta Anadoludan da qovmaq ümidinə qapılmışdı. Ancaq II Qılınc Arslan (1155-1192) 1176-cı ildə bizanslıları ağır bir məğlubiyyətə uğradaraq bu ümidi puç etdi.

Türklər bu zəfərdən sonra yavaş-yavaş öz torpaqlarını Bizans hesabına genişləndirməyə başladılar. 1243-cü il Kosa-Dağ məğlubiyyətindən əvvəl türklər şimalda və cənubda dənizə çatmış, qərbdə isə Dənizli və Kütahyaya qədər getmişdilər. Cənubda Çuxurovdakı erməni krallığı vergi və əsgər verməyə məcbur edilsə də, bu krallıq səlibçilərin köməyi ilə yenə Tarsusdan Gavur dağlarına qədər uzanan bölgəni əlində tuta bilmişdir.

Səlcuqlu ailəsinin atası Arslan, yuxarıda gördüyümüz kimi, oğuzların kralı idi. Onun oğlu Qutalmış da oğuzlara arxalanaraq səltənət uğrunda mübarizəyə girişmiş, Qutalmışın oğulları Anadoluda fəthlərini onların sayəsində həyata keçirmişlər. Bununla bərabər, xanədanın bu qolu da digərləri kimi məmlük sistemini qəbul etdi. Çünki o dövrlərdə hər bir xanədan üçün bu sistemi qəbul etmək sanki bir zərurət idi. Xanədanın yaşaması və qüdrəti ona bağlı idi. Hər yerdə önünə çıxanı məhv edən monqol qasırğası bu sistemi tam olaraq tətbiq edən bir dövlət qarşısında dayanmaq məcburiyyətində qaldı. Bununla bərabər, Türkiyə səlcuqlularında yenə də dövlətin arxalandığı əsil hərbi qüvvə xanədanın öz qövmü, yəni türkmənlər idi. Türkmənlər bu ölkədə köçərilikdən əl çəkərək oturaq yaşayışa keçməyə başladılar. Onlar daha çox kəndlər salaraq və ya tərk edilmiş kəndlərdə sakin olmaq surətilə yerləşirdilər.

Səlcuqlu ordusuna enerjili sipahi əsgərlərini də məhz onlar verirdilər. Oturaq həyata keçən türkmənlərə bir müddət sonra artıq türkmən deyil, türk deməyə başladılar. Köçərilərin sayının həmişə çox olmasına gəlincə, bunun

ən mühüm səbəbi Azərbaycan, Aran və Orta Asiyadan buraya arası kəsilmədən davam edən köçlərdir. Bu hal, yəni fasiləsiz köçlər səlib səfərlərinin başlanmasından sonra səlcuqlu dövlətinin Anadoluda öz varlığını davam etdirməsində, sonra isə Yaxın Şərqin ən qüvvətli dövləti səviyyəsinə yüksəlməsində çox mühüm amil olmuşdur.

Köçəri türk ünsürü, yəni türkmənlər bir qayda olaraq hüdudlarda bulunurdu. Bizans hüdudunda yaşayan uc türkmənlərinin şöhrəti Xorasana qədər yayılmış və onlar yunanlara qarşı uğurlu döyüşlərilə müsəlman və qeyri-müsəlman müəlliflərin əsərlərində bəhs mövzusu olmuşlar. Hətta uc (sərhəd, hüdud) sözünün mənasını bilməyən müəlliflər bunu onların adı hesab etmişlər. Monqol istilası səbəbilə axışıb gələn çoxsaylı yeni ünsürlər hesabına güclənən uc türkmənləri səlcuqlu dövlətinin ikinci dəfə fəth edə bilmədiyi Qərbi Anadolu və Mərmərə bölgələrini təkbaşına alaraq burada yerləşmişlər.

Şərqi və Cənub-Şərqi Anadolunun hər bir bölgəsi və ya yörəsi bir türk xanədanının əlində idi. Onların bir-birinə qarşı münasibəti ümumiyyətlə dostcasına olmuş, bir-birinin haqq və hüququna hörmət etmişlər. Bu xanədanları özlərindən biri deyil, səlcuqlular və əyyubilər kimi qonşu dövlətlər ortadan qaldırmışlar. Bu xanədanlara xas olan ikinci bir xüsusiyyət odur ki, onlar öz fəaliyyətlərinin mühüm bir qismini məmləkətlərinin abadlığına sərf etmişlər. Onların vücuda gətirdikləri ictimai əsərlər zəmanəmizə gəlib çatmışdır. Səlcuqlular dövründə Şərqi və Cənub-Şərqi Anadoludakı türk xanədanlarının hakim olduqları bölgənin türkləşdirilməsində nə dərəcədə rol oynadıqları yaxşı bilinmir.

Həmin xanədanların başlıcası bunlardır: Ərzurum bölgəsində saltuqlar, Ərzincan bölgəsində məngücüklər, Axlatda ərmənşahlar, Mardin, Xısn-Keyfa, Məyyafariqində (indiki Silvan) artuqlar, Amiddə (Diyarbəkir) İnal (Yınal) oğulları, Bitlis-Ərzəndə Toğan Arslan oğulları, Xarputda və Muşda Çubuq və oğlu. Bunlardan Artuq oğulları, Toğan Arslan oğulları, İnal oğulları və Çubuğun qəti olaraq türkmən olduqlarını bildiyimiz kimi, saltuqların və məngücüklərin də eyni qövmə mənsub olduqları şübhəsizdir.

Ərmənşahlara gəlincə, bunlar bir türk məmlük sülaləsi idi. Bu türkmən xanədanları içində ən məşhurunun artuqlar olduğu məlumdur. Artuqlar Məlikşah dövrünün böyük komandanlarından olan Artuq bəydən başlanır. Artuq bəyin atası Əksükün salar (komandan) ünvanını daşıması onun adi bir şəxsiyyət olmadığını göstərir. Artuqlar ailəsi türkmənlər arasında əlahiddə bir mövqe sahibi idi. Artuq bəyin oğullarından Sökmən türk adətinə uyğun olaraq türkmənləri dəvət etmək üçün onlara ox göndərəndə türkmənlər bu dəvəti böyük bir sevinclə qarşılayırdılar[1].

Artuqların türkmənlər arasında əsil-nəcabətli və mümtaz bir ailə sayılmasında onların Artuq və Əksük bəylərdən əvvəlki başçılarının da xidməti

---

[1] Oxumaq - dəvət etmək, oxuntu - dəvət hədiyyəsi ifadələri buradan yaranmışdır.

vardır. Bir salnaməçi artuqları iki böyük türkmən xanədanından (digəri-səlcuqlulardır) biri kimi təqdim edir. Bu xanədandan İl-Qazi və Sökmən qardaşları və onların qardaşı oğlu Bələk səlib vuruşmalarının tanınmış simalarındandır. Əyyubi dövlətinin qurulması kürdləri bir qədər əhəmiyyətli mövqeyə çıxardı. Bu dövlətin Şərqi və Cənub-Şərqi Anadoluda bəzi yerlərə hakim olması həmin yerlərin etnik çöhrəsinə təsir etdi və kürdlər bu bölgələrdə keçmişdəkinə nisbətən daha geniş sahəyə yayıldılar. Əyyubi ordusundakı türklər və kürdlər bir-birini sevmirdilər. Bu düşmənçilik axırda «əkrad»ın (kürd sözünün ərəbcə cəmidir - tərcüməçi) ləğv edilməsinə səbəb oldu.

Səlahəddin Əyyubinin Qüdsü fəth etməsi münasibətilə yazılan mənzumələrdə kürdlər deyil, məhz türklər vəsf olunurdu. 1185-ci ildə Cənub-Şərqi Anadoluda qələbəlik bir türkmən elatı meydana çıxdı. Bu türkmənlər ümumiyyətlə Mosul-Rəqqa və Urfa dolaylarında qışlayırdılar. Onların qəfil meydana çıxmış kimi görünmələri həmin türkmənlərin buraya Xorasandan gəlmiş olduqları qənaətini yaradır. Həqiqətən, yuxarıda da deyildiyi kimi, xarəzmşah Sultan şahın 568-ci ildə (1173) oğuzların əlindəki Səraxsı tutmasından sonra Mərv-Səraxs bölgəsində qələbəlik halda yaşayan oğuzlar dağılışmışdılar. Yəqin ki, bu türkmənlər dağılan Xorasan oğuzlarının bir qoludur. Onlar sayca qələbəlik olub yaylaq və qışlaq üçün geniş bir bölgədə hərəkət etdiklərindən öz təsirlərini hər tərəfdə hiss etdirirdilər. Onların başçıları Rüstəm adlı bir bəy idi. Həmin il (1185) bu türkmənlərlə kürdlər arasında kürdlərin yol kəsməyi və ya türkmən toyunda iştirak etmək istəmələri üzündən şiddətli bir vuruşma başladı. Qartallarla leyləklərin çarpışmasını andıran bu vuruşma Cəzirət ibn Umar (indiki Cizrə) yörəsindən tutmuş, Mosul, Diyarbəkir, Axlat, Suriya, Malatya bölgələrinə, hətta Azərbaycana qədər yayılmaq üzrə geniş bir sahədə cərəyan etdi. Həmişəki kimi birinci dərəcəli savaşçı olduğuna şübhə edilməyən türkmənlər hər yerdə kürdləri ağır məğlubiyyətə uğratdılar. Suriyalı Mixailin məlumatına görə, Suriyada və İraqda kürd xalqı tamamilə yer üzündən silindi. Kürdlərə sığınacaq verən və türkmənlərə əsir düşən 20 min xristian da pulla satıldı. Bu türkmənlər yaylağa çıxdıqları zaman Gürcüstana da axınlar təşkil etdilər. Onlardan mühüm bir qisminin sonra səlcuqlu hökmdarı II Qılınc Arslanın oğlu Sivas valisi Qütbəddin Məlikşahın xidmətinə daxil olduğu və Frederik Barbarosun almanları ilə vuruşduğu anlaşılır. Səlcuqlu dövründəki türkmənlərin tarixinə aid verilən bu geniş xülasə burada sona çatır. Bu xülasədən aşağıdakı nəticələri çıxarmaq mümkündür.

Oğuzlar və ya türkmənlər səlcuqlu dövlətini qurmuş, bu dövlətin böyüməsində başlıca rol oynamışlar. Dövlətin qurulmasından tənəzzülünə qədər xanədan üzvləri arasında davam edən taxt-tac uğrunda mübarizəyə, əmirlərin üsyanlarına, hökmdarlarla öz qövmü arasındakı anlaşmazlıqlara və vuruşmalara baxmayaraq türk hakimiyyətinin davamlı olmasında onlar çox

mühüm bir amil olmuşlar. Orta Asiyadan gələn köç dalğaları türkmənləri daim gücləndirirdi.

Səlcuqlulardan başqa Farsdakı salğurlar, bərçəmoğulları, qıfçaqoğulları, qarabəlililər, yaruqlar, şumlaoğulları, bəy tiginlər, artuqlar, inaloğulları, toğan arslanlar, saltuqlar və məngücüklər onlara mənsub idilər. İranda səlcuqlu xanədanının ortadan qalxması onların siyasi əhəmiyyətini azaltmamış, bəlkə də artırmışdır.

## 12. MİSİR, AFRİKA VƏ YƏMƏNDƏ TÜRKMƏNLƏR

Oğuz ili köçüb yürümədük yol barmu?
İvin tutub olturmaduk yurt barmu?
*(Şəcəreyi - tərakimə, s. 62).*

Suriya hökmdarı Nurəddin Mahmudun əmir Əsədəddin Şir-Kuh komandanlığında Misirə göndərdiyi qüvvələr arasında xeyli türkmən də vardı. Əl-əlxüsus 564-cü ildəki (1169) üçüncü səfəri zamanı Şir-Kuhun komandanlığındakı orduda 6 min türkmən olduğu məlumdur. Misirlilər bu türkmənlərə ğuzz deyirdilər[1]. Bu söz haradan gəlir? Onlar Yaxın Şərqə yeni gəldikləri üçün bu adla anılmışlar, yoxsa qədim bir ənənə ilə, yəni Atsızın qövmündən olduqları üçün onlara oğuz deyilmişdir? Bu xüsus bilinmir.

Anlaşıldığına görə, bunlardan bir qismi 568-ci ildə (1172/1173) Səlahəddin Əyyubinin qardaşı Təqiəddin Ömərin məmlükü Qaraquş komandanlığında Misirdən Trablisə gələrək buranı və Mehdiya istisna olmaqla İfriqiyyəni köçəri ərəblərin köməyi ilə fəth etmişlər. Sonra bunlardan bir bölüyün Şimali Afrika və Cənubi İspaniyaya hakim olan müvəhhidlərdən Əbu Yusif Yaqubun xidmətinə girdiyi görülür. Bu hökmdarın və onun xələfləri zamanında oğuzlardan bəziləri mühüm mövqelərə yüksəlmişlər. Məsələn, oğuz əmirlərindən olan Şabana İspaniyada ildə 7 min dinar gəlir gətirən iqta verilmişdi[2]. Misirə gələn türkmənlər arasında Rəsul ləqəbi daşıyan Məhəmməd oğlu Harun adlı bir türkmən bəyi də vardı. O, biçək adlı bir türkmən oymağına mənsub idi. Bu türkmən oymağı haqda heç bir məlumatımız yoxdur. Səlahəddin Əyyubi öz qardaşı Turan şahı 569-cu ildə (1173/1174) Yəmənə göndərərkən Rəsulun oğulları da onun məiyyətinə daxil edilmişdi. Rəsul oğulları Yəməndə mühüm vəzifələrdə oldular və get-gedə böyük mövqelərə yüksəldilər. Əyyubi hökmdarı Məlik Məsud 626-cı ildə (1228/1229) Məkkədə öləndə onlardan biri – Nurəddin Yəməndə öz hökmdarlığını elan etdi. Yəmən 859-cu ilədək (1455) onun övladlarının əlində qaldı. Rəsul oğullarının paytaxtı Zəbid idi. Bu türkmən xanədanı xalqa qarşı şəfqət göstərməsi

[1] Əbu Şamə. Rövzəteyn fi əxbari-dövləteyn, I, s. 158.
[2] İbn ül-Əsir, XI, s. 174-175, 211, 234-235; Əbdülvahid əl-Mərrakeşi. Dozi nəşri, Leyden, 1881, s. 210.

və abadlıq fəaliyyətində bulunması ilə Yəmən tarixində xoş bir xatirə qoymuşdur[1].

## MONQOL İSTİLASINDAN SONRA TÜRKMƏNLƏR

Monqol istilasının ən mühüm nəticələrindən biri Orta Asiya türk etnoqrafiyasını dəyişdirməsidir. Uyğur, karluq, qıpçaq və bəzi digər türk qövmləri bu istila nəticəsində dağılaraq qövmi xarakterlərini itirdilər. Bunlarla monqol təşəkküllərinin birləşməsindən yeni qövmlər meydana gəldi ki, onlar dil etibarilə türk, siyasi keçmiş etibarilə monqol idilər. Məşhur Teymur bunun tam bir örnəyidir. Beləliklə, bu gün Orta Asiyadakı özbək, qazax, qaraqalpaq, Şərqi Türküstan türkləri bu qarışma və qaynaşmadan meydana gəlmiş yeni qövmlərdir.

Monqol istilası islam aləminin çöhrəsini də tamamilə dəyişdirdi. Xəlifəsilə, məmlük ordusu ilə, parlaq mədəniyyəti və zəngin ticarət həyatı ilə köhnə dünya ortadan qalxdı. Monqol istilasından sonra yaranan yeni aləmdə türk mədəniyyəti mühüm bir mövqe qazandı. Bu isə Anadoluda olduğu kimi, Mavəraünnəhrdə, Azərbaycanda türk əhalinin keçmişə nisbətən hədsiz çoxalması ilə əlaqədardır. Bu xüsusda Anadolu digər türk ölkələri arasında ən başda gəlirdi.

Türk dili Osmanlı imperiyasında XVI əsrdə rəqibsiz bir vəziyyətdə olarkən, artıq Türküstan adlanan Mavəraünnəhrdə XX əsrin əvvəllərində belə fars dili hələ rəsmi dil kimi işlənirdi.

### 1. XƏZƏRARXASI TÜRKMƏNLƏR

Monqol istilası səbəbilə Mavəraünnəhr, Xorasan və Azərbaycanda yaşayan türkmənlərin çoxu Anadoluya gəldilər. Onlar istilanın önündən qaçanlar idi. Manqışlaqda X əsrdən bəri yaşayan oğuzlar bu istiladan çox zərər çəkmədilər. Çünki Manqışlaq istila sahəsindən kənarda idi. Bununla birlikdə, onlar əvvəlcə Altın Ordu (Qızıl Orda - tərcüməçi) xanlarına, sonra isə Xivədə yaşayan xanlara tabe oldular. Manqışlaqdakı türkmənlərin mühüm bir hissəsi salur boyuna mənsub idi. Əbülqazi xanın «Şəcəreyi-tərakimə»sindəki bir qeydə görə Şah Məlikin öldürülməsi nəticəsində baş verən dağılma səbəbilə[2] oğuzlardan çox böyük bir elat Manqışlağa getmişdir. Bu oğuz elatının içində hər bir boydan adamlar vardı, ancaq əksəriyyətini öymür, döyər, iğdır, çavuldur, karkın, salur və ağar boylarına mənsub qollar meydana gətirirdi. Manqışlağa gedən bu oğuz elatının başında, həmin müəllifin verdiyi

---

[1] Əl-Həzrəci. Kitab ül-ükud il-luluyyə fi tarix id-dövlət ir-Rəsuliyyə, Leyden, 1906, s. 27, 74; Münəccimbaşı, II, s. 655-660.

[2] Şəcəreyi-tərakimə, s. 61.

məlumata görə, Qılıq bəy, Qazan bəy və Qaraman bəy dururdu[1]. Manqışlaqdakı salurların içki (iç; daxili) salur və taşqı (xarici, dış) salur olmaq üzrə iki qola ayrıldıqlarını bilirik. Türkmənlər XVII əsrdə yomut, ərsarı, təkə və sarıq kimi böyük türkmən tayfalarının salurlardan çıxdıqlarına inanırdılar[2]. Əgər bu iddia doğrudursa, bugünkü Türkmənistan türkmənlərinin böyük əksəriyyətinin əslində salurlardan ibarət olduğunu qəbul etmək lazımdır[3]. Halbuki salurlardan bəzi mühüm qolların qərbə köçdüklərini bilirik[4]. Manqışlaqda çavuldurlardan (çavundur) da çox mühüm bir qol vardı. Bu çavuldurlar ilə iğdır və soynacılara mənsub bir qrup rus çarı Pyotr zamanında kalmıklar tərəfindən Şimali Qafqaza aparıldılar. 1912-ci ildə onların sayı 15.534 nəfər idi. Qafqaza aparılan bu türkmənlər uzun müddət Orta Asiyadakı eldaşları ilə əlaqələrini kəsməmiş və Məxdumqulunu onlar da öz böyük şairləri hesab etmişlər[5]. Yaşadıqları bölgənin adı ilə Stavropol türkmənləri adlanan bu türkmənlər öz varlıqlarını günümüzədək qoruya bilmişlər. X əsrdən bəri Manqışlaq yarımadasında yaşayan türkmənlər xüsusilə noqayların və kalmıkların hücumları nəticəsində öz yurdlarından köçərək Balxan və Xorasana gəlmişlər. XIX əsrdə artıq orada heç bir türkmənə rast gəlmək mümkün deyildi. Balxan və Xorasan bölgələrindəki türkmənlər səyyahlara əsil yurdlarının Manqışlaq olduğunu söyləmişlər ki[6], bu söz onların böyük əksəriyyəti barədə doğrudur. «Şəcəreyi-tərakimə»də Balxan dağlarında qədimdən bəri yaşayan türkmən oymaqlarından oxlu, göylü və sultanlının adı çəkilir[7].

Oxlu türkməninin adı XVI əsrə aid Səfəvi mənbələrində eymür (eymir), salur və göylənlərlə birlikdə çəkilir. Onların hamısına birlikdə «yaxa türkməni» və ya «sayın xanlı türkmənləri» deyilirdi. Türkmənlərin böyük şairi Məxdumqulunu yetirən göylənlər Gürgan (Cürcan) irmağının yuxarı yatağında yaşayırdılar. Bunların qəbiləvi birlik təşkil etmədikləri bilinir. Bu elatda (Vamberiyə görə 12.000 çadır) azsaylı bəydili, bayındır, kayı və eymur

[1] Əbülqazi bu qeydi "Cami ət-təvarix"dən alsa da, əlimizdəki nüsxələrdə belə bir ifadə yoxdur. Bu nüsxələrdə adı göstərilməyən bir bəyin 1.000 atlı ilə Ceyhunun orta yatağında yurd saldığı, Qutluğ, Qazan və Qaraman bəyin onun övladları olduğu göstərilir.

[2] Göstərilən əsər, s. 69, 72, 73.

[3] Türkmənlər arasında 1863-cü ildə səyahət edən məşhur türkoloq A.Vamberi 196.500 çadır hesabladığı (türkmənlərdən bütün salurları 10 min, ərsarıları 50 min, sarıqları 10 min, təkələri 60 min, yomutları isə 40 min çadır olaraq göstərir ki, (Mərkəzi Asiyaya səyahət, s. 309), bunların cəmi 170 min edir.

[4] İkinci hissədəki «Salur» boyu bəhsinə bax.

[5] Bu türkmənlər haqda bax: V. Barthold. Türkmən xalqının tarixi. İngilis dilinə tərcümə edən V. və T. Minorski. Leyden, 1962, s. 157-159.

[6] Vamberi. Göstərilən əsər, s. 325.

[7] Şəcəreyi-tərakimə, s. 61.

kimi boylara mənsub oymaqlar da görülür[1]. Buradakı kayı obası Osmanlı xanədanının öz boylarından olduğunu bilirdi[2].

«Şəcəreyi-tərakimə»də[3] Bəlxin qərbindəki Andhoy tərəflərdə yaşayan Əlieli türkmənlərinin əslən qul, yəni kölə olan bir gəlmə adamın övladından törədikləri bildirilir. Halbuki XIV əsrin ikinci yarısında Mərv ətrafındakı Mahanda Əli bəy adlı olduqca qüdrətli bir bəy vardı[4]. Yenə «Şəcəreyi-tərakimə»yə görə[5] xızıreli Əlinin qardaşı Xızırdan, qullar oymağı Əlinin digər qardaşı İkdən (yaxud Əyikdən), qaraivlilər (evlilər) Əlinin başqa bir qardaşından - Qaşqadan törəmişlər. Belə olduqda burada adı çəkilən qaraivlilərin eyniadlı oğuz boyunun qalığı olması düşüncəsi zəifləyir. Doğrudan da, Anadoluda bu gün qaraevli adlı bir oymağa rast gəlsək də, onun mənşəyi şübhəlidir[6].

Qaraevlilər «Şəcəreyi-tərakimə»də[7] Amu-Dəryanın sahilində və Acı dənizin (Xəzərin) yaxınlığında bərəkətsiz torpaqlarda yaşayırdılar, sayları da az idi. Hələlik əsərdə Balxandakı dəvəçilər və əski xalq oymaqlarının da türkmən olmayan şəxslərdən törədikləri bildirilir. Bütün bunlar və bir sıra digər tarixi dəlillər Xəzərarxası türkmənlərin arasına cağatay, özbək və başqa uluslara mənsub oymaqların, ailələrin, şəxslərin girmiş olduqlarını göstərir. Biz XVI əsrin ikinci yarısında bu türkmənlər arasında cəlayir oymağının olduğunu bilirik. Bu oymaq monqol mənşəli olub əvvəlcə cağatay ulusuna daxil idi. Xəzərarası türkmənlərin başlıca olaraq hansı boylardan törədikləri məsələsinə gəlincə, əhəmiyyətlərinə görə bu boyları sadalaya bilərik: salur, çavuldur (çavdur-çavundur), iğdır, yazır, eymür (eymir), karkın. Onlar Balxan və Xorasan bölgələrinə Manqışlaqdan gəlmişlər. Onların arasında müşahidə edilən daha az əhəmiyyətli boylar isə bayındır, bəydili və kayıdır. Üç-oxların boz-oxlara nəzərən əhali cəhətdən daha qələbəlik olduğu da bir fərziyyə kimi irəli sürülə bilər. Bütün səyyahlar türkmənləri Orta Asiyadakı türk ellərinin ən vuruşqanı kimi qiymətləndirirlər. Bununla birlikdə dövlət qurmaq bir yana, onlar noqay və kalmıklara belə müqavimət göstərə bilməmiş, nifrət bəslədikləri özbəklərə də əsrlər boyu vergi verməyə məcbur olmuşlar. Halbuki Anadoludakı türkmən tayfalarından dövlət qurmayanı qalmamışdı. Xəzərarxası türkmənlərin siyasi bir birlik meydana gətirə bilməmələri onların oturaq həyata gec keçmələrinə və bu gün parçalanmış vəziyyətə düşmələrinə səbəb olmuşdur. İndi onların böyük əksəriyyəti (bir mil-

---

[1] Vamberi. Göstərilən əsər, s. 306; Məsud Keyhan. Tarixi-coğrafiyayi-müfəssəli-İran, 1311 ş., II, s. 102-103; R. R. Arat. Göylən maddəsi, İ. E., IV, s. 809-811.
[2] A.Berns. Göstərilən əsər, III, s. 199.
[3] Şəcəreyi-tərakimə, s. 75.
[4] Barthold. Göstərilən əsər, s. 131.
[5] Şəcəreyi-tərakimə, s. 74-76.
[6] Qaraevli bəhsinə bax.
[7] Şəcəreyi-tərakimə, s. 76.

yona qədəri) Türkmənistan SSR-də[*] yaşayır, bəzi mühüm tayfaları isə İran və Əfqanıstan dövlətlərinin təbəəsi arasındadır.

Əbülqazinin əsərindən öyrəndiyimizə görə, XVII əsrdə türkmənlərin əlində bir çox oğuznamələr var idi. Bu oğuznamələrin məzmunu haqda tam məlumata sahib deyilik, çünki onların heç biri bizə gəlib çatmamışdır. Yalnız onu bilirik ki, bu oğuznamələrdə Dədə Qorqud və Salur Qazanla əlaqədar bəhslər var idi[1]. Bu əsərlərə «Cami ət-təvarix»in mənbə olub-olmadığı xüsusunda qəti bir şey söyləmək mümkün deyil. Oğuznamələr XIV-XVII əsrlərdə Xarəzmdən Rumeliyə qədər bütün oğuz türklüyünün yaşadığı yerlərdə söylənir və oxunurdu. Bu, bütün qərb türklüyündə müştərək bir ənənə idi. XVII əsrdən etibarən bu oğuznamələrin yerini «Koroğlu» dastanı tutdu. Koroğlu XVI əsrin ikinci yarısının ortalarında Bolu sancağının Gərədə qəzasında buyruğu altındakı bir neçə yüz adamla qaçaqlıq etməyə başlamış bir igid idi. Anlaşıldığına görə, sonra bu işi Tokat-Sivas arasındakı Çamlıbeldə[**] davam etdirmiş və ehtimal ki, daha sonra böyük cəlali üsyanında iştirak etmişdir.

Aşıqlar hələ XVII əsrin başlanğıcında onun igidliklərindən bəhs edən dastanlar söyləməyə başlamışdılar. Bu dastan Türkiyədən İrana keçərək oradakı türklərin də ən çox sevdikləri dastan olmuşdur. Sonra Koroğlu dastanı Xəzərarxası türkmənlərə çatmış, onlar da bunu milli dastan kimi mənimsəmişlər. Üstəlik, «Fərhad və Şirin», «Tahir və Zöhrə», «Əsli və Kərəm» kimi xalq hekayələri də İran və Anadolu türklərinin olduğu kimi, onların da sevimli hekayələri idi. Beləliklə, məzhəb fərqinə baxmayaraq oğuz elinin üç ayrı yerdə olan (Anadolu, İran, Xəzərarxası) tayfaları arasında yeni ortaq mədəniyyət məhsulları meydana gəlmişdir ki, bu, çox diqqətəşayan xüsusdur.

Xəzərarxası türkmənlər siyasi bir varlıq göstərə bilməsələr də, Məxdumqulu kimi böyük bir şair yetirmişlər. XIX əsrdə Türkiyədəki son türkmən oymaqlarının da Dadaloğlu, Elbəylioğlu və Gündəşlioğlu kimi tanınmış şairləri olduğunu bilirik. Bu münasibətlə türkmənlərin hər zaman və hər yerdə daim milli şairlər yetirmiş olduğunu qeyd etmək lazımdır.

## 2. İRAN

İrana gələn monqolların olduqca gözəl təlim görmüş mükəmməl təşkilatlı bir ordusu və təcrübəli məmurların başçılıq etdiyi divanı vardı. Bu divanda uyğur yazısı və 12 heyvanlı türk təqvimi işlədilirdi. Uyğur yazısı İranda monqollardan sonra aradan çıxsa da, türk təqvimindən son əsrlərə

---

[*] Rəqəm 1950-ci illərə aiddir (tərcüməçi).

[1] III hissəyə bax.

[**] Çam azərbaycanca şam ağacının adıdır (tərcüməçi).

qədər istifadə olunurdu. Çünki bu təqvim günəş ili əsasında tərtib edildiyindən maliyyə ilinə uyğun gəlirdi. Bu divanda yazı dili kimi monqol dili ilə bərabər türk dilinin də işləndiyinə hökm vermək üçün bəzi dəlillər vardır. Dövlətin dayağını təşkil edən el (ulus) hakim təbəqə olan monqol ünsürü ilə onun məiyyətindəki türklərdən ibarət idi. Monqol ünsürü cəlayir, suldus, bisuut, sünit, kurulas və i. a. olmaq üzrə əsil monqol ulusuna mənsub boyların obaları ilə tatar, kereyit, oyrat və s. monqolca danışan qövmlərin qollarından meydana gəlmişdi. Türklərə gəlincə, onların çox mühüm qismini uyğurlar təşkil edirdi. Uyğurlar buraya yalnız dövlət məmuru və din xadimi kimi deyil, həm də əsgər kimi gəlmişdilər. Uyğurlardan başqa qıpçaq, karluq, küçəy və b. türk qövmlərinə mənsub çoxsaylı ünsürlər də vardı. Bunların bir qismi monqol xanları və bəylərinin məiyyətində və əsgərlərinin arasında idi. Beləliklə, İran monqolları arasında başlıca iki dil işlədilirdi: monqol və türk dilləri. Getdikcə əhəmiyyətini itirən monqol dilinin XIV əsrin ikinci yarısına qədər danışıldığı şübhəsizdir. İlk monqol xanları Hülakü, Abakı və hətta Arqunun türkcə bildiyinə hökm vermək olmaz. Qazan və xələflərinin bu dili öyrənmiş olduğu anlaşılır. Əslində, monqollar arasındakı türk ünsürünün əhəmiyyət kəsb etməsi də bu hökmdarla başlayır. Monqolların islamı qəbul etmələri və türkləşmələri arasında yaxın bir münasibətin mövcud olduğu görünür. Hər halda ikisi bir-birinə təsir etmişdir. Olcaytu (1304-1316) zamanında başda uyğurlar olmaqla türklər mühüm mövqelərə yüksəldilər. Uyğurlardan Sevinc Aka bəylərin başı və Əbu Səidin atabəyi idi. Onun qardaşı Öyrünc də bir uyğur türkməninin komandanı və nüfuzlu əmirlərindən biri idi. Digər böyük uyğur əmirlərindən biri də nəcabətli bir ailəyə mənsub olan Əsən (İsən) Qutluğ idi. Elxani dövlətinin süqutundan sonra Anadoluda bir dövlət quran Ərətnanın da uyğur türkmənlərindən olduğunu bunlara əlavə edə bilərik. Ərətnanın böyük qardaşı Turumtaz da Qazan və Olcaytunun əmirlərindən idi. Bu hökmdarın dövründəki Əli Quşçu, qardaşları Bayıtmış və İlbasmışın, habelə bəzi əmirlərin qıpçaq olduğu bilinir[1].

Qazan xan islamı dövlətin rəsmi dini elan etməklə bərabər qövmünün keçmişinə və adətlərinə bağlı hökmdar idi. Monqolların tarixini yaxşı bilən Pulat Cinsanqın danışıqlarını zövqlə dinləyirdi. Qısa sürən xanlığı zamanı dövlətini reorqanizə etmək üçün tədbirlər görərkən türklərin və monqolların tarixinin yazılmasını da əmr etmişdi. İslam müəllifləri, ümumiyyətlə, monqolları türklərdən bir qövm saymışlar, bəzən də onları türk hesab etmişlər. Ehtimal ki, bunun başlıca səbəbləri zahiri bənzərlik və monqollar arasında çoxlu türkün olmasıdır. Qazan xanın sarayında da belə bir fikir mövcud idi. «Cami ət-təvarix»də bu fikrin tam inikasını görürük. Türk və monqol kitab-

[1] Bu haqda təfsilat üçün bax: F. Sümər. Azərbaycanın türkləşməsi tarixinə ümumi bir nəzər, Belleten, XXI, № 83, s. 427-447.

da mənşəcə bir-birindən ayrılmış olsalar da, türk adı altında eyni fəsildə tədqiq edilmiş, eyni zamanda oğuzların mənşəyinə də geniş yer verilmişdir[1].

Əbu Səid Bahadır xanın 1335-ci ildə vəfatından sonra monqolların qüdrəti azaldı. Bozqırlarda olduğu kimi, monqollar arasında qanlı və uzun bir mübarizə başlandı. 1277-ci ildə monqollar Anadolunun idarəsini felən əllərinə aldıqdan sonra bu ölkədə xeyli monqol saxlanmışdı. Bu qüvvəyə mərkəzdən təyin edilən bir əmir komandanlıq edirdi. İkinci böyük monqol qüvvəsi isə mərkəzi Mosul olan Diyarbəkir vilayətində olurdu. Bu qüvvənin mühüm bir hissəsini qələbəlik monqol oyrat qolu meydana gətirirdi. Əbu Səid Bahadır xanın ölümündən sonra elxani taxtına çıxarılan Arpaqaunu (qısaca: Arpa) Diyarbəkir valisi oyrat Əli Padşah tanımadı, Musa adlı bir şahzadəni xan elan edərək Arpaya hücum etdi. Arpa xan məğlub olaraq öldürüldü, yerinə Musa keçdi, Əli Padşah dövlətə hakim oldu. Ancaq onun dövranı uzun sürmədi. Suldus Çoban bəyin nəvəsi və Dəmir-Daşın oğlu Kiçik Şeyx Həsən böyük bir ordu ilə gələrək iqtidarı Əli Padşahın əlindən aldı (1337-ci il). Beləliklə, İrana Anadoludan ikinci bir elat da gəlmiş oldu. Cəlayir şeyx Həsənin də qarşısına güclü bir rəqib çıxdı. Bu, Olcaytu və Əbu Səidin bəylərbəyisi məşhur suldus Çoban bəyin nəvəsi və Dəmir-Daşın oğlu Kiçik Şeyx Həsən idi. Kiçik Şeyx Həsən Anadoluda olurdu. Şeyx Həsənin ortaya çıxması ilə iki böyük və nəsəbli ailə qarşı-qarşıya gəlmişdi. Mübarizədə Kiçik Şeyx Həsən qalib gəldi və Böyük Şeyx Həsəni Bağdad ilə kifayətlənməyə məcbur etdi (1339). Anlaşıldığına görə, artıq İranın siyasi müqəddəratına Anadolu hakim olmağa başlamışdı ki, bu, XVI əsrə qədər davam etmişdir. İran da Rumeli kimi qövmi baxımdan Anadolunun davamı halını aldı. Bu hal monqol istilası səbəbilə Anadoluda çoxlu əhali yığılmasından irəli gəlirdi.

Kiçik Şeyx Həsənin ordusunda xeyli miqdarda Anadolu türkməni də var idi. Onun xələfi və qardaşı Məlik Əşrəfin sevimli əmirlərindən Bəycəgiz Anadolu türkmənlərindən olub Çoban Salar oğlu Hacı Mehdinin oğlu idi. Monqolların gəlişi səbəbilə Azərbaycan və Aranda qələbəlik bir halda yaşayan türkmənlərin Andoluya köç etdikləri yuxarıda söylənmişdi. XIV əsrin ikinci yarısına qədər olan dövrdə bu bölgədə türkmənlərin bulunduqlarına dair bu günədək heç bir qeydə rastlanmamışdır. Bununla bərabər türkmənlərdən bir çox zümrələrin monqol hakimiyyətini qəbul edərək Aran, Muğan və Azərbaycanda, Şəhrizor-Xilvan-Dinəvər bölgəsində (Kürdüstan) yaşadıqları qəbul edilə bilər. Monqol dövründə Savə və Avə tərəflərində xalaç türklərinin yaşadıqlarını bilirik. Bunlar orada varlıqlarını dövrümüzədək mühafizə etmişlər[2]. Savə şəhəri XIV əsrin ortalarına doğru əmir Şeyx Həsən Karlığın əlinə keçmişdi ki, buradakı karlıq sözü deyəsən eyni adlı türk

[1] Bu xüsusda III hissəyə bax.

[2] Xalaclar haqda bax: F.Köprülü. Xalaç maddəsi, İ.E., V, s. 109-116.

qövmünü ifadə edir. Cəlayir Sultan Əhməd dövrü əmirlərdən Pir Hüseyn Karluq adlı[1] bir əmir də vardır ki, onun əmir Şeyx Həsən Karlığın qohumu olması mümkündür.

Farsa gəlincə, burada salğur xanədanı monqolların hakimiyyətini qəbul edərək öz varlığını 1286-cı ilədək qorumuşdur. Bu bölgədəki türklər (əsasən xalaclar və türkmənlər) salğur dövlətinin süqutundan sonra da qövmi varlıqlarını davam etdirdilər. Yenə monqol dövründə bir türkmən elatı siyasi bir qüvvə kimi Kirmanda yaşayırdı. Eyni dövrdə başda yazırlar olmaq üzrə türkmənlərdən bəzi oymaqların da Xorasanda yaşadıqları məlumdur. XIV əsrin ikinci yarısında Aran və Muğanda türkmənlərin (tərakimə) yaşadığını görürük[2].

Bunların arasında ən varlı türkmənlər Aranda yaşayan çobani türkmənləri idi[3]. Yuxarıda bəhs edilən əmirlər arasındakı mübarizə nəticəsində elxani imperiyası parçalanaraq bir sıra kiçik dövlətlər meydana gəlmişdi. Bu arada türkmən qaraqoyunlu oymağı da tədricən güclənərək Mosul-Ərzurum arasındakı bölgənin mühüm bir hissəsinə hakim oldu. XIV əsrin sonlarına doğru onlar Naxçıvan, Xoy və digər yerlər olmaq üzrə İranın üç vilayətini ələ keçirdilər, aradabir Təbrizi də işğal etdilər. Yenə həmin dövrdə daxili mübarizələrdə gücləri tükənmiş oyratlar Ərbil ətrafında yurd saldılar. Məhmət Saru adlı bir türkmən bəyi də Şəhrizora hakim oldu. Gördüyümüz kimi, Şəhrizor bölgəsi səlcuqlu fəthindən bəri həmişə türkmənlərin qələbəlik halda yaşadıqları bir bölgə idi. Monqolların gəlişi zamanı (1231) Şəmsəddin Sevinc adlı bir türkmən əmiri Ərbil-Həmədan yolunu öz nəzarəti altına almışdı. Bu türkmən bəyi qışalova (?) adlı bir oymağa mənsub idi.

Tabeliyində xeyli böyük bir icma olan Sevinc Ərbil əmiri Gök-Börüyə aid Saru adlı bir qalanı da ələ keçirmişdi. Sevinc sonra 627-ci ildə (1229/1230) Marağaya yaxın bir yerdəki çox möhkəm Ruindej qalasına da hakim oldu. Ancaq özü həmin il mühasirəyə aldığı Marağada bir oxa tuş olaraq öldü. Sevincdən sonra Ruindej qalasını qardaşı oğlu, onun da monqollarla bir çarpışmada ölməsindən sonra bacısı oğlu əlində saxlamışdır[4]. Yuxarıda adı çəkilən Məhmət Sarunun adı ilə eyni olan qala arasında bir əlaqə olub-olmadığı barədə heç nə söyləmək mümkün deyil. Ancaq Məhmət Sarunun başçılıq etdiyi türkmən oymağının ondan sonra sarulu adlandığını və bu oymağın öz varlığını zəmanəmizədək mühafizə etdiyini bilirik.

Qaraqoyunlu bəyi Qara Yusif XV əsrin əvvəllərində Azərbaycanı teymurilərdən və İraqi-Ərəbi isə cəlayir Sultan Əhməddən aldı. Bunun nəticə-

---

[1] F.Sümər. Azərbaycanın türkləşməsi tarixinə ümumi bir nəzər, s. 438-439.
[2] Hafiz Əbru. Zeyli-cami ət-təvarixi-Rəşidi. Tehran, 1317 ş., s. 190, 245; Tarixi-şeyx Üveys. Y.B. van-Lun nəşri, Lahey, 1954, s. 183.
[3] Klavixonun ingiliscə və ondan edilən türkcə tərcüməsində rastlanan çobanlı (çobani) adının çəpni olduğu (bir şübhə nəticəsində) təsbit olunmuşdur.
[4] İbn ül-Əsir, XII, s. 229.

sində Şərqi Anadolunun hüdud bölgəsində yaşayan türkmənlərin bir hissəsi Azərbaycana gəldi. Gələnlər arasında əsil yurdu Maraş bölgəsi olan ağacəri türkmənlərindən bir oymaq da vardı ki, bu oymaq bu gün də İranda öz varlığını davam etdirir. Qaraqoyunlular sonra öz hakimiyyətlərini Sistana qədər genişləndirdilər. Bu nailiyyətləri Qara Yusifin kiçik oğlu və ikinci xələfi Cahan şah əldə etmişdir. Cahan şah türkcə şerlər yazmış türk hökmdarlarından biridir[1]. Onun Təbrizdə tikdirdiyi Göy məscid bu gün də durur. Qaraqoyunlular başda Azərbaycan olmaqla İrandakı türkmən və türk oymaqlarının da birləşməsi hesabına olduqca böyük bir ulus halında idi. Bu ulusu meydana gətirən başlıca boylar aşağıdakılardır: saadlu, baharlu, alpaut, duharlı, ağac əri, hacılu, qaramanlu, çəkürlü. Bu boylar qaraqoyunlu dövləti yıxıldıqdan sonra da öz varlıqlarını uzun müddət davam etdirdilər.

Qaraqoyunlu xanədanına baranlu deyilirdi. Bu adın mənşəyi qəti olaraq aydınlaşdırılmamışdır. Eləcə də bu oymağın oğuz boylarından hansına mənsub olması da bilinmir. Minorski qaraqoyunluların yıva boyundan olduqları fikrindədir[2]. İndiki vəziyyətdə ən tutarlı təxmin, deyəsən, elə budur.

Qaraqoyunlular öz qövmi xüsusiyyətlərini qorumaq və milli ənənələrinə bağlı qalmaqla bərabər dövlət təşkilatlarını eynilə cəlayirlərdən əxz etmişdilər. Onlardan sonra İranda hökm sürən digər dövlətlər də ümumiyyətlə bu dövlətin təşkilatına bağlı olmuşlar. Qaraqoyunlu ulusunun əsas oymaqlarından biri olan baharlu tayfasının mühüm bir qismi Qaraqoyunlu dövləti yıxıldıqdan sonra ağqoyunlulara boyun əyməyərək Xorasana köç etmişdi. Bu oymağın üzvlərindən bir çoxu Hindistana gedib bəhməni xanədanının xidmətinə daxil oldu. Bunlardan Sultanqulu Qolkondada (Dəqqan) 1512-ci ildə istiqlaliyyətini elan edərək kütübşahilər dövlətini qurdu. Kütübşahilər xanədanından Məhəmmədqulu isə Heydərabad şəhərinin əsasını qoydu və hökumət mərkəzini oraya nəql etdi. Kütübşahilər dövləti 1098 (1687)-ci ilədək yaşadı. Bu xanədanın üzvləri idarə etdikləri yerlərdə islamı qüvvətləndirmişlər. Dəqqanın bu gün ən böyük şəhəri olan Heydərabad şəhərini salmaqdan başqa onlar bir sıra ictimai əsərlər də yaratmışlar ki, bu əsərləri bu gün də görmək mümkündür. Beləliklə, türkmən qövmü islam ölkələrində oynadığı böyük tarixi rolla bərabər Hindistanda da xatirələr qoymuşlar. Yenə Hindistandakı Babur imperiyasının böyük əmirlərindən bəziləri (Bayram xan və oğlu Əbdürrəhim xan kimi) türkmənlərin baharlu boyundan idilər.

Qaraqoyunların əzəli rəqibləri ağqoyunlular Diyarbəkir bölgəsində yaşayırdılar. Ağqoyunlu bəylərindən Qara Yölük Osman bəy mərkəzi Amid olmaq üzrə bir bəylik qurdu. Nəvəsi Uzun Həsən bəy isə (ölümü: 1478) qaraqoyunlu Cahan şahı və Xorasan-Türküstan hökmdarı Əbu Səidi məğlub edə-

---

[1] V.Minorski. Cahan şah Qaraqoyunlu və poeziyası (ingiliscə). XVI; 2 (Türkmenika, 9), s. 20 və ardı.

[2] Qaraqoyunlu hökmdarları sülaləsi. Köprülü ərmağanı, s. 391-395.

rək bu bəyliyi bir imperiya halına gətirdi. Ağqoyunlu imperiyası Ərzincandan Xorasana, Bəsrədən Şirvana qədər uzanırdı. Beləliklə, beşinci dəfə Anadoludan gələn qüvvə İrana hakim olmuşdu.

Uzun Həsən bəy az tanınmış böyük bir hökmdardır. Adil, xalqa qarşı şəfqət və mərhəmət hissləriIə dolu, əxlaqi dəyərlərə bağlı bir insan idi. Özündən əvvəl qoyulmuş bəzi vergiləri bidət sayaraq ləğv etmiş və vergilərin ədalətlə yığılması üçün bir qanunnamə vermişdi ki, bu, səfəvi dövründə də uzun müddət qüvvədə olmuşdur. Həsən bəy eyni zamanda İranın bəzi yerlərindəki pis adətləri ortadan qaldırmaq üçün mbarizə aparmışdır. O, elm adamlarına çox etibar edir, hüzurunda tez-tez elmi məclislər keçirirdi. Həsən bəyin bu günədək yaxşı bilinməyən bir tərəfi də onda aydın qövmi şüurun olmasıdır. O özünü Anadolu türklərinin hökmdarı sayır, Oğuz xanın nəslindən olması ilə fəxr edirdi. Eyni zamanda Xəzərarxası türkmənlərin də öz qövmündən olduğunu bilirdi.

Ağqoyunlu oymağı oğuzların 24 boyundan bayındır boyuna mənsubdur. Bununla əlaqədar olaraq ağqoyunlular hələ Həmzə bəyin vaxtından pullarına, fərmanlarına və bayraqlarına bayındır boyunun damğasını vururdular. Osmanlı xanədanında qövmi şüurun canlanmasında ağqoyunluların müsbət rolu olmuşdur. Həsən bəy ibadət zamanı oxunmaq üçün Quranı türk dilinə tərcümə etdirmişdi, ancaq o zamankı din xadimlərinin və alimlərin buna qarşı çıxmaları üzündən bu təşəbbüsü baş tutmamışdır. Həsən bəyin bu hərəkəti gərək ki, türklər arasında respublika dövrünə qədər ilk və son təşəbbüs olmuşdur.

Elxanilərin əsasən cəlayir və suldus boylarına istinad etdikləri və böyük əmirlərinin bu boylardan çıxdıqları kimi, ağqoyunlular da başlıca olaraq pürnək və mosullu boylarına söykənirdilər. Bu iki mühüm boydan sonra həmzə-hacılu, qara-hacılu, əmirlu, izzəddin-hacılu kimi ikinci dərəcəli boylar gəlirdi. Ağqoyunların qalibiyyətləri nəticəsində Hələb türkmənləri, dulqədirli ulusu, Trabzonun cənub-qərbindəki çəpnilərdən bir çoxu onlarla birləşərək böyük ağqoyunlu elini meydana gətirmişlər. Hələb türkmənləri ağqoyunlu ulusuna əfşardan böyük bir oymağı, yenə əfşarlardan qütbəyilüləri, bayatlardan da mühüm bir qolu vermişdi. Səfəvi dövründə pürnək və mosullular türkmən adı altında birləşərək öz varlıqlarını bu dövlətin xidmətində də davam etdirmişlər.

Səfiəddin Ərdəbilinin sünni inamlarına əsaslanaraq qurmuş olduğu təriqət Anadoluda qədimdən bəri bilinirdi. Səfəvi ailəsindən Şeyx Cüneyd Ərdəbildəki şeyxlik vəzifəsini ələ keçirmək üçün əmisi Şeyx Cəfərə qarşı mübarizədə müvəffəq olmayınca Anadoluya getdi. O, şiəliyə meylli bir insandı. Şeyx Cüneyd Anadolunu gəzərkən kəndlilər və köçərilər arasında Əliyə və oğullarına qarşı ifrat sevgi bəsləyən icmalar gördü. Şiəliyi bu kəndlilərə və köçərilərə dərvişlər təlqin etmişdilər. Onlar batil inamlara çox inanan ataları

oğuzlar kimi dərvişsayaq adamlara yaman düşkün idilər. Əslində, kəndli və köçəri türkləri ziyarət edən, onlarla daima təmas və münasibətlər quranlar məhz dərviş və şeyxlər idi. Çünki onların öz arasında mədrəsə təhsilli adamlar az olduğu kimi, şəhər və qəsəbələrdə yaşayan mədrəsə çevrələri ilə əlaqələri də zəif idi. Qısacası, Türkiyədə digər islam ölkələrində olduğu kimi, xalqın əksəriyyətini təşkil edən kəndlilər və köçərilər mədrəsənin təsiri xaricində idi. Digər tərəfdən, bu kəndli və köçərilərin çox mühüm bir hissəsi vergi verən rəiyyət vəziyyətində idi. Üstəlik, Osmanlı dövlətinin döşürmə təşkilatı da getdikcə inkişaf edirdi. Bunun səlcuqlular dövründə olduğu kimi böyük böhranlar meydana gətirəcəyi mühəqqəqdi.

Şeyx Cüneyd Anadolunun bir çox bölgələrində bəlkə özünün də ümid etmədiyi bir tərzdə hərarətlə qarşılandı. Böyük bir səyahətdən sonra başına o qədər silahlı adam toplaşdı ki, onlar Şeyx Cüneydin rəhbərliyi altında hətta Trabzonu mühasirəyə aldılar (1456). Bundan sonra ağqoyunlu Həsən bəyin bacısı ilə evlənməsi onun şöhrətini və tərəfdarlarının sayını artırdı. Həsən bəyin öz bacısını ona verməsi isə rəqibi qaraqoyunlu Cahan şaha qarşı Cüneydin köməyini əldə etmək kimi siyasi bir qayə ilə bağlı idi. Şeyx Cüneyd öz tərəfdarları ilə Azərbaycana qayıtdıqdan sonra şirvanşahın ölkəsindən keçərək çərkəzlərə hücum etdi. Cüneydin bu hərəkəti şirvanşahı qorxutmuş və onda haqlı olaraq belə bir qənaət doğurmuşdu ki, Cüneyd Şirvanı onun əlindən almaq qayəsini güdür.

Həqiqətən, Cüneydin Şirvandan çıxıb getməsini bildirmək üçün göndərdiyi elçinin öldürülməsindən sonra baş verən vuruşmada Cüneyd həlak oldu (1460). Bəlağətli, cəsur və fəal bir insan olduğu bilinən Cüneydin ölümündən bir az sonra Həsən bəyin bacısının bir oğlu oldu. Heydər adı verilən bu uşağı Cüneydin anadolulu türk müridləri unutmadılar və onun ətrafında toplaşdılar. Həsən bəyin Cahan şahı məğlub edərək İrana hakim olmasından sonra Şeyx Heydər də dayısının köməyi ilə Ərdəbildəki şeyxlik dərgahına yerləşdi. Xüsusilə Anadoluda geniş bir təbliğat təşkilatı quruldu və bu ölkənin hər yerinə xəlifələr göndərildi. Beləliklə, Heydər tərəfdarlarının sayı getdikcə artmağa başladı. Heydər atası kimi onlara başçılıq edərək çərkəzlərə qarşı hücum etdikdən sonra 1488-ci ildə atasının qisasını almaq və Şirvanı ələ keçirmək üçün hərəkətə keçdi. Ağqoyunlu hökmdarı Sultan Yaqubun müdaxiləsi olmasaydı Şeyx Heydər şirvanşahı zərərsizləşdirib ölkəsini tutacaqdı. Ərdəbil şeyxi göndərilən ağqoyunlu qoşunları tərəfindən məğlub edilərək öldürüldü (1488). Heydərin Həsən bəyin qızı Aləmşah bəyimdən olan üç oğlu isə Farsdakı möhkəm İstəxr qalasında həbs edildi.

Ağqoyunlu hökmdarı Yaqub bəy 1490-cı ildə gənc yaşında öldü. Oğulları kiçik olduğu üçün xanədan üzvləri arasında səltənət mübarizəsi başladı. 1492-ci ildə ağqoyunlu taxtına çıxarılan Həsən bəyin nəvəsi Rüstəm bəy Sultan Yaqubun oğlu Bay Sunqur ilə mübarizədə Heydərin oğlanlarından

istifadə etmək üçün onları həbsdən buraxdırdı. Qısa bir zamanda silahlı müridlər Heydərin uşaqlarının ətrafına yığıldılar. Rüstəm onların köməyi ilə rəqiblərini aradan qaldırdı. Ancaq səfəvi müridlərinin çoxluğu ağqoyunlu hökmdarını və bəylərini qorxuya salmışdı. Buna görə onların üstünə qoşun göndərildi. Çarpışmada Heydərin böyük oğlu Sultan Əli öldürüldü. Sultan Əlinin qardaşı İsmayıl və başqaları sadiq müridlərin köməyi ilə Gilana qaçırıldı. Ancaq Azərbaycan və Anadoludakı muridlərlə əlaqə kəsilməmişdi. Həmin dövrdə ağqoyunlular arasında səltənət uğrunda mübarizə fasiləsiz və şiddətli bir şəkildə davam edirdi. Bu mübarizədə məmləkət xaraba qalır, dövlət getdikcə zəifləyir, ağqoyunlu eli maddən və mənən tənəzzül edirdi.

Nəhayət, 905-ci ildə (1499/1500) dövlət ikiyə parçalandı. Azərbaycan, Aran və Diyarbəkir Əlvənd bəyə, İraqi-Əcəmlə İraqi-Ərəb, Fars və Kirman Yaqub bəyin oğlu Murada verildi. Daxili çəkişmələr ölkəni xarabazar, xalqı isə pərişan bir vəziyyətə salmışdı.

Türk tarixində xanədana mənsub şəxslərin vilayətlərə vali göndərildiklərini bilirik. Tariximizdə hökmdarın ölümündən sonra xanədan üzvləri arasında səltənət uğrunda mübarizənin baş verməməsi nadir hallarda görünən hadisədir. Hətta xanədan üzvlərindən biri hökmdar olduqdan sonra qohumları onu rahat qoymurdular. Bu məsələdə türklərdə hakim olan düşüncə «kim güclüdürsə, o haqlıdır» düsturudur. Bu düşüncə türklər islamı qəbul etdikdən sonra da davam etmişdir. Hətta Fateh kimi bir hökmdarın belə bu düşüncəyə bağlı qaldığı, hökmdarlıq mövqeyini əlinə keçirən oğluna «nizami-aləm üçün» qardaşlarını öldürmək haqqını verdiyi məlumdur.

Tariximizdə səltənət vərasəti işinin möhkəm bir qaydaya bağlanmaması dövlətin başına qüdrətli şəxsiyyətlərin keçməsinə imkan versə də, taxt-tac qovğaları türk dövlətlərinin inkişafının qarşısını alır, başlıcası isə onların zəifləməsində və süqutunda əsas amil olurdu. Məhz ağqoyunlu dövlətinin yıxılmasında da bu xüsus mühüm amil olmuşdur.

Türkiyəyə gəlincə, zəif bir hökmdar olduğu açıq-aşkar bilinən II Bəyazid dövlətin işlərini həmin illərdə tamamilə paşalara həvalə etmişdi. Bəylərbəyilər, sancaq bəyləri və onlardan sonra gələnlər bulunduqları yerləri istədikləri kimi idarə edir və bir çox bölgələrdə xalqa təzyiq göstərirdilər. Hərəkətə keçmək üçün bundan daha əlverişli zaman ola bilməzdi. Buna görə də Gilanda olan Şeyx Heydər oğlu İsmayıl yanındakı bir neçə sadiq adamla oradan çıxaraq müridlərini yığmaq üçün Ərzincan yaxınlığındakı Saru-Qaya yaylağına gəldi (905-1500). O buradan adamlar göndərərək müridləri yanına dəvət etdi. Bunu eşidən kəndli və köçəri türklər görünməmiş bir sevinclə hər tərəfdən bölük-bölük onun hüzuruna gəldilər. Hətta bu münasibətlə dulqədir elində gərdəyə girməli olan bir gəncin dəvət xəbərini alaraq sevinclə Ərzincana yola düşdüyü nəql edilir. Şah İsmayıl hər yandan axışıb gələn müridlərin başında Azərbaycana üz tutdu. İlk hədəf Şirvan idi.

Şirvanşahı asanlıqla məğlub edən Şah İsmayıl ağqoyunlu hökmdarı Əlvənd bəylə qarşılaşdı. Naxçıvan ətrafında baş verən vuruşmada (ramazan, 907-mart, 1502) Əlvənd ağır bir məğlubiyyətə uğradı. Zəfərdən sonra Şah İsmayıl Təbrizə gəldi və 12 imam adına, sonra öz adına xütbə oxutdu. Bu surətlə şiə məzhəbli Səfəvi dövləti quruldu (1502). Bundan sonra bir-birinin ardınca zəfərlər qazanan Şah İsmayıl 10 il içində hakimiyyətinin sərhədlərini Ceyhundan Fərata qədər uzatdı, ağqoyunlu dövləti aradan qalxdı, Xorasan isə özbəklərin əlindən çıxdı. Bu dövlətin qurulmasında və İranda şiə məzhəbinin hakim olmasında ən böyük məsuliyyət ağqoyunlu xanədanının və sonra isə Osmanlı sultanı II Bəyazidin üzərinə düşür. II Bəyazid ölkəsinin qulağı dibində islam aləmini parçalayıcı şiə məzhəbli bir dövlət qurularkən dövrün ən qüdrətli ordusuna sahib olduğu halda buna tamamilə seyrçi qalmış və öz təbəəsindən minlərlə adamın bu dövlətin qurulmasında iştirakının qarşısını almamışdır. Osmanlı salnaməçilərindən isfahanlı Xoca Məhəmmədin nəvəsi Xoca Sadəddin əfəndi: Başına tac aldı çıxdı ol pəlid, İtdi biidrak ətraki-mürid - deyərək sözdə Şah İsmayılı gözdən salmaq istəmişdir.Gerçəkdən Səfəvi dövlətinin qurulmasında XVI əsrdən etibarən ələlxüsus mənşəcə türk olmayan müəlliflərin çoxunun «ətraki-biidrak» (idraksız türklər) dediyi kəndli və köçəri türklərin unudulması, onlara əhəmiyyət verilməməsi başlıca amil olmuşdur. Bu hal XVI və XVII əsrlərdə Osmanlı dövlətinin başına Anadoluda çox bəlalar açacaqdır. Səlcuqlular dövründə də bu unutmanın necə acı nəticələr verdiyini daha əvvəl görmüşdük.

Səfəvi dövlətinin qurulması Türkiyədəki şiələr arasında elə dərin bir həyəcan yaratmışdı ki, onlar bir-birinə «şah» sözü ilə salam verir, əziyyətli yolçuluğa qatlanıb şahlarını ziyarətə gedirdilər. Onlara şahın əvəzinə peyğəmbərin qəbrini ziyarət etmək tövsiyə olunduqda «biz ölünü yox, dirini ziyarətə gedirik» cavabını verirdilər. Yavuz Səlimin Şah İsmayıla qarşı böyük bir əzmlə girişdiyi təşəbbüs şiəliyin Türkiyədə daha geniş yayılmasının qarşısını almış, Şərqi Anadolunu Osmanlı dövlətinə qazandırmış, Şah İsmayılın zəfərlər silsiləsinə son qoyaraq onu dərin matəmə qərq etmişsə, xüsusilə yeniçərilərin itaətsizliyi, dövlət adamlarının məsələnin əhəmiyyətini Səlim qədər anlamamış olması üzündən ciddi bir nəticə verməmişdir.

Yuxarıda verilən bu qısa məlumatdan da anlaşılacağı üzrə Səfəvi dövlətini quran ünsür tamamilə türklərdən ibarətdir. Bu ünsürün böyük əksəriyyətini də anadolulu köçəri və kəndli türklər meydana gətirirdi. Yuxarıda deyildiyi kimi, Şah İsmayıl Ərzincan yaxınlığında Anadolu türklərini başına yığaraq, buradan Azərbaycana yürüyərək öz dövlətini qurmuşdur. Bu halət Səfəvi dövlətinin başlıca dayağı olan boy və obaların yurdlarının bilinməsilə daha düzgün anlaşılmaqdadır. Qızılbaş ulusunu təşkil edən birinci dərəcəli oymaqlar bunlardır: ustacalı-ustahacılu (səfəvi dövründə: ustaclu), rumlu, təkəlü, zülqədər, şamlu, əfşar, qaçar. Bunlardan ustacalular Sivas-Amasya

bölgəsindən gəlmişdilər. Rumluların Tokat-Amasya, Çorum, Koyul-Hisar, Bayburt və İspir kəndlilərindən ibarət bir təşəkkül olduğu bilinir. Təkəlü öz adını Təkə sancağı deyilən Antalya bölgəsindən almışdır.

Təkəlülər arasında Məntəşə (Muğla bölgəsi) kəndlilərindən də bir bölük camaat vardı. Zülqədər Maraş, Əlbistan, Yozqat bölgəsindəki dulqədirli ulusuna mənsub bir boy idi. Şamlu yayda Sivasın güney tərəfində və Uzun Yaylada yaşayan, qışı Hələb bölgəsində keçirən türkmənlərin bəydili, xarbəndəlu, inallu kimi oymaqlarının qollarından meydana gəlmişdir. Dövlətin qurulmasında və ilk dövrlərdə əsas, mühüm rolu da bu oymaqlar oynamışlar. Əfşar isə Dulqədirlü (imanlu əfşarı), Hələb türkmənləri (gündüzlü və alplu əfşarı) və ağqoyunlu əfşarlarından (daha əvvəl İrana gələn və Kuh-Giluyədə yaşayan Mənsur bəy əfşarları) təşəkkül etmişdir. Qaçara (qacar) gəlincə, bu oymaq XV əsrin sonlarına doğru ağqoyunlular dövründə Anadolunun Boz-ox (bugünkü Yozqat) bölgəsindən gəlmiş və Azərbaycanda yurd salmışdı.

İkinci dərəcəli təşəkküllərə gəlincə, bunlar varsaq, çəpni, cərid-silsüpür, turqutlu, bayat, bozcalu, ərəbgirli, xınıslu, çəmişkəzəklü və digərləridir. Bunlardan varsaqlar və çəpnilərin dövlətin qurulmasında iştirak etdiklərini bilirik. Birincilərin yurdu Adana-Tarsus bölgəsində, ikincilərinki isə Trabzonun cənub-qərbində və Camikdə idi. Cərid-silsüpür dulqədirli elindən, turqutlular Konya bölgəsindən gəlmişdilər. Bayat isə Hələb türkmənlərinə mənsub idi.

Digərlərinin yurdlarını daşıdıqları adlar göstərir. Azərbaycanlı təşəkkül olaraq əskidən bəri Gəncə və Bərdə bölgəsində yaşayan qaramanlılar və talışlardan bir hissə Səfəvi dövlətinin qurulmasında iştirak etmişdir[1]. Səfəvi dövlətinin banisi Şah İsmayıl 1525-ci ildə[*] vəfat etdi. Onun çox cəsur və qorxmaz bir döyüşçü olduğunu bilirik. Ana dili türk dili idi, özü də fars dilindən daha çox türkcə şeirlər yazmışdı. Səfəvi dövlətinin ordusunda və sarayında həmişə türkcə danışıldığı da məlumdur, fars dili daha çox yazı dili kimi işlədilirdi.

Heç şübhə yox ki, səfəvilərin sarayı səlcuqlularınkına nisbətən daha türk xarakterli idi. Səfəvilərin dövlət təşkilatı öz sələfi olan ağqoyunlularınkı ilə eyni idi, yalnız hərbi təşkilata osmanlıları təqlidən topçu və tüfəngçi alayları əlavə edilmişdi.

Osmanlılar kimi, Şah Abbas zamanında (1587-1628) erməni, gürcü və çərkəzlərdən ibarət döşürmə hissələri yaradılmış və mühüm komandanlıqlar bu zümrəyə mənsub olanlara verilsə də, bu sistem adı çəkilən hökmdardan sonra inkişaf etməyərək getdikcə əhəmiyyətini itirməyə başlamışdır. Qızıl-

[1] Bütün bu xüsuslarda «Səfəvi dövlətinin qurulmasında Anadolu türklərinin rolu» adlı hazırlamaqda olduğumuz bir araşdırmada müfəssəl məlumat verilmişdir.
[*] Tarix yanlışdır, 1524-cü il olmalıdır (tərcüməçi).

baş ulusuna mənsub türklər bu döşürmələrə nifrət edir və onları «qaraoğlu» adlandırırdılar.

Səfəvi dövlətinin qurulması əsasən aşağıdakılarla nəticələnmişdir:

1. İslam aləminin ortasında bir şiə dünyası törətmiş və İran təcrid edilmiş vəziyyətə düşmüşdür. Beləliklə, bu ölkənin islam dünyasında hər baxımdan (siyasi, iqtisadi, mədəni) oynadığı mühüm rol da sona çatmışdır. Əvəzində Səfəvi dövləti İrana uzun zamandan bəri həsrəti çəkilən siyasi sabitlik və asayiş gətirmişdir.

2. Səfəvi dövlətinin yaranması Türkiyə ilə Orta Asiya arasındakı hər cür əlaqə və münasibətlərin kəsilməsinə səbəb olmuşdur. Səfəvi İranı Anadolu ilə Türküstan arasında sanki bir dəmir pərdə halını almışdı.

3. Səfəvi hərəkatı Anadoludan altıncı, ancaq ən uzun müddətli və ən qələbəlik bir köç hərəkətinə səbəb olmuşdur. Bu köçlər İrandakı türk ünsürünü qüvvətləndirərək onu Azərbaycanda hakim vəziyyətə gətirmiş, əvəzində Şərqi və Cənub-Şərqi Anadoludakı türk ünsürünü zəiflətmişdir. Ancaq bu da həqiqətdir ki, Şərqi Anadolu səfəvi idarəsində qalsaydı bir müddət sonra orada ancaq türk dilində danışılacaqdı. Osmanlı idarəsi bu bölgədəki köçəri türk ünsürünü belə öz yerində möhkəmləndirmədi. Onların bir hissəsi İrana, digəri isə Orta Anadoluya köçmək məcburiyyətində qaldı.

Bütün bunlara baxmayaraq Anadolu ilə İrandakı türklər arasında mədəni əlaqələr əsrlər boyu davam etdi. Bu işdə ozanların xələfləri olan aşıqlar xüsusilə böyük rol oynadılar, «Əsli və Kərəm», «Arzu-Qəmbər», «Şah İsmayıl», «Aşıq Qərib» kimi İran türkləri arasında meydana gələn xalq ədəbiyyatı Anadolu türkləri tərəfindən əxz edildi. Əvəzində «Koroğlu» dastanı Anadoludan İrana keçdi və onların da milli dastanına çevrildi. Molla Nəsrəddin lətifələri də «Koroğlu» dastanı kimi İrana Anadoludan keçmişdir.

Səfəvi dövlətinə son qoyan Nadir şah diqqətəlayiq bir şəxsiyyətdir. Nadir şah (1736-1747) İrandan əfqanları və osmanlıları qovduqdan sonra Hindistana qədər uzanan müvəffəqiyyətli səfərlər etmişdir. O, əfşar boyunun çırxlu oymağından idi, qövmi duyğularının çox qüvvətli olduğu məlumdur. Nadir şah osmanlı hökmdarı I Mahmuda göndərdiyi məktublarda osmanlı xanədanının özünün də mənsub olduğu türkmən qövmünün ən böyük ailəsi olduğunu yazır və tez-tez qövmi qohumluqdan bəhs edirdi. Osmanlı divanından alınan məktublarda Nadirin bu duyğusunun paylaşdıldığını göstərən bir ifadəyə rast gəlmirik. Çox ehtimal ki, nə Osmanlı hökmdarı I Mahmud, nə də onun dövlət xadimləri bu qohumluğun fərqində deyildi. Nadir eyni zamanda İranın şiə məzhəbi ilə islam aləmindəki təcrid edilmiş vəziyyətini görərək məsələni həll etmək üçün səmimiyyətlə təşəbbüsə başlamışdı. Onun sünniliyə meyli açıqca görünür. Hətta həyatının faciəvi bir şəkildə sona çatmasında bu sünnilik təmayülünün mühüm bir amil olduğu söylənir. Şüb-

həsiz ki, qövmi duyğuları qüvvətli, inqilabçı olan bu böyük şəxsiyyəti qəflət içində olan Osmanlı dövlət adamları qiymətləndirə bilməmişdi.

İranda siyasi birliyi həmin əsrin sonlarında qaçar (İran mənbələrində qacar) xanədanı qurdu. 1925-ci ilədək davam edən bu xanədan İrandakı son türk sülaləsidir. Qacarlar özlərini həmişə türk saymış, türkcə danışmış və əcdadlarının İrana Hülakü xanla birlikdə gəldiklərinə inanmışlar. Yuxarıda da deyildiyi kimi, qacarlar XV əsrin axırlarına doğru ağqoyunlular dövründə Anadoludan İrana gəlmiş və Azərbaycanda yurd salmışdılar. Onların Anadoludakı yurdları isə Boz-ox (Yozqat) bölgəsi idi;-XVI əsrdə üç əsas oymaqdan ibarət idi: şam bayatı, yıva və ağcaqoyunlu. Belə olduğu təqdirdə xanədan bu üç oymaqdan birinə (yıva?) mənsub olmalıdır. Qacar adına gəlincə, onun bu üç oymağın başçısı olan bir bəydən nəşət etdiyi şübhəsizdir[1]. Qacarları Anadoludan İrana gətirən bəlkə də bu bəy idi.

Malazgirt vuruşmasından (1071) sonra Anadoluya başlanan köçlər XIII əsrin sonunadək davam etmişdir. XIV əsrdən etibarən köç hərəkətləri əks istiqamətdə, yəni Anadoludan İrana başlandı. Gördüyümüz kimi, bu ölkəyə XIV əsrdən etibarən Anadoludan gələn siyasi qüvvələr hakim olurdular. Onlar başlıca olaraq oyrat Əli Padşah, cəlayir Böyük Şeyx Həsən və çobani Kiçik Şeyx Həsənin rəhbərlik etdiyi monqollar, qaraqoyunlu, ağqoyunlu və səfəvi ailəsinin idarəsində olmaq üzrə türkmənlərdir. Səfəvilərin dövləti də istinad etdiyi hərbi zümrə baxımından qaraqoyunlular və ağqoyunlularınkı kimi, Baburun olduqca gözəl qiymətləndirdiyi üzrə bir türkmən dövlətidir. Əfşarların və qacarların dövləti də belədir. Xüsusilə qaraqoyunluların, ağqoyunluların və səfəvilərin fəaliyyəti nəticəsində İrana Anadoludan o qədər çoxlu türk getdi ki, XVI əsrdən etibarən Qərbi İran Rumeli kimi qövmi baxımdan Anadolunun davamı mahiyyətini aldı.

Beləliklə, biz Orta, Cənubi və Şərqi Anadoludakı türk oymaqlarının qollarını həmin əsrdən İranda da görürük. Bu gün də Şimali Azərbaycanda və İranın Cənubi Azərbaycanla digər bəzi əyalətlərində yaşayan türk ünsürünün çox mühüm bir hissəsini Anadoludan gəlmiş bu kəndli və köçəri oymaqlar təşkil etmişdir.

## 3. MONQOL DÖVRÜNDƏ VƏ ONDAN SONRA ANADOLU

Monqol istilası nəticəsində Anadoluya Türküstan, Xorasan və Azərbaycandan çoxlu türkmən gəldi və ölkənin hər tərəfi onlarla doldu. XIII əsrin ortalarında xaricilərin səlcuqlu ölkəsinə «Türkiyə» və «Türküstan» adını vermələri bununla əlaqədardır. Ancaq Türküstandan yalnız köçəri türk icmaları deyil, onlarla birlikdə yarıköçəri və oturaq kəndli-şəhərli türk ünsür-

[1] Qacarın şəxs adı kimi işlədildiyi məlum olan Qaracarın qısaldılmış şəkli olması da ehtimal edilir.

lərindən çoxlu əhalinin Anadoluya gəldiyi bilinir[1]. Monqol istilası nəticəsində Türküstanın yaşamağa əlverişsiz vəziyyətə düşməsi də bu işdə ən mühüm amil idi. Üstəlik İrandan ziyalı, tacir və sənətkarların xeyli hissəsinin də gəldiyi məlumdur. Anadoluya gələn türkmənlərin bir qismi burada öz yaşayışına uyğun yer tapa bilməmiş, meşəlik və dağlıq yerlərdə yurd salmaq məcburiyyətində qalmışdır. Onların Maraş bölgəsindəki meşələrdə yaşayanlarına ağac ərləri (meşə adamı) adı verildi[2]. Bu yaşayış nəticəsində ağac ərləri nəvələrinin bir hissəsi ağac emalı ilə məşğul oldular.

Türkmənlər özlərilə şeyx və dərvişlərini də gətirmişdilər. Onlarda müsəlmanlıq səthi, əski türk dini inamları isə güclü idi. Bu şeyxlərdən biri olan Baba İshaq Malatyanın Sumeysat (Samsat) yaxınlığındakı türkmənlər arasında yaşayırdı. Yanındakı bir neçə müridi ilə ibadət və riyazət ilə məşğul olan Baba İshaq yaşayışı və sözləri ilə türkmənlər üzərində böyük təsirə malik idi. Türkmənlərin belə şəxsiyyətlərə qədimdən bəri qorxu ilə qarışıq bir sevgi və hörmət, bağlılıq duyduqlarını bilirik. Baba İshaq zamanın hökmdarı II Qiyasəddin Key-Xosrov ilə bəzi dövlət adamlarının dini və əxlaqi qaydalara zidd həyat sürdüklərindən bəhs edərək türkmənləri üsyana qaldırdı. Deyildiyi kimi, öz vəziyyətlərindən narazı olan və Baba İshaqın peyğəmbərliyinə inanan türkmənlər hərəkətə gəldilər və üzərlərinə göndərilən səlcuqlu qoşunlarını dalbadal məğlubiyyətə uğratdılar. Baba İshaq Amasya yaxınlığında tutulub öldürüldüyü halda onlar peyğəmbərlərinin kömək gətirmək üçün göyə merac etdiyini söyləyərək hərəkətlərinə son vermədilər. Nəhayət, içində firəng cəngavərlərindən bir bölüyün də olduğu Ərzurum sərhədindəki səlcuqlu ordusu Qırşəhir yörəsində, Malye ovasında Baba İshaq türkmənlərinin çoxunu məhv elədi (1240). Bununla birgə, Baba İshaqın müridləri onun batini inamlarını davam etdirdilər.

Görkəmli müridlərdən xorasanlı Hacı Bəktaş öz adını daşıyan bir təriqət qurdu. Bu üsyanın əsil səbəbi türkmənlərin iqtisadi sıxıntı içində olduqları və onlara ancaq istismar edilən ünsür gözü ilə baxılmasıdır. Bu düşüncə osmanlı dövründə də davam etmiş və dövlətin başına çox bəlalar açmışdır. Bu xanədanlar siyasi fəaliyyətlərinin ilk dövrlərində eldaşları türkmənlərdən yaxşıca istifadə edir, sonra qullardan ibarət seçmə orduya sahib olunca türkmənləri xidmətdən qovurdular. Ancaq müşkül bir vəziyyətə düşdükləri zaman yenidən türk oymaqlarından istifadə etmək istəyir, hətta bəzən onları «övladi-fatihan» kimi sözlərlə oxşayırdılar.

1240-cı ildəki Baba İshaq üsyanı səlcuqlu dövlətinin mənən nə qədər zəif bir vəziyyətdə olduğunu göstərmişdi. Bunu başa düşən İrandakı monqol qoşunları komandanı Baycu 1243-cü ildə səlcuqlu ölkəsinə yürüş etdi. Siva-

---

[1] Bu haqda bax: F.Sümər. Anadoluya yalnız köçəri türklərmi gəldi? Belleten, XXIV, s. 567-594.

[2] Bu türk boyu haqda bax: F.Sümər. Ağac ərilər. Belleten. XXVI, s. 521-528.

sın təqribən 80 kilometr şərqində yerləşən Kosadağda baş verən vuruşmada səlcuqlu ordusu özündən sayca az olan monqol ordusuna xəcil bir şəkildə məğlub oldu. Bu məğlubiyyət nəticəsində səlcuqlu dövləti monqolların tabeliyinə keçdi və bir salnaməçinin ifadəsilə «çöküntü, düşkünlük və fəryad dövrü başladı».

Səlcuqlu taxtında oturan hökmdarların ləyaqətsizlikləri və xeyli hissəsi iranlı və ya onların övladları olan dövlət adamlarının heç bir əxlaqi qayda tanımayan ehtirasları üzündən monqol zülmü getdikcə ağırlaşmış və monqollar 1277-ci ildə Türkiyənin idarəsini felən əllərinə almışdılar. Bu tarixdən sonra səlcuqlu sultanları monqol xanlarının adicə vassaları vəziyyətinə düşmüş və getdikcə öz əhəmiyyətlərini itirmişlər. Son səlcuqlu sultanı II Qiyasəddin Məsudun 1308-ci ildə Kayseridəki ölümü ölkədə heç bir həyəcan yaratmadı. Səlcuqlu hökmdarları öz hakimiyyətləri üçün olduğu qədər monqollara qarşı da ən mühüm qüvvə olan türkmənləri ətraflarına yığmaq bəsirətini göstərmədilər. Əksinə, onlarla mübarizəyə başladılar ki, bu da getdikcə monqolların hakimiyyətinin qüvvətlənməsinə, özlərinin hakimiyyətinin zəifləməsinə gətirib çıxardı.

Anadoluda monqollara qarşı mübarizə edən yeganə ünsür türk köçəri icmaları, yəni türkmənlər idi. Daha əvvəl də göstərdiyimiz kimi, türkmənlər torpağa bağlanıb oturaq həyata keçincə onlara türkmən deyilmir, türk adı verilirdi. Şəhərlərdə XIII əsrin birinci yarısına qədər xeyli xristian əhali vardı. Onlar əsrin ikinci yarısından etibarən əhəmiyyətlərini itirməyə başlamış və XIV əsrin birinci yarısında şəhərlərdə də azlıq vəziyyətinə düşmüşdülər.

Səlcuqlu hökmdarları, yaxud onların adından iqtidarı əllərində tutanlar köçəri ünsürlə oturaq ünsürü birləşdirib monqollara qarşı bir müdafiə qüvvəsi yaratmadılar. Əksinə, türkmənlərə qarşı mübarizədə monqollara arxalandılar. Baba İshaq üsyanı türkmənlərin dövlət idarəsindən əsla məmnun olmadıqlarını açıqca ortaya qoymuşdur. Yoxsul vəziyyətdə olduqları anlaşılan bu türkmənlər, həmişə göründüyü kimi, hər halda vergi məmurlarının haqsız və insafsız rəftarına məruz qalmışlar. Səlcuqlu sultanları monqol hakimiyyətinə tabe olduqdan sonra büsbütün itaətsizlik göstərmiş, ancaq monqollara da boyun əyməmişlər. XIII əsrin ikinci yarısından etibarən səlcuqlu sultanları onları itaət altına alacaq gücə sahib deyildilər. Buna görə ilk elxani hökmdarı Hülakü xan (1256-1265) Anadoludakı monqol komandanlarına türkmənləri cəzalandırmaq buyruğunu vermişdi[1].

Monqollar Sivas və Kayseri bölgəsindəki türkmənlərə və ağac ərlərə hücum etdilər. Monqollar türkmənlərin çoxunu öldürərək ağac ərlərə ağır zərbə endirsələr də onların çoxu cənuba enərək məmlük torpaqlarına pənah

---

[1] K.Kahen. Bizans. Rum türkləri ilə əlaqədar bir neçə tarixi mətn, XIV, s. 131-139; F. Sümər. Ağac ərilər, s. 524.

apardı[1]. İbn Şəddad[2] Sultan Baybars zamanında (1260-1277) 40.000 evdən artıq türkmənin gəldiyini, onlara Qəzzədən Antakya və Sisədək (bugünkü Kozan) olan hüdud bölgəsində yurd verildiyini, bəylərin çoxuna səlibçilərdən alınmiş yerlərdə iqta verildiyini söyləyir. Gerçəkdən, heç vaxt Suriyada məmlük dövründə olduğu qədər türkmən toplanmamışdı. Təəssüf ki, türkmənlərin çoxu bu ölkədə daimi yaşamır, yazda Anadoluya çıxaraq Maraş bölgəsində, Uzun yaylada və Sivasın cənub tərəflərində yaşayırdı. Bu türkmənlərdən aşağıda yenidən bəhs etmək şərtilə indi təkrar Anadoluya qayıdaq.

Monqollar türkmənləri nə qədər məğlub etsələr də, sıldırım yerlərdə yurd salmış türkmənlərin fəaliyyətinə heç cür son qoya bilmirdilər. Türkmən bəylərindən Şəmsəddin Məhməd bəy 1277-ci ildən əvvəl Ərzincan və Bayburt ətrafını öz hakimiyyəti altına almış və Trabzon dağlarını özünə məskən etmişdi. Bu türkmən bəyinin Sinopdan Antəpədək uzanan bölgədə geniş ölçüdə yağma və təxriblərdə bulunduğu bildirilir. Monqollar bir basqın ilə Məhməd bəyi məğlub etmiş, ancaq bu dəfə özləri eyni əmələ (yağma) qurşanmışlar. Nəhayət, Əbaqa cəlayir Tokuyu türkmənlərin üzərinə göndərdi. O, türkmənləri cəzalandırdı[3].

İqtidarı əlində tutan Müiniddin Pərvanə başda olmaqla səlcuqlu dövləti əyanlarının dəvətilə Misir-Suriya türk məmlük hökmdarı Baybars 1277-ci ildə Anadoluya yürüş etdi və Əlbistan ovasında həmən Toku və Tudaunun komandanlığındakı monqol ordusunu ağır bir məğlubiyyətə uğratdı. Məşhur cəlayir İlgəy Moyonun oğlu olan Toku ilə suldus Sodun Noyonun oğlu Tudaun vuruşmada öldülər. Baybars Kayseriyə gəldi, ancaq onu dəvət edən Pərvanə və digər dövlət adamları onunla əməkdaşlıq etməyərək Tokata qaçdılar. Baybars belə bir hərəkəti gözləmirdi. Əlindən heç bir şey gəlməyən camaat və türkmənlər ona tərəfdar oldular. Bu türkmənlərin başında Qaraman oğulları gəlirdi. Onlar Ərmənək ətrafında yurd salmışdılar. Onların monqol istilası zamanı Arandan əvvəlcə Sivas tərəflərə gəlmələri və orada Baba İshaq üsyanında iştirak etdikdən sonra Ərmənək ətrafına köçmələri ehtimal olunur. Ailəyə adını vermiş olan Nurəddin Sufi (Sofu) oğlu Qaraman İç-el bölgəsindəki ermənilər ilə mübarizə aparmış və Aksarayiyə görə[4],

---

[1] Göstərilən yerlər.

[22] Baybars tarixi. İ.Yaltkayanın türkcəyə tərcüməsi. İstanbul, 1941, s. 155, 171.

[3] Müqatəbati-Rəşidi. Məhəmməd Şəfi nəşri. Lahor, 1945, XLVI məktub, s. 273-278. Məktub Müiniddin Pərvanə tərəfindən yazılmışdır. Məktubların naşiri rəhmətlik Məhəmməd Şəfi məktubda adı çəkilən Şəmsəddin Məhməd bəyin Qaraman oğlu olduğunu söyləsə də, məktubdakı yer adları belə bir hökmə imkan verməməkdədir.

[4] Müsamərət ül-əxbar. Osman Turan nəşri. Ankara, 1944, s. 71. Çağdaş bir erməni qaynağına görə Qaraman ermənilərlə vuruşmalarının birində yaralanmış, çox keçmədən həmin yaralardan ölmüşdür (XIII əsr Kiçik Asiya türkmənlərinin tarixinə dair qeydlər, Y.A. 1951, s. 334).

Konya yaxınlığında 1261-ci ildə səlcuqlu qoşunları ilə qanlı bir döyüşə girmişdir. Bu ailənin əfşar boyundan olduğuna dair Yazıçıoğlunun[1] ifadəsinin doğru olması mümkün, hətta bəlkə də doğrudur. Baybarsın Anadoluya gəlməsini fürsət hesab edən Qaramanoğlu Məhməd bəy Konyaya yürüş etdi (1277). Məhməd bəyin buyruğundakı türkmənlər o dövrün salnaməçisi tərəfindən «qızıl börklü və ayağı çarıqlı» deyə təsvir olunur[2].

Məhməd bəy Konyanı zəbt etdi və tarixçilərin Cimri[*] adını verdikləri bir səlcuqlu şahzadəsini taxta çıxardı, özü isə vəzir oldu. Qəbul edilən ilk qərar bundan sonra dövlət divanında, sarayda, məclislərdə türkcədən başqa bir dil danışılmayacağı haqda idi ki, bu, türk mədəniyyət tarixi baxımından mühüm hadisə idi[3]. Danışılması arzu edilməyən dilin fars dili olduğu şübhəsizdir. Bu qərar hər halda yalnız Məhməd bəyin deyil, o zaman sayı xeyli artmış olan türk ziyalılarının da duyğusunu ifadə etmiş olmalıdır. Klassik türk ədəbiyyatı elə həmin dövrdə ilk məhsullarını verməyə başlamışdı.

Məhməd bəy türkmənlərə nifrət edən vəzir Fəxrəddin Əlinin oğullarını da məğlub edərək vəziyyətini yaxşılaşdırsa da, monqolların gəlməsi nəticəsində İç-elə çəkilməyə məcbur oldu. Doğrudan da, Baybarsın Suriyaya qayıtmasını görən monqol xanı Əbaqa çoxlu qoşunla Anadoluya gəldi, Əlbistan vuruşmasında öldürülən monqolların qisasını türk xalqından aldı və Kayseridən Ərzruma qədər olan yerlərdə qırğınlar, yağmalar və təxribat törətdi ki, məmlük salnaməçiləri öldürülənlərin sayını 200.000 nəfər olaraq göstərir[4]. Qaraman oğlu Məhməd bəyə gəlincə, onun üzərinə monqol şahzadəsi Konqurtay göndərilmişdi. Məhməd bəy monqollara qarşı igidcəsinə müdafiə olunurdu, ancaq şəxsən bir kəşfiyyata çıxarkən monqolların ox yağmuruna tutularaq iki qardaşı ilə birlikdə şəhid oldu və Konyada türk dilindən başqa heç bir dilin danışılmamasını istəyən Məhməd bəyin həyatı belə bir həzin şəkildə sona çatdı. Bununla bərabər, Məhməd bəyin ölümü ağır bir itki olsa da, qaramanlıların gücü sarsılmamış və monqollarla mübarizə əzmləri zəifləməmişdir. Onlar Anadolu türklüyünün tatarlara qarşı ən mübariz ünsürü olmuşlar. Qazan xan qaramanlıları dövlətinin düşmənlərindən biri sayır və onları hakimiyyətinin qərbə doğru uzanmasında başlıca maneə hesab edirdi.

Məhməd bəyin hərəkətlərinə fikir versək, onun səlcuqlu dövlətinin idarəsini ələ alaraq monqolları ölkədən qovmaq qayəsini güddüyünə hökm verə bilərik. Xüsusilə məmlüklərdən kömək alsaydı, yəqin ki, bu planı həyata keçirə bilərdi. Bizans hüduduna gəlincə, uzun sərhəd bölgəsində türkmən-

---

[1] Səlcuqnamə. Topqapı sarayı, Rəvan kitablığı, № 1390.
[2] İbn Bibi. Əl-əvamur ul-əlaiyyə fi-l-ümur il-əlaiyyə. Ankara, 1956, s. 696.
[*] Cimri türkcə xəsis deməkdir (tərcüməçi).
[3] İbn Bibi, s. 696; Houtsma nəşri, s. 326.
[4] Hətta onlardan öldürülənlərin sayının 500.000 nəfərə çatdığı bir rəvayət kimi qeyd olunur.

lər qədimdən bəri qələbəlik elatlar halında yaşayırdılar. Monqol istilası və təzyiqi nəticəsində bu bölgədəki əhalinin miqdarı hədsiz artmışdır. Coğrafiyaşünas ibn Səid[1] (ölümü: 1274 və ya 1286) onlardan yalnız Dənizli bölgəsində yaşayan türkmənlərin 200.000 çadıra yaxın olduqlarının rəvayət edildiyini yazır. Bu türkmənlər Bizans torpaqlarına yürüşlər edir, əsir aldıqları adamları satırdılar. Bununla bərabər bu türkmənlər yalnız qənimətlə dolanmır, toxuduqları kilimləri xaricə satır, Misirə və başqa yerlərə taxta-şalban göndərirdilər[2]. Barthold[3] onların kilim toxuma sənətini Orta Asiyadan gətirmiş olduqlarını ağlabatan hesab sdir. Bu Dənizli (əsil adı: Donuzlu) türkmənləri XIII əsrin ikinci yarısında dənizə çataraq bugünkü Muğla bölgəsində Məntəşə bəyliyini qurdular. Səlcuqlu dövlətinin zəifləməsi nəticəsində Dənizlidə inancoğulları və İsparta ilə Antalya bölgəsində yenə türkmənlər tərəfindən həmidoğulları bəyliyi qurulmuşdur.

Kütahya dolaylarında da mühüm bir türkmən elatı vardı. 1277-ci ildə burada cərmiyanlıların yaşadığını görürük. Onlar 1240-cı ildə Malatya bölgəsində idilər, yəqin ki, bu tərəflərə monqol təzyiqi nəticəsində 1260-cı ildən sonra gəlmişlər. Qərbi Anadolunun digər bölgələrini isə Aydın oğlu Məhməd, Saru xan və Karasi adlı bəylər fəth etdilər və aydınoğulları, saruxanoğulları (Manisa bölgəsində), karasioğulları (Balıkesir bölgəsində) bəyliklərini yaratdılar. Bu fəthlər XIV əsrin ilk rübündə başa çatmışdı. Mərmərə bölgəsi isə Söyüd ətrafında yaşayan Osman bəy və oğlu tərəfindən alındı. Osman da bir türkmən bəyi idi. Onun atası Ərtoğrul öz oymağı ilə birlikdə Söyüdə Ankara tərəflərdən gəlmişdi. Ehtimal ki, bu gəliş monqol təzyiqi nəticəsində 1277-ci ildən bir az sonra baş vermişdi. Osmanlı ailəsinin atalarının Anadoluya gəlməsi haqda: onların monqol istilası səbəbilə yaşadıqları Mahandan[4] (Mərv yaxınlığında) Anadoluya gəldikləri barədə əski Osmanlı tarixindəki rəvayəti rədd etmək üçün heç bir əsas yoxdur.

Hüdudda yaşayan türkmənlər (uc türkmənləri) səlcuqluların səlib yürüşlərindən sonra bir daha ələ keçirə bilmədikləri Qərbi Anadolu ilə Mərmərə bölgəsini asanlıqla fəth etdilər və orada yerləşdilər, o bölgəni elə türkləşdirdilər ki, oralar XVI əsrdə Anadoluda ən az xristian əhali olan yerlər arasında birinci idi.

Başda aydınoğulları olmaq üzrə bu türkmən bəyləri türkcə əsər yazdırmaq və tərcümə etdirmək surətilə türk mədəniyyətinə də xidmət göstərdilər. Orxan bəyin (1326-1359) divanında türk dilinin rəsmi dil kimi işləndiyini bilirik. Konyada türkcədən başqa dil danışılmamasını istəyən Qaraman oğlu

---

[1] Kitab bəst li-ərz. Tetuan, 1958, s. 117-118.
[2] Göstərilən yer.
[3] Türkmən xalqının qısa tarixi, s. 130.
[4] XIV əsrdən bəri Mahanda böyük bir türkmən icması yaşayırdı.

Məhməd bəyin XIV əsrdəki xələflərinin divanında türk dilinin yazı dili olaraq işlədilməsi barədə əlimizdə heç bir dəlil yoxdur.

Əbu Səid Bahadır xanın ölümündən sonra (1335) monqollar arasında şiddətli bir daxili çəkişmə başladı. Nəticədə Anadolu bəylikləri tam bir istiqlala qovuşdular. Artıq Türkiyənin günəşli günləri başlamışdı. Məmləkət bolluq içində, xalq məsud idi, monqol hakimiyyətinin iztirablı dövrü arxada qalmışdı. Bütün şəhər və qəsəbələrdə başında əxi adlı rəisləri olan əsnaf və sənətkar cəmiyyətləri vardı. Onlar silahlı olub şəhər hakimiyyətini təmsil edirdilər. Bütün gün işləyən cəmiyyət üzvləri gecələr cəmiyyət mərkəzində toplaşaraq söhbət edir, mahnı oxuyub oynayırdılar. Onların cəmiyyət mərkəzləri eyni zamanda mehmanxana vəzifəsini də yerinə yetirirdi. Bir Anadolu şəhərinə uzaq-yaxın yerlərdən gələn qonaqlar bu əxi mərkəzlərində çox səmimi bir qonaqpərvərlik görürdülər. Bu, türk olmayan əcnəbiləri heyrətə salırdı. Əxilər ortadan qalxdıqdan və ya cəmiyyətlərini itirdikdən sonra şəhər və qəsəbə əyanları mehmanxanalar təsis edərək həmin ənənəni davam etdirdilər. Kəndlərdə isə ağaların eyni məqsədlər üçün otaqları vardı. Hətta bir ağanın bəzən iki otağı olub biri yoxsul yolçular üçündü. Yoxsul yolçulara son zamanlarda qara müsafir deyilirdi. Türklərdə ən qədim dövrlərdən bəri ictimai yardım duyğusunun çox güclü olduğu bir faktdır və bu, həmişə əcnəbilərin diqqətini çəkmişdir. Yemək üstünə gələn hər kəs mövqeyi, milliyyəti və dini nə olursa-olsun, səmimi bir şəkildə yeməyə dəvət edilir, əgər ac olduğu halda yeməsə, bu, ayıb sayılırdı. Bu keyfiyyət hər halda yemək yeyildiyini görən adamın o yeməkdə bir haqqı olduğu düşüncəsi ilə bağlıdır.

Əxilər eyni zamanda siyasi baxımdan da əhəmiyyətli bir zümrə idilər. Yuxarıda da deyildiyi kimi, hamısının silahları vardı. Bellərində ya bir yatağan, ya da bir saldırma* olurdu. Bəzən şəhərlərin hökmdar adından əxilər tərəfindən idarə edildiyi məlumdur.

Anadoluya işğal qüvvələri kimi göndərilmiş monqollar başlıca olaraq Tokat, Amasya, Çorum, Qırşəhər, Kayseri və Sivas ətrafında yaşayırdılar. Onlara ümumiyyətlə «tatar» deyilirdi. Bəzi əsərlərdə isə «qara tatar» adı verilir, onlara «qara» sifətinin qoşulması aralarında kuin (monqolca: qara) tatarlarının olmasından, yoxsa siyasi əhəmiyyətlərini itirmələrindən dolayı verilmişdir? Bizcə, ikinci ehtimal daha qüvvətlidir. Təhrir dəftərlərində bunlardan bəzi oymaqlara «muğal» da deyilir. Bu tatarlar artıq tamamən müsəlman idilər. Onların hamısı monqol mənşəli olmayıb aralarında uyğur və digər türk qövmlərindən mühüm zümrələr var idi. 1337-ci ildə həmin tatarların başında əmir Ərətna dururdu. O, uyğur türklərindən idi, mükəmməl təhsil almışdı, ərəbcə də fasih danışırdı. Ərətna 1343-cü ildə Təbrizdə elxani taxtına çıxan Süleyman xan və əsil iqtidarı əlində tutan çobani əmir Şeyx Həsəni məğlub etdikdən sonra Orta və Şərqi Anadolunun xeyli hissəsinə ha-

* Yatağan - sivri, əyri xəncər, saldırma neştər deməkdir (tərcüməçi).

kim oldu. İdarəsi altındakı xalqı ona «kosa peyğəmbər» dedirdəcək dərəcədə ədalətlə idarə etdi (ölümü: 1352). Xələfləri Ərətna kimi enerjili olmadıqları üçün iqtidar onlara qazılıq, vəzirlik və naiblik edən Qazı Bürhanəddinin əlinə keçdi (1380). Qazi Bürhanəddin oğuzların salur boyuna mənsub olub beşinci arxa babası Məhməd monqol istilası səbəbilə Xarəzmdən Anadoluya gəlmişdi. Buna görə Məhməd Manqışlaqdakı salurlara mənsub olmalıdır.

Bürhanəddin Türkiyə tarixində tayı-bərabəri olmayan nadir bir şəxsiyyətdir. Tariximizdə ondan başqa mülki məmurluqdan hökmdarlıq mövqeyinə keçən ikinci bir şəxs yoxdur. Bürhanəddin orta və ali təhsilini Misirdə almışdı. Hökmdar olduqdan sonra qış gecələrində fiqhə dair (islam hüququ) bir neçə əsər qələmə almışdı. Bundan başqa, üç dildə şerlər yazırdı. Bu müstəsna şəxsiyyət xidmətindəki bəylərdən ağqoyunlu Qara Yölük Osman tərəfindən bir çarpışmada öldürüldü (1397).

Teymur Anadolu səfərindən qayıdarkən sayı 30-40 min çadır olan qara tatarları Mavəraünnəhrə köçürməyi qərara aldı. Qaynaqların ifadəsindən onun bu qərarında qövmi duyğusunun hakim olduğu şəkildə bir nəticə çıxsa da, əslində Teymur onlarla öz ulusunu qüvvətləndirmək və onları Mavəraünnəhrin hüdud bölgəsində yerləşdirmək qayəsini güdmüşdür. Teymur lap sürək ovunda olduğu kimi, onların çoxunu ordusu ilə bir yay (qövs) içinə alaraq zorla Anadoludan köçürtdü. Halbuki onlar Anadoluda rahat bir həyat sürürdülər: burada doğulmuş və böyümüşdülər. Onun üçün bəzi teymuri mənbələrdə onlara «qara tatar türkmənləri» deyilirdi. Qara tatarlar yolda qaçmağa təşəbbüs etdilərsə də, ağır şəkildə cəzalandırıldılar. İspaniya elçisi Klavixonun Damqanın xaricində gördüyü kəllə qüllələri bu zavallılara məxsus idi[1]. Onların Türküstana götürülənləri Teymurun ölümündən sonra başlayan qarışıqlıq illərində Anadoluya qaçmaq istəsələr də bu təşəbbüslərində müvəffəq olmamışlar. Qara tatarların az bir qismi sağa və sola qaçmaq surətilə Anadoluda qalmışdı. Bunların arasında səlcuqlu dövründə Anadoludakı monqol valilərinin ən ədalətlisi kimi təriflənən Kuin Tatar Tamağar noyonun ailəsi də vardı. Çələbi Məhməd Samsun səfərindən qayıdarkən İskilib ətrafında bu tatarların bir qismini görmüş, onlar öz başçıları Minnət bəy oğlu ilə birlikdə Rumeliyə köçmüşdür. Təhrif dəftərlərində bu qara tatarların orda-burda qalıqlarına rast gəlinir.

XIII əsrin ikinci yarısının ortalarında qələbəlik sayda bir çəpni icmasının Sinop tərəflərdə yaşadığı görünür. Bunlar qarışıqlıqlardan faydalanaraq Sinopu almaq istəyən Trabzon yunan imperatoruna qarşı şəhəri uğurla müdafiə etmişdilər. Bu çəpnilərin Samsunun şərqindən Girəsuna qədər uzanan və Canit (Canik) deyilən bölgənin fəthində mühüm bir rol oynamaları və

---

[1] Əsərin ingiliscə və türkcə nəşrlərində ağqoyunlu deyilir. Son ispanca nəşrində doğru olaraq «tartaros blankos», yəni ağ tatarlar kimi göstərilir (Madrid, 1943, s. 92, 123).

Ordu bölgəsində qurulmuş olan Hacı Əmirli bəyliyinin bunlara məxsus olması ehtimal edilir. 1381-ci ildə Girəsun Hacı Əmirli Süleyman tərəfindən fəth edilmişdi. Bu tarixdə biz çəpniləri Tirəbolu önlərində görürük. Klavixonun səyahətnaməsindən belə anlaşılır ki, çəpnilər Trabzon-Ərzincan arasında da qüvvətli elat idilər[1]. Trabzon bölgəsi 1462-ci ildə Fateh tərəfindən fəth edilərək Şimal-Şərqi Anadolunun istilası tamamlanmışdır.

Daha əvvəl də işarə edildiyi kimi, XIII əsrdə Suriyada qələbəlik bir türkmən elatı yaşayırdı. Bu elatın çox mühüm bir qismi yazda Sivasın cənub tərəflərinə və Uzun yaylaya çıxırdı. Bunlara şamlu, şam türkləri və ya şam türkmənləri deyilirdi. Onlar boz-ox və üç-ox şəklindəki əski ikili oğuz təşkilatını qoruyurdular. Böyük siyasi hadisələrə, köçlərə baxmayaraq bu ikili təşkilatın davam etməsi heyrət doğurur. Boz-oxlar Hələb ətrafında və Amik ovasında yaşayırdılar. Bu türkmən elatındakı boz-oxlar əsasən aşağıdakı boylar tərəfindən təmsil edilirdilər: bayat, əfşar, bəydili, döyər. Boz-oxlardan bir çox tanınmış ailələr çıxmışdır. Onların başında dulqədirlilər gəlir. Ancaq bu ailənin hansı boydan olduğu bilinmir, bayatlara mənsub olmaları ehtimalı var.

Boz-oxlardan digər bir ailə də inaloğullarıdır. Bu ailənin başındakı təşəkkül inallu adını daşıyır. Həmin təşəkkul ağqoyunluların fəaliyyətində iştirak etmiş, bir oymağı şamlu boyu arasında İrana getmiş, bəzi qolları da Amasya, Samsun və Çankırı tərəflərdə yurd salmışdı. Köpəkoğullarının və gündüzoğullarının əfşardan, bozcaoğullarının bayatdan olduqları anlaşılır. Xarbəndəoğullarının isə hansı boya mənsub olduğu naməlumdur. Bu ad elxani hökmdarı Xarbəndə ilə bağlıdır. Xarbəndəlu təşəkkülü əsasən Malatya bölgəsində yurd salmışdı. Onun İrana gedən qolunun adı hökmdarının adı ilə xudabəndəlu adlanmışdır. Xarbəndəlulardan bəzi obalar isə XVII və XVIII əsrlərdə Orta və Qərbi Anadoluya gəlmişdir.

Üç-oxlara gəlincə, bu qolda yalnız çavundur boyu qövmi cəhətdən təmiz idi, digər boylarda isə müxtəlif təşəkküllər vardı. Əhali cəhətdən qələbəlik olan boyları yürəgir, kınık, bayındır, salur və eymirdir. Ramazanoğulları və özəroğulları bu qola mənsub ailələrdir. Üç-oxlar Çuxurovaya köçməzdən əvvəl hər halda Amik ovasında və Trablis tərəflərdə yaşayırdılar.

Şam türkmənləri 1294-cü ildə Sivasa girərək şəhəri yağmalamış və Kayseri bölgəsində axırıncı səlcuqlu hökmdarı II Qiyasəddin Məsudu əndişəyə salan hadisələr törətmişdilər. Əbu Səid Bahadır xanın ölümündən (1335) sonra monqollar arasında baş verən çəkişmələrdən istifadə edən bu türkmənlər 1337-ci ildə Əlbistan yaxınlığında dulqədirli bəyliyini yaratdılar. Həmin əsrin ikinci yarısında Uzun yaylada qara tatarları sıxışdırmağa başlayan şam türkmənləri buralarda yağmaçılıq da edirdilər. XV əsr başlarkən onlar üçün gözlənilmədən bir sevindirici hadisə oldu. Bu da Teymurun qara tatarların

[1] Göstərilən əsər, s. 83.

çoxunu Anadoludan köçürməsi idi. Türkmənlər gecikmədən tatarların boşaltdığı yerlərdə, xüsusilə Yozqat bölgəsində yurd saldılar. Həmin türkmənlər boz-ox qolundan olduqları üçün bu bölgə Boz-ox adlandı və bu ad respublika dövrünədək qaldı[1]. Üç-oxlara gəlincə, onların çoxu türk məmlük ordusu ilə birlikdə erməni krallığının əlindəki Çuxurova bölgəsinin fəthində iştirak etmiş və burada yurd salmışdır.

Ankara fəlakətinin ən mühüm nəticəsi, bilindiyi kimi, İldırım Bəyazidin tamamlamaq üzrə olduğu türk birliyinin yenidən parçalanması idi. Onun ölkəsinə daxil olan Kəmax qalası ancaq 1515-ci ildə təkrarən Osmanlı idarəsinə girmişdir. Bununla bərabər, türk xalqı XIV əsrdə olduğu kimi bu əsrdə xoşbəxt bir həyat sürmüşdür. 1432-ci ildə Türkiyədən keçən fransız səyyahının təəssüratı bir əsr əvvəl Anadolunu gəzmiş İbn Bəttutəninkindən (1332) heç də fərqlənmir.

XIV əsrin ikinci yarısında və XV əsrin əvvəllərində Türkiyə türklərinin qiyafəsi ümumiyyətlə Orta Asiya türklərininki ilə eyni idi. Qadınlar da daxil olmaqla ayaqlarında qırmızı çəkmələr, başlarında al rəngli börk vardı. Ozanlar XIV əsrdə olduğu kimi bu əsrdə də əllərində qopuz hər yanı gəzir və Dədə Qorqud dastanlarını söyləyirdilər. Bu dastanlar o qədər maraqla qarşılanırdı ki, hətta dini əsərlərdə də onların əks-sədasına rast gəlinir[2]. Saraylardakı vəziyyət də təxminən eyni idi. Təbrizdəki qaraqoyunlu sarayında Cahan şah Osmanlı elçisinə kitabxanasındakı uyğurca oğuznaməyə istinadən atası Qara Yusif bəylə Sultan Muradın Oğuz xan nəslindən olduqlarını söyləyirdi[3]. Əvvəlcə dediyimiz kimi, bu qaraqoyunlu hökmdarından bizə türkcə şeirlər də qalmışdır.

Diyarbəkirdəki ağqoyunlu xanədanına gəlincə, bu xanədan Oğuz xanın oğullarından Bayındır xanın nəslindən olması ilə öyünürdü. Ağqoyunlu dövlətinin banisi Qara Yölük Osman bəy özünün səlcuqlu xanədanı ilə qohum olduğunu söyləyirdi: baş hərəminin adı da Səlcuq xatun idi. Osman bəyin müasiri olan Məhməd Çələbinin qızının da eyni adı daşıdığı bilinir. Qara Yölük Osman bəyin nəvəsi olan Uzun Həsənin xatununun adı isə Səlcuq şah idi. Yenə bu xanədana mənsub Qılınc Arslan adlı bir bəy vardı, qaraqoyunlu xanədanının üzvlərindən biri də bu adı daşıyırdı. Ağqoyunlular bayındır boyunun damğasını dövlətin rəsmi gerbi kimi qəbul etmiş, pul, kitabə və rəsmi sənədlərinə vurmuşlar. Xanədan üzvlərindən bəziləri Bayındır adını daşımışlar ki, kürd bəylərinin bir neçəsinin də adı Bayındır olmuşdur.

---

[1] Milli bir xatirə olan Boz-ox adının dəyişdirilməsi səbəbini başa düşmək həqiqətən çətindir.

[2] Məsələn, Hacı Bəktaşi Vəli «Vəlayətnamə»sində (hazırlayan: Əbdülbaqi Gölpınarlı. İstanbul, 1958, s. 73) və «Saltuqnamə»də (A.Ərzi. Ağqoyunlu və Qaraqoyunlu tarixi haqqında araşdırmalar. Belleten, №70, s. 193-202).

[3] Şükrullah. Behcət üt-təvarix. Nurosmaniyyə kitablığı, № 3059, s. 307. Türkcə tərcüməsi Nihal Atsız. Doqquz boy türkləri və Osmanlı sultanlarının tarixi. İstanbul, 1939, s, 27.

Uzun Həsən bəy ağqoyunlu tarixində (Kitabi-Diyarbəkriyyə) Oğuz xanın nəvəsi kimi vəsf edilir. Qaraman xanədanı da öz mənşəyini Oğuz xana bağlayırdı. Salnaməçi Eyniyə görə[1], xanədana öz adını verən Qaramanın Oğuz xan adlı bir qardaşı var idi. Şikari isə[2] Oğuz xanı xanədana mənsub olmayan Qaraman bəylərindən biri kimi göstərir. Biz təhrir dəftərlərində İçelin Səlinti-Anamur tərəflərində yaşayan oğuzxanlı adlı bir oymağa rast gəlirik.

Osmanlılara gəlincə, türk dilini hələ Orxan bəy zamanında rəsmi dil elan etmiş bu xanədan da türkçülük və ya oğuzçuluq cərəyanının təsiri altında qalmışdır. Pol Vitek[3] II Murad dövründə Osmanlı sarayında ilk dəfə müşahidə etdiyi bu cərəyana «milli romantizm» adını vermişdi. Əhmədi isə (ölümü: 1413) Ərtoğrul bəyin əsgərlərini oğuz deyə vəsf edir. Osmanlı xanədanı II Murad dövründə Rəşidəddində oğuzların ən şərəfli boyu kimi göstərilən kayı boyuna bağlanmışdır, çünki əski türk yabğuları ən çox bu boydan çıxmışdır. Bu işdə II Muradın yaxın adamı, ziyalı Yazıçıoğlu Əlinin rolu böyük olmuşdur. Yazıçıoğlu qövmi hissləri qüvvətli olan bir şəxsiyyət idi. O, Rəşidəddinin əsərindən oğuzların əsəb-nəsəbinə aid fəsli türkcəyə tərcümə etmiş, Ravəndi və ibn Bibinin səlcuqlu tarixlərini türk dilinə çevirmişdi. Yazıçıoğlu tərcümələrinə xeyli əlavələr edərək oxucularını səlcuqlu dövründə oğuz ənənələrinin işlədildiyinə və səlcuqlu ordusunun oğuz boylarına əsaslandığına inandırmaq qayəsini güdmüşdür. İlk dəfə II Muradın bəzi sikkələrində kayı boyunun damğası görünür. Bu hökmdarın xələfləri dövründə pullara damğa vurmaqdan vaz keçilsə də, şəxsi əşyalara, silahlara kayı damğası vurulmuşdur. Fatehin öz atası kimi qövmü duyğuları qüvvətli bir hökmdar olmadığını irəli sürmək bəlkə də mümkündür. Ancaq onun nəvələrindən birinin Qorqud (Dədə Qorquddan), digərinin isə Oğuz xan adlarını daşıdıqlarını bilirik ki, bu adlara başqa heç bir türk xanədanında rast gəlmək mümkün deyil. Qövmi duyğuların şüurlu bir şəkildə canlanması milli bir tarix görüşü də yaratmışdı.

«Nəşri tarixi» bunun ən gözəl nümunəsidir. Bu əsərdə Osmanlı tarixindən əvvəl Oğuz xana, onun oğullarına, qaraxanilərə və səlcuqlulara dair fəsillər vardı. Qövmi duyğuların canlanması cərəyanı din xadimlərinə də təsir etmişdir. Hacı Bəktaş «Vəlayətnamə»si və «Saltuqnamə» kimi əsərlərdə bu cərəyan öz əks-sədasını tapmışdır. Şeyx Ömər Ruşəninin müridlərindən bayat boyuna mənsub Mahmud oğlu Həsən Cəm Sultan üçün osmanlıların Oğuz xana qədər uzanan şəcərəsi haqda bir kitab yazmışdır. Gülşəni təriqə-

---

[1] İqd ül-cüman. Vəliyüddin Əfəndi kitablığı, № 2374, s. 514.

[2] Şikari. Qaramanoğulları tarixi. Konya, 1946, İndeks. Orada deyilir ki, Qaraman oğlu Əlaəddin bəy Ərmənək dizdarına (qala komendantı-tərcüməçi) Oğuz xan adını şəxsən özü vermişdi.

[3] Konstantinopolun fəthində Ankaranın məğlubiyyəti. İslam tədqiqatları jurnalı, 1938, s. 27-28; Yenə onun: Osmanlı imperiyasının yüksəlişi, ikinci nəşr, London, 1958, s. 11.

tinin banisi, İbrahim Gülşəni də qayda üzrə özünü peyğəmbər nəslinə və ya onun əshabələrindən birinə deyil, Oğuz ataya bağlamışdı. 883-cü ildə (1478) Rumelində ölən bəktaşi şeyxlərindən Otman babanın oğuz dilində danışdığı və oğuznamə üsulunda şeirlər oxuduğunu da bilirik.

Fateh dövründə türkü digər qövmlərlə müqayisə edən bir müəllif türkün onlardan üstün vəsflərə sahib olduğunu yazır.

Xülasə, XV əsrdə Dunaydan Ceyhuna qədər uzanan sahədəki türklər tək bir qövm olduqlarını bilir və oğuzların nəvələri olmaqdan qürur duyurdular. Bu qövmi şüur o qədər canlı və qüvvətli idi ki, yuxarıda verilən bəzi misalların da göstərdiyi kimi, cəmiyyətin heç bir təbəqəsi, zümrəsi və xanədanlar onun təsiri xaricində qalmamışdı. Bu qövmi şüur xüsusilə oğuzların xatirələrini və adətlərini yaşatmaq və türk dilinə qiymət verməkdə təzahür edirdi. Bu qövmi şüurun canlanması türkmənlərin XV əsrdə qazandıqları böyük siyasi müvəffəqiyyətlərlə yaxından əlaqədardır.

Misir və Suriyanın hakimi olan məmlüklərə gəlincə, onların çoxu çərkəz mənşəli, mühüm bir hissəsi də rum* idi. Hətta İnal, Xoşqədəm, Təmür Buğa kimi bəzi məmlük sultanları rumlardan çıxmışdır. Çərkəz məmlükləri arasında türk əsilli olanlar azdı, sayları da getdikcə azalırdı. Türklər arasında da qövmi duyğuları güclü olan bəzi adamlara rast gəlinir. Bu arada Sultan Baybarsın (1422-1438) rəğbətini qazanmış şərq türklərindən bir şeyx vardı: Şeyx Həsən ül-Tatari. Şeyx Həsən izah edilə bilməyən bir səbəbdən dolayı ərəblərə o qədər nifrət edirdi ki, «Cənabi həqq həzrəti-peyqəmbərdən başqa bütün ərəbləri qarğımışdır» deyirdi. Başqa biri isə türklərin minicilikdə və comərdlikdə çərkəzlərdon üstün olduğunu çərkəz olan sultana və onun əmirlərinə açıqca söyləmişdi. Çərkəz məmlükləri sələfləri olan türk məmlüklərinin bütün adətlərini sadiq bir şəkildə davam etdirmişlər. Məmlük hökmdarlarından əl-Məlik ül-Müəyyəd şeyx türkləri öz qövmdaşları çərkəzlərdən üstün tuturdu. Onun xələfi Baybars isə öz qövmü çərkəzləri daha çox sevirdi, ancaq o bunu üzə vurmurdu. Üstəlik, Baybarsın türklərdən yaxın dostları da vardı. Salnaməçi Eyni gecələr ona tarix kitabları oxuyur və oxuduqlarını türkcə izah edirdi. Çərkəz məmlükləri türk dilini öz ana dilləri saymışlar, türk adətlərinə bağlı olmuşlar, türk şeyxlərini, elm adamlarını və şairlərini himayə etmişlər. Türkcə bilən ziyalılar onların nəzdində imtiyazlı bir mövqeyə sahib idilər. Türkiyədəki ədəbi fəaliyyətləri onlar da izləyirdilər. Son məmlük hökmdarlarından Qansuh ül-Qavri də belə idi. Yavuzun «Qoca çərkəz» dediyi Qansuh Firdovsinin «Şahnamə»sini türkcəyə tərcümə etdirmişdi, özü də türkcə şeirlər yazırdı. Halbuki Yavuzun özünün türk dili xüsusunda onun qədər qeyrət göstərdiyini bilmirik. Xülasə, XV əsrdə Osmanlı, Qaraman, Misir, Təbriz, Herat və Səmərqənd saraylarında türkcə danışılırdı. Bu əsr hər baxımdan türklüyün yüksəliş əsri idi.

* Rum bir çox kontekstlərdə yunan deməkdir (tərcüməçi).

XVI əsrdə islam aləminin siyasi çöhrəsində böyük dəyişikliklər əmələ gəldi. Osmanlı dövləti əldə etdiyi siyasi müvəffəqiyyətləri ilə tarixin mümtaz imperiyalarından birinə çevrildi. İran qızılbaş səfəvi dövləti tərəfindən idarə edilməyə başladı. Türküstana isə özbəklər möhkəm bir şəkildə yerləşdilər. Ancaq özbəklər nə siyasi, nə də mədəniyyət tarixi baxımından mühüm rol oynaya bilmədilər. XX əsrdə belə Türküstanda fars dili rəsmi dil kimi işlənirdi. Hindistana hakim olan teymurilərin sarayında da XVII əsrdə və sonralar farsca danışıldığını bilirik. Halbuki Ərdəbil şeyxlərinin nəvələrinin Təbriz, Qəzvin və İsfahandakı saraylarında türk dilində danışılırdı. Hətta səfəvi hökmdarlarının türkcə bilməyən vəzirlərinə tərcüməçilik etdiklərini də bilirik. Osmanlılara gəlincə, onların divanında tək bircə dil işlənirdi ki, o da türk dili idi. Bu divandan Fransa kralına, İngiltərə kraliçəsinə, İran şahlarına, Məkkə şəriflərinə, Türküstan xanlarına və Hindistan hökmdarlarına yalnız türkcə məktub yazılırdı. Əvəzində Türküstan xanlarından gələn məktubların hamısı və ya çoxu farsca yazılmışdı.

XVI əsrdə imperiyanın digər əyalətləri sükunət içində ikən imperiyanın ana vətəni və əsil dayağı olan Anadoluda dalbadal üsyanlar baş verirdi. Bu, həqiqətən, təəccüblü haldır. İlk üsyan Təkə sancağında Həsən Xəlifə oğlu Şahqulu tərəfindən qaldırılmışdı. Təkənin Qızılyaxa kəndindən olan Həsən Xəlifə Ərdəbilə gedərək Şeyx Heydərin xidmətində çalışmış və onun xəlifəsi olaraq Təkəyə qayıtmışdı. Onun oğlu Şahqulu başına on min adam yığaraq üsyan etdi. Təkəni tutduqdan sonra üstünə gələn Anadolu bəylərbəyisi Qaragöz paşanı məğlub edib öldürdü. Qaraman bəylərbəyisi Heydər paşanı da eyni aqibətə uğradan Şahqulu Kayseri yaxınlığındakı Çubuq ovasında vəzir-əzəm Xədim Əli paşa ilə qarşılaşdı. Baş verən şiddətli vuruşmada hər ikisi həlak oldular. Təkəlilər heç bir təqibə uğramadan İrana getdilər (1511). Onların 15.000 atlı olduğu xəbər verilir, yanlarında arvad-uşaqları da vardı. Osmanlı tarix əsərlərində Şah İsmayılın nə üçün üsyan etdikləri sualına onların bu cavabı verdikləri yazılır: «Bəyazid xan pir olub, etilal-mizacı ixtilali-mülkə müəddi olub, tədbiri-ümurdan əl çəkmişdir. Tətavüli-vüzəra ilə çox məzalim cərəyan etdi. Zülmlərinə təhəmmül etməyib bu surəti ixtiyar etdik»[1]. Bu sözlərdə[*] böyük bir həqiqət vardır. Bu üsyandan sonra Təkə və Həmid sancaqlarındakı qızılbaşlardan bəzisi Mola tərəflərinə sürgün edilmişdir. Yavuz Səlim Şah İsmayıla hücum etməzdən əvvəl təhlükəli hesab etdiyi qızılbaş türklərdən bir qismini öldürtmüş, bəzilərini də həbs etdirmişdi. Bununla bərabər Çaldıran vuruşmasında Osmanlı ordusunda xeyli qızıl-

[1] Səd əd-Din. Tac üt-təvarix. İstanbul, 1280, s. 181.
[*] Tərcüməsi: «Bəyazid xan qocalaraq dövlət işlərindən əl çəkib. Onun yumşaq xasiyyəti ölkənin qarışmasına səbəb olub. Dövlət adamlarından çox zülm gördük, zülmə dözməyərək bu yolu seçdik» (tərcüməçi).

baş türklərin olduğunu bilirik[1]. Çaldıran vuruşmasında Şah İsmayılın ordusu mənşə baxımından ən azı Səliminki qədər türk idi, hər iki ordu oğuz və ya türkmən qövmünün mənsubları, hətta mühüm bir qismi eyni ölkənin övladları idi.

1518-ci ildə boz-ox türkmənlərindən Cəlal adlı iqta sahibi bir şəxs başına 20 min adam yığaraq böyük bir üsyana başladı. Amasyaya bağlı Turxal qəsəbəsi sakini olan Cəlal mehdilik iddiası ilə ortaya atılmış, ancaq müvəffəqiyyət əldə edə bilməyəcəyini başa düşərək İrana üz qoymuşdu. Lakin dulqədir bəyi Şahsuvar oğlu Əli bəy tərəfindən Ərzincan Akşəhirində məğlub edilərək öldürüldü. Ancaq cəlali üsyanı o qədər məşhur olmuşdu ki, bundan sonra Anadoluda dövlətə qarşı üsyanlar və dini mahiyyət daşımayan üsyanlar da «cəlali» sözü ilə vəsflənmişdir.

Cəlala qalib gələn dulqədir bəyi Şahsuvar oğlu Əli bəy isə Qanuni dövrünün ilk illərində (1522) hiylə ilə öldürülərək bu bəylik ortadan qaldırılmışdır. Halbuki Əli bəy Osmanlı dövlətinə çox xidmət etmişdi, özü də əksər dulqədir bəyləri kimi çox cəsur və enerjili komandan idi. Beləliklə, boz-ox (Yozqat) və Maraş bölgəsi də bilavasitə Osmanlı məmurlarının əlinə keçdi. Bu, oralarda yeni ciddi üsyanlara səbəb oldu. Bunlardan biri Boz-oxdakı türkmən oymaqlarından söklən boyunun bəyi Musa ilə dulqədirli ailəsindən Zünnun tərəfindən başlanmışdı. Musanın tarlalarına çox vergi qoyulmuşdu. Musa verginin 100 axça azaldılmasını xahiş etdisə də, onun xahişi rədd olundu, üstəlik, yanındakı bir ixtiyarın saqqalı kəsilərək təhqir edildi. Bu hadisə üsyana səbəb oldu. Mohaç vuruşması baş verən gün Anadoluda qan gövdəni basmışdı. Musa ilə Zünnun o gün Qaraman bəylərbəyini məğlub edib öldürdülər. Türkmənlər bundan sonra üstlərinə göndərilən bir neçə osmanlı qoşununu məğlub etməyə müvəffəq olsalar da, nəhayət, müqavimətləri qırıldı, üsyan yatırıldı (1527). Ancaq üsyanlar bir-birini əvəz edirdi. Çuxurova bölgəsində Donuzoğlu, Bəyçə bəy və Mustafa oğlu Vəli Xəlifə ayrı-ayrılıqda üsyan etdilər, bunların heç biri bəktaşi təriqətinin başçısı Qələndər Çələbinin üsyanı qədər təhlükəli olmadı. Üsyanın əhəmiyyəti dolayısı ilə Qələndər Çələbinin üstünə şəxsən vəzir-əzəm İbrahim paşa getdi. Qələndər Çələbi onun qoşunlarını ağır bir məğlubiyyətə uğratdı. Gerçəkdən müdrik bir dövlət adamı olan İbrahim paşa üsyanın əsil səbəbini araşdırdı və Qələndər Çələbinin başına yığışanların çoxunun iqtaları alınmış dulqədirli türkmən sipahiləri olduğu anlaşıldı. İbrahim paşa dulqədirli oymaqlarından qaracalu və doqquz boy bəylərini çağıraraq iqtaların qaytarılacağına söz verdi. Nəticədə dulqədirlilər Qələndər Çələbinin yanından getdilər. 300-500 adamla qalan Qələndər Çələbi asanlıqla məğlub edilərək öldürüldü (1527).

---

[1] Bu barədə «Səfəvi dövlətinin qurulmasında Anadolu türklərinin rolu» adı altında hazırlamaqda olduğumuz məqalədə müfəssəl məlumat verilmişdir.

Bu üsyanlar məzhəbi mahiyyətdə görünsələr də, yuxarıdakı hadisələrdən də anlaşıldığı kimi, iqtisadi səbəblərlə əlaqədardır. Döşürmə ocağı o qədər inkişaf etmişdi ki, Anadoludakı ən kiçik əsgəri xidmətlər də bu ocağa mənsub olanların əlinə keçməyə başlamışdı. Sünni və ya şiə olmasından asılı olmayaraq türkə ancaq əkinçilik etmək qalırdı. Manisada şahzadə ikən II Səlimin oğlu III Muradın xidmətinə girməyi bacarmış iki qardaşın rəiyyət, yəni vergi verən kəndli bir türkün övladları olduqları üçün işdən çıxarılmaları və yerlərinə qul oğulları qəbul olunması əmr edilmişdi[1]. Dövlətin hərbi xidmətləri üçün ən əlverişli ünsürü qul, yəni döşürmə və ya onların uşaqları idi. Şayəd, hər hansı bir xidmət üçün tapılmasa və ya kifayət miqdarda olmasa, o zaman anadolulu türk gəncləri dəvət olunurdu. Kəndli türklər açıq qapı olduğu üçün ancaq mədrəsələrdə oxuya bilirdilər. Hələ XVI əsrin ikinci yarısında Anadolu mədrəsələrində o qədər tələbə oxuyurdu ki, onlar işsizlik səbəbi ilə bölük-bölük bayraq qaldıraraq Anadoluda yol kəsməyə və xalqa zülm etməyə başlamışdılar. Mədrəsə tələbələrinin bu hərəkətinin qarşısını almaq üçün dövlət uzun zaman uğraşmaq məcburiyyətində qalmışdı[2].

Həmin əsrin sonlarında cəlali üsyanları başlamış və o biri əsrdə də davam etmişdir. Bütün bu böhranların yaranmasında çox inkişaf etmiş döşürmə sistemi mühüm amil olmuşdur. Səlcuqlular dövründə də məmlük sisteminin qəbul edilməsi və məzkur sistemin qol-budaq atmasının eyni mahiyyətli böhranlara səbəb olduğunu yuxarıda görmüşdük.

Mövzumuzla yaxından əlaqədar olduğu üçün bu məsələlərə qısaca toxunduqdan sonra indi bu əsrdə türk oymaqlarının vəziyyətinə keçə bilərik.

XVI əsrdə tam köçəri həyatı keçirən iki əsas icma vardı. Bunlardan biri Hələb bölgəsində yaşayan və yazda Uzun yaylaya və Sivasın güney tərəflərinə çıxan Hələb türkmənləri, digəri isə boz ulus idi. Boz ulus Mardinin cənubunda, Fərat sahillərində qışlayır, Ərzincan-Ərzurum arasında yaylayırdı. Qanuni dövründə Hələb türkmənləri 9.316 ev idi. 947-ci ildə (1540) dulqədirli də daxil olmaq üzrə boz ulusun vergi verən əhalisinin sayı 668 subay, 7.325 evli, cəmisi 8.013 nəfər idi[3]. Bundan başqa, dulqədirli ulusundan bir qisim oymaqların hələ əkinçilik həyatına keçmədiyi görünür. Çuxurovada yurd salmış üç-oxlar arasında əkinçi olmayan oymaqlara nadir hallarda rast gəlinir. Əsasən Sivas əyalətində yaşayan ulu-yörük tayfası ilə boz-oxdakı türkmən oymaqları da əkinçiliyə keçmişdir. Bir sözlə, bu əsrdə köçəri və yarıköçəri ünsürün sayı oturaq ünsürə nəzərən çox azdır və nisbətin fərqi sonuncu ünsürün lehinə getdikcə artmaqdadır.

---

[1] Mühimmə dəftəri, № XX1, sıra 43, səh. 9.

[2] Bu barədə bax: Mustafa Akdağ. Mədrəsəli üsyanları. İqtisad fakültəsi məcmuəsi, XI, № 1-4 s. 361-387.

[3] Faruq Dəmirtaş (Sümər). Boz ulus haqqında. DTCFD, VII, № 10, s. 59.

Əvvəlki əsrlərdə olduğu kimi, XVI əsrdə də köçəri mənasında yörük sözü (yürümə sözündən) işlədilir və bu ad Hələb türkmənləri kimi təşəkküllərə də verilirdi. Ancaq daha sonralar bu söz həqiqi mənasını itirmiş, Qərbi və Cənub-Qərbi Anadoludakı oymaqların ümumi adı olmuşdur. Yəni «yörük» bu bölgələrdə XVII əsrdən əvvəl yaşayan köçəri, yarıköçəri oymaqlar mənasını ifadə etmiş və bu, indi də eyni mənada işlənir[1]. Buna görə yörük adının heç bir qövmi mənası yoxdur. Yörüklər də oğuz boylarındandır. XVI əsrdə qövm adı olan türkmən sözü ilə Hələb türkmənləri, boz ulus, dulqədirlilər və Boz-oxdakı oymaqlar nəzərdə tutulurdu. Daha sonralar bu söz ancaq Hələb türkmənləri ilə boz ulusa aid oldu. XVIII əsrdən etibarən bu iki elin Orta və Qərbi Anadoluya gələn nümayəndələrinə də türkmən deyilmiş, hətta kəndlərdə və qəsəbələrdə yerləşdikdən sonra da zəmanəmizə qədər bu adla anılmışlar. Bu gün Orta və Qərbi Anadolunun bəzi yerlərində yan-yana türk, yörük və türkmən kəndlərini görmək mümkündür.

Bunun izahı belədir: türk adı ilə tanınan kəndlər o bölgə və ya yörənin səlcuqlular və ya bəyliklər dövründən bəri yerləşmiş ən əski türk xalqına aid olanlardır. Yörük adı ilə adlanan kəndlər isə oralarda XVIII əsrdən əvvəl yaşayan və son əsrlərdə yerləşən yörüklərin saldıqları kəndlərdir. Türkmən kəndləri isə XVII əsrdən etibarən Orta, sonra Qərbi Anadolu ilə Mərmərə bölgəsinə köçmüş və son əsrlərdə oralarda yerləşmiş boz ulus, Hələb türkmənləri və Yeni-elə mənsub oymaqlar tərəfindən meydana gətirilmiş kəndlərdir[2].

Diqqətəşayan bir haldır ki, Osmanlı dövründə boz ulus və Hələb türkmənləri kimi ellər belə yörüklərdən daha əvvəl oturaq yaşayışa keçmişlər. Bu gün türkmənlərdən heç bir köçəri təşəkkül yoxdur. Ancaq Toroslarda bu həyatı davam etdirən yörük oymaqlarına rast gəlmək mümkündür[3].

Xülasə: türk, türkmən, yörük, taxtaçı, qızılbaş (ələvi) adları ilə adlanan elatlar arasında heç bir qövmi fərq yoxdur, onlar hamısı oğuz (türkmən) qövmünün nəvələridir.

---

[1] Bu xüsusda təfsilat üçün bax: Faruq Sümər. XVI əsrdə Anadolu, Suriya və İraqda yaşayan türk aşirətlərinə ümumi bir baxş. İstanbul Universiteti iqtisad fakültəsi məcmuəsi, XI, s. 518-522.

[2] Taxtaçı kəlməsinin qövmi bir mənası yoxdur. Bu söz heyvandarlıq və ya əkinçilik əvəzinə ağacdan taxta biçmək və kərən düzəltmək işlərilə məşğul olan bir türk zümrəsinə verilir. Bunlar ağac əri türkmənlərinin nəvələri olub qızılbaşlıq inamları daşıyırlar, çox çalışqan adamlardır, kəndləri bir qayda olaraq meşə ətəklərində yerləşir. Evləri də taxtadan olub bəzi yerlərdə üstü sink ilə örtülüdür, aralarında gözəl qadınlara və güclü, qüvvətli kişilərə tez-tez rastlanılır. Sakarya və Malatya bölgəsində Manav deyilən kəndlərin də əsli yörük olub çoxu Antalya bölgəsindən gəldiyi üçün bu adı almışdır. Abdallara gəlincə, bunlar Anadolunun yerli qaraçılarıdır və hamısı qızılbaşdır.

[3] Bu gün ancaq Toroslarda görünən bu yörüklərin yerləşmək üçün torpaqları yoxdur. Ona görə də məcburən bu həyatı davam etdirdiklərini qeyd etməliyəm.

Bilindiyi kimi, Osmanlı hərbi qüdrəti yüksəliş dövrlərində başlıca olaraq timar sistemi ilə döşürmə ocağına istinad edirdi. Həmin səbəbdən bu dövrlərdə oymaqlar rəiyyət, yəni vergi verən xalq sayılmışlar. Xüsusilə Hələb türkmənləri, boz ulus, Yeni-el bu vəsfi danışmışdır. Halbuki yuxarıda göründüyü kimi, səfəvi dövləti tamamilə bunun əksinə olaraq əsgəri baxımdan türk oymaqlarına arxalanırdı. Türkiyədə vergi verən bir türk İrana gedincə asanlıqla hərbi xidmətə girir, əgər o, oymaq bəyi və ya sipahi isə dövlətin ən yüksək hərbi mövqelərinə çıxa bilirdi. Bu xüsus köçəri, kəndli və s. türklərin XIV əsrdə Anadoludan İrana getmələrinə amil olan səbəblərdən biri kimi maraqlıdır. Bununla bərabər dulqədirli, Çuxurova oymaqlarında, ulu-yörük, boz-ox və atçəkənlərdə oturaq bölgələrdən heç nə ilə fərqlənməyən şəkildə iqta sahibləri (sipahilər və başqaları) görünür.

Osmanlı dövləti yuxarıda adı çəkilən üç icmadan (yəni Hələb türkmənləri, boz-ulus və Yeni el) əsgərlik xüsusunda ancaq o zaman istifadə etməyə başladı ki, artıq döşürmə ocağı əhəmiyyətini itirmiş, dövlət əsgər sıxıntısı içinə düşmüşdü. Bu üç tayfa Osmanlı dövründə maliyyə baxımından xanədana bağlanmışdı. Onlar Səncər dövründəki oğuzlar kimi, seçmə rəiyyət idilər. Ancaq bu türkmənlər bu seçmə rəiyyətliyin heç bir faydasını görməmiş, məmurların və təhsildarların zülmünə məruz qalmışlar.

## 4. HƏLƏB TÜRKMƏNLƏRİ

XVI əsrdə Hələb türkmənləri başlıca olaraq bəydili, xarbəndəlu, bayat, inallu, köpəklu əfşarı, gündüzlü əfşarı kimi böyük təşəkküllərlə karkın, kızık, uc, acurlu, kaçılu, peçeneq, döyər, kınık, öymür, bahadırlu, qaraqoyunlu və s. kimi oymaqlardan ibarət idi.

**Dulqədirli.** Bu el əsasən Maraş bölgəsində yaşayırdı. Bu elə mənsub olan tam köçəri oymaqlar qışda Amik ovasına, Hələb dolaylarına və Çuxurovaya enirdilər. Dulqədirli elindən bir çox bölüklər İrana getmiş, ona mənsub bir qol isə Diyarbəkir bölgəsindəki boz-uluslara qarışmışdı. Bundan başqa, yenə bu elə mənsub təşəkküllər Hələb türkmənlərinə məxsus oymaqlarla Yozqat bölgəsində yerləşmiş və Sivasın güneyindəki Yeni-eli meydana gətirmişlər. Hələ XVI əsrin əvvəllərində bu elin tərkibinə daxil olan oymaqların Ankara bölgəsinə qədər gəldiyi bilinir. Kayseri və Qırşəhir bölgələri də bu elin yerləşmə sahəsi arasında idi. Daha sonralar onlardan mühüm bir qismin (cərid, təcirli və ağcaqoyunlu) Çuxurovada oturaq yaşayışa keçdikləri məlumdur. Bu böyük el başlıca olaraq aşağıdakı boylardan meydana gəlmişdi:

1. Anamaslı, digər adı qaracalı (bəzi obaları: yazır, sevinclu. Oruc bəylu, ulaşlu, urcanlu, qazanclu, söyləməzlu, yol basanlu, qara xataylu).

2. Doqquz, digər adı bişanlu (bəzi obaları: karkın, qaramanlu, kürd mihmadlu, avcı, dəmrək, hacılar, nəccarlu, doqquz qoyunlu).
3. Kürəçilər.
4. Cərid (bəzi obaları: bayır cərid, qara hasanlu, oruc qazilu, mamalu).
5. Peçeneq.
6. Qavurcalu.
7. Elçi.
8. Döngələlu (?)
9. Küşnə.
10. Yuvalu (yaxud qara yuvalu).
11. Təkəlu.
12. Varsaq.
13. Ağça qoyunlu (ən mühüm obaları: çalışlu, musa hacılu - musacalu, qəzanlu, həmidlu).
14. Eymir.
15. Çiməlu.
16. Qızıllu.
17. İmanlu əfşarı.
18. Çağırğanlu.
19. Avcı.
20. Gündəşlu.
21. Təcirlu (tacirlu).

Dulqədirli elinin Kars (Qədirli) yörəsində yaşayan təşəkkülləri isə bunlardı: varsaq, dəmürçülü, qaramanlu, zəlmanlu, zakirlu, qavurcalu, geclik, əkinçilər. Sis (Kozan) sancağında isə savcı hacılu, əylənoğlu, suru damlu, qavurğalu və əfşar təşəkkülləri sakin idilər.

## 5. ÇUXUROVA

Bu bölgəni fəth edən üç-oxlar oturaq həyata keçərək qismən boy təşkilatlarını itirmişlər. Bölgənin fəthində mühüm rol oynamış yürəgirlər və kınıklar XVI əsrdə yerləşdikləri yerlərdə ancaq adlarını qoymuşlar. Hələ tamamilə çözülməyərək qəbilə təşkilatlarını mühafizə edənlər qara isalu, kusun, quş təmür, ulaş, göyçəlü və əlvan boylarıdır[1].

**Trablis-Şam:** bu yörədə yaşayan türkmən icması salur, eymür qazilu, boğayırlu, süleymanlu və s. oymaqlardan ibarətdi.

**Boz ulus:** boz ulus Diyarbəkir türkmənləri, dulqədirli oymaqları və Hələb türkmənləri olmaq üzrə üç qoldan meydana gəlmişdir. Əski ağqoyunlu elinin qalığı olan Diyarbəkir türkmənlərinin başlıca oymaqları bunlardı: ta-

---

[1] Bu haqda bax: F.Sümər. Çuxurova tarixinə dair araşdırmalar. Tarix araşdırmaları jurnalı, 1963, 1, s 1-98.

banlu, oğul bəylu, mosullu, pürnək, Həmzə hacılu, qoca hacılu, İzzəddin hacılu, Süleyman hacılu, şeyxlu, danişməndlu, salarlu, çavundur, dodurqa, döyər, karkın, əfşar, bəydili, alpaut.

**Dulqədirli oymaqları:** cərit sultan hacılu, kürd, mihmadlu (doqquzdan), göyçəklu, küşnə, anamaslu, avcı, dodurğa, cəcəlu, çiməlu, əfşar, qaraca ərəblu, öymir, gündəşlu, çağırğanlu, qızıl qocalu, şam bayatı, karkın, musacalu – Musa hacılu (ağcaqoyunludan).

**Hələb türkməni oymaqları:** köpəklu əfşarı, gündüzlü əfşarı, xarbəndəlu, bəydili, acurlu, inallu, bayat, qaraqoyunlu.

**Yeni-el:** Yeni-el Sivasın cənubundakı Mançılıq, Kürün və Həkim xan arasındakı bölgədə yaşayan oymaqların adıdı. Mançılıq ilə Kürün arasındakı əraziyə Uzun yayla deyilir. Həkim xanın şimal-şərqindəki və Alaca xanın cənub-şərqindəki Yellücə dağı da Yeni-elin ən məşhur yaylalarından biridir. Yeni-el maliyyə baxımından III Muradın anası Nurbanunun Üsküdarda tikdirdiyi caminin vəqflərinə bağlanmışdı. Bu səbəblə sənədlərdə onlara «Üsküdar türkməni» də deyilir. Onlar biri dulqədirliyə, digəri Hələb türkmənlərinə mənsub olmaq üzrə iki qoldan meydana gəlmişdir. Hələb türkmənlərinə mənsub qola yaban əri deyilir[1]. Çünki bu qol bölgədə ancaq yayda yaşayır, qışda Hələb bölgəsinə enir. Dulqədirli qolu isə ümumiyyətlə, əkinçiliklə məşğuldur.

Yaban əri[*] tayfasının çoxunun bəydili boyuna mənsub oymaqlardan meydana gəldiyi məlumdur. Əsas yaban əri təşəkkülləri bunlardır: bəydili, bayat, əfşar, bayındır, xarbəndəlu, qaraqoyunlu.

**Dulqədirli:** çiməlu, musacalu - Musa Hacılu (ağcaqoyunludan), boynu yoğunlu, kürd mihmadlu (doqquzdan), imanlu əfşarı, baraq (cəriddən), ağcaqoyunlu, tatar Əlilu, çağırğanlu, elçi, təcirlü, nəccarlü (doqquzdan).

Yeni elin idarə təşkilatı 1278-ci ilədək (1858/1859) davam etmişdir.

**Ulu yörük:** ulu yörük əsasən Amasya, Tokat və Sivas bölgələrində yaşamaqda olub bu icmanın bəzi oymaqları qərbdə Ankara və Qırşəhir bölgəsinə qədər yayılmışdır. Ulu yörük üç əsas elata ayrılır: yüzdə para, orta para, şərq para.

Bu elatları təşkil edən oymaqlar bölük adlanır. Bölüklərdən hər biri müəyyən qışlaqlara sahibdir və orada əkinçilik edir. Bu icmanı meydana gətirən başlıca bölüklər bunlardır: il bəylü, çəpni, qulağuzlu, ağ salur, tatlu, gərampa, göyçəlu, şərəfəddinlu, cunğar (monqolca caunqar? - sol), ballu, çapanlu, ikizlü, çavurçı, ustacalu (usta hacılu-ustaclu), dodurğa, özlü, qırıqlu, qara fakihlu, turqutlu, ağcaqoyunlu (dulqədirlidən), əlibəyli, quzugüllü, qara keçilu, inallu (Hələb türkmənlərindən).

---

[1] F.Sümər. Anadoludakı türk əşirətlərinə ümumi bir nəzər, s. 513.
[*] Yaban - çöl deməkdir (tərcüməçi).

**Boz-ox** (bugünkü Yozqat bölgəsi)**:** bura daha əvvəl də qeyd etdiyimiz kimi, qara tatar deyilən monqolların başlıca məskəni idi. Teymurun qara tatarların çoxunu özü ilə birlikdə Türküstana aparmasından sonra XV əsrin ilk illərində boz-ox türkmənləri, yəni dulqədirli eli ilə Hələb türkmənlərinə mənsub təşəkküllər çətinlik çəkmədən burada yurd saldılar. Aşağıda yörələr üzrə sadalanacaq oymaqlar arasında tatarlardan başqa yerli təşəkküllər olub-olmadığını dəqiq surətdə təsbit etmək bu gün çox da mümkün deyildir.

**Gədük.** Qara yəhyalu, dəlu Əlilu, ağcalu (ən mühüm obası: hacılar), ağqoyunlu (dulqədirlidən), şam bayatı (dulqədirlidən).

**Qaradaş:** əlibəylü, ağcalu, təcirlu (dulqədirlidən), qızıl qocalu (başlıca oymaqlarından biri: əlişarlu).

**Ağ dağ:** qaralu, qırxlu, hisar bəylu, qızıl qocalu, söklən (ən böyük oymağı: saruxəlillu).

**Boğazlayan:** çiçəklu, qulağuzlu.

**İli-su:** tatar (monqol), arslan bəylu, ağcalu.

**Sorğun:** zakirlu, qızıl qocalu.

## 6. ATÇƏKƏNLƏR VƏ QONŞU OYMAQLAR

Marko Polonun dediyi kimi, türkmənlər Orta Anadoluda cins atlar yetişdirirdilər. Xüsusilə Konya bölgəsindəki türk oymaqları, Qaraman oğulları və Osmanlılar dövründə də hər yerdə əl-əl gəzilən atlar yetişdirməkdə davam etmişlər. Onlar əvvəllər vergilərinin yerinə at verdikləri üçün atçəkən adlanmışlar. Osmanlı dövründə at vergisi nəqd ödənməyə başlanmışdır. Atçəkənlər əsasən Larəndə (Qaraman), Akşəhir və Qoçhisar gölü arasındakı bölgədə yaşayırdılar. Bu bölgədə üç yörəyə, yaxud idarə məntəqəsinə (qəzaya) ayrılmışdı: Əski el, Turqut və Bayburt. Əski el Qoçhisar gölünün cənub tərəfindəki torpaqları ehtiva edir. Bu yörənin mərkəzi Qoçhisar gölü sahilinə yaxın yerdəki Əski el kəndi olub bu gün də mövcuddur. Köhnə səlcuqlu ana yolu üzərində olan Eşməqaya kəndi və atçəkən bəylərinin yaşadığı yerlərdən idi ki, bu bəylərin nəsli zəmanəmizədək gəlib çıxmışdır. Konya bölgəsindəki məşhur «Eşməqayanın qovaqları kölgəli» adlı mahnı da son bəylərdən biri üçün yazılmışdır. Akşəhirin şərq tərəfindəki torpaqlara, Bayburdda Qaramanın şimalındakı əraziyə Turqut deyilir. Aşağıda bu yörələrdəki və Qaraman elinə bağlı digər bəzi yerlərdəki əsas oymaqların adları verilmişdir. Bunların arasında adı çəkilən Tatar və Cəlayir adlı oymaqlar qara tatarların qalıqlarındandır. Əsil atçəkənlər, yəni Əski el, Turqut və Bayburt yörəsindəki oymaqların Sultan Səlim dövründə vergi ödəyən miqdarının cəmi 1080 ev idi.

**Əski el:** quş təmür, sölmüşlü, xocəntli (Qaraman oğullarına mənsub bəylərdən biri olan Xocənddən?), davudlar, qüreyş Məlikşah, boynu yumru, qurulu.

**Turqut:** kusunlu, yapa, çəpni, reyhanlı, sarıca əhmədlü, şah-bəy nökərləri.

**Bayburt:** əmir hacılu, oğulbəylu, kayı, farsaqlar, peçeneq, tatar (monqol).

**Aksaray:** bəktaşlu.

**Qoş (qoç) hisar:** bolqırlu, boz doğan, urunquş, hindlu cüneydlu, cəlayir.

**Ürgün:** camallu, yuvalu.

**Niydə:** bərəkətlü, dündarlu, bulğarlu.

**Dəvəlü:** bəndər bəyi.

**Dəvəlü Qarahisarı:** yəhyalu.

**Ilğın:** muğal samaqarı, elçili (alçi?) tatarı.

**İshaqlu:** səlcuqlu, qondu, qutlu buğa tatarları, qapuçu tatarları, muğal tatarları.

Bu oymaqların bəziləri İç-eldən (bozqırlu, boz doğan), bəziləri də Tarsus-Adana bölgəsindən (quş təmür, kursunlu, farsaq/varsaq, urunquş, dündarlu, bulğarlu) gəlmişlər.

**İç-el:** İç-el səlcuqlular zamanında fəth edilməyə başlamış və qaramanoğulları dövründə başa çatmışdır. Bu baxımdan buradakı türklər Çuxurovadakılardan fərqli bir siyasi keçmişə malikdirlər. Onlar tamamən qaramanoğullarının türkmənləri olub onların ən güvəndikləri ünsürü təşkil etmiş və əsas dayaqları olmuşlar. İç-el II Bəyazid dövründə 6 yörəyə ayrılmışdı: Ərmənək, Səlinti (bugünkü Qazi paşa), Gülnar, Silifkə, Qarıdaş və Mut. Buradakı türk xalqının xeyli hissəsi tam oturaq həyat sürür, qalanları isə kəndləri olmaqla və əkinçilik etməklə bərabər oymaq təşkilatını hələ də qoruyurlar. Bunların əsasları aşağıdakılardır: boz doğan (Silifkədə), yıvalu, yaxud yuvalu (Anamurda), Oğuz xanlu (Səlinti və Anamurda), bozqırlu (Daşlıq Silifkədə), xoca yunuslu (Gülnarda), bəydili (Gülnarda), şamlu (Daşlıq Silifkədə). Bu oymaqların başında duran ailələr qaramanoğullarının əmirləri arasında yer almışlar.

Bu oymaqlardan Daşlıq Silifkədə yaşayan bozqırlar öz adını Bozqır adlı bir bəydən alırlar. Bozqır isə bozmaq (pozmaq – tərcüməçi) və qırmaq məsdərlərindən yaranmış ola bilər. Çünki o zamanlar indi coğrafi mənada işlətdiyimiz bozqır (step, çöl - tərcüməçi) kəlməsi mövcud deyildi. Eynən bunun kimi, Konya qəzalarından biri olan Bozqır da öz adını oranı idarə etmiş başqa bir bəydən almışdır. XVI əsrdə bu bəyin nəslinin davam etdiyi məlumdur. Hələ II Bəyazid dövründə Bozqır qəzasında yarıköçəri də olsa, heç bir oymağa rast gəlinmədiyi kimi, xristian azlıq da yox idi. Bir çox yerlərdə olduğu kimi, yunanlar bu qəsəbəyə XIX əsrdə gəlmişlər.

İç-el osmanlı dövründə bitməz-tükənməz bir insan qaynağı idi. Buradan qonşu bölgələrə hər əsrdə köçlər olmuş və köçənlər müxtəlif səbəblər üzündən oralarda zəif vəziyyətə düşən türk ünsürünü həmişə qüvvətləndirmişlər. Hələ II Bəyazid dövründə boz doğandan və bozqırludan mühüm qolların Orta Anadoludakı Qoçhisar yörəsinə köçdükləri məlumdur. Yenə həmin dövrdə daha az əhəmiyyətli oymaqların da Təkə (Antalya) bölgəsinə köçdüklərini bilirik. Kiprin fəthindən sonra İç-eldən vaxtaşırı bu adaya da köçkün göndərilmişdir. Beləliklə, bugünkü Kipr türklərinin xeyli hissəsi İç-el yörüklərinin nəvə-nəticələridir.

İç-eldən sonrakı əsrlərdə də mühüm köçlər baş vermişdir. Bu köçlər xüsusilə qonşu bölgəyə - Çuxurovaya olmuşdur. Buraya köçən oymaqların başında boz doğan ilə ona mənsub mələmənçi, qara hacılu, kürkçülü və təkəlu obaları dururdu. Onlar cəlali üsyanları və digər səbəblər üzündən əhalisi çox seyrəlmiş Çuxurovadakı fateh türk xalqını qüvvətləndirmiş və ovanın yenidən məskunlaşdırılmasında mühüm rol oynamışlar.

**Məntəşə.** Məntəşə (indiki Muğla vilayəti) sancağında yarıköçəri bəzi oymaqlar yaşayırdı. Bu oymaqları meydana gətirən qollara dəftərlərdə tir (ox) deyilir. Bu təbir ancaq bu oymağa məxsusdur. Məntəşə sancağında yaşayan əsas oymaqlar bunlardır: kayı, xorzum (hər halda Xarəzmdən), barza, qızılca yalınc, qızılca keçilu, İskəndər bəy. Buradakı barza oymağı oturaq barza və köçəri barza olmaq üzrə iki qol halında idi. Bundan əlavə bir günəbarza qolu da vardı. Həmid sancağında zikrədəyər yeganə təşəkkül qaramanlu oymağıdır.

**Aydın.** Bu sancaqda qaracaqoyunlu adlı bir yörük topluluğu müşahidə edilir. Onlar çox geniş bir sahəyə yayılmış olub çox kiçik oymaqlardan meydana gəlmişlər. Arasında tarucular, əlliçilər, çullular kimi bəzi böyük oymaqlar da vardı.

**Kütahya.** Bu sancağın ələlxüsus Dənizli yörəsində olduqca mühüm bir yörük topluluğu var. Topluluq aşağıdakı əsas oymaqlardan ibarətdir: kayı, ağqoyunlu, boz guş, qılçan, ağ keçilü, qaşıqçı, müsəlləmani-toylu, əfşar, ala yundlu. Bu oymaqlardan ağqoyunlunun Qarahisari-sahib (Afyon) sancağında mühüm bir qolu olduğu məlumdur. Eyni sancağın Seyid Qazi yörəsində də qaraqoyunlu adlı böyük bir oymaq yaşayır. Həm ağqoyunlu, həm də qaraqoyunlu oymaqlarının eyni adlı türkmən boy və ulusları ilə qəbiləvi bir münasibətləri olub-olmadığı barədə bir şey söyləmək mümkün deyil.

**Ankara.** Ankara sancağının hər tərəfində yarıköçəri və əhalisi az olan oymaqlara rast gəlinir. Sançağın Qəsəbə qəzasında yaylalu və əzizbəylu, qara keçilu, tısbağa, Bəy bazarı, Sivrihisar və Sultan önü qəzalarında da mühüm bir qisminin gənclu oymağının meydana gətirdiyi ulu yörük təşəkkülü (929, yəni şəmsi 1523-cü ildə vergi verən 3985 sakini olub) yaşayır. Tısbağa əski Osmanlı tarixlərində monqol kimi göstərilir. Qara keçililərə gəlincə,

onların bu gün Əskişəhir bölgəsində yaşadığını gördüyümüz qara keçililərin ulu babası olduqları anlaşılır. Ankara sancağındakı bu qara keçililər də ulu yörükə bağlı və Qırşəhir torpağında yaşayan böyük qara keçili oymağının bir qolunu təşkil edirdilər.

Anadolunun digər bölgə və yörələrində də XVI əsrdə bəzi yarıköçəri oymaqlar yaşasa da, onlar böyük əhəmiyyət kəsb etmədiklərindən burada zikr olunmalarına lüzum yoxdur. Yalnız Çorum sancağına bağlı Qatar qəzasında tataranmuğal adlı mühüm bir təşəkkülün yaşadığını qeyd edək. Yenə eyni əsrdə Bolu sancağında xorasanlu adlı bir oymaq da görünür.

Türkiyənin bu əsrdəki qövmi vəziyyətinə gəlincə, əlimizdəki təhrir dəftərləri sayəsində bunu təfərrüatına qədər təsbit etmək mümkündür. Bu dəftərlərə görə Türkiyənin Adalar dənizindən Fərata və Trabzona qədər olan ərazisində türk əksəriyyəti hakimdir, milli azlıqlardan yalnız yunan və ermənilər vardır. Xristian azlığın ən az olduğu bölgələr Qərbi Anadolu, Cənub-Qərbi Anadolu, Mərmərə bölgəsi ilə Şimal-Qərbi Qara dənizdir. Zikr edilən bu bölgələrdə 1520-1530-cu illər arasında 540.963 türk evi, 4.471 xristian evi vardı. Konya, Niydə, Kayseri və İç-el vilayətlərində isə türk evlərinin sayı 143.254, xristian evlərinin sayı 2.448 idi[1]. Şərqə getdikcə nisbətin dəyişdiyi müşahidə edilir. Məsələn, Maraş, Yozqat, Qırşəhir vilayətlərində 66.776 türk ailəsi, 2.687 xristian ailəsi yaşayırdı[2]. Həmin illərdə Çuxurova bölgəsində də mütləq türk əksəriyyəti müqabilində çox az miqdarda erməni əhalisi görünür[3].

XIV əsrdən bəri Anadoludan İrana yönələn siyasi hərəkatlar (Əli Padşahdan Şah İsmayıla qədər) çoxlu türk əhalinin İrana getməsinə səbəb olmuşdur. Hətta XVI və XVII əsrlərdə də İrana xeyli türk getmişdir. Bu köçlər öz təsirini ən çox Şərqi Anadoluda göstərmişdir və XV əsrdə «türkmən ölkəsi» adlandırılan bu bölgədəki türk əhali acınacaqlı bir vəziyyətə düşmüşdür. Osmanlı dövlətinin kürd bəylərini öz yerlərində saxlamasının bu işdə mühüm amil olduğu anlaşılır.

Qanuninin Naxçıvan səfərindən sonra (1548) 20.000 axçalıq və daha çox gəlir gətirən iqtaların qapıqullarına verilməsinin qanun halını alması ilə türk sipahilərinin tərəqqi imkanı ortadan qalxmışdır. Ən kiçik əsgəri vəzifələr üçün qullar və ya onların oğulları tərcih olunurdu. Şayət, bu vəzifələr qullar və ya onların övladları tərəfindən tam tutulmurdusa, o zaman Anadolu türkləri, digər qövmi ünsürlər tərcih edilərək xidmətə qəbul olunurdu. Ərəb, laz, tat, sart[4] kimi ünsürlər isə əsgəri xidmətə qəbul edilmirdilər. Bir

[1] Ömər Lütfi Barkan. Tarixi demoqrafiya araşdırmaları və Osmanlı tarixi. Türkiyyat məcmuəsi. İstanbul, X, 1953, s. 11, tablo 1.

[2] Göstərilən yer.

[3] Çuxurova tarixinə dair araşdırmalar, s. 20-23.

[4] Mustafa Akdağ. Yeniçəri ocaq nizamının dağılması. Dil və tarix-coğrafiya fakültəsi məcmuəsi, V, № 3, vəsiqə 4.

də qızılbaş olduqları üçün güvənilməyən çəpnilərin əsgəri xidmətə götürülməsi yasaqlanmış və əvvəlcə götürülənlərin də qovulması əmr edilmişdi[1]. Xülasə, XVI əsrdə dövlətin sevimli əsgəri zümrəsini qullar və onların uşaqları təşkil edirdi, onlardan sonra Anadolu türkləri gəlirdi. Ancaq onlara elə bir mühüm vəzifə tapşırılmırdı. Halbuki Anadolu türkləri də yeniçərilər kimi muzdlu əsgər olmaq istəyirdilər. Bu səbəbə görə atasından sonra taxta çıxmağa hazırlaşan Qanuni oğlu Bəyazid onlardan asanlıqla 7 min nəfərlik muzdlu bir ordu yarada bilmişdi. Onun böyük qardaşı Səlim də atasının tövsiyəsi ilə eyni şəkildə hərəkət etdi və Anadolu türklərindən muzdlu yeni bir ordu yaratdı. Şahzadə Bəyazid 1559-cu ildə üsyana qalxan zaman onun ətrafında mühüm bir qüvvə toplanmışdı. Bunlar Anadolunun timarlı sipahiləri və onların məiyyətindəki kəndli gənclərlə türk oymaqlarına mənsub adamlardan ibarət idi. İkincilərin çoxu başlıca olaraq Qaraman elində yaşayan bozqırlı kimi oymaqlar ilə dulqədirli və Yeni-el türkmənləri idi. Bozqırların başında tayfaya öz adını vermiş Bozqır oğlu Hüseyn bəy dururdu. Şahzadə Bəyazidin əsas əmirləri Axsaq Seyfəddin, Turqut oğlu Hüseyn bəy və Quduz Fərhad idi. Anadolu zaimlərindən olan Axsaq Seyfəddin zabit ağalığına, Turqut oğlu Hüseyn bəy silahdar ağalığına, Quduz Fərhad isə sipahi ağalığına təyin edilmişdilər[2]. Bunlardan Turqut oğlu Hüseyn bəy Qaraman dövlətinə mənsub böyük əmirlər ailəsindən biri olan turqutoğullarından idi. Türkmən atlılarının başçısı, mahir minici və möhkəm döyüşçü Quduz Fərhada gəlincə, o, ehtimal ki, dulqədirli və ya Yeni-el türkmənlərindən idi.

Tədqiqatçılar tərəfindən[3] Bəyazidlə Səlim arasındakı mübarizəyə Anadolu xalqı və ələlxüsus timar sipahiləri ilə qapıqulları və ocaq rəhbərləri arasında siyasi bir haqq davası gözüylə baxılmaqdadır. Ancaq Səlimin də buyruğunda Anadolu xalqından toplanmış bir qüvvə vardı. Hətta onlara yeniçəri ocağına qeyd ediləcəkləri vəd edilmişdisə də, Səlim hökmdar olduğu halda bu vəd yeniçərilərin müxalifəti səbəbilə yerinə yetirilmədi[4]. Ağılsız bir şahzadə olan Bəyazid girişdiyi üsyan hərəkəti nəticəsində bir çox insanın ölümünə, bir çoxlarının da pərişan bir vəziyyətə düşməsinə səbəb oldu. Üstəlik, o, 12 minlik bir qüvvəni də İrana aparmışdı. Onların çoxu, bəlkə də elə hamısı yurdlarına qayıtmayaraq orada qaldı[5] və səfəvi qızılbaş ordusunu qüvvətləndirdi. Bu hadisənin nəticələrindən biri də İstanbuldan Anadoluya nizam və asayişi qorumaq üçün (daimi iqamət tutmaqla) yasaqçı adlanan yeniçərilər göndərilməsi oldu[6]. Xalq isə bu qaba əsgərə nifrət edir, fürsət tapdıqca onları öldürürdü.

---

[1] Mühimmə dəftəri, X, s. 130.
[2] Şərafəddin Turan. Qanuninin oğlu şahzadə Bəyazid hadisəsi. Ankara, 1961, s. 87.
[3] Göstərilən əsər, s. 100.
[4] Şərafəddin Turan. Göstərilən əsər, s. 168.
[5] Münəccimbaşı. Səyaf ül-əxbar. İstanbul, 1285, s. 192-193.
[6] Şərafəddin Turan. Göstərilən əsər, s. 175-177.

XVI əsrin ikinci yarısından etibarən Anadoluda iki əsas ünsür əndişə yaradırdı: mədrəsə tələbələri (süxtə, softa) və ləvəndlər. Anadoluda səlcuqlular dövründən bəri təhsilə verilən əhəmiyyətlə XVI əsrdəki iqtisadi sıxıntı və döşürmə ocağının inkişafı kimi səbəblərdən mədrəsə tələbələri bu əsrdə görülməmiş şəkildə çoxalmışdı. Bu tələbələr özlərinə münasib iş tapa bilmədiklərindən kiçik dəstələr halında mədrəsənin yerləşdiyi bölgə və yörələrdə hərəkətə keçmişdilər. Onlar əsasən cər, nəzir və qurban adları ilə pul toplayaraq keçinirdilər. Onların mübarizə hədəfi nifrət bəslədikləri hökumət məmurları ilə yeniçərilər idi[1]. Əvəzində qazılardan ümumi kömək aldıqları kimi xalq içində həm qohumluq, həm də başqa səbəblərlə özlərinə köməkçilər tapırdılar. Mədrəsə tələbələri xüsusilə Amasya, Çorum, Kütahya, Kastamonu, Afyon, Manisa, Balıkesir, İsparta, Əlaiyyə və İç-el bölgələrində fəaliyyətdə bulunurdular. Onların fəaliyyətinin qarşısını almaq üçün el əri təşkilatı yaradıldı. El ərləri camaatdan təşkil edilmiş məhəlli kiçik qüvvələr idi. Ancaq onlar da məqsədə nail ola bilmədiklərindən mədrəsə tələbələrinin hərəkətinin qabağı alına bilməmiş və qarışıqlıqlar uzun müddət davam etmişdir[2].

Xüsusilə əhali artımı səbəbilə qida qıtlığı çəkən Anadolu türk kəndlisinə mənsub gənclərin bir çoxu mədrəsələrə daxil olur, bir qismi də torpağını tərk edib yaşadığı yerdən gedirdi. Cütpozan adlanan bu gənclərin bir çoxu iş tapmaq üçün şəhərə gedir, bir çoxu da sancaq bəyi və bəylərbəyilərin xidmətinə daxil olur və onların qapı camaatını təşkil edirdilər[3]. Bu cütpozanların bir qismi isə iş tapa bilmədikləri üçün dəstələr təşkil edib soyğunçuluqla məşğul olurdu. Bunlara ləvənd (cəmi: ləvəndat) adı verilirdi[4]. Məşhur Koroğlu Rövşənin də bu dəstələrdən birinin başında duraraq 989 (1581) tarixində Gərədə ilə Bolu arasında soyğunçuluq etdiyi məlumdur. Bu tarixdə cəlali kimi tapınan Koroğlunun 992-ci ildə (1584) fəaliyyətini davam etdirdiyi, əsgəri məmur və qazıların isə qorxudan onun əməllərini gizlədikləri bildirilir[5]. Koroğlu haqqında hələlik əlimizdə başqa sənədlər yoxdur. Anadolu qazı sicilləri araşdırılsa, ona dair vəsiqələr əldə edilməsi ehtimalı var. Koroğlunun tarixi şəxsiyyətinin təsbit edilməsilə dastanda rastlanan Bolu bəyinin məhəlli əsilzadə bir bəy, yaxud bir dərəbəyi deyil, bir osmanlı sancaq bəyi olduğu anlaşılır. Ehtimal ki, hökumət qüvvələrinin sıxışdırması nəticəsində yurdundan çıxaraq Tokat-Sivas ana yolu üzərindəki Çamlıbel dağına getmiş və dostları ilə birlikdə burada karvan soymağa başlamışdır.

---

[1] Mustafa Akdağ. Cəlali üsyanları, s. 123.

[2] Mədrəsə tələbələrinin fəaliyyətləri haqqında bax: Mustafa Akdağ. Mədrəsə üsyanları, s. 361-387; yenə onun: Böyük cəlali qarışıqlıqlarının başlanması. Ərzurum, 1963, s. 38-55; yenə onun: Cəlali üsyanları, indeks.

[3] «Qapılanmaq» və «qapı yoldaşı» ifadələri buradan gəlir.

[4] Mustafa Akdağ. Cəlali üsyanları, s. 122.

[5] Mühimmə dəftəri, № III, s. 132.

Tokat-Sivas yolunun o əsrdə ən işlək ticarət yollarından biri olduğunu bilirik. Bu yoldan İran (Əcəm) karvanları da keçirdi. Koroğlunun həyatı nə vaxt, necə və harada sona çatmışdır? Bu xüsusda əlimizdə tarixi məlumat yoxdur, dastanlardan da bir şey anlamaq olmur. Onun Qara Yazıçı və Qələndər oğlu tərəfindən başlanan cəlali üsyanları zamanı sağ olub-olmadığı və onlarda iştirak edib-etmədiyi də bilinmir. Koroğlu «Osmanlı düşməni» olduğu üçün sənədlərdə də qeyd edildiyi kimi, tam bir cəlali xarakterini daşıyır. Onun daha böyük cəlalilər durarkən unudulmayacaq şöhrət qazanmasında və nəhayət, dastan qəhrəmanı olmasında igid insanlara xas əsas keyfiyyətləri ilə birlikdə şairliyi də mühüm bir amil olmuşdur. Hər halda onun şairliyinə şübhə edilməməlidir. Koroğlunun gözəl Ayvaza olan sevgisi də uzun illər dağlarda keçən subay cəlalilik həyatının bir nəticəsi olmalıdır.

1577-ci ildə başlayan İran müharibəsi gözlənildiyinin əksinə 12 il davam etdi. Bu müharibənin axırında Osmanlı imperiyasının sərhədləri Xəzər dənizinə çatsa da, bu, çoxlu insan və pul bahasına başa gəlmiş və Anadulunun türk xalqı daha ağır səfalət içinə düşmüşdü. Koroğlu, ispartalı Nəsli oğlu Məhməd Çavuş, kürd Gizir oğlu Mustafa bəy və digər cəlalilərin ortaya çıxaraq uzun illər soyğunçuluq etmələri də bu hərbin uzun sürməsi ilə əlaqədardır. Bu arada, müharibənin başladığı 1577-ci ildə Boz-oxdakı şam bayatı oymağına mənsub bir türkmən özünün ölən və ya öldürüldüyü iddia edilən İran şahı II İsmayıl olduğunu söyləyərək başına qızılbaş türkmənlərdən çoxlu adam yığıb hərəkətə keçmiş, hətta Qırşəhir bölgəsindəki Hacı Bəktaş türbəsində böyük bir qələbəlik önündə mərasimlə qurban kəsilmişdi.

İran hərbi zamanı Anadolu kəndliləri kimi türkmənlər və yörüklər də hökumət məmurlarının təzyiqinə məruz qaldılar. Yuxarıda bəhs edilən yalançı Şah İsmayıl hərəkatı da şübhəsiz, vergi almaq işində yol verilən təzyiqə reaksiya idi. İranla müharibədən sonra dövlət özünə gəlməmiş 1593-cü ildə başlayan Avstriya səfərinin uzanması böyük cəlali üsyanlarını doğurdu. Adətən bu üsyanların başında qapıqulu ordusunun süvari hissələrində xidmət edən və ya bəylərbəyi və sancaq bəylərinin yanında bölükbaşılıq, çavuşluq, sübaşılıq kimi vəzifə daşıyan kiçik rütbəli Anadolu türkləri dururdu.

İlk böyük cəlali üsyanı Qara Yazıçı ləqəbli Əbdülhəlim tərəfindən başlandı. O, bəylərbəyinin və sancaq bəylərinin yanında xidmət etmiş bir bölükbaşı idi. Osmanlı salnaməçilərinin sözü ilə desək, Qara Yazıçı osmanlının Anadoludakı hakimiyyətinə son qoymaq istəyirdi. Ancaq aparılan araşdırmalar Qara Yazıçının belə bir məqsəd güddüyünü təsdiq etmir[1]. Qaraman elindəki atçəkənlərdən Turqut qəzasındakı davudlar oymağına mənsub bir şəxs 1595-ci ildə belə bir məqsədlə ortaya atılmışdı. O özünün səlcuqlu hökmdarı Əlaəddinin nəslindən olduğunu iddia edərək hökmdar olacağı təqdirdə xalqı ədalət və qanunla idarə edəcəyini söyləyir, zülm yoluna sapan

---

[1] Mustafa Akdağ. Cəlali üsyanları, s. 243-248.

osmanlı hakimiyyətinə son qoymağa çağırırdı[1]. Ancaq Qaraman camaatı arasında nə onun, nə də başqalarının ətrafına mühüm sayda qüvvə toplaması mümkün olmurdu.

Qara Yazıçı əvvəlcə Urfa ətrafında hərəkətə keçdi (1599). Keçmiş Hələb bəylərbəyisi Hüseyn paşanın da ona qoşulduğu məlumdur. Avstriya ilə müharibə davam etdiyi üçün cəlali başbuğu[*] bağışlanaraq əvvəlcə Amasya, sonra isə Çorum sancaq bəyliyinə təyin olundu. Ancaq Qara Yazıçı başına yığılmış ləvənd, yaxud səkbanları dağıtmır, onları bəsləmək üçün ətrafa «reydə» çıxırdı. Buna görə Sokolluzadə Həsən paşa onun üstünə göndərildi. Qara Yazıçı onun qələbəlik bir cəlali qoşunu ilə qarşıladı. Təvil Əhməd, Qaraqaş Əhməd, Yularqırdı, Təkəli Məhmət, Dəli Zülfüqar, Dündar, Təpəsitüklü, Yıldızlı İbrahim, Kafir Murad, Gizir oğlu, Arabaçı Süleyman kimi dövrün bütün məşhur cəlali bölükbaşılarının çoxu Qara Yazıçı kimi atlı bölük alaylarından, yəni seçmə qapıqulu birliklərindən və ya bəylərbəyi, sancaq bəylərinin məiyyət məmurlarından idilər. Hacı İbrahim paşa komandanlığındakı osmanlı qoşununu Qara Yazıçı Kayseri yaxınlığında məğlub eləsə də, Sokolluzadə Həsən paşa ilə Göksün yaylasında girişdiyi savaşda özü məğlub oldu. Savaşdan sonra yanındakı cəlalilərlə Canik dağlarına (Samsunun şərq tərəfi) sığınan Qara Yazıçı orada öldü. Qardaşı Dəli Həsən onun xələfi oldu. O, Canik dağlarından enərək Tokatdakı Həsən paşanı mühasirəyə aldı. Həsən paşa qış olduğu üçün əsgəri tərxis eləmişdi. Cəlalilər onu tüfənglə vurub öldürdülər. Onlar bu əsnada Həsən paşanın Bağdaddan gələn ağır xəzinəsini ələ keçirib başçılar arasında bölüşdürdülər. Ancaq illərdən bəri subay həyatı keçirən bu adamlar Həsən paşanın hərəmxanasına toxunmayaraq onu Divrigiyə göndərdilər. Bundan sonra Dəli Həsən böyük bir cəlali küməsi ilə qərbə doğru hərəkət etdi. Bu, ələlxüsus Anadolu kəndlisinə müdhiş bir fəlakət gətirdi. Böyük əksəriyyəti kəndlilərdən ibarət olan cəlalilər ətrafa yayılaraq kəndləri yağma və talan edir, camaatın ərzağını və malqarasını əlindən alırdılar. Onların yaxınlaşdığını eşidən kəndlilər dağlara çəkilir, şəhərlərə sığınır və başqa yerlərə gedirdilər. Bu arada diqqəti cəlb edən xüsus dağlara çəkilən kəndlilərdən bəzilərinin ailəsini orada qoyaraq cəlalilərə qoşulmasıdır. Bütün bunlar kəndlilərin uzun zamandan bəri yaşadığı iztirablı həyatın nəticəsidir.

Dəli Həsən məiyyətindəki qələbəlik cəlali dəstəsi ilə bir sel kimi dəhşət saça-saça Kütahyaya qədər gəldi. Ancaq çox keçmədən burada dövlət ilə razılığa gələrək əmrində on min adam olduğu halda Rumeliyə keçdi. Ona Bosniya bəylərbəyiliyi, yeddi dostuna da Rumelidə sancaq bəyliyi verilmiş, 400 cəlali bölükbaşısı isə qapıqulu atlı zümrəsinə daxil edilmişdi. Dəli Həsənlə birlikdə Rumeliyə keçən cəlalilərin qiyafət və sursatları haqqında sal-

[1] Göstərilən əsər, s. 162-163.
[*] Əslində əsgəri rütbədir, burada cəlalilərin başçısı deməkdir (tərcüməçi).

naməçilərin istehzalı sözləri bizə onların necə acınacaqlı bir yoxsulluq içində olduqlarını göstərir. Onlar dərhal müharibəyə göndərildilər. Bu yoxsul adamlar orada mərdliklə vuruşmaq istədikləri üçün ağır itkiyə məruz qaldılar. Müharibə başa çatanda cəlalilər 6.000 şəhid vermək üzrə şəxsi heyətin üçdə ikisini itirmişdilər. Bu arada Anadoluda qalmış cəlalilər müxtəlif bölüklərə ayrılaraq əvvəlkinə nisbətən daha qorxunc bir yağma və yıxıcılığa qurşanmışdılar[1]. Dəli Həsən kimi digər məşhur cəlali rəislərinə də əhəmiyyətlərinə görə məmur vəzifələri verildiyi halda bu hərəkətlər sona çatmır, əksinə, getdikcə daha şiddətli bir hal alırdı.

1603-cü ildən 1607-ci islədək Anadolunun bir çox bölgəsi Qara Yazıçıdan daha təhlükəli yeni cəlali rəislərinin hökmü altında idi. Bunlardan ən qüvvətlisi Şimali Suriyaya hakim olan Canpolad oğlu Əli paşa idi. O, qədimdən bəri Kilisi yurdluq kimi idarə edən kürd mənşəli bir ailənin övladı idi. 30 min nəfərlik təşkilatlı bir ordu yaratmış, adına pul kəsdirib xütbə oxutmaq surəti ilə istiqlalını elan etmişdi.

Canpolad oğlu Əli paşadan sonra Qələndər oğlu Məhmət gəlirdi. Ankaralı olan Qələndər oğlu 1592-ci ildə 80 nəfərlə cəlalilik etdikdən sonra yoldaşlarının çoxu kimi bəylərbəyinin yanında məiyyət çavuşluğu, mütəsəllim və kəndxudalıq vəzifələrində çalışmış, Çağalazadə Sənan paşanın İran səfərində ona sancaq bəyliyi verilsə də sancağını əldə edə bilmədiyi üçün təkrar cəlali olmuşdu. O, İç-eldə yaşayan digər bir cəlali başbuğu Müsli Çavuşa yazdığı məktubda osmanlını fitnəkar, sözündən qaçan adlandırır və osmanlının zülmü bir sənət halına gətirdiyindən bəhs edərək «Üsküdardan etibarən bütün Anadolunu osmanlıdan azad etmək» qərarında olduğunu bildirirdi. Məşhur bozqırlı boy bəyi ailəsindən olan Müsli Çavuş isə İç-el və Larəndə tərəfə hakim kəsilmişdi. Bunlardan başqa Adana bölgəsi Cəmşidin, Saruxan sancağı Yusif paşanın, Trablis-Şam dulqədirli türkmənlərindən Seyf oğlu Yusifin, Sivas tərəfləri məşhur Təvil Əhmədin qardaşı Meymunun hakimiyyəti altında idi. Vəzir-əzəm Murad paşa əvvəlcə Canpolad oğlunu məğlub etdikdən sonra aldatmaq üçün paşa ünvanı ilə Ankara sancağını verdiyi Qələndər oğlu üzərinə yürüdü. Bu əsnada Qələndər oğlu Məhməd paşa ətrafına çoxsaylı qoşun toplamış, əsas cəlali bölükbaşıları onun yanına gəlmişdilər. Bunlar Ağacdan piri, Baldırı qısa, Dağlar Dəlisi Süleyman (Bəyşəhirin Qovaq kəndindən), Qara Səid (ərəb), Kürd Heydər, Arnavut Hüseyn və başqaları idilər.

Cəlalilər igidliklə vuruşdular, ancaq top atəşinə qarşı dura bilməyərək məğlub oldular (1609). Onlardan, mühüm bir qismi İrana getdi. İrana gedənlərin sayı mövcud qənaətin əksinə çox olub Təbrizə çatanda 13.005 nəfər idi. İrana bu qədər çox cəlalinin getməsi Murad paşanın onlara qarşı göstərdiyi

[1] Qara Yazıçı, qardaşı Dəli Həsən və digər cəlali rəisləri haqda bax: Mustafa Akdağ. Cəlali üsyanları.

amansızlığın nəticəsi idi. Həqiqətən, xorvat mənşəli Murad paşa əlinə keçən cəlaliləri aman verməyib öldürdür, quyulara doldurtdururdu. Hətta bu xüsusda uşaqlara belə mərhəmət göstərmirdi. Beləliklə, həm vuruşlarda, həm də sonradan tutularaq öldürülən cəlalilərin sayı 30 mindən artıq idi. Quyuçu Murad paşa bu hərəkətlə Anadolunu nisbi bir asayişə qovuşdurmağa müvəffəq olmuşdu. Ancaq rəhm və mərhəmət göstərməyərək bu qədər çox cəlalinin müharibə aparılan bir ölkəyə getməsinə səbəb olması bəzi dövlət adamları tərəfindən tənqid edilmişdi. Murad paşanın ölümündən sonra onun yerinə keçən Nasux paşa əfvnamələr göndərərək İrandakı cəlalilərdən əksəriyyətinin ölkəyə qayıtmasına nail olmuş və onlar dövlət xidmətinə qəbul edilmişlər.

Cəlaliliyin Anadoludakı iqtisadi sıxıntılar nəticəsində meydana gəldiyi açıq bir gerçəkdir. Ancaq inkişaf etmiş döşürmə ocağı və türk xalqının məhrum olduğu siyasi haqlarını əldə etmək qayəsi də bu səbəblər arasında vardı. Türk qövmü əsgərlik ruhunu və siyasi ənənələrini qüvvətlə davam etdirdiyi üçün onun İran və ərəb ölkələrindəki xalqın vəziyyətinə düşməsi, əlbəttə, mümkün ola bilməzdi. Nəticədə, cəlalilər döşürmə ocağının getdikcə öz əhəmiyyətini itirməsinə səbəb olaraq öz qayələrinə qismən də olsa çatdılar və bağlı yolu açdılar. Xüsusən qapıqulu ocağının atlı birliklərini tamamilə əllərinə keçirdilər və aralarından bir çox sancaq bəyi və bəylərbəyi rütbəsinə çatdı. Fatehlə birlikdə hakimiyyətə gələn döşürmə zümrəsi XVII əsrin ikinci yarısına qədər dövlətə hakim oldu, əsrin sonlarına doğru əhəmiyyətini tamamilə itirdi. Bu tarixdən etibarən dövlətin başında tez-tez türk mənşəli vəzirəzəmlər görünməyə başladı.

Bütün bunlarla birlikdə cəlalilik Anadolunun bağrında sağalması mümkün olmayan dərin yaralar açmışdı. Yağma və dağıntıdan, onların meydana gətirdiyi aclıq üzündən kəndlər və qəsəbələr boşaldı. 1603-cü ildən etibarən bu hadisə dəhşətli xarakter aldı. Aclıqdan və soyuqdan çoxlu adam öldü. Bu səbəbdən kəndlərin mühüm bir qismi xaraba, tarlalar əkilməmiş qaldı, Anadoluda bəzi hüdud və sərhəd bölgələr istisna olmaqla, bu hadisə hər yanda öz sarsıdıcı təsirini göstərdi. Ən şiddətli dağıntı isə Sivasdan Kütahya və Afyona qədər geniş Orta Anadolu bölgəsində və Çuxurovada baş verdi. Çuxurovanın mühüm bir hissəsində bu hadisədən sonra XIX əsrin ikinci yarısına qədər bir daha əkin əkilmədi. Xülasə, cəlali hərəkatları Anadoluda həm əhali, həm də ərazi cəhətdən böyük boşluqlar yaratdı. Eyni zamanda hər yerdə qədim böyük türk ailələrinin bir çoxu məhv olub getdi.

Cəlali hərəkatları Ulu-Yörük (əsasən Sivas-Amasya bölgəsi) boz-ox oymaqları, Ankara yörükləri, Konya bölgəsində yaşayan atçəkənlər kimi Orta Anadoluda yaşayan elatların da dağılmasına səbəb olmuşdu. Bu hərəkatların nisbətən sona çatdığı dövrün axırlarında qışda Mardinin güneyində çöldə qışlayan və yazda Ərzurum-Ərzincan arasındakı yaylaqlarda yaşayan əski

ağqoyunlu elinin qalıqları olan boz ulus da Orta Anadolu bölgəsinə köçdü (1022 h.-1613 ş.). Köhnə yurdda bu elin çox az qismi qalmışdı. Boz ulusun öz yurdunu tərk edərək Orta Anadoluya gəlməsinin hansı səbəb və ya səbəblərlə bağlı olduğu haqda vəsiqələrdə heç bir qeydə rast gəlmirik. Bununla bərabər, bu gəlişin ən başda daimi bir əhali artımının səbəb olduğu yaylaq sıxıntısı ilə əlaqədarlığı qüvvətlə ehtimal edilir.

Əslində, boz ulus hələ XVI əsrdə yerli idarəçilərin torpağı əkdirməsi və kəndlər salması nəticəsində yaylaqlarının daralmasından şikayət edirdi. Hökumət boz ulusun Orta Anadoluya gəlməsindən razı qalmadı, Anadolu və Qaraman bəylərbəyilərinə fərmanlar göndərərək boz ulusun əvvəlki yerlərinə göndərilməsini əmr etdi. Ancaq bu əmr heç vaxt tətbiq edilmədi və boz ulus Anadoluda qaldı. Yalnız xeyli sonralar ona bağlı bəzi oymaqlar vergi borcları üzündən Adalar dənizi sahillərinə və Balıkesir tərəflərə qədər getdilər və oralarda yerləşib qaldılar. Orta və Qərbi Anadoluda türkmən adlı oymaqların görünməsi də boz ulusun gəlişi ilə bağlıdır.

İkinci Vyana mühasirəsi nəticəsində Avstriya və müttəfiqləri ilə başlayan müharibənin uzanması üzündən əsgər çatışmazlığı hiss edilirdi. Əvvəlcə türk oymaqlarına ordusunda yer verməyən dövlət 1102-ci ildə (1690) Avstriyaya qarşı səfər üçün türkmənlərdən də əsgər istədi. Boz ulus, Hələb türkmənləri, Yeni-el, dulqədirli və digərləri bu səfərdə iştirak etsələr də, Salankamen vuruşmasında (zülqədə, 1102-avqust, 1691) top atəşinə davam gətirməyərək kürdlərlə bərabər müharibə meydanından uzaqlaşdılar.

Həmin il dövlət tərəfindən türkmən oymaqlarının dağıntıya uğramış bölgələrdə yerləşdirilməsi işinə girişildi. Orta Anadoluya gəlmiş olan boz ulus dörd elata ayrılmışdı. Birinci elat Ankaranın cənub-şərqindəki Bala qəzası daxilində və ona qonşu olan yerlərdə yaşayırdı. Bu qolun başında tabanlu boyu durduğu üçün bu qola bəzən Tabanlu müqətəsi də deyilir. Bu qolu idarə etmiş olan boy ailəsi Balanın Üçəm kəndində yaşamış, nəsli bu günə qədər davam etmişdir. Boz ulus bəylərinin məhəlli idarəçilər və mərkəzlə yazışmalarına dair çoxlu sənəddən ibarət zəngin arxiv ailədə qorunmaq üzrə zamanımıza qədər gəlib çatmışdır.

Boz ulusa bağlı qaraca kürd türkmən oymağı ilə türkmən qurudlu və digər bəzi oymaqlar Qırşəhrdə yurd saldı, bu elə mənsub bir neçə oymaq isə Nevşəhrdə və ətrafda yerləşdi.

İkinci boz ulus qolu Akşəhr - Ilğın ətrafında və ona yaxın yerlərdə yurd salmışdı. Bu qol əsasən həmzə-hacılu, əfşar, küşnə, şərəflu, danişməndlu və digər oymaqlardan meydana gəlmişdir. Üçüncü boz ulus qolu Afyon və Kütahya sancaqlarında yaşayırdı. O, əsasən oğul-bəylu, köçəklu, izzəddinlu, kürd-mihmadlu və gündəşlu oymaqlarından ibarət idi. Onlar bu sancaqlar daxilində, bəzi obaları isə Balıkesir və Saru-Xan tərəflərdə oturaq həyata keçdilər.

Dördüncü boz ulus qolu isə Aydın sancağında sakin idi. Onlar da bu sancaq daxilində yerləşib qaldılar. Orta Anadoluda türkmən adını daşıyan kəndlilərin çoxu boz ulusa mənsubdurlar.

1102 (1691)-ci ildə dövlət beş bölgədə yerləşdirmə hərəkətinə girişmişdi. Bunlardan biri danişməndlu adlı böyük türkmən təşəkkülünü Aydın, Balıkesir, Afyon, İsparta və Dənizli vilayətlərində yerləşdirmək idi ki, bu, müvəffəqiyyətlə həyata keçirilmişdir. Bu böyük danişməndlu təşəkkülünün bizim boz ulusa mənsub olduğu bilinir.

XVI əsrin birinci yarısının ortalarında Çuxurovada Misisdən Gavur dağlarına qədər uzanan torpaqlar qonşu yörələr kimi tamamilə əkilirdi. Ancaq XVI əsrin sonlarında və XVII əsrin birinci yarısındakı qarışıqlıqlar üzündən bu bölgənin xalqı da dağılmış və bura tamamən qeyri-məskun hala gəlmişdir. Bəhs edilən tarixdə (1102-1691) iyirmiyə qədər dulqədirli oymağı bu bölgədə (Ayas, Bərəndi, Kınık) yerləşdirilsə də istənilən nəticəyə varılmadı. Bu işdə qızdırma və digər yoluxucu xəstəliklərin böyük rolu oldu. Həmin səbəbdən bura XIX əsrin ikinci yarısında Firqeyi-İslahiyyə gələnədək oymaqlar üçün sadəcə olaraq bir qışlaq vəzifəsini yerinə yetirdi.

Üçüncü yerləşdirmə yeri isə Hələbin şimalındakı Mənbiç bölgəsi idi. Bəzi il-bəylilər buraya yerləşdirildilər. İl-bəyli oymağı güneyli deyil, göründüyü kimi, Sivas-Amasya bölgəsində yaşayan ulu-yörük elatının orta-para qoluna mənsub bir təşəkkül idi, əskidən bəri o bölgədə yaşayır və əkinçiliklə məşğul olurdu. Çoxlu köçəri oymaqlar varkən əskidən bəri öz yurdunda əkinçilik edən və Mənbiçdən uzaqda yaşayan bir oymağın buraya yerləşdirilməsinin səbəbi dəqiq bilinmir.

Hafizələrdə bu yerləşdirilmənin əslində sürgün olduğu fikri yaşayır. Başda bəydililər olmaq üzrə cənublu təşəkküllər tərəfindən il-bəylilərə yad bir oymaq gözü ilə baxılması və türkmən sayılmaması onların məhz ulu-yörüklərə mənsub olması və Şimali Suriyaya bu köçürmə nəticəsində gəlmələri ilə bağlıdır. İl-bəylilər bu gün də yerləşdikləri həmin yerdə (az bir qismi Türkiyədə olmaq üzrə) tamamilə torpağa bağlanmış halda, oymaq adlarını mühafizə edərək yaşayırlar. Ancaq Mənbiçə yerləşdirilənlər il-bəyilərin hamısı deyil, onların ancaq bir bölüyü idi. Onların digər bir bölüyü isə Sivas-Amasya bölgəsindəki yurdunda əskidən bəri kəndlərdə yerləşmək surətilə qalmış və öz adını hələ də unutmamışdır.

Osmanlı dövlətinii həmin il girişdiyi yerləşdirmə təşəbbüslərindən biri də Hələb türkmənlərinə mənsub olan bəzi oymaqlarla Hama, Xümus və Trablis-Şam bölgəsində dağınıq olaraq yaşayan oymaqları Hama və Xümus arasındakı boş və xarab torpaqlara yerləşdirmək idi. Doğrudur, bu oymaqlar oraya yerləşdirildilər, lakin bu işdən müsbət bir nəticə alınmadı. Bu oymaqlardan bir qismi dövlətin müharibə ilə məşğul olmasından istifadə edərək

yerləşdirmə bölgəsindən çıxaraq Anadoluya getdilər. Bir qismi isə hələ də ana dilini unutmayaraq Suriyada Trablis-Şam yörəsində yaşayır.

Qədimlərdən Orta Ərəbistanda Nəcddəki Aca və Səlma adlı məşhur dağlarda yaşayan ərəblərin teyy boyunun mühüm qolu olan şəmmarlar XVII əsrin ortalarında şimala doğru irəliləyərək Suriya çölünü işğal etdilər. Digər yerlərdə olduğu kimi Suriyada da imperiya idarəsinin zəifləməsindən faydalanan şəmmarlar Rəqqa bölgəsini ələ keçirdilər, təcavüzkar hərəkətlərilə gediş-gəlişi qorxu altına aldılar. Ancaq şəmmarların Suriyada bu hakimiyyəti uzun sürmədi. Onların Şimali Suriyaya gəlmələrindən 20 il sonra yenə Orta Ərəbistanda yaşayan ənəzələr hərəkətə keçərək şəmmarları qovdular və Rəqqa bölgəsi də daxil olmaq üzrə Suriya çölünə hakim oldular. Ənəzə ərəbləri şəmmarlardan daha qələbəlik və daha dağıdıcı əşirət idi. Rəqqa bölgəsindəki kəndlərin bir qismini dağıdaraq digərlərini də xəraca bağlamışdılar. Məhz bu ənəzələrin axınlarının qarşısını almaq üçün Osmanlı dövləti Hələb türkmənləri ilə Yeni-elə bağlı bütün bəydili obalarını, boz ulusun köçməmiş qalıqlarını, Hələb türkmənləri ilə Yeni-elə daxil digər bir çox oymaqları Bəlix çayının Harranın altındakı Ağca Qaladan Rəqqayadək uzanan sahilində yerləşdirdi. Digər bir çox oymaqlar da Urfanın şərqindəki Collab (Colab) çayı sahillərinə, Harran yörəsinə, Urfanın şimal-qərbindəki Bozabada və bəzi yerlərə yerləşdirilmişdi. Yerləşdirilən türk təşəkkülləri arasında bəydili obalarından başqa Yeni-elə bağlı musacalu oymağı (ağcaqoyunludan), baraq (cəriddən), əfşar (imanlu əfşarından), çiməlu, çəpni, Diyarbəkirdəki boz ulus qalığından izzəddinlu, köçəlu, əfşar, inallu, acurlu, həmzəhacılu və digər oymaqlar da vardı. Bundan başqa, ləkvanik kürdü ilə ona bağlı hacılar, ağbaş, qızılqoyunlu və qırıntılı oymaqlarının da yerləşdirilənlər arasında olduqları görünür. Bütün bu oymaqlar ertəsi il (1102-1692) Anadoluya qaçsalar da, çoxusu təkrar geri göndərilərək yerləşdirildi və qaçmamaları üçün ciddi tədbirlər görüldü. Dövlət bu yerləşdirmədə müvəffəq olmağa əzm etmişdi. O, ənəzə ərəblərinin hücumlarının ancaq bu surətlə önlənəcəyinə inandığı kimi, bu türk oymaqlarının çıxaracağı bəlalardan da qurtulmuş olacaqdı. Ancaq bu bölgə türk oymaqlarının yerləşə biləcəyi coğrafi şərtlərə malik yer deyildi. Torpağı bərəkətsiz və susuz idi, orada yayda türkmənlərə Urumdakı (Anadolu) sərin yaylaqlarının həsrətini çəkdirən qovurucu istilər hökm sürürdü. Digər tərəfdən, ənəzələr də qışlamaq üçün getdikləri cənubdan həmin mövsümdə qayıtmışdılar. Onlarla və digər ərəb əşirətləri ilə türkmənlər arasında bir çox vuruşmalar baş vermişdi ki, bu barədə türkmənlərin bəzi şeirləri bu günədək gəlib çatmışdır. Rəqqa bölgəsi dövlətin əmrlərinə boyun əyməyən Anadoludakı digər türk oymaqları üçün də bir sürgün yeri halını almışdı. Dövlət rahat durmayan oymaqları da bu bölgəyə sürmək surətilə cəzalandırırdı. Ancaq dövlətin bu məsələdə göstərdiyi davamlı əzmkarlığa və gördüyü tədbirlərə baxmayaraq Rəqqa və Urfa böl-

gələrinə yerləşdirilən oymaqlardan mühüm bir qismi ayrı-ayrı zamanlarda Anadoluya qaçmağa və orada yurd salmağa müvəffəq oldu.

Bəydilinin əksər obaları, baraqlar və digər bəzi oymaqlar isə XIX əsrə qədər Rəqqada qaldılar. Həmin əsrdə onlar da bir daha geri qayıtmamaq üzrə oranı tərk etdilər. Beləliklə, dövlətin əzmlə girişdiyi bu Rəqqa yerləşdirməsi də baş tutmadı, boşa çıxdı və türk oymaqlarının pərişan olmasilə nəticələndi[1]. Bu hadisədən ən böyük iztirabı bəydili boyu çəkdi. Bu gün onların artıq tamamən kəndliləşmiş olan nəvələri arasında Colab adı ilə anılan köçürmənin acı xatirələri hələ də yaşayır. Hətta başçıları Firuz (Feruz) bəyin Rəqqadakı iztirablı həyata dözməyərək oymağın qələbəlik bir qismi ilə İrana köçüb getdiyi nəql edilir.

Rəqqanı tərk edən bəydililər ümumiyyətlə Antəbin cənub bölgəsində yurd salmış və orada yerləşib qalmışlar. İndi onların kəndlərindən bir çoxu Suriya torpağındadır. Baraqlara gəlincə, onların əksəriyyəti Nizibin cənubunda yerləşmişlər. Baraq kəlməsinin çox sıx tüklü bir köpəyə deyildiyini və adam adı olaraq işləndiyini bilirik: Baraq Hacib, Baraq xan, Baraq Rəis. Bu oymağın öz adını bir şəxsdən aldığına şübhə yoxdur. Araşdırmalarımızın nəticəsinə görə, bu baraqlar XVI əsrdə Yeni-elin dulqədirli qoluna mənsub baraq adlı bir cərid obasından başqası deyillər. Bəydililərin bunları türkmən saymaması bu xüsusla əlaqədar olmalıdır. Halbuki baraqlar da XVII əsrin sonlarında Rəqqaya yerləşdiriləcəkləri ərəfədə türkmən hesab edilirdilər. Bu baxımdan deyə bilərik ki, baraqların da il-bəylilər kimi əslində cənublu olmaması, üstəlik, bəydili boyuna mənsub olmaması bəydililərdə bu ayrı-seçkilik fikrini oyatmışdı.

XIX əsrdə Çuxurovada dərəbəylik idarəsi davam edirdi. Osmanlı valilərinin hökmü əksərən Adana şəhərindən o yana keçmirdi. Bu dərəbəylərin ən qüvvətlisi kozanoğulları idi. Onların hakimiyyəti bugünkü Kozan, Qədirli və Saim-bəyli yörələrini əhatə edirdi. Kozanoğulları bəlkə də meşəli dağlarda yaşadıqları üçün belə adlanan varsaq türklərindən idilər. Kozanoğulları nə qədər qüdrətli dərəbəyi olsalar da, idarə etdikləri xalqdan fərqlənməyən sadə bir həyat sürmüş, elin adət və ənənələrinə riayət etmişlər. Onlar sərvət və mal-dövlət toplamağa çalışmaqla yanaşı, Kayseriyə və digər yerlərə oxumağa gedən həmyerlilərinə maddi kömək də göstərirdilər. Hətta bu gün də xalq arasında onlar haqda xoş xatirələr nəql edilir.

Digər bir dərəbəyi ailəsi də Payas yörəsinin hakimi olan Kiçik Əli oğulları idi. Məşhur şair Dadaloğlu bu ailəni yörənin fatehləri və osmanlılardan

[1] Osmanlı dövlətinin bəzi türk oymaqlarını 1102-ci ildə (1691) Anadoluda və Suriyada yerləşdirmə təşəbbüsləri haqqında: Ç.Orxonlu. Osmanlı imperatorluğunda aşirətləri iskan təşəbbüsü (İstanbul Universiteti ədəbiyyat fakültəsi yayınlarından), İstanbul, 1963. Ancaq Rəqqaya yerləşdirilən oymaqların oranı tərk edənədək həyatı, onların ərəb və kürd aşirətləri ilə vuruşmaları başda dövlət arxivi və qazı sicillərindən əldə ediləcək material əsasında tezliklə araşdırılmalıdır.

əvvəlki hakimləri olan ozəroğullarına bağlasa da, bu xüsus çox şübhəlidir. XVIII əsrdə dulqədirli ulusuna mənsub döngələlu, ulaşlu, çalışlu, dəvəlu və kəbəlu kimi oymaqlar Qurd Qulağı ilə Burnaz körpüsü ətrafında yaşayırdılar. Onlar 1148-ci ildən (1735) bir neçə il əvvəl İslahiyyə tərəflərində yaşayan oxçu-izzəddinlu kürdlərinin yaylağı yerləşən Gavur dağına çıxıb dövlətə olan vergi borclarını ödəməkdən boyun qaçırmışdılar. Firqeyi-İslahiyyənin cəzalandıraraq Osmaniyyə şəhərində və onun ətrafında yerləşdiyi Gavur dağının türk sakinləri əslən bu oymaqdandırlar. Kiçik Əli oğullarının da bu oymaqlardan birinə mənsub olmasını ehtimal edirik. Şair Dadaloğlu Kiçik Əli oğullarını samur kürklü, xanımlarını isə «İstanbul fəsli» kimi tərifləməklə bərabər onların qüdrətlərinə nisbətən sadə yaşamaları bir avropalı qadın səyyahı heyrətə salmışdı. Bu ailənin başlıca gəlirini tacirlərdən, hətta zəvvarlardan aldığı bac təşkil edirdi.

XIII əsrdə Qərbi və Cənub-Qərbi Anadoludakı yörük elatlarının əhalisi artmış və yaylaq sıxıntısı hiss edilməyə başlanmışdı. Bunun nəticəsində Məntəşə yörükləri şimala doğru irəliləyərək Bursa ətrafına qədər gəldilər. İç-el yörükləri isə qonşu bölgələrə, xüsusilə Çuxurovaya köçdülər. Çuxurovaya köçən İç-el təşəkkülünün başında boz-doğanlar* dururdu. Çuxurovaya gələn boz-doğanların bir qismi Adana yörəsində qaldı ki, onlara kötük bozdoğan deyilir. Onlardan bir bölük də şərqə tərəf irəliləyərək Qədirlinin cənubunda yurd saldı. Boz-doğanların əsas obalarından biri olan mələmənçilər isə əvvəlcə Kusun, sonra da Qara-İsalu yörəsinə köçdülər. Beləliklə, göründüyü kimi, mələmənçi oymağının və ailəsinin İzmir vilayətindəki Mənəmən qəsəbəsi ilə heç bir əlaqəsi yoxdur. Əgər əlaqəsi olsaydı, kəlmə Mələmənli və ya Mənəmənli şəklində yazılmalı və söylənməli idi. Mələmən bu gün də bir çox yerlərdə bişirilən yemək olub, oymağın adı mələmən yeməyini çox sevən bir adamın adından yaranmışdır. Xülasə, mələmənçi oymağı və ailəsi iç-ellidir və əlimizdəki sənədlərə görə boz-doğanlara mənsub bir obadır. Üstəlik, həm boz-doğanların, həm də mələmənçilərin (ailənin ziyalı zümrəsi də daxil olmaq üzrə) yörüklərə xas üz və bədən quruluşu xüsusiyyətlərini indi də mühafizə etdikləri müşahidə olunur. Mələmənçi (mənəmənçi) oğulları XVIII əsrdən etibarən öz obalarına arxalanaraq Qara-İsalu bölgəsini nüfuz və hakimiyyətləri altına almışdılar. Bu ailəyə bir dərəbəyi ailəsi gözü ilə baxmaq doğru olmazdı. Çünki ailə üzvləri zaman-zaman dövlət hakimiyyətini qəbul edərək onun məmurları vəziyyətinə düşmüşlər. Bəylərin ümumiyyətlə səbatlı adamlar olduqları bilinir. Firqeyi-İslahiyyə tərəfindən İstanbula gətirilən sonuncu mələmənçi bəyi Hacı Əhməd bəy bizə bu ailənin tarixinə aid dəyərli bir xatirə qoyub getmişdir ki, bu, Türkiyə tarixində bənzərinə az rastlanan bir hadisədir[1].

* Doğan azərbaycanca «şahin» deməkdir (tərcüməçi).
[1] Bu əsəri lazımi haşiyələrlə birlikdə tezliklə nəşr edəcəyik.

Bu ailədən sonra Kərim oğulları, Göy Vəli oğulları, Sırkıntı oğulları və Karsandı oğulları kimi sahil bəyləri gəlirdi. Hazırda bu ailəyə dair ən qədim məlumat 1119-cu ilə (1707) aiddir. Bu tarixdə «ənvayi-fəsad və şəkavətlə məşhur» olduqları söylənən Maraş bölgəsindəki ailələrdən Çoban oğlu Qasım (Cəriddən) və Bəyazid oğlu Məhmət ilə Kərim oğlu Xəlil Qaraman bəylərbəyisi tərəfindən yaxalansa da Kozan oğlu ələ keçməmişdi. Daha sonra dövlət bu ailəni Çuxurovanın əyan ailələrindən biri kimi tanımışdı. 1143-cü ildə (1730) ailənin başçısı Əbdülkərim adlı bir bəy idi. Göy Vəli oğullarına gəlincə, bu ailənin hansı oymaqdan olduğu hələ bilinmir. Onların yurdu Qədirli qəzasında, Qədirlinin şimalında Kəsik çayı ilə Sunbas irmağı arasındakı torpaqlar idi. Göy Vəli oğulları qüdrətli bir ailə olub Kozan oğulları ilə də baş-başa gəlmişlər. Sırkıntı oğullarının türkmən olduğu bilinsə də, hansı oymaqdan olduqları hələlik təyin edilməmişdir. Hazırda bu ailəyə dair ən qədim məlumat 1143-cü ilə (1730) aiddir. Həmin il Sırkıntı oğlu Məhməd bir neçə bəylə, o cümlədən Karsandı oğlu, Qara Nəbi oğlu Həmzə və Kərim oğlu Əbdülkərim ilə birlikdə Rəqqaya yerləşdirilmələri əmr olunan rəcəblu əfşarının qaçmasının qarşısını almağa məmur edilmişdi. Sırkıntı oğulları və oymağının yaşadıqları yer Kozanın cənubunda Ceyhan şəhərinin cənub-qərbində, Sarı-Çam ilə Ceyhan çayı arasında idi. Karsandı oğullarına gəlincə, onlar Qara-İsalu ilə Kozan yörəsi arasındakı meşəlik yerin hakimi idilər. Bunların türkmən şərqi-para oymağına mənsub olmaları ehtimal olunur. Sənədlərdə bu ailəyə mənsub heç bir şəxsə rastlanılmamışdır. Çuxurovadakı oymaqlara gəlincə, varsaq və boz-doğanlardan başqa əfşar, cərid və təcirlu boyları da bölgənin gözə çarpan sakinlərindən idilər. Onlar yayda Uzunyaylaya gedir və orada əllərinə fürsət düşdükcə çapovulçuluq edirdilər. Böyük şair Dadaloğlu bizə bu aləmin həyat və hissiyyatını çatdırır. Bu aləm XV və XVI əsr Çuxurovasından nə qədər fərqli idi! Göründüyü kimi, bu aləmdə başda Ramazan oğulları, Özər oğulları, Kursun oğulları və digərləri kimi bölgənin fəthində rol oynamış əski ailələrdən heç biri yoxdur. Osmanlı idarəsi və türk cəmiyyətinin düzənini alt-üst edən böyük hərəkətlər hər yerdə olduğu kimi bu əski əsilzadə ailələrini də ortadan qaldırmış və ya onların əhəmiyyətini azaltmışdı. Dövlət qüdrətinin zəiflədiyi zamanlarda ortaya çıxan ailələrin çoxu isə dövlət tərəfindən əvvəlcə fəsadçı və şaqi kimi qiymətləndirilmiş, sonra isə ölkənin əyan-əşrəfi sayılaraq onlara etibar edilmişdir.

Yuxarıda adı çəkilən oymaqlardan cərid və təcirlular əvvəlcə də gördüyümüz kimi dulqədirli ulusuna mənsub boylar idilər. Bunlardan cəridlər Ceyhan bölgəsində, təcirlular isə indiki Osmaniyyə yörəsində qışlayırdılar. Onlar XVIII əsrin əvvəllərində soyğunçuluq hərəkətləri ilə həyatı, yaşayışı o qədər pozmuşdular ki, 1118-ci ildə (1706) Qaraman bəylərbəyisi Həsən paşanın komandanlığı altında mühüm bir qüvvə gətirilərək hər iki oymaq və onların köməkçiləri cəzalandırıldılar. Ancaq cəzalandırma əməliyyatı istə-

nilən nəticəni vermədi. Hər iki oymaq çox keçmədən qovğunçuluğa, yəni kəndlilərin və digər oymaqların heyvanlarını sürüb aparmağa başladılar. Ancaq Dadaloğlunun Osmanlıya meydan oxuduğu, sivri nizəli əfşar igidlərinin sarı çiçəkli yaylalara bir an əvvəl varmaq üçün tələsdikləri bir vaxtda «Osmanlı dovşan ovuna araba ilə getdiyi» kimi topu və tüfəngi ilə qəfildən gəlib çıxdı. Gerçəkdən böyük alim Cövdət paşanın mülki idarəçiliyi, həmyerlisi Dərviş paşanın komandanı olduğu Firqeyi-İslahiyyə, 1865-ci ildə bu aləmi gözlənilməyən bir sürətlə ortadan qaldırdı. Dərəbəyi ailələri oradan uzaqlaşdırıldı, oymaqlar da yerləşdirildi. Bunlardan təcirli və cəridlər öz qışlaq yurdlarında yaşamağı istədilər. Birincilər ümumiyyətlə Osmaniyyə, ikincilər isə Ceyhan qəzası daxilində yerləşdilər. Əfşarlara gəlincə, onlar Zamantı və Sarız bölgəsindəki yaylaqda yerləşməyi üstün tuturdular[1]. Ancaq əfşarlar üçün əsil bədbəxtlik əsrlərdən bəri onlara aid olan yaylaq yurdlarının ən yaxşı hissəsinin həmin ərəfədə Qafqazdan gələn mühacir çərkəzlərə verilməsi oldu. Artıq XIX əsrin sonlarında türkmənlər hər yerdə torpağa bağlanan türk kəndlilərinin cərgəsinə daxil oldular.

Hökumətin Firqeyi-İslahiyyəni göndərməkdə əsil məqsədi isə çuxurovalılara daha yaxşı həyat təmin etmək deyil, əsgərə duyduğu şiddətli ehtiyacı ödəmək xüsusu ilə bağlı idi. XIX əsrin ikinci yarısınadək dövlətin əsil dayağının türklər olduğunun osmanlı hökmdarları və dövlət adamları tərəfindən anlaşıldığı haqqında əlimizdə heç bir dəlil yoxdur. Həmin əsrin ikinci yarısında Cövdət paşa və Əbdülhəmidin sədr-əzəmi Səid paşa, hətta şəxsən Əbdülhəmidin özünün bu xüsusu başa düşdüyü görünür. Ancaq bu əsrdə Anadolunu gəzən avropalılar yoxsul, lakin əsil ruhlu və namuslu adamlar kimi qiymətləndirdikləri türk millətinin ölməkdə, pis idarəçilər əlində məhv olmaqda olduğunu söyləyirdilər. Səyyahların fikrincə, eyni ölkədə yaşayan xristianlar isə firavan həyat sürür, türklərin sayı azalır, onlarınkı isə getdikcə çoxalırdı. Doğrudan da, yunanların və ermənilərin xüsusilə XIX əsrdə Anadoluda geniş bir yayılma hərəkətində olduğu müşahidə edilir. Nəticədə Mərmərə sahillərində erməni kəndləri salınmış, ən hücra qəsəbələrdə belə yunan koloniyaları meydana gəlmişdi. Yenə həmin əsrdə avropalı səyyahlar Anadolunun şəhər və qəsəbələrinin əksəriyyətində ticarət və sənətkarlığın xristianların əlində olmasını türklərin bu peşələrə etibar etməmələri ilə izah edirlər. Bu izahat həmin vəziyyətin guya qədimdən bəri davam edən bir hal olduğu hökmünü verə bilər. Halbuki bilindiyi kimi, XIV əsrdə Anadolu şəhər və qəsəbələri rəislərinə əxi deyilən əsnaf cəmiyyətləri ilə dolu idi. Bunlar necə oldu? Niyə öz əhəmiyyətlərini itirdilər? Bu suallara hələlik təmin edici bir cavab verilməmişdir. Şübhəsiz inandığımız bir xüsus varsa, o da XVI əsrin sonlarındakı cəlali hərəkatlarının XIV əsrdən bəri Anadoluda davam edən ictimai həyatı ortadan qaldırmasıdır. Bu hərəkatlardan sonra Anadolu

[1] Bu barədə ikinci hissədə əfşar boyu bəhsinə bax.

böyük istilalara uğramış məmləkətlərdən daha qorxunc bir vəziyyətdə idi. Dövlət isə keçmiş qüvvə və qüdrətini itirdi və bir daha dirçələ bilmədi. Sonrakı əsrlərdə imperatorluğun əsil dayağı və ana vətəni olan bu ölkənin bağrında bir tərəfdən qıtlıqlar və yoluxucu xəstəliklər, digər tərəfdən də uzun sürən müharibələr üzündən açılmış yaralar heç cür sağalmadı. Əlcəzair, Tunis və Trablis kimi yerlər üçün zaman-zaman Anadolunun ən babaigid gəncləri sürülüb aparılır, minlərcə türk gəncinin böyük bir qismi bir daha geri dönməmək şərtilə Yəmənə göndərilirdi. Xülasə, Osmanlı Anadolunun insanlarını və sərvətlərini görünməmiş bir israfçılıqla xərcləyirdi. Ədirnə və Manastırda olmaq üzrə Rumelidə iki, Şam və Bağdadda birər hərbi edadi (məktəb) vardısa, Sivasdan İzmirə qədər qosqoca Anadolu bölgəsində heç bircə hərbi edadi də yox idi. Nəticədə türk qövmü fiziki baxımdan sonsuz itkilərə məruz qaldı, hətta bəlkə mənəvi xarakterindən bəzi cəhətlər zəiflədi, yəni adət-ənənəsi tənəzzülə uğradı. Odur ki, bu səbəblərə görə, imperiyanın məhv olmasının türk millətinin yaşaması üçün xeyirli bir nəticə olduğuna əsla şübhə edilməməlidir. Türk oymaqlarının Anadoluda oturaq bir türk kütləsi təşəkkül etməzdən əvvəlki əhəmiyyəti haqqında söz söyləmək şübhəsiz artıqdır: Aladolunu onlar fəth etdilər, buradakı oturaq türk xalqını onlar meydana gətirdilər. Osmanlı hakimiyyəti türk oymaqlarının siyasi hakimiyyətlərinə son qoydu. Ancaq onlar siyasi bir qüvvə kimi əhəmiyyətlərini tamamilə itirmədilər. İmperiyanın geriləmə dövründə Anadoluda zühur edən qaraosmanoğulları, çapanoğulları, kozanoğulları, kiçikəlioğulları, mələmənçioğulları, Maraşdakı bəyazidoğulları və digər bir çox ailələr onlardan çıxdı. Əgər osmanlı dövləti yıxılsaydı, şübhəsiz, Anadolunu oymaqlardan çıxan bu ailələr idarə edəcəkdi. Səlcuqlu dövlətinin zəifləməsi nəticəsində ortaya çıxan ailələr kimi. Türk oymaqlarının osmanlı dövründə oynadıqları əsil mühüm rol imperiyanın ağır yükünü öz çiyinlərində daşıyaraq taqətsiz, miskin bir vəziyyətə düşmüş Anadoludakı oturaq türk xalqını həmişə fiziki və mənəvi cəhətdən qüvvətləndirmək surətilə onun daha da zəifləməsinin və hətta öz yurdunda varlığının təhlükəyə düşməsinin qarşısını almasıdır. Bizim tərəfimizdən türk oymaqlarının araşdırma mövzusu kimi tədqiq olunmasının başlıca səbəbi də budur.

# II HİSSƏ

## BOY TƏŞKİLATI VƏ BOYLAR

Oğuzlar qövmi və siyasi bir təşəkkül üçün «el» kəlməsini işlədirdilər: oğuz eli, ağqoyunlu eli, dulqədirli eli. Onların digər türk qövmlərinin eyni mənada işlətdikləri budun sözünü bilmədikləri anlaşılır. Bu kəlmənin monqolca qarşılığı olan ulus sözü də ancaq Şərqi Anadoludakı türkmənlər tərəfindən el kəlməsi ilə birlikdə işlədilmişdir: qaraqoyunlu ulusu, boz ulus, qara ulus. İndi biz el yerinə ümumiyyətlə ərəb dilindən alınmış qövm kəlməsini işlədirik.

Gördüyümüz kimi, oğuz elinin başında yabğu ünvanlı hökmdarlar vardı. XII əsrdən sonra bu kəlmə öz mənasını itirmiş, unudulub getmişdir. Türkmən ellərinin başındakı hökmdarların isə türkcə yalnız bəy ünvanı daşıdıqları müşahidə edilir. El sözünün sonra ölkə mənasına gəldiyi məlumdur. Yurd elin, boyun, obanın və ailənin yaşadığı yerdir.

Oğuz elini meydana gətirən təşəkküllərdən hər birinə boy deyilir ki, Kaşğari bu sözün oğuzca[1] olduğunu bildirir. Orxon abidələrində rastlanan «bod» sözü[2], deyildiyi kimi, bəlkə də bu kəlmənin ən qədim şəklidir. Boy Türkiyədə bu mənada həm rəsmi dildə, həm də xalq arasında son zamanlaradək işlədilmişdir.

Türkiyədə boyların başçılarına isə boy bəyi deyilirdi. Qövm kimi ərəb dilindən alaraq işlətdiyimiz qəbilə sözü türkcə məhz boy mənasını verir. Boyları irsən idarə edən rəislər bəy ünvanı daşıyır. Oğuz və türkmən əsilzadə sinfini bu boylar meydana gətirir. Yabğular və sultanlar da bəylər arasından çıxmışlar.

Boylar obalara ayrılır. Kaşğari bu kəlmənin də[3] oğuzca olduğunu söyləyir. Obalardan sonra hər halda ailələr gəlirdi ki, oğuzların bunu hansı kəlmə ilə ifadə etdikləri bilinmir. Beləliklə, ailədən (soy?) obalar, obalardan boylar,

---

[1] Kilisli, III, s. 103; Atalay, III, s. 141; [Ramiz Əskər, III, s. 144].
[2] H.N.Orkun. ƏTY, I, s. 100.
[3] Kilisli, I, s. 81; Atalay, I, s. 86; [Ramiz Əskər, I, s. 151].

boylardan isə oğuz eli meydana gəlmişdir. Oğuz elində əsil qəbilə birlikləri boylardır. Oymaq sözü kitabımızda boylar (qəbilə), obalar (camaat) və onların qollarını ifadə etmək üzrə ümumi bir mənada işlədilmişdir. Bunu əvvəllər əşirət kəlməsi ilə ifadə edirdik. Əşirət sözü indi Cənubi Anadoluda təkdə və cəmdə yörük mənasında işlədilir.

Oğuz boylarının ərəb, kürd və bəzi digər qövmlərdə olduğu kimi individual bir həyat yaşadıqları və ya təkbaşına siyasi bir hərəkətdə bulunduqları nadir faktdır. Onlar daim el halında yaşamağı sevmişlər ki, bu xüsus oğuzların siyasi nailiyyətlər qazanmasında mühüm bir amil olmuşdur.

Göründüyü kimi, X əsrin əvvəllərindən etibarən oğuz elindən elatlar halında ayrılmalar başlamışdır. İlk elat Xəzər dənizi sahilindən yarımadaya gedərək yurd salmış, buraya Manqışlaq adını vermişdir. İkinci bir elat səlcuqluların başçılığı altında Yaxın Şərq ölkələrinə gəldi. Üçüncü elat isə XI əsrdə Qara dənizin şimalından Balkanlara endi. Digər tərəfdən, qələbəlik bir oğuz elatı da Sır-Dəryanın orta yatağındakı şəhərlərdə yerləşmişdi. Köçəri oğuzların bu şəhərli eldaşlarına istehza ilə yatuq, yəni tənbəl adını verdiklərini bilirik. Ancaq bütün bunlara baxmayaraq, oğuz eli öz qədim yurdunun bir qismində el təşkilatını mühafizə edərək yaşayırdı. Boz-ox və üç-ox adları ilə iki qola ayrılan, Sultan Səncərə qalib gələn oğuz elatı bəhs edilən bu elin nüvəsi kimi görünür. Çünki bu elatdan sonra Sır-Dərya sahilində olanlar kimi, oğuz adını daşıyan təşkilatlı bir elata rast gəlmirik. Ancaq dərhal əlavə edək ki, XIV əsrin ikinci yarısında Şimali Suriyadakı türkmənlərin boz-ox və üç-ox adlarını daşımaları bu xüsusda şübhə və tərəddüd yaratmaqdadır. Çünki Sultan Səncəri məğlub edən oğuzlar, gördüyümüz kimi, bir müddət sonra tamamilə dağılmışdılar. Oğuz boylarının demək olar ki, hamısının taleyi meydana gətirdikləri elin taleyi kimi olmuşdur. Yəni boyların hər hansı bir siyasi hərəkatda bütün obaları ilə iştirak etdiyi görünmür. Məsələn, Farsda siyasi hakimiyyəti ələ keçirən salurlar (salğur) bu boyun ancaq bir obası və ya bir qismi idi. Ağqoyunlu ailəsinin buyruğunda da bayındır boyunun yalnız bir obası (ağqoyunlu) bulunurdu. Hətta səlcuqluların fəthində bu ailənin mənsub olduğu kınık boyunun bütün obaları ilə iştirak etdiyini iddia etmək mümkün deyildir.

Anadoluda oğuz boylarına aid yer adlarının və təşəkküllərin müxtəlif yerlərdə görünməsi eyni səbəbə bağlıdır. Yəni oğuz boylarının əksəriyyətinin obaları və qolları bu ölkəyə müxtəlif dövrlərdə gəlmişdir və gələnlər də iqtisadi və siyasi səbəblərlə parçalanmışlar, sonra oğuz boylarını ayrı-ayrılıqda araşdırdığımız zaman bu xüsus daha aydın şəkildə anlaşılacaqdır.

Birinci hissədə Kəm çayına tökülən Barlıq çayı sahillərindəki oğuzların altı boydan, Tula çayı sahilindəki oğuzların isə doqquz boydan ibarət olduğunu görmüşdük. Diqqətəşayan cəhət budur ki, XVI əsrdə osmanlı ailəsinin yurdu olan Sultan-Önü sancağındakı Qaraca-Şəhər qəzasına bağlı bir kənd

Tokuz-Oğuz adını daşıyırdı[1]. Bizcə, bu adın hansı səbəbə görə bu kəndə verildiyi izah edilə bilməmişdir.

Sır-Dərya oğuzları XI əsrdə 24 boydan ibarət idi. Bizə bunu bildirən Mahmud Kaşğari eyni zamanda bu boylardan 22-nə aid bir siyahı da verir. Üstəlik, səlcuqluların fəthindən bəhs edən bir erməni salnaməçisi də fateh qövmün 24 boydan meydana gəldiyini yazır[2]. Oğuz boylarına aid bütöv siyahı Rəşidəddin tərəfindən verilmişdir. Bu siyahıların əhəmiyyəti ondadır ki, onlar olmasaydı, oğuz boylarına aid siyahı düzəltmək bizim üçün çox müşkül, hətta qeyri-mümkün olacaqdı.

Kaşğarinin siyahısından yalnız məmlük dövrü salnaməçilərindən Eyni istifadə etmişdir[3]. Digər əsərlərdə görünən siyahılar (Həmdullah Müstövfi, Yazıçıoğlu, Nəşri, Əbülqazi və b.) birbaşa və ya bilavasitə Rəşidəddindən alınmışdır.

Mahmud Kaşğari xalaç adlandığı və bəzi xüsuslarda digərlərindən fərqləndiyi üçün oğuz sayılmadığını söylədiyi[4] iki boyu siyahıya salmamış, onların adını da bildirməmişdir. Digər tərəfdən Kaşğarinin «sayısı azdır, damğaları da bəlli deyildir» dediyi çakurluq boyunun adına Rəşidəddinin siyahısında rast gəlmirik. Onun siyahısında Kaşğaridə olmayan bu adları görürük: yaparlı, kızık, karkın. Bunlardan kızık və karkından birini Kaşğarinin öz siyahısına salmadığı iki boydan biri kimi qəbul etmək lazımdır. Digərinin də yenə bunlardan biri olduğu ehtimalı məntiqi cəhətdən düzdür. Çünki hər iki boy, yəni kızık və karkın eyni budaqda, Ulduz xanın oğulları arasında göstərilmişdir. Halbuki yaparlı boyu başqa bir budaqda Ay xanın oğulları arasındadır. Yaparlı yenə orada adının hansı mənaya gəldiyi yazılmayan yeganə qoldur. Digər tərəfdən heç bir yerdə nə çarukluya, nə yaparluya aid tarixi bir qeydə, bir yer adına və ya bir təşəkkülə rastlanmamışdır.

Qısacası, Rəşidəddindəki yaparlının Kaşğaridəki çarukluğun yerini tutduğunu və həmin müəllifin öz siyahısına salmadığı iki boyun da kızık və karkın olduğunu qüvvətlə ehtimal edirik. Rəşidəddinin siyahısının bu iki boy baxımından da faktlara uyğun olduğu görünür. Çünki hər iki boya aid yer adlarına və təşəkküllərə Türkiyədə rast gəlinmişdir. Kaşğarinin öz siyahısında boyları o zamankı siyasi şöhrətlərinə görə sıraladığı anlaşılır. Məsələn, səlcuqlu xanədanının mənsub olduğu kınık boyu ən başda verilmişdir. Rəşidəddinin isə öz siyahısını oğuz boylarının qədim siyasi və ictimai mövqelərinə görə tərtib etdiyi görünür. Burada 24 boy hər biri bərabər sayda olmaq üzrə Oğuz xanın altı oğlundan «törədilmişdir». Digər tərəfdən, Kaşğa-

[1] Dəftəri-müfəssəli-Sultan-Önü, TKÜMA, № 98, 45b.

[2] Urfalı Vahram. Kilikya karlları tarixi (əsərin türkcə nəşr edilməmiş tərcüməsi Türk Tarix Qurumunun kitabxanasındadır.)

[3] İqd ül-cüman fi tarixi əhl-iz-zaman. Vəliüddin əfəndi kitabxanası, № 2374, s. 512-516.

[4] Kilisli, III, s. 307; Atalay, III, s. 414-415; [Ramiz Əskər, III, s. 359-362].

ridə olduğu kimi burada da boylardan hər birinin özünəməxsus damğaları olduğu halda hər dörd boyun ortaq bir onqonu da vardır. Bu xüsus 24 boyun 6 boydan meydana gəldiyinin və ya oğuzların qədim zamanlarda 6 boydan ibarət olduğunun xatirəsi ola bilər. Elə Barlıq çayı sahilindəki oğuzlar, - əgər düzgün oxunmuşsa, - 6 boy halında yaşayırdılar.

Rəşidəddində 24 boy iki qola ayrılmışdır. Bunlardan biri boz-ox, digəri üç-ox adını daşıyır. Kaşğaridə nə bu ikili təsnifat, nə də onların adları var. Ancaq bunun tarixi bir fakt olduğu məlumdur. Səncəri məğlub edən oğuzlar bu adlar altında iki qola ayrıldıqları kimi XIV əsrdə Şimali Suriyadakı türkmənlər də bu adları daşıyırdı. Bu türkmənlərdən boz-ox qoluna mənsub olanlar Yozqat bölgəsində yurd saldıqlarından bu bölgə respublika dövrünə qədər həmin adı daşımışdır. Bundan başqa, Konyanın şimalında İstanbul-Hələb ana yolu üzərində də Boz-ox[1] adlı böyük bir kənd vardı. Urfanın Biləcik qəzasında bu gün də Boz-ox adlı bir kənd mövcuddur[2].

Rəşidəddində boz-ox sözü parçalamaq şəklində mənalandırılmışdır ki, kəlmənin «pozmaq» sözü ilə izah edildiyi görünür. Üç-ox isə üç ədəd ox şəklində izah edilir. Ancaq bu izahları qəbul etmək qeyri-mümkündür. Oxun on-oxda olduğu kimi, qədimlərdə bu mənanı daşıdığını bilirik. Bu isimlərdəki ox kəlməsinin də eyni mənada olduğu şübhəsizdir. Ona görə də üç-ox üç boy deməkdir.

Boz-oxa gəlincə, buradakı boz kəlməsinin o birində olduğu kimi, bir rəqəmin yerini almış olduğu ehtimal edilir.

Rəşidəddinin sözlərinə görə, oğuz elində hakim qolu boz-oxlar təşkil edir. Bu səbəbdən boz-oxların əlaməti yaydır, üç-oxların əlaməti isə təbii qol olduqları üçün oxdur. Toğrul bəyin 1038-ci ildə Nişapura girərkən qolunda gərilmiş bir yay, belində isə üç ox vardı. Bunlar hər halda onun özünü boz-ox və üç-oxun, yəni bütün oğuz elinin hökmdarı saydığının ifadəsidir, yürəgir boyunun damğasının da bir yay və üç ox şəklində olduğu görünür[3]. Daha əvvəl də söylədiyimiz kimi, bir yay və üç ox oğuz yabğularının hökmdarlıq reqaliyasıdır[4].

Qədim türk ellərində və ordularında ikili düzənin dəyişməz bir qayda olduğu məlumdur. Göründüyü kimi, oğuz elində və ordusunda da bu qayda hakim idi. Beləliklə, el və ordu ikiyə bölünür, bunlara qol deyilirdi. Qollar da bir-birindən sağ və sol sifətlərilə ayrılırdı.

---

[1] Əkrəm Kamil. Qəzzi-Məkki səyahətnaməsi. Tarix seminarı jurnalı, İstanbul, 1137, s. 30.

[2] DİN. Kəndlərimiz. İstanbul, 1933, s. 118.

[3] Kaşğaridəki yazır (yazğır) damğası da üç ox bir yaya bənzəyir.

[4] Fuad Köprülü. Osmanlıların etnik mənşəyi məsələləri əsərində (Belleten, № 28, s. 251, haşiyə 1), ox və yayın səlcuqlu xanədanının hüquqi simvolu olduğunu söylədikdən sonra bunların bütün oğuz boylarına şamil bir hakimiyyət timsalı olması ehtimalının da düşünülə biləcəyini qeyd etmişdir.

Osmanlı imperiyasında da sağ qol, sol qol adları verilən bu ikili düzən həm əsgəri, həm də mülki təşkilatda əsaslı bir qayda olaraq tətbiq edilmişdi.

Türklərdə sağ qol, monqollarda isə, əksinə, sol qol daha şərəfli sayılırdı. Boz-oxlar hakim qolu təşkil etmələri etibarilə sağ qol sayılmışdır. Onların hakim qol sayılması siyasi üstünlüyün uzun zaman bu qolun əlində qalması, yabğuların daha çox bu boyun qollarına mənsub olmasından irəli gəlir. Deyildiyinə görə, oğuz yabğuları başlıca olaraq, aşağıdakı boylardan çıxmışlar: kayı yazır, bəydili və eymür[1]. Bunlardan yalnız eymür boyu üç oxlardan idi. Dədə Qorqud dastanlarında isə siyasi üstünlüyün üç-oxlarda olduğu görünür. İslam ölkələrində də boz-oxlar öz varlıqlarını sürdürmüşlər: səlcuqlu xanədanı (kınık), salurlar (salğur), bərçəmoğulları (yıva), ağqoyunlular (bayındır), ramazanoğulları (yürəgir) və Qazı Bürhanəddin (salur) bu qoldan idilər. İndiki məlumatımıza görə, boz-oxlardan da artuqoğullarının (döyər), şumlaoğullarının (əfşar) və Nadir şahın əfşar xanədanının çıxdığı bilinir.

Kaşğari və Rəşidəddinin siyahılarındakı oğuz boylarının adları həmin dövrün tələffüzünə görə yazılmışdır. Fəxrəddin Mübarəkşahın siyahısındakı oğuz boylarının yazılış şəkli Kaşğarininki ilə eynidir[2]. Kaşğari və Rəşidəddinin siyahılarında boyların damğaları da verilmişdir.

Bu, damğalara verilən əhəmiyyəti göstərir. Kaşğari bu damğaların davarlara, ilxılara vurulduğunu söyləyir[3]. Rəşidəddində bu, «damğa» sözü ilə ifadə edilmişdir. Oğuzların damğa mənasında hansı kəlməni işlətdikləri bilinməsə də, bunun Anadoluda işlənən im (en) sözü olduğuna şübhə yoxdur. Bəzi türk xanədanlarının öz boylarının damğalarını ailə gerbi kimi qəbul etdiklərini bilirik. Salğurların pullarında salur damğası olduğu kimi[4], ağqoyunlu pullarında bayındır və Osmanlı sultanı II Muradın bəzi sikkələrində isə kayı damğası var. Ağqoyunlular öz damğalarını yalnız pullarına deyil, yaratdıqları əsərlərinə, rəsmi sənədlərinə, bayraqlarına da vurmuşlar. II Muradın xələflərinin pullarında kayı damğası yoxdursa da, hökmdarlara məxsus şəxsi əşyada, toplar da daxil olmaq üzrə silahlarda da bu damğaya tez-tez rast gəlmək mümkündür. Oğuz boyları damğalarının Anadoluda heyvanlara vurulduğunu, xalı, kilim motivi kimi işləndiyini, xüsusi boyaqla evlərin

---

[1] Üçüncü hissəyə bax.

[2] Fəxrəddin Mübarəkşahın 1206-cı ildə tamamladığı əsərində (Tarixi-Fəxrəddin Mübarəkşah. E.Denisson Ross nəşri. London 1927, s. 47, fotosurət XX) türk qövmlərinə dair bir siyahı var. Bu siyahının bir qisminin kitablardan, bir qisminin də ağızdan alındığı bilinir. Siyahıda oğuz boyları olduqları göstərilmədən 15-16-sının adı yazılmışdır. Onların ən məşhur boylar olduqlarını görürük. Bu boyların adı siyahıdakı sıra ilə belədir: eymür (mətndə: enmur), kınık, peçeneq, ürəgir (mətndə: ürəgən), kayık (kayığ-kayı), salğur (salur), yazğır (yazır), döyər (mətndə: dökər), bayındır, ala-yuntlık, bayat, toturğa, əfşar, bügdüz (mətndə: bükrüz), bəydili, iva? (mətndə: əğba). F.Mübarəkşahın bu oğuz boylarının adını eşidərək yazdığı şübhəsizdir.

[3] Kilisli, I, s. 57; Atalay, I, s. 58; [Ramiz Əskər, I, s. 128].

[4] Köprülü. Həmin əsər, s. 252, haşiyə 1.

divarlarına çəkildiyini, qab-qacağa, göz dəyməməsi və uğur gətirməsi üçün bəzi geyim əşyalarına işləndiyini, hətta məzar daşlarına belə həkk edildiyini bilirik[1]. Bundan başqa, bu damğalardan bəzilərinin də abidələr, binalar və qayalar üzərində müşahidə edildiyini söyləyək[2].

Rəşidəddinin siyahısında damğalarla yanaşı onqonlar da görünür. Bunların hamısı əti yeyilməyən yırtıcı quşlardır. Rəşidəddin[3] onqon (onkun)[4] seçilən heyvan və ya quşun müqəddəs sayıldığını, incidilmədiyini, ətinin yeyilmədiyini bildirir və onqol (onkun) sözünün türk dilində müqəddəslik demək olan oynukdan yarandığını bildirir. Əbdülqədir İnana görə[5], onqon monqolcadır, türkcə qarşılığı tözdür. Bu kəlmələrin hər ikisi bu gün Türkiyədə naməlumdur.

Göründüyü kimi, oğuzların tarixində bir totem dövrü mübahisə mövzusu deyil. Bu səbəbdən bunlar, əgər şübhə etməyə əsla haqqımız yoxsa, çox qədim zamanlarda yaşanmış bir həyatın xatirəsi olmalıdır. Hər dörd boyun bir onqonu olması da bunu göstərir. Onqon kimi göstərilən yırtıcı quşlar şahin, qartal, dovşancıl, sunqur, uç və çakırdır. Bunlardan şahinin türk dilində olduğuna dair heç bir dəlil yoxdur. Qartala gəlincə, Houtsma lüğətində türkmənlərin bu adı ağbabaya[*] verdikləri bildirilir[6].

Qartal indi qaraquşa deyilir və ya onun başqa bir adı kimi işlədilir. Dovşancıl qartala bənzəyən, lakin ondan daha kiçik, qara rəngli bir quşdur. Sunqur isə toğruldan kiçik, lakin doğandan daha böyük bir quşdur[7]. Uça gəlincə, bu quş barədə heç bir məlumata rastlamadım. Yalnız Teymurun sərkərdələrindən Uç Qara Bahadırın[8] adındakı uç kəlməsi hər halda bəhs etdiyimiz quşu ifadə edir. Bu sərkərdənin adına baxaraq təxmin etmək mümkündür ki, uç, yaxud uç-qara, çal-qara, bay-qara növündən bir quş olmalıdır. Çakır da doğan cinsindən bir quş olub şahindən fərqlənir.

Yenə Rəşidəddinin siyahısından anlaşılır ki, qədim zamanlarda bunların ziyafətlərdə yeyəcəkləri qoyun ətinin qisimləri də xüsusi qaydaya salınmışdı. Rəşidəddində bu qisimlərə «əndami-quşt» (ətin bir qismi), Yazıçıoğlunda

---

[1] Damğalar haqqında cənubda türkmən oymaqları əsərinin müəllifi mərhum Əli Rza Yalqının bir araşdırması vardır: Ulu-Dağ çevrəsində türk damğaları. III türk tarix konqresi, Ankara, 1948, s 426-433. Həmin müəllifin Anadoluda türk damğaları (Bursa, 1943) adlı əsəri daha təfsilatlıdır. Bununla bərabər, artıq vaxt itirmədən Türkiyənin hər tərəfində damğalar haqqında yeni araşdırmalar aparılmalıdır.

[2] İ.Kafesoğlu. Axlat və ətrafında 1945-ci ildə aparılan tarixi və arxeoloji tədqiq səyahəti barədə məlumat. Tarix dərgisi, 1, məqalənin sonundakı lövhələr qisminə bax.

[3] Cami ət-təvarix. Berezin nəşri, s, 30.

[4] Cami ət-təvarixin Berezin nəşrində və İstanbul nüsxələrində: onkun.

[5] Tarixdə və bu gün şamanizm. (TTK), Ankara, 1954, s. 42, 44.

[*] Ağbaba qartalın bir növüdür (tərcüməçi).

[6] Faruq Sümər. Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s.365, qeyd 21.

[7] Bu haqda təfsilat üçün həmin yazıya bax, s. 364-365.

[8] Nizaməddin Şami. Zəfərnamə, s. 97.

«sümük» deyilir. Maraqlıdır ki, onqonlar kimi hər dörd boyun da müştərək bir sümüyü vardır. Beləliklə, kayı, bayat, alka-evli, qara-evli boylarının sümüyü, yəni qoyundan yeyəcəkləri qisim «sağ karı yağrın», yəni sağ kürək sümüyü qismidir.

Yazır, döyər, dodurğa və yaparlı boylarınınkı «sağ aşıqlu», yəni aşığın bulunduğu ət parçası (bud), əfşar, kızık, bəydili və karkınların sümüyü «sağ umaca», yəni sağrı sümüyü, bayındır, peçeneq, çavundur və çəpnilərin sümüyü «sol karı yağrın», salur, eymur, ala-yuntlu, yürəgirlərinki ucayla (sol umaca?), iğdır, büğdüz, yıva və kınık boylarınınkı isə (sol?) aşığlıdır. Sümüklərin də hər dörd boy üçün müştərək olması bu ənənənin çox qədim olduğunu və oğuzların 6 boy halında yaşadıqları dövrdən qaldığını göstərir.

Bir boyun məclislərdə və toylarda (ümumi ziyafətlər) oturacağı yer (orun) və yeyəcəyi ət qismi (ülüş) yalnız oğuz elində deyil, digər türk qövmlərində də müəyyən qaydalara salınmışdı. Bu adətlərin əhəmiyyəti ondadır ki, bunlar bir boyun öz eli içindəki siyasi və ictimai hüququnu təyin edən başlıca adətlərdir[1].

Rəşidəddinin siyahısında boylar Oğuz xanın 24 nəvəsindən «törədilmişdir», Kaşğari də 24 oğuz boyunun öz adlarını ulu babalarından aldığını söyləyir və bu 24 ulu babaya Zülqərneynin Türküstan səfəri zamanı necə türkmən adının verildiyinə dair bir hekayə də nəql edir. Onun fikrincə, bu boylar çox qədim zamanlarda meydana gəlmişdir. Həmin müəllif bu boyların oba və oba qolları olduğunu da yazır. Lakin, zənnimizcə, oğuzlardan heç bir boyun obası konkret olaraq məlum deyildir. Ancaq qaraqoyunlu (yıva?) və ağqoyunlu (bayındır) təşəkküllərinin bu obalardan olmasına ehtimal var. Yəməndəki rəsuloğullarının mənsub olduğu biçək və 1230-cu illərdə Şəhrizor-Ərbil arasında fəaliyyət göstərən Sevincin qışlu adlı oymağının da bu obalardan olması mümkündür[2]. XV-XVI əsrlərdə Anadoluda yaşayan ağcaqoyunlu, qarakeçili və b. oymaqlar ilə həmin əsrlərdə Xarəzm türkmənləri arasında görünən təkə, ərsarı kimi təşəkküllər üçün də eyni təxminlərdə bulunmaq mümkündür.

Osmanlı dövlət təşkilatında sağ qol və sol qol olmaq üzrə ikili düzən əsaslı qayda olaraq yerləşmişdi. Bundan əlavə, 24-lü düzənə aid də bəzi misallar vardır. Məsələn, Rumeli əyaləti 24 sancağa ayrılırdı. Diyarbəkir əyaləti də səkkizi yurdluq, beşi ocaqlıq olmaq üzrə 24 sancaq idi[3]. Otluqbeli savaşında (1473) Anadolu bəylərbəyisi Davud paşanın əmrində 24 sancaq

---

[1] Türk qövmlərindəki bu adətlər haqda bax: Əbdülqədir (İnan). Orun və ülüş məsələsi. Türk hüquq və iqtisadi tarix məcmuəsi, İstanbul, 1931, s. 121-133.
[2] Kilisli, I, s. 58; Atalay, I, s. 58-59; [Ramiz Əskər, I, s. 128-129].
[3] Eyn Əli. Qəvanini-ali-Osman. İstanbul, 1280, s. 11; Koçi bəy. Risalə. Əli Kəmali Aksut nəşri. İstanbul, 1939, s. 99, 101.

bəyi vardı[1]. Dədə Qorqud dastanındakı 24 sancaqbəyi sözü[2] gərək ki, buradan alınmışdır. Övliya Çələbiyə görə[3], Kütahya sancağı 24 qazılığa bölünürdü. Rumelidə dövlət xidmətində olan yörüklər 24 nəfərdən ibarət qruplara ayrılmışlar: 24 nəfərdən biri eşkinci, üçü çatal, iyirmisi isə yarmaq sayılmışdır[4]. 1100-cu ildə (1688-1689) Konya mütəsəllimi olan Yeyən Osman paşanın dayısı Qara Həsən bəyin məiyyətində 24 bayraq səkban və saruca bölüyü vardı. Hər bayraq bir bölüyü təmsil edir, hər bölüyün başında bir bölükbaşı dururdu. Qara Həsənin vəzifədən azad edilməsindən sonra bu 24 bayraq səkban və sarucanın başına Yeyən Osman paşanın qardaşı oğlu Əhməd bəy keçmişdir[5].

Osmanlı maliyyə təşkilatında da 24 rəqəmi ilə əlaqədar bəzi misallar göstərmək mümkündür. Yörüklərdən hər hansının qoyunu 24-dən az olsa və ya heç olmazsa, o, qara, yəni yoxsul sayılır, alınan vergi də buna uyğun olaraq hesablanırdı[6]. Bundan başqa, yeniçəri ocağı zabitlərindən piyadabaşıların gündəlik maaşlarının 24 axça olduğunu bilirik[7]. Türk və kürd oymaqları arasında bəzi elatların oğuz boyları kimi, 24 bölük halında təşkilatlandıqları müşahidə edilir.

Mərv bölgəsində yaşayan təkə adlı məşhur türkmən oymağı səyyahların məlumatına görə 24 obaya ayrılırdı[8]. Səfəvi dövründə Qarabağda yaşayan və 24 obadan meydana gələn bir topluluq da öz təşkilat quruluşuna uyğun olaraq «İyirmi dörd» adını daşıyırdı[9]. Şərəf xan bu topluluğun kürd mənşəli olduğunu söyləyir[10]. Yenə onun fikrincə, mənsub olduğu Bitlis dağlarındakı ruzədi adlı kürd boyunun 24 obadan ibarət olub bunlardan 12 obanın Bilbasi, 12 obanın isə Kovalsi adını daşıdığını bildirir[11] ki, hər ikisində oğuz boy təşkilatının təsiri açıqca görünür.

24 rəqəminin ox hazırlanmasında da bir dəyəri olduğu bilinir. Osmanlı oxları 4 dirhəmdən 24 dirhəmə qədər olub yaya nəzərən düzəldilirdi. Bundan başqa, hər ox 4 dərəcəsi boğaz, 7 dərəcəsi göbək, 6 dərəcəsi şalvar, 7 dərəcəsi ayaq olmaq üzrə 24 dərəcəyə (hissəyə) bölünürdü[12].

---

[1] Sadəddin. Tac üt-təvarix, s. 529; Solaqzadə. İstanbul, 1298, s. 240; Münəccimbaşı. Səhayif ül-əxbar, III, s. 387.
[2] O.Ş.Gökyay nəşri, s. 78, 79, 80.
[3] Səyahətnamə. İstanbul, 1935, X, s. 26.
[4] Fateh qanunnaməsi. Qanunlar. İstanbul, 1943, s. 393.
[5] Fındıqlı Məhməd ağa. Silahdar tarixi. İstanbul, 1928, II, s. 412, 416-417.
[6] Qanunnameyi-ali-Osman. TOEM əlavələri, s. 62.
[7] İ.H.Uzunçarşılı. Qapıqulu ocaqları. (TTK), Ankara, 1943, s. 214.
[8] A.Börn. Hindistandan Lahora, Kabilə, Bəlxə və Buxaraya səyahət. Fransızca tərcüməsi, III, s. 198.
[9] İskəndər bəy. Tarixi-alamarayi-Abbasi. Tehran, 1335 ş., 11, s. 1025.
[10] Şərəf xan. Şərəfnamə. Qahirə, 1930, s. 424.
[11] S. 467.
[12] Süleyman Kani İrtəm. Türk kamankeşləri. İstanbul, 1939, s. 29.

Salnaməçi Hammer[1] 24-lü oğuz boy təşkilatının Misir məmlüklərində 24 bəy olaraq davam etdiyini söyləsə də, belə bir hal ancaq XVI əsrin əvvəllərində müşahidə edilir. Həqiqətən, Qansuh ül-Qövri dövründə əsas bəylərin sayı 24 idi[2]. Ancaq daha əvvəlki sultanlar dövründə əsas bəylərin eyni sayda olması şübhəlidir.

Şikarinin «Qaraman oğulları tarixi»ndə 24 vəzir, 24 min əsgər sözünə tez-tez təsadüf olunur[3]. Övliya Çələbidə də bu mahiyyətdə ifadələr görünür[4]. II Murad da Varna səfəri (1444) münasibətilə əsir alınan xristian bəylərindən seçdiyi 24 nəfəri məmlüklərə göndərmişdir[5]. Bütün bu zikr edilən misalların bəziləri bir təsadüf ilə izah oluna bilsə də, bir çoxlarının 24 oğuz boyundan qalan adət və xatirə ilə əlaqədar olduğu şübhəsizdir.

Oğuz boylarına aid bu xüsusları göstərdikdən sonra türk oymaqları haqqında tədqiqat aparanların işini asanlaşdırmaq üçün Kaşğari və Rəşidəddinin oğuz boyları siyahısı ayrılıqda verilir.

Bilindiyi kimi, Yazıçıoğlu Əlinin və Əbülqazinin siyahıları əsas etibarı ilə Rəşidəddindən alınmışdır. Ancaq Yazıçıoğlu Rəşidəddinin mükəmməl bir nüsxəsini gördüyündən və eyni zamanda bu mövzuya vaqif və həvəskar bir türk olduğu üçün onun siyahısı mənbəyə ən yaxın olanıdır.

Bu baxımdan onun siyahısı da olduğu kimi çap edilir.

## I. MAHMUD KAŞĞARİDƏKİ OĞUZ BOYLARI[6]

1.Kınık
2.Kayığ
3. Bayundur
4. İva (yıva)
5.Salğur
6.Əfşar
7.Bəg-tili
8.Bügdüz
9.Bayat
10. Yazğır
11. Eymür
12. Qara-bölük
13. Alka-bölük
14. İğdır

[1] Osmanlı imperiyası tarixi. Türkcəyə çevirən Məhmət Ata. İstanbul, 1329, 1 s. 55.
[2] İ.H.Uzunçarşılı. Osmanlı dövlət təşkilatına giriş. 1941, s. 347.
[3] S. 6, 9, 13, 18, 20, 21, 38, 62, 64, 154, 186.
[4] Səyahətnamə. III, IV, s. 53, 103, 104.
[5] Aşıq Paşazadə. Təvarixi-ali-Osman. İstanbul, 1322, s.133.
[6] Daha əvvəl də göstərdiyimiz kimi, Kaşğari öz siyahısına iki boyu daxil etməmişdir.

15. Ürəgir (yürəgir)
16. Totırka
17. Ula-yuntluğ[1]
18. Tökər
19. Bəçənək
20. Çuvaldar[2]
21. Çəpni
22. Çarukluq[3]

## ANADOLUDA OĞUZ BOYLARINA AİD YER ADLARI

Kitabın sonunda oğuz boylarına aid yer adları cədvəli verilmişdir. Bu cədvəl XVI əsrdə yazılmış müfəssəl təhrir dəftərləri əsasında meydana gətirilmişdir. Həmin dəftərlər Baş nazirlik arxivi ilə tapu və kadastr ümum-müdirliyi arxivindədir. Cədvəlin boylara aid bütün yer adlarını əhatə etməsi üçün əldən gələn heç nə əsirgənməsə də, yenə də onun tam olduğunu iddia etmək qeyri-mümkündür. Çünki dəftərlərdə səmt və mövqe adları təsadüfi verilmişdir. Halbuki onlar arasında da oğuz boylarına aid xeyli yer adının olduğu şübhəsizdir.

## II. RƏŞİDƏDDİNƏ GÖRƏ OĞUZ BOYLARI

| | | Boyun adı | Mənası | Ət qismi | Onqonu |
|---|---|---|---|---|---|
| BOZ-OXLAR | Gün xan oğulları | 1.Qayı | möhkəm | sağ qarı yağrın | şahin |
| | | 2.Bayat | dövlətli və neməti bol | “-----“ | “----“ |
| | | 3.Alkaravlı | haraya varsa, başarı göstərər | “----“ | “----“ |
| | | 4.Qara ivli | qara otaqlı | “----“ | “----“ |
| | Ay xan oğulları | 5.Yazır | çox ölkəyə hakim | aşuqlu | qartal |
| | | 6.Döyər | toplamaq üçün | “-----“ | “-----“ |
| | | 7.Dodurğa | ölkə almaq və xanlıq etmək | “-----“ | “-----“ |
| | | 8.Yaparlı[4] | [1] | “-----“ | “-----“ |

---

[1] Mətndə bu şəkildə olsa da, əslində ala-yundluğdur. Xəta nəticəsində bu şəklə düşdüyünə şübhə yoxdur.

[2] Bunun da əslində çavuldur şəklində olması ehtimal edilir.

[3] «Bunların sayı az, damğası da bəlli deyil» (Kilisli, I, s. 50-58; Atalay, I, s. 55-59; [Ramiz Əskər, I, s 128-129]).

[4] Berezin nəşrində və İstanbul nüsxəsində bu boyun damğası yoxdur.

| | | | | | |
|---|---|---|---|---|---|
| | Yıldız xan oğulları | 9. Avşar | çevik və vəhşi heyvan ovuna həvəsli | sağ umaca | dovşancıl |
| | | 10.Qızıq[2] | qüvvətli, yasaqda ciddi | “-----“ | “-----“ |
| | | 11.Bəgdili | böyüklər kimi əziz | “-----“ | “-----“ |
| | | 12.Qarqın | çox və doyuran aş | “-----“ | “-----“ |
| ÜÇ-OXLAR | Göy xan oğulları | 13.Bayandır | daima nemətlə dolu olan yer | sol qarı yağrın | sunqur |
| | | 14.Beçənə[3] | iyi çalışar, qeyrət göstərər | “-----“ | “-----“ |
| | | 15.Çavuldur | şərəfli, ünü yayqın | “-----“ | “-----“ |
| | | 16.Çəbni | harda yağı görsə, dərhal savaşar | “-----“ | “-----“ |
| | Dağ xan oğulları | 17.Salur | haraya varsa, qılınc və çomağı iş görər | ucayla | uç |
| | | 18.Eymür | son dərəcə iyi, zəngin | “-----“ | “-----“ |
| | | 19.Ala yuntlı | heyvanları iyi | “-----“ | “-----“ |
| | | 20.Ürəgir | daima iyi iş və düzən qurucu | “-----“ | “-----“ |
| | Dəniz xan oğulları | 21.Yigdir[4] | iyilik, böyüklük, igidlik | aşuqlu | çağır |
| | | 22.Bügdüz | hər kəsə təvazö göstərər və xidmət edər | “-----“ | “-----“ |
| | | 23.Yıva | dərəcəsi hamıdan üstün | “-----“ | “-----“ |
| | | 24.Qınıq | harda olsa, əzizdir[5] | “-----“ | “-----“ |

[1] Bu boyun mənası nə Berezin nəşrində, nə də İstanbul nüsxələrində yoxdur. Yazıçıoğlunda da olmaması bunun əsil nüsxədə də olmadığı ehtimalını yaradır.

[2] Berezin və İstanbul nüsxələrində qırıq şəklindədir. Ancaq Yazıçıoğlu siyahısındakı kimi qızıq olacağı şübhəsizdir.

[3] Bəzi İstanbul nüsxələrində biçənə şəklindədir. Anadoluda bu boy Kaşğaridəki beçeneq (peçeneq) şəklində tanınmışdır.

[4] Berezin nəşrində bigdir, İstanbul nüsxələrində yigdir, Türkiyədə isə Kaşğaridə olduğu kimi iğdır şəklində tanınmışdır. Doğrusu da budur.

[5] Cami ət-təvarix. Berezin nəşri, s. 32-38.

## III. YAZIÇIOĞLUNDAKI OĞUZ BOYLARI SİYAHISI[1]

| | | Boyun adı | Mənası | Sümük | Quş |
|---|---|---|---|---|---|
| BOZ-OX QÖVMLƏRİ Kİ SAĞ QOLDURUR | Gün xan oğlanları ki dükəli oğlanların ulusudur | Əvvəl, qayı | yəni möhkəm | sağ qarı yağrın | şahin |
| | | Duvum, bayat | yəni dövlətli və neməti | “-----“ | “----“ |
| | | Sevvum, alka övlı | yəni hər yerə yürürlər | “----“ | “----“ |
| | | Çəharum, qara övli | yəni evləri qara | “----“ | “----“ |
| | Ay xan oğlanları ki II oğuldurur | Əvvəl, yazır | yəni çox vilayət onun ola | aşuqlu umaca | qartal |
| | | Duvum, dögər | yəni yığılmaq üçün bir yerə gələlər | “-----“ | “-----“ |
| | | Sevvum, dodurğa | yəni mülk tutmaq, hökm etmək | “-----“ | “-----“ |
| | | Çəharum, yaparlı | yəni.......[2] | “-----“ | “-----“ |
| | Yıldız xan oğlanları ki III oğuldurur | Əvvəl, avşar | yəni cüst calaq və ava və canavara və quşa həvəsli | sağ umaca və adlu | dovşancıl |
| | | Duvum, qızıq | yəni qüvvətli və yasaqda cidd-cəhd edən | “-----“ | “-----“ |
| | | Sevvum, bəgdili | yəni bəylər sözü əzizdir | “-----“ | “-----“ |
| | | Çəharum, qarqın | yəni ulu aş və doyurucu | “-----“ | “-----“ |
| | Göy xan oğlanları ki IV oğuldurur | Əvvəl, bayandur | yəni həmişə bay və nemətli ol | sol qarı yağrın | sunqur |
| | | Duvum, beçənə | yəni iyi dürüşücü, yaxşı döyüşçü | “-----“ | “-----“ |
| | | Sevvum, çavındır | yəni namuslu və iraq çavlı | “-----“ | “-----“ |
| | | Çəharum, çəbni | yəni harda yağı görsə, dərhal savaşar və çarpar | “-----“ | “-----“ |

[1] Təvarixi-ali-Səlcuq. Topqapı sarayı, Rəvan köşkü ktb., № 1390, s. 21-29.
[2] Rəşidəddinin nüsxələrində olduğu kimi burada da boşluq var.

| | | | | | |
|---|---|---|---|---|---|
| ÜÇ-OX Kİ SOL QOLDURUR | Dağ xan oğlanları ki V oğuldurur | Əvvəl, salur | yəni sal (v)ur, yəni harda ki yetişsən, qılınc və çomağın rəvan olsun | ucayla adlu | uç quş |
| | | Duvum, eymür | yəni hədsiz iyi, bay ol | “-----“ | “-----“ |
| | | Sevvum, ala yundlu | yəni qısraqları ala və iyi atlı | “-----“ | “-----“ |
| | | Çəharum, ürəgir | yəni həmişə iyilik və ehsan edici | “-----“ | “-----“ |
| | Dəniz xan oğlanları ki VI oğuldurur | Əvvəl, iğdır | yəni iyilik, ululuq və bahadurluq | aşuqlu və qıç | çağır |
| | | Duvum, büğdüz | yəni dükəlinə təvazö və xidmət edər | “-----“ | “-----“ |
| | | Sevvum, yıva | yəni mərtəbəsi dükəlindən üstün | “-----“ | “-----“ |
| | | Çəharum, qınıq | yəni dükəlindən hər yerdə bunlar əziz ola | “-----“ | “-----“ |

Təhrir dəftərlərində tez-tez «Oğuz» yer adına rast gəlmək mümkündur. Fərat və Adalar dənizi arasındakı sahədə bulunan bu yer adının (yəni Oğuzun) mühüm bir qisminin şəxs adları olduğu bilinir. Doğrudan da, XV əsrdə və XVI əsrin birinci yarısında oymaqlarda və kəndlilər arasında Oğuzun şəxs adı kimi işləndiyini bilirik. Digər türk qövmlərinin (qıpçaq, karluq, çigil, uyğur kimi) adlarına gəlincə, bunlar nadir hallarda müşahidə edilir. Bu sahədə aparılacaq tədqiqatın çox da sevindirici bir nəticə verməyəcəyini qəti bir şəkildə söyləyə bilərik.

Təhrir dəftərlərindəki oğuz boylarına mənsub oymaqlar 24 boydan 21-nin Anadoluya gəlmiş olduğunu göstərir. Tərtib edilən cədvəl bu xüsusu inamla təsdiq etməklə bərabər, buraya bir boyun adının da (qara-evli) əlavə olunmasının zəruriliyini göstərmişdir. Hətta Çarıklu və Çarıklar adlı kəndlər Kaşğaridəki çarukluğ boyu ilə əlaqədardırsa, 23-cü boyun da Anadoluya gəldiyini söyləmək mümkün olacaq. Kaşğarinin alka-bölük, Rəşidəddinin alkaravlı (şübhəsiz, alka-evli) şəklində xatırlatdığı boya aid hər hansı bir yer adı və ya təşəkkülə rastlamamaq onun Anadoluya gəlməmiş olduğunu ifadə etmir. Çünki bu boy Xəzərarxası türkmənləri arasında da görünmür. Əslində, Xəzərarxası türkmənlərinin meydana gəlməsində birinci dərəcəli rol oynamış salur, çavuldur (çavundur), karkın, iğdır və yazırlardan xüsusilə ilk dördü Anadoluda da öz varlığını qüvvətli şəkildə göstərmişdir. Hətta onlardan

salur, eymür və karkınların Anadolunun məskunlaşmasında birinci dərəcəli və ya ona yaxın bir rol oynadıqlarını söyləmək mümkündür. Yenə Xəzərarxası türkmənlərinin təşəkkülündə fəal iştirak etmiş kayı, bayındır və bəydililərə gəlincə, onlardan kayının Anadolunun fəthində və məskunlaşdırılmasında ən mühüm rol oynadığı tərəddüd edilmədən söylənə bilər. Bayındırın da həmin ölkədəki yerləşmədə fəal iştirakı məlumdur. Bəydili boyu isə cədvəldə xeyli arxada-16-cı yerdə dursa da, həmin əsrdə Anadoluda ona mənsub köçəri və yarıköçəri qələbəlik təşəkküllərin yaşadığını görürük. Xülasə, bir boyun Xəzərarxası türkmənlərinin təşəkkülündə iştirakı onun Anadoluda öz varlığını qüvvətli şəkildə göstərməsinə mane olmur. Anadoluda digər boylara nəzərən daha zəif bir vəziyyətdə görünən peçeneq, yıva, bügdüz, dodurğa, kızık və ala-yundlulara mənsub oymaqlara Xəzərarxası türkmənləri arasında heç rast gəlmirik. Bu da şübhəsizdir ki, qədim zamanlardan bəri oğuz boylarının əhalisi arasında fərqlər vardı.

Cədvəldə ən çox yer adına sahib boy oğuzların ən əsas təşəkkülü olan kayılardır. Həmin əsrdə bu boya mənsub çoxsaylı oymaqlar da yaşayırdı. Kayının ardınca əfşar (avşar) gəlir. Bu boyun da XVI əsrdə Türkiyədə və bu ölkənin türk oymaqları baxımından davamı olan İranda mühüm oymaqlara sahib olduğu barədə sonra söhbət gedəcəkdir. Oğuz rəvayətlərində əfşarların da kayılarla bir vaxtda hökmdar yetirən boylardan biri, olduğu söylənir.

Əfşarlardan sonra səlcuqluların kınık boyu gəlir. Yetirdiyi böyük xanədanın idarəsi altında geniş bir bölgəyə yayıldığı ehtimal edilən kınıklara aid Anadoluda üçüncü yer tutacaq miqdarda yer adına təsadüf olunması təəccüblüdür.

Cədvəldə dördüncü yerdə eymürlər, beşinci yerdə karkınlar durur. Halbuki Mahmud Kaşğari bəzi xüsuslarda digər boylardan fərqləndiklərini və kalaç adını daşıdıqlarını söyləyərək karkını və digər bir boyu öz siyahısına salmamışdı.

Cədvəl üzrə daha sonra bayındır (altıncı yer) və salur (yeddinci yer) gəlir.

Tədqiqatların bu günkü səviyyəsində bütün türk-oğuz tarixində (eyni zamanda Anadolunun fəthi və məskunlaşdırılmasında) mühüm rol oynamış boylardan kayı, kınık, əfşar, bayındır və salurların ən əhəmiyyətli boylar olduqları anlaşılır.

Cədvəldəki yer adları ümumiyyətlə XII-XIV əsrlərdən qalma xatirələrdir. Bunların daha çox rastlandığı Anadolu sahəsi Fəratla Adalar dənizi arasındakı yerdir. Bu sahə səlcuqluların əsil yurdu ilə Danişmənd ölkəsini və uc türkmənləri tərəfindən fəth edilən Qərbi Anadolu və Mərmərə bölgəsini əhatə edir. Boyların hər biri ilə bağlı yer adları bu sahə daxilində səpələnmiş bir şəkildədir. Digər tərəfdən, hər bölgədə boylardan çoxuna aid yer adları kompakt deyil. Bu xüsus boylara mənsub obaların müxtəlif zamanlarda

Anadoluya gəlməsi və buraya gəldikdən sonra siyasi və iqtisadi səbəblər üzündən yenidən parçalanmaya məruz qalması ilə əlaqədardır. Bununla bərabər, bəzi boyların bir bölgədə digərinə nəzərən daha qələbəlik halda yerləşmiş olduğunu cədvələ əsaslanaraq söyləmək mümkündür. İndi bunu göstərək.

Kayı: Sivas (8 yer adı), Kütahya (8), Kenqiri-Çankırı (7), Konya (6), Məntəşə-Muğla bölgəsi (6), Bolu (6), Kastamonu (6), Hamid-İsparta və Burdur bölgəsi (5), Amasya (4), Çorum (4), Ankara (4).

Bayat: Konya (7), Xudavəindigar-Bursa bölgəsi (4), Qara Hisari-Sahib-Afyon (4), Karasi-Balıkesir (4).

Qara-evli: Bolu (4), Kastamonu (2), Sivas-Tokat (2).

Yazır: Hamid (5).

Dodurğa: Bolu (7), Kastamonu (5).

Əfşar: Bolu (17), Kastamonu (9), Konya (9), Kütahya (5), Ankara (4), Qeysəriyyə (4).

Karkın: Sivas (8), Qara Hisari-Sahib (6), Saruxan-Manisa (5), Karasi (4).

Bayındır: Bolu (6), Hamid (5), Xudavərdigar (5).

Peçeneq: Ankara (4).

Çauldur (çavundur): Kastamonu (4), Konya (3), Sivas (3), Ankara (3).

Çəpni: Trabzon (yörə), Kastamonu (6), Bolu (5).

Salur: Sivas (9), Konya (9), Saru-Xan (4), Hamid (3).

Ala-yundulu: Ak-Saray (5), Saru-Xan (3), Sivas (3), Ankara (3).

Eymür: Xudavəndigar (10), Kastomonu (8), Sivas (7), Ankara (5), Kütahya (5), Çorum (4).

Əfşar: Bolu (17), Kastamonu (9), Konya (9), Kütahya (5), Ankara (4).

İğdır: Kastamonu (8), Təkə (6).

Bügdüz: Hamid (4), Kastamonu (3).

Kınık: Adana (yörə), Ankara (9), Kütahya (9), Sivas (8), Konya (5), Kenqiri (5), Qara Hisari-Sahib (5), Malatya (4), Karasi (4).

Oğuz boylarına aid bugünkü yer adlarına gəlincə XVI əsrdən bu yana bütün boyların yer adları azalsa da, bu xüsusda aralarında bəzən böyük nisbətlər müşahidə edilir. Məsələn, XVI əsrdə 29 yer adına sahib ala-yundlu boyunun Daxili İşlər Nazirliyinin «Türkiyədə məskun yerlər qılavuzu» kitabına görə ala-yundlu şəklində bu gün tək bircə yer adı qalmışdır. XVI əsrdəki 44 yürəgir yer adı əvəzinə həmin kitabda 9 və ya 10 («Yürəyil» şəklində) yer adı görünür. Kayı boyu da XVI əsrdəki 94 yer adından üçdə ikisini itirərək 25-ə düşmüşdür. Kınık isə 81 yer adından 35-ni itirmişdir. Əfşara gəlincə, XVI əsrdə bu boya aid 86 yer adı təsbit edilmişdir. Bu gün isə «Əfşar» və «Avşar» şəklində olmaq üzrə həmin kitaba görə 53 yer adı var.

Bu rəqəmlə əfşar indi birinci yerdədir. Ancaq bu yer adlarından bəzilərinin XVI əsrdən sonra yerləşən əfşarlara aid olduğu məlumdur. Bu gün hə-

qiqi oğuz boylarına aid neçə yer adı olduğu bu sahədə aparılacaq əsaslı araşdırmalardan sonra bilinəcək. Aşağıda oğuz boylarını bir-bir araşdırmağa başlamazdan əvvəl diqqəti bir məsələyə cəlb etmək istərdik. O da XV və XVII əsrlərdə Anadoluda, hətta İranda da boylardan bir çoxlarının adlarının (əfşar, bayat, çavundur, salur, eymür, bayındır) Oğuz kimi daha ziyadə türk oymaqları arasında şəxs adı olaraq işləndiyinin müşahidə olunmasıdır. Bunun daha əvvəl də göstərildiyi kimi, Türkiyədə oğuzçuluq cərəyanı ilə əlaqədar olduğu aşkardır. Bu hal bizi tarixi həyatını izləyə bilmədiyimiz çox az əhalisi olan və oğuz boy adını daşıyan bir oymağın eyni adlı boydan olduğu barədə şübhəyə salır. Məsələn, XIII əsrin ikinci yarısının əvvəllərində Antalya-Dənizli tərəfindəki hüdud bəylərindən Salur bəy kimi[1]. Oğuz boy adını daşıyan bir şəxsin adını daşıdığı boya mənsub olduğuna dair mütləq hökm vermək doğru deyil, çünki belə bir şəxs o boydan olmaya bilər (necə ki, Bayındır adlı kürd bəyləri var). Daha çox Boz-ulus və Hələb türkmənləri kimi icmalarda oğuz boyuna mənsub bir oymaqda başqa bir oğuz boyunun adını daşıyan şəxslər olmuşdur. Məsələn, Boz-ulus və Yeni-eldəki əfşar oymaqları arasında Bayat, Salur adlı adamlar, çavundur oymağı arasında isə Bayat adlı şəxslər var. Eyni zamanda bunun tədqiqatları çətinləşdirə biləcək dərəcədə yayğın bir ənənə olmadığını da söyləyək. Mütəxəssis olmayanlara xatırlatmaq istədiyimiz bir xüsus da Osmanlı dövründə Anadoludakı kənd və şəhərlərdə yaşayan oturaq türk xalqının və oğuz boy adını daşımayan türk oymaqlarının da bəhs ediləcək bu 24 oğuz boyuna mənsub olduqları, onlardan çıxdıqlarıdır.

Bizim Osmanlı dövründə görəcəyimiz oğuz boy adlarını daşıyan təşəkküllər ancaq böyük və qədim oğuz boylarının adlarını hələ dəyişdirməmiş və ya yerləşməmiş qalıqlarından başqa bir şey deyildir.

Nəhayət, hər hansı bir oymağın yerləşdiyi bir yerə öz adını verməsinin də bir qayda olmadığını bildirmək istəyirik. Elatlar halında yörələrə yerləşmiş oğuz boylarına mənsub böyük təşəkküllərin belə yerləşdikləri yerlərdə öz adları ilə bağlı xatirə qoymamış olduqları da görünmüşdür[2].

---

[1] Kərimədddin Mahmud. Müsamərət ül-əxbar, s. 71.

[2] Şərəf xan. Şərəfnamə, I, 133, 250, 290. I Təhmasib dövründə talışlardan Bayandır xan adlı bir əmir vardı (Həsən bəy Rumlu. Əhsən üt-təvarix. Baroda, 1931, s. 438). Yenə həmin hökmdarın dövründə Əfşar ağa adlı bir saray əyanı olmuşdur ki, (həmin müəllif, s. 476) onun əfşarlardan olduğuna dair heç bir dəlil yoxdur Qaraman oğlu İbrahim bəyin Bayındır bəy adlı bir əmiri vardı. İbrahim bəy ona İlğını vermişdir (Şikari, s. 185).

## 1. KAYI

Kayı boyu, göründüyü kimi, Rəşidəddinin siyahısında birinci yerdə durur.

Bu siyahı oğuz boylarının islamiyyətdən əvvəlki dövrdəki siyasi və ictimai mövqeləri əsas tutularaq tərtib edildiyindən kayıların siyahıda birinci olması onların bu baxımlardan (siyasi və ictimai mövqe etibarilə) oğuzların ən mühüm və əsil boyu sayıldığını göstərir. Kayılar oğuz hökmdarları yetirən beş boyun başında zikr olunduğu kimi, yenə Rəşidəddinin «Oğuzların tarixi» fəslində bir oğuz yabğu sülaləsinin də bu boya mənsub olduğu göstərilir[1]. Şübhəsiz, kayılar oğuzların ən qədim, ən köklü və ən şərəfli boylarından biri idi.

Yenə həmin fəsildə yazıldığı kimi[2] müsəlman oğuz hökmdarı Əli xan dövründə Amunun (ehtimal ki, Ceyhunun) sol sahilində yaşayan və döyüşə 40.000 atlı çıxaran oğuzların başçısı kayıdan Qorqud bəy idi. Elə o fəsildə səlcuqlu ailəsinin Qorqud bəyin rəislik etdiyi bu oğuz elatından çıxdığı söylənir. Ancaq əsərlərdə bu boydan heç bəhs edilmir. Əvəzində XVI əsrdə yazılmış osmanlı təhrir dəftərlərində kayılara aid çoxlu yer adına və təşəkküllərə rastlanılır. Bir qədər əvvəl yazdığımız kimi, oğuz boylarına aid yer adlarını ehtiva edən XVI əsr dəftərləri üzərində apardığımız araşdırmaya görə tərtib olunan siyahıda bu boy 94 yer adı ilə birinci yeri tutur[3]. Şəbin Qarahisar və Kemaxdan başlayan bu kayı yer adları Muğla və Manisaya qədər yayılmışdır.

Kayı adlı oymaqlara gəlincə, kayılar bu xüsusda da ən çox təşəkküllərə sahib olan iki boydan (digəri əfşardır) biridir. Yer adlarında olduğu kimi oymaqlar xüsusunda da kayı ilə əfşar bir-biri ilə tən gəlirlər. Bu kayı oymaqları əfşar, bayat və digər bir çox boyun əksinə olaraq yörüklər arasında, yəni Anadolunun orta və qərb tərəflərində yaşayırdılar. İndi onları yaşadıqları bölgələrə görə tədqiq edək:

**1. Atçəkən.** Konya bölgəsindəki kayı oymağı atçəkən icmasına mənsub olub Larəndə (indiki Qaraman) qəsəbəsinin şimal və şərq tərəflərindəki torpaqları əhatə edən Bayburt qəzasında yaşayırdı. Bu oymağın II Bəyazid dövründə 260 evi, 343 nəfər vergi verən əhalisi, I Səlim zamanında isə 475 evi, 680 nəfər vergi verən əhalisi vardı. Digər tərəfdən, bu kayı oymağının bütün əhalisi sipahi uşaqları idi. Bəhs edilən dövrdə oymağın əlindəki əkinliklər, yəni becərdikləri yerlər (məzrə) bunlar idi: Yastı Üyük, Ərəncə, Arslanlu-Virani, İnlu-Virani, Bəstanlu, Günü, Qaraca Qaya, Kınık, Gəncək adlı əkinliklər. Axsaqlu oymağı isə qədim zamanlardan bəri yaşadıqları yurdları

[1] Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 371-376.
[2] Həmin əsər, s. 378.
[3] Cədvələ bax.

idi. Konya kayılarının 1547-ci ildə Kapanlar, Göy göy, İbrahim, Divanələr, Gəbəçilər və (bəlkə də) Kayı Hüyüyü adlı kəndlərdə yerləşdikləri bilinir[1]. Bu kayı oymağının yaşadığı zamanda Konya bölgəsində Kayı adlı 6 kənd vardı[2].

**2. Ankara.** Göründüyü kimi, Ankara sancağında Kayı adlı 4 yer adı olmasına baxmayaraq[3], əhalisi sıx bir kayı oymağı yoxdur. Bu adda Ankara yörükləri arasında çox kiçik bir oymaq vardı ki, o da Kayıcıq adlı bir kənddə yaşayırdı[4]. Bu Kayıcıq kəndi Ankara ilə Ayaş arasındakı Mürtəzaabad qəzasına bağlı Kayıcıq kəndi olmalıdır. XVI əsrdəki bu kiçik kayı təşəkkülünün qədim və olduqca böyük bir kayı oymağının qalığı olması ehtimalı var.

**3. Hamid (İsparta).** XVI əsrdə bir kayı olmağı da Hamid sancağının Əyridir qəzasında yaşayırdı. Bu oymağın Qanuni dövründə vergi verən 118 nəfər əhalisi vardı[5]. Həmin sancaqda Kayı adlı 5 kənd də görünür[6].

**4. Dənizli.** XVI əsrdə ən böyük kayı oymağı Dənizlinin quzeyində yaşayırdı. Qaş-Yenicəsi, Aydos və şeyxlu qəzalarında yaşayan bu kayı oymağı Qanuni dövründə 35 kənddə yurd salmışdı. Bu oymağın vergi verən evli əhalisinin 1123, subay əhalisinin 223 olduğu və hər il dövlətə 42.000 axça verdiyi məlumdur. Bu kayı təşəkkülünun yaşadığı kəndlərdən heç biri Kayı adını daşımırdı[7]. 978-ci il (1570/1571) tarixli bir hökmdə bu kayı yörüklərinin vergilərinin yığılmasına qazıların müdaxilə etmələri əmr olunur[8].

**5. Məntəşə.** İkinci qələbəlik bir kayı təşəkkülü də bu sancaqda yaşayırdı. O, adı çəkilən sancağın, Göyciyəz-Ayasuluğ (Səlcuqlu) arasındakı kəndlərdə otururdu. Yavuz Səlim dövründə tir (ox) adı ilə 14 qola ayrılan Məntəşə kayılarının vergi verən 892 evi vardı. 1553-cü ildə belə evlərin sayı 1034 olaraq hesablanmışdı[9]. Onların yaşadıqları kəndlərdən heç biri Kayı adlanmır. Lakin həmin dövrdə, həmin bölgədə 6 kəndin Kayı adını daşıdığı[10] bilinir ki, onlardan heç biri indi o adla adlanmır.

Məntəşə kayıları gərək ki, bilavasitə Dənizli kayılarının bir parçasıdır. Onların da İbn Səidin (XIII əsrin ikinci yarısı) əhalisini təqribən 200.000 çadır olaraq göstərdiyi Dənizli uc (hüdud) türkmənlərinin qalıqları olması

---

[1] Faruq Dəmirtaş (Sümər). Osmanlı dövründə Anadoluda kayılar. Belleten, № 47, s. 576-578, 598, 604-606.
[2] Cədvələ bax.
[3] Cədvələ bax.
[4] Faruq Dəmirtaş. Həmin məqalə, s. 578, 580, 606.
[5] Faruq Dəmirtaş. Həmin məqalə, s. 613-614.
[6] Cədvələ bax.
[7] Faruq Dəmirtaş. Həmin məqalə, s. 598-599, 612-613. Yenə onun: Kayı maddəsi. İslam Ensiklopediyası, VI, s. 461.
[8] Mühimmə dəftəri, XVI, s. 80.
[9] Faruq Dəmirtaş. Həmin məqalə, s. 580-581, 609-610.
[10] Cədvələ bax.

ehtimalı çoxdur. Məntəşə bölgəsində kayılarla birlikdə Qızıl keçili və Xorzum adlı oymaqların da yaşadığı görünür ki, bunlardan axırıncı ad Xarəzmdən gəlir[1].

**6. Saru-xan.** Bu sancaqda hər hansı bir kayı oymağının varlığına dair təhrir dəftərlərində heç bir qeydə rast gəlmirik. Ancaq XVI əsrin ortalarına aid bir sənəddən bu adda bir oymağın Çoban oymağı ilə Qaraman Qayası deyilən yerdə yaşadıqları anlaşılır[2].

**7. Qarahisar (Afyon).** Yenə başqa bir sənəddən bu boya mənsub bir oymağın da Qara Hisar sancağının Sandıqlı qəzasında yaşadığı bilinir. 967-ci il (1559/1560) tarixli bir sənəddə Sandıqlıya bağlı kayı oymağının həmin qəza daxilindəki bir kənd camaatı ilə Qaplan Alanı adlı bir yaylaq üstündə çəkişdiyindən bəhs edilir[3]. Bu oymağa da təhrif dəftərlərində rast gəlmədik.

**8. Sis (Kozan).** Anadoludakı sonuncu kayı təşəkkülü Sis (Kozan) sancağı oymaqları arasında görünür. 29 evdən (xanə) ibarət olan bu kiçik kayı oymağı Kutlu bəy-Hacılu adlı bir təşəkkülə tabedir. Dəftərlərdə bu təşəkkül həmin sancaqdakı əfşar, kacurqalı, ayru damlu, savcı-haculu adlı böyük təşəkküllər kimi tayfa gəlməsi ilə adlandırılsa da, əhalisi çox az, yəni vergi verən 42 evlidir[4]. Bununla birlikdə, bu tayfanın savcı-hacıluların bir qolu olması mümkündür. Beləliklə, XVI əsrdəki kayılar haqqındakı məlumat bundan ibarətdir.

Yuxarıda araşdırmalarımızın bir nəticəsi olaraq kayıların XVI əsrdə Anadoluda ən çox yer adına və hətta oymaqlara sahib bir boy olduğunu söyləmişdik. Bunlar oğuzların islamiyyətdən əvvəlki tarixlərində mühüm bir mövqeyi olan bu köklü təşəkkülün eyni zamanda Anadolunun fəthində və məskunlaşdırılmasında ən böyük rolu oynamış bir boy və ya bir neçə boydan biri olduğunu göstərməkdədir.

XVI əsrdə Anadoludakı bu 94 kayı yer adından Daxili İşlər Nazirliyinin «Türkiyədə məskun yerlər qılavuzu» adlı kitabında ancaq 25-i var[5]. Kayı adlı bu kəndlərdən biri də Təkirdağdadır.

**9. Xəzərarxası türkmənləri.** Kayılardan bir qol qərbə köçməmiş, Xəzərarxası türkmənlərinin arasında qalmışdı. Əbülqazi və digər qaynaqların bu kayılardan heç bəhs etməmələri ehtimal ki, onların əhali baxımından çox qələbəlik olmamaları ilə əlaqədardır. Bu kayılar iki kiçik bölük halında

[1] M.F.Köprülü. Osmanlıların etnik mənşəyi məsələləri, s. 282, Yenə onun: Xarəzmşahlar. İ.E., V, s. 292.
[2] Ç.Uluçay. Saruxan oğulları və əsərlərinə dair vəsiqələr. İstanbul, 1940, s. 41-42.
[3] Əhməd Rəfiq. Anadoluda türk əşirətləri. İstanbul, 1930, s. 30.
[4] Faruq Dəmirtaş. Həmin məqalə, s. 600, 614.
[5] S. 653.

ancaq XIX əsr Avropa səyyahları siyahılarında görünür. Həmin bölüklərdən biri qay adı ilə Əlieli içindədir[1].

*Kayı-Osmanlı münasibətləri*

İlk Osmanlı salnaməçisi Əhmədi Osman bəyin babası Ərtoğrul bəyin yoldaşlarını oğuz adlandırır. O zaman oğuz adının əvvəllər olduğu kimi türkmən mənasında işlədildiyinə dair heç bir məlumatımız yoxdur. XIII əsrdən etibarən xristianlar Anadoluya Türkiyə və Türküstan, türklərə qədimlərdə olduğu kimi türk deyir, müsəlmanlar isə türkmən adlandırırdılar. Türkiyə türkləri isə özlərini yüksək qiymətləndirdikləri və şərəfli bir el saydıqları oğuzların nəvəsi hesab edirdilər.

Onların türkmən adını uzun müddət mənimsəmədikləri görünür. Ərtoğrul bir türkmən oymağının bəyi idi. Bu oymağın Söyüt yörəsinə bəzi osmanlı mənbələrində deyildiyi kimi, Ankaranın təqribən 100 km cənubundakı Qaraca dağdan gəldiyi qəbul edilir. Bu gəlişin monqol təzyiqi ilə bağlı olması mümkündür. Eyni zamanda Osman bəyin babalarının başçılıq etdiyi oymağın Xorasandan Anadoluya monqol istilası səbəbilə gəldiyi barədə rəvayəti də rədd etmək üçün qüvvətli dəlillərimiz yoxdur. Osmanlı xanədanın kayı boyundan olduğunu söyləyən ilk müəllif əsərini II Murad dövründə yazmış Yazıçıoğlu Əlidir. Ancaq biz Yazıçıoğlunu tərcümə etdiyi əsərlərə qövmi duyğuların təsiri altında əlavələr edən və onlarda təhriflərə yol verən müəllif kimi tanıyırıq. Kayı boyu isə, məlum olduğu üzrə, oğuz elinin ən nəcabətli, ən şərəfli boyu idi. Bu səbəbdən Osmanlı xanədanı ilə kayı boyu arasında qəbiləvi münasibət bizə olduqca şübhəli görünməklə birlikdə, bu qohumluğun mümkünlüyünə də inanırıq[2].

Doğrudur, Yazıçıoğlu Osman bəyin dilindən

Osman, Ərtoğrul oğlusan,
Oğuz, Qara xan nəslisən,
Haqqın bir kəmtər qulusan,
İstanbulu al, gülzar et –

mənzuməsini desə də xanədan üzvləri arasında oğuzlara və kayı boyuna mənsub sayılmağa ancaq II Muradın (1421-1451) əhəmiyyət verdiyi məlumdur. İndiki məlumatımıza görə, kayı damğası ilk və son dəfə olaraq onun bəzi pullarına həkk edilmiş, xələfləri zamanında isə bir müddət silahlara

[1] A.Börn. Həmin əsər, III s. 199; Vamberi. Həmin əsər, s. 306; F.Köprülü. Osmanlı imperiyasının etnik mənşəyi məsələləri, s. 282.
[2] Bax: Paul Vittek. Osmanlı imperiyasının yüksəlişi. London, 1958. s. 11; F.Köprülü. Həmin əsər, s. 284-303; F.Sümər. Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 451-455.

vurulmuşdur. Ancaq xanədanın mənsub olduğunu iddia etdiyi kayı boyunun Türkiyədə hələ köçərilik həyatını və qəbilə ənənələrini davam etdirən boydaşlarına yaxın bir əlaqədə olduğuna və onlara qarşı imtiyazlı bir münasibətdə bulunduğuna dair heç bir sübut-dəlil yoxdur.

Hətta Türkiyənin fəthində və məskunlaşdırılmasında birinci dərəcəli rol oynadığını gördüyümüz bu boy XV və XVI əsrlərdə digər oymaqlar kimi vergi məmurları, sipahi və başqaları tərəfindən təzyiqə məruz qalmışdır. XV və XVI əsrlərdə özünü nəzəri baxımdan da olsa oğuz elindən və kayı boyundan sayan xanədanın daha sonra bunu unutduğunu görürük.

Başlanğıcını qəti bir şəkildə təsbit edə bilmədiyimiz bir zamandan bəri Əskişəhir bölgəsində yaşayan qarakeçili oymağı hər il Ərtoğrul bəyin Söyütdəki türbəsini ziyarət edir və ziyarət zamanı orada şənliklər keçirirdi. Qövmi şüura sahib olan II Əbdülhəmid qarakeçililərin bu ziyarətinə rəsmi bir mahiyyət verdirdi, öz oymağı saydığı qarakeçili gənclərindən ibarət bir alay yaradaraq onu Ərtoğrul alayı adlandırdı. Bundan başqa, ya onun dövründə, ya da bir qədər sonra «Ərtoğlunun ocağında oyandım, şəhidlərin qanlarına boyandım» beyti ilə başlayan bir marş da bəstələndi. Əbdülhəmid qarakeçili oymağına mənsub olanları alman imperatoruna öz əqrəbaları kimi təqdim etmişdi. Söyləmək mümkündür ki, əsrlərdən bəri ilk dəfə olaraq bir osmanlı hökmdarı əsrlərlə yalqız və köməksiz buraxılmış millətinə qarşı mənən hərir bir sevgi duymuşdur.

## 2. BAYAT (BAYAD)

Bayatlar, bilindiyi kimi, tariximizdə mənəvi şəxsiyyətlər yetirmiş bir boydur. Oğuzların dövlət və din adamı Dədə Qorqud, məşhur şair Füzuli bu boya mənsub idi. Cəm Sultan üçün Osmanlı xanədanının Oğuz xana qədər gedib çıxan əfsanəvi ataları haqqında «Cami-Cəm-ayin» adlı bir kitab yazan Mahmud oğlu Həsənin də bu boydan olduğunu bilirik.

Səlcuqlular dövründəki oğuz boyları haqqında çox az məlumatımız var. Bu dövrün qaynaqları da ancaq bir neçə oğuz boyundan bəhs edilir. Bu arada səlcuqlu əmirlərindən Ak-Sunqur ul-Buxarinin 513-cü ildə (1119) Bəsrədəki naibi Sunqurun əl-Bayati nisbəsini daşıdığını bilirik[1]. Ancaq bu nisbəyə əlavə olaraq ət-Türkmani nisbəsinin olmaması bizi nisbənin bayat boyuna aidiyyəti barədə tərəddüdə salır.

Digər tərəfdən, Bağdadın cənub-şərqində Tib çayının mənbəsinə yaxın bir yerdə olan İranın Luristan əyalətindəki Bayat qalasının daşıdığı adın o zamanlar mövcud olmadığı anlaşılır. Həmdullah Qəzvini[2] bu qalanın adını XV əsrin sonlarında baş verən hadisələr münasibətilə çəkir. O zaman qala-

[1] İbn ül-Əsir, X, s. 236-237.
[2] Tarixi-güzidə, s. 533, ondan nəqlən: Şərəf xan. Şərəfnamə, s. 60.

nın hakimi bir türk idi. Həmin dövrdə adı çəkilən bölgə ilə Xuzistanın əfşarların əlində olduğunu bilirik. Bu izahlar bizə ehtimal verir ki, bu qala öz adını bayat boyundan almışdır. Anadoluya gəlincə, XVI əsr təhrir dəftərlərində bayatlara aid 42 yer adı var. Onların hamısı digər boylar kimi Anadolunun orta və qərb bölgələrindədir[1]. Bayat yer adlarının çoxu bu bu gün də durur[2]. Bu yer adları bayatların Anadolunun fəthində iştirak etdiklərini göstərir. Bundan başqa, XIV əsrdən bəri Şimali Suriyadakı türkmənlər arasında çox böyük bir bayat elatının yaşadığını bilirik. Digər tərəfdən, XVI əsrdə Qərbi və Cənubi-Qərbi Anadoluda bayat adlı bəzi kiçik, hələ yerləşməmiş oymaqlar da görürük.

Daha əvvəl də dediyimiz kimi, XIV əsrdə Şimali Suriyada yaşayan böyük türkmən icmasının boz-ox qolunu əsas üç boy, yəni bayat, əfşar və bəydili boyları təşkil edirdi. Həmin əsrdən etibarən haqqında bəhs edilməyə başlanan dulqədiroğulları, inaloğulları, köpəkoğulları, gündüzlülər, qutbəyioğulları, bozcaoğulları kimi ailələrin bu üç və ya iki (bayat, əfşar) boydan çıxdıqları bilinir. Bu ailələrin ən böyüyü olan dulqədiroğullarının xidmətində həmişə bayatları görürük.

Bu hal boz-oxlardan olduğu dəqiq bilinən bu xanədanın həmin boya mənsubiyyətini yada salır. Boz-oxlardan olan inaloğullarının bəydiliyə deyilsə, bu boya mənsub olduğu şübhəsizdir. Bayatlardan olduqları dəqiq bilinən ailə isə bozcaoğullarıdır. 801-ci ildə (1399) Sultan Berkuk öldükdə onun yerinə oğlu Fərəc keçmişdi. Fərəc igid bir gənc olsa da, siyasi zəkadan məhrum bir hökmdar idi. Buna görə də onun hökmdarlıq dövrü xüsusilə Şam valisi Şeyx ül-Mahmudi, Çəkim və Novruz kimi əmirlərə qarşı mübarizədə keçmişdi. 807-ci ildə (1404/1405) Hələb valisi Dəmirtaş Antakya hakimi türkmən Doğançı oğlu Farisin üzərinə yürüş etdiyi zaman müttəfiqləri Ramazan oğlu Əhməd bəy ilə dulqədirli ailəsindən Xəlil bəy oğlu Əlaəddin Əli bəy idi. Bayatlar və inallılar Əlaəddin Əli bəyin əmrində idilər, asi əmirlərdən Çəkim qaçıb Doğançı oğlunun yanına sığınmışdı.

Dəmirtaş müttəfiqləri Əhməd və Əli bəylər sayəsində vuruşmada qalib gəldi[3]. Sultan Fərəc ertəsi ilə Çəkimi Hələb valisi təyin etmişdi. Bir neçə ildən bəri sultan olmaq fikrinə düşən Çəkim 809-cu ildə (1406) özünü əl-Məlik əl-Adil (ədalətli sultan-tərcüməçi) adı ilə sultan elan etdi və Fəratdan Qəzzəyə qədər olan ərazidə öz adına xütbə oxutdu. Çəkim türkmənləri təhlükəli ünsür sayaraq onlara qarşı hərəkətə keçdi. Nəticədə əfşar, bayat və inallıların mühüm bir qismi ağqoyunlu bəyi Qara Yölük Osmana sığınmaq

---

[1] Cədvələ bax.
[2] Köylərimiz, s. 92, 764.
[3] Məkrizi. Kitab üs-süluk. Fateh kitabxanası, № 4387, 168 a.

məcburiyyətində qaldı[1]. Ancaq Çəkimin həmin il Qara Yölük ilə vuruşmada öldürülməsindən sonra təkrar Hələb ətrafındakı yurdlarına qayıtdılar.

811-ci ildə (1409) asi əmirlərdən Novruz ilə döyüşərək, onu məğlub edən Hələb valisi Dəmirtaşın yanındakı türkmənlər arasında bayatlar da vardı. Həmin ilin son ayında isə Fərəc tərəfindən bağışlanan Novruz ilə şeyx arasında Asi çayının sahilində baş verən vuruşmada bayatların əfşarla birlikdə Novruzun ordusunda olduqları məlumdur. Döyüş zamanı bayatların başçısı Bozca bəy çaya düşərək boğulmuşdu[2]. Bu hadisədən sonra bayatların başında duran ailə bu bəyə izafətlə bozcaoğulları, bozcalu adlanmışdır.

814-cü ildə (1411-1412) Fərəc tərəfindən bağışlanan Şeyx Hələb valisi təyin olunmuşdu. Həmin ilin cəmadiyül-axır ayında Amikə gələn Şeyx burada bayatları, türkmən Saqqalsızoğlunu, Doğanın oğlunu məiyyətinə alıb, Gündüz oğlu Ömər bəyin üzərinə yürüyərək, onu məğlub etdi[3]. Ertəsi il Fərəc öldürüldükdən sonra Şeyx sultan oldu. Şeyxin sultan olması ilə daxili çəkişmələr başa çatdı və məmlük dövləti əvvəlki qüdrətini bərpa etdi.

821-ci ildə (1418) qaraqoyunlu hökmdarı Qara Yusif ağqoyunlu bəyi Qara Yölük Osmanı qovaraq, Hələbin şimalına qədər gəldiyi üçün orada yaşayan inallılar, bayatlar və əfşarlar Trablis yörəsindən Safitəyə qaçdılar. Bunun səbəbi isə onların Qara Yölük Osman bəyin Qara Yusifə məxsus Mardin yörəsində apardığı dağıntıda və yağmaçılıqda iştirak etmələri idi. Bayatlar, əfşarlar və inallılar Safitədə qarışıqlıqlar törətdilər. Trablis valisi Baybars əd-Dokmaki onlara Qara Yusifin artıq geri qayıtdığını söyləyərək öz yurdlarına dönmələrini xahiş etdi. Türkmənlər bunu qəbul etdilər. Ancaq Baybars köçüb getməzdən əvvəl onların mal-qaralarını ələ keçirmək üçün hücum etdi. Şaban ayının 16-da baş verən şiddətli vuruşmada Baybars məğlub oldu. Atabəy Sudun əl-Əsən Dəmiri ilə 13 məmlük əsgəri vuruşmada öldü. Pərişan bir halda geri dönən Baybars Trablis valiliyindən çıxarılaraq səlibçilərdən qalan Mərkəb qalasında həbs olundu. O, il yarım həbsdə yatdıqdan sonra bağışlandı və Dəməşqdə ona yüz əsgər əmirliyi verildi[4]. Bu, əmir Tatardan sonra sultan olan məşhur Məlik ül-Əşrəf Baybarsdır (1422-1438).

Bayatlar sonralar əfşarlarla birlikdə ağqoyunlu hərəkatlarında iştirak etmişlər. 1457-ci ildə dulqədirli xanədanından Qara bəy, bayat bəylərindən Nəsir Hüseyn bəy və Əbdi ilə birlikdə Uzun Həsən bəyin yanında xidmətə girdilər. Onlar buyruqlarındakı 800 evlik türkmənlə Amid yaxınlığındakı

---

[1] Əbubəkr Tihrani. Kitabi-Diyarbəkiriyyə. Ankara, 1962, 1, s. 60.

[2] Məkrizi, 312 a-313; Eyni. İqd ül-cüman. Vəliyüddin Əfəndi kitabxanası, № 2396, s. 249-294. Bu müəllif Bozca bəyi ibn Bozca adlandırır.

[3] Məkrizi, 368 b.

[44] Məkrizi № 4389, 201 a-b; ondan nəqlən İbn Tağrı-birdi. Ən-nücum üz-zahirə. V.Popper nəşri, 1915, VI. s. 389, 557-558; Yenə onun: Əl-mənhəl üs-safi. Nurosmaniyə kitabxanası, № 3428, 167 a.

Qaraca dağda yurd salmışdılar. Bu bəylər qaraqoyunlu hökmdarı Cahan şahın Tərxan oğlu Rüstəmin komandanlığında Uzun Həsən bəyin üzərinə göndərdiyi ordunun Amidə yaxınlaşdığını eşitcək qorxudan Suriyaya getmək üçün yerlərindən köçdülər. Uzun Həsən onları təskin edərək geri qaytarmaq üçün oğulları Xəlili və Uğurlu Məhəmmədi, mosullu Əmir bəyi göndərsə də, türkmənlər öz qərarlarından vaz keçmədilər. Belə olduqda, şahzadələr onlardan bəzilərinin davarlarını yağmaladılar[1]. Bununla bərabər, Həsən bəylə Tərxan oğlu Rüstəm arasında Amid yaxınlığında, baş verən və ağqoyunluların parlaq zəfəri ilə nəticələnən vuruşmada əfşarla yanaşı bayatların da iştirak etdiyini bilirik[2].

Teymurun Yozqatdakı və ona qonşu bölgələrdəki qara tatarların mühüm bir qismini Türküstana aparmasından sonra Şimali Suriyadakı bu bayatların bir bölüyü də dulqədirli oymaqları ilə birlikdə Boz-oxda yurd saldı. Bayatların bu qolu şam bayata adı ilə tanınmışdır. Bundan başqa, XVI əsrdə İranda səfəvilərin xidmətində böyük bir bayat qolunun yaşadığı bilinir ki, zənnimizcə, onlar Şimali Suriyadakı bayatlardandır. Birinci hissədə müxtəlif yerlərdə söylədiyimiz kimi, ağqoyunluların nailiyyətləri və onun ardınca Səfəvi dövlətinin qurulması Şimali Suriyadakı türkmənlərə böyük təsir göstərmiş, onlardan bir çoxlarının bu dövlətlərin xidmətinə girmələrinə səbəb olmuşdur.

875-ci ildə (1471) Dulqədir oğlu Şahsuvar bəylə döyüşmək üçün Hələbdə olan məmlük sərkərdəsi Yeşbəyin hüzuruna gedən bəylər arasında Bozca oğlu Xəlil bəy də vardı[3]. Osmanlı fütuhatının ilk illərində bayatların başçısı olan Bozca oğlu Xəlil bəyin aradakı zaman fərqi dolayısı ilə həmin şəxs olduğu barədə qəti bir şey söyləmək mümkün deyil. Adı çəkilən Bozca oğlu Xəlil bəyin müasiri və həmin ailənin övladı Susa bəyi və Sevindik bəyi də tanıyırıq ki, onlar da Dulqədir oğlu Şahsuvarın müttəfiqləri idilər[4]. Digər tərəfdən biz Bozca ailəsindən bəzi bəylərin də Uzun Həsənin xidmətində olduqlarını bilirik[5]. Səfəvi dövründə İranda yaşayan bozcalılar, gərək ki, onların nəvələridirlər.

### *Hələb türkmənləri bayatı*

926-cı ildə (1520) keçmiş dulqədir bəyi Əlaüddövlənin qardaşı Əbdürrəzzaqın bayatları və kürdləri başına yığaraq, dulqədir hakimi şahsuvar oğlu Əli bəylə mübarizəyə girişdiyi, hətta Əli bəyin öldürüldüyü, Maraş və Əlbistanın Əbdürrəzzaqın əlinə keçdiyi barədə Qahirədə şaiyələr dolaşmağa

[1] Əbubəkr Tihrani. Həmin əsər, s. 254, 265.
[2] Həmin əsər, s. 273.
[3] Tarixi-Yeşbəy. Topqapı sarayı. III Əhməd kitabxanası, № 3057, 121 b.
[4] B.S.Baykal. Uzun Həsənin Osmanlılara qarşı qəti mübarizəyə hazırlaşması və Osmanlı-ağqoyunlu hərbinin başlaması. Belleten, № 12, sənəd, II, s. 280.
[5] Həmin yazı, I, s. 276.

başlasa da, bunu təsdiq edən bir məlumat alınmamışdı[1]. Həmin dövrdə yazılmış Hələb sancağı təhrir dəftərində bayatlar Hələb türkmənlərinin üçüncü boyu (tayfa) kimi xatırlanaraq 20 obadan (camaat) ibarət olduğu göstərilir. Bu obanın birincisi Bozca ailəsinin başçılıq etdiyi bayatlardır. Həmin dövrdə onların başçısı Bozca oğlu Xəlil bəy idi. Ancaq eyni əsrin ikinci yarısına aid dəftərlərdə bu boy bəyi, ailəsi və obası görünmür. Bu bəy ailəsi necə oldu? İranamı getdi? Bu ehtimal çox güclüdür.

Bundan sonra bayat boyunun ən böyük obası olan pəhləvanlı obası gəlir. Bəhs edilən dəftərlərə görə, vergi verən əhali sayı 286 nəfər olan bu obanı Pəhləvanın nəvəsi Davud Kətxuda idarə edirdi. Həm Davud Kətxuda, həm də qardaşları Hacı Süleyman və Sən (Əsən) Teymur mənşur[*] sahibi olub oğulları da sipahizadə idilər. Bu mənşurların Kətxuda ailəsinə məmlük dövləti tərəfindən verildiyi anlaşılır.

Bu obanın əhalisi müntəzəm surətdə artaraq, Qanuni dövrünün ortalarında 505, II Səlim dövründə 787 nəfərə (vergi verən) çatmışdı. Digər tərəfdən, həmin zamanlarda pəhləvanlı obasının bir qolu da Yeni-eldə idi. II Murad dövründə buradan vergi verən əhalinin sayı 407 nəfər idi. Bundan başqa, bayatın Yeni-eldəki obalarından çalışlı və əlibəylilər də bu pəhləvanlı qoluna bağlı idilər[2]. Hər iki qolu birləşməklə və bayat boyunun bir çox digər obalarını da öz ətrafında toplamaqla pəhləvanlı oymağı XVII əsrdə böyük bir təşəkkül halını almışdı. Buna görə də Katib Çələbi öz dövründəki Hələb türkmənləri oymaqları haqqında tərtib etdiyi siyahıda pəhləvanlılara da yer ayırmışdı[3].

Burada bayat boy bəyi ailəsinin (bozcaoğulları) İrana getməsi və ya hər hansı bir səbəb üzündən varlığını davam etdirməməsi çox maraqlıdır. Bu təşəkkülün XVII əsrdə artıq Hələb bölgəsində deyil, Sivasın cənub və cənub-qərb tərəflərində yaşadığı anlaşılır. Hətta pəhləvanlılara 1100-ci ildə (1688/ 1689) bir çox oymaqlarla bərabər vilayət-vilayət gəzib yoxsul və zəif xalqa hücum edən, yollarda soyğunçuluq edən Gədik adlı quldurun cəzalandırılması tapşırığı verilmiş[4], ertəsi il isə yenə digər türk oymaqları ilə birlikdə Avstriyaya qarşı təşkil olunacaq səfərə çağırılmışlar. Səfərdə iştirak etmələri arzu olunan 200 pəhləvanlı əsgərin başçıları bu bəylər idi: Pəhləvan oğlu İsmayıl bəy, Pəhləvan oğlu Hacı Musa bəy, Pəhləvan oğlu Battal bəy, Pəhləvan oğlu Hacı Abbas bəy, Həsən bəy oğlu Məhəmməd bəy, Əli bəy oğlu Mirzə bəy, Bibər oğlu Əssaf bəy, Tatar-ilyaslı obası kətxudası, Quzu-güdən-

---

[1] İbn İyas. Bədayi-üz-zühur. İstanbul, 1932, s. 327.

[*] Mənşur-hökmdarlar tərəfindən verilən imtiyaz fərmanı, barat (tərcüməçi).

[2] F.Sümər. Bayatlar. İstanbul Universiteti ədəbiyyat fakültəsi «Türk dili və ədəbiyyatı» jurnalı, 1952, IV, № 4, s. 374-376.

[3] Cahannüma, s. 593.

[4] Əhməd Rəfiq. Anadoluda türk aşirətləri, s. 77-79.

li oymağı kətxudası, Sanal (?) bayatı kətxudası[1]. Bunlardan Həsən bəy oğlu Məhəmməd bəydən etibarən adı çəkilənlər pəhləvanoğulları ailəsindən deyildilər.

1108 (1696)-cı ildə Pəhləvan oğullarından İsmayıl bəy Yeni-el voyevodası idi[2]. Yeni-eli həmin ərəfədə başlıca pəhləvanlı oymağı ilə ona bağlı obalar meydana gətirirdi. Yeni-elin vergisi isə əvvəllər validə sultanların Üsküdarda tikdirdikləri camilərin vəqfinə daxil olduğu halda həmin illərdən Məkkə və Mədinəyə göndərilən Surrə axcasına ayrılmışdı. Yeni-elə bağlı oymaqlara «hərəmeyn üş-şərifeyn əşirətləri» deyilməsinin səbəbi də budur. 1141-ci ildə (1728) pəhləvanlıların Boz-ox bölgəsində yaşadıqları müşahidə olunur. XVIII əsrdə Anadoludakı türkmən oymaqlarına dair səyyah Burxardt və Nibur öz siyahılarında pəhləvanlı oymağının yurdunu Boz-oxda göstərmişlər. Nibur[3] Hələbdə yaşayan P.Russeldən aldığı məlumata görə, pəhləvanlıların 15.000 çadıra sahib olduqlarını bildirir.

Burada bəhs ediləcək bayat obalarından biri də reyhanlı təşəkkülüdür. Qanuni dövründə vergi verən əhalisinin sayı 112 nəfərdən ibarət olan bu təşəkkülün 93 evlik bir qolu da həmin dövrdə Yeni-eldə yaşayırdı. Bu oba da bir tərəfdən əhalisinin artması, digər tərəfdən isə bayat boyuna mənsub bir çox obaların ona qarışması nəticəsində XVIII əsrdə pəhləvanlı kimi böyük bir təşəkkül halına gəlmişdi. Həmin əsrdə reyhanlı oymağı ona bağlı digər oymaqlarla birlikdə Sivasın güney tərəflərində yaylağa çıxır, Hələb ətrafında qışlayırdı. Səyyah Burxardt[4] reyhanlıların 3.000 çadırdan ibarət olduqlarını söyləyir.

Reyhanlılar yaylağa gedib-gələrkən rahat durmadıqlarından onların Rəqqaya sürülmələri haqqında bir neçə dəfə fərman verilsə də, hər dəfə ondan qurtulmuşlar. XIX əsrin ortalarında reyhanlıların Amik ovalığında qışladıqlarını bilirik. 1865-ci ildə Cənubi Anadoludakı dərəbəyləri ortadan qaldırmaq və oymaqları yerləşdirmək qayəsi ilə təşkil edilən Firqeyi-İslahiyyənin Gavur dağları və Kürd dağlarındakı hərəkatında reyhanlılar Firqeyi-İslahiyyəyə kömək etmişlər. Firqeyi-İslahiyyənin hərəkatı başa çatdırmasının ardınca Cövdət paşanın təşəbbüsü ilə bu oymaq Amik ovalığındakı qışlağında yerləşdirilmiş və nəticədə Reyhanlı qəsəbəsi yaranmışdır[5]. Bundan başqa, reyhanlı boyunun bəyi Mürsəl oğlu Mustafa bəyə paşa rütbəsi verilmişdir.

Bunlardan əlavə, bayat boyunun il-diləklü, bəçilü, yabanlu, mələk hacılu, küzücəkli adlı obaları da vardır. Bayat boyu XVI əsrin ikinci yarısında bir tərəfdən əhalisinin artması, digər tərəfdən Hələb türkmənlərinə bağlı bir çox

---

[1] Əhməd Rəfiq. Həmin əsər, s. 85-86.
[2] Əhməd Rəfiq. Həmin əsər, s. 114.
[3] Nibur. Ərəbistana səyahət. Amsterdam, 1776, s. 336.
[4] Hasluk. Sultanlar dövründə islam və xristianlıq. Oksford, 1929, II, s. 490.
[5] Cövdət Paşa. Təzakir. Cavid Baysun nəşri. (TTK), Ankara, 1963, s. 126, 127, 140, 141, 144, 147, 149, 158, 173, 174, 222, 223.

kiçik oymaqların ona qarışması nəticəsində bəydili boyundan sonra Hələb türkmənlərinin ən böyük təşəkkülü olmuşdur[1]. XVII əsrdə isə boyun obalarından mühüm bir qismi pəhləvanlı, bir qismi isə reyhanlı oymaqlarının ətrafında toplanmışdı. Bu tarixdən etibarən bayatları iki təşəkkül, yəni pəhləvanlılar və reyhanlılar təmsil etmişlər.

Pəhləvanlı oymağının başçısı olan boy bəyi ailəsinin XVIII əsrin ikinci yarısında bu gün Ankaranın Qırıq qala qəzasına tabe Boy obası kəndində yaşadığını bilirik. Pəhləvanlı bəylərindən Mahmud bəy 1212-ci ildə (1797/1798) kənddəki camini tikdirmişdir. Həmin bəyin 1221-ci ildə (1806/1807) Çapan oğlu Süleyman bəyin əmrində olduğu məlumdur.

Ailə xatirələrində Mahmud bəyin bir çox müharibələrdə iştirak etdiyi danışılır. Hətta bu hərblərin birində oğlu Heydər bəyi itirmiş, qayıdarkən qardaşını atasının yanında görməyən o biri oğlu Əbdürrəhman bəyin «Vay qardaşım, haralarda qaldın?» deyərək ağladığını gördükdə qaşlarını çatan Mahmud bəy «Qadın kimi nə ağlayırsan, sən Heydər ol, sən də qal!» demişdir. Ancaq xatirələrdə Mahmud bəyin də getdiyi son səfərdən geri qayıtmayaraq Belqradda şəhid olduğu nəql edilir. O zamanlar Anadolu türkünün taleyi bu idi. Vergisi Məkkəyə, Mədinəyə gedər, özü isə əksərən geri dönməmək üzrə imperiyanın uzaq əyalətlərinə göndərilərdi. Mahmud bəyə oğlu Əbdülrəhman bəy, ona isə oğlu Həsən bəy xələf olmuşdur. Pəhləvanlı boy bəyi ailəsinin nəsli bugünədək davam etmişdir. Ailənin Mahmud bəyin babası Kodalak bəydən başlayıb zamanımızadək davam edən müfəssəl şəcərəsi xüsusi kitabxanamızdadır. Reyhanlı boy bəyi ailəsi də günümüzədək davam etmişdir. Bu ailə İskəndərunda yaşayan, Xatayın ən tanınmış ailəsi olan Mürsəl oğullarıdır.

### 2. Şam və Trablis ətrafındakı bayatlar

Bayatlara məxsus bəzi kiçik oymaqlara XVI əsrdə Şam və Trablis ətrafında yaşayan türkmənlər arasında rastlanılırdı. Onlardan Şam ətrafında yaşayan oymaq çox kiçik olub sayı ancaq 39 ev idi. Trablis yörəsindəki oymaq isə biri 73, digəri 64 nəfər (vergi verən) olmaqla iki qola ayrılmış və o bölgədəki səlluriyyə (salur) təşəkkülünə bağlı idi[2]. Bu bayat obalarının Hələb türkmənləri arasındakı ana boydan ayrıldıqları anlaşılır.

### 3. Boz-ulus bayatları

XVI əsrdə boz-ulus arasında ancaq iki bayat oymağı vardı. Bunlardan biri əsil boz-ulus elatında, digəri isə boz-ulusun dulqədirli təşəkkülləri ara-

[1] F.Sümər. Bayatlar, s. 377.
[2] F.Sümer. Həmin əsər, s. 378.

sında idi. II Səlim dövründə yazılmış boz-ulus dəftərinə görə əsil boz-ulus qolundakı bayat oymağının əhalisi vergi verən 206 nəfərdən ibarət idi. Boz-ulusun dulqədirli qolunda olan və şam bayatı adlanan oymağın əhalisi isə 344 nəfər (vergi verən) idi[1].

## 4. Dulqədirli bayatları (Şam bayatı)

Dulqədirli elinə daxil olan bayatlar Şam bayatı adlanırlar. Adından da göründüyü kimi, bu bayat qolu Şimali Suriyadakı bayatlara mənsubdur. Həmin bayat qolunun böyük bir qisminin Boz-ox bölgəsində yurd saldığı bilinir. Bundan başqa, Yeni-eldə, ulu-yörüklər arasında və gördüyümüz kimi, boz-ulusun dulqədirli qolu içində də bəzi şam bayatı oymaqları vardır.

Şam bayatı oymağının diqqətəşayan bir cəhəti də onun qaçar boyunun təşəkkülündə oynadığı roldur, qaçar (İran qaynaqlarında qacar) boyuna dair ən qədim məlumat 897-ci ilə (1491/1492) aiddir. Bu tarixdə qacarlar əsasən Azərbaycanın Qarabağ bölgəsində yaşayırdılar. Ağqoyunlu xanədanına mənsub olan və İbə Sultan adı ilə tanınan Dana Xəlil oğlu İbrahim bəy 987-ci ildə qacar ləşkəri ilə birləşərək, ağqoyunlu xanədanından Maqsud bəy oğlu Rüstəm bəyi hökmdar etmək üçün onu həbsə salındığı Əlincə qalasından çıxarmışdır[2]. İbə Sultan onu ağqoyunlu taxtına çıxardıqdan sonra 898-ci ildə (1492/1493) yenə qacar ləşkəri ilə birlikdə Gilana səfər etmişdi[3]. Daha əvvəl də deyildiyi kimi, ehtimal ki, qacar sözü bir şəxsin adı ilə bağlıdır. Qacarlar sonra Şah İsmayılın xidmətinə daxil olaraq səfəvi dövlətinin qurulmasında rol oynamışlar. Bu təşəkkül XVI əsrdə Şam bayatı, ağca qoyunlu, ağcalı və yıva obalarından meydana gəlmişdi. Bu oymaqların ana qolları Boz-ox bölgəsində yaşayırdı. Bu xüsus qacar boyunun Anadoludakı Yozqat bölgəsindən Azərbaycana ağqoyunlu dövründə getdiyinə heç bir şübhə yeri qoymur.

**a) Boz-ox.**

Boz-oxdakı Şam bayatı bu bölgənin Gədük yörəsində yaşayırdı. Bu yörə Kayserinin şimal-şərqində, Gəmərək ilə Mancılıq arasındakı torpaqları əhatə edirdi. Burada yaşayan Şam bayatları əsasən xızırlı, həsəncili, kəsməzli, şeyxli, şərqili, qızıl donlu və qaraca-qoyunlu kimi oymaqlara ayrılmışdı. Bu obalar tarlalarında əkinçilik edir, qışda Suriyaya gedirdilər. Ancaq XVI əsrin ikinci yarısında Şam bayatları qışda Suriyaya getməkdən vaz keçmişlər.

**b) Yeni-el.**

Bu eldə yaşayan Şam bayatı qolu ancaq 5-6 obadan ibarət idi. Tatar-əlili müstəsna olmaqla digərləri Boz-ox yörəsindəki şam bayatı obalarının qollarıdır.

---

[1] Baş nazirlik arxivi, № 561, 63 a-b, 65 a.
[2] F.Sümər. Bayatlar, s. 379.
[3] Yenə orada, s. 379.

**c) Ulu-yörük.**

Ulu-yörük icmasına bağlı təşəkküllərdən biri də inallu oymağıdır ki, o, Şimali Suriyadakı inalluların bir qoludur. Amasya ətrafında yaşayan inallu təşəkkülünün arasında şam bayatı adlı bir neçə oba vardı[1]. Əvvəlcə də dediyimiz kimi, bu hal bayatlarla ilallular arasında qəbiləvi bir qohumluqla əlaqədar ola bilər.

**ç) Ankara.**

Şam bayatına mənsub iki kiçik oymağın da 929-cu ildən əvvəl (1522) Ankaranın Kalecik qəzasında yurd saldığı bilinir. Onlardan biri Çuna, digəri isə Tavşancıq kəndlərində yerləşmişdi[2].

**d) Maraş.**

Şam bayatına mənsub bir oymaq Behisniyə tabe Qorucu kəndində, vergi mükəlləfiyyətli 40 nəfər əhalisi olan başqa biri isə Antakyanın Hacılu kəndində qışlayırdı[3].

Boz-oxda yaşayan Şam bayatının İrandakılar kimi şiə, yəni qızılbaş olduğu, hətta İranla əlaqə saxladığı bilinir. 986-cı ildə (1578) Boz-oxdakı Şam bayatına mənsub bir şəxs özünün 984-cü ildə (1576) öldürülən səfəvi hökmdarı II Şah İsmayıl olduğunu elan edərək başına xeyli adam toplayıb Qırşəhirdəki Hacı Bəktaş Vəli təkkəsində tərəfdarları önündə qurban da kəsmişdi. Ancaq onun hərəkatı qısa bir müddət sonra yatırıldı.[4]

Şam bayatının həm Boz-ulus, həm də Yeni-eldəki obaları bu icmaya məxsus digər oymaqlar kimi 1022-ci ildə (1613) Orta Anadoluya gəlmişlər. Onlara da 1100-cü ildə (1688/1089) Orta Anadoluda qələbəlik dəstəsi ilə quldurluq edən Gədikin cəzalandırılması tapşırılmış, ertəsi il digər türkmən təşəkkülləri kimi Avstriya səfərinə çağrılmışlar[5].

Orta Anadoluya gələn və deyildiyi kimi, Yeni-elə və Boz-ulusa mənsub olan Şam bayatı oymaqlarının harada yerləşdikləri haqqında dolğun məlumatımız yoxdur. Onlardan bir və ya bir neçə obanın Çuxurovaya endikləri və Qaraisalı qəzasında bu gün öz adları ilə adlanan kəndlərdə yerləşdikləri anlaşılır[6]. Onlardan başqa bir obanın Qaraman qəsəbəsində yerləşdiyi məlumdur. Orada ayrı bir məhəllə təşkil edən oba camaatı bu gün də öz qəbiləvi mənşəyini unutmamışdır.

---

[1] Yenə orada, s. 378.
[2] F.Sümər. Həmin əsər, s. 379.
[3] Yenə orada, s. 378.
[4] Mühimmə dəftəri, XXXII, s. 206.
[5] Əhməd Rəfiq. Həmin əsər, s. 78, 82.
[6] Yenə orada, s. 215, 216.

## 5. Kütahya

XVI əsrdə bayat adını daşıyan bir oymağa da Kütahya yörükləri arasında təsadüf edilmişdir. Kütahyanın Geyiklər yörəsində yaşayan bayat adlı bu oymağın II Bəyazid dövründə vergi mükəlləfiyyətli 53 nəfər əhalisi vardı. Digər tərəfdən həmin əsrdə Uşaq yörəsində yaşayan boz quş adlı böyük bir oymağın obaları arasında da vergi mükələfiyyətli 25 nəfər əhalisi olan qarabayat adlı bir oba olmuşdur[1]. Həmin əsrdə bayat adlı digər bir oymağa isə Antalya (Təkə) sancağında rast gəlirik[2]. Anadolu bayatları haqqında əldə edilən məlumat bunlardan ibarətdir.

## 6. İraq və Cəzirə bayatları

Səlcuqlular zamanında səlcuqlu əmirlərindən Ağ-Sunqur ul-Buxarinin Bəsrədəki naibi Sunqurun əl-Bayati nisbəsini daşıdığından və XII əsrin sonlarına doğru Bağdadın cənub-şərqdəki Tib çayının mənbəyinə yaxın yerdəki bir qalanın Bayat adlandırıldığından və bu qalanın hakiminin türk olduğundan bəhs etmişdik. XVI əsrədək İraqda və Cəzirədə bayatların yaşadığına dair heç bir tarixi qeydə rast gəlmirik. XVI əsrə aid Osmanlı təhrir dəftərlərində də ancaq qaraca-bayat adlı çox kiçik bir oymaq görürük. Kərkük yörəsində yaşayan bu oymağın vergi mükəlləfiyyətli 24 nəfər əhalisi vardı[3]. Bağdadlı münşi Məhəmməd bin Əhmədə görə Bağdaddakı[4] son Köləmən valisi Davud paşa zamanında valiyə tabe oymaq qoşunları arasında 1.000 atlı bayat, təyy və milli (kürd) oymaqlarına mənsub idi.

Həmin müəllif (əsər 1822-ci ildə yazılmışdır) Kirmanşah bölgəsindəki bayatların 2.000 çadır olduğunu qeyd etdikdən sonra Tavuk bölgəsində də onlardan 2.000 evə yaxın bir elat olduğunu, türkcə və ərəbcə danışdıqlarını yazır. Müəllif bayatların bəyənilən və əl-əl gəzilən atlar yetişdirdiklərini və onların İraqi-Ərəbdə məşhur olduqlarını da yazır[5]. Müasir İraq tarixçisi Abbas ül-Əzzavinin, bayatlar haqqında verdiyi məlumata görə[6], onların mühüm hissəsi indi Kərkük bölgəsində oturaq həyata keçmişdir. Köçəri həyat sürənlər az olub, 13 obadan, bir neçə qoldan ibarətdir. Həmin müəllifə görə, köçəri bayatlardan bəzi oymaqlar ərəblərlə qarışmışlar.

Lakin onların hamısı ana dilini, türkcəni unutmamışdır. Bu bayatlar Kərkükdə və qonşu bölgələrdə qədimdən bəri yaşayırdılar, yoxsa buralara

[1] F.Sümər. Həmin əsər, s. 382.
[2] Baş nazirlik arxivi. Təkə sancağı dəftəri, № 14, s. 398, 400, 423.
[3] F.Sümər. Həmin əsər, s. 383.
[4] Rehlət ül-Münşi əl-Bağdadi. Farscadan tərcümə edən Abbas ül-Əzzavi. Bağdad, 1948, s. 34.
[5] Yenə onun, s. 47, 54.
[6] Tarix ül-İraq. Bağdad, 1939, III, s. 368, 370.

XVI əsrdən sonra İrandan gəlmişlər? Bu sual hələ də cavabsızdır. Şübhəsiz, İraq bayatları türk ədəbiyyatının ən böyük ustadlarından biri olan Füzulinin həmyerliləri olmaq etibarilə diqqət və marağımızı daha çox cəlb edirlər. Lakin Səfəvi hökmdarı Şah Abbasın kitabxanaçısı, şair, mühərrir və nəqqaş Əfşar Sadığın (əslində, şamluya bağlı xarbəndəlu-xudabəndəlu adlı türkmən obasından idi) sözlərinə baxsaq, Füzuli İraq bayatlarına deyil, İran bayatlarına mənsubdur. Onun dediyinə görə, bayatdan (şübhəsiz, müəllif burada öz ölkəsindəki bayatları nəzərdə tutur) olan Füzuli səfəvi əmirlərindən İbrahim xanın məiyyətində Bağdada getmiş və İbrahim xanın Qanuni Sultan Süleymanın gəlişi ilə əlaqədar İrana qayıtmasından sonra Hillədə yerləşmişdir[1]. Burada adı çəkilən İbrahim xan Mosullu oymağından olub Bağdad valisi ikən 934-cü ildə (1527) qardaşı oğlu Zülfüqar Sultan tərəfindən öldürülmüşdür[2]. Buna görə də İbrahim xanın Qanuni Sultan Süleyman tərəfindən məğlub edilməsi barədə Sadığın sözləri doğru deyil.

## 7. İran bayatları

a) Öz bayatlar (ağ bayatlar)

Səfəvi dövründən əvvəl İranda bayatların yaşadığına dair heç bir məlumat yoxdur. XVI əsrdə İranda yaşayan bayatlar tək bir təşəkkül halında deyil, müxtəlif bölgələrdə olmaq üzrə üç qol halında idilər. Bu, onların bir-birindən fərqli siyasi keçmişə sahib olmalarından irəli gəlir. Onlardan yalnız bayat adını daşıyanlar Həmədanın cənub-şərqindəki Kəzzaz və Kirihrud bölgəsində sakin olanlardır. Şah Abbasın tarixçisi türkmən İskəndər bəyə görə[3] bu bayatların əhalisi Təhmasib dövründə 10.000 çadır idi. Təhmasib dövründə onlar Əmirşah bəy, Süleyman bəy, Hacı Üveys bəy və Seyf bəy kimi əmirlər tərəfindən idarə olunmuşdur[4]. Sonuncu bəylə bərabər Əli Sultan adlı digər bir bayat bəyi Qanuninin İran səfəri münasibətilə bizim tarixlərdə də xatırlanır[5]. Bütün bu bayat bəyləri öz hökmdarları Təhmasibin əsas səfərlərində iştirak etmişlər. Rumlu Həsən bəyin və naməlum bir müəllifin qeyd etdiklərinə görə[6] adı çəkilən İran hökmdarının ölümü əsnasında bayatlar da saray mühafizləri arasında idilər. Bayatlarla lurlar arasında Nihavənd yörəsindəki Burucird qəsəbəsi üstündə əski bir düşmənçilik vardı ki,

---

[1] Məcmə ül-Həvadis. Farscaya çevirən və nəşr edən Əbdürrəsul Xəyyampur. Təbriz, 1327 ş., s. 107.
[2] Həsən Rumlu. Əhsən üt-təvarix, s. 208.
[3] Tarixi-aləmarayi-Abbasi. Tehran, 1314 ş., s.139, yeni nəşr, Tehran, 1334 ş., s. 196.
[4] Həsən Rumlu, s. 360, 387, 401, 479, 483.
[5] Cəlalzadə Mustafa. Təbəqat ül-məmalik fi dərəcat il-məsalik. Fateh kitabxanası, № 4423, 379 b; ondan nəqlən: Əli. Künh ül-əxbar. Universitet kitabxanası, № 5219, 293 a; Peçevi. Tarix, I, s. 315.
[6] S. 466; Tarixi-Şah İsmail-sani. Bəyazid ümumi kitabxanası, № 5162, 6 b.

bu, I Şah Abbasın hökmranlığının ilk illərində bayat əmiri Uğurlu bəyin öldürülməsi ilə son həddə çatmışdır[1]. Şah Abbas 1002-ci ildə (1593) Uğurlu bəyi öldürən Luristan hakimi Şahverdinin üzərinə səfər etdi.

Şahverdi bir neçə ildən bəri Şah Abbasın hakimiyyətini tanımayaraq müstəqil hərəkət etməyə başlamışdı. Şahverdini itaətə məcbur edən Şah Abbas Burucirdə girərək Uğurlu bəyə kömək göstərmədikləri üçün bayatların tanınmış adamlarını danladı. Uğurlu bəyin qardaşı Şahqulu Sultanın xahişi ilə şah onların günahından keçdi. Bayatlar da bunun əvəzində hökmdara qızılbaşlar arasında öz gözəlliyi ilə tanınan və boyun adı ilə adlanan (bəyatinəjad) atlarından 3.000 ayğır və qısraq təqdim etdilər, peşkəş olaraq, üstəlik 3.000 tümən verdilər[2].

Şah Abbasın bayatlardan Hüseyn Əli bəyi 1598-ci ildə elçi olaraq İspaniyaya göndərdiyi məlumdur[3]. Onun dövründə Yarəli Sultanın İrəvan bölgəsindəki Bəyazid qalasının, Bədir Sultanın isə həmin bölgədəki bir yerin hakimi olduqlarını bilirik[4]. Şah Səfi dövründə həmin yerlərdə bu bayat bəylərinin oğulları xələf olmuşlar[5]. Bu təyinatlar səbəbilə bayatların mühüm bir qismi Azərbaycana getmiş və orada yerləşmişdir. Bu bayatlar daha sonra bayati-mütləq və ya ağ bayat adları ilə İrandakı digər bayat qollarından fərqləndirilmişlər. Onlar Şimali Suriyadakı bayatların bir qolu olub ağqoyunlu fəthi və ya Səfəvi dövlətinin qurulması ilə əlaqədar İrana gəlmişlər.

b) Qara bayatlar (Xorasan bayatları)

Səfəvi dövründə İrandakı ikinci bayat qolu Xorasanda yaşayırdı ki, onlara qara bayat da deyilir. Qara bayatların Xarəzm türkmənlərinə mənsub olduqları bilinir. Şah İsmayıl Xorasanı fəth etdikdən sonra onlar səfəvi hakimiyyətinə girmiş, tabelik əlaməti olaraq qara sifətini almışlar. Qara bayatlar Nişapur bölgəsində, xüsusilə bu bölgənin Mədən deyilən yörəsində yaşayırdılar[6].

XVI əsrin sonlarına doğru Xorasanın bəzi vilayətlərini ələ keçirən özbək hökmdarı Abdulla xan buraları oğlu Əbdülmömin xana vermişdi. Əbdülmömin xan 1591-ci ildə Nişapuru geri almaq istəyən səfəvi sərkərdəsi Qaramanlı Fərhad xanı geri çəkilməyə məcbur etdikdən sonra qara bayatlar ona tabe olmağı qəbul etdilər. Lakin onlar daha əvvəl çağataylardan çoxlu adam öldürdükləri üçün Baba İlyas oğlu Mahmud Sultan və digər bayat başbilənləri xanın hüzuruna gedərək, ona itaət etdiklərini bildirsələr də, bağışlanma-

---

[1] Şərəf xan. Qahirə, s. 81, 82; Tarixi-aləmarayi-Abbasi, s. 289, 321, yeni nəşr, s. 471, 472.

[2] Tarixi-aləmarayi-Abbasi, s. 322, yeni nəşr, s. 472, 473. Şah Abbasın 1006-cı ildə (1548) Hindistan hökmdarı Əkbər xana və oğlu Məhəmməd Səlim şaha göndərdiyi hədiyyələr arasında bayat atları da vardı (Tarixi-aləmarayi-Abbasi, s. 552, yeni nəşr, s. 543).

[3] Yadigar (məcmuəsi). Tehran, 1947, № 4, s. 33.

[4] Tarixi-aləmarayi-Abbasi, s. 762, yeni nəşr, s. 1086.

[5] İskəndər bəy Türkmən və Məhəmməd Yusif. Zeyli-tarixi-aləmara. Tehran, 1317 ş., s. 246.

[6] Tarixi-aləmarayi-Abbasi, s. 302, 585-586. Yeni nəşr, s. 295, 444-445, 510.

yaraq öldürüldülər[1]. Mahmud Sultanın qardaşı Məhəmməd Sultan pərişan bir halda ətrafa dağılmış qara bayatları başına toplayaraq Şah Abbasa böyük xidmətlərdə bulunmuşdu. Hətta buna görə Şah Abbas tərəfindən bütün qara bayat boyu vergilərdən azad edilmişdi[2]. 12 il Nişapur valisi olan Məhəmməd Sultan öldükdən sonra yerinə oğlu Bayram Əli Sultan keçmişdir[3]. Bu tarixdən etibarən Nişapur uzun bir zaman qara bayatların əlində qalmışdır. Nadir şah dövründə və onun ölümündən sonra da Nişapur yenə qara bayat bəyləri tərəfindən idarə olunurdu[4].

c) Şam bayatı (qacar boyu bayatları)

İrandakı üçüncü bayat təşəkkülü bizim Şam bayatı oymağının bir qoludur. Bu qol, daha əvvəl də dediyimiz kimi, yıva, ağcalı və ağcaqoyunlu təşəkküllərinə mənsub qollarla birlikdə qacar boyunu meydana gətirmişdir. Qacarlar XVI əsrdə əsasən Azərbaycanın Gəncə və Bərdə bölgəsində yaşayırdılar. Ancaq XVI və XVII əsrlərdə qacar bəylərindən hansılarının Şam bayatına mənsub olduqları bilinmir. XVIII əsrin birinci yarısında Gəncəyə bağlı kəndlərdən birinin Şam bayatı adını daşıdığını görürük[5]. Nadir şah öldürüldükdən sonra onun yerinə keçən Adil şahın böyük əmirlərindən Məhəmməd Əli xan Şam bayatından idi[6].Qacar hökmdarı Fətəli xan (Baba xan, 1797-1834) dövrünün əmirlərindən Məhəmməd Əli xan, qardaşı İsmayıl xan, Pirqulu xan və oğlu Məhəmməd Bakir xan da bu oymaqdan idi[7].

İrandakı bayatlar indi tamamilə oturaq həyata keçmiş, mühüm bir qismi Xəmsə (əsasən Zəncan bölgəsi) vilayətində yaşayır. Qaşqaylar arasında da bir neçə kiçik bayat oymağına təsadüf olunur[8]. Şərq musiqisindəki bayatı məqamının (muğamının - tərcüməçi) İran bayatlarının musiqi havalarından alındığına şübhə yoxdur.

## 3. ALKA BÖLÜK

### (Alka-evli)

Göründüyü kimi, Mahmud Kaşğarıdə alka bölük, Rəşidəddində alkaravlı və Əbülqazidə alka-evli (ivli) şəklində yazılan bu oğuz boyuna mənsub bir oymağa və ya yer adına heç bir yerdə təsadüf edilməmişdir. Bunun səbəbi

---

[1] Göstərilən yerlər.
[2] Yenə orada, s. 586.
[3] Yenə orada, s. 586, yeni nəşr, s. 1086. Zeyli-tarixi-aləmarayi-Abbasi, s. 22.
[4] Mirzə Mehdi xan. Tarixi-Nadir. Təbriz, 1260 ş., s. 45, Əbülhəsən Məhəmməd Gülistani. Mücməl üt-təvarix. Rizavi nəşri. Tehran, 1330 ş., s. 66.
[5] Gəncə təhrir dəftəri. Baş nazirlik arxivi. III Əhməd dövrü, № 903, 19 a.
[6] Əbülhəsən Məhəmməd Gülüstani, s. 21, 22.
[7] Məsud Keyhan. Coğrafiyayi-müfəssəli-İran. Tehran, 1311 ş., s.80, 86, 376.
[8] Mirzə Əbül Qasim. Məcmuə. Təbriz, 1294, s. 412.

nədir? Bu barədə qəti bir şey söyləmək mümkün deyil. Bugün Türkiyədə Zonquldakın Safranbolu qəzasına bağlı Halka-evli[1] kəndi ilə ölkədəki halka avlu, hətta halkalu yer adlarının[2] bu boyla əlaqədar olub-olmadığını haqqında da qəti bir şey söyləyə bilmirik.

## 4. QARA BÖLÜK

### (Qara-evli)

Bu boya aid Türkiyədə səlcuqlular və osmanlılar dövründə mühüm bir oymağa təsadüf edilməmiş, Suriya, İraq və İranda da bu adda təşəkkül olmamışdır. Yalnız Xarəzm türkmənləri arasında XVI-XVII əsrlərdə qara-evli adlı bir oymağın mövcud olduğunu bilirik ki, aşağıda ondan ayrıca bəhs ediləcəkdir. Daha əvvəl (I hissədə) söylədiyimiz kimi, dulqədirli elinə mənsub olan böyük ağcaqoyunlu boyunu meydana gətirən əsas obalardan biri də Musa hacılu (bəzən qısaldılmış şəkli ilə musacalu) idi. Musa hacılunun Yeni-eldə yaşayan qolu XVI əsrin ikinci yarısında bir sıra qollara ayrılmış, onlar dəftərlərdə məhəllə (obanın yurdu) sözü ilə göstərilmişdir. Bu məhəllələrdən birinin qara-evli olduğunu görürük (86 vergi mükəlləfiyyətli). Dəftərlərdə məhəllə oymağın və ya obanın qolları mənasında da işlədildiyi üçün buradakı qara-evlinin musahacılu qolunun yaşadığı yerin deyil, doğrudan-doğruya öz adı ola bilər. Əslində, məhəllə kəlməsi ilə zikr edilən adlar araşdırılarkən bunların yer adları olmadığı görünür. Bununla bərabər bu qara-evli obasının qara-evli boyu ilə əlaqədar olduğu qəti bir şəkildə irəli sürülə bilməz. Çünki qara-evli kəlməsi eyniadlı boy ilə münasibəti olmayan hər hansı bir oymağa hər zaman və hər yerdə verilə biləcək adlardan biridir. Xəzərarxası türkmənləri arasındakı qara-evli oymağı üçün də eyni ehtimal uyğun olduğu kimi, hal-hazırda İç-eldə yaşayan qara-evli oymaqlarının da öz adlarını sonradan aldıqları anlaşılır.

XVI əsrdə Türkiyədə Qara-evli şəklində bəzi yer adlarına təsadüf edilsə də, bunların ümumi sayı 8-dən artıq deyildir[3]. Onlar Bolu sancağında, Tokat və Kastamonu bölgəsində idilər. «Türkiyədə məskun yerlər qılavuzu»na görə[4] biri Qara-evlilər olmaq üzrə Türkiyədə Qara-evli adlı 10 kənd vardır. Bu yer adlarından çoxunun bu boyla əlaqədar olduğu şübhəsizdir.

Əbülqazinin bəhs etdiyi qara-evlilərə gəlincə, onlar Amu-Dəryanınn (Ceyhun) sahilində də Acı dənizin (Xəzər) yaxınlığında yaşayırdılar. Həmin müəllifə görə, bu qara-evlilər Kaşğa-Çura adlı bir şəxsdən törəmişlər. Kaş-

[1] Bax: Köylərimiz, s. 316.
[2] Bax: həmin kitab.
[3] Cədvələ bax.
[4] Türkiyədə məskun yerlər qılavuzu, s. 606.

ğa-Çuraya gəlincə, onun başqa yerdən gətirilmiş bir kölənin oğullarından olduğu nəql edilir[1]. Bu rəvayət doğrudursa, bu təşəkkülün eyni adlı oğuz boyundan olmadığına hökm vermək lazımdır. Hazırda yarı köçəri həyata vida etmək üzrə olan Toros dağlarındakı yörüklər arasında da qara-evli adında bir neçə kiçik oymaq var. Ancaq bu oymaqların daşıdıqları adı daha sonra aldıqları bilinir[2].

## 5. YAZIR

Rəşidəddin türklərin əfsanəvi tarixində Dib-Yavkunun bəyləri arasındakı Alay, oğlu Bulan və hətta Dib-Cəngşu və oğlu Dürkeşin bu boydan olduqlarını bildirir[3]. Orada oğuzların dağılması və Şah Məlikin hücumu zamanı yazırdan bir bəyin Əli xanın oğulları ilə Yazır yörəsinə getdikləri və Hisar-Tağda yurd saldıqları, onların uşaqlarının və nəslinin hazırda həmin yerdə yaşadıqları bildirilir[4]. Lakin biz yazırları Xorasanda ancaq 555-ci ildə (1160) görürük. Həmin il xarəzmşah İl-Arslanın əsgərləri Əcnəyə[5] hücum edərək yazırların başçısı Ödək xan oğlu Yağmur xanı məğlubiyyətə uğratdılar. Yağmur xan xarəzmşahın hücumunu Səncərin əmirlərindən Dehistan hakimi İxtiyarəddin Aytakın təhrikinin nəticəsi hesab edirdi. Buna görə də Aytaka qarşı mübarizə üçün Sultan Mahmudun başçılıq etdiyi oğuzlardan kömək istədi. Oğuzlar yazır bəyinin xahişini qəbul etdilər. Birinci hissədə təfsilatla təsvir olunduğu kimi, Yağmur xan və oğuzlar Aytakı və onun müttəfiqi Mazandaran hökmdarını baş verən şiddətli vuruşmada tar-mar etdilər[6].

Yazırların öz adlarını daşıyan yurdları Nəsa şəhərinin qərbində yerləşirdi. Buradakı bir qəsəbə də Yazır adlanırdı. Bu qəsəbə XVI əsrin birinci yarısında orta dərəcəli bir şəhər idi. Yazırlar Səncərin dövlətini yıxan oğuz elatına daxil deyildilər. Onlar əvvəlcə Manqışlaqdan Balxana enmiş, oradan da buraya gəlmişdilər[7].

Xarəzmşah Sultan Məhəmmədin qara kıtaylara qarşı mübarizədə müvəffəqiyyətsizliyə uğraması nəticəsində üsyan edən Nişapur əmiri Kəzlik xan məğlub olduqdan sonra yanındakı bir türkmənin təklifi ilə yazırların yanına getmək istəsə də, oraya yolladığı adamlar yazırlar tərəfindən yaxalanıb xarəzmşaha təslim edilmişdi[8]. Həmin əsnada və ya bir qədər sonra yazırların başında Hindu xan adlı bir bəy dururdu. 11 il yazır bəyi olan Hindu xandan

---

1 Şəcəreyi-tərakimə, s. 76, 77, 78.
2 DTCF jurnalı, XI, № 1, 1953, s. 67, qeyd 1.
3 Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 369.
4 Yenə orada, s. 385.
5 Bu bir yer adı olmalıdır.
6 İbn ül-Əsir. Tornberq nəşri, XI, s. 371; Misir nəşri, XI, s. 97.
7 Birinci hissəyə bax: s. 117.
8 Cüveyin, II, s. 71-72.

sonra yazır yurdu tamamilə xarəzmşahların əlinə keçmişdi. Onun qardaşı Ömər xan xarəzmşahların paytaxtı Ürgəncdə yazır bəyliyinin ona verilməsi üçün inadla çalışsa da, bu inad ona ancaq Sabur xan ləqəbini qazandırmaqdan başqa bir nəticə verməmişdir. Xarəzmşah Sultan Məhəmmədin anası Tərkən xatun monqol hücumu səbəbilə Ürgəncdən Mazandarana yola düşəndə keçiləcək yerləri yaxşı tanıyan Sabur xan da onun yanında idi. Səyahət zamanı Sabur xan validə sultana sədaqətlə xidmət etdiyi halda, Tərkən xatun yazır yurduna çatanda onu tərk edəcəyindən şübhəyə düşərək xanı gizlincə öldürtdü[1].

Monqol dövründən sonra yazırlara qaradaşlı (taşlı) deyilirdi[2]. Onlar Şah Abbas zamanında digər türkmən oymaqları kimi səfəvi hakimiyyətini qəbul etmişdilər. 1038-ci ildə (1628/1629) qaradaşlıların başında Rəhmanqulu Sultan dururdu. Ancaq o həmin il Xarəzm hökmdarı İsfəndiyar xanla və onun qardaşı müəllif Əbülqazi ilə birləşərək səfəvilərdən üz çevirsə də, onlar səfəvi qoşunu qarşısında duruş gətirə bilməmişdilər[3].

Göründüyü kimi, yazırlar sanki müstəqil bir qövm kimi XII əsrdən XVII əsrədək Xorasanda varlıqlarını qoruyaraq yaşamışlar. Bu belə olmaqla bərabər, onlar Anadolunun fəthində və məskunlaşdırılmasında da olduqca mühüm rol oynamışlar. XVI əsrdə bu ölkədə Yazır adlı 24 kənd[4] və onlara mənsub bəzi oymaqlar da vardı. Bu oymaqlar dulqədirli ulusu ilə Həmid, Təkə və Ankara sancaqlarında yaşayırdılar.

**1. Dulqədirli ulusu.**

Bu ulus arasındakı yazırlar qaracalu (digər adı: anamaslu) boyunun obalarında müşahidə edilir. Bu, yazırlarla qaracalu boyu arasındakı qüvvətli münasibətlərlə əlaqədar ola bilər. Biri 46, digəri 49 nəfər əhalisi (vergi verən) olan yazır obaları Antakya bölgəsindəki Bağras qəzasında qışlayırdılar. Müstəqil olduğu bildirilən 99 adamlıq (vergi verən) üçüncü yazır obasının isə Birəcik ətrafında qışladığı, Əlbistana yaylağa getdiyi məlumdur[5].

**2. Boz-ox.**

Boz-ox sancağındakı yazır obaları da kiçik idi; biri 29, digəri 51 evli idi[6].

**3. Hamid sancağı.**

Bu sancaqda Yazır adlı üç kənd vardı. Həmin dövrdə burada yaşayan yazırlar 95 evdən ibarət idi və Əli Fəxrəddin adlı bir oymağa daxil idi[7].

---

[1] Nəsəvi, s. 39, fransızca tərcüməsi, s. 67-68.
[2] Əbülqazi. Şəcəreyi-tərakimə, s. 61-62.
[3] İskəndər bəy Türkmən və Məhəmməd Yusif Müvərrix. Zeyli-tarixi-aləmarayi-Abbasi, s. 2, 21, 22, 23.
[4] Cədvələ bax. Bu yazır kəndlərinin əksəriyyəti adlarını saxlayaraq bu gün də durur (Köylərimiz, s. 774).
[5] F.Sümər. Boz-oxlu oğuz boylarına dair, s. 68.
[6] Yenə orada, s. 69.
[7] Göstərilən yer.

**4. Təkə sancağı.**

Buradakı yazır obası sarı və qara sifətləri ilə iki qola ayrılmışdı. Özkənd adlı bir kənddə isə bu oymağın üçüncü qolu yaşayırdı[1]. Bunlardan başqa, bu bölgədə Yazır adlı iki kənd də vardı. Bütün bunlar Hamiddə olduğu kimi Təkə sancağında da olduqca mühüm bir yazır icmasının yerləşmiş olduğunu göstərir.

**5. Ankara.**

Bu sancaqdakı yörüklər arasında yaşayan yazırlar kiçik bir oymaqdır. 42 evdən ibarət olan bu oymaq Çukurcaq adlı bir kənddə yaşayırdı[2].

## 6. DÖYƏR

Rəşidəddinin «Türklərin tarixi» fəslində verdiyi məlumata görə, oğuz hökmdarı Dib-Yavkunun bəylərindən Taş bəy və onun oğlu Yalğu (?) bəy, Ala Atlı Kişi Donlu Kayı İnalın vəziri Ayıldır döyər boyundan idilər[3]. Rəşidəddindəki bu rəvayətləri qiymətləndirmək lazım olsa, deməliyik ki, döyərlər oğuzların islamiyyətdən əvvəlki tarixlərində mühüm bir mövqeyə sahib idilər. Bununla bərabər, onların səlcuqlu fütuhatında da mühüm rol oynadıqlarını söyləmək mümkündür. Çünki XIII-XIV əsr tarixçilərindən Cəzirəli (indiki Cizrə) Şəmsəddin Məhəmməd bin İbrahim (1260-1339) artuqlu xanədanının bu boydan olduğunu yazır[4]. Artuq bəy və oğullarının isə XI-XII əsrlərdə türkmənlər arasında böyük nüfuz sahibi olduqlarını və əsalətli bir ailə sayıldıqlarını bilirik. Bütün bunlara baxmayaraq təhrir dəftərlərində bu boya aid 19 yer adına təsadüf edilmişdir. Bu yer adları digər boylarınkı kimi Orta və Qərbi Anadoluda müşahidə edilir[5].

*Döyər Salim bəy və oğulları*

Bir çox oğuz boyları kimi qaynaqlar döyərlərdən də XIV əsrin ikinci yarısından etibarən bəhs etməyə başlayırlar. Monqol hakimiyyətinin sona çatması, məmlük əmirlərinin bir-birilə mübarizəsi artıq əhalisi çoxalmış türkmən boylarına fəaliyyətə keçmək imkanı vermişdi. Döyərlər həmin dövrdə Salim adlı bir bəyin başçılığı altında Cəbər yörəsində yaşayırdılar. Onların Suriyadakı türkmən elatına, yoxsa ağqoyunlu və qaraqoyunluları əhatə edən və məmlük tarixçilərinin şərq türkmənləri adlandırdıqları icmaya mənsub olduqları dəqiq bilinmir. 773-cü ildə (1371) döyər Salim bəy Bəşiriyə gəl-

---

[1] Göstərilən yer.
[2] Göstərilən yer.
[3] Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 370, 371.
[4] Cəvahir is-süluk. Paris milli kitabxanası, ərəb manuskriptləri. № 6739, s. 377.
[5] Cədvələ bax.

miş və Xısn Keyfanın əyyubi hökmdarı Məlik ül-Əşrəfə elçi göndərərək ondan sığınmaq üçün bir yer göstərməsini və ehtiyacları xüsusunda kömək etməsini xahiş eləmiş, sonra öz arvadı ilə yanındakı bəylərin arvadlarını göndərərək təkrar iltimasda bulunmuşdu.

Salim bəyin bu şəkildə hərəkətinə səbəb Dəməşq (Şam) və Hələb qüvvələrindən ibarət bir məmlük ordusunun onu şiddətlə təqib etməsi idi. Salim bəy bu ordunun qabağından qaçaraq Bəşiriyə qədər gəlmişdi, məmlüklər isə onu addımbaaddım izləyirdilər. Döyər bəyinin məmlüklərin qəzəbinə səbəb olmuş hərəkətinin nə olduğu bilinmir. Ehtimal ki, bu ticarət karvanlarını, bəlkə də həcc qafilələrini soymaq xüsusu ilə bağlı idi. Çünki Salim bəyin eyni mahiyyətli bir hərəkətindən dolayı qaraqoyunlu Qara Məhəmmədin hücumuna uğradığını aşağıda görəcəyik.

Xısn Keyfa hökmdarı Salimin adından kömək istəməyə gələnlərə heç nə edə bilməyəcəyini söyləyib onları üzgün halda geri qaytarsa da, Salimin kürəkəni olan öz qardaşı Öməri gizlincə döyər bəyinin yanına göndərmiş və ona ölkədə istədiyi yerə sığınmasını və mümkün olan hər cür köməklik göstərəcəyini bildirərək Salim bəyi sevindirmişdi. Salim bəy Xısn Keyfa ətrafındakı sərt bir dağa yerləşmiş və əyyubi hökmdarından hər cür kömək görmüşdü. Məmlük ordusu Salimi bu dağda bir müddət mühasirəyə alsa da, əliboş geri qayıtdı. Məmlük ordusu uzaqlaşdıqdan sonra Salim məiyyəti ilə birlikdə sığındığı dağın yaxınlığında sevinc içində yeyib-içərkən türkmənlərdən bir bölüyün hücumuna uğradı. Türkmənlər məmlüklərin tuta bilmədiyi döyər bəyini əsir alıb Amidə doğru götürdülər. Xoşbəxtlikdən Salim bəyin əmisi Əbülqadirin oğlu Həsən bəy özünü yetirib onu türkmənlərin əlindən qurtardı[1]. Ehtimal ki, bu türkmənlər ağqoyunlulardan idilər. Bu hadisədən sonra Salim bəy yurdu Cəbərə qayıtdı.

776-cı ildə (1374/1375) ildə Salim bəy İraq tacirlərini öldürərək mallarını yağmalayan Yaxmur oğlu (bir Anadolu qaynağında vələdi-Umur) Şihabəddin Əhmədin bağışlanması üçün anasını həmin türkmən bəyi ilə Qahirəyə göndərmişdi. Bu, Salim bəyin məmlük sultanı ilə arasının düzəldiyini göstərir. Məmlük sultanı Məlik ül-Əşrəf Şaban çox qəzəbləndiyi Yaxmur oğlunu əfv etmiş və ona Misirdə iqta vermişdi. Beləliklə, öz vəzifəsini uğurla ifa edən və sultandan hörmət görən Salim bəyin anası oğlunun yanına qayıtmışdı[2]. Yaxmur (Umur) oğluna gəlincə, o sonra Berkukun yaxın adamları cərgəsinə daxil olmuş, Dulqədir oğlu Xəlil bəyi öldürməklə Berkuka mühüm bir xidmətdə bulunmuşdu.

785-ci ildə (1383) qaraqoyunlu bəyi Qara Məhəmməd öz vassal bəylərindən Boz-doğan oğlu Ziyaülmülkü yanına alaraq Salim bəyin üzərinə yü-

---

[1] Xısn Keyfa vəqayenaməsi. Vyana milli kitabxanası (mxt, 355) 103 b,104 a.

[2] Məkrizi, № 4386, 186 a: Eyni, № 2395, s. 183, 184; İbn Həcər. Yeni cami kitabxanası, № 814, 11 b, 12 a.

rüş etdi. Bunun səbəbi Qara Məhəmmədə aid Mosul şəhəri və bölgəsi hacılarının Salim bəy tərəfindən soyulması idi. Teymur tərəfindən də eyni əməl üstündə ittiham edilən Qara Məhəmməd 12 mindən artıq bir qoşunla ildırım kimi döyər bəyinin üzərinə cumaraq onu məğlub etdi və döyər obalarını yağmayaraq çoxlu qənimət ələ keçirdi. Salim bəy Qələt ül-Müsliminə tərəf qaçmışdı. Qara Məhəmməd ətrafı yağmalayaraq Salim bəyi şiddətlə təqib edirdi. Salim bəy bu təqibdən güclə qurtarıb kəfəni boynunda olduğu halda hadisəni uzaqdan seyr edən məmlüklərin Hələb valisi Yel Buğa (yaxud: Yol) ən-Nasirinin hüzuruna varid oldu. Döyər bəyinə xoş üz göstərən Yel Buğa sultanın buyruğu ilə onu Qahirəyə yolladı[1]. Həmin ilin rəbiülaxır ayının 19-da (21 iyun 1383) Qahirəyə gələn əmir Salim Sultan Berkukdan hörmət gördü, xələt alaraq Hələb təbilxana əmirliyinə təyin olundu[2].

791-ci ildə (1389) Qara Məhəmmədin özündən və əmisi Bayram Xocadan əvvəl şərq türkmənlərinin başçısı olan Hüseyn bəyin oğlu Pir Həsən tərəfindən öldürülməsi nəticəsində iki ailə arasında qanlı bir çarpışma başlamışdı. Salim bəy araya girərək onları barışdırdığı üçün çarpışma bir müddət dayanmışdı. 1390-cı ildə ikinci dəfə məmlük taxtına çıxan Berkuk onun taxtdan salınmasında ən mühüm rol oynamış türk məmlük əmirlərindən Mintaşın Salim bəyin yanında olduğunu öyrənib Hələbə çatarkən Mintaşı təslim almaq üçün Qara Dəmirtaşı döyər bəyinin yanına göndərmişdi. Qara Dəmirtaş 4 gün gözlədiyi halda Salim Mintaşı təslim etmir, müxtəlif bəhanələrlə vaxtı uzadırdı. Salimin bu hərəkətindən qəzəblənən Qara Dəmirtaş döyər bəyinin obasını yağmalatmış, bəzi adamlarını da öldürtmüşdü. Salim Mintaşı da götürərək Sincara qaçdı. Az sonra Salimin obasına gələn Mintaşın köhnə dostu Yel Buğa ən-Nasiri hadisəni öyrənərək əməllərinə görə Qara Dəmirtaşı söymüş, hətta mübahisə əsnasında onu vurmaq üçün əlindəki toppuzu da qaldırmışdı. Bu hadisə Berkukda Yel-Buğanın öz köhnə dostu Mintaşı qoruduğu haqqında deyilənlərin doğru olduğu qənaətini doğurdu. Üstəlik, bir az sonra Salim bəy yazdığı məktubunda Mintaşı Yel-Buğanın xahişinə görə qaçırdığını bildirirdi. Buna görə Berkuk Hələbə qayıdan Yel-Buğanı öldürtdü[3]. Ancaq Salim Minqaşı Berkuka təhvil verməyərək sərbəst buraxdı. Halbuki varlı olmadığı üçün aradabir karvan soymağa da məcbur olan Salim bəy Mintaşı təhvil verəcəyi təqdirdə Berkukdan böyük ənam ala bilərdi. 796-cı ildə (1393/1394) Salim bəy Teymurun adamlarından Dulat (Dövlət) Xocanı əsir alaraq Hələb valisinə göndərmiş, o da onu Misirə yollamışdı[4].

---

[1] Məkrizi, № 4385, 11 a-b.
[2] Məkrizi, 12 a; İbn-Həcər, 77 a.
[3] İbn ül-Fərat. Beyrut, 1936, IX, s. 269, 270, 271; Məkrizi, 218 b, 219 a. Tağıüddin ibn Qazı Şühbə. Zeylü düvəl il-islam. Paris, milli kitabxana, № 1509, 62 a.
[4] Məkrizi, 256 b, 257 a.

Həmin il Berkuk Teymurla vuruşmaq üçün Dəməşqdə olarkən döyər Salim bəy onun hüzuruna gəlmişdi. Berkuk çadırına girən döyər bəyini ayağa qalxaraq qarşılamış, türk qumaşından paltar və xələt geydirərək ona görünməmiş bir hörmət göstərmişdi[1]. Ancaq Salim bəyin üç il sonra (799-1396 /1397) naməlum bir səbəbdən Dəməşq valisi tərəfindən həbs edildiyini görürük[2]. Qaynaqlarda bir daha Salim bəydən bəhs edilmir. Ehtimal ki, bir müddət sonra onu həbsdən buraxmışlar. Əbülfərəc tarixinə yazılmış əlavələrdən birində Qara Yusifin 1399-cu ildə döyərlərin yurduna girib mal-qaranı ələ keçirdikdən sonra onları başçıları ilə birlikdə Cəbərdə mühasirəyə aldığı bildirilir[3]. Bu hadisədə xatırlanan döyər əmirinin Salim bəy, yaxud onun oğlu Dəməşq Xoca olduğu barədə hələlik heç nə söyləmək mümkün deyil. Çünki 801-ci ilin şəvvalında (iyul, 1399) atasının yerinə sultan olan Fərəc Dəməşq Xocanın Cəbər naibliyi baratını (mənşur) təzələmişdi[4]. Salim bəyə aid məlumatlar bu döyər bəyinin cəsur, fəal, ağıllı bir şəxsiyyət olduğunu göstərir. Təkcə Mintaşı ələ verməməsi onun kübar bir ruha sahib olduğunu göstərməyə kifayətdir. Atasının ölümündən sonra döyərlərin başçısı olan Dəməşq Xoca Teymur istilasının Yaxın Şərqdə meydana gətirdiyi qarışıqlıqlardan və eyni zamanda Fərəcin zəif bir şəxsiyyət olmasından istifadə edərək, bir çox yerləri də idarəsi altına almış, yağmaçılıq hərəkətlərində də bulunmuşdu. Ağqoyunlu tarixçisi Əbu Bəkr Tihrani[5] Dəməşq Xocanın 20 min çadırlıq bir elin başçısı olduğunu, bəni-kilab, bəni-şadi adlı ərəb oymaqlarından 10.000 çadırın da ona tabe olduğunu, Ruha (Urfa), Sivərək, Süruc, Harran, Cəbər və Cəmlim şəhər və qəsəbələrinə ağalıq etdiyini yazır. 806-cı ildə (1403/1404) Hələb valisi Toxmağa qarşı üsyan edən bir əmirə kömək məqsədilə bu şəhərin ətrafına gələn və Hələb kənarında yağmaçılıq edən Dəməşq Xoca Cəbərə qayıtdıqdan sonra məşhur ərəb əmiri Nüöyr bin Həyyarın hücumuna uğradı. Cəbərlə onun şimal-qərbində bir gün davam edən müharibədə Dəməşq Xoca məğlub edilərək öldürüldü (29 mart 1404) və başı Nüöyr tərəfindən Misirə göndərildi[6]. İbn Tağrı-Birdi[7] Dəməşq Xocanın əsasən dövlətə itaətsizlik göstərdiyini, soyğunçu kimi hərəkət etdiyini yazır. Seyfəddin Dəməşq Xocadan sonra döyərlərin başçısı Göyçə Musa oldu. Dəməşq Xocanın öldürüldüyünü eşidən ağqoyunlu bəyi Qara Yölük hərəkətə keçərək Urfanı vuruşma ilə almış və bu şəhəri xidmətində çalışan

[1] İbn ül-Fərat, IX, s. 382.
[2] İbn Qazı Şühbə, № 1599.
[3] Qriqori Əbülfərəcin xronologiyası. London, 1932, s. 11, əlavələr qismi, s. XXV.
[4] Məkrizi, № 4387, 7 b.
[5] Kitabi-Diyarbəkiriyyə, s. 51-52.
[6] İbn Həcər, 130 a; Məkrizi, № 4387, 152 a; Eyni, № 2396, s. 204; ibn Tağrı-Birdi, VI, s. 167; Yenə onun: əl-Mənxəl üs-Safi, 1, 324 a.
[7] Göstərilən yer.

Göyçə Musanın əmisi oğlu Yağmura vermişdi[1]. Yağmur bəy Qara Yölükü süzeren tanıyaraq bir müddət Urfaya sahib olmuşdu.

1405-ci ildə qaraqoyunlu bəyi Qara Yusif Dəməşqdən öz ölkəsinə qayıdarkən Cəbərdə Göyçə Musaya qonaq olmuşdu[2]. Bu tarixdən etibarən getdikcə artan ağqoyunlu təhlükəsi qarşısında döyərlər qaraqoyunluları öz süzerenləri qəbul etmişlər. Göyçə Musa 1406-cı ildə Qara Yusifin Teymurun nəvəsi Əbubəkr ibn Miranşahla Araz çayı sahilində baş verən və zəfərlə sona çatan vuruşmasında, o biri il Şənbi-Qazan yaxınlığında Əbubəkrə qalib gəldiyi vuruşmada iştirak etmişdir[3]. Hətta ikinci vuruşmada Teymurun nəvəsini Göyçə Musanın bir köləsi öldürmüşdü. Göyçə Musa daha sonra 1410-cu ildə Qara Yusifin cəlayir Sultan Əhmədə Təbriz ətrafında qalib gəldiyi vuruşmada da iştirak etmişdir[4]. Həmin qaraqoyunlu hökmdarının əmirləri arasında İlyas Döyər adlı bir əmir vardı ki, onun Salim ailəsi ilə qohum olduğu bilinmir. Döyər İlyas bəy Göyçə Musa kimi Qara Yusifin Əbubəkrlə vuruşmasında iştirak etmiş və qaraqoyunlu hökmdarı tərəfindən Pir Ömərlə birlikdə 1409-cu ildə Şəki hakimi Seyid Əhməd üzərinə göndərilmişdi[5]. Əmir İlyas Qara Yusifin sonrakı səfərlərində də iştirak etmiş və onun 1420-ci ildə Ucan yaxınlığında ölməsindən sonra Diyarbəkir tərəflərə getmişdir[6].

Urfa hakimi, Göyçə Musanın əmisi Bahadır Xocanın oğlu Yağmur bəyə gəlincə, onun 807-ci ildə Süruca sahib olduğu bilinir. Həmin il Birəni mühasirəyə alan Yağmur bəy məmlük əmirlərindən Sudun əl-Cəbəlin arvadını əsir aldıqdan sonra Süruc yörəsinə qayıtmışdı. Bunu eşidən Hələb valisi məşhur Çəkim Birəyə gəldikdən sonra Sudun ilə birlikdə Yağmura qalib gəlsələr də, təqib zamanı Sudun döyər bəyinə əsir düşmüşdü. Ancaq çox keçmədən Yağmur bəy Sudunu azad eləmişdi[7]. 813-cü ildə (1410/1411) Sudun qaraqoyunlu bəyi Qara Yusifin yanına gedərkən Yağmur bəyə baş çəkmişdi[8]. Ağqoyunlu bəyi Qara Yölük Dəməşq Xocanın ölümündən sonra Urfanı zəbt edərək Yağmur bəyə vermiş, lakin naməlum bir tarixdə şəhəri onun əlindən alıb çox sevdiyi qardaşı oğlu Nurəli bəyə həvalə etmişdi[9]. Yağmur bəyə gəlincə, o da Mosulda qaraqoyunlulardan kömək aldıqdan sonra Urfanı özünə qaytarmaq istəsə də, Osman bəy tərəfindən məğlub edil-

[1] Kitabi-Diyarbəkiriyyə, s. 66-67.
[2] Yenə orada, s. 57.
[3] Hafiz Əbru. Zübdət üt-təvarix. Fateh kitabxanası, № 4371, 406 b, 422 a.
[4] Hafiz Əbru. Göstərilən yer.
[5] Yenə orada, 456 b.
[6] Yenə orada, 556 a.
[7] Məkrizi, 174 a, 179 a.
[8] Məkrizi, 316 a.
[9] Diyarbəkiriyyə, s 91.

mişdi[1]. 817-ci ildə (1414) Yağmur bəy oğlu ilə bərabər vəbaya tutularaq ölmüşdür[2]. Ölərkən Sürucun, yaxud bir yerin əmiri olduğu dəqiq bilinmir.

Qara Yölük Osmanın qaraqoyunlulara aid Mardinə hücumu təzəcə hökmdar olan Qara Yusifin oğlu İskəndəri hərəkətə gətirmiş və iki türkmən bəyi Nüseybin ilə Xatuniyyə arasındakı Şeyx kəndində qarşılaşmışlar. Əbubəkr Tihraniyə görə[3], döyər bəyi Göyçə Musa oğlu Misirlə birlikdə ağqoyunluların tərəfində idi. Vuruşma 21 gün davam etdi. 21-ci gün Göyçə Musa əsgərləri ilə birlikdə ağqoyunlu səflərini tərk edərək, qaraqoyunlular tərəfinə keçməklə Qara Yölükün məğlubiyyətinə səbəb oldu. Bəzi döyər bəyləri də Kərkük və Tavuk əmiri Cənəkli Həsənin komandanlığı altında 824-cü ilin rəbiülaxırında (aprel, 1421) iki türkmən ulusu arasında baş verən bu döyüşdə iştirak etmişlər[4]. Ancaq Cənəkli Həsən və onun məiyyətindəki döyər bəyləri haqqında bundan artıq məlumatımız yoxdur.

Belə görünür ki, İskəndər həm atasına, həm də özünə xidmət etmiş qaynatası Göyçə Musaya Mosulu vermişdir. 829-cu ildə (1425) Göyçə Musa Mosulun, adını bilmədiyimiz qardaşı isə Cəbərin hakimi idilər. Göyçə Musa 832-ci ildə (1429) kürəkəni qaraqoyunlu İskəndərin Şahrux ilə Səlmas ovalığında vuruşmasında iştirak etdikdən sonra Mosula qayıtsa da, İraqi-Ərəb tərəflərini böyük qardaşı Şah Məhəmmədin əlindən bir-bir almağa başlayan qaraqoyunlu İspəndə (İsfahan) müqavimət göstərə bilməyərək Mosulu ona vermişdi. Bu hadisədən sonra Göyçə Musa nökərləri ilə birlikdə məmlük sultanı Baybarsın hüzuruna gəlmişdi. Sultan döyər bəyinə iltifat edib ona atlar, qumaşlar vermiş və ərzağa olan ehtiyacını da təmin etmişdi[5]. Bir az sonra Göyçə Musanın yenidən Cəbər hakimi olduğunu görürük. Qara Yölük Osman bəyin ölümündən sonra döyərlər ağqoyunlu şahzadələri arasındakı toqquşmadan istifadə edərək Amid yörəsinə axın etmişlər. Əbubəkr Tihrani[6] bu axının Misir sultanının təhriki ilə edildiyini yazır. Bu axından xəbər tutan Əli bəyin oğlu Cahangir Mirzə Amiddən çıxaraq döyərlərin üstünə yürüdü. Gənc şahzadə təcrübəli adamların düşmən üstünə «hazırlıqsız getmək olmaz» şəklində tövsiyələrinə qulaq asmadı. Buna görə də ağır bir vuruşmada ağqoyunlulardan çox adam qırılmış, Cahangir Mirzə nökərlərinin bəziləri ilə əsir düşmüşdü[7]. Göyçə Musa Cahangiri qandallayaraq Qahirəyə göndərdi. Cahangir 840-cı ilin 17 məhərrəmində (1 avqust 1436) Qahirəyə gətirildi. Ancaq Sultan Baybars ağqoyunlu şahzadəsinə şəfqət göstərdi və atası tərəfindən sədaqətinin təminatı olaraq daha əvvəl göndərilmiş qardaşı

---

[1] Göstərilən yer.
[2] Eyni, s, 400, ibn Tağrı-Birdi, VI, s. 342.
[3] Diyarbəkiriyyə, s. 79.
[4] Diyarbəkiriyyə, s. 78.
[5] Eyni, s. 642.
[6] Diyarbəkiriyyə, s. 120.
[7] Diyarbəkiriyyə, s. 120-123.

Hüseyn bəylə birlikdə oturmalarına icazə verdi[1]. Baybars Göyçə Musaya 1.000 dinar göndərdi, lakin Musa pul çatmadan ölmüşdü. Göyçə Musanın yerinə kimin keçdiyi bilinmir.

Salim bəyin üçüncü oğlu Həsən bəydir. Həsən bəyin anası Qara Yölük Osman bəyin bacısı idi. O və oğlu məmlük xidmətində çalışmışlar. Həsən bəy 836-cı ilin səfər ayında (oktyabr, 1432) xələt geyərək, Buharya valiliyinə təyin edilmiş və ona sultan tərəfindən 100 qaftan, 100 yay, 100 sədəq və 30 at verilmişdir[2]. Həsən bəy Dəmənhurda yaşayaraq 4 il bu vəzifədə qalmış, 840-cı ildə (1436) işdən çıxarılmışdır, sonralar oğlu da burada vəzifə sahibi olmuşdur. Tarixçi İbn Tağrı-Birdinin Sultan Baybarsın öz sələfi türk aşiqi Şeyxdən fərqli olaraq çərkəzləri daha çox sevdiyini söyləməsinə baxmayaraq, onun dövründə türkmən mənşəli iki vali vardı. Bunlardan biri döyər Həsən bəy, digəri isə Hələb valisi Behisinli Tanrıvermiş idi. Məmlük tarixində, deyəsən, ərəb mənşəli heç bir valiyə təsadüf edilmir.

853-cü ildə (1449) Xümus valisi olan Həsən bəyi 5 il sonra (1454) Aclun valiliyində görürük[3]. Hətta bu tarixdə qaraqoyunlu hökmdarı Cahan şah məmlük sultanına yazdığı bir məktubda Aclun valisi Həsən bəyi elçi göndərməsini xahiş etsə də, Baybars verdiyi cavabda bunun yalnız böyük əmir Ərəb şahın göndəriləcəyi təqdirdə mümkün olduğunu bildirmişdi[4]. İbn Tağrı-Birdinin bir az mübhəm olan qeydindən belə çıxır ki, əsərin yazıldığı dövrdə (1454/1464) Həsən bəy öz ata yurdu Cəbərdə hakim imiş. Həsən bəyin ölümü və ondan sonra Cəbərdə kimin hakim olduğu bilinmir. Həsən bəyin Əmirzə (İmirzə) adlı bir oğlunu tanıyırıq ki, o da məmlük xidmətində olmuşdur. Əmirzə (1453-cü ildə) Misirdəki üç valilikdən biri olan Kəşf ül-vəchi-l-qıbəliyə təyin edilmiş və həmin il mərkəzi Dəmənhur olan Kəşf ül-vəchi-l-bəhriyə göndərilmişdir[5]. Onun 869-cu ildə (1464) hələ də orada olduğunu görürük[6]. İbn İyasın bir qeydinə görə[7] Əmirzə 1485-ci ildə Kərək valisi təyin edilmişdir.

İbn Tağrı-Birdi Yarəli, Mahmud, Katı (bəlkə də Kutlu) adlı döyər əmirlərindən də bəhs edir. Lakin onların Salim bəyin ailəsi ilə qohum olub-olmadığı, qohumsa, qohumluğun dərəcəsi haqda heç bir məlumatımız yoxdur. Onlardan Yarəli Şam valisi İnal əl-Çəkiminin üsyanına qoşulduğu üçün 842-ci ildə (1439) Dəməşqdə yaxalanaraq öldürülmüşdür[8]. Əmir döyər Mahmuda gəlincə, o da yenə türkmən bəylərindən Saqqalsız oğlu Turəli,

---

[1] Eyni, s. 678-670.
[2] Məkrizi. Aya-Sofya ktb., № 3372, 149 a; ibn Tağrı-Birdi, VI, s. 682.
[3] İbn Tağrı-Birdi. Həvadis üd-düxur. Popper nəşri, 1942, s. 55, 279-280.
[4] Göstərilən yer.
[5] İbn Tağrı-Birdi. Ən-nücum üz-zahirə, VII, s. 472; Yenə onun: Həvadis üd-düxur, s. 191.
[6] İbn Tağrı-Birdi. Həvadis üd-düxur, s. 191.
[7] Bədai üz-zühur, III, s. 211.
[8] İbn Tağrı-Birdi. Ən-nücum üz-zahirə,VII, s. 91-95.

İnal oğlu Əmir Əliyar, türkmən Savcı bəy oğulları Əmir Fərəc və İbrahim, ərəb əmiri Nüöyr oğlu Qadir və digər bəylərlə 1439-cu ildə Hələb valisi türkmən Tanrıvermişin Baybarsın yerinə sultan olmuş Çaxmağa qarşı üsyanında iştirak etmişlər[1]. Əmir Mahmudun aqibəti barədə məlumatımız yoxdur. Döyərlərdən Katı isə 857-ci ilin (1453) əvvəllərində Buharya valisi idi[2].

Döyər boy bəyi ailəsinə dair əldə edilə bilən məlumatlar bunlardan ibarətdir. Həmin məlumatlar əsasında döyər boy bəyi ailəsinə aid belə bir şəcərə çəkmək mümkündür:




*Osmanlı dövründə döyərlər*

Heydər Çələbinin «Ruznamə»si[3] və təhrir dəftərlərindəki qeydlərə görə Suriyanı öz torpaqlarına qatan Osmanlı dövləti bu ölkədə dirlik sahibi olan türkmən və ərəb əmirlərinə toxunmamışdır. Kamal Paşazadənin bir qeydinə görə[4], Osmanlı fəthi zamanı Cəbər yenə də döyərlərin əlində idi. Ancaq bunu təsdiq edən başqa bir dəlil yoxdur. Bundan əlavə, döyər bəyliyinin süqutu barədə də konkret məlumatımız yoxdur. Bununla birlikdə, təxmin etmək mümkündür ki, döyərlər Göyçə Musanın ölümündən sonra bəlkə də Urbanın təzyiqi altında Cəbəri tərk etmişlər. Bura 1440-1445-ci illər arasında ağqoyunluların əlində idi. XVI əsrdə Hələb türkmənləri, Boz ulus, Kərkük və Sis (Kozan) yörəsində yaşayan türkmənlər arasında bu boya mənsub oymaqlar vardı.

**1. Hələb türkmənləri.**

Hələb türkmənləri arasında yaşayan döyər oymağı Qanuni dövrünün ilk illərində Hələb döyəri və Həma döyəri olmaq üzrə iki qola ayrılmışdır. Bunlardan Qorxmaz və Mahmud kətxudaların idarəsindəki Hələb döyəri oymağı 230 vergi evindən ibarət idi. Həma döyəri özü də iki qola ayrılmış və on-

[1] Yenə orada, VII, s. 95-96.
[2] Yenə orada, VII, s. 398.
[3] Firidun bəy. Münşaat üs-səlatin. İstanbul, 1274, 1, s. 498.
[4] Təvarixi-ali-Osman. Nurosmaniyyə kitabxanası, № 3078, 8 b.

lardan biri 163, digəri 36 vergi evli idi. XVI əsrin ikinci yarısında digər türkmən oymaqları kimi, bu döyərlərin də sayının artdığı görünür[1].

Bu döyərlər XVIII əsrin sonlarında Həma-Xümus tərəflərə yerləşdirilmək istənən oymaqlar arasında olmuşlar[2]. Lakin bu yerləşdirmə təşəbbüsünün heç də müvəffəqiyyətlə nəticələnmədiyini bilirik. Həmin səbəbdən bu döyərlərin bir müddət yenə əski yaşayışlarını davam etdirdikləri, sonra tam oturaq həyata keçdikləri söylənə bilər.

**2. Dəməşq.**

Dəməşq ətrafında yaşayan türkmən icması arasında döyərlər kiçik bir oymaq olub Qanuni dövründə ancaq vergi mükəlləfiyyətli 50 nəfər əhalisi vardı[3].

**3. Ruha (Urfa).**

XVI əsrdə bu bölgədə yaşayan böyük oymaqlardan biri döyərlü adını daşıyırdı. Bu oymağın kürd olduğu göstərilir. Ancaq onu meydana gətirənlər arasında Bayram, Gündoğmuş, Budaq, Yağmur, Qaya, Tanrıverdi, Durmuş, Dündar, Satılmış və hətta Karkın kimi türk adları daşıyan şəxslər görünür[4]. Bu onların əslən türk olduqları ehtimalını qüvvətlə ortaya qoyur. Döyərli (yerli tələffüz: düyərlü) oymağı Urfanın cənub-şərqində yaşayırdı. Həmin yer indi də onların adlarını daşıyır.

1747-ci ildə döyərlülər milli adlı qələbəlik və yağmaçı kürd oymağının hücumuna uğramış, lakin Hələb valisi Raqib paşanın vaxtında müdaxilə etməsi nəticəsində böyük zərər çəkməmişdir[5]. Urfa bölgəsindəki bu döyərlülər Salim bəy ailəsinə mənsub idilər.

**4. Boz-ulus.**

Boz-ulusdakı döyərlərin sayı Qanuni dövründə 195 nəfər (vergi ödəyən) idi[6]. Ağqoyunluların yüksəlişi dövründə döyərlərdən bir bölüyün ağqoyunlu hərəkatlarında iştirak etdiyi mümkündür.

**5. Kərkük.**

Kərkük yörəsində yaşayan döyər oymağı dəftərdə tayfa kimi göstərilsə də, əslində əhalisi 45 evdən artıq deyildir[7]. Bu oymağa qaraqoyunlular zamanında yuxarıda verdiyimiz məlumata görə mövcud olmuş qüvvətli bir döyər varlığının qalığı kimi baxmaq olar.

**6. Sis (Kozan)**.

XVI əsrdə Sis (indiki Kozan) sancağında sakin olan savcı-hacılu obaları arasında döyərlü adlı bir təşəkkül görünür ki, onun vergi verən əhalisi 64

---

[1] F.Sümər. Döyərlərə dair, s. 152, 155-157.
[2] Əhməd Rəfiq. Anadoluda türk aşirətləri, s. 107.
[3] F.Sümər. Döyərlərə dair, s. 152, 157.
[4] Ruha sancağı dəftəri. Baş nazirlik arxivi, № 965, 165 a və ardı.
[5] İzzi. Tarix. İstanbul, 1299, s. 271.
[6] F.Sümər. Döyərlərə dair, s. 154.
[7] Yenə orada, s. 154, 158.

nəfərdir[1].

**7. İran.**

Şah Abbasın kitabxanaçısı Əfşar Sadıq öz təzkirəsində[2] bu boya mənsub Piri bəydən bəhs edir və onun türkmən olduğunu bildirir. Sadığa görə, Piri bəy şair, musiqişünas və çox əsərləri olan bir şəxs idi. Təsdiqedici dəlillərimiz olmasa da, Sadığın sözlərindən döyərlərdən kiçik bir zümrənin (bəlkə də türkmən boyu ilə birlikdə) İrandakı türk təşəkkülləri arasında yaşadığına inanmaq mümkündür.

## 7. DODURĞA

Təhrir dəftərlərində dodurğa, doturğa, todurğa və toturğa kimi müxtəlif imlalarla yazılan bu oğuz boyuna aid Anadoluda 24 yer adına təsadüf edilir. Bu yer adlarından birinin adı ilə Boluda bir nahiyə var[3]. XIII əsrin ikinci yarısında Təbrizə gedən italyan səyyahı Peqolotti[4] Sivasdan sonra Dudriağa deyilən bir yerə gəlir ki, bunun dodurğa olduğuna şübhə yoxdur.

«Bəzmü Rəzm»də də Zara ilə birlikdə Dodurğa adlı bir bölgədən bəhs edilir[5]. Bura Osmanlı dövründə Sivasın şərqində, Zaradan bir mənzil məsafədə anayol üstündə bir kənd idi. Bu yer adlarından başqa, XVI əsrdə Anadolunun müxtəlif yerlərində olmaq üzrə bu boya mənsub bəzi təşəkküllərə təsadüf olunurdu.

**1.Ulu-yörük.**

Bu türk icması arasında yaşayan dodurğalar II Bəyazid dövrünün ilk illərində 202 nəfər vergi verəndən ibarət olub 7 qola ayrılmışdı. Turxal türkləri də adlanan dodurğa təşəkkülü XVI əsrin ikinci yarısında bir çox qışlaqlara sahib idi. Onlar digər ulu-yörük oymaqları kimi bu qışlaqlarda əkinçilik edirdilər. Bu dodurğa oymağının bir qolu XVI əsrin ikinci yarısında Amasyadakı Sarı Qurşun kəndində yerləşmişdi. Onlar şübhəsiz ki, daha böyük, qədim bir dodurğa icmasının qalığıdır[6].

**2. Tarsus.**

Bu bölgədə yaşayan və qaynaqlarda varsaq adlanan türkmən oymaqları arasında mühüm bir dodurğa oymağı da vardı. Bu oymaq onu idarə etmiş Əsən bəyə nisbətlə əsənlü adını da daşıyır. Əsən bəyin qərargahı Tarsusun şimalındakı Əsənlü gözü idi. Dodurğalardan meydana gələn bu əsənlü boyu iki qola ayrılmış olub, bunlardan biri bozca-dodurğa, o biri ərtənə (ərdənə) adını daşıyır. Adları çəkilən Bozca və Ərtənə, şübhəsiz ki, Əsən bəyin oğul-

---

[1] Yenə orada, s. 154, 158.
[2] S. 120-121.
[3] Cədvələ bax.
[4] V.Eyd. Orta əsrlər Levantının ticarət tarixi. Paris, 1959, 11, s. 114-115.
[5] İstanbul, 1928, s. 276.
[6] F.Sümər. Boz-oxlu oğuz boylarına dair, s. 71.

larıdır. Çuxurova bölgəsinə aid 925-ci il (1519) tarixli ən əski dəftərdə bu dodurğalar 34 obaya ayrılmışlar. Obalardan hər birinin öz əkin tarlası var. Bundan başqa, Uzamış və Quzu adlı kəndlər də onlarındır. Dəftərdə dodurğanın Beş aşıq və Davud obalarına mənsub bəzi şəxslərin «üləma və süləha» olması səbəbilə «əvarizi-divaniyyə və təkalifi-örfiyyədən» qədimdən azad olduqları qeyd olunmuşdur[1].

**3. Boz-ulus**.

II Səlim dövrünə aid Boz-ulus dəftərinə görə[2], buradakı dodurğalar 6 kiçik qola ayrılmış bir oymaqdır. Həmzə və qardaşı Əbdi Kətxudalar, Vəli və Şahin Kətxudalar tərəfindən idarə olunan dodurğa oymağının əslində dulqədirli elinə mənsub olduğu bilinir.

**4. Ankara**.

Ankara sancağına bağlı Xaymana tayfası[3] arasında kiçik bir dodurğa oymağı var. Bu oymaq Qanuni dövründə eyniadlı bir kənddə yaşayırdı ki, həmin kənd indi də durur[4]. Bundan başqa, II Bəyazid dövründə Aksaray yörəsində də dodurğa adlı kiçik bir oymağa təsadüf olunurdu[5]. XIX əsrin əvvəllərində İranda oğuzların mənşəyi haqda yazılmiş bir risalədə dodurğalardan mühüm bir qismin Türkmən çölündə, yəni Xarəzm türkmənlərinin yurdunda yaşadığı qeyd edildikdən sonra onların çox zərif olmasa da, dözümlü və yaxşı qaçan cins atlara sahib olduqları bildirilir[6]. Ancaq Xarəzm türkmənləri arasında dodurğaların olmasını təsdiq edən başqa bir qeyd yoxdur.

## 8. YAPARLI

Kaşğarinin siyahısında olmayan bu boy Rəşidəddinin siyahısında yaparlı şəklindədir. Heç bir qaynaqda və təhrir dəftərində bu boya aid təşəkkül və yer adına təsadüf edilmir. Bu xüsus bəlkə də bu boyun öz adını dəyişdirmiş olması ilə izah edilə bilər.

Bu gün Anadoluda Çarıqlı adlı 5 kənd, Çarıqlar adlı başqa kəndlər də var. Bu kəndlərin Kaşğaridə rast gəlinən çarukluğ boyu ilə əlaqədar olub-olmaması barədə qəti bir şey söyləmək mümkün deyildir. Adana bölgəsindən Niydəyə köçərək orada yaşayan dündarlı oymağının obaları arasında vergi verən 9 nəfərlik çarıqlı adlı çox kiçik bir təşəkkül, Kütahyaya bağlı Şeyxlu qəzasında adı Çarıqlar şəklində yazılmış 142 nəfərlik (vergi verən) bir oymaq da vardı. XIX əsrdə Aydın sancağındakı Sobuca qəzasında çadırlarda yaşayan çarıq adlı bir oymağın da olduğunu bilirik. Onların çarıqluğ

[1] Yenə orada s. 72, 91-92.
[2] Yenə orada, s. 72, 93.
[3] İndiki Xaymana adı buradan gəlir.
[4] Köylərimiz, s. 219.
[5] F.Sümər. Həmin əsər, s. 72, 73, 93, 94.
[6] Mirzə Əbülqasim. Məcmuə, s. 144.

boyundan olma ehtimalı çox azdır.

## 9. ƏFŞAR (AVŞAR)

Əfşarlar XI əsrdən tarixdə mühüm rol oynamağa başlamış və öz adlarını zəmanəmizədək yaşatmış yeganə oğuz boyudur. Rəşidəddində əfşarlar hökmdar yetirmiş oğuz boylarından biri kimi xatırlanır. Bu hal əfşar boyunun oğuzların islamiyyətdən əvvəlki tarixində də əhəmiyyətli rol oynadığını göstərir.

*XII əsrdə Xuzistanda əfşarlar*

530-cu ildə (1135/1136) Xuzistanda qələbəlik bir türkmən icması yaşayırdı[1]. Əfşarların və salurların Dəşti-qıpçaqdan, yəni Sır-Dərya boyundan Xuzistana və Kuhi-Giluyəyə gəlmələri Vəssafın göstərdiyi[2] tarixdən bir qədər əvvələ aid olmalıdır. Vəssafın qeydinə görə, əfşarların başçısı Arslan oğlu Yaqub idi. O, Xuzistan qəsəbəsində yaşayırdı. Salur bəyi Məvdud oğlu Sunqur isə Sultan Məsud ilə vuruşan Boz Aba öldürüldükdən sonra Farsa hakim olmuşdu. Yaqub bəy Farsı əldə etmək və ya Sunquru tabeliyi altına almaq üçün bir neçə dəfə salur bəyinin üstünə yürüsə də, məğlubiyyətə uğramışdır. Onun ölüm tarixi bilinmir, ancaq 547-ci ildən (1152-1153) əvvəl baş verdiyi şübhəsizdir. Yaqub bəydən sonra Xuzistandakı əfşarlara Şumlanın başçılıq etdiyini görürük. Şumla əfşar bəylərindən birinin adı deyil, ləqəbi idi. Bu sözün mənası və mənşəyi, məncə, məchuldur. Şumlanın əsil adı Ay-Doğdu, atasınınkı isə Küş-Doğan (Güc-Doğan) idi. Şumlanın Yaqub bəylə qohum olub-olmadığı da bilinmir. Deyəsən, Şumla onun dövründə Xuzistanın bir qismi ilə Luristanıı bəzi yerlərini idarə edirdi, Şumla əvvəlcə Sultan Məsudun axırıncı hacibi, yəni bəylərbəyisi Xas bəyin əmiri və yaxın adamlarından biri idi. Əgər qaynaqlardan biri bizi aldatmırsa, Xas bəyin tərəfdarı Zəngi Candar da türkmən idi. Birinci hissədə deyildiyi kimi, Xas bəy öz rəqibləri olan məmlük mənşəli əmirlərlə mübarizə aparmaq üçün özü kimi türkmən bəylərini başına yığma qayəsini daşıyırdı. Xas bəy 547-ci ildə (1152) Sultan Məhəmməd tərəfindən hiylə ilə öldürüldüyü zaman Şumla öz zəkası sayəsində canını qurtara bilmişdi. O bu hadisədən sonra Xuzistana gəldi. O vaxt bura artıq səlcuqlu Məlikşah ibn Məhəmmədin əlinə keçmişdi. Şumla Xuzistana gələr-gəlməz dərhal fəaliyyətə başladı, xırda Luristan əmirlərini özünə tabe etdi[3]. Həmin dövrdə Bağdaddakı abbasi xəlifəliyi də vəziyyətdən istifadə edərək öz torpaqlarını genişləndirməyə çalışırdı. Xəlifə

---

[1] İbn ül-Əsir, XI, s. 20.
[2] Şiraznamə, s. 48; ibn ül-Əsir, XI, s. 20.
[3] Həmdullah Müstövfi. Tarixi güzidə, s. 547.

zəif bir şəxsiyyət olan Məlikşahın əlindən Xuzistanı almaq üçün 550-ci ildə (1155) buraya bir ordu göndərsə də, Şumla öz əsgərlərini yeridərək onun qoşunlarını məğlubiyyətə uğratdı, sərkərdələrini isə əsir aldı (rəcəb-sentyabr). Lakin Şumla onları Bağdada göndərərək xəlifədən üzr istədi, bir qədər sonra isə Məlikşahı qovaraq, Xuzistanın müstəqil hakimi oldu[1]. 551-ci ildə (1156) səlcuqlu hökmdarı Sultan Məhəmməd xəlifəyə öz hakimiyyətini tanıtmaq üçün Bağdadı mühasirəyə aldığı zaman xəlifənin təhriki ilə Azərbaycan hakimi Eldəniz və digər bəzi əmirlər Məlikşahı sultan elan etmiş və paytaxt Həmədan ələ keçirilmişdi. Şumla da Məlikşahın tərəfdarı kimi Həmədəna gəlmişdi[2]. Bir il sonra Şumla xəlifənin əmirlərindən Kaymazı məğlub edərək əsir aldığı və Sultan Məhəmmədə göndərdiyi üçün xəlifə onun üzərinə böyük bir ordu yollamış, ancaq əfşar bəyi bir kənara çəkilərək ordu ilə vuruşmamışdı[3].

554-cü ildə (1159) ölkəsi əldən gedən Məlikşah məiyyətində həmədanlı Sunqur və Kovdan kimi böyük əmirlər olduğu halda Xuzistana girdi. Şumla onun qarşısına çıxsa da, məğlub oldu və bir qalaya sığınıb gizləndi. Xorasanı alan Məlikşah Farsı da işğal etmək üçün hərəkətə keçdi[4]. Nəticədə Şumla kimi Fars hakimi Zəngi də Məlikşahı süzeren tanıyaraq hər ikisi onun yaxın əmirlərinə çevrildi. Hətta həmin il (554) Sultan Məhəmməd öldükdə bəzi məliklər səlcuqlu taxtında əyləşmək üçün məhz Məlikşahı dəvət elədilər. Məlikşah bu məqsədlə yanında Şumla və Zəngi olduğu halda İsfahana gəldi. Burada başqa əmirlərin də ona qoşulması ilə qüdrəti artan Məlikşah xəlifədən öz adına xütbə oxunmasını xahiş etdi. Ancaq bir müddət sonra o, zəhərlənərək öldü. Onun zəhərlənməsində xəlifənin əli olduğu ehtimal edilsə də, gərək ki bu, doğru deyil[5]. 555-ci ildə səlcuqlu taxtına Arslan şah çıxdı. Ancaq bütün iqtidar onu taxta çıxaran Eldənizin əlində idi. Əvvəlcə Rey hakimi olan əmir İnanc bu işə narazılığını bildirdi və çox keçmədən bir sui-qəsd nəticəsində ortadan götürüldü.

Şumla Fars hakimi Zəngi kimi Arslan şaha tabe olduğunu bildirdi və Məlikşahın oğlunun atabəyi oldu. 561-ci ildə (1166) Şumlanın qardaşı oğlu, yəni Şənka oğlu qudası – Bəsrə valisi Məngü-barsın xəlifə tərəfindən öldürüldüyünə hirslənərək həm Bəsrəni, həm də Vasit tərəflərini yağmaladı. Buna cavab olaraq xəlifənin Vasit valisi Hutlu-bars qoşun toplayaraq Şənka oğluna qarşı çıxsa da vuruşmada məğlubiyyətə uğrayıb öldürüldü[6]. Həmin il Şumla da hərəkətə keçərək Bağdadın ətrafındakı əl-Mahkiyə gəldi və xəlifədən xeyli torpaq tələbində bulundu. Şumla xəlifəyə Vasit və Bəsrənin Sul-

[1] İbn ül-Əsir, XI, s. 90.
[2] S. 95, 97.
[3] İbn ül-Əsir, XI, s. 103.
[4] Yenə orada, s. 100-107.
[5] Yenə orada, s. 112, 113, 118.
[6] İbn ül-Əsir, XI, s, 144-145.

tan Arslan şah tərəfindən Məlikşahın oğluna iqta olaraq verildiyini və özünün həmin şahzadənin atabəyi sifətilə hərəkətə keçdiyini bildirdi. Ancaq qardaşı oğlu Qılıncın xəlifə ordusu ilə vuruşmada məğlub olduğunu və əsir düşdüyünü öyrənən Şumla Xuzistana qayıtdı[1].

564-cü ildə (1169) Fars hakimi salqurlu Zənginin əsgərləri Şumlanı Farsa dəvət etdilər. Bunun səbəbi Zənginin əsgərlərə qarşı pis rəftarı idi. Farsa gələn Şumla vuruşmada əsgərlərinin xəyanətinə uğrayan Zəngini asanlıqla məğlub etdi. Zəngi Şabankarə kürdlərinə sığındı. Onlar Zəngiyə əsil qonaqsevərlik göstərdilər. Şumlaya gəlincə, onun xalqa qarşı pis rəftarı bir yana, üstəlik, qardaşı oğlu Şənka oğlu da ölkəni yağmalamışdı. Buna görə də əsgərlər onu çağırdıqlarına çox peşman olmuşdular. Nəticədə Zəngi Şabankarədən gələrək öz ölkəsinə asanlıqla hakim oldu[2]. Çox gözəl bir fürsəti əlindən qaçıran Şumla isə Xuzistana qayıtdı. Şumla təkcə Xuzistanı deyil, ona qonşu olan Əhvaz bölgəsini də əlində tuturdu. Ancaq o bunlarla kifayətlənmir, Nihavəndi də ölkəsinə qatmaq istəyirdi. Bu məqsədlə atabəy Eldənizdən dəfələrlə böyük məbləğ əvəzində Nihavəndi istəsə də, məqsədinə nail ola bilməmişdi. Ancaq 571-ci ildə (1175) Eldəniz öldükdə bunu gözəl bir fürsət hesab edən Şumla qardaşı oğlu Şənka oğlunu göndərərək şəhəri ələ keçirdi[3]. Bir il sonra Şənka oğlu Bağdada bağlı əl-Mahki yörəsində bir qala tikdirməyə girişmişdi. Ancaq xəlifənin göndərdiyi qoşunla müharibədə öldürüldü və başı Bağdada götürüldü[4]. İgid bir savaşçı olan Şənka oğlunun ölümü Şumlanı qüvvətli bir köməkçidən məhrum etmişdi. Əslində bundan sonra özü də çox yaşamadı; 571-ci ildə tabeliyi altında olmayan bir türkmən elatının üstünə hücum etdi və heç gözləmədiyi halda atabəy Pəhləvanın ordusu ilə qarşılaşdı. Sən demə, onun məqsədini sezmiş türkmənlər atabəydən kömək istəmiş, bəzi səbəblər üzündən əfşar bəyini sevməyən Pəhləvan da bir ordu göndəribmiş. Vuruşma zamanı Şumla atılan bir oxla ağır yaralanıb əsir alındı. Qardaşı və qardaşı oğlu da əsir düşmüşdülər. Özü isə iki gün sonra aldığı yaradan öldü[5].

Əmir Şumla cəsur, zəki və ağıllı bir şəxsiyyət idi. Sırf bu məziyyətləri sayəsində Xuzistanı və bəzi qonşu yörələri əhatə edən bir bəylik qurmuşdu. Şumlanın yerinə oğullarından biri - Şərəfəddin Əmiran keçdi. Səlcuqlu hökmdarı Arslan şah 572-ci ildə (1177) öldükdən sonra onun qardaşı (o, Xuzistanda Şumlanın oğlu Şərafəddin Əmiranın yanında idi) Məhəmməd səltənəti ələ keçirmək məqsədilə Şumlanın oğlunun tövsiyəsinə uyaraq İs-

---

[1] Yenə orada, s. 147.
[2] Yenə orada, s. 156.
[3] İbn ül-Əsir Eldənizin ölümünü və Nihavəndin Şənka oğlu tərəfindən işğalını səhvən 568-ci ilə aid edir (s. 174-175). İbn ül-Əsirin Şumlaya dair digər məlumatlarında da səhvlər olması mümkündür.
[4] Yenə orada, s. 184. İbn ül-Əsir bu hadisəni 569-cu ilə aid edir.
[5] İbn ül-Əsir, XI, s. 191. İbn ül-Əsir bunu 570-ci il hadisələri sırasına daxil edir.

fahana gəldi. Orada Kaymaz oğlu Kavşut və bəzi əmirlər Məhəmmədin ətrafına yığışdılar. Ancaq Pəhləvan sürətlə özünü yetirib onu məğlubiyyətə uğratdı. Məhəmməd Xuzistana qaçsa da, Şumlanın oğlu Pəhləvandan qorxduğu üçün onu öz ölkəsinə buraxmadı. Məhəmməd məcburən Vasit tərəflərə getdi[1]. Bu əhvalatdan sonra əsərlərdə uzun müddət Şumlanın oğulları haqda hər hansı bir qeydə təsadüf edilmir. Zənnimizcə, Şərafəddin Əmiranın bizə məlum olmayan bir tarixdə ölümündən sonra qardaşı Müzəffərəddin Sü-Sıyan onun yerinə keçmişdir. Sü-Sıyan özü 590-cı ildə (1194) öldükdə oğulları arasına münaqişə düşdü. Onlardan biri Bağdad xəlifəsindən kömək istədi. İllərdən bəri Xuzistanı ələ keçirməyi arzulayan abbasi xəlifəsi ən-Nasir li-dinillah vəziri ibn ül-Qəssabın sərkərdəliyi altında bir ordu göndərdi. İbn ül-Qəssab 591-ci ilin məhərrəm ayında (dekabr, 1194) Xuzistanın paytaxtı Tüstəri (Şüstər) və bir çox qalaları zəbt etdikdən sonra Şumlanın ailəsini yığıb Bağdada apardı. Beləliklə, Xuzistanda əfşar Şumla və oğullarının hakimiyyəti sona yetdi, ölkə isə xəlifənin torpaqları sırasına qarışdı.

Əldəki məlumata görə Şumla və oğullarının şəcərəsi bu şəkildədir:




*Anadolu*

Bu ölkəyə gəlincə, XVI əsr təhrir dəftərlərində əfşar adlanan çoxlu yer adı görünür, miqdarına görə onlar kayılardan sonra ikinci yerdə durur. Digərləri kimi bu yer adları da Anadolunun orta və qərb bölgələrindədir. Hətta Rumelidə də bu boya aid bir neçə yer adı görünür. Bunlar onu göstərir ki, əfşarlar Türkiyənin fəthində və məskunlaşdırılmasında kayı və kınıklar kimi birinci dərəcəli rol oynamışlar.

Yazıçıoğluna görə, Qaraman oğulları əfşar boyuna mənsubdurlar. Doğrudan da, təqribən 1300-cü ildə naməlum müəllif tərəfindən yazılmış «Erməni tarixi»ndə əfşar oymağının bəyi İslamın 1254-cü ildə İskoriya sahilindəki Krakka şəhərini yağmaladığı bildirilir. Bu şəhərin Silifkə - Mərsin arasında dəniz sahilindəki Korikos (indiki Qız qülləsi) olması ehtimal edilir. Həmin əsərə görə, İslam bəy bir az sonra ölmüş və həmnn şəhər Sorum adlı

[1] Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 169-170.

başqa bir türkmən bəyi tərəfindən yağmalanmışdır[1]. Bu bəylərin Qaraman oğulları ilə bağlı olmaları ehtimalı çoxdur.

*Şimali Suriya əfşarları (XII-XV əsrlər)*

XIV-XV əsrlərdə əsasən Hələb, Antəb və Antakya bölgəsində yaşayan türkmənlərin boz-ox qolunu təşkil edən boyların başında əfşarlar, sonra isə bayatlar gəlirdi. Yəni əfşarlar boz-ox qolunun ən böyük, ən qüvvətli boyu idi.

Aşağıda Türkiyədə və İrandakı varlığından bəhs edəcəyimiz əfşar oymaqlarının Orta və Qərbi Anadoludakı bəzi kiçik oymaqlar istisna olmaq üzrə hamısı bu ana qoldan ayrılmışdır. Yenə aşağıda görüləcəyi üzrə, dulqədirli ulusu arasında imanlı əfşarı adlı mühüm bir əfşar qolu, Sis (Kozan) yörəsində isə güclü bir əfşar oymağı vardı. Onların dulqədirli bəyliyinin yaranması və Sisin məmlüklər tərəfindən fəth edilməsi nəticəsində Şimali Suriyadakı əfşarlardan ayrılmış qollar olduğu şübhəsizdir.

XV əsrin əvvəllərində əfşarlar, bayat və inallılar məmlük əmirləri arasındakı çəkişmədən sui-istifadə edərək yağmaçılığa qurşandıqları üçün məmlük əmiri Çəkim onlara qarşı şiddətli hərəkətə başlamışdı. Hətta bu üzdən onlardan bir qismi ağqoyunlu Qara Yölükə sığınmışdı. Ancaq Çəkimin öldürülməsindən sonra yurdlarına qayıtdılar və məmlüklər arasındakı daxili çəkişmələrdə iştirak etdilər.

Əfşarların daha sonra yenə bayat və inadlılarla birlikdə Qara Yölükün müttəfiqi kimi qaraqoyunlu Qara Yusifə tabe Mardin bölgəsini yağma və təxrib etdiklərini bilirik. Hətta bu hadisədən sonra Qara Yusifin 821-ci ildə (1418) Qara Yölükü qovaraq Antəbə gəlməsi nəticəsində bu boylar da qaraqoyunlulara intiqam hədəfi olmamaq üçün öz yurdlarını buraxıb Trablis yörələrindən Saftaya getmişdilər. Onlar burada da bəzi yağmaçılıq hərəkətlərində bulundular. Trablis valisi Baybars onların bu hərəkətlərinin qarşısını almağa çalışdı və Qara Yusifin çıxıb getdiyinn bildirərək öz yurdlarına qayıtmalarını xahiş etdi. Əfşarlar və başqaları köçməyə hazırlaşdıqları zaman Baybarsın davarlara gözü düşdü və onlara hücum etdi. Lakin ağır bir məğlubiyyətə uğradı[2].

Əfşarlar və bayatlar ağqoyunlularla dostcasına münasibətlərini davam etdirdilər. Uzun Həsən bəyin ilk zamanlarında yaxın nökərləri (silahdaşları) arasında bu boya mənsub Mənsur bəyi görürük[3]. Onun Şimali Suriyadakı əfşarlardan olduğuna şübhə yoxdur. Həsən bəy qaraqoyunlu Cahan şahı məğ-

---

[1] Kahen. Monqol istilası ərəfəsində Rum türkmənlərinin tarixinə dair bir neçə mətn. «Vizantion», XIV, s. 131.
[2] Bu mövzuda qaynaqlar üçün bax: Bayındır.
[3] Əbubəkr Tihrani. İndeks.

lub edərək, İrana hakim olduqdan sonra Mənsur bəy öz buyruğundakı əfşarlarla birlikdə İrana getmişdir. Bu barədə aşağıda ayrıca danışılacaqdır.

Şimali Suriya əfşarları əsasən üç ailə tərəfindən idarə olunurdular. Bunlar Köpək oğulları, Gündüz oğulları və Qut bəyi oğullarıdır. Bu üç ailənin idarəsi xaricində qalan bir əfşar zümrəsinin olub-olmadığı bilinmir. Bu ailələrdən Köpək oğullarının Antəb bölgəsində, Gündüz oğullarının Amik ovasında, Qut bəyi oğullarının isə Hələb dolaylarında yaşadığı məlumdur.

**A. Köpək oğulları.**

Bu ailəyə öz adını vermiş Köpək haqqında heç bir məlumatımız yoxdur.

Yəzdli Şərafəddinin verdiyi məlumata görə[1] Teymur 1401-ci ildə Dəməşqdən qayıdarkən köpəklu türkmənləri Fərat sahilində çağatay ordusunun yolunu kəsmişdilər. Xümusa çatdıqda ordunun mərkəz qolundan 5.000 nəfərlik qüvvə Xəlil sultanın sərkərdəliyi altında onların üzərinə göndərilmişdi. Onlar yol üstü Antakya ətrafını yağmaladıqdan sonra Hələb dolaylarına gələn sol qol ilə birləşərək, Rum-qalada türkmənlərə hücüm etmişdilər. Türkmənlər müdafiə olunsalar da, məğlubiyyətə uğramışdılar, başçıları Şeyx Hüseyn öldürülmüş, onun qardaşları isə çölə qaçmışdılar. Çağataylar çoxlu qənimət ələ keçirmişdilər. Ancaq Hüseyn Köpək oğlunun öldürülməsi barədə Şərafəddinin sözləri, deyəsən, doğru deyildir. Çünki indi bəhs ediləcək hadisələrdə köpəklu türkmənlərinin başında Hüseyn adlı bir bəy durur.

Haqqında danışılan hadisələrdən bir neçə il sonra Köpək oğlu Hüseyn bəy Ankara vuruşması nəticəsində meydana çıxan qarışıqlıqdan sui-istifadə edərək Artuq-ovaya yerləşmiş, Tokat bölgəsində yağma və dağıntılarda bulunsa da, Çələbi Məhmət tərəfindən məğlub edilərək geri oturdulmuşdu[2]. Ancaq Hüseyn bəyin taleyi ona cənubda yar oldu. 807-ci ildə (1104) Dulqədir oğlu Məhmət Darəndəni, Qara Yölük Ruhanı zəbt edərkən Köpək oğlu Məhmət də Malatyanı ələ keçirmişdi[3]. 811-ci ildə (1409) Hələb valisi Dəmirtaş Sultan Fərəcin üsyana qalxmış əmiri Novruzun üzərinə yürüyəndə məiyyətindəki türkmən bəyləri arasında Köpək oğullarından Ay-Doğmuş da vardı. Hətta Dəmirtaş ordusunun avanqardını köpəklular təşkil edirdi. Həmin avanqard Novruzun avanqardını məğlub etmiş, nəticədə Novruz da məğlubiyyətə uğramışdı[4]. 812-ci ildə (1410) Sultan Novruzun günahından keçərək onu Dəməşq valisi təyin etdi. Novruzla üsyançı əmir Şeyx arasında Asi çayının sahilində baş verən vuruşmada köpəklular da iştirak etmişdilər. Ancaq onların kimin tərəfində vuruşduqları barədə tarixçilər arasında ixtilaf var. Ancaq bu vuruşmada əfşarların Novruz ordusunda olduqları bilinir. Deməli, köpəkluların da həmin əmirin səfində yer aldıqları ehtimal oluna bilər.

---

[1] Zəfərnamə, I, s. 446-448.
[2] Nəşri, 1, s. 401-403.
[3] Məkrizi, № 4387, 191 b.
[4] Yenə orada, 277 a.

Məkrizinin bildirdiyinə görə[1] vuruşmanın çətin bir anında Şeyxin qalib gələcəyini görən əfşarlar onun tərəfinə keçmişlər və bu, Novruzla Dəmirtaşın məğlubiyyətində mühüm amil olmuşdur.

813-cü ildə (1410) Hələb valisi Qorxmaz dulqədirli ulusunun ən böyük boylarından biri olan doqquz boyunun başçısı Bişan oğulları ilə vuruşmaq üçün Köpək oğullarını və Gündüz oğlu Gördü bəyi əsgərləri ilə birlikdə öz yanına çağırmışdı. Ancaq bu bəylər gecikdilər. Qorxmaz Bişan oğullarına Maraşla Köynük arasındakı yurdlarında basqın etdi. Vuruşmanın axırlarına yaxın Köpək oğulları Ay-Doğmuş və Hüseyn bəy 200 atlı ilə gəlib çıxdılar. Ancaq Ay-Doğmuş Qorxmazın üzünə ox atdı. Buna görə Qorxmaz Antəbə gələndə Hüseyn bəyi və onun yaxın adamlarını həbs edərək, Hələbə göndərdi. Ancaq yolda türkmənlər öz bəylərini və onunla birlikdə həbs edilənləri xilas etdilər[2].

Hüseyn bəyin bu hadisədən sonra Malatyanı ələ keçirdiyi məlumdur. 815-ci ildə (1412) sultan olan Şeyx 817-ci ildə (1414) Hələbdən Darəndəyə, oradan da Malatyaya gəlmiş və buraya öz məmlüklərindən Gözəli vali təyin etmişdi. Hüseyn bəyə gəlincə o, Şeyxin yaxınlaşdığını öyrənən kimi şəhərdən çıxıb getmişdi[3]. Ancaq Hüseyn bəy iki il sonra Malatya valisi Gözəli məğlub edərək, şəhəri ələ keçirdi[4]. Ertəsi il məmlük sultanı Şeyx əldən çıxan yerləri geri almaq və türkmənləri ram etmək üçün şəxsən səfərə çıxdı. Hələbə çatanda Hüseyn bəyi Malatyadan qovmaq üçün Dəməşq valisinin sərkərdəliyi altında bir ordu göndərdi.

Bu ordunun tərkibində əfşarlardan və inallulardan 500 nəfərlik bir piyada bölüyü vardı. Bu, Qut bəyi oğulları əfşarı və ya müstəqil bir oymaq idi. Şeyx Maraşın cənubundakı Köynükdə ikən Dəməşq valisindən gələn bir məktubda Köpək oğlu Hüseyn bəyin Malatyanı yandırıb Divriyi tərəflərə getdiyi bildirilirdi. Sonra onun Divriyidən də Osmanlı ölkəsinə keçdiyi öyrənildi[5]. Ancaq Şeyx Misirə qayıdan kimi Hüseyn bəy təkrar məmlük torpaqlarında peyda oldu. Darəndə valisi onun qarşısına çıxsa da, əsir alınıb öldürüldü[6]. Bunun ardınca Hüseyn bəy Malatyanı mühasirəyə aldı, lakin bir qədər sonra mühasirəni qaldıraraq, qaraqoyunluların Ərzincan valisi Pir Ömərin yanına getdi. Burada bir gecə yuxuda ikən Tağrı-Birdi adlı bir məmlük əmiri tərəfindən öldürüldü (3 cəmadiyüləvvəl, 821 - 8 iyul 1418).

Bu Tağrı-Birdi Malatya mühasirəsi zamanı şəhərdən çıxıb ona sığınmışdı. Ancaq bu, bir hiylə idi. Tağrı-Birdi Malatya valisinin də məsləhəti

---

[1] Yenə orada, 312 b-313 a.
[2] Yenə orada, 342 a-343 a.
[3] Eyni, № 2396, s. 393.
[4] Məkrizi, № 2389, 62 b, 97 b; Eyni s. 430.
[5] Yenə orada, 141 a - 145 b.
[6] Yenə orada, 171 a; Eyni, s. 464.

üzrə imkan tapıb Hüseyn bəyi öldürmək üçün belə hərəkət etmişdi[1]. Bu minvalla Şeyx onu xeyli narahat edən Hüseyn bəydən qurtuldu. Çərkəz məmlüklərinin məğlub edə bilmədikləri türkmən bəylərini sui-qəsdçilər əlilə ortadan qaldırmağa əskidən bəri adət elədikləri müşahidə olunur. Halbuki türkmənlər bu üsula əl atmırdılar. Həqiqətən cəsur, fəal və gözəl bir savaşçı olan Hüseyn bəyin aqibəti belə oldu. Zənnimizcə, o, Malatya bölgəsində bir bəylik yaratmaq qayəsini güdürdü. Hüseyn bəydən sonra Köpəklu əfşarlarının başçısı onun qardaşı Əsləməz olmuşdur. Əsləməz 839-cu ildə (1435/ 1436) digər bir əfşar bəyi olan Qut bəyi oğlu Məhmətlə Sultan Baybarsın qohumu Can bəy Sufinin yanına gedib onunla birlikdə Malatyanı mühasirəyə almışdı[2]. Ancaq Əsləməz sonra Can bəydən ayrılaraq Qahirəyə gəldi və Baybarsın ənam və iltifatlarına məhzər oldu[3].

Əmir Yeşbəy Dulqədir oğlu Şahsuvar bəylə vuruşmaq üçün Hələbdə olarkən (zilhiccə, 875-may-iyun, 1471) türkmən bəyləri onun hüzuruna gəlmişdilər. Əsləməz oğlu Məhəmməd də onların arasında idi[4]. Beləliklə, Köpək oğulları haqqında məmlük tarixlərindəki qeydlər bunlardan ibarətdir. Bu ailənin sonrakı taleyi haqqında məlumatımız yoxdur.

Osmanlı dövrünün ilk illərində köpəklu əfşarının başında Tukak bəy oğlu Əmənlik bəy dururdu. Ancaq bu bəylərlə yuxarıda adı çəkilən bəylərin qohumluq münasibətləri haqqında bir şey söyləmək mümkün deyil.

Əfşar Köpək oğullarının şəcərəsi:




B. Gündüz oğulları

Əfşarların ikinci ailəsinin yurdu Amik ovasında idi. Bu gün Qırıq xandan Xassaya gedərkən 12-ci kilometrdə yoldan təqribən 800 metr solda dəyirmanların yerləşdiyi sulu və yaşıl sahənin bu ailənin yurdu olduğu bilinir. Bura bu gün də Gündüzlü adlanır. Bu yer Çuxurovaya gedən kəsə boğaz yolunun başında olduğu üçün nəqliyyat baxımından əskidən bəri mühüm bir yer sayılırdı. Həcc qafilələri və ticarət karvanları qısa olduğu üçün bu yola

[1] Yenə orada, 209 a - b; Eyni, s. 465.
[2] Yenə orada, 165 b, 166 a.
[3] Yenə orada, № 3372, 169 b.
[4] Tarixi-Yeşbəy, 120 a.

üstünlük verirdilər. Gündüzlüdən sonra bu məntəqələr vasitəsilə birbaşa Payasa enmək mümkün idi: Alan yaylası, Qatır Holuğu, Buzdonduran, Paç (Bac), Payas. Qırıq xanın şimalında, Gündüzlünün cənub-qərbindəki Dərbsak qalasının çox vaxt bu ailənin əlində olduğunu bilirik.

Gündüz oğullarından tanıdığımız ilk bəy Gördü bəydir. O, eyni zamanda ailənin ən məşhur şəxsiyyətidir. Məmlük əmiri Çəkimin Qara Yölükün üzərinə səfəri zamanı ölməsi nəticəsində (17 zülqədə 809 - 25 aprel 1407) Hələb yenə məmlük əmiri Təmür Buğa əl-Məştubun əlinə keçmişdi. Təmür Buğa da Çəkim kimi Hələb bölgəsindəki türkmənləri itaət altına almaq istədi və bu məqsədlə Gördü bəyin üstünə səfərə çıxdı. Gördü bəy bu zaman Amik ovasını bütünlüklə hakimiyyəti altına almışdı. Amik ovasında baş verən bir vuruşmada Təmür Buğa ağır surətdə məğlub oldu. Başı pozuq halda Hələbə qayıdan Təmür Buğanın yanında çox az adam qalmışdı (810-1408)[1]. O biri il (811-1409) Gördü bəyi üsyançı əmirlərdən Novruz ilə vuruşmağa gedən Hələb valisi Dəmirtaşın yanında görürük. Əslində, Gördü bəylə Dəmirtaş arasında səmimi dostluq münasibəti vardı.

Ertəsi il Dəmirtaşın tövsiyəsi ilə sultan tərəfdarı Novruz üsyançı əmir Şeyx ilə Asi çayı sahilində üz-üzə gəldi. Novruzun ordusunda Hələb valisi Dəmirtaşdan başqa Dulqədir oğlu Əli bəy, Gündüz oğlu Gördü bəy, Köpək oğlu (?) əfşarlardan Qut bəyi oğlu Məhmət, bayatlardan Bozca bəy vardı. Vuruşmada Şeyx qalib çıxdı. Məğlub olan Novruz Xama şəhərinə sığındı. Dəmirtaş, Dulqədir oğlu Əli bəylə Gördü bəy də yanında idi. 814-cü ilin rəbiül-axırında (iyul-avqust, 1411) Gündüz oğlu Gördü bəy Antakyanı Özər oğlunun əlindən almışdı[2].

Şeyxin sultan olmasını qəbul etməyən Novruz 816-cı ildə (1413) Hələbə hücum etdi. Bunu eşidən Hələb valisi Dəmirtaş şəhərdən çıxaraq Amikə getdi, orada dostu Gördü bəy və onun qardaşı Ömər bəylə görüşdü[3]. 817-ci ilin zülqədə ayında (yanvar-fevral, 1415) Hələb valisi İnal əl-Süslani Gördü bəyin üzərinə yürüş etdi. Yürüşün səbəbi bilinmir. İnalla qarşılaşmağa cəsarət etməyən Gördü bəy qaçmış və Hələb valisi gündüzlülərin çoxlu qoyununu ələ keçirmişdi. Gördü bəy dulqədirli Əli bəyin yanına gələrək ondan Hələb valisi ilə barışmaqda vasitəçi olmasını xahiş etdi. Dulqədir oğlunun vasitəçiliyi ilə barışıq əldə edildi və Gördü bəy Amikə qayıtdı[4]. Ancaq bir qədər sonra (rəbiül-axır, 818 - iyun-iyul, 1415) Hələb valisi İnalın təkrarən Gördü bəyin üstünə yürüdüyünü görürük. İnalın yanında Trablis valisi Sudun bin Əbdürrəhman da vardı. Gördü bəy onların gəldiyini görcək Gavur

[1] İbn Tağrı-Birdi. Əl-mənxəl üs-safi, 220 a. (İbn Xətib ün-Nasiriyyənin əsərindən iqtibas etmişdir).
[2] Məkrizi, № 4387, 362 b.
[3] Yenə orada, № 4389, 16 a.
[4] Yenə orada, 49 a.

dağlarına sığındı. İnal türkmənlərin qoyun və sığırlarının çoxunu zəbt etdikdən sonra Gündüz oğullarına mənsub Dərbsak qalasını mühasirəyə aldı, mühasirənin üçüncü günü qalanı tutdu.

Gördü bəy və oymağının çoxu qaçdı. Bəyin özü Maraşa getdi, gündüzlü əfşarları isə Gündüzün nəvəsi Dəmirxan oğlu Farisin ətrafına yığışdılar[1]. Hələb valisinin Gördü bəyə hücumu, şübhəsiz ki, məmlük hökmdarı Şeyxin buyruğu ilə təşkil olunurdu. Türkmənlərin məmlük dövləti üçün təhlükəli bir ünsür olduğunu bilən Şeyx onların qüvvəsini zəiflətmək siyasətini güdürdü. Hətta türkmənlərin əlinə keçmiş bəzi yerləri geri almaq və onları tamamilə özünə tabe etmək üçün 820-ci ildə (1417) Misirdən Suriyaya hərəkət etmiş, yolda Dulqədir oğlu Əli bəy, Gündüz oğlu Gördü bəy və Saqqalsız oğlu Toğruldan bağışlanmalarını xahiş edən və itaətlərini bildirən məktublar almışdı[2].

Gördü bəylə bağlı son məlumatımız onun 824-cü ildə (1421) Hələbdə Tatarın əmri ilə öldürülməsidir. Əl-Məlik ül-Müəyyəd Şeyx 824-cü ildə öldükdə dövlətə hakim olan Tatar müxalifəti ləğv etmək məqsədilə Dəməşqə, oradan da Hələbə gəlmişdi. O burada olanda ətrafdakı türkmən bəyləri hüzuruna gəlmişdilər. Gördü bəy də onların arasında idi. Ancaq digər türkmən bəylərinə xələt geyindirildiyi halda, Gördü bəy Tatarın əmrilə asılaraq öldürüldü. Tatar bunu sırf Təmür Boğa əl-Məşdubun 810-cu ildəki məğlubiyyətinin qisasını almaq üçün etmişdi. Çünki məğlubiyyətdən sonra Təmür Buğa ilə Hələbə qaçanlardan biri də özü idi. Adının əksinə çərkəz olan Tatar o qədər kinli bir insan idi ki, itaətini bildirmək üçün hüzuruna gəlmiş bir əmirdən çox köhnə və adi bir hadisənin intiqamını almaqda tərəddud etməmişdi. Halbuki Gördü bəy məmlük tarixçiləri üzərində böyük təsir buraxmış əmir idi. İbn Tağrı-Birdi onun böyük bir əmir olduğunu və zamanında yolun təhlükəsiz olduğunu yazır[3].

Gördü bəydən sonra onun yerinə kimin keçdiyi bilinmir, 875-ci ildə (1471) gündüzlü əfşarlarının başında Ömər bəy dururdu. O, oymağı ilə birlikdə Amik ovasında yaşayırdı[4]. 887-ci ildə (1482) isə Gündüz oğullarından Məhmət bəy tarix səhnəsinə çıxdı. Həmin il Çuxurovanı istila edən Osmanlı ordusu ilə türkmənlər arasında baş verən vuruşmada türkmənlər məğlub oldular. Ramazan oğlu Ömər bəy əsir alındı. Gündüz oğlu Məhmət bəy həlak oldu, Özər oğlu isə qaçıb canını qurtardı[5].

Gündüzlü əfşarlarından bir qol İrana getmişdir ki, ondan sonra bəhs ediləcəkdir.

---

[1] Yenə orada, 62 a; Eyni, s. 417.
[2] Məkrizi, 138 a.
[3] İbn Tağrı-Birdi. Əl-mənxəl üs-safi, 220 a-b.
[4] Tarixi-Yeşbəy, 137 a, 137 b.
[5] Aşıq Paşazadə, s. 216.

Gündüz oğulları şəcərəsi:




Bu əfşar ailəsi Hələb dolaylarındakı əfşarların başçısı idi. Onlar Qut bəyli adı ilə tanınmışlar. Bu ailəyə mənsub Məhmət bəy 812-ci ildə (1410) Novruzla Şeyx arasında baş verən vuruşmada Şeyxin əsgərləri tərəfindən əsir alınmışdı[1]. 839-cu ildə (1435/1436) Can bəy Sufi ilə birləşib onunla birlikdə Malatyanı mühasirəyə alan Qut bəyi oğlu Məhmət[2] eyni şəxsdirlər. Qut bəylilərin Uzun Həsənlə qaraqoyunlu Cahan şah Mirzənin sərkərdəsi Tarxan oğlu Rüstəm arasında 1457-ci ildə baş verən müharibədə ağqoyunlu ordusu səflərində olduqları bilinir[3]. Bu ailəyə dair başqa məlumatımız yoxdur.

*XVI və XVII əsrlərdə əfşarlar*

**1. Hələb türkmənləri.**

Xüsusilə birinci hissədə göstərildiyi kimi, ağqoyunlu və səfəvi dövlətlərinin əsgəri baxımdan osmanlı və məmlük dövlətlərinin əksinə olaraq, türk köçəri təşəkkülünə əsaslanması sayəsində Cənub-Şərqi Anadolu və Şimali Suriyadakı türk icmalarından mühüm elatların İrana getmələrinə səbəb olmuşdur ki, onların arasında əfşarlara mənsub oymaqlar da vardı. Buna görə də, osmanlı hakimiyyətinin əvvəllərində Hələb türkmənləri arasındakı əfşarlar həmin icmanın digər oymaqları kimi böyük nüfuza sahib deyildilər. Yəni İrana köç səbəbilə onların əhalisi azalmışdı. Qanuni Süleyman dövrünün ilk illərində Hələb türkmənləri arasında köpəkli əfşarı və gündüzlü əfşarı qolları ilə bərabər bir müstəqil əfşar oymağı da müşahidə olunur.

Köpəkli əfşarı həmin dövrdə Dukak bəy oğlu Əmənlik bəyin idarəsi altında idi. Bu bəyin yuxarıda bəhs edilən Köpək oğulları ailəsindən olduğu bilinir. Bu zaman onlar 15 obaya ayrılmışdılar. Onların arasında köçəkli, səkkiz, alplı və dəlilər, Ay Doğmuş bəyli kimi obaları qeyd etməyə dəyər.

[1] İbn Tağrı-Birdi. Ən-nücum üz-zahirə, VI, s. 225.
[2] Məkrizi, 163 b, 166 a; Əbubəkr Tihrani, I, s. 110.
[3] Əbubəkr Tihrani, I, s. 273.

Ay Doğmuş bəyli obası, şübhəsiz, öz adını Köpək oğlu Ay Doğmuşdan alır. Səkkiz obası XVI əsrin ortalarında Sürucun Şeyx Çoban kəndində yerləşmişdi. Alplıya gəlincə, bu obadan mühüm bir qolun İrana getdiyi məlumdur. Dəlilərin isə son illərə qədər öz varlığını davam etdirdiyi müşahidə olunur. Köpəkli əfşarının Yeni-el və Boz-ulusda da bəzi qolları vardır ki, bunlardan aşağıda bəhs ediləcəkdir. Gündüzlü əfşarı isə daha az saylı olub 8 obadan ibarət idi. Bu, onların çoxunun İrana getməsi ilə izah oluna bilər. Müstəqil əfşar oymağına gəlincə, bu oymaq XV əsrin ikinci yarısında cəmisi 158 vergi evindən ibarət idi. Dəftərlərdəki qeydə görə, məmlük dövründə iqta sahibi olan bu oymaq Osmanlı dövründə də bu iqtanı qorumuşdur[1]. XVI əsrdə Türkiyədə köçəri və oturaq xalq arasında əhali artımına uyğun olaraq bu əfşarların sayı da artmışdır. Həmin əsrin ikinci yarısında həm oturaq, həm də köçəri camaatın başçısı olan əski bəy ailələri ortadan qalxmışdı. Bu hadisənin qaneedici izahı verilməmişdir. Bununla bərabər, oymaqlara mənsub ailələrdən bir çoxunun İrana getmiş olduğu düşünülə bilər. Nəticədə oymaqların başındakı bəy ailələrinin yerini obaları idarə edən və ağa ünvanını daşıyan kəndxuda ailələri almışdır[2]. Eyni proses əfşarlarda da getmişdir. 989-cu ildə (1579/1580) əfşarların başında Rəcəb, Bəhri və Kiçik Minnət adlı kəndxudalar dururdu. Onlardan Rəcəb və oğulları o qədər qüdrətli olmuşlar ki, XVII əsrdə əfşarlar çox zaman rəcəbli əfşarı adı ilə tanınmışlar[3]. Onların hələ XVI əsrin ikinci yarısında Kayserinin şərqində, Zamantı çayı boyunda yaylağa çıxdıqları bilinir.

Əfşarlar Rəcəb oğullarının rəisliyində 1098-ci ildə (1687) Avstriya səfərində iştirak etmiş[4], 1101-ci il (1090) səfərinə də çağırılmışlar. Bu son səfərdə əfşarlar aşağıdakı bəylərin başçılığı altında 200 atlı ilə iştirak etmişlər:

Rəcəb oğlu Xəlil bəy
Rəcəb oğlu Dana Murad bəy
Çərkəz oğlu Hacı Mustafa bəy
Çərkəz oğlu Ömər bəy
Dəli Seyf oğlu Mirə Müəmmər bəy
Bəhri oğlu Hümmət bəy
Qara Gündüz oğlu Qara Xəlil Kətxuda
Kor Əli oğlu Gündüz Kətxuda
Hacı İvaz oğlu Doqquz İbrahim bəy
Hacı İvaz oğlu Abaza bəy
Qara Gündüz oğlu Murad bəy[5].

---

[1] Hələb sancağı təhrir dəftəri. Baş nazirlik arxivi, (Qanuni), № 1040. s. 59-66, 88, 92; F. Sümər. Əfşarlara dair. Köprülü ərmağanı, İstanbul, 1953, s. 454-458.
[2] Əhməd Rəfiq. Anadoluda türk əşirətləri, s. 47.
[3] Katib Çələbi. Cahannüma, s. 593.
[4] Fındıqlı Məhmət ağa. Silahdar tarixi, II, s. 271.
[5] Əhməd Rəfiq. Göstərilən əsər, s. 82.

Bu adlara baxaraq əfşarların beş əsas ailə (yəni Rəcəb, Çərkəz, Bəhri, Qara Gündüz, Hacı İvaz) tərəfindən idarə olunduqları, hətta onların adlarına nisbət adlandıqları anlaşılır: rəcəbli əfşarı, bəhrili əfşarı, qara gündüzlü əfşarı.

Yuxarıdakı əfşar bəylərinin adları arasında Çərkəz və Abaza adları diqqəti cəlb edir. XVI əsrin ikinci yarısında Boz-oxda uzun müddət sancaq bəyi olan türk mənşəli İsa bəy oğlu Çərkəz adlı bir bəy vardı. Əfşarlar Çərkəz adını o bəyin xatirəsindən almış ola bilərlər. Yaxud ellərindəki çərkəz və abxaz kölələri buna səbəb ola bilər. Bu xüsus nə olursa-olsun əfşar bəy ailəsinin zəmanəmizədək gələn nəvələri arasında Çərkəz adlı şəxslər var. Hətta Çərkəz adlı bu əfşar bəylərinin şöhrətindən dolayı Çuxurovada əfşar olmayan başqa bəy ailələri arasında da bu adı daşıyan adamlara təsadüf edilir. Ancaq qəribə bir təsadüfdür ki, əfşar bəylərinin adını daşıdığı qövm, yəni çərkəz və abxazlar XIX əsrin ikinci yarısında Qafqazdan Türkiyəyə gələrkən onların mühüm qismi məhz əfşarların yaylaqlarına yerləşdirilmişdi.

**2. Boz ulus.**

Boz ulus arasındakı əfşarlar bu elin üç icmasından biridir. Sayca onların ən çoxu şam türkmənləri arasında yaşayır. Daha əvvəl də deyildiyi kimi, Boz ulusun şam türkmənləri icması Hələb türkmənləri oymaqlarından meydana gəlmişdir. II Səlim dövründə şam türkmənləri arasındakı əfşarlar müxtəlif qollara ayrılmışdı ki, onlardan Məhmət Kətxudaya tabe olan oba 804 nəfər vergi verən əhaliyə malik bir təşəkkül idi. Ondan sonra gələn kazıklı əfşarı obası 130, Qara Mahmud Kətxudaya tabe oba 131, Hacı Kətxudanın rəhbərlik etdiyi oba 57, Duymuş Kətxudanınkı isə 41 nəfərlik idi. Yenə həmin Şam türkmənlərin elatında biri 367, digəri 109 nəfərlik (vergi verən) köpəkli əfşarına mənsub iki oba vardı[1].

Əsil boz-ulus və dulqədirli elatındakı əfşar varlığı zəif olub kiçik obalara ayrılmışdı. 996-cı ildə (1588) Boz ulus əfşarlarının başçılarına, o cümlədən Cahan şah Kətxudaya göndərilən bir fərmanda[2], başına yığdığı adamlarla birlikdə quldurluq edən sabiq Deyr Rəhbə bəyi Əbdürrəhmanın sözünə bundan sonra aldanmamaq, əsgər istəsə verməmək, onun yaxalanmasına çalışmaq əmr edilirdi.

Boz ulusun hər üç elatındakı əfşar obalarından bəziləri Boz ulusun Orta Anadoluya köçən təşəkkülləri arasında olmuş, əsasən Qaraman əyalətində yurd salmışlar[3]. Daha ziyadə şam türkmənlərinə mənsub bəzi əfşar obaları isə icmanın bir qismi ilə əvvəlki yurdda qalmışdır. Sənədlərdə «Boz ulus mandəsi» adı verilən bu icma XVII əsrin sonunda Rəqqa bölgəsinə yerləş-

---

[1] Boz ulus dəftəri. Baş nazirlik arxivi, (II Səlim), № 561, 15 6-23 a, 58 b.
[2] Mühimmə dəftəri. Baş nazirlik arxivi, № XXIV, s. 62.
[3] Əhməd Rəfiq. Göstərilən əsər, s. 219.

dirilsə də[1], icmanın obaları bir-bir, iki-bir Anadolunun qərb tərəflərinə getmişlər, 1128-ci ildə (1716) Balıkesir vilayətinin Mihaliç qəzasında görünən köpəkli əfşarı obası[2], Yeni-elə deyil, məhz boz ulusa aid köpəkli əfşarından olmalıdır.

**3. Dulqədirli əfşarları.**

Bu əfşarların əslində Şimali Suriya əfşarlarının bir qolu olduğunu daha əvvəl söyləmişdik. Dulqədirli ulusu arasındakı əfşarlar Maraş, Kars (Qədirli) Yeni-el və hətta Boz-ox bölgəsinə dağılmış halda idi. Onlardan ən mühümü imanlı əfşarı olub, əsasən Maraş bölgəsində yaşayırdı.

a) Maraş (imanlı əfşarı). İmanlı əfşarı XVI əsrin birinci yarısında 27 obadan meydana gəlmişdir. Ümumiyyətlə, şəxs adları daşıyan və kəndxudalar tərəfindən idarə edilən bu obaların yaylaq və qışlaqları müxtəlif yerlərdədir. İmanlı əfşarının bədil əfşarı və digər bir çox obaları bəriyyə, yəni Suriya çölündə qışlayır və Maraş sancağının müxtəlif yerlərində yaylağa çıxırdılar. Digər obaların qışlaqlarının isə Çuxurovanın Kınık, Özər yörələrində, hətta Latakiyyə (Lazikiyyə) ətrafında olduğu bilinir. İmanlı əfşarı obalarının Diyarbəkir bölgəsində sakin olduqları məlumdur[3]. XVI əsrin ikinci yarısında imanlı əfşarı obalarının bir qismi öz qışlaq və yaylaqlarında yerləşmək surətilə köçəri həyata vida etmişdir. 971-ci il (1563-1564) tarixli bir dəftərdən[4], bəzi obaların Antəb şəhəri dolaylarındakı kəndlərdə yerləşmiş olduğunu öyrənirik. İmanlılardan mühüm bir qol da İrana getmişdir.

b) Kars. Kars (Qədirli) sancağındakı əfşar varlığı iki kiçik obadan ibarətdir[5]. Bunlardan 41 vergi evi olan əfşar obası Andırında qışlayaraq əkinçiliklə məşğuldur. 41 evlik digər əfşar obası isə bu sancaqdakı keçlik adlı bir təşəkkülə bağlıdır.

c) Boz-ox. Bu bölgəyə aid ən qədim təhrir dəftəri yarımçıq olduğu üçün XVI əsrdə burada yaşayan əfşarlar haqqında tam məlumatımız yoxdur. Bu dəftərdən həmin bölgədəki əfşar qoluna mənsub ancaq bir neçə obanın vergi verən əhalisinin sayı və yurdlarının adını öyrənmək mümkündür[6].

**4. Yeni-el.**

Yeni-eldəki əfşarlardan üç oba (boynu qısalı, dəlilər, səkkiz) köpəkli əfşarına[7], digəri də (bidil əfşarı, taifi əfşarı, qızıl Süleyman və s.) imanlı əfşarına mənsub idi[8]. İmanlı əfşarı obalarından qələbəlik əhalisi olan bidil əfşarı təşəkkülü Yeni-elin ləğv olunması nəticəsində qərbə köçmüş və Ankaranın

[1] Əhməd Rəfiq. Göstərilən əsər, s.100: Ç.Orxonlu. Göstərilən əsər, s. 57,767.
[2] Kamil Su. Balıkesir və civarında yörük və türkmənlər. İstanbul, 1938, s. 65-66.
[3] Dulqədirli təhrir dəftəri. (Qanuni), № 402, 337 b - 345 b.
[4] Maraş sancağı dəftəri. TKÜM arxivi, № 116, 197 b - 201 a.
[5] Kars sancağı dəftəri, TKÜM arxivi, № 168, 126 a - b, 286 a.
[6] Boz-ox sancağı dəftəri. Baş nazirlik arxivi, № 448, 10 b.
[7] Yeni-el dəftəri, 23 a-b, 29 b, 30 a, 85 a, 90 b.
[8] Yeni-el dəftəri. TKÜM arxivi, № 137, 29 b, 93 a, 97 a.

Bala qəzasında yurd salmışdır. Ankarada Muğan gölü yaxınlığındakı bir yer də bu oymağın adını daşıyır.

**5. Sis (Kozan).**

XVI əsrdə Sis yörəsində qələbəlik bir əfşar qolu yaşayırdı. 925-ci ildə (1519) onlar 28 obaya ayrılmışdır. Bu obalardan bir neçəsi istisna olmaqla hamısı əkinçiliklə məşğul idilər[1]. Sis əfşarlarının buraya 1375-ci ildəki məmlük fəthi nəticəsində gəldikləri qənaətindəyik. Məmlük ordusu ilə birlikdə bu səfərdə boz-ox və üç-ox türkmənləri də iştirak etmişdilər. Bu əşfarları XVIII əsrdən etibarən Hələb bölgəsinə getməyərək Çuxurovada qışlayan, Zamantı bölgəsində yaylağa çıxan əfşarlarla qarışdırmaq olmaz. Sonuncular yuxarıda deyildiyi kimi, Hələb türkməni əfşarları idilər. Bir az sonra onlardan bir daha bəhs olunacaqdır.

Əfşarların Orta və Qərbi Anadoluda yer adlarına sahib oğuz boyları arasında ən başda gələn təşəkküllərdən biri olduğunu əvvəlcə söyləmişdik. Bununla bərabər o bölgədəki yörük icmaları arasında da bu boyun adını daşıyan bəzi oymaqlar görünür.

**6. Uşaq.**

Uşaq bölgəsi XVI əsrdə olduqca mühüm bir yörük icmasının yaşadığı yer idi. II Səlim dövründə onların arasında çox böyük bir əfşar oymağı da müşahidə edilir. Bu oymaq xoca fəqihli (54 vergi mükəlləfiyyətli adam), öksüzlər (102), musacalı (56), əfşar (56), əfşarlı (65) olmaq üzrə beş obaya ayrılmışdır[2].

**7. Aydın.**

Aydının Boz-doğan qəzası daxilində Çullular adlı bir oymaq arasında 28 nəfərlik (vergi verən) əfşar adlı bir oba, Birədi çevrəsində isə əhalisi onun qədər olan əfşarlı və balabanlı adlı başqa oba da vardı[3]. Bunlardan başqa, Ankaranın cənub-qərbində yaşayan Xaymana adlı icmaya mənsub sanlı oymağının obaları arasında da (Sivri Qarahisar torpağı) 35 vergi evli əfşar adlı bir oymaq var[4].

*XVIII və XIX əsrlərdə əfşarlar*

Bu fəsildə yalnız Hələb türkmənləri əfşarlarının törəmələrindən bəhs ediləcəkdir. Ana boyun əsil qalığı olan bu əfşarların da İrana gedən boydaşları kimi qüvvətli bir həmrəylik duyğusuna sahib olduqları bilinir. Buna görə də müxtəlif amillərə baxmayaraq, onlar Firqeyi-İslahiyyə gələnə qədər güclü və məğrur bir oymaq olaraq öz varlıqlarını mühafizə etmişlər.

[1] Çuxurova dəftəri. Baş nazirlik arxivi, № 69, 381 a, 393 a.
[2] Kütahya sancağı dəftəri. TKÜM arxivi, № 16, 326 a-327 b, 374 a.
[3] Aydın sancağı dəftəri. Baş nazirlik arxivi, № 270, 506-51 a.
[4] Ankara sancağı dəftəri. Baş nazirlik arxivi, № 117, 308 a.

1102-ci ildə (1691) Rəqqa bölgəsinə köçürülmələri əmr edilən türkmənlər arasında bəzi əfşar oymaqları da vardı. Bunlar boz ulusun köhnə yurdunda qalmış olan qisminə bağlı əfşarlarla Yeni-elə mənsub əfşar oymaqları idi. Ancaq boz ulus qalığına (boz ulus mandəsi) bağlı əfşarların Rəqqaya yerləşmələrinə dair heç bir məlumat yoxdur, əvəzində Yeni-elə bağlı əfşarların və onların nəvə-nəticələrinin Rəqqa bölgəsindəki Təll-Şəmmar və Təll-Zivan (?) ətrafında yerləşdirildiklərini bilirik[1]. Rəqqa bölgəsində sonradan Əfşar bucağı deyilən yer onların yerləşdirildikləri yer olmalıdır. Yeni-elə bağlı olduğunu söylədiyimiz əfşarlar və onların nəvə-nəticələrinin oymağının Hələb türkmənləri əfşarlarından, yaxud dulqədirli (imanlı) əfşarından olduğu bilinmir. Bir də 1104-cü ildə (1693) Hama və Xümus sancaqlarında yerləşdirilən oymaqlar arasında qara əfşar ilə gəncəli əfşarı oymaqları müşahidə olunur. Bu axırıncı oymaq Azərbaycandakı Gəncədən gəldiyi üçün bu adı almış ola bilər. Yerləşdirilən bu əfşar oymaqlarının əhalisi seyrək idi[2].

Bu fəslin əsas mövzusunu təşkil edən Hələb türkmənlərinə mənsub qələbəlik əfşar oymağına gəlincə, bu oymaq, daha əvvəl də deyildiyi kimi rəcəbli əfşarı, qara gündüzlü əfşarı, bəhrili əfşarı və b. olmaq üzrə 4-5 obaya ayrılmışdı. Onların ən məşhuru rəcəbli əfşarı idi. Onun əksəriyyətlə köpəkli əfşarından meydana gəldiyi bilinir. Onların XVIII əsrdən etibarən qışlamaq üçün Hələb dolaylarını buraxıb Çuxurovaya endikləri məlumdur.

Bu əfşarlar ilk zamanlarda Rəqqa bölgəsində yerləşmək kimi bir bədbəxtliklə qarşılaşmadılar. Onlar dövləti inandırmışdılar ki, guya Zamantı çayı sahilində yerləşəcəklər. Yerləşmək bir yana, orada dinc durmurdular. Onlar tez-tez qonşu oymaqların və kəndlərin heyvanlarını sürüb aparır, (buna qovğun deyilir), bəzən də tacir karvanlarının qabağını kəsirdilər. Əfşarlar bu işləri o qədər tez-tez gördülər və yayğın bir hala gətirdilər ki, nəhayət, 1115-ci ildən (1703) bir qədər əvvəl Rəqqaya sürüldülər[3]. Ancaq orada çox qalmayıb tezliklə qaçdılar. Bununla belə yaylaqlarında rahat durmadıqlarından 1124-cü ildə (1712) təkrarən Rəqqaya göndərilmələri qərara alındı[4]. 1141-ci ildə (1728/1729) rəcəbli əfşarlarının Zamantı yörəsinə yerləşməsinə dövlətin yenidən razılıq verdiyi bilinir[5]. Ancaq onlar əvvəlki kimi yenə də qovğunda və yağmada bulunduqları üçün 1143-cü ildə (1730) bir daha Rəqqaya sürüldülərsə də[6], bir müddət sonra yenə oradan qaçdılar, yağmaçılıq və soyğunçuluğu daha da inkişaf etdirdilər. Onların başçılarından çoxunun edam olunması qərara alındı (1155-1742)[7]. Ancaq bu qərarın nə dərəcədə yerinə yeti-

[1] Ç.Orxonlu. Həmin əsər, s. 57, 59.
[2] Yenə orada, s. 64.
[3] Ç.Orxonlu. Həmin əsər, s. 92.
[4] Əhməd Rəfiq. Həmin əsər, s. 145-147.
[5] Yenə orada, s. 170, 176-177.
[6] Yenə orada, s. 186-187.
[7] Yenə orada, s. 209-210.

rildiyi indilik bilinmir. Bilinən şey əfşarların Rəqqaya köçürülməkdən qurtulduqları və Çuxurovaya enib-qalxmağa başladıqlarıdır. Hətta 1167-ci il (1754) tarixli bir vəsiqədə əfşarların tacirli ilə birlikdə zeynətli və bozdoğanlara hücum edərək 80 min quruşluq davar, at və dəvələrini yağmaladıqlarını, onların başçılarından Qara Nəbi oğlu ilə 15 nəfəri öldürdüklərini oxuyuruq[1].

XVIII əsrin ikinci yarısında baş verən müharibələr üzündən dövlətin Anadoludakı idarəsi çox elastik və zəif hala düşmüşdü. Bunun nəticəsində hər yerdə irili-xırdalı dərəbəyi ailələri törədi, əfşar və onun kimi böyük və qüvvətli oymaqlar da daha sərbəst hərəkət etməyə başladılar. Əfşarların bəxtinə artıq gün doğmuş, onların xoşbəxt günləri gəlmişdi. Kayseri-Əlbistan-Malatya yolu yayda onların nəzarəti altında idi. 1838-ci ildə poçt arabalarına hücum etmiş, yolçuları soymuş, bir kəndə də basqın etmişdilər. Onlar bu hərəkətləri ilə elə bir vahimə yaratmışdılar ki, gələcəyin feldmarşalı alman Moltkeyə əfşarın ucbatından yolun qüvvətli mühafizə birliyi olmadan keçilə bilməyəcək dərəcədə təhlükəli olduğu bildirilmişdi[2]. 1262-1263-cü (1846/1847) illərə aid sənədlərdə əfşarların quzu güdənli oymağı ilə birlikdə Kayseri bölgəsində tez-tez yağmaçılıq hərəkətlərində bulunduqlarından bəhs edilir.

Deyildiyi kimi, əfşarlar yayda Zamantı çayı sahillərində, qışda Çuxurovada Ceyhanın sol sahilində yaşayırdılar. Hər iki yurdlarında da qovğunlar edir, karvanları soyur, digər oymaqlarla vuruşur və dərəbəylərin çəkişmələrində iştirak edirdilər. Onların nəvələri arasında bu gün belə o dövrə dair xatirələr nəql edilir və o dövr «əfşarların al-vur dövrü» adlandırılır. Bu dövr onların əsri-səadətidir. Əslən əfşarlara mənsub olan və ya onlarla yaxın bir qohumluğu olan böyük şair Dadaloğlunun ən gözəl şeirlərindən bir neçəsi bu oymağa aiddir. Bu şeirlərdən biri əfşar igidləri ilə Cadıoğlu və adamları arasındakı vuruşmadan bəhs edir ki, bu mənzumə bugün də əfşarlar arasında muğamla oxunur. Cadıoğluna gəlincə, o da tanınmış bir ailədən idi. Bu ailə indi Kəmərəkdə yaşayır. Xatirələrdə Cingözoğlu ləqəbli, karvan soyan bir əfşar igidindən də bəhs olunur. Cingözoğlu Koroğlu kimi bir şair-yolkəsən idi. Hətta deyildiyinə görə, Maraş valisi Əbdürrəhman paşanın əlindən şairliyi sayəsində qurtulmuşdu. Son əfşar obalarından birinin onun adını daşıması Cingözoğlunun eyni zamanda qeyri-adi şəxs olduğunu göstərir.

Əfşarların Boz-oxdakı pəhləvanlı oymağı ilə də ara-sıra vuruşduqları bilinir. Hətta bu vuruşların birində pəhləvanlı bəylərindən Abidin bəy öldürülür, Həsən bəy isə yaralanır. Ancaq Tomarzadakı erməni yepiskopunun

---

1 Yenə orada, s. 214-215.

2 Türkiyədəki vəziyyət və hadisələr haqqında məktublar. Türkcəyə çevirən Xeyrulla Örs. Ankara 1960, s. 244-245.

Moltkeyə söylədiyi kimi[1], əfşarlar başdan-başa quldurlardan ibarət bir oymaq deyildi. Aralarındakı ipsiz və sapsızlar öz oymağının da düşməni olub camaat tərəfindən təqib olunurdu. Cövdət paşa da[2] əfşar və sırkıntılı oymaqları haqqında: «bunlarda dəxi oğurluq adəti varsa da, kürdlərə nisbətlə çox əhvən və əhli-irz adəmlərdir» demişdir. Əslində, türkmənlər kürdlər və köçəri ərəblər kimi heç bir zaman oğurluq və soyğunçuluğu bir peşə halına gətirməmişlər. Cövdət paşanın işarə etdiyi kürdlər Lək-Vanik əkradı olub hacılar, qırıntılı, ağdaş, qızılqoyunlu kimi özlərinə tabe obalarla Rəqqaya yerləşdirilən oymaqlardan idi, sonralar Rəqqadan qaçıb əfşarların dalına düşərək Kayseri tərəflərinə gəlmiş və onlarla birlikdə Çuxurovaya enib-qalxmağa başlamışdılar.

Yuxarıda adı çəkilən obalardan hacılar, qırıntılı, ağdaş və qızılqoyunlunun Lək-Vanik oymağına sonralar bağlandığı anlaşılır. Adlarının da göstərdiyi kimi, onlar xalis türk olub, bu gün nəvələri də ata-babaları kimi ancaq türkcə danışır, kürdlüklə heç bir əlaqələri yoxdur, məzhəbləri isə xənəfilikdir.

1273-cü ildə (1856) əfşarları təkrar yerləşdirməyə çalışsalar da, bu təşəbbüs uğursuzluğa düçar oldu. O vaxt əfşarların başında böyük bəylərdən Çərkəz bəy və İsmayıl bəy dururdu[3]. Bundan 4 il əvvəl onlar boz doğanlarla yenidən cəngə başlamışdılar[4].

Əfşarlar 1273-cü ildə dövlət tərəfindən yaylaq yerlərində yerləşdirilmək təşəbbüsünə müqavimət göstərməklə son fürsəti əllərindən qaçırdılar. 1282-ci ildə (1865) Firqeyi-İslahiyyə onları yaylaq və qışlaqlarından birində yerləşməyə məcbur edincə, əfşarlar təcirli və cərid oymaqlarının əksinə olaraq öz yaylaqlarında yerləşməyə razı olmuş, bu isə Firqeyi-İslahiyyə rəhbərləri tərəfindən qəbul edilmişdi. Ancaq təəccüblüdür ki, bu zaman onların yaylaqlarına Qafqazdan mühacir olaraq gələn çərkəzlər yerləşdirilirdi. Buna görə əfşarlar pərişan oldular və onların mühüm bir hissəsi dağlıq, bərəkətsiz və az torpaqlarda yerləşmək məcburiyyətində qaldı. Beləliklə, qonşuları mühacir çərkəzlər bərəkətli və geniş torpaqlar sayəsində firavan bir həyat sürərkən, əfşarlar ağılarında da təsvir edilən sıxıntılı və kədərli bir yaşayışa məhkum oldular. Əhalinin artımı səbəbilə onlar indi də pis vəziyyətdə yaşayır və ən yoxsul türk kəndlilərindən sayılırlar. Bununla bərabər, əfşarlar gülərüz, nikbin və nəşəli, İrandakı soydaşları kimi sakit və tərbiyəli adamlardır. Soruşduqda gülümsəyərək «əfşarın al-vur dövrünə» aid qovğunlardan və vuruşlardan bəhs edirlər. Qadınlarının çalışqanlığı qarşısında dərin bir təqdir

---

[1] S. 255.
[2] Təzakir, s. 117.
[3] Əfşar əşirətinin iskanına dair: Məclisi-Vala. Baş nazirlik arxivi, № 8103, 11 səfər 1273.
[4] V.Lanqlua. Kilikiya və Toros dağlarına səyahət, s. 132.

hissi duymamaq mümkün deyil. Məşhur əfşar kilimlərini də dinclik bilməyən əfşar qadınları toxuyurlar.

Kayserinin Pınarbaşı qəzasının Mərkəz nahiyəsinə tabe bəzi kəndlərlə həmin qəzanın Pazar-örən nahiyəsi kəndlərinin çoxu, Sarız qəzası kəndlərinin yarısından çoxu, Tomarzanın Toxlar nahiyəsi kəndlərinin əksəriyyəti əfşarlara aiddir. Adananın Mağara qəzası kəndlərindən Ayvad və Ağdaş-alanı kəndləri əfşarlar tərəfindən məskunlaşdırılmışdır. Çuxurovada bəzi əfşar kəndlərinə, həmin bölgədəki bir çox kəndlərdə isə onlara mənsub ailələrə təsadüf edilir. Bir əsrdən artıq müddət ərzində kənddə yaşamalarına baxmayaraq onlar oba təşkilatını hələ də unutmamışlar. Bu obaların adları və yerləşdikləri kəndlərə aid siyahı belədir[1].

Əfşar obaları və yerləşdikləri kəndlər:

| **Obanın adı** | **Yaşadığı kənd** | **Qəza** | **Nahiyə** |
|---|---|---|---|
| 1.Qara şeyxli | Xan köyü | Pınarbaşı | Pazar-örən |
| | Kültəpə | Pınarbaşı | Pazar-örən |
| | Kaman | Tomarza | Toxlar |
| | Şamanlı | Tomarza | Toxlar |
| | Ala | Tomarza | Toxlar |
| | Arslanbəyli | Tomarza | Toxlar |
| 2.Qoca nallı | Solaqlar | Pınarbaşı | Mərkəz |
| | Əmir uşağı | Tomarza | Toxlar |
| | Qara pınar | Tomarza | Toxlar |
| | Arslan Taş | Tomarza | Toxlar |
| | Çanaq qonağı | Tomarza | Toxlar |
| | Sarız | Sarız | Mərkəz |
| | Yalaq | Sarız | Mərkəz |
| | Kəmər | Sarız | Mərkəz |
| | Qızıl pınar | Sarız | Mərkəz |
| | Quşçu | Sarız | Mərkəz |
| | Qara yurd | Sarız | Mərkəz |
| | Oğlan qayası | Sarız | Mərkəz |
| | Ayranlıq | Sarız | Mərkəz |
| | Molla Hüseynlər | Sarız | Mərkəz |
| | Altı söyüd (qismən) | Sarız | Mərkəz |
| | Hacı Vəlilər | Sarız | Mərkəz |

[1] Mənə bu məlumatı verən Toxların Qaramuqlu kəndində Çərkəz ağaya (c-b Əhməd Yıldırım) və dostum prof. Əhməd Uysal ilə məni yaylaqlara qədər götürmək zəhmətinə qatlaşan Xan kəndindən c-b Cövlət Cərdəyə təşəkkür edirəm.

| | | | |
|---|---|---|---|
| | Day holuq | Sarız | Mərkəz |
| 3.Xəlil oğlu[1] | Qaramanlı | Pınarbaşı | Mərkəz |
| | Qadılı | Pınarbaşı | Pazar-örən |
| | Qızıl-örən | Pınarbaşı | Pazar-örən |
| | Dəmirçili | Pınarbaşı | Mərkəz |
| | Həsirçi | ? | ? |
| 4.Qara Rəcəb[2] | | | |
| a.Ərəb Həsənlər | Qaramuqlu | Tomarza | Toxlar |
| | İcadiyyə | Tomarza | Toxlar |
| | Taxta-kəmər | Tomarza | Toxlar |
| | Zəlhin | Tomarza | Toxlar |
| | Pazar-örən (nahiyə mərkəzi) | Pınarbaşı | Pazar-örən |
| b.Hacı Mustafa[3] | Xassə | Pınarbaşı | Pazar-örən |
| | Sözgün | Pınarbaşı | Pazar-örən |
| c.İbrahim bəy[4] | Söyüdlü (qismən) | Tomarza | Mərkəz |
| | Taf (qismən) | Tomarza | Toxlar |
| | Toxlar (qismən, nahiyə mərkəzi) | Tomarza | Toxlar |
| | Madrasan (qismən) | Tomarza | Toxlar |
| | Kəsr (qismən) | Tomarza | Toxlar |
| 5.Cingöz oğlu[5] | Sindal | Pınarbaşı | Pazar-örən |
| | Çördük [6] | Pınarbaşı | Pazar-örən |
| | Ağ hin | Tomarza | Toxlar |
| 6.Xəlil Paşa oğlu | Gözəlçə | Tomarza | Toxlar |
| | Məlik viran | Tomarza | Toxlar |
| | Canlılı | Tomarza | Toxlar |
| 7.Torun[7] | Potuxlu | Pazar-örən | Mərkəz |
| | Altıbarmaq | ? | ? |
| | Yerəkeçən | Pazar-örən | Pazar-örən |
| | Orucoğlu | Pazar-örən | Pazar-örən |
| | Damızlıq | Sarız | Pazar-örən |

[1] Bu obanın adı 1101-ci ildə (1690) Avstriya səfərinə çağırılan əfşar bəylərindən Rəcəb oğlu Xəlil bəylə əlaqədar ola bilər.
[2] Qara Rəcəb obası rəcəbli əfşarına öz adını verən Rəcəb Kətxuda, yaxud onun eyni adlı bir nəvəsi ilə əlaqədar olmalıdır. Ancaq bu, dəqiq bilinmir.
[3] Bu, həmin Avstriya səfərinə çağrılan Çərkəz oğlu Hacı Mustafa olmalıdır.
[4] Bu isə eyni səfərə çağrılan Hacı İvaz oğlu İbrahim bəy ola bilər.
[5] Daha əvvəl də deyildiyi kimi, əfşarlar Cingöz oğlu adlı bir şair-quldurdan bəhs edirlər.
[6] Çərkəz ağanın fikrincə, məşhur şair Dadaloğlu sindallı və ya çördüklü idi.
[7] Əfşarların ən igid obası sayılır.

| | | | |
|---|---|---|---|
| | Qara pınar | Sarız | Pazar-örən |
| | Söbə-çəmən | Sarız | Pazar-örən |
| | Dəştia | Sarız | Pazar-örən |
| | Çavdar | Sarız | Pazar-örən |
| | Yeddi holuq | Sarız | Pınar-örən |
| | Qısqaclı | Sarız | Pazar-örən |
| | Çəmən | Sarız | Pazar-örən |
| 8.Dəllər (Dəlilər)[1] | İydəli | Pınarbaşı | Mərkəz |
| | Qızıl dərə | Pınarbaşı | Mərkəz |
| | Əməgdil | Pınarbaşı | Mərkəz |
| | Bağçacıq | Pınarbaşı | Mərkəz |
| | Gurlayan | Pınarbaşı | Mərkəz |
| | Taxtalı | Pınarbaşı | Mərkəz |
| | Qılın qışla | Pınarbaşı | Pınar-örən |
| | Onqurçular | Pınarbaşı | ? |
| 9.Türkmən əlilər | Sarız | Sarız | |
| | İncə dərə | Sarız | |
| | Əsirlik | Sarız | |

Əfşarlardan Qara Rəcəbin şəcərəsi:




[1] Bunun köpəkli əfşarının dəlülər obası olduğu şübhəsizdir.
[2] 1273-cü il (1856) tarixli fərmanda adı çəkilir. Firqeyi-İslahiyyə gələrkən (1281-1865) Çərkəz bəy həyatda deyildi.
[3] Şəcərədə göstərildiyi kimi, Çərkəz bəyin oğlu Hacı bəy əfşarların məskunlaşdırıldığı zaman onların başçısı idi (Cövdət Paşa. Təzakir, s. 157).
[4] Mənə bu məlumatı verən Çərkəz ağa.

Bu şəcərədəki Qara Rəcəbli 989-cu ildə (1581) haqqında danışılan Rəcəb Kətxuda eyni adam olmalıdır. Rəcəb Kətxudaya tabe əfşarlar daha sonrakı əsrlərdə rəcəbli əfşarı adı ilə tanındılar. İəcərədə Rəcəbin nəvəsi kimi göstərilən Hacı Mustafa bəy 1101-ci ildə (1690) Avstriya səfərinə çağrılan Çərkəz oğlu Hacı Mustafa bəy ola bilər. Ancaq Hacı Mustafa bəy, göründüyü kimi, Ərəb Həsənin oğlu və Rəcəbin nəvəsi deyil, Çərkəz adlı bir adamın oğludur. Şəcərədəki İbrahim bəy isə Avstriya səfərinə çağrılan Doqquz İbrahim bəy ola bilər. Bəkir bəy 1124-cü ildə İstanbula gələn rəcəbli əfşarı boy bəyi Bəkir bəy olmalıdır. Şəcərənin əsil bəy ailəsi qolunda üçüncü sırada görünən Çərkəz bəyə gəlincə, onun 1273-cü ildə (1856) əfşar bəyi olduğunu, oğlu Hacı bəyin isə Firqeyi-İslahiyyənin gəlişi zamanı (1281-1865) əfşarların başçısı olduğunu bilirik. Arxivlərdə əfşarlara dair yeni sənədlər tapıldıqca bu şəcərənin nə dərəcədə doğru olduğu bilinəcək, onların sayəsində əfşarların vuruşmalarından bəhs edən bəzi şerlərin izahını da vermək mümkün olacaqdır.

*İran əfşarları (avşarları)*

Bu fəslin başlanğıcında XII əsrdə İranın Xuzistan əyalətində Arslan oğlu Yaqubun, sonra isə Şumla və oğullarının idarəsində əfşarların yaşadıqlarını görmüşdük. XV əsrin sonlarına doğru bu ölkədə əfşarlara təkrarən rast gəlirik ki, onlar ağqoyunlu fəthi nəticəsində Anadoludan gəlmiş əfşarlar idi. Onların başında Mənsur bəy dururdu. Səfəvi dövlətinin qurulması ilə əlaqədar Hələb türkmənlərindən və dulqədirli ulusundan olmaq üzrə İrana yeni əfşar oymaqları gəldi. İrandakı böyük əfşar varlığını Anadoludan gələn bu əfşar oymaqları meydana gətirdilər. Onlar müxtəlif bölgələrdə yaşayır və ayrı-ayrı bəylərin idarəsində bulunurdular. Bu daha çox onların İrana müxtəlif zamanlarda köçmələri ilə əlaqədardır.

**1. Mənsur bəy (Kuh-Giluyə) əfşarları.**

Daha əvvəl də deyildiyi kimi, əfşar Mənsur bəy Uzun Həsən bəyin hələ ağqoyunluların başçısı olmazdan əvvəl onun yaxın nökərləri (yoldaş) arasında idi[1]. Qüvvətli bir ehtimala görə, Mənsur bəy Suriya əfşarlarına mənsub idi. Həsən bəyə sədaqətlə xidmət etdikdən sonra İran fəth olunanda tabeliyindəki əfşarlarla bu ölkəyə gəlmiş və Kuh-Giluyə valisi təyin olunmuşdu. Uzun Həsən bəyin oğlu Fars valisi Xəlil Mirzənin 1467-ci ildə təşkil etdiyi rəsmi keçiddə Mənsur bəy də öz əsgəri birliyi ilə iştirak eləmişdi[2]. Mənsur

[1] Əbubəkr Tihrani. İndeks.

[2] Cəlaləddin Dəvvani. Ərznamə. Milli tətəbbölər məcmuəsi V, s. 289, ingiliscə tərcüməsi, V.Minorski. 881-ci ildə (1476) Fars vilayətinə əsgəri və mülki baxış, XI, s. 157.

bəyin Otluq beli (paytaxt) müharibəsində iştirakına dair Rumlu Həsən bəyin[1] sözlərinə inanmaq müşküldür.

1497-ci ildə ağqoyunlu taxtını ələ keçirmək üçün hərəkətə keçən Məhəmməd Mirzə Şirazı Pürnək Qasım bəyin əlindən alaraq Mənsur bəyə vermişdi[2]. Pürnək Qasım bəy Azərbaycan hakimi ağqoyunlu Əlvənd və onun bəylərbəyisi İbə Sultan tərəfindən Farsa göndərilsə də, əfşarlar onu məğlub etmiş, hətta Qasım bəyi əsir almışdılar[3]. Yenə Məhəmməd Mirzənin əmirlərindən Piri bəy adlı bir əfşar bəyi vardı ki, o, Məhəmməd Mirzə ilə Sultan Murad arasında baş verən bir döyüşdə ölmüşdür[4].

Mənsur bəyin sonra İraqi-Əcəmə və Farsa hakim olan ağqoyunlu Sultan Muradın 907-ci ildə isə Farsı idarə edən ağqoyunlu Əbülfət bəyin xidmətində olduğunu görürük[5]. Az sonra  Şah İsmayıl qızılbaş türk oymaqlarının başında ağqoyunlu hakimiyyətinə son qoyaraq Səfəvi dövlətini qurmuşdur. Mənsur bəy də bir çox digər ağqoyunlu bəyləri kimi gənc qızılbaş hökmdarına itaət etdiyini bildirmiş və 911-ci ildə (1505) Fars valisi təyin olunmuşdur[6]. Lakin Mənsur bəyin valiliyi çox az müddət davam etmiş, onun tutduğu vəzifə Xəlil Sultan titulu ilə zülqədər (dulqədir) boyundan Sarı şeyxli obasının rəisi Əmət bəyə verilmişdir.

Ağqoyunluların yüksəliş, tənəzzül və nəhayət süqutuna şahid olan, axırda isə qızılbaş tacını geyən əfşar Mənsur bəyin ölüm tarixi bilinmir. 941-ci ildən (1534) əvvəl Kuh-Giluyə valisi olan Əlvənd xan hər halda Mənsur bəyin oğlu idi.

Həmin il öldürülən Əlvənd xanın yerinə Şahrux Sultan ünvanı ilə Kuh-Giluyə valisi təyin olunan Məhəmməd Mirzə Mənsur bəyin nəvəsi idi[7]. Şahrux Sultandan sonra Kuh-Giluyəyə 965-ci ildə Rüstəm xan təyin edilmişdir[8]. Ondan sonra burada Xəlil xanı görürük ki, o da Mənsur bəyin soyundan idi. Xəlil xan 10.000 əfşara sərkərdəlik edirdi. Xəlil xan və oğlu Rüstəm bəy 988-ci ildə (1580) Düzməcə (Yalançı) İsmayıl (Qələndər) tərəfindən öldürüldükdə Kuh-Giluyə valiliyinə Xəlilin qardaşı oğlu İskəndər xan təyin olundu[9]. O, Farsdakı dülqədirlilərin köməyi ilə Yalançı İsmayılı öldürsə də, özü Xəlil xanın kiçik oğlu Şahqulu tərəfindən öldürülmüşdür. Lakin Şahqulu da öz qohumu Əbdüllətif bəy oğlu Həsən bəyin müxalifəti ilə qarşılaşmış,

---

1 Əbubəkr Tihrani, II, s. 577.
2 Yenə orada, s. 22.
3 Həsən Rumlu, s. 21.
4 Yenə orada, s. 24.
5 Yenə orada, s. 25, 69.
6 Qəffari, s. 269.
7 Yenə orada, s. 289-290; Şərəf xan. Şərəfnamə. Velyaminov-Zernov nəşri. Peterburq, 1860, II, s. 187.
8 Qəffari, s. 303.
9 Tarixi-aləmarayi-Abbasi, I, s. 273-274.

bir müddət hər ikisi Kuh-Giluyədə düşmən kimi yaşamış, nəhayət, Şahqulu xan 998-ci ildə (1590) Şirazda Həsən xan tərəfindən qətlə yetirilmişdir[1].

Daxili qarışıqlıqdan faydalanan Həsən xan Kuh-Giluyəni bir müddət müstəqil idarə etdikdən sonra 1003-cü ildə (1594/1595) şahın əmri ilə xan tərəfindən qardaşı və oğulları ilə birlikdə həbs olunmuş, Kuh-Giluyə valiliyinə Kazerun hakimi Əfşar Əmir xan təyin edilmişdir[2]. Həsən xandan daha heç harada bəhs edilməməsinə baxsaq, hökm verə bilərik ki, o, Şah Abbasın əmrilə öldürülmüşdür. Qardaşı və oğulları Qəhqəhə qalasında həbs olunmuş və 1018-ci ilədək (1609-1610) burada qalmışlar. Həmin il orada vaqe olan bir hadisədə şaha sədaqət göstərərək bağışlanmış və qoruqcular sırasına qəbul olunmuşlar[3]. Ancaq əfşarlar Əmir xanı vali kimi tanımayaraq Xəlil xanın nəvəsi Əbülfət bəyi özlərinə başçı seçdilər. Şah Abbas əfşarların bu itaətsizliyinə qəzəblənərək Fars əyalətinə qul nəslindən Allahverdi xanı göndərdi. Allahverdi xan Farsa gələrək üsyankar əfşarları cəzalandırdı və özü kimi qul nəslindən olan bir adamı Kuh-Giluyə valisi təyin etdikdən sonra geri qayıtdı[4].

Kuh-Giluyə əfşarlarının mühüm bir qismini gündüzlü və araşlı oymaqları təşkil edirdi. Ehtimal ki, araşlı bir yer adıdır. Hazırda Şüştər yörəsində yaşayan gündüzlülər Kuh-Giluyədəki gündüzlü əfşarının törəmələridnr.

Xuzistana gəlincə, Təhmasib dövründə əfşar Mehdiqulu xan Şüştər hakimi idi. Bu əfşar əmiri yuxarıda adı çəkilən Kuh-Giluyə valisi Əlvənd xan kimi mərkəzin əmrlərinə tabe olmadığı üçün onun dəyişdirilməsi lazım bilinmiş və bu işin icrası əfşar Heydərqulu Sultana tapşırılmışdı[5]. 949-cu ildə (1542/1543) Şüştər və Dizful valisi əfşar Əbülfət idi[6]. 1003-cü ildə (1594/1595) isə orada yenə əfşarlardan Şahverdi xanı görürük ki, həmin il təhqiqat üçün Şah Abbas tərəfindən göndərilən mehtərbaşı Murad bəy tərəfindən öldürülmüşdür[7]. Kuh-Giluyədəki gündüzlü əfşarının bir bölüyü sonralar Xorasanda Abivərd dolaylarına, digər bir bölüyü isə bir qrup əfşarla bərabər Urmiya bölgəsinə göndərilmişdir.

**2. İmanlu əfşarı.**

İrandakı İmanlu əfşarı dulqədirli eli içindəki imanlu əfşarının bir qoludur. Onların İrana ağqoyunlular zamanında deyil, səfəvilər dövründə gəldiyi ehtimal olunur. Bu əfşarlar haqqında ilkin məlumatlarımız hələlik Şah Abbas dövründən o yana getmir. Bu oymağa mənsub Qasım Sultan 1002-ci ildə (1593/1594) Həmədan bölgəsindəki əmirlərdən biri idi. O, 1019-cu ildə

[1] Yenə orada, I, s. 274-275.
[2] Yenə orada I, s. 502-503.
[3] Yenə orada, II. s. 819-820.
[4] Yenə orada, I, 524-525.
[5] Həsən Rumlu, s. 294.
[6] Qəffari s. 296; Şərəf xan, II, s. 194.
[7] Tarixi-aləmarayi-Abbasi, I, s. 500.

(1610/1611) və sonrakı illərdə həmin bölgədə hakimlik etdikdən sonra 1032-ci ildə (1623) Mosulun fəth olunmasında iştirak etmiş və xan ünvanı ilə bu şəhərin valisi vəzifəsinə təyin olunmuşdu[1]. Ancaq ertəsi il Osmanlı ordusunun yaxınlaşması nəticəsində İskəndər bəyin verdiyi məlumata görə Qasım xan əsgərlərinin azlığı və vəba epidemiyası üzündən şəhəri boşaltmaq məcburiyyətində qalmışdı[2]. Bir il sonra Mosulu geri almaq üçün göndərilən Səfəvi qoşununda onun oğlu Kəlbəli Sultanı görürük[3]. Buradan Mosulu boşaltdığı üçün Qasım bəyin vəzifədən uzaqlaşdırıldığı və ya öldürüldüyü nəticəsi çıxır. Şah Abbasın ölümü zamanı (1037-1627) Kəlbəli xan Urmiya hakimi idi[4]. Sonrakı əsrlərdə Urmiyada gördüyümüz əfşarların mühüm bir qismi bu imanlu əfşarından, Urmiya hakimləri isə adı çəkilən Qasım bəyin soyundan idilər[5].

Burada xüsusi qeyd etmək istədiyimiz bir məsələ var ki, o da imanlu əfşarı ilə inallunun bir-birilə qarışdırılmamasıdır. Şimali Suriya türkmənlərinə mənsub olan inallıların İrandakı qolu şamlu boyu obalarından idi. Sonralar bu obanın adı bir çox əsərlərdə inanlu kimi yazılmışdır.

**3. Alplu.**

Alplunun köpəkli əfşarının bir obası olduğunu əvvəlcə söyləmişdik. Bu obadan İsmayıl xan 1003-cü ildə (1514-1515) Kazerun hakimliyinə təyin edilmişdi[6]. Şah Abbasın ölümü ərəfəsində vəzifədə olan üç əfşar bəyindən biri Sistanda Fərəh və İsfizar hakimi olan Ər-Doğdu xan da alplu idi. İrandakı alplu əfşarının gündüzlü əfşarı və hətta imanlu əfşarı qədər qələbəlik olmadığı bilinir. İsmayıl xanı 1011-1013-cü illərdə (1602-1605) Fərəh hakimi kimi görürük[7].

**4. Usalu.**

Bu əfşar obasının daşıdığı adın mənası və mənşəyi, məncə, məchuldur. Şah Abbasın ölümü ərəfəsində Kürdüstandakı Kavərud hakimi İmamqulu Sultanın usaludan olduğunu bilirik[8].

**5. Əbərlü.**

XVI əsrdə əbərlülər Qəzvin bölgəsində yaşayırdılar. Şah Səfi taxta çıxan il (1037-1628) Abivərd hakimi olan Cəmşid Sultan əbərlüdən idi[9]. Nadir şahın ölümü ərəfəsində tanınmış bəylərdən biri olan Musa bəy də bu boya

---

[1] Yenə orada, II, 661-662, 764, 925, 1006-1007.
[2] Yenə orada, II, s. 1018, 1019, 1033.
[3] Yenə orada, II, s. 1035.
[4] Yenə orada, II, s. 1085.
[5] Urmiya bölgəsindəki əfşar bəyləri haqda: B.Nikitin. Urmiya əfşarları. Asia jurnalı, 1929, CCXIV, s. 71.
[6] Tarixi-aləmarayi-Abbasi, I, s. 437, 455, 503.
[7] Yenə orada, II, s. 620, 674.
[8] Yenə orada, II, s. 1085.
[9] Zeyli-tarixi-aləmara, s. 22.

mənsub idi[1]. XVIII əsrdə əbərlü obasından bəzi qolların Tarim və Xalxalda yaşadıqları məlumdur[2].

Şah İsmayıl və Təhmasib dövründə hansı əfşar obasına mənsub olduqları bilinməyən bir çox əfşar bəylərini görürük. Bunlardan biri Şah İsmayılın Xorasan səfərində (916-1510/1511) iştirak edən Dana Məhəmməd bəy idi[3]. Əhməd Sultan adlı digər bir əfşar əmiri də Şah İsmayıl tərəfindən Fərəh hakimliynnə təyin edilmişdi[4].

953-cü ildə (1546) Təbrizdə əfşar və zülqədirlər (dulqədir) arasına düşən bir ixtilaf silahlı çarpışmaya qədər böyümüşdü. Bu hadisə zamanı əfşarların başında Sevindik bəy, Şahqulu Sultan və Mahmud xan dururdu[5]. Onlardan qorucubaşı Sevindik bəy 969-cu ildə (1561/1562) ölərkən yaşı 90-ı keçmişdi[6]. Oğlu Hüseyn bəy Təhmasibin və onun xələfi İsmayılın dövründə Xorasanda müxtəlif sancaqlarda vali olmuş, Sultan Məhəmməd zamanında isə vali olduğu Səbzəvarda üsyan etdiyi üçün yaxalanıb öldürülmüşdü[7].

977-ci ildə (1569/1570) Kirman valisi olan Yəqub Sultan və qardaşı Yusifqulu Sultan, Koroğlu Xosrov Sultan və Dana bəy oğlu Allahqulu bəy də Təhmasib dövrünün əfşar əmirlərindən idi. Şah Sultan Məhəmməd zamanında Fərəh hakimi Hüseyn Sultan və qardaşı Əlixan Sultan hansı obadan olduqları bilinməyən əfşar bəylərindəndir[8]. Onlar Fərəh vilayətində ortaya çıxan Yalançı İsmayıllardan biri ilə vuruşaraq ölmüşdülər. Onların qohumu Yeyən Sultan Fərəhə və İsfizara vali təyin olunmuşdu[9]. 997-ci ildə (1588/1589) qorucubaşı əfşar Bədir xan idi. O, həmin il Astarabad valisi təyin olundu, qorucubaşılıq əfşar boyundan Kirman hakimi Vəli xana, Kirman valiliyi isə Vəli xanın oğlu Bəktaş xana verildi.

997-ci ildə Əfşar Çoban oğlu Mehdiqulu xanın Xorasan səfərində iştirak etməsi əmr olunmuşdu[10].

XVI əsrdə Səfəvi dövlətində müxtəlif yerlərdə vəzifə tutan əsas əfşar əmirləri bunlardır. Bu misallar onların dövlətin sütunu olan əsas boylardan biri olduğunu açıqca göstərir. Bununla bərabər Şah İsmayıl və Təhmasib dövründə ustaclu və təkəlu kimi Anadoludan gəlmə boyların digərlərinə nəzərən daha güclü nüfuza sahib olduqları görünür. Hətta bu iki boy öz aralarında nüfuz və iqtidar mübarizəsinə girişərək bir-birinə xeyli zərər də toxun-

[1] Məhəmməd Gülüstani. Mücməl üt-təvarix, s. 12.
[2] Tarixi-gitigüşa. Tehran, 1317 ş., s. 266; Məhəmməd Gülüstani, s. 12.
[3] Həsən Rumlu, s. 116.
[4] Yenə orada, s. 176.
[5] Yenə orada, s. 315-316.
[6] Qəffari, s. 307.
[7] Tarixi-aləmarayi-Abbasi, I, s. 291.
[8] Yenə orada, I, s. 140.
[9] Yenə orada, I, s. 275.
[10] Yenə orada, 1, s. 402.

durmuşdur. Şah Abbas əfşarları, xüsusilə onların Kuh-Giluyədə yaşayan ən qələbəlik qolunu itaətsizlikdən dolayı cəzalandırmış və onlara etibar etməmişdir. Buna görə də onun ölümü ərəfəsində ancaq üç əfşar əmiri vali idi. Yuxarıda dediyimiz kimi, bunlar Urmiya hakimi Kəlbəli Sultan (imanlu əfşarından), Fərəh və İsfizar hakimi Ər-Doğdu xan (alpludan) və Karərud hakimi İmamqulu Sultan (usaludan) idilər[1]. Əfşarların ən qələbəlik halda yaşadıqları Kuh-Giluyə isə qul nəslindən olan əmirlər tərəfindən idarə olunurdu. Həmin şahın dövründə şamlular böyük etibar sahibi idilər; onlardan 8 vali vardı.

Şamlulardan sonra zülqədər (dulqədir) boyu gəlirdi. Buna görə də türkmən salnaməçi İskəndər bəy şamluları «taifeyi-cəlilə», dulqədirliləri isə «taifeyi-rəfiə» adlandırır[2]. Bu dövrdə qacarların da o qədər üzdə olmadıqları anlaşılır; onlardan vur-tut ikicə əmir vardı. Bu iki əmirdən biri qacar boyuna sonradan qarışmış, bəzi müəlliflərin yazdığına görə, kürd mənşəli iyirmi dörd obasından idi[3].

XVIII əsrdə vəziyyət dəyişmişdi. Həmin əsrin əvvəllərində şamlu, dulqədirli və digərləri parçalanmış və zəif bir vəziyyətdə olduqları halda əfşarlar və qacarlar həm qələbəlik, həm də qüvvətli idilər. Nadir şah Xorasanda Abivərddə yaşayan əfşarın qırxlu obasından idi. XVI əsrdəki əfşarlar arasında bu adda obaya təsadüf edilmir. Yalnız həmin əsrdə Türkiyədəki Bozoxda qırxlu adında bir oymaq var idi. XVII əsrdən edibarən qırxlu kosa əhmədlu, qasımlu, qutulu və bəgəşlu adlı yeni əfşar obaları meydana çıxmışdır. Ehtimal ki, qasımlu obası öz adını imanlu əfşarlarından olan Qasım xandan alıb.

Nadir şah ölkəni qəsbkar əfqanlardan xilas etməklə bərabər özü də fateh hökmdar idi. Ürəyində səmimi bir türkmənlik duyğusu daşıyırdı. Digər tərəfdən İran türklüyünü Türkiyə və Orta Asiya türklüyünə yaxınlaşdırmaq üçün məzhəbi bir islahata girişmişdi. Təəssüf ki, ölümü bu qayənin gerçəkləşməsinə aman vermədi.

Qacarlara gəlincə, onlar İranda iqtidarın türklərdən başqa bir qövm əlinə keçməsinə mane oldular. Qacarlar da qövmi şüura malik bir türk xanədanı idilər. Onlar da əski türkmən xanədanları kimi oğuz elinə və oğuz boylarına maraq göstərirdilər.

XIX əsrin birinci yarısına aid «Universal coğrafiya»da[4] əfşarların sayı 90.000 göstərilir və başda Urmiya olmaq üzrə onların Xuzistan, Fars və Mazandaranda yaşadıqları yazılır. Hazırda İrandakı əfşarların çoxu oturaq həyata keçmişlər. Onlara İranın təxminən hər yerində təsadüf edilməklə bəra-

---

[1] Yenə orada, 11, s. 1085.
[2] II, s. 1084-1085.
[3] Yenə orada, II, s. 1086.
[4] Universal coğrafiya. Paris, II, s. 20 (fransızca).

bər kompakt olaraq Urmiya və Xəmsə (Zəncan), Həmədan ilə Kirmanşah arasındakı Əsədabad yörəsində, Xuzistan, Fars və Kirmanda yaşayırlar. Urmiya, Xəmsə və Əsədabad yörəsindəkilər təmamilə oturaq həyata keçmişlər. Farsdakı inamlu (inallu) elatı arasında görünən əfşar uşağı da oturaq həyata keçmişdir. Xuzistandakı gündüzlü əfşarları, Kuh-Giluyədəki axacəri (ağac əri) elatı arasındakı əfşar oymağı ilə Kirmandakı 5.000 çadırlıq əfşar təşəkkülü hələ də köçəridirlər. Bunlardan başqa, Qəzvinin cənub-qərbində 97 kəndlik Əfşar adlı bir qəza var[1].

Bu məlumatlardan da göründüyü kimi, əfşarlar tariximizdə ən davamlı rol oynamış böyük bir boydur. Bu baxımdan heç bir oğuz boyu onunla müqayisə edilə bilməz. Burada əfşarlar haqqındakı məlumatların xülasəsini vermək yerinə düşərdi.

1. Rəşidəddinin «Türklərin tarixi» fəslində əfşarların hökmdar yetirən 5 boydan biri olduğu yazılır. Buradan onların oğuzların islamiyyətdən əvvəlki tarixlərində də ən mühüm rollar oynamış boylardan biri olduğu nəticəsi çıxır.

2. Səlcuqlular dövründə öz fəaliyyətləri ilə qaynaqlarda iz buraxmış 3-4 boy var ki, onlardan biri də əfşarlardır. Göründüyü kimi, əfşarlar XII əsrin ikinci yarısında Xuzistanda və ona qonşu yerlərdə 40 ildən artıq sürən bir bəylik qurmuşlar.

3. Əfşarlar XVI əsrdə kayı boyundan sonra ikinci olmaq üzrə Anadoluda ən çox yer adına sahib boydur. Bu onların Anadolunun fəth edilməsi və məskunlaşdırılmasında ən mühüm rol oynamış boylardan biri olduğunu göstərir.

4. Yazıçıoğlu Əliyə görə, Qaraman oğulları əfşarlara mənsubdur. Bu, çox mümkündür.

5. Əfşarlar oynadıqları böyük tarixi rola baxmayaraq, XIV əsrdə Hələb bölgəsində qələbəlik türkmən icmasını meydana gətirən üç boydan biri idi. XIV əsrdən son dövrlərədək Anadoluda və İranda fəaliyyət göstərən əfşarlar həmin əfşarlardır. Bu əfşarlar XIV əsrdə dulqədirli bəyliyinin qurulmasında (imanlu əfşarı), Sisin (Kozan) fəthində və məskunlaşdırılmasında iştirak etmişlər.

6. XV əsrdə əfşarlar ağqoyunluların fəaliyyətində də iştirak etmişlər. Bunun nəticəsində onlardan bir qismi İrana getmişdir. Səfəvi dövləti qurulduqda isə Anadoludan İrana yeni əfşar obaları köçdü, beləliklə, İranda qüvvətli bir əfşar varlığı meydana çıxdı. Bu əfşarlara mənsub olan Nadir böyük uğurlar qazanaraq səfəvi hakimiyyətini öz hakimiyyəti ilə əvəz etdi. Əfşarlar öz siyasi hakimiyyətlərini itirdikdən sonra da varlıqlarını davam etdirdilər. Bu gün İrandakı qələbəlik türk ünsürünün mühüm bir qismi əfşarların törəmələridir.

---

[1] Məsud Keyhan. Həmin əsər, II, indeks.

7. Anadoludakı əfşarlara gəlincə, onlardan bəzi obalar hələ XVI əsrdən etibarən burada yerləşməyə başlamışdır. Onların böyük hissəsi XIX əsrin ikinci yarısına qədər köçəri olmuş, sonra əsasən Kayserinin Pınarbaşı, Sarız və Tomarza qəzalarında yerləşmişlər.

## 10. KIZIK

Bu boyun adına tarixi qaynaqlarda təsadüf edilməsə də, təhrir dəftərlərində və digər arxiv sənədlərində rastlanır. Təhrir dəftərlərində kızıklara aid 28 yer adı vardır ki,[1] bunların çoxu indi də mövcuddur[2]. Onlardan beşinin Ankaranın Çubuq və Ayaş qəzalarında olması bu bölgəyə kızık boyuna mənsub çox mühüm bir elatın yerləşdiyini göstərir.

XVI əsrdə kızıklara aid yalnız bir oymağa təsadüf edilmişdir ki, o da Hələb türkmənləri arasındadır. Qanuni dövrünə aid əski dəftərlərdə bu kızık oymağı 162 və 16 evlik iki qola ayrılmışdır. Vaxt keçdikcə oymağın əhalisi artmiş və 987-ci ildə vergi mükəlləfiyyətli 667 nəfərə, yəni 468 evli, 232 subaya[*] yüksəlmişdir[3]. Əhali artımı davam edən bu oymağın mühüm bir qismi XVII əsrdə Antəb bölgəsində yerləşmiş, yerləşənlər oturaq kızık adlanmışlar. Oturaq kızıklar Sultan İbrahim dövründə (1639-1648) Antəb bölgəsindəki Oğurca, Damlaluça, Çay quru, Saqqal, Qara dinək, Yalan qaz, Üç kilsə və Taşlıca adlı kəndlərdə, Antəb şəhərində və ona bağlı bəzi kənd və qəsəbələrdə yaşayırdılar.

Bunlardan başqa, mihmadlu və boz atlı obalarının da kızıklara aid olduğunu bilirik[4]. Oturaq kızıkların yerləşdikləri yerlər XIX əsrin sonunadək öz adları ilə adlanan inzibati bir yörə (nahiyə) halında qalmışdır. Onların yerləşdiyi kəndlərdən bir çoxu bu gün öz köhnə adlarını və mövcudiyyətini qoruyur.

Sultan İbrahim dövründə kızıkların oturaq həyata keçməmiş olanları «köçər kızık» adını daşıyırdı. Onların sayı 149 nəfər idi (vergi verənlər). Həm oturaq kızıkların, həm də köçəri kızıkların 1101-ci ildə (1690) Avstriya səfərinə çağrıldıqları məlumdur. Səfərə çağrılan oturaq kızıkların başçısı Qara Kətxuda oğlu Bəkir bəy, köçər kızıklarınkı isə Hacı Zəkəriyyə oğlu Əssaf bəy və Kızık Məhməd oğlu kimi bəylər idilər[5].

XVIII əsrə aid vəsiqələrdə kızıklar pəhləvanlıların başçılıq etdiyi Hərəmeyn üş-şərifeyn əşirətlərindən bmri kimi xatırlanır[6]. Bunlar köçər kızıklar

---

[1] Cədvələ bax.
[2] Köylərimiz, s. 467-468; Türkiyədə məskun yerlər qılavuzu, s. 694.
[*] Subaylarla evlilərin cəmi 667 rəqəmini vermir (tərcüməçi).
[33] F.Sümer. Boz-oxlu oğuz boylarına dair, s. 73, 75, 76, 95.
[4] Yenə orada, s. 70, 94.
[5] Əhməd Rəfiq. Anadoluda türk əşirətləri, s. 83.
[6] Yenə orada, s. 203.

idi. Kızıklardan bir qolun XVII əsrin əvvəllərində Orta Anadoluya gəldiyi bilinsə də[1], onların aqibəti haqqında hələlik heç bir məlumatımız yoxdur.

XVI əsrdə kızıkların bir qolu da Dəməşq (Şam) bölgəsində yaşayırdı. Qanuni dövründə bu kızık qolu 66 vergi evi olaraq göstərilmişdir[2].

## 11. BƏYDİLİ

Bu boy Rəşidəddinin «Oğuznamə»sində hökmdar yetirən beş boydan biri kimi xatırlanır. Rəşidəddin[3] xarəzmşahlar xanədanının bu boydan olduğunu söyləsə də, bu fikri qəbul etmək mümkün deyil. XVI əsrdə bəydiliyə aid təhrir dəftərlərində 23 yer adına təsadüf edilmişdir. Həmin boy bu rəqəmlə 16-cı yeri tutur[4]. Hazırda bu yer adlarından ancaq yarısı qalmışdır[5].

Bəydililər Şimali Suriyadakı türkmənlərin boz-ox qolunu meydana gətirən qollardan biri idi. XIV əsrin ikinci yarısında yazılmış inşa kitabındakı türkmən boyları və ailələrinə aid siyahıda[6] bəydililərin adı çəkilir. Xəlil əz-Zahiri[7] də onları xatırladır.

Bəydililər səfəvi dövlətinin yaranmasında da iştirak etmişlər. Bununla əlaqədar olaraq onlardan mühüm bir qol İrana getmişdir. Bundan başqa, XVI əsrdə Boz ulus və Yeni-el arasında Şimali Suriyadakı ana qoldan ayrılmış bəydili qollarına təsadüf olunur. İç-el bölgəsində isə müstəqil bir bəydili qolu vardır.

**1. Hələb türkmənləri.**

Qanuni dövrünün ilk illərində Hələb türkmənləri arasında yaşayan ana bəydili qolu bu türkmən icmasının ən böyük təşəkkülüdür. Buna görə də Hələb türkmənlərinə aid dəftərlərdə bu boyun adı birincilər sırasında çəkilir.

Həmin dövrdə bəydili boyu 40 obadan ibarət idi. Boyun adını daşıyan birinci obanın vergi mükələfiyyətli 260 nəfər əhalisi vardı. Həmin obanın 20 evlik kiçik bir qolu da Hələb vilayətinin şərq tərəflərində yaşayırdı. Kiçik qaracalu və böyük qaracalu obalarından sonra kürdlər gəlir. Bu obanın mühüm bir qolunun da Boz-ulus arasında yaşadığı görünür. Daha əvvəllər dediyimiz kimi, bəzi inamlara görə türkmənlər oğlan uşaqlarına Ərəb, Tatar, Kürd və Çərkəz adını və ya ləqəbini qoyurdular. Bayram oğlu Vəli Kətxuda və bozlu obalarından sonra bəydili boyunun bozqoyunlu adlı ən mühüm obası zikr olunur. Bu oba 1520-1525-ci illərdə bəy ünvanlı şəxslər tərəfin-

---

[1] Yenə orada, s. 68.
[2] F.Sümər. Həmin əsər, s. 76, 95.
[3] Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 384.
[4] Cədvələ bax.
[5] Türkiyədə məskun yerlər qılavuzu, s. 155.
[6] Kitabu isabət-is-sail ila mərifət ir-rəsail. Paris milli kitabxanası, ərəb manuskriptləri, № 4437, vərəq 47.
[7] Zübdət kəşf il-məmalik. Paul Ravais nəşri. Paris, 1894, s. 105.

dən başçılıq edilən bir neçə qola ayrılmışdı. Onlardan 25-ə qədər vergi evi olan birinci bozqoyunlu qolu tamamilə bəy ünvanlı şəxslərdən ibarət idi. Bu boyun başında o zaman Atgüdən bəy oğlu Qaraman bəy dururdu. Həmin obanın ikinci qolu da Mahmud bəyin idarəsi altında idi.

Bozqoyunlu obasının əsil böyük qolu isə Hələb türkmənlərinin Yenieldəki yaban əri deyilən qolu arasında yaşayır ki, onun haqqında bir az sonra ayrıca danışacağıq.

Belə anlaşılır ki, bəydili boyunun bəy ailəsini bozqoyunlu obası təşkil edir. Rəqqanın məskunlaşdırılması zamanı bəydili boyunun başçısı olan Firuz bəy oğlu Şahin bəy də həmin boy bəyi obasından, yəni bozqoyunludan idi[1]. Bəydili boyunun beşinci obası quzucaqlı (45 vergi evi), on üçüncü obası balabanlu (100 vergi evi), on beşinci obası daş-baş (76 vergi evi) on doqquzuncu obası dilməklu (96 vergi evi), iyirmi ikinci obası ulaşlu (39 vergi evi), iyirmi beşinci obası tatalunu (177 vergi evi) qeyd etməyə dəyər. Burada adı çəkilən ulaşlu obası ilə Gavur dağlarındakı ulaşlular arasında heç bir qohumluq münasibəti yoxdur.

26-cı və 27-ci bəydili obaları din və təriqət adamlarından ibarət idi. Bunlardan birincisi Xoca Əli Şeyx adlanırdı və dörd şeyx ailəsindən ibarət idi. Dəftərdə bu şeyxlərin «qədimdən ər ocağı olub bir sənədə üç kəlamüllah xətm edib səvabın həzrəti xudavəndigara (Qanuniyə) əta etdikləri, duaları məqbul kimsənələr» olduqları qeyd edilmişdir. Şeyxlərdən ibarət olan ikinci oba boz geyikli adlanır. 17 nəfərlik bu oba camaatının «qədimdən vacib ürriayə kimsənələr» olduqları, evlərinə «qurban, çıraq gəlür dərvişlər idükləri»[*] və «həm məzkur bəydili camaatının ululları olduqları» bildirilir[2]. Bu qeydlərdən bu gün belə Qaziantəb və Suriyadakı türkmənlərin yeganə vəlisi sayılan Boz Geyikli Dədənin hansı boya mənsub olduğunu və bu dədənin oğullarının kimlər olduğunu öyrənirik. Yenə həmin qeydlərə görə, Dədənin XV əsrdə yaşadığı ehtimal edilir.

Bəydili boyunun əhalisi XVI əsr boyunca mütamadi artmışdır. 984-cü ildə (1577) Hələb türkmənləri sancağı bəyinə göndərilən bir fərmanda bəydili boyunun dövlətə qarşı üsyan etmiş ərəb əmiri Əbu Riş oğluna kömək

---

[1] F.Sümər. Boz-oxlu oğuz boylarına dair, s. 79-80, 95-97.

[*] «Qurban, şəyird gələn dərvişlər olduqları» deməkdir (tərcüməçi).

[2] Əli Rza Yalqının türkmənlərdən eşitdiyinə görə (Cənubda türkmən oymaqları. İstanbul, 1931-1932, 1, s. 25, haşiyə) Boz Geyimli Dədənin türbəsi Münbic (Məmbiç) qəzasında, Qurudərəyə bir saatlıq məsafədə yerləşən yerdədir. Müəllifin dediyinə görə, hər il türkmənlər bu türbənin ətrafına yığışaraq şənlik keçirirlər. Türkmən rəvayətlərində Boz Geyikli Dədənin Əhməd Nəsəvinin nəvələrindən olduğu və Hacı Vəktaş Vəli ilə münasibətdə bulunduğu nəql edilir. Mərhum Əli Rza bəy türkmənlərin and içərkən Boz Geyikli Dədənin adını çəkdiklərini və ən böyük andlarını Dədənin hayzuran çubuqlarının üstündə hoppanmaqla içdiklərini söyləyir (s. 44). Bu sonuncu Anadolunun hər yerində qədimdən bəri bilinən bir and içmə şəkli olub adına «dəynək atlama» deyilirdi.

etmək üzrə olduğu, eyni tarixli digər bir fərmanda isə bəydilinin Sincan, qara şeyxli və çoplu obalarının quldurluq və yağmaçılıq etdiyi bildirilirdi[1].

Tarixçi Naimə[2] bəydili türkmənlərinin Hələbdən Diyarbəkirə qədər uzanan sahənin ən gözəl yaylaqlarına sahib olduqlarını yazır. Ancaq həmin müəllifin verdiyi məlumata görə, bəydili türkmənləri bu gözəl yaylaqlarda rahat durmayaraq əkinçilərin tarlalarını öz sürülərinə tapdadır və vergiləri ödəməkdən boyun qaçırırdılar. Buna görə də 1039-cu ildə (1630) Bağdadın geri alınmasına məmur edilən və zir-əzəm Xosrov paşa Hələbdən hərəkət etməzdən əvvəl qoşun göndərərək bu boyu yola gətirmiş, vergi borclarının əvəzində 10.000 qoyun və 100-dək dəvələrini zəbt etmişdi.

Bəydili boyu haqqında həmən əsrin sonlarına aid mühüm məlumatlar vardır. Lakin bunlardan bəhs etməzdən əvvəl boyun Yeni-eldəki qolunu tanıtmaq lazımdır.

**2. Yeni-el.**

Yeni-eldə yaşayan bəydili oymağı bir az yuxarıda dediyimiz kimi Hələb türkmənləri arasındakı ana qoldan yeni ayrılmış və onunla daim təmas və münasibətdə olan qoldur. Bu boy Qanuni dövründə üç obaya bölünmüşdür. Bunlardan 75 nəfər vergi mükəlləfiyyətli birinci oba Dəvədaş adlı yerdə, ikincisi Boz Üyükdə (62 nəfər), üçüncüsü isə Yellüçəyə bağlı Alacaxanda (70 vergi evi) yaşayırdı. Bu obalardan ikisi boyun adını, üçüncüsü isə günəş adını daşıyırdı.

III Murad (1574-1595) dövründə bu bəydili qolunun qələbəlik bir təşəkkül halını aldığı görünür. Bu dövrdə bəydili obalarının ən böyüyü əmtiləklü olub 61 nəfərlik (vergi verən) bəkmüşlü, 26 nəfərlik ərəblu, 26 nəfərlik fəqihlu (fakılu), 56 nəfərlik sincan, 80 nəfərlik günəş, 93 nəfərlik qazlu qollarından meydana gəlmişdir. Əmtiləkin bir şəxs adı olması ehtimal edilir. Əmtiləklüdən sonra bəydili qolunun bu obalarını qeyd etməyə dəyər: qara həsənlu (38 vergi evi), qaracalu (82 vergi evi), Süleyman Kətxuda (128 vergi evi), topaxlu (150 vergi evi), gün (83 vergi evi), otamışlu (49 vergi evi), qara şeyxlu (97 vergi evi), çobanbəylu[3] (24 vergi evi), bozqoyunlu (86 vergi evi), Uğurlu bəyə tabe digər bozqoyunlu (47 vergi evi), Şəfaət bəyə tabe bozqoyunlu (32 vergi evi) və quzucaqlı (15 vergi evi)[4]. Yeni eldəki bu bəydili qolu qışda Hələb bölgəsinə enərək qışlayırdı.

1100-cü ildə (1698) bəydili qolunun yuxarıda adı çəkilən bozqoyunlu və qara şeyxlu obaları Əlbistan qəsəbəsinə yürüş edərək oranı 40 gün mühasirədə saxlamışdılar[5]. Bunun sadəcə yağma məqsədi ilə, yoxsa başqa bir sə-

[1] Mühimmə dəftəri, № XVIII, s. 13.
[2] Tarix. İstanbul, 1280, III, s. 7-8.
[3] Suriya sərhədindəki Çoban bəy dəmiryol stansiyası adını bu obadan almışdır.
[4] F.Sümər. Boz-oxlu oğuz boylarına dair, s. 99-100.
[5] Əhməd Rəfiq. Anadoluda türk aşirətləri, s. 79; sənədlərdəki qara eşməli qara şeyxlu olmalıdır.

bəblə bağlı olduğunu təxmin etmək mümkün deyildir. 1101-ci ildə bəydili bəyləri 150 atlı ilə Avstriya səfərinə çağrılmışdılar[1]. Həmin bəylər bunlar idi:

Firuz oğlu Şahin bəy
Şədid oğlu Topal Əssaf bəy
Bəkmişlu Qanim bəy
Kor Nasir bəy
Yüz Hatim ağa oğlu Həsən bəy
Seyfxan bəy
Əbu Seyf oğlu Mirzə İsmayıl bəy
Qara Şeyxlu Qızıl İdris oğlu Musa bəy
Şeyx Musa Kətxuda
Şah İsmayıl oğlu Məhmət bəy
Bozqoyunlu Əhməd Kətxuda
Qara Şeyxlu əl-Eys oğulları Kənan və Kəssal bəy
Qırqıl Yəhya oğlu
Bozqoyunlu Mürtəza Kətxuda
Dəyərlü Yeddi bəy

1102-ci ildə (1690-1691) isə bəydili boyu bütün obaları ilə birlikdə Ağcaqaladan Rəqqaya qədər uzanan yerdə, Bəlix çayı sahilində yerləşmək əmrini aldı[2]. Beləliklə, bəydilinin gözəl günləri sona çatmış, acı və hüznlü günləri başlamışdı. Rəqqada yerləşməsi əmr olunan bəydili obaları Hələb türkmənləri arasında yaşayan və o zamana qədər başqa yerlərə yerləşməmiş olan obalarla Yeni-eldəki bütün obalar idi. Bunlar Yeni-eldən Hacı Əli oğlu Qanim bəyin idarəsindəki 500 vergi evli bəkmişlü obası, qara şeyxlu kəndxudalarının (Əssaf bəy) 600 vergi evli obası, Firuz bəy oğlu Şahin bəyə tabe 600 vergi evli bozqoyunlu obası, Seyf xan idarəsindəki 200 vergi evli digər bozqoyunlu obası, kəndxudaları Pirbudaq oğlu Məhmət və Satılmış olan 500 vergi evli dimləklü obası idi. Onların ümumi sayı 3200 vergi evi edir. Hələb türkmənləri arasındakı bəydilidən isə tatalu, qazlu, balabanlu, ərəblü, daşbaş, sincan, günəş və b. obaların yerləşməsi əmr olunurdu[3].

Bunlardan bir qismi yerləşdikləri yerlərdə quldurluq etməyə başlamış, bir çoxları da çox sevdikləri Uruma qaçmışdılar. Ancaq qaçanlar şiddətlə təqib edilərək yerləşmə yerinə gətirildilər. Digər türkmən oymaqları vaxt keçdikcə fürsət taparaq birər-birər qaçsalar da, boy həmrəyliyini mühafizə edən qələbəlik bəydililər Rəqqada qaldılar[4]. Yerləşdirmə prosesinə Qazızadə Hüseyn Paşa başlamış, bu işi Yusif Paşa başa çatdırmışdır.

---

[1] Həmin əsər, s. 84.
[2] Əhməd Rəfiq. Həmin əsər, s. 100-101, 108, 109; Ç.Orxonlu. Osmanlı imperatorluğunda əşirətləri iskan təşəbbüsu, s. 55-59.
[3] Göstərilən yerlər.
[4] Bəydili obalarının Rəqqa bölgəsində yerləşdirildikləri yerlər haqqında Ç.Orxonlunun adı çəkilən əsərinə bax (s. 58-59).

Bəydili boyunun məskunlaşdırılmasına dair bir şeirdə hər ikisinin adı çəkilir:

Qazı oğlu Yusif Paşa gələndə[1],
Yalan dünya mənim derdi bəydili.
Səksən min evlə Rəqqaya köçəndə,
Tayı, muvalini qırdı bəydili[2].

Döyülər davullar, inildər dağlar,
Hərbilər çağrılır, analar ağlar,
Gurlayıb Fiyaxana qonduğu çağlar,
Şəmsəddindən übur etdi bəydili.

Döyülür davullar, çəkildi sancaq[*],
Qoç igid atına taxıldı ponçax[**],
Həmid il-Abbas bu işi tutdu ancaq,
Köç ilə düşmənə vardı bəydili.

Şeyx əfəndi belə çaldı qələmi,
Namı tutdu bəydilinin aləmi,
Ənnək Südlüoğlu Hüseyn Çələbi,
Çarxacınız Cəfər olsun, bəydili.

Qara bayraq salsaq, şərq evi iraq,
Qara gün olanda əşirət gərək,
Şunda eyi bir nam qazandı Soyban Baraq,
Mində birin oma dikdi bəydili.

Daşdəmirim də söyləyər özündən,
Mədh edəlim bəydilinin yazından,
Ala bucaq Kəttələnin düzündə(n?)
Hamidin sancağın basdı bəydili[3].

---

[1] Burada Qazı oğlu (Hüseyn Paşa) və Yusif Paşa olmaq üzrə iki ayrı şəxs qəsd edilmiş olmalıdır (Qazı oğlu sözündən sonra vergül qoyulsa, hər şey özlüyündən aydınlaşar – tərcüməçi).
[2] Buradakı tay ərəblərin məşhur teyy boyudur. Muvali (hər halda məvali) də teylərə mənsub obalardan biri idi.
[*] Bayraq (tərcüməçi).
[**] Qotaz, pükül (tərcüməçi).
[3] Ömər Özbaş. Qaziantəb dolaylarında türkmənlər və baraqlar (Qaziantəb kültür dərnəyi yayınlarından). Qaziantəb, 1958, s. 6.

Bəydililər yerləşdikləri yerə Colab deyirdilər. Colab (Cüllab) əslində Urfanın şərqindəki bir kəndin və çayın adıdır[1]. Övliya Çələbi[2] Çolabdan bir qəsəbə kimi bəhs edir. Bəydili boyu Harranın altındakı Eyn Arus və Ağcaqaladan Rəqqaya çatana qədər Bəlix çayı sahillərində yerləşdirilərkən başçıları-ulu bəyləri bozqoyunludan Firuz oğlu Şahin bəy, qardaşı Kənan və Qurd bəy idi[3].

Şahin bəy bütün bəydililərin başçısı kimi görünür. O eyni zamanda Rəqqaya göndərilən bütün oymaqların iskanbaşısı (iskan məskun sözündəndir-tərcüməçi) idi. İskanbaşılıq dövlət tərəfindən verilir, vəzifəsi oymaqların təzə məskəndə yaşamalarına diqqət etmək, aralarında nizam və asayişi qorumaq idi. Əvəzində onlara Balis[4] sancaq bəyliyi verilirdi. İskanbaşılar oymaq bəylərindən təyin edilirdi. Şahin bəydən sonra qardaşı Kənan bəyin iskanbaşı təyin olunduğunu bilirik[5].

Rəqqa bölgəsinə yerləşdirilən bəyliyi və digər oymaqların rəvayətlərində Şahin bəyin yerinə onun atası Firuz bəyin adı çəkilir:

Toplandıq əşirət, gəldik Colaba,
Baş-bəndi də Firuz bəyin deyilmi?
Əmr eylədi bəylər, qonduq yan-yana,
Hacı Əlinin yurdu Seylan deyilmi?

Ondan aşağıya Bulaq düzüldü,
Bənd sahibi ismi-isminə yazıldı,
Orda Bərk ağanın kefi duruldu,
Nəvələrin yurdu Şirvan deyilmi?

Yurd verildi Ulaşlının bəyinə,
O da qondu Bərk ağanın sağına,
Firqət gəldi Ağcaqala dağına,
Bayındırın yurdu Qoncan deyilmi?

Dədəmoğlu, xeymələrin qurulsun,
Çəkilsin bayraqlar, mehtər[*] vurulsun,
Döyülsün qəhvən, hərbin[**] çağrılsın,
Abdalların yurdu örən[***] deyilmi?

---

[1] Yaqut. Mücəm ül-büldan, II, s. 96.
[2] Səyahətnamə. İstanbul, 1314, III, s. 166.
[3] Ç.Orxonlu. Həmin əsər, s. 55, haşiyə 10.
[4] Hələbin şərqində, Fərat çayı sahilindəki Balis.
[5] Ç.Orxonlu. Həmin əsər, s. 50, haşiyə 95.
[*] Osmanlı dövründəki müharibə və mərasimlərdə iştirak edən hərbi orkestrə «mehtər» deyilirdi; bando, caz-bando (tərcüməçi).
[**] Şərqi, türkü tipli sözlərdən olub cəng (savaş) zamanı ifa edilən mahnıdır. Dilimizdə hərbə-zorba termininin birinci tərəfi şəklində qalmışdır (tərcüməçi).
[***] Türk dilində xaraba deməkdir (tərcüməçi).

Rəvayətlərə görə, bəydili boyunun bəyi İskanbaşı Firuz bəy (rəvayətdə: Feruz) bu fəna yerlərdə yaşamaq olmaz deyərək, bəzi obalarla bərabər İrana getmişdir[1].

Oymaqların başında duran bəylərin Osmanlı dövlətinin onlara etibar etməməsi, vəzifə verməməsi və xüsusən də dövlət məmurlarının haqsız rəftarı üzündən İrana getdikləri bir faktdır. XV əsrdə və XVI əsrin ilk rübündəki köçəri bəy ailələrinin daha sonra müşahidə edilməməsi onların İrana köçmüş olmaları ilə bağlıdır. İranda isə onlar türk əsilzadələri sırasına daxil edilir, yüksək mənsəblərə təyin olunurdular. Buna görə, Şahin bəyin (rəvayətlərdə Firuz bəy) İrana getmiş olduğu qəbul edilə bilər. Necə ki bu şeir Firuz bəyin İrana getdiyini açıqca göstərir:

Səhərdən avazın bağrımı dələr,
Durnanın qanadı köz kimi yanar,
Qaldırmış qanadın yavru baş sanar,
Firuz bəy Əcəmə getdi, durnalar.

Yeddi atlı ilə mindik, Allah əmanət,
Yetmiş min övliya eyləsin himmət,
Yurdumu bəkləsin oğlum Məhəmməd,
Firuz bəy Əcəmə getdi, durnalar.

Çağırışı-çağırışı yayladan enin,
Enin Eyn-Əlizə[2], bir səmah[3] dönün,
Bəydən izin olsa, qoruğa qonun,
Firuz bəy Əcəmə getdi, durnalar.

Məndən salam eylə Xəznə sultana[4],
Çıxarsın alları, qara bağlasın,
Kiçik oğlu ilə könül əyləsin[*],
Firuz bəy Əcəmə getdi, durnalar[5].

Bəydililər onları yandırıcı Rəqqa çöllərində buraxıb Əcəmə gedən bəylərini əsla unutmamış, adını uşaqlarına (Feruz şəklində) qoyaraq xatirəsini zəmanəmizə qədər yaşatmışlar. Bu Firuz bəyin iskanbaşı Şahin bəy olması

---

[1] Əli Rza Yalqın. Cənubda türkmən oymaqları, I, s. 35; Əli Şahin. Həmin əsər, s. 30-35.
[2] Bura Ağcaqalanın azca cənub-qərbindəki Eyn ül-Arus deyilən yer olmalıdır.
[3] Bu söz hər halda səma olmalıdır.
[4] Ehtimal ki, Firuz bəyin arvadıdır.
[*] Əyləndirsin, ovutsun mənasındadır (tərcüməçi).
[5] Ömər Özbaş. Həmin əsər, s. 9-10 ; Əli Şahin. Həmin əsər, s. 23.

ehtimalı qüvvətlidir. Şahin bəyin Firuz bəy adlı bir oğlunun olduğunu da fikirləşmək mümkündür.

Bəydililər və digər türk oymaqları sonralar dövlət tərəfindən sürgün yeri olaraq qəbul edilən Rəqqa bölgəsində yalnız susuzluq və qovurucu istilərlə deyil, ərəb boyları ilə də mübarizə aparmaq məcburiyyətində qalmışlar. Mübarizə əhalisi qələbəlik olan təyy və ənəzə ərəbləri ilə aparılırdı. Əhalisi çox və qayət vəhşi olan bu qəbilələrlə sayı onlardan çox az olan bəydilinin və digər oymaqların igidliklə döyüşdükləri bilinir[1].

Rəqqada məskunlaşma türkmənlərin ərəblərlə, kürdlərlə, xüsusilə axırıncıların rişvan və milli əşirətləri ilə vuruşmalarına dair bir çox şeirlərin zəmanəmizədək gəlib çıxmasına səbəb olmuşdur. Bu gözəl şeir həmin mübarizələrlə bağlıdır:

Rəqqa çöllərindən gələn qazilər,
Rəqqanın da qönçə gülü soldumu?
Yenidən bir xəbər duydum oradan,
Cərid Bəkir öldü derlər, öldümü?

Cərid Bəkir ölsə, qırıldı kilid,
Yolumuza çökdü bir qara bulud.
Kürdülü Kərimlə bayındır Xalid
Qolu bağlı cəlladlara vardımı?

Qul Sədunum der ki, bulmadıq vəfa,
Hökmümüz keçərdi ol Qafdan-Qafa,
Ulaşlu oğlu Hacı Mustafa
Alayları bölük-bölük böldümü? [2]

Şeirdən göründüyü kimi, bu savaşlarda ad çıxarmış igidlərin adı çəkilir və Cərid Bəkirin ölümündən doğan təəssüf bildirilir. Cəridlərdən bir oymağın da bəydililərə qonşu olaraq Bəlix çayının sahilində yerləşdiyini bilirik[3]. Bu, Boz ulus cəridi idi. Baraqların da bu əslində bir cərid obası olduğu barədə fikrimizi əvvəlcədən bildirmişdik.

Bəydili boyu Rəqqa bölgəsinə alışdı, hətta rəvayətlərə görə təhlükəli düşmənləri olan ərəb boyları ondan çəkinməyə başladı. Rəvayətə görə, bir karvan soyğunundan dolayı Hələb valisi Abbas Paşa türk oymaqlarının üstünə qoşun çəkərək, onların dağılmalarına səbəb olmuşdur. Bu şeir türkmənlərin Abbas Paşa ilə vuruşduqlarını göstərir:

---

[1] Nibur (Ərəbistana səyahət, s. 336) 1764-cü ildə bəydililərin 12.000 çadır olduğunu yazır.
[2] Əli Şahin. Həmin əsər, s. 19 ; Ömər Özbaş. Həmin əsər, s. 26.
[3] Ç.Orxonlu. Həmin əsər, s. 54, 57, 59, 78, 94.

Əvvəlcə gəlmişdik iskan olanda,
Dağıtdın Cülabı, sən Abbas Paşa.
Əşirət! Siz də baxın böylə zamana,
Dağıtdın Cülabı, sən Abbas Paşa.

Heydərli, çələbi çıxsın bir yana,
Ərəbli, qədirli döndü aslana,
Dörd yanımız döndü qana, dumana,
Dağıtdın Cülabı, hey Abbas Paşa.

Günəşlə ulaşlı döyüşə ensin,
Qazlı, bayındırlı arxada dursun,
Torunlu, şərq evli hazırlıq görsün,
Dağıtdın Cülabı, hey Abbas Paşa.

Məhmət bəyim der ki, belim büküldü,
Gözüm yaşı sinələrə töküldü,
Dağıldı əşirətim, bəndim söküldü,
Dağıtdın Cülabı, sən Abbas Paşa.

Beləliklə, Abbas Paşaya məğlub olan bəydili, baraq və digər oymaqlar Cülabı tərk edərək dağılırlar. Bu hadisə XIX əsrdə olmuşdur. Rəqqadan çıxan bəydililərin mühüm bir hissəsi Antəbin cənub yörəsinə yerləşmişdir. Onlardan 6 obanın kəndləri Suriya torpaqlarında yerləşir. Ərəbli obasında mənsub kəndlərin çoxu Türkiyədə, üç kənd isə (Çörtən Höyüyü, Tələyli, Ağdaş) Suriyadadır. Qara şeyxli obası kəndləri təmamilə Türkiyədə olsa da, bəkmişli obasının kəndləri Suriyada qalmışdır. Bəkmişlidən başqa qazlı, günəc bayraqlar (əski günəş obası), qədirli, hacı mahlı, heydərli, Çələbi obalarının kəndləri də Suriya torpağındadır.

Bəydililər çoxdan bəri oturaq həyata keçsələr də, son boy təşkilatlarını unutmamışlar. Rəqqa bölgəsinə yerləşmə və ondan sonra baş verən hadisələrə dair xatirələr hələ də canlı bir şəkildə yaşamaqdadır. Əfşarların qovğunlara dair şerləri olduğu kimi, onların da yerləşməyə, ərəb və kürd oymaqları ilə savaşlara dair şerləri də vardır. Şeirlərdən bəzilərini yuxarıda dərc etdik[1].

**3. Boz ulus**.

Boz ulus arasındakı bəydili qolunun Şimali Suriyada yaşayan ana bəydili boyundan ayrılmış bir oymaq olduğunu əvvəlcə demişdik. Qanuni dövründəki boz ulus arasında yaşayan bəydili oymağı 200 vergi evi qədərdir. II Səlim zamanında bu oymaq daha qüvvətli bir təşəkkül halına gəlmişdir. Do-

---

[1] Əli Şahin. Həmin əsər, s. 55.

ğan və digər kəndxudaların tabeliyində olan həmin oymaq o zaman (II Səlim dövründə) 615 vergi evinə malik idi[1].

996-cı ildə (1587/1588) bu bəydili oymağının başçıları Uşaq, Məhmət və Doğan oğluna bir fərman göndərilmişdi[2]. Fərmanda onlardan tələb edilirdi ki, dövlətə qarşı üsyan etmiş və soyğunçuluğa qurşanmış Rəhbə bəyi Əbdürrəhman ilə Ruha (Urfa) bəyi Zöhrabı yaxalamaq vəzifəsi tapşırılan keçmiş Rəqqa bəylərbəyisi Məhmət paşaya kömək etsinlər.

**4. Tarsus.**

Bu bölgədəki varsaq boylarının ən böyüklərindən biri olan kusun təşəkkülü arasında 54 vergi evli bəydili adlı bir oymaq görünür. Bu oymaq Qanuni dövründə sahib olduğu bəzi tarlalarda əkinçiliklə məşğul olurdu[3].

**5. İç-el.**

Bu bölgədəki əsas oymaqlardan biri də bəydili boyuna mənsubdur. Bu oymağın hələ II Bəyazid dövründə ümumiyyətlə Gülnar qəzasına bağlı olan kəndlərdə yerləşdiyi bilinir. Sayı 14-ə çatan bu kəndlərin bir qismi köhnə adını indi də saxlayır. Həmin bəydili kəndləri bunlardır: Qara ağac (46 vergi əhalisi olan), Ulu kaşağı (39), İncircək (32), Bərçəm (25), Əmirhacı (22), Qaraca viran (52), Quru dərə (19), Ləpə (62), Dırnaqlı (35), Gerçəlik (7), Ulu çir (95), Yas pınarı (8). Bunlardan başqa, bu bəydili oymağının hələ oturaq həyata keçməmiş bir qolu da vardı ki, o, İç-el sancağı daxilində dağınıq halda yaşayırdı[4].

İç-el sancağında yaşayan bəydililərin başçısı olan ailə dəftərlərdə övladi-bəydili, yəni bəydili oğulları adlanır.

**6. İran bəydililəri.**

Şimali Suriya türkmənlərinin səfəvi dövlətinin yaradılmasında şamlu adı altında iştirak etdiyini əvvəlcə söyləmişdik. Hələ Şah İsmayılın atası Şeyx Heydər zamanındakı səfəvi müridləri arasında şamluların qələbəlik bir halda olduqları bilinir.

Səfəvi dövlətinin bel sütununu təşkil edən türk boylarından ən əsası olan şamlu boyu bəydili, inallu (sonralar inanlu) və xudabəndlu (xarbəndəlu) obalarından meydana gəlmişdi. Daha sonra bu boya avcı, balabanlu, biçərlu, ərəbgirlu və kəramətlu kimi obalar da qarışmışdır.

Daha əvvəl də deyildiyi kimi, şamlular Şah Abbas dövründə bütün qızılbaş boylarını ötərək birinci dərəcəli mövqeyə çıxmışlar. Bu dövrdə ən çox əmir verən onlar idilər. Şamlular Şah Abbasın xələfi Şah Səfi zamanında da öz mövqelərini mühafizə etmişlər.

---

[1] F.Sümər. Boz-oxlu oğuz boylarına dair, s. 85, 100.
[2] Mühümmə dəftəri, № XIV, s 62.
[3] F.Sümər. Həmin yazı, s. 86-100.
[4] F.Sümər. Həmin yazı, s. 85, 100-101.

Şamlular arasındakı bəydili qolu bu boyun hakimi və hərəkətverici obası idi. Səfəvi dövlətinin qurulmasında iştirak etmiş şamlu Əbdi bəy və onun oğlu məşhur Durmuş xanın bəydilidən olması ehtimalı güclüdür.

Şah Təhmasibə qarşı səltənət davasına qalxan qardaşı Alxas Mirzənin adamlarından olub sonra ondan ayrılaraq Təhmasibin tərəfinə keçən Bərəkət Xəlifənin bəydilidən olduğu məlumdur[1]. Sultan Məhəmməd dövründəki əmirlərdən Əhməd bəy də bəydilidən idi. O, 1002-ci ildə (1593/1594) Şah Abbas tərəfindən Lahican darğalığına təyin edilmişdi[2]. Bir az yuxarıda qeyd edildiyi kimi, Şah Abbas şamlu boyunun bəylərinə xüsusi rəğbət bəsləyirdi. Onun dövründə bu boydan böyük əmirlər yetişmişdi.

Bəydili obasına mənsub şamlu əmirlərindən (yuxarıda adı çəkilən Əhməd bəydən başqa) beş qardaş vardı ki, onlar Şah Abbasın müqərribləri sırasına daxil idilər. Beş qardaş bunlardır: Məhəmməd bəy, Heydər bəy, Saru bəy, Qapan bəy və Zeynal bəy. Onlardan biri - şahın yaxın adamı Məhəmməd bəy 1022-ci ildə (1613/1614) öləndə malı-mülkü anabir qardaşı, hərəmin eşik ağası Heydər Sultana qalmışdı[3].

Heydər Sultan özü 1028-ci ildə vəfat etmiş və zəngin sərvəti oğlu Nuriddəhrə qalmışdı. O, sevimli bir gənc idi[4]. Nuriddəhr bu dövrdəki bəzi səfərlərdə iştirak etmişdir[5]. Saru bəyə gəlincə, o, 1011-ci ildə (1602/1603) osmanlı ordusu ilə müharibədə igidlik göstərmişdi. Özü 1021-ci ildə (1612/1613) Saru-Gürkan və Ganə-rud (Kirmanşah bəlgəsində) hakimi olub, 1033-cü ildə (1623/1624) Hillə hakimliyinə təyin edilmişdi[6]. Onun qardaşı Qapan Sultana 1018-ci ildə osmanlılardan geri alınan Urmiya qalasının hakimliyi verilsə də, 1024-cü ildə (1615) məsuliyyətsizliyi üzündən qala kürdlərin əlinə keçmiş, o isə qardaşlarının hörmətinə görə sadəcə vəzifəsindən azad edilmişdir[7]. Zeynal bəy də Şah Abbasın yaxın adamlarından biri və tuşmalbaşı idi. Hökmdarı tərəfindən sevilən Zeynal bəyin Şah Abbasın vəfatı zamanı eşik ağası və eyni zamanda Rey hakimi olduğunu bilirik[8].

Şah Abbas dövründəki bəydili bəylərindən biri də Gündoğmuş Sultan idi. O, Şah Abbasın I Bağdad səfərində Kərkük yörəsindəki Tavukda idi. Buradan şahın hüzuruna gələn bu bəydili əmiri onun xidmətinə girmiş və sultanlıq ünvanı almışdı. Gündoğmuş Sultan Azərbaycanın müxtəlif yerlərində dirlik sahibi idi[9]. Şah Abbasın xidmətinə girən Gündoğmuş Sultan və

[1] Həsən Rumlu, s. 315.
[2] Tarixi-aləmarayi-Abbasi, I, s. 369, 459, 461-462.
[3] Həmin əsər, II, s. 553, 697, 716, 718, 810-811, 860-889.
[4] Həmin əsər, II, s 860, 929.
[5] Həmin əsər, II, s. 928, 1032, 1035.
[6] Həmin əsər, II, s. 614, 856-857, 906, 1011, 1019.
[7] Həmin əsər, II, s. 782, 797, 800, 811, 889, 890.
[8] Həmin əsər, II, s. 1084.
[9] Həmin əsər, II, s. 1084-1085.

ona tabe bəydililərin boz ulus arasında yaşayan bəydili oymağından olması ehtimalı böyükdür. Şah Abbasın xələfi və oğlu Şah Səfi zamanında (1628-1642) yuxarıda adını çəkdiyimiz Zeynal bəy səltənət vəkilliyi mövqeyinə qədər yüksəlmişdi. Ancaq o, 1039-cu ildə (1630) sədr-əzəm Xosrov Paşaya məğlub olduğu üçün öldürülmüşdür[1].

Bu dövrdəki bəydili əmirlərindən biri də Nəqdi bəy idi. Onun Zeynal xanla qohum olub-olmadığı bilinmir. Şah Səfinin hökmranlığının ilk illərində fərraşxana darğası olan Nəqdi bəy xanlıq rütbəsi ilə 1042-ci ildə (1633/1634) Mərv, həmin ildə Kuh-Giluyə hakimliyinə təyin edilmişdir. Bağdadın 1637-ci ildə IV Sultan Murad tərəfindən geri alınması zamanı osmanlı ordusuna əsir düşmüşdür. Buna görə də Kuh-Giluyə valiliyinə fərraşxana darğası olan oğlu Zeynal bəy təyin olunmuşdur, fərraşxana darğalığı isə mərhum Zeynal xanın oğlu Heydər bəyə verilmişdir[2].

II Abbasın (1642-1667) hökmranlığının ilk illərində yuxarıda adı çəkilən Saru bəyin oğlu Səfiqulu bəy Sultaniyyə və Zəncan hakimi olmuşdur[3]. Daha əvvəl də deyildiyi üzrə, XVIII əsrdə şamlu boyu digər bir çox boylar kimi zəifləmiş, buna görə də həmin əsrdə bu boydan az əmir çıxmışdır. Onların arasında bəydilidən əfşar Şahrux Sultanın xidmətindəki Məhəmməd Zaman xanı və Mustafa xanı qeyd etməyə dəyər[4]. XVIII əsr təzkirəçisi Lütfəli bəy də bəydilidəndir. Yuxarıda adı çəkilən Mustafa xan Lütfəli bəyin əmisi və ya əmisi oğlu idi[5].

Şamlu boyunun inallu (inanlu) obası şahsevən kimi öz varlığını bu günədək davam etdirmişdir. Hazırda Həmədan bölgəsində hamılıqla oturaq həyata keçmiş və kəndlərdə yaşayan qaragözlü oymağının şamluların qalığı olduğu bilinir, ancaq şamlunun hansı obasından və ya obalarından olması hələ təyin edilməmişdir. İndi İranda bəydili adında əhəmiyyətli bir təşəkkülə təsadüf edilmədiyi üçün, ehtimal ki, qaragözlülər bəydililərin törəmələridir.

Bu fəslə son verərkən Ətrək və Gürkan çayları arasında yaşayan türkmən göklən (göylən) icmasına mənsub oymaqlardan birinin də bəydililərdən olduğunu bildirək. Bu bəydili oymağı 1863-cü ildə aşağıdakı qollara ayrılmışdı: pank, aman xoca, boran və qarışmaz. Ancaq göklən bəydili oymağının əhalisi o qədər də çox deyildi. 1840-cı ildə bu oymağın 400 ailədən ibarət olduğu bildirilir. Bu oymağa çaku bəydili də deyilir[6].

---

[1] Zeyli-tarixi-aləmara, s. 31.
[2] Həmin əsər, s. 32, 107, 117, 227, 278.
[3] Məhəmməd Tahir Vahid Qəzvini. Abbasnamə. Tehran, 1329 III., s. 28, 62.
[4] Mirzə Məhəmməd Maraşi. Məcmə üt-təvarix. Abbas İqbal nəşri, Tehran, 1328 III., s. 139.
[5] Təhsin Yazıçı. Lütfəli bəy. İslam Ensiklopediyası, VII, s. 94.
[6] Börns. Səyahət. III, s.199; Vamberi. Səyahət, s.306; R.R.Arat. Göklən. İ.E. IV, s.809-811.

## 12. KARKIN

Kaşğarinin bəzi xüsuslarda digər boylara bənzəmədikləri və xalaç şəklində ayrı bir ad daşıdıqlarını söyləyərək siyahısına salmadığı iki boydan biri karkın boyudur. Ancaq bütün bunlardan asılı olmayaraq, karkın boyu oğuzların tarixində mühüm rol oynamış bir təşəkküldür. XVI əsrdə Anadoluda bu boya aid 62 yer adı təsbit edilmişdir. Həmin rəqəmə görə karkın boyu siyahıda beşinci yer tutur[1]. Bu boy dəftərlərdə karkın, qarkın, karkun və karqun şəklində müxtəlif imlalarla yazılmışdır. XVI əsrdə Anadoludakı karkın oymaqları əsasən Hələb türkmənləri, boz ulus, dulqədirli ulusu ilə Hamid (İsparta) sancağında yaşamışlar.

**1. Hələb türkmənləri.**

Hələb türkmənləri arasındakı karkın oymağı 193, 71 və 41 nəfər vergi mükəlləfiyyətli əhalisi olmaq üzrə üç qola ayrılmışdır. Axırıncı qolun dəvəçilər adlandığı da qeyd olunmuşdur. 978-ci ildə (1570) bu oymağın ən böyük qolunun Antəb və Rumqala tərəflərində yaşadığı bilinir. XVIII əsrin ortalarına doğru karkınlar oturaq karkın və köçəri karkın olmaq üzrə həyat tərzinə görə iki qismə ayrılmışlar. Həmin dövrdə köçəri karkınların 218 vergi evi vardı. Oturaq karkınlar isə 74 evli və 23 subaydan ibarət idilər. Bunlardan başqa, 6 evli kiçik bir karkın oymağı Hələb şəhərində, üç evlik kiçicik bir karkın icması da ivəgi oymağına aid bir kənddə yerləşmişdir. 11 evlik digər bir karkın icmasının Şam vilayətində Aralıq evi adını daşıyan bir yerdə yaşadığı bildirilir[2].

**2. Boz ulus.**

Boz ulusdakı karkın oymağı da üç qol halında olub ikisi boz ulusda, biri də onun dulqədirli təşəkkülü arasında idi[3].

**3. Dulqədirli**.

Bu el içində yaşayan karkın oymağı Hələb türkmənləri arasında əhali baxımından daha qələbəlikdir. Ancaq bu karkın oymağı sıx halda deyil, dağınıq vəziyyətdədir. Bu oymağın qollarından ən böyüyü dulqədirli ulusunun böyük oymaqlarından biri olan doqquz, digər adı ilə bişanlu boyunun bir obasını meydana gətirir. Bu oba boyun bir çox obaları kimi cənubdakı Karqılıq yörəsində yaşayırdı[4]. Doqquzlar arasında karkın obasının olması yəqin ki, bu iki təşəkkül arasındakı qəbiləvi qohumluqla əlaqədardır. Dulqədirli eli içindəki karkın oymağının bir qolu da Dədə Karkın adlı bir şeyxin Köksündə yerləşən zaviyəsinə xidmət edir. Ehtimal ki, Dədə Karkın XIII əsrdə yaşamışdır.

---

[1] Cədvələ bax.
[2] F.Sümər. Boz-oxlu oğuz boylarına dair, s. 86-87, 101, 102.
[3] F.Sümər. Həmin əsər, s. 88.
[4] F.Sümər. Həmin əsər, s. 87-88.

Hacı Bəktaş Vəlinin «Vəlayətnamə»sinə görə[1], o, Boz-oxda türkmən içində Qırşəhirə gedərkən kəramətinə şahid olduğu Hacı İbrahim adlı bir çobanı ərənlik mərtəbəsinə çatdıraraq onu boz-ox və üç-ox arasına göndərmişdir. Hacı İbrahim boz-ox və üç-ox arasında ünlü bir şeyx kimi tanındı. Bu təriqət adamının niydəli Qazı Əhmədin əsərində adı çəkilən Hacı İbrahim olması ehtimalı var[2].

Yenə «Vəlayətnamə»yə görə[3], Hacı İbrahimin ölümündən sonra onun oğulları ilə Dədə Karkının oğulları arasında geyik dərisindən olan tac üstündə ixtilaf düşdü. Nəticədə Dədə Karkının oğulları qalib gəldilər, geyik dərisindən tac qoymaq onlara və onların müridlərinə müyəssər oldu. Yəqin ki, Göksuda zaviyəsi olan Dədə Karkın elə bu Dədə Karkındır. Ancaq onun məzarının harada olması haqqında heç bir qeydə təsadüf edilməmişdir. Üstəlik, Biləcik yörəsində və Mardinin cənubunda da Dədə Karkın adlı gənclər vardır.

**4. Çuxurova.**

Tarsus bölgəsində yurd salmış məşhur kusun boyu arasında 24 evlik karkın adlı bir oba olduğu kimi, Adanının şimalında yurd salmış dündarlı boyu arasında da bu adda bir oba vardır.

**5. İç-el.**

II Bəyazid dövründə Silifkə yörəsində yaşayan böyük boz-doğan boyu obaları arasında 48 nəfər əhalisi olan (vergi verən) karkın adlı bir oba yaşamaqda idi[4].

**6. Hamid və Təkə sancaqları.**

Hamid sancağının Əyridir yörəsində yaşayan yörüklər arasında 250 nəfərlik vergi mükəlləfiyyətli bir karkın oymağı vardır. Ancaq bu karkın oymağının böyük qaramanlı boyuna bağlı olduğu göstərilir[5]. XVI əsrdə eyni adlı bir oymağın da Təkədə yaşadığı bilinir. 1102-ci ildə (1691) Rəqqa əyalətinə yerləşdirilən bəydili obaları arasında karkın adlı bir obanın adı çəkilir[6]. Bu, yuxarıda bəhs olunan köçəri karkınlar ola bilər. Səyyah Nibur[7] Antəb bölgəsində olan Dədə Karkın (Dədə Karkın) adlı bir oymağın varlığını xatırladır. Bu bəhsi bitirməzdən əvvəl teymurilərdən Babur Mirzənin (ölümü: 861-1456) Astarabad valisi olan Baba Həsənin Karkın nisbəsini daşıdığı müşahidə edilir ki,[8] bu, onun karkın boyuna mənsub olduğunu göstərir.

---

[1] Milli Maarif Nazirliyinin Ankara kitabxanası, № 230, 46 b.-47 a; Vəlayətnamə. Hazırlayan: Əbülbaqi Gölpınarlı. İstanbul, 1958, s. 21-22.
[2] Əl-Vələd üş-Şəfəq. Fateh kitabxanası, № 4519.
[3] Göstərilən yer.
[4] F.Sümər. Həmin əsər, s. 88-89.
[5] Hamid sancağı təhrir dəftəri. Baş nazirlik arxivi, № 121, s. 535-537.
[6] Ç.Orxonlu. Osmanlı imperatorluğunda əşirətləri yerləşdirmə təşəbbüsü, s. 56.
[7] Ərəbistana səyahət, s. 137.
[8] Diyarbəkiriyyə, s. 327, 344, 348, 350, 359.

## 13. BAYINDIR

Rəşidəddinin «Oğuznamə»də yazdığına görə, Oğuz xanın nəvəsi Dib Yavku xanın bəylərindən Tülü Xoca və Ala Atlı Kişi Donlu Kayı İnal Yabğunun naibi Döngür oğlu Ərki bayındır boyundan idilər. Ərki, kül ərki xan ünvanı ilə Kayı İnal Yabğunun oğlu Tuman böyüyənə qədər hökmdarlıq etmiş, sonra oğuz taxtını Tumana vermişdir. Tuman isə 100 gün yabğuluq etdikdən sonra öz arzusu ilə taxtı kül ərkinin qızından olan oğluna vermişdir. O isə Tikən Bilə Ər Biçəgən Kayı Yabğu ləqəb və ünvanı ilə hökmdarlıq etmişdir[1].

Rəşidəddinin «Oğuznamə»də yazdığı bu sözlər üç-oxların əsil boyu olan bayındırların əski oğuzların tarixində mühüm rol oynadıqlarını göstərir. Bilindiyi kimi, Dədə Qorqud dastanlarında oğuzların başçısı Qamğan oğlu Bayındır xandır. Ehtimal ki, bu, ağqoyunlu xanədanını yüksəltmək üçün dastanlara ozanlar tərəfindən sonra əlavə edilmişdir. Ancaq Bayındır xanın atasına nə üçün Göy xan deyil, Qamğan adı verilməsini heç cür izah etmək mümkün olmur.

Təhrir dəftərlərində 52 kənd və əkinliyin Bayındır adını daşıdığı görünür[2]. Onlar da digər boyların adları kimi, Anadolunun qərb və orta bölgələrindədir. Bu yer adlarından başqa Adananın Haruniyyə qəzasının qərbindəki bir nahiyə də Bayındır adlanır. O zamanlar bir yörənin (nahiyənin) hər hansı bir oymağın adını daşıması əksər hallarda orada yaşayanların hamısının və ya çoxunun eyniadlı oymağa mənsub olduğunu göstərir. Həmin Bayındır nahiyəsinin adı bu gün də qalır. İndi İzmirə bağlı olan Bayındır qəsəbəsi XVII əsrdə də vardı. Övliya Çələbi bu qəsəbənin öz adını Orxan Qazinin oraya yerləşdirdiyi bayandırlardan aldığını yazır[3]. Bunun bir xalq rəvayəti, yaxud Övliya Çələbinin özünə məxsus izahat olduğu bilinmir.

XVI əsrdə Anadoludakı bu yer adlarından başqa, həmin ölkədə bu boya mənsub bəzi oymaqlar da vardı ki, onların ən mühümləri Hələb türkmənləri arasında və Tarsus bölgəsində yaşayırdılar.

**1. Trablis-Şam.**

Trablis-Şam yörəsində yaşayan türkmən oymaqları arasında əhalisi seyrək olan bir bayındır oymağına təsadüf edilir. 25 vergi evindən ibarət olan bu oymaqdan başqa Xıns ül-əkrab ətrafında bayındır adlı 15 evlik bir oymaq da müşahidə olunur.

---

[1] Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 371-372.
[2] Cədvələ bax.
[3] Səyahətnamə, IX, s. 173.

**2. Hələb türkmənləri.**

Hələb türkmənləri arasındakı bayındırların sayı II Səlim dövründə vergi mükələfiyyətli 250 nəfər idi. Hüseyn Kətxudanın idarəsindəki bu oymağın kiçik bir qolu da eyni dövrdə Antəb bölgəsində yaşayırdı[1].

**3. Yeni-el.**

Yeni-eldəki bayındırlar Hələb türkmənləri arasında yaşayan bayındırların bir qoludur. Bu qol da özlüyündə iki qola ayrılmışdır. 125 nəfər vergi verən əhalisi olan birinci qol Bay Qoca adlı bir kəndxudanın buyruğunda, 111 nəfər vergi verən əhalisi olan ikinci qol isə Hələb türkmənlərinin başçısı Hüseyn Kətxudanın oğlu Savçının idarəsi altındadır[2]. Yeni-eldəki bayındırların 1688-ci ildə baraqlarla və digər bəzi oymaqlarla birlikdə Sivas əyalətinə tabe bir yerin tarlalarını öz heyvanlarına yedirdikləri və evlərini yandırdıqları xəbər verilir[3]. Bir az sonra onların Rüstəm Kətxuda oğlu Xalid bəyin rəhbərliyi altında 1101-ci ildə (1690) Avstriya səfərinə çağrıldıqları məlumdur[4]. Bir il sonra bayındırlara Rəqqa bölgəsinə yerləşmək əmr olunmuşdur[5]. Ancaq onlar çox keçmədən yerləşdikləri yerlərdən qaçsalar da,[6] yaxalanıb təkrarən Rəqqaya göndərilmişlər. Bundan sonra Rəqqa bölgəsində qalan bayındırlar bəydili, cərid və digər boylarla birlikdə ərəb və kürd əşirətlərinə qarşı vuruşmuşlar.

Bayındırlar XIX əsrdə bəydili və baraqlar kimi Antəb bölgəsinə gələrək burada kəndlər salmış və yerləşmişlər. Hazırda onlar 5 obaya ayrılmışlar. Onlardan biri - keçmiş bəyləri Xalid bəyin adını almış xalidli obası Suriyadakı Çobanbəyli kəndində yaşayır. Bu bayındırlar babalarının Sivasdan Rəqqaya sürulmuş olduqlarını hələ də unutmamışlar[7].

**4. Boz-ox.**

Bu bölgədə bir bayındır oymağı yaşasa da, onun haqqında məlumatımız çox azdır.

**5. Tarsus.**

Tarsus bölgəsində yaşayan və XIV-XVI əsrlərdə varsaq adlanan türkmən icması boy adları ilə kusun, ulaş, qum-təmür, göyçəlü və əlvanlı kimi bir sıra təşəkküllərə ayrılmışdı. Adı çəkilən təşəkküllərdən ulaş boyu 7 obadan meydana gəlmişdir ki, onlardan biri də bayındır obası idi. Bu bayındırların hələ 925-ci ildə (1519) qırx obacığa ayrıldığı bilinir[8]. Hər biri müstəqil

---

[1] F.Sümər. Bayındır, peçeneq və yürəgirlər. DTCF jurnalı, XI, 2-4, s. 320, 334.
[2] Həmin əsər, s. 320, 334-335.
[3] Ç.Orxonlu. Həmin əsər, s. 38, haşiyə 47.
[4] Əhməd Rəfiq. Həmin əsər, s. 84.
[5] Ç.Orxonlu. Həmin əsər, s. 38, haşiyə 47.
[6] Həmin əsər, s. 90, haşiyə 14.
[7] Əli Rza. Cənubda türkmən oymaqları. I, s. 47; Əbdülqədir İnan. Qaziantəbdə türkmənlər. Xalq bilgisi xəbərləri, № 102, s. 138.
[8] F.Sümər. Həmin əsər, s. 320-321, 336-339.

tarlalara sahib olan bu obacıqların əhalisi birlikdə 828 nəfərdir (vergi verən). Bu rəqəmi 5 elə vursaq, bayındırların cəmisi 4.140 nəfər vergi mükəlləfiyyətli əhalisi olduğu barədə təxmini rəqəm əldə etmək olar.

**6. İç-el.**

II Bəyazid dövründə Silifkəyə bağlı Təkə kəndində 112 vergi evi olan bir bayındır oymağı yaşayırdı[1].

**7. Təkə, Hamid, Məntəşə.**

Bu bölgədəki yörüklər arasında bayındır adını daşıyan bəzi kiçik oymaqlara təsadüf edilir. Təkədəki bayındır adlı oymaqlardan 37 nəfər əhalisi olan oymaq Elsuz Piri, 25 nəfər əhalisi olan isə Tülü Bayındır şəklində zikr edilir.

Hamid sancağındakı 41 nəfərlik bayındır oymağının digər adı da il-arslandır. Məntəşə sancağındakı bayındır adlı oymaq isə təkə-saru adlı bir oymaqla birlikdə yazılmışdır. Bu sonuncu oymaq Məntəşədəki böyük xorzum oymağına tabe idi[2]. Təkə, Hamid və Məntəşədə təsadüf edilən bu kiçik bayındır oymaqları ehtimal ki, öz adlarını şəxslərdən almışlar. Bayındır adının XV-XVI əsrlərdə şəxs adı kimi işləndiyini yuxarıda bildirmişdik.

**8. Xəzərarxası türkmənləri.**

Bayındırlardan bir oymaq da göklən ulusu arasında yaşayırdı. Vamberiyə görə[3] bu bayındır oymağı qalayçı, görük yapağı, yadçı, kəşir (?), yasağalıq-törəng kimi qollara ayrılırdı. İndi bayındırların yurdu İran torpağındadır[4].

Bayındır boyunun türk tarixindəki ən mühüm rolu onun Anadolunun fəthində və məskundaşdırılmasında iştirakından sonra ağqoyunlu dövlətini qurmasıdır. Buna görə ağqoyunlu xanədanına türk qaynaqlarında bayındırlı, fars qaynaqlarında bayındıriyyə adı verilir. Ağqoyunlu xanədanı Bayındır xanın nəsli olmaqla fəxr edirdi. Həmin xanədan ağqoyunlu dövlətinin son dövrlərində xeyli qələbəlik idi, lakin onların mühüm bir qismi taxt-tac uğrunda mübarizədə tələf olmuşdu. Türkiyədə bu xanədana mənsub olanlardan bəzilərinin nəsli bu günə qədər davam etmişdir.

Türkmən İskəndər bəyin sözlərindən belə çıxır ki, xanədan üzvlərindən bir qismi də səfəvilər zamanında İranda yaşamışdır. Səfəvi hökmdarının onları məhv etməməsi heyrət doğurur. Səfəvi dövründəki ağqoyunlu ailəsinə mənsub olanlardan Murad bəy Bayındıriyyə Türkman ilə Məhəmməd Zaman Sultan Bayındıriyyə Türkmanı tanıyırıq. Şah Abbasın ən etibarlı xatunu Murad bəyin qızı idi. Məhəmməd Zaman Sultana gəlincə, özü və ailəsi yəzdli olub yaxşı təhsil gördüyü bildirilir. Şahın yaxın adamlarından olan Məhəmməd Zaman Sultan 1015-ci ildə (1606/1607) ölmüşdür[5].

---

[1] Göstərilən yer.
[2] F.Sümər. Həmin əsər, s. 321, 339-340.
[3] Mərkəzi Asiyaya səyahət, s. 306.
[4] Məsud Keyhan. Həmin əsər, II, s. 103.
[5] Tarixi-aləmarayi-Abbasi, II, s. 611, 804, 1009.

# 14. PEÇENEQ

Bu adda X-XI əsrlərdə Qara dənizin şimalında və Balkanlarda mühüm siyasi rol oynamış bir türk qövmünün olduğunu bilirik. Bundan başqa, XI əsrdə peçeneq adlı bir oğuz boyu da vardı. Kaşğari türk peçeneq qövmü ilə oğuz peçeneq qövmünü bir-birindən fərqləndirir[1]. Bu ad eyniliyi ancaq iki şəkildə izah oluna bilər.

1. Hər iki təşəkkülün eyni ad daşıması sadəcə bir təsadüfdür.

2. Oğuz peçeneq boyu türk peçeneq qövmünün bir parçası olub oğuzların tabeliyi altına girmiş, vaxt keçdikcə oğuzların bir boyu halına gəlmişdir. Ancaq nə Kaşğarinin, nə də Rəşidəddinin xəritələrində bu ehtimala aid bir dəlil yoxdur. Üstəlik, bu boy bayındır, çəpni və çavuldurlardan fərqli olaraq, Oğuz xanın dördüncü oğlu Göy xana bağlanmır. Peçeneq boyuna aid təhrir dəftərlərində ancaq 4 kənd adı görünür ki,[2] onların hamısı digər boylara aid çoxlu yer adları kimi Ankara sancağında yerləşir. Bu münasibətlə Ankara bölgəsində səlcuqlu fəthindən bəri çox qələbəlik bir türkmən elatının yaşadığına bir daha diqqəti cəlb edək. XII əsrdə Ankara türkmənlərinin şöhrəti Xorasana qədər yayılmışdı.

Ankara sancağındakı peçeneq kəndləri Yabak ova, Murtəza ova və Qəsəbə qəzalarında yerləşir. Kəndlər indi də əvvəlki adlarını daşıyırlar[3]. Bunlardan əlavə, Ankaraya bağlı Şərəfli Qoç-hisar yaxınlığındakı bir vadi də Peçeneq özü (peçeneq vadisi) adlanır. Lakin indi bu vadidə Yeni-elə bağlı türkmən kəndləri yerləşir. Müasir dövrdə peçeneq yer adlarından ikisi Maraşın Əlbistan qəzasında, dördü isə Konya bölgəsindədir. Bunlardan başqa, Aksaray qəzasında (Konya) Beçeneq adlı bir tarlanın, İsparta bölgəsində isə iki yer adının var olduğu məlumdur[4]. Üstəlik, biri Su şəhərinə (Sivas), digəri də Əmir dağına (Afyon) tabe Peçenə adlı iki kənd var ki,[5] onların bu boydan olduqlarına şübhə yoxdur.

Rəşidəddinin peçeneq boyunun adını biçənə şəklində yazdığını bilirik. XVI əsrdə peçeneq adlı oymaqlara gəlincə, onlar Hələb türkmənləri, Tarsus varsaqları və atçəkənlər arasında yaşamışlar.

**1. Hələb türkmənləri.**

Qanuni Süleymanın hakimiyyətinin ilk illərində bu icma arasında yaşayan peçeneqlər ayrı-ayrı kəndxudaların buyruğunda olmaq üzrə dörd qola ayrılmışlar. Bunlardan Süleyman Kətxudaya tabe peçeneq qolunun 34 vergi evi, Əhməd, Mustafa və Əli kəndxudaların idarəsindəki peçeneq qollarının

---

[1] Kilisli, I, s. 404; Atalay, I, s. 488; [Ramiz Əskər, I, s. 469].

[2] Cədvələ bax.

[3] Türkiyədə məskun yerlər qılavuzu, s. 905.

[4] Həmin əsər, s. 140; F.Aksu. İsparta eli yer adları. İsparta 1936, s. 37, 61.

[5] Həmin əsər, s. 140.

da 57, 67 və 109 nəfər vergi ödəyən əhalisi vardı. Onlar Hələb türkmənlərindən olsalar da, yurdları o zamanlar Maraşa, indi isə Adanaya bağlı Haruniyyə qəzasındakı Bayındır nahiyəsində yerləşirdi. Bununla bərabər, onlara məxsus tarlaların Bulanıq (Bağça) və cənubda kınık torpağındakı Yarpıza qədər uzandığı bilinir. Peçeneqlər bu tarlalarda əkin əkir, çəltik (düyü) yetişdirirdilər. Bu əkin sahələrinin ən əsasları bunlardır: kənə günəş, pürnək (?), sisca, saqqızcıq, quzu dərəsi, təfkur bürcü (Xudu dağında), daşlıca eniş, çanax alanı, uşacuq pınarı, fındıq, böyük saqqız, incugəz, bərkəşlik, ovacıq pınarı, göy pınar, yarpız, hüseynlər (Sarvandı-qaypaq qalası yanında). Peçeneqlərin Xızır Hacı, şah Məlik (digər adı: Əli Kətxudalı, yuxarıdakı Əhməd Kətxudanın oğlu), ekiz və yad bəylu qolları Haruniyyənin şimal-şərqindəki Xudu dağında yaylağa çıxırdı. Bu qollardan yalnız yad bəylü eyni zamanda Xudu dağındakı təfkur bürcündə qışlayırdı, orada da yaylağı vardı. Digər tərəfdən Şah Məlikin bir qolunun da Sarvandı dağında yaylağa çıxdığını bilirik.

1530-1540-cı illər arasında peçeneqlərin vergi ödəyən əhalisinin sayı 473-ə, 978-ci ildə isə (1570) 722-yə çatmışdı. Onlar bu son tarixdə aşağıdakı qollara ayrılmışdılar: İsa hacılu (82 vergi evi), boyacılu (9 vergi evi), ekizlər (97), piri bəylü (142), şah məliklü (31), habillu (3), ekiz (5), digər boyacılu (7), sipahilər (39). Bunlardan vergi ödəyən 7 nəfərlik boyacılu Əlbistana bağlı Göyərçinliyə yerləşmişdi. Peçeneqlər vaxt keçdikcə yeni kəndxudalarının adı ilə adlanmışlar.

993-cü ildə (1585) Maraş və Göyərçinlik qazılarına göndərilən bir fərmanda[1] peçeneq tayfasından Seyid Qazı və Qanlı Məhmədin quldurluq edərək peçeneq tayfasından Həsən Əli Fakihi öldürdükləri, eyni tayfadan Qara Əhməd oğlu Mustafanın və Seyid Vəqqasın evini taladıqları yazılaraq, günahkarları yaxalayıb mühakimə etmək əmr olunurdu. Bunlar yuxarıda Göyərçinliyə yerləşdiklərini bildirdiyimiz peçeneqlərdir.

Sultan İbrahim dövründə (1639-1648) Hələb türkmənlərinə bağlı peçeneqlər Gəbə oğlu Əli bəyin idarəsində olmaq üzrə 5 oba halında idilər: bərayirli (vergi ödəyən 40 nəfər) ekizlər (13), Xızır hacılu (29), xamudlu (12), bayırlu (13)[2]. Bu, peçeneqlərdən çoxunun tamamilə yerləşmiş olduğunu və ya təhrir dəftərlərinə daxil edilmədiyini göstərir. Bəs onlar haraya yerləşdilər? Bu sualın cavabını vermək üçün peçeneqlərin yaylaq yurdlarında (Xudu dağında) və Göyərçinlik nahiyəsində araşdırma aparmaq lazımdır. Ancaq bunsuz da onlardan mühüm bir qismin bəhs edilən yaylaqlarda yerləşmiş olduğunu qəti şəkildə söyləmək mümkündür. Peçeneqlərin Bayındırdakı qışlaq yurdları bu gün də Peçeneq adlanır, lakin orada ancaq tacirlilərə mənsub kəndlilər görünür.

---

[1] Mühimmə dəftəri, № X, s. 54.
[2] F.Sümər. Bayındır, peçeneq və yürəgirlər, s. 327-328.

**2. Tarsus.**

Bu bölgədəki peçeneq varlığı çox əhəmiyyətsiz olub ancaq 9 vergi evindən ibarətdir. Onlar Tarsusun böyük boylarından quş-təmür boyu obaları arasında yaşayırlar. Bu hal iki təşəkkül arasında qəbiləvi bir münasibətin mövcud olduğunu ifadə edir[1].

**3. Atçəkənlər.**

Axırıncı peçeneq varlığı atçəkənlər arasında müşahidə edilir. I Səlim dövründə Akşəhərin Turqut qəzasında yaşayan bu peçeneq oymağı 34 nəfər vergi mükəlləfiyyətli əhalidən ibarət idi[2]. Ehtimal ki, bu oymaq qələbəlik bir peçeneq varlığının qalığıdır. Çünki Turqut qəzasında Peçeneq adlı bir kənd, bu qəzaya yaxın yerlərdə isə eyniadlı bəzi yer adları var.

## 15. ÇAVULDUR

Bu boyun adı XVI əsrdə Anadoluda ümumiyyətlə çavundur şəklində söylənmişdir. Bununla birlikdə həmin sözün qədim şəkli ilə (yəni cavuldur) bir çox kəndlərə, habelə Çovdur şəklində də bəzi kəndlərə təsadüf edilir. XVI əsrdə Anadoluda bu adda 21 yerə rast gəlirik[3].

«Danişməndnamə»də[4] Danişmənd Qazinin silahdaşı olan Çavuldur Çaka adlı bir adamdan bəhs olunur. Zahir Nişapurinin «Səlcuqlu tarixi»ndə Anadolunu fəth edən Sultan Alparslanın sərkərdələri arasında Əmir Çavuldurun adı da çəkilir[5]. Həmin müəllifə görə, Əmir Çavuldur Artuq, Saltuq, Məngücük və Danişmənd ilə Malazgird müharibəsində iştirak etmiş və Anadolunun Maraş ilə Saruz (Sarız) bölgələrini fəth etmişlər Bu qeydlərə əsaslanaraq çavuldur boyuna mənsub Çaka adlı bir bəyin Anadolunun fəthində mühüm rol oynadığını qəbul edə bilərik. Hətta məzkur əsərlərdə ondan bəhs edilməsi Çavuldur Çakanın adı unudulmayan məşhur bəylərdən biri olduğunu göstərir. Bununla bərabər, çavuldurlar oğuz boylarına aid yer adları cədvəlində 18-ci yeri tutur, üstəlik, Anadoluda onlara məxsus qələbəlik oymaqlara da təsadüf edilmir. Bu, həmin boya mənsub mühüm bir qolun qərbə köçməyərək Manqışlaq yarımadasında qalması ilə izah edilə bilər.

XVI əsrdə bu boya mənsub bir oymaq Boz-ulusda müşahidə olunur. Ondan başqa, eyni adlı çox kiçik bir oymaq da Çorum sancağında yaşayırdı.

**1. Boz ulus.**

Dəftərlərdə adı çavundur imlası ilə yazılan bu oymaq II Səlim dövründə iki qola ayrılmışdır. Duyar Kətxudaya tabe birinci boy 174 nəfərdən, Pir

[1] F.Sümər. Həmin əsər, s. 328.
[2] F.Sümər. Həmin əsər, s. 328.
[3] Cədvələ bax.
[4] Danişməndnamə. Millət kitabxanası. Əli Əmiri fondu, № 571, s.17, 18, Ali. Mirkad ül-cahad. Həmin kitabxana. Rəşid Əfəndi fondu, № 678, 17 b, 22 b.
[5] Zikri-tarixi-ali-Səlcuq, s. 33, 39.

Əhməd Kətxudanın idarəsindəki ikinci boy isə 50 vergi evindən ibarət idi[1]. Bundan başqa, boz ulusun böyük oymaqlarından biri olan oğulbəyli obaları arasında da çavuldur adlı bir oba vardı. Bu oba öz adını kəndxudaları olan Vəlinin atası Çavundurdan almış olmalıdır. Bu xüsus oğulbəyli oymağının çavundur boyu ilə qəbiləvi bir rabitəsi olduğunu göstərir.

**2. Çorum.**

Çorumda yaşayan kiçik çavundur oymağına gəlincə, onun Osmancıq qəzasına bağlı Ağca su kəndində yaşadığı bilinir[2]. Bu oymaqla birlikdə həmin kənddə yaşayan Adil və Habil adlı oymaqların çavundurlarla qohum olması mümkündür. Həmin əsrdə Məntəşə bölgəsindəki Köycəyiz qəzasında Çandır adlı kiçik bir oymaq da vardı. Ancaq bu adın çavundurla əlaqədar olub-olmadığını bilmirəm.

**3. Xəzərarxası türkmənləri.**

Yuxarıda qələbəlik bir çavundur qolunun Manqışlaq yarımadasında qaldığını söyləmişdik. Əbülqaziyə görə[3], Şah Məlikin öldürülməsindən sonra oğuzlar arasına dava düşmüş və onların bir dəstəsi Qılıq, Qazan və Qaraman adlı bəylərin başçılığı altında Manqışlağa getmişdir. Bu dəstədə hər boydan oymaqlar var idi. Ancaq çoxu (köpərəyi) eymür, döyər, iqdır, çavundur, karkın və salurdan idi.

Birinci hissədə Sır-Dərya boyundakı oğuz elindən bəhs edərkən X əsrin əvvəllərində qardaş qovğası üzündən oğuzlardan bir dəstənin o vaxtadək qeyri-məskun, tənha bir yer olan Siyah-Kuh (Manqışlaq) yarımadasına köçüb orada yurd saldığını demişdik. Bu fakt Əbülqazinin nəql etdiyi rəvayətin əsası ola bilər. Manqışlaqdakı çavundurlara son əsrlərdə çavdur deyilmişdir. Onlar digər türkmən boylarına mənsub qollarla birlikdə Manqışlaqda heç də rahat yaşaya bilməmişlər.

XVI əsrdə yarımada manqıtlar tərəfindən istila edilmiş, qələbəlik salur boyu oradan çıxarılmışdır. Daha sonra bura kalmıkların hücumuna uğramışdır. Kalmıklar çavdur, iğdır və soynacıların bir bölüyünü özləri ilə birlikdə Şimali Qafqaza apardılar. Onlar orada öz varlıqlarını bu günədək qorumuşlar.

Manqışlaqda qalan çavdur, iğdır və digər oymaqlara mənsub qollar isə XIX əsrdə qazaxlar tərəfindən qovulmuşlar[4]. 1863-cü ildə çavuldurlar Aral dənizinin cənub sahili ilə Qara Boğaz-qol arasında yaşayırdılar. O zaman sayı 12.000 çadır təxmin edilən çavdurlar bu obalardan meydana gəlirdi: abdal, iğdır, əsənlu, qara çavdur, bozacu, buruncuq və şeyx[5].

---

[1] F.Sümər. Anadoluda üç-oxlu oğuz boylarına mənsub təşəkküllər, s. 439.
[2] Göstərilən yer.
[3] Şəcəreyi-tərakimə, s. 61.
[4] Barthold. Türkmən xalqının tarixi, s. 137, 157.
[5] Vamberi. Mərkəzi Asiyaya səyahət, s. 303.

## 16. ÇƏPNİ

Çəpni də əfşarlar kimi adı zəmanəmizə qədər gəlib çıxmış bir boydur. «Vəlayətnamə»yə görə[1], Qırşəhrin Suluca Qara Höyük kəndinə gələn Hacı Bəktaş Vəlinin ilk müridləri çəpnidən idi. Bu xüsus eyni zamanda bu boya mənsub olanların mühüm bir hissəsinin nə üçün qızılbaş olduğunu da göstərir.

Çəpnilərin böyük bir qismi hər halda 1240-cı ildə baş verən Baba İshaq üsyanında iştirak etmişdir. Çəpnilərdən bir elatın 1277-ci ildə Sinop yörəsində yaşadığı müşahidə olunur. Həmin il çəpni türkləri Sinop şəhərinə dənizdən hücum edən Trabzon yunan imperiyasını məğlub edərək, şəhərin onun əlinə keçməsinin qarşısını almışlar[2]. Çəpnilərin bu tarixdən sonra Canit (Canik) adlanan Samsunun şərqində Girəsun nahiyəsinə qədər uzanan sıx meşəlik bölgəyə gələrək, oranı yavaş-yavaş fəth etdikləri anlaşılır. XIV əsrin ortalarında bu günkü Ordu vilayətinə Bayram oğlu Hacı Əmir adlı bir türk bəyinin hakim olduğunu bilirik. O, 1358-ci ildə böyük bir qoşunla Trabzonun qərbindəki Maçkaya gələrək buranı yağmaladıqdan və dağıtdıqdan sonra bol qənimətlə (doyumluq) öz ölkəsinə qayıtmışdı[3]. Bu gün Ordunun mərkəz kəndlərindən biri olan Bayramlı əvvəllər nahiyə mərkəzi idi və bu ad bütün nahiyəni ifadə edirdi. Bu ad Hacı Əmir bəyin atası Bayramla bağlı ola bilər.

Həmin il Trabzon imperatoru Hacı Əmirin hücumlarının qarşısını almaq üçün qızını ona verdi[4]. Aleksis daha sonra bir qızını da Niksar bəyi Tacəddinə vermiş (1360), beləliklə, üç türk bəyini özünə kürəkən etmişdi. Hacı Əmir 1361-ci ildə Trabzon imperatorunun əlində olan Girəsuna hücum etdi[5].

1380-ci ildə isə Trabzon imperatorunun çəpnilər üzərinə yürüşə çıxdığını görürük. Trabzon salnaməçisi Panaretin yazdığına görə[6] imperator min nəfərlik piyada bölüyünü Tirəbolu şəhərinə göndərdikdən sonra özü süvarilərlə birlikdə hərəkətə keçmişdi. O, çəpniləri Filabonit çayının yatağı boyunca Xeymasiyə qədər qovmuş, yurdlarını yaxıb-yıxmış, onların qəsb etdiyi bəzi kiçik qənimətləri də geri almışdı. İmperator bundan sonra Stlabopiastis adlanan yerə gəlmişdi. Tirəboluya göndərilən piyadalar isə Kotzantaya qədər hər yeri yaxıb-yıxaraq geri qayıtdıqları zaman çəpnilərin təqibinə uğra-

[1] Hazırlayan Əbülbaqi Gölpınarlı, s. 26.
[2] İbn Bibi. Əl-əvamir ül-əlaiyyə. Təkrar nəşr, s. 729; Houtsma nəşri. Leyden, 1902, IV, s. 399.
[3] Mişel Panaret. Trabzon xronikası. Löbo. Kiçik imperiyanın tarixi. XX cildə əlavə, s. 494-495.
[4] Həmin əsər, s. 495.
[5] Həmin əsər, s. 496.
[6] Mətndə: les Tzapnides (s. 504). Le Beku bunun Lazika bölgəsinin hakiminin adı olduğunu söyləsə də (s. 504, haşiyə 2), biz bunun çəpni demək olduğu fikrindəyik.

mışlar[1]. Panaretin bu sözləri göstərir ki, qərbdən Tirəboluya qədər uzanan sahil bölgəsi ilə onun cənubundakı torpaqlar çəpnilərin əlində idi.

Hacı Əmir bəy öldükdən sonra onun yerinə oğlu Süleyman bəy keçdi. Süleyman bəy 798 və ya 799-cu ildə (1396/1397) Girəsun şəhərini zəbt etdi[2]. 1404-cü ildə Teymurun yanına gedən İspaniya elçisi Klavixo[3] yazır ki, Ordu və Girəsun 10.000 nəfərlik qoşunu olan Hacı Əmirin əlində idi. Belə görünür ki, bu bəylik Canik bölgəsinin fəthində mühüm rol oynamış və Hacı Əmirə tabe olan türklər bu bölgədəki türk xalqının nüvəsini təşkil etmişlər. Bunlar arasında çəpnilərin əhəmiyyətli yer tutduqlarını yuxarıda qeyd edilən hadisələr göstərir. Canik camaatının bir qismini çəpnilərin təşkil etməsi XVI əsr sənədlərində öz əksini tapmışdır. Trabzonun cənubundakı və qərbindəki yörədə də çəpnilərin yaşadığı məlumdur.

Birinci hissədə söylədiyimiz kimi, İspaniya səfiri Klavixo[4] Trabzondan Ərzincana gedərkən yolda çəpnilərə məxsus bir qala görmüşdü. Çəpnilərdən bir bölüyü Uzun Həsən bəy zamanında ağqoyunluların xidmətinə girmişdi. Onların başçısı El Aldı bəy idi. Həsən bəyin 873-cü ildə (1468/1469) Bitlisin fəthinə göndərdiyi əmirlər arasında El Aldı bəy də vardı[5]. El Aldı bəyin dirliyi Şərqi Anadoluda yerləşirdi. 883-cü ildə (1478) Yəqub bəy Uzun Həsənin ölümündən sonra ağqoyunlu taxtına keçən böyük qardaşı Sultan Xəlilin üstünə yürüdüyü zaman El Aldı da ona qoşulmuşdu. İki qardaş Xoy yaxınlığında üz-üzə gələrkən Yaqub bəy məiyyətindəki əmirlərdən Bayındır bəyə, İsfəndiyar oğlu Qızıl Əhməd bəyə və El Aldı bəyə vuruşma üçün yer seçməyi tapşırmışdı[6]. El Aldı bəyin çəpnilərin Trabzondakı qismindən olması ehtimalı qüvvətlidir. Ağqoyunluların xələfləri olan səfəvilərin xidmətində də çəpnilər vardı. Onlardan aşağıda bəhs ediləcəkdir.

XVI əsrdə Anadoluda çəpnilərə aid 43 yer adı müşahidə olunur. Bu rəqəmlə çəpnilər bizim cədvəldə 9-cu yeri tuturlar[7]. Bu yer adlarından biri Çorumdakı bir nahiyəyə verilmişdir.

Həmin əsrdə bu boya mənsub oymaqlar bunlardır.

**1. Hələb türkmənləri.**

Qanuni Süleymanın hökmranlığının ilk illərində Hələb türkmənləri arasında üç qola ayrılmış bir çəpni oymağı var idi. Onlardan 53 vergi evi olan birinci qol Antəbin cənub-şərqindəki Rum qalası nahiyəsində yaşayırdı. Donrul (Toğrul) Kətxudanın idarəsindəki ikinci qol da Antakyanın şimalın-

---

[1] S. 504-505.
[2] Bəzmü rəzm, s. 529-530.
[3] Teymurləngin yanına elçilik, s. 73.
[4] S. 83.
[5] Diyarbəkiriyyə, s. 543.
[6] Fəzlullah İbn Ruzbixan. Tarixi-aləmariyi-Əmini. Fateh kitabxanası, № 4431, 71 b, 78 b. İngiliscə tərcüməsi: V.Minorski. Persiya in a.d. 1478-1490, s. 32-35.
[7] Cədvələ bax.

dakı Gündüzlu qəzasında, əhalisi ən az olan üçüncü qol isə şərqdə bir yerdə yaşayırdı. 978-ci ildə (1570) yenə üç qol halında olan çəpnilərin əhalisi xeyli artmışdı. Qanuni dövrünün ilk illərində 53 vergi evi olan birinci qolun əhalisi 397 nəfərə çatmışdı (1570-ci ildə). İkinci və üçüncü qolların əhalisi isə 29 və 16 nəfər (vergi verən) idi. Bu iki qolun başım qızdılı, yaxud başım qızdılı çəpni adlandığını bilirik.

XVII əsrin ortalarına yaxın çəpnilərin ana qolu yenə Rum qalası nahiyəsində sakin idi. Sultan İbrahim dövründə Dəniz Kətxuda tərəfindən idarə olunan Rum qalası yörəsindəki qəsəbələr, qorxmazlu, sarılu, kosalar və şüeyyublu adlı obalara ayrılmışdılar. Başım qızdılı adlanan digər iki qolun isə o dövrdə Adana, Aydın və Saruxan vilayətlərində yaşadığı bildirilir[1].

Çəpnilər 1687-89-cu illərdə Pazarcıq və Kəfərdiz nahiyələrini yağmalamışlar[2]. Həmin illərdə Rum qalasında yaşayan çəpnilərə oturaq çəpni deyilirdi. Onlar 1101-ci ildə (1690) Avstriya səfərinə çağrıldılar. 20 atlı ilə çıxan çəpnilərə Hacı Mahmud, Radif, Əli Paşa oğlu, Sami və Döyər oğlu adlı kəndxudalar başçılıq edirdilər[3]. Bir il sonra çəpnilər Rəqqa bölgəsinə yerləşmələri əmr edilən oymaqlar arasında idilər. Əslində, onlar bir-birindən fərqli iki oymaq idilər. Bu oymaqlardan biri indi haqqında danışdığımız çəpnilər, yəni Hələb türkmənləri arasındakı çəpnilərdir[4]. Ancaq bu oymağın Rum qalası yörəsindəki oturaq çəpnilər, yoxsa onların yerləşməmiş bir qolu olduğu bilinmir. Bu çəpnilər axırda Rum qalasında yerləşmiş və adlarını bu günədək qorumuşlar. Digər çəpni oymağı isə Ankaranın Kəskin qəzasında yaşayan boz ulus icmasına bağlı idi[5]. Rəqqa əhvalatı ilə əlaqədar sənədlərdə adı çəkilən qantəmir (təmür) çəpnisi bu boz ulusa bağlı ikinci oymaq idi. Rəqqa bölgəsinə yerləşdirilən qantəmir çəpniləri digər bəzi oymaqlarla bərabər oradan iki dəfə qaçdılar[6], ikinci qaçmada onlar Turqutlu və Berqama tərəflərə getdilər (1141-1728) və oradan sürgün yerinə bir daha qayıtmadılar. Bu surətlə XVII əsrdə qərbə gələn başım qızdılı çəpniləri ilə yenə oraya XVIII əsrdə gələn qantəmir çəpniləri bu gün Balıkesir[7], İzmir (Berqama), Manisa[8] və Aydın[9] vilayətlərində yerləşmiş çəpnilərdən başqası deyildir. XVI əsrdən əvvəl bu vilayətlərdə çəpni adlı heç bir təşəkkül yaşamırdı.

---

[1] F.Sümər. Anadoluda üç-oxlu oğuz boyları... s. 443-445, 482-483.
[2] Ç.Orxonlu. Həmin əsər, s. 40.
[3] Əhməd Rəfiq. Həmin əsər, s. 95.
[4] Əhməd Rəfiq. Həmin əsər, s. 96; Ç.Orxonlu. Həmin əsər, s. 56.
[5] Ç.Orxonlu. Həmin əsər, s. 57-60.
[6] Əhməd Rəfiq. Həmin əsər, s. 135; 171-172; Ç.Orxonlu. Həmin əsər; s. 93.
[7] Bax: İsmayıl Kadıoğlu. Balıkesirdə çəpnilər. Balıkesir, 1935, s. 22-23; Kamil Su. Balıkesir və Civarında yörük və türkmənlər, s. 65, 129-130, 149-151.
[8] Bunlar Manisanın Mərkəz qəzasına bağlı Muradiyyə, Xırmandalı, Tirkeş, Turqutlunun Həmzə baba, Bəktaş, Göy Gədik və Zəamət kəndləridir.
[9] Bunlar Sökəyə tabe Sofular, Dərzilər, Halvaçılar, Tirənin Çayırlar kəndidir.

**2. Ulu yörük.**

Ulu yörük icmasının ehtimal ki, şərq parə qolu arasında yaşayan çəpni oymağı 926-cı ildə (1520) 17 qışlaqda sakin idi. Çəpnilər bu qışlaqlarda əkinçiliklə məşğul olurdular. Vergi verən əhalisinin sayı 432 olan çəpnilərin sayı 982-ci ildə (1574/ 1575) artıq 4 dəfə artmış, 1984-ə çatmışdı. Bu zaman onların 32 qışlaqları vardı[1].

**3. Trabzon bölgəsi çəpniləri.**

Osmanlı coğrafiyaşünaslarından Məhməd Aşiqin XVI əsrin sonunda yazdığı «Mənazir ül-əvalim» adlı əsərində Trabzon yörəsində yaşayan türklərin xeyli hissəsini çəpnilərin təşkil etdiyi, yörənin qərb və cənub tərəflərindəki dağların da Çəpni dağları adlandığı barədə bir qeydin olduğu məlumdur[2].

Təhrir dəftərlərində bu çəpnilərlə əlaqədar mühüm qeydlər əldə edilir.

I Səlim dövrünə aid (921-1515/1516) bir dəftərdə çəpnilərin sıx halda yaşadıqları yer «Vilayəti-Çəpni» adı ilə ayrı bir inzibati yer kimi göstərilmişdir. Dəftərdəki yer adlarından belə görünür ki, bu yerə Girəsun, Torul və Görələ arasındakı sahədir. Xüsusilə Kürtün qəzası başdan-başa çəpnilərlə məskun idi. Bununla bərabər çəpnilər Trabzon-Torul-Vəqfi-Kəbir arasındakı sahədə də yaşayırdılar. Çəpni yörəsində Ozqur, Qara dibi, Qurtulmuş, Yenicə Hisar, Seyid, Candarlu, Alnı yuma, Ənkəzlü, Firuzlu, Halqalu, Yaxalqan, Kilsə, Qul çuxuru, İaban, Dikməçi, Yağmurca, Əmirlü, Sarban, Uzun dərə, Qara gönçü, Mürsəllü, Tapa dərəsi, Dərəlü, Ağ yuma, Qarınca kimi böyük bir qismi türkcə adlar daşıyan qələbəlik kəndlər görünür.

Buradakı çəpnilər tamamilə torpağa bağlanmışdılar. Xristianlar isə sahil şəhərlərində yaşayırdılar. Çəpni yörəsi timar sisteminə tabe idi. Dirliklər isə ümumiyyətlə çəpni bəylərinə verilmişdi. Məsələn, Busatlu (hər halda Əbu Səidlidən yaranmışdır) adlı bir zəamət çəpni bəylərindən Məhmət bəy oğlu Əliyar bəyin idi. Məhməd bəyin Xəlil, Əli xan, Hümmət və Nasuk adlı oğulları da timar sahibi idilər. Yeni çəpni bəylərindən Aydın bəy oğlu İbrahim, Məhmət bəy oğlu Xəlil, Piri bəy oğlu Busat da timar işlədirdilər. Dəftərdə timar sahibi kimi daha çox çəpni bəylərinin adına təsadüf edilir. Çəpni bəylərinin yanında qədimdə din və təriqət adamları görürdük. Həmin dəftərdə Yaqub Xəlifə adlı bir təriqət adamının cami, zaviyə və keçilməz yerlərdə körpülər tikdirmiş «əhli-vəlayət və sahibi-kəramət» bir kimsə olduğu və çəpni bəylərindən Süleyman bəyin onun üçün cami tikdirdiyi və ailəsi üçün dörd para kənd bağışladığı yazılır. Süleyman Xəlifə adlı digər bir çəpni təriqət adamının da sıldırım bir boğazda körpü inşa etdirdiyi həmin dəftərdə qeyd olunmuşdur. Çəpnilərə mənsub bəzi şəxslərin Girəsun, Ordu və Tirəbolu camilərində imamlıq, xətiblik və cüzxanlıq vəzifələri daşıdıqları

[1] F.Sümər. Həmin əsər, s. 447, 484-485.
[2] Məhməd Aşiq. Mənazir ül-əvalim. Nurosmaniyə kitabxanası, № 3426, 229 a.

bilinir. Trabzonun şərqində yerləşən dirliklərdən bəzilərinin də çəpnilərin əlində olduğu məlumdur[1].

Çəpnilərin mühüm hissəsi şiə idi. Bunun nəticəsində də səfəvi hökmdarlarına sadiq idilər. 973-cü ildə (1565) Trabzon sancağı bəyinə yazılan bir fərmanda[2] yuxarıda Caniblə (yəni İranla) münasibətdə olanların gizlincə tutulub göndərilməsi əmr olunurdu. Şübhəsiz, səfəvilərin müridləri arasında bu çəpnilərdən xeyli adam vardı.

Qanuni dövründə Şərqi Anadoluda, hətta İraqdakı qalalarda könüllü olaraq çalışan xeyli çəpni vardı. Onların çoxu Trabzon və Canik çəpnilərindən idi. Bu çəpnilərin bəziləri İranla müharibələrdə səfəvilər üçün casusluq etdikləri üçün və hətta çoxluq olduqları halda Ərciş qalasını düşmənə vermək surətilə xəyanət etdikləri üçün 976-cı ildə (1568) Van bəylərbəyisinə fərman göndərilərək Van, Ərciş, Axlat və Bitlis qalalarında bir adam qalmamaq şərtilə bütün çəpnilərin çıxarılması əmr edilmişdi[3]. Bundan başqa, 994-cü ildə (1585) Anadoludakı bütün bəylərbəyilərə, Şam, Bağdad və Rəvan bəylərbəyilərinə fərmanlar göndərilərək, çəpni, tat və qızılbaşlara dirlik verilməməsi yazılmışdı[4]. 975-ci ildə (1567) Bayburt alaybəyisinin çəpnilərdən olduğunu bilirik[5].

**4. Dulqədirli.**

Dulqədirli ulusu arasındakı çəpni varlığı əhəmiyyətsiz olub 34 nəfərlik (vergi verən) kiçik bir oymaqdır. Həmnn bölgədə bu adda bir qala da var.

**5. Boz-ox.**

XVI əsrdə kiçik (42 vergi evli) bir çəpni oymağı da boz-oxda yaşayırdı. Həmin bölgədə Çəpni adlı bir kənd də vardı. Bu, qızıl qoca boy bəyi İsa bəyin yurdlarından biri idi[6]. XVIII əsrdə Yeni-el təşəkkülləri arasında görünən dil-çəpni adlı bir oymağın[7] əvvəllər hansı icmada yaşadığı, bizcə, məchuldur.

**6. Adana.**

925-ci ildə (1519) Adananın Sarı səm yörəsində kiçik bir çəpni oymağı yaşayırdı[8].

**7. Atçəkən.**

Atçəkənlər arasında, Əski-el və Turqut yörələrində də bu boya mənsub bəzi oymaqların yaşadığı məlumdur.

I Səlim dövründə Əski-eldəki çəpnilərin mühüm bir qismi Çanax, Düzmüş, Arx ardı, Girmasun, Əlgən arqı və Əlixan arqı adlı kəndlərdə oturaq

[1] Trabzon sancağı dəftəri. Baş nazirlik arxivi, № 52, 313 b, və ardı.
[2] Mühimmə dəftəri, № V, s. 513.
[3] Mühimmə dəftəri, № VII, s. 757, 832.
[4] Mühimmə dəftəri, № LX, s. 130.
[5] Mühimmə dəftəri, № V, s. 291.
[6] F.Sümər. Həmin əsər, s. 446, 484.
[7] Əhməd Rəfiq. Həmin əsər, s. 121.
[8] F.Sümər. Həmin əsər, s. 445.

halda yaşayırdı. O zaman onlardan ancaq 27 vergi evli bir obanın köhnə yaşayışı davam etdirdiyi bilinir. Bu oba bəzirçi və qarı daş əkinliklərinə sahib idi. III Murad dövründə bu oba hələ də köçəri idi.

Turqut yörəsindəki çəpni oymağına gəlincə, o, I Səlim dövründə 44 evlik idi. Bayırca quyu, çuxur hisar və duraqlı adlı əkinliklərin bu oymağın yurdu olduğu qeyd edilir. XVI əsrin sonunda Bayırca quyu bir kənd halına gəlmişdi. Həmin dövrdə yuxarıdakı oymaqdan başqa bir çəpni oymağı da görünür. Bu oymaq Turqut qəzasından ayrılmış Mahmudlar adlı nahiyədəki Abbas, İblis (?) hisarı, Pazarcıq və Susuzca kəndlərində yaşayırdı[1].

**8. Qoç Hisar (Şərəfli).**

Bu gün Ankaraya bağlı Qoç Hisar qəzasında XVI əsrin əvvəllərində yaşayan oymaqlardan bəziləri İç-eldən, bəziləri də Adana bölgəsindən gəlmişlər. Bunlardan biri də run quş (urun quş) oymağı idi. Onun Adananın Saru cam yörəsindən gəldiyi bilinir. Həmin bu oymaq arasında 133 nəfər vergi verən əhalisi olan bir çəpni təşəkkülü görünür[2]. Bir az yuxarıda Adananın Saru cam yörəsində kiçik bir çəpni oymağının yaşadığını demişdik.

**9. Hamid.**

XVI əsrdə Hamid sancağının Göl hisar qəzasında da 70 nəfər vergi verən əhalisi olan çəpni adlı bir oymaq yaşayırdı[3].

**10. Çorum.**

XVI əsrdə Çoruma bağlı Alp oğuz adlı bir kənddə çəpni özü adlı bir camaat, yəni bir oymaq müşahidə edilir[4]. Bu icmanın öz adını çəpni özü, yəni çəpni vadisi adlı bir yerdən alması ehtimal olunur.

Türkiyədəki çəpnilərə dair əldə edilən məlumat bunlardan ibarətdir. Həm yer adları, həm də oymaqlar çəpnilərin ən qələbəlik oğuz boylarından biri olduğunu, onların Türkiyənin fəth edilməsində və məskunlaşdırılmasında birinci dərəcəli rol oynamış boylar arasında sayıla biləcəyini göstərir.

**11. İran çəpniləri.**

Yuxarıda El Aldı bəyin ağqoyunlu xidmətində olan çəpnilərindən bəhs edilmişdi. Ağqoyunluların xələfi səfəvilərin dayağı olan türk təşəkkülləri arasında da çəpniləri görürük. Ancaq onlar qələbəlik deyildilər və ikinci dərəcəli oymaqlar hesab olunurdular.

Təhmasib dövründə qorucular, yəni səfəvi qvardiyası arasında çəpnilər də vardı[5]. Təhmasibin hökmranlığının ilk illərində çəpnilərdən Məqsud bəyi tanıyırıq[6]. Rumlu Həsən bəy 953-cü ildə (1546) Gürcüstan səfərindən, çəpni

---

[1] F.Sümər. Həmin əsər, s. 442-443, 480-482.
[2] F.Sümər. Həmin əsər, s. 443, 481.
[3] Hamid sancağı dəftəri. Baş nazirlik arxivi, № 121, 155 a.
[4] Çorum sancağı dəftəri. № 444, 38 a-b.
[5] Həsən Rumlu, s. 316.
[6] Həmin əsər, s. 119.

qorucularının başçısı Şahqulu ilə şəxsən özünün bir basqında iştirakını nəql edir[1].

Çəpnilərə mənsub şah Əli Sultan adlı bir bəyin 955-ci ildə (1548) Van hakimi olduğunu və Qanuninin buranı mühasirəyə aldıqdan sonra şəhəri ona verdiyini həmin müəllifdən öyrənirik[2]. Həmin hökmdar dövründə çəpnilərdən Süleyman Çələbi Urmiya hakimi idi. O həmin il Gürcüstana təşkil etdiyi bir axında uğursuzluğa düçar olmuş, özü də kürdlər tərəfindən öldürülmüşdü[3]. Qarabağ bəylərbəyisi Qacar Ziyad oğlu Şahverdi Sultan ilə gürcü bəylərindən biri arasında baş verən vuruşmada Çəpni Məhəmməd bəy də iştirak etmiş və igidlik göstərmişdi[4] . Şah Təhmasibin ölümündən sonra taxta çıxacaq hökmdar barədə əmirlər arasında baş verən ixtilaf və çəkişmədə çəpnilərə mənsub Cəlal Əli şahın da adı çəkilir[5].

Şah Abbas dövründə çəpnilərdən Uğurlu Sultanı və Murad xan Sultanı tanıyırıq. Uğurlu Sultan 1014-cü ildə (1605-1606) Fümən hakimi idi[6]. Murad xan Sultana gəlincə, o, 1017-ci ildə (1608-1609) Urmiya qalasını tutmaq tapşırığı alan bəylər arasında idi[7].

Səfəvi xidmətindəki çəpnilər buraya Anadoludan gəlmişdilər. Onların mühüm bir qisminin Trabzon çəpnilərindən olduğunu söyləyək.

## 17. SALUR

Oğuzların tarixində mühüm rol oynamış boylardan biri də salurlardır. Monqol dövrünə qədər bu boyun adı salğur şəklində yazılırdı. Rəşidəddinin verdiyi əfsanəvi tarixə görə, oğuz hökmdarı Dib Yavkunun böyük bəylərindən Ulaş və onun oğlu Ulat, habelə İnal xanın vəziri və naibi bu boydan idilər. Orada həmçinin İnal xanın oğlu İnal Soyram Yavkunun vəzirinin də salurlardan olduğu yazılmışdır.

Dədə Qorqud dastanlarına gəlincə, bu dastanlarda təsvir olunan oğuz elində salurlar ən şərəfli yer tuturdular. Doğrudan da, bu oğuz elinin qüdrətli hakimi Qazan bəyin salurlardan olduğunu bilirik.

Aşağıda bəhs ediləcəyi kimi, Xəzərarxası türkmənləri arasında salurlar çox qələbəlik halda idilər. Bu, boyun mühüm bir qisminin qərbə köçməmiş olduğunu göstərir. Xəzərarxası türkmənləri aralarındakı ən ali təşəkkülün salurlar olduğunu söyləyirdilər. Halbuki onlar bəlkə də salurların səlcuqlu fütuhatlarında iştirak etdiklərini, Farsda öz adlarını daşıyan bir dövlət qur-

---

[1] Həmin əsər, s. 316.
[2] Həmin əsər, s. 330.
[3] Həmin əsər, s. 339.
[4] Həmin əsər, s. 393; Tarixi-aləmarayi-Abbasi, I, s. 88.
[5] Həmin əsər, s. 476.
[6] Tarixi-aləmarayi-Abbasi, I, s. 514.
[7] Həmin əsər, s. 797.

duqlarını, Anadolunun məskunlaşdırılmasında geniş miqyasda rol oynadıqlarını və Qazı Bürhanəddin kimi böyük şəxsiyyətlər yetirdiklərini bilmirdilər. Bütün bunlar salurların oğuz elinin kınık, kayı və əfşar kimi ən böyük qollarından biri olduğunu göstərir.

Səlcuqlular Qərbi İrana gələndə Şəhrizor, Kirmanşah və Daquqa yörələri, yəni daha sonralar Kürdüstan adlanan bölgə kürd ənnaz oğullarının əlində idi. 495-ci ildə (1101) bu bölgənin hələ zəbt edilməmiş torpaqlarından mühüm bir qismi müasiri olan bir çox türkmən əmirləri kimi təkbaşına fəaliyyət göstərən Qara Beli adlı (yaxud ləqəbli) bir salur bəyi tərəfindən fəth olundu[1]. Bu salur bəyinin özündən bir daha bəhs edilmədiyi bir yana, oğulları barədə də hər hansı bir məlumat verilmir. Ancaq Qara Beli xanədanının (beyt ül-Qara Beliyyə) həmin əsrin sonlarına qədər öz varlığını mühafizə etdiyi bilinir.

Xanədanın əlindəki yer Qara Beli ölkəsi adlanmış, Bağdaddan Marağaya gedən ana yolda, Dinəvərlə Marağa arasındakı bir keçid də XII əsrin sonlarına qədər Qara Beli adını daşımışdır. Ancaq salurların Səlcuqlular dövründəki rolları Qara Belinin fəaliyyəti ilə məhdudlaşmamışdır. Həmin əsrdə Sır-Dərya boyundan gələn yeni bir oğuz elatı arasındakı salurlar Qara Beli salurlarından daha mühüm bir rol oynamağa müvəffəq olmuşlar.

*Salğur Fars atabəyləri*

İranın böyük cənub əyaləti olan Fars Alparslan tərəfindən fəth edilmişdi. Sultan Məhəmməd Tapar zamanında bu bölgəyə Əmir Çavlının vali təyin edildiyini bilirik. O, Farsda səlcuqlu hakimiyyətini qüvvətləndirdi. Sultan Mahmud hökmdar olanda (1117) qardaşı Səlcuqu (yaxud Səlcuq şahı) bu ölkəyə hakim göndərib əmir Qaracanı da ona atabəy təyin etdi. Ancaq Səlcuq öz qardaşı Məsudla birlikdə əmisi Sultan Səncərə qarşı girişdiyi vuruşmada məğlub olduğu üçün ölkəsini itirdi. Sultan Toğrul buranı azyaşlı oğlu Alparslana verdi, məşhur əmir Məngü Bars ona atabəy oldu. Məngü Bars Alparslanın kiçik yaşda olması və heç cür bitib-tükənməyən səltənət qovğaları üzündən Farsı istədiyi kimi idarə etmiş və türk məmlüklərindən özünə sadiq güclü bir ordu yaratmışdı. O, 1138-ci ildə İraq səlcuqluları hökmdarı Məsuda qarşı üsyan edib üsyanda öləndə Fars onun adamlarından olan Boz Abanın əlində qaldı. Ehtimal ki, elə bu Məngü Bars zamanında (1132-1138) Sır-Dərya boyundan qopan bir türkmən dalğası Xuzistana qədər gəlmişdi. Bu elatdan əfşar bəyi Arslanın oğlu Yaqub Xuzistan qəsəbəsində yurd salmış, həmən elatdan olan salğurların başçısı Mövdud isə Kənduman yazısından Kuh-Giluyə yazısınadək uzanan yerdə çadırlarını qurmuşdu. Təxminən elə o

[1] İbn ül-Əsir, X, s. 144.

vaxtlar mühüm bir yıva qolunun da Şəhrizor tərəflərində yaşadığını bilirik. Bu yıvaların da həmin elata mənsub olması ehtimal edilir.

Salğur Məvdud atabəy Boz Abanın yaxın əmirlərindən biri oldu. Hətta Boz Aba 542-ci ildə (1147) Sultan Məsudun üstünə yürüş edərkən salğur Məvdud Şirazda onun naibi sifətilə qalmışdı. Boz Aba Həmədan civarında öldürüldükdən sonra səlcuqlulardan Sultan Mahmud oğlu Məlikşah Farsa hakim olmuşdur. Bu ərəfədə (542-543-1147-1148) Mövdud Kəndumanda ölmüş və yerinə oğlu Sunqur keçmişdi. Sunqur Məlik şahın atabəyi oldu; o özü ağıllı bir adam idi, həm də qələbəlik bir oymağı vardı. Öz qohumlarından birini öldürdüyü üçün Sunqur əyləncə düşkünü, pəhləvan güləşdirmə azarına mübtəla, qabiliyyətsiz bir insan olan Məlikşahı Farsdan qovdu (543-1118), öz hakimiyyətini qanuniləşdirmək üçün adət mucibincə Sultan Toğrulun oğlu Məhəmmədi məlik elan etdi. Beləliklə, iqtidar tamamilə onun əlinə keçdi. Atabəy Sunqur Şir Barik (şir bar bəy?) ünvanını daşıyırdı.

Xuzistandakı əfşarların başçısı Arslan oğlu Yaqub ehtimal ki, Farsı atabəy Sunqurun əlindən almaq üçün Şiraza yürümüş və iki oğuz bəyi arasında baş verən bir çox vuruşmalardan sonra Yaqub bəy məğlub olaraq Xuzistana geri çəkilmişdi. Sunqur Farsı 14 il ədalətlə idarə etdikdən sonra 555-ci ildə (1160) öldü və yerinə qardaşı Zəngi keçdi.

Səlcuqlu hökmdarı Arslan şahın 571-ci ildə (1175-1170) vəfat etməsi səbəbilə Xuzistanda olan qardaşı Sultan Məhəmməd hərəkətə keçdi, ancaq Pəhləvana məğlub olaraq Vasitə, oradan da Farsa Zənginin yanına getdi. Pəhləvanla təkbaşına mübarizə apara bilməyəcəyini başa düşən Zəngi Məhəmmədi Pəhləvana təslim etməyə məcbur oldu. 571-ci ildə Zənginin oğlu Tiklə atasının yerinə keçdi. Tiklə öz əmisi oğlu (atabəy Sunqurun oğlu) Müzəffərəddin Toğrulun üsyanı ilə qarşılaşsa da, Toğrul asanlıqla zərərsizləşdirildi. 591-ci ildə Tiklə öldü və yerinə qardaşı Sə‘d keçdi. Sə‘d də sələfləri kimi enerjili bir hökmdar idi; Kirmanı öz ölkəsinə qatdı. Məşhur şair şeyx Sə‘di öz təxəllüsünü bu salğur hökmdarının adından almışdır.

Atabəy Sə‘d 628-ci ildə (1230-1231) öldü. Əbubəkr salğur hökmdarı oldu. O da qabiliyyətli bir hökmdar idi. Qədimdən bəri mühüm bir ticarət mərkəzi olan Qeys adasını, sonra isə Katif, Bəhreyn və Oman sahillərini zəbt etdi. Əbubəkr bunu ticarəti inkişaf etdirmək qayəsi ilə edirdi. Ticarətə nə qədər əhəmiyyət verdiyi ondan məlumdur ki, onun inşa etdirdiyi əsərlərin çoxu rabatlardır. Bu böyük salğur hökmdarı Şirazda bir xəstəxana da tikdirmişdi. Şeyx Sə‘di məşhur «Gülüstan» əsərini bu zata ithaf etmişdir.

Əbubəkr monqolları öz süzereni tanımaq şərti ilə ölkəsinin qan və atəş içində qalmasının qarşısını almışdı. Bununla əlaqədar monqol xaqanı Ügedeyin ona Kutluq xan ünvanını verdiyini bilirik.

Əbubəkr axırıncı böyük salğur hökmdarıdır. Onun 658-ci ildə (1259/1260) ölməsilə salğurların parlaq dövrü sona yetdi. Yerinə xəstə olan oğlu

Sə‘d keçsə də, hökmdarlığının 17-ci günü öldü və onun oğlu Məhəmməd hökmdar elan edildi. Məhəmməd hələ uşaq olduğu üçün anası Tərkən xatun ona naiblik edirdi. Ancaq Məhəmməd də çox yaşamadı, 661-ci ildə öldü və Zəngi oğlu Sə‘d oğlu Salğur şah oğlu Məhəmməd şah hökmdar oldu. Məhəmməd şah zəif bir çəxsiyyət idi; 8 ay hökmdarlıq etdikdən sonra Tərkən xatun tərəfindən öldürüldü, yerinə qardaşı Səlcuq şah keçdi. Səlcuq şah da Tərkən xatunu öldürdüyü üçün Hülakü Tərkən xatunun qardaşı olan Yəzd atabəyinin yalvarışı nəticəsində Farsa bir ordu göndərdi. Monqollar Səlcuq şahı yaxalayıb qətlə yetirdilər (663-1264/1265).

Salğur taxtına Sə‘din qızı Abaş xatun oturduldu. Ancaq o, bir il sonra Farsdan gətiriləreк Hülakünün oğlu Məngü Təmirə ərə verildi. Farsı onun adından monqolların təyin etdiyi məmurlar idarə etməyə başladılar. Abaş xatun 685-ci ildə (1286/1287) öldü və monqol adətinə görə dəfn edildi[1].

Salğurlar öz ədaləti və abadlıq fəaliyyəti ilə, alim və şairləri himayə etmələri ilə gözəl xatirələr qoyub getmiş bir türk xanədanıdır. Onların sayəsində Fars ölkəsi islam dövründə özünün ən məsud günlərini yaşamışdır. Bunu tərəddüdsüz söyləyə bilərik. Türk xanədanlarının çoxu kimi onlar da öz ölkələrində çoxlu ictimai əsərlər vücuda gətirmişdilər. Şeyx Sə‘di əsərlərini bu xanədanın təşviq və himayəsi sayəsində yarada bilmişdir.

Salğurlar qövmi mənşələrini də unutmamışdılar. Öz pullarına mənsub olduqları boyun damğasına basmaları[2] bunun ən böyük dəlilidir. Bundan başqa, xanədan üzvləri arasında daim türk adı daşıyan şəxslər olmuşdur.

Salğur xanədanı ortadan qalxdıqdan sonra da onların başlıca dayağını təşkil edən türkmənlər öz varlıqlarını qoruyaraq Farsda yaşadılar. XIV əsrin ortalarında Farsdakı bu türkmənlərin başçıları Cəlaləddin Təyyib şahla Salğur şah idi. Bunlardan başqa, müzəffərilərdən şah Şüca Təbrizi zəbt etdiyi zaman (1282) əmir Müzəffərəddin Salğuru vəzir təyin eləmişdi.

*Anadolu*

Salurların çox əhəmiyyətli bir qolu qərbə köçməyərək öz qədim yurdunda qalmışdı. Göründüyü kimi, onlardan ayrı-ayrı qollar İranın Kürdüstan və Fars bölgələrində yurd salaraq siyasi fəaliyyət göstərdilər. Bütün bunlara baxmayaraq bəzi tarixi məlumatlar, yer adları və oymaqlar salurların Ana-

---

[1] Fars atabəyləri haqqında: Əfdal Kirmani. Bədayi ül-əzman. İndeks; Yenə onun: əl-Müzaf ilə bədayi-l-əzman, s. 29-30, 32, 33, 44-48; Rəşidəddin. Cami ət-təvarix. Səlcuqlular fəsli, s. 166; Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 145-146, 153, 154-156, 170-171; Qazı Beyzavi. Nizam üt-təvarix, s. 85-91, Vəssaf. Tehran, 1338 ş., 146-190; Zərxub Şirazi. Şiraznamə, s. 48-64; Həmdullah Müstövfi. Tarixi-güzidə, s. 501-507.

[2] Buna ilk dəfə diqqəti cəlb edən F.Köprülü olmuşdur. Osmanlı imperiyasının etnik mənşəyi məsələləri, s. 252-253.

dolunun fəthində və məskunlaşdırılmasında mühüm rol oynayan boylardan biri olduğuna şübhə yeri buraxmır.

Həqiqətən, tariximizdə müstəsna bir şəxsiyyət olan alim, şair, müharib, Sivas-Kayseri və digər bəzi yerlərin hökmdarı Qazı Bürhanəddinin salurlardan olduğunu əvvəlcə söyləmişdik. XIII əsrdə Misirə gedərək məmlük sultanları yanında böyük etibar qazanan fəqih və üç dildə şeir yazan Divrikli Məhəmməd ibn Mustafa ibn Zəkəriyyə ibn Xoca Həsən[1] də həmin boya mənsub idi. Onlardan başqa, XIII əsrin ikinci yarısında Dənizli tərəfinin uc (hüdud) bəylərindən Salur bəyin[2] də salurlardan olduğu üçün bu adı daşıdığı ehtimal edilir.

Yer adlarına gəlincə, salurlar cədvəlimizdə yeddinci sırada dururlar[3]. Yalnız bu keyfiyyət onların Anadoluya necə qələbəlik elatlar halında gəldiklərini göstərməyə kifayətdir. Bundan başqa, həmin əsrdə Anadoluda bu boya mənsub çox əhəmiyyətli oymaqlar da müşahidə olunur.

**1. Trablis-Şam.**

XVI əsrdə Trablis-Şam yörəsində olduqca qələbəlik bir türkmən icması yaşayırdı. Onlar Trablis-Şam dağlarında yaylağa çıxır, qışda isə çöldəki Tədmur vahəsinə enirdilər. Bu icma çoxusu Çuxurovada yerləşmiş olan üçox türkmənlərinin qalığı kimi görünür. İcmanın böyük qismi iki oymaqdan ibarət idi: səluriyyə və çoğuniyyə. Bu adların salur və çoğunlu sözlərinin ərəbcə şəkilləri olduğu şübhəsizdir. Qanuni dövründə bu salur oymağı 25 obadan meydana gəlirdi. II Səlim zamanında salurların sayının artdığı görünür[4]. Bu salurlara dair axırıncı xəbər onların XVII əsrin sonlarında Hama-Xümus arasındakı torpaqlarda yerləşdirilən türkmən oymaqları içində olduqlarıdır.

**2. Tarsus.**

Bu bölgədəki böyük boylardan biri də ulaş boyu idi. Ulaş boyun başçısı olmuş bir bəyin adıdır. Ulaş oğulları ən məşhur varsaq bəylərindən sayılır. Fatehin vəziri Rum Məhmət paşanı 874-cü ildə (1469) tar-mar edən varsaq bəylərinin rəhbəri Uyuz bəyin (əsil adı Hüseyn) Ulaş ailəsindən olduğunu bilirik. Ulaş boyunun yurdu Tarsusun şimal-qərbindən başlayıb Bulğar dağınadək uzanırdı.

Böyük bir təşəkkül olan ulaş boyu bayındır (41 cəmaət), orxanbəylü və s. obalara ayrılmışdı[5].

---

[1] İbn Tağrı-Birdi. Əl-mənxəl üs-safi, 385 a-b.

[2] Aksarayi. Müsamərət ül-əxbar, s. 71.

[3] Cədvələ bax.

[4] Mühimmə dəftəri, № 1, s. 1281, № III, s. 47; F.Sümər. Üç-ox oğuz boylarına mənsub təşəkküllər, s. 457, 488-491.

[5] Varsaqlar və ulaş boyu haqqında məlumat üçün: F.Sümər. Çuxurova tarixi haqqında araşdırmalar, s. 70 və ardı.

925-ci ildə (1519) ulaş boyuna bağlı salur obası bir az yuxarıda göstərildiyi kimi 10 qola (cəmaət) ayrılmışdı. Onlardan hər birinin bir tarlada əkinçilik etdiyi bilinir[1]. Ulaş ailəsinin boyun hansı obasına mənsubiyyəti məsələsinə gəlincə, ağla gələn ilk ehtimal onların bayındırlardan olduğudur. Çünki boyun ən böyük obası bayındırlardan meydana gəlirdi. Ulaş adı isə ailənin salurlardan olması ehtimalını təlqin edir. Bu fəslin əvvəlində dediyimiz kimi, Dib Yavkunun bəyləri arasında salurdan Ulaş bəy vardı, həmçinin Dədə Qorqud dastanlarının baş qəhrəmanı Salur Qazanın atasının adı Ulaş idi. Həmin tarixdə (925-1519) Adana bölgəsindəki qara isalu təşəkkülü arasında salur (28 vergi evli), hacılu yörəsində isə Şeyx Salur (48 nəfər vergi verən əhali) adlı oymaqlar müşahidə edilir[2].

**3. Kars (Qədirli).**

Bu sancaqda 39 nəfərlik salurlu adlı bir oymağa təsadüf olunur. Bu oymağın digər bir adı da çörmük idi[3].

**4. Qoç-Hisar.**

Bu yörədə I Səlim dövründə (1512-1520) salihlər və salur adlı 81 vergi evli bir oymaq yaşayırdı[4].

**5. Konya.**

II Bəyazid dövründə Ərəylinin şimalındakı Qaraca dağ yörəsində günəli və salur oymaqlarının yaşadığını görürük. Məzkur dövrdə bu oymaqların vergi ödəyən əhalisi 482 nəfər idi, başlarında sipahizadələr olan Kərəm oğulları vardı[5]. Konya bölgəsi salur yer adlarının ən çox olduğu bölgələrdən biridir.

**6. Niydə.**

Bu sancağın Qara hisar qəzasında XVI əsrdə salurlardan bir oymağın yaşadığı məlumdur. Bu salur oymağı yəhyalu, ağbaşlu, qayır xanlu və s. oymaqlarla Ala dağda yaylağa çıxırdı[6].

**7. Hamid sancağı.**

Bu sancaqdakı yörüklər arasında da XVI əsrdə 130 nəfər vergi ödəyən əhalisi olan salur adlı bir oymağın yaşadığını bilirik[7]. Bu sancaqda salurlara aid xeyli yer adına da təsadüf edilir.

**8. Boz-ox.**

Bu yörədəki mühüm təşəkküllərdən biri olan söklən boyu arasında salur adlı kiçik bir oba da vardı.

---

[1] F.Sümər. Üç-ox oğuz boylarına mənsub təşəkküllər, s. 454- 455, 486-487.
[2] F.Sümər. Həmin əsər, s. 455-456, 487.
[3] Kars sancağı dəftəri. TKYM arxivi, № 168, s. 29 b.
[4] F.Sümər. Həmin əsər, s. 487.
[5] F.Sümər. Həmin əsər, s. 455-456, 487.
[6] F.Sümər. Həmin əsər, s. 487.
[7] F.Sümər. Həmin əsər, s. 456, 488.

**9. Ulu yörük**.

Ən axırda bəhs etdiyimiz salur oymağı olduqca mühüm bir təşəkküldür. Ulu yörükün orta parə qoluna mənsub olan bu təşəkkül Amasyanın güney yörəsində yaşayırdı. Bu salurlar ağ salur adını daşıyır. Yavuz Səlim dövründə Məhmət Kətxuda (95 nəfər vergi verən), Hacı Qaya (27), axınçılı (32), Əmət Kətxuda (25), ala bozlu, yaxud İldəyən Kətxuda (33) olmaqla 5 qola ayrılmışdı.

982-ci ildə ağ salurların sayı (vergi verən) 803 nəfər olmuşdur[1]. Beləliklə, XVI əsrdə Anadoludakı salur adlı təşəkküllər bunlardan ibarətdir. İndi də bu boyun Xəzərarxası türkmənləri arasındakı varlığından bəhs edək.

**10. Xəzərarxası türkmənləri.**

Salurlar Xəzərarxası türkmənlərinin meydana gəlməsində birinci dərəcəli rol oynayan çavuldur, iğdır, eymür, karkın kimi boylardan biridir. Hətta əlimizdəki məlumatlara görə birincisidir. Salurlar qədimdən bəri Manqışlaqda yaşayırdılar. Onların buraya eymür, döyər, çavuldur, karkın boylarına mənsub böyük qollarla  Şah Məlikin öldürülməsindən sonra oğuz eli arasında başlayan qardaş qırğını nəticəsində gəldikləri nəql edilir. Biz X əsrdən bəri Manqışlaq yarımadasında türkmənlərin yaşadıqlarını bilirik.

XVI əsrdə salurların Manqışlaqda qələbəlik bir halda yaşadıqları müşahidə edilir. Bunlar orada içki (iç) salur və taşqı (dış) salur olmaq üzrə iki qola ayrılmışdılar. Salurlar həmin əsrin sonlarına doğru manqıtlar (noqaylar) tərəfindən oradan tamamilə çıxarıldılar. Bunun nəticəsində salurların bir qismi Ətrək və Gürgan çayları bölgəsində, əsas kütləsi isə Xorasanda yurd saldı. İki çay arasına gələn salurlar ohlu (oxlu) və eymürlərlə birlikdə yaşayırdılar. Bu kütləyə sayın xanlı, yaxud yaxa türkmənləri deyilir.

1007-ci ildə (1598/1599) Şah Abbasın Astarabad bölgəsinə yürüşü nəticəsində digər sayın xanlı türkmənləri kimi salurlar da səfəvi hökmdarına öz itaətlərini bildirmişlər[2].

Əbülqazinin nəql etdiyi rəvayətlərə görə[3] ərsarı adlı türkmən icması salurlardan (içki salur), yomut, təkə, sarıq adlı türkmən icmaları da yenə bu boydan (taşqı salur) çıxmışlar. Rəvayətlər doğrudursa, bu günkü Xəzərarxası türkmənlərinin bəlkə də yarısından çoxunun salurlardan olduğunu qəbul etmək lazımdır. XIX əsrin ortalarında doğrudan-doğruya salur adını daşıyan türkmən icması Mərv ilə Herat arasında, Mürqab boyunda yaşayırdı. Rəvayətlərdə onlardan çıxdıqları söylənən sarıqlar da salurların ən yaxın qonşuları idi. Vamberi (1863) salurların 8.000 çadır olduqlarını və aşağıdakı obalardan meydana gəldiklərini yazır[4]:

---

[1] F.Sümər. Həmin əsər, s. 453, 486.
[2] Tarixi-aləmarayi-Abbasi, s. 580, 583, 588.
[3] Şəcəreyi-tərakimə, s. 69-72.
[4] Orta Asiyaya səyahət, s. 304.

1. Yalavac (yaz, tizi, sakar, ordu xoca obalarına ayrılırdı).
2. Qaraman (alam, görcikli, bəy böləyi).
3. Ana böləyi (yadçı, Buxara, bəkəşli törə (?), Teymur).

## 18. EYMÜR (EYMİR)

XVI əsrdə Anadoluda bu boya aid 71 yer adına təsadüf edilir[1]. Bu rəqəmlə eymürlər siyahıda dördüncü sıranı tuturlar. Eymür yer adlarından bir çoxu Sivas-Tokat bölgəsindədir. Yenə həmin əsrdə Anadolunun müxtəlif yerlərində eymür adlı oymaqlar müşahidə olunur. Bu boyun adı Anadoluda daha ziyadə eymir (hətta bəzən bəlkə də imir), İran və Xarəzm türkmənləri arasında isə eymür şəklində tələffüz edilir.

**1. Hələb türkmənləri.**

Hələb türkmənləri arasındakı eymür oymağı Qanuni dövrünün ilk illərində 4 qola ayrılmışdı. Əffan Kətxudanın idarəsindəki birinci qolun əhalisi vergi ödəyən 177 nəfər idi. İkinci qol isə qaragöz adını daşıyır. Bu qolun əhalisi 55 nəfər idi. Üçüncü eymür qolu Çarıq oğlu Əhməd Kətxudanın buyruğunda göstərilir. Onun əhalisi 86 nəfər idi. İlyas adlanan dördüncü qol digər qollardan ayrı yaşayırdı. Həm də bu qolun əhalisi digərlərinə nəzərən çox az, cəmi 19 nəfər idi. 978-ci ildə (1570/1571) eymür oymağının vergi mükəlləfiyyətli əhalisinin sayı 453-ə yüksəlmişdi. Onlar XVII əsrdə də əski həyat tərzlərini davam etdirmişlər[2]. Bu eymürlər də 1101-ci ildə (1690) təşkil olunan Avstriya səfərinə çağrılmışlar. 100 atlı ilə bu səfərdə iştirak etmələri əmr olunan eymürlərə Hacı Qadir bəy və başqaları başçılıq edirdilər[3]. Həmin ərəfədə eymür oymağı aşağıdakı əsas qollara ayrılmışdı: bunsuzlu eymür, dündarlu eymürü, tosun eymürü, qaragözlü eymürü, çarıq eymürü, Əffan eymürü, sancaqlı eymürü, Yusif eymürü, Hacı Bayram eymürü, əfşarlı eymürü.

Bu eymürlər 1104-cü ildə (1692/1693) Xümus sancağında yerləşdirilmişlər. Ancaq 1124-cü ildə (1713) eymürlərin buradan götürülərək Amik gölü yaxınlığındakı Murad paşa körpüsü dərbəndinə nəql edilmələri əmr olunsa da, bu qərar lazımi səviyyədə tətbiq edilməmiş və onların təkrar əvvəlki məhəllərində yerləşdirilmələri qərara alınmışdır[4].

Bu eymürlər XVIII əsrin ikinci yarısında da öz varlıqlarını davam etdirirdilər. Niburun türkmən oymaqları siyahısında eymürlərin 500 çadır olduqları bildirilir[5].

---

[1] Cədvələ bax.
[2] F.Sümər. Üç-ox oğuz boylarına mənsub təşəkküllər, s. 460-461, 492-493.
[3] Əhməd Rəfiq. Anadoluda türk əşirətləri, s. 82.
[4] Əhməd Rəfiq. Həmin əsər, s. 106; Ç.Orxonlu. Həmin əsər, s. 64-65, 68, 94.
[5] Ərəbistana səyahət, s. 338.

**2. Dulqədirli.**

a) Maraşdakı dulqədirli ulusu arasında yaşayan eymür oymağı böyük bir təşəkküldür. 1525-ci ildə bu eymürlərin 48 obadan ibarət olduğu bilinir. Bu obaların çoxu Maraş və ona bağlı Pazarcıq, Quru pınar və Haruniyyə nahiyələrində qışlayır, Axır və Sandıq dağlarına yaylağa çıxırdılar. Onların əksəriyyətinin qışlaqlarda əkinçilik etdiyi, hətta bəzilərinin çəltik yetişdirdikləri də məlumdur. Maraş bölgəsindəki eymürlər XVI əsrin ikinci yarısından etibarən Maraş və Antəb kəndlərində yerləşməyə başlamışlar.

Dulqədirli ulusunun başlıca oymaqlarından biri olan küşnə isə Eymür oğlu adını daşıyır. Görünür, oba öz adını Eymür adlı bir şəxsdən almışdır.

b) Kars (Qədirli) bölgəsində yaşayan eymürlər 971-ci ildə (1563/1564) on üç qola ayrılmışdılar. Onlar da Maraş bölgəsindəki qardaşları kimi qışlaq və yaylaqlarda iki cəbhəli həyat yaşayır, qışlaqda əkinçiliklə, yaylaqda heyvandarlıqla məşğul olurdular. Bu eymirlər öz adlarını Eymir adlı bir bəydən alırlar. Həmin il (971) hamısı da sipahi və sipahizadəganlar olan Eymirin oğullarını da müşahidə edirik.

c) Boz-ox bölgəsindəki eymir təşəkkülü gündəşlüdən bir qol ilə birlikdə qara yuvaçılı oymağını meydana gətirir. Bu eymir təşəkkülü Maraş eymirlərinin bir qolunu təşkil edirdi[1].

**3. Yeni-el.**

Yeni-eldəki eymirlər Hələb türkmənləri arasındakı eymirlərin bir qolundan meydana gəlmişdir. III Murad dövründə Yeni-el eymirləri Əhməd Kətxuda (110 nəfər vergi verən əhali), əfşarlı eymiri (27), Səncərli eymiri (44), Polad Kətxuda eymiri (34), Məhmət Kətxuda eymiri (11) adlı yeni qollara ayrılmışlar[2]. Onlar haqqında bildiyimiz ən son şey Yeni-el eymirlərindən 50 evlik bir camaatın 1102-ci ildə (1690-1691) Qır-şəhirdəki Tokat icarə torpağına bağlı Nüsrətli kəndinə yerləşmələridir[3]. Bunlardan başqa, dulqədirli eymirinə mənsub 45 nəfərlik bir eymir obasının da Yeni-eldə yaşadığını və əkinçilik etdiyini bilirik.

**4. Boz-ulus.**

III Səlim dövrundə Boz-ulus arasında Hacı Süleyman Kətxudanın rəhbərlik etdiyi 148 nəfər vergi mükəlləfiyyətli bir eymir oymağı müşahidə olunur[4]. Bu oymaq Hələb türkmənləri, yaxud dulqədirli ulusu arasında yaşayan eymirlərin bir qolu idi.

**5. Adana.**

XVI əsrdə bu bölgədə yaşayan qara isalu boyu arasında eymir ilyaslı adlanan çox kiçik bir təşəkkülə təsadüf edilir.

---

[1] F.Sümər. Həmin əsər, s. 462-464, 494-498.
[2] F.Sümər. Həmin əsər, s. 464, 498.
[3] Əhməd Rəfiq. Həmin əsər, s. 95.
[4] F.Sümər. Həmin əsər, s. 464-465, 499.

**6. Söyüt.**

XVI əsrdə söyüt yörükləri arasında eymürlü adlı bir oymaq vardı. Bu oymaq 59, 13 və yenə 13 vergi evi olmaq üzrə üç qola ayrılmışdı[1].

**7. Aydın.**

Aydın yörəsindəki qaraca qoyunlular arasında eymirlər və Sarı Eymir oğlu İsa adlı iki oymaq vardı. Bunlardan eymirlər yaxud imirlər adını daşıyan oymaq 111 nəfər, Sarı Eymir oğlu İsa oymağı isə 71 nəfər vergi verən əhalidən ibarət idi[2].

**8. İran eymirləri.**

Səfəvi dövründəki əsas qızılbaş boylarından birinin zülqədər (dulqədir) boyu olduğu məlumdur. Bu boyun adı onun Türkiyədəki dulqədir ulusundan ayrılmış bir qol olduğunu açıqca göstərir. Zülqədər boyunu meydana gətirən obalardan biri də eymür obası idi. Elə buna görə də eymür obası dulqədirli ulusu arasında gördüyümüz böyük eymür təşəkkülünün İrana gəlmiş bir qoludur. Təhmasib dövründəki zülqədər əmirlərindən İir Hüseyn bəyin eymür obasına mənsub olduğu məlumdur. Qanuni 942-ci ildə (1535-1536) Azərbaycandan İstanbula qayıdarkən Vanı zəbt etməyə gələn Şah Təhmasib Qacar Qara bəylə eymür Şir Hüseyn bəyi ön keşikçilər kimi qabağa göndərmişdi[3]. Şah Abbas dövründə dulqədir əmirlərindən Kəlbəli Sultan ilə oğlu Xəlil Sultanın da eymürlərdən olduğunu bilirik[4].

**9. Xəzərarxası türkmənləri.**

Eymürlərin mühüm bir qolu qərbə köçməyərək Manqışlaqda qalmışdı. Onlar da hər halda manqıtların istilası üzündən köhnə yurdlarını buraxıb cənuba endilər. XVI əsrin sonlarına doğru biz eymürləri Gürgan və Ətrək boyunda yaşayan yaxa türkmənləri arasında görürük. Osmanlı sənədlərində də onlar yaxa türkmənləri adlanırlar. Onların əsasən göklən, ohlu (oxlu) və salurlardan ibarət olduqları məlumdur. Eymürlər əhali baxımından köklən və ohlulardan daha az idilər. Onların bir qismi Gurgan boyunda əkinçilik edirdi. Şah Təhmasibin ölməsi nəticəsində baş verən daxili ixtilaf və çəkişmələr üzündən Astarabad bölgəsi səfəvilərin nəzarətindən çıxmışdı. Həmin dövrdə eymürlərin başçısı Əliyar bəyin bacarığı sayəsində yaxa türkmənlərinin digər qolları onunla hesablaşırdılar. Abbas hökmdar olanda çağatayların Astarabad bölgəsini də əllərinə keçirməmələri üçün eymür Əliyar bəyi xan ünvanı ilə Astarabad valisi təyin etdi.

Əliyar xan 1005-ci ildə (1596) öldü və Astarabad valiliyi onun oğlu Məhəmmədyara verildi. Ancaq oxlu türkmənləri onu tanımadılar və çarpışma

---

[1] F.Sümər. Həmin əsər, s. 466, 499.
[2] F.Sümər. Həmin əsər, s. 466, 500.
[3] Şərəf xan. Həmin əsər, II, s. 186.
[4] Tarixi-aləmarayi-Abbasi, II, s.1085. İrandakı eymürlər və ya onların bir bölüyü 995-ci ildə (1587) Rey və onun yaxınlığındakı Rud-barda yaşayırdı və o vaxt başçıları Məhəmməd Hüseyn Sultan idi (Tarixi-aləmarayi-Abbasi, I, s. 335).

zamanı hələ 20 yaşı olmayan bu gənci öldürdülər (1007/1598). Bu səbəbdən Şah Abbas Məhəmmədyarın qardaşı Qılınc bəyi Astarabada vali qoydu, ancaq o da oxluları ram edə bilmədi. Məcbur qalan Şah Abbas Qacar Ziyad xan oğlu Hüseyn xanı Astarabada vali göndərdi, özü də həmin il Gurgana gəldi. Bu bölgədə asayiş yaradan səfəvi hökmdarı geri qayıdanda eymür Qılınc xanı ailəsi və nökərləri ilə birlikdə paytaxta apardı. Eymürlər və salurların əyan-əşrəfi də Astarabad hakimi Hüseyn xanın məiyyətinə daxil oldular[1]. Hazırda Gürgan çayı sahilində eymürlərdən 200 evlik bir qrup yaşayır. Bunlar həmin eymürlərin qalıqlarıdır[2].

## 19. ALA-YUNTLU

Bu boya aid XVI əsrdə 44 yer adına rast gəlinir[3]. Bunlardan başqa, həmin əsrdə xüsusilə Orta və Qərbi Anadoluda bəzi ala-yuntlu oymaqları nəzərə çarpır.

**1. Atçəkən.**

Atçəkənlər arasındakı ala-yuntlular Turqut qəzasında yaşayırdılar. Bunlar II Bəyazid və I Səlim dövrlərində iki qol halında olub, vergi mükəlləfiyyətli əhalisi 228 nəfər olan birinci qol Qoz viran, Qozancalı yazısı (?), Arıqlı dərəsi və Böyrü dəlik adlarını daşıyan tarlalarda əkinçiliklə məşğul olurdu. Bu qola mənsub 5 nəfərin də sipahi olduğu bilinir. Bu sipahilər Ay doğdu oymağı ilə birlikdə Əlgən-viranı adlı bir əkinliyə sahib idilər.

Digər ala-yuntlu qoluna gəlincə, Divanə qışlası adlı əkində yaşayan bu qol (41 nəfər) yenə eyni qəzada yaşayan atçəkənlərin böyük təşəkküllərindən yapa oymağının obaları arasında görünür. Yapa oymağının başında Yapa oğulları dururdu. Yapanın nə zaman yaşadığı bilinmir. II Murad və Fateh dövrlərində bu ailədə Əli bəyi görürük. II Bəyazid zamanında isə Əli bəyin oğulları Əhməd bəylə Veys bəy ölmüş və ailənin başında Veys bəyin oğulları Əli, Şahvəli və Piri qalmışdılar. Yapa oğulları XVI əsrdəki bəzi daxili hadisələrə qarışmışdılar.

Atçəkənlər arasındakı ala-yuntlulara əlavə olaraq bu boya mənsub 5 nəfərlik bir oymağın da Aksaray bölgəsində yaşadığını bildirək. XVI əsrin sonlarına doğru bu ala-yuntlu oymağının əkinliklərinin hərəsinin bir kənd halına düşdüyü görünür. Bu kəndlərdəki ala-yuntlu əhalisi (vergi verən) belə idi: Qozançalı yazısı (?) (33), Əlgən viranı (99), Qoz viran (69), Aralıq dərə (15), Böyrü dəlik (42), Yağar (69). Bunlardan başqa bəzi ala-yuntlular da İlğının Çavurçu kəndi ilə Çaxmaq və Dəli dinar (?) kəndlərində yerləşmiş-

[1] Tarixi-aləmarayi-Abbasi, s. 530, 545, 546, 580, 581, 587-588.
[2] Məsud Keyhan. Həmin əsər, II, s. 106.
[3] Cədvələ bax: təəccüblüdür ki, Türkiyədə məskun yerlər qılavuzunda (s. 44) indi bunlardan yalnız bir dənəsi görünməkdədir.

dilər[1]. Bu məlumatlar Konya bölgəsinə ala-yuntlulardan mühüm bir qolun yerləşmiş olduğunu göstərir. Eyni dövrdə Aksaraya bağlı ala-yuntlu adlı 5 kəndin olması da bunu təsdiq edir.

**2. Ankara.**

Məlum olduğu kimi, Orta Anadoluda oğuz boy adlarının ən çox olduğu bölgələrdən biri də Ankara sancağıdır. Oğuz boy adlarından çoxuna aid yer adlarına bu bölgədə rast gəlmək mümkündür. Ankara sancağında bu boyun adını daşıyan 3 kənd məlumdur. Bunlardan başqa, həmin bölgədə bu adda kiçik bir oymaq da vardır. 19 vergi evi olan bu oymaq Qüreyş özü adlı bir əkinlikdə rəncbərlik edir[2].

**3. Kastamonu.**

Bu bölgədəki ala-yuntlu oymağı Kastamonu sancağının Boy ovası (Boy abad) qəzasında yaşayır. Bu oymaq da Ankara yörükləri arasındakı ala-yuntlu oymağı kimi, çox kiçik olub, ancaq 20 nəfərlikdir (vergi verən)[3].

**4. Uşaq.**

Uşaq yörəsindəki ala-yuntlular 169 nəfərlik (vergi ödəyən) bir oymaqdır. Bu oymağın bir qolu da dağınıq bir halda yaşayır[4].

**5. Məntəşə.**

Bu bölgədə iki ala-yuntlu oymağına rast gəlmək olar. Bunlardan biri Muğlanın Balat (Milet) qəzasında yerləşib, XVI əsrin ortalarında əhalisi 100 evdən artıq idi. Həmin əsrin sonlarında bu ala-yuntlu oymağı Muğlanın Dadya, Balatın Baran və Bayındır adını daşıyan kəndlərində yerləşmişdir[5]. Eyni sancaqdakı digər ala-yuntlu oymağı isə sancağın Muğla qəzasında yerləşir. Bu ala-yuntlu oymağı 146 vergi evli idi[6].

**6. Hələb türkmənləri.**

Hələb türkmənlərinin inallu boyu arasında da ala-yuntlu adlı bir oba vardır. İki qola ayrılan bu obanın 37 evlik qolu Kilisin Ravəndan nahiyəsinə bağlı bəzi kəndlərdə yerləşmişdir. Digər qol isə daha kiçik olub, 15 vergi evlidir[7]. İnallu boyu oğuzların boz-ox qoluna mənsub bir təşəkkül idi. Bu səbəblə ala-yuntlu adlı bir oymağın inallu obaları arasında olmasını ala-yuntlular ilə inallular arasında qövmi bir münasibətin varlığı ilə izah etmək mümkün deyildir.

---

[1] F.Sümər. Üç-oxlu oğuz boylarına mənsub təşəkküllər, s. 467.
[2] Həmin əsər, s. 468.
[3] Həmin əsər, göstərilən yer.
[4] Həmin əsər, s. 468-469.
[5] Həmin əsər. Göstərilən yer.
[6] Məntəşə dəftəri. Baş nazirlik arxivi, № 47, s. 180-181.
[7] Həmin əsər. Göstərilən yer.

## 20. YÜRƏGİR

Bu boyun adı təhrir dəftərlərində yürəgir və ürəgir şəklində yazılır. Yürəgirlərə aid həmin dəftərlərdə 44 yer adı nəzərə çarpır[1]. İndi Türkiyədə hər yerdə yürəgir, ürəgir yer adları yürəgil və ürəgil şəklində işlədilir. Bu yer adlarına daxil olmayan Adananın cənubunda Seyhan-Ceyhan irmaqları arasındakı bərəkətli yörənin adı da Yürəgir olubdur. Bura, aşağıda bəhs ediləcəyi kimi, yürəgir boyunun qışlağı idi. Bu gün bura da yürəgil şəklində tələffüz olunur. İndi Türkiyədə bu yörə adından başqa 10 yer adı qalmışdır[2]. Bunların hamısı da ürəgil və yürəgil şəklində tələffüz edilir. Yuxarıdakı 44 yer adından dördü Ankara sancağında idi. İndi Ankaranın bir məhəlləsi olan yürəgil bunlara daxil deyildir.

XVI əsrdəki yürəgir yer adlarından biri də Trabzonun cənubundakı Kürtün qəzasına bağlı bir yörəyə aiddir. Bu Ürəgir yörəsində Buğalu, Qaraqaya, Mürtəd çuxuru, Qara Keşiş, Ağ alma, Boynuyoğun, İman-asari və sair kəndlər vardır.

Erməni krallarının idarə etdiyi Kilikyanın məmlüklər tərəfindən fəthində çoxlu türkmən iştirak etmişdir. Bu türkmənlərin çoxunun üç-ox qoluna mənsub olduqları məlumdur. Üç-oxların hakim boyu da yürəgirlər idi. XIV əsrin ortasında yürəgirlər və onunla birlikdə Çuxurovanın fəthində iştirak etmiş olan kınık, bayandır və salurlar artıq bu bölgədə yaşayırdılar. Bu zaman yürəgirlərin başında Ramazan bəy dururdu. Dulqədir oğlu Qaraca bəyin bəzi məmlük əmirləri ilə birlikdə 753-cü ildə (1352/1353) məmlük sultanına qarşı üsyan qaldırması ilə əlaqədar özü vəzifədən çıxarılmış, türkmən əmirliyi üç-oxlu Ramazan bəyə verilmişdir. 755-ci ildə (1354) Ramazan bəyin oğlunun Qahirəyə gələrək sultana və böyük əmirlərə 1000 türk atı təqdim etdiyi məlumdur. Ramazanın oğluna dirlikdən başqa türkmən əmirliyi, məiyyətindəkilərə də təbilxana əmirlikləri verilmişdir. Ramazan oğlunun Qahirəyə gəlməsi və ona türkmən əmirliyinin verilməsi Ramazan bəyin bir qədər əvvəl vəfat etdiyini göstərir.

761-ci ildə (1360) Adana və Tarsus şəhərləri məmlüklər tərəfindən ermənilərdən alındı. 783-cü ildə (1381) Ramazan bəyin oğlu İbrahim bəy yalnız yürəgirlərin deyil, Çuxurovadakı bütün türkmənlərin başçısı kimi göstərilir. Onu iki il sonra Adana valisi kimi görürük. Beləliklə, Adana bölgəsini uzun bir zaman idarə edən Ramazan oğulları bəyliyi quruldu. Yürəgirlərin qışlaq yurdları, yuxarıda deyildiyi kimi, Adananın cənubunda Seyhan ilə Ceyhan irmaqları arasındakı yörə idi. Yaylaqlarının isə şimalda Qızıldağ və Üç qapılı yaylası olduğu məlumdur.

---

[1] Cədvələ bax.
[2] Türkiyədə məskun yerlər qılavuzu, s. 1098, 1170.

Yürəgirlərin şərqində, Ceyhan qəsəbəsinin yerləşdiyi yerdən şərqdəki Gavur dağlarına qədər uzanan torpaqlarda da kınıklar yaşayırdılar. İbrahim bəy Çuxurovadakı məmlük hakimiyyətinə son vermək, bu bölgəyə müstəqil hakim olmaq qayəsini güdürdü. Hələ 780-ci ildə (1378) qədim Misis-Payas yolu üzərindəki Dəmir qapıda (Qaranlıq qapı) pusqu quraraq, Təmür bay komandasındakı bir məmlük ordusunu darmadağın edən türkmənlərin başında onun durduğu məlum olur.

783-cü ildə (1381/1382) Hələb valisi olan Yel Buğa kınıklar ilə yürəgirlərin arasını vurmuş, hətta kınıkları yürəgirlərin üzərinə qaldıra bilmişdi. Lakin bundan gözlənilən nəticə çıxmadığı və İbrahim bəyin vəziyyətə hakim olduğu məlumdur. İbrahim bəy Qaraman oğlu Əlaəddnn Əli bəy ilə ittifaq bağlayaraq məmlüklərin Sis (Kozan) valisini də sıxışdırmağa başlamışdı. Buna görə Yel Buğa mühüm bir qüvvə ilə Çuxurovaya girdi. Bu əsnada İbrahim bəy bir uğursuzluq nəticəsində Sis valisinin əlinə düşdü. İbrahim bəyi, qardaşını və hətta anasını Sisdə öldürtdürən Yel Buğa geri qayıdarkən Sarıçamda yürəgirlərin basqınına məruz qaldı. Bu basqın nəticəsində məmlük ordusu dağıldı. Əsgərlərin bir qismi Ayasa qədər gedə bildi. Yel Buğa gözündən yaralanmışdı. Biri onu ölülər arasında tanıyaraq güc-bəla ilə Ayasa apardı. Məmlüklər Hələbə qayıtmaq üçün Dəmir qapıya çatanda yenidən türkmənlərin hücumuna məruz qaldılar. Hələbdən yardımçı qüvvələr tam zamanında yetişməsəydi, onlar türkmənlərin əlindən qurtara bilməyəcəkdilər[1].

İbrahim bəydən sonra onun yerinə keçən Əhməd bəy dövründə (ölümü: 819-1417) yürəgirlər və Çuxurovadakı digər üç-ox boyları xoşbəxt bir həyat keçirdilər. Ondan sonra Çuxurovada məmlük hakimiyyəti möhkəm yerləşdi və bu, osmanlı dövrünə qədər sürdü. Yürəgir, kınık və özərli türkmənləri arasında əsasən XV əsrdən etibarən əkinçiliyin inkişafı gözə çarpır. Osmanlı hakimiyyəti (1517) başlandığı zaman yürəgir və kınıklar qəbilə təşkilatını itirmiş oldular. Yürəgir və kınık adları da artıq o zaman onların yaşadıqları yerləri ifadə edirdi. Kınık adı indi unudulsa da, yürəgir adı bu boyun Çuxurovdakı mühüm siyasi rolunun bir xatirəsi olaraq zamanımıza qədər gəlmişdir.

XVI əsrdə ancaq Hələb türkmənləri və dulqədirli ulusu arasında çox kiçik yürəgir oymaqlarına rast gəlmək olar. Bu xüsus, şübhəsiz, ən əvvəl yürəgirlərin bütün obalarının Çuxurovada yerləşməsi ilə əlaqədar olmalıdır. Hələb türkmənləri arasındakı yürəgir oymağı 29 nəfər olub, bu oymağın Sultan İbrahim dövründə Əzaza bağlı Qara körpü adlı kənddə yerləşmiş olduğu məlumdur. Bu Qara körpü kəndi Kilisin şərqində yerləşən eyniadlı kənd olacaqdır.

[1] Bu xüsuslarda bax: F.Sümər. Çuxurova tarixinə dair araşdırmalar, s. 37-40.

Dulqədirli ulusuna daxil olan digər yürəgir oymağının vergi ödəyən əhalisinin sayı isə 33-dür. Bu oymaq qışda Suriya çölündə, yazda isə Binboğada yaşayırdı[1]. Çox ehtimal ki, o, Hələb türkmənləri arasındakı oymağın bir qoludur.

## 21. İĞDİR

Tarixi və coğrafi mənbələrdə adı çəkilməyən boylardan biri də iqdirlərdir (iğdırlardır). Yer adlarına gəlincə, XVI əsrdə bu boya aid 43 kənd və əkinlik nəzəri cəlb etmişdir[2]. Bunlardan başqa, həmin əsrdə müxtəlif bölgələrdə olmaq üzrə bəzi iqdir oymaqları özünü göstərmişdir.

**1. Tarsus.**

Bu bölgədəki Göyçəlü adlı boy arasında bulunan iğdir obası iki qol halında olub, ayrı-ayrı tarlalarda əkinçiliklə məşğul olurdu. Bunlardan başqa, Adana ətrafında da eyni adda iki kiçik oymaq var. Bu bölgədəki sarı həmzəli oymağının da bir iğdir təşəkkülü olduğu məlumdur[3].

**2. İç-el.**

İğdirdən mühüm bir qolun da bu bölgədə yerləşdiyi nəzəri cəlb edir. Hətta demək mümkündür ki, İç-el bölgəsindəki türk xalqı əsasən bəydili, yıva və iğdirlərdən meydana gəlmişdir. Bu bölgədəki iğdirlər Qarı daş, Gülnar və Mut yörəsində yaşayırdılar. Qarı daşda yaşayan iğdirlər iki qola ayrılır və bu qollardan biri biçər iğdiri adını daşıyır. Biçər iğdiri Qanuni dövründə Ağviran (vergi verən 169 nəfər) Kordüzlü (86 nəfər?), Təzəklü (33 nəfər), Üçayaqlı (41 nəfər), Arğıd qaş (46 nəfər) kəndlərində yaşayırdılar. Başqa qol olan oturaq iğdirlərin isə Qani (?), Divan (vergi ödəyən 103 nəfər), Nerun (149 nəfər?) və Sındavi (40 nəfər?) kəndlərində yaşadıqları məlumdur.

İğdirlərin Gülnarda yalnız Üçbaşlı adlı kənddə yaşadıqları məlumdur. Bu kənddəki iğdirlərin II Bəyazid dövründəki vergi verənlərinin sayı 178 idi. Sipahi olan İğdir oğullarının nəsli də (30 nəfər) eyni kənddə və ya ona yaxın bir yerdə yaşayır. II Bəyazid dövründəki osmanlı-məmlük hərbi münasibətilə varsaq bəyləri arasında adı çəkilən İğdir oğlu[4] bu ailənin başçısı olan bəyi ifadə edir. İç-eldəki bu iğdirlərin bir obası da eyni dövrdə Orta Anadoludakı Qoç-hisar yörəsində yaşayan mühüm bir boz-doğan oymağı arasında görünməkdədir ki, indi ondan bəhs ediləcəkdir.

**3. Qoç-hisar.**

İç-el bölgəsindəki çox yayılmış boylardan biri olmaqla Silifkə bölgəsində yaşayan böyük boz-doğan boyunun bir qolu Orta Anadoludakı Qoç-hisar

---

[1] F.Sümər. Bayındır, peçeneq və yürəgirlər, s. 344.
[2] Cədvələ bax.
[3] F.Sümər. Anadoluda üç-oğuz boylarına mənsub təşəkküllər, s. 470-471, 502-503.
[4] Aşıq Paşazadə. Təvarixi-ali-Osman, s. 233.

bölgəsində yurd salmışdır. II Bəyazid dövründə bu boz-doğan qolunun obaları arasında 93 nəfərlik vergi verən bir iğdir təşəkkülü görünməkdədir. Bu keyfiyyət boz-doğan təşəkkülünun iğdir boyuna mənsub olduğunu göstərə bilər. İç-el bölgəsində də hər iki təşəkkülün yan-yana yaşaması bunu təsdiq edir[1].

**4. Təkə sancağı.**

XVI əsrdə bu sancağın Qara hisar qəzasında 272 nəfərlik bir iğdir oymağı yaşayırdı. Eyni sancaqda bir yörə və 6 kənd də bu boyun adını daşıyırdı. Əsasən bu yer adları iğdirlərin Təkə sancağında qələbəlik bir şəkildə yerləşmiş olduğunu ifadə edir. Yazıçıoğlu Əli[2] Antalyanın Qiyasəddnn Keyxosrov tərəfindən fəthini təsvir edərkən «o məmləkətin çölləri və bişələri iğdirdən yörük evi ilə doldu» deyir ki, bu söz müəllifin zamanında iğdirlərin Təkədə qələbəlik bir halda yaşadıqlarını göstərməsi baxımından dəyərlidir.

**5. Hamid sancağı.**

Bu sancağın Əyridir qəzasındakı yörüklər arasında həmin boya aid bir oymaq vardır ki, onun vergi mükələfiyyətli əhalisi 72 nəfərdir.

**6. Məntəşə.**

Məntəşə sancağında yaşayan iğdir oymağı bu sancaqdakı böyük təşəkküllərdən biri olan xorzumlu obaları arasındadır. İğdir İsa kimi bir ad daşıyan bu obanın Qanuni dövründə 99 nəfər əhalisi (vergi verən) var idi[3].

**7. Atçəkən.**

II Bəyazid dövründə Aksaray bölgəsindəki təşəkküllər arasında bu adda 5 nəfərlik çox kiçik bir oymaq vardır.

**8. İran.**

Farsdakı qaşqay adlı böyük türk icması arasında 500 evlik bir iğdir oymağı vardır[4].

**9. Xəzərarxası türkmənləri.**

İğdir boyundan mühüm bir qol da qədimdən bəri eymür, döyər, çavuldur, karkın və salur boyuna aid qollarla birlikdə Manqışlaq yarımadasında yaşayırdı[5]. XIX əsrin ikinci yarısında bu iğdirlər çavdura (çavuldur, çavundur) tabe olaraq çavdurların digər obaları kimi Aral ilə Xəzər dənizi arasındakı bölgədə yaşayırdılar[6]. Hazırda köklən türkmənləri arasındakı 150 evlik Çarvar İğdir adlı obanın[7] bu iğdirlərin cənuba köç etmiş bir qismi olduğu şübhəsizdir.

---

[1] F.Sümər. Həmin əsər. s. 471, 504.
[2] Yazıçıoğlu Əli. Houtsma nəşri, s. 88.
[3] F.Sümər. Həmin əsər, s. 472, 504.
[4] Məsud Keyhan. Coğrafiyayi-müfəssəli-İran, II, s. 79.
[5] Əbülqazi. Şəcəreyi-tərakimə, s. 66; eyni müəllif: Şəcəreyi-türk. Türkiyə türkcəsinə çevirən: Rza Nur, s. 220; Barthold. Türkmən xalqının tarixi, s. 137 (ingiliscə).
[6] Vamberi. Orta Asiyaya səyahət, s. 303.
[7] Məsud Keyhan. Həmin əsər, II, s. 102.

Manqışlaqdakı iğdirlərdən bir bölüyünün də çavuldur və soynaçılara aid bölüklərlə bərabər XVIII əsrdə Şimali Qafqaza köç etdiklərindən və sonra bunların Stavropol türkmənləri adı ilə yad edildiklərindən daha əvvəl bəhs olunmuşdu.

## 22. BÜĞDÜZ

Rəşidəddindəki fəsildə bu boya mənsub Quzuçu adlı bir bəydən bəhs edilir. Orada Quzuçunun son oğuz yabğusu Əli xanın oğlu Şah Məlikin atabəyi kimi adı çəkilir[1]. Dədə Qorqud dastanlarındakı «bıyığı qanlı» kimi təsvir edilən Əmən bəy də büğdüzdən göstərilir. Bunlar büğdüz boyunun oğuzların islamdan əvvəlki tarixlərində və islam dinini qəbul etdikdən sonrakı dövrün ilk zamanlarında dastanlarda əks-səda doğuracaq dərəcədə bir rol oynadığını göstərir.

Büğdüzlərə aid Anadoluda 22 yer adı qeydə alınmışdır[2]. Buna görə büğdüzlər Rəşidəddinin siyahısında olduğu kimi, bizim bu yer adları cədvəlində də son yerlərdə (17) dayanır. Bununla bərabər, bu yer adları büğdüzlərin də Anadolunun fəthi və məskunlaşdırılmasında digər qardaş boylarla yanaşı olduqca mühüm bir rol oynadıqlarını göstərir. Lakin həmin boya aid XVI əsrdə ancaq kiçik bir büğdüz oymağı mövcuddur. Hələb türkmənləri arasında görünən bu büğdüz oymağı 65 vergi evi qədərdir. Dəftərdə bu büğdüzlərin Hama tərəflərində yaşadıqları yazılmışdır[3]. XVI əsrdəki bu 22 büğdüz yer adından bu gün ancaq üçü qalmışdır[4].

## 23. YIVA

Səlcuqlular dövründə adı tez-tez çəkilən boylardan biri də yıvalardır. Kaşğari[5] bu boyun adının iva, yava, yıva, yafa və avva kimi deyilmə şəklini təsbit etmişdir. XII əsrdə onlardan əl-ivaiyyə və ya iva şəklində bəhs edilir. Təhrir dəftərdərində isə iva və yıva imlaları özünü göstərir.

*Səlcuqlular dövründə yıvalar*

**1. Bərçəm oğulları.**

Yıvalara aid ən qədim məlumat 553-cü ildən (1158) başlayır. Yıvalar bu tarixdə Həmədanın qərbində yaşayırdılar. Hakimiyyətləri altında olan yer

---

[1] Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 378-379.
[2] Cədvələ bax.
[3] F.Sümər. Anadoluda üç-ox oğuz boylarına mənsub təşəkküllər, s. 473-474, 505.
[4] Türkiyədə məskun yerlər qılavuzu, s. 184.
[5] Kilisli, I, s. 56, s. 18-20; Atalay, I, s. 56, III, 24, 27; [Ramiz Əskər, I, s. 128, III, s. 29, 31].

İranda Kürdüstan deyilən bölgəni əhatə edirdi. Yıvalar bu bölgədə çox qələbəlik halda yaşayırdılar. Hətta Mosul atabəyi İmadəddin Zəngi onların bir bölüyünü Suriyaya gətirərək, Hələb bölgəsinə yerləşdirmişdi.

Yavların Sır-Dərya boylarından İrana əfşar və salğurlarla birlikdə 1130-cu illərdə gəldikləri əsaslı bir ehtimalla deyilə bilər. 553-cü ildə (1158) İva Bərçəmə mənsub türkmənlərin Cəbəl (Kürdüstan bölgəsi) bölgəsində çapqınçılıq fəaliyyətlərini artırdıqlarına görə Bağdad xələfə höküməti Məngü-Barsın komandanlığı altında onların üzərinə böyük bir qüvvə göndərmişdi. Məngü-Bars türkmənlərə ağır bir zərbə vurmuş, darmadağın olan türkmənlərin kəsilmiş başları və aldığı əsirlərlə Bağdada qayıtmışdır[1]. 568-ci ildə (1172) Bərçəm tabeliyindəki türkmənlər ilə Həmədan bölgəsinə axın edərək, Dinəvəri yağmalamışdı. Bunu Naxçıvanda eşidən Eldəniz süvari qoşunla sürətlə Bərçəmin üzərinə yürüş edərək onu Bağdad yaxınlığına qədər qovmuşdu. Hətta Eldənizin Bağdad yaxınlığına qədər gəlməsi onun Bağdada girəcəyi ehtimalını oyandırdığından xəlifə bir yandan əsgər toplamağa, digər yandan da qala divarlarını möhkəmlətməyə başladı. Lakin Eldəniz xəlifədən üzr istədi, məqsədinin yalnız Bərçəmi öz ölkəsində yağmalarda bulunmaqdan vaz keçirmək olduğunu söylədi[2]. Belə görünür ki, Bərçəm xəlifəni öz süzereni hesab edirdi. Oğullarının da bunu sədaqətlə davam etdirdiklərini görürük. Hətta Bərçəmin bu hərəkətə xəlifənin gizli əmri ilə başlaması fərziyyəsi də vardır.

583-cü ildə (1187) son səlcuqlu sultanı Toğrul ilə xəlifənin vəziri Cəlaləddin ibn Yunis arasında Həmədan yaxınlığında başlanan döyüşdə yıvalar da xəlifə ordusu səflərində yer tutmuşdu. Ravəndiyə görə[3] döyüş zamanı səlcuqlu ordusunun sol cinahını təşkil edən Ay-Aba komandanlığındakı atabəy əsgərləri (yəni Pəhləvanın məmlükləri) məğlubiyyətə uğrayaraq qaçmışdılar, yıvalar onları təqib edib qovmağa başlamışdı. Ancaq atabəyin əsgərləri sursatları atmaqla türkmənlərin təqibnndən yaxa qurtarmışlar. Türkmənlərin əsil məqsədləri də elə qənimət (doyumluq) əldə etmək idi. Qaçanların sursatlarını əllərinə keçirən kimi türkmənlər döyüş meydanına qayıtmadan öz ölkələrinə yollandılar. Halbuki döyüş Sultan Toğrulun qələbəsi ilə başa çatmışdı. Bu döyuşdə yıvaların başında Bərçəmin oğlu Mahmud dururdu[4].

İraq səlcuqlu sultanlığına son qoyan Xarəzmşah Təkiş İraqi-Əcəmdəki bəzi yörələri səlcuqlu əmirlərinə vermişdi. Bunlar xəlifənin təhriki ilə çox keçmədən xarəzmşaha qarşı üsyan etsələr də, xarəzmşahın oğlu Rey valisi Yunus xan tərəfindən darmadağın edildilər. Bu məğlubiyyətdən qaçıb qurtu-

---

[1] İbn ül-Əsir, XI, s. 107.
[2] Həmin əsər, s. XI, s. 177.
[3] S. 345-346.
[4] Əxbar üd-dövlət is-səlcuqiyyə, s. 177.

lan əmirlər yıva bəyinə sığındılar[1]. Bu münasibətlə Ravəndi[2] yıva bəyini məlik (kral) kəlməsi ilə vəsf edir. Bu hadisədən sonra xəlifənin qoşunu ilə Xarəzmşah Təkişin Həmədan valisi Mayacığın ordusu arasında baş verən və Bağdad qüvvələrinin məğlubiyyəti ilə qurtaran döyüşdə yıvaların da xəlifə ordusu səflərində olduqlarını bilirik[3].

Bərçəm oğlu Mahmuddan sonra yıvaların başına Fəxrəddin İbrahimin keçdiyi məlum olur. 593-cü ildə (1196) atabəy Özbəyin adından Həmədanda valilik edən Nurəddin Göyçə yıva bəyliyini ortadan qaldırmağı düşünərək bu bəyliyin torpaqlarına talançı hücumlar təşkil etməyə başlamışdı. Fəqət Göyçə yıva bəyinin mübarizəyə hazır olduğunu bildiyindən Həmədana dönməyə məcbur oldu[4].

Fəxrəddin İbrahimdən sonra Şəhabəddin Süleyman şah yıva bəyi olmuşdur. O, yıvaların ən məşhur əmiridir. Süleyman şah 610-cu ildən (1213) əvvəl aydın olmayan bir səbəbə görə xəlifə ən-Nasir li-dinillah tərəfindən hakimiyyətdən uzaqlaşdırıldı, yerinə qardaşı keçirildi[5]. Lakin bunun həqiqətən yerinə yetirilib yetirilmədiyi aydın deyil.

Cəlaləddin Xarəzmşah 621-ci ildə (1224) xəlifənin ölkəsinə səfərdən qayıdan baş Həmədan yaxınlığındakı Bahar qalasında olan Süleyman şahın yanına getmiş və orada onun bacısı ilə evlənmişdi[6]. Süleyman şah Bağdad xəlifəsini öz ağası tanıdığı kimi, Cəlaləddinin hakimiyyətinə də tabe olacağını bildirmişdi[7]. «Tarixi-güzidə»dəki Luristan məliklərinə aid fəsildə Süleyman şaha dair bəzi məlumatlar da müşahidə edilir. Bunlara görə, kiçik lur əmiri Şərafəddin Əbu Bəkr Süleyman şahın Məlikə xatun adlı bacısı ilə evlənmişdi[8]. Bu lur əmirinin ölümündən sonra yerinə keçən qardaşı İzzəddin Məlikə xatun ilə evlənmiş və ondan iki oğlu olmuşdur. Lakin İzzəddin öz əmisi oğlu Hüsaməddin Xəlil tərəfindən öldürüldüyünə görə İzzəddinin kiçik yaşlı oğulları dayılarının yanına qaçdılar[9]. Bundan sonra Süleyman şah ilə yeni lur əmiri arasında fasiləsiz mübarizə başlandı. Baş verən bir çox çarpışmalardan sonra Şapur ovasındakı bir vuruşmada lur ordusu məğlub oldu və Hüsaməddin Xəlil də öldürüldü (1246).

Süleyman şah düşməni olan Hüsaməddin Xəlilin ölümünə kədərlənmiş və onun haqqında o vaxt bir rübai demişdir[10].

---

[1] Ravəndi, s. 377.
[2] Göstərilən yer.
[3] Həmin əsər, s. 392.
[4] Həmin əsər, s. 382.
[5] İbn ül-Əsir, XII, s. 139.
[6] Nəsəvi, mətn, s. 186, fransızca tərcümə, s. 308.
[7] Həmin əsər, s. 210.
[8] Tarixi-güzidə, s. 555.
[9] Həmin əsər, s. 556.
[10] Bu rübainin türkcə tərcüməsi belədir:

Süleyman şah xəlifə hökumətinə səmimi bir şəkildə bağlı idi. Qonşu lur əmirləri, Farsdakı səlcuqlular, Mosul hökmdarı Hülaküyə tabe olduqları zaman da, Süleyman şah xəlifədən ayrılmadı. Hətta 1258-ci ildə monqollar Bağdadı mühasirəyə alanda şəhəri müdafiə edənlərdən biri də Süleyman şah idi. Bağdadın süqutundan sonra Süleyman şah da xəlifə və digər türk komandanları ilə birlikdə şəhid edildi[1]. Bu vaxt o xeyli yaşlı idi. Həmdullah Müstövfiyə görə[2], Hülakünün Bağdad səfərinə qoşulan lur əmiri Bədrəddin Məsud Süleyman şahın öldürülməməsini Hülaküdən rica etsə də, xahişi qəbul olunmamışdır. Bununla bərabər Süleyman şahın ailəsini və məiyyətini himayə etməyə müvəffəq olan lur əmiri onları Luristana götürmüşdür. Onların bir qismi ara sakitləşəndən sonra Bağdada qayıtmışdılar.

Süleyman şahın olduqca mədəni bir insan olduğu məlum olur. Yuxarıda onun bir rübaisindən bəhs edilmişdi. Həmdullah Müstövfi[3] Süleyman şahın məddahı olan bir şairdən də bəhs edir. Rəşidəddin isə yıva bəyinin nücum elminə vaqif olduğunu bildirir[4].

Yenə Həmdullah Müstövfiyə görə[5], Süleyman şah zamanında 15 idarə yörəsinə ayrılan Kürdüstanın gəliri 200 tümənə yaxın idi. Halbuki müəllifin zamanında həmin bölgədən ancaq 20 tümən 1500 dinar əldə edilirdi. Bu müqayisə Süleyman şah zamanında Kürdüstan vilayətinin necə varlı olduğunu açıq bir şəkildə göstərir.

Süleyman şaha tabe olan yıvaların aqibəti haqqında məlumatımız yoxdur. Minorski[6] qaraqoyunlu ulusuna mənsub baharlı oymağının öz adını Süleyman şahın yaşadığı Bahar qalasından aldığını qəbul edərək qaraqoyunluları yıvaların nəsli hesab edir.

**2. Urmiya yıvları.**

XII əsrin ilk rübündə qələbəlik bir yıva icmasının da Urmiya yörəsində yaşadığı məlumdur. Böyük ehtimala görə, onlar monqol istilası nəticəsində buraya gəlmiş Süleyman şah yıvalarının ayrı bir qoludur. Qələbəlik olan bu yıvaların 10.000 atlısı vardı. Məhəmməd Nəsəviyə görə[7], onlar Sultan Cəlaləddini heçə sayaraq, yollarda vahimə yaradır və hüdud ölkələrinə basqınlar edirdilər. Bu səbəbə görə Cəlaləddin Axlatdan dönərək bunların üzərinə

---

«Zavallı Bədr oğlu Xəlil şaşqınlaşıb
Baharın (qala) arzusu toxumunu ruhuna əkmiş,
Tamahının şeytanı Süleymanın mülkünü axtarırdı,
(Ancaq) Süleymanın divlərinin əlində məhv oldu» (Həmin əsər, s. 557).

[1] Rəşidəddin. Cami ət-təvarix. Kvatremer nəşri. Paris, 1836, s. 232, 244, 246, 274, 294; Əbülfərəc. Əl-müxtəsər üd-düvəl. Beyrut, 1890, s. 472, 474.

[2] Həmin əsər, s. 557.

[3] Həmin əsər, s. 552.

[4] S. 296.

[5] Nüzhət ül-qülub, s. 107.

[6] Qaraqoyunlu hökmdarları sülaləsi. Köprülü ərməğanı, s. 292-293, 294.

[7] S. 126, tərcümə, 210.

yürüş etdi. Yıvalardan bir çoxları öldürüldü və xeyli qənimət əldə edildi. Qoyun sürülərindən ibarət olan və Muğana aparılan bu qənimətin xəzinəyə aid olan qismi 30.000 dinar qiymətində idi[1].

Bu hadisədən 623-cü ildə (1226) bəhs edən ibn ül-Əsir[2] yıvaların talançılıq fəaliyyətinə dair geniş məlumat vermişdir: Uşnu və Urmiya şəhərləri yıvaların əlində idi, üstəlik onlar Xoy şəhərindən də xərac alırdılar. Yıvalar Cəlaləddinin əvvəlcə gürcülərlə, sonra da Axlatın zəbt edilməsi ilə məşğul olmasını fürsət sayıb, ticarət karvanlarını soymaqla yolların sakitliyini pozmuşdular. Bu arada Təbriz tacirlərinin Ərzrumdan Təbrizə gətirdikləri 20 min qoyunu da Təbriz yaxınlığında ələ keçirib götürmüşdülər.Yıvaların belə hərəkətlərinin artdığını görən Cəlaləddin son səlcuqlu sultanı Toğrulun qızı olan arvadının xahişi ilə Axlatın mühasirəsindən əl çəkib yıvaların üzərinə yürüş etdi.

Yıvalar Cəlaləddinin Axlatdan əl çəkməyəcəyinə əmin olduqları üçün sərt dağlara çəkilməyərək öz yurdlarında qayğısız yaşayırdılar. Məhz belə bir şəraitdə Cəlaləddin onları çəmbərə saldı, çoxunu öldürdü, arvad-uşaqlarını əsir etdi, mal-qaralarının əksəriyyətini əlinə keçirdi[3]. Bu hadisədən 6 il sonra monqolların gəlməsi ilə əlaqədar onlar da Azərbaycandakı türkmənlər kimi Qərbə getməyə başladılar.

**3. Yaruqlular.**

Ağ Sunqur oğlu Zəngi Mosuldan sonra Hələbə hakim oldu. O, səlibçilərlə mübarizəyə girişəndə İran Kürdüstanındakı yıvaların bir bölüyünə Hələb bölgəsində yurd verdi və onları səlibçilərlə döyüşməyə çağırdı, tutacaqları torpaqları özlərinə verəcəyini vəd etdi. Bu vaxt yıvaların başçısı Yaruq adlı bir bəy idi. Onlar səlibçilərlə vuruşdular və xeyli torpaq ələ keçirə bildilər. Bu yıvalar və Yaruqun oğulları yaruqlu (yaruqiyyə) adlanmağa başladılar. Yaruq 564-cü ildə (1168) öldü.

Yaruqdan sonra oğulları Eynüddövlə və Bədrəddin Doldurum fəaliyyətə başladılar. Eynüddövlə Şir-Kuhun həmin ildəki (564-1169) sonuncu Misir səfərində iştirak etmişdir. Şir-Kuh orada öldükdən sonra ordunun komandanlığını qardaşı oğlu Səlahəddin öz üzərinə götürdü. Lakin Eynüddövlə Səlahəddinə heç bir vaxt tabe olmayacağını bildirərək Nurəddinin yanına qayıtdı[4]. Bədrəddin Dolduruma gəlincə, onu Təll-Başir və Təll-Xalid hakimi olaraq tanıyırıq.

Bədrəddin Doldurum Səlahəddin Əyyubinin məşhur döyüşlərində iştirak edərək böyük igidliklər göstərmişdir. O, igid və yüksək əxlaqa malik bir bəy idi. Doldurumdan sonra oğulları səlcuqlu hökmdarı İzzəddin Keykavusun

[1] Göstərilən yer.
[2] XII, s. 313.
[3] Göstərilən yer.
[4] İbn Vasil. Müfərric ül-qürub. Qahirə, 1953. I, s.160, 168, 180.

1218-ci ildəki Suriya səfərinə qədər Təll-Başiri və Təll-Xalidi əllərində saxlamışdılar ki, bu barədə daha əvvəl bəhs edilmişdir.

*Osmanlı dövründə yıvalar*

Səlcuqlular dövründə (XIII əsrdə) Anadoluda yıvaların yaşadıqlarına dair ibn Bibidə bir qeydə rast gəlirik. Bu qeydə görə[1], Rüknəddin Qılıc Arslanın böyük qardaşı II İzzəddin Keykavusa qarşı səltənət davasına başladığı üçün vəzir Qazi İzzəddin xəzinədə olan pulları sərf edərək, əsgər toplamağa başlamış və qısa bir zamanda ərəb, qürbət (?), iva, gəncə, kürd və qıpçaqdan (qıbcaq) əsgər yığmışdır. Bu yıvaların Urmiyadan Anadoluya gələn yıvalar olması mümkündür.

XVI əsrdə yıvalara aid 20 yer adına rast gəlmək olar[2].Bu dövrdə istər yer adları, istərsə də oymaqlar ərəbcə «yıvə» və «yıva» şəklində yazılmışdır. Bu kəlmələri yuva şəklində oxumaq da mümkündür. Ancaq yer və oymaq adlarının «yuvalı» kimi oxunmasına şübhə etməyin yerində olduğunu söyləməliyik. Osmanlı dövründə adı ərəb hərflərilə həm yıvə, yıza, həm də yuvalu şəklində yazılan bəzi oymaqlar vardır ki, bunların ən başlıcalarından aşağıda bəhs edəcəyik.

**1. Hələb türkmənləri.**

Bu türkmən icması arasında xeyl-yıva şəklində yazılan bir oymaq adı nəzərə çarpır. Burdakı ilk kəlmənin əsli və mənası bizcə, məchuldur. Bu kəlmənin ərəb dilində atlar və atlı mənasını daşıyan xeyli sözü olub-olmadığını bilmirik. Qanuninin ilk hökmdarlıq illərində bu yıva oymağı Əmət Kətxudanın əmrində olub, 200 çadırdan ibarət idi. II Səlim dövründə əhalisi xeyli artan yıva oymağı beş qola ayrılmışdı. Bu qollardan birinin yağmur və yellicə adlı əkinliklərdə yerləşdiyi nəzərə çarpır. XVII əsrin ortalarına doğru bu yıvalardan ancaq 150 çadırlıq bir qol əvvəlki yaşayışını davam etdirirdi[3].

**2. Dulqədirli.**

XVI əsrdə bu icma arasında da yıvalı (yaxud yuvalı) adlı bir oymaq var idi. Bu oymaq Durmuş Hacılu, dərkeç, əsəncəlu, yaxşı-xanlu, süfyanlu və yıvalu adlı obalara ayrılmışdı. Bu obalardan bəziləri cənubda, Gündüzlü və Kınık qəzalarındakı qışlaqlarında əkinçiliklə məşğul olurdu. II Səlim dövründən etibarən bu oymaqlardan qara-yıvalı (və ya yuvalı) adı altında bəhs edilir[4]. Dulqədirli ulusu arasında yıva adlı 35 vergi evlik ayrı bir oymaq görünməkdədir.

---

[1] Təkrar nəşr, s. 613.
[2] Cədvələ bax.
[3] F.Sümər. Yıva oğuz boyuna dair, s. 161-162.
[4] Həmin əsər, s. 162-163.

**3. Yeni-el.**

Yeni-eldə 156 nəfərlik (vergi verən) yıva adlı bir oymağa rast gəlinir. Bu oymağın dulqədirli ulusu arasındakı yıvaların bir qolu olması tam şübhəsizdir[1].

**4. Kayseri.**

Kayseri çevrəsində yaşayan türkmən oymaqlarından biri də yıvalı (və ya yuvalı) adlı 183 nəfərlik oymaqdır. Bundan başqa, Ürgüp ətraflarında da yıva adlı bir oymaq yaşamaqda idi. I Səlim dövründə bu oymaq üç qola ayrılmışdı. Bunlardan 46 nəfərlik birinci qol qışlaq, 48 nəfərlik ikinci qol qara yıvalı (yaxud yuvalı), 41 nəfərlik üçüncü qol isə ağ ishaqlı tarlasında əkinçiliklə məşğul olmaqdadır[2].

**5. Tarsus.**

Bu yörədə II Səlim dövründə yıva adlı iki qola ayrılmış (birincisi 31, digəri II vergi evi) bir oymaq yaşayırdı[3].

**6. İç-el.**

Bəyazid dövründə İç-eldəki böyük icmalardan biri də yıva oymağı idi. Bu oymaq İç-eldəki digər bir çox icmalar kimi, tamamilə kəndlərdə yerləşməklə bərabər oymaq təşkilatını mühafizə edirdi. Bu oymağın adı bəzən yıvalı şəklində də yazılır. İç-el yıvalarının böyük yıva və kiçik yıva olmaqla iki böyük qola ayrıldığı nəzərə çarpır. Böyük yıva qolu qədim Gülnar ilə Anamur arasındakı Ağsaz adlı yerədə toplu halda yerləşmişdir. Kiçik yıva qolu da yenə toplu halda Anamurun cənub və qərbindəki torpaqlarda yurd salmışdır. Bu ikinci qola mənsub bəzi oymaqlar Anamur qəsəbəsində də yerləşmişlər. Ayrıca Böyük Yıva və Kiçik Yıva adlı iki kənd var idi, bu kəndlərin hər ikisi də Kiçik Yıva torpağında yerləşmişdi. Deyəsən, bu kəndlər qolların başında duran ailələrin yaşadıqları yerlərdir. II Bəyazid dövründə Böyük Yıva qoluna aid qırxa qədər kənd göstərilir ki, bunların bir qismi öz adlarını zamanımıza qədər mühafizə etmişdir.

Kiçik yıvalar isə Anamur qəsəbəsindən başqa 14 kənddə yerləşmişdilər. II Bəyazid dövründə İç-el bölgəsindəki başlıca oymaqların daşıdıqları adlar bu oymaqların başında duran ailələrin adları idi: boz-doğan oğulları, turqut oğulları, xoca yunus oğulları, iğdir oğulları, bəydili oğulları və nəhayət, yıva oğulları. Yıva oğullarından adları çəkilən şəxslər bunlardır: Hüseyn bəy, Əli bəy, Məhməd bəy, Əlaəddin bəy və Paşa bəy. Bunlardan Hüseyn bəy Böyük Yıva kəndində bir cami tikdirmiş və bunun üçün də bir vəqf təsis etmişdir. Əli bəyin Qızılca kəndində bir məscidi olduğunu bilirik. Paşa bəy isə Qazançılar kəndində Əxi Seyyidi adlı bir şeyxin namına bir zaviyə tikdirmişdi. Əlaəddin və Məhməd adlı yıva bəyləri də II Bəyazid dövründə timar sahibi

[1] Həmin əsər, s. 163-164.
[2] Həmin əsər, s. 164.
[3] Həmin əsər, s. 165.

idilər. Pirəli adlı bir adamın da Yıva oğullarının atadan-babadan (əbən an cədd) kəndxudası olduğu üçün əvarizi-divaniyyə və təkalifi-örfiyyədən azad olduğunu da bilirik[1].

**7. İran yıvaları.**

İranda monqol istilasından sonra bu adda böyük bir oymaq nəzərə çarpmır. Ancaq səfəvi dövründəki qacar boyunun obaları arasında yıva adlı bir oba müşahidə edilir. Qacar boyunun əslində Anadoludan (Boz-ox bölgəsindən) olduğu daha əvvəl bir neçə dəfə deyilmişdir. XVI əsrin sonlarında İmamqulu xan kimi məşhur qacar bəylərinin qacarın yıva obasına mənsub olduğunu bilirik[2].

## 24. KINIK

Kınıklar, biliidiyi kimi, səlcuqlu xanədanının çıxdığı boydur. Halbuki bu boy oğuz boylarının islamiyyətdən əvvəlki siyasi və ictimai mövqelərinə görə Rəşidəddinin siyahısından axırıncı yerdə dayanır.

Kınıklar bizim yer adları cədvəlində 81 kənd ilə kayı və əfşardan sonra üçüncü sırada yer almışdır[3]. Bu yer adlarından çox mühüm bir qisminin Anadolunun fəthində iştirak etmiş kınıklara aid olduğu şübhəsizdir. Lakin bu boyun tarixi səlcuqlu xanədanını yaratmaq və Anadolunun fəthində böyük bir rol oynamaqla sona yetməmişdir. XIII əsrdə Suriyadakı qələbəlik türkmən icması arasında yenə bu boydan əhəmiyyətli bir qolun olduğu gözə çarpır. Həqiqətən, bu türkmən icmasının üç-ox qolunu başlıca olaraq yürəgir, kınık, bayındır və salurlar təşkil edirdi. Bu üç-oxlar daha əvvəl deyildiyi kimi, məmlük ordusunun yanında Çuxurovanın fəthində iştirak etdilər və orada məskən saldılar. Belə olduqda Çuxurovadakı ən qədim türk xalqının nüvəsi bu üç-ox boylarından meydana gəlmişdir.

Kınıklar yürəgirlər kimi Çuxurovada geniş bir yerdə məskən saldılar. Bura qərbdə Ceyhan çayından şərqdə Gavur dağlarına qədər uzanırdı. Yəni kınıkların məskəni bu günkü Ceyhan qəzasının bir qism torpaqları ilə Osmaniyyə qəzasını əhatə edirdi. Kınıklar, yürəgirlər kimi üç-oxların və Çuxurova bölgəsinin ən güclü təşəkküllərindən biri idi. Lakin onların başındakı ailəyə dair bu günə qədər heç bir məlumat əldə edilməmişdir.

1375-ci ildə erməni kralını Sisdə mühasirəyə alan türkmən bəylərindən Əbu Bəkr heç şübhəsiz ki, kınıkların bəyi idi.

Başda Ramazan oğullarının yürəgirləri olmaqla üç-ox türkmənləri boz-oxlar kimi məmlük əmirləri arasındakı mövqe və mənsəb uğrunda gedən

---

[1] Həmin əsər, s. 165-166.

[2] Tarixi-aləmarayi-Abbasi, I, s. 385.

[3] Cədvələ bax: Kınık yer adlarının çoxu zamanımıza qədər gəlmişdir (Türkiyədə məskun yerlər qılavuzu, s.681-682). Bunlardan başqa, İzmir ətrafında Kınık adlı bir qəsəbə də var.

mübarizələrdən istifadə edərək öz qayələrinə görə hərəkət etməyə başladılar. Onlar 1378-ci ildə üzərlərinə göndərilən Təmür bayın komandanlıq etdiyi məmlük ordusunu tarmar etdikdən sonra məmlük hakimiyyətindən tamamilə xilas oldular.

783-cü ildə (1381/1382) Hələb valisi olan Yel Buğa üç-oxları yenidən özünə tabe etmək üçün ilk tədbir olaraq onlar arasına təfriqə salmağa başladı. Doğrudan da, Yel Buğa bu tədbirində müvəffəq olmuş və 785-ci ildə (1383) kınıklar yürəgirlər üzərinə hücum etmişlər[1].

Kınıklar bu hadisədən bir neçə il sonra yanlarında üç-oxlara mənsub digər təşəkküllərlə birlikdə Qazi Bürhanəddinin ölkəsində hərc-mərclik yaratdılar. Ancaq XVI əsrdən etibarən bu kınıklardan bir daha bəhs edilmir. Onlar hansı səbəbə görə siyasi əhəmiyyətlərini itirdilər? Hazırkı vəziyyətdə bu sualın cavabını vermək mümkün deyildir.

Osmanlı fəthinin ilk illərində Kınık nahiyəsinin bəyi Güc-əri oğlu Həmzə bəy idi. Bu bəyin kınıklara mənsubiyyətinə dair heç bir məlumat olmasa da, bu ehtimalı qəbul etmək olar. Osmanlı hakimiyyətinin ilk illərində kınıkların oturaq həyata keçdikləri məlum olur. Aralarında lap az köçəri ev vardı ki, onların da sonradan başqa yerlərdən gəlmiş olduqları şübhə doğurmur. Kınıkların yaşadıqları yer XIX əsrin ikinci yarısına qədər öz adları ilə adlanan bir qəza idi. Amma heyrət doğurur ki, bu gün Çuxurovada heç kim Kınık qəzasının yerini dəqiq müəyyən edə bilmir. Kınık sadəcə ərazinin deyil, eyni zamanda bir qala və qəsəbənin də adı idi.

Kınık qalasının Torpaq qalası olduğu zənn edilir. Qəsəbəyə gəldikdə, onun da qalanın şimal və şərqindəki yer olduğunu təxmin etmək olar. Bu qəsəbə 928-ci ildə (1522) iki məhəllədən ibarət idi. Vaxt keçdikcə böyüyən qəsəbənin 954-cü ildə (1547) artıq 5 məhəlləsi var idi. Xülasə, XVI əsrdə 75 kənd və əkinliyi olan Kınık qəzası çox abad bir vəziyyətdə idi. Lakin XVII əsrdə qəza qəsəbəsi, kəndləri və əkinlikləri ilə birlikdə o dərəcədə təxrib edildi ki, bu gün nə Kınık qəzasının, nə də kınık kəndlərinin əksəriyyətinin yeri bilinmir[2].

*XVI əsrdə kınık oymaqları*

XVI əsrdə Hələb türkmənləri Ankara yörükləri ilə Aydındakı qaracaqoyunlu icması arasında bu adda bəzi kiçik oymaqlar vardı ki, ən əhəmiyyətlisi Hələb türkmənləri arasında olan oymaqdır.

**1. Hələb türkmənləri.**

Bu türkmən icması arasında yaşayan kınık oymağı bir az əvvəl haqqında danışdığımız kınıkların Şimali Suriyada qalmış bir qismidir. Bu icma Qanu-

[1] Bu xüsuslarda: F.Sümər. Çuxurova tarixinə dair araşdırmalar, s. 24-25, 38.
[2] F.Sümər. Həmin əsər, göstərilən yer.

ninin ilk səltənət illərində üç qola ayrılmışdı. Bunlardan Kırım Kətxudanın buyruğunda olan birinci qolun 51, Həsən Kətxudanın idarəsindəki ikinci qolun 40, kəndxudası bilinməyən üçüncü qolun da yenə 40 nəfər vergi ödəyən əhalisi olduğu məlumdur.

II Səlim dövründə kınıkların əhalisi bir mislinə yaxın artaraq 254-ə çatmışdır. Həmin dövrdə onlar tək bir kəndxudaya tabe idilər ki, bu da yuxarıda adı çəkilən Kırım Kətxuda idi.

Kınıklar XVII əsrin ortalarına qədər əski yaşayışlarını davam etdirmişlər. Sultan İbrahim dövründə onların Rum (Sivas) vilayətində Aralıq-evi adlı bir yerdə yaşadıqları məlumdur[1]. 1104-cü ildə (1692/1693) Hama və Xümus sancaqlarında yerləşdirilən türkmən oymaqları arasında kınık-uşaq adlı bir oymaq da vardır. Bu oymaq bəhs etdiyimiz kınıkların köçəri qalığı yaxud başqa bir oymaq idi[2]. Hama yörəsinə yerləşdirilən bu oymağın 60 nəfərlik kiçik bir oymaq olduğu məlum olur[3].

**2. Ankara.**

Ankara yörükləri arasındakı kınık oymağı 123 nəfər vergi əhalisi olan bir oymaqdır. Bu kınık oymağı Səfəri-Hisar (Sivri-Hisar) nahiyəsində yaşayırdı[4]. Daha əvvəl də bir neçə dəfə işarə edildiyi kimi, Ankara oğuz boylarına and ən çox yer adları olan bölgələrin arasında birinci yer tutur. Bu yer adları XII əsrdə şöhrətləri Xorasanadək yayılmiş qələbəlik bir türkmən icmasının yadigarı idi. Məhz bu yadigarlar içində kınık boyuna aid 9 kənd vardır.

**3. Qaracaqoyunlu (Aydın).**

Aydın sancağında yaşayan qarasaqoyunlu icması arasındakı kınık oymağı əhalisi çox az olan bir təşəkküldür. 37 vergi evi olan bu oymaq kınıklar adını daşıyır. Onun 11 evlik alalar adlı kiçik bir obası da vardı. Elə həmin icma arasında qonuqlar adlı bir oymağa da rast gəlirik. Bunun düzgün oxunuş şəkli konuklar olmalıdır. Ancaq dəftərlərin birində k açıq halda kəsrə ilə hərəkələnmişdir. Ona görə də kınık kəlməsi bir işdə xüsusiyyəti nəticəsində bu şəkli almışdır. Mən bu xüsusda yalnız k-nın hərəkələnməsini nəzərə aldım.

Fateh dövründə biri 217, digəri 65 nəfərlik iki qol halında yaşayan kınıkların XVI əsrdə yeni qollara ayrıldığı və müxtəlif yerlərdə yaşadığı məlum olur. Bu qollardan biri (56 ev) Tirə ətrafında, digər bir qol da Tirəyə bağlı Məskənçi kəndində yaşayırdı. Kınıkların o biri qolları isə Ayasuluğ yörəsindəki Qarcılar, Bəylik dərə, Uzunluca, Kilsə, Boz-Alan, Kiçik Kədfiyə, Yeddi bərquş kimi kəndlərdə yerləşmişdilər[5].

---

[1] F.Sümər. Üç-ox oğuz boylarına mənsub təşəkküllər, s. 475-476, 505-506.
[2] F.Sümər. Göstərilən yer.
[3] Ç.Orxonlu. Həmin əsər, s. 67.
[4] F.Sümər. Həmin əsər, s. 477, 506.
[5] F.Sümər. Həmin əsər, s. 478-479, 597.

XVI əsrdə Anadoluda Səlcuqlu adlı bəzi oymaqlara və Səlcuq və Səlcik şəklində yer adlarına və şəxslərə də rast gəlinir. Səlcuqlu adlı oymaqlardan biri Tarsus bölgəsindəki kusun boyunun obaları arasındadır. 925-ci ildə (1519) bu oba 45 vergi evindən ibarət idi. Eyniadlı bir oymağa da Afyon-Qarahisar bölgəsində rast gəlinir. Bu da 30 evdən ibarət idi. Üçüncü bir oymaq da atçəkənlər arasındadır. Bu oymağın adı səlcuqlu şəklində yazılır. Bu oymaqların da adlarının şəxs adlarından götürüldüyü şübhəsizdir.[1]

[1] F.Sümər. Həmin əsər, s. 479, 598.

# III HİSSƏ

## DASTANLARI

Oğuzların öz dillərində yazılmış ilk milli dastanları Dədə Qorqud dastanlarıdır. Bu dastanlar son əsrlərə qədər Anadolu və İran türkləri arasında sevilərək dinlənmiş, oxunmuş və Anadolu türklərinin ataları oğuzlara qarşı daha dərin bir bağlılıq duymalarına səbəb olmuşdur. Belə ki, XV əsrdə Türkiyədə geniş yayılmış oğuzçuluq cərəyanının mövcudluğu göz qabağındadır. Lakin XVII əsrdən etibarən bu dastanlar Türkiyədə əhəmiyyətini itirməyə başladı. Ozanların yerini aşıqlar aldı. Bunlar isə yeni bir dastan tərənnüm edirdilər.

Bu yeni dastan cəngavər və ya cəlali Koroğlunun macəralarından bəhs edirdi. Bunun XVI əsrin sonlarında əski ictimai quruluşun dağılması ilə yaxından əlaqədar olduğu şübhəsizdir. Əski ictimai quruluşun dağılması ilə yalnız Dədə Qorqud dastanları öz əhəmiyyətini itirməmiş, dövlət də zəifləmiş, türk xalqı isə yoxsul və misknn bir cəmiyyət halına düşmüşdür. Elə Koroğlu da bu cəmiyyətin dastanıdır.

Koroğlu dastanı XVII əsrdə İran türkləri arasında yayılaraq onlar tərəfindən də rəğbətlə qarşılandı. O dərəcədə rəğbətlə qarşılandı ki, onların milli dastanları səviyyəsinə yüksəldi. Məzhəb fərqi, qanlı hərblər Anadolu və İran türklərinin müştərək ənənə birliyini davam etdirmələrinə əngəl ola bilməmişdir. Koroğluya qarşılıq olaraq oradan da Türkiyəyə «Əsli və Kərəm», «Arzu-Qənbər», «Aşıq Qərib» kimi xalq romanları gəlmişdir.

Xəzərarxası türkmənlərinə gəlincə, onlar arasında qədimdən bəri «Oğuznamə»lərin mövcud olduğu və bunlarda Dədə Qorqud ilə Salur Qazana aid mühüm bəhslərin olduğunu aydın gördüyümüz halda, əlimizdəki Dədə Qorqud dastanlarının həmin türkmənlər tərəfindən tanınmadığı nəzərə çarpır. Bununla belə, Koroğlu dastanı türkmənlər arasında da qısa bir zamanda yayılmış və onların da milli dastanları olaraq mənimsənilmişdir. Beləliklə, gərədəli cəlali olan Koroğlu Alı Rövşənin şəxsiyyəti ətrafında təşəkkül tapan bu dastan, Dədə Qorqud dastanları kimi, oğuz türklərinin, başqa cür desək,

qərb türklərinin üç ayrı ölkədə yaşayan nəvələrinin müştərək milli dastanları vəsfini qazanmışdır. Burada «Cami ət-təvarix»dəki «Türklərin tarixi və Oğuzun cahangirliyinin hekayəsi»ni və uyğurca «Oğuz kağan dastanı»nı yenidən araşdırmayaraq, onlar haqqında ümumi mahiyyətdə bir neçə söz söyləməklə kifayətlənəcəyik.

Əvvəlcə bu fikri bildirək ki, uyğurca «Oğuz kağan dastanı»nın da İranda, elxani dövründə, Qazan xan və ya xələfi zamanında yazıldığına qətiyyən şübhə etmirik. Bu əsərin başqa bir yerdə, xüsusilə də uyğur ölkəsində yazılması mümkün deyildir. Çünki onun yazılmasına səbəb olan mənəvi hava ancaq İrandakı elxani sarayı və onun ətrafında nəzərə çarpır. Bu mənəvi havanı qüvvətli bir türkçülük şüuru parladırdı. Deməli, hər iki əsərin meydana gəlməsinə səbəb olan bu türkçülük şüurudur. Əsasən hər iki əsərin əhəmiyyəti də, bizcə, burada, yəni belə bir şüurun mövcudiyyətini göstərmiş olmalarındadır. Əks təqdirdə, onlar nə həqiqi dastan vəsflərini daşıya bilər, nə də tarixi mənbə olmaq baxımından dəyərli sayıla bilərlər.

Bunlardan «Cami ət-təvarix»dəki «Türklərin tarixi və Oğuzun cahangirliyinin hekayəsi» uyğurca dastanın islami bir görüş ilə işlənmiş versiyasından başqa bir şey deyildir[1]. Bu səbəbdən uyğurca «Oğuz kağan dastanı» əvvəlkinə nəzərən bir neçə il daha qabaq yazılmış olmalıdır. Uyğurca «Oğuz» dastanı ilə əlaqədar olaraq bizim əsl maraq etdiyimiz xüsus dastanın harada sona yetməsidir. İndiki şəraitdə bu suala cavab tapmaq qeyri-mümkündür.

Hər iki əsər bizə bu türkçülük şüurunun mahiyyəti haqqında olduqca aydın bir fikir verməkdədir. Anlaşıldığına görə bu şüurun əsasları bunlardır:

a) Oğuz xandan əsərin yazıldığı dövrə qədər türk aləmini adları zikr edilən bu xalqlar təmsil etməkdədir: Oğuz (türkmən), uyğur, qıpçaq, qanlı (kanqlı), karluq, kalaç.

b) Türklərin də qədim zamanlarda yaşamış monqolların Çingiz xanı kimi, cahangir hökmdarları vardır. Bu cahangir hökmdarın adı Oğuz kağan və yaxud xandır.

c) Türk dünyası Oğuz xanın böyük fütuhatları nəticəsində meydana gəlmişdir. Yəni türk xalqlarının Beş-Balıq bölgəsindən Qara dənizin şimalına və Adalar dənizinə qədər yayılmış olmaları Oğuz xanın fəthləri ilə bağlıdır.

ç) Oğuzlar Oğuz xanın 24 nəvəsindən törəmişlər. Uyğurlar Oğuz xanın öz xalqı və ya ona itaət edən türklərdir. Qıpçaq, qanlı, karluq və kalaçlar da Oğuz xanın bəylərindən törəmişlər.

d) «Türklərin tarixi» fəslində Oğuz xan xalqını haqq dininə qovuşdurmaq üçün tanrı tərəfindən göndərilmiş bir peyğəmbər-hökmdar olaraq göstərilir. Beləliklə, həm xalqına Allahın dinini gətirmiş, həm də böyük fəthlər etmiş bir peyğəmbər-hökmdara sahib olmaqla türklərin monqollar və ərəblər

[1] Bax: F.Sümər. Oğuzlara dair dastani mahiyyətdə əsərlər, s. 359-389.

qədər şərəfli, hətta onlardan daha şərəfli və üstün bir xalq olduqları ifadə edilmişdir.

Hər iki əsərdə türk və monqolların mənşəyi bəhsində türkmənlərə ən şərəfli mövqe verilməsi, bu sahədə onların daha fəal çalışmaları ilə izah edilə bilməz. Əslində, türkmənlərə mənsub şəxslərin, uyğur başçıları kimi, bu çalışmalara qoşulmalarına da tam əmin deyilik. Digər tərəfdən türkmənlərin monqollar arasında uyğurlar qədər etibarlı mövqeyə sahib olmadıqları da bir həqiqətdir. Ancaq o zamanlar açıqca görünən mənzərə bu idi ki, türkmənlər Manqışlaqdan Adalar dənizinə qədər uzanan geniş bir sahədə öz qövmi varlıqlarını qüvvətlə mühafizə edib yaşayırdılar. Digər tərəfdən, yaxınlıqda səlcuqlu xanədanı idarəsində böyük bir imperatorluq qurulmuşdu. Halbuki digər türk xalqları nə öz varlıqlarını qoruya bilmiş, nə də türkmənlər kimi parlaq bir mövqeyə sahib ola bilmişdilər. Ona görə də türkmənlər öz varlıqlarını qüvvətlə mühafizə etmələri nəticəsində və bu əsərlərdə özlərinə verilən ən şərəfli mövqeyə layiq bir şəkildə dünya tarixi miqyasında böyük rollar oynamaqda davam etmişlər.

Elxani sarayı və əhatəsində başlayan türkçülük şüuru Anadoluda oğuzçuluq şüuru şəklində XVII əsrə qədər sürmüşdür. Bu şüurun Osmanlı xanədanının siyasi nailiyyətlərində rol oynayan başlıca mənəvi amillərdən biri olduğunu söyləmək, hər halda yanlış bir görüş sayıla bilməz. Yazıçıoğlunun Osman Qaziyə həsr etdiyi

Osman, Ərtoğrul oğlusan,
Oğuz, Qara xan nəslisən,
Haqqın bir kəmtər qulusan,
İstanbulu al, gülzar et

şeirində bu şüur mənəvi bir amil olaraq görünmürmü?

Əslində, daha əvvəllərdə bildirildiyi kimi, osmanlı xanədanı Oğuz xanın nəslindən yarandığına və özünü kayı boyundan saymağa çox əhəmiyyət vermişdir.

Kayı damğasını ailənin rəsmi gerbi qəbul etmiş, şahzadələrə Oğuz xan və Qorqud kimi adlar qoymuşdur. Bundan məqsəd yalnız xanədanın öz ataları olan oğuzlara qarşı duyduğu bağlılıq ilə deyil, xalqın bu sahədəki həssaslığı, şərqdəki qaraqoyunlu və xüsusilə ağqoyunlu xanədanı ilə meydana çıxan siyasi rəqabət ilə də əlaqədar idi. Çünki, əvvəlcə deyildiyi kimi, bu sonuncu xanədanın hökmdarları da özlərinin Oğuz xanın nəvələri olduqlarını söyləyir və onların ən böyüyü, Fatehin rəqibi Uzun Həsən bəy özünü Anadolu türklərinin yeganə hökmdarı sayırdı.

Oğuzların və ya türklərin hökmdarlığının kayı boyu bəylərinin əlinə keçərək, qiyamətə qədər sürəcəyinə dair fikrin oğuzların böyük vəlisi Qorqud

ataya istinad edilməsi, Osman qazinin oğuz bəyləri tərəfindən hökmdar seçildiyi iddiası və qaraqoyunlu Cahan şaha II Muradın nəsəbinin özününkündən daha şərəfli olduğunu söylətməsi bəhs edilən bu məqsədlərdən irəli gəlir. Yavuz Səlim də məmlük hökmdarı Tuman baya göndərdiyi bir məktubda dədə-babadan 20 göbəyə qədər hökmdar olduqlarını yazmışdı. Beləliklə, özünü Oğuz xanın nəslindən saymaqla osmanlı xanədanı tabeliyindəki Çingiz xan mənşəli Krım xanlarına qarşı da hər hansı bir kiçiklik hissi duymurdu.

Nəticə etibarilə haqqında danışılan bu dastanlar, mənşə bəhsi və Dədə Qorqud dastanları ilə birlikdə oğuzçuluq şüurunun canlı bir şəkildə yaşadılmasında amil olmaları baxımında da diqqətimizi cəlb etməyə layiqdirlər.

Osmanlı müəlliflərindən Yazıçıoğlu, məlum olduğu kimi, «Cəmi ət-təvarix»dəki oğuzlara dair ənsab bəhsini türkcəyə çevirmiş, ehtimal ki, Qorqud ataya aid bəzi məlumatları da «Türklərin tarixi» fəslindən almışdır. Yazıçıoğlunun bu tərcüməsindən Mövlana Ruhinin geniş bir şəkildə faydalandığı da məlumdur. Yazıçıoğlu uyğurca bir «Oğuznamə»dən də bəhs edir ki, bu, əlimizdəki «Oğuz kağan dastanı» olmalıdır. Həmin müəllifin müasiri olan Şükrüllah da II Murad dövründə elçi olaraq getdiyi qaraqoyunlu hökmdarı Cahan şahın Təbrizdəki sarayında uyğur yazısı ilə yazılmış bir «Oğuz tarixi» görmüşdür. Ağqoyunlu müvərrixi Əbubəkr Tihrani isə Uzun Həsən bəyin Oğuz xana və Nuh əleyhüssalama qədər aparıb-çıxardığı şəcərəsini yazarkən «Cami ət-təvarix»dəki ənsab bəhsindən istifadə etmişdir.

İrandakı son türk xanədanı olan qacarların da özlərinin ataları saydıqları oğuzlara maraq göstərdikləri nəzərə çarpır. Bu münasibətlə Mirzə Əbülqasim ənsab bəhsini mənbə hesab edərək öz dövründə İran və Xəzərarxası türkmənləri arasındakı oğuz boylarına mənsub oymaqlardan bəhs edən bir risalə qələmə almışdır[1].

Uyğurca «Oğuz kağan dastanı» ilə «Türklərin tarixi və Oğuz xanın cahangirliyinin hekayəsi» fəsilləri üzərindəki bu mülahizələrdən sonra bizim üçün mühüm olan Dədə Qorqud dastanlarına keçə bilərik.

## 1. DASTANLARIN YAZILDIĞI ZAMAN

Dədə Qorqud dastanları haqqında ən qədim tarixi məlumat Misir türk məmlükləri dövrü müvərrixlərindən Əbu Bəkr ibn Abdullah ibn Ay-bəg əd-Dəvadari (1331/32-ci ildə ölmüşdür) tərəfindən verilmişdir. Bu məlumat eynilə belədir:

«Mən deyirəm ki, burada bu xalqın zühur, xüruc və işlərinin başlanğıcını izah edim. Bu, məlik baba mənasına gələn (?) «Ulu xan Ata Bitikçi» adlı kitabda onların yaradılışlarının başlanğıcı və ataları haqqında zəif şəriətin

[1] Məcmuə. Təbriz, 1294, s. 396-423. Lakin bu risalənin tam mətni əldə yoxdur.

cəvaz vermədiyi sözlərin qısa bir xülasəsidir. Bu kitabı ilk türklərdən olan monqol və qıpçaqlar özlərindən ayırmazlar və bunun onların nəzərində böyük bir dəyəri vardır; necə ki, digər türklərin «Oğuznamə» adını verdikləri bir kitabları olduğu kimi. Onlar bu kitabı əldən-ələ gəzdirirlər; orada oğuzların işlərinin (tarixlərinin) başlanğıcından və onların ortaya çıxmalarından etibarən gəlib keçən hökmdarlarının ilki və böyüyü Oğuzdan bəhs edilir. «Oğuznamə»də onların Təpəgöz adlandırdıqları bir şəxsin əhvalatı da nəql edilir. Bu Təpəgöz onların yurdlarını dağıtmış və qədim türklərin ulularını öldürmüşdür. Onların inamlarına görə, Təpəgöz eybəcər idi; başının ortasında bir gözü vardı; bədəninə qılınc və ox kar etməzdi; anası ulu dənizin pərilərindən olub, atasının papağı da ancaq on keçi dərisindən tikilmişdi.

Onların bu haqda aralarında bu günə qədər söylənən bir çox sözləri və məşhur hekayələri vardır. Hekayələri və sözləri oğuzlar arasında zəki və qopuz çalmağı bilənlər əzbərləyərlər. Nəhayət, bu Təpəgöz türklər arasında şərəfli və igid kimi tanınmış, Uruz oğlu Basat adlı bir gənc tərəfindən öldürülmüşdür. Buna da yenə onlardan bir qızın qoyduğu şərt səbəb olmuşdur. Bu qızı at minməkdə Uruz oğlu Basatdan başqa heç kim məğlub edə bilməmişdi. Basat bu qızı məğlub edib, onunla evləndi. Basatın atası Uruza oğlunun qızı məğlub etməsi barədə müjdə verildikdə: «Sanki oğlum Təpəgözü öldürmüş kimi danışırsınız» demişdir. Basat adlı gənc bunu eşidincə bir tədbir ilə Təpəgözü öldürdü. Basat ilə Təpəgöz arasında ağla sığmayacaq hadisələr baş vermişdir. Bunlar türklərin xürafələrindəndir»[1].

İbn Dəvadərinin bu sözlərindən belə çıxır ki, onun bəhs etdiyi «Oğuznamə» bizim Dədə Qorqud dastanlarını içinə alan bir kitab imiş. Bu «Oğuznamə» harada yazılmışdır? Heç sanmıram ki, bu kitab Türküstanda yazılsın və oğuzlar tərəfindən Yaxın Şərqə gətirilmiş olsun. Bizim qənaətimizə görə, «Oğuznamə» Şərqi Anadoluda və ya Azərbaycanda yazılmışdır, yazıldığı tarix isə XIV əsrin əvvəlləri olmalıdır. Çünki söyləndiyi kimi, bu zaman elxani sarayı və onun çevrəsinə uyğurca «Oğuznamə» (Oğuz kağan dastanı) ilə Rəşidəddinin «Oğuznamə»sinin yazılmasına səbəb olmuş bir türkçülük şüuru hakim idi. Digər tərəfdən, biz bu dastanları qopuzları ilə oxuyan ozanların monqol xanları və noyonlarının xidmətçiləri arasında vəzifə tutduqlarını bilirik. Ancaq əlimizdəki «Dədə Qorqud dastanları» kitabının İbn əd-Dəvadarinin bəhs etdiyi «Oğuznamə» olmadığı başa düşülür. Adı çəkilən müəllifin Təpəgözü öldürən Basatın dastanı haqqında verdiyi xəbərlər əlimizdəki «Basat dastanı»nda görünməyir. Hətta bizim dastanda Basatın sevgilisi haqqında tək bir söz belə yoxdur. Digər tərəfdən indi bəhs ediləcəyi kimi, bizim dastanlarda bir çox elə sözlər var ki, bunların da bu «Oğuzna-

[1] Dürər üt-tican və gürər üt-təvarix il-əzman. Süleymaniyyə, Damad İbrahim Paşa kitabxanası, № 913, 202 a-b.

mə»də olması mümkün deyildir. İbn əd-Dəvadarinin bildirdiyi bu ən orijinal «Oğuznamə»nin bizə qədər gəlib çatmamasına nə qədər təəssüf etsək azdır.

Əlimizdəki dastanlara gəlincə, bunların biri tam, digəri əskik iki əlyazma üsxəsi vardır. Bu nüsxələrin hər ikisi də eyni nüsxəyə əsaslanır və ya əksik nüsxə tam nüsxədən köçürülmüşdür[1].

Əlimizdəki Dədə Qorqud dastanlarının XV əsrin ikinci yarısında təsbit edilmiş, yəni yazılmış olduğu ümumiyyətlə qəbul edilmişdir. Biz də vaxtilə çıxan kiçik bir yazımızda[2] eyni görüşü müdafiə etmişdik. Ancaq indi zikr edəcəyimiz dəlillər ilə biz bunların XVI əsrin ikinci yarısında bir ozanın ağzından yazıya alındığı fikrinə qəti bir şəkildə gəlmiş oluruq.

a) IV dastanda «Başı Açıq Tatyan qalasından» bəhs edilir. XVI əsrin səfəvi müvərrixi Rumlu Həsən Bəy Başı Açığın müasiri olan gürcü kralı Baqratın ləqəbi olduğunu söyləyir[3]. Başı Açığın üç-beş il sonra Qanuninin təbəəliyini qəbul etdiyi məlumdur[4]. Başı Açıq sözünə daha qədim əsərlərdə rast gəlinməmişdir.

b) Dastanlarda osmanlı dövləti təşkilatındakı mənası ilə paşa, sancaq bəyi kəlmələrinə təsadüf edilir. Paşa[5] və sancaq bəyi[6] adlarının osmanlılardan başqa türk dövlətlərində, o cümlədən qaraqoyunluların və ağqoyunluların əsgəri təşkilatlarında istifadə edilmədiyi məlumdur.

c) Bunlardan başqa alay və göndər (qarğı) kəlmələrinə də təsadüf edilir. Onlardan alay osmanlı dövləti təşkilatındakı mənası ilə istifadə olunur[7]. Sonuncu kəlməni də yalnız osmanlıların işlətdikləri məlumdur. Alay və göndər kəlmələrinin rumca olduğu söylənir.

---

[1] Məhərrəm Ergin. Dədə Qorqud kitabı. Giriş, s. 68. Hər iki nüsxənin tövsifi haqqında yenə buraya bax (s. 64-70). Dədə Qorqud dastanları bizdə üç dəfə nəşr edilmişdir. 1. Kilisli Rifət. Kitabi-Dədə Qorqud ala lisani-taifeyi-Oğuzan. İstanbul, 1332. 2. Orxan Şaiq Gökyay. Dədə Qorqud. İstanbul, 1938 (əsərimizdə ixtisarla: Gökyay). 3. Dr. Məhərrəm Ergin. Dədə Qorqud kitabı. I. Giriş-mətn-fiksimile, (T.D.K.) Ankara, 1958; II. İndeks, qramer, (T.D.K.), Ankara, 1963 (əsərimizdə ixtisarla: Ergin).

[2] Dədə Qorqud kitabına dair bəzi mülahizələr. Türk folklor araşdırmaları, 1952, № 30, s. 467-472.

[3] Eyni müəllif Şah Təhmasibin Gürcüstana səfəri nəticəsində Başı Açığın səfəvi hökmdarının hüzuruna gələrək xələt geydiyini yazır (s. 316). Başı Açıq Qara dəniz sahilində Faş ilə İngər çayları arasında mərkəzi Kutatis olan ərazinin hakimi idi. Başı Açıq eyni əsrin sonlarında Baqratın idarə etdiyi yerin adı olmuşdur (Tarixi-aləmarayi-Abbasi, II, indeks).

[4] «Xüsusən taifeyi-haifeyi-gürcüdən Verze nam ləin ki, anın kibi bidin daima mühərriki-silsileyi-fəsad üsyan və ahəngi-inadiü tüğyandan xali olmayıb, pirayeyi-fəzli-namütənahi olan üməra qullarımdan Başı Açıq məlikin vilayətindən neçə nahiyələri nəhbu qarət və əhalisini qətlü xəsarət eyləyib»... (Firidun bəy. Münşəat üs-səlatin. I, s.625-626).

[5] «Çün inayət tanrıdan oldu, bəyin-paşanın hümməti Qanturalıya oldu» (Gökyay, s 70; Ergin, s. 191).

[6] «Bayındır xan iyirmi dörd bahadır sancaq bəyini Yeynəgə yoldaşlığa belə qoşdu» (Ergin, s. 201).

[7] Ergin, s. 230, 240, 141.

ç) Dastanlardan birində «beş axçalı ülufəçilər» sözü də işlənir ki[1], buna da İrandakı türk dövlətləri təşkilatında rast gəlinməmişdir. Bu xüsuslar dastanların yalnız XVI əsrin ikinci yarısında yazıldığını, həm də eyni zamanda osmanlı hakimiyyəti dövründə yazıldığını göstərir. Bu dastanlar, şübhəsiz, Ərzrumda, Şimali Azərbaycanda və ya Şirvanda yazıla bilərdi. Şimali, həm də Cənubi Azərbaycan və Şirvan 999-1012-ci (1590-1603) illərdə 13 il Osmanlı hakimiyyəti altında olmuşdur. Şirvan ölkəsində XVII əsrin ikinci yarısında da Dədə Qorqud dastanlarının canlı bir şəkildə yaşadığı məlumdur[2]. Bununla bərabər, biz dastanların Ərzurum bölgəsində yazılmış olduğu qənaətinə gəlirik. Çünki:

a) Dastanlarda, bir az əvvəl deyildiyi kimi, Osmanlı dövləti təşkilatına aid bəzi kəlmələr vardır: paşa, sancaq bəyi, alay, göndər, beş axçalı ülufəçilər.

b) Əlimizdəki nüsxələr Osmanlı dövrü Anadolu türkcəsi imlası ilə yazılmışdır.

c) XVI əsrdə Azərbaycan və Şirvanda bu dastanların yazıla biləcəyi səviyyədə türkcə nəsr ədəbiyyatının mövcudiyyətinə dair kafi dəlillər yoxdur.

ç) Bu dastanların XVI əsrin ikinci yarısında Ərzrum bölgəsində qüvvətli bir şəkildə yaşadığını bilirik.

d) Dastanlarda Ərzrum bölgəsi ilə əlaqədar olan yer adları az deyildir: Bayburd, Avnik, Pasın, Qaradərvənd. Bunlara qədimdən bəri Ərzrum bölgəsində yaşayan duxarlı oymağının adını da əlavə etmək olar. Bu oymağın adı III dastanda bir şeirdə çəkilir.

e) Dövrümüzdə belə bu dastanlardan bəzilərinin həmin bölgədə yaşadığı məlumdur.

f) Dastanlarda açıq bir şiəlik təsiri görünmür. Hətta dastanların başında Dədə Qorquda istinadən deyilmiş sözlər arasında xəlifə Osman ibn Əffan ilə peyğəmbərin zövcəsi Ayşənin adı çəkilir, II dastanda da yenə Ayşənin adına rast gəlirik.

Göründüyü kimi, dastanlar «Xanım, hey» xitabı ilə başlayır və xitab edilən xana yum (yaxşı diləklərdə olmaq üçün dua) verilməklə sona çatır. Bu xüsus dastanların bir xana müraciətən yazılmış olduğunu açıqca göstərir. Bunu təsdiq edən başqa bir dəlil də müraciət edənin bir ozan olmasıdır. Həqiqətən, Dəli Domrul dastanının sonlarında belə bir ifadə vardır: «Dədəm Qorqud gəlibən boy boyladı, soy soyladı. Bu boy Dəli Domrulun olsun, məndən sonra alp ozanlar söyləsin, alnı açıq comərd ərənlər dinləsin dedi»[3].

---

[1] Ergin, s. 203.
[2] Dastanlarda bu məsələ ilə əlaqədar digər bəzi xüsuslar üçün «Oğuzlara aid dastani mahiyyətdə əsərlər» adlı yazımıza bax (s. 397-398).
[3] Gökyay, s. 64; Ergin, s. 184.

# DASTAN QƏHRƏMANLARI HARADA VƏ NƏ ZAMAN YAŞAMIŞLAR?

Dastanlarda təsadüf edilən yer adlarından çoxu insanda ilk baxışda qəhrəmanların Şərqi Anadolu və ya Azərbaycanda yaşadıqları barədə təsəvvür yaradır.

Dastanlarda qəhrəmanların mənsub olduqları oğuz elinin vəsfləri isə bunlardır: a) Tam köçəridirlər, b) İç oğuz və dış oğuz olmaqla iki icma halında yaşayır, yaxud üç-ox, boz-ox adları ilə iki qola ayrılırlar, c) Oğuz eli ölkəsində hamılıqla yaylağa və qışlağa gedib-gəlirlər. Hər boy özünə aid bir yurdda yaşayır, oradakı dağlara yaylağa çıxır, ç) Oğuz elinin siyasi bir quruluşu vardır və eli feodal bir əsilzadə sinifi idarə edir, d) Oğuz elinin qoyun ətindən başqa at əti də yediyi və hətta qımız belə içdiyi görünür.

Şərqi Anadoluda və Azərbaycanda heç bir zaman bu vəsflərə malik bir oğuz eli yaşamamışdır[1]. Bəs bu oğuz eli harada yaşamışdır? Orta əsrlər türk tarixi ilə məşğul olan hər kəs bunun cavabını asanlıqla verə bilər: Sır-Dərya boyunda. Həqiqətən, dastanlar birinci hissədə mənbələrin verdiyi imkan ölçüsündə tarixlərini aydınlaşdırmağa cəhd etdiyimiz oğuzlara aiddir. Şərqi Anadolunun və Azərbaycanın tarixi haqqındakı məlumatımız zəruri olaraq bizi belə bir hökm çıxarmağa vadar edir. Bu dastanlar X əsrdəki oğuz elinə, yaxud müxtəlif köçlər ilə sayı azalan, əsasən Qaracıq dağlarında yaşayan XI əsrdəki oğuz elinə məxsusdur. Biz ikinci ehtimala böyük yer veririk. Oğuzlar bu xatirələrini və ya onların dastanlaşmış şəkillərini Yaxın Şərqə gətirdilər. Bunlar burada «Oğuznamə» adı altında yazıldı ki, bu da İbn əd-Dəvadarinin bildirdiyi kitabdır. Dastanlar ozanlar vasitəsi ilə xalq arasında yaşadılırdı. Bunlar, zamanın zəruri qıldığı bəzi təsirlərə uğradıqdan sonra yenidən yazıldı. Hazırda əlimizdə olanlar da bunlardır. Dastanların Sır-Dərya boyundakı oğuz elinə aid olduğu o qədər şübhə doğurmayan bir həqiqətdir ki, bunu təsdiq edəcək başqa dəlillər aramağa belə lüzum yoxdur. Bununla bərabər sırf maraq naminə başqa yerlərdə və dastanların özlərində bu xüsusla əlaqədar bəzi dəlilləri qeyd edirik.

a) Dastanlarda böyük bir mənəvi sima olaraq görünən Dədə Qorqud, bilindiyi kimi, XIV əsrin əvvəllərində elxani sarayında yazılmış «Cami ət-təvarix»dəki «Türklərin tarixi və Oğuzun cahangirliyinin hekayəsi» fəslində də təsvir edilmişdir. Qorqud ata orada Türküstanda yaşamış oğuz övladlarının mötəbər bir dövlət adamı kimi qiymətləndirilməklə yanaşı, onun kəramət ıssı (sahibi) olduğu da göstərilmişdir[2]. Qorqud atanın məzarı da iki yerdə olmaq üzrə Sır-Dərya boyunda göstərilir[3].

---

[1] Bu xüsusda daha artıq izahat üçün bax: F.Sümər. Həmin yazı, s. 403-406.

[2] F.Sümər. Həmin yazı, s. 371-373.

[3] Gökyay, giriş, s. VIII-IX.

b) Dastanlarda, Bayındır xan nəzərə alınmasa, feodal pilləkəninin ilk pilləsində dayanan, yəni bütün oğuz bəylərinin ağası olan Salur Qazan bəyə Əbülqazinin «Şəcəreyi-tərakimə»sinin başlıca mənbələrindən biri olan «Oğuznamə»lərdə əhəmiyyətli yer verildiyi görünür. Əvvəlcə də işarə edildiyi kimi, bu «Oğuznamə»lər bizim dastanlardan ayrı səciyyəyə sahib idilər. Bununla bərabər, hər ikisində də ana ünsürləri eyni olan bəzi müştərək hadisələr təsvir edilir. Məsələn, bu «Oğuznamə»lərdə beçenə (peçeneq) eli başçısı Doymadığın Salur Qazanın atası Enkişin qərargahına basqın etdiyinə, Qazanın qaçdığına, anası Çiçəkli xatunun düşmən tərəfindən aparıldığına, Enkişin üç il sonra Doymadığa naibi ilə mal göndərib arvadını qurtardığına dair bir parça vardır. Hətta bu xatunun ərinin yanına döndükdən altı ay sonra bir uşaq doğmasından son dərəcə qəzəblənən Salur Qazan «Bu uşağı hardan aldın?» deyərək bir dəyənəklə anasının başını yarmışdı[1]. Bizim dastanlarda da kafir bəyi Şöklü Məlik Salur Qazanın yurdunu basaraq, anasını, arvadını və oğlunu dustaq edib götürür.

Yenə Əbülqazinin bu oğuznamələrdən iqtibas etdiyi, Qazan xanın uğurlarını və comərdliyini göstərərək onu öyən diqqətəlayiq bir mənzumə vardır ki, eynən belədir[2]:

Yaz-Qurt dağdın önür[3] daşın yuğarlatdı[*],
Salur Qazan ötrü barıb Karbab tutdı,
İt beçənə görüb anı issi getdi,
Alplar, bəylər, görən barmu Qazan kimi?

Bir qazanğa qırx bir atnın ətin sldı,
Ol qazannı sol əliyi birlən aldı,
Sağ əliyi birlən ilgə üləşdirdi,
Alplar, bəylər, görən barmu Qazan kimi?

Göy asimandan enib gəldi əfi ilan,
Hər adamı udar idi görən zaman,
Salur Qazan başın kəsdi, vermədi aman,
Alplar, bəylər, görən barmu Qazan kimi?

Otuz-qırx min leşkər birlən Qazan varıb,
İt beçənə ellərini bütün qırıb,
Bir neçəsi qurtuldular çöx yalvarıb,
Alplar, bəylər, görən barmu Qazan kimi?

---

[1] Şəcəreyi-tərakimə, s. 70.
[2] S. 65-66.
[3] Bu sözün nə məna daşıdığı qətiyyən başa düşülmür.
[*] Şeir cüzi dəyişikliklə tərcümə edilir (tərcüməçi).

Türk və türkmən, ərəb, əcəm rəiyyətlər,
Qazan etdi müsəlmana tərbiyətlər,
Kafirlərni qırdı bütün, işlədərək çox fürsətlər,
Alplar, bəylər, görən barmu Qazan kimi?

Ondan hünər öyrəndilər barça evli,
Bəziləri onun kimi sağlı-sollu,
Bizə oldu bütün elin ornu, dinli,
Alplar, bəylər, görən barmu Qazan kimi?

Səyyah Qorqud, ağlar qaldın indi, bilgil,
O Qazanın dövlətinə dua qılgil,
Karvan getdi, çox gecikdin, yola çıxgil,
Alplar, bəylər, görən barmu Qazan kimi?

Bu mənzumədə göstərilən Qaz-Qurt dağının Sır-Dərya boyundakı Qaraçıq dağlarının bir hissəsi olduğu daha əvvəl deyilmişdir. Mənzumədə Qazan bəyin göydən enən və hər gördüyünü yeyən bir ilanı öldürdüyü bildirilir. bizim dastanlardakı bir şeirdə də bu ilan öldürmə hadisəsinə işarə edilir:

Yeddi başlı əjdəhaya yetib vardım,
Heybətindən sol gözüm yaşardı,
Hey gözüm, namərd gözüm, müxənnəs gözüm,
Bir ilanda nə var ki, qorxdun, - dedim,
Onda daha ərəm, bəyəm deyü öyünmədim,
Öyünənləri xoş görmədim[1].

Bunlardan başqa, yenə "Şəcəreyi-tərakimə"də Salur Qazanın xatununun adı və vəsfi bizim dastanlarınkının eynidir, yəni "Boyu uzun Burla xatun", Salur Qazanın oğlunun adı Uruzdur (Urus).

c) Dastanlar bizə oğuz elinin yurdu barədə açıq bir fikir vermir. Dastanı oxuyan hər hansı bir adam oğuzların yaşadıqları yer haqqında qəti bir fikrə gələ bilmir. Hətta Qan-Abaza, Gəncə, Bərdə, Tatyan, Başı Açıq, Gürcüstan, Sürməli, Ağca qala, Qara dərə və Əlincə kimi yer adları belə bu xüsusda kömək edə bilməz. Belə ki, orada heç bir zaman gürcülərin əlinə keçməmiş olan Əlincə (Alıncaq) qalası da kafir qalası kimi göstərilir. Xülasə, dastanlardan oğuz elinin yurdu məlum olmur.

Dastanlarda iki yerdə Salur Qazan, bir yerdə Bayındır xan barədə tərifləmələr var. Bu tərifləmələrdə onlar «Türküstanın dirəyi, Qaracığın aslanı,

[1] Gökyay, s. 108; Ergin, s. 237.

Əmət suyunun qaplanı» kimi vəsf edilirlər[1]. Bunlar, göstərildiyi kimi, yalnız təriflәmәlәrdә öz əksini tapan, lakin hadisələrlə əlaqədar olmayan yer adlarındandır. Buradakı Türküstan, heç şübhəsiz, bu adı daşıyan ölkənin özüdür və başqa bir yeri ifadə etmir. Qaracığa gəlinsə, Cizrənin (Cəzirə) cənubunda, Dəclənin qərbində və İraqda Altun körpünün qərbində bu adda dağlar olsa da, dastanlarda bunların deyil, oğuzların Sır-Dərya boyundakı məşhur sıra dağlarının nəzərdə tutulduğu şübhəsizdir. Əmət suyuna gəlincə, bəzi müəlliflər[2] bunun Amid çayı olduğu fikrini irəli sürsələr də, bu iddianın qəbul olunması qeyri-mümkündür.

Çünki dastanlarda Amid «Hamid» kimi getmişdir ki,[3] XV və XVII əsrlərdə Anadolu və İran türkləri də şəhərin adını eyni şəkildə tələffüz edirdilər[4]. İkincisi, türklərin Dəcləyə Amid suyu dediklərinə dair heç bir dəlil yoxdur. Digər tərəfdən, Əmətin XV-XVII əsrlərdə Anadolu və İran türkləri arasında şəxs adı kimi işləndiyini də bilirik[5].

Bu fikri saf-çürük etdikdən sonra Əmət suyunun Türküstan və Qaracıq adları ilə birlikdə çəkilməsini nəzərə alaraq, bu ad altında oğuzların Sır-Dəryada olan yurdlarındakı bir irmağın qəsd edildiyi barədə hökm verilə bilər. Birinci dastanda Qazılıq dağı adlı bir dağdan da bəhs edilir[6]. Şübhəsiz, bu dağ da oğuz yurdundadır. Elə bu adda «Manas» dastanında da bir yer adı çəkilir[7].

ç) Dastanlarda çəkilən şəxs adlarından çoxu XI əsr və daha əvvəlki zamanlarda istifadə olunmuş qədim (arxaik) isimlərdir. Bunlar: Dirsə xan, Burla, Duxa (Duka)[8] Qoca, Domrul, Basat, Bamsı Beyrək, Baybura, Yeynək, Qazılıq Qoca, Büğdüz Əmən, Mamaq, Əlig Qoca, Uşun Qoca, Əyrək, Səyrək, hətta bəlkə də Qazan[9] və Qıyan Səlcuq[10].

---

[1] Gökyay, s. 13, 41, 78.
[2] Məsələn, E.Rossi. İl Kitab-i Dədə Qorqud. Vatikan, 1952, s. 33.
[3] Gökyay, s. 23; Ergin, s. 112.
[4] Bu barədə bir çox mənbə göstərmək mümkün olsa da, biz yalnız bir-ikisinin adını çəkməklə kifayətlənirik: Aşıq Paşazadə, s. 248; Həsən Rumlu, s. 306-307; Tarixi-aləmarayi-Abbasi, I, s. 34, II, s. 1064.
[5] Səfəvi türk bəylərinin bu addan istifadə etdikləri barədə: Tarixi-aləmarayi-Abbasi, II, indeks.
[6] Gökyay, s. 9, 10; Ergin, s. 88, 89.
[7] Gökyay. Giriş s. XXXVII; Rossi, s. 37 və haşiyə 2.
[8] Bu kəlmə Səlcuğun atasının adı (Dukak sözü) ilə əlaqədardırmı?
[9] XII-XV əsrlərdə Anadoluda Qazan (Kazan) adının işlənməsinə dair misallar görünməyir. Yalnız qaraqoyunlulardan Misir Xocanın oğlu Kazan Sultan vardı ki, o da öz adını monqol hökmdarı Qazanın adından götürmüşdü.
[10] Anadoluda XV əsrdə şəxslərə qoyulan Səlcuq adı, hazırda da olduğu kimi, səlcuqluların xatirəsindən doğur.

d) Dastanlarda oğuzların düşmənləri kafir adlanır. Qövm olaraq yalnız «çərkəz» adı, o da bir mənzumədə bir dəfə çəkilir[1]. Ölkə kimi Gürcüstanın adı xatırlanır.

Dastanlarda oğuz igidlərinin yağıları (düşmən) olan kafir bəyləri bunlardır: Şöklü Məlik, Buğacıq Məlik, Qara Tükən Məlik, Qara Aslan Məlik, Dəmir Yaylı Qıpçaq Məlik, Sunu Sandal Məlik, Ağ Məlik Çeşmə, Arşın oğlu Dirək Təkur, Qara Təkur. Bunlardan son ikisi, yəni Arşın oğlu Dirək Təkur dastanda Qara dəniz sahilində olduğu söylənən Düzmürd qalasının, Qara Təkur də Əlincə (Alıncaq) qalasının bəyləridir. Digərlərinin isə qalaları yoxdur, qövmiyyətləri də bildirilmir. Şöklü Məlik dastanların başlıca və əsil ünsürlərindən biridir. O, dastanların dördündə də düşməni təmsil edir və hər dəfə də yoldaşları Buğacıq Məlik və Qara Tükən (yaxud Tökən) Məlik ilə birlikdə ölür. Qıpçaq Məlikə gəlincə, o, Səlcuğun atası Dukak kimi "dəmir yaylı" ləqəbini daşıyır. Qıpçaq Məlikin hadisələr səhnəsində bir rolu yoxdur. Yalnız Qazan bəyin qardaşı oğlu və kürəkəni Qara Budağın ona qan qusdurduğu söylənir. Buradakı Qıpçaq adının bu bəyin mənsub olduğu eli ifadə etdiyinə şübhə yoxdur. Başda Şöklü Məlik olmaqla oğuzların düşmənləri olan bütün kafir bəylərinin adları, göründüyü kimi, türkcədir.

Şük (şök) türk dilində sükunət, ağırbaşlılıq mənasını verməklə, şöklü sakit, ağırbaşlı anlamlarını ifadə edir. Lakin bu xüsus nə olursa-olsun, qəti olaraq bildiyimiz şey Şöklünün türklər arasında ad kimi işlədilməsidir. 1071-1072-ci illərdə Suriyanı tutan oğuz (türkmən) bəylərindən biri bu adı daşıyırdı[2].

Nəticə olaraq oğuzların dastanlarda kafir kimi təsvir edilən düşmənləri, onların tarixi düşmənləri olan qıpçaqlardan başqa heç kim deyildir. Yuxarıda adı çəkilən Dəmir Yaylı Qıpçaq Məlik sözü də bunun üçün mühüm bir dəlildir. Adları türk sözlərindən olan və bəziləri məlik ünvanı ilə göstərilən kafir bəyləri də qıpçaqların başbuğlarıdırlar. Qıpçaqların oğuzlardan çox sonra, ancaq XII əsrin ikinci yarısından etibarən islam dinini qəbul etməyə başladıqlarını bilirik.

e) Dastanları yaradan və onun dairəsini əhatə edən oğuz eli çox qədim zamanlarda yaşamış bir xalqdır. Onlar, deyəsən, qəhrəmanların peyğəmbər dövründə yaşadıqlarını zənn edirdilər[3]. Əbülqazinin əsərindən öyrənirik ki,

---

[1] Qazan bəy Tumanın qalası zindanına dustaq düşdüyü zaman kafirlər ondan özlərini tərifləməsini tələb edirlər. Qazan bəy də bu sözlərlə (başlayan bəndlə) onlara istehza edir:

İt kimi küv-küv edən çərkəz xırslı,
Kiçicik donuz şölənli,
Bir torba saman döşəkli,
Yarım kərpic yastıqlı» (Ergin, s. 238).

[2] Sibt ibn ül-Cövzi. Mirat üz-zaman. Türk-islam əsərləri muzeyi kitabxanası, № 2134, 21 a.

[3] Bunu göstərən bəzi ifadələr bunlardır: «Oğuz zamanında bir igid ki, evlənsə oh (ox) atardı; Uşun Qoca derlər, bir ər var idi» (Gökyay, s. 32, 93; Ergin, s. 184, 225).

türkmənlərin «Oğuznamə»lərində də bu şəkildə bir zənn etmə vardır. Lakin onlarda da əsil hakim qənaət Qorqud ata və Salur Qazanın peyğəmbərdən 300 il sonra, yəni X əsrdə yaşadıqları rəvayəti idi. Rəşidəddindəki fəsildə Qorqud ata və ya onun atası Gəzəncükün Məkkəyə gedib peyğəmbəri ziyarət etdiyi söylənir[1].

## 3. QƏHRƏMANLARIN MÜSƏLMANLIĞI

Dastanlarda qəhrəmanlar bizə müsəlman olaraq təqdim edilir. «Şəcərey-i-tərakimə»dəki «Oğuznamə»lərdən alınmış parçalarda da Salur Qazan müsəlman kimi təsvir edilir və onun bu dinə xidmət etdiyi də bildirilir. Dastanlarda iştirak edən şəxslərdən ancaq üçü türkcə adlar daşımır. Bunlar: «dəstursuzca Bayındır xanın çərisini məğlub edən» Qəflət Qoca oğlu Şir Şəmsəddin, ikincisi «iki qardaş bəbəyin öldürüb zəlil gəzən» Düzən oğlu Alp Rüstəm, üçüncüsü də «qırx oynaşlı» Boğazca Fatma. Bu üç isimdən ilk ikisinə həsr olunmuş ayrıca dastanlar olmasa da, adları tez-tez çəkilir; ikisinin də ata adları verilir. Hətta Düzən oğlu Alp Rüstəmin boz-oxlardan olduğu da bilinir. Bu səbəblə ələlxüsus bu son iki adın dastanlara sonradan daxil edildiyini iddia etmək bizə çətin gəlir. Hər halda dastanların XI əsrdəki oğuzlara aid olduğunu qəbul etsək, bu məsələ də həll edilmiş olar. Yəni belə olduqda qəhrəmanların müsəlman olduqlarına inanmaq olar.

## 4. DASTANLARIN MÖVZUSU

Bilindiyi kimi, əlimizdəki «Dədə Qorqud» kitabında 12 dastan vardır. Bu on iki dastandan ikisinin, yəni «Dəli Domrul» və «Basat» dastanlarının mövzusu qəhrəmanların fövqəl-təbii varlıqlarla mübarizəsidir. Digər bir dastanda qəhrəman (Qanturalı) silahsız olaraq buğa, aslan və buğra kimi heyvanlarla vuruşur. Başqa dastanların bəzilərində nağıl ünsürləri olsa da, bu ünsürlər həm azdır, həm də hadisələrin gedişində əhəmiyyətli sayıla biləcək təsirə malik deyildir.

Bu on iki dastandan I, IV və VI dastanlarda, yəni Dirsə xan oğlu Buğac, Dəli Domrul və Qanturalı dastanlarında, hadisələr səhnəsində yalnız qəhrəmanlar və onların yaxın adamları (ailə üzvləri və yoldaşları) iştirak edirlər. Digər dastanlarda isə səhnədə qəhrəmanla birlikdə adı-sanı bəlli, siyasi mövqeləri dəyişməyən bir qrup bəy də iştirak edir. Ona görə də bu dastanlarda səhnə qələbəlik, dekor daha zəngindir. Dastanlardan hər birinin qəhrəmanı adı-sanı bəlli, siyasi mövqeləri dəyişməyən bəylərdən biridir.

---

[1] F.Sümər. Həmin yazı, s.371. Dastanlarda igidlərdən Büğdüz Əmən haqqında: «Gedib peyğəmbərin üzünü görən, gəlibən Oğuzda əshabəsi olan» deyilir (Gökyay,s.23; Ergin, s.113).

Fövqəltəbii varlıqlarla döyüşən qəhrəmanlardan biri Dəli Domruldur. Domrul Duxa (Duka) Qocanın oğludur; yəni bütün qəhrəmanlar kimi, atasının adı bəllidir və yenə onlar kimi bir bəydir. O, ürəyi təmiz, qoçaq və erkən parlayan bir şəxs olduğu üçün ona dastanlardakı bəzi qəhrəmanlar kimi dəli ləqəbi verilmişdir[1]. Domrul bir qurumuş çayın üstündə saldığı körpüdən keçənlərdən biləyinin gücünə arxalanaraq bac alır. Hətta körpüsündən keçmək istəməyənləri belə xərac almaq üçün körpüdən keçməyə məcbur edir. Beləliklə, tarixi Dəli Domrulun şəxsiyyəti budur. Eldaşları arasında şöhrəti və xatirələrdə yaşaması da buradan, yəni körpüsü başında və ya öz yurdundan (torpaqları) gəlib keçəndən xərac almasından gəlir. Aradan zaman keçdikcə Duxa Qocanın oğlunun adı təxəyyül süzgəcindən keçmiş, özündən başqa igid, alp olmadığını sanan Dəli Domrulun qarşısına onu məğlub edə biləcək Əzrayıl çıxarılmış və beləcə Dəli Domrul dastanı meydana gəlmişdir.

İbn Fədlan[2] 921-ci ildə böyük bir karvanla oğuz yurdunu keçərkən, bir oğuz onların qabağını kəsmiş, ancaq istədiyini aldıqdan sonra karvanın hərəkət etməsinə icazə vermişdir.

Təpəgöz adlı qorxunc və fövqəltəbii varlıq ilə vuruşan Basata gəlincə, o, oğuz elinin boz-ox, yaxud dış oğuz qolunun başçısı Aruz Qocanın kiçik oğludur; Qıyan Səlcuqlu isə böyük qardaşıdır. Basatın rolu sadəcə öz adını daşıyan dastanla məhdudlaşmır, onun adı sonuncu dastanda da çəkilir. Basat bu qardaş qırğınında, yəni üç-ox (iç oğuz) və boz-ox (dış oğuz) arasında düşmənçilik yarandığı vaxt, atası Aruz qocanın öz ağası Qazana qarşı üsyan qaldırdığı əsnada qorxunc bir şəxsiyyət kimi meydana çıxır. Bəylərbəyi Salur Qazanın inağı boz ayğırlı Beyrək yaranan düşmənçilik nəticəsində Basatın onun yurdunu basıb, hər şeyi əlinə keçirəcəyindən təşvişə düşmüş və qorxmuşdur[3]. Basatın oğuzların düşmənlərinə qarşı da şücaət göstərməsi barədə heç nə bilmirik. Böyük qardaşı Qıyan Səlcuğun Təpəgöz ilə vuruşmada ödü partlayıb öldüyü söylənilir[4]. Basat da əslində qardaşının qisasını almaq üçün Təpəgözlə vuruşmağı qərara alır. Təsəvvür etmək mümkündür ki, Təpəgöz bəlkə də əslində oğuzlara böyük ziyanlar vurmuş, itkilər verdirmiş bir düşməni təmsil edir. Yəni Təpəgöz bu ləqəbi daşıyan qıpçaqlardan bir düşmən başbuğu ola bilər[5]. O, basqınlar ilə oğuzları, əsasən, boz-oxları qorxunc məğlubiyyətlərə uğratmış, Basatın böyük qardaşı Qıyan Səlcuq, Arıq Can-

---

[1] Dastanlarda qorxu nə olduğunu bilməyən, qoçaq, ancaq mərd adamlara dəli deyilir. Osmanlı dövründə də belə şəxslər üçün eyni terminden istifadə edilmiş və axınçılar kimi sərhədlərdə dayanan, gözüaçıq gənclərdən mütəşəkkil əsgəri süvari zümrəsinə dəli adı verilmişdir. Bu əsgəri zümrə haqqında: İ.H.Uzunçarşılı. Osmanlı tarixi. Ankara, 1949, II, s.564.

[2] Toğan nəşri, s. 14, əd-Dehhan nəşri, s. 98.

[3] Gökyay, s. 117; Ergin, s. 249.

[4] Gökyay, s. 84; Ergin, s. 209-210.

[5] Məmlük əmirlərindən birinin Təpəgöz ət-Tuğrili adını daşıdığı məlumdur (Məkrizi. Kitab üs-süluk. Qahirə, s. 940).

dan (iki qardaşı ilə), Dəmir Donlu Mamaq, Düzən oğlu Alp Rüstəm və Uşun Qoca kimi bəylər baş verən döyüşlərdə ölmüşlər. Basat sonra Təpəgözü məğlub edib öldürür, qardaşının və eldaşlarının qisasını alır. Aradan zaman keçdikcə Təpəgözün bu ləqəblə yad edilməsində bəlkə xarici bir təsirin də rolu olmuş, o, fövqəltəbii bir varlıq olaraq təsəvvür edilmişdir.

Birinci dastan, yəni Dirsə Xan oğlu Buğac boyuna gəlincə, burada əsas mövzu yoldaşlarının xəyanətinə uğramış, onlar tərəfindən özü və ailəsi tutularaq kafir əllərinə aparılan bir bəyin (Dirsə xan) oğlu Buğac tərəfindən xilas edilməsindən danışılır. Göründüyü kimi, bu dastanın mövzusu hər yerdə, hər zaman baş verə bilən bir hadisədir; qeyri-adi bir tərəfi yoxdur.

İndiyə qədər haqqında danışılmayan, bizim üçün diqqətəlayiq və üzərində dayanmağa lüzum duyulan sonuncu və ikinci dastanlardır. Sonuncu dastanda mövzunun gerçəkliyi o qədər aydındır ki, onu oxuyarkən, insan özünü tarixi bir əsərin səhifələri qarşısında sanır. Mövzunun izahı da çox gözəl və canlıdır. Bu dastanın qısa məzmunu belədir: bəylərbəyi Qazan tabeliyində olan üç-ox və boz-ox bəyləri yığınaq olanda evini yağmaladardı. Ancaq son dəfə evini boz-ox (dış oğuz) bəylərinin olmadığı bir zamanda üç-oxlara (iç oğuz), yəni öz qoluna yağmalatdı. Onun nə üçün belə hərəkət etməsinin səbəbi aydın deyildir. Qazanın evini özlərinin olmadığı bir zamanda yalnız üç-oxlara yağmalatması boz-oxların başçısı, Qazanın dayısı Aruz Qocanın və onun tabeliyində olan başqa bəylərin hiddətinə səbəb olur. Onlar Qazanın düşərgəsinə getməyərək, tabelik vəzifəsini ifa etmədilər. Aruz Qoca Qazana qarşı düşmənliyini açıq bildirdikdən sonra tabeliyində olan boz-ox bəylərini yanına oxuyub, indən belə ona baş əyməyəcəkləri haqda (asi olduqları) Qazana xəbər göndərəcəyini söylədi və bu barədə onların nə düşündüklərini soruşdu. Onlar «nə deyəlim, çün sən Qazana düşmən oldun, biz də düşmanız» dedilər. Aruz Qoca bəylərə Qazanın inağı Beyrəyin boz-oxlardan qız aldığı üçün onların kürəkəni olduğunu, buna görə də öz sıralarında ona yer verilməsini, qəbul etmədiyi təqdirdə öldürülməsini təklif etdi. Beyrək bir hiylə ilə çağırılmış, ona öz tərəflərinə keçmək təklif olunmuş, onun bu təklifi qəti surətdə rədd etdiyini gördükdə Aruz Qoca onu qılıncla ağır yaralamışdır. Beyrək evinə götürülsə də aldığı yaradan ölmüşdür. Bunu bilən Qazan çox kədərlənmiş, günlərlə divana çıxmamış, qüssə içərisində dolaşmış, sonra çox sevdiyi inağının qisasını almaq və Aruzgili yenidən öz itaəti altına salmaq üçün hərəkətə başlamışdır. Qazan Aruz Qoca ilə təkbətək bir vuruşmada onu məğlub etmiş və öldürmüşdür. Bundan sonra digər boz-ox bəyləri Qazanın əlini öpərək, ona baş əymişlər. Qazan onların günahlarını bağışlamış, Aruz Qocanın ordasını dağıtmış və elini-gününü (yəni orda xalqını və boyunu) yağmalatmışdır. Göründüyü kimi, bu dastanın məzmunu kədərlidir. Çünki qardaş qırğınından bəhs edir. Bu qırğında yaraşığı, igidliyi və gözəl əxlaqı ilə «Oğuzun imrənçəsi» ləqəbini qazanmış Beyrək ölmüş, boz-oxların

başçısı Aruz da bacısı oğlu tərəfindən öldürülmüş və hər şeyi çapılıb talan edilmişdir.

Burada Beyrəyi öz tərəflərinə çəkmək üçün göstərilən səbəb, yəni onun boz-oxlardan qız almış olması şübhə doğurur, bu fikrin doğruluğuna inana bilmirik. Çünki iki qol da bir-birindən qız alıb-verirdi. Beyrək yaralanıb öz ordasına döndükdən sonra belə Aruz Qocanın oğlu Basatın düşərgəni basacağından çox qorxuya düşür. Lakin hadisələrdə Basatın hər hansı bir hərəkətindən bəhs edilmir.

Bu sonuncu dastan bəlkə ikinci dastandan əvvəl olmalı idi. Çünki ikinci dastanda boz-oxların başçısı artıq Aruz Qoca deyil, nəvəsi Qıyan Səlcuq oğlu Dəli Dundardır. Sonra gələn dastanlarda da daima Dəli Dundarın adı çəkilir. Bunun kimi Qazanın naibi Qılbaş da bu hadisədə sağdır. Lakin o, ikinci dastanda Şöklü Məliyin Qazanın ordasına etdiyi basqında ölmüşdür[1].

İkinci dastanın qısa məzmunu belədir: Qazan bəyləri ilə ova getdiyi zaman düşmən Şöklü Məlik basqın edərək Qazanın böyük ordasını dağıtmış, naibi Əlig Qoca oğlu Qılbaş ölmüş, oğlu Uruz, arvadı Burla xatun və anası əsir alınıb götürülmüşdür. Bundan xəbər tutan Qazan Şöklü Məliyin üzərinə hücum etmiş, bəylərin köməyi ilə düşməni məğlub edib, oğlunu, xatununu, anasını, xəzinəsini geri almışdır. Bu dastanın da bizə olmuş bir hadisəni xəbər verdiyini zənn edirik. Yəni düşmən başbuğlarından Şöklü Məliyin Qazanın ordasını basıb yağmalaması bir gerçəyə bənzəyir. Lakin basqın zamanı Qazan ordasının içində idi, yaxud başqa yerdə idi?! Bu barədə heç bir şey söyləmək mümkün deyil.

Yuxarıda da qeyd edildiyi kimi, «Şəcəreyi-tərakimə»də peçeneq elinin başbuğu Doymadığın Salur Qazanın atası Enkişin ordasına basqın etdiyini, Enkiş və Qazanın qaçdığını, Qazanın anasının əsir edilib aparıldığını, Enkişin naibi ilə mal göndərərək arvadını xilas etməsini göstərən bir rəvayət vardır. Bu rəvayətdə olduğu kimi, Qazanın mal göndərərək yaxın adamlarını qurtarması da ehtimal edilə bilər. Ancaq Qazan bəy sonra parlaq bir zəfər qazanaraq, bu basqının qisasını almışdır. Bu dastan ilə «Şəcəreyi-tərakimə»dən nəql etdiyimiz mənzumə Salur Qazan bəyin bu şanlı qalibiyyətini əks etdirir. Dastanların qəhrəmanları əsilzadə təbəqəsinə mənsub şəxslər, yəni bəylərdir. Səhnədəki şəxslər arasında sadə xalqdan heç kim görünmür. Yalnız ikinci dastanda Qazanın Qaraçuq adlı çobanı istisna təşkil edir. Bu çoban ağasının sürüsünü düşmənlərdən fədakarcasına qorumuş və hətta onun qardaşları Qıyan Gücü, Dəmir Gücü bu uğurda ölmüşlər. Əlavə olaraq Qaraçuq çoban Qazan bəyin Şöklü Məlik ilə döyüşlərində də igidlik göstərmişdir.

Qazan da Qaraçuq çobanın göstərdiyi fədakarlıq və igidliyə laqeyd qalmayaraq onu əmir-axur təyin etmişdir. Bu igid çobanın daşıdığı adın ünlü

[1] Gökyay, s. 14; Ergin, s. 97.

Qaraçuq dağlarından alınması ehtimalı böyükdür. Türklərin coğrafi isimləri uşaqlarına ad olaraq qoymaları islam müəlliflərinə də məlum olan yayılmış bir ənənə idi.

## 5. QƏHRƏMANLAR

Dastanların qəhrəmanları Oğuz elinə mənsubdurlar. Bu el əksər hallarda «qalın» qələbəlik, güclü, bəzən də «qanlı» (ehtimal ki, döyüşkən, yaxud qisasını alan) sözlərilə vəsf edilir.

Oğuz elinin daimi yaşadığı bir yurdu vardı. Yəni bu el yurd dəyişdirmirdi. O öz yurdunda tam köçəri bir həyat sürməkdədir: ancaq toplu bir halda köçüb qonur, yəni el halında yaylaqdan qışlağa gedib-gəlir. Açıqca başa düşülür ki, bəylərdən hər birinin boyu ilə birlikdə yaşadığı bir yurdu vardı. Bəy öz boyu ilə birlikdə bu yurdunun dağ və ya dağlarında yaylağa çıxır, irmaq, çay boyu kimi əngin və alçaq yerlərində isə qışlayırdı.

Bu el üç-ox və boz-ox adları ilə iki qola ayrılırdı. Üç-oxlara eyni zamanda iç oğuz, boz-oxlara isə daş (dış) oğuz deyilirdi. Bu sonuncu sözlərdən də başa düşüləcəyi kimi, hər iki qol biri-birinə qarışmayaraq ayrı iki icma halında yaşayırdı. Hətta iç oğuzlarla dış oğuzların yurdları arasında xeyli böyük bir məsafənin olduğunu təsəvvür etmək mümkündür. Üç-oxların boz-oxlar üzərinə gecə, gündüz, vaxt-bivaxt yürüdüklərini söyləmək mümkündür[1]. Üç-oxlara iç oğuz deyilməsi siyasi hakimiyyətin onların əlində cəmlənməsilə əlaqədar olmalıdır.

## 6. İQTİSADİ HƏYATLARI

Feodal oğuz əsilzadəsi olan qəhrəmanların çox varlı insanlar olduqları görünür. Bəybecan, Baybura kimi bəzi bəylərin adlarının başında bəy kəlməsi vardır ki, bu bəlkə onların sərvət sahibi olmaları ilə bağlı bir sifətdir. Köçəri bir həyat sürdükləri üçün oğuzların başlıca sərvətlərini heyvan sürüləri təşkil edirdi.

Yetişdirdikləri başlıca heyvanlar qoyun, at və dəvədir. Verilən toylarda dolayısıyla at və dəvə əti yeyildiyi bildirilsə də, onların həmişə yedikləri ət qoyun əti idi. Qoyunları da lap çox olub, bunlar haqqında tümən, yəni on min sayısı tez-tez təkrarlanır. Dəvəyə sadəcə bir nəqliyyat vasitəsi (yükdaşıma) gözü ilə baxılırdı[2].

At isə onların dastanlarındakı təbirilə «binit»ləri idi. Dastanlarda bəylərin zənginliyi haqda söylənən sözləri mübaliğəli hesab etmək lazım deyil. İbn Fədlanın oğuzların varlı olduqlarını, aralarında 100.000 qoyunu və

[1] Gökyay, s. 114; Ergin, s. 250.
[2] Gökyay, s. 7, 11, 12.

10.000 dəvəsi olanları gördüyünü yazdığı barədə daha əvvəl məlumat vermişdik.

Köçəri bir həyat sürən qəhrəmanlar əsasən qoyun əti yeyirdilər. Qoyunun «ağca qoyun» cinsinə daha yüksək qiymət verilirdi. Qoyun üçün şişlik sözü işlədilirdi. Bu sözlə qoyundan çevirmə kabab bişirilməsi göstərilir. Qoyun ətindən hazırlanan «yəxni» yeməyinin də adı çəkilir[1]. Türkiyədə yəxni bu gün də məşhurdur. Yenə dastanlarda əkməkdən (çörək) başqa köməç kəlməsi də işlənir[2]. Köməç külə basdırılaraq hazırlanan çörək və ya yumşaq çörəyə deyilirdi. Köməç həmin mənada Kaşğaridə göründüyü kimi, farsca əsərlərdə də işlənmişdir. Bu gün Anadoluda hələ tanınan və hazırlanan köməcə bəzi yerlərdə gömmə, yaxud kömbə də deyilir[3].

Dastanlarda oğuz bəylərinin müxtəlif vəsilələrlə etdikləri toylarda atdan ayğır, dəvədən buğra və qoyundan qoç kəsilərək təpə kimi ət yığılır və göl kimi qımız sağılırdı[4]. Burada at əti, hətta dəvə əti yeyilməsini, qımız içilməsini biz məhz Sır-Dərya oğuzlarına aid edə bilərik. Anadolu və İrana gələn oğuzların burada da əvvəllər olduğu kimi, at əti yeməyə və qımız içməyə davam etdiklərinə dair əlimizdə tutarlı dəlillər yoxdur. Bilindiyi kimi, türkmənlərin mənsub olduqları hənəfi məzhəbinin at əti yeməyə icazə verməməsi,[5] qonşu müsəlman xalqlarının da at əti yeməməsi və nəhayət, əvvəllər olduğu kimi çoxsaylı ilxılara sahib olmadıqları üçün onlar at əti yemək və qımız içmək adətlərini tərgitmişlər.

Göründüyü kimi, oğuzlar adı çəkilən heyvanların erkək və cavan olanını yeyirmişlər. Sığır əti haqqında isə heç nə söylənilmir. Halbuki bəzi əsərlərdə onların sığır saxladıqları yazılır. Dastanlarda türklərin milli yeməkləri olan tutmacın adı çəkilmir. Halbuki bu yeməyi oğuzlar bilirdilər. Səlcuqlu Toğrul bəyin Xorasanda olarkən bir məclisdə yediyi badam halvası haqqında «yaxşı tutmaç imiş, ancaq sarımsağı əskikdir» dediyindən əvvəlcə bəhs edilmişdir. Tutmacın Türkiyə səlcuqlularında[6] və Osmanlı saraylarında da yeyildiyini[7], bu gün Anadolunun bir çox yerlərində hazırlandığını bilirik.

Kaşğari[8] tutmacın hamı tərəfindən (yəni başqa ölkələrdə də) tanınan bir türk xörəyi olduğunu söyləyir. Bu yemək oğuzlar və digər türklər tərəfindən

---

[1] Ergin, 78, 145, 203.
[2] Ergin, s. 141.
[3] Atalay, I, s. 36.
[4] Ergin, s. 80, 81, 86.
[5] Hənəfi fiqh kitablarına görə (məsələn: Müxtəsər üt-təhavix. Qahirə, 1370, s. 132-434), at əti yeyilməsi məkruhdur. Şəfai məzhəbi isə at əti yeyilməsini məqbul saymışdır (Həmdullah Müstövfi. Y.Stepenson nəşri, London, 1928, s. 141).
[6] İbn Bibi. Houtsma nəşri, s. 306. Burada tutmacın sərxoşluğu dəf etmək xüsusunda da bir amil olduğu söylənilir.
[7] Süheyl Ünver. Fateh dövrü yeməkləri. İstanbul, 1952, s. 27.
[8] Atalay, I, s. 452; [Ramiz Əskər, I, s. 442].

Yaxın Şərq ölkələrinə gətirilmişdir. İranlılar və ərəblər də onu tanımışlar, həm də bu yeməyin adı fars və ərəb dilində olan başlıca lüğət kitablarına da düşmüşdür[1].

Şirazlı Əbu İshaq Həllacın «Divani-etimə»sində türklərə aid bir çox yeməklərin adı çəkilir: tutmaç, köməç, güllaç, çörək, buğra, qıyma, umac, qatıq, çağır, qovud. Ayrıca börək və manti (mantu) adı ilə tanınmış içki növündən də bəhs edilir. Buğra da çox yayılmış bir türk xörəyidir, bunu Buğra xan adlı bir türk hökmdarının icad etdiyi söylənir[2]. Yenə oradakı köməç, güllaç, çörək, umac, bulamac və digərlərinin bu gün Türkiyədə hazırlandıqları bizə məlumdur. Tutmaç ən sevilən və ən məşhur yeməklərdən biri kimi Əbu İshaqın divanında tez-tez xatırlanır. Hətta orada tutmaca aid müstəqil bir mənzumə də vardır[3].

Kaşğarinin və Əbu İshaqın tutmaç haqqındakı sözləri yeməyin hazırlanmasının mahiyyət etibarı ilə dəyişməyərək günümüzə qədər gəldiyini göstərir. Tutmaç bu gün Tokat, Sivas, Amasya, Çorum, Ankara, Yozqat yörələrində və əfşarlar arasında hazırlanır. Xəmir yuxa şəklində, ancaq bir az qalın (bir millimetr yarıma qədər) açılır, sac üzərində xəfif bişirildikdən sonra üçbucaq və ya paxlava şəklində kəsilir, hasil olan parçalar isti suda xaşlanır, bişirilmiş yaşıl mərcimək ilə qarışdırılır və bunun içinə sarımsaqlı qatıq qatılır, bu işlər görüldükdən sonra üzərinə içində qıyma olan dağ edilmiş yağ tökülür. Onun üzərinə də yaşıl, yaxud quru nanə səpilir. Yemək Kaşğarinin də söylədiyi kimi, sulu olur. Görünür ki, tutmacın təfərrüatlı bir hazırlanması vardır, gerçəkdən lözzətli və kalorili bir xörəkdir. Yalnız tutmaç, Kaşğarinin işarə etdiyi və yuxarıdakı əməliyyatdan göründüyü kimi, ağır həzm olunan bir xörəkdir.

## 7. SİYASİ TƏŞKİLAT

Dastanlardakı oğuz elində feodal səciyyəli bir siyasi quruluş nəzərə çarpır. Hər bəyin özünə aid və üzərində yalnız özünün hakim olduğu bir ərazisi var. Bəylər yurdlarındakı ordalarında yaşayaraq, başında durduqdarı boyu idarə edirlər. Onların ən yaxın əyanları oğul, qardaş kimi əqrəbalarından təşkil olunurdu.

Dastanlarda döyüşlərdə iştirak edənlərə çuldudan (ərməğan) başqa qələbə ölkə (dirlik) verildiyi qeyd edilir. Oğuzlarda timar sistemi, yaxud ona bənzər bir sistemin olduğunu təsəvvür etmək çətindir. Buna görə «qələbə ölkə» ifadəsi dastanların yazıldığı dövrə aid bir xüsus ola bilər.

---

[1] Yaddaşthayi-Qəzvini. İrəc-Əfşar nəşri. Tehran 1334 ş., s. 37-39.

[2] Bu yemək haqqında F.Sümər. Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 376 və haşiyə 64.

[3] Əbu İshaq Həllac. Divani-etimə. İstanbul, 1303, s.10, 22-23, 44, 57, 58, 74.

Bəylərin ağaları öz qol bəyləridir. Üç-oxların qol bəyi eyni zamanda boz-ox qolu bəyinin də rəhbəridir. O bu sifətlə bəylərbəyi ünvanını daşıyırdı.

Bəylərbəyinin ağası isə xan, yəni hökmdardır. Əyanların vəzifəsi ağalarını ziyarət və onların çağırışlarına itaət etmək idi. Bayındır xanın sərhəd bəyi olan Bəkil hər il Bayındır xanın divanına gələr və ona gətirdiyi hədiyyələri təqdim edərdi[1]. Boz-ox başbuğu Aruz məiyyətində öz qolunun bəyləri olduğu halda bəylərbəyi Salur Qazanı ziyarət edirdi. Rəhbərlərin vəzifələrinə gəlincə, onlar tabeliklərindəkiləri vəzifəyə təyin etməli, yanlarına gələnləri, yaxud çağırılanları ənənələrə uyğun olaraq qarşılamalı, eyni səviyyədəki adamlara eyni rəftar göstərməli, onların heysiyyətinə toxunacaq, qəlblərini qıracaq heç bir davranışa yol verməməli idilər.

Xanlar xanı Bayındır xan ildə bir dəfə ziyafət verərək bütün oğuz bəylərini qonaq edərdi[2]. Salur Qazan da ildə bir dəfə bütün tabeliyindəkilər toplaşdıqları zaman yağmalı bir toy verir, toydan sonra bəylər onu salamlayaraq yurdlarına qayıdırdılar. Ancaq bəylərbəyi Qazan son dəfə məlum olmayan səbəbə görə, yağmalı toyunu boz-oxların iştirakı olmadan, yalnız üç-oxlarla, yəni öz qolunun bəyləri ilə keçirmişdi. Qazan bəyin bu hərəkəti boz-ox bəylərini, xüsusən bu qolun başçısı Aruzu hiddətləndirmiş və hətta ona düşmən etmişdi. Bəylərbəyi Qazan öz dayısı, ancaq tabeliyində olan Aruzun bəylərilə birlikdə onu ziyarət etməməsinə təəssüflənmişdi. Vəziyyəti aydınlaşdırmaq üçün Aruzun yanına gedən naibi Sarı Qılbaş Aruzun Qazanı öz ağası hesab edib-etmədiyini öyrənmək məqsədilə bəylərbəyinin düşmən hücumuna məruz qaldığını və onu köməyə çağırdığını bildirmişdi. Lakin Aruz Qazanın öz evini, qaydanın əksinə olaraq, yalnız üç-oxlara yağmalatdırdığı üçün yardıma gəlməyəcəyini, üstəlik, bəyləri ilə birlikdə ona düşmən olduğunu söyləmişdi. Qılbaş Qazanın üzərinə heç bir düşmən hücumu olmadığını, bunu Aruzun Qazana bəslədiyi münasibəti öyrənmək məqsədi ilə özü uydurduğunu bildirib getmişdir. Bundan sonra Aruz bəylərini öz yanına oxuyaraq toy şənlikləri keçirmiş, hörmət göstərmiş və axırda belə demişdi: «-Bəylər, mən sizi niyə çağırdım, bilirmisiz? Ayıtdılar: -Bilməziz. Aruz aydır: -Qazan bizə Qılbaşı göndərmiş, elim-günüm çapıldı, qara başım bunlu oldu, dayım Aruz yanıma gəlsin demiş. Əmən aydır: -Ya sən nə cavab verdin? Aruz aydır: -Qılbaşa ayıtdım ki, qaçan Qazan evin yağmaladır idi, daş oğuz bəyləri belə yağmalarıdı, bəylər gəlib Qazanı salamlar, gedər idi, şimdi suçumuz nə oldu kim, belə bulunmadıq, mərə qavat, biz Qazana düşməniz, dedim. Əmən aydır: -Eyü demişsən. Aruz aydır: -Bəylər, ya siz nə dersiz? Bəylər aydır: -Nə deyəlim, çün sən Qazana düşmən oldun, biz də düşməniz, dedilər. Aruz araya müshaf gətirdi, həp bəylər əl vurub, and içdi-

[1] Gökyay, s. 91; Ergin, s. 216.
[2] Gökyay, s. 3; Ergin, s. 77.

lər: -Sənin dostuna-dost, düşməninə-düşməniz dedilər. Aruz cümlə bəyləri xələtlədi»[1].

Sonuncu dastandan aldığımız bu parça oğuz əsilzadə sinifindəki tabelik və rəhbərlik münasibətlərini çox gözəl ifadə edir. Aydın olur ki, boz-ox bəylərinin tabelik xüsusunda doğrudan-doğruya Qazanla bir münasibətləri yoxdur. Onların rəhbəri öz qolbaşları Aruz Qocadır. Qazan da yardımı yalnız ondan istəmişdir. Rəhbərin tabeliyində olandan yardım istəməsi təbii bir haqq idi. Beyrək də Aruz Qoca oğlu Basatın ordasına hücum edəcəyindən vahiməyə düşərək Qazandan kömək istədiyi kimi, ona qılıncla zərbə endirib, ölümünə səbəb olan Aruz Qocadan qisasının alınmasını da bəylərbəyinə vəsiyyət etmişdir. Oğuz elinin hüdud bəyi Bəkil də düşmənin hücuma keçəcəyini öyrənərək Qazandan kömək istəməyi qərara almışdı. Aruz Qocadan sonra boz-oxların başında nəvəsi Qıyan Səlcuq oğlu Dəli Dündar dayanır. Dəli Dündar haqqında «Qazan kimi pəhlivanı bir savaşda üç kəz atından yıxan» deyilməsi[2] iki böyük bəy arasında da bir çarpışmanın baş verdiyini göstərir.

Qazılıq Qoca oğlu Yeynəyin də böyük bəylərdən biri olduğu görünür. Yeynəyin dastanında atası Qazılıq Qocanın Bayındır xanın vəziri olduğu bildirilir, özü də bəzən bəylər başı kimi vəsf olunur və qalın oğuz bəylərini bir-bir atından yıxdığı[3], Qazana «keşiş» dediyi də yazılmışdır[4]. Bu sözlər Yeynək ilə Qazan arasında da bir vuruşma olduğunu xəbər verir. Xülasə, böyük feodalların zaman-zaman bir-birləri ilə mübarizə apardıqları, bəylər arasında tez-tez çəkişmələr, anlaşmazlıq, mübahisə və atışmalar olduğu aydınlaşır. Tabelər hakimlərinə qarşı sayğılı olmaqla bərabər, hərəkətləri bir kölənin ağasına qarşı davranışından çox uzaq idi. Onlar son dərəcə izzətinəfs sahibi, məğrur insanlar idi. Hakimlərinin ən əhəmiyyətsiz söz və hərəkətlərinə sərt reaksiya verirdilər. Bayındır xan və ya Qazan bəylərdən Bəkilin ovçuluqda məharəti barədə «bu hünər atınmıdır, ərinmidir?» deyə soruşmuş, bəylər də ona «xanım, ərindir» cavabını vermişdilər. Lakin Qazanın «yox, at işləməsə, ər öyünməz, hünər atındır» deməsinə cavab olaraq Bəkil: «alplar içində bizi quşqunumuzdan palçığa batırdın» sözlərini söyləyərək Bayındır xandan (yaxud Qazandan) küsüb ordasına getmişdi. Üstəlik, Bəkilin oğuza asi olub el və gününü köçürərək Gürcüstana getmək istədiyi və xatununun buna mane olduğu söylənir[5]. Onun kimi, Uruz da atası Qazanın bir hərəkətindən inciyərək onu «Qan Abaza» elinə gedib, xristian olmaqla təhdid etmişdi[6].

---

[1] Gökyay, s. 114-119; Ergin, s. 245-246.
[2] Gökyay, s. 157; Ergin, s. 174.
[3] Gökyay. s. 2, 40, 57; Ergin, s. 113, 142, 175.
[4] Gökyay, s. 13; Ergin, s. 96.
[5] Gökyay, s. 91-92; Ergin, s. 217-218.
[6] Gökyay, s. 46; Ergin, s. 155.

Bütün aristokratik cəmiyyətlərdə olduğu kimi, oğuzlarda da oruna, yəni mövqeyə böyük əhəmiyyət verildiyi görünür. Siyasi və ictimai yığıncaqlarda iştirakçıların oturacaqları yerlər məlum idi. Bayındır, yaxud bəylərbəyi Qazanın hüzurunda sağ qola mənsub bəylər sağda, sol qola mənsub bəylər solda, xas bəylər dibdə, inaqlar eşikdə oturardılar[1].

Divandakı toplantılarda böyük bəy uşaqları xan və ya bəylərbəyinin sağ və solunda, yaxud qarşısında ayaqda durardılar, yaxud yaya söykənib dayanardılar. Bayındır xanın divanında xanın qarşısında Qara Günə oğlu Qara Budaq ayaq üstə dayanıb durar, xanın sağ yanında bəylərbəyi Qazanın oğlu Uruz, sol yanında da Qazılıq Qocanın oğlu Yeynək ayaqda durardı. Qazanın divanında isə oğlu Uruz qarşısında yayına söykənib dayanardı[2]. Əgər divanda bəy yalnız olardısa, oğlu yanında otura bilərdi[3]. Divanda söz söyləmək istəyən dizə çökərək danışardı[4].

II dastanda ova çıxan bəylərin adlarının feodal ierarxiyasındakı yerlərinə görə sadalandığı məlum olur. Bəylər ova çıxarkən əvvəlcə bəylərbəyi Qazan, sonra boz-oxların başçısı Qıyan Səlcuq oğlu Dəli Dündar, sonra isə sıra ilə Qazanın qardaşı Qara Günə, Şir Şəmsəddin, Beyrək, Yeynək və digər bəylər atlarına minərdilər.

İndi feodal pilləkənində yer tutan şəxsləri bir-bir gözdən keçirək.

**Bayındır xan:** Oğuz elinin hökmdarıdır. Atasının adı Qamğandır. Bəylərbəyi Qazan onun kürəkənidir, oğlu və ya hər hansı bir kişi qohumu yoxdur. Divanından və ordasından kənara çıxmaz. Şəxsiyyəti bəylərbəyi Qazan bəyinki ilə qarışdırılır. Ağqoyunluların özlərini Bayındır xanın nəvələri saydıqlarını bilirik.

Digər tərəfdən, hökmdarın bəy adını daşıması, onun dastanlara ağqoyunlu xanədanına yarınmaq məqsədi ilə sonradan daxil olduğu etimalını qüvvətləndirir. Ancaq Bayındır xanın atası Göy xan deyil, Qamğam adlandırılır. Bu necə izah oluna bilər? Əgər dastanlardakı oğuz eli XI əsrdəki oğuzlardırsa, onların başında bir yabğu ailəsinin dayanması olduqca zəif bir ehtimaldır. Hər halda Bayındır xan ünsürünün dastanlara sonradan daxil olunması fikri mənasız deyildir.

**Salur Qazan bəy:** bəylərin başı və onların hakimidir. Buna görə də dastanlarda Salur Qazan bəy bəzən bəylərbəyi ünvanı ilə də yad edilir. Bu ifadə, yəni bəylərbəyi osmanlılardan daha əvvəl Türkiyə səlcuqlularında olmuşdur. Ancaq oğuzlarda bir məmurluq adı olaraq bəylərbəyi sözünün işlənib-işlənməməsini bilmirik. Qazan bəyin atasının adının Ulaş olduğu da söy-

---

[1] «Sağda oturan sağ bəylər, sol qolda oturan sol bəylər, eşikdəki inaqlar, dibində xas bəylər, qutlu olsun dövlətiniz» (Gökyay, s. 41; Ergin, s. 144-145).

[2] Ergin, s. 116, 154.

[3] Gökyay, s. 27; Ergin, s. 120.

[4] Ergin, s. 95, 131, 154, 199.

lənilir; «Şəcəreyi-tərakimə»də isə Enkiş göstərilir. Salur Qazan dastanlarda belə təriflənir: tülü quşun yavrusu, bezə (?) miskin umudu, Əmət suyunun aslanı, Qaraçuğun qaplanı, qonur atın yiyəsi, xan Uruzun ağası, Bayındır xanın güveysi, qalın oğuzun dövləti, qalmış yigit arxası»[1].

Salur Qazan bəy öz qövmü üzərində unudulmaz xatirələr buraxmışdır. Türkmənlərin hər yerdə ataları kimi unutmadıqları iki şəxsiyyətdən biri odur (digəri Dədə Qorqud). Oğuz elinin başçısı, bəylərbəyi Qazan bəy dəyanətli, cəsur, özünə inanan, rəhmdil, comərd, xalqa qarşı şəfqətli, bəylərə qarşı nəzakətli, tərifləri xoşlamayan bir şəxsiyyət kimi nəzərə çarpır. «Şəcəreyi-tərakimə»dəki mənzumədə də onun düşmənə qarşı qazandığı müvəffəqiyyətlərdən və xalqa göstərdiyi yaxşılıqlardan bəhs olunur.

Bəylərbəyi Qazanın arvadı Burla xatun idi. Misirdə məmlüklər dövründə türk dilinə dair yazılmış bəzi əsərlərdə, burlanın üzüm mənasında olduğu söylənilir[2]. Bu kəlmənin qıpçaqca olduğu başa düşülür. Buna görə də ortada iki ehtimal var: ya Burla xatun bir qıpçaq bəyinin qızıdır, ya da bu adı daşıyan bir qıpçaq şahzadəsinin adını götürmüşdür. «Şəcəreyi-tərakimə»də[3] Burla xatun Sündün bayın qızı kimi göstərilir. Lakin bu Sündün bay haqqında heç bir məlumat verilmir. Yenə orada Burla xatun bizim dastanda olduğu kimi, «boyu uzun» olaraq vəsf edilir. Lap əvvəllərdə «Şəcəreyi-tərakimə»yə mənbə olan «Oğuznamə»lərin bizim dastanlardan ayrı bir xüsusiyyətə malik olduqları bildirilmişdi. Yenə «Şəcəreyi-tərakimə»də Burla xatun altın güzgülü (aynalı) olaraq da vəsf edilir[4].

Salur Qazan və Burla xatunun tək bir oğulları vardır ki, bu da Uruzdur (Urusdur). Bu ad hər halda xalq adı olan rus ilə eynidir. XIV əsrdə məmlük əmirlərindən bəziləri həmin adı daşıyırdı, Qızıl Orda xanı Toxtamışın Urus Qoca adlı bir əmirini də tanıyırıq[5]. Qazan bəy nəyə görə oğluna bu adı qoymuşdu? Buna qaneedici bir cavab tapmaq hər halda asan deyildir. Qazanın dayısı, boz-oxların başçısı da (təxminən) eyni adı daşıyırdı: Aruz Qoca. «Şəcəreyi-tərakimə»də[6] Urus od (atəş) gözlü kimi təsvir edilir.

**Qara günə:** Qazan bəyin qardaşı, bəylərin yığıncağında böyük qardaşının sağında oturardı. Qara Günənin də bir oğlu var idi, adı da Qara Budaq idi. Ona bəzən Dəli Budaq da deyərdilər. Şah Abbas dövründəki Çüxri-Sə'd (Sə'd Çuxuru - əsasən İrəvan bölgəsi) bəylərbəyisi Əmir Günənin bu oğuz

[1] Gökyay, s. 13, 41; Ergin, s. 95, 114.
[2] Tərcüman türki və ərəbi. Houtsma nəşri. Leyden, 1894, s. 7; Əbu Həyyan. Kitab ül-idrak li-lisan il-ətrak. Əhməd Cəfəroğlu nəşri. İstanbul, 1931, s. 30.
[3] Burada ad Bular olaraq getmişdir.
[4] «Şəcəreyi-tərakimə»də (s. 79-80) Burla Xatunun oğuz elində bəylik edən yeddi qızdan biri olduğu da deyilir.
[5] Digər bəzi misallar üçün; F.Sümər. Oğuzlara aid dastani mahiyyətdə əsərlər, s. 426, haşiyə 264.
[6] S. 65.

bəyi kimi eyni adı daşıdığını görürük. Əmir Günə qacar boyunun ağcaqoyunlu obasına mənsub idi, özü də Sarı Arslan ləqəbini daşıyırdı. Boğaziçindəki Əmirgan məhəlləsi də bu bəyin adından qalmışdır. Amma əsaslı olan misal Şah Abbasın hökmdarlığının ilk illərində bir əmirin Budaq, atasının isə Qara Günə adını daşımasıdır. Bu adların dastanların təsiri ilə qoyulduqları tam aşkardır[1].

**Aruz (Uruz) Qoca:** boz-ox qolunun ən böyük bəyidir. Aruz Qocanın çox uzun boylu, qollarının və baldırlarının nazik, özünün arıq olduğu söylənir; ləqəbi də «at ağızlı» idi. Aruzun iki oğlu olduğunu görürük: Qıyan Səlcuq və Basat. Bunlardan Qıyan Səlcuqun Təpəgözlə vuruşmada ödünün partlaması nəticəsində öldüyü bildirilir. Qıyan Səlcuq sözlərinin ilk kəlməsi bir oymağın adıdır, yoxsa ləqəbdir, bilinmir. Hər halda ikinci ehtimal daha qüvvətlidir.

Təpəgözü məğlub edən Basata gəlincə, onun adı üç-ox-boz-ox çəkişməsinə aid dastanda da çəkilir, amma aqibəti haqqında bir məlumat verilmir. Görəsən, o da atası Aruz Qoca kimi qardaş qırğınında öldürülmüşdür? Aruz Qocadan sonra boz-oxların başçısı kimi onun nəvəsi, Qıyan Səlcuq oğlu Dəli Dündarı görürük. Dəli Dündar orunda bəzən Qazandan sonra ikinci, bəzən də Qazanın qardaşı Qara Günədən sonra üçüncü sırada dayanır. Onun haqqında deyilən «bir savaşda üç kəz Qazanı atdan yıxan» ifadəsi digər bir üç-ox-boz-ox döyüşünə işarədir.

**Şir Şəmsəddin:** Atasının adı Qəflət Qocadır. Müsəlman adı daşıyan iki bəydən biridir. Şir Şəmsəddin «dəstursuzca Bayındır xanın yağısını basan» sözü ilə tariflənir[2].

**Beyrək:** Qazanın inağıdır, iç oğuzdandır. Özü çox yaraşıqlı bir gəncdir, ona görə çox vaxt niqab ilə gəzərdi. Beyrək istər gözəl görkəmi, istərsə də əla əxlaqı ilə «qalın oğuzun imrəncəsi» ləqəbini almışdı. Onun haqqında: «apalaca gərdəyinə qarşı gələn, yeddi qızın umudu» sözləri də söylənir. Sonuncu dastana görə Aruz tərəfindən öldürülmüşdür.

**Yeynək.** Qazılıq Qocanın oğludur. Qazılıq Qocanın Bayındır xanın vəziri olduğu söylənir. Görünür, Qazılıq Qocanın adı eyniadlı dağın adından alınmışdır. Yeynəyin öz atası Qazılıq Qocanı əsirlikdən qurtardığına dair bir dastan vardır. O, bir yerdə bəylər başı olaraq vəsf edilir. Bu, Yeynəyin bir zamanlar bəylərbəyilik etdiyi hökmünü çıxarmağa kafi olmasa da, onun yüksək mövqeli bir bəy olduğuna işarədir. Yeynəyin Qazana «keşiş» dediyi və «qalın oğuz bəylərini bir-bir atlarından yıxdığı» da söylənir. Bunlar Yeynək və Qazan arasında səbəb və təfsilatını bilmədiyimiz bir vuruşmanın olduğunu ifadə edir. Yeynəyin ailəsinin köklü və ən qüdrətli ailələrdən biri ol-

[1] Tarixi-aləmarayi-Abbasi, I, s. 431, 436.
[2] Gökyay, s. 13, 23: Ergin, s. 96, 112.

duğu şübhəsizdir. Bu ailənin üç-oxlardan olması da ehtimal edilir. Bu bəy haqda ayrıca: «Qur qurma quşaqlı, küllahı altun küpəli» də deyilir.

**Büğdüz Əmən:** boz-oxlar qolundan olduğu göstərilir. Halbuki büğdüz boyu üç-oxların boyudur. Boz-oxların Aruzdan sonra gələn ən nüfuzlu bəyi kimi nəzərə çarpır. Ləqəbi «bıyığı qanlı»dır, bundan əvvəl adı çəkilən Yeynəyin dayısıdır. Peyğəmbərin üzünü görən yeganə oğuz bəyi olduğu söylənir. Aruz ilə Qazan arasındakı düşmənlik və döyüşlərdə Büğdüz Əmənin də adı çəkilir[1].

**Düldək Evrən:** Eylik Qocanın oğludur; ləqəbi «dönəbilməz»dir. Bu ləqəbi nəyə görə aldığı aydın deyil. Onun Ağ Məlik Çeşmə (?) qızı ilə nikahlandığı və Sofi Sandal (?) məliyə qan qusdurduğu söyləndiyi kimi, «öz adına xorlanıb eldən çıxdığı» da yazılmışdır. Bu ibarənin inandırıcı izahı verilməmişdir. Bu ibarə Dülək Evrənin öz dəyərini bilməyərək, ailəsini, boyunu və elini buraxıb getdiyini izah etmək məqsədimi güdür? Dülək Evrən boz-oxlardan idi. Son dastanda Aruzun əyanları arasında adı çəkilir[2].

**Alp Rüstəm:** oğuz bəylərindən adı türkcə olmayan iki bəydən biridir (o biri Şir Şəmsəddindir). Atası boz-ox bəylərindəndir, adı Düzəndir, sonuncu dastanda da adı çəkilir. Orada Alp Rüstəm üç-oxlardan Ənsə Qoca oğlu Oxçu ilə savaşacağını söyləmişdi[3]. Alp Rüstəmin Təpəgöz ilə vuruşması da qeyd edilir[4]. Bu, Təpəgözün üç-oxlardan daha çox boz-oxlarla düşmən olduğunu təsdiq edir. Alp Rüstəm özünü «iki qardaş bəbəyin öldürüb zəlil gəzən» kimi tanıdır[5].Bu acınacaqlı hadisənin necə və nə şəkildə baş verdiyi barədə təfsilat yoxdur.

**Tərs Uzamış:** üç-oxlardandır. Sonuncu dastanda Büğdüz Əmən onunla təkbətək döyüşmək istədiyini söyləmişdi[6]. Tərs Uzamış hər vaxt olduğu kimi, laübali bir hərəkətlə Qazanın qarşısında oturmaq istəyən Uşun Qoca oğlu Əyrəyə: «Mərə, Uşun Qoca oğlu, bu oturan bəylərin hər biri oturduğu yeri qılıcı, ətməyiylə alıbdır, mərə, başmı kəsdin, qanmı tökdün, acmı doyurdun, yalıncaqmı donatdın» demişdi[7].

Salur Qazan ilə birlikdə ad və sanları sadalanan üç-ox və boz-ox bəylərinin başlıcaları bunlardır. Salur Qazan zamanında yaşamış kimi göstərilən bir çox şəxslər vardır ki, onlardan burada bəhs edilməmişdir...

---

[1] Gökyay, s. 23, 78-80, 113-114; Ergin, s. 113, 245, 246, 250.
[2] Gökyay, s. 23, 112, 115; Ergin, s. 113-114, 245.
[3] Gökyay, s. 115; Ergin, s. 245, 250.
[4] Gökyay, s. 81; Ergin, s. 208.
[5] Gökyay, s. 113; Ergin, s. 242.
[6] Gökyay, s. 98; Ergin, s. 224.
[7] Gökyay, s. 98; Ergin, s. 224.

## 8. ORDALAR

Xan, bəylərbəyi və bəylər ordalarda (ordu) yaşayırdılar. Ordalar çoxlu çadır və otaqdan düzəldilmiş böyük qərargahlardır. Ordalarda qələbəlik bir xalq var idi. Orda sahibi və ailəsi, nökərlər, xidmətçilər, çobanlar da burada yaşayırdı.

Ordalarda feodalların ümumi işlərini gördükləri divanları var idi. Onların ən yaxın adamları naiblər idi[1]. Bəylərbəyi Qazanın naibinin adı Əlig Qoca oğlu Sarı Qılbaş idi ki, Şöklü Məliyin Qazanın ordasına basqını zamanı ölmüşdü. Oğuz yabğularının naiblərinə kül-ərkin (güzərkin) deyildiyi məlumdur. Oğuzlar islam ölkələrinə gəldikdən sonra kül-ərkin kəlməsini işlətməmiş, ona görə də bu söz tədricən unudulub getmişdir. Böyük feodalların ən yaxın adamları arasında inağlar da nəzəri cəlb edir. İnağlar hökmdar və bütün bəylərin həmişə yanlarında gəzən, onların şəxsi həyatlarına daxil olmuş adamlar idi. İnağ kəlməsinə Kaşğaridə və digər əski əsərlərimizin heç birində rast gəlinmir. Səlcuqlularda hökmdara çox yaxın adamlara bəzən xas bəy deyilirdi. İnağ sözü elxani dövründən etibarən işlənməkdədir.

Bəylərin, bəy uşaqlarının heç bir zaman yanlarından ayrılmayan dostları var idi ki, onlara ümumi olaraq yoldaş deyildiyi məlumdur[2]. Yoldaş kəlməsi mənasına görə monqolca nökər sözünün qarşılığıdır. Lakin dastanlarda nökər sözü yoldaşın sinonimi kimi işlənmişdir[3]. Tarixdə də yoldaş kəlməsinin bu mənada işləndiyinə dair bəzi misallar vardır. Sivas-Kayseri və digər bəzi şəhərlərin hökmdarı Qazı Bürhanəddin bir döyüşdə ona sədaqətlə xidmət edən Xəlil adlı dulqədirli bir əsgərə xələt geydirmiş, dirlik vermiş və ona «yoldaş Xəlil» demişdir[4]. İranda səfəvi hökmdarı Sultan Məhəmməd dövründə şamlı bəylərdən İsmayılqulu bəy (sonra xan) hökmdarın məiyyətində yaxşı xidmət etdiyi üçün ona «yoldaş», «yoldaşbaşı» ünvanı verilmişdi[5]. Osmanlı dövründə də yeniçərilərə «yoldaş» sözü ilə müraciət edildiyi məlumdur.

Qazan bəyin yoldaşlarının 300 nəfər olduğu aydın olur[6]. Rəşidəddindəki fəsildə qeyd edildiyinə görə, Tuman atasının taxtına çıxmaq istədiyi zaman məiyyətinə 300 adam götürmüşdü[7]. Səlcuqlu tarixçisi Zahir Nişapuri də Səlcuq oğlu İsrailin (Aslan) Qəznəli Mahmudun hüzuruna gedərkən yanında 300 yaraşıqlı igid olduğunu söyləyir[8]. Bu qeydlər bizə, bəlkə, el bəylərinin

---

[1] Ergin, s. 129, 130, 232.
[2] Gökyay, s. 11, 30, 32, 67, 68, 72, 95; Ergin, s. 125, 129, 135, 187, 189, 190, 191, 222.
[3] Gökyay, s. 7, 24, 51; Ergin, s. 84, 114, 164.
[4] Bəzmü rəzm, s. 277.
[5] Tarixi-aləmarayi-Abbasi, I, s. 251-301.
[6] Gökyay. s. 47; Ergin, s. 157.
[7] F.Sümər. Oğuzlara aid dastani mahiyyətlə əsərlər, s. 372.
[8] Zikri-tarixi-ali-Səlcuq. A. Ataş nəşri, s. 7.

yoldaşlarının sayının 300 olduğu fikrini verə bilər. Lakin bəylərin yoldaşlarının sayı 40 idi. Bunlardan biri bəy və ya şahzadənin naibi idi. Bəylərin yoldaşlarının sayının 40 olması, dastanların və tarixi mənbələrin göstərdiyinə görə heç bir simvolik mahiyyət daşımır. Qaraman hökmdarı I Məhmət bəy, Süleyman bəy və Əlaəddin bəyin məiyyətlərindəki igidlərin sayı 40 idi[1]. Əziz Astarabadinin bir ifadəsindən[2] Qazı Bürhanəddinin nökər, yəni yoldaşlarının 40 nəfər olduğunu iddia etmək mümkündür. Ağqoyunluların başçısı olmazdan əvvəl Uzun Həsən bəyin də yoldaşlarının 40 nəfər olduğuna dair bəzi dəlillər vardır[3].

Bəylərin və oğullarının 40 yoldaşı olduğu kimi, xatunların da 40 incə belli qızdan ibarət yoldaşları var idi[4].

## 9. AİLƏ HƏYATI

Hamısı bəy olan bütün qəhrəmanların tək bir qadınla evli olduqları özünü göstərir. Dastanlarda nə məşuqədən, nə də oynaşdan bəhs edilir. Qəhrəmanların bircə arvadları vardır. Bu, diqqətəlayiq bir xüsusdur.

Bəylərbəyi Qazanın belə tək bir arvadının (boyu uzun Burla xatun) adı çəkilir. Doğrudanmı oğuzlarda ikinci bir qadınla evlənmək ənənəsi yox idi? Bunu təkzib edən bir misala şəxsən rast gəlmədiyimi söyləməliyəm. İbn Fəldan oğuz sübaşısının və qonaq qaldığı bir oğuzun tək arvadlı olduğunu görmüşdü. Onların qadınlara qarşı ehtiram və sevgi ilə davrandıqları aydın nəzərə çarpır. Qəhrəmanlar bir çox hallarda qadınlarının məsləhəti ilə hərəkət edirdilər. Qəhrəmanlar qadınlarına «görklüm» (gözəlim) sözü ilə müraciət edirdilər. Qadınlar ərlərinə acıqları tutanda acı və sərt sözlər söyləyirdilər. Evlənmədə qız evinin oğlan evindən kalım və ya başlıq istəməsi (mal tələb etməsi) adəti var idi[5]. X əsrdə oğuzlarda həmin adətin olduğunu görmüşdük. Bir-birinə yaxın ailələr hələ beşikdə olarkən uşaqlarını nişanlayırdılar[6]. Oğlan nişanlandığı qızın barmağına öz üzüyünü taxardı[7]. Qız da nişanlısına özü tikdiyi qırmızı rəngli qaftan göndərərdi, oğlan bu qaftanı geyinərək gərdəyə girərdi. Nişanlandıqdan bir müddət sonra toy edilərdi. Toy zamanı evlənənin üzüyünə yoldaşlarının ox atması adəti də var idi[8].

Təzəbəy gərdəyə girəcəyi yeri ox ataraq təyin edərdi[9].

---

[1] Şikari tarixi, s. 34, 35, 36, 59, 96.
[2] Bəzmü rəzm, s. 283.
[3] Kitabi-Diyarbəkiriyyə, I, s. 164, 223. Digər bəzi misallar üçün: F.Sümər. Həmin əsər.
[4] Gökyay, s. 9, 10, 14, 17, 19, 56; Ergin, s. 88, 96, 98, 103, 106, 107, 173.
[5] Gökyay, s. 31; Ergin, s. 128.
[6] Gökyay, s. 25; Ergin, s. 117.
[7] Gökyay, s. 29; Ergin, s. 123.
[8] Gökyay, s. 40; Ergin, s. 143.
[9] Gökyay, s. 32; Ergin, s. 129.

Dastanlarda bəylərdən bir çoxlarının bir-biri ilə düngür (quda) olduqları gözə çarpır. Bəylərbəyi Qazan Bayındır xanın kürəkəni olduğu kimi, anası da boz-ox bəylərbəyisi Aruz Qocanın bacısı idi. Yenə üç-oxlardan Baybura bəy oğlu Beyrək boz-oxlardan Baybecan bəyin qızı ilə evlənmişdi. Yenə iç oğuzdan olması fərz edilən Qazılıq Qoca boz-oxlardan sayılan Büğdüz Əmənin bacısı ilə evlənmiş, bu nigahdan oğlu Yeynək doğulmuşdur. Bu misallar oğuzlar arasında kənardan evlənmək adətinin olduğu hökmünü verə bilsə də, bu barədə qəti bir söz söyləmək mümkün deyildir. Çünki bu evlənmələrdə sadəcə siyasi və ictimai bir qayə güdülmüş ola bilər. Üstəlik, Qara Günənin oğlu Qara Budağın əmisinin (yəni Qazanın) qızı ilə evləndiyini bilirik[1].

Dastan qəhrəmanlarının bəzilərinin özləri kimi yaxşı at minən, qılınc qurşanan qız istəmələri diqqəti cəlb edir. Bu bir nağıl ünsürü deyildir, türk el və boylarında hər zaman belə qız və qadınlara rast gəlmək mümkündür. XV əsrdə Anadoludan keçən avropalı bir səyyah türkmən qadınlarının igidliyini, kişilər kimi vuruşduqlarını eşitdiyini və buna heyrət etdiyini yazmışdır[2]. Buna görə də Beyrəyin adaxlısı (nişanlısı) Banıçiçək ilə güləşməsi heç kimi heyrətləndirməməlidir. Çünki Kaşğari[3] «qız ilə güləşmə, qısraq ilə yarışma» şəklində bir atalar sözü işlətmişdir. Bu atalar sözünü bilməyən və ya ona əməl etməyən Beyrək sevgilisinə məğlub olmaqdan güclə qurtarmışdı.

Müxtəsəri, dastanlarda qadınlara yüksək və dəyərli bir yer verilmişdir. Dəli Domrul fədakarlıq sözünü anasından deyil, gözləmədiyi halda arvadından eşitmişdir[4]. Oğuz elində qadınların cəmiyyət içində nə qədər şərəfli və yüksək bir mövqe tutduqlarını bundan başa düşmək mümkündür ki, Əbülqazinin «Şəcəreyi-tərakimə»sinə mənbə olan «Oğuznamə»lərdə bir çox qadınların oğuz elində bəylik etdikləri bildirilir.

Bəylərin yeni doğulmuş uşaqları «sarması qızıl beşiklərdə» yatırılır və dayələrə (dadı) verilərək böyüdülürdü. Qız uşaqlarının doğulması onlarda, ərəblərdə olduğu kimi, qüssə yaratmırdı. Baybecan bəy qızı olması üçün qalın oğuz bəylərindən alqış, yəni dua etmələrini rica etmişdi[5]. Bəylərin yetişmiş cavan oğullarına qarşı davranışları şəfqət və sevgi ifadə edir, ata ilə oğul arasındakı münasibətlər isə rəsmiyyətdən uzaq görünür. Dastanlarda anaya qarşı ehtiram hər vəsilə ilə bildirilir, «ana haqqı tanrı haqqıdır» deyilir[6].

---

[1] Gökyay, s. 23; Ergin, s. 112.

[2] Bertrandon de la Brokiye. Dənizarxasına səyahət, s. 81-82. Digər bəzi misallar üçün: F. Sümər. Həmin yazı, s. 439, haşiyə 362.

[3] Kilisli, I, s. 394; Atalay, I, s. 474; [Ramiz Əskər, I, s. 459].

[4] Ergin, s. 183.

[5] Gökyay, s. 25; Ergin, s. 117.

[6] Gökyay, s. 20, 100.

Dastanlarda qardaş sevgisi və qardaşı olmağın əhəmiyyəti müxtəlif vasilələr ilə bildirilir. Hətta dastanlardan bəzisinin mövzusu əsir düşmüş qardaşın xilas edilməsi və qisasının alınması haqdadır.

Uşun Qoca oğlu Səyrək kafirlərin Alınca qalasında dustaq olan qardaşını xilas etmək təşəbbüsünün qarşısını almaq istəyən ata və anasına belə demişdi:

Üç yüz altmış altı alp ava binsə,
Qanlı geyik üzərinə qovğa qopsa,
Qardaşlı igidlər qalxar, qopar olur,
Qardaşsız miskin igid ənsəsinə yumruq toxunsa,
Ağlayıban dörd yanına baxar olur,
Ala gözdən acı yaşın tökər olur.

Basat da böyük qardaşı Qıyan Səlcuqun Təpəgöz tərəfindən öldürüldüyünü biləndə onun üçün yanıqlı bir ağı deyib uzun-uzadı ağlamışdı.

Dastanlarda hörmət saxlamaq mənasında salam vermə və əl öpmədən bəhs edilir. Salam forması «baş endirib, bağır basmaq»dı[1]. Bu, Anadolu türklərində son zamanlara qədər başlıca salam şəkli olub, bu gün Türkiyənin ucqar vilayətlərində özünü göstərir. Bu salam şəklinin milli bir səciyyəsi olub-olmadığı barədə indi qəti bir hökm vermək mümkün deyil. Yenə dastanlarda bir yerdə «əl qavuşdurub ol igidə salam vergil» deyilir. İbn Fəldan İtil boyu bulqarlarının öz hökmdarlarına papaqlarını qoltuqları altına qoyduqdan sonra başları ilə salam verdiklərini söyləyir. Kirman hökmdarı Alp Arslanın qardaşı Gavurd bəy qardaşı oğlu Məlikşah ilə döyüşdə əsir alındığı zaman Məlikşah əmisinin yanına gedəndə atından düşmüş və papağını da başından çıxartmışdı[2]. Kaşğaridə «yükünç» sözü işlənir[3]. Yükünç baş əyərək salamlama mənasını verir. Monqolların öz böyüklərini diz yerə vurmaqla (farsca tərcüməsi: zanu zədən) salamladıqlarını bilirik.

Oturmaq forması haqqında dəqiq bir ifadə yoxdur. Hər halda çox yayılmış oturuş forması bardaş qurma olmalıdır. Danışmaq istəyən adam böyüklər qarşısında diz çökərdi. Bu gün Türkiyədə bu adət hələ də yaşamaqdadır. Kiçiklər böyüklərin, əllərindən, böyüklər də onların boyunlarından öpərlər. Uzun zaman ayrı düşənlər qovuşduqda, bir-birlərini qucaqlayırlar.

---

[1] Dədəm Qorqud ötədən bəri gəldi, başın endirdi, bağır basdı, ağız dildən görklü salam verdi (Ergin, s. 125, ayrıca bu səhifələrə bax: s. 120, 144, 227).
[2] Sibt ibn ül-Cövzi. Topqapı sarayı, III Əhməd kitabxanası, XIII, II b.
[3] Kilisli, III, s. 277; Atalay, III, s. 375; [Ramiz Əskər, III, s. 324].

## 10. ORDU

Dastanlarda ordu və əsgər sözlərinin qarşılığı kimi türkcə çəri, farsca ləşkər kəlmələri işlədilir. Ordu və əsgər mənasında olan qədim türk sözü «sü» tamamilə işlənmir. Oğuz ordusu bütünlüklə atlı əsgərlərdən təşkil edilir, sağ və sol olmaqla əsasən iki qola ayrılırdı. Dastanlardakı oğuz elində siyasi üstünlük üç-oxlarda olduğu üçün, onlar daha şərəfli sayılan sağ qolu təşkil edirdilər.

Şöklü Məlik ilə Salur Qazan arasında baş verən vuruşmada oğuz ordusunun döyüş mövqeyi belə idi: köks, yəni mərkəzdə Salur Qazan, sağ qolda Qazan bəyin qardaşı Qara Günə, sol qolda boz-oxların başçısı Dəli Dündar vuruşurdu. Bəylər at üstündə döyüşçülərin içərisində qızğın vuruşmalarda iştirak edirdilər.

Dastanlarda oğuzların başlıca silahları ox, qılınc, qarğı (cida; süngü) və çomaqdan (toppuz, gürz) ibarət idi. Müdafiə silahları isə qalxan, arxa zirehli və işuq (tuğulqa) idi. Oxun türklərin milli silahı olduğu məlumdur. Tarixdə bu silahı türklər və monqollar kimi məharətlə işlədən çox az xalq tapılar. Dastanlarda oxun qayın ağacından hazırlandığı qeyd edilir. Osmanlı oxları isə şam ağacından hazırlanırdı.

Oxların ucundakı dəmir parçasına təmrən, arxasındakı üç tük parçasına da yülək (yelək) deyilirdi. Yeləyin oxun hədəfə istiqamət almasında mühüm rolu vardır. Oxların qoyulduğu qaba bəliğ, bəzən də sadaq deyilirdi. Bu qabların 80-90 ox tutduğu da qeyd edilir. Dastanlarda qəhrəmanların ağca tozlu, qatı yaylarından da tez-tez bəhs edilir. Toz yaylara dolanan kirişə sırıma deyilir. Yaylar ümumiyyətlə inək damarından hazırlanırdı. Lakin bəzi qəhrəmanların yaylarının kirişlərinin qurd damarından olduğu qeyd edilir[1]. Yayların qabları yoxdur: qaruya (biləyə) asılaraq daşınırdı. Oğuzlar və ümumiyyətlə türklər praktiki olmadığı üçün çox zaman yay qabından istifadə etməmişlər. Qəhrəmanlar həm məharətlərini artırmaq, həm də əylənmək üçün bütə, yəni nişangaha ox atardılar.

Qarğı dastanlarda sinonimi olan bu sözlərlə də ifadə edilir: süngü, cida, göndər. Bunlardan süngü qədim türk sözüdür. Cida monqolca olmalıdır. Bu üç kəlmə də XV əsr osmanlı tarixlərində işlənir. Qarğı qoltuq qısılaraq dürtmək, sancmaq üçün istifadə edilirdi. Hücum silahlarından biri də çomaqdır. Çomaq türklər tərəfindən hər yerdə, hər zaman istifadə edilən bir silahdır. O, ağacdan və dəmirdən qayrılır. Ağac çomağa Türkiyədə bozdağan deyildiyi də məlumdur. Müdafiə silahları, deyildiyi kimi, qalxan, zireh, və işuq, yəni tuğulqa idi. İşuq Kaşğari tərəfindən adı çəkilən türkcə bir kəlmədir və dəbilqə mənasını verir. Bunun sinonimi olan tuğulqa isə monqol sözü olmalıdır.

---

[1] Gökyay, s. 8; Ergin, s. 85.

## 11. MİNİCİLİK

Atın qədim türklərin həyatında nə qədər əhəmiyyətli yeri olduğu məlumdur. Dəvə ərəblər üçün nə qədər lazımlı idisə, at da türklər üçün o qədər lazımlı idi. Geniş çölləri onunla keçər, ətindən yeyər, südündən içki (qımız) hazırlayar, gönündən və qılından da faydalanardılar. Dastanlarda oğuz elinin və qəhrəmanlarının həyatında atın əhəmiyyəti aydın nəzərə çarpır. Onlar «piyada ərin ümidi olmaz; at işlər, ər öyünər» kimi sözləri tez-tez söyləyərdilər. Qəhrəmanların atları lap çox idi. Bu, tarixi məlumatlara da uyğundur. İslam müəlliflərinin fikrinə görə, türklər saysız-hesabsız atı olan bir xalq olaraq tanındıqları kimi, X əsrdə türk xaqanı da minicilәri çox bir hökmdar olaraq məşhur idi[1]. Dastanlarda qəhrəmanların atlarının adlarından bəhs edilmir. Onlar görkəmləri ilə yadda saxlanır, tanınırdı[2]. Bunu təbii hesab etmək lazımdır. Çünki atların lap çox olduğunu söyləmişdik. Zamanımızda Türkiyədə də atlara ad qoymaq adəti yoxdur.

Qəhrəmanlar ayğırlara minirlər. Çünki türk atlarının ayğırları daha yaxşıdır. Halbuki ərəb atlarında qısraqlar üstün sayılırdı. Türklər ayğır olmayan atı axtalayardılar. Belə atlar daha dözümlü olurdular. Türklərin axtalanmış atları ərəb ölkələrində də ad çıxartmışdı.

Atların başları bir çox hallarda qoç və toxlu başlarına oxşadılırdı[3]. At növünü göstərmək üçün yund sözü işlədilirdi[4]. Yaxşı at üçün işlənən söz qədimdə və indi də işlənən «yüyürək» sözüdür. Ancaq atların yeriş-qaçış tərzləri haqqında açıq bir şey söylənmir.

Dastanlarda cins və yaxşı atlar olaraq bədəvi[*] atlardan danışılır. Bu atlar «bədəvi atlar ıssını görüb oxradıqda» sözü ilə təriflənirdi. Bədəvi atlar sözü ilə ərəb atları nəzərdə tutulur, bir yerdə isə «ərəb atları» ibarəsi işlənmişdir[5]. «Bədəvi at» sözünün ağqoyunlular tərəfindən işləndiyi və onların bu atlara çox üstünlük verdikləri də məlumdur. Uzun Həsən bəy şəxsən özü bədəvi atın (əsbi-bədəvi) cinsini daha çox bəyənirdi[6]. Ərəb atını yalnız Yaxın Şərqdəki türklər deyil, Xəzərarxası türkmənlərinin də yaxından tanıdıqları nəzərə çarpır. Onların ifadələrində də ərəb atı təriflənir[7]. Səlcuqlu dövründən bəri Anadoluda hər yerdə axtarılan cins atlar yetişdirildiyini bilirik. Bu atlar əsa-

[1] İbn ül Fəqih. Kitab ül-məmalik. Leyden, 1885, V, s. 316.
[2] Misal olaraq II dastana bax: Gökyay, s. 13; Ergin, s. 96.
[3] Gökyay, s. 30; Ergin, s. 125.
[4] Gökyay, s. 101; Ergin, s. 229.
[*] Ehtimal ki, «bədöy at» ifadəsi bu sözdəndir (tərcüməçi).
[5] Gökyay, s. 20; Ergin, s. 108.
[6] Kitabi-Diyarbəkiriyyə, I, s. 201, 244. Ağqoyunlular ərəb atını qoyun verərək Suriyadan asanlıqla alırdılar. Bədəvi atlar sözünün səfəvi dövründəki türklər də işlədirdi.
[7] A.Börns. Hindistandan Lahora səyahət, 1835, III, s. 23.

sən Qaraman yörəsində yetişdirilirdi. Marko Polonun[1] türkmənlərin yetişdirdiklərini göstərdiyi gözəl türkmən atları bunlardır.

XIV əsrdə bir ərəb salnaməçisi də[2] Gərmiyan və Kastamonu atlarını tərifləyirdi. Lakin son əsrlərdəki uzun sürən döyüşlər və digər səbəblər ilə əlaqədar türk kəndlisinin yoxsullaşması Anadoluda atçılığı da yox etmişdir.

## 12. GEYİM

Dastanlardakı qəhrəmanların geyimi haqqında açıq bir fikir söylənmir. Paltara dastanlarda da ton (don) deyilir. Köynəyin (kömmək-könlək) də adı çəkilir. Bundan başqa, boz-oxların başçısı at ağızlı Aruz Qocanın erkək dərisindən kürk və papaq geydiyindən bəhs edilir[3].

X əsrdə adlı-sanlı oğuzların bilavasitə qonşu islam ölkələrində emal edilmiş köynək və qaftan geydiklərini bilirik. Xalq isə hər halda özünün toxuduğu incə yun və incə keçədən paltar geyinirdi. Dastanlarda da qəhrəmanların gündəlik geyimləri içərisində ağ qaftan nəzərə çarpır[4]. Qırmızı rəngli qaftanı isə ancaq evlənməli olanlar geyərdilər[5].

Dastanlarda baş örtüsü olaraq börk və sarığın adı çəkilir. Börk türklərin milli baş geyimidir. Börkün XIII-XIV əsrlərdə qırmızı rəngdə olduğunu bilirik[6]. Anadoluda ilk dəfə ağ rəngli börk geyməyi XIII əsrin ikinci yarısındakı Dənizli hüdud bölgəsi bəylərindən Məhmət bəy dəb halına salmışdır[7]. Bu gün Türkiyənin bir çox yerlərində iki cür baş geyiminə börk deyilməkdədir.

Sarığa gəlincə, Toğrul bəyin 1038-ci ildə Nişapura girdiyi zaman başında sarıq olduğu məlumdur. XIV və XV əsrlərdə Anadoluda hökmdar və bəylər də sarıqdan istifadə edirdilər. Türk sarığı orta böyüklükdə və qıvrımdı, gözəl bir görünüşə malik idi. Bu sarıq Misirdə türkmən sarığı kimi tanınmışdı[8].

---

[1] Dünyanın təsviri. Ambisin tərcüməsi. Paris, 1955, s. 21.
[2] Əl-Öməri. Məsalik ül-Əbsar. F.Taşner nəşri. Leypsiq, 1929, s. 35, 40.
[3] Gökyay, s. 23; Ergin, s. 125.
[4] Gökyay, s. 32, 33, 34; Ergin, s 129, 130, 131, 134.
[5] Gökyay, s. 32; Ergin, s. 129.
[6] İbn Bibi (TTK, Ankara, 1956, s. 696) 1277-ci ildə Konya üzərinə yürüş edən Qaraman oğlu türkmənlərinin qırmızı börklü olduqlarını söyləyir. Orxan bəyin qardaşı Əli paşa onun xas qullarının börklərinin rəngi haqqında demişdi: «Ətrafdakı bəylərin börkləri qırmızıdır, sənin bəndələrininki ağ olsun». Orxan qazi bu sözü qəbul edib buyurdu: «Biləcikdə ağ börklər bükdürüb, adam göndərib Amasyada Hacı Bəktaşi Xorasanidən icazə alıb, əvvəl özü geyib, sonra adamları geydilər» (Nəşri, s. 151-155).
[7] Əflaki. Mənaqib ül-arifin. T.Yazıçı nəşri (TTK), Ankara, 1959, I, s. 485, Türkcə tərcüməsi: Ariflərin mənqibələri, Ankara, 1953, s. 525.
[8] İbn İyas, V, s. 47, 75.

Dastanlarda ayaqqabı olaraq «ədik» və «soqman» adları çəkilir[1]. Ədik[2] (ətük) son 15-20 ilə qədər Maraş, Adana, Antəb və Xatay vilayətlərində geyilməkdə idi. Bu, boğazı təqribən 40 santimetr uzunluqda, ökçəsiz (dabansız), burnu dik, sarı və qırmızı rəngli çəkmələrdir. Edik bir neçə əsr əvvəl bütün Anadolu türkmənləri tərəfindən geyilirdi. Hətta qadınların belə edik geydikləri məlumdur[3]. Soqmana gəlincə, bu da çəkmə mənasında olsa da, ədikdən fərqlənib-fərqlənmədiyi yaxşı bilinmir[4].

XV əsrdə osmanlılar da daxil olmaqla Türkiyə türklərinin qiyafələri çağatay türklərininki ilə eyni idi. Misirli müəllif ibn İyas Anadolu türklərinin qiyafələrini türkmən qiyafəsi kimi təsvir edir. Dastan qəhrəmanlarının geyimlərinin də Türkiyə türklərinin geyimləri ilə eyni olduğu məlum olur.

Oğuzların saçlarını uzatdıqları, bunun əksinə, üzlərini qırxdıqları əvvəlcədən deyilmişdir. Türkiyədə də xalqın və əsgərlərin üzlərini qırxdıqları nəzərə çarpır. Misirin fəthindən sonra osmanlı xidmətinə girən çərkəz məmlüklərinin ilk işi saqqallarını qırxdırmaq və türkmən qılığına (yəni osmanlı qiyafəsinə) girmək olmuşdur[5]. Ancaq bizim dastan qəhrəmanları kimi Anadolu türkləri də bığ saxlayırdılar.

Qəhrəmanlardan Qazılıq Qoca oğlu Yeynək «qulağı qızıl küpəli»[*] təsvir edilir[6]. XIV-XV əsrlərdə bəzi türk hökmdar və bəylərinin də Yeynək kimi qulaqlarına sırğalar taxdıqlarını bilirik[7].

Yenə dastanlarda Oğuz elində bəzi igidlərin üzlərində örtük olduğu söylənilir. Bunlar başlıca olaraq Qanturalı, Qara Çəkür və oğlu Qırx Qınuq və boz ayqırlı Bamsı Beyrək idi[8]. Bu gənclərin çox yaraşıqlı olduqları üçün üzlərinə niqab tutduqları başa düşülür. Bu sonuncu qiyafənin göz dəymə inamı ilə əlaqədar olması ehtimal edilir.

## 13. OVÇULUQ

Bəylər zümrəsinə mənsub olan qəhrəmanlar vaxtlarını döyüşlərdə, ovçuluq etməkdə və toy verməkdə keçirirdilər. Bəylərin ovçubaşıları var idi. On-

---

[1] Gökyay, s. 51, 81, 86; Ergin, s. 165, 205, 212.

[2] Ədik Kaşğaridə (Kilisli, I, s. 64; [Ramiz Əskər, I, s. 136]) də eyni mənada işlənir.

[3] Yalnız qadınlarınkının boğazı eyni uzunluqdadımı? Bu xüsus yaxşı məlum deyil. Bu gün Maraş bölgəsində qadınların geydikləri ediklərin boğazları çox qısadır.

[4] Misirin fəthindən sonra Osmanlı xidmətinə girən çərkəz məmlükləri müəllif İbn İyasın ifadəsi ilə: türk qılığını buraxıb, türkmən qiyafəsinə girmişdilər və bu arada ayaqlarına da soqman keçirmişdilər (V, s. 75, 216).

[5] İbn İyas, göstərilən yer.

[*] Küpə - türkcə sırğa deməkdir (təcüməçi).

[6] Gökyay, s. 23, 57; Ergin, 113, 175.

[7] Bu xüsusda bax: F.Köprülü. Altın küpəli oğuz bəyləri. Azərbaycan yurd bilgisi, İstanbul, 1932, sayı I, s. 17-21.

[8] Gökyay, s. 28, 68; Ergin, s. 122, 188.

lar bəzən öz yurdlarındakı ovlaqlarda və qoruqlarda tək, bəzən də içlərindən birinin dəvəti ilə kollektiv şəkildə ovla məşğul olurdular. Başlıca ov heyvanları qaçarlardan maral, ceyran, uçarlardan da qaz, ördək, kəklik və göyərçin idi. Bəslənən ov quşlarından qırğı, şahin və sunqurun adları çəkilir[1].

Osmanlı ov təşkilatında xüsusi atmacaçılar, qırğıçılar, çakırçılar, şahinçilər var idi[2]. Türkiyədə son zamanlarda atmaca, doğan və şahin ilə ov edilirdi. Atmaca sərçə və bıldırçın kimi kiçik quşlar, qırğı əsasən kəklik, şahin və kəkliklə bərabər qaz, ördək ovlamaq üçün istifadə edilirdi. Dastanların birində ov ilə əlaqədar bir adətdən bəhs edilir. Bu adətə görə başqasının torpaqları içində ov edən bir adamdan torpaq sahibi pay ala bilərdi[3]. Digər türk ölkələrində də olan bu adətin[4] əsası hazırda Anadoluda yaşamaqdadır.

Müxtəsəri, oğuz bəylərinin həyatında ovçuluğun mühüm bir yeri var idi.

## 14. ƏYLƏNCƏLƏR

Dastanlarda bəlli zamanlarda keçirilən bayram və şənliklərə dair heç bir şey söylənilmədiyi kimi, tarixi əsərlərdə də bu mövzu ilə əlaqədar hər hansı məlumata rast gəlinmir. Biz dastanlarda bəylərin tez-tez toy verdiklərini görürük.

Toy ziyafət deməkdir. Toylar doğum, bəy oğlunun ilk ovu, bir diləklə əlaqədar, bir fəlakətdən qurtarmaq, müxtəsəri, hər hansı bir sevinc vəsiləsilə verilirdi. Toyların digər türk qövmlərində olduğu kimi, oğuzların ictimai həyatında da mühüm bir yeri vardı. Toylar yalnız bəylərə deyil, xalqa da verilirdi. Bu, o qədər əsaslı bir ənənə idi ki, oğuzlarda və digər türk qövmlərində siyasi və ictimai quruluşun mühafizəsi toylarla çox yaxından əlaqədar idi. Bəylərbəyi Salur Qazan bəy üç-ox və boz-ox bəyləri ordasına gələn zaman (ildə bir dəfə) onlar üçün böyük bir toy verərdi. Toyda yeyilib-içildikdən sonra Qazan xatununun əlindən tutub eşiyə çıxar, toya dəvət olunanlar toyun verildiyi yerdəki bütün əşyaları yağmalayardılar. Yağmadan sonra bəylər Salur Qazanı salamlayar və atlarına minib, yurdlarına dönərdilər. Ancaq Salur Qazan adətin əksinə olaraq son dəfə evini yalnız üç-ox bəylərinə yağmalatmışdı. Boz-ox bəylərinin toya, yağmaya dəvət edilməməsinin səbəbi məlum deyildir. Qazanın bu hərəkəti boz-oxların başçısı Aruz Qocanın üsyan etməsinə və bir daxili döyüşə səbəb olmuşdur. Türklər Yaxın Şərq ölkələrinə gəldikdə digər ənənələrlə yanaşı bu yağmalı toy adətini də gətirmişdilər.

---

[1] Ergin, s. 85, 122, 179, 216, 218.
[2] İ.H.Uzunçarşılı. Osmanlı dövlətinin saray təşkilatı. (TTK), Ankara, 1945, s. 420-425.
[3] Ergin, s. 122.
[4] H.Ərən. Dədə Qorqud kitabına aid notlar, pay istəmək, pay vermək. Türk dili və tarixi haqqında araşdırmalar. (TTK), 1950, s. 33-37.

Fars dilində olan mənzum və mənsur əsərlərdə görünən «xani-yağma» (yağma süfrəsi) sözü bu yağmalı toyu ifadə edir.

Səlcuqlulardan başqa, Suriya atabəyləri dövlətində (zəngilər) və osmanlılarda da bu adətin davam etdiyi özünü göstərir[1].

Dastanlarda uşaqların və gənclərin oynadıqları aşıq oyunundan da bəhs edilir. Bu, milli bir oyundur. Göytürklər dövründə bu oyunun oynandığı məlum idi, bu oyun indi də Türkiyədə oynanmaqdadır. Qədim zamanlardan bəri kürək sümüyü və aşıqla fala baxmaq türklərin adətlərindən biridir[2].

## 15. DAVRANIŞLARI

Dastan qəhrəmanları soyuqqanlı insanlar kimi görünmürlər. Onlar qarşılaşdıqları hadisələrə daşqın və coşqun reaksiya göstərirlər. Beləcə, «acığı tutanda» yəni hirslənəndə bığlarından qan sızan, yaxud qara daşı kül edən igidlərin, sevdikləri əsir düşəndə və ya öləndə «böyürə-böyürə» ağladıqları gözə çarpır.

Bəylər başqa qövmlərin əsilzadələri kimi məğrur, şərəf və heysiyyətlərinə son dərəcə düşkün insanlar idi. Haqlarında danışılan ən kiçik dedi-qoduya laqeydlik göstərməzdilər. Belə hallardan ölümü üstün tutardılar. Dirsə xan övladı olmadığı üçün qara otaqda oturdulmuş, qabağına qara qoyun yəxnisi qoyulduğu üçün çox mütəəssir olmuş və Bayındır xanın ordasını tərk etmişdi[3]. Yenə bəylərdən Bəkil ovçuluqdan məharətinin özündən deyil, atından gəldiyini deyən Bayındır xana və ya Qazana «alplar içində bizi qusqunumuzdan palçığa batırdın» deyərək acıqlı bir halda ordasına getmişdi[4]. Şəxsən Salur Qazan o biri bəylərin «çoban olmasaydı, Qazan kafiri ala bilməzdi» sözləri ilə başına qaxınc qalxacaqlarından qorxaraq Qaracıq çobanın yardımını rədd etmişdir[5]. Qanturalı da[6] dəvə ilə güləşərkən sevgilisi Selcan xatundan «dəvənin burnundan yapış» sözlərini eşidəndə özü-özünə demişdi:

---

[1] Bu xüsusda bəzi misallar üçün: F.Sümər. Həmin əsər, s. 442, haşiyə 379.

[2] Aşıq ilə fala baxmaq adəti ilə əlaqədar bir-iki tarixi misal üçün: F.Sümər. Həmin əsər, s. 442-443, haşiyə 384.

[3] Gökyay, s. 4; Ergin, s. 79.

[4] Gökyay, s. 91; Ergin, s. 217-218.

[5] Gökyay, s. 18; Ergin, s. 105.

[6] Qədim hədis kitablarında və məşhur ərəbcə lüğətlərdə Qantura oğullarının türklər və ya onlardan bir qövm olduğu söylənir (Mətn üçün: F. Sümər. Həmin əsər, s. 400). XIV əsrdə Aydın bölgəsindəki yörüklər arasında Qantura adlı bir oymaq var idi. Qanturanın bəzəkli bir paltar və ya qaftan kimi bir geyim adı olduğu da güman edilir; «qanturanın incə saçaqları dizinə tökülmüş» (Misallarla darama sözlüyü. TDK, Ankara, 1954, 111, s. 400; XIV əsrə aid olduğu sanılan Əbu Müslim kitabından). Əgər bu oxunuş şəkli doğrudursa, bizə görə, dastan qəhrəmanının adı və ya ləqəbi buradan götürülmüşdür. Lakin həqiqət olan bir şey var ki, o da Qanturalının E.Rossinin irəli sürdüyü kimi (həmin əsər, s. 33, 63) ağqoyunlu Tur Əli bəy ilə qətiyyən əlaqəsi olmadığıdır.

«mərə, mən bu dəvənin burnuna yapışacaq olsam, qız sözü ilə yapışdı derlər. Yarın oğuz elinə xəbər vara, dəvə əlində qalmışdı, qız qurtardı, deyələr»[1].

Dastanlarda «dəstursuzca», yəni izin almadan döyüşən adamın yağısına girişməyin, düşməninə hücum etməyin eyib olduğu israrla bildirilir. Hətta bəylərdən Şir Şəmsəddin «dəstursuzca Bayındır xanın yağısın» basmaqda ad çıxarmışdı[2]. Bu xüsus, yəni izin almadan bir adamın bir boyun, bir elin düşməninə hücum etməsinin eyib sayılması başlanğıcda əldə ediləcək doyumluğa (qənimətə) ortaq olmaq məqsədi ilə əlaqədar sayılırdı. Çünki türklərdə də hər yerdə olduğu kimi, döyüşün əsil qayəsi qənimət əldə etmək idi. Daha sonralar bu düşüncə (qəflətən, icazəsiz hücumun eyib sayılması) şərəf və heysiyyəti qorumaq duyğusuna çevrilmişdir.

Qəhrəmanların sevinclərini bildirən hərəkətlərdən biri də qas-qas gülməkləri idi[3]. Bu gün Anadoluda bu sözdən hələ də istifadə edilir. Sevincli bir xəbər «muştuluq» və «gözün aydın» sözləri ilə bildirilirdi[4]. Döyüşlərdə düşməni məğlub etdikdə və ya hər hansı bir təhlükədən qurtardıqda qul və qaravaş (kişi və qadın kölə) azad edərdilər. Salur Qazan bəy Şöklü Məliyi məğlub etdiyi zaman 40 qul və 40 qırnaq (qaravaş-cariyə) azad etmiş, onları azadlığa çıxartmışdı[5]. Salnaməçilər Fateh Sultan Məhmədin də Otluqbeli döyüşündə qələbə qazanması münasibətilə 40.000-dən artıq qul və qaravaş azad etdiyini yazırlar[6].

Oğuzlar heyrətlərini əsasən bir əlini digərinə vurmaqla bildirirdilər[7]. Bu davranış gözlənilməyən sevindirici və ya kədərləndirici, hiddətləndirici bir hadisə və xəbərə ani reaksiya idi. Həmin davraniş forması indi də Türkiyədə özünü göstərir[8].

---

[1] Gökyay, s. 71-75; Ergin, s. 192, 196.

[2] Gökyay, s. 13, 23, 57; Ergin, s. 112, 177. (Qanturalı düşmənlə çarpışarkən yardımına gələn, məchul bir igid sandığı sevgilisi Selcan xatuna belə deyir:

> Qalxıbanı yerindən duran
> İgid, nə igidsən?
> Yeləsi qara qazlıq atına minən
> İgid, nə igidsən?
> Qafillicə başlar kəsən,
> Dəstursuzca mənim yağıma girən
> İgid, nə igidsən?
> Dəstursuzca yağıya girmək
> Bizim eldə eyib olur (Ergin, s. 195).

[3] Gökyay, s. 31, 46; Ergin, s. 128, 146. Bu söz qədim osmanlı tarixlərində də işlənir. (Məsələn: Nəşri, I, s. 303).

[4] Gökyay, s. 43, 44, 85, 104, 105.

[5] Gökyay, s. 24, 58; Ergin, s. 115, 176.

[6] Sədəddin. Tac üt-təvarix. İstanbul, 1279, I, s. 542.

[7] Gökyay, s. 40, 46; Ergin, s. 143, 157.

[8] Bununla əlaqədar bir-iki tarixi misal üçün: F.Sümər. Həmin əsər, s. 444, haşiyə 399.

Dastanlarda görünən digər bir adət də qəhrəmanlar öldükdə atlarının kəsilib yuğ aşı (ehsan - tərcüməçi) verilməsi barədə onların vəsiyyətidir[1]. Bu, çox qədim bir türk adəti idi. Göytürklər zamanında ölənin atlarının özü ilə birlikdə basdırıldığını və ya kəsildiyini bildiyimiz kimi[2], X əsrdəki oğuzlarda da ölənin atlarının kəsilib ətinin yeyildiyini görürük. Bu gün də Türkiyədə bir adam öləndə yemək bişirilib xalqa paylanır[3]. XI dastanda ölülərə aş (yemək) verildiyindən də bəhs edilir[4]. Türklərdə və monqollarda belə bir adətin olduğunu bilirik[5].

Üç-ox – boz-ox arasındakı qardaş qırğınını göstərən sonuncu dastanda ölüm ayağında olan Beyrək atının quyruğunun kəsilməsini tələb etmiş, yoldaşları da bunu yerinə yetirmişdilər[6]. Bu da çox qədim bir türk adəti idi. Altay və Pazırıq qazıntılarında tapılan atların bizim qəhrəmanların atları kimi özləri ayğır, quyruqları da kəsikdir[7]. Buraya qədər yazdıqlarımızdan osmanlı xanədanının çox qədim türk adətlərini yaşatdığı aydınlaşmış olur. Deməli, hunlar dövründən gələn, ölənin atının quyruğunun kəsilməsi adəti də bunlardan biri idi.

Yavuz Səlimin böyük qardaşı Əhməd bəyin oğlu Süleyman bəy gənc yaşında 919-cu ildə (1513) Misirdə taundan vəfat etmişdi. Qəşəng bir gənc olan Süleyman bəyin dəfn mərasimi Anadolu türklərinin adəti üzrə keçirilmişdir. Yəni məhrum şahzadənin tabutunun önündə quyruqları kəsilmiş, yəhərləri tərsinə çevrilmiş olan atları aparılmış, sındırılmiş yay-oxu da tabutunun üzərinə qoyulmuşdu[8].

Dastan qəhrəmanlarının fəzilət duyğularına gəlincə, bunlar başlıca olaraq cəsur və mərhəmətli olmaq, gücsüzləri qorumaq, yoxsullara yardım et-

---

[1] Ergin, s. 170, 228.

[2] S.Jülyen. Tou-kieu (türklər) haqqında sənədlər. Asia jurnalı, 1864, s. 241. Əbdülqadir İnan. Şamanizm, 1954, s. 177-178; yenə onun: Altay dağlarında tapılan qədim türk məzarları. Belleten, sayı 43, s. 569-570.

[3] Ölü üçün verilən yeməyə dair bəzi tarixi misallar üçün: F.Sümər. Həmin əsər, s. 447, haşiyə 411.

[4] XI dastanda Salur Qazanın Tuman qalasının təkuru tərəfindən əsir alınması göstərilir. Salur Qazan qaladakı bir quyuya salınmışdı. Təkurun arvadı adını çox eşitdiyi Qazanın yanına gedir və ona: «Qazan bəy, nədir halın, dirliyin, sənə yer altındamı xoşdur, yoxsa yer üstündəmi xoşdur? Həm indi nə yersən, nə içərsən, nə binərsən» deyir. Qazan da «ölülərinə aş verdiyin vaxt əllərindən alıram, həm ölülərinizin yorğasına binərəm, kahillərin yedərəm» cavabını verir (Ergin, s. 235).

[5] V.Barthold. Türklərdə və monqollarda dəfn mərasimi. Türkcə tərcüməsi: Əbdülqadir İnan. Belleten, № 43, s. 530; Əbdülqadir İnan. Həmin əsər, s. 192-193.

[6] Gökyay, s. 117-118; Ergin, s. 248.

[7] Əbdülqadir İnan. Altayda Pazırıq qazıntılarında çıxarılan atların vəziyyətinin türklərin dəfn mərasimi baxımından izahı (II türk tarix konqresi, TTK, İstanbul, 1913, s. 142-151).

[8] Səlcuqlu hökmdarı Məlikşahın oğlu Davudun ölümü münasibəti ilə məmləkətin dörd bir yanından hökumət mərkəzi İsfahana toplaşıb yas tutan türklər də misirli salnaməçinin göstərdiyinə görə, atlarının yəhərlərini tərsinə çevirmişdilər.

məkdir. Zəiflərə, qocalara sataşan və yolçulara, çobanlara hücum edənlər onlar nəzərində pis adamdır. Dastanların dili ilə, Alınca qalasının kafirləri oğuz elindən əsir tutduqları Uşun Qoca oğlu Əyrəyi onu qurtarmağa gələn qardaşı Səyrək ilə döyüşdürmək üçün ona qardaşı haqqında: «şunda bir dəli igid yolçunun-yolaqçının, çobanın-çoluğun ətməyin alır»[1] demişdilər.

Yoldaşları Dirsə xanda oğluna nifrət yaratmaq üçün oğlunun gözəl qızları ram etdiyi, qocalara həqarətdə bulunduğu barədə iftiralar söyləmişdilər[2]. Bir az yuxarıda dastan qəhrəmanlarının tez əsəbiləşən insanlar olduqlarını söyləmişdik. Lakin onlar sevdiklərinə qarşı şəfqətli, şirindilli olduqları kimi, düşmənlərinə qarşı da mərhəmətli davranır, döyüşlərdə aman istəyəni öldürmürdülər[3]. Beyrək onun öldüyünü söyləyərək sevgilisi ilə evlənmək üzrə olan Yalançı oğlu Yartacuğu ayağına düşdüyü və qılıncının altından keçdiyi üçün əfv etmişdi[4].

Dastanlarda göstərilən alp elə bir cəsur, təmkinli, mərhəmətli, zəifləri qoruyan (qalmış igid arxası), öyünməyi sevməyən insandır ki, bu günkü millətlərin qəhrəman tipinin eynidir. Alplar bir-birinin adını soruşmazdılar, bu, nəzakətsizlik sayılırdı[5]. Bu gün belə kəndlilər arasında birinin adını nəzakət ifadə edən bir kəlmə ilə soruşurlar[6].

Alpları qorxutmaq, cəsarətlərini qıran sözlər söyləmək də onlar arasında eyibli bir davranış idi[7].

Bütün tarixləri boyunca türklər üzərində ictimai bir ruh hakim olmuşdur. Onlar sevinci də, fəlakəti də hamılıqla, birlikdə qarşılayardılar. VIII əsrdəki göytürk kağanının «Türk budunu üçün gündüz uyumadım, gecə uyumadım» deməsi bu ruhun gözəl bir ifadəsidir. Xaqan, sultan və bəyin vəzifəsi xalqı özlərindən narazı salmamaq və onlara firavan bir həyat təmin etməkdi

Dastanlarda acları doydurmaq, çılpaqları geydirmək, borclunu borcdan qurtarmaq başlıca mənəvi hərəkətlərdən sayılır. Salur Qazana dair «Şəcəreyi-tərakimə»dəki mənzumədə onun 41 atın ətini bir qazana doldurub bu əti əli ilə xalqa payladığı yazılmışdır. Osmanlı salnaməçiləri də Osman və Orxan bəylərin öz əlləri ilə yoxsullara aş payladıqlarını yazırlar[8].

---

[1] Gökyay, s. 102; Ergin, s. 230.
[2] Gökyay, s. 67; Ergin, s. 83-84.
[3] Gökyay, s. 24; Ergin, s. 115.
[4] Gökyay, s. 44; Ergin, s. 151.
[5] Təpəgöz belə bu nəzakət qaydasına əməl edir (Ergin, s. 211, 241).
[6] Məsələn, «Adını bağişlayarsanmı?» deyilir.
[7] Ergin, s. 187, 223.
[8] «Və Osman Qazi qayət saleh müsəlman bir adam idi və üç gündə bir dəfə xörək bişirib yoxsulları və dilənçiləri bir yerə yığıb yedirtməyə, çılpaqları geydirib yola salmağa və dul qadınlara sədəqə verməyə adət etmişdi» (Nəşri, I, s. 72, 73, 163).

Yenə dastanlarda quru çaylar üzərində körpü salmaq, uzaq yollar kənarında imarətlər qurmaqdan bəhs edilir[1]. Birinci hissədə türk hökmdarlarının və bəylərinin idarə etdikləri yerləri cami, mədrəsə, xəstəxana, imarət, karvansara, hamam və körpülər ilə bəzədikləri qısaca qeyd edilmişdi. Bu gün bu abidələrin bir qismi onların bu sahədə göstərdikləri böyük xidmət və qeyrətin yadigarı kimi zamanımıza qədər gəlmişdir. Ancaq bu əsərlərə can verən sultan və bəylərin yaşadıqları binalar o qədər sadə şeylər idi ki, indi çoxunun yeri bilinmir.

## 16. DASTANLARIN ƏHƏMİYYƏTİ

İgidləri mürüvətli,
Qocaları dadlı və hörmətli oğuz.
*(Naməlum ozanın sözü)*

Dədə Qorqud dastanları, daim təkrar etdiyimiz kimi, Türkiyə, Azərbaycan, İran və Türkmənistan türklərinin, yaxud ümumi bir terminlə, Qərb türklərinin bizə məlum olan qədim dastanlarıdır. Bu dastanlar oxuyanların təsdiq etdikləri kimi, dağ çiçəkləri qədər gözəldir. Hətta bu dastanların milli ədəbiyyat baxımından nəsr sahəsində oğuz türkcəsinin əvəzsiz bir şahəsəri olduğunu söyləmək belə mümkündür. Bu dastanlarda türk dili Yunus Əmrənin şeirlərində olduğu kimi, nə qədər axıcı, nə qədər incə, hətta nə qədər parlaqdır!

Dastanların mahiyyətinə gəlincə, onlar - ən mühümləri tarixi hadisələrlə səsləşən - orijinal, əlaqəli və zövqlə oxunan mövzulardır.

Bilirik ki, dastan qəhrəmanları döyüşkən bir ruha sahibdirlər. Hətta onlar arasında belə bir ruhda yetişdirilmiş qadınlar da diqqəti cəlb edir. Lakin təsdiq etmək yerinə düşər ki, çöllərdə belə bir ruh daşımadan həyat sürmək mümkün ola bilməzdi. Orada şiddətli qış və heyvanları kütləvi qıran yut xəstəliyi üzündən tez-tez aclıq fəlakəti ilə qarşılaşılırdı, hər an düşmən hücumları gözlənilirdi. Bu xüsus belə olmaqla bərabər qəhrəmanlar ümumiyyətlə təcavüzkar insanlar kimi görünmürlər. Onlar nəfslərini qorumaq, yaxın adamlarını qurtarmaq, özlərinə və ya yaxın adamlarına edilmiş pis hərəkətin qisasını almaq üçün cəhd göstərirlər.

Qəhrəmanlarımız köçəri bir cəmiyyətdə yaşasalar da, bu igidlərdə zamanımıza yaraşmayan heç bir davranış görünmür. Onlar qara qəlbli və hiyləgər adamlar olmayıb, əksinə, yoxsullara yardım edən, zəifləri qoruyan, rəhmdil, vəfalı, böyüklərinə ehtiram göstərən, amma şərəf və heysiyyət duyğularına sahib olan, qadınlara xor baxmayan mərd insanlardır. Bütün bunlar oğuzlardakı fəzilətli insan tipinin vəsfləridir. Hər halda alplar bütün bu mənəvi si-

---

[1] Gökyay, s. 64; Ergin, s. 184.

fətləri daşıyan insanlar olmalı idilər. Alplıq ruhu, şübhəsiz, sadəcə cəsarətdən gələn bəsit bir davranış deyildi.

XIV-XVI əsrlərdə Anadolu və Azərbaycandakı türk icmaları bu dastanlara atalara aid ən dəyərli xatirələr gözü ilə baxmışlar. Onlar atalarını həyata keçirdikləri böyük fütuhatlardan ziyadə bu dastanlar ilə sevmişlər. Yenə bu dastanların təsiridir ki, o əsrlərdəki türklər nəzərində oğuzlar cəsur və təmiz ürəkli insanlardır. Bu gün belə Türkiyənin bəzi bölgələrində oğuz sözü hiylə bilməz, pislik eləməz anlamında bir sifət kimi işlədilir.

Buna baxmayaraq yüksək təhsilli osmanlı müəlliflari bu dastanlara əhəmiyyət verməmişlər, hətta onları oxuyan ozanlar ilə istehzalı davranmışlar. Lakin ozanların bu əsəri, şübhəsiz, getdikcə daha geniş yayılmaq və hətta digər millətlər tərəfindən də tanınmaq surətilə əbədi olaraq oxunacaqdır. Buna qarşılıq osmanlı müəlliflərinin əsərləri unudulmağa məhkum olmasa belə məhdud sayda mütəxəssislər tərəfindən tanınacaqdır. Bu keyfiyyət onların türkcəni təbii yolundan çıxararaq əsərlərini süni bir dildə yazmalarının kədərli bir nəticəsidir. Ancaq etiraf etmək lazımdır ki, dastanlar bu gün belə türk ziyalıları tərəfindən yaxşı bilinməməkdə və məktəblərdə də oxudulmamaqdadır. Bu da, şübhəsiz, onların lazımi qədər tanıdılmamasından irəli gəlir. Bu işlər yerinə yetirildiyi təqdirdə bu milli və dəyərli əsərə layiq olduğu əhəmiyyətin veriləcəyi və məktəblərdə bütün türk uşaqlarına oxudulacağı bir həqiqətdir.

## XÜLASƏ

Burada dastanlar haqqında apardığımız araşdırmaların qısa bir xülasəsini vermək hər halda faydasız olmazdı.

Dastanlar X və XI əsrlərdə Sır-Dərya boyunda yaşayan oğuz elinə aiddir.

Dastanların qəhrəmanları da bu oğuz elinin bəyləridir. Bu bəylərin qonşu qıpçaq bəyləri ilə savaşlarına və öz aralarındakı çəkişmələrə dair xatirələr onların nəvələri tərəfindən Yaxın Şərqə gətirildi (ən dəqiq ehtimala görə, XIII əsrin birinci yarısında). Xatirələr böyük ehtimala görə, əsaslı surətdə burada dastanlaşdırıldı, XIV əsrin əvvəllərində yazıya alındı və «Oğuznamə» adı altında bir kitabda toplandı. Bu «Oğuznamə»nin təfərrüat baxımından əlimizdəkindən xeyli fərqli olmasına baxmayaraq, xatirələri daha dolğun bir şəkildə əks etdirdiyinə şübhə yoxdur. Lakin təəssüf ki, həmin «Oğuznamə» bu günə qədər aşkar edilməmişdir.

Xoşbəxtlikdən, dastanlar yüzlərlə ozanın hafizəsində yaşayırdı. Onlar dastanları hər tərəfə yaydılar və hər kəsə sevdirdilər. Hökmdar sarayları və şeyxlərin təkkələri belə bunların təsir dairəsindən kənarda qalmadılar. II Muradın sarayında bu dastanları oxuyan ozanlar vardı, habelə Fatehin nəvələrinə də Oğuz xan və Qorqud adları verilmişdi. Daha əvvəl də söyləndiyi kimi, osmanlılardan başqa heç bir türk xanədanında türk dastanlarının məşhur qəhrəmanlarının adlarına təsadüf edilməmişdir.

Ən qədim türk ənənələrini yaşadan bəktaşi təriqətinin yaradıcısı Hacı Bəktaşi Vəlinin mənqibələrinə aid olan «Vəlayətnamə»də bizim dastan qəhrəmanlarının da adları çəkilir. Bundan başqa, həmin təriqətin başçılarından olan Otman Babanın isə «Oğuznamə» dili ilə danışdığını və şeirlər söylədiyini bilirik.

Həmin dövrlərdə Otman Babanın bir istisna olmadığı da məlumdur. Gülşəni təriqətinin qurucusu İbrahim Gülşəni də (1510-cu ildə ölmüşdür) özünü bir çox şeyxlər kimi, peyğəmbər ailəsinə və ya peyğəmbərin əshabələrinə deyil, Oğuz ataya bağlayır, «Mənaqibnamə»sində də Oğuz xandan başlayan sülalələrdən bəhs edilir.

XVI əsrdə ozanların türk cəmiyyətinin mənəvi həyatında oynalıqları rol yenə şiddətlə davam edirdi. 1526-cı ildəki Mohaç savaşından bir gecə əvvəl keçirilən şənlikdə ozanların da qopuzları ilə dastan söylədiklərini bilirik.

Həmin əsrin ikinci yarısında, əvvəlcə söylədiyimiz kimi, əlimizdəki dastanlar yazıya alınmışdır. Beləliklə, bu dastanlar oğuz elinin yaşadığı tarixdən təxminən beş əsr sonra yazıya alınmışdır. Dastanların yenə XVI əsrin ikinci yarısında qədimdən bəri türk mədəniyyətini mənimsəmiş və sevmiş kürdlər arasında da geniş yayıldığı nəzərə çarpır. Oğuz xanın dastanlarda adı çəkilən «bıyığı qanlı» Büğdüz Əməni peyğəmbərə elçi göndərdiyi və Büğdüz Əmənin kürd olduğu haqqında kürdlər arasında dolaşan bir rəvayət[1] bu dastanları kürdlərin necə mənimsəmiş olduğunu açıq bir şəkildə göstərir. XV əsrin ikinci yarısında və ya XVI əsrin başlanğıcında İrana gedən və mənbələrdə kürd mənşəli olduğu söylənən xınıslı oymağının bəylərindən birinin dastan qəhrəmanlarından Salur Qazanın qardaşı Qara Günənin adını daşıdığı, bu bəyin oğlunun da Qara Günənin oğlu Budağın adı ilə yad edildiyi yuxarıda yazılmışdır. Bunun kimi, XVI əsrin ikinci yarısında Ərdəlan kürd bəylərindən birinin də adının Basat olduğunu bilirik[2].

Söyləndiyi kimi, dastanların ana xəttini oğuzların öz qonşuları qıpçaqlar ilə döyüşləri və öz aralarında apardıqları qardaş qırğınları təşkil edir. Bunlar II və XII dastanlarda nəql olunur. II dastandan aydınlaşdığına görə, başlarında Şöklü Məlikin durduğu qıpçaqlar Salur Qazanın oğuzlarına qarşı döyüşdə qələbə əldə etsələr də, Salur Qazan parlaq bir zəfərlə bu məğlubiyyətin qisasını almışdır. Salur Qazanın böyük şöhrətinin və Oğuz bəylərinin başçısı dərəcəsinə yüksəlməsinin bu müvəffəqiyyətlə möhkəm əlaqəsi olduğu şübhəsizdir. Dastanlarda adları çəkilən Şöklü Məlik, Buğacıq Məlik, Qara Tükən Məlik və Dəmir Yaylı Qıpçaq Məlik isə oğuz bəylərinin düşmənləri olan qıpçaq bəyləridir.

Qardaş qırğınını göstərən XII dastana gəlincə, burada daha əvvəl deyildiyi kimi, üç-oxlar (iç oğuz) ilə boz-oxlar (dış oğuz) arasında gedən döyüşdə boz-oxlar məğlub olmuş, onların başçısı Aruz Qoca isə öldürülmüşdür. Gözəlliyi, kübarlığı və incəqəlbliliyi ilə «Oğuzun imrənçəsi» ləqəbini almış Bamsı Beyrəyin də bu qardaş qırğınının qurbanı olduğunu bilirik.

Basatın Təpəgözü öldürdüyü boyda (dastanda), zənnimizcə, olmuş bir hadisə təsvir edilir. Yəni Təpəgöz ehtimal ki, bir qıpçaq bəyini təmsil edir. Bu qıpçaq bəyi ilə vuruşmada oğuzlar, ən çox da boz-oxlar (dış oğuz), məğlubiyyətlərə uğramış, onların bir çox görkəmli bəyləri öldürülmüşlər. Bunlar boz-oxların başçısı Aruz Qocanın oğlu Qıyan Səlcuq, Düzən oğlu Rüstəm, Dəmir Donlu (yəni zirehli) Mamaq və iki qardaşı ilə birlikdə Aruq Candan

[1] Şərəf xan. Şərəfnamə, s. 32.
[2] Həmin əsər, s. 123-124.

idilər. Aruz Qocanın kiçik oğlu Basat sonra Təpəgözü məğlub edərək onun boz-oxlara çəkdirdiyi iztirabların qisasını almışdır.

Digər dastanlardan bir çoxu qəhrəmanların dustaq edilməsini göstərir. Bu da baş verən axınlar və basqınlar nəticəsində ucsuz-bucaqsız bozqırlarda hər zaman mümkün olan bir hadisədir.

Əlimizdəki dastanlar çox gec yazılmış olmaqla bərabər, onlarda daha qədim türk ənənələri görünür.

XVI ƏSRDƏ ANADOLUDA OĞUZ
BOYLARINA AİD YER ADLARI

1. KAYI

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Kayı Mahmud | Əkinlik | Aksaray | Bəkir | - |
| Kayıcık | Kənd | Aksaray | Aksaray | 27 |
| Qızıl Kayı | Kənd | Aksaray | Əyyubeli | - |
| Kayıcık | Kənd | Akşəhir | İsaqlu | 66 |
| Kayı | Kənd | Amasya | Gədikgələn | 24 |
| Kayı | Kənd | Amasya | Yavaş | 52 |
| Kayı | Kənd | Amasya | Yavaş | 20 |
| Kayı | Əkinlik | Amasya | Simrən-lədik | 12 |
| Kayı, digər adı Yusif Şeyx | Kənd | Ankara | Ayaş | - |
| Kayı | Əkinlik | Ankara | Qəsəbə | 18 |
| Kayıcıq | Kənd | Ankara | Qəsəbə | 39 |
| Kayıcıq | Kənd | Ankara | Murtazaabad | 5 |
| Kayı, digər adı Qaraca Qaya | Kənd | Aydın | Yenişəhr | - |
| Kaya, digər adı Kayılu | Kənd | Aydın | Birgi | 28 |
| Kayı | Kənd | Bəyşəhri | Göçü | 33 |
| Kayılu | Kənd | Bəyşəhri | Göçü | 39 |
| Kayı | Kənd | Biqa | Çan | 6 |
| Kayı | Kənd | Bolu | Gərədə | 34 |
| Kayı | Kənd | Bolu | Gərədə | 12 |
| Kayı | Kənd | Bolu | Gərədə | 3 |
| Karandı və Kayı | Kənd | Bolu | Taraqlı-borlu | 36 |
| Kayı | Kənd | Bolu | Taraqlı-borlu | 17 |
| Kayı | Kənd | Bolu | Kıbrıs | 188 |
| Kayı | Kənd | Boz-ox | Sarğun | 45 |
| Kayı | Kənd | Canik | Kavaq | 34 |
| Kayı | Kənd | Canik | Satılmış və Bayramlu | 16 |
| Kayı | Kənd | Çorum | Divani-əmlak | 24 |
| Kayı | Kənd | Çorum | Divani-xəlfi | 6 |
| Kayı | Kənd | Çorum | İskilib | 4 |

| | | | | |
|---|---|---|---|---|
| Kayıcuq | Kənd | Çorum | İskilib | 29 |
| Kayı | Kənd | Ərzurum | Kəmah | 54 |
| Kayıcıq | Kənd | Ərzurum | Kəmah | 5 |
| Kayı-Yayla | Kənd | Hamid | Gölhisar-Qaraağacı | 132 |
| Kayı | Kənd | Hamid | Döyran | 9 |
| Kayı | Kənd | Hamid | Siroz | 72 |
| Kayılu | Kənd | Hamid | Ulu-borlu | 40 |
| Kayı | Kənd | Hamid | İsparta | 123 |
| Kayıcuq | Kənd | Hamid | Göl-hisar | 44 |
| Kayı | Kənd | Xudavəndigar | İnəgöl | 12 |
| Kayı | Kənd | Xudavəndigar | Qarahisarı-nallu | 38 |
| Kayı | Kənd | Qarahisari-Sahib | Barçınlu | 58 |
| Kayı-Xan | Kənd | Qarahisari-Şərqi | Şəmsəddin | 56 |
| Kayı | Kənd | Qarahisari-Şərqi | Bökmən | 10 |
| Kayı | Kənd | Qarahisari-Şərqi | Suşəhri | - |
| Kayı | Kənd | Qarahisari-Şərqi | Akşəhirabad | 11 |
| Kayı | Kənd | Kastamonu | Kastamonu | 27 |
| Kayı | Kənd | Kastamonu | Boy ovası | 19 |
| Kayı | Kənd | Kastamonu | Daş körpü | 9 |
| Kayı | Kənd | Kastamonu | Daday | 203 |
| Kayı | Kənd | Kastamonu | Sinob | 4 |
| Kayı | Kənd | Kastamonu | Sinob | 15 |
| Kayı | Kənd | Karasi | Boğaz-hisar | 10 |
| Kayı | Kənd | Karasi | Ayazmənd | 13 |
| Kayı | Kənd | Kanqırı (Çankırı) | Tosya | 95 |
| Axa Kayı | Kənd | Kanqırı | Qoç-hisar | 15 |
| Axa Kayı | Kənd | Kanqırı | Qoş-hisar | 10 |
| Bozar Kayı | Kənd | Kanqırı | - | - |
| Xatun Kayısı | Kənd | Kanqırı | Qurşunlu | 28 |
| Aşğa Kayı | Kənd | Kangırı | Qarı bazarı | 45 |
| Yuxarı Kayı | Kənd | Kanqırı | Qarı bazarı | 60 |
| Kayı | Kənd | Kırşəhri | - | 6 |
| Kayı | Kənd | Konya | Qaş | 58 |
| Kayı Üyüyü | Kənd | Konya | Səhra | 1 |
| Kayı | Kənd | Konya | Xatun-saray | - |
| Kayı Üyüyü | Kənd | Konya | Larəndə | 17 |
| Kayı | Kənd | Konya | İn suyu | 18 |
| Yenicə Kayı | Kənd | Konya | Səndəli | 51 |

| | | | | |
|---|---|---|---|---|
| Kayı | Kənd | Konya | Bayad | 71 |
| Ulu kayı | Kənd | Kütahya | Uşaq (Banaz) | 73 |
| Kiçik Kayı | Kənd | Kütahya | Uşaq (Banaz) | 3 |
| Kayı | Kənd | Kütahya | Əyri göz | 56 |
| Yavı Kayı | Kənd | Kütahya | Geyiklər | 19 |
| Kayı | Kənd | Kütahya | Şeyxlu | 29 |
| Kayı | Kənd | Kütahya | Sazanos | 24 |
| Kayı və Qoz dərəsi | Kənd | Kütahya | Dovşanlu | 18 |
| Kayıcuq | Kənd | Kütahya | Şeyxlu | 10 |
| Kayı | Kənd | Məntəşə | Balat | 10 |
| Kayı | Kənd | Məntəşə | Balat | - |
| Kayı və Daş Kayı | Kənd | Məntəşə | Göycüyəz | 468 |
| Kayı | Kənd | Məntəşə | Məkri | - |
| Kayılu | Kənd | Məntəşə | Cinə | 5 |
| Kayılu | Kənd | Məntəşə | Burnaz | 9 |
| Kayı | Kənd | Niyde | - | 386 |
| Kayı | Kənd | Saru-xan | Ak-hisar | 12 |
| Kayılu | Kənd | Saru-xan | - | 8 |
| Kayıcıq | Kənd | Sivas | Sivas | 39 |
| Kayı | Əkinlik | Sivas | Qoç-hisar | - |
| Kayı | Əkinlik | Sivas | Sivas | - |
| Kayıcıq | Əkinlik | Sivas | Sivas | - |
| Bəy Kayı | Kənd | Sivas | Zilə | 108 |
| Kayı-Kolan? | Kənd | Sivas | Daşabad | 94 |
| Kayı | Kənd | Sivas | Tokat (Gəlmufad) | 9 |
| Kayıcıq | Kənd | Sivas | Tokat (Tozanlu) | 9 |
| Kayı | Kənd | Sultan-önü | Qaracaşəhir | 30 |
| Kayı | Kənd | Sultan-önü | Qaracaşəhir | 36 |

## II. BAYAD (BAYAT)

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Bayad | Kənd | Ağşəhir | İlğın | 22 |
| Bayad | Kənd | Amasya | Yavaş | 34 |
| Bayad | Kənd | Amasya | Simrei-lədik | 41 |
| Bayad | Kənd | Amasya | Simrei-lədik | 80 |

| | | | | |
|---|---|---|---|---|
| Bayad | Kənd | Amasya | Yabanabad | 12 |
| Bayad | Kənd | Ankara | Qəsəbə | - |
| Qaraca-Bayad | Kənd | Bəyşəhri | Göçü | 60 |
| Yağlu-Bayad | Əkinlik | Bəyşəhri | Göçü | 53 |
| Bayad-Üyüyü | Kənd | Bəyşəhri | Qıreli | 58 |
| Bayad | Əkinlik | Biqa | Avinə | 45 |
| Bayad | Əkinlik | Boz-ox | Hüseyn-ova | - |
| Bayad | Əkinlik | Hamid | Avşar | - |
| Bayad | Kənd | Xudavəndigar | Söyüd | 9 |
| Bayad | Kənd | Xudavəndigar | Tarhala | 30 |
| Bayad | Kənd | Xudavəndigar | Berqama | 57 |
| Bayad | Kənd | Xudavəndigar | Bəhram | 86 |
| Ulu Bayad | Kənd | Qarahisari-Sahib | Qarahisari-Sahib | 26 |
| Bayad | Kənd | Qarahisari-Sahib | Barçınlı | 64 |
| Bayad | Kənd | Qarahisari-Sahib | Ulu siçanlı | 5 |
| Bayad | Kənd | Qarahisari-Sahib | Şuhut | 8 |
| Bayad (digər adı Yayçılar) | Kənd | Karasi | Sındırğı | 29 |
| Bayad | Kənd | Karasi | Baş | 19 |
| Bayad (Yayçılar) | Kənd | Karasi | Sındırğı | 17 |
| Bayad | Kənd | Karasi | Manuas | 11 |
| Bayad | Kənd | Kastamonu | Qoz-yaxa | 14 |
| Bayad | Kənd | Kastamonu | Daday | 51 |
| Yazı-Bayad | Kənd | Qeysəriyyə | Qara Hisar | 15 |
| Balum-Bayad | Əkinlik | Kanqırı | Kanqırı | - |
| Bayad | Kənd | Kanqırı | Tosya | 34 |
| Bayad | Əkinlik | Qocaeli | Yalaqabad | - |
| Bayad | Kənd | Konya | Xatun-saray | 25 |
| Bayad | Kənd | Konya | - | 42 |
| Bayad | Kənd | Konya | Səhra | 64 |
| Bayad | Kənd | Kütahya | Şeyxlu | 44 |
| Bayad | Kənd | Kütahya | Kütahya | 27 |
| Bayad | Kənd | Kütahya | Uşak | 31 |
| Bayad | Kənd | Malatya | Erğavun | - |
| Bayad | Kənd | Malatya | İç-el | 56 |
| Bayad | Kənd | Məntəşə | Məkri | - |
| Bayad | Kənd | Saru-xan | Gözəlhisar | - |
| Bayad | Kənd | Saru-xan | Kördüs | 62 |
| Bayad | Kənd | Sivas | - | - |

## III. ALKA-BÖLÜK (ALKA-EVLİ)

Bu boya aid heç bir yer adına rast gəlinmədi.

## IV. QARA-BÖLÜK (QARA-EVLİ)

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Qara-Evlu | Kənd | Bolu | On iki Divan | 49 |
| Qara-Evlu | Kənd | Bolu | On iki Divan | 28 |
| Qara-Evlu | Kənd | Bolu | On iki Divan | 6 |
| Qara-Evlu | Kənd | Bolu | On iki Divan | 3 |
| Qara-Evlu | Kənd | Kastamonu | Kastamonu | 57 |
| Qara-Evlu | Kənd | Kastamonu | Kastamonu | 21 |
| Qara-Evlu | Kənd | Sivas | Tokat (Turhal) | 57 |

## V. YAZIR

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Yazır | Kənd | Aksaray | Əyyub eli | 53 |
| Yazır | Kənd | Aksaray | Əyyub eli | 53 |
| Yazır | Kənd | Akşehir | Doğan hisarı | 7 |
| Yazır | Kənd | Ankara | Çubuq | 51 |
| Yazırlu | Kənd | Aydın | Alaşəhir | 40 |
| Yazırlu | Kənd | Aydın | Yenişəhir | 48 |
| Yazır | Kənd | Ərzurum | Kemah | - |
| Yazır və Dərə | Kənd | Hamid | İsparta | 80 |
| Yazır | Kənd | Hamid | Gölhisar Qaraağacı | 110 |
| Yazır | Kənd | Hamid | İrla | 37 |
| Yazır | Kənd | Hamid | Farnas | 246 |
| Yazır-Bisat | Kənd | Hamid | Farnas | 42 |
| Yazır | Kənd | Xudavəndigar | Sivri hisar | 175 |
| Yazır | Kənd | Qarahisari-Sahib | Bolvadin | 34 |
| Yazır | Kənd | Qarahisari-Şərqi | Kolye hisar | 5 |

| | | | | |
|---|---|---|---|---|
| Yazır | Kənd | Qeysəriyyə | Məşhəd | 37 |
| Yazır | Kənd | Qeysəriyyə | Çələbi eli | - |
| Yazır | Kənd | Kanqırı | Qurşunlu | 29 |
| Yazır | Kənd | Qırşəhri | Dinək | 53 |
| Yazır | Kənd | Qocaeli | Gökboza | 35 |
| Yazır | Kənd | Kütahya | Şeyxlu | 49 |
| Yazır | Kənd | Məntəşə | Əyyub eli | 53 |
| Yazır | Kənd | Sivas | Əyyub eli | 53 |
| Yazır | Kənd | Aksaray | Əyyub eli | 53 |
| Yazır | Kənd | Təkə | Antalya | 53 |

## VI. DÖYƏR

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi ve-rən əhali** |
|---|---|---|---|---|
| Döyər | Kənd | Aksaray | Əyyub eli | 11 |
| Döyər | Kənd | Akşehir | Elgün | 214 |
| Döyər | Kənd | Ankara | Murtazaabad | 17 |
| Döyər | Kənd | Boz-ox | Əmlak | 55 |
| Döyər dərəsi | Əkinlik | Boz-ox | Çubuq | - |
| Döyər | Kənd | Çorum | Osmancıq | 85 |
| Döyər (digər adı İli pınar) | Kənd | Hamid | İrla | 35 |
| Döyər | Kənd | Hamid | İsparta | 101 |
| Döyər | Nahiyə (yörə) | Qarahisari-Sahib | - | - |
| Döyər | Kənd | Karasi | Balıkesir | 37 |
| Qara Döyər | Əkinlik | Konya | Səhra | 246 |
| Döyəroğlu (digər adı Yenicə) | Kənd | Mardin | Dıraçlu | 42 |
| Döyər | Əkinlik | Qeysəriyyə | İslamlu | 175 |
| Döyər eli | Kənd | Kütahya | Şeyxlu | 34 |
| Döyər | Kənd | Sivas | Tokat (Qazabad) | 13 |
| Döyər | Kənd | Sivas | Artuqabad | 12 |
| Döyər | Kənd | Sultan önü | İn önü | 65 |

## VII. DODURĞA

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi verən əhali |
|---|---|---|---|---|
| Todurğa və Kemah | Kənd | Ankara | Qəsəbə | - |
| Todurğa | Nahiyə | Bolu | - | - |
| Aşağı Todurğa | Kənd | Bolu | Todurğa | 27 |
| Todurğa | Kənd | Bolu | Viranşəhr | 5 |
| Todurğa | Kənd | Bolu | Viranşəhir | 26 |
| Todurğa | Kənd | Bolu | Viranşəhir | 16 |
| Todurğa | Kənd | Bolu | Viranşəhir | 22 |
| Todurğa | Kənd | Bolu | Ulus | 19 |
| Todurğa | Kənd | Çorum | Osmancıq | 188 |
| Todurğa | Kənd | Hamid | Gölhisar Qaraağacı | 69 |
| Todurğa | Kənd | Xudavəndigar | Kepsut | 38 |
| Todurğa | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 16 |
| Todurğa | Kənd | Qarahisari-Sahib | Ulu siçanlu | 55 |
| Dodurğa | Kənd | Qarahisari-Sahib | Boy ovası | 13 |
| Dodurğa | Kənd | Kastamonu | Daş körpü | - |
| Kiçi Dodurğa | Kənd | Kastamonu | Boy ovası | 18 |
| Dodurğa | Kənd | Kastamonu | Sinob | 25 |
| Dodurğa | Kənd | Kastamonu | Sinob | 3 |
| Dodurğa | Kənd | Kanqırı | Milan | 105 |
| Dodurğa | Kənd | Məntəşə | Peçin | 16 |
| Dodurğa | Kənd | Məntəşə | Məkri | 111 |
| Dodurğa | Kənd | Sivas | Qoç-Hisar | 248 |
| Dodurğa | Kənd | Sivas | Artuqabad | 34 |
| Todurğa | Kənd | Təkə | Muslu | 21 |

## VIII. YAPARLI

Bu obaya aid bir yer adına rast gəlinmədi. Əlbistana bağlı Əsən-Dərə nahiyəsində bu ada yaxın bir kənd vardır ki, (vergi verən əhali sayı 56-dır), bu kəlmə Çaruqlu şəklində oxuna bilər.

# IX. AVŞAR (ƏFŞAR)

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi verən əhali |
|---|---|---|---|---|
| Avşar | Əkinlik | Aksaray | Aksaray | - |
| Avşar | Kənd | Akşəhir | Elgün | 45 |
| Avşar | Kənd | Akşəhir | Elgün | - |
| Bucaq Avşar | Kənd | Əlaiyyə | Cönkəri | 48 |
| Avşar | Kənd | Amasya | Ərqoma | 75 |
| Avşar | Kənd | Amasya | Yavaş | 50 |
| Avşar | Kənd | Ankara | Bacı | 14 |
| Yarımca Avşar | Kənd | Ankara | Ayaş | 25 |
| Boyalu Avşar | Kənd | Ankara | Ayaş | 71 |
| Avşar | Əkinlik | Ankara | Bacı | - |
| Avşarlu | Kənd | Aydın | Alaşəhir | 144 |
| Əfşar | Kənd | Bəyşəhri | Köçü | 56 |
| Bay-Afşar | Kənd | Bəyşəhri | Köçü | 77 |
| Əvşar-virani | Kənd | Biga | Gurgurum | 86 |
| Avşar | Kənd | Bəyşəhri | Balya | 38 |
| Avşar (Sultanlı adı ilə tanınmış) | Kənd | Bolu | Balya | 31 |
| Avşar | Kənd | Bolu | Qonur-Pa | 87 |
| Avşar | Kənd | Bolu | - | 34 |
| Avşar | Kənd | Bolu | Bolu | 14 |
| Avşar | Kənd | Bolu | Gərədə | 12 |
| Avşar | Kənd | Bolu | Gərədə | 2 |
| Avşar | Kənd | Bolu | Gərədə | 7 |
| Əfşar | Kənd | Bolu | Taraqlı-borlu | 8 |
| Əfşar | Kənd | Bolu | Taraqlı-borlu | 18 |
| Əfşar | Kənd | Bolu | Taraqlı-borlu | 66 |
| Əfşar | Kənd | Bolu | Taraqlı-borlu | 15 |
| Əfşar və Qara Ağac | Kənd | Bolu | Taraqlı | 6 |
| Avşar | Kənd | Bolu | Viranşəhr | 17 |
| Bəbə Əfvşar | Kənd | Bolu | Viranşəhr | 15 |
| Əfşar | Kənd | Bolu | Viranşəhr | 22 |
| Əfşar | Kənd | Bolu | Viranşəhr | 23 |
| Əfşar | Kənd | Bolu | Viranşəhr | 6 |
| Əfşar | Kənd | Bolu | Viranşəhr | 7 |

| | | | | |
|---|---|---|---|---|
| Əfşar | Kənd | Ərzurum | Kemah (Quru çay) | 8 |
| Əfşar | Kənd | Hamid | - | - |
| Əfşar | Kənd | Hamid | Əfşar iki məhəllə:<br>1.Firdövsoğlu<br>2.Şeyx-Çakıl | <br><br>6<br>119 |
| Qutluca Əfşar | Kənd | Hamid | Gölhisar Qaraağacı | 109 |
| Əfşar | Kənd | Hamid | Qara hisar | 43 |
| Narlıca Avşar | Kənd | Xudavəndigar | Bəy bazarı | 28 |
| Əfşar | Kənd | Xudavəndigar | Kepsut | 23 |
| Əfşar | Kənd | Xudavəndigar | Sivri hisar | 50 |
| Avşar | Kənd | İç-el | Mut | 60 |
| Avşar | Kənd | Qarahisari-Sahib | Bolvadin | - |
| Çayır Əfşar | Kənd | Qarahisari-Sahib | Hula | - |
| Avşar | Kənd | Qarahisari-Şərqi | Suşəhri | 31 |
| Avşar | Kənd | Qarahisari-Şərqi | Firuz | 2 |
| Avşar | Kənd | Karasi | Təmrəzlər | - |
| Avşar | Kənd | Karasi | Ayazmənd | 21 |
| Əfşar özü | Kənd | Kastamonu | Qozyaxa | 58 |
| Əfşar | Kənd | Kastamonu | Devrəkanı | 65 |
| Qara təgin Əfşar | Kənd | Kastamonu | Daday | 33 |
| Avşar ovacuğu | Kənd | Kastamonu | Kürə | 59 |
| Əfşar | Kənd | Kastamonu | Sinop (Qara göl divanı) | 7 |
| Əfşar | Kənd | Kastamonu | Daş körpü | 37 |
| Əfşar | Kənd | Kastamonu | Daş körpü | 21 |
| Əfşar və Virancıq | Kənd | Kastamonu | Daş körpü | 19 |
| Əfşar | Kənd | Kastamonu | Araç | 69 |
| Avşar | Kənd | Qeysəriyyə | Koramaz | 13 |
| Avşar | Kənd | Qeysəriyyə | Qara daş | - |
| Avşar | Kənd | Qeysəriyyə | İslamlu | - |
| Qəleyn Avşar | Kənd | Qeysəriyyə | İslamlu | - |
| Avşar | Kənd | Qeysəriyyə | Malye | - |
| Əfşar | Kənd | Kanqırı | Qarğu | 18 |
| Əfşar | Kənd | Kanqırı | Kanqırı | 12 |
| Əfşar | Kənd | Kanqırı | Tosya | 33 |
| Yuxarı Avşar | Kənd | Qırşəhri | Kəskin | - |
| Ağaclı Avşar | Kənd | Konya | Səhra | 36 |

| | | | | |
|---|---|---|---|---|
| Avşarcıq | Kənd | Konya | Larəndə | - |
| Avşar-virani | Kənd | Konya | Bel-viran | 52 |
| Eyuluca Əfşar | Kənd | Konya | Bel-viran | 40 |
| Əfşar | Kənd | Konya | Bel-viran | - |
| Alan Əfşar | Kənd | Konya | Bel-viran | 21 |
| Əfşar | Kənd | Konya | Aladağ | 80 |
| Avşar | Kənd | Konya | Qüreyş | - |
| Avşarcıq | Kənd | Konya | Əski-el | - |
| Avşar | Kənd | Kütahya | Altun-daş | 12 |
| Yuxarı Avşar | Kənd | Kütahya | Sazanos | 15 |
| Buyanlı Avşar | Kənd | Kütahya | Sazanos | 5 |
| Avşar | Kənd | Kütahya | Uşaq | 44 |
| Avşar | Kənd | Malatya | Pağnik | - |
| Avşar | Kənd | Malatya | Erğavun | 10 |
| Avşar Ömər | Kənd | Maraş | Xısnı-mənsur | 41 |
| Əfşar | Kənd | Məntəşə | Balat | 23 |
| Avşar | Kənd | Məntəşə | Kula | 38 |
| Avşar | Kənd | Saru-xan | Atala | 24 |
| Avşar | Kənd | Saru-xan | Təmürçü | 50 |

## X. KIZIK

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi ve-rən əhali** |
|---|---|---|---|---|
| Kızık | Kənd | Amasya | Gədğra | 55 |
| Çay Kızık | Kənd | Amasya | Çubuq | 26 |
| Aşğa-kızık (digər adı Kəsrə Kızık) | Kənd | Amasya | Çubuq | 32 |
| Alğır Kızık | Kənd | Ankara | Çubuq | 49 |
| Billücə Kızık | Kənd | Ankara | Ayaş | 57 |
| Kızık | Kənd | Bolu | Ayaş | 26 |
| Kızık | Kənd | Bolu | Kıbrıs | 74 |
| Kızık | Kənd | Bolu | Kıbrıs | 11 |
| Kızık | Kənd | Bolu | Viranşəhr | 10 |
| Kızık | Kənd | Bolu | Viranşəhr | 15 |
| Kızık | Kənd | Bolu | - | 6 |
| Kızık | Kənd | Bolu | - | 22 |
| Kızık | Əkinlik | Divrigi | Toyluca | - |

| | | | | |
|---|---|---|---|---|
| Kızık | Kənd | Hamid | Əfşar | 30 |
| Kızık | Kənd | Xudavəndigar | Sivri hasar | 5 |
| Börlücə və Kızık | Kənd | Xudavəndigar | Göynük | 22 |
| Yaxa Kızık | Kənd | Qarahisari-Sahib | Sanduqlu | 17 |
| Kızık | Kənd | Qarahisari-Sahib | Sanduqlu | 73 |
| Kızık | Kənd | Qarahisari-Şərqi | Gəzəvid | 7 |
| Kızık | Kənd | Qeysəriyyə | - | 81 |
| Kızık | Kənd | Qeysəriyyə | Dəvəli | 9 |
| Kızık Yenicəsi | Kənd | Kangırı | Kangırı | 37 |
| Kızık | Kənd | Qoca-eli | Göyboza | 20 |
| Kızık | Kənd | Kütahya | Sazanos | 131 |
| Şeyx Kızık | Kənd | Sivas | Artuqabad | - |
| Kızık | Kənd | Sivas | Artuqabad | 16 |
| Kızık | Əkinlik | Sultan önü | Qaracaşəhr | - |

## XI. BƏYDİLİ

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Bəydili | Kənd | Amasya | Yavaş | 14 |
| Bəydili | Kənd | Bolu | Viranşəhr | 32 |
| Bəydili | Kənd | Bolu | Viranşahr | - |
| Bəydili | Kənd | Boz-ox | - | 169 |
| Bəydili | Kənd | Çorum | Çorumlu | 59 |
| Bəydili | Kənd | Çorum | İsgilib | 186 |
| Bəydili | Kənd | Çorum | İsgilib | 21 |
| Bəydili | Kənd | Çorum | Qatar | 38 |
| Bəydili | Kənd | Çorum | Əyridir | 52 |
| Bəydili | Kənd | Divrigi | - | 16 |
| Bəydili | Kənd | Hamid | Yuva | 155 |
| Bəydili | Kənd | Xudavəndigar | Tul-hisar | - |
| Bəydili | Kənd | Xudavəndigar | Qarahisari-nallu | 7 |
| Bəydili | Kənd | Karasi | Manyas | 16 |
| Bəydili | Kənd | Kastamonu | - | 2 |
| Bəydili | Kənd | Kanqırı | Qarğu | 45 |
| Bəydili | Kənd | Konya | Qaş | 53 |
| Bəydili | Kənd | Kütahya | - | 12 |

| | | | | |
|---|---|---|---|---|
| Bəydili | Kənd | Malatya | Behisin (Keysun) | 3 |
| Bəydili | Kənd | Malatya | Behisin (Keysun) | - |
| Bəydili | Kənd | Sivas | Sivas | 9 |
| Bəydili | Əkinlik | Sivas | Sivas | 7 |
| Bəydili | Əkinlik | Sivas | Göyboza | 84 |
| Bəydili | Kənd | Sivas | Zilə (Qəleyi-Xass) | 42 |

## XII. KARKIN

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi verən əhali |
|---|---|---|---|---|
| Karkın | Kənd | Akşəhir | Akşəhir | 15 |
| Karkın | Əkinlik | Amasya | Erqoma | - |
| Karkın | Kənd | Amasya | Azine bazarı | - |
| Karkın | Kənd | Ankara | Çubuq | 223 |
| Karkın | Kənd | Ankara | Ayaş | 29 |
| Karkın | Kənd | Bəyşəhri | Köçü | 16 |
| Karkın | Kənd | Bolu | Viranşəhr | 13 |
| Karkın | Kənd | Bolu | Viranşəhr | 16 |
| Karkın | Kənd | Boz-ox | Ağdağ | 101 |
| Karkın | Əkinlik | Boz-ox | Çubuq | 24 |
| Karkınlu | Kənd | Canik | Bayramlu | 32 |
| Ulu Karkın | Kənd | Çorum | İsgilib (Ulu divan) | 13 |
| Karkın-dərə, digər adı Bayrambəy | Kənd | Diyarbəkir | - | 12 |
| Karkın | Kənd | Ərzurum | - | 15 |
| Karkın | Kənd | Hamid | Yuxarı Tərcan | 5 |
| Karkın və Dərə | Kənd | Hamid | Bayburt | 90 |
| Karkın | Kənd | Hamid | Qaraağac | 99 |
| Karkın və Sığırlıq | Əkinlik | Hamid | Gölhisar Qaraağacı | 144 |
| Karkın Bügü | Əkinlik | Hamid | Yuva | 39 |
| Karkın | Kənd | Xudavəndigar | Sivri hisar | 61 |
| Ulu Karkın | Kənd | Qarahisari-Sahib | Şuhut | 30 |
| Kiçi Karkın | Kənd | Qarahisari-Sahib | Şuhut | 30 |

| | | | | |
|---|---|---|---|---|
| Sivri Karkın | Kənd | Qarahisari-Sahib | Şuhut | 30 |
| Karkıncıq | Kənd | Qarahisari-Sahib | Barçınlu | - |
| Karkın | Kənd | Qarahisari-Sahib | Sandıqlu | 15 |
| Yassı Karkın | Kənd | Qarahisari-Sahib | Bolvadin | 17 |
| Karkın | Kənd | Qarahisari-Şərqi | Bədərlu | 92 |
| Karkın | Əkinlik | Qarahisari-Şərqi | Qara hisar | - |
| Karkın | Kənd | Qarahisari-Şərqi | Nayiblu | 94 |
| Karkın (digər adı Qocabəylu) | Əkinlik | Karasi | Sındırğı | 20 |
| Karkın | Kənd | Karasi | Təmrəzlər | 3 |
| Karkın (digər adı Çinarcıq) | Kənd | Karasi | Sındırğı | 8 |
| Karkun | Yaylaq | Karasi | Boğaz hisarı | - |
| Karkın | Əkinlik | Qeysəriyyə | Kibar Ezmak | - |
| Karkın | Əkinlik | Qeysəriyyə | - | - |
| Karkın | Kənd | Kanqırı | Tosya | 25 |
| Kınıqcıq Karkın, digər adı İldüyən | Kənd | Kanqırı | Kanqırı | 64 |
| Karkun qayası | Kənd | Qırşəhri | Süleymanlu | 35 |
| Karkun qayası | Əkinlik | Qırşəhri | Gün yüzü | - |
| Karkuncuq | Kənd | Qırşəhri | Hacı Bəktaş | - |
| Karkın | Əkinlik | Konya | Larəndə | 15 |
| Karkın | Kənd | Konya | Əksi-el | 147 |
| Karkın | Kənd | Konya | Səhra | 96 |
| Karkın | Əkinlik | Malatya | Subadra | - |
| Karkun | Kənd | Mardin | - | - |
| Küçük Karkın, digər adı Əskilər | Əkinlik | Saru-xan | Yund dağı | - |
| Karkın | Kənd | Saru-xan | Təmürcü | 11 |
| Karkın | Əkinlik | Saru-xan | Mərmərə | 31 |
| Karkın | Kənd | Saru-xan | Akhisar | 10 |
| Karkın (digər adı Kösəm) | Kənd | Saru-xan | - | 22 |
| Küçük Karkın | Kənd | Saru-xan | Doğan hisarı | - |
| Karkın | Əkinlik | Sivas | Sivas | - |
| Karkın | Kənd | Sivas | Sunisa Firəng hisarı | 70 |
| Karkın | Əkinlik | Sivas | Artuqabad | 15 |
| Karkıncuq | Kənd | Sivas | Artuqabad | 44 |
| Karkın | Kənd | Sivas | Turxal | 39 |

| | | | | |
|---|---|---|---|---|
| Karkın | Kənd | Sivas | Tokat Tozanlu | 12 |
| Karkın | Kənd | Sivas | Tokat Yıldız | 34 |
| Karkın | Kənd | Sivas | Məcit özü | 74 |
| Karkın | Kənd | Sultan önü | Qaracaşəhr | 45 |
| Karkın | Kənd | Təkə | - | - |

## XIII. BAYINDIR

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi ve-rən əhali** |
|---|---|---|---|---|
| Bayındır | Kənd | Aksaray | Aksaray | 15 |
| Bayındır | Kənd | Aksaray | Əyyub eli | 25 |
| Bayındır (digər adı Seydi) | Kənd | Akşəhir | - | 68 |
| Bayındır | Kənd | Amasya | Yavaş | 72 |
| Ecə və Bayındır | Kənd | Ankara | Yabanabad | 56 |
| Bayındır | Kənd | Ankara | Qəsəbə | 44 |
| Bayındırlu | Kənd | Aydın | Sərt | 78 |
| Güllü Bayındır | Kənd | Bəyşəhri | Göçü | 4 məhəllə |
| Bayındır | Kənd | Bəyşəhri | Göçü kaşaklu | 47 |
| Bayındır | Əkinlik | Biga | Balya | - |
| Bayındır | Kənd | Bolu | Bolu | 7 |
| Bayındır | Kənd | Bolu | Viranşəhr | 40 |
| Bayındır | Kənd | Bolu | Viranşəhr | 12 |
| Bayındır | Kənd | Bolu | Viranşəhr | 30 |
| Bayındır | Kənd | Bolu | Viranşəhr | 4 |
| Bayındır | Kənd | Bolu | Gərədə | 13 |
| Bayındır | Əkinlik | Boz-ox | - | - |
| Bayındır | Kənd | Canik | Bayramlı | 9 |
| Bayındır | Kənd | Canik | Samsun (Kavak) | 27 |
| Bayındır | Kənd | Çorum | Osmancıq | 56 |
| Bayındır | Kənd | Diyarbəkir | - | 48 |
| Bayındır | Əkinlik | Ərzurum | Kəmah | - |
| Bayındır | Kənd | Hamid | - | 24 |
| Bayındır | Kənd | Hamid | Burdur | 33 |
| Bayındır | Kənd | Hamid | Döyran | 25 |
| Bayındır | Kənd | Hamid | İrla | 28 |
| Bayındır | Kənd | Hamid | Gölhisar | 23 |

| | | | | |
|---|---|---|---|---|
| Bayındır | Kənd | Xudavəndigar | Bursa | 27 |
| Bayındır | Kənd | Xudavəndigar | Göynük | 33 |
| Bayındır | Kənd | Xudavəndigar | Göynük | 19 |
| Bayındır | Kənd | Xudavəndigar | Qarahisari-nallı | 55 |
| Bayındır | Kənd | Xudavəndigar | Atranos | 19 |
| Bayındır | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 18 |
| Bayındır | Əkinlik | Qarahisari-Sahib | Barçınlı | - |
| Bayındır | Kənd | Qarahisari-Şərqi | Almalı | 59 |
| Bayındır | Kənd | Karasi | Manyas | 12 |
| Bayındır | Kənd | Karasi | Manyas | - |
| Bayındır | Kənd | Karasi | Təmrəzlər | 3 |
| Bayındır | Kənd | Kastamonu | Qoz-Yaxa | 41 |
| Bayındır | Kənd | Kastamonu | Sinob (Qızılca Divani) | 51 |
| Bayındır | Kənd | Kastamonu | Sinob | 13 |
| Bayındır | Kənd | Qeysəriyyə | Qara hisar | 12 |
| Bayındır | Kənd | Kanqırı | Kanqırı | 101 |
| Bayındır | Kənd | Qoca-eli | Kandırı | 15 |
| Bayındır | Əkinlik | Konya | Xatun-saray | - |
| Bayındır | Əkinlik | Malatya | Ərğavun | - |
| Bayındır | Kənd | Maraş | Haruniyyə | - |
| Bayındır | Kənd | Məntəşə | - | 5 |
| Bayındır | Kənd | Məntəşə | Balat | 9 |
| Bayındır | Kənd | Saru-xan | İlicə | 51 |
| Şeyxli Bayındır | Kənd | Sivas (Tokat) | Qazabad | 31 |
| Qızılca Bayındır | Kənd | Sultan önü | Qaracaşəhir | 34 |

## XIV. PEÇENEQ

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Bəçənək | Kənd | Ankara | Mutazaabad | 40 |
| Bəçənək | Kənd | Ankara | Çubuq | 40 |
| Bəçənək | Kənd | Ankara | Qəsəbə | 44 |
| Bəçənək | Kənd | Ankara | Yabanabad | 96 |

# XV. ÇAVULDUR (ÇAVUNDUR)

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi verən əhali |
|---|---|---|---|---|
| Çavundur | Kənd | Amasya | Kedarğa | 46 |
| Çavundur | Kənd | Ankara | Qəsəbə | 26 |
| Yuxarı Çavundur | Kənd | Ankara | Çubuq | 95 |
| Aşğa Çavundur | Kənd | Ankara | Çubuq | 90 |
| Çavdur | Kənd | Aydın | Bozdoğan | 19 |
| Çavuldur | Kənd | Canik | Simreyi-Daşan | 35 |
| Çavundur | Kənd | Hamid | Qaraağac | 47 |
| Çavdur | Kənd | Hamid | Gölhisar | 38 |
| Çavundur | Kənd | Kastamonu | Kastamonu | 36 |
| Çavundur | Əkinlik | Kastamonu | Kastamonu | 19 |
| Çavundur | Kənd | Kastamonu | Kastamonu | - |
| Çavundur | Kənd | Kastamonu | Kastamonu | - |
| Çavundur | Kənd | Kanqırı | Larəndə | 27 |
| Çavundur | Kənd | Konya | Larəndə | 12 |
| Çavundur | Kənd | Konya | Aladağ | 7 |
| Çavundur | Əkinlik | Konya | Aladağ | - |
| Çavundur | Kənd | Kütahya | Simas | - |
| Çavdur | Kənd | Sivas (Tokat) | Qazabad | 76 |
| Çavundur | Kənd | Sivas | Artuqabad | 51 |
| Çavundur | Kənd | Sivas | Sunisa | 103 |
| Çavundur | Kənd | Təkə | İstanos | 31 |

# XVI. ÇƏPNİ

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi verən əhali |
|---|---|---|---|---|
| Çəpni | Kənd | Akşəhir | Doğan hisarı | 54 |
| Çəpni | Kənd | Amasya | Lədik | 41 |
| Çəpni | Kənd | Ankara | Yabanabad | 31 |
| Çəpni | Kənd | Bəyşəhri | Göçü (Kaşaklu) | 45 |
| Çəpni | Kənd | Bolu | Bolu | 129 |
| Çəpni | Kənd | Bolu | Gərədə | 24 |
| Çəpni | Kənd | Bolu | Mudurnu | 54 |

| | | | | |
|---|---|---|---|---|
| Çəpni | Kənd | Bolu | Mudurnu | 49 |
| Çəpni | Kənd | Bolu | Mudurnu | ? |
| Çəpni | Kənd | Boz-ox | Əmlak | 26 |
| Çəpni | Kənd | Canik | Bayramlı (Satılmış) | 8 |
| Çəpni | Kənd | Canik | - | - |
| Çəpni | Kənd | Canik | Ordu | 7 |
| Çəpni | Kənd | Çorum | - | - |
| Çəpni özü | Kənd | Çorum | - | 20 |
| Çəpni | Kənd | Çorum | Osmancıq | 23 |
| Çəpni | Kənd | Xudavəndigar | Kətə | 24 |
| Çəpni | Kənd | Xudavəndigar | Aydıncıq | 13 |
| Çəpni | Kənd | Xudavəndigar | Təmrəzlər | - |
| Çəpni | Kənd | Xudavəndigar | Bəhram | 38 |
| Böyük Çəpni | Əkinlik | Xudavəndigar | Bəhram | 25 |
| Küçük Çəpni | Kənd | İç-el | Mut | 25 |
| Çəpni | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 11 |
| Çəpni | Kənd | Qarahisari-Sahib | Bolvadin | 34 |
| Çəpni (d.adı Ağac) | Kənd | Karasi | Girəsun | 11 |
| Çəpni | Kənd | Hamid | Gölhisar | 23 |
| Çəpni | Kənd | Kastamonu | Aynedon | 34 |
| Çəpni | Kənd | Kastamonu | Aynedon | 37 |
| Çəpni | Kənd | Kastamonu | Aynedon | 14 |
| Çəpni | Kənd | Kastamonu | Aynedon | 48 |
| Çəpni | Kənd | Kastamonu | Aynedon | 37 |
| Çəpni | Kənd | Kastamonu | Aynedon | 116 |
| Çəpni | Əkinlik | Qeysəriyyə | Kibar Ezmak | - |
| Çəpni | Kənd | Qarahisari-Şərqi | Almalı | 59 |
| Çəpni | Kənd | Kanqırı | Tosya | 41 |
| Çəpni | Əkinlik | Qoca-eli | Kandırı | 13 |
| Çəpni | Kənd | Konya | Aladağ | 14 |
| Çəpni | Kənd | Konya | Aladağ | 58 |
| Çəpni | Kənd | Maraş | Əlbistan | - |
| Yenicə Çəpni | Kənd | Sivas | Sivas | 142 |
| Baş Çəpni | Əkinlik | Sivas | Sivas | - |
| Alan Çəpni | Kənd | Sivas | Sunisa (Qara quş dağı) | 80 |
| Çəpni | Kənd | Sultan önü | İn önü | 47 |
| Çəpni | Kənd | Trabzon | - | - |
| Çəpni günü | Kənd | Trabzon | Kürtün | 16 |

## XVII. SALUR

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Salur | Kənd | Aksaray | Əyyub eli | 51 |
| Bayat Salur | Əkinlik | Aksaray | Hasan dağı | - |
| Salur | Kənd | Akşəhir | İsaqlı | 23 |
| Salur | Kənd | Əlaiyyə | Manavqat 8 məhəlləli böyük bir kənddir: | |
| | | | Oxçular | 28 |
| | | | Nasuhlar | 21 |
| | | | Çilingərlər | 19 |
| | | | Xəyyat | 22 |
| | | | Havzalar | 12 |
| | | | Uçarlar | 14 |
| | | | Tökdülər | 20 |
| | | | Kəllər | 29 |
| Salur | Kənd | Amasya | Lədik | 91 |
| Salur | Kənd | Amasya | Qazılar ovacığı | 89 |
| Salur | Kənd | Bolu | Mudurnu | 54 |
| Salur | Kənd | Bəyşəhri | - | 39 |
| Salur | Kənd | Bolu | On iki divan | 23 |
| Salur | Kənd | Bolu | Gərədə | 7 |
| Salur | Kənd | Canik | Simrei-daşan (Qazanlı ovacığı) | 36 |
| Salur | Kənd | Canik | Bafra | 72 |
| Salur | Kənd | Çorum | Osmancıq | 53 |
| Salur oğlan | Kənd | Divrigi | Heyvanlı | 18 |
| Salur | Kənd | Ərzurum | Kemah | 75 |
| Salur | Kənd | Hamid | İrla | 31 |
| Salur | Kənd | Hamid | Yalvac | 56 |
| Salur oğlu | Kənd | Hamid | Qaraağac | 46 |
| Salur | Kənd | Xudavəndigar | Tul hisar | - |
| Salur | Arx | Karasi | Sındırğı | - |
| Salur bəyi | Kənd | Kastamonu | Kürə | 11 |
| Salur | Nahiyə | Kastamonu | Sinob | 6 |
| Salur | Kənd | Qeysəriyyə | Səhra | 147 |
| Salur | Əkinlik | Qeysəriyyə | Ürgüp | - |

| | | | | |
|---|---|---|---|---|
| Salur | Kənd | Kanqırı | Qarı bazarı | 66 |
| Məscidli Salur | Kənd | Konya | Baş | 60 |
| Salurcuq | Əkinlik | Konya | Səhra | 37 |
| Mürsəlli Salur | Kənd | Konya | Səhra | 12 |
| Viranlu Salur | Kənd | Konya | Səhra | 20 |
| Yaxa Salur | Kənd | Konya | Səhra | 7 |
| Salur | Kənd | Konya | Elgün | 16 |
| Salur-qışla | Kənd | Konya | Ərəyli | - |
| Salurcuq | Əkinlik | Konya | Turqut | - |
| Salur | Kənd | Konya | Əski-el | 84 |
| Salur | Kənd | Kütahya | - | - |
| Salur | Əkinlik | Malatya | Şeyxli | 24 |
| Salur | Kənd | Malatya | Kahta | - |
| Salur | Kənd | Saru-xan | Əğavun | 7 |
| Salur | Kənd | Saru-xan | Atala | 28 |
| Salur | Əkinlik | Saru-xan | Akhisar | 16 |
| Salur | Əkinlik | Saru-xan | Gedüs | 53 |
| Salur | Kənd | Saru-xan | Akhisar | - |
| Salur | Kənd | Sivas | Sivas | 47 |
| Salur (digər adı Yenicə) | Kənd | Sivas | Sivas | - |
| Salur | Kənd | Sivas | Sivas | 16 |
| Salur | Kənd | Sivas | Qoç-hisar | |
| Salur | Kənd | Sivas | Zilə (Məşhədabad) | 37 |
| Salur | Kənd | Sivas | Zilə (Firəng hisar) | - |
| Salur | Kənd | Sivas | Artuqabad | 22 |
| Salur saray | Kənd | Sivas | Artuqabad | 92 |
| Salur | Əkinlik | Sivas | Zilə (Qəleyi-Xass) | - |
| Salur | Kənd | Təkə | Almalı | 10 |

## XVIII. EYMÜR (EYMİR)

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| Eymür | Kənd | Akşəhir | İsaqlu | 183 |
| Eymür | Kənd | Akşəhir | Çəmən | 28 |

| | | | | |
|---|---|---|---|---|
| Eymür | Kənd | Amasya | Ərqoma | 28 |
| Eymür | Kənd | Amasya | Simrei-lədik | 34 |
| Eymürcək | Kənd | Amasya | Simrei-lədik | 30 |
| Eymür | Kənd | Ankara | Qəsəbə | 19 |
| Eymür | Kənd | Ankara | Murtazaabad | 34 |
| Eymür | Kənd | Ankara | Murtazaabad | 25 |
| Eymür tayı və İncücək | Kənd | Ankara | Murtazaabad | 34 |
| Eymür | Kənd | Ankara | Çubuq | 50 |
| Eymür | Kənd | Aydın | Gözəl hisar | 40 |
| Eymür | Kənd | Aydın | Yenişəhir | 85 |
| Eymür | Kənd | Aydın | Bozdoğan | 36 |
| Eymür (digər adı Dinək) | Kənd | Bolu | Mudurnu | 19 |
| Eymür | Kənd | Canik | Ulu bəy | 31 |
| Eymür | Kənd | Canik | - | 21 |
| Böyük Eymür | Kənd | Çorum | Osmancıq | 44 |
| Kiçik Eymür | Kənd | Çorum | Osmancıq | 5 |
| Eymür | Kənd | Çorum | Osmancıq | 110 |
| Eymür | Kənd | Çorum | Çorumlu | 57 |
| Eymür | Kənd | Ərzurum | Bayburt | 66 |
| Eymür viran | Kənd | Ərzurum | Kəlkit | 13 |
| Eymür | Kənd | Ərzurum | Kəlkit | - |
| Yaxa Eymür | Kənd | Hamid | Yalvac Qaraağacı | 52 |
| Uşaq Eymür | Kənd | Hamid | Yalvac Qaraağacı | 52 |
| Eymür | Kənd | Xudavəndigar | Bəy bazarı | - |
| Eymürlü | Kənd | Xudavəndigar | Bəy bazarı | - |
| Eymür | Kənd | Xudavəndigar | Tul hisar | 5 |
| Eymür | Kənd | Xudavəndigar | Atranos | 45 |
| Eymür | Kənd | Xudavəndigar | Kırtmastı | 17 |
| Eymür | Kənd | Xudavəndigar | İnəgöl | 11 |
| Eymür | Kənd | Xudavəndigar | Qarahisari-Nallı | 176 |
| Eymürlər | Kənd | Xudavəndigar | Bəhram | 21 |
| Eymür | Kənd | Xudavəndigar | Sivri hisar | 33 |
| Eymürxanlı | Kənd | Xudavəndigar | Sivri hisar | 132 |
| Eymür | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 14 |
| Eymür | Kənd | Qarahisari-Sahib | Qara hisar | 53 |

| | | | | |
|---|---|---|---|---|
| Eymür hisar | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 79 |
| Eymür | Kənd | Qarahisari-Şərqi | Suşəhri | 10 |
| Eymür | Kənd | Karasi | Ərdəmit | 27 |
| Eymür | Kənd | Karasi | Sındırğı | 12 |
| Eymür | Kənd | Kastamonu | Daday | 60 |
| Eymür | Kənd | Kastamonu | Daday | 11 |
| Eymür | Kənd | Kastamonu | Daday | 2 |
| Eymür (digər adı Kayı) | Kənd | Kastamonu | Daday | - |
| Eymür | Kənd | Kastamonu | Sinob | 33 |
| Eymür | Kənd | Kastamonu | Sinob | 8 |
| Eymür və Boyalıca | Kənd | Kastamonu | Sinob | 14 |
| Eymür | Kənd | Kastamonu | Sinob | - |
| Eymür | Kənd | Qeysəriyyə | Kibar Ezmak | 203 |
| Eymür | Kənd | Kanqırı | Çərkəş | 15 |
| Eymür | Kənd | Kanqırı | Çərkəş | 29 |
| Eymür | Kənd | Kanqırı | Altun taş | 70 |
| Eymür | Kənd | Kütahya | Arslan ara | 10 |
| Eymür | Kənd | Kütahya | Yaylaq | 60 |
| Eymür | Kənd | Kütahya | Şeyxli | 31 |
| Eymür | Kənd | Kütahya | Homa | 74 |
| Eymür | Kənd | Məntəşə | Köycügəz | 11 |
| Eymür | Kənd | Məntəşə | Tavas | - |
| Eymür | Kənd | Məntəşə | Şeyxli | 33 |
| Eymür | Kənd | Malatya | Ərğavun | 14 |
| Eymür | Kənd | Sivas | Sivas | 21 |
| Eymür | Kənd | Sivas | Sivas | - |
| Eymür bağı | Kənd | Sivas | Məscit özü | - |
| Eymür | Kənd | Sivas | Zilə (Qızıl Gümbəz) | 14 |
| Eymür | Kənd | Sivas | Yılduz | 10 |
| Eymirli qışlası | Kənd | Sivas | Budaq özü | 49 |
| Eymürli | Kənd | Sivas | Budaq özü | 61 |
| Eymür | Kənd | Sultan önü | Qaracaşəhr | 20 |
| Eymür | Kənd | Təkə | Muslu | 16 |
| Eymür | Kənd | Təkə | Almalı | 46 |

# XIX. ALA-YUNDLU

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi ve-rən əhali |
|---|---|---|---|---|
| Ala-Yundlu | Kənd | Aksaray | Bəkir | 108 |
| Yakacıq Ala-Yundlu | Kənd | Aksaray | Bəkir | 40 |
| Ala-Yundlu | Kənd | Aksaray | Əyyub eli | 5 |
| Ala-Yundlu | Kənd | Aksaray | Qoç hisar | 27 |
| Ala-Yundlu | Kənd | Aksaray | Qoç hisar | - |
| Ala-Yundlu | Kənd | Amasya | Lədik | 73 |
| Ala-Yundlu | Kənd | Amasya | Lədik | 2 |
| Ala-Yundlu | Kənd | Ankara | Çubuq | 35 |
| Ala-Yundlu | Kənd | Ankara | Qəsəbə | 58 |
| Ala-Yundlu | Kənd | Ankara | Qəsəbə | 27 |
| Ala-Yundlu | Kənd | Antəb | - | 19 |
| Ala-Yundlu | Kənd | Çorum | Çorumlu | 12 |
| Ala-Yundlu | Kənd | Canik | - | 15 |
| Ala-Yundlu | Kənd | Canik | - | 25 |
| Ala-Yundlu | Kənd | Ərzurum | Kemah (Quruçay) | - |
| Ala-Yundlu | Kənd | Xudavəndigar | Sivri hisar | 13 |
| Ala-Yundlu | Kənd | Xudavəndigar | Ak hisar | 13 |
| Ala-Yundlu | Kənd | Qarahisari-Sahib | Barçınlı | 18 |
| Ala-Yundlu | Kənd | Qarahisari-Şərqi | Koyle hisar | 35 |
| Ala-Yund | Kənd | Kanqırı | Gün yüzy | 22 |
| Ala-Yundlu | Kənd | Qırşəhri | Çərkəsi | - |
| Ala-Yundlu | Kənd | Kütahya | Uşak (Bənnaz) | 151 |
| Ala-Yundlu | Kənd | Malatya | Kahta | 16 |
| Ala-Yundlu | Kənd | Saru-xan | Əmlak | - |
| Ala-Yund | Kənd | Saru-xan | Gördük | 18 |
| Ala-Yundlu | Kənd | Saru-xan | Gördük | 5 |
| Ala-Yundlu | Kənd | Sivas | Tokat (Gəlmufat) | 9 |
| Ala-Yundlu | Kənd | Sivas | Tokat (Yıldız) | 2 |
| Ala-Yundlu | Kənd | Sivas | Artuqabad | - |

## XX. YÜRƏGİR (ÜRƏGİR)

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi verən əhali |
|---|---|---|---|---|
| Yürəgir | Nahiyə (yörə) | Adana | - | - |
| Ürəgir | Kənd | Amasya | Simrei-lədik | 17 |
| Ürəgir | Kənd | Amasya | Qoca qayası | - |
| Yürəgir | Kənd | Ankara | Ayaş | 55 |
| Yürəgir | Kənd | Ankara | Yabanabad | 31 |
| Yürəgir | Kənd | Ankara | Qəsəbə | 8 |
| Yürəgir | Kənd | Antəb | Tell-Bəşir | 14 |
| Böyük Yürəgir | Kənd | Boz-ox | Gədük | 145 |
| Kiçik Yürəgir | Kənd | Boz-ox | Gədük | 56 |
| Yürəgir | Əkinlik | Boz-ox | Əmlak | - |
| Ürəgir | Kənd | Canik | Satılmış | 42 |
| Yürəgir | Kənd | Canik | Samsun | 28 |
| Yürəgir | Əkinlik | Divrigi | Toyluca | - |
| Yürəgir | Kənd | Hamid | Yalvac | 24 |
| Yürəgir | Kənd | Hamid | Gönən | 7 |
| Yürəgir | Kənd | Hamid | İrla | 12 |
| Yürəgir | Kənd | Hamid | Gölhisar | 37 |
| Yürəgir | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 18 |
| Yürəgir | Kənd | Qarahisari-Sahib | Barçınlı | 38 |
| Ürəgir | Kənd | Qarahisari-Şərqi | Gəzəvit | 11 |
| Ürəgir | Kənd | Qarahisari-Şərqi | Yemişli | 4 |
| Ürəgir | Kənd | Qarahisari-Şərqi | Şahnə Çəmənli | 4 |
| Yürəgir | Kənd | Karasi | Sındırğı | 20 |
| Çayırcıq və Yürəgir | Kənd | Kastamonu | Daş körpü | 13 |
| Ürəgir | Kənd | Kastamonu | Daş körpü (Dodurğa) | 25 |
| Ürəgir | Kənd | Kastamonu | Daş körpü | 5 |
| Ürəgir (digər adı Qara qulaq) | Kənd | Kastamonu | Daş körpü | 51 |
| Ürəgir | Kənd | Kastamonu | Araç | 46 |
| Yürəgir | Kənd | Qeysəriyyə | Qara qaya | 31 |
| Ürəgir | Kənd | Kanqırı | Qoç hisar | 40 |
| Yürəgir | Kənd | Kütahya | Homa | 50 |
| Ürəgir | Kənd | Məntəşə | Burnaz | 68 |

| | | | | |
|---|---|---|---|---|
| Yürəgir | Kənd | Məntəşə | Göycüyəz | 155 |
| Yürəgir | Kənd | Sivas | Tokat (Gəlmufad) | 32 |
| Ürəgir (digər adı Qadı köyü) | Əkinlik | Sivas | Tokat (Gəlmufad) | 37 |
| Ürəgir | Kənd | Sivas | Sivas | 73 |
| Böyük Yürəgir | Kənd | Sultan önü | İn önü | 64 |
| Kiçik Yürəgir | Kənd | Sultan önü | İn önü | 24 |
| Yürəgir | Kənd | Təkə | Antalya | 9 |
| Yürəgir | Kənd | Təkə | Kürd | 72 |
| Yürəgir | Kənd | Təkə | İstanos | - |
| Yürəgir | Əkinlik | Təkə | Mükərrəm köyü | - |
| Ürəgir | Nahiyə (yörə) | Trabzon | Kürtün | - |

XXI. İĞDİR/İĞDIR

| **Boyun adı** | **Vəsfi** | **Sancağı** | **Qəzası** | **Vergi verən əhali** |
|---|---|---|---|---|
| İğdır | Əkinlik | Aksaray | Aksaray | - |
| İğdır | Kənd | Ankara | Çubuq | 16 |
| İğdır | Kənd | Bəyşəhri | Göçü | 46 |
| İğdırlü | Kənd | Biga | Çan | 26 |
| İğdır | Kənd | Canik | - | 5 |
| İğdır | Kənd | Cank | Bafra | 26 |
| İğdır | Kənd | Ərzurum | Kemah (Quru çay) | 12 |
| İğdır | Əkinlik | Ərzurum | Kəlkit | 27 |
| İğdır | Kənd | Ərzurum | Bayburt | 37 |
| İğdır | Kənd | Ərzurum | Ərzincan | - |
| İğdır | Kənd | Hamid | Qara ağac | 20 |
| İğdır | Əkinlik | Xudavəndigar | Sivri hisar | 18 |
| İğdır | Kənd | Xudavəndigar | Göl bazarı | 38 |
| İğdır | Kənd | İç-eli | Mut | 113 |
| İğdır Viranı | Kənd | Qarahisari-Sahib | Barçınlı | 9 |
| İğdır | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 26 |
| İğdır | Kənd | Karasi | Manyas | 62 |

| | | | | |
|---|---|---|---|---|
| İğdır | Kənd | Kastamonu | Kürə | 62 |
| İğdır | Kənd | Kastamonu | Kürə | 33 |
| İğdır | Kənd | Kastamonu | Devrəkanı | 19 |
| Quyucaq və İğdır | Kənd | Kastamonu | Daş körpü (Quyucaq) | 50 |
| Bezi və İğdır | Kənd | Kastamonu | Daday | 1 |
| İğdır | Kənd | Kastamonu | Daday | 63 |
| Bezi və İğdır | Kənd | Kastamonu | Araç | 132 |
| İğdır | Kənd | Kastamonu | Araç | 29 |
| İğdır | Əkinlik | Qeysəriyyə | Kibar Ezmak | - |
| İğdır (digər adı Mövlana qışlası) | Kənd | Qeysəriyyə | Gün yüzü | 14 |
| Sortuq (?) İğdır | Kənd | Kanqırı | Qurşunlu | 176 |
| İğdırcıq | Kənd | Kanqırı | Qurşunlu | 56 |
| İğdır | Kənd | Qoca eli | Qara su | - |
| İğdır | Əkinlik | Konya | - | - |
| Əkən İğdır | Kənd | Konya | Ərəyli | - |
| İğdır | Kənd | Kütahya | Şeyxli | 58 |
| İğdır | Kənd | Malatya | Ərğavun | 13 |
| İğdır | Kənd | Sivas | Zilə (Qoçdaş) | 56 |
| İğdır | Kənd | Sivas | Artuqabad | 49 |
| İğdır | Kənd | Təkə | - | - |
| İğdır hisarı | Kənd | Təkə | İğdır | 163 |
| İğdır | Kənd | Təkə | Qalxanlı | - |
| İğdır | Kənd | Təkə | İstanos | 21 |
| İğdır | Kənd | Təkə | Muslu | 36 |
| İğdır | Kənd | Təkə | Muslu | 77 |
| İğdır | Kənd | Təkə | Kaş | 64 |

## XXII. BÜĞDÜZ

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi verən əhali |
|---|---|---|---|---|
| Büğdüz (digər adı Yaxşı bəy) | Kənd | Biga | Çan | 26 |
| Büğdüz | Kənd | Bolu | Viranşəhr | 24 |
| Büğdüz | Kənd | Bolu | Viranşəhr | 23 |
| Büğdüz | Kənd | Çorum | Divani-əmlak | 9 |
| Büğdüz | Kənd | Divrigi | Zəngi | - |

| | | | | |
|---|---|---|---|---|
| Büğdüz | Kənd | Hamid | İsparta | 15 |
| Büğdüz | Əkinlik | Hamid | Qaraağac | 8 |
| Büğdüz | Kənd | Hamid | Yalvac | 19 |
| Büğdüz | Kənd | Hamid | Burdur | 51 |
| Büğdüz | Kənd | Xudavəndigar | Sivri hisar | 26 |
| Büğdüz | Əkinlik | Kastamonu | Kürə | 4 |
| Büğdüz və İncəsu | Kənd | Kastamonu | Devrəkanı | 11 |
| Büğdüz | Kənd | Kastamonu | Kürə | - |
| Büğdüz | Kənd | Kanqırı | Qarı bazarı | 48 |
| Büğdüz | Kənd | Kanqırı | Qalacıq | 35 |
| Büğdüz | Kənd | Qırşəhri | Qırşəhri | 77 |
| Büğdüz | Kənd | Malatya | Ərğavun | - |
| Büğdüz | Kənd | Niydə | - | 35 |
| Büğdüz | Kənd | Sivas | Sivas | - |
| Büğdüz | Kənd | Sivas | Artuqabad | 15 |
| Büğdüz (digər adı Güllü köy) | Kənd | Təkə | Mükərrəm köyü | 40 |
| Büğdüz | Kənd | Təkə | Mükərrəm köyü | - |

## XXIII. YIVA

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi ve-rən əhali |
|---|---|---|---|---|
| Yıva | Kənd | Aksaray | Qoç hisar | - |
| Yıva | Kənd | Aksaray | Hasan dağı | 73 |
| Yıva | Kənd | Amasya | Ərqoma | 68 |
| Yıva | Kənd | Ankara | Çubuq | 19 |
| Yıva | Kənd | Bolu | Kıbrıs | 18 |
| Yıva | Kənd | Boz-ox | Boğazlıyan | - |
| Yıva | Əkinlik | Çorum | Divani-əmlak | 11 |
| Yıva | Kənd | Çorum | Qarahisari-Dəmirli | - |
| Yıva | Kənd | Divrigi | - | - |
| Yıva | Kənd | Hamid | Əyridir | - |
| Yıva | Əkinlik | Hamid | Göl hisar | 91 |
| Yıva | Kənd | Hamid | Yalvac | 42 |
| Yıva | Kənd | Kastamonu | Qoz yaxa | 31 |
| Yıva | Kənd | Kanqırı | Qoç hisar | 106 |
| Yıva | Kənd | Konya | Ərəyli | 48 |
| Yıva | Kənd | Malatya | Qarahisar | 20 |
| Yıva | Kənd | Malatya | Behsini | - |
| Yıva | Kənd | Sivas | - | 29 |
| Yıva | Kənd | Təkə | - | - |

## XXIV. KINIK

| Boyun adı | Vəsfi | Sancağı | Qəzası | Vergi ve-rən əhali |
|---|---|---|---|---|
| Kınık | Qəza | Adana | - | - |
| Kınık | Kənd | Akşəhir | İshaqlı | 27 |
| Kınık | Kənd | Amasya | Daşabad | 18 |
| Kınık | Kənd | Ankara | Bacı | 14 |
| Kınık | Kənd | Ankara | Çubuq | 80 |
| Kınık | Kənd | Ankara | Yabanabad | 27 |
| Kınık | Kənd | Ankara | Yabanabad | 110 |
| Kınık özü | Əkinlik | Ankara | Yabanabad | 22 |

| | | | | |
|---|---|---|---|---|
| Kınık özü | Kənd | Ankara | Murtuzaabad | 8 |
| Kınık | Əkinlik | Ankara | Murtuzabaad | 24 |
| Kınık | Kənd | Ankara | Ayaş | 16 |
| Kınık | Kənd | Ankara | Çubuq | 10 |
| Kınık | Kənd | Bəyşəhri | Qıreli | 45 |
| Kınık | Kənd | Biqa | Çan | 9 |
| Kınık | Kənd | Bolu | Məngən | 88 |
| Kınık | Kənd | Bolu | - | - |
| Kınık (Divan-kınık | Kənd | Bolu | On iki divan | 3 |
| Kınık | Kənd | Çorun | Osmancıq | - |
| Kınık | Kənd | Çorum | Çorumlu | 20 |
| Kınık | Kənd | Hamid | İrla | 24 |
| Kınık | Kənd | Hamid | Gönən | 30 |
| Kınık | Kənd | Xudavəndigar | - | 11 |
| Kınık | Kənd | Xudavəndigar | Sivri hisar | 13 |
| Kınık | Kənd | Xudavəndigar | Mihalıç | 27 |
| Kınık | Kənd | Xudavəndigar | Göynük | 15 |
| Kınık | Kənd | Xudavəndigar | Berqama | 54 |
| Kınık | Kənd | Xudavəndigar | Atranos | 24 |
| Kınık | Kənd | Qarahisari-Sahib | Şəhrabad | 45 |
| Kınık | Kənd | Qarahisari-Sahib | - | 23 |
| Kınık | Kənd | Qarahisari-Sahib | Sandıqlı | 13 |
| Nısıf Kınık | Əkinlik | Qarahisari-Sahib | Hula | 1 |
| Kınık | Kənd | Qarahisari-Sahib | Hula | 8 |
| Yuxarı Kınık | Kənd | Qarahisari-Şərqi | Gəzəvid | 13 |
| Aşağı Kınık | Kənd | Qarahisari-Şərqi | Gəzəvid | 9 |
| Kınık | Kənd | Karasi | İvrindi | 25 |
| Kınık | Kənd | Karasi | Daş gərdək | 43 |
| Kınık | Kənd | Karasi | Sındırğı | 12 |
| Kınık alanı | əkinlik | Karasi | Sındırğı | - |
| Kınık | Kənd | Kastamonu | Devrəkanı | 20 |
| Kınık | Kənd | Kastamonu | Sinob(Qarasu) | 39 |
| Kınık və Xatun | Kənd | Kastamonu | Daday | 68 |
| Kınık və Əkin başı | Kənd | Kastamonu | Sinob | 11 |
| Kınıkcıq-Karğın (digər adı Eldüzən) | Kənd | Kanqırı | Kanqırı | 64 |
| Kınık | Kənd | Kanqırı | Qoç hisar | 70 |
| Kınık və Sevinc viranı | Kənd | Kanqırı | Tosya | 56 |
| Qara Kınık | Kənd | Kanqırı | Çərkəş | 229 |

| | | | | |
|---|---|---|---|---|
| Bağ güz virancıq və Kınık özü | Kənd | Kanqırı | Qarğu | 60 |
| Kınık və Qaraağac | Kənd | Qoca-eli | Kandırı | 18 |
| Kınık | Kənd | Konya | Bel-viran | 59 |
| Kınık | Kənd | Konya | Səhra | 40 |
| Kınık | Kənd | Konya | Səhra | 5 |
| Yazı Kınık | Kənd | Konya | Səhra | - |
| Kınık | Kənd | Konya | Larəndə | - |
| Yaka Kınık | Kənd | Kütahya | Yolaq | 64 |
| Bostan Kınık | Kənd | Kütahya | Yolaq | 11 |
| Kınık | Kənd | Kütahya | - | 25 |
| Yuxarı Kınık | Kənd | Kütahya | Qalın viran | 20 |
| Aşağı Kınık | Kənd | Kütahya | Qalın viran | 10 |
| Kınık | Kənd | Kütahya | Əyri göz | 18 |
| Dərə Kınık | Kənd | Kütahya | Əyri göz | 18 |
| Kınık | Kənd | Kütahya | Siman | 64 |
| Toyca Kınık | Kənd | Kütahya | Selinti | 24 |
| Kınık | Kənd | Malatya | Qara hisar | 64 |
| Ağca Kınık | Kənd | Malatya | Ərğavun | 11 |
| Kınık | Kənd | Malatya | Heyvalı | - |
| Kınık | Kənd | Malatya | Kahta | - |
| Kınık quzu | Kənd | Maraş | Zeytun | - |
| Böyük Kınık | Kənd | Maraş | Xısnı-Mansur | 23 |
| Kiçik Kınık | Kənd | Maraş | Xısnı-Mansur | 14 |
| Kınık | Kənd | Məntəşə | Balat | 5 |
| Kınık | Kənd | Saru-xan | Dəmürçü | 60 |
| Kınık | Kənd | Sivas | Sivas | 18 |
| Kınık viranı | Kənd | Sivas | Sivas | - |
| Kınık | Kənd | Sivas | Sivas | - |
| Kınık | Kənd | Sivas | Sivas | - |
| Kınık | Kənd | Sivas | Tokat (Kafir eli) | 30 |
| Kınık və Akviran | Kənd | Sivas | Tokat | - |
| Kınık | Kənd | Sivas | Tokat | - |
| Qara Kınık | Kənd | Sivas | Zilə (Məşhədabad | 17 |
| Kınık | Kənd | Sivas | Zilə (Məşhədabad) | - |
| Kınık | Kənd | Təkə | Kalkanlu | 61 |
| Ağ yaka və Kınık | Kənd | Təkə | Qaş | 27 |

# YER ADLARI SIRASINA GÖRƏ OĞUZ BOYLARI

| **Boyun adı** | **XVI əsr** | **Bu gün** |
|---|---|---|
| Kayı | 94 | 25 |
| Avşar (Əfşar) | 86 | 53 |
| Kınık | 81 | 46* |
| Eymür | 71 | 28 |
| Karkın | 62 | 34 |
| Bayındır | 52 | 28** |
| Salur | 51 | 22 |
| Yürəgir | 44 | 9 |
| Çəpni | 43 | 36 |
| İğdir | 43 | 14 |
| Bayat | 42 | 32 |
| Ala-Yundlu | 29 | 1 |
| Kızık | 28 | 21 |
| Yazır | 24 | 19 |
| Dodurğa | 24 | 12 |
| Bəydili | 23 | 9 |
| Büğdüz | 22 | 6 |
| Çavuldur (Çavundur) | 21 | 17 |
| Yıva | 19 (?) | - |
| Döyər | 19 | 6 |
| Qara-Evli | 8 | 6 |
| Peçeneq | 4 | 10*** |
| Alka-Bölük (Alkaravlı) | - | - |
| Baharlu | - | - |

* Bu adda İzmirə aid bir qəsəbə var.
** Yenə bu adda İzmirə aid bir qəsəbə var.
*** Şərəfli Qoç-Hisar yaxınlığında Peçeneq-Özü adlı bir yörə də vardır.

## ANADOLU və SURİYADAKI TÜRKMƏN OYMAQLARI İLƏ İLGİLİ SİYAHILAR

Anadolu və Suriyada yaşayan türkmən oymaqları haqqında bəzi siyahılar vardır. Bu siyahılardan ən əskisi XIV əsrdə tərtib edilmişdir. Digərləri isə XV, XVII və XVIII əsrlərdə meydana gətirilmişdir Bunlardan başqa, XIX əsrdə Çuxurovada və Qərbi Anadoluda yaşayan oymaqlarla əlaqədar siyahılar da vardır. Kitabda yeri gəldikcə bu siyahılardan istifadə edilmişdir. türkmən oymaqlarının tarixini tədqiq etmək istəyənlərə kömək üçün Katib Çələbinin siyahısı orijinalda, digər müəlliflərin siyahılarının türkcə tərcüməsi aşağıda verilmişdir.

Ən əski siyahı XIV əsrdə yazılmış "Kitabü icabət is-sail ila mərifət ir-rəsail" adlı əsərdədir. Bu siyahı XV əsrın ilk rübündə ölən (1418) Kalkaşəndi adlı misirli müəllifin "Sübh ül-aşa"adlı kitabında da var. O, türkmənlərə dair başqa bilgilər də verir. Bundan dolayı həmin müəllifdəki siyahı əsas kimi qəbul olunmuş və "Kitabü icabət is-sail"dəki siyahıya istinadən lazımi düzəlişlər edilmişdir.

### 1. ƏN ƏSKİ SİYAHI (XIV əsr)

"Ət-Təskif"də[1] deyildiyinə görə, türkmən oymaqlarının çox azına Şərq ölkələrinin böyüklərinə göndərilən məktublar kimi məktub yazılırdı. Geri

[1] Bu, itmiş bir əsərdir. Onun məmlük dövləti təşkilatından məmlük əmirlərinə, qazılara və digər dövlət məmurlarına, hökmdarlara, türkmən və ərəb əmirlərinə yazılacaq yazılarda hansı ünvanlardan istifadə ediləcəyi haqqında bürokratlara bilgi vermək üçün yazılmış bir kitab olduğu anlaşılır.

qalanlarına "taətiş-şərifə" sözü yazılır. Bununla bərabər, onlara göndərilən mühüm yazılarda yalnız "şərifə" kəlməsi olur.

1. Türkmənlərdən Murad xoca[1]. Buna əs-sami yazılmır, yalnız adı yazılır.

2. Bozdoğan oğlunun qardaşı oğlu Böyük Bakiş (Bəgiş?). Buna əs-sami yazılmır, yalnız adı yazılır[2].

3. Zeyn ül-mülk Bozdoğan. Buna da əs-sami yazılmır, yalnız adı yazılır. Ancaq onun üçün "Şərq ölkələrindəki türkmən böyüyü" sifəti adından öncə yazılır[3].

4. Boz-oxlular. Türkmən İnal oğlu Əli bu icmadandır, əs-sami yazılmır, bilinən adı yazılır.

5. Əlişar oğlu Yaqub. Buna adı və əs-sami yazılır. "Ət-Təskif"də deyildiyinə görə, 741-ci ildə (1340/1341) qazı Nəsrəddin bin ən-Nəsai ona (yəni Əlişar oğlu Yaquba) belə yazmışdı[4].

6. Döğər Salim[5]. Adı və əs-sami[6] yazılır.

Bilinməlidir ki, yenə "ət-Təskif"dən nəql edilərək Suriya (Şam) yörələrindəki türkmənlər haqqında bilgi verilmişdir. Həmin kitabda türkmən bəylərindən heç birinə taət[7] kəlməsi yazılmamışdır. Əgər onlara yazılması lazım gələn bir şey olsa, bütün oymaqlarına göndərilən yazılarda mütləq şərif[8] kəlməsi işlənirdi.

Aşağıdaki oymaqlar türkmənlərdən sayılır:

Birincisi: boz-oxlar. Dulqədir oğlunun oymağı və daha öncə adı çəkilən İnal oğulları bunlardandır.

İkincisi: üç-oxlar. Ramazan oğulları və özərlilər[9].

Üçüncüsü: avşarlar. Bunlar Hələb türkmənləridir.

Dördüncüsü: döyərlər[10]. Bunlar Döyər Salimin oymağıdır.

---

[1] Bizcə, bu, qaraqoyunlulardan Mosul hakimi Verdi xocadır, ancaq başqa biri də ola bilər.

[2] "İcabət is-sail"də (vərəq 47) Bakişin (Bəgiş) Xarput valisi (naibi) olduğu deyilir.

[3] "İcabət is-sail"də Zeynəddin ibn Bozdoğan deyilir ki, doğrusu da budur. Bozdoğan oğullarının XIV əsrdə Mosul-Mardin arasında yaşayan bir ailə olduğu anlaşılır. Bu ailə sonra Sivas-Kayseri hökmdarı Qazı Bürhanəddinin xidmətinə girmişdi.

[4] "İcabət is-sail"də 772-ci il (1370/1371) tarixində deyilir. Əlişar oğlu Yaqub haqqında tarixi bilgiyə sahib deyilik. Yalnız Boz-oxda (əsasən Yozqat yörəsi) Qızıl Qocaluya bağlı əlişarlu adlı bir oymaq var. İndi bu adda bir çox kənd görünür (Türkiyədə məskun yerlər qılavuzu, I, s.5).

[5] Mətndə: Salim əd-Dülgəri. "İcabət üs-sai"də doğru olaraq: Salim əd-Dögəri.

[6] Əs-sami: ulu, yüksək anlamında bir ünvandır.

[7] Taət: Allahın buyruqlarını yerinə yetirmək, buyruqlarına qarşı çıxmamaq, itaət etmək.

[8] Şərif: şərəfli.

[9] Mətndə: əl-əmriyyə. "İcabət üs-sail"də: əl-əhəriyyə. Bu adın doğrusu əl-özəriyyə, yəni özərlilərdir.

[10] Yenə əd-dülgəriyyə. "İcabət"də: əd-dokəriyyə. 1440-ci ildən öncə yazılmış bir münşəat məcmuəsində (150 a) döyərlərin Cabərdən Acluna gəldikləri və bu əsnada Salimin nəvəsi və Diməşq Xocanın oğlu Qara (?) Əli'nin Aclun naibi, yəni valisi olduğu bildirilir.

Beşincisi: xarbəndəlilər[1]. Bunlar Mustafanın oymağıdır.
Altıncısı: ağac ərilər.
Yeddincisi varsaq(lar). Bunlar Tarsus türkmənləridir.
Səkizincisi: kınıklar.
Doqquzuncusu: bayındırlar. Bunlar kınıklardandır[2].
Onuncusu: bəydililər[3]. Taşbun (Taşkun) oğulları bu oymağın başlarıdır.
Onbirincisi: bayatlar.
"Təskif"də "türkmənlər daha da çox oymaqdır, burada hamısını anmaq mümkün deyildir" deyilir[4].

## 2. XƏLİL ZAHİRİNİN SİYAHISI (XV əsrın birinci yarısı):

"Sonra Qəzzədən Diyarbəkirə qədər uzanan bölgədəki türkmənlər haqqında bilgi vermişdim. Bu türkmənləri meydana gətirən oymaqlar bunlar:

1. Qut bəyi oğulları[5]
2. Köpək oğulları
3. Saqqalsız oğulları
4. Dülqədir oğulları [ibn Dülqədir]
5. Ramazan oğulları
6. Özərlilər
7. Bəydililər
8. Bayatlar[6]
9. Bozcalular[7]
10. Maraşlular[8] (?)
11. Ürəgirlilər[9]
12. Üç-ohlu (oxlu)
13. Boz-ohlu (oxlu)
14. İnallular

[1] "İcabət"də: Mustafa Hacı.
[2] Mətndə: "onlar ən-naqibiyyədəndir". "İcabət"də: "onlar kınıkiyyədəndir" (kınıklar). Yəni XIV əsrdə bayındırların kınıklara tabe olduğu söylənir. Gerçəkdən o zamanda çoxusu Çuxurovada yaşayan kınıkların güclü bir təşəkkül olduklarını bilirik.
[3] Mətndə: əl-bəkriliyyə. "İcabət"də: əl-bəkdiliyyə.
[4] Sübh ül-aşa, VII, s.281-282; "Kitabü icabət is-sail", vərəq 47.
[5] Mətndə: ibn Qutlu bəy. Bu, ağqoyunluları ifadə etmək üzərə doğru ola bilər. Qara Yölük Osman ilə digər ağqoyunlu bəylərinin (Əhməd və Pirəli ilə digər bəylərin) ataları Qutlu bəy idi. Fəqət bu, o zaman üçün çox zəif bir ehtimaldır.
[6] Mətndə: bazatiyyə. Şübhəsiz, bunun doğrusu bayatiyyə (bayatlar) olacaq.
[7] Mətndə: türkcə eynən bu şəkildə yazılmışdır.
[8] Mətn: əl-maraşkular. Maraşlular şəklində düzəldildi. Fəqət belə bir icma adına başqa yerdə rast gəlmədik.
[9] Mətn: əl-ərakiyyə. Bunun ürəgiriyyə olduğuna şübhə etmirik. Ürəgir, yürəgir, görmüş olduğumuz kimi, oğuz boylarından biri.

15.Xarbəndəlilər
16.Gündüzlülər[1]
17.Kınıklar[2] (?)

Adı çəkilən boylar da çoxlu obalara ayrılırlar. Bunların hamısının çıxardıqları əsgərin sayı 180.000 atlıdır”[3].

## 3. KATİB ÇƏLƏBİNİN SİYAHISI (XVII əsrin ortaları)

Osmanlının ən böyük elm adamlarının biri olan Katib Çələbi “Cahannüma” adlı coğrafiya əsərində əski və yeni Hələb türkmənlərinə dair bir siyahı vermişdir.

Bu siyahını olduğu kimi təqdim edirik[4]:

“Və ol vəqt türkmani-Hələb səkkiz taifədir:

1. Zülqədriyyə (dülqədirli) Əlbistanda yaşayırdı.
2. Özəriyyə (özərlilər). Davud bin Özər camaatından, Misisada (Misisdə)[5].
3.Zəkəriyyə (Dögəriyyə=döyərlər); Salimi-Zəkəri (döyəri) camaatı Çakıtdadır[6].
4. Ramazan oğlu Adanada.
5. Avşariyyə (avşarlar) biladi-Cabərdə[7].
6. Varsaq Tarsusda.
7. Bayadiyyə (Bayatlar) və
8. Köbəkiyyə (köpəklilər) zahiri-Hələbdə (Hələbin dışında, dolayında) olurdular.

Amma ol əsami (adlar) mütəbəddil oldu (dəyişdi) ki, bunlardır:

a. Taifeyi-Pəhlivan oğlu
b. Taifeyi-bayat
c. Taifeyi-qaçar
d. Taifeyi-avşar. Bunlar Rəcəb oğullarıdır[8]
e. Taifeyi-eymir
f. Taifeyi-köçəklü[9]
g. Taifeyi-cərid sil-süpür[1].

---

[1] Mətn: əl-kənduliyyə.
[2] Mətn: əl-kancaliyyə.
[3] Kitäbü zübtəti kəşf il-məmalik, yay. P.Ravaisse, Paris, 1894, s.105.
[4] Cahannüma. İstanbul, 1145 ş., s.593. Katib Çələbi 1658-ci ildə ölmüştür.
[5] Özərlilər, daha öncə deyildiyi kimi, Dördyol, Payas və Ərzin ətrafında yaşayırdılar.
[6] Döyərlərin Cabərdə yaşadıqlarını görmüşdük.
[7] Avşarların Rəqqa iskanından öncə (XVII əsrın sonları) Cabər yörəsində oturmaları mümkün deyil.
[8] Bu oymaqlar haqqında daha öncə bilgi verilmişdi.
[9] Boz ulusun dülqədirli qolundan.

h. Taifeyi-abalu[2]
9. Taifeyi-ördəklü[3]
10. Taifeyi-qaraqoyunlu[4]
11. Taifeyi-ağqoyunlu[5]

## 4. SƏYYAH NİBURUN SİYAHISI (1764-cü il)

Türkmən oymaqlarına dair Avropalı səyyahların əsərlərində bəzi siyahılar müşahidə olunur. Bildiğimizə görə, bu siyahılarin ən qədimi məşhur səyyah Niburun (Niebuhr) kitabındakı siyahıdır Nibur bu siyahını 1764-cü ildə Hələbdə yaşayan Dr. R. Rasseldən almışdı[6].

| | | | |
|---|---|---|---|
| 1 | Bəydili | 12.000 ev/çadır | Bunlar Urfa əyalətində otururlar. |
| 2 | Məhmələnli | 500 çadır | Hər ikisi Urfa paşasının idarə etdiyi yerlərdə yaşayır. |
| 3 | Bayındır | 300 çadır | |
| 4 | Pəhlivanlı | 15.000 çadır | Sivas-Anqara arasında oturur. |
| 5 | Köçəkli | 10.000 çadır | Sivas-Anqara arasında oturur[7]. |
| 6 | Avşar | 500 çadır | Bu beş oymaq (yəni avşar, cərid, lək, bəbərli və ağcaqoyunlu) Sivas-Ankara arasında yaşayırlar). |
| 7 | Cərid | 500 çadır | |
| 8 | Lək | 1.000 çadır | |
| 9 | Bəbərli[8] | 1.000 çadır | |
| 10 | Ağcaqoyunlu | 500 çadır | |
| 11 | Şam bayadı | 500 çadır | Sivas-Anqara arasında yaşayır. |
| 12 | Barak[9] (?) | 1.000 çadır | Yazda Sivasda, qışda Zorda[1]. |

[1] Bu oymaq üçün yuxarıya bax.
[2] Təhrir dəftərlərində görəmədiyimiz bu oymaq Hələb tükmənlərinə mənsub olub 1102-ci ildə (1691) Həma sancağı ilə Hümus sancağı arasındaki boş yerlərə yerləşdirilmələri əmr edilən oymaqlardan biri idi. Bununla ilgili olaraq abalunun bir bölüyü Həma, bir bölüyü də Hümus torpaqlarında oturaq həyata keçirilmişdir (Əhməd Rəfiq. Anadoluda türk əşirətləri, s.69, 78; Ç.Orxonlu. Osmanlı imperatorluğunda əşirətləri iskan təşəbbüsü, s.63, 66).
[3] Bu adda Anadoluda bir oymaq görmədim. Ancaq İranda doğrudan-doğruya türkmən adını daşıyan boyun obalarından biri Ördəklü adlanır.
[4] Hələb türkmənləri arasında görmədim.
[5] Hələb türkmənləri arasında görmədim.
[6] Bu siyahı eynən belədir: C.Niebuhr. Voyage en Arabie et en d'autres pays circonvoisinens fransızca tərcüməsi, Amsterdam, 1780, II, s.336-338. Bu siyahı F.Hasluckun əsərində də vardır: Cristianity and İslam under the Sultans, Oxford, 1929, 1, s.480-481.
[7] Köçəklilərın çadırlarının sayı barədə verilən rəqəm mübaliğəli görünür. Oymaqların çadır sayı ilə ilgili rəqəmlər təqribidir.
[8] Bu adda bir oymağa rast gəlinmədi. Bahadırlımı? Ancaq bahadırlılar qələbəlik bir oymaq deyildilər.
[9] Mətndə: yıraq.

| | | | |
|---|---|---|---|
| 13 | Çağırğanlı[2] | 200 çadır | Yazda Sivasda, qışda Zorda. |
| 14 | Reyhanlı[3] | 2.000 çadır | Yazda Sivasda, qışda Hələbdə. |
| 15 | Kuluk[4] (?) | 200 çadır | Qışda Adanada, yazda isə Kayseri bölgəsində. |
| 16 | Dadlı[5] | 200 çadır | Yazda Kayseridə, qışda Urfada. |
| 17 | Ulaşlı | 200 çadır | Hələb bölgəsində. |
| 18 | Cacalu[6] | 1.000 çadır | Antəb bölgəsində. |
| 19 | Kızık[7] | 2.000 çadır | Antəb bölgəsində. |
| 20 | Dədə karkın[8] | 1.000 çadır | Antəb bölgəsində. |
| 21 | Qabalı | 1.000 çadır | Şam bölgəsində. |
| 22 | Qaraqoyunlu | 500 çadır | Şam bölgəsində. |
| 23 | Sofular | 500 çadır | Sivas bölgəsində. |
| 24 | Quluncuqlu | 500 çadır | Sivas bölgəsində. |
| 25 | Pürnək[9] | 12.000 çadır | Anqara bölgəsində. |
| 26 | Elbəyli | 2.000 çadır | Bunların yarısı Sivas, yarısı Hələb bölgəsində yaşayır. Ancaq daha əvvəl də deyildiyi kimi, bu iki el-bəyli (Sivas və Maraş) oymaqları arasında sadəcə adaşlıq var. |
| 27 | Qaraca Kərd | 500 çadır | Kayseri bölgəsində yaşayır. İndi qaraca-kürd deyilir. Adı Bozulus türkməninin ən mühüm oymaqlarından biri kimi tez-tez çəkilir. |
| 28 | Şərəfli[10] | 500 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 29 | Ayalı | 1.000 çadır | Suriyada, əsasən Şam əyalətində. |

[1] Səyyah buranın hara olduğunu bilmədiyini deyir. Bura xeyli uzaq olmaqla bərabər Deyr əl-Zor olmalıdır.
[2] Dülqədirlidən. Çağırğanlıdan bir qolun Qərbi Anadoluya köç etmiş olduğu görünür. Bu, Boz-ulus çağırğanlısıdır.
[3] Bugünkü Reyhanlı qəsəbəsi bu oymağın adını daşıyır. Bu, əslində Hələb bayatlarının bir obası idi. Bayatın bir çox digər obaları da Reyhanlıya qatılaraq onu güclü bir oymaq halına gətirdilər.
[4] Mətndə belədir. Bəlkə də kınık.
[5] Belə bir oymaq görünmədi.
[6] Bu, dülqədirlinin Boz-ulusdakı Cəcəli oymağı olmalıdır, ancaq çadırların sayı mübaliğəli kimi görünür.
[7] Mətndə: Kırzık. Verilən 200 rəqəmi sadəcə köçər kızıklar üçün ola bilər.
[8] Ünlü Dədə Karkının adını daşıyır. XIX əsrdə Aydın bölgəsində eyni adda bir oymaq vardı ki, hər halda bunun qərbə köçmüş bir qoludur. Aşağıda yörüklərə aid siyahıya bax. Ancaq çadırlarını ifadə edən rəqəm mübaliğəlidir.
[9] Bu, Boz-ulus arasındakı Pürnək oymağıdır. Ancaq 12.000 rəqəmi, bizcə, mübaliğəlidir.
[10] Bu, Boz-ulusun Şərəflü obasıdır. Bir də 1691-ci ildə Hümus sancağına yerləşdirilən Kosa oğlu Şərəflü oymağı var (Ç.Orxonlu, göstərilən əsər, s.64,65).

| | | | |
|---|---|---|---|
| 30 | Qıçlı | 200 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 31 | Eymir | 500 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 32 | Taxtəmürlü | 500 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 33 | Saracalar[1] | 500 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 34 | Geyikli | 2.000 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 35 | İzzəddinli | 500 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 36 | Özərli (?) | 1.000 çadır | Suriyada, əsasən Şam əyalətində. |
| 37 | Musabəyli | 500 çadır | Antəb bölgəsində. |
| 38 | Ditimli[2] | 3.000 çadır | Antəb bölgəsində. |

## 5. V.LANQLOİSİN ÇUXUROVADAKI OYMAQLARA DAİR SİYAHISI (1857-ci il)[3]

### -Tarsus-

| | Adı | Əhalısi | Qoyunu | Keçisi | İnəyi | Dəvəsi |
|---|---|---|---|---|---|---|
| | Mənəmənci | 3.000 ev | 80.000 | 20.000 | 18.000 | 2.000 |
| | Təkəli | 600 ev | 8.000 | 25.000 | 2.400 | 400 |
| | Sortan və Küçü oğlu[4] | 500 çadır | 4.000 | 8.000 | 1.500 | 350 |
| | Qara kahyalu | 700 çadır | 50.000 | 6.000 | 4.100 | 1.000 |
| | Tor-oğlu | 300 ev | 800 | 2.000 | 1.000 | 200 |
| | Bəxşiş və hacı-həsən oğlu | 300 ev | 500 | 4.500 | 2.000 | 150 |
| | Qara təkəli | 150 ev | 4.000 | 40.000 | 500 | 100 |
| | Puran və Mustafa bəy[5] | 200 çadır | 6.000 | 5.000 | 500 | 300 |
| | Kalavunlu[6] | 30 ev | 500 | 500 | 1.500 | 475 |

### -Adana-

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Qara hacılı | 500 ev | 3.000 | 5.000 | 3.500 | 300 |
| | Dündarlu | 200 çadır | 7.500 | 3.000 | 1.000 | 150 |
| | Cərid | 1.200 çadır | 3.7500 | 3.500 | 25.000 | 1.800 |
| | Sırkıntılı oğlu | 800 çadır | 30.000 | 5.000 | 1.800 | 1.000 |

---

[1] Bu adda bir oymağa rast gəlinmədi. “Sarıcalar” nəzərdə tutulmuş olmalıdır.
[2] Bu adda bir oymaq görünmədi.
[3] V.Langlois. Voyage dans la Clicie et dans les montagnes du Taurus. Paris, 1861, s.21.
[4] Mətn: Sortan et Kudjuoğlu. Bu oymaqlar haqqında indilik məlumatımız yoxdur.
[5] Bu oymaq haqqında da ciddi bir şey bilinmir.
[6] Bu oymaq haqqında da indilik bir şey söyləmək mümkün deyildir.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Kərim oğlu[1] | 2.500 çadır | 40.000 | 4.000 | 20.000 | 2.000 |
| | Qarıntılu | 100 çadır | 4.000 | 4.000 | 2.000 | 150 |
| | Kozan oğlu[2] | 500 ev | 7.000 | 5.500 | 2.500 | 50 |
| | Boz doğan[3] | 1400 | 40.000 | 40.000 | 20.000 | 3.000 |
| | Təcirlü[4] | 1.200 çadır | 30.000 | 40.000 | 21.000 | 1.000 |
| | Farsaq[5] | 800 çadır | 20.000 | 40.000 | 9.500 | 750 |

## 6. DR. ÇAKIROĞLUNUN QƏRBİ ANADOLUDAKI YÖRÜK OYMAQLARINA DAİR SİYAHISI[6] (XIX əsrın II yarısı):

1. Əhmədli: bir bölüyü Kulada, bir bölüyü də Bursaya bağlı Simavda yaşayır.
2. Altçı: Attalada; oturduqları yer At Alana qədər uzanır.
3. Anamaslı[7]: Dəmirçi qəzasında. Bunlar 50 çadır və 70 evdir. 10.000 davarları var, 15.000 quruş vergi verirlər.

---

[1] Kərim oğulları boz doğanların boy bəyi ailəsidir. Buradakı 2500 çadır bu ailənin idarəsindəki boz doğanlara aiddır. Digər boz doğan qolundan ayırd etmək üçün bunlara kötük boz doğan deyilir. Bunların çoxu və ya önəmli bir qismi yürəgil (yürəgir) ovasında yerləşmişlər.

[2] Hələ də oxunan türkülərində "ünü böyük" deyilən dərəbəylərinə bağlı topluluğun əhalısi və sərvəti (!). Göründüyü kimi, hər evə 14 qoyun, 11 keçi və 5 inək düşür. Bu adamların çoxunun əkin yeri olmadığı, olsa da çox az və dağlıq ərazidə olduğu üçün bir dəyər daşımadığı düşünülsə onların, digər qaynaqların da təsdiq etdiyi kimi, olduqca yoxsul insanlar olduqları anlaşılar. Bundan 15-20 il öncə də durumları yaxşı deyil idi. Kozan oğullarının isə nə dərəcədə zəngin bir ailə olduğu bu rəqəmlərdən görünür.

[3] Bu boz doğanlar Kərim oğullarının idarəsi altında olmayan boz doğanlar olub çoxu Qədirli və Ceyhan qəzalarında yerləşmişlər. Daha öncə boz doğanların əski və qələbəlik bir oymaq olduğu, əsl yurdunun İç-el yörəsində olduğu söylənmişdi. Bunlar da bütün yörüklər kimi, boy-buxunlu, iri cüssəli adamlardır. Çuxurovanın məşhur qızdırması belə onların sağlam vücudlarına təsir edə bilməmişdir. Yenə bütün yörüklər kimi, sakit, gülərüz insanlardır. Onların təqribən əlli il öncəki durumları haqqında Cənubda türkmən oymaqlarına bax (II basqı, II, s. 389-393).

[4] Mətndə: tacirin. Bir çox arxiv qaynaqlarında da belə yazılır. Ancaq yayğın şəkli təcirlidir.

[5] Bugünkü çuxurovalılar da belə söyləyirlər. Əski qaynaqlarda onlar varsaq olaraq anılır. Onların İrana öç edənlərinin şeir və ya türkülərinə varsağı adı verilmişdi. Ancaq Çuxurovada və dağlardakı farsaq kəndlərində bu söz (yani varsağı) bilinmir.

[6] Yunan əslli izmirli Dr. Çakıroğlu XIX əsrın II yarısında Qərbi Anadolu'da yaşayan oymaqlardan bir çoxlarının adlarını və onların oturduqları yerləri göstərən bir siyahını Afinada çıxan bir dərgidə yayınlamışdır. İngilis etnoqraf və folklorçu F.Hasluck da türkmənlərə dair digər siyahılar kimi, Çakıroğlunun siyahısını da “Cristianity and İslam under the Sultans” (Oxford, 1922, I, s.475-477) adlı kitabına daxil etmişdir. Biz də bu siyahını onun əsərindən alaraq burada veririk. Ancaq Hasluckun bu oymaqların hamısını sünni olmayan oymaqlar şəklində göstərməsi kəsinliklə doğru deyildir.

[7] Bu, dülqədir elinə bağlı Böyük Anamaslu (digər adı Qaraçalı) oymağının bir obası və ya qolu ola bilər.

4. Ərəbli[1]: Salihli civarında yaşayırlar, yaşadıqları yer Bursa vilayətinədək uzanır.

5. Çaqqal: Saru-xan sancağında otururlar.

6. Çarıq: Kulada yaşayırlar.

7. Farsaq[2]: Aydın vilayətinin hər tərəfinə yayılmışlar. Bu, 1.200 ailədən ibarət olan çox zəngin və qələbəlik bir oymaqdır.

8. Göy musalı: bunlar Dəmirçi qəzasında, İnciklər kəndi yaxınlığında yaşayırlar. 50 çadır və 50 evdən ibarətdirlər.

9. İvatlı: Qameit (?) civarında yaşayırlar. 22 çadırdır.

10. Qacar[3]: Səlgədə və Alaşəhirdə yaşamaqla bərabər güneydə Nazilliyə qədər uzanırlar. Qacarlar qələbəlik və önəmli bir oymaqdır. Bu oymaq kula qacarı, kələş qacar və ova qacar qollarına (məhəllə) ayrılır. Vamberi səlgə qacarı da bunlara əlavə edir.

11. Qara-təkkəli[4]: İzmir civarında qışlayırlar.

12. Xorzum[5]: Aydın və Bursa vilayətlərində yaşayırlar.

13. Qızıl keçili[6]: Səlinti (Kula) nahiyəsində, Pınarköydə yaşayırlar. Bunlar 800 çadırdır, 60.000 davarları var, 6.000 quruş vergi verirlər.

14. Manavlı: Alaşəhirlə Salihli və Bursa vilayətində yaşayırlar.

15. Narincəlü: Kula qəzası ilə Dənizli yuxarısındakı Omur Bala dağ yaxınlarında yaşayırlar.

16. Saraç: Uşaq ilə Eşmə arasında yaşayırlar.

17. Sarı təkkəli[7]: Nazilli ilə Dənizli arasında və Bursa vilayətində yaşayırlar.

18. Şəbidli: Kula qəzasında yaşayan 60 evlik bir oymaqdır.

19. Şeyxli: bunlar qışda Ulu Borluda, yazda Afyon Qara Hisarında yaşayırlar. On obaya ayrılırlar: arpat şeybli, qısat şeybli, hacı şeyhli. Bunlar 70-80 çadır və 200 evdir, 15.000 quruş vergiləri vardır.

20. Yağcı bədirli: Somada və Bursa vilayətində otururlar.

## Aydın vilayətinin cənub-qərbində və digər yörələrində yaşayan oymaqlar

[1] Ehtimal ki, bunlar da əslən XVII əsrdə və ya daha sonra qərbə gələn türkmənlərdəndir. Daşıdıqları ad türk əslli bir şəxsdən gəlir.

[2] Buraya Çuxurovadan gəlmişlər.

[3] Bu qacarlar əslində Hələb türkmənlərinə mənsub bir oymaq idilər (Səfəvi dövlətinin quruluşunda Anadolu türklərinin rolu).

[4] Doğrusu qara təkəli olacaq.

[5] Xorzum (Xarəzmdən). Xorzumların bir qismi Çuxurovaya köçüb bundan əlli il əvvəl Aladağ və Binboğada yaylaya çıxırdılar (Cənubda türkmən oymaqları, II, s.37, 39, 341, 342).

[6] Əslən məntəşəli olan qızıl keçililərin mühim bir qismi son zamanlarda Bursanın Uludağ çevrəsində yaşayırdı.

[7] Doğrusu: sarı təkəli.

1. Abdal: Ulu Borluda və başqa yerlərdə otururlar.
2. Ağdağlı: Nazilli civarında.
3. Ağqozalı:
4. Alaca qoyunlu: Konyaya qədər gedirlər.
5. Allah-Abeli: Saru-xan sancağında.
6. Bəylikli:
7. Boynu incəli[1]:
8. Burxan: Bursa vilayətində də yaşayırlar.
9. Çambar: Aydın və Bursa vilayətlərində otururlar.
10. Çəpni: önəmli bir oymaq olub Aydın vilayətinin hər tərəfinə yayılmışlar.
11. Çitmi[2]:
12. Dədə Karkınlı[3]: Saru-xan sancağında otururlar.
13. Dəriçi: Aydın və Bursa vilayətlərində otururlar.
14. Dosuti ərəbli:
15. Əski yörük:
16. Əşpək:
17. Geypey:
18. Gərinisli: Nazillidən Muğlaya qədər olan yerlərdə yaşayırlar.
19. Göşçi (?): Nazillidə.
20. Xırmandalı[4]:
21. Xutal:
22. Gözəl bəyli: Nazilli civarında otururlar.
23. İynəçi: Saru-xan sancağında.
24. İmir xarici[5]: Saruhan sancağında.
25. Cərid[6] (Cirid): Nazilli yaxınlığında otururlar.
26. Qara Fak oğlu: Aydın və Bursa vilayətlərində.
27. Qaramanlı: Nazillidən İspartaya qədər olan yerdə.
28. Qara yağcılı:
29. Kosalar: Nazillidə.
30. Kılaz:
31. Kirtiş:
32. Kislilərli: Saru-xan sancağında.

---

[1] Əslində, Boz-ulusa bağlı oymaqlardan biri idi. Boynu incəlidən bir qol əlli il öncə İçəldə yaşıyırdı ki, (Cənubda türkmən oymaqları, II, s.512) bu, eyni oymaq ola bilər.

[2] Bu da Çəpnidən yarana bilər.

[3] Bu, Niburun siyahısında Antəbdə yaşadığı söylənən Dədə Karkın oymağıdır. Ancaq Dədə Karkın oymağının hamısı, yoxsa bir qismi qərbə köç etti? Bu hələ təsbit edilmədi.

[4] Bu, xarbəndəlilərin qərbə köçmüş bir obasıdır.

[5] İmir-xarigi.

[6] Qərbə köçmüş Boz-ulus cəridindən bir oba olmalı.

33. Qızıl işıqlı: Bu da Bursa vilayətində oturur.
34. Qocabəyli: Aydın və Bursa vilayətlərində.
35. Musarlarlı: Saru-xan sancağında.
36. Muzan: Bursa vilayətində.
37. Omurlu:
38. Rəhman:
39. Saatçı (Saçı qaralı): Vamberiyə görə, Nazilli civarında.
40. Sarı keçili:
41. Daş evli:
42. Təkkəli[1]:
43. Təraci[2]:
44. Yatağanlı: Qaraağac yaxınlığında.
45. Yel aldı:

## 7. İRANDA YAŞAYAN TÜRKMƏN ƏSİLLİ OYMAQLARLA ƏLAQƏDAR SİYAHILAR

İranda yaşayan türk əsilli oymaqlar onlara xas olan bir sıra xüsusiyyətlərlə alimlərin diqqətini xüsusi olaraq cəlb edirlər. Çünki bu oymaqlar XV əsrdən XX əsrın ilk rübünün sonuna qədər İranı idarə edən dövlətlərin ən önəmli hərbi gücünü təşkil etmiş, biri müstəsna olmaqla xanədanların hamısı bu oymaqlardan çıxmışdır.

XIX əsrdə İranda yaşayan oymaqlar əski boy təşkilatları ortadan qalxmış, bir çoxu az öncə təşəkkül etmiş, bir çoxu yeni adlar almış, qalanları isə başlı-başına, yəni müstəqil bir oymaq səciyyəsi qazanmış kimi görünürlər. Buna görə, bu oymaqlarla əlaqədar bir çox məsələlərin həll edilə bilməsi üçün XVI əsrdə İranda yaşayan oymaqlara dair əsaslı bilgilərə sahib olmaq lazım gəlir.

XIX əsrdə İranı ziyarət edən avropalı səyyahlar bu ölkədəki oymaqlar barədə məlumatlar vermişlər. Hətta bu səyyahlardan bəzilərinin oymaqlarla bağlı siyahılar tərtib etdikləri də bilinir.

Avropalı səyyahlardan Dupre öz siyahısını dillərə görə, Lady Sheil isə bölgələrə görə düzəltmişdir. Ancaq Lady Sheil də oymaqların danışdıqları dilləri göstərməyi unutmamışdır. Səyyahların oymaqlar haqqında verdikləri bilgilərin mənbəyi iranlı yetkililərdir.

Dupre siyahısına daxil etdiyi bütün oymaqları əsgər oymaqlar (les tribus militaires) kimi səciyyələndirir. Çünki bu oymaqlar, yuxarda da göstərildiyi kimi, İran ordusunun çox önəmli gücünü təşkil etməkdə davam edirdilər.

---

[1] Təkəli olacaq, təkəli Antalya bölgəsindən deməkdir. Antalya bölgəsi keçən əsrə qədər Təkə adını daşıyırdı.
[2] Bəlkə tərəci.

Dupreyə görə, dörd qola ayrılan əsgər oymaqların ən igidi və qələbəlik olanı türkcə danışan oymaqların meydana gətirdiyi qoldur[1].

### 1. Duprenin siyahısı türkcə danışan oymaqlar (XIX əsrin əvvəli)

1. Əfşar
2. Qacar
3. Müqəddəm
4. Dümbəlü (Dümbüli)
5. Türkmən
6. Kəngərlü
7. Talış
8. Qaraçorlu
9. Şahdullu
10. Qara gözlü
11. Aynallu
12. Bayat
13. Bəydili
14. Qurdbeçə
15. Türkmafi
16. Xocavənd
17. Əbdülməliki
18. Rəhimlü
19. Fars-mədanlu
20. Nasir baharlu
21. Muğanlu
22. Xudabəndəlü
23. Hacılar
24. Şahsevən
25. Əmranlü
26. Qarahəmzəlü
27. Əmvarlu
28. Ustacalu
29. Sarıcalu
30. Xan çobanlu
31. Cavanşir
32. Qoyunlu

[1] "La premiere, la phis brave et la plus nombreuse, est celle que Von appelle Turk zeban, la langue Turane". "Bunlardan birincisi ən igidi və ən qələbəlik olanı türkcə danışan (türk-zəban) qoldur" (s. 455).

33. Cəlayir
34. Xələc
35. Səədlü
36. Bulverdi
37. Qaşqay
38. Qurd
39. Acırlu

**1. Ə f ş a r**

a) Azərbaycan və bilxassə Urmiyə yörəsində yaşayır. Qasımlu və araşlu adlı iki qola ayrılır. Bir çox obalardan meydana gəlmişdir ki, bunlardır: qaraçlu, imamlu, davudlu, heydərlü, yorğanlu, usallu (usalu), qılınclu, qani bəylü, həsənsalu[1], kiləlü, yəbərla, tutmaxlu, adaxlu, kuhguelü[2], qarahəsənlu, əlibəylü, tərzili, şahboranlu......................................................25.000 (nəfər)

b) Xəmsədə, yəni Qızıl-üzən sahillərindən Sultaniyyə və Sayınqalaya qədər uzanan Zəncan torpağında.............................................10.000 (nəfər)

c) Qəzvin çevrəsi, başlıca Çal və Huar (Hiarə) yörələrində..5.000 (nəfər)

ç) Həmədan çevrəsində ........................................ təqribən 7.000 (nəfər)

d) Tehranın yerləşdiyi Rey bölgəsində .........................7.000 (nəfər)

e) Xuzistandaki Şüştər yaxınında ....................................10.000 (nəfər)

f) Kirmanda ..................................................................6.000 (nəfər)

g) Xorasanda ..................................................................8.000 (nəfər)

ğ) Farsda ........................................................................5.000 (nəfər)

h) Mazandaranda..............................................................5.000 (nəfər)

cəmisi: 88.000[3] (nəfər)

**2. Q a c a t (=Q a c a r)**

Qacar oymağı yuxarı-baş və aşağı-baş olmaq üzərə iki qola ayrılmışdır. İndiki İran şahları bu oymağa mənsubdurlar. Fətəli şah bu oymağın rəisidir. Qacarlar çox da qələbəlik deyillər. Üstün bir mövqeyə çatan igidlər və xoşbəxt insanlar kimi qacarlar da digər oymaqlar və xalq tərəfindən sevilmir. Yuxarıda adları keçən qacarın iki qolu bu obalara ayrılır: qavallu[4], dəvəlü, kikyalu, dabanlu, suçanlu, kərlü, izzəddinlü[5].

---

[1] Mətn: hassansalu.

[2] Mətn: Kouhguelu, yəni kuh-giluyəli. Duprenin təsnifi ondan istifadəni asanlaşdırmaq üçün bir az dəyişdirilmişdir.

[3] Ünlü əfşar (avşar) boyunun İrandaki varlığı budur; bu sayı ilə İrandaki türk əsilli oymaqların başında gəlir. Avşarın tarix boyu ən qələbəlik boylardan biri olduğunu bilirik. Ancaq yaxşı bildiyimiz digər bir xüsus daha vardır: o da bu boya mənsub obaların hər yerdə avşar (əfşar) adına möhkəm bağlı qalmalarıdır ki bu, digər 23 boyun çoxunda görünmür. Burada verilən və aşağıda veriləcək rəqəmlərə qadınlar və uşaqların sayı daxil deyildir.

[4] Doğrusu qovanludur. Bəzən qoyunlu şəklində yazılsa da, bunundoğruluq ehtimalı azdır.

[5] Aşağı-başa bağlı obalar: qovanlu (qoyunlu?), izzəddinlü, şam-bayatı, qara musanlu, yuxarı-başa gəlincə, bu qolun obaları bu adları daşıyırdı: dəvəlü, sapanlı, köhnəlü, xəzinədarlu, qayaqlu və kərlü (F.Sümər. Qacar maddəsi. Encyclopaedia of İslam=E.İ). Qacarların əski

a) Mazandaran və Tehran..................................................1.800 (nəfər)
b) Xorasanda, Mərvdə.......................................................500 (nəfər)
c) İrəvanda ..........................................................................500(nəfər)
ç) Gəncədə ........................................................................1.000(nəfər)
cəmisi: 3.800 (nəfər)

Qacarlardan bir qol ana oymaqdan ayrılaraq əfşarlara qatılıb qacar-əfşar adını daşımışdır. Bunlar Mazandaranla İrəvan dolaylarında yaşayırlar.

**3. M ü q ə d d ə m**

Marağada yurd tutmuşdur. Müqəddəmlərin başı Azərbaycan bəylərbəyisi Əhməd xandır. Əhalısi təqribən 5.000 nəfərdir.

**4. D ü m b ə l ü**[1]

Azərbaycanın qərbində və Xoy ilə Səlmas yaxınlarında yaşayırlar. Başçıları Cəfərqulu xandır. Bu, əski Xoy valisi idi. 1800-ci ildə Fətəli şaha qarşı etmişdir. Oymağın əhalısi 1.200 ailəyə yaxındır.

**5. T ü r k m ə n**

Əski və yeni adı ilə iki qola ayrılır.
a) əski türkmən[2], Azərbaycanda ......................................8.000 (nəfər)
Həmədan çevrəsində ...................................................3.000 (nəfər)
Farsdakı Kazərunda.....................................................2.000 (nəfər)
cəmisi:13.000 (nəfər)
b) yeni türkmən[3] Tehranda və Mazandaranda ..................3.000 (nəfər)
İranın bəzi çöl və ovalarında.......................................25.000 (nəfər)
cəmisi:38.000 (nəfər)

**6. K ə n g ə r l ü**[4]

Kiçik bir oymaqdır. Araz sahillərində ........................ 4.000 və ya 5.000
Qum və dolaylarında..............................................1.000 nəfər qədərdir.

**7. T a l ı ş**

---

tarixləri haqqında bilgi üçün: "Səfəvi dövlətinin quruluşunda Anadolu türklərinin rolu" adlı kitaba bax.Qacar xanədanı aşağı-başın qovanlu (qoyunlu) obasından çıxmışdır.

[1] Şərəf xan dümbəlü oymağını kürd əsilli bir oymaq sayır. Fəqət dümbəlülərin hələ XVI əsrdə türkcə danışduqlan yenə Şərəf xanın verdiyi bu lətifədən anlaşıla bilər. Şah Təhmasib dövründə Xoy şəhəri dünbəlü oymağının rəisi Hacı bəyə verilmişdi. Bir gün Hacı Bəyin əsgərlərindən bir neçəsi dünbəlü bir halvacı dükanına gedib çoxlu halva yeyirlər. Dükandan çıxarkən halvaçı onlardan pul istəyir. Dünbəlülər heyrətlə "nə pulu, şəhər bizim, halva bizim" deyirlər (Şərəfnamə, Qahirə, 1930, s.401). Yenə Şərəf xan dünbəlülərlə bağlı bunun kimi başqa bir lətifə də söyləyir (göstərilən yer). Əslində, bunlar Xoy şəhəri camaatının zarafatlarından başqa bir şey deyildir. Şəhər camaatının kəndlilər və köçərilər haqqında hər yerdə və hər zaman belə lətifələr uydurub danışdığı hamıya məlumdur.

[2] Əski türkmən. Bu, bəlkə səfəvi xidmətində bulunan ağqoyunlu türkmənləri idi.

[3] Bu da bəlkə İran torpağında yaşayan yaxa türkmənləridir.

[4] Mətn: kəngüərli. Bu adı araşdırmalarımda biraz şübhəli ilə kəngərlü kimi oxumuşdum. Bu oymağın yurdu Nahçivan yörəsi olub, ustacalu boyuna bağlı idi.

Talış və Mazandaran bölgələrində yaşayır, əhalisi 5.000 nəfər qədərdir.

**8. Q a r a ç o r l u**

Qarabağ əyalətində, Araz ilə Kürün birləşdiği yerdə.........12.000 (nəfər)

Bundan başqa Xorasanda və digər əyalətlərdə də bu oymaqdan xeyli adam yaşayır.

**9. Ş a h d u l l u**

İrəvan çevrəsində .........................................................8.000 (nəfər)

**10. Q a r a g ö z l ü**[1]

Bilxassə Həmədan torpağında yaşayırlar.................. 12.000 (civarında)

**11. A y n a l l ı**[2]

İsfahanın Fəreydən məhəllində yaşayırlar..... 4.000 və ya 5.000 (nəfər)

**12. B a y a t**

Ağ bayat və qara bayat olaraq ikiyə ayrılırlar:

a) (ağ bayat) Azərbaycanda ................................ ................5.000 (nəfər)

Tehran yörəsində...................................................... .........3.000 (nəfər)

Farsda Şiraz tərəflarında...................................... (təqribən) 3.000 (nəfər)

b) (qara bayat) Nişapurda[3] ................................................ 8.000 (nəfər)

cəmisi: 19.000 (nəfər)

**13. B ə y d i l i**[4]

Azərbaycanda.......................................................... .........3.000 (nəfər)

Savə və Qumda ........................................................ .........2.000 (nəfər)

**14. Q u r d b e ç ə**[5]

Azərbaycan və İraqa (Əcəm) yayılmışlar ............................6.000 (nəfər)

**15. T ü r k – m a f i**

Türk-mafilərin yarısı kürdcə danışur.

Geri qalanları....... ..............................................................2.000 (nəfər)

**16. X o c a v ə n d i**

Gilan və Mazandaran hüdudlarında...................4.000 və ya 5.000 (nəfər)

**17. Ə b d ü l m ə l i k i**

Xocavəndilərlə qonşu olaraq yaşayırlar.............5.000 və ya 6.000 (nəfər)

**18. R ə h i m l ü**

Yəzd-Kastda otururlar ......................................... ...........3.000 (nəfər)

**19. F a r s - m ə d a n l u**[1]

---

[1] Əslində, səfəvilər dövrünin ünlü şamlu boyuna mənsub idi (bax: F.Sümər. Qaragözlü maddəsi, Eİ).

[2] Bizim Hələb türkmənlərinə bağlı inallu boyunun bir oymağı.

[3] Qara bayatın əslində çağataylara mənsub bayaut oymağı olduğunu irəli sürmüşdüm. Çünki bu oymaq türkmən olaraq səciyyələndirilmir və Xəzərarxası türkmənləri arasında da bayat adlı bir oymaq yoxdur.

[4] Mətn: bəgdillü.

[5] Bu və aşağıdakı yeni oymaqlardandır.

Farsda yaşayırlar ...................................................10.000 (nəfər)

**20. N a s i r - b a h a r l u**[2]

Farsda yaşayırlar ..................................əhalısi təqribən 12.000 (nəfər)

**21. M u ğ a n l u**

Təbrizin şimal-şərqində, Arazın cənub sahilində yaşayırlar. Adları Muğan şəhərindən və yörəsindən alınmışdır..............................6.000 (nəfər)

**22. X u d a b ə n d ə l ü**[3]

Kirmanşahda və Xəmsədə.....................................5.000-6.000 (nəfər)

**23. H a c ı l a r**[4]

Mazandaran əyalətində..................................................4.000 (nəfər)

**24. Ş a h s e v ə n**

İgid və savaşçı bir oymaqdır.............................................8.000 (nəfər)

Ərdəbil ovalarında, Rey və Farsda yaşayırlar........... 5.000-6.000 (nəfər)

**25. Ə m r a n l ü**

Mazandaranda, Astarabad yörəsində ............................ 4.000 (nəfər)

**26. Q a r a h ə m z ə l ü**[5]

İsfahanın qərbindəki Kəzzazda.......................2.000 və ya 3.000 (nəfər)

**27. Ə m v a r l ü**

Qəzvin torpağında oturur .................................................5.000 (nəfər)

**28. U s t a c a l u**[6]

Azərbaycanda otururlar ..................................................3.000 (nəfər)

**29. S a r ı c a l u**

Bunlar da Azərbaycanda otururlar ......................... 4.000-5.000 (nəfər)

**30. X a n ç o b a n l u**[7]

Azərbaycanda yaşayırlar.

Onlara tabi olanlarla birlikdə əhalısi .............................10.000 (nəfər)

**31. C a v a n ş i r**

Cəsur olaraq tanınmış bir oymaqdır. Azərbaycanda Şişə (Şuşa?) yörəsində yaşayırlar. Bu oymağın rəisi İbrahim xan Fəthəli şahın iqtidarını sarsmaq üçün eyni addakı şəhəri ruslara təslim etmişdi.................6.000-8.000 (nəfər)

**32. Q o y u n l u**

---

[1] Bütün bu oymaqlar yeni təşəkküllərdir. Səyyah onları türkcə danışanlar arasında göstərir. Ehtimal ki, Fars-mədanlu (yəni farsça bilməyənə mənsub).

[2] Mətn: Nəsər-məcharlu. Başqa qaynaqlara görə doğrusu yazdığımız kimidir. Buradakı baharlu qaraqoyunluların eyni addakı tanınmış oymaqlarının qalıntısıdır.

[3] Bu, Hələb türkmənləri arasındaki ünlü xarbəndəlü oymağının İrana köç etmiş qoludur.

[4] Səfəvilər dövründəki zülqədər (dülqədir) boyunun obalarından.

[5] Anadoluda da bu adda bir türkmən oymağı vardı. Ankara-Konya yolu üzərindəki Qara Hamzalu köyünün xalqı da türkməndir.

[6] Mətn: ustedjorli.

[7] Hər ikisi də yeni oymaqlardan.

a) Ağqoyunlu. Azərbaycanda yaşayırlar.................... 7.000-8.000 (nəfər)
b) Qaraqoyunlu. Xoyda və İrəvanda da bunlara mənsub oymaqlar var.

**33. C ə l a y i r**[1]

Xorasanda Kəlat yörəsində yaşayırlar, əhalısinin sayı bilinmir.

**34. X ə l ə c**

Qumda, Savədə və Azərbaycanda yaşayırlar......................8.000 (nəfər)

**35. S ə ə d l ü**[2]

İranda Halbal yörəsində yaşayırlar......................................5.000 (nəfər)

**36.B u l v e r d i**

Farsda oturur............................................. əhalısi təqribən 5.000 (nəfər)

**37. Q a ş q a y**[3]

Qaşqay da Farsda oturur .......................................12.000-15.000 (nəfər)

**38. Q u r d**

Bunlar Fars, Mazandaran və İraqda yaşayırlar .........3.000-4.000 (nəfər)

**39. A c ı r l u**[4]

İsfahanın şimal qərbindəki Səravənd nahiyəsində...............6.000-ə qədər

Bu dili (türkcəni) danışan başqa oymaqlar da var. Fəqət onları buraya daxil etmək üçün əldə kifayət qədər material yoxdur. Üstəlik, mənə Avropada yazılan və bu oymaqlardan bəhs edən hər hansı bir əsər məlum deyil"[5].

## 2. Lady Shellin siyahısı (XIX əsrın ortası)

Lady Shellin siyahısından da göründüyü kimi, XIX əsrın ortalarında İrandaki türk oymaqlarının mühüm bir qismi torpağa bağlanaraq köçəri həyata vida etmişdir. Köçəri həyat tərzini davam etdirən eldaşları bunlara tat və taxtaqapu(lu?) demişlər. Orxon kitabələrində rast gəldiyimiz tat sözünün yabançı mənasını ifadə etdiyi bilinir. Tat sözü daha sonralar oğuzlar tərəfindən iranlıları ifadə etmək üçün işlədilmişdir. Səfəvi dövründə də İrandakı yerli və oturaq ünsürlərin həmin söz ilə (yəni tat sözü ilə) ifadə edildiyi məlumdur. XIX əsrdə torpağa bağlanmış türk ünsürlərinə də taxtaqapu ilə bir-

---

[1] Əslində, çağatay ulusuna mənsub bir oymaq idi. Sonra Xorasandakı türkmənlər arasında yer aldı.
[2] Mətn: seidlu. Bu oymağın qaraqoyunludan səədlü oymağı olduğu görünür.
[3] Ünlü qaşqaylar. Bu önəmli topluluq haqqında: F.Sümər. Qaşqay maddəsi, İE.
[4] Səfəvilər dövründən qalma oymaqlardan biridir. Bu oymağın XVI əsrdə Hələb türkmənləri arasındakı acurlu oymağının bir qolu olduğunu sanırıq.
[5] A.Dupre. Voyage en Perse, fait dans les annees 1807, 1808 et 1809. Paris, 1819, s.455-464. Göründüyü kimi, Duprenin siyahısı onun İranda olduğu 1807-1809-ci illərdə, yəni XIX əsrın əvvəllərində bu ölkədə yaşayan oymaqların durumunu göstərir. Bizcə, Duprenin siyahısı ən etibarlı siyahıdır. Duprenin türk oymaqları haqqında verdiyi siyahı ilə qarşımıza çıxan tablo digər qaynaqların da təsdiq etdiyi kimi, XVI əsrdəkindən xeyli fərqlidir.

likdə tat adının verildiyi müşahidə olunur. Ancaq bu sözün oturaq türklər haqqında yayğın bir deyim halına gəlmədiyini söyləmək mümkündür. Türkiyədə isə tat sözünün özəlliklə kəndlilər və oymaqlar arasında lal və kəkəmə anlamlarında işlənməkdə olduğunu bilirik[1].

**1. Azərbaycan oymaqları[2]**

| Oymağın adı | Həyat tərzi | Dili | Yaşadığı yer | Əhalısi |
|---|---|---|---|---|
| 1. Şahsevən | | Türk | Meşkin və Ərdəbil | 1.000 çadır |
| 2. Hacı əlilü | | Türk | Qaradağ | 800 çadır və ev |
| 3. Bəydili | | Türk | Qaradağ | 200 çadır və ev |
| 4. Şəklü[3] | | Türk | Qaradağ | 150 çadır və ev |
| 5. Müqəddəm | Tat, yəni oturaq | Türk | Marağa | 5.000 ev |
| 6. Mahmudlu | Əksəriyyəti tat | Türk | Marağa yaxınında | 2.500 ev |
| 7. Baharlu | Əksəriyyəti tat | Türk | ? | 2.000 ev |
| 8. Əfşar/avşar | Əksəriyyəti tat | Türk | Urmiyə | 7.000 ev |
| 9. Qarapapax | Tat | Türk | Suldus | 1.500 ev |

**2. Mazandaran oymaqları**

| Oymağın adı | Dili | Əhalısi |
|---|---|---|
| 1. Qacar | Türk | 2.000 ev |
| 2. Canbəylü | Türk | 50 ev |
| 3. İmamlu | Türk | 50 ev |
| 4. Usanlu | Türk | 50 ev |
| 5. Əfşar | Türk | 100 ev |

**3.Tehran oymaqları**

| Oymağın adı | Həyat tərzi | Dili | Yaşadığı yer | Əhalısi |
|---|---|---|---|---|
| 1. Şahsevən | | Türk | Qum-Tehran | 9.000 çadır |

[1] Tat sözünün müxtəlif zaman və məkanlarda işlədilməsi haqqında bax: V. Minorsky. Tat maddəsi, İA, cüz 120, s. 46-50.

[2] Lady Shell siyahısında türkcə danışmayan oymaqlara da yer vermişdir. Mövzumuzun dışında qaldıqları üçün bu oymaqlar siyahıya daxil edilməmişdir, Lady Shell türkcə danışmayan oymaqların çoxunu lək topluluğuna mənsub olaraq göstərir, ancaq bunu qəbul etmək mümkün deyildir. Ləklər qələbəlik bir topluluq olmaqla bərabər bilxassə zənd xanədanını çıxarmaq surətilə XVIII əsr İran tarixində mühim bir rol oynamışlar (bax: V. Minorsky. Lək maddəsi, İA, VII. s. 29-31). Türkcə danışmayan bir çox oymaqların lək əsilli olaraq göstərilməsi ləklərin oynadıqları bu mühüm siyasi roldan irəli gəlmişdir.

[3] Mətn: shekloo. Əsli bəlkə də: şeyxlü.

| | | | | |
|---|---|---|---|---|
| 2. Hara qanlü[1] | | Türk | Qəzvin-Zəncan | |
| 3. Bacmanlu[2] | | Türk | | |
| 4. Gündəşlü[3] | Oturaq | Türk | Tehran şəhəri | 400 ev |
| 5. Xələc | | Türk | Tehran şəhəri | |
| 6. Xudabəndəlü | Oturaq | Türk | Tehran şəhəri | |
| 7. Əfşar | | Türk | Tehran-Qəzvin | 900 ev |
| 8. Türk-mafi | | Türk və lək | | 100 ev |
| 9. Kəngərlü | | Türk və lək | | 1.000 ev |
| 10.Qalaküb qovbaz | | Türk və lək[4] | | |
| 11.Əbülhəsəni | | Türk | | 150 ev |
| 12.Cahanbəylü şadlu | | | | 320 çadır və ev |
| 13.Usanlu[5] | | Türk | Har-Dəmavənd | 1.000 çadır |

**4. Xəmsə oymaqları**

| **Oymağın adı** | **Dili** | **Əhalısi** |
|---|---|---|
| 1. Gərrus[6] | Böyük bir türk oymağı | 4.000-5.000 ev |
| 2. Əfşar şah-sevənləri | Türk | 2.500 çadır |
| 3. Xudabəndəlü | Türk | 600 ev |
| 4. Dadanqa[7] | Türk | 150 ev |
| 5. Zülqədir | Türk | 200 ev |
| 6. Müqəddəm | Türk | 150 ev |
| 7. Əfşar | Türk | 200 ev |
| 8. Qurdbəyli | Türk | 1.500 ev |

---

[1] Mətn: kharch hanlu, harra kanlu (?).
[2] Mətn: bajmanlu.
[3] Koondeschloo. Bu, bəlkə dülqədir elinin gündəşli boyunun bir qoludur.
[4] Göründüyü kimi, kəngərlü ilə ləklərin bir obası birləşib yeni bir oymaq meydana gətirmişlər. Ondan öncə keçən türk-mafii oymağı kimi. Yenə eyni yerdə sil-süpür (slysepoor) hədavənd və burbur (boorboor) oymaqları ilə birlikdə göstərilib lək əsilli olduğu, 1.000 çadır və evə sahib olduğu yazılmışdır. Türk və kürd oymaqları arasında əski zamanlardan bəri Türkiyədə və İranda bu kimi birləşmə, qarışma və qaynaşma olayları vüqu bulmuşdur. Bu məsələ ilə əlaqədar olaraq bir çox misallar göstərilə bilər. Təhrir dəftərlərində kürd əsilli göstərilən oymaqlardan mühüm bir qismini meydana gətirən şəxslərin türkcə adlar daşımaları da hər halda bu qaynaşma ilə əlaqədardır.
[5] Oosonloo.
[6] Mətn: "Gərroos. A large trible of Toorks. 4000 or 5000 houses" deyilir. Bu oymağın adının yanlış yazıldığı şübhəsizdir. Doğrusunun nə olduğu anlaşılmadı.
[7] Mətn: Dodangeh. Bu oymağın da əslini bilmirəm.

Qış fəsli sərt keçdiyi üçün Xəmsədəki[1] bütün oymaqlar evlərdə yaşayır, yayı çadırda keçirirlər. Ancaq onlar uzağa getmirlər.

**5. Kirman oymaqları**

| Oymağın adı | Həyat tərzi | Dili | Yaşadığı yer | Əhalısi |
|---|---|---|---|---|
| 1. Əfşar | | Türk | | 1.500 ev |
| 2. Qaraçı[2] | | Türk | | 700 ev |

**6. Həmədan bölgəsi oymaqları**

| Oymağın adı | Həyat tərzi | Dili | Yaşadığı yer | Əhalısi |
|---|---|---|---|---|
| 1. Qaragözlü | | Türk | | 4.000 ev |
| 2. Həllac[3] | | Türk | Böyük bir türk oymağı | ? |

**7. Fars bölgəsi oymaqları**

| Oymağın adı | Həyat tərzi | Dili | Əhalısi |
|---|---|---|---|
| 1. Bayat | | Türk | 120 ev |
| 2. Bərgüşadi | | Türk | 50 ev |
| 3. Qacar-əfşar | | Türk və lek | 100 lək evi |
| 4. Əbülverdi | Ticarətlə məşğul olurlar, qaçaqçıdırlar | Türk | 300 çadır |
| 5. Təvəlili | Əkinçidirlər | Türk | 40 ev |
| 6. Şahsevən | | Türk | 60 çadır |
| 7. Qaragöz zərgər | | Türk | 100 ev |
| 8. Əmələ | Əkinçidirlər | Türk və lək | 40 ev |
| 9. Qaşqay | | Türk və lək | 30-40 min çadır |

Bu topluluq bir çox oymaqlardan ibarətdir. Qaşqay topluluğunun ən böyük qolu əmələ oymağı olub 3.300 çadırdan mütəşəkkildir. Bunların başında el-xan durur. Çox güclü bir topluluq olduqlarından qaşqaylar otlaqlarını özləri təyin edirlər. Yaylaqları İsfahan sərhəddindəki Gəndümana qədər uzanır. Qaşqay oymaqlarından bir çoxu sahildəki alçaq düz yerdə qışlayır. Onlar çox böyük sürülərə sahib olan zəngin bir topluluqdur.

| | | | | |
|---|---|---|---|---|
| 10. İnanlu | | Türk | Darab və Fesada oturur | 4.800 çadır və ev |
| 11.Ağacəri | Zəngin- | Türk | | 1.000 çadır |

[1] Xəmsə - mərkəzi Zəncan şəhəri olan bölgənin adıdır.
[2] Mətin: Kiirncee.
[3] Mətn: khellij. Şübhəsiz, bu, xələc topluluğudur ki, hələ də öz varlığını davam elətdirir.

| | | | | |
|---|---|---|---|---|
| Çağatay keştil | dirlər | | | |
| 12. Nəfər | | Türk | Farsın bir çox yerində | 850 çadır |
| 13. Baharlu | | Türk | | 1.230 çadır |

**8. Xorasan oymaqları**

| **Oymağın adı** | **Dili** | **Yaşadığı yer** | **Əhalısi** |
|---|---|---|---|
| 1. Mərdi | Türk | Dağınıq bir halda yaşayır | 70 ev |
| 2. Çalai[1] | Türk | | 2.000 ev |
| 3. Türki-cəlayir | Türk | Kəlati-Nadiridə yaşayır | 1.500 ev |
| 4. Bayat və xurşabi | Türk | Nişapurda yaşayır | 10.000 ev |
| 5. Qarışıq | Türk | Səbzvarda yaşayır | 1.000 ev |
| 6. Kelicei | Türk | Cüveyndə yaşayır | 200 ev |

**9. Kirmanşah oymaqları**

| | | | |
|---|---|---|---|
| Xudabəndəlü | Türk | | 200 ev[2] |

## XƏZƏRARXASI TÜRKMƏNLƏRİNİN OYMAQ TƏŞKİLATI İLƏ BAĞLI SİYAHILAR

Xəzərarxası türkmən topluluqlarının oymaq təşkilatlarına dair ötən əsrdə düzənlənmiş siyahılara keçmədən öncə bu türkmənlərin tarixlərinin qısa bir xülasəsini vermək hər halda faydalı olacaqdır. Bundan gözlənən başlıca qayə bu türkmənlərin tarixlərinin dönüş nöqtələrini xatırlatmaqdır.

Daha öncə yazıldığı kimi, Xəzərarxası türkmənlərinin əsasını X əsrin birinci yarısında insan yaşamayan Siyahkuh (Qaradağ) yarımadasına (Xəzər dənizinin şərqi) Sır-Dərya (Seyhun) boylarından gələn bir oğuz bölüyü təşkil etmişdir. Bu oğuz bölüyü həmin yarımadaya oğuzların öz aralarında cərəyan edən bir çəkişmə nəticəsində gəlmişdir. Yenə eyni qaynaqların Sütkənd çevrəsində yaşadıqlarını bildirdikləri oğuzlar ilə Fərab-Kəncədə və Şaş (Daşkənd) arasında yaşayan 1.000 evə yaxın müsəlman türkün də həmin çəkişmə üzündən oralara gəlmiş olmaları ehtimal edilir.

X əsrin ikinci yarısı ilə XI əsrın birinci yarısında Sır suyundan komalar halında baş verən oğuz köçləri Siyahkuh yarımadasındakı oğuzların sayını çoxaltmış, hətta bəlkə onların Balxan dağları bölgəsində də yurd salmalarında amil olmuşdur. Bunun nəticəsində Siyahkuh yarımadası Manqışlaq adını alıb oğuzların ən tanınmış yurdları halına gəlmişdir. Yarımadanın bu yeni adı Min qışlaq şəklində Müqəddəsinin coğrafiyasında keçir[3]. Kaşğari də ya-

[1] Mətn: choolaee. Ondan öncəki (yəni merdee=mərdi) və bu, türk əsilli olmaya bilərlər.

[2] Lady Shell. Glimpses of life and manners in Persia. London, 1856, s. 396-401. Lady Shell siyahısında bir çox yanlışın ola biləcəyini qeyd etmişdir (s. 396).

[3] S. 355. Əsər 997-ci ildə yazılmışdır.

rımadanın adını Mankışlağ şəklində yazır, onu xəritəsində göstərir və buranın oğuzların ölkəsindən bir yer olduğunu qeyd edir[1]. Həmin əsrın sonları ilə XII əsrə aid sənədlərdə bu adın Mankışlağ şəklində keçdiği görünür. Monqol istilasından sonra isə Mankışlağ ümumiyətlə Mankışlak şəklində tanınmış və bu tələffüz şəkli zəmanəmizə qədər gəlmişdir.

Fəqət oğuzlar XI əsrın ikinci yarısının əvvəllərində yalnız Manqışlaq və Balxanı deyil, Manqışlaq ilə Aral gölü arasındaki bölgəni də (Üstyurd) məskunlaşdırmışdılar. Bu sonuncular müsəlman olmayan qıpçaqlarla birlikdə yaşayır və Xarəzmdən İtil hövzəsinə gedən ticarət karvanlarını vururdular. Bunların başında Çarığ (?) adlı bir başbuğları vardı. Çarığ 30.000 atlı toplaya bilən və Alp-Arslan ilə qarşılaşmayı gözə alacaq dərəcədə özünə və əsgərlərinin çoxluğuna güvənən bir başbuğ idi. Ancaq daha ilk çarpışmada məğlub olmuş, camaatını, köçkünlərini və davarlarını buraxıb Manqışlaq tərəflərinə qaçmışdı. Çarığın aqıbəti haqqında heç bir bilgiyə sahib deyilik. Manqışlağa gəlincə, buranı Kafşut adlı bir bəy idarə edirdi. Daha öncə söyləndiyi kimi, o da Sultan tərəfindən suçlu sayılırdı. Kafşut Çarığın məğlubiyyətə uğradığını görüncə, ərməğanlarla gəlib Alp Arslanın könlünü almışdı[2]. Alp Arslan sonra Cənd şəhərinə qədər gəldi. Bu, sadəcə babası Səlcuqun qəbrini ziyarət etmək qayəsi ilə bağlı idi[3]. Cəndin "Səlcuqlular nəzdində qüdsiyyət qazandığı" və Alp Arslanın nəvəsi Sultan Səncərin bu şəhər haqqında: "dövlətımizin başlanğgıcı və mənşəyi, bizim üçün ən əziz bəldə" sözləri ilə "bu duyğunu dilə gətirdiyi" irəli sürülmüşdür. Fəqət bu iddia əsla qəbul edilə bilməz. Çünki dəlil olaraq göstərilən sənəd Sultan Səncərə aid deyil, xarəzmşahlardan Sultan Təkişə (ölümü: 1200) aiddir[4]. Sultan Təkişin bu sözləri söyləməsi isə qayət təbii idi. Çünki Təkiş şahzadə ikən Cənddə vali idi[5].

Səlçuqlu hökmdarı Börkü Yaruq 490-cı ildə (1097) Qoçqar oğlu Əkinçini (?) xarəzmşah ünvanı ilə Xarəzmə vali təyin etmişdi. Bu, Mərvəzinin

---

[1] Türkcə tərcüməsi, I, s. 465, xəritə II cilddədir.

[2] Alp Arslanın Üstyurt səfəri 458-ci ilin məhərrəmində (dekabr 1065) başlamışdı. O.Turanın (Səlcuqlular tarixi və türk-islam mədəniyəti. Ankara, 1965, s. 108) Çarığı bir topluluq (ulus) qəbul etməsi gerçəkdən heyrətlidir. Çünki Çarığın bir şəxs olduğu barədə qaynaqdakı ifadələr çox açıqdır (bax: Mirxond. Rövzət üs-səfa, IV, s. 98).

[3] Əvvəlcə bundan da söz edilmişdi.

[4] Bahaəddin Məhəmməd b. Müəyyəd-i Bağdadi. Ət-təvəssül il ət-tərəssül. Tehran, 1315 ş., s. 14, 15. Bu əsər, bilindiyi kimi, xarəzmşahlardan Təkiş dövrünə (1172-1200) aid rəsmi və rəsmi olmayan yazıları ehtiva edən bir inşa məcmuəsidir. Bu məcmuədə nə Sultan Səncər, nə də digər səlcuqlu hökmdarlarına aid bir yazı vardır. Məcmuənin müəllifinin Təkişin münşisi olduğunu da bilirik.

[5] Təkiş xarəzmşah olunca (1172) oğullarından Nəsirəddin Məlik şahı Cənd valisi qoymuşdu. Həmin sənəd bu təyinatla bağlıdır (həmin əsər, s. 12-13). Sultan Səncərin oğlu olmadığını bilirik. Təyinat yazısı olan bu vəsiqədə isə Nəsirəddin Məlik şahın adı keçir (s. l5). Məlik şah Nişapurda vali ikən 593-cü ildə (1197) vəfat etmişdi.

sözünə görə, xıtay ölkəsinə qonşu bir yerdə yaşayan xristian Kun (?=Kurı?) adlı bir qövmdən olan bəydir[1]. Ancaq həmin il Qoçqar oğlu Əkinçi Mərvdə əmirlərdən Qudan və Yaruq-Daş tərəfindən öldürüldü. Belə olduqda Xorasan valisi Altun-Tak oğlu Dadbəy Həbəşi Xarəzmə Anuş-Tigin oğlu Məhəmmədi vali təyin etdi. Xarəzmşah Məhəmmədin Xarəzmdən uzaqda olduğu əsnada bu ölkə Manqışlaqdakı türkmənlərin hökmdarı (? bəzü müluk itturk=türk məliklərindən biri) tərəfindən istila edildi. Sultan Səncərin yanında olan Əkinçinin oğlu Tuğrul-Tigin bunu xəbər alınca Xarəzmə qaçdı[2]. Xarəzmşah Sultan Səncəri gözləmədən düşmənlərinin üzərinə yürüyüb onları məğlub etdi. Türklər Manqışlağa, Tuğrul-Tigin isə Cəndxanın yanına (yəni Cənd şəhərinin və bölgəsinin hökmdarı) qaçdı.

İbn ül-Əsirin sözlərindən belə anlaşılır ki, Manqışlaqda türkmənlərin bir dövlətləri vardır. Bu dövləti idarə edən ailə də Alp Arslanın Manqışlaq səfəri dolayısı ilə tandığımız Kavşutun nəsli ola bilər. Yenə həmin müvərrixin sözlərindən[3] Manqışlaqda eyni adı daşıyan bir şəhərin olduğuna inanmaq olar. Yakut Manqışlağı Mankaşla şəklində yazaraq bunun Xarəzmin ucunda (hüdudunda) möhkəmləndirilmiş bir qala olduğunu söyləyir[4]. Fəqət dastani əsərlərdə bütün bunlarla əlaqədar xəbərlərə rast gəlinməz.

İbn ül-Əsirə görə, Atsız hələ babası Xarəzmşah Məhəmmədin sağlığında, yəni 1128-ci ildən əvvəl Manqışlaq şəhərini (mədinətu Manqışlaq) zəbt etmişdir. Bu xəbər doğru ola bilər. Türkmənlər yurdları Manqışlağı qorumaq üçün igidliklə savaşmışlar və bu xüsusta əllərindən gələn hər cür qeyrəti göstərmişlər. Bu üzdən Atsız Manqışlaqda çox qan tökmüş və bu ölkəni yaxıb yıxmışdı. Bu olayı nəql edən ərəbcə bir şeir bizə qədər gəlib çatmışdır[5].

Səlcuqlu hökmdarı Səncər, təbii, Atsızın öz qövmünün yaşadığı və öz imperiyasına bağlı Manqışlağı qan və alov saçaraq ələ keçirməsinə səs çıxarmamışdı. Ancaq Atsız sonra doğrudan-doğruya itaətsizlik göstərməyə başlayınca, onu islamın iki ucu olan Manqışlaq və Cənddə məsumların qanını tökmək, qaziləri (qüzat) və mürabitləri (mürabitin - qazilər) yox etməklə suçlamış, bu iki uçdakı müsəlmanların və qazilərin qanını tökməyi xarəzmşahın bir adət halına gətirdiyini ifadə etmişdir[6]. Səncərin Xarəzm fəthnaməsində Manqışlaq və cəndliləri qazilər (qüzat, qaziyan) və mürabitlər

---

[1] Təbayül-həyəvan, s. 18, ingiliscə tərcüməsi s. 30; izahlar qismi s. 95-96, 98-101.

[2] İbn ül-Əsir, X., s. 110-111. Cənd şəhəri və bölgəsi hakiminin Alp Arslan dövründə olduğu kimi, Cəndxan ünvanını daşımaqda olduğunu bu ilə əlaqədar öyrənirik. Cənd hakimləri böyük ehtimalla qıpçaqlardan idilər.

[3] Göstərilən yer.

[4] Mücəm ül-büldan, IV, s.670.

[5] Yakut. Göstərilən yer; Barthold. A History of the Turkman people, s. 126.

[6] "Fəthi-Xarəzm hər dəsti-sultani-əzəm şahinşahi-müəzzəm Səncər b. Məlik şah rəhmət üllahi ələyhi" (Barthold. Turkestan, mətnlər, 11, s. 44-45).

(mürabitin = qazilər) olaraq vəsfləndirməsi bu yerlərdəki müsəlman türklərin qonşuları müsəlman olmayan qanlılar ilə sürəkli savaş halında olmalarından irəli gəlir. “Şəcəreyi-tərakimə”də Salur Öyürcük Alpin ata-babalarının da qazi ünvanını daşımalarının səbəbi bu olmalıdır[1].

Atsızın Manqışlağı hakimiyəti altına alması Manqışlaq türkmənlərinin tarixində mühim bir dönüş nöqtəsi olmuşdur. Gerçəkdən, bu fəth nəticəsində Manqışlaq türkmənləri istiqlallarını itirmiş və rəiyyət, yəni sadəcə vergi verən xalq vəziyyətinə düşmüşlər. Xarəzmşahlarla bağlı qaynaqlarda bu dövlətin xidmətində olan əmirlər arasında türkmən əsilli bəylərin görünməməsi də türkmənlərin rəiyyət durumuna düşmüş olmalarından irəli gəlir. “Şəcəreyi-tərakimə”də bu önəmli hadisəyə dair bir xatirəyə rast gəlinməməsi bəlkə də heyrətlə qarşılana bilər.

Monqol istilası üzərinə Xarəzm türkmənlərindən bir çoxlarının, Sır-Dərya və Xorasanda yaşayan əldaşları kimi, Anadoluya gəlmiş olduqları söylənə bilər. XIV əsrdə Sivas, Kayseri və digər bəzi yerlərin hakimi olan Qazı Bürhanəddinin dədələrindən Məhəmməd b. Rəsulun (salur boyundan) monqol istilası üzündən Xarəzmdən Anadoluya gəldiyini bilirik.

“Şəcəreyi-tərakimə”də salur Öyürcük Alpın keçirdği macəralara dair bir rəvayət vardır. Bu rəvayətə görə İraqda (Əcəm İraqı=Orta İran) yaşayan Salur Qazan bəy soyundan Öyürcük Alp bayındır bəyi ilə keçinə bilməyib doqquz yüzü salur, yüzü də karkın boylarından olmaq üzrə min evlik bir topluluq ilə Qafqaz yolundan Krıma, oradan da şərqə yönəlib Yayıq irmağına gəlir. Bu irmağın sahilində Alakənd və Qaraqaş deyilən yerdə yaşayan qanqlıların başında Kök Tonlu adlı bir xan vardı. Öyürcük bir neçə il qanqlı xanının yanında qaldıqdan sonra onunla da arası dəyir, qaçır. Kök Tonlu arxadan yetişib topluluğun yeddi yüz evini əsir alır. Salur bəyi üç yüz ev ilə Manqışlağa çatır, Qaraxan deyilən yerdə üç il oturur. Ancaq qanqlı xanı Öyürcükü orada da rahat buraxmır və atlanıb Manqışlağa yola düşür. Bunu öyrənən Öyürcük Alp Balxan dağına qaçaraq Kök Tonlunun əlinə düşməkdən qurtulur. Öyürcük Alp həmin hadisəni bu şeirdə anladır:

Döndüm qaçıb qanqlı xandan qiblə sordum,
Qar, yel aşıb gələn ər önündən döndüm,
Qarçılara, yerçilərə yol başlatdım,
Yağışlı-qarlı iki qola yol yumuşatdım,
Kürklə, kürklə qırlara döşək saldım,
Ard önümə bizə (?) salıb köçümü çəkdim,
Qar altında (?) dağ yolundan aşıb vardım,
Qabaqlıdan Altaca yurt yurtlatdım.
Guruldaşıb ardımdan yağı yetincə
Qayğı başlı qatı yaya iş buyurdum.

---

[1] S. 64-65, türkcə tərcüməsi, s. 83.

Qanlı-irinli oxa qan yürütdüm,
Vursa kəsər kəskin qılınca tuğ bağlatdım,
Qılıncımı sıyırıb Bel-Əkşəmdə quyu qazdım,
Dərədə qışlayıb, qırda yaylayıb Balxan aşdım,
Əysə yayını (?) Qaradağa uğrayıb gəldim,
Hangi topluluq toy tutmadı orada oldum,
Altın gözlü dovşanı gətirdi deyə
Qaz ayağı üç ayrı damğa verdim[1].

Öyürcük Alpa izafə edilən bu şeir yalnız tarixi bir hadisəni anlatması baxımından deyil, qədimliyi və ifadə baxımından təsirliliyi və gözəlliyi ilə də diqqətə və ilgiyə layiqdir. Bu belə olmaqla bərabər Türkiyədə bu şeir üzərində heç bir tədqiqat aparılmamışdır. Halbuki bu mənzumənin şərh və izah edilməsi gərəkən bir çox yerləri vardır. Hər halda Öyürcük Alpın bu şeiri Xəzərarxası türkmənləri ədəbiyyatının ən əski yadigarlarından biridir. Daha öncə də qeyd edildği kimi, manqışlaqlılar və cəndlilər qanqlılar ilə savaşırdılar. Bundan dolayı onlar qazi ünvanı ilə vəsflənmişlər. Qanqlılara gəlincə, açıqlandığı üzrə[2], onlar qıpçaqların ən böyük qolu olmaqla bərabər adları ancaq XII əsrdən etibarən keçir. Bu qıpçaq qolunun XI əsrdə yaşayan və Kaşğari tərəfindən tanınan qıpçaq bəylərindən Qanqlının adını daşıdığı şübhəsizdir. Qanqlılar qısa bir zaman içində qüvvətli bir varlıq göstərərək müstəqil bir qövm kimi sayıldılar. Plano Carpini və Rubruck Yayıq çayı ilə Seyhun arasındaki bozqırları Qanqlı (Kangles, Kangle) ölkəsi olaraq anırlar[3].

Öyürcük Alpın “Şəcəreyi-tərakimə”də (yəni “Türkmənlərin soy kötüyü”) yer alması onun Salur Qazan Bəyin nəslindən sayılması və ya yuxarıda nəql olunan macərası və bununla bağlı şeiri olmayıb, bir çox türkmən topluluqlarının onun qardaş və oğullarından törədiklərinə inanılmış olması ilə əlaqədardır. İrəlidə bu, bir sxem halında göstəriləcəkdir.

“Şəcəreyi-tərakimə”dəki Ərsarı bay XIV əsrdə Balxanda yaşamış tarixi bir şəxsiyyətdir. Ərsarı bay orada Öyürcük Alpın nəvələrindən Qul Hacının oğlu kimi göstərilir. Ərsarı bay qırx dəvə verərək ürgəncli Şeyx Şərəfə dini

[1] Şeirin əsli üçün: Kononov, s. 68-69, türkcə tərcüməsi, M.Ərgin, s. 85-87.
[2] The Mongol mission, London, 1955, s. 81, 125, 131, 132.
[3] Monqol istilası və hakimiyyəti nəticəsində qanqlılar da parçalanmışlar və bəzi qanqlı qolları özbək və çağatay ulusları arasında yer almışlar. Çağatay xanlarından Toğa-Timurun noyanlarından Bəkicik ilə Timurun komandanlarından Şeyx Nurəddinin qanqlıların ən tanınmış bəyləri olduqlarını bilirik. Oğuz xan dastanlarında (təbii ki, doğru olmayaraq) qanqlıların arabanı icad edən Qanqlı adlı bir bəydən törədikləri göstərilir. İndi də Anadolunun bir çox yerində arabaya kanqlı (>qanqlı) deyilməkdədir.

məsələlərə dair türkcə “Müin ül-mürid” adlı bir əsər yazdırmışdı. 713-cü ildə (1314) yazılmış olan bu əsərin bir nüsxəsi Türkiyədə tapılmışdır[1].

Ərsarı bayın eyni zamanda gözəl bir qızı vardı ki, bu gözəl qız Mama adını daşıyırdı[2]. Koma adlı Xorasan valisi ağır başlıq verərək Mamanı atasından istəsə də, rədd cəvabı ilə qarşılaşmışdı. Belə olunca Koma bəy Balxana gəlib Dökər (Döyər ?) adlı quyunun başında Ərsarı bayı öldürüb oymağını yağmalamış və gözəl Mama ilə evlənmişdi. Fəqət Mama oğlan uşağı doğmamışdı. Bu üzdən Koma çox mal və evli bir qul verib Mama bikəni Balxandakı qardaşlarının yanına göndərir[3].

Monqol hakimiyyətinin başlaması ilə Xarəzm türkmənləri Çingiz xanın İtilin ağzında oturan nəvəsi Batuya tabe olmuşdular. Xarəzm türkmənlərinə sayın xanlı türkmənləri deyilməsi də bu tabeçiliyi göstərir. Bu dövrdə türkmənlər haqqında qeydə dəyər bir bilgiyə rast gəlmirik. Anlaşıldığına görə, onlar Altın Ordu xanlarına hər halda tam itaət göstərərək vergilərini hər il gələn təhsildarlara ödəmişlər.

Qaynaqlarda Teymurun ordularında çoxlu türkmənin yer alması haqqında məlumata rast gəlinmir. Əksinə, qaynaqlar açıq bir şəkildə göstərir ki, çağataylar türkmənlərə dəyər verən bir gözlə baxmırdılar. Teymurun ən tanınmış müvərrixi Şərafəddin Əli Yəzdi türkmənlərin çox yerdə Teymura müqavimət etmələrindən dolayı onları bilgisiz, ağılsız və məhdud görüşlü insanlar sayaraq pisləyir. Hətta ona görə Teymur İldırım Bəyazidı qəsd edərək şəxsən belə demişdir: "Türkmən olması onun doğru olan itaət və sülh yoluna girməsinə mane olur"[4]. Gerçək bu idi ki, həm Teymur, həm də onun çağatay ulusu özlərini Çingiz xan dövrü monqollarının nəvələri sayır və bununla öyünürdülər. Onların səthi bir müsəlmanlığı ilə türkcə danışmalarından (hər halda hamısı deyil) başqa əsil monqollardan bir fərqləri yox idi. Teymur dövründəki çağatay ulusunda da yalnız siyasi gələnəklərdə və əsgəri təşkilatda deyil, ictimai həyatın hər sahəsində monqol ənənələri və davranışları hakim idi. 1395-ci ildə Altın Ordu hökmdarı Toxtamışa qarşı qazanılan ikinci zəfərə görə Teymurun əmirləri monqol adətncə mahnı oxumuş və diz çöküb hökmdarlarına içki təqdim etmişdilər[5]. Vəziyyət belə ikən,

---

[1] Z.Vəlidi (Toğan). Xarəzmdə yazılmış əski türkcə əsərlər, Türkiyyat məcmuəsi, 1928, II, s. 315-326. Buna daha öncə də işarət edilmişdi.

[2] XI və XII əsrlərdə Ərzurum-Bayburd bölgələrinin hakimləri olan saltuqlulardan Mama xatunu tanıyırıq ki, XII əsrın sonlarına doğru məlikə (yəni kıraliçə) sifəti ilə saltuqlu ölkəsini idarə etmiş, Tərcanda öz adını daşıyan bir karvansara tikdirmişdi (F.Sümər. Saltuqlular. Səlcuqlu araşdırmaları, Ankara, 1971, III, s. 418-420).

[3] Şəcəreyi-tərakimə, s. 73-74, türkcəsi, s. 91-92.

[4] Zafərnamə, II, s. 287. Teymur Bəyazidə göndərdiyi bir məktubda: "Sənin gəmiçi bir türkmən nəslindən olduğun bizə məlumdur, bunu söyləmənə gərək yoxdur" deyərək (həmin əsər, II, s. 187) onu və qövmünü həqir saydığını ifadə etmişdir.

[5] “Ümərа və ərkani-dövlət be rəsmi-təlmiyyət olcamış kərdə qoftənd... və be qaidə və adətimoğol surid miqoftənd və zanü zədə kasə midaştənd = bəylər və dövlət adamları təbrik

Əmir Qazğan ilə digər əmirlərin öz xanlarına baş qaldırıb onlara təhəkküm etmələrinin Mavəraünnəhrdə iqtidarın məhəlli türk əsilzadəsinin əlinə keçdiyi şəklində şərh olunması, Teymurun uğurunun isə həmin ölkənin monqollardan qurtuluşu olaraq izah edilməsi heyrət vericidir[1].

Timurun xidmətindəki türkmən əsilli əmirlər ancaq bir neçə adam idi ki, bunların ən tanınmışı Arğun şahdır. Arğun şah Buxara yörəsində yaşayan bir türkmən topluluğuna mənsub idi. Teymur Çin səfərinə çıxarkən Arğun şaha Səmərqəndin mühafizəsini tapşırmışdı. Yəzdli Şərafəddin Əli Teymurun vəsiyyətinə riayət etmədiyini söyləyərək, türkmənliyini də vuğulayıb Arğun şahı ağır bir dillə tənqid etmişdir. Ancaq Arğun şahın oğulları Teymurun xələfi Şahruxun ən etibarli əmirləri arasında yer almışlar. Bunlardan Cəlaləddin Firuz şah hər kəs tərəfindən sevilən, sayılan və dövlət idarəsində sözü keçən böyük əmirlərdən biri idi. Yenə Teymur dövründə Əmir Sədr ilə bozqır yaşayışını yaxından bildiyi söylənən Şeyx Davudun da türkmən əsilli olduqları bildirilir[2].

Qaraqoyunlu dövlətinə 1469-cu ildə son verən ağqoyunlu Uzun Həsən bəy Fatehə göndərdiyi bir məktubda "dağılma və zamanla meydana gələn qarışıqlıqlar yüzündən Xarəzm və Türküstanda yurd tutmuş olan bütün Bayındır xan ulusu ilə bayatların və Oğuz Əlinin qatına gəldiklərini" yazmışdır[3]. Ağqoyunlu hökmdarı Həsən bəyin mənsub olduğu qövm ilə ilgili məsələlərə yaxın bir əlaqə duyduğu əsil kitabda göstərilmişdi.

---

üçün ona (Teymura) təzim etdilər və dedilər... və monqol adət və ənənəsincə mahnı oxudular və diz çöküb içki təqdim etdilər" (Zafərnamə, I, s. 437). Teymur monqolca da bilirdi ki bu, təbii qarşılanmalıdır.

[1] R.Grousset. L'empire des steppes, s. 415, 416, 486. Həmin müəllif digər bir yerdə də (s. 491) monqolların Teymur qövmünün (yəni türklərin) düşməni olduğunu söyləmişdir ki, bu iddianı təsdiq etmək çətindir. Teymur İli bölgəsindəki monqolları da doğru olaraq çağatay ulusunun bir parçası sayırdı. Ordusunda onlardan da çoxlu əsgər vardı. Hətta Teymur və çevrəsindəkilər monqollardan Əmir Həmidin oğlu Cəlalın ölümü gözə alaraq soyunu Çingiz xan soyundan və Çuçi qolundan İbaç-Oglana verməsini təqdirlə qarşılayıb onun bu hərəkətini çağatay ulusunun şərəfini yüksəldən əsalətli bir davranış olaraq səciyyələndirmişdi (Zəfərnamə, I, s. 454, 455).

[2] Zəfərnamə, I, s. 354, 372. Teymurun qələbəlik ordusunda digər əski türk qövmlərinə mənsub əmirlərin də heyrət ediləcək dərəcədə az olduğu görünür. Bunlar qıpçaqlardan Abbas Bahadır ilə Qur-Qara (?), qanqlılardan Sarı Buğa ilə oğulları Şeyx Nurəddin (Ay Məlik) və Birdi bəy, Sarı Buğanın qardaşı oğlu Şeyx Həsən (ünvanı: Səxt Kəman «Qatı Yaylı?) idilər. Qanqlı Bikicikin oğlu Bayan Teymur (bu monqolca bir addır) da Teymurun əmirləri arasında yer almışdı. Mülki dövlət təşkilatında da bəxşi ünvanlı uyğurlar görünür. Bu qısa izahlardan da anlaşılacağı üzrə Teymurun digər əmirlərinin böyük əksəriyyəti Çingiz xan dövründəki monqol oymaqları ilə monqolca danışan topluluqlara mənsub idi. Bu oymaqların da başlıcaları bunlardı: barulas (Teymurun oymağı), bayağut (bayaut: xanlara qarşı ilk baş qaldıran və 1358-ci ildə ölən Əmir Qazğanın oymağı), arulat, sulduz, tayciut, bisuut, cəlayir, məkrit, nayman, urnaut (?).

[3] Fatih dövrünə ait münşəat məcmuəsi, yay. N.Luqal - A.Ərzi, İstanbul, 1956, s. 90.

XVI əsrın əvvəllərində mühüm siyasi olaylar baş verdi. İranda iqtidar səfəvilərin, Türkistanda və Xarəzmdə özbəklərin əlinə keçdi. Xəzərarxası türkmənləri teymurilərdən sonra yenidən özbəklərin rəiyyəti oldular. Anlaşıldığına görə, bu əsrın ilk rübündə Xəzərarxası türkmənlərinin coğrafi yayılışları belə idi: Manqışlaqdakı türkmənlərin çoxu salur adıyla anılır, içki salur (iç-salur) və taşkı salur (dış salur) adları ilə iki qola ayrılırdı. Bunlardan içki salurlar Manqışlağın sahil kəsimində, taşkı salurlar da şərqdə, Xarəzmdən sahilə gidən uzun yol üzərində yaşayırdılar. İçki salurun daha çox salur adını daşıyan obalardan meydana gəldiyi görünür[1].

XVI əsrın ilk rübündə Xorasanda, Durun yörəsində də salur adını daşıyan olduqca qələbəlik bir topluluq yaşıyor və Manqışlaq salurlarından ayırd etmək üçün bu topluluğa Xorasan saluru adı verilirdu. Taşkı-salura gəlincə, bu qol təkə, sarıq və yomut oymaqları tərəfindən təmsil edilirdi[2]. "Şəcəreyi-tərakimə"yə görə, bunlardan təkələr və sarıqlar salurdan Toy Tutmaz adlı bir kişidən törəmişlər. Yomut isə yenə orada qaltaq oymağı ilə birlikdə

---

[1] "Şəcəreyi-tərakimə"də içki salurların yuxarıda adı keçən salur Öyürcük Alpın oğullarından biri olan Bukanın (Buğa) nəsli olduğu söylənir (s. 69, türkcəsi, s. 87). Digər bir yerdə isə içki salurun Arıqlıdan törəndiyinin söyləndiyi yazılır. Buna görə peçeneqlərin (bəçənə) Toymaduq adlı başbuğları Salur Qazanın atası Ənkişın ordasını basıb xatunu Çiçəklini əsir alır. Üç il sonra Ənkiş mal verib arvadını qurtarır. Çiçəkli xatun evinə döndükdən altı ay sonra bir oğlan doğur. Bundan çox dilxor olan Salur Qazan bəy: "bu uşağı kimdən doğdun" deyərək bir dəynəklə vurub anasının başını yarır. Belə olunca Çiçəkli xatun bu cavabı verir:

Yağı gəldi qararıb,
Qaçıb getdin bozarıb,
Dəvəyə minib ardından
Gedir idim qabarıb,
İxtiyarımı aldı,
Bu oğlanı içimə saldı"

(s. 70, türkcə tərcüməsi, s. 88). Salur Qazanın anasının bu sözləri qarşısnda susmağı tərcih etdiyi şübhəsizdir. Bu uşağa köpəklərə verilən İrək adını qoyurlar. İçki salurun törəndiyi söylənən Arıqlı bu İrəkın oğlu idi. Bu rəvayəti tükmənlərin əlində olan bir kitabdan (Oğuznamə ?) nəql edən Əbülqazi "O zamanlar biz yox idik. Doğrusunu-yalanını Tanrı bilir, əgər yalan isə günahı daha öncə söyləyənlərin boynuna" deyir (s. 70-71, türkcə tərcüməsi, s. 88-89). Bu diqqətəşayan bir rəvayətdir. Bilindiyi kimi, Dədə Qorqud dastanlarında Salur Qazan bəyin digər bəylərlə ovda olduğu əsnada düşməni Şöklü Məlikin onun ordasını basıb arvadını, oğlunu və anasını əsir aldığı, Qazanın anasının bir dəvə üzərində götürüldüyü bildirilir. Şübhəsiz ki, bu, həmin hadisənin bizim dastanlardakı inikasıdır. Qazan sonra düşməndən bu basqının heyfini almışdır. Qazan bəyin bıı zəfəri bizdə həmin dastanda, "Şəcəreyi-tərakimə"də isə ayrı bir şeirdə anladılır. Bozqırlarda bulə olayların baş verdiyi anlaşılır. Çingiz xanın həyatında da belə bir hadisənin olduğunu bilirik. Əsirlikdən qurtarılan Temüçinin arvadı Börtə evə döndükdən az bir müddət sonra Çuçini doğmuşdu. Çuçi Əbülqazinin də ulu babasıdır...

[2] Şəcəreyi-türk, yayınlayan P.l.Desmaisons, Amsterdam, 1970, s.209; qısaldılmış türkcə tərcüməsi, Rza Nur, s. 219.

Öyürcük Alpın nəvəsi Qulmıdan törənmiş kimi göstərilir[1]. Manqışlaqda salur topluluğuna daxil edilməyən həsənəli adlı başqa bir topluluq da vardı. XVI əsrın birinci yarısında Xarəzm xanlarına verdikləri vergi (16000 bərat qoyunu, 1600 qazan qoyunu), həsənəlinin də içki salur qədər qələbəlik bir topluluq olduğunu göstərir. Həsənəli başlıca çavuldur (>çavundur), iğdır və soynacılar ilə digər bəzi kiçik oymaqlar tərəfindən meydana gətirilmişdi[2]. Bu verginin çoxunu iğdırlarla çavuldurlar ödəyirdilər.

Balxana gəlincə, bu dağın yaxınında ərsarılar yaşayırdılar. Bu oymağa adını vermiş olan Ərsarı bayın XIV əsr başlarında yenə eyni bölgədə yaşamış tarixi bir şəxsiyyət olduğunu görmüş və ürgəncli Şeyx Şərəfə "Müin ül-mürid" adlı bir kitab yazdırmış olduğunu da söyləmişdik[3]. Yenə orada qeyd edildği kimi, Ərsarı bay "Şəcəreyi-tərakimə"də Öğrüçık Alpın nəvəsi Qul Hacının oğlu kimi göstərilir. Beləcə ərsarı oymağı da salura bağlanmaqdadır. Ərsarılar və Xorasan saluru vergi almaq üçün gələn təhsildarları öldürdüklərindən Xarəzm hökmdarı Süfyan xan tərəfindən yağmalanıb yenidən vergiyə bağlandılar. Buna görə ərsarı 16.000, Xorasan saluru 16.000 qoyun, təkə, yomut və sarıq da bunun yarısı qədər, yəni 8.000 qoyun verəcəkdilər[4].

Süfyan xan dövründə (1525-1535) göklənlərin harada yaşadıqlarına dair bilgi olmamaqla bərabər onların Ətrək və Gürgən boylarında oturduqları şübhəsizdir. Göklənlər adı keçən xana vergi olaraq 12.000 qoyun verməklə mükəlləf idilər[5]. Göklənlər, aşağıda göstərldiyi kimi, kayı, bəydili, bayındır kimi oğuz boylarının qollarından meydana gəlmiş bir topluluq idi. Barthold eyni əsrdə Astarabad sınırında səfəvilərə problemlər çıxaran oxlu oymağının da göklənlərə mənsub olduğu görüşündədir[6]. Əbülqazi arabaçı oymağına da 4.000 bərat, 400 qazan qoyunu olmaq üzrə vergi qoyulduğunu yazır, lakin bu oymaq haqqında onun əsərlərində başqa bilgiyə rast gəlinmir[7].

---

[1] Şəcəreyi-tərakimə, s. 69, 72, türkcə tərcüməsi, s. 87, 90. Fəqət əlimdəki qaynaqlarda qaltaqlar haqqında bilgi verilmir.

[2] Şəcəreyi-türk, s.210, türkcəsi s. 220.

[3] Seyyid Əhməd əl-Mərginaniyə görə Ərsarı bay Şeyx Şərəfin müridi, Seyyid Atanın müxlisi olmuşdur. Ərsarı bay adı keçən müəllifin əsərində Baba Ərsarı olaraq anılır və uşağı olmadığı bildirilir (bax: Ə.Z.Vəlidi, həmin maqalə, s. 323-324). "Şəcəreyi-tərakimə"yə görə (s. 69, türkcə tərcüməsi, s. 87), Ərsarı bayın İnal Qazi, Zeynal Qazi və Mustafa Qazi adlı üç oğlu ilə Mama adlı bir qızı vardı. Ərsarı zəngin bir bəy olduğundan ona "bay" ləqəbi verilmişdi. Dədə Qorqud dastanlarında da bəzi varlı bəylərin (Bay Bürə, Bay Biçən kimi) bu ləqəbi daşıdıqları görünür.

[4] Şəcəreyi-türk, s. 209, türkcəsi, s.220; Barthold. A History of the Turkman people, s. 136-138.

[5] Şəcəreyi-türk, s.210, türkcəsi, s. 220; Barthold, həmin əsər, s. 137.

[6] Həmin əsər, s. 139.

[7] Şəcəreyi-türk, s.210, türkcəsi, s. 220; Barthold, həmin əsər, s. 137. Arabacılar XX əsrın ilk rübündə Ceyhunun sağ sahilində Turtkul yörəsində yaşayırdılar (Barthold, göstərilən yer, haşiyə 4).

O zamanlar Ceyhun (Amu-Dərya) irmağı Xəzər dənizinə axırdı. İrmağın hər iki sahili boydan-boya əkin tarlaları, bağlar, bağçalarla dolu idi[1]. İrmaq boyunda başlıca üç topluluq otururdu: adaxlı Xızır eli (yurdu Ton-Kırıdan Qarı Keçidə qədər uzanan yerdə), Əli eli (Qarı Keçiddən Balxan dağı yaxınındakı Ağdama qədər olan yerdə) və dəvəçilər (Ağdamdan Oğurcaya, yəni irmağın töküldüyü yerə qədər olan yörədə). "Şəcəreyi-tərakimə"də bu üç el mənşələri baxımından xalis türkmən sayılmır. Rəvayətə görə, Xorasan hakimi Koma bəy Ərsarı bayın qızı Mama bikəni boşayıb qardaşlarının yanına göndərəndə ona evli bir qul, yəni kölə vermişdi. Bu qulun dörd oğlu və iki qızı vardı. Mama bikə yaşlanınca köləsinin uşaqlarının hürriyyətlərini verdi. Dörd qardaşın ən böyüyü Xızır Çura Ceyhun boyunda əkinçilik etməyə başladı; ağlı və əməksevərliyi sayəsində qısa zamanda varli bir adam oldu. Monqoldan, salurdan bir çoxları Xızırın xidmətinə girdilər. Nəticədə Xızırın adamlarının sayı çoxaldı və onlara Xızır eli deyildi. Xızır eli arasındakı kütlər obası Xızırdan törəmişdir[2]. Süfyan xan dövründə Xızır eli yığılan məhsulun onda birini (əşar) vergi olaraq həmin xana verirdi[3].

Əli eli isə Xızırın qardaşı Əlinin adını daşıyır. Əli eli xalqı yalnız əkinçiliklə uğraşmır, davarcılıqla da məşğul olurdu. Əli elində moğolcıqlar deyilən oba Əli Çuranın nəsli sayılır[4]. Dəvəçilərə (təvəçilər) gəlincə, bunlar Altın Orda hökmdarı Canıbek xanın Balxan dağında dəvə yetişdirmək üçün göndərdiyi otuz dəvəçidən törəmişlər. Bu otuz dəvəçinin müxtəlif oymaqlara mənsub olduğu da bildirilir. Dəvəçilər də həm əkinçilik edir, həm də qoyun saxlayırdılar. Adı çəkilən Süfyan xana Əli eli kimi dəvəçilər də həm əkindən, həm də qoyundan vergi verirdilər. Hər iki eldən alınan qoyunun sayı 12.000, qazan qoyunu isə 1.200 idi[5].

Bunlar kimi əsil türkmən sayılmayan oymaqlardan biri də qara ivlilərdir. Bilindiyi kimi, Kaşğaridə qara bölük, Rəşidəddində qara ivli (qara evli) adlı bir oğuz boyu vardır. Türkiyədə də Qaraevli adında bir çox kənd var[6]. Ancaq Xəzərarxası türkmənləri arasında görünən qara evlilərin yuxarıda adları çəkilən Xızır və Əli Çoranın qardaşı olan Qaşqa Çoranın oğulları olduqları söylənir. Qaşqa Çora da Ceyhun yaxasında və Acı dənizin (Xəzər) yaxınında yurd tutsa da, qardaşları kimi varlı bir insan ola bilməmişdi. Çünki yurd tutduğu yörənin əkin əkiləcək torpağı və davar otarılacaq örüşü də azdı[7].

---

[1] Ceyhunun yataq dəyişdirməsi haqqında: Şəcəreyi-türk, s.207, s. 210; Barthold, həmin əsər, s. 133-137; Z.V.Toğan. Amu-Dərya maddəsi, İA, I, s. 419 və davamı.
[2] Şəcəreyi-tərakimə, s. 74-75; türkcə tərcüməsi, s. 92-93.
[3] Şəcəreyi-türk, s..210-211, türkcəsi, s. 221. Barthold, həmin əsər, s. 135.
[4] Şəcəreyi-tərakimə, s. 75, türkcə tərcüməsi, s. 93; Şəcəreyi-türk, s. 221; Barthold, s. 135.
[5] Səcəreyi-türk, s.207-211, türkcəsi, s. 220-221 Əbülqazi başqa bir yerdə (s. 253) dəvəçilərin 5.000-6.000 çadırlıq bir topluluq olduğunu yazır.
[6] Qara evli bəhsinə bax.
[7] Şəcəreyi-tərakimə, s. 76, türkcə tərcüməsi, s. 76; Barthold, həmin əsər, s. 134.

Qardaşların dördüncüsü olan İğ bəkə (İy bəy) gəlincə, o, Ərsarı bayın oğullarının yanında qalmışdır. Onun oğulları iki obaya ayrıldılar: qullar və çağatay kullar. Bu sonuncuya çağatay qullar dənilməsi, onların çağatayların arulat boyuna mənsub bir kişinin soyundan olmaları ilə başlıdır. İy bəyin oğullarından biri bir arulata qızını vermiş və çağatay qullar bunlardan meydana gəlmişlər[1].

Türkmənlər arasındakı əski xalqı da həqiqi türkmən sayılmır və onların Ayaz adlı bir kölənin soyundan olduqları bildirilir[2]. Ağar və aymaqlı (?) oymaqlarının da oğuz xanın vəziri uyğur Irkıl xocanın oğulları olduqları yazılır[3]. Bu sözlər bu iki oymağın əsillərinin və ya keçmişlərini bilinmədiyini göstərir.

Xəzərarxası türkmənlərinin yurdları Manqışlaq və Balxan dağları olduqca tənha yerlərdir və bu yerlərin mühim bir qismi dəniz, bozqır və çöl ilə çevrilidir. Buna baxmayaraq monqoldan, çağataydan, özbəkdən adamlar, topluluqlar türkmənlərə sığınır, onlar arasında yaşayır və zamanla görmüş olduğumuz oymaqlar meydana gəlir.

"Şəcəreyi-tərakimə"də daha bir çox oymağın əsli haqqında bilgi verilir. Məsələn, tərakimeyi-salur Öyürcük Alpın oğullarından Usara, cabı xalqı yenə həmin bəyin oğullarından Dinliyə, Ceyhun sahilində Qara Qol deyilən yerdə yaşayan yayalar Dinlinin qardaşı Yaycıya bağlanmışlar[4]. Saqar oymağı isə yenə Öyürcük Alpın qardaşı Qabacığın, azlar oymağı da onların qardaşları Duduğun, olam ürgəncli xalqı da adları çəkilən bəylərin qardaşı uşaqları və Suvarçığın oğlu Xurşidin nəslindən göstərilmişlər[5].

Xorasanda Durun yörəsində yaşayan yemir elinə gəlincə, bu elin içki salurdan Teymur Tuğlu xandan törədildiyi görünür[6]. Fəqət nə burqaslar[7], nə də Teymur Tuğlu xan haqqında daha artıq bilgi verilmir.

Səfəvi qaynaqlarından Xəzərarxası türmənlərinə ait ilk bilgi oxlu (ohlu) türkmənindən Abanın faaliyətləri ilə ilgilidir. Aba çox gənç, son dərəcə

---

[1] Şəcəreyi-tərakimə, s. 75-76, türkcə tərcüməsi, s. 93-94.

[2] Həmin əsər, s. 72-72, türkcə tərcüməsi, s. 90-91.

[3] Həmin əsər, s. 71, türkcə tərcüməsi, s. 89.

[4] Şəcəreyi-təraikimə, s. 71, türkcə tərcüməsi, s. 89.

[5] Həmin əsər, s. 71-72, türkcə tərcüməsi, s. 89-90. Buradakı Suvarcıq adı suvar qövmü ilə ilgili ola bilər. "Cami üt-təvarix"dəki oğuznamədə Qara Arslan xanın Suvar adlı bir köləsindən söz edilir. Bu kölə suvar elindən gətirilmişdi. Xan bu kölənin sədaqətini görərək onu ordusunun komandanı edir (Oğuzlara ait dastanı mahiyətdə əsərlər, s. 377-378). "Şəcəreyi-tərakimə"də (s. 55) bu qövm üçün suracıq eli deyilir. Bu fikrin Əbülqaziyə aid olub-olmadığı bilinmir. Fəqət oğuznamədə yoxdur. Suvarlar İtil boylarında yaşayırdılar və Kaşğariyə görə türk qövmlərindən biridir. Bu adlar oğuzlarla suvarlar arasındakı tarixi münasibətlərlə bağlı xatirələr olaraq görünür.

[6] Həmin əsər, s. 71-72, türkcə tərcüməsi, s. 89-90.

[7] Bu Burkas adı da yenə İtil sahillərində oturan Burtas adlı qövmü xatırladır. Bunların suvarlara yaxın bir qövm olduqları söylənir (Ə.Z.Toğan. Burtas maddəsi, İA, II, s. 820-821).

yaraşıqlı və o nisbətdə bahadır bir bəy idi. Valiliyini təbrik etmək üçün qatına gəldiyi səfəvilərin Astarabad bəylərbəyisinin ona aşiq olub bunu göstərməsi Abanın üsyan etməsinə səbəb olmuşdu. Aba bəy səfəvilərə ciddi problemlər yaratdı. Belə ki, 965-ci ildə (1558) divanbəyi ustacalu Bədir xan, möhürdar zülqədir Şahqulu Xəlıfə, əfşar Rüstəm xan, mosullu Yadigar Məhəmməd bəy, ustacalu Fəth oğlu Həsən bəy, çavuşlu Şahqulu bəy, qacar Qaya oğlu Əhməd bəy, Çərəndab Saltanın oğlu Əli bəy və Turqut (Durqut) oğlu Qasım Əli Sultan kimi ünlü bəylərin olduğu qələbəlik bir ordu Abanın üzərinə göndərildi. Bu ordu Aba ilə Xarəzm hökmdarı Əli Sultan tərəfindən Gürgən çayı sahillərində ağır bir yenilgiyə uğradıldı. (21 şəvval 965 = avqust 1558). Astarabad bəylərbəyisi ustacalu İbrahim xan, əfşar Rüstəm xan savaş meydanında qaldılar. Ustacalu Bədir xan ilə türkmən Yadigar Bəy də əsir düşdülər. Səfəvilər ilk dəfə olaraq özlərindən sayıca çox az bir qüvvə qarşısında ağır bir yenilgiyə uğramışdılar. Qaynaqların ittifaqla göstərdiklərinə görə, savaşın qazanılmasında ən mühim rolu qüvvəsinin az olmasına rəğmən Aba oynamışdı. Fəqət Aba bu zəfərdən sonra (həmin il) gözlənilməz bir ölümün qurbanı oldu. Evləndiyi Astarabad yerlilərindən bir qadının təhriki ilə çadırında yatarkən bu qadının atasına mənsub bir adam tərəfindən öldürüldü[1]. Səlcuqlular dövründə başqa bir kəlmə ilə birlikdə mürəkkəb bir isim kimi işlənən (Altunaba, Bəyaba, Ayaba) Aba (Apa) ilə bu türkmən bəyinin adı eyni olmalıdır.

Aba bəy dolayısı ilə oxluların Astarabaddakı səfəvi valilərinə vergi verdiklərini öyrənirik. Eyni əsrin sonlarına doğru Astarabadın şimalında, Gürgən və Ətrək çayları boylarında oxlu və göklənlərdən başqa eymür (eymir) və salurların da yaşadıqları və münbit torpaqları əkməyə başladıqları görünüyor. Fəqət bunlardan bilxassə oxlular başçıları Qarı xan idarəsində səfəvi torpaqlarına axınlar etməkdən geri qalmırdılar. Şah Abbas həm türkmən axınlarını durdurmaq, həm də Astarabadın özbəklərin əlinə keçməsini önləmək üçün eymürlərin bəyi olan Əliyarı xan ünvanı ilə Astarabad valisi təyin etmişdi. Eymürlər sayıca oxlu və göklənlərdən daha az idilər və bəlkə də buraya Manqışlaqdan lap yaxın bir zamanda gəlmişdilər. Buna rəğmən eymür Əliyar xanın Astarabad valiliyi uğurla keçdi; 1005-ci ildə (1596) ölüncə mövqeyi oğlu Məhəmmədyara verildi. Ancaq oxlular ona müxalifət etdilər və bir çarpışmada Məhəmmədi öldürdülər[2].

Yenə bu zamanlarda Xəzərarxası türkmənlərinin tarixləri üçün önəmli olan iki hadisə cərəyan etdi. Bunlardan biri Ceyhun irmağının yenidən bir yol tapıb Aral gölünə tökülməsidir. Bunun 1575-1578-ci illər arasında baş

---

[1] Qaffari. Cahan-ara, s. 303-304; Qumlu Həsən bəy. Əhsən ül-təvarix, s. 346-347, 386-387, 401-404, 405-406; Türkmən İskəndər bəy. Tarixi-aləm arayi-Abbasi, I, s. 106-109; Əbülqazi. Şəcəreyi-türk, s. 245-246, türkcəsi s.258-259; Barthotd, həmin əsər, s. 139.

[2] Bundan daha öncə söz edilmişdi.

verdiyi qəbul edilmişdir[1]. Ceyhunun yataq dəyişdirirək yenidən Aral gölünə tökülməsinin türkmənlərin iqtisadi həyatlarına mənfi təsir göstərməsi barədə qaynaqlarda bilgi yoxdur.

Digər hadisə isə Əmba çayı sahillərində oturan və noqay da adlanan manqıtların (manqut) Manqışlağa yağma axınlarıdır. Bu axınlara dayana bilməyən ərsarılar, təkə və yomutlar Balxan və Kürən dağları çevrəsinə gəlmişlər, ərsarılar Böyük Balxan ilə onun çox şərqindəki Kurtış arasında yurt salmışdılar. Təkələr ilə yomutların da Küçük Balxan ilə Qızıl Arvat arasındakı Kürən dağ çevrəsində yaşamaya başladıqları anlaşılır. Ancaq kalmık axınları Manqışlaq türkmənləri üçün daha fəlakət verici nəticələr doğurmuşdur. Gerçəkdən, kalmık (kalmak=kalmaq) deyilən qövm həqiqi monqol olub ünləri hələ Teymur dövründə Mavəraünnəhrə çatmışdı. Çağataylar kalmıkların insan əti yediklərinə inanırdılar ki,[2] Övliya Çələbi də bu xüsusda təfsilat verməkdədir[3]. Halbuki bu kalmıklar buddist idilər. Kalmıkların qərbə gələnlərinin çoxunu torqut (turqut) adlı monqol boyu təşkil edirdi. Bu boy Çingiz xan dövründə də mövcud olub[4] fəth hərəkətlərinə geniş ölçüdə qatılmamış görünür. Torqutlar və ya kalmıklar əski müttəfiqləri olan bir monqol boyunun sıxışdırması nəticəsində qərbə köç etdilər; önlərinə çıxanları yenib Yayıqa qədər gəldilər və Xarəzmə ilk axınlarını gerçəkləşdirdilər. Enerjili başbuğları Hoorluq idarəsində İtilin ağzında yurd tutan kalmıklar öz axınları ilə Krım da daxil olmaqla hər tərəfdə qorxu və dəhşət oyandırdılar. Kalmıklar türkmənlərə axınlar edən manqutları (manqıt) İtilin ötəsinə sürdükləri kimi, Övliya Çələbiyə görə[5] qələbəlik saydakı noqaylar (manqut = manqıt) kalmıkların rəiyyətləri durumuna düşmüşdülər.

Kalmıkların 1637-ci ildə Manqışlaq üzərinə axını nəticəsində buradakı türkmənlərin böyük əksəriyyəti yurdlarını tərk edərək pərişan bir halda Balxan tərəfə qaçdılar. 1640-cı ildə İrandan dönən Əbülqazi Manqışlaqdan qaçan qızılayaq obası türkmənlərindən buraya gəldikdən ancaq üç il sonra keçə çadırlar düzəldə bildiklərini öyrənmişdi. Qışı orada keçirən Əbülqazi Balxan dağına gedib iki il də orada təkələr arasında qaldıqdan sonra Manqışlağa gəlmiş və Manqışlaq türkməninin tar-mar olduğunu, orada ancaq 700 çadırlıq bir icmanın qaldığını, onların da kalmıklara tabe olduğunu görmüşdü[6].

---

[1] Ə.Z.Toğan. Amu-Dərya maddəsi, İA, I, s. 222.

[2] Diyarbəkriyyə, II, s. 474.

[3] Bilindiyi üzrə, Övliya Çələbi İtilin aşağı yatağında yurt tutan kalmıklar haqqında bir çox baxımdan ilgi çəkən və diqqətəşayan bilgilər vermişdir (Səyahətnamə, İstanbul, 1928, VII, s. 843-870). Övliya Çələbi kalmıkları əski müəlliflərin hunları və monqolları anlatdıqları kimi təsvir edir.

[4] Monqollarm gizli tarixi, türkcə türcüməsi Ə.Təmir, Ankara, 1948, s. 61; Monqollarm gizli tarixi, Bakı, 2011, s. Rəşidüddin, Moskova, 1965, s. 82.

[5] VII, s. 844, 847.

[6] Şəcəreyi-türk, s.316, türkcəsi s. 332-333.

1642-ci ildə Əbülqazinin böyük qardaşı, Xarəzm hökmdarı İsfəndiyar xan öldü. İsfəndiyar xan Əbülqazinin aksinə türkmənlərə nifrət etmir, hətta onları öz qövmdaşları özbəklərdən üstün sayırdı. 1643-cü ildə Əbülqazi Xarəzm hökmdarı oldu. O, türkmənlərə kalmıklardan daha qorxunc fəlakətlər gətirdi. Əbülqazi özbəklərin düşməni saydığı və ağlı az dediyi türkmənləri qəddarlıqla kütlələr halında öldürdürdü. Özəlliklə, hökmdar olar-olmaz, hiylə ilə 2.000 türkməni məhv etmiş, Xorasanda Duruna yaxın Burma deyilən çayın sahilindəki savaşda, öz ifadəsi ilə, 20.000 türkməni öldürtmüşdü.

Bu əsnada (1065=1654/1655) kalmıklar da Xorasanda Durum yörəsinə və Əstərabad tərəflərinə qədər axınlar edərək bəzi türkmən obalarını yağmaladılar, ancaq səfəvi bəylərbəyiləri tərəfindən yenildilər[1]. O biri il (1066) İsfahanda kalmık (kalmak) elçiləri göründülər. Bu elçilərin yanında türkmənlər də vardı. Kalmık elçilərinə xələt geydirildi və Qaradağlu xan Məhəmməd bəy xələtlər, samur, küllah və digər hədiyələrlə kalmık xanına göndərildi[2].

XVIII əsrdə Astarabad bölgəsində oxluların yerini çoxlu əhalisi olan yomutlar aldılar. Yomutlar, əfşarlar və zəndlər ilə mücadilələrində qacarlara yardım edirdilər. Hətta Mirzə Məhəmmədə görə, qacar dövlətinin qurucusu Ağa Məhəmməd şahın anası yomutların başçısı Bəyəncin qızı idi[3].

Xəzərarxası türkmənlərinin XVIII-XIX əsrlərdəki tarixləri daha yaxşı bilinir. Xarəzm və İrandaki iqtidar dəyişiklikləri və bu iqtidarların qısa bir zamanda zəif vəziyyətə düşmələri, Avropa dövlətlərinin hakimiyyət və nüfuzlarını genişlətmək üçün fəaliyyətlərini artırmaları Xəzərarxası türkmən oymaqlarına daha artıq sərbəstlik qazandırmışdı. Dışkı salurdan olduğunu gördüyümüz təkələr və yomutlar ən güclü oymaqlar halına gəldilər. İran torpağına yönələn və alaman (ərəbcə əl-amandan) deyilən axınlar ən ziyadə bu iki oymağın mənsubları tərəfindən gerçəkləşdirilirdi. Bu oymaqlar ara-sıra Xarəzm xanlarının və qacar valilərinin ordularına qarşı uğurlar da qazanmışlar.

Xəzərarxası türkmən oymaqlarından bir çoxu bilxassə öz aralarında girişdikləri mübarizələr üzündən yerlərini dəyişdirmək zorunda qalmışlar. Xəzərarxası türkmənlərinin oymaq təşkilatı haqqında XIX əsrdə türkmənləri ziyarət edən avropalılar tərəfindən bəzi siyahılar düzənlənmişdir. Bu siyahılardan ən əski və tafsilatlı olanlardan biri yüzbaşı N.Muravyov tərəfindən meydana gətirilmişdir (1819-cu ildə). Ancaq yüzbaşı Muravyovun siyahısında təkə, salur, ərsarı və sarıqların oymaq təşkilatları əskikdir.

---

[1] Abbasnamə, s. 201-204.

[2] Həmin əsər, s. 224-225. Nadir şah dövründə (1736-1747) kalmıklardan Qarçığay xan vardı ki, Nadir şah onu Rusiyaya elçi olaraq göndərmişdi. Qarçığay xan Qalmaq sonra Dərbənd bəylərbəyiliyinə təyin edildi (Mirzə Məhəmməd Məraşi. Məcmə üt-təvarix, Tehran, 1328 ş., s. 121).

[3] Rzaqulu xan isə anasının qacarlardan Məhəmməd xanın bacısı olduğunu yazır (Rövzət üs - səfayi-Nadiri, IX, s. 85).

1863-cü ildə türkmənlər arasındakı səyahatini həyata keçirən türkoloq A. Vamberinin siyahısında bir çox oymaqların obaları verilməmişdir.

General Petruşeviçin siyahısı da (1878) xüsusilə yomut və göklənlərin oymaq təşkilatları baxımından dəyərlidir. Onun siyahısı həm şəxsən özünün yerində apardığı araşdırmalara, həm də Astarabaddakı konsul Bakulinin təsbitlərinə əsaslanır.

Siyahılarda oymaqlara mənsub obaların adları və oturduqları yerlərdən bir çoxlarının doğru təsbit edilməmiş olduğu görülüyor. Ancaq mənim üçün də bu adlardan mühüm bir qisminin doğru oxunuşlarını, xüsusilə əlimdəki materialın məhdud olmasından dolayı, tapmaq mümkün olmamışdır. Bu siyahılardakı boyların qolları və obaları arasında diqqətimizi və ilgimizi çəkən az isim vardır. Bunların çoxu da oğuz boylarının adlarıdır. XVI əsrdəki Aba bəyin oxlu (ohlu) oymağı varlığını itirdiyi üçün siyahılarda yer almır.

"Şərəceyi-tərakimə"də yomut, təkə, ərsarı, sarıq, yəmrəli kimi oymaq və ya topluluqların oğuz salur boyundan gətirildikləri söylənmiş və sxemlərdə də göstərilmişdir. Bu xüsus nə dərəcədə doğrudur, bir şey söyləmək olmaz.

Salurdan çox geridə olmaq üzrə, Xəzərarxası türkmənləri arasında sayca ikinci sıranı çavuldurlar (çavdur) alır. Bunlar, görüldüyü kimi, iğdır və soynaçılarla birlikdə Həsən əli adı altında ayrı bir topluluq təşkil etmişlər.

Həsən eli digər oymaqlar kimi Manqışlaqdan ayrılmayaraq kalmıklara tabe olmağı qəbul etmişdir. Hətta kalmıklar bu eldən bir qismini Şimali Qafqaza köçürmüşlər. Bu köçürülənlərə sonralar Stavropol türkmənləri deyildiyini bilirik[1].

Çavuldur Çaka Anadolunun fəthi xatirələrində anılan bəylərdən biridir. Ancaq iğdırların adına nə dastani əsərlərdə, nə də tarixi qaynaqlarda rast gəlinir. Əvəzində iğdırların XVI əsrdə Anadoluda 43 yer adına sahib olaraq onun cu yeri tutduqları, eyni əsrdə İç-el və digər bölgələrdə onlara mənsub bir çox oymaqların yaşadıqları da müşahidə olunmuşdur.

Göründüyü kimi, göklən obaları arasında kayı, bəydili və bayındır kimi oğuz boy adını daşıyan təşəkküllər var və bu topluluğun ən önəmli qismini onlar meydana gətirirlər. Göklənlərin xatirələrinə görə onlar, Dodurğa və Əli Dağlı adlı iki qardaşdan törəmişlər. Altı göklən obasından üçü (bayındır, kırık və yonyak sağrı) Dodurğanın, digər üçü isə (kayı, ay-dərviş və çakır bəydili) Əli Dağlının nəslidir. Buradaki Dodurğa adı diqqətimizi çəkir. Çünki bu adda bir oğuz boyu vardır. Əyər bu adın təsbitində bir xəta yox isə,

---

[1] Bu türkmənlərin daha öncələri kalmık xanı Munçak (Monçak) zamanında (1667-1670) köç etməyə haşladıqları və bu köçün türkmənlərin öz istəkləri ilə həyata keçirildiyi də söylənir (Barthold, həmin əsər, s. 157). Türkmənlər kalmıkların 1771-ci ilin qışında Orta Asiyadakı yurdlarına dönüş yürüyüşünə də qatılmaq zorunda buraxılmışlar. Bunlardan ancaq bir qismi geri dönə bilmişdir (həmin əsər, s. 157-158).

göklənlərin bir qolu (heç olmazsa onun iki oymağı) dodurğalardan gəlmiş ola bilər[1].

Göklənlər arasında yaşayan və oğuz boy adını daşıyan təşəkküllərin əhalisi çox deyildir. Onun üçün bu təşəkküllərin adları tarixi qaynaqlarda nadirən keçir və ya heç keçmir. Əsasən göklənlərin əhalısi digər topluluqlara nəzərən çox azdır, göründüyü kimi, 1880-ci illərdə 4.000 ailə olaraq hesablanmışdır.

XVI əsrdə Astarabad bölgəsindəki türkmən oymaqları arasında var olan eymürlərə (eymir) gəlincə, bunlar siyahılarda yomuta bağlı olaraq göstərilmişdir. Eymürlərin daha sonra zəif bir duruma düşüncə yomuta bağlandığı anlaşılır. Yenə yomut obaları arasında iğdır adlı bir təşəkkül də görünür.

Siyahılarda yer almayan Xorasanda Nəsa civarındaki qaradaşlıların yazırlar olduqlarını bilirik. Bu yazırların orada bir bəylik qurduqları görülmüşdü.Xorasandaki qara bayatlar çağatay oymaqları arasında zikr edilir[2]. Bundan qara bayatların səfəvilərdən öncə, gərəyli və cəlayirlər kimi çağatayların idarəsi altında olduqları anlaşılır. Qara bayatların adları "Şəcəreyi-tərakimə"də də keçmir. Bundan dolayı, daha öncə də işarət edildiyi üzrə, bu bayatların çağatay ulusu arasındakı bayautlar (bayağut) olduğunu quvvətlə ehtimal edirik.

Anlaşılacağı üzrə, Xəzərarxası türkmənlərinin böyük topluluqları və bunların qolları ilə obalarınınki kimi adlar daşıyan oymaqlar Türkiyədə çox az və nadirən görünə bilir. Türkiyədəki Qaraman eli və Təkə eli (Antalya bölgəsinin əski adı) adlarındakı Qaraman və Təkənin şəxslərdən gəldiyi bilindiyi halda, bu yer adları ilə Xəzərarxası türkmənlərindəki salurun qaraman obası və təkə topluluğu arasında heç də doğru olmayaraq bir münasibət olduğu düşünülmüş və hətta Qaraman oğullarının salurlardan çıxdıqları ehtimali belə ortaya atılmışdır.

---

[1] Daha öncə də işarət edildiyi kimi, siyahıların birində bu ad dodourg, digərində isə doudougah şəklində görünür.
[2] İskəndər bəy. Tarixi-aləm-arayi-Abbasi, II, s. 1087.

# BİBLİOQRAFİYA

## A. ABİDELER

Clauson Sir Gerard. *The Origin inscription*, JRAS, nr. 3-4, 1957, s.172-192.

Ergin Muharrem. *Orhun âbideleri,* İstanbul, 1970.

Klyashtorny Sergej G.-Livşic Vladimir A. *The Sogdian inscription of Bugut Revised,* Acta ovientalia, XXVI (1), 1972, 8.60-102.

Klyashtorny Sergey G. *The Tes inscription of the Uighur Bögü Qaghan,* Acta orientalia, XXXIX (1), 1985, 8.137-156

Orkun Hüseyin Namık. *Eski Türk Yazıtları*, İstanbul, 1936-1941, I- IV.

Tekin Talat. *A.Grammer Orkhun Turkic*, Bloomington, 1968.

Tekin Talat. *Kuzey Mogalistan'da yeni bir Uygur anıtı Taryat-Terhin kitabesi,* Belleten, 1982, XLVI, sayı 184, s.795-838.

Ramstedt G.J. *Zwei Uigurische Runeninscheriften inder Nord Mongolei* Journal de la societe Finno Ougrienne, XXX, 3 Helsingfors, 1913.

## B.MESKUKÂT

Ahmed Tevhid. *Meskûkât-ı kadime-i İslamiyye katalogu,* İstanbul, 1321.

Galib Edhem. *Takvim-i meskûkât-ı Selcukiyye,* İstanbul, 1309.

Galib Edhem. *Meskûkat-ı Selcukiyye katalogu,* İstanbul, 1311.

Halil Edhem. *Meskûkât-ı Osmaniyye,* İstanbul, 1334.

Mayer L.A. *Bibliography of the Muslim numismatics,* London, 1954.

Pool Lane. *The Coins of the Turkman houses in the British Museum,* London, 1877.

## C. TAHRİR DEFTERLERİ:

*Alâiyye,* Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 172.

*Amasya,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 98.

*Ankara,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 117.

*Aydın,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 8, 270, 414.

*Ayıntab,* Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 161.

*Biga,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 59.

*Birecik,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr, 184.

*Bolu,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr, 51.

*Boz-Ok,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 289, 315, 448.

*Boz-Ulus,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 561.

*Canik,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 13, 37.
*Çorum,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 444.
*Çukur-Ova* Başbakanlık Arşiv Umûm Müdürlüğü, nr. 69 (Adana, Tarsus, Sis, Kınık, Özer-İli).
*Diyarbekir,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 200.
*Erzurum,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 205.
*Gence,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 903.
*Haleb Türkmenleri,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 1040, 493, 397, 773.
*Hamid (Ispara-Burdur),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 121.
*Hüdâvendigâr (Bursa),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 23, III.
*İç-İl,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 1, 183, 272.
*Kengırı (Çankırı),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 100.
*Karaman,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 40.
*Karasi (Balıkesir),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 153.
*Kars-ı Zülkadriyye (Kadirli),* Tapu ve Kadastro Umum Müdürlüğü, Arşivi, nr. 168.
*Kastamonu,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 327.
*Kara-Hisar-ı Sahib (Afyon),* Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 147.
*Kara-Hisar-ı Şarkî (Şebin),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 225.
*Kemah,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 168, 540.
*Kayseri,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 33, 38.
*Kır-Şehri,* Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 139.
*Koca-İli,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 63.
*Kütahya,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 49.
*Malatya,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 408.
*Maraş,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 402, Tapu ve Kadostro Umum Müdürlüğü Arşividir, nr. 116.
*Menteşe (Muğla),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 47, 61, 337.
*Niğde,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 42, 371.
*Ruha (Urfa),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 965.
*Saru- Han (Manisa),* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 165.
*Sivas,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 79, 98; Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 10-12.
*Sultan-Önü* (Eskişehir-Söğüt), Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 145.
*Teke,* Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 163.
*Tokat,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 2.
*Trabzon,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 52.
*Yeni- İl,* Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. 262; Tapu ve Kadastro Umum Müdürlüğü Arşivi, nr. 138.

## Ç. MÜHİMME DEFTERLERİ:

Başbakanlık Arşiv Umum Müdürlüğü, nr. I- VIII, XXI, XXIV XXXII, LIII.

Ahmed Refik. *Anadolu'da Türk aşiretleri,*(Türkiyat Enstitüsü,) İstanbul, 1930.

*Osmanlı devrinde Türkiye madenleri,* (Türkiyat Enstitüsü), İstanbul, 1931.

D. KADI SİCİLLERİ:

Gökçen. İ. *Saru-Handa Yörük ve Türkmenler,* İstanbul, 1946.

Su K. *Balıkesir ve civarında Yörük ve Türkmenler,* İstanbul, 1938.

Uluçay Ç. Saru-Han *oğulları ve eserlerine dâir vesikalar,* İstanbul, 1940.

Uluçay Ç. *Saru-Handa eşkiyalık ve halk hareketleri,* XVII. Asır. İstanbul, 1944.

E. HATT-I HÜMAYUNLAR:

Başbakanlık Arşiv Umum Müdürlüğü.

F.DAĞINIK VESİKALAR:

Başbakanlık Arşiv Umum Müdürlüğü, Cevdet. Dahiliye, I- IV.

G. VEKAYİ NÂMELER:

*1. Arapça Eserler:*

El-Aynî Bedr ed-dîn. *İkd ul-Cumân fi tarihi ehl iz-zamân*, Veliyüddin Efendi kütüphanesi, nr. 2374, 2395-2396.

Belâzurî. *Futûh ül-buldân,* Kahire, 1350.

El-Cezeri Şems ed-din. *Cevâhir üs-sulûk,* Paris Bibliotheque Nationale, manuscrits arabs, nr. 6739.

Ebû Şâme Şihâb ed-dîn. *Kitab ur- ravzateyn fi ahbâr id-devleteyn,* Kahire, 1278-1288, III.

İbn Devâdârî Ebû Bekr. *Durer ut-ticân ve gurer ut-tevârih il-ezmân,* Süleymaniye, Damad İbrahim Paşa ktp., nr. 913.

İbn Âcâ. *Tarih Yaş Bek,* Topkapı Sarayı, III. Ahmed ktp., nr. 3057, yayınlayan A.A.Tuleymât, Kahire, 1975.

İbn Hacer. *İnbâ ul-gumr,* Süleymaniye, Yeni Cami ktp., nr. 814.

İbn Hassül. *Tafdil ul-Etrâk,* yay. ve türkçe tercümesi, Ş.Yaltkaya, Belleten IV, sayı 14-15, s.235-266.

İbn İyas. *Bedâyi uz- zuhur,* yay. P.Kahle-M.Mustafa, (B. I), İstanbul, 1932-1936, III-V.

İbn Kadı Şuhbe. *Zeyl duvel il-İslâm,* Paris, Bibliotheque Nationale, manuscrits arabs, nr. 1598-1599.

İbn us-Sâî. *el-Câmi ul-muhtasar,* yay. M.Cevad, Bağdad, 1934, IX.

İbn Sasra. *ed-Dürrat il-muzia fi devlet iz-zahiriyyə,*yay. W.M.Brinner, Berkeley,

İbn Şeddâd. *Bey-Bars tarihi,* türkçe tercümesi, Ş.Yaltkaya, İstanbul, 1941.

İbn Tağrı-Birdi. *Havâdis ud-duhûr,* yay. W.Popper, Berkeley, 1930-1932.

İbn Tağrı-Birdi. *en-Nucûm uz-zahire,* yay. W.Popper, Berkeley, 1915-1929, VI-VII.

İbn Tağrı-Birdi. *el-Menhel us-sâfî,* Nuruosmaniye ktp., nr. 3428-3429.

İbn Vâsıl. *Muferric ul-kurûb,* yay. C.Seyyâl, Kahire, 1953-1960, I-IIl.

İbn ül-Adîm Kemâl ud-dîn. *Zubdet ul-haleb,* yay. S. ed-Dehhân, Dimaşk, 1951-1968, I-IIl.

İbn ül-Cevzî. *el-Muntazam fi târih il-umem,* Haydar Âbâd, 1358-1359, VII-X.

İbn ül-Esîr. *el-Kâmil fi't-târih,* Kahire, 1301, IX-XII, (Tornberg yayınının Beyrut baskısı), IX-XII.

İbn ül-Esîr. *et- Tarih ul-bâhir fi devlet il-Atabegiyye,* yay. A.A.Tuleymât, Kahire, 1963.

İbn ül-Ezrak. *Tarih Meyyâfârikin,* British Museum, Or. 5803.

İmâd ed-din el-İsfahanî. (Bundarî kısaltması), *Zubdet un-nusra,* yay. M. Th. Houtsma, Recueil de textes relatifs â This toire des Seldjoucides, Leiden, 1889, II, türkçe tercümesi K. Burslan, *Irak ve Horasan Selçukluları tarihi,* İstanbul, 1943.

İmâd ed-din el-İsfahanî. *Kitab ul feth il-kussi,* yay. C. de Landberg, Leiden, 1888.

el-Makrizî Takiy ed-din. *Kitâb us-süluk,* Fatih ktp., nr. 4385-4387, yay. M. Ziyade, Kahire, 1936-1956, I. III.

Müneccim-Başı. *Cami ud-duvel,* Süleymaniye, Es'ad Efendi ktp., nr. 2101-2102; türkçe tercümesi, İstanbul, III, 1285.

el-Nesevî. *Siyret us-Sultan Celâl ud-din Mengübirti,* yay. ve fransızca tercümesi, O. Houdas, Paris, 1891-1895, MI.

*Nuzhetun-nâzir* (Hısn-Keyfa Eyyubileri tarihi). Viyana Bibliotheque Nationale, Mxt. 355.

Sadr ed-dîn Ebû'l Hasan Ali. *Ahbar ud-devlet is-Selcukiyye,* yay. M. İkbal, Lahor, 1933.

Sıbt ibn ul-Cevzî. *Mir'at uz-zamân,* yay. A.Sevim, Ankara, 1968.

el-Taberî. *Tarih ul-mulûk v'er-rusûl,* yay. M. De. Goeje, Leiden, 1879. 1901, III.

el-Utbî Ebu Nasr Muhammed. *Tarih ul-Yemînî,* Meninî şerhi kenarında, Kahire, 1286, farca tercümesi, Curbadâkânî, *Tercüme-i Tarih-i Yemînî,* Tahran, 1272.

2. *Farsça Eserler:*

Aksarayî Kerimed-dîn Mahmud. *Musâmeret ul-ahbâr,* yay. O.Turan, Ankara, 1944.

*Anonim Selçuk-nâme,* tıpkı basım ve türkçe tercümesi F.N.Uzluk, Ankara, 1952.

Avfî. *Lubab-elbâb,* yay. E.G.Browne, London, 1903.

Aziz b. Erdeşir-i Ester Âbâdî, *Bezm u rezm,* yay. K.Rifat, İstanbul, 1928.

Cuveynî. *Tarih-i cihânguşây,* yay. M.Kazvinî, (GMS), Leiden, 1912-1937, I-III.

Cuzcanî. *Tabâkat-i Nâsirî,* yay. Abdulhayy Habibî-i Kandaharî, Kâbil-Lahur, 1949-1954, I-II.

Ebû Bekr-i Tihranî. *Kitab-i Diyârbekriyye,* yay N.Lugal-F.Sümer, Ankara, 1962-1964, I-II.

Ebû'l- Fazl-i Muhammed-i Beyhakî. *Tarih-i Beyhaki,* yay. Gani-Feyyaz, Tahran, 1324 ş.

Ebû'l Hasan-i Gülistâne. *Mucmel ut-tevârih,* yay. Rezavî, Tahran, 1320. ş.

Efdal-i Kirmânî. *Bedâyi'il-ezmân fî* vekâyî *Kirman*, yay. M.Beyânî, Tahran, 1326 ş.

Efdal-i Kirmânî. *el-Muzaf ilâ Bedâyi'il-ezmân fi vekâ*yi' *Kirman*, yay. A.İkbal, Tahran, 1331 ş.

Eflâkî. *Menâkibul arifin,* yay. T.Yazıcı, 1959-1961, I-II.

Fahr ud-dîn Mubârek-Şah. *Tarih-i Fahr ud-din Mübarek-Şah,* yay. E.Denison Ross, London, 1927.

Fazlullah b. Ruzbihân. *Tarih-i âlem ârâ-yi Emînî,* Fatih ktp, nr. 4431, ingilizce tercümesi, V. Minorsky, Persia in a. d. 1478-1490, London, 1957.

Gerdizi. *Zeyn ül-ahbâr,* yay. Abdulhayy Habîbî, Tahran 1347.

Gaffarî. *Tarih-i cihan ârâ,* Tahran, 1342 ş.

Hâfız-i Ebru. *Zeyl-i câmi-ut-tevârih-i Reşidi,* yay. II. Beyânî, Tahran, 1317 ş.

Hamdullah-i Mustevfî. *Tarih-i güzide,* tıpkı basım. (GMS), Leiden, 1914, yay. A.Nevâî, Tahran, 1339 ş.

Hasan-i Rumlu. *Ahsen ut-tevârih,* yay. G.N.Seddon, Baroda, 1931.

İbni Bibî. *el-Evâmir ul-Alâiyye,* tıpkı basım, Ankara, 1956; eserin muhtasarı M.Th.Houtsma tarafından yayınlanmıştır: Recueil de textes relatifs a l'histoire des Seldjoucides, Leiden, 1902, IV.

İbni Funduk. *Tarih-i Beyhak,* yay. A.Behmenyâr, Tahran, 1317 ş.

İbn-i İsfendiyar. *Tarih-i Taberistan,* yay. A.İkbal, Tahran, 1320 ş., II.

İskender Beğ-i Türkmen. *Tarih-i âlem ârâ-yi Abbasi,* Tahran, 1314; yeni basım, Tahran, 1334-1335 ş., I-II.

İskender Beğ-i Türkmen ve Muhammed Yusuf. *Zeyl-i tarih-i âlem ârâ-yi Abbasî,* yay. S.Hansarî, Tahran, 1317 ş.

Kadı Ahmed-i Nekîdî. *el- Veled uş-şefîk,* Fatih ktp., nr. 4519.

Mîrhond. *Ravzat us- safâ,* Laknav, 1332.

Mirza Ebû'l-Kasım. *Mecmua*, Tebriz, 1294.

Mirza Mehdî Han. *Tarih-i Nâdirî,* Tebriz, 1277.

Mirza Muhammed-i Mer'aşî. *Mecma'ut-tevârih,* yay. A.İkbal, Tahran, 1328 ş.

Nerşehî. *Tarih-i Buhara,* Rezavî yay., Tahran, 1317, ingilizce tercümesi R.N. Frye. The History of Bukhara, Cambridge, Massachusettes, 1951.

Nizâmul-Mülk. *Siyâset-nâme,* yay. Halhalî, Tahran, 1310 ş.

Nizâmed-din-i Şâmî. *Zafer-nâme,* yay. F.Tauer, Praha, 1937.

Muhammed b. İbrahim. *Tevârih-i âl-i Selçuk,* M.Th.Houtsma, yay., Recueil de textes relatifs â l'histoire des Seldjoucides, Leiden, 1886, B.Pârizî yay. Selcukiyân ve Guzz der Kirman, Tahran, 1343 ş.

Muhammed Tâhir-i Kazvinî. *Abbâs-nâme,* Tahran, 1329 ş.

*Mücmel ut-tevârih ve'l-kısas,* Tahran, 1318 ş.

Nâsir ed-din Münşî. *Sımt ul-ulâ,* yay. A. İkbal, Tahran, 1328 ş.

Râvendî. *Rahat us-sudûr,* yay. M. İkbal, (GMNS), Leiden, 1921, türkçe tercümesi A. Ateş, Gönüllerin rahatı ve sevinç alâmeti, (TTK), 1957-1960, I-II.

Reşid ed-din. *Cami ut-tevârih,* yay. Quatremere, Paris, 1834, yay. Berezin, Petersburg, 1861, yay. Blochet, Paris, 1911, yay. K. Jahn, 1940-1941, yay. A.Ateş, Ankara, 1954-1960.

Şerafeddin Ali-i Yezdi. *Zafer-nâme,* Calcutta, 1887-1888, I-II, yay. Muhammed Abbasî, Tahran, 1336, I-II.

Şeref Han. *Şeref-nâme,* yay. V. Zernof, Petersburg, 1860, I-II, Kahire, 1930, I.

Şükrullah. *Behçet ut-tevârih,* Nurosmaniye ktp., nr. 3059, türkçe tercümesi N. Atsız, İstanbul, 1939.

*Tarih-i Şah İsmail-i sânı,* Bayezid Umumî ktp., nr. 1562.

*Tarih-i Şeyh Uveys,* tıpkı basım ve ingilizce tercümesi, Van Loon, Lahey, 1954.

Vassâf. *Tecziyet ul-emsâr,* tıpkı basım, Tahran, 1338 ş.

Zerkûb-i Şirâzî. *Şiraz-nâme,* yay. B.Kerîmî, Tahran, 1310 ş.

3. *Türkçe Eserler:*

Ahmedî. *İskender-nâme,* yay. N.S.Banarlı, Türkiyat Mecmuası, VI, s. 49-176, yay. N. Atsız, *Osmanlı tarihleri,* İstanbul, 1949, s. 3-35.

Anonim *Tevârih-i âl-i Osman,* yay. F.Giese, Breslau, 1922.

Aşık Paşa Zâde. *Tevârih-i âl-i Osman,* Ali Bey yay., İstanbul, 1332, N.Atsız yay. *Osmanlı tarihleri,* 1947. s.79-317.

Babûr. *Vekayi,* (TTK), Ankara, 1943-1948, I-II.

[Z.M.Babur. Baburnamə. Bakı, BXQR, 2011, 432 s.+32 s. Tərcümə edən, ön söz, qeyd və şərhlərin müəllifi Ramiz Əskər]

Celâl Zâde Mustafa. *Tabâkat-ul memâlik,* Millet ktp., nr.779.

Cevdet Paşa. *Tezâkir,* yay. Cavid Baysun, (TTK), Ankara, 1963.

Ebul-Gazi Bahadır Han. *Şecere-i Türk,* yay. P.Desmaisons, Amsterdam, 1970.

Enverî. *Dustur-nâme,* yay. M.Halil, İstanbul, 1929.

Kâtib Çelebi. *Fezleke,* İstanbul, 1287.

*Kenz ul-vekâyi.* Millet, Ali Emirî ktp., nr.490.

Lûtfî Paşa. *Tevarih-i âl-i Osman,* İstanbul, 1341.

Fındıklılı Mehmed Ağa. *Silâhdar tarihi,* yay. A.Refik, İstanbul, 1928, I-II.

Naima. *Tarih,* İstanbul, 1280, l-IV.

Neşrî. *Cihân-nûma,* yay. M.A.Köymen-F.R.Unat, Ankara, 1949-1957, I-II.

Osman. *Tevârih-i cedîd-i mir'at-ı cihan,* yay. N.Atsız, İstanbul, 1961.

Peçevî. *Tarih,* İstanbul, 1283.

Ruhî. *Tevârih-i âl-i Osman,* TTK kütüphanesindeki fotokopi.

Şikârî. *Karaman oğulları tarihi,* Konya, 1946.

Yazıcı-oğlu. *Selçuk-nâme,* Topkapı Sarayı, Revan Köşkü ktp., nr. 1390.

4. *Başka dillerdeki eserler:*

Moğolların gizli tarihi. [Çev.:Prof. Dr. Ahmet Temir. TTK, Ankara 1986].

[Monqolların gizli tarixi. Bakı, MBM, 2011, 360 s. Tərcümə edən, ön söz, qeyd və şərhlərin müəllifi Ramiz Əskər].

Anna Comnena. *Alexiade,* Paris, 1937-1940, I-II.

Arakel de Tavriz, yay. M.Brosset. *Collection d'historiens Armeniens,* Petersburg, 1874.

Aristages. *Historie d'Armenie,* fransızca tercümesi E.Prudhome, Paris, 1864.

Brosset M. *Histoire de la Georgie,* Petersburg, 1847-1858, l-V.

Constantine Porphyrogenitus. *De Administrando imperio,* ingilizce tercüme R.J.H. Jenkins, Dumbarton Oaks, 1967.

Ebûl-Ferec. *Tarih,* türkçe tercümesi O.R.Doğrul, (TTK), Ankara, 1945; *The chronography of Gregory Abul-Faraj,* London, 1932, II, ilâveler kısmı.

Mathieu. *D'Chronique de Mathie d'Edesse,* fransızca tercümesi E.Dulaurier. Paris, 1858, türkçe tercümesi H.D.Andreasyan, Ankara, 1962.

Michel le Syrien. *Chronique,* fransızca tercümesi J.Chabot, Paris, 1905, III,

Michel Panaretes. *Chronoque de Trebisond, Lebeau, Histoire du Bas-Empire,* Paris, 1836, XX.

Urfalı Vahram. *Kilikya kıralları tarihi,* türkçe tercümesi, H.D.Andreasyan, TTK kütüphanesi (henüz basılmamıştır).

Vardan. *Vekâyi-nâme,* türkçe tercümesi H.D.Andreasyan. *Türk fütuhat tarihi,* Tarih Semineri Dergisi 1/2, İstanbul, 1937.

## Ğ. COĞRAFYA KAYNAKLARI:

el-Birûnî. *Commemoration Volume,* İran Society, Calcutta, 1951.

el-Birûnî. *el-Asâr ül-bakiye,* yay. Ed. Sachau, Leipzig, 1878.

el-Birûnî. *Kitab ül-cemahir,* yay.Krenkov, Haydar-Âbad, 1937, I - II.

el-Birûnî. *el-Kanun ül-Mes'udi,* Haydar-Âbad, 1374, I - II.

el-Birûnî. *Tahdid-nihayât il-emakin,* Fatih ktp., nr. 3386.

el-Birûnî. *Kitab ül-tefhim,* farsça tercümesi, Tahran, 1318 ş.

el-Ömeri. *Mesâlik ul-ebsâr,* yay. F.Taeschner, Leipzig, 1929.

*Zeyn ul-ahbâr,* yay. V. Barthold, Petersburg, 1894; yay. A. Habibî, Tahran, 1347 ş.

Halil el-Zâhirî, *Zübdet ul-keşf il-memâlfk,* yay. R.Ravaisse, Paris, 1899.

Hamdullah-ı Mustevfî. *Nüzhet ul-kulûb,* yay. G. le Strange, (GMS), Leiden, 1915.

*Hudûd ul-âlem,* Tahran, 1340 ş., ingilizce tercümesi V.Minorsky, *The Regions of the world,* (GMNS), London, 1937.

İbn Havkal. *Kitab suret il-arz,* yay. J.H.Kramers, Leiden, 1938, I-II.

İbn Hurdadbih, *Kitab ul-mesâlik ve memâlik,* yay. M.J.De Geoje, (BGA), Leiden, 1889.

İbn Said. *Kitab bast il-arz,* Tetuan, 1958.

İbn ul-Fakih. *Muhtasar kitab il-buldân,* yay. M.J.De Goeje, (BGA), Leiden, 1885.

İdrisî. *Nuzhet ül-müştak*, Köprülü ktp., nr.955, fransızca tercümesi A.Jaubert, Paris, 1840, I-II.

İstahrî. *Kitabu mesâlik il-memâlik,* yay. M.J.De Goeje, (BGA), ikinci basım, Leiden, 1929.

Mehmed Âşık. *Menâzır ül-evâlim,* Nurosmaniye ktp., nr. 3033, 3426.

Katip Çelebi. *Cihan-numâ,* İstanbul, 1145.

Mervezî Şeref üz-zaman. *Tabâyi'ül-hayavân,* yay. ve ingilizce tercümesi V.Minorsky, London, 1942.

Mes'udî. *Murûc üz-zeheb,* yay. ve fransızca tercümesi Barbier de Maynard - Pavet de Courteille, Paris, 1891. I-VIII.

Mes'udî. *Kitab üt-tenbîh ve'l işrâf,* yay. M.J. De Goeje, Leiden, 1894.

Muhammed Necib Bekrân. *Cihân-nâme,* Moskova, 1960, yay. M.E.Riyahî, Tahran, 1342 ş.

Mukaddesî. *Kitâbu ahsen it-tekasim,* yay. M.J.De Goeje, (BGA), Leiden, 1906.

Yakubî. *Kitab ül-buldan,* yay. M.J.De Goeje, (BGA), Leiden,

Yakut. *Mu'cem ül-buldân,* yay. F.Wustenfeld, Leipzig, 1842, I-Vİ.

Zekeriya el-Kazvinî. *Âsâr ül-bilâd,* Beyrut, 1380.

## H. SEYAHAT-NÂMELER:

Bertrandon de la Broquiere. *Le voyage d'outremer,* yay. Ch. Sehefer, Paris, 1892.

Burnes A. *Voyage de l'embouchure de l'İndus â Lahour, Caboul, Balkh et Boukhara,* fransızca tercümesi, Paris, 1835, III.

De Busbeck O.G. ingilizce tercümesi *The Turkish letters,* Oxford, 1968, türkçe tercümesi H.C.Yalçın. *Türk mektupları,* İstanbul, 1939.

Evliya Çelebi. *Seyahat-nâme,* İstanbul, 1314, II-V, IX.

*Gazzî-Mekkî seyahat-nâmesi,* türkçe tercümesi E.Kâmil, Tarih Semineri Dergisi, İstanbul, 1937, 1/2.

Hamilton. *Researches in Asia Minor,* London, 1842, I-II.

İbn Battuta. *Tuhfet un-nuzzâr,* Kahire, 1322, türkçe tercümesi M.Şerif, İstanbul, 1335, I-II.

İbn Fadlân. *Rihle,* yay. A.Z.V.Togan, Leipzig, 1939, yay. S. ed-Dehhân, Dimaşk, 1959.

Clavijo R.G. *Embajada â Tamorlân,* yay. F.Lopez Estrada, Madrid, 1943, ingilizce tercümesi G.Lestrange. *Embassy to Tamerlane,* London, 1928.

Langlois V. *Voyage dans la Cilicie et dans les montagnes du Taurus,* Paris, 1861.

Marco Polo. *La description du monde,* fransızca tercümesi L.Hambis, Paris, 1955.

Moltke. *Türkiye'deki durum ve olaylar üzerine mektuplar,* türkçe tercümesi H.Örs, Ankara, 1960.

Niebuhr J. *Voyage en Arabie,* Amsterdam, 1776, I-II.

Rubruk W. *The journey of William of Rubruck,* ingilizce tercümesi W.W. Rockhill, London, 1900, Ch.Dawson yayını, *The Mongol mission,* London – New York, 1955.

Vâmbery A. *Travels in Central Asia,* London 1864.

İ. DESTANLAR:

*Danişmend-nâme,* Millet, Ali Emirî ktp., nr. 571, yay. İ.Melikoff, Paris, 1960.

*Dede Korkut,* yay. O.Ş.Gökyay, İstanbul, 1938.

*Dede Korkut kitabı,* yay. M.Ergin, Ankara, 1958 - 1963, I-II.

*İl-Kitab-ı Dede Qourqut,* tıpkı basım ve italyanca tercümesi E.Rossi, Vatikan, 1952.

*Kiiab-ı Dede Korkut,* yay. K.Rifat, İstanbul, 1332.

*The book of Dede Korkut,* İngilizce tercümesi F.Sümer - A.E.Uysal - W.S. Walker, Austin-London, 1972

Ebû'l Gazi. *Şecere-i Terâkime,* yay. AN.Kononof, Moskova-Leningrad, 1958.

Ebû'l Gazi. *Şecere-i Türk*, yay. ve fransızca tercümesi PL Desmaisons, Amsterdam, 1970.

*Oğuz Kağan Destanı,* yay. W.Bang - G.R.Rahmeti, İstanbul, 1936.

Orkun Hüseyin Namık. *Oğuzlar'a dâir,* Ankara, 1935 (kitabın sonunda eksik bir Oğuz Kağan destanı vardır).

Pertev Naili. *Kör-Oğlu destanı,* (Türkiyat Enstitüsü yayınlarından), İstanbul, 1931.

Reşid ud-dîn. *Cami ut tevarih, Tarih-i Türkan u Oğuz ve hikâyet-i cihangiri û* (Türklerin ve Oğuzun tarihi ve onun cihangirliğinin hikâyesi) bölümü, Topkapı Sarayı, Hazine ktp., nr. 1653, 375 b - 391 a; bu bölümün geniş bir tanıtması için: F. Sümer. *Oğuzlar'a ait destani mahiyette eserler,* Dil, Tarih-Coğrafya Fakültesi Dergisi, XVII, sayı 3 - 4, 1959, s.359-389. Türkçe tercümesi A.Z.V.Togan. *Oğuz destanı,* İstanbul, 1972. Almanca tercümesi K.Jahn. *Die Geschischte der Oğuzen des Rasîd ad-dîn,* Wien, 1963.

DİĞER KAYNAKLAR:

Baha ed-din Muhammed el-Bağdadî. *et-Tevessul il'et-Teressul,* yay. A, Behmenyâr, Tahran, 1315 ş.

Barkan, Ö.L. *Osmanlı imparatorluğunda ziraî ekonominin hukukî ve mali esasları,* Kanunlar, İstanbul, 1943.

Chavannes E. *Documents sur les Tou-kieu (Tures) Occidentaux,* Paris, 1941.

Devvâni Celâl ud-dîn. *Arz-nâme,* Millî Tetebbular Mecmuası, V, ingilizce tercümesi Minorsky, *A Civil and military review in Fars* in 881/1476, BSOAS, X. 1.

Ebû İshâk Hallâc. *Divan-i et'ime,* İstanbul, 1303.

Ebû Hayyân. *Kitab ul-idrâk li-lisân il-Etrâk,* yay. A.Caferoğlu, (Türkiyat Enstitüsü), İstanbul, 1931.

Feridun Beğ. *Münşeat us-seiâtin,* İstanbul, 1274, I-II.

El-Harizmi. *Mefatihu'l-ulûm,* yay.G.Van Vioten, Leyden, 1968.

İbn Hallikân. *Vefayât ul-â'yan,* Kahire, 1948, I-IV
Julien S. *Documents sur les Tou-Kieu* (Turcs), Journal Asiatique, 1864.
*Kanun-nâme-i âl-i Osman,* yay.M.Arif, Tarih-i Osmanî Encümeni Mecmuası ilâveleri.
Kâşgârlı Mahmud. *Divanu lugât it-Türk,* yay. K.Rifat, İstanbul, 1333-1335, I-III, türkçe tercümesi B.Atalay, (TDK), 1939-1941, I-IIl.
[Kaşğari Mahmud. *Divanü lüğat it-türk,* tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər. Bakı, Ozan, 2006, I-II-III-IV cildlər.]
*Kitabu icabet is-sâil,* Paris Bibliotheque Nationale, manuscrits arabs, nr. 4437.
Koçi Beg. *Risale*, yay, A.K.Aksüt, İstanbul, 1939.
Küçük Abdal. *Vilâyet-nâme-i Şâhi,* (Otman Baba vilâyetnâmesi), Ankara Millî Eğitim Bakanlığı ktp., nr. 5. A. 3/41.
*Muhtasar üt-Tahavih,* Kahire, 1370. m
Nâsir-i Husrev. *Divân,* Tahran, 1307.Ş.
Sâdikî-i Kitabdâr. *Mecma'ul-havass,* yay.A.Hayyampûr, Tebriz, 1327. ş.
*Salnâme-i umumî,* sene 1272.
*Vilâyet-nâme-i Hacı-Bektaş-ı Veli,* hazırlayan A.Gölpınarlı, İstanbul, 1958.

J. İNCELEMELER:

Akdağ M. *Celâli İsyanları,* Ankara, 1963.
Akdağ M. *Büyük Celâli karışıklıklarının başlaması,* (Atatürk Üniversitesi), Erzurum, 1963.
Akdağ M. *Medreseli isyanları,* İktisad Fakültesi Mecmuası, XI, s.361-387.
Akdağ M. *Yeniçeri ocak nizamının bozuluşu,* DTCFD, V, sayı 3, 8.291-313.
Aksu R. *İsparta ili yer adları,* İsparta, 1936.
Ali Rıza (Yalman-Yalgın), *Cenub'ta Türkmen oymakları,* İstanbul-Adana, 1931-1937, I-V.
Arat R.R. *Göklen,* İslâm Ansiklopedisi, IV, s.809-811.
Aslanapa O. *Türk sanatı,* İstanbul, 1984.
Banguoğlu T. *Oğuz lehçesi üzerine,* Türk Dili Araştırmaları Yıllığı, 1960, s.23-48.
Barkan Ö.L. *Tarihî demografya araştırmaları ve Osmanlı tarihi,* Türkiyat Mecmuası, İstanbul, 1953, X, 3.1-26.
Barthold V. *A History of the Turkman people,* ingilizce tercümesi V. ve T. Minorsky, *Four studies on the history of Central Asia,* Leiden, 1962, III., s.73-170.
Barthold V. *Orta Asya Türk tarihi hakkında dersler,* (Türkiyat Enstitüsü), İstanbul, 1927.
Barthold V. *Türkler'de ve Moğollarla defin merasimi meselesine dair,* türkçe tercümesi A.İnan, Belleten, XI, sayı 43, s.515-539.
Barthold V. *Turkestan down to the Mongol invasion,* (GMNS), London, 1928.
Baykal B.S. *Uzun Hasan'ın Osmanlılar'a karşı kati mücadeleye hazırladıkları ve Osmanlı-Ak-Koyunlu harbinin başlaması,* Belleten, XXI, sayı 83, s.261-284.
Bazin L. *Notes sur les mots "Oğuz"* et "*Türk",* Oriens, 1953, VI, s.315-322.
Bazin L. *Les Calendriers Turcs anciens et medivaux,* Lille, 1944.

Bretschneider E. *Mediaevel researches from Eastern Asiatic sources,* London, 1910, I-II.

Cahen CI. *Quelques textes negliges concernant les Turcoman de Rum au moment de l'invasion Mongle,* Byzantion, XIV, s. 131-139.

Cahen CI. *Le Malik-nâmeh et l'histoire des origines Seljukides,* Oriens, II, nr. 1, s.31-65.

Cahen Cl. *Pre-Ottoman Turkey,* London, 1968.

Çevik Hikmet. *Tekirdağ Yürükleri,* İstanbul, 1971.

Dahiliye Vekâleti. *Köylerimiz,* İstanbul, 1933.

De Groot. *Die Hunnen der vorchristlichen Zeit,* Berlin-Leipzig, 1921.

Demirtaş (Sümer) F. *Boz Ulus hakkında,* DTCFD, VII., sayı 1, s.29-60.

Demirtaş (Sümer) F. *Osmanlı devrinde Anadolu'da Kayılar,* Belleten, XII, sayı 47, s.575-615.

Deny, J. *Grammaire de la langue Turque,* Paris, 1921.

Diez E. *Türk sanatı,* türkçe tercümesi O.Aslanapa (İstanbul Üniversitesi Edebiyat Fakültesi), İstanbul, 1946.

Dunlop D.M. *The History of Jewish Khazars,* Princeton, 1954.

Erzi A. *Ak-Koyunlu ve Kara-Koyunlu tarihi hakkında araştırmalar,* Belleten, XVIII, sayı 70, s.179-221.

Gabain von A. *Das Uigurische Königreich von Chotscho (850-1250),* Berlin, 1961.

Gabain von A. *Das Leben Uigurischen König reich von Qoco (850-1250),* Wiesbaden, 1973.

Gabriel A. *Voyages archeologiques dans la Turquie orientate,* Paris, 1940.

Govern W.H.Mc. *The Early empires of central Asia,* Chpel Hill, 1939.

Gökbilgin T. *Rumeli'de Yürükler, Tatarlar ve Evlâd-ı Fatihan,* (İstanbul Üniversitesi Edebiyat Fakültesi), İstanbul, 1957.

Hamilton J. *Toquz-Oğuz et On-Uygur,* Journal Asiatique, 1962, s.23-63.

Hamilton J. Les *Ouîghours â l'epoque des cinq dynasties d'apres les documents chinois,* Paris, 1955.

Hasluck F.W. *Christianity and Islam under the sultans,* Oxford, 1929, I-II.

Heyd W. *Histoire du commerce du Levant,* Paris, 1959, I-II.

İçişleri Bakanlığı. *Türkiye'de meskûn yerler kılavuzu,* Ankara, 1946-48, I-II.

İnan A. *Altay dağlarında bulunan eski Türk mezarları,* Belleten, XI, sayı 43, s.569-570.

İnan A. *Altay'da Pazırık hafriyatında çıkarılan atların vaziyetinin Türklerin defin merasimi bakımından izahı,* TTK Kongresi, İstanbul, 1943.

İnan A. *Gazi Antep'te Elbeyliler,* Halk Bilgisi Haberleri, sayı 40, s.73-75.

İnan A. *Gazi Antep'te Türkmenler,* Halk Bilgisi Haberleri, sayı 102, s.137-151.

İnan A. *Orun ve ülüş meselesi,* Türk Hukuk ve İktisat Tarihi Mecmuası, İstanbul, 1931, s.121-133.

İnan A. *Tarihte ve bugün Şamanizm,* Ankara, (TTK.), 1945.

İrtem S.K. *Türk kemankeşleri,* İstanbul, 1939.

Jirmunskiy V.M. *Sirderya boyunda Oğuzlar'a dair izler,* türkçe tercümesi İ.Kaynak, Belleten, XXV, sayı 99, s.471-483.

Kadıoğlu L. *Balıkesirde Çepniler,* Balıkesir, 1935.

Kafesoğlu İ. *Ahlat ve çevresinde 1945'te yapılan tarihi ve arkeolojik tetkik seyahati raporu,* Tarih Dergisi, I, sayı 1, s.168-190.

Kafesoğlu İ. *Doğu Anadolu'ya ilk Selçuklu akını ve tarihi ehemmiyeti,* Köprülü Armağanı, s.259-274.

Kafesoğlu İ. *Harizmşahlar devleti tarihi,* (TTK), Ankara, 1956.

Kafesoğlu İ. *Selçuklular,* İslâm Ansiklopedisi, X. s.353-416.

Kafesoğlu İ. *Selçuk'un oğulları ve torunları,* Türkiyat Mecmuası, XIII, s.117-130.

Kafesoğlu, İ. *Sultan Melik-Şah Devrinde Büyük Selçuklu İmparatorluğu,* İstanbul, 1953.

Kesrevî A. *Şehryâran-i gumnâm,* Tahran, 1308 s., I-III.

Keyhan M., *Coğrafya-yi mufassal-i İran,* Tahran, 1311 ş., III.

Köprülü M.F. *Altın küpeli Oğuz beyleri,* Azerbaycan Yurt Bilgisi, İstanbul, 1932, II, s.10-21.

Köprülü M.F. *Azeri,* İslâm Ansiklopedisi, II, s.118-151.

Köprülü M.F. *Avşar,* İslâm Ansiklopedisi, II, s.28-38.

Köprülü M.F. *Oğuz etnolojisine ait tarihi notlar,* Türkiyat Mecmuası, I, 1925, s. 185-211.

Köprülü M.F. *Halaç,* İslâm Ansiklopedisi, V, s.109-116.

Köprülü M.F. *Les origines de l'empire Ottoman.* Paris, 1935, türkçe tercümesi, *Osmanlı imparatorluğunun kuruluşu.* Ankara, 1984.

Köprülü M.F. *Osmanlı imparatorluğunun etnik menşei meseleleri,* Belleten, VII, s.219-313.

Köprülü M.F. *Ozan,* Azerbaycan Yurt Bilgisi, 1932, II, s.133-140.

Kurat A.N. *Peçenek tarihi,* İstanbul, 1937.

Kurat A.N. *Gök Türk kağanlığı*, DTCFD, 1952, X, sayı 1-2.

Kurat A.N. *XVII-XVIII. Yüzyıllarda Karadeniz kuzeyindeki Türk kavimleri ve devletleri,* DTCF yayınları, Ankara, 1972.

Köymen M.A. *Büyük Selçuklu imparatorluğumun kuruluşu,* DTCF Dergisi, XV., sayı 1-2, s.98-191, sayı 4, s.106, XVI, sayı 3-4, s. 1-65.

Köymen M.A. *Büyük Selçuklu imparatorluğunda Oğuz İstilası,* DTCFD, V, sayı 2, s. 159-466.

Köymen M.A. *Büyük Selçuklu imparatorluğu tarihinde Oğuz istilası,* aynı dergi, V, sayı 5, s.521-560.

Köymen M.A. *Selçuklu devri türk tarihi,* Ankara, 1963.

Laurent J. *Byzances et les Turcs Seljoucides,* Nancy, 1913.

Liu mau-isai, *Die Chinesischen Nachrichten zur Geschichte Der Ost-Türken* (Tu kue), Wiesbaden, 1958, I-II.

Le Strange G., *The Lands of the eastern caliphate,* Cambridge, 1930.

Mackerras C.; *The Uighur empire,* according to the Tang dynastic histories, Colombia, south Carolina s.c, 1973.

Minorsky V. *The Clan of the Qara-Qoyunlu rulers,* Köprülü Armağanı, s.391-395.

Minorsky V. *Jihânshâh Qara-Qoyunlu and his poetry,* BSOAS, XVI, s.271-297.

Minorsky V. *Hudûd al-âlam* (The Regions of the World) (GMNS), London, 1937, izahlar kısmı.

Mirza Seyyid. *Edibü'ş-şuara Tarih-i Afşar,* Tebriz 1345 fransızca kısa tercümesi, Nikitine. *Les afşar d'Urumiyeh, Journal Asiatique,* 1929, s.67-123.

Orhonlu Ç.: *Osmanlı imparatorluğunun aşiretleri iskân teşebbüsü,* (İstanbul Üniversitesi Edebiyat Fakültesi yayınlarından), İstanbul, 1963.

Ögel B. *İslâmiyetten önce Türk kültür tarihi,* (TTK), Ankara, 1962.

Ögel B. *Şine-Usu yazıtının tarihi önemi,* Beileten, XV, sayı, 59, s.361-379.

Ögel B. *Türk Kültürünün gelişme çağları*, (TDAV), İstanbul, 1988.

Özbaş Ö. *Gazi Antep dolaylarında Türkmenler ve Baraklar,* (Gazi Antep Kültür Derneği), Gazi Antep, 1958.

Pristak O. *Kara-Hanlılar,* İslâm Ansiklopedisi, VI, s.251-272.

Pulleyblank E.G. *Some remarks on the Toquz oghuz problem,* Ural - Altaische Jahrbücher, 1958, XXVIII, s.35-42.

Rene Graut. *L'Empire des Turcs celestes,* Paris, 1960.

Rene G. *L'Empire des steppes,* Paris, 1948.

Rudenko S. *Frozen tombs of Siberia,* ingilizce tercümesi M.W. Thompson, Berkeley-Los Angeles, 1970.

Schuyler E. *Turkestan,* London, 1876, I-II.

Sinor D. *Oğuz Kağan destanı üzerine bazı mülâhazalar,* türkçe tercümesi A.Ateş, İstanbul Üniversitesi Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi, VI, sayı; 1-2, s.1-14.

Sümer F. *Ağaç-Eriler,* Belleten, XXVI, sayı: 103, s.521-528.

Sümer F. *Anadolu'ya yalnız göçebe Türkler mi geldi?* Belleten, XXIV, sayı 96, s.567-594.

Sümer F. *Avşarlara dâir,* Köprülü Armağanı, s.453-478.

Sümer F. *Azerbaycan'ın türkleşmesi tarihine umumi bir bakış,* Belleten, XXI, sayı 83, s.429-447.

Sümer F. *Bayatlar,* İstanbul Üniversitesi, Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi, IV, s.373-389.

Sümer F. *Bayındır, Peçenek ve Yüregirler,* DTCFD, XI, s.317-344.

Sümer F. *Boz-Oklu Oğuz boylarına dâir,* DTCF D, XI, 8.85-103.

Sümer F. *Çukur-ova Tarihine dâir araştırmalar,* Tarih Araştırmaları Dergisi, 1963, I, s. 1-108.

Sümer F. *Anadolu'da Moğollor,* Selçuklu Araştırmaları Dergisi, Ankara, 1969, 1, s.1-14.

Sümer F. *Safevî devletinin kuruluşu ve gelişmesinde Anadolu Türklerinin rolü* (Selçuklu Tarih ve Medeniyeti Enstitüsü), Ankara, 1976.

Sümer F. *Eski Türklerde şehircilik,* TDAV, İstanbul, 1984.

Sümer F. *Dögerler'e dâir,* Türkiyat Mecmuası, X, s.139-158.

Sümer F. *Oğuzlar'a ait destanı mahiyette eserler,* DTCFD, XVII. sayı s. 359-455.

Sümer F. *XVI. asırda Anadolu, Suriye ve Irak'ta yaşayan Türk aşiretlerine umumi bir bakış,* İktisat Fakültesi Mecmuası, XI, no.1-4, s.509-522.

Sümer F. *Osmanlı devrinde Anadolu'da yaşayan Üç-Oklu Oğuz boylarına mensup teşekküller,* İktisat Fakültesi Mecmuası, XI, no.1-4, s.437-508.

Sümer F. *Yıva Oğuz boyuna dâir,* Türkiyat Mecmuası, IX, s. 151-168.

Sümer F. *Türklerde atçılık ve binicilik,* (TDAV), İstanbul, 1983.

Sümer F. *Tokuz Oğuzlar,* İslâm Ansiklopedisi, XII, s.420-427.

Şahin A. *Güney Anadolu'da Beğ Dili Türkmenleri ve Baraklar,* Ankara, *1962.*

*Tanıkları ile tarama sözlüğü,* (TDK), Ankara, 1943-1957, I-IV,

Şölen H. *Aydın ili ve Yürükler,* Aydın, 1945.

Toros T. *Dadal-Oğlu,* Adana, 1940.

Trabzonlu Şâkir Şevket. *Trabzon tarihi*, İstanbul, 1294.

Turan O. *Eski Türkler'de okun hukukî bir sembol olarak kullanılması.* Belleten, XXXV.

Turan O. *Selçuklular tarihi ve Türk İslam medeniyeti.* İstanbul, 1980.

Turan O. *Selçuklular zamanında Türkiye,* İstanbul, 1971.

Turan Ş. *Kanuni'nin oğlu şehzade Bayezid vak'ası,* Ankara, 1961.

Uzunçarşılı İ. *Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri,* (TTK), Ankara, 1937.

Uzunçarşılı İ. *Kapıkulu ocakları,* (TTK), Ankara, 1943.

Uzunçarşılı İ. *Osmanlı devletinin saray teşkilâtı,* (TTK), Ankara, 1945.

Uzunçarşılı İ. *Osmanlı devleti teşkilâtına medhal,* (TTK), İstanbul, 1941.

Uzunçarşılı İ. *Osmanlı Tarihi*, (TTK), Ankara, 1946-1954. I-IV.

Ünver S. *Fâtih devri yemekleri,* (İstanbul Üniversitesi Tıp Tarihi Enstitüsü), İstanbul, 1952.

Ülkütaşır M.Ş. *Cerabulus çevresinde Türkmen aşiretleri,* Halk Bilgisi Haberleri, sayı 121, s.12-14.

Wang-Yen-Te. *Relation d'un voyage official dans le pays des Ouigurs,* (de 981-983) par Wang-Yeng-Te, Fransızca tercümesi S.Julien, JA, 1847, IX, s.50-66. Türkçe tercümesi, Ö.İzgi, Çin elçici Wang Yen-Te'nin *Uygur seyahatnamesi,* (TTK), Ankara, 1889.

Wittek P. *De la defaite d'Ankara â la prise de Constantinople,* Revue *des etudes Islamiques,* 1938, I, türkçe tercümesi H.İnalcık, Belleten, VII, sayı 27, s.557-589.

Wittek P. *The Rise of the Ottoman empire,* London, 1958.

Wittek P. *Osmanlı imparatorluğu'nda Türk aşiretlerinin rolü,* türkçe tercümesi E.Kuran, Tarih Dergisi, XIII, sayı 17-18, s.257-268.

Yalgın A.R. *Anadoluda Türk damgaları*, Bursa, 1943.

Yinanç M.H. *Ak-Koyunlular,* İslâm Ansiklopedisi, I, s.251-270.

Yinanç M.H. *Cihan-Şah,* İslâm Ansiklopedisi, III, s.173-189.

Yinanç M.H. *Türkiye tarihi, Selçuklular devri, Anadolu'nun fethi,* (İstanbul Üniversitesi Edebiyat Fakültesi), I, İstanbul, 1944.

## R a m i z  Ə S K Ə  R

10 yanvar 1954-cü ildə Amasiya rayonunun Qaraçanta kəndində müəllim ailəsində anadan olmuşdur. M.V.Lomonosov ad. Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir (1978).



Azərbaycan radiosunda redaktor (1978-83), türk, ərəb, fars, Azərbaycan, ingilis, fransız və alman dillərində çıxan «Azərbaycan bu gün» jurnalının baş redaktoru (1983-84), kiril, latın və ərəb əlifbaları ilə nəşr olunan «Odlar yurdu» qəzetinin baş redaktoru (1984-91), «Hürriyyət» qəzetinin (İstanbul) Azərbaycan üzrə xüsusi müxbiri (1991-93), Xarıci Turizm Şurasının idarə rəisi (1993-94), «XXI əsr» qəzetının baş redaktoru (1994-96), «Yeni Forum» jurnalının (Ankara) Bakı təmsilçisi (1993-97) olmuşdur. 1997-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin baş katibidir. 2003-ci ildən Bakı Dövlət Universitetinin müəllimi, bədii tərcümə elmi-tədqiqat laboratoriyasının baş elmi işçisi-müdiri olmuşdur. 2012-ci ildən isə BDU-nun türk xalqları ədəbiyyatı kafedrasının müdiridir. Filologiya elmləri doktorudur.

Azərbaycanın «Qızıl qələm», «Həsən bəy Zərdabi», «Humay», Türkiyənin «Türk dünyasına xidmət», Türkmənistanın «Altın əsr» və TürkSOY-un «Özəl ödül» mükafatları laureatıdır. «Baburnamə»nin tərcüməsinə görə Özbəkistanın beynəlxalq Babur mükafatına, Bəkir Çobanzadənin əsərlərinin tərcüməsinə görə Ukraynanın beynəlxalq Bəkir Çobanzadə mükafatına, Abdulla Tukayın şeirlərinin tərcüməsinə görə Tatarıstanın «Mədəniyyət sahəsində uğurlar» medalına layiq görülmüşdür. Yazıçılar və Jurnalistlər Birliklərinin, Beynəlxalq Mətbuat İnstitutunun (İPİ, Vyana) üzvü, Azərbaycanın Əməkdar jurnalistidir.

Türkologiya, ədəbiyyat, tarix və jurnalistıkaya dair kitablar yazmış, türk, rus, özbək, qazax, uyğur, türkmən, tatar, qaqauz dillərindən tərcümələr etmişdir. Avrasiya Tərcüməçilər Birliyinin (Ankara) sədri seçilmişdir (2010).

**Monoqrafiyaları:**

1. İqlimdən-iqlimə, təqvimdən-təqvimə. Bakı, İşıq, 1987,104 s.
2. Qutadğu bilig. Bakı, Elm, 2003, 320 s.
3. Mahmud Kaşğari və onun «Divanü lüğat-it-türk» əsəri. Bakı, MBM, 2008, 432 s.
4. Mahmud Kaşğarinin 1000 illik yubileyinə 1000 biblioqrafik göstərici. Bakı, MBM, 2008, 96 s.
5. Mahmud Kaşğarinin «Divanü lüğati-it-türk əsəri üzrə biblioqrafik və qrammatik göstərici. Bakı, MBM, 2008, 192 s.
6. Mahmud Kaşğari və onun «Divanü lüğat-it-türk» əsəri. Bakı, MBM, 2009, 532 s.
7. Mahmud Kaşğarinin «Divanü lüğat-it-türk» əsərinin tədrisi. Bakı, MBM, 2010, 112 s.
8. Tük xalqları ədəbiyyatı oçerkləri. Bakı, MBM, 2011, 320 s.
9. Orxon abidələri. Bakı, Elm və təhsil, 2012, 272 s.

**Nəşr edilmiş tərcümələri:**

1. Azərbaycan Masalları. Bakı, Yazıçı, 1982, 196 s.
2. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1991, 248 s.
3. Faruq Sümər. Oğuzlar. Bakı, Yazıçı, 1992, 432 s.
4. Yusif Balasağunlu. Qutadğu bilig. Bakı, Azərnəşr, 1994, 492 s.
5. Murad Tağı. Həyatım. Bakı, Oka Ofset, 1998, 92 s.
6. Erik Fichtelius. Jurnalistiqanın on qızıl qaydası. Bakı, AJB, 2002, 192 s.
7. Bahəddin Ögəl. Türk mifologiyası. Bakı, Səda, 2004, I cild, 626 s.
8. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, I cild, 512 s.
9. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, II cild, 400 s.
10. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, III cild, 400 s.
11. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, IV cild, 752 s.
12. N.Ozerov. İlham Əliyev: Mən Azərbaycanıma inanıram. Bakı, Azərnəşr, 2007, 376 s.
13. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, I том, 512 с.
14. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, II том, 400 с.
15. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, III том, 492 с.
16. Oraz Yağmur. Qarabağlı ananın ağısı. Bakı, MBM, 2009, 84 s.
17. XX əsr özbək şeiri antologiyası. Bakı, MBM, 2009, 96 s.
18. Molla Nəfəs. Bu məqana gəlmişəm. Bakı, MBM, 2010, 160 s.
19. Molla Nəfəs. Seçilmiş əsərləri. Bakı, MBM, 2010, 240 s.
20. Todur Zanet. Ana dilim. Bakı, MBM, 2010, 104 s.
21. Məxdumqulu Fəraqi. Seçilmiş əsərləri. Bakı, MBM, 2010, 448 s.
22. Türk ədəbiyyatı tarixi. Bakı, MBM, 2010, I cild, 602 s.
23. Türk ədəbiyyatı tarixi. Bakı, MBM, 2010, II cild, 658 s.
24. Nurməhəmməd Əndəlib. Şeirlər. Poemalar. Dastanlar. Bakı, MBM, 2011, 292 s.
25. Zəhirəddin Məhəmməd Babur. Seçilmiş əsərləri. Bakı, MBM, 2011, 328 s.
26. Sultan Hüseyn Bayqara. Divan. Bakı, MBM, 2011, 248 s.
27. Abdulla Tukay. Millətim. Bakı, MBM, 2011, 268 s.
28. Abdulla Tukay. Seçilmiş əsərləri. Bakı, Nağıl evi, 2011, 268 s.
29. Mehri Xatun. Divan. Bakı, MBM, 2011, 368 s.
30. Zəhirəddin Məhəmməd Babur. Baburnamə. Bakı, BXQR, 2011, 432+32 s.
31. Qurbanqulu Berdimühəmmədov. Axaltəkə atı – iftixarımız və şöhrətimiz. Bakı, CBS, 2011, 232 s.

32. Türkmən şeiri antologiyası. Bakı, MBM, 2011, 400 s.

33. Abdulla Şahbəndə. Seçilmiş əsərləri. Bakı, MBM, 2011, 104 s.

34. Türkmən müəmmaları, deyişmələri və vücudnamələri. Bakı, MBM, 2011, 128 s.

35. Monqolların gizli tarixi. Bakı, MBM, 2011, 360 s.

36. Əli Ağbaş. Seçilmiş şeirləri. Bakı, Elm və təhsil, 2011, 150 s.

37. Bəkir Çobanzadə. Seçilmiş şeirləri. Bakı, Nurlan, 2011, 160 s.

38. Bəkir Çobanzadə. Seçilmiş bədii əsərləri. Bakı, BXQR, 2012, 240 s.

39. Dövlətməmməd Azadi. Seçilmiş əsərləri. Bakı, BXQR, 2012, 264 s.

40. Qleb Qolubev. Uluğbəy (çap prosesindədir).

Evli və üç övlad atasıdır.

Türkcə, rusca, almanca və ermənicə bilir.

e-mail: <ramizasker@gmail.com>

# MÜNDƏRİCAT:

Prof. Dr. Faruq Sümər: həyatı, şəxsiyyəti və əsərləri
(Ramiz ƏSKƏR) ..........................................................................................3
Ön söz.....................................................................................................11
Giriş... ...................................................................................................14

I hissə
OĞUZLARIN TARİXİ.................................................................................28
A. Oğuzlar haqqında ən qədim məlumatlar..................... ..........................28
1. Oğuz adının etimologiyası.............................................................28
2. Barlıq çayı sahilində yaşayan oğuzlar..........................................30
3. Tula boyunda oğuzlar......................................................................31
Oğuzlar göytürklərin hakimiyyəti altında.........................................38
Oğuzlar uyğurlar dövründə...............................................................43
B. Oğuzlar IX-XI əsrlərdə............................................ ..........................50
1. Oğuzların vətəni..............................................................................56
2. Oğuzların həyat tərzi.......................................................................59
3. Oğuzların iqtisadi həyatı.................................................................64
4. Oğuzların dini inamları...................................................................65
5. Oğuzların digər adət və ənənələri...................................................67
6. Oğuzların islam dinini qəbul etməsi...............................................70
7. Oğuz yabğu dövləti.........................................................................72
8. Uzların başına gələnlər...................................................................78
C. Səlcuqlu dövlətinin qurulması..............................................................79
Ç. Səlcuqlular dövründə oğuzlar (türkmənlər)................... ......................105
1. Mavəraünnəhr...............................................................................121
2. Manqışlaq.......................................................................................122
3. Balxan.............................................................................................122
4. Xorasan............................................................................................122
Səncəri əsir alan oğuzlar..................................................................123
5. Kirman.............................................................................................131
6. Fars və Xuzistan..............................................................................134
7. Kürdüstan.........................................................................................135
8. Azərbaycan və Aran........................................................................136
9. İraq və Cəzirə..................................................................................139
10. Suriya.............................................................................................140
11. Anadolu..........................................................................................141

Monqol istilasından sonra türkmənlər...........................................144
1. Xəzərarxası türkmənlər.............................................................145
2. İran...........................................................................................148
3. Monqol dövründə və ondan sonra Anadolu...............................159
4. Hələb türkmənləri......................................................................175
5. Çuxurova...................................................................................176
6. Atçəkənlər və qonşu oymaqlar..................................................178

II hissə
BOY TƏŞKİLATI VƏ BOYLAR............................................................196
1. Kayı...........................................................................................211
2. Bayat.........................................................................................216
3. Alka bölük..................................................................................228
4. Qara bölük.................................................................................229
5. Yazır..........................................................................................230
6. Döyər.........................................................................................232
7. Dodurğa.....................................................................................240
8. Yaparlı.......................................................................................242
9. Əfşar.........................................................................................242
10. Kızık.........................................................................................270
11. Bəydili......................................................................................272
12. Karkın......................................................................................283
13. Bayındır...................................................................................286
14. Peçeneq...................................................................................288
15. Çavuldur..................................................................................291
16. Çəpni.......................................................................................293
17. Salur........................................................................................294
18. Eymür (eymir).......................................................................... 306
19. Ala-yundlu................................................................................309
20. Yürəgir.....................................................................................311
21. İğdır.........................................................................................313
22. Bügdüz.....................................................................................314
23. Yıva..........................................................................................315
24. Kınık.........................................................................................322
III hissə
DASTANLARI .................................................................................. 326
1. Dastanların yazıldığı zaman.......................................................329
2. Dastan qəhrəmanları harada və nə zaman yaşamışlar................333
3. Qəhrəmanların müsəlmanlığı....................................................338
4. Dastanların mövzusu.................................................................338
5. Qəhrəmanlar..............................................................................342

6. İqtisadi həyatları....................................................................342
7. Siyasi təşkilat..........................................................................344
8. Ordalar......................................................................................351
9. Ailə həyatı..................................................................................352
10. Ordu........................................................................................355
11. Minicilik....................................................................................356
12. Geyim.......................................................................................357
13. Ovçuluq....................................................................................358
14. Əyləncələr................................................................................359
15. Davranışları.............................................................................360
16. Dastanların əhəmiyyəti..........................................................364
XÜLASƏ................................................................. ..........................366
XVI ƏSRDƏ ANADOLUDA OĞUZ BOYLARINA
AİD YER ADLARI..............................................................................369
YER ADLARI SIRASINA GÖRƏ OĞUZ BOYLARI. ..........................398
TÜRKMƏNYMAQLARI İLƏ İLGİLİ SİYAHILAR.............................399
BİBLİOQRAFİYA..............................................................................435

**TÜRKSOY**

ULUSLARARASI TÜRK KÜLTÜRÜ TEŞKİLATI
İNTERNATİONAL ORGANİZATİON OF TURKİC CULTURE

**TürkSOY kitabxanası seriyası: 25**

AMEA Folklor İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Türkcədən çevirən,
ön söz, qeyd və şərhlərin müəllifi:
Prof. Dr. Ramiz ƏSKƏR

Redaktor:
Akad. İsa HƏBİBBƏYLİ

**Faruq Sümər. Oğuzlar (Türkmənlər). Tarixləri. Boy təşkilatı. Dastanları. Bakı, MBM, 2013, 456 səh.**

Kompüter dizayneri: Elçin
Kompüterdə yığdı: Solmaz Əskərova
Korrektor: Leyla
Texniki redaktor: Aytən

---

Çapa imzalandı: 10.01.2013
Həcmi: 28,5 çap vərəqi
Formatı: 64x80 1/8
Tirajı: 2.500 ədəd
MBM mətbəəsində
çap olundu